*1918-ci ildə Xalq Cümhuriyyəti, Azərbaycanın ilk demokratik hökuməti dövlət quruculuğu işini çox mürəkkəb və çətin bir dövrdə apardığı zaman Silahlı Qüvvələrin yaranmasına və ordu quruculuğuna xüsusi əhəmiyyət vermiş, qayğı göstərmişdir. Xalq Cümhuriyyətinin iki illik tarixini bu gün vərəqləyərkən ordu quruculuğu sahəsində nə qədər dəyərli işlər gördüyü, doğrudan da, böyük hörmət hissi doğurur.*

*Xalq Cümhuriyyətinin mövcud olduğu 1918–1920-ci illərdə Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski və digər peşəkar hərbçilərin rəhbərliyi altında yüksək intizama və hərbi hazırlığa malik, döyüş qabiliyyətli milli ordu hissələri formalaşdırılmışdı. Azərbaycanın yeni yaradılmış ordusu Ermənistanın təcavüzünün qarşısının alınması, Qarabağda və digər ərazilərdə separatçı hərəkatların yatırılması və ölkə sərhədlərinin qorunmasında mühüm rol oynamış, öz hərbi qabiliyyətini nümayiş etdirə bilmişdi.*

***Heydər Əliyev,***
***Azərbaycan xalqının Ümummilli Lideri***

**AZƏRBAYCAN RESPUBLİKASI**
**SİLAHLI QÜVVƏLƏRİNİN HƏRBİ AKADEMİYASI**

**MEHMAN SÜLEYMANOV**

# Azərbaycan Ordusunun tarixi

## II CİLD

(noyabr 1918 – aprel 1920)

*Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının Elmi Şurasının 27 iyul 2016-cı il tarixli 5 nömrəli qərarı ilə çapa tövsiyə* olunub.

MAARİF nəşriyyatı

**Bakı – 2018**

Baş məsləhətçi: **Heydər Piriyev**, general-leytenant

Elmi redaktorlar: **Ataxan Paşayev,** tarix elmləri doktoru

**Pərvin Darabadi** tarix elmləri doktoru, professor

Rəyçilər: **Firdövsiyyə Əhmədova**, tarix üzrə fəlsəfə doktoru

**Şəmistan Nəzirli**, jurnalist-tədqiqatçı

**Mehman Süleymanov. Azərbaycan Ordusunun tarixi. II cild**
**Bakı. "Maarif" nəşriyyatı. 2018. 728 səh.**

Kitab Azərbaycan Xalq Cümhuriyyəti Ordusu quruculuğunun ikinci dövrünün araşdırılmasına həsr edilmişdir. 1918-ci ilin noyabrında Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyinin bərpa olunması, bu Nazirliyin rəhbərliyi altında müstəqil ordunun təşkilatlanması və onun Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsi kitabda geniş şəkildə öz əksini tapmışdır.

**İSBN: 978-9952-37-139-0**

# GİRİŞ

Təqdim olunan bu kitab 1918-ci ilin noyabr ayından 1920-ci il aprel ayının sonlarına, Azərbaycanın XI Ordu tərəfindən işğal edildiyi tarixə qədər olan dövrü əhatə edir. Bu dövr Azərbaycanın ordu quruculuğu tarixinin çox əhəmiyyətli bir dövrünü təşkil edir.

Müstəqil Azərbaycan Ordusunun yaradılması, möhkəmləndirilməsi və real qüvvəyə çevrilməsi 1918–1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin çox mühüm və sanballı səhifələrindən birini təşkil edirdi. Çünki istiqlaliyyətin elan edildiyi elə ilk günlərdən ordunun qurulması dövlət və hökumət orqanlarının diqqət mərkəzində dayanırdı və qarşıya qoyulan məqsədə çatmaq üçün ölkənin bütün imkanları səfərbər edilmişdi. Bu da təsadüfi deyildi. Uzun illərdən sonra dövlətçiliyini bərpa etmiş Azərbaycan xalqının taleyi, onun istiqlaliyyətinin sabahı, əslində, müstəqil ordunun təşkili səviyyəsi ilə birbaşa bağlı idi.

Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunun ilk aylarında ordu quruculuğu Azəbaycana dəvət olunmuş türk hərbi kontingentinin köməyi ilə aparılırdı. Lakin Birinci Dünya müharibəsinin nəticələrinə görə türk hərbi qüvvələri Azərbaycanı tərk edəndə milli ordunun təşkilatlandırılması işi bütünlüklə Azərbaycan hökuməti üzərinə düşdü və 1918-ci il noyabr ayının ilk günlərindən başlayaraq bu proses bütünlüklə Azərbaycan hökuməti və Azərbaycan zabit heyəti tərəfindən həyata keçirilməyə başlandı.

Milli ordunun təşkilatlandırılması üçün Azərbaycanda mövcud olan hərbi-siyasi şərait son dərəcə mürəkkəb idi. Konkret tarixi şəraitdə Azərbaycanın istiqlaliyyətinə, onun ərazi bütövlüyünə qarşı istiqamətlənmiş olan xarici təhlükələrin qarşısını güclü ordu olmadan almaq mümkün deyildi. Ordu xalqın nicatı, əmin-amanlığının dayağı olmalı idi və ardıcıl şəkildə həyata keçirilən quruculuq işləri çox qısa zaman ərzində xalqın qüruruna və iftixarına layiq olan güclü ordunun meydana çıxması ilə nəticələndi. Aradan xeyli vaxtın keçməsinə baxmayaraq, bu ordunun şərəfli tarixi öz əhəmiyyətini nəinki itirməmiş, əksinə, onun ətraflı araşdırılması, mahiyyətinə nüfuz edilməsi böyük bir zərurət kəsb etmişdir.

Xüsusilə Azərbaycanın yenidən müstəqilliyə qovuşması, onun Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edilməsi istiqlal mübarizəsinin tarixi səhifələrinin yeni ideya-məfkurə baxımından öyrənilməsini, onun ayrılmaz qolu olan ordu quruculuğunun tədqiq edilməsini, Cümhuriyyət ordusu ilə müasir ordu arasında bir körpü və bağlılıq yaradılmasını tələb edir.

Göstərilən tarix çərçivəsində Azərbaycanda ordu quruculuğunun öyrənilməsi, ilk növbədə, Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Dövrün ictimai, siyasi və hərbi şəraiti araşdırılmadan Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin öyrənilməsi də bütöv olmazdı.

1918–1920-ci illər Azərbaycan tarixinin öyrənilməsi Azərbaycanın ümumi tarixinin öyrənilməsi baxımından da qiymətlidir. Tədqiq olunan dövr Azərbaycanın uzunillik tarixinin çox maraqlı səhifəsini təşkil edir və vaxt ötdükcə bu dövrə maraq daha da artmaqdadır. Müstəqil şəkildə yaşamaq müstəqillik tarixini öyrənmədən, ondan ibrət götürmədən mümkün deyil.

Cümhuriyyət ordusunun tarixinin öyrənilməsi, heç şübhəsiz ki, Azərbaycanın hərb tarixinin öyrənilməsi baxımından da əhəmiyyət kəsb edir. Cümhuriyyət ordusunun təşkili Azərbaycanın hərb tarixində yeni bir mərhələdir və bu mərhələ lazımınca öyrənilərək Azərbaycan tarixində öz şərəfli yerini tutmalıdır.

Cümhuriyyət ordusunun tarixinin öyrənilməsi bugünkü ordu quruculuğu üçün də praktiki əhəmiyyətə malikdir. Bir sıra problemlərin Cümhuriyyət dövründə qoyuluşu və həlli, o cümlədən ordu və dövlət orqanları arasında qarşılıqlı əlaqələrin səviyyəsi və səmərəliliyi, Hərbi Nazirliyin rəhbərliyinin izlədiyi xəttin ardıcıllığı, qətiyyəti, təlim və tərbiyənin qurulması prinsipləri, mənəvi tərbiyənin aparılması, şəxsi heyətə qarşı tələbkarlıqla qayğının əlaqələndirilməsi və s. öz metodoloji əhəmiyyətini indi də itirməmişdir. Həmin təcrübənin nəzərə alınması və yaradıcı şəkildə inkişaf etdirilməsi müstəqil ordu quruculuğunda ənənəçiliyin canlandırılmasını şərtləndirə bilər.

Cəmiyyət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğunun da özünəməxsus obyektiv qanunauyğunluqları vardır və bu qanunauyğunluqlara riayət edilməməsi ordunun

formalaşdırılmasında ciddi çətinliklərin ortaya çıxması ilə şərtlənə bilər. Bütün dövrlərdə, bütün ordular üçün ümumi olan qanunauyğunluqlar, eyni zamanda, milli ənənələrdən, xalqın mənəvi potensialından, ölkənin iqtisadi, siyasi, demoqrafik imkanlarından, coğrafi vəziyyətindən və s. irəli gələn xüsusiyyətləri istisna etmir. Ordu quruculuğu üçün ümumi cəhətlər çoxluq təşkil etsə də, hər bir ölkədə bu prosesin həmin ölkəyə xas olan xarakterik xüsusiyyətlərini də görmək mümkündür. Azərbaycan Xalq Cümhuriyyəti ordusunun qısa vaxt ərzində formalaşmasının əsas səbəblərindən biri də bu idi ki, həmin prosesə rəhbərlik edən şəxslər ümumi nəzəri dəyərlər və əldə olan təcrübə ilə ordu quruculuğunun Azərbaycan şəraitindən irəli gələn xüsusiyyətlərini çox incəliklə və üzvi şəkildə birləşdirə bilmişdilər. Ordu quruculuğunun türk və Rusiya təcrübəsinin güclü təsirə malik olmasına baxmayaraq, Azərbaycanda milli zəminə dayaqlanan bir ordu formalaşdırılmışdı və proseslərin sonrakı inkişafı da qonşu dövlətlərin ordu quruculuğu təcrübəsinin kor-koranə təkrarlanmamasının doğruluğunu təsdiqləyirdi.

Azərbaycan Ordusunun təşkili Səməd Mehmandarov, Əliağa Şıxlinski kimi sərkərdələrin və onların ətrafına toplaşmış olan məsləkdaşlarının Azərbaycan xalqı qarşısında gördükləri böyük işdir, xalqın qəhrəmanlıq tarixinə yazılmış olan sədaqətli və yaradıcı xidmətin bariz nümunəsidir. Bu şəxsiyyətlərin təşkilatçılıq fəaliyyəti, heç bir ənənəyə və bazaya malik olmadan qısa vaxt ərzində güclü ordu yarada bilmələri özü də bir təcrübə məktəbidir, Vətən və xalq yolunda yorulmaz fəaliyyət üçün bir örnəkdir.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə müraciət edən çox az tədqiqatçı tapmaq olar ki, bu və ya digər şəkildə Azərbaycan Ordusuna toxunmasın, bu ordunun formalaşması və fəaliyyət prosesinə öz münasibətini bildirməsin. Bu tədqiqatçıların müəyyən bir hissəsi, xüsusilə sovet dövrü tarixçiləri sovet ehkamlarını əsas tutduqlarından, sözsüz ki, onların qənaətlərini obyektiv saymaq olmaz. Digər tərəfdən, mövzuya toxunanlar hərbçi olmadıqlarından və ya bu elm sahəsinin xüsusiyyətlərini bilmədiklərindən Azərbaycanda ordu quruculuğuna qeyri-obyektiv meyarlar çərçi-

vəsindən qiymət vermişlər ki, bu da onları həqiqətlə səsləşməyən nəticələrə gətirib çıxarmışdır.

Bu baxımdan sovet tarixşünaslığında çox tez-tez təsadüf edildiyi kimi Cümhuriyyət ordusu ilə bolşevik ordusunun qarşı-qarşıya qoyulması, bolşevik ordusuna müqavimət göstərə bilmədiyi üçün Cümhuriyyət ordusunun zəifliyi və ya böhranı barədə qənaət çıxarılması da yanlış təsəvvürlərdən başqa bir şey deyildir. Cümhuriyyət ordusunun qiyməti onun özündən müqayisəsiz dərəcədə üstün olan düşmən qarşısında geri çəkilməsi ilə yox, konkret tarixi şəraitdə, məhdud imkanlar daxilində, qısa vaxt ərzində formalaşması və real qüvvəyə çevrilməsi ilə müəyyənləşməlidir.

Bu məsələlərin aydınlaşdırılması, əsaslandırılması və ictimaiyyətə çatdırılması da Cümhuriyyət ordusu tarixinin daha geniş tədqiqini zəruri edir. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bu istiqamətdə xeyli işlər görülmüşdür. Təqdim olunan bu kitab Cümhuriyyət ordusunun formalaşmasının ikinci dövrünü, yəni Osmanlı hərbi qüvvələrinin Azərbaycan ərazisini tərk etməsindən sonrakı dövrü əhatə edir.

Bu dövrün başlıca xüsusiyyəti ondan ibarətdir ki, həmin proses bütünlükdə dövlət quruculuğunun tərkib hissəsinə çevrildi və dövlətin ciddi qayğısı altına götürüldü. Nəticədə qısa müddət ərzində görülmüş olan işlər, həyata keçirilmiş olan tədbirlər öz məntiqi nəticəsini verdi və yeni, müstəqil Azərbaycan Ordusu formalaşdı.

Yeni şəraitdə Azərbaycan dövlətinin ordu quruculuğunun qanunvericilik bazasının yaradılması istiqamətində qəbul edilən qərarlar, ordu ilə dövlət qurumları arasında qarşılıqlı əlaqələrin tənzimlənməsi üçün atılan səmərəli addımlar, ölkənin bütün potensialının ordu quruculuğuna və ərazi bütövlüyünün qorunmasına səfərbər edilməsi Azərbaycanın hərb tarixi üçün də qiymətli bir mirasdır.

Bu qiymətli mirasın öyrənilməsi üçün kifayət qədər zəngin mənbələr, xatirələr və tarixi ədəbiyyat da mövcuddur. Aparılan araşdırmalar da yeni-yeni mənbələrin üzə çıxmasına səbəb olur. Bütün bunlar isə Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixinin daha əhatəli şəkildə öyrənilməsinə zəmin yaradır.

# I FƏSİL

# ORDU QURUCULUĞUNUN YENİ MƏRHƏLƏSİ

## *1. Azərbaycan hökumətinin ordu quruculuğu siyasəti*

1918-ci ilin payızında Azərbaycanda çox mürəkkəb ictimai-siyasi və hərbi şərait mövcud idi. Bakının azad edilməsi uğrunda aparılan döyüşlər yenicə başa çatmış, respublika hökuməti də təzəcə Bakı şəhərinə köçmüşdü. Ağır müharibənin izləri bütün sahələrdə hiss olunurdu. İqtisadiyyat bərbad vəziyyətdə idi. Digər sahələr də yenidən dirçəldilməli və xalqın mənafelərinə cavab verən səviyyəyə qaldırılmalı idi. Dövlətin siyasi idarəetmə sistemində bir boşluq qalmaqda davam edirdi. Milli Şura buraxıldıqdan sonra Azərbaycan hökuməti həm qanunvericilik, həm də icra funksiyalarını öz üzərinə götürmüşdü. Ölkənin ərazi bütövlüyünə mövcud olan təhdidlər aradan qalxmamışdı. Zəngəzur və Qarabağda, habelə Lənkəran bölgəsində separatçı qüvvələr Azərbaycanın dövlət müstəqilliyini heç bir vəchlə tanımaq istəmirdilər. Birinci Dünya müharibəsinin nəticələrinə əsasən türk hərbi qüvvələri Azərbaycanı tərk etməli olduqları bir vaxtda digər sahələrdə olduğu kimi hərbi sahədə də respublika hökumətinin qarşısında ciddi vəzifələr dayanırdı. Həmin vəzifələrin həlli, bütünlükdə ölkənin ərazi bütövlüyünün təmin edilməsi və respublikanın suverenliyinin qorunması üçün hazırlıqlı ordu isə formalaşmamışdı. Məlumdur ki, Azərbaycan hökumətinin ilk kabinəsində Hərbi nazir postu nəzərdə tutulmuşdu. Lakin mövcud tarixi şəraitdə bu Nazirlik formalaşdırılmadan ləğv edildi. Azərbaycan Ordusunun təşkilinə rəhbərlik Qafqaz İslam Ordusu komandanına həvalə edildi və müstəqil Azərbaycan Ordusunun təşkilinin ilkin işləri də Qafqaz İslam Ordusunun tərkibində aparıldı. Görülən müəyyən işlərə baxmayaraq, 1918-ci ilin payızında mövcud olan milli ordu qüvvələri heç də Azərbaycanın müstəqilliyini qorumaq imkanına malik deyildilər.

1918-ci ilin oktyabr ayında Birinci Dünya müharibəsi cəbhələrində Türkiyənin vəziyyəti pisləşməyə başlayanda Azərbaycanın milli ordu qüvvələrinin formalaşdırılmasına daha ciddi diqqət

yetirilməsinin zəruriliyi aydınlaşdı. Bunun nəticəsi idi ki, oktyabr ayının sonlarına yaxın, hələ Mudros sülh müqaviləsi imzalanmamışdan əvvəl Azərbaycan hökuməti öz iclaslarından birində Hərbi Nazirliyin yenidən yaradılmasını məqsədəuyğun bildi. Bu barədə rəsmi qərar isə 1918-ci il noyabr ayının 1-də qəbul edildi. Qərarda deyilirdi: «Respublika hökumətinin yanında Hərbi Nazirlik təsis edilsin. Nazir portfeli Nazirlər Şurasının sədrinə təqdim edilsin. Onun müavini isə S.S.Mehmandarov təyin edilsin» (1). Həmin qərara əsasən Azərbaycanda ordu quruculuğu tamamilə milli qüvvələrin öhdəsinə buraxıldı və bu qərarla, əslində, ordu quruculuğunun yeni bir səhifəsi açıldı.

Hökumətin qərarında iki məqam diqqəti cəlb edir. Onlardan biri Hərbi nazir portfelinin hökumətin sədrinə, yəni Fətəli xan Xoyskiyə təqdim edilməsidir. Hərbi mütəxəssis olmayan hökumət sədrinin, eyni zamanda, Hərbi Nazirliyə rəhbərliyi öz üzərinə götürməsi, heç şübhəsiz ki, ordu quruculuğuna hökumətin verdiyi dəyərdən, müstəqilliyin qorunması üçün son dərəcə əhəmiyyət kəsb edən bu prosesin hökumətin daimi nəzarəti altında saxlaması istəyindən irəli gəlirdi. İkinci məqam isə Hərbi Nazirliyin və bütünlükdə milli ordu qüvvələrinin formalaşdırılmasına müstəqimən rəhbərlik edəcək nazir müavini vəzifəsinin çar Rusiyası ordusunun tam artilleriya generalı Səməd bəy Mehmandarova həvalə edilməsi idi. Çar Rusiyası ordusunda xidmət edən azərbaycanlılar arasında ilk dəfə belə yüksək rütbəyə layiq görülən S.Mehmandarov bolşevikləşmiş orduda xidmətdən istefa verdikdən sonra yenicə Bakıya gəlmişdi. Əlahiddə Azərbaycan korpusu tərkibində bir sıra təcrübəli hərbçilərin olmasına baxmayaraq, məhz S.Mehmandarovun ilkin olaraq Hərbi nazirin müavini təyin edilməsi və ordunun formalaşdırılmasının da ona tapşırılması hökumətin hərbi kadr seçiminə son dərəcə ciddi və diqqətlə yanaşmasını nümayiş etdirirdi.

Lakin çox tezliklə orduya professional rəhbərliyin zəruriliyi aydın oldu və hökumətin 25 dekabr 1918-ci il tarixli qərarı ilə Səməd bəy Mehmandarov Hərbi nazir vəzifəsinə təyin olundu (2). Heç şübhəsiz ki, qısa müddət ərzində S.Mehmandarov yüksək peşəkarlığı ilə bərabər, Azərbaycanın müstəqilliyinə olan sədaqətini



Fətəli xan Xoyski (1918-ci il noyabr ayının 1-dən dekabrın 25-dək Hərbi nazir vəzifəsini icra etmişdir)



Hərbi nazir Səməd bəy Mehmandarov

də nümayiş etdirdi və buna görə də S.Mehmandarov bu yüksək dövlət postunu tutmağa layiq görüldü. O, bu yüksək vəzifədə son dərəcə səmərəli fəaliyyət göstərdi və bunun nəticəsi idi ki, Cümhuriyyətin mövcudluğu dövründə hökumət kabinəsinin tərkibi bir neçə dəfə dəyişsə də, S.Mehmandarov Hərbi nazir vəzifəsində xidmətini davam etdirdi.

Qısa müddət ərzində Azərbaycanın ordu qüvvələrinin formalaşdırılması üçün Hərbi Nazirlik və respublika hökuməti son dərəcə mürəkkəb problemlərin həlli ilə üzləşməli oldu. Siyasi, iqtisadi, hərbi xarakterli bu problemlərdən biri də I Dünya müharibəsinin nəticələrinə görə bölgədə və respublikada yaranan hərbi-siyasi şərait və o cümlədən müttəfiq dövlətlərin adından ingilis hərbi qüvvələrinin Azərbaycana yeridilməsi idi. Mudros sülh müqaviləsinin 14-cü maddəsinə əsasən bölgəyə yeridilən ingilis qüvvələri Azərbaycanı da nəzarət altına almalı idilər (3).

Müttəfiq dövlətlərin missiyası hələ Azərbaycana gəlməmişdən əvvəl məlum idi ki, burada yeni bir vəziyyət formalaşacaqdır və Azərbaycanda dövlət quruculuğu və müstəqil ordunun təşkili həmin missiya ilə qurulacaq münasibətlərin xarakterindən asılı olacaqdır. Müttəfiq dövlətlər adından Azərbaycana gəlmiş hərbi qüvvələrə rəhbərlik Şimali İrandakı Böyük Britaniya qüvvələrinin komandanı general-mayor Tomsona həvalə edilmişdi. Nəzərdə tutulmuşu ki, onun rəhbərliyi altında olan hərbi qüvvələr 1918-ci il noyabrın 17-də Bakıya daxil olsun.

Yaranmış yeni şəraitdə Azərbaycan hökuməti ölkənin müstəqilliyinin möhkəmləndirilməsində tarixi rol oynamış türk hərbi qüvvələrinin dərhal və bütünlüklə Azərbaycandan çıxarılmasını tələb edən müttəfiq qüvvələrin komandanlığı ilə qarşılıqlı işgüzar münasibətlər formalaşdırmağa çalışırdı. F.Xoyski 1918-ci il noyabrın 16-da general Tomsona göndərdiyi teleqramında onun rəhbərliyi altında olan qüvvələrin Bakıya daxil olmasına Azərbaycan hökumətinin etiraz etmədiyini bildirməklə, həmin qüvvələrin Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün pozulmasına istiqamətlənməyəcəyinə də ümidvar olduğunu bildirirdi (4).

1918-ci il noyabr ayının 17-də Bakıya daxil olan kimi general Tomson müttəfiq dövlətlər adından bəyanat verdi. Bəyanatda bil-

dirilirdi ki, Bakı şəhəri müttəfiq dövlətləri təmsil edən Böyük Britaniya qoşunları tərəfindən tutulur və onu Bakıya səfərində Fransa və Amerika nümayəndələri müşayiət edirlər. Generalın sözlərinə görə hərbi qüvvələrin Bakıya gəlməsində əsas məqsəd qayda-qanunun və nizam-intizamın bərpasına mane olan alman və türk mərkəzlərini uzaqlaşdıraraq sakitliyi bərqərar etməkdir. Bəyanatda daha sonra deyilirdi: «Bizim bütün xalqlara və məzhəblərə münasibətimiz tamamilə bərabər olacaqdır. Mənim tərəfimdən müvəqqəti yerli və şəhər idarələri təsis ediləcəkdir. Bununla belə, bizim səylərimiz ümumilikdə qayda-qanunun və nizam-intizamın bərpasına yönələcəkdir…

Təcili olaraq aşağıda göstərilən zəruri tədbirlər tətbiq edilməlidir:

1. Şəhərdə yaşayan və bunun nəticəsində qoşunun mühafizəsi altında olan şəxslər onlarda olan bütün tüfəng və tapançaları elan ediləcək müddətdə yerlərdə hakimiyyət orqanlarına təhvil verməlidirlər;

2. Türk qoşunları tərəfindən boşaldılmış şəhər rayonlarında qalan türk və alman vətəndaşlarının hakimiyyət orqanlarına təhvil verilməsinə görə mükafat təyin olunacaqdır;

3. Şəhərdə hərbi vəziyyət elan olunur və bu vəziyyət mülki orqanlar tərəfindən ictimai nizam-intizamın bərqərar edilməsi məsuliyyətini qoşunlardan öz üzərinə götürmək iqtidarına malik olacağı vaxta qədər qüvvədə qalacaq» (5).

Bakı şəhərində hərbi vəziyyətin tətbiq edilməsi ilə bağlı general Tomsonun 1918-ci il noyabrın 17-də imzaladığı qərarda isə bildirilirdi ki, hərbi vəziyyətin mövcudluğu dövründə şəhərin hərbi general-qubernatoru vəzifəsini öz üzərinə götürür. Polkovnik F.Kokkorel isə müttəfiq dövlətlərin Bakı şəhərindəki polis komissarı vəzifəsinə təyin olundu (6).

Sonrakı bir neçə gün ərzində general Tomson tərəfindən elan olunmuş hərbi vəziyyətin tələblərini müəyyənləşdirən bir sıra qərarlar imzalandı. Bu qərarlar şəhər ictimaiyyəti ilə bərabər hərbi qulluqçuların da xidmətinin icrasına və hərəkət sərbəstliyinə müəyyən məhdudiyyətlər gətirdi. Məsələn, noyabrın 19-da imzalanmış məcburi qərarla general Tomson tərəfindən vəkil edilmiş şəxsin yazılı razılığı olmadan şəhərdə kimsənin soyuq və odlu si-

lah gəzdirməsinə icazə verilmirdi. Müttəfiq dövlətlərin hərbçiləri və Tomsonun razılığı ilə şəhərdə olan rus zabitləri tələb etdiyi anda silah gəzdirən şəxslər yazılı razılıq kağızını təqdim etməli idilər. Əks təqdirdə, icazəsiz gəzdirilən silahlar müsadirə olunmalı və ya vəziyyətə uyğun olaraq bu barədə qərar qəbul olunmalı idi. Ona görə də şəhər əhalisindən tələb olunurdu ki, sahib olduqları silahları müttəfiq dövlətlərin polis komissarlarının dəftərxanasında qeydiyyatdan keçirsinlər. Qərarda ona da işarə olunurdu ki, yalnız ayrı-ayrı şəxslərə silah gəzdirmək icazəsi verilə bilərdi. Əhali öz silahlarını yaşayış yeri üzrə polis məntəqələrinə təhvil verməli idi. Təhvil verilən silah əvəzində qəbz alınmalı idi və şəhərdə hərbi vəziyyət ləğv edildikdən sonra silah sahibləri həmin qəbz əsasında öz silahlarını geri ala bilərdilər. Qərara görə silahlar noyabr ayının 22-də axşam saat 6-ya qədər təhvil verilməli idi (7).

Noyabrın 22-də imzaladığı başqa bir bir məcburi qərarında isə general Tomson bütün hərbi qulluqçulara da silah gəzdirməyi qadağan etdi. Belə bir hüquqa yalnız Britaniya hərbi polisinin xidmətçiləri malik idi. Bu tələbə riayət etməyən əsgər və matroslar hərbi səhra məhkəməsinə verilə və hətta ölüm cəzası ilə cəzalandırıla bilərdi. Bakı şəhəri daxilində silah işlədən və güllə atan şəxsləri də hərbi səhra məhkəməsinin mühakiməsi gözləyirdi. Ölüm cəzasına layiq görülənlərin cəzalandırılması isə ictimaiyyətin gözü qarşısında həyata keçirilməli idi. Hərbi qulluqçulara, eyni zamanda, İçərişəhərdə, Aşağı Çəmbərəkənd, Vrangel, Bazar, Şah, 1-ci Konstantin, Qoqol və Yuxarı Bulvar küçələrindən qərbdə hərəkət etmək qadağan olunurdu (8).

General Tomsonun hərbçilərə qarşı tətbiq etdiyi qadağalar bununla bitmirdi. Azərbaycanın milli ordu qüvvələrinin və onun rəhbər strukturlarının Bakıda yerləşməsini general Tomson müttəfiq dövlətlərin maraqlarına təhlükə kimi qəbul edirdi. Ona görə Azərbaycan hökuməti qarşısında Bakıdakı milli hərbi qüvvələrin və Hərbi Nazirliyin aparatının şəhərdən çıxarılması tələbi qoyuldu. Bu tələb əsasında Hərbi Nazirlik 1918-ci il noyabr ayının 22-də Gəncəyə köçdü (9). İngilis komandanlığı Hərbi Nazirliyin Bakıdan kənarda fəaliyyət göstərməsinə etiraz etmirdi. Bununla belə, Hərbi Nazirliyin Gəncəyə köçürülməsi onun fəaliyyətində

müəyyən çətinliklər yaradırdı. Azərbaycanda rabitənin və nəqliyyatın lazımi səviyyədə inkişaf etmədiyi bir vaxtda hökumət kabinəsinə daxil olan Hərbi Nazirliyin paytaxtdan uzaqda fəaliyyət göstərməsi hökumətlə əlaqələrin operativliyinə mənfi təsir göstərirdi. Bu isə qarşıya qoyulan məqsədlərin əldə edilməsi üçün həm Hərbi Nazirliyin, həm də hökumətin rəhbərliyindən əlavə səylər tələb edirdi. Bununla belə, hökumət rəhbərliyi Hərbi Nazirliklə hökumət arasında qarşılıqlı işgüzar əlaqələrin tənzimlənməsi üçün konkret addımlar atdı. Hər şeydən əvvəl isə ordu quruculuğunun dövlət siyasəti müəyyənləşdirildi, bu prosesin məqsəd və vəzifələri aydınlaşdırıldı.

Azərbaycan hökuməti ordu quruculuğuna rəhbərlik edəcək orqanları yaratmaqla bərabər, bu orqanların öz fəaliyyətində rəhbər tutmalı olacaqları xətti də işləyib hazırladı. Həmin xəttə əsasən ordu quruculuğu bir tərəfdən ümumdövlət quruculuğunun tərkib hissəsi kimi qəbul edilir və bu prosesə ümumdövlət mənafelərindən yanaşılırdı. Müstəqil bir dövlətin müstəqil orduya malik olması bu dövlətin mövcudluğunun qorunmasının başlıca qarantı kimi dəyərləndirilirdi. Digər tərəfdən də Cümhuriyyət ordusu hər hansı bir təcavüzkar məqsədlər üçün deyil, konkret tarixi şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması üçün etibarlı bir qüvvə hesab edilirdi. Azərbaycan Ordusunun üzərinə düşən bu vəzifə hökumət tərəfindən də kifayət qədər dəqiqliklə müəyyənləşdirilmiş və xalqa bəyan edilmişdi.

1918-ci il dekabrın 7-də açılmış Parlamentin ilk iclasında respublika hökumətinin sədri F.Xoyski özünün hesabat xarakterli çıxışında müstəqil bir dövlətin müstəqil orduya malik olmasının zəruriliyinə toxunmuşdu. O bildirirdi ki, istiqlaliyyət elan edildikdən sonra ölkə daxilində əmin-amanlığın yaradılması üçün lazımi imkanlar yox idi. Nə zəruri qüvvələr mövcud idi, nə də onların təchiz edilməsi üçün silah. Ölkənin müdafiəsinin təşkili üçün bu zaman Türkiyəyə müraciət edildi və türk hərbi qüvvələri onlara bağlanılan ümidləri doğrultdu. Yəni hökumət sədri bildirirdi ki, ölkənin müdafiəsini öz üzərinə götürəcək qüvvələr təşkil olunmalı idi və ilk aylardan başlayaraq onların yaradılması istiqamətində işlər görüldü (10).

Parlamentin 26 dekabr 1918-ci il tarixli iclasında isə hökumətin sədri F.Xoyski ölkədə müstəqil ordu quruculuğunun məqsəd və vəzifələrini daha konkret ifadə etdi və millət vəkillərinə çatdırdı. O, xüsusilə vurğulayırdı ki, ölkənin suverenliyinin qorunması üçün milli müdafiə qüvvələri təşkil olunmalıdır və buna nail olunması üçün hökumət tərəfindən artıq lazımi tədbirlər həyata keçirilməkdədir. Onun sözlərinə görə hətta qarşıya çıxan problemlərin sülh yolu ilə həlli mümkün olsa belə müdafiə qüvvələrinin təşkilinə diqqət azaldılmamalıdır: «…Amma sülh ilə əmələ gətirmək o deyildir ki, hökumət özü üçün bir qüvvə hazırlamayacaq. Gərək hər bir dövlət daima özünü müdafiə etmək üçün qüvvə hazırlasın. Ona görə bizim də həm xarici düşmənlərimizə qarşı, bizim istiqlalımıza hücum edənlərə qarşı müdafiə edəcək bir qüvvəmiz olsun. Keçmişdə sabiq hökumət belə bir qüvvə təşkili üçün çalışmışdır. Bunun üçün bir təşkilat, bir hazırlıq yapmışdır. İş başında adam qoymuşdur. Şükürlər olsun ki, bir az vaxtdan sonra bunlar əmələ gələcəkdir. Keçmişdə xətalar olmuşsa, şimdidən sonra heç bir xəta olmamalıdır. Əsgəri  qüvvə təşkili üçün lazımi tədbirlər ittixaz edilmişdir» (11).

Parlamentin 20 dekabr 1918-ci il tarixli iclasında isə F.Xoyski bildirirdi ki, Azərbaycan təcavüzkar siyasətin tərəfdarı deyildir və silahlı qüvvələri yaratmaqda da məqsəd öz siyasətini təcavüzkarlıq yolu ilə həyata keçirmək deyil. Azərbaycan hökuməti bölgədə sülhün tərəfdarıdır. Ordu yalnız Azərbaycana qarşı təcavüz olduğu təqdirdə silahlı mübarizəyə cəlb ediləcəkdir: «…Azərbaycan hökuməti nə keçmişdə, nə də indi ixtilaflı məsələləri silah gücü ilə həll etmək arzusunda olmamışdır. Hərgah belə məsələnin həlli üçün silaha sarılmaq lazım gəlmiş isə də biz özümüz deyil, bizi məcbur etmişlər. …Lazımi təqdirdə silaha sarılsaq, hamı bunu bilir ki, bizi belə vəsiləyə əl uzatmağa məcbur ediblər. Hökumət tərəfindən ərz edirəm ki, mümkün qədər zərərsiz, qansız, sülh ilə hər bir məsələni xitama yetməsinə çalışmaq. Hökumət şimdi də belə müamilədə bulunacaqdır. Əks təqdirdə, hökumət özü öz gücü ilə, qüvvəsi ilə Azərbaycan hökumətini hər bir təcavüzdən  mühafizə edəcəkdir» (12).

Ordu quruculuğu sahəsində hökumət tərəfindən müəyyənləş-

dirilən siyasət Parlamentdə təmsil olunan milli qüvvələr tərəfinndən də qətiyyətlə müdafiə olunurdu. Belə milli qüvvələr müstəqil milli ordu qurulmasını Azərbaycanın istiqlaliyyətinin qarantı kimi qəbul edir və bunu öz çıxış və bəyanatlarında da ifadə edirdilər. «Müsavat» partiyasının lideri M.Ə.Rəsulzadə Parlamentin ilk iclaslarının birində verdiyi bəyanatında ordunun qurulmasını hökumətin və xalqın qarşısında dayanan başlıca vəzifələrdən biri kimi dəyərləndirirdi: «Əlbəttə, unutmamalıdır ki, hökumət qurmaq bir tərəfdən xalqın etimadını qazanmaqla olursa, digər tərəfdən dəxi … qüvvəyə istinad etməkdə olur. Bunun üçün də əsgəri təşkilata son dərəcədə əhəmiyyət verilməlidir. Dövlətin xaricən müdafiəsi, daxilən müsaliməti bunu iqtiza edir» (13).

«Əhrar» fraksiyasının Parlamentdə verdiyi bəyanatda isə güclü və sağlam milli ordu milli istiqlalın birinci sütunu kimi dəyərlədirilirdi. Bəyanatda bidirilirdi ki, Azərbaycana sahib olmağın ən real yollarından biri milli ordunun qurulmasıdır. Güclü ordu, fraksiya tərəfindən millətin əmin-amanlıq içində tərəqqiyə doğru inkişafının əsası sayılırdı: «İstiqlaliyyəti-milliyyənin birinci sütunu ədd olunan sağlam və müdhiş bir orduya malik olmasıdır, ümumən məlumdur ki, yeni doğulmuş əsgəri təşkilatımız aqilanə bir surətdə icra edilməklə bərabər, bir çox təbii və ərazi fəlakətlərə uğrayıbdır. Buna görə camaatımız bu işdən mütəəffir olubdur. Əsgərlik vəzifəsi vətənin ən müqəddəs olduğunu nəzərdə tutub, yeni təşkilati əsgəriyyə mükəmməl bir əsgəri qanuna düzüb qoşmalıdır. Əsgərlərin yeyəcəyinə, yatacağına, libasına və həkim dərmanına böyük diqqət yetirilməldir, dövlətliyə, fəqirə, kiçiyə təfavüt qoymamalıdır. Bu qədər bilməlidir ki, bizləri Azərbycana sahib edəcək qüvvə bizim milli ordumuz olacaqdır. Ordu sağlam və möhkəm bir qüvvə təşkil edirsə, hökumət də ona istinadən iş görə bilər, millət də onun sayəsində tərəqqiyə üz tutub mədəni millətlər sırasına keçir» (14).

Parlamentdə təmsil olunmuş bitərəf millət vəkilləri də qüvvətli ordunu istiqlaliyyətin dayağı hesab edir və onun qurulmasını hökumətin başlıca vəzifələrindən biri kimi qəbul edirdilər. Onların adından verilmiş bəyanatda deyilirdi: «Tez bir zamanda istiqlalımızı müdafiə edə biləcək qüvvətli ordu təşkil edilsin» (15).

Milli ordunun tez bir zamanda formalaşmasını, əslində, Parlamentdə təmsil olunan bütün milli qüvvələr və ictimaiyyət də tələb edirdi. Xüsusilə respublika Parlamentinin işə başladığı günlərdə Qarabağda vəziyyətin mürəkkəbləşməsi, quldur Andronikin Qarabağda silahsız azərbaycanlı əhaliyə qarşı qanlı faciələrə əl atması müdafiə qüvvələrinin tezliklə formalaşmasını daha da aktuallaşdırırdı. «İttihad» partiyasının lideri Qarabəy Qarabəyli Parlamentdə çıxışı zamanı digər milli qüvvələr kimi ordunun formalaşdırılmasını zəruri saydı və mövcud tarixi şəraitdə hökumətin bu məsələyə daha çox diqqət ayırmasının vacibliyini vurğuladı. Onun fikrincə, ölkə Parlamenti də bu məsələdə fəallıq göstərməli və müdafiə qüvvələrinin formalaşmasını nəzarət altında saxlamalı idi. Q.Qarabəylinin bu istəklərinə münasibətini bildirən F.Xoyski qeyd edirdi ki, ordunun yaradılması hökumətin qarşısında dayanan əsas vəzifələrdən biridir və onun həyata keçirilməsi üçün müəyyən addımlar atılmışdır. F.Xoyski bu istiqamətdə həyata keçirilən tədbirlərin biri kimi ordunun təşkili işlərinin məşhur general S.Mehmandarova tapşırılmasını xatırladırdı. Hökumətin sədri onu da əlavə edirdi ki, ordu qurulması uzun sürən bir prosesdir və bunun üçün zəruri olan maliyyəni hökumət əsirgəmir (16).

Azərbaycanın dövlət və hökumət nümayəndələri müxtəlif siyasi cərəyan və hərəkatların ordu quruculuğuna öz siyasi maraqları mövqeyindən müdaxilə etməsini, ordu daxilində öz siyasi məqsədlərinə dayaq axtarmalarını yolverilməz sayırdılar. Qırmızı bolşevizmin, denikinçi qüvvələrin ordu daxilində Azərbaycanın müstəqilliyinə əks olan təbliğatın gücləndirilməsinə, ordunun şəxsi heyətinin siyasi baxışlarına görə qruplaşmasına çalışdığı bir dövrdə bu məsələ xüsusi bir aktuallıq kəsb edirdi. Cümhuriyyət hökuməti ordu quruculuğunu müstəqil dövlət quruculuğunun tərkib hissəsi kimi dəyərləndirərək onun daxilində hər hansı bir qüvvənin ümumdövlət maraqlarına qarşı çıxmasını, ordunun şəxsi heyətinin siyasətə qarışmasını mümkünsüz hesab edirdi. Ordunun siyasətə qarışmaması prinsipi Cümhuriyyət ordusu quruculuğunun mühüm prinsiplərindən biri idi və bütün səviyyələrdə bu prinsipə riayət olunmasına cəhd göstərilirdi. Hökumətin sədri F.Xoyski Parlamentin ilk iclasındakı çıxışında onu da bildirirdi ki, qarşıda

dayanan ilk və ən başlıca vəzifə Azərbaycanın müstəqilliyidir (17). Azərbaycanın bütün orqanları və strukturları da məhz bu ümummilli vəzifələrin ətrafında birləşmişdi. Nəzərdə tutulmuşdu ki, ordu heç bir siyasi cərəyana qoşulmamaqla hökumətə hansı siyasi qüvvələrin rəhbərlik etməsindən asılı olmayaraq məhz bu ali vəzifənin reallaşmasına çalışmalıdır. Parlamentin sədr müavini H.Ağayev gənc zabitlərlə görüşündə belə deyirdi: «Siz bizim ordumuza qatılacaq, dirilik suyu kimi onu canlandıracaqsınız. İnanıram ki, müəllimləriniz və komandirləriniz tərəfindən aşılanan Azərbaycanın müstəqilliyi ideyasından ruhlanaraq bu ideyanı bizim ordumuza da təlqin edəcəksiniz. Bu ideyadan kənarda bizim milli qurtuluşumuz yoxdur. Siyasətdən kənarda olmaqla inanıram ki, siz hamınız yalnız gənc ordumuzun möhkəmləndirilməsinə və bununla da bizim gənc, müstəqil dövlətimizin möhkəmləndirilməsinə xidmət edəcəksiniz» (18).

Ordunun siyasətə qarışmaması, ordu daxilinə müxtəlif siyasi qüvvələrin nüfuz etməsinin qarşısının alınması zəruriliyi ilə bağlı hökumətin tutduğu mövqe Hərbi Nazirliyin rəhbərliyi tərəfindən də əsas götürülür və belə bir mövqe şəxsi heyətə də təlqin edilirdi. Hərbi nazir S.Mehmandarov bildirirdi ki, müxtəlif məqsədlərə yox, məhz Azərbaycanın istiqlaliyyətinə sadiq olan möhtəşəm ruhlu ordunun yaradılması hər bir hərbi qulluqçunun qarşısında dayanan ali məqsəddir. Ordunun Baş Ərkani-hərb rəisi general-leytenant M.Sulkeviç də hissə komandirlərindən təkidlə tələb edirdi ki, hər cürə siyasətbazlıqdan uzaq olsunlar və yalnız öz vəzifə borclarının icrası ilə məşğul olsunlar. Bu baxımdan onun Zaqatala piyada alayının komandiri polkovnik Dibirova göndərdiyi teleqramı diqqətəlayiqdir. M.Sulkeviç yazırdı: «Hər vasitə ilə siyasətə qoşulmaqdan uzaq olun. Bunun üçün başqa orqanlar mövcuddur» (19).

Ordu quruculuğunun möhkəm özül üzərində aparılması üçün zəruri və lazımi tələblərə cavab verən hərbi qanunvericilik bazasının işlənib hazırlanması hökumətin bu sahədə izlədiyi siyasətin əsas istiqamətlərindən birini təşkil edirdi. İstiqlaliyyətini yenicə əldə etmiş dövlətin milli dəyərlərə dayaqlanan hərbi qanunvericilik bazası praktiki işlərin də səmərəliliyini şərtləndirən amil ola bilərdi. Nazirlər Şurası qanunvericilik funksiyasını özündə bir-

ləşdirəndə hüquqi aktların qəbulunu da öz üzərinə götürmüşdü. Parlamentin açılması ilə Nazirlər Şurası tərəfindən zəruri hərbi qanunlar barəsində bu orqan qarşısında vəsatət qaldırılır və sonra da qəbul edilmiş həmin qərarların icrasının təşkili ilə bağlı müvafiq qərarlar qəbul edirdi. Hökumətlə Parlament arasındakı əlaqələrin tənzimlənməsi üçün Parlamentdə Hərbi komissiya da yaradılmışdı. Müsavatçı Musa bəy Rəfiyev bu komissiyanın sədri, ittihadçı Q.Qarabəyli və bitərəf Behbud bəy Cavanşir bu komissiyanın üzvləri seçilmişdilər (20). Müvafiq qanun layihələrini hazırlayıb Parlamentin müzakirəsinə təqdim etməklə bərabər, bu komissiyanın üzvləri, habelə Parlamentin digər üzvləri hərbi obyektlərə, gərginlik yaranan məntəqələrə gedir, ümumordu miqyaslı tədbirlərdə iştirak edirdilər. Bütün bunlar ölkənin müdafiəsinin gücləndirilməsi ilə bağlı hökumətin yeritdiyi xətt barədə geniş təsəvvür əldə etməyə imkan verirdi.

Hərbi məsələlərin müzakirəsi ilə bağlı yeri gəldikcə Nazirlər Şurasının sədri və Hərbi nazir də Parlamentə dəvət edilir, müzakirə olunan sənədlər və məsələlərlə bağlı onların fikir və mülahizələri, həbelə görülmüş işlərlə bağlı məlumatları dinlənilirdi.

Ölkə Parlamentinin mövcud olduğu dövrdə ordu quruculuğunun müxtəlif sahələri ilə bağlı 10-dan artıq qanun layihəsi üzrə müvafiq qərarlar qəbul edilmiş, Azərbaycan və Gürcüstan arasında imzalanmış hərbi müdafiə paktı ratifikasiyadan keçirilmiş, Qarabağda, ölkənin şimalında yaranmış təhlükəli vəziyyətlə bağlı növbədənkənar müzakirələr aparılmışdı. Parlamentdə qəbul edilmiş qərarlar aşağıdakılar idi: «Hərbi Nazirliyin ştatları haqqında» (25 fevral 1919), «Hərbi məhkəmələr haqqında» (14 aprel 1919), «Əxzi-əsgər şöbələrinin təşkili haqqında» (26 may 1919), «Azərbaycanda yaşayan həkimlərin həqiqi hərbi xidmətə çağırılması haqqında» (16 iyun 1919), «1915-ci ildə qəbul edilmiş Hərbi mükəlləfiyyət nizamnaməsinin 20-ci maddəsinə əlavələr edilməsi haqqında» (31 iyul 1919), «Əsgərlikdən azad olunanlardan əsgəri vergilərin ləğvi haqqında» (2 oktyabr 1919), «Bakı mövqe komandanlığının təşkili haqqında» (16 oktyabr 1919), «Gəncə hərbi zavodunun ştatlarının və smetasının təsdiqi haqqında» (23 fevral 1920), «Şuşa şəhərində hərbi-feldşer məktəbi açmaq haqqında» (26 aprel 1920) və s.



Cümhuriyyət hökumətinin kabinet üzvləri (birinci sırada soldan üçüncü – Hərbi nazir Səməd bəy Mehmandarov)



Səməd bəy Mehmandarovun iştirakı ilə hökumətin kabinet üzvlərinin iclası

Hərbi Nazirliyin ştatları təsdiq edilən gün, yəni 1919-cu il fevral ayının 25-də Hərbi nazir Səməd bəy Mehmandarov da Parlamentin iclasında iştirak və çıxış etdi. İclasa təqdim olunan layihə Parlamentin Hərbi komissiyası tərəfindən hazırlanmışdı və onun mahiyyəti millət vəkillərinə Hərbi komissiyanın üzvü Qarabəy Qarabəyli tərəfindən çatdırıldı. Q.Qarabəyli qanun layihəsinin təqdimatı zamanı onu da bildirdi ki, komissiyanın iclaslarında Hərbi Nazirliyin fəaliyyəti və hərbi ştatlar barəsində çox geniş müzakirələr aparılmışdır və onlar haqqında Parlamentin açıq iclasında məlumat verilməsi məqsədəuyğun deyildir. Parlamentə 38 hərbi strukturun ştatının təsdiq edilməsi barədə qanun layihəsi təqdim edilmişdi. Bu, o demək idi ki, qısa müddət ərzində Azərbaycanda artıq 38 hərbi strukturun formalaşdırılmasına başlanmışdı. Qanun layihəsinin müzakirələrində S.Mehmandarov da çıxış etdi. Bu çıxışı S.Mehmandarovun proqram xarakterli bir çıxışı kimi də qiymətləndirmək mümkündür. Burada o, millət vəkillərini və bütünlükdə xalqı maraqlandıran məsələlərə ətraflı məlumat verirdi. Ordu quruculuğunun mahiyyəti və istiqamətləri də Hərbi nazirin çıxışında öz ifadəsini tapmışdı və ona görə də həmin çıxış millət vəkilləri tərəfindən çox rəğbətlə qarşılandı. Bu çıxış ümumiləşdirici bir çıxış idi və ona görə də orada çox problemlərə toxunulmuşdu.

Parlament tərəfindən qəbul olunmuş qanunların əməli şəkildə icrasının təşkil edilməsi ilə bağlı Nazirlər Şurası tərəfindən də müvafiq qərarlar qəbul edilirdi. Həmin qərarlar arasında – «Hərbi Nazirliyin yaradılması haqqında» (1 noyabr 1918), «Tək vətəndaşların və xalq müəllimlərinin hərbi mükəlləfiyyətdən azad edilməsi haqqında» (18 yanvar 1919), «Hərbi Nazirliyin razılığı olmadan müsəlman zabitlərin mülki xidmətə qəbul edilməsinin qadağan olunması haqqında» (19 fevral 1919), «Şuşa, Cavanşir və Cəbrayıl qəzaları general-qubernatorunun general-qubernatorluqda yerləşən hərbi hissələrlə bağlı səlahiyyətlərinin müəyyənləşdirilməsi haqqında» (aprel 1919) və s. kimi qərarlar var idi (21). Bundan başqa, ordu quruculuğunun gedişində bir sıra gündəlik məsələlərin hüquqi qüvvə qəbul etməsi də Nazirlər Şurasının qərarı ilə baş verirdi. Məsələn, Hərbi Nazirliyin yüksək vəzifəli rəhbərlərinin təyinatı

və ilkin hərbi rütbə olan praporşik rütbəsi istisna olmaqla qalan bütün hərbi rütbələrin verilməsi Nazirlər Şurası sədrinin qərarı ilə həyata keçirilirdi (22). Bunun üçün Hərbi Nazirlikdən daxil olan müvafiq təqdimatlara Nazirlər Şurasında baxılır və onlarla bağlı bu və ya digər qərarlar qəbul edilirdi. Bütün bu məsələlər ordu quruculuğu prosesini hökumət tərəfindən nəzarət altında saxlamağa imkan verirdi.

Ölkədə ordu quruculuğunun səmərəli şəkildə istiqamətləndirilməsi və müdafiə qabiliyyətinin gücləndirilməsi üçün Azərbaycan hökuməti ölkənin daxili imkanlarını səfərbərliyə almaqla yanaşı, həm də fəal xarici siyasət aparılmasına lazımi diqqət yetirirdi. Bu baxımdan həm müttəfiq dövlətlərlə, həm də böyük dövlətlərlə, həm də yaxın qonşularla qarşılıqlı hərbi əlaqələrin də qurulmasına cəhd göstərilirdi. Konkret tarixi şəraitdə Tükiyə ilə hərbi əlaqələrin davam etdirilməsi çətinləşmişdi. Rusiya və Ermənistan isə belə münasibətlərin qurulmasına heç vəclə meyilli deyildilər. Belə vəziyyətdə hökumət və Hərbi Nazirliyin rəhbərliyi Azərbaycanda olan ingilis hərbi qüvvələri ilə faydalı münasibətlər qurulmasına çalışırdı. Ordunun maddi-texniki təchizatının yaxşılaşdırılması üçün Hərbi Nazirlik nümayəndələri İtaliyaya səfər etmiş və ikitərəfli əlaqələrin yaradılmasına nail olmuşdular.

Gürcüstanla hərbi əlaqələrin qurulması isə daha geniş şəkildə həyata keçirilirdi. Mövcud şəraitdə qarşılıqlı əlaqələrin qurulması hər iki tərəf üçün strateji əhəmiyyət kəsb edirdi. Həmin əməkdaşlıq özünün hüquqi əksini 1919-cu il iyunun 16-da iki respublika arasında imzalanmış hərbi sazişdə tapdı. Sazişi Azərbaycan hökuməti tərəfindən Xarici İşlər naziri M.Cəfərov, Hərbi nazir S.Mehmandarov və Baş Ərkani-hərb rəisi M.Sulkeviç imzalamışdılar. Tiflisdə üç il müddətinə imzalanmış həmin sazişin əsas mahiyyəti ondan ibarət idi ki, respublikaların hər hansı birinə xarici müdaxilə olacağı halda digər respublika ona mümkün köməyi göstərsin. İkitərəfli saziş konkret olaraq aşağıdakı məsələləri özündə əks etdirirdi:

«1. Razılığa gələn dövlətlər bütün silahlı qüvvələri və hərbi vasitələri ilə razılığa gələn respublikaların birinin və ya hər iki-

sinin müstəqilliyini və ya ərazi bütövlüyünü təhdid edən hər hansı hücuma qarşı birgə çıxış etməyi öhdələrinə götürürlər;

**Qeyd.** Bu bənd Zaqafqaziya respublikaları arasında ərazi bölgüsünün hələlik başa çatmaması səbəbindən yarana biləcək sərhəd konfliktinə şamil edilmir.

2. Əgər hər hansı qonşu dövlət birinci məndə əsasən hərbi əməliyyat başlanan zaman bir və ya hər iki müttəfiqə sərhəd mübahisələrinin silah gücünə həll edilməsi məqsədilə hücum edərsə, onda bu dövlət vuruşan tərəf kimi qəbul edilir;

3. Bu saziş ciddi müdafiə xarakteri daşıyır və əgər tərəflərdən biri öz təşəbbüsü ilə razılıq olmadan müharibə elan edər və ya hərbi əməliyyatlara başlayarsa, onda digər sazişə gələn tərəf bu hərbi əməliyyatda iştirak etməyə bilər;

4. Razılığa gələn tərəflər onlar arasında meydana çıxa biləcək sərhədlər haqqında mübahisələrin saziş və ya arbitraj yolu ilə həll etməyi öhdələrinə götürürlər. Bu halda qərar son nəticə hesab olunur və hər iki tərəfi üçün məcburidir;

5. Bu saziş üç il müddətinə bağlanılır. Bu müddətin qurtarmasına bir il qalmış razılığa gəlmiş tərəflərdən biri sazişi yeni müddətə uzatmaq və ya sazişdən imtina etmələri haqqında arzusunu bildirir: sonuncu halda saziş öz gücünü ancaq müəyyənləşdirilmiş müddət başa çatdıqdan sonra itirir;

6. Razılığa gələn tərəflər həmrəy olaraq hər iki dövlətin müstəqilliyinin və suveren hüquqlarının qorunmasına yönəldilən diplomatik danışıqlar aparmağı öhdələrinə götürürlər;

7. Birinci və ikinci bəndlərdə göstərilən şərait ortaya çıxdığı zaman razılığa gələn dövlətlər separat sülh bağlamamağı öhdələrinə götürürlər;

8. Razılığa gələn tərəflər qarşılıqlı razılaşma olmadan digər dövlətlərlə hərbi konvensiya bağlamamağı öhdələrinə götürürlər;

9. Əgər 5-ci maddədə göstərilən müddət bitənə qədər onun tərkibinə daxil olan bütün dövlətlərin sərhəd toxunulmazlığına təminat verən Xalqlar Liqası yaranarsa, onda razılığa gələn respublikalar Xalqlar Liqasına girən andan bu saziş öz gücünü itirir;

10. Müqavilə haqqında rəsmi məlumat verildikdən sonra 2 həftə ərzində Ermənistana da bu sazişə qoşulmaq hüququ verilir» (23).

Bu sazişin imzalanması Azərbaycanın dövlət və hökumət rəhbərliyi, habelə siyasətçiləri tərəfindən son dərəcə yüksək qiymətləndirildi. 1919-cu il iyunun 27-də Parlamentin fövqəladə iclasında həmin saziş ratifikasiya olundu. Bununla bağlı çıxış edən Parlament üzvləri və Xarici İşlər naziri M.Cəfərov Azərbaycanın və bütünlükdə bölgənin təhlükəsizliyinin təmin edilməsində sazişin dəyərini qeyd etdilər və sazişin imzalandığı günü tarixi bir gün kimi xarakterizə etdilər. Xarici İşlər naziri M.Cəfərovun fikrincə, həmin saziş Cənubi Qafqaz üçün real təhlükə sayılan Denikin təcavüzünün qarşısının alınmasında ciddi addım olmaqla bərabər, həm də Cənubi Qafqaz xalqlarının birliyi istiqamətində tarixi bir anlaşma idi. Sazişin hər iki xalqın həyatındakı əməli əhəmiyyəti nəzərə alındığından Parlamentin müzakirələrində Gürcüstanın hökumət nümayəndə heyəti də iştirak edirdi.

Bu sazişdən əlavə iki dövlət arasında hərbi-texniki əməkdaşlıq haqqında da sənəd imzalandı və həmin sənədə müvafiq olaraq Gürcüstan həm hərbi-texnika və sursat baxımından, həm də kadrların hazırlanması baxımından Azərbaycana dəyərli kömək göstərdi. Bu respublikadan gətirilmiş olan silah, sursat və təchizat Azərbaycanın qoşun hissələrini, o cümlədən şimal sərhədini qoruyan qoşun bölmələrinin maddi-texniki imkanlarını xeyli yaxşılaşdırdı. Qeyd etmək lazımdır ki, respublika hökuməti Gürcüstanla hərbi əməkdaşlığın genişləndirilməsinə xüsusi əhəmiyyət verirdi və istər Azərbaycanın şimal sərhədlərinin, istərsə də Azərbaycan Ordusunun möhkəmləndirilməsi üçün Gürcüstanla hərbi əməkdaşlıqdan maksimum isifadə edilməsinə cəhd göstərirdi.

İki ölkə arasında hərbi əməkdaşlığın uğurlu davamı kimi 1920-ci il yanvar ayının 20-də Azərbaycan və Gürcüstanın müştərək Hərbi Şurası təsis edildi. Bu müştərək Hərbi Şura hər iki ölkə üçün ehtimal olunan düşmənləri və hərbi əməliyyatlar rayonunu öyrənməli, məqsədəuyğun olan müdafiə planını hazırlamalı, hər iki ölkənin hərbi qüvvələrinin döyüş hazırlığı vəziyyətini nəzarət altında saxlamalı və bu ölkələrin hərbi qüvvələrinin yerləşdirilməsi planını hazırlamalı idi. Hərbi Şuraya hər iki tərəfdən iki nəfər daxil edilməli və hökumətlərin qarşılıqlı razılaşması əsasında onlardan biri Şuranın sədri seçilməli idi. Şuranın iclaslarına hər iki

respublikanın məsul vəzifəli şəxsləri dəvət oluna bilərdilər. Bu orqanın qəbul etdiyi strateji və hərbi-texniki yönümlü qərarlar hər iki tərəf üçün məcburi xarakter daşıyırdı. Qəbul olunmuş qərarların icrası ilə bağlı əlaqədar şəxslərin iştirakı ilə iclaslar keçirilə və həmin qərarların icrası mexanizmi müəyyənləşdirilə bilərdi. Belə iclaslarda fikir ayrılığı yarandığı halda məsələ hökumət rəhbərlərinə məruzə olunmalı və onların iştirakı ilə lazımi razılıq əldə edilməli idi (23a).

Qeyd etmək lazımdır ki, Azərbaycan tərəfdən bu Şuraya Ə.Şıxlinski və M.Sulkeviç, Gürcüstan tərəfdən isə N.Odoşelidze və Kutateladze seçilmişdilər.

Denikin təhlükəsinə qarşı qarşılıqlı müdafiə əməkdaşlığının təşkili ilə bağlı Azərbaycan tərəfindən səfərbərlik planı da hazırlandı. Bu plana əsasən Denikin qüvvələrinin Gürcüstan üzərinə hücumu başlayacağı halda Azərbaycan tərəfindən hansı hərbi yardım göstəriləcəyi və bu yardımın necə çatdırılacağı yolları müəyyənləşdirildi. İrəli sürülən təkliflərə görə Gürcüstan Denikin qüvvələrinin hücumuna məruz qalacağı halda Azərbaycan qoşunları müharibə dövrünün ştatlarına uyğun olaraq komplektləşdirilməli idi. Qərara alınmışdı ki, 1920-ci ilin yanvar ayında Cümhuriyyətin hərbi hissələri müharibə dövrünün ştatlarına uyğun komplektləşdirilsin və bunun üçün zəruri olan səfərbərlik keçirilsin. Güman edilirdi ki, səfərbərliyin keçirilməsi üçün böyük vaxt itkisinə yol verilməyəcəkdir. Nəzərdə tutulurdu ki, Gürcüstan hərbi müdaxiləyə məruz qalsa, onun köməyinə bir piyada diviziyası və bir süvari briqadası göndərilsin. Piyada diviziyası kimi 1-ci piyada diviziyanın Gürcüstana göndərilməsi planlaşdırılırdı. Diviziyanın 1-ci Cavanşir alayı Xankəndindən, 2-ci Zaqatala alayı Zaqataladan, 3-cü Gəncə alayı Gəncədən, 1-ci topçu briqadasının 1-ci batareyası Xankəndindən, 2-ci və 3-cü batareyaları Gəncədən, 4-cü batareyası isə Xankəndindən Gürcüstana yola salınmalı idi (24).

Gürcüstana göndərilməli olan süvari briqadası isə mövcud süvari diviziyasının bazasında formalaşdırılmalı idi. Bu briqadanın tərkibinə 2-ci Qarabağ süvari alayının, 3-cü Şəki süvari alayının və dağ-atlı batareyasının verilməsi planlaşdırılırdı. Bu qüvvələrin Gür-

cüstana çatdırılması onların səfər hazırlığından və daşınmaların necə təşkil edilməyindən asılı idi. Xüsusən daşınmalar üçün zəruri olan vaqonların vaxtında ayrılması planlaşdırılan işlərin icrası üçün xüsusi əhəmiyyət kəsb edirdi. Gürcüstana göndərilməli olan hissələrdən yalnız 2-ci Zaqatala piyada alayı öz hərəkəti ilə qonşu respublikanın ərazisinə keçməli idi. Çünki Gürcüstan sərhədinə yaxınlıq buna imkan verirdi. Digər hissə və bölmələr isə dəmir yolu ilə daşınmalı idi. Aparılan hesablamalara görə hərbi yardım üçün nəzərdə tutulmuş qüvvə və vasitələrin daşınması üçün 940 ədəd vaqon lazım idi. Mövcud məlumata görə respublikada kifayət qədər vaqon var idi. Lakin bütün yükləri götürə biləcək 10 eşelonun hərəkətə gətirilməsi üçün yetərincə parovoz yox idi. Bu məsələnin də həll ediləcəyi təqdirdə nəzərdə tutulan bütün qüvvə və vasitələri vəsaiti 4 gün ərzində Gürcüstan ərazisinə çatdırmaq mümkün idi (25).

Amma məlumdur ki, Denikin qüvvələri istər Azərbaycan üzərinə, istərsə də Gürcüstan üzərinə müstəqim hərbi müdaxilə edə bilmədi və ona görə Gürcüstana əməli hərbi yardım göstərilməsinə də ehtiyac qalmadı. Bundan əlavə, 1920-ci ilin yanvarından Qarabağ ətrafında hərbi vəziyyətin mürəkkəbləşməsi ilə Cümhuriyyətin Hərbi Nazirliyinin bütün diqqəti də bu istiqamətə yönəlməli oldu.

Milli ordu quruculuğu sahəsində hökumətin izlədiyi siyasətin mühüm istiqamətlərindən birini də ölkənin potensialının bu prosesin uğurla getməsinə səfərbər edilməsi təşkil edirdi. Qoşun hissələrinin formalaşma səviyyəsi, onun döyüşkənlik potensialı, əslində, maddi-texniki təchizata olan tələbatın ödənməsi səviyyəsi ilə birbaşa bağlı idi. Azərbaycan hökuməti bu məsələyə xüsusi bir qayğı ilə yanaşırdı. Nazirlər Şurasının sədri F.Xoyski yuxarıda toxunulan çıxışında da bildirdiyi kimi respublikanın ərazi bütövlüyünü qorumağa qadir olan ordunun zəruri silahla, təchizatla və ərzaqla təmin edilməsi üçün hökumət dərhal əməli işlərə başlamışdı.

Lakin bu işlər respublikanın imkanları daxilində həyata keçirilə bilərdi. Amma daxildə hərbi şəraitin mürəkkəb olması, Azərbaycanın, xüsusən də Bakının təsərrüfat həyatının bərbad vəziyyətə salınması və ölkənin maddi imkanlarının xeyli məhdud olması ordu quruculuğuna öz təsirini göstərirdi.

Digər tərəfdən, respublikada hərbi infrastrukturun olmaması hərbi xərclərin daha da artmasını tələb edirdi. Bu baxımdan Ermənistanla Gürcüstan daha əlverişli vəziyyətdə idilər. Ona görə də Azərbaycandan fərqli olaraq müstəqilliklərini elan etdikdən sonra Gürcüstan və Ermənistanda yaradılan ordunun yerləşdirilməsində, onun silah və sursatla təmin edilməsində elə bir çətinlik olmadı.

Mövcud olan çətinliklərə baxmayaraq, güclü ordunun formalaşdırılmasına vacib olan büdcənin ayrılmasında hökumətlə Parlament arasında dövlət maraqlarına cavab verən işgüzar münasibətlər qurulmuşdu. Hərbi nazir S.Mehmandarovun Parlamentin 25 fevral 1919-cu il tarixli iclasında dediyi kimi bu orqanın hər hansı bir təşkilata rəğbətlə və ya qeyri-rəğbətlə yanaşması büdcənin müzakirəsi zamanı özünü göstərdi. Qeyd etmək lazımdır ki, parlamentdə milli qüvvələri təmsil edən fraksiyalar və deputatlar istiqlaliyyətin qorunmasında ordunun rolunu reallıqla dəyərləndirir, ordu və müdafiə məsələlərinin həllinə çox həssaslıqla yanaşırdılar. Ona görə də respublika Parlamenti 1919-cu ildə ordunun formalaşdırılması üçün 399,4 milyon rubl vəsait ayrılması haqqında qərar qəbul etdi. Bu vəsait dövlət büdcəsinin 27,7 faizini təşkil edirdi (26).

Ölkə Parlamentinin 25 fevral 1919-cu il tarixli iclasında Hərbi Nazirliyin ştatları ilə bağlı təqdim edilən layihənin qəbulundan sonra sosialistlər fraksiyasının lideri A.Səfikürdski ordunun maliyyə ehtiyaclarının ödənməsinə öz münasibətini aşağıdakı kimi ifadə etdi: «Əsgəri işlərimiz haqqında təqdim olunan layihədə komissiya dediyi kimi artıq bir şey yoxdur. Əsgəri məmurlara lazımi miqdarda məvacib verilməlidir. Artıq da vermək lazım gəlsə, verilməlidir. Veriləcək də. Bunların hamısından razıyıq, amma bir təvəqqemiz var. Bu pullar millət xəzinəsində millətdən qəpik-qəpik yığılmış pullardır. Bu pulları da millətin öz oğullarına sərf etməlidirlər. Kəndçilərdən qəpik-qəpik yığılmış pulları sərf etdikdə qənaət etməlidirlər. Sosialistlər fraksiyası tərəfindən deyirəm ki, namuslu, qeyrətli, şücaətli əsgər və zabitlərimizdən ötrü hər nə lazım olsa verəcəyik» (27).

Ordu quruculuğunun daha səmərəli aparılması və ölkənin müdafiəsinin gücləndirilməsi üçün Azərbaycan hökuməti zərurət

yarandığı anda hərbi-siyasi hakimiyyətin mərkəzləşdirilməsi siyasətinə də əl atdı. Belə bir mərkəzləşdirilmiş hərbi-siyasi strukturun yaradılmasına ehtiyac 1919-cu ilin yayında, şimal sərhədinə Denikin qoşunlarının təcavüzü təhlükəsi yarananda meydana gəldi. Bu məsələ ilə bağlı ölkə Parlamenti 1919-cu il iyunun 5-də xüsusi müzakirələr apardı. Müzakirələrdən sonra qəbul edilmiş qərarda deyilirdi: «Denikin təhlükəsi barədə hökumət başçısının məruzəsini dinlədikdən sonra Azərbaycan Parlamenti elan edir ki, Denikin bizim dövlətçiliyimizə qarşı yönəldilmiş niyyətləri kiçik xalqları əsarət altına almaq, azadlıqsevər demokratiyanı məhv etmək istəyən keçmiş çar generallarının imperialist cəhdlərinin nəticəsidir. Qərara alındı ki, dövlət müdafiəsi məqsədilə indiki hökumətin tərkibindən xüsusi orqan yaradılsın» (28).

Həmin qərarın həyata keçirilməsi ilə bağlı hökumətin 1919-cu il 9 iyun tarixli qərarı ilə dövlətin müdafiəsinin təşkili sahəsində xüsusi orqan olan Dövlət Müdafiə Komitəsi yaradıldı. Belə bir orqanın yaradılması hərbi sahədə dövlət əhəmiyyətli qərarların çevik şəkildə qəbul edilməsinə və onların icrasının təşkilinə imkan verirdi. Tutduğu vəzifəyə görə bu orqanın tərkibinə beş nəfər daxil edilmişdi: Nazirlər Şurasının sədri, Hərbi nazir, Xarici İşlər naziri, Ədliyyə naziri və Yollar naziri. Dövlət Müdafiə Komitəsinin iclaslarının keçirilməsi üçün xüsusi ardıcıllıq müəyyən edilməmişdi. Zərurət yarandıqca bu orqan iclasa yığışıb ortaya çıxan sual və məsələləri həll etməli və qəbul edilən qərarların icrasını təşkil etməli idi. Dövlət Müdafiə Komitəsinin iclasları onun üzvlərinin ən azı üç nəfərinin iştirak etdiyi təqdirdə səlahiyyətli idi. İclasa Nazirlər Şurasının sədri rəhbərlik edirdi. İclasın işində iştirak edə bilmədiyi halda o, müzakirələrə sədrlik etməyi komitənin üzvlərindən birinə tapşıra bilərdi.

Ölkənin ərazi bütövlüyünün təmin edilməsi, hərbi məsələlərlə bağlı müxtəlif hökumət orqanlarının hərbi xidmətə münasibətinin dəyişməsi, bütünlükdə cəmiyyətdə hərbi-mənəvi atmosferin sağlamlaşdırılması və s. işlər üçün də hökumət məqsədyönlü siyasət həyata keçirirdi. Bütün bunların nəticəsi idi ki, Cümhuriyyətin mövcud olduğu dövr ərzində kifayət qədər döyüşkən bir ordu yaratmaq mümkün olmuşdu.

### *2. Ordunun təşkili, quruluşu və idarəetmə orqanları*

Hərbi Nazirliyin bərpasından dərhal sonra Azərbaycan Ordusunun yenidən qurulmasına başlandı. Kifayət qədər məsuliyyətli bir vəzifəni üzərinə götürmüş olan S.Mehmandarov elə ilk günlərdən ciddi və əməli addımlar atmağa çalışdı. Bunun nəticəsi idi ki, artıq 1918-ci il noyabr ayının 7-də S.Mehmandarovun Hərbi Nazirlik üzrə 1 nömrəli əmri imzalandı. Həmin əmrdə deyilirdi: «Azərbaycan Respublikası Nazirlər Şurasının qərarı ilə mən Hərbi nazirin müavini təyin edilmişəm ki, bu barədə Hərbi Nazirliyə elan edirəm. Vəzifələrimin icrasına başlarkən mənim görməli olduğum o böyük işin bütün ciddiliyini, mürəkkəbliyini və çətinliyini yaxşı anlayıram. Ancaq bu iş görülməlidir və Hərbi Nazirliyin qarşısına çıxan bütün çətinlikləri birgə səmimi fəaliyyət və vəzifəyə təmiz münasibət bəsləndiyi halda aradan qaldırmaq mümkündür.

Döyüşkən ordunun yaradılmasının uğuru bütünlüklə bu işin düzgün qurulmasından asılıdır. Hamını birgə, səmimi fəaliyyətə dəvət etməklə, mən bütün səviyyələrdə olan rəislərin diqqətini qoşunlarda təlim və tərbiyəyə, onlarda möhkəm intizamın aşılanmasına, işə məsuliyyət və məhəbbət hisslərinin, xidməti mülkiyyətə marağın oyadılmasına, qanun-qaydaya riayət edilməsinə və nəhayət, tabeçilikdə olanlara qayğıkeş və mehriban münasibət göstərilməsinə çağırıram. Yalnız bu keyfiyyətlərin varlığı ordunun yaradılmasını, gənc respublika tərəfindən ona böyük xərclər çəkilməsini doğrulda bilər və belə bir ordunun yaradılması üçün mən heç bir çətinlikdən çəkinməyəcəyəm. Qoşunların bütün təminat və təchizatının vaxtında ödənməsi mənim daimi diqqətim altında olacaqdır» (29).

General S.Mehmadarov elə ilk əmrində bütün gücünü və bacarığını gənc respublikanın dayağı olacaq ordunun qorunması üçün yönəldilməsinə, orduda xidmətə gələnlərin imkanlarının yalnız bu məqsədə səfərbər edilməsinə çalışacağını bildirirdi.

Bu əmri S.Mehmandarovun milli ordu quruculuğu sahəsində müxtəsər proqramı kimi də dəyələndirmək mümkündür. Onun bu proqramında aşağıdakı vəzifələr irəli sürülürdü:

– Azərbaycanın Milli Ordusu qurulmalıdır;

– birgə fəaliyyətlə ordu quruculuğunda mövcud olan bütün çətinliklər aradan qaldırılmalıdır;

– ordu quruculuğunda tapşırılan vəzifələrin icrasına təmiz münasibət olmalıdır;

– ordunun yaradılması işi düzgün qurulmalıdır;

– qoşunların təlim-tərbiyəsi, intizamın gücləndirilməsi, xidməti məsuliyyətin artırılması, xidməti mülkiyyətə marağın artırılması, qanun-qaydaya riayət edilməsi diqqət mərkəzində olmalıdır;

– komandir heyəti tabeliyində olan hərbi qulluqçulara qayğıkeş və mehriban münasibət göstərməlidir;

– ordunun təminat və təchizat məsələləri vaxtında həll edilməlidir.

Vətənpərvərlik ehtirası və yanğısı ilə vəzifəsinin icrasına başlayan S.Mehmandarov Azərbaycanın müstəqilliyinin müdafiəsi, ölkə daxilində mövcud olan anarxiyanın qarşısının alınması üçün güclü ordunun formalaşdırılmasını yeni vəzifədə fəaliyyətinin əsas məqsədi sayır və rəhbərlik etdiyi qoşunlarda bu məqsədin müqəddəsliyinə dərin inam aşılamağa çalışırdı. Azərbaycan süvari diviziyasının komandirinə ünvanladığı əmrində S.Mehmandarov yazırdı: «Sizə məlum edirəm ki, Azərbaycan qoşunları heç bir təcavüzkar məqsəd güdmür. O yalnız dövlət sərhədinin müdafiəsi, dövlət daxilində qanun və qaydanın qorunması, mümkün olacaq anarxiyanın aradan qaldırılması, bandaların soyğunçu basqınlarına son qoyulması məqsədilə yaradılmış və yaradılmaqdadır. Elə edin ki, bütün bu deyilənlər təkcə rəislərə deyil, hətta hər bir əsgərə də məlum olsun» (30).

S.Mehmandarovun bu sözlərində milli ordu quruculuğunun məqsədi və mahiyyəti öz əksini tapmışdır. Ölkənin Hərbi nazirinin müavini milli ordunun hər hansı təcavüzkar məqsəd üçün deyil, yalnız müdafiə məqsədilə qurulduğunu bəyan edirdi.

General S.Mehmandarov, ilk növbədə, Hərbi Nazirliyin özünün aparatının yaradılmasına və onun vasitəsi ilə ordunun qurulmasına və idarə edilməsinə çalışırdı. Nazirlik üzrə ilk əmrin imzalanmasından təxminən bir həftə sonra, yəni 1918-ci il noyab-

rın 15-də ordunun Ümumi qərargahı (Qlavnıy ştab) təsis edildi. Onun tərkibi aşağıdakı şöbələrdən ibarət idi: Ləvazimat şöbəsi, İstehkam şöbəsi, Topçu şöbəsi, Növbətçi generalın şöbəsi, General-kvartirmeysterin şöbəsi, Tibb şöbəsi, Hərbi təhsil şöbəsi və Nəzarət şöbəsi (31).

S.Mehmandarovun imzaladığı əmrə əsasən polkovnik Həbib bəy Səlimov – Ümumi qərargahın və Dəftərxananın rəisi, polkovnik Həmid bəy Qaytabaşı – növbətçi general, polkovnik Seyfulla Mirzə – Ləvazimat şöbəsinin rəisi, general-mayor Murad Gəray Tlexas – Topçu şöbəsinin rəisi, general-mayor İbrahim ağa Usubov Hərbi təhsil şöbəsinin rəisi və qoşunlarda atıcılıq işinin müfəttişi vəzifələrinə təyin edildilər (32).

Yuxarıda deyildiyi kimi, Bakıda yerləşmiş müttəfiq qüvvələrin komandanlığının tələbi ilə Hərbi Nazirlik 1918-ci il noyabr ayının 22-də Gəncəyə köçmək məcburiyyətində qaldı (33). Nazirliyin aparatı Gəncədə Böyük bəy Ağayev adlı bir şəxsin kərpicdən tikilmiş, damı dəmirlə örtülmüş və böyük zirzəmisi olan evində yerləşdi. Həmin evdə əvvəllər Qafqaz İslam Ordusunun komandanlığı yerləşibmiş (34).




**Ümumi qərargahın quruluşu**

Hərbi Nazirliyin aparatı ilə birlikdə Azərbaycan korpusunun qərargahı da Gəncəyə köçdü (35). Hərbi Nazirlik yaradılandan sonra Azərbayca korpusu da bir struktur vahidi kimi mövcudluğunu davam etdirirdi. Ancaq korpusun komandiri Ə.Şıxlinski belə

bir strukturun mövcudluğuna heç bir lüzum görmürdü və S.Mehmandarov qarşısında onun ləğv edilməsi barəsində məsələ qaldırmışdı (36). Ə.Şıxlinski, eyni zamanda, təqaüdə çıxması haqqında da məsələ qaldırmışdı.

Amma general-leytenant Ə.Şıxlinskinin hərbi savadına və təcrübəsinə böyük hörmətlə yanaşan S.Mehmandarov onun ordu quruculuğuna daha fəal cəlb edilməsi üçün Nazirlər Şurasının qarşısında vəsatət qaldırdı. Noyabrın 25-də hökumət sədrinin adına yazdığı məktubunda S.Mehmandarov az olan milli zabit kadrlarından səmərəli istifadə edilməsinin vacibliyini vurğulayır və Ə.Şıxlinskini Hərbi nazirin ikinci müavini təyin edilməsini təklif edirdi. S.Mehmandarov təklifini onunla əsaslandırırdı ki, qoşun hissələrinin yoxlanılması üçün ezamiyyətə yollananda Ə.Şıxlinski onu Gəncədə əvəz edə bilərdi. Eyni zamanda, S.Mehmandarov bütün texniki hissələrə və təhsil müəssisələrinə rəhbərliyin Ə.Şıxlinskiyə tapşırılmasını məqsədəuyğun bilirdi (37).

Səməd bəy Mehmandarovun bu vəsatəti hökumət tərəfindən qəbul edildi və hökumətin 29 dekabr 1918-ci il tarixli qərarı ilə general-leytenant Əliağa Şıxlinski Hərbi nazirin müavini vəzifəsinə təyin edildi.

Mövcud olan qoşun hissələrinin vəziyyəti ilə şəxsən tanış olmaq, onların döyüş keyfiyyətləri barədə birbaşa məlumat əldə etmək üçün S.Mehmandarov vəzifəsinin icrasına başlayandan az sonra xidməti ezamiyyətə yollandı. Onun qoşun hissələri ilə tanışlığı 1918-ci il noyabrın 27-dən dekabrın 3-nə qədər davam etdi (38).

Noyabrın 27-də S.Mehmandarov əvvəlcə Gəncə ətrafındakı 1-ci Tatar süvari alayında oldu. Polkovnik Hacıbəylinskinin komandir olduğu bu alayın vəziyyəti S.Mehmandarovu razı salmadı. Onun fikrincə, hissənin təşkili, şəxsi heyətin və canlı qüvvənin hazırlıq səviyyəsi lazımi tələblərə cavab vermirdi (39).



Hərbi nazirin müavini Əliağa Şıxlinski

Dekabrın 2-də o, Ağdamda polkovnik Süleyman bəy Əfəndiyevin komandir olduğu 2-ci Qarabağ süvari alayında oldu. S.Mehmandarov alayda təlim-tərbiyənin və təchizatın təşkil edilməsinin bütün tələblərə cavab verməməsini qeyd etsə də, şəxsi heyətin hərbi görkəm almasından, gümrah görünməsindən razı qaldığını bildirdi (40).

S.Mehmandarovu daha çox bu alayın üçüncü bölüyündə gördükləri sevindirdi. Zabit heyətinin tapşırılan vəzifəyə məsuliyyətlə yanaşmasının nəticəsi kimi bölükdə əsgəri nizamın olması, şəxsi heyətin sağlam və çevik görünməsi, ümumən xoş təsir bağışlaması onu razı saldı. Bölükdə xidmətin yaxşı təşkil edilməsinə görə, S.Mehmandarov onun komandiri poruçik Sadıqova öz minnətdarlığını bildirdi (41).

Dekabrın 3-də S.Mehmandarov Ağdamda 4-cü və 5-ci dağ batareyalarında oldu. Burada da digər hissələr və bütünlükdə ordu üçün xarakterik olan çatışmazlıqlar var idi (42). Gəncəyə qayıdan kimi S.Mehmandarov bütün gördüklərini və şahidi olduqlarını əmrlə rəsmiləşdirdi və həmin əmrdə mövcud olan nöqsaların aradan qaldırılması üçün öz tövsiyələrini də açıqlayaraq bütün hərbi hissələrə çatdırdı.

1918-ci il dekabrın 23-də imzaladığı əmrində S.Mehmandarov xidmətə çağırılmış olan şəxslərin dərhal Azərbaycan Respublikasına sədaqət andı içməsinin təşkil edilməsini tələb etdi (43).

Nazirin tələbi əsasında hissələrdə andiçmə mərasimləri təntənəli şəkildə keçirilirdi. Bunun üçün xüsusi hazırlıq görülür, andiçmə mərasiminin günü əvvəlcədən elan edilirdi. Tədbir böyük meydanlarda və adətən, hissənin məscidinin ətrafında keçirilirdi. Çünki hissənin mollası müqəddəs Quran kitabı ilə birlikdə bu tədbirin əsas iştirakçısı olurdu. Mərasim zamanı hissənin bölmələri meydanda sıraya düzülürdülər. Bəzən geri qaytarılmış fərarilər də ayrıca sıraya düzülür və bu tədbirin keçirilməsi ilə onlara müəyyən təsir göstərilirdi. Andiçmə siyahıları əvvəlcədən tərtib edilirdi. Tədbirin başlanmasından əvvəl zabitlər və komandirlər, habelə hissənin mollası bir daha əsgərlərlə söhbət aparır, qəbul edilən andın məsuliyyəti, ona əməl edilməməsinin günahları

barədə məlumat verirdilər. Andiçmə mərasimi hissənin rəsmi keçidi ilə başa çatırdı (44).

Azərbaycanın Hərbi Nazirliyinin fəaliyyətinin ilkin dövrünə toxunan sənədlər sübut edir ki, yeni ordunun yaradılması çox böyük zəhmət və təşkilatçılıq işi bahasına başa gəlirdi. Obyektiv çətinliklərin mövcudluğu, o cümlədən hərbi infrastrukturun olmaması, maddi-texniki təchizatın çatışmazlığı ordu quruculuğu üçün ciddi çətinliklər yaradırdı. Belə bir şəraitdə hər şeyin qənaətlə işlədilməsi və mövcud olanlardan da səmərəli istifadə günün əsas məsələlərindən biri idi (45).

Ordu quruculuğunun ilkin dövründə başlıca diqqət Azərbaycan korpusunun hissə və birləşmələrinin yenidən qurulmasına yetirilirdi. Şəxsi heyətin azlığı üzündən əmrlə rəsmiləşdirilmiş olan bütün hissələrin və birləşmələrin mövcudluğuna  ehtiyac duyulmurdu. Məsələn, türk hərbi qüvvələrinin Azərbaycanı tərk etdiyi vaxt iki milli diviziyanın yaradıldığı elan edilsə də, ikinci diviziyanın mövcudluğu daha çox formal xarakter daşıyırdı. Ona görə də 1918-ci ilin dekabrında bir piyada diviziyasının və bir süvari diviziyasının yenidən qurulması, komplektləşdirilməsi, təchiz və təmin edilməsi bütün işlərin mərkəzində dayanırdı.

1918-ci il dekabrın 20-də süvari diviziyasının komandiri general-mayor Şahzadə Feyzulla Mirzə Qacar və 1-ci Tatar süvari alayının komandiri polkovnik Hacıbəylinski xidmətdən azad olunmaları barədə raport verdilər. Diviziyanın və alayın təşkilində fasiləyə yol verməmək üçün dərhal yeni komandirlərin təyin edilməsi haqqında əmr imzalandı. Süvari diviziyasının komandiri vəzifəsinə 2-ci Qarabağ süvari alayının komandiri polkovnik Süleyman bəy Əfəndiyev, 2-ci süvari alayının komandiri vəzifəsinə polkovnik Davud bəy Yadigarov, 1-ci süvari alayının komandiri vəzifəsinə isə polkovnik Ağalarov təyin edildilər (46).

Ancaq bir neçə gündən sonra Şahzadə Feyzulla Mirzə Qacar öz vəzifəsini davam etdirmək fikrində olduğunu bildirdi. Belə olanda onun yerinə təyin olunması nəzərdə tutulan polkovnik Süleyman bəy Əfəndiyev əvvəlki vəzifəsinə deyil, Hərbi Nazirliyə gətirildi və Nazirliyin tapşırıq generalı vəzifəsinə təyin edildi (47).

Qeyd olunmalıdır ki, polkovnik Süleyman bəy Əfəndiyevin savadı, təşkilatçılıq qabiliyyəti, hərbi xidmətə məsuliyyəti, Azərbaycanın müstəqilliyinə sədaqəti və sonsuz vətənpərvərliyi Hərbi Nazirliyin rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilirdi və o, Hərbi Nazirliyin bərpasından sonra Azərbaycan zabitləri arasından ilk dəfə olaraq general-mayor rütbəsi almağa təqdim olundu.



General-mayor Feyzulla Mirzə Qacar

Hərbi Nazirliyin qaldırdığı vəsatət əsasında Nazirlər Şurasının 29 dekabr 1918-ci il tarixli qərarı ilə ona general-mayor rütbəsi verildi (48). Bir neçə gündən sonra S.Əfəndiyev yenidən qoşunlara göndərildi. 1919-cu il yanvarın 1-də ona 1-ci piyada diviziyası komandirinin müavini, yanvarın 7-də isə həmin diviziyanın komandiri vəzifəsinin icrası həvalə olundu (49). Yanvarın 14-də o, 1-ci piyada diviziyasının komandiri vəzifəsinə təyin edildi (50).

Ümumiyyətlə, 1918-ci ilin sonu və 1919-cu ilin əvvəllərində Hərbi Nazirliyin rəhbərliyində və strukturunda da qismən dəyişiklik edildi. Bu dəyişiklik ordu quruculuğunun genişlənməsi və

sürətlənməsi ilə bağlı idi. Çünki qarşıya qoyulan böyük vəzifələrin vaxtında və səmərəli şəkildə yerinə yetirilməsi hərbi idarəetmə orqanlarının da təkmilləşməsini tələb edirdi.

Hərbi idarəetmənin təkmilləşdirilməsi, eyni zamanda, bu prosesin bütünlüklə peşəkarlara həvalə edilməsini zəruriləşdirirdi. Ona görə də Nazirlər Şurasının 25 dekabr 1918-ci il tarixli qərarı ilə Səməd bəy Mehmandarov Hərbi nazir təyin edildi və elə həmin gün də Azərbaycan Ordusunun yaradılmasına kömək göstərilməsi məqsədilə Azərbaycan xalqına müraciət etdi: «Azərbaycan vətəndaşları! Bu ilin yazında Azərbaycan ayrılıb müstəqil hökumət şəklinə düşdü və bu gündən etibarən cəmi hökumət məmurları camaat arasında asayiş olmasına və anarxiya olmamasına çalışırlar və camaat arasında qanuna müvafiq iş görülməsinə səy edirlər. Bu məqsədə çatmaq üçün başqa binagüzarlıqdan əlavə hərbi qüvvə təşkilinə başladılar. Bu vaxtlarda türk ordusu gəlib bizim Azərbaycan qoşunlarını türk komandanları ixtiyarına alıb hər bir barədə kəfil oldular. İndi anlaşılır ki, türk komandanları öz hərbi işlərində çox səhvlər göstəriblər. Əsgərlik vəzifəsinə ancaq fağırların uşaqları götürülür. Məsələn, dövlətlilərin və bəylərin uşaqları azad ediliblər və türklər qəbul etdiyi əsgərləri çox pis yedirib və pis geyindirib, hətta bəzilərinə heç libas verməmişlər və türk əsgərlərindən bizimkilərə az yemək vermişlər. Natəmiz və quru yer üstündə yatırmışlar. Hətta döyürmüşlər. Axırda nəticə o oldu ki, Azərbaycan əsgərləri dəstə-dəstə fərar etdilər. İndi isə qoşun düzəltməyi öz öhdəmə götürmüşəm və cəmi vətəndaşları – istər fağır, istər dövlətli əsgərliyə çağırıram. Hər kəs ki, bir dövlətli uşağını qələmdən salıb azad etsə, böyük cəzaya düçar olacaqdır və burası da məlum olsun ki, əsgərlər yaxşı geyəcəklər və yeməklərinin də yaxşı olmağına mən çox çalışıram. Otaqları isti olacaq və hər bir əsgər üçün ayrı yorğan-döşək hazırlatmışam. Bundan əlavə, dekabr ayından etibarən aybaay hər bir nəfər əsgərə 50 manat, onbaşılara 60 manat və balaca unter əfsərlərə 70 manat, böyük unter əfsərlərə 90 manat, feldfebellərə 120 manat məvacib veriləcəkdir. Bu məvacib onlar üçün cib xərcliyidir. Və əmr etmişəm ki, bu gündən sonra əsgərlərə təcavüz olmasın. Onları döymək və vurmaq olmasın. Ey vətəndaşlar! Bu qanunlar tamam

olandan sonra sizə məlum edirəm ki, o şəxslər ki, əsgərlikdən qaçıbdılar, onların böyük xətalarını əfv etdim. Ancaq gərəkdir ki, onlar bu sənə yanvar ayının əvvəlinə kimi gəlib öz bölüklərinə qayıtsınlar. Hər kəs qayıtmasa hərbi qanuna görə onlara cəza veriləcəkdir. Əziz olan Vətənimiz tərəfindən vətən əhlinə müraciət edib deyirəm ki, vətən hissi, millət hissi olan cavanlarımız, hansı ki, əsgərliyə düşür, borcludur ki, məhəlli əxzi-əsgər idarələrinə gəlib yazılsınlar və bununla milli qoşunumuzun təşkil olunması barəsində bizə yardım etsinlər. Hər kəs öz vəzifəsini unudub gəlmək istəmirsə, camaatın töhməti altında qaldığından divani-hərbiyyəyə veriləcəkdir. Mənim bu dəvətnaməm hər yerdə yapışdırılsın. Savadlı adamlar borcludur ki, savadsızları oxuyub qandırsınlar. General Səməd bəy Mehmandarov».

Azərbaycan hökumətinin 29 dekabr 1918-ci il tarixli qərarı ilə isə general-leytenant Şıxlinski Hərbi nazirin müavini təyin edildi (51). 1918-ci il 27 dekabr tarixli 38 nömrəli əmrini S.Mehmandarov ilk dəfə Hərbi nazir kimi imzaladı.

1918-ci il 31 dekabr tarixli 40 nömrəli əmrlə Ümumi qərargahın tərkibində olan Topçu şöbəsinin bazasında Topçu idarəsi yaradıldı. Bu idarə Ümumi qərargahın tərkibindən çıxarılaraq birbaşa Hərbi nazirə tabe edildi. Həmin əmrdə göstərilirdi ki, Topçu idarəsinin rəisi korpusun tərkibinə daxil olmayan bütün topçu hissələrinin və müvafiq strukturların rəisidir. Korpusun topçu hissələri üçün isə o, müfəttişdir. Bu hissələrdə təlim-tərbiyənin hansı vəziyyətdə olmasını nəzarət altında saxlamaqla vaxtaşırı Hərbi nazirə bu barədə məlumat verməlidir. Topçu idarəsi iki bölmədən təşkil olunmuşdu. 1-ci bölmə texniki bölmə, 2-ci bölmə isə müfəttiş bölməsi idi. Onlara Topçu idarəsi rəisinin texniki hissə üzrə və müfəttiş hissəsi üzrə müavinləri rəhbərlik edirdi. Texniki bölmə Azərbaycan Ordusunun bütün nizami hissələrinin topçu texnikası, sursatı və əmlakı ilə təchiz olunması, silah və sursatın, bütünlükdə topçu əmlakının mühafizəsi və qorunması ilə məşğul olmalı və bunun üçün lazımi metodiki göstərişləri də hazırlamalı idi. Müfəttiş bölməsi isə hissələrin və bölmələrin döyüş hazırlığı ilə məşğul olmalı, bunun üçün zəruri olan təlimatları, habelə metodiki sənədləri hazırlamalı idi (52).

Bir müddətdən sonra Ümumi qərargahın tərkibindəki İstehkam şöbəsi də İstehkam idarəsinə çevrildi və Hərbi nazirə tabe edildi (53). İstehkam idarəsi də iki şöbədən təşkil edilmişdi: istehkam və kvartira şöbələrindən. İstehkam şöbəsi – idarənin şəxsi heyətinin, ordunun bütün mühəndis qoşunlarının, hərbi hissələrin istehkam ləvazimatı ilə təmin edilməsi, qala və mövqe tikililərinin layihələşdirilməsi və icrası, eyni zamanda, yolların, körpülərin, maneələrin və digər istehkam qurğularının layihələşdirilməsi və qurulması ilə məşğul olmalı idi. Kvartira şöbəsi isə yeni qışlaların və bütünlükdə Hərbi Nazirliyin binalarının tikintisi, yenidən qurulması və təmiri, mövcud su xətlərinin bərpası və yenilərinin tikilməsi, Hərbi Nazirliyin idarələri, müəssisələri və hissələri üçün binaların kirayə edilməsi, qoşunların yanacaqla və işıqlandırıcı əşyalarla təmin edilməsi, tüstü borularının təmizlənməsinin təşkili ilə məşğul olmalı idi. İstehkam idarəsi rəisinin hüquq və səlahiyyətləri rus ordusundakı dairə qoşunları istehkam idarəsi rəisinin və müavinlərinin hüquq və səlahiyyətinə bərabər tutulmalı idi (54).

Topçu idarəsinin, İstehkam idarəsinin, topçu və istehkam anbarlarının, digər texniki hissələrin fəaliyyətinə nəzarət Hərbi nazirin müavini Ə.Şıxlinskiyə həvalə edilmişdi. O, eyni zamanda, hərbi təhsil müəssisələrinin işinə də rəhbərlik etməli idi (55).

Nazirliyin bütün idarələrinin xidmətlərinin fəaliyyəti nazirin özünün də ciddi nəzarəti altında idi. Təsdiq edilmiş əmrə əsasən idarə, şöbə və xidmət rəislərinin nazirin qəbuluna gəlməsi günləri müəyyənləşdirilmişdi. Həmin günlərə müvafiq vəzifəli şəxslər lazım olan sənədləri imzalamağa təqdim edir, eyni zamanda, nazir xidmətin təşkili barədə maraqlandığı məlumatı əldə edirdi. Hər hansı məsələ ortaya çıxanda isə vəzifəli şəxslər cədvəldə müəyyənləşdirilmiş günü gözləmədən nazirin qəbuluna yollana bilərdi (56).

İdarə, şöbə və xidmətlərin fəaliyyətinin sənədləşdirilməsi üçün də bəzi qaydalar müəyyənləşdirilmişdi. Əgər əvvəllər bütün əmrlər Hərbi Nazirlik üzrə verilirdisə, sonradan bu əmrlərin təkrarlanmasına yol verməmək üçün əmrlərin hər xidmət üzrə müvafiq strukturda hazırlanması və nazirin imzasına təqdim olunması müəyyənləşdirildi. Məsələn, əmrlər Ümumi qərargah üzrə, Nazirliyin dəftərxanası üzrə, Topçu idarəsi üzrə, İstehkam idarəsi

üzrə, Tibb hissəsi üzrə və s. xidmətlər üzrə verilirdi. Nazirliyin strukturunda sonradan yaranan yeni, müstəqil xidmətlər üzrə si-nifləşdirilən əmrlər bütün hissələrə, hərbi müəssisələrə, təhsil ocaqlarına göndərilirdi (57).

Ümumiyyətlə, Hərbi Nazirliyin rəhbərliyi orduda xidmətin təşkilinin hüquqi əsasda nizamlanmasına xüsusi diqqət yetirirdi. Qısa müddət ərzində Azərbaycan Ordusunun yeni qanunvericilik bazasının yaradılması mümkün olmadığı üçün Hərbi nazirin 1919-cu ildə imzaladığı əmrlə 1917-ci il yanvar ayının 1-dək keç-miş Rusiya imperiyasında qəbul edilmiş hərbi qanunvericilik aktları qüvvədə saxlanılırdı (58). Azərbaycan Ordusunda xidmət rejimi, əsasən, həmin qanunvericilik əsasında qurulmalı idi. An-caq bu qanunvericilik aktlarının Azərbaycan Ordusunda xidmətin bu və ya digər tərəfləri ilə uyğun gəlməyən məqamları ləğv edilir və nazirin əmri ilə həmin məqamlar təkmilləşdirilir, ya da yenisi ilə əvəz edilirdi. Məsələn, nazir hələ 1918-ci il dekabrın 27-də 34 nömrəli əmri ilə hərbi qulluqçular arasında salamlaşmanın Azərbaycan dilində və azərbaycanlılar arasındakı salamlaşma ənənələrinə uyğun olaraq aparılmasını tələb edirdi. Yəni salam-laşan şəxs «salam» deməli, qarşı tərəf isə «əleyküm salam» deyə cavab verməli idi. Həmin əmrin layihəsində salamın «salam əley-küm» kimi verilməsi nəzərdə tutulmuşdu. Ancaq S.Mehmandarov ifadənin ikinci hissəsinin üzərindən xətt çəkərək onun daha yığcam olmasını məqsədəuyğun bilmişdi. Əsgəri tərifləyərkən və ya ona minnətdarlıq bildirərkən «mərhəba» deyilməli, əsgər isə cavabında «çox sağ ol» deməli idi (59).

Hərbi qulluqçuların geyim formasında dəyişikliklər edilməsi və onun Azərbaycan Ordusuna uyğunlaşdırılması üçün xüsusi ko-missiya yaradılmışdı. Komissiyanın işinə general-leytenant Ə.Şıx-linski sədrlik edirdi (60). Komissiyanın qəbul etdiyi geyim forma-sı tətbiq edilməzdən əvvəl Hərbi nazirin əmri ilə mövcud geyim formasında qismən dəyişiklik edildi. Bu dəyişiklik, əsasən, baş geyimlərinə aid idi. Nazir tələb edirdi ki, yeni geyim layihələrinə görə bütün fəsillərdə baş geyimi papaq nəzərdə tutulduğu üçün furajkalar istifadədən götürülsün və papaqlardan istifadə edilsin.

Furajkaların papaqla əvəz edilməsi üçün nazir bir ay vaxt ayırmışdı (61).

Bütünlükdə, Hərbi Nazirliyin rəhbərliyi milli geyim nümunələrinin tezliklə tətbiqinə xüsusi əhəmiyyət verir və bu nümunələrin tətbiqi sayəsində köhnə ordu ilə olan psixoloji bağlılığı qırmaq istəyirdi. Ə.Şıxlinskinin sədrliyi ilə xüsusi komissiyanın hazırladığı geyim forması Azərbaycan Ordusu üzrə 1919-cu il yanvarın 11-də rəsmiləşdirildi. Bu geyim forması aşağıdakı kimi idi:

A) baş geyimi – piyada üçün sarı-qəhvəyi rəngli papaq. Papağın üstü bu rəngdə, ancaq baftasız olmalı idi. Süvarilər, topçular, istehkam qoşunları və qərargahları üçün qara rəngli papaq müəyyənləşdirilmişdi. Papağın üstü də qara rəngdə, özü də baftasız olmalı idi. Papağın üst hissəsinin rəngi 1-ci süvari alayında – ağ, 2-ci süvari alayında – göy, 3-cü süvari alayında – qırmızı, 4-cü süvari alayında *(yaradılsaydı – M.S.)* – narıncı olmalı idi. Generallar və qərargah zabitləri piyadaların işlətdiyi papaqdan istifadə etməli idi. Zabitlər və əsgərlər üçün eyni papaq müəyyənləşdirilmişdi;

B) frenç (əsgər pencəyi). Azərbaycan zabitlərinin əksəriyyətinin istifadə etdiyi frençlər geyim forması kimi saxlanılırdı. Bu frenç xaki rəngdə olub sümük düymələrə malik idi. Frençin boyunluğu dik idi. Əsgərlər üçün Qafqaz nümunəli köynəklər nəzərdə tutulmuşdu. İstifadədə olan frenç və kitellərin geyilməsinə icazə verilirdi. Bütün qoşun növlərindən olan zabitlər sıradan kənarda çərkəzi paltar geyinə bilərdilər;

C) şalvar. Müsəlman korpusunda istifadə edilən və boz-göy rəngdə bafta lampası olan şalvarların geyilməsi qəbul edilirdi. Əsgərlər bafta yerinə qayışdan istifadə etməli idilər. Səfərbərliyin başlanması ilə süvarilərdən başqa hamı xaki rəngli şalvar geyməli idi. Sıradan kənarda uzun şalvar geyilməsinə icazə verilirdi;

Ç) sırada zabitlər uzunboğaz çəkmədə olmalı idilər. Qısaboğaz çəkmələrin də qunç (ketr) ilə birlikdə geyilməsinə icazə verilirdi. Əsgərlər də uzunboğaz çəkmə və ya müvəqqəti hal kimi çarıq-patava geyməli idilər;

D) palto. Yaxalığının kənarında ilmələri olan, qoşun növünə görə yaxalıq nişanı taxılan boz mahuddan tikilmiş palto nümu-

nələri istifadədə saxlanılırdı. Paltoların düymələrinin mövcud nümunələri dəyişiklik aparılana qədər qüvvədə qalırdı. Yaxalıq nişanları hərbi hissələrə görə müxtəlif rəngdə idi. Əsgərlər üçün əsgər mahudundan tikilmiş şinellər tətbiq edilmişdi;

E) başlıq. Ancaq süvarilər üçün müəyyənləşdirilmişdi. Onlar papaqlarının üst rəngində olan başlıq geyməli idilər;

Ə) zabitlər xidməti vəzifəni icra edərkən, əsgərlər isə həmişə üstündə dəmir lövhəcik olmayan qurşaq kəməri taxmalı idilər. Süvarilər üçün kazak kəmərləri qəbul edilmişdi. Əsgər sırada silahla duranda revolveri də üstündən asmalı idi. Qılıncların Qafqaz nümunəsi istifadə edilməli idi. Bu qılınclar həm sırada, həm də sıradan kənarda daşınmalı idi. Nəsildən qalmış qılıncların daşınmasına icazə verilirdi. Əsgərlərdən yalnız süvari qoşunlarda xidmət edənlər qılınc daşıya bilərdilər. Topçu qoşunlarında isə yalnız səlahiyyəti olan əsgərlərə qılınc daşımağa icazə verilirdi. Xəncər həm süvari qoşunda, həm də topçu hissələrində və bölmələrində daşınmalı idi;

F) çiyin nişanələri, poqonlar. Mövcud olan göy haşiyəli poqonlar saxlanılırdı. Süvari və istehkam qoşunlarında poqonun baftası gümüşü, piyada, topçu və köməkçi qoşun hissələrində qızılı rəngdə nəzərdə tutulmuşdu. Poqonun aşağı kənarında ərəb əlifbası ilə «Azərbaycan» sözü yazılmalı idi;

G) orduda xidmət edən məmurlar da xüsusi forma geyməli və poqon gəzdirməli idilər. Onların da poqonları göy haşiyə ilə əhatələnməli və üzərinə «Azərbaycan» sözü yazılmalı idi;

Ğ) vəzifəsinə görə minik atı ayrılmış zabitlər mahmıza malik ola bilərdilər, süvarilərə, məmurlara və hərbi həkimlərə mahmız gəzdirmək qadağan edilirdi;

H) səlahiyyətli şəxslərə mövcud nümunəli yəhərlər, topçu qoşunlarında və bir sıra zabitlərin vəzifəsinə görə malik olduğu atlarda süvari yəhərləri istifadə edilməli idi (62).

1919-cu ilin əvvəllərində Azərbaycan Ordusu hissələrinin adlarında qismən dəyişiklik edildi. Hərbi nazirin 6 yanvar 1919-cu il tarixli 11 nömrəli əmri ilə Şuşa və Ağdamda dayanan piyada alayı «Cavanşir» piyada alayı, Qazax və Gəncədə yerləşən Qazax alayı «Gəncə» piyada alayı, Hacıqabulda yerləşən piyada alayı

**Cümhuriyyət ordusu zabitinin poqonu. Poqonun aşağı tərəfində ərəb hərfləri ilə "Azərbaycan" sözü yazılmışdır**



**Cümhuriyyət ordusu zabitinin poqonu. Poqonun aşağı tərəfində ərəb hərfləri ilə "Azərbaycan" sözü yazılmışdır**

«Bakı» piyada alayı, Zaqataladakı tabor isə «Əlahiddə Zaqatala taboru» adlandırıldı (63).

1919-cu ilin əvvəllərində Azərbaycan Ordusunun döyüş hissələri, əsasən, adları çəkilən bu piyada alaylarından, süvari alaylarından və topçu hissələrindən ibarət idi. Ancaq yeni-yeni döyüş hissələrinin yaradılması üçün gərgin işlər aparılırdı 1919-cu ilin yanvar ayında Gəncədə olan təlim taboru ləğv edildi və o, Gəncə alayının 2-ci taboruna çevrildi (64). Elə həmin ilin yanvar ayında bir zirehli qatarın şəxsi heyəti də komplektləşdirildi (65). Nazirlər Şurasının 22 yanvar 1919-cu il tarixli qərarı ilə Azərbaycan korpusunun qərargahı ləğv edildi və onun zabitləri Hərbi Nazirliyin aparatına cəlb edildi, bir çoxları isə hərbi hissələrə göndərildi (66).

Bir sıra hərbi xəstəxanaların, 1-ci topçu briqadasının bölmələrinin formalaşdırılması da davam etməkdə idi. Hərbi nazir S.Mehmandarov 1919-cu ilin əvvəllərində Ə.Şıxlinskiyə göstəriş vermişdi ki, dərhal ağır topçu divizionunun təşkilinə başlansın və bu zaman başlıca diqqət haubitsa batareyasının təşkilinə istiqamətləndirilsin (67).

Qoşunların sayının artması ilə onların təmin və təchiz edilməsi işləri də xeyli artmışdı. Bu işlərin öhdəsindən bütünlüklə və vaxtında gəlinməsi üçün Ümumi qərargahın tərkibində olan Ləvazimat şöbəsi 1919-cu ilin əvvəllərində Ləvazimat idarəsinə çevrilərək birbaşa Hərbi nazirin tabeliyinə keçdi (68).

1919-cu il yanvarın 10-da Hərbi Nazirlikdə Müvəqqəti Hərbi Şura yaradıldı. Hərbi Şuranın Əsasnaməsi və daimi tərkibi təsdiq edilənə qədər Müvəqqəti Hərbi Şura hərbi qanunvericilik və hərbi idarəetmə sahəsində mühüm məsələlərin müzakirə edilməsi və müvafiq qərar qəbul edilməsi ilə məşğul olmalı idi. Onun tərkibinə piyada və süvari diviziyalarının rəisləri, Ümumi qərargahın rəisi, Topçu, Ləvazimat və İstehkam idarələrinin rəisləri, general-kvartirmeyster, növbətçi general və tapşırıq generalı daxil idi. Hərbi Şuranın iclasları Hərbi nazirin, ya da onun müavininin sədrliyi altında keçirilməli idi. Hərbi xəstə xidmətinin, Hərbi baytar müdiriyyətinin və Hərbi məhkəmə xidmətinin rəisləri onların

xidmətinə aid olan məsələlərin müzakirəsi zamanı Müvəqqəti Hərbi Şuranın iclaslarına dəvət edilə bilərdilər (69).

Müəyyən dəyişikliklər aparıldıqdan sonra 1919-cu il martın birinci yarısında Hərbi Nazirliyin aparatının strukturu daha da təkmilləşdi (70). Nazirliyin ilkin təşkilində Ümumi qərargahın tərkibinə daxil olan bir sıra xidmətlərin fəaliyyət sahələri genişləndiyi üçün onların strukturu da təkmilləşdirilmiş və müstəqil struktur kimi birbaşa nazirə tabe edilmişdi.




**1919-cu il mart ayının birinci yarısında Hərbi Nazirliyin strukturu**

1919-cu il mart ayının birinci yarısına kimi Azərbaycan Ordusunun hansı idarəetmə orqanlarının, hərbi hissələrinin, idarə, müəssisə və təhsil ocaqlarının yaradıldığını, onların harada yerləşdiyini və mart ayının əvvəllərində onlara kimlər tərəfindən rəhbərlik edildiyini aşağıdakı siyahıda görmək mümkündür (siyahı ilə əlaqədar bax: 71):

| Sıra N-si | İdarə, hissə və təşkilatın adı | Rəhbər şəxs | Yerləşdiyi ərazi |
|---|---|---|---|
| 1. | Ümumi qərargah | General-mayor Həbib bəy Səlimov | Gəncə |

| Sıra N-si | İdarə, hissə və təşkilatın adı | Rəhbər şəxs | Yerləşdiyi ərazi |
|---|---|---|---|
| | a) general-kvartirmeystерin idarəsi | Vəzifəni müvəqqəti icra edən polkovnik Vasili Nikolayeviç Sokolov | Gəncə |
| | b) növbətçi generalın idarəsi | Vəzifəni müvəqqəti icra edən polkovnik Həmid bəy Qaytabaşı | Gəncə |
| | c) Hərbi Nazirliyin Dəftərxanası | Polkovnik İvan Mixayloviç Mixaylov | Gəncə |
| | ç) komendant | Polkovnik Georgi İvanoviç Lisyakov | Gəncə |
| | d) nəşriyyat | Polkovnik Georgi İvanoviç Lisyakov | Gəncə |
| | e) Hərbi topoqrafiya şöbəsi | Vəzifəni müvəqqəti icra edən kapitan Aleksandr Fyodoroviç Ledomski | Gəncə |
| 2. | Topçu idarəsi | General-mayor Murad Gəray Tlexas | Gəncə |
| 3. | İstehkam idarəsi | Polkovnik Nikolay Dimitriyeviç Savkin | Gəncə |
| 4. | Ləvazimat idarəsi | Polkovnik Yevgeni Vasilyeviç Serebrennikov | Gəncə |
| 5. | Hərbi xəstə hissəsi | Qriqori Dimitriyeviç Qabayev | Gəncə |
| 6. | Hərbi baytar müdiriyyəti | Mixail Qavriloviç Yermonski | Gəncə |
| 7. | Hərbi ədliyyə hissəsi | Podpolkovnik Vladimir Viktoroviç Samborski | Gəncə |
| 8. | Azərbaycan hərbi məhkəməsi | General-mayor Vasili İvanoviç Dubrovski | Gəncə |
| 9. | Azərbaycan Ordu livası Rəyasəti | Polkovnik Aleksandr İvanoviç Klimentyev | Gəncə |
| 10. | Hərbi daşınmalar idarəsi | Polkovnik Konstantin Pavloviç Mixaylovski | Gəncə |
| 11. | Praporşiklər məktəbi | Polkovnik Şirin bəy Kəsəmənli | Gəncə |
| 12. | İstehkam məktəbi | Polkovnik Boris Konstantinoviç Bekov | Gəncə |
| 13. | Komendatura | Podpolkovnik David Konstantinoviç Abatsiyev | Gəncə |
| 14. | Gəncə əsgər xəstəxanası | Yermolayev | Gəncə |
| 15. | Topçu cəbbəxanaları | Kapitan İlyas bəy Ququşov, podpolkovnik Mehdi bəy Sultanov | Kürdəmir |
| 16. | Zirehli qatar | Ştabs-rotmistr Əli bəy Əliyev | Gəncə |
| 17. | 1-ci diviziyanın qərargahı | Polkovnik Cavad bəy Şıxlinski | Xankəndi |
| 18. | 1-ci Cavanşir piyada alayı | Polkovnik Nuh bəy Sofiyev | I tabor Şuşa, II, III taborlar Xankəndi |

| Sıra N-si | İdarə, hissə və təşkilatın adı | Rəhbər şəxs | Yerləşdiyi ərazi |
|---|---|---|---|
| 19. | 2-ci Bakı piyada alayı | Polkovnik Məmməd bəy Məmmədov | Qusar |
| 20. | 3-cü Gəncə piyada alayı | Polkovnik Seyfulla Mirzə Qacar | I tabor Qazax, II, III taborlar Gəncə |
| 21. | Süvari diviziyası qərargahı | General-mayor Şahzadə Feyzulla Mirzə Qacar | Gəncə |
| 22. | 1-ci Tatar süvari alayı | Polkovnik Fərhad bəy Ağalarov | Gəncə |
| 23. | 2-ci Qarabağ süvari alayı | Polkovnik Davud bəy Yadigarov | Xankəndi |
| 24. | 1-ci topçu briqadası | Polkovnik Məmməd Mirzə Qacar | Gəncə |
| 25. | 1-ci yüngül topçu divizionu | Polkovnik Vladimir Samsonoviç Xarkeviç | Gəncə |
| 26. | 2-ci dağ-topçu divizionu | Podpolkovnik Nikolay İosifoviç Novruzov | Xankəndi |
| 27. | Əlahiddə Zaqatala taboru | Podpolkovnik Əhməd bəy Dibirov | Zaqatala |
| 28. | Əlahiddə Nuxa bölüyü | Ştabs-rotmistr Abakirov | Nuxa |
| 29. | Nazirlər Şurası nəzdində mühafizə bölüyü | Ştabs-rotmistr Ehsan xan Naxçıvanski | Bakı |

Bunlardan başqa, Gəncədə, Bakıda, Qubada, Nuxada, Salyanda, Göyçayda, Şuşada hərbi rəislərin (hərbi çağırış) idarələri yaradılmış, Gəncə, Poylu, Yevlax və Hacıqabul stansiyalarında hərbi komendantlar təyin edilmişdi. Şəhərlərdə yaradılmış olan hərbi rəislərin idarələrinin fəaliyyətini bütünlükdə səfərbərlik işinə rəhbərlik edən Azərbaycan Ordu Livası nizamlayırdı.

1919-cu ilin martında Azərbaycan Ordusunun idarəetmə sistemində mühüm bir keyfiyyət dəyişikliyi meydana gəldi. Hərbi nazirin əmri ilə mart ayının 26-da Baş Ərkani-hərb (Qeneralnıy Ştab) təsis edildi və onun təsdiq edilməsi barədə vəsatət qaldırıldı. Bununla bağlı Hərbi nazir S.Mehmandarovun imzaladığı məktubda göstərilirdi ki, qoşun hissələrinin təlim-tərbiyəsi, ordunun müharibəyə hazırlaşdırılması ilə gündəlik cari məsələlərin, təsərrüfat problemlərinin bir orqanda – Ümumi qərargahda birləşdirilməsi gözlənilən nəticəni vermir. Ordu böyüdükcə onun təsərrüfat məsələləri, təchizat və təminat qayğıları da artır. Onların həlli

xeyli vaxt apardığından ordunun təşkili, döyüş hazırlığının lazımi səviyyədə aparılması üçün kifayət qədər vaxt ayırmaq imkanı olmur. Belə bir boşluğun aradan qaldırılması üçün Baş Ərkani-hərbin təsis edilməsi Hərbi nazir tərəfindən məqsədəuyğun sayılırdı. Onun fikrincə, belə bir strukturun indiyə kimi yaradılmamasına səbəb müvafiq hazırlıqlı kadrın olmaması idi.

S.Mehmandarov məktubunda əlavə edirdi ki, general-leytenant, təcrübəli hərbçi, üç müharibə iştirakçısı Məmməd bəy Sulkeviçin Azərbaycana gəlişi ilə belə bir strukturun təşkili üçün imkan yaranmışdır. Yaxın gələcəkdə Krımdan daha bir neçə savadlı və təcrübəli zabitlərin Azərbaycana gəlməsi bu strukturun işinin yüksək səviyyədə qurulmasına imkan verəcəyi güman edilirdi. Nazirin mülahizələrinə görə səfərbərliyin elan ediləcəyi təqdirdə bu struktur dərhal Ümumordu qərargahına çevrilərək döyüş şəraitində qoşunların idarə edilməsini öz üzərinə götürə bilərdi. Ümumi qərargah isə öz funksiyasını yerinə yetirməklə arxa xidmətin təşkili, təchizat və təminat məsələlərinin həlli ilə məşğul olmalı idi.

Hərbi nazir onu da bildirirdi ki, Baş Ərkani-hərblə Ümumi qərargah biri digərindən üstün olan struktur deyildir və səlahiyyətlərinə görə onlar bir-birinə bərabərdir. Səlahiyyət dairələrinin düzgün bölüşdürülməsi isə onların biri digərinə mane olmadan səmərəli fəaliyyət göstərməsinə zəmin yaradacaqdır.

Baş Ərkani-hərbin təşkilindən əvvəl S.Mehmandarovun tapşırığı əsasında M.Sulkeviç bu qurumun strukturu və hər bir struktur vahidinin qarşısında dayanan vəzifələr haqqında müfəssəl bir raport hazırladı. Bu raportun hazırlanması üçün M.Sulkeviç Rusiya və Avropa ölkələrinin təcrübəsini ətraflı şəkildə öyrəndi, həmin təcrübənin Azərbaycan şəraitində tətbiqinin xüsusiyyətlərini araşdırdı və fikirlərini konkret faktlarla əsaslandıraraq S.Mehmandarova çatdırdı. Birmənalı şəkildə vurğulandı ki, hazırkı şəraitdə Rusiyada və Avropa ölkələrində ölkənin müharibəyə hazırlaşdırılması istiqamətində görülməli olan bütün işlərə ayrıca bir qurum rəhbərlik edir ki, bu qurum Baş Ərkani-hərbdir. M.Sulkeviçin qənaətincə, sülh şəraitində Baş Ərkani-hərbin tərkibi aşağıdakı



General-leytenant Məmməd bəy Sulkeviç

şöbələrdən ibarət olmalı idi: 1) Əməliyyat şöbəsi; 2) Səfərbərlik şöbəsi; 3) Kəşfiyyat şöbəsi; 4) Hərbi topoqrafiya şöbəsi; 5) Hərbi daşınmalar və rabitənin texniki şöbəsi və 6) Nizami şöbə.

S.Mehmandarov bu təkliflərlə ümumən razılaşdı, amma Baş Ərkani-hərbin strukturunun bir qədər yuvarlaqlaşdırılmasını lazım bildi. Çox güman ki, onun bu qərarı maliyyə çətinlikləri ilə bağlı idi.

Onun təklifinə əsasən bu strukturun tərkibi iki şöbədən ibarət olmalı idi. General-kvartirmeyster şöbəsi müharibəyə hazırlıq planlarının işlənməsi, toplanış məntəqələrinin seçilməsi, onların hazırlanması və səfərbərlik planının tərtib edilməsi ilə məşğul olan əməliyyat-səfərbərlik bölməsindən, xaricdəki kəşfiyyat agenturası vasitəsi ilə ehtimal olunan düşmən haqqında məlumat toplamaq, ölkə daxilindəki casuslarla mübarizə aparmaq işi ilə məşğul olan kəşfiyyat bölməsindən və ordunun təşkili, yerləşməsi və qoşunların təlim-tərbiyəsini işləyib hazırlayan nizami bölmədən ibarət idi. Baş Ərkani-hərbin tərkibinə daxil olan hərbi topoqrafiya şöbəsi isə qoşunları və qərargahları hərbi xəritələrlə təmin etməli, yeni planların çəkilişi və yeni xəritələrin tərtibi ilə məşğul olmalı idi.

Hərbi daşınmalar idarəsinin də Baş Ərkani-hərbin tərkibinə keçirilməsi nəzərdə tutulmuşdu. Bu şöbə dəmir yollarını və digər yolları hərbi məqsədlər üçün hazırlamalı və arxada cəbhənin bütün zəruri ləvazimatla təchiz edilməsini və onların daşınmasını təmin etməli idi (72).

General-leytenant M.Sulkeviç Hərbi nazirin adına yazdığı arayışda göstərirdi ki, belə bir struktur hazırda həm Rusiya ordusunda, həm də bir sıra Avropa ölkələrinin ordularında mövcuddur və həmin strukturlar ordunun müharibəyə hazırlanması işini həyata keçirirlər (73).

Hərbi nazirin 28 mart 1919-cu il tarixli 157 nömrəli əmri ilə Baş Ərkani-hərb martın 26-dan yaradılmış hesab edildi (74). Başqa bir əmrlə isə M.Sulkeviç martın 19-da Baş Ərkani-hərbin rəisi vəzifəsinin icrasına başlamış hesab edilir və general-kvartirmeyster şöbəsi, hərbi topoqrafiya şöbəsi, rabitə xidməti Ümumi qərargahın tərkibindən alınıb Baş Ərkani-hərbə verilir. Hərbi daşınmalar idarəsi də Baş Ərkani-hərbə tabe edilir (75).

Martın 31-də Hərbi Nazirliyin rəhbərliyi Nazirlər Şurası qarşısında Ümumi qərargahın növbətçi generalının şöbəsinin, Baş Ərkani-hərbin general-kvartirmeyster şöbəsinin ştatlarının artırılması barədə vəsatət qaldırdı. Həmin ştatların artırılması gənc Azərbaycan Ordusunda quruculuq işlərinin genişlənməsi, hissələrin sayının artması və bununla bağlı adları çəkilən şöbələrin üzərinə düşən vəzifələrin həcminin artması ilə əlaqələndirilirdi. Görüləcək işlərin həcmi bir neçə dəfə artsa da, onları icra edəcək şəxslərin sayının artmaması quruculuq işinin sürətinə və keyfiyyətinə əks-təsir göstərirdi. Hərbi Nazirliyin qaldırdığı məsələnin düzgünlüyü və doğruluğu qəbul edildiyindən bir müddətdən sonra adları çəkilən şöbələrin ştatları genişləndirildi (76).

General-leytenant M.Sulkeviç Baş Ərkani-hərbin rəisi təyin edildikdən sonra ordu hissələrinin formalaşması daha ahəngdar xarakter aldı. 2-ci Bakı piyada alayının formalaşdırılması sürətləndirildi (77), 3-cü Şəki süvari alayının təşkili tezliklə başa çatdı. Praporşiklər məktəbinin rəisi podpolkovnik Şirin bəy Kəsəmənli 2-ci Bakı piyada alayının, podpolkovnik Xosrov Mirzə Qacar isə 3-cü Şəki süvari alayının komandiri təyin olundular. 1919-cu il aprel ayının əvvəllərində bu zabitlərin hər ikisi polkovnik rütbəsinə layiq görüldülər (78).

1919-cu il aprel ayının əvvəllərində Hərbi nazirin müavini general-leytenant Ə.Şıxlinski Əlahiddə Zaqatala taborunda xidmətin təşkili ilə tanış oldu və orada gördüklərindən böyük bir qürur hissi keçirdi. Hərbi nazir S.Mehmandarovun adına yazdığı raportda Ə.Şıxlinski obyektiv çətinliklərin mövcudluğu şəraitində Zaqatala taborunda xidmətin çox böyük məsuliyyət və vətəndaşlıq hissləri ilə təşkil olunduğunu qeyd edir, görülən işlərin mahiyyəti və məzmunu barədə nazirə məlumat verirdi. Rastlaşdığı bir sıra nöqsanlara toxunmaqla bərabər, Ə.Şıxlinski yazırdı ki, gördükləri tabor komandiri podpolkovnik Dibirovun və onun gənc silahdaşlarının sonsuz səylərinin və işə vicdanlı münasibətinin nəticəsidir. Nazir müavini onu da əlavə edirdi ki, indiki zamanın çətinliklərinə baxmayaraq, taborda mümkün olan hər şey edilmişdir (79). Taborda xidmətin təşkilinə can yandırılması, qarşıda dayanan vəzifələrin ümum-

xalq mənafeləri baxımından və vətəndaş mövqeyindən qiymətləndirilməsi Nazirliyin rəhbərliyinin məmnunluğu ilə qarşılanmışdı.

Ə.Şıxlinskinin hesabatı ilə tanış olduqdan sonra S.Mehmandarov dərhal teleqrafla tabor komandiri Dibirova öz minnətdarlığını və təşəkkürünü çatdırdı. Bu yoxlamanın nəticələri ilə bağlı imzaladığı əmrində nazir göstərirdi ki, zabitlərin çoxunun qeyri-peşəkar olmasına baxmayaraq, digər hissələrlə müqayisədə Zaqatala taboru daha yaxşı vəziyyətdədir. Bunu nazir tabor komandiri Əhməd bəy Divirovun vicdanlı xidməti ilə, onun öz zabitlərinə qarşı atalıq qayğısı göstərməsi, şəxsi heyətə düzgün təsir edə bilməsi, gənc zabitlərin də öz bacarıqlarını əsirgəməməsi və komandirin tapşırıqlarına diqqətlə yanaşması ilə əlaqələndirirdi (80).

Hərbi nazir Zaqatala taborunun xidmətlərini sadəcə qeyd etməklə kifayətlənmədi. O, yoxlamanın nəticələri barədə məlumat alan kimi Dibirovu polkovnik rütbəsinə təqdim etdi. Aprel ayının əvvəllərində Nazirlər Şurasının qərarı ilə Ə.Dibirov polkovnik rütbəsinə layiq görüldü (81).

Ancaq qoşun hissələrinin heç də hamısında vəziyyət belə deyildi. Yoxlamalardan sonra hərbi xidmətdə ortaya çıxan laqeydlik hallarına, habelə nöqsanlara qarşı Hərbi nazir S.Mehmandarov barışmaz mövqe tuturdu. Zaqatala taborunun yoxlanılmasından az sonra onun göstərişi ilə tapşırıq generalı, general-mayor Usubov Qusara yollandı və 2-ci Bakı piyada alayının vəziyyəti ilə tanış oldu. Hacıqabulda formalaşdırılan bu alay bir müddət sonra Qusara köçürülmüşdü. Alayın komandiri polkovnik M.Məmmədov vaxtaşırı Hərbi Nazirliyə göndərdiyi raportlarda təlim-tərbiyə prosesinin və məşğələlərin mütəmadi olaraq aparılmasından, qarşıya qoyulan vəzifələrin səylə yerinə yetirilməsinə çalışmalarından yazması S.Mehmandarovda belə bir əminlik yaratmışdı ki, bu hissə tam döyüş hazırlığı vəziyyətindədir. Bakıda qoşun hissələrinin yerləşdirilməsi məsələsi ortaya çıxanda bu alayın bir taborunun şəhərə gətirilməsi qərara alındı. Bununla bağlı Hərbi nazir polkovnik M.Məmmədova 700 nəfərlik bir taborun Bakıya yola salınması barədə əmr verdi. Həmin taborun hazırlanması üçün general Usubov da Qusara göndərildi. Onun Qusara gəlməsindən sonra aydın oldu ki, alayda vəziyyət heç də alay komandirinin raportla-

rında yazılan kimi deyilmiş. Alayın şəxsi heyəti nəzərdə tutulan sayda deyildi. Hər taborda yaxşı halda 350 nəfər adam var idi. Alayın sanitar vəziyyəti, təminat səviyyəsi acınacaqlı şəkildə idi. Xüsusən iaşə və ərzaq təchizatı ən adi tələblərə belə cavab vermirdi. Bu barədə məlumat alandan sonra S.Mehmandarov çox böyük təşvişlə qeyd edirdi ki, alayın rəhbərliyinin günahı üzündən şəxsi heyət ancaq un şorbası, çörək yerinə isə xəmir kütü yeyir. Nəticədə, həm fərarilik, həm də xəstəlik geniş miqyas almışdı. Nazirlik tərəfindən təyin edilən yoxlama komissiyasının Qusara gəlməsi ilə müəyyən məsələlərin üstünün açıla bilməsindən qorxan alay xəzinədarı praporşik Məmmədov odlu silahla özünü öldürmüşdü.




**1919-cu il mart ayının 2-ci yarısında Hərbi Nazirliyin aparatının strukturu**

Həm alay komandiri polkovnik M.Məmmədovun, həm də onun müavini polkovnik Kançelinin xidməti vəzifələrin icrasına göstərdikləri məsuliyyətsizliyə və laqeydliyə görə S.Mehmandarov onların hər ikisini Azərbaycan Ordusu sıralarından xaric etdi (82).

1-ci və 3-cü piyada alaylarında da dərhal xidmətin təşkili yoxlanıldı. Bu işlər S.Mehmandarovun birbaşa nəzarəti altında aparılırdı. Həmin alaylarda aparılan yoxlamalardan alınan təəssürat da Hərbi naziri qane etmədi. Bunu o, aprelin 21-də imzaladığı 211 nömrəli əmrində xüsusi qeyd etdi. Nazir göstərirdi ki, ümumiyyətlə, hər üç piyada alayında xidmətin təşkili və qoşunların idarə edilməsi çox pis vəziyyətdədir. Bu vəziyyətin düzəldilməsi üçün S.Mehmandarov artıq bəzi addımların atıldığını bildirirdi. Polkovnik Şirin bəy Kəsəmənlinin 2-ci piyada alayına komandir təyin edilməsi bu məqsəddən irəli gəlirdi. Elə ilk gündən xidmətin düzgün təşkili və nalayiq şəxslərin alaydan uzaqlaşdırılması üçün Kəsəmənlinin gördüyü işlər nazir tərəfindən razılıqla qarşılanırdı. S.Mehmandarov piyada alaylarında vəziyyətin yaxşılaşdırılması üçün piyada diviziyasına yenicə komandir təyin edilmiş polkovnik Cavad bəy Şıxlinskiyə böyük ümidlər bəsləyirdi. Onun fikrincə, Şıxlinskinin savadı, təcrübəsi, insanlarla davranış tərzi və nəhayət vətənpərvərliyi buna zəmin ola bilərdi (83).

1919-cu il aprelin əvvəllərində müttəfiq dövlətlərin hərbi komandanlığı Bakıda da Azərbaycan Ordusunun azsaylı qoşun kontingentinin yerləşdirilməsinə icazə verdi. Martın 31-də Hərbi nazirin əmri ilə Bakı şəhərində yerləşəcək hissə və bölmələr dəqiqləşdirildi. Həmin qüvvələrə bir piyada taboru, 400 nəfərlik süvari və bir topçu batareyası daxil idi. Bütün bu qüvvələrə 1-ci Tatar süvari alayının komandiri polkovnik Ağalarov rəhbərlik edirdi. Polkovnik Ağalarova, eyni zamanda, Bakı qarnizonunun rəisi vəzifəsi həvalə olunmuşdu. Aprel ayının 1-də qoşun hissələrinin Bakıya hərəkətinin hazırlanması ilə bağlı S.Mehmandarov növbəti əmrini imzaladı. Bu əmrdən aydın görünür ki, Hərbi nazir Azərbaycanın qoşun hissələrinin ölkənin paytaxtına daxil olmasına necə böyük əhəmiyyət verirdi və bu günün yaddaqalan hadisəyə çevrilməsi üçün ciddi hazırlığın aparılmasını lazım bilirdi. Hər şeydən əvvəl Hərbi nazir eşelonların Bakıya doğru hərəkəti zamanı nizam və intizamın

gözlənilməsini müvafiq şəxslərdən tələb edirdi. Onun fikrincə, elə bir hazırlıq aparılmalı idi ki, xalq pişvazına çıxdığı ordusu ilə fəxr etsin, Azərbaycanın milli hərbi qüvvələrinin, həqiqətən də, formalaşdığının şahidi olsun. Hərbi nazirin imzaladığı əmrdə göstərilirdi ki, qoşun hissələrinin şəxsi heyəti səhər tezdən saat 7-də yuxudan qalxmalı, ən təmiz paltarlarını geyib şəhər əhalisi ilə görüşə hazırlaşmalıdır. Süvari və topçu bölmələrinin şəxsi heyəti, eyni zamanda, atları təmizləməli, onlara qulluq göstərməli və lazımi hala gətirməli idilər. Bölmə komandirləri qarşısında vəzifə qoyulmuşdu ki, onlar əsgərlərin geyimlərini ayrı-ayrılıqda yoxlasınlar və nəzarət etsinlər ki, hamıda eyni geyim forması olsun. Səhər saat 9-da qoşun bölmələri sıraya düzülərək dənizkənarı bulvarda əvvəlcədən müəyyənləşdirilmiş yerə doğru hərəkət etməli idilər. Qoşun bölmələrinin hərəkəti boyu orkestr musiqi ifa etməli idi. Qoşun bölmələrinin hərəkəti zamanı komandirlərin və zabitlərin yeri dəqiqləşdirilmişdi. Onlardan tələb olunurdu ki, şəxsi heyətin gümrah və şən əhval-ruhiyyəsinə nail olunsun və lazım olanda nizamnaməyə uyğun olaraq salamlaşmanı icra etsinlər. Qarşılanma mərasimi keçirildikdən sonra qoşun bölmələri dənizkənarı bulvar, Sadovı və Nikolayevski küçələrindən keçərək Salyan qışlalarına doğru hərəkət etməli idilər. Küçələrlə hərəkət zamanı da qoşun bölmələrinin sıra nizamı gözlənilməli və onların hərəkətinə bir təntənə verilməli idi. S.Mehmandarov əmrində xüsusi olaraq tələb edirdi ki, zabitlər və məmurlar baş geyimi kimi furajkadan deyil, milli papaqlardan istifadə etsinlər (84).

Azərbaycanın milli qoşun hissələrinin Bakıya daxil olmasına hazırlıq işlərində Baş Ərkani-hərb rəisi general-leytenant M.Sulkeviç də yaxından iştirak edirdi. Milli ordu hissələrinin Bakıya girməsinə icazə verilməsi bütünlükdə xalqın həyatında əhəmiyyətli bir hadisə idi və məlum idi ki, bu hadisə Bakı sakinləri tərəfindən maraq və sevinclə qarşılanacaqdır. Ona görə M.Sulkeviç bu hadisə ilə bağlı Bakıda Azərbaycanın müstəqilliyinə zidd olan qüvvələr tərəfindən təxribatlar törədilə biləcəyini də istisna etmirdi. Bu mümkün təxribatların qarşısının alınması üçün M.Sulkeviç Daxili İşlər Nazirliyinə müraciət etdi, nazir müavini general-mayor Sadıq bəy Ağabəyova məktub göndərdi. Həmin məktubunda da M.Sul-

keviç milli qoşun hissələrinin Bakıya gəlməsi ərəfəsində şəhərdə əks-kəşfiyyat işlərinin gücləndirilməsi barədə qarşılıqlı fəaliyyətin tənzimlənməsini vacib sayırdı. O yazırdı ki, milli ordu hissələrinin 1919-cu il aprel ayının 5-də Bakıya gəlməsinə hazırlıq işləri ilə bağlı Hərbi nazir S.Mehmandarov şəhərdə əks-kəşfiyyat işlərinin gücləndirilməsini əmr etmişdir. Bu işlərin tənzimlənməsi və hərbi əks-kəşfiyyat orqanları ilə qarşılıqlı əlaqə yaradılması üçün Hərbi Nazirlik tərəfindən yasovul Yusifov Daxili İşlər Nazirliyinə ezam olundu. M.Sulkeviç məktubunda yazırdı ki, Bakı şəhərində casus şəbəkəsinin mövcudluğu şübhə doğurmadığı bir vaxtda onlara qarşı mübarizə işini qeyri-azərbaycanlılara tapşırmaq olmaz və bu məsuliyyətli işə yalnız müsəlmanlar cəlb olunmalıdırlar. O, öz məktubunu aşağıdakı cümlələrlə bitirirdi: "Güman edirəm ki, Siz də bu fikirdəsiniz ki, biz hər ikimiz Vətən naminə bu vacib işi qətiyyətlə həll etməliyik. Bu iş respublika naminə elə sonsuz sədaqət tələb edir ki, onu heç bir pulla almaq mümkün deyil" (84a).

Aprelin 5-də həmin qüvvələr Bakıya daxil oldu və Salyan kazarmalarında yerləşdirildi. Bakıya Azərbaycan qoşun hissələrinin daxil olması münasibətilə Hərbi nazir S.Mehmandarov da Bakıya gəlmişdi. Şəhər əhalisi Azərbaycan Ordusunun hissə və bölmələrini böyük təntənə ilə qarşıladı. Azərbaycan Ordusunun hissələrini qarşılayan şəhər camaatının izdihamlı mitinqi keçirildi. Həmin mitinqdə milyonçu H.Z.Tağıyev çıxış edərək belə bir ordunun yaradılması münasibətilə S.Mehmandarovu təbrik etdi (85).

Qoşun hissələrinin hərəkət etdiyi küçələrdə son dərəcə çoxlu insan toplaşmışdı. Bu insanların çoxu inana bilmirdi ki, qısa müddət ərzində Azərbaycan özünün mübariz qoşun hissələrini formalaşdırmağa müvəffəq olmuşdur. Xüsusilə Nikolayevski küçəsində böyük bir qələbəlik var idi. Küçə boyu binaların divarları və balkonları milli bayraqlarla bəzədilmişdi. Milli qoşun hissələrinin Bakıya gəlməsinə sevinən insanlar hətta küçə boyunca yerləşən ağaclara dırmaşaraq mətin addımlarla irəliləyən piyada və süvariləri izləyirdilər.

1919-cu ilin ortalarında Hərbi nazirin qərarı ilə 2-ci Bakı piyada alayının 2-ci taborunun bazasında yeni bir alayın yaradılmasına başlandı. Bu alayın formalaşdırılması Hərbi nazirin yanında tapşırıq



1919-cu il aprel ayının 5-də milli ordu bölmələrinin Bakıya daxil olması



1919-cu il aprel ayının 5-də milli ordu bölmələrinin Bakıya daxil olması

zabiti olan podpolkovnik İsrafilova həvalə olundu. Onun rəhbərliyi altında dərhal kadrların seçilməsinə, yerləşdirilməsinə və onların təkmilləşdirilməsinə başlandı. Nəzərdə tutulmuşdu ki, taborun iki bölüyünün bazasında yeni taborlar təşkil olunsun. Həmin bölüklərdən alınmış bir bölmənin bazasında isə üçüncü tabor yaradılmalı idi. Yeni əsgərlərin gəlməsi ilə alayın ştatında olan digər bölmələr – təlim bölməsi, kəşfiyyatçılar komandası, rabitə xidməti, pulemyot bölükləri və s. də komplektləşdirilməli idi (86).

Eyni zamanda, Əlahiddə Zaqatala taborunun da alaya çevrilməsi üçün qərar qəbul edildi. Formalaşdırma planına əsasən yeni alayın qərargahı, 1-ci taboru, habelə rabitə komandası, atlı çaparlar, lazaret və musiqi komandası Zaqatala qalasında, 2-ci tabor, atlı kəşfiyyatçılar, təlim komandası, qeyri-nizami bölük və araba parkı şəhərdə, 3-cü tabor, istehkam bölüyü, piyada kəşfiyyatçılar komandası isə Nuxada yerləşdirilməli idi. Hərbi Nazirliyin rəhbər-




**4-cü Zaqatala piyada alayının strukturu**

liyi taborun komandanlığından tələb edirdi ki, alayın formalaşdırılmasının vaxtında başa çatdırılması üçün əsgərlərin düzgün bölüşdürülməsinə, ixtisaslı əsgərlərin ilk növbədə istehkam bölüyünün və digər komandaların komplektləşdirilməsi üçün seçilməsinə başlansın. Zaqatalada yerdə qalan digər əsgərlər iki tabor üçün bərabər səviyyədə bölüşdürülməli və onların hazırlaşdırılmasına başlanmalı idi. Nuxa bölüyündə olan əgərlər burada yerləşəcək taborun bazasını təşkil etməli idi. Zabitlər və məmurlar da bərabər səviyyədə bölüşdürülməklə taborların və bölmələrin ehtiyacları ödənməli idi. Alay üçün yeni gələn əsgərlər də bölüşdürülməli və ilkin hazırlıq dövrünü keçikdən sonra öz bölmələrinə göndərilmə-

li idi. Yeni gələcək əsgərlər arasında ixtisaslı və savadlı əsgərlərin düzgün yerləşdirilməsinə xüsusi fikir verilməli idi (87).

Nəzərdə tutulan bu vəzifələrin vaxtında icra olunması tezliklə özünün müsbət nəticəsini verdi. Hərbi nazirin 1 iyun 1919-cu il tarixli 275 nömrəli əmri ilə Əlahiddə Zaqatala taboru 4-cü Zaqatala piyada alayı adlandırıldı və 1-ci piyada diviziyasının tərkibinə daxil edildi. Polkovnik Dibirov alayın komandiri vəzifəsində saxlanıldı.

Bakıda yaradılmasına başlanan alayın formalaşdırılması isə iyun ayının axırlarında başa çatdı. Hərbi nazirin 25 iyun 1919-cu il tarixli 311 nömrəli əmri ilə Bakıda yaradılan yeni alay 5-ci Bakı piyada alayı adlandırıldı. Əvvəlcə mövcud olan 2-ci Bakı piyada alayının adı isə dəyişdirildi və həmin alay 2-ci Quba alayı adlandırıldı. Hərbi nazirin yanında tapşırıq üzrə ştabs-zabit, podpolkovnik İsrafilov yeni yaradılan 5-ci Bakı piyada alayının komandiri təyin edildi və onun qarşısında alayın tam təşkilini tezliklə başa çatdırmaq vəzifəsi qoyuldu. Bu alayın qərargahı Bakıda yerləşməli idi (88).

Elə 1919-cu il iyunun 25-də Azərbaycan hökumətinin qərarı ilə daha üç zabit general-mayor rütbəsinə layiq görüldü. Həmin zabitlər Həmid bəy Qaytabaşı, Cavad bəy Şıxlinski və 1-ci topçu briqadasının komandiri Məmməd Mirzə Qacar idilər. Cavad bəy Şıxlinski 1-ci piyada diviziyasının komandiri kimi öz gərgin fəaliyyəti ilə Hərbi Nazirliyin rəhbərliyinin rəğbətini qazanmışdı. Elə general-mayor rütbəsi almaq ərəfəsində Nazirliyin vəzifəli şəxsləri tərəfindən aparılan yoxlama tanışlıqdan sonra 1-ci piyada diviziyasının komandiri Cavad bəy Şıxlinskinin, o cümlədən 1-ci Cavanşir piyada alayının komandiri polkovnik Sofiyevin, 2-ci Qarabağ süvari alayının komandiri polkovnik Yadigarovun, 2-ci dağ-topçu divizionunun komandiri podpolkovnik Novruzovun xidmətləri bir daha təqdir olunmuş və onlara nazir tərəfindən təşəkkür elan edilmişdi (89).

Hərbi nazirin təşəkkürünü almış polkovnik Yadigarov həmin günlərdə 1-ci süvari diviziyası komandirinin müavini təyin edildi. Süvari diviziyasının komandirliyinə isə Yadigarovun təyinatından təxminən bir neçə gün əvvəl 1-ci Tatar süvari alayının komandiri

polkovnik Teymur bəy Novruzov təyin edildi. İki alay komandirinin yüksək vəzifəyə irəli çəkilməsi bir neçə hissədə komandir heyətinin yerdəyişməsi ilə nəticələndi. 1-ci Tatar süvari alayının komandiri vəzifəsinə 1-ci Cavanşir piyada alayının komandiri polkovnik Sofiyev təyin edildi. Cavanşir piyada alayının komandanlığı isə polkovnik Levestama tapşırıldı. Polkovnik Yadigarovun yerinə 2-ci Qarabağ süvari alayının komandiri polkovnik Tuqanov təyin edildi (90).

Bu təyinatların və yerdəyişmələrin aparılmasına müəyyən mənada, həm də süvari diviziyasının komandiri vəzifəsinin icraçısı, diviziyanın qərargah rəisi general-mayor Amaşukelinin öz xahişinə görə xidmətdən getmək arzusu olmuşdu. 1919-cu ilin əvvəllərində Azərbaycan Ordusunda xidmətə başlayan general Amaşukeli bir neçə ay diviziyanın komandiri vəzifəsini icra etmiş, sədaqətli xidməti ilə diviziyanın möhkəmlənməsinə lazımınca kömək göstərmişdi. Onun xidmətinin başa çatdırılması ilə bağlı imzaladığı əmrində S.Mehmandarov qeyd edirdi ki, general Amaşukeli işgüzarlığı, ardıcıllığı və məsuliyyəti ilə fərqlənirdi. Buna görə də Hərbi nazir Amaşukelinin öz xidmətini başa vurmasına həm təəssüf edir, həm də faydalı xidmətinə görə ona öz təşəkkürünü bildirirdi (91).




**1919-cu ilin iyun ayında Azərbaycanın döyüş birləşmələri və hissələrinin strukturu**

1919-cu ilin iyun və iyul aylarında 4-cü Zaqatala piyada alayının və 5-ci Bakı piyada alayının təşkilindən sonra qoşunların idarə edilməsində yeni strukturun, yəni 2-ci piyada diviziyasının təşkil edilməsi zərurəti yarandı. Bu barədə 1919-cu il iyulun 14-də Hər-

bi nazir 328 nömrəli müvafiq əmrini imzaladı. Həmin əmrdə mövcud beş piyada alayından iki piyada diviziyasının yaradılması məqsədəuyğun bilinirdi.

Hərbi nazirin 14 iyul 1919-cu il tarixli əmrinə əsasən Zaqatala və Quba alaylarının nömrələri dəyişdirildi. Zaqatala alayı 2-ci piyada alayı, Quba alayı isə 4-cü piyada alayı adlandırıldı. 1-ci piyada diviziyasının tərkibinə 1-ci Cavanşir piyada alayı, 2-ci Zaqatala piyada alayı və 3-cü Gəncə piyada alayı daxil edildi. 2-ci piyada diviziyasının tərkibinə isə 4-cü Quba və 5-ci Bakı piyada




**1919-cu il iyul ayının birinci yarısında piyada diviziyalarının strukturu**

alayları daxil edildi. 1-ci piyada diviziyasının qərargahı Gəncədə idi və bu diviziyaya general-mayor C.Şıxlinski komandirlik edirdi. 2-ci piyada diviziyasının qərargahı isə Bakıda idi və bu diviziyanın komandiri vəzifəsinə Hərbi Nazirliyin tapşırıq generalı, general-mayor İ.Usubov təyin edildi (92).

Avqust ayında artıq 6-cı piyada alayının təşkili də başa çatdırıldı. Bu alay Göyçay alayı adlandırılıb 2-ci piyada diviziyasının tərkibinə daxil edildi (93).

Piyada diviziyalarının hər birinin tərkibi üç alaydan ibarət nəzərdə tutulmuşdu. Alayların hər biri 3 minədək şəxsi heyətdən ibarət olmalı idi. Hər alay üç tabordan, hər tabor isə dörd piyada bölüyündən və bir pulemyot bölüyündən təşkil edilməli idi. Hər pulemyot bölüyünün tərkibində 8 pulemyot var idi. Bundan başqa, alaylarda bir süvari kəşfiyyat bölüyü, bir istehkam bölüyü, bir rabitə-telefon bölüyü və bir qeyri-nizami bölük var idi. Taborun şəxsi heyətinin sayı 1000 nəfər idi (94).



General-mayor İbrahim ağa Usubov




**Piyada alayının strukturu**

Süvari diviziyası da üç alaydan təşkil edilmişdi. Həm diviziya, həm də alayın qərargahının ştatında xeyli az adam var idi. Bu da həmin şəxslərdən daha çevik və səmərəli iş tələb edirdi. Süvari diviziyasının qərargahı diviziya komandirindən (rütbə kateqoriyası – general-leytenant və ya general-mayor), diviziya komandirinin müavinindən (general-mayor), qərargah rəisindən (polkovnik), baş yavərdən (podpolkovnik və ya rotmistr), ləvazimat zabitindən, süvari-istehkam xidmətinin rəisindən və mülki şəxs olan diviziya həkimindən ibarət idi (95).




**Süvari diviziyasının strukturu**

Süvari alayının qərargahı isə alay komandirindən (rütbə kateqoriyası – polkovnik), üç nəfər qərargah zabitindən (rütbə kateqoriyası – podpolkovnik, həmin zabitlərdən biri nizami xidmət

üzrə, biri təsərrüfat hissəsi üzrə və biri isə kiçik qərargah zabiti idi), bölük komandirlərindən (rotmistr, ştabs-rotmistr, süvari bölüyü komandiri, bir pulemyot bölüyü komandiri) alay yavərindən (ştabs-rotmistr və ya rotmistr), alay yavərinin rabitə xidməti üzrə köməkçisindən, təlim komandasının rəisindən (ştabs-rotmistr və ya rotmistr), köməkçi və kiçik zabitlərdən ibarət idi. Bunlardan başqa, alayın qərargahında mülki şəxslərdən ibarət bir həkim, bir baytar həkimi, təsərrüfat üzrə kargüzar, xəzinədar, kvartirmeyster, silah ustası və molla var idi. Hər süvari bölüyü 288 süvaridən və 20 piyadadan ibarət idi. Pulemyot bölüyündə 48 adam, rabitə komandasında 40 adam var idi. Bütünlükdə süvari alayında 28 zabit, 7 nəfər məmur, 680 əsgər və 29 muzdlu sıravi var idi (96).

Piyada alaylarının say tərkibi eyni deyildi. Onların arasında müəyyən fərqlər də mövcud idi. Məsələn, 1-ci Cavanşir piyada alayının ştat tərkibi belə idi: qərargah zabiti – 6 nəfər, baş zabit – 55 nəfər, həkim – 4 nəfər, məmur – 6 nəfər, molla – 1 nəfər, onbaşı – 18 nəfər, çavuş – 296 nəfər, sıravi – 2303 nəfər. Əlavə olaraq, alayın qeyri-nizami komandasında 1 nəfər onbaşı, 49 nəfər çavuş və 146 nəfər sıravi var idi. Alayda 239 yük atı olmalı idi (97). 2-ci Zaqatala piyada alayının ştat tərkibi isə belə idi: qərargah zabiti – 6 nəfər, baş zabit – 55 nəfər, məmur – 6 nəfər, molla – 2 nəfər, onbaşı – 18 nəfər, çavuş – 259 nəfər, sıravi – 2303 nəfər. Qeyri-nizami komandada isə 219 nəfər sıravi olmalı idi. Əlavə olaraq alayın ştatında 85 baş nizami at və 121 baş yük atı nəzərdə tutulmuşdu (98).

1919-cu ilin yayında və payızında Azərbaycan Ordusu hissələrinin formalaşdırılması böyük sürətlə davam edirdi. Bu dövr qoşun hissələrinin yaradılmasında ən məhsuldar dövr sayıla bilər. Tarixi şərait, bir tərəfdən Denikin qoşunlarının hücum təhlükəsi, digər tərəfdən də millətçi-erməni qoşun dəstələrinin və könüllülərinin Zəngəzur və Qarabağda xeyli fəallaşması Azərbaycandan öz ərazilərinin silahlı müdafiəsinə daim hazır olmağı tələb edirdi. Şimaldan gözlənilən Denikin təhlükəsinin qarşısını almaq üçün nazirin əmri ilə Xaçmaz dəstəsi yaradıldı. Onun tərkibinə Quba alayı, 3-cü Gəncə piyada alayının bir taboru, 1-ci Tatar süvari alayı, 1-ci topçu briqadasının 2-ci divizionu, İstehkam məktəbi və

dəstənin qərargahı daxil idi (99). Bu dəstə 2-ci piyada diviziyasının təşkilindən bir müddət əvvəl yaradılmış və general- mayor Usubov onun komandiri təyin edilmişdi (100). General-kvartirmeyster vəzifəsinin müvəqqəti icraçısı podpolkovnik Zeynalov isə dəstənin müvəqqəti qərargah rəisi təyin edilmişdi. Sonradan o, birdəfəlik bu ştat vəzifəsinə təsdiq edildi (101). Podpolkovnik Zeynalovdan sonra general-kvartirmeyster vəzifəsinə polkovnik Karqaleteli təyin edilmiş və o, müstəqil Azərbaycan Ordusunun mövcudluğunun son günlərinədək bu vəzifəni icra etmişdi.

General-mayor Usubovun 2-ci piyada diviziyasının komandiri təyin edilməsi ilə bağlı olaraq Xaçmaz dəstəsinin komandiri vəzifəsinə polkovnik Kəsəmənli təyin edildi. Usubova göstəriş verildi ki, dəstəni polkovnik Kəsəmənliyə təhvil verib Bakıya qayıtsın və yeni vəzifənin icrasına başlasın. Xaçmaz dəstəsindəki 1-ci Tatar süvari alayından başqa digər hissələr polkovnik Kəsəmənlinin əməliyyat rəhbərliyinə verildi (102).

Polkovnik Kəsəmənli yeni vəzifənin icrasına bütün gücü ilə girişə bilməsi üçün Quba piyada alayının komandiri vəzifəsindən azad edildi və həmin vəzifənin icrası podpolkovnik Ququşova həvalə edildi. Nazirin müvafiq əmrində qeyd edilirdi ki, polkovnik Kəsəmənli yeni vəzifəsinin icrası ilə bərabər Quba alayının təşkilinin başa çatdırılmasını da xüsusi nəzarət altında saxlamalıdır (103).

1919-cu ilin iyun ayının son günləri və iyulun əvvəllərində Hərbi Nazirliyin rəhbər orqanları Bakıya köçürüldü. Nazirin müvafiq əmri ilə idarə, şöbə və xidmətlərin Bakıya köçürülməsi üçün iki eşelon ayrıldı. Birinci eşelonla iyunun 28-də Ləvazimat idarəsi, İstehkam idarəsi, Hərbi xəstə idarəsi, Hərbi baytar hissəsi və Azərbaycan Hərbi məhkəməsi yola düşməli və səhərisi gün onlar Bakıya çataraq əvvəlcədən müəyyənləşdirilmiş binalarda yerləşməli idilər. İyulun 1-də yola düşəcək eşelon isə Ümumi qərargah, Baş Ərkani-hərb, Azərbaycan Ordu Livası Rəyasətinin dəftərxanasını, nəşriyyat və avtomobil hissəsini Bakıya köçürməli idi (104).

Hərbi Nazirliyin aparatı, Ümumi qərargah və Baş Ərkani-hərb Bakıda Krasnovodsk və Merkuri küçələrinin (indiki S.Vurğun küçəsi və Z.Əliyeva prospektinin) kəsişməsinin sağ tərəfində olan binada yerləşdirildi (105).

1919-cu ilin iyul-avqust aylarında əlahiddə haubitsa batareyasının, dağ-süvari batareyasının, 1-ci topçu briqadasının, 6-cı dağ batareyasının, 2-ci topçu briqadasının, 2-ci yüngül və 1-ci dağ batareyasının təşkili davam etdirildi (106).

Avqust ayında Lənkəranda anarxiya və özbaşınalıqları aradan qaldırmaq, orada Azərbaycan hökumətinin hakimiyyətini bərqərar etmək üçün Xüsusi Lənkəran dəstəsi təşkil edildi (107). Bu dəstə ona verilən tapşırıqları icra edib başa çatdırdıqdan sonra elə avqust ayında Lənkəranda ehtiyat piyada taborunun təşkil edilməsi qərara alındı. Kapitan S.Rəfibəyov bu taborun komandiri təyin edildi, tabor özü isə 2-ci piyada diviziyasının tərkibinə daxil edildi (108).

Yuxarıda qeyd edildiyi kimi, 1919-cu ilin avqust ayında 6-cı piyada alayının da təşkilinə başlandı. Bakının Bayıl hissəsində yerləşməli olan bu alayın komandiri vəzifəsinə polkovnik Əfəndiyev təyin edildi və alayın formalaşdırılması ona tapşırıldı (109).

Şimaldan gözlənilən təhlükənin qarşısının alınmasına hazır olmaq üçün 1919-cu il iyul ayının 1-də Azərbaycan Parlanmenti xüsusi könüllü dəstələrin də yaradılması barədə qərar qəbul etdi. Bu dəstələrin təşkilində əsas məqsəd silah tutmağı bacaran əhalinin müharibəyə hazırlaşdırılması idi. Bu dəstələr Bakının Sabunçu (rəhbəri – poruçik Əlimərdan və Fəxri əfəndi), Mərkəz (rəhbəri – kapitan Şərafəddin və podporuçik Hacıağa), Balaxanı (rəhbəri – poruçik Əhməd Gülüsü və praporşik Hüseyn Hilmi), Zabrat, Suraxanı (rəhbəri – podporuçik Əhməd Şükrü və onbaşı Osman Mustafa oğlu), Hilə (rəhbəri – poruçik Osman və praporşik Hüseyn), Aşağı Bibiheybət (rəhbəri – Hüseyn Hüsnü), Yuxarı Bibiheybət (rəhbəri – podporuçik Həsən Nicati), Qara şəhər (rəhbəri – poruçik Osman və praporşik Feyzulla Rəhman), Ağ şəhər (rəhbəri – praporşik Kamal), Tağıyev fabriki (rəhbəri – praporşik Mahmud), Binəqədi (rəhbəri – praporşik Ağəli Cəfərzadə), Maştağa (rəhbəri – kapitan Səbri) və Nardaran (rəhbəri – podpolkovnik Daniel Ənvər) yaşayış məntəqələrini əhatə edirdi. Dəstənin ümumi rəhbəri Yusif Ziya Talıbzadə, onun müavini isə Tasimbek Kunduxov təyin edildilər (110). Qeyd etmək lazımdır ki, dəstəyə qəbul edilmiş zabitlərin əksəriyyəti türk zabitləri idi. Türkiyədə mövcud olan ağır vəziyyətdən və təqiblərdən canını qurtarıb Azərbaycana gələn türk

zabitləri Azərbaycan hökuməti tərəfindən mehribanlıqla qarşılanır və dolanışıqlarının təmin edilməsi üçün onlar mümkün olan işlərə qəbul edilirdilər. Bununla bağlı bir sıra türk zabitləri «Yardım alayı» adlandırılmış könüllü dəstəyə qəbul edilmişdi. Bu dəstə Hərbi Nazirliyin tabeliyində yaradılmışdı.

Bir müddət sonra «Azərbaycan Respublikasının könüllü taboru haqqında» Əsasnamə də təsdiq edildi. Həmin Əsasnaməyə görə könüllü tabor Azərbaycan Respublikası hökumətinin dövlət quruluşunu müdafiə etmək və bu işdə yardım göstərmək üçün Vətəninə xidmət etmək arzusunda olan respublika vətəndaşlarından könüllü şəkildə yaradıla bilərdi. Həmin tabor aşağıdakı kontingentdən komplektləşdirilə bilərdi: a) 17 yaşından 50 yaşınadək fiziki cəhətdən sağlam; b) istintaqa cəlb edilməmiş və siyasi cəhətdən etibarlı; c) hərbi mükəlləfiyyəti keçmiş və keçməmiş olan vətəndaşlar bu tabora daxil ola bilərdi. Əsasnamədə o da göstərilirdi ki, könüllü tabor üzvləri xidmətin təşkili zamanı Azərbaycan Ordusunda qəbul olunmuş nizam və intizam tələblərinə əməl etməlidirlər (111).

1920-ci il martın 27-də Dövlət Müdafiə Komitəsi «Yardım alayı»nın Hərbi Nazirliyin strukturundan çıxarılaraq Daxili İşlər Nazirliyinə tabe edilməsi barəsində qərar qəbul etdi (112).

Hərbi hissələrin və obyektlərin Bakıda çoxalması, habelə Bakının ölkənin paytaxtı kimi yeri və əhəmiyyəti nəzərə alınaraq 1919-cu il avqust ayının əvvəllərində burada komendatura təsis edildi. Təsdiq edilmiş müvəqqəti ştata görə komendaturanın tərkibində Bakı şəhər komendantı (rütbə kateqoriyası general-leytenant və ya general-mayor), komendantın müavini (polkovnik), baş yavər (kapitan), kiçik yavər (baş zabit), hauptvaxtda xidmət etmək üçün beş əsgər, bir neçə kargüzar və zabit olmalı idi. Bu xidmətin dərhal və keyfiyyətlə təşkili üçün ehtiyatda olan general-mayor Firudin bəy Vəzirov həqiqi hərbi xidmətə qəbul edildi və Bakı şəhərinin komendantı təyin edildi. Bakı şəhər qarnizonunun rəisi vəzifəsinin müvəqqəti icrası da ona həvalə edildi. Ona qədər şəhər komendantı olmuş polkovnik Vəzirov səlahiyyətləri genişləndirilmiş olan yeni Bakı şəhər komendantının müavini vəzifəsində saxlanıldı (113).

Bir neçə gündən sonra, yəni avqust ayının 16-da qərargahı Bakıda yerləşən 2-ci piyada diviziyasının komandiri Usubov Bakı



General-mayor Firudin bəy Vəzirov

qanizonunun rəisi təyin edildi. General F.Vəzirov bu vəzifədən azad edildi və ona yalnız Bakıda komendant xidmətinin təşkili tapşırıldı (114).

16 avqust 1919-cu il tarixli 359 nömrəli əmrində Hərbi nazir general Usubovun Bakı şəhər qarnizonunun rəisi təyin edilməsini bildirməklə, həm də İstehkam idarəsinin rəisi polkovnik Savkinin öz xahişi əsasında xidmətdən azad olduğunu elan edərək vicdanlı işinə görə ona minnətdarlıq və təşəkkürünü çatdırdı.

Təxminən ikihəftəlik bir müddətdə şimal sərhədində və Bakı ətrafında istehkam işlərinin genişlənməsi ilə fəaliyyəti xüsusi əhəmiyyət kəsb edən İstehkam idarəsinə mülki mühəndis Zübeir bəy Temirxanov rəhbərlik etdi. Avqustun axırında isə bu vəzifəyə general-leytenant Tarxanov təyin edildi.

Azərbaycan Ordusunda xidmətə qəbul edilən bu təcrübəli general avqustun 25-dən İstehkam idarəsinin rəisi vəzifəsinin icrasına başladı (115).

Qusar ətrafında olan 1-ci Tatar süvari alayının komandiri polkovnik Sofiyevə Qusar qarnizonunun rəisi vəzifəsi, polkovnik Ağalarova isə Bakı hərbi limanının komendantı vəzifəsi həvalə olundu (116).

Ölkənin müdafiəsinin gücləndirilməsi ilə bağlı genişlənən hər cür mühəndis-istehkam işlərinə ümumi rəhbərlik general-kvartirmeyster polkovnik Karqaleteliyə tapşırıldı (117).

1919-cu ilin avqustunda Hərbi Nazirliyin idarəetmə orqanlarının strukturlarında da bir sıra dəyişikliklər edildi. 2-ci zirehli qatarın təşkili başa çatdıqdan sonra həm 1-ci, həm də 2-ci zirehli qatarlar Ümumi qərargahın tabeliyindən çıxarıldı və onlar Baş Ərkani-hərbin general-kvartirmeyster şöbəsinə tabe edildi. Həmin qatarlar müəyyən vəzifənin icrası üçün bu və ya digər dəstənin tərkibinə verildikdə əməliyyat baxımından bu dəstənin komandanlığına tabe olmalı idilər (118).

Ümumi qərargahın tərkibinə daxil olan bəzi digər strukturların da tabelik əlaqələrində müəyyən dəyişikliklər edildi. Hərbi nazirin 17 avqust 1919-cu il tarixli 368 nömrəli əmrinə əsasən Hərbi Nazirliyin Dəftərxanası, Praporşiklər məktəbi, Avtomobil hissəsi, o cümlədən artıq yuxarıda xatırlanan zirehli qatarlar Ümu-

mi qərargahın tabeliyindən çıxarıldı. Nazirliyin Dəftərxanası birbaşa nazirin özünə, Praporşiklər məktəbi ilə zirehli qatarlar Baş Ərkani-hərb rəisinə, Avtomobil hissəsi isə İstehkam idarəsinin rəisinə tabe edildi. Bu dəyişiklikdən sonra Ümumi qərargahın tərkibində Növbətçi generalın idarəsi və Azərbaycan Ordu Livası Rəyasəti qaldı (119).

Hərbi Nazirliyin rəhbərliyi Hərbi Şuranın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı da bir sıra təkliflər irəli sürdü. Hələ 1919-cu ilin mart ayında Hərbi nazirin müavini Hərbi Şuranın fəaliyyətini təhlil edərkən bir sıra təkliflərin həyata keçirilməsini vacib bilmişdi. Onun fikrinə görə, Hərbi Şuraya daxil olan vəzifəli şəxslər həddən artıq gərgin işləyirlər və bunun üçün də müstəqil vəzifələrinin icrası onlardan çox vaxt tələb edirdi. Nəticədə onlar Hərbi Şuranın işinə kifayət qədər vaxt ayıra bilmirdilər. Digər tərəfdən də bu və ya digər vəzifəli şəxsin xidməti sahəsinə yaxın olan məsələlərin müzakirəsi zamanı onlar özləri və rəhbərlik etdikləri xidmət sahələri üçün daha maraqlı olan mövqelərdə dayanırdılar. Ona görə də Ə.Şıxlinski Hərbi nazirdən xahiş etdi ki, bir sıra təkliflərin həyata keçirilməsi üçün Nazirlər Şurası qarşısında vəsatət qaldırsın. Həmin təkliflərin mahiyyəti bundan ibarət idi ki, Hərbi Şura Ali Hərbi orqan kimi heç bir digər vəzifəsi olmayan təcrübəli hərbçilərdən təşkil edilsin. Bu hərbçilər Hərbi Şuranın üzvü kimi yalnız Hərbi Şuranın fəaliyyətinin təşkili ilə məşğul olmalı və kənar heç bir işə cəlb edilməməli idilər. Belə olduqda Hərbi Şura daha səmərəli fəaliyyət göstərər və müzakirə edilən məsələlər barədə heç kəs maraqlı mövqe tutmazdı. Hərbi Nazirliyin yüksək vəzifəli şəxslərini isə Ə.Şıxlinski Hərbi Şuranın iclasına məşvərətçi səslə dəvət etməyi məqsədəyğun bilirdi. General Ə.Şıxlinski Hərbi Şuranın daimi ştatlı üzvlərinin 4 il müddətinə təyin edilməsi təklifini irəli sürürdü. Onun fikrincə, həmin müddət qurtarandan sonra kimlərin vaxtının uzadılması barədə Hərbi nazir özü hökumət qarşısında vəsatət qaldırmalı idi (120).

1919-cu ilin avqustun 18-də Ə.Şıxlinski Hərbi Şuranın fəaliyyəti ilə bağlı Hərbi nazirə yeni bir məruzə hazırladı. General Ə.Şıxlinski həmin məruzədə də Hərbi Şuranın fəaliyyətinin heç də günün tələbləri səviyyəsində qurulmadığını bildirirdi. Onun fik-

rincə, hərbi qanunvericiliyin təkmilləşdirilməsi və hərbi təsərrüfatın idarə edilməsi, habelə hərbi xidmətin təşkili sahəsində zəruri qərarların qəbul edilməsi ilə bağlı məsələlər Hərbi Şurada müzakirə edilsə də, bu xarakterli məsələlərin böyük bir hissəsi şəxsən nazirin özü qarşısında qaldırılır və bununla da onun əlavə yüklənməsinə yol açırdı. Halbuki Ə.Şıxlinskiyə görə, Hərbi Şuranın işi yaxşı qurulduğu təqdirdə bu məsələlər orada müzakirə olunar və səlahiyyətli qərarlar qəbul edilə bilərdi. Nəticədə Hərbi nazir də bəzən ona aid olmayan məsələlərin həllinə xeyli vaxt ayırmazdı (121).

Ə.Şıxliski mövcud olan nöqsanları aradan qaldırmaq üçün Hərbi Şuranın fəaliyyətinə diqqətin artırılmasını, bu strukturun çevik və işlək bir orqana çevrilməsini zəruri bildi. Bunun üçün o, maliyyə və təsərrüfat məsələləri ilə bağlı olan məsələlərin müzakirə edilməsində daha doğru qərarın qəbul edilməsi ilə bağlı müvafiq mülki nazirliklərin nümayəndələrinin də Hərbi Şuranın tərkibinə daxil edilməsini təklif edirdi (122).

Hərbi Şuranın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Hərbi nazir S.Mehmandarov da raportla Nazirlər Şurasının sədrinə müraciət etdi. O bildirirdi ki, öz daxili rejimi olan, xüsusi fəaliyyətində ayrıca hərbi qanunvericiliyə dayaqlanan ordu müstəqil və bütöv bir orqanizmdir. Ordu, eyni zamanda, dövlətin büdcəsinin ən böyük məsrəfçisidir. Ona görə də istər xüsusi qanunvericilik bazasının təkmilləşdirilməsi, istərsə də külli maliyyə məsrəflərini tələb edən təsərrüfat həyatının düzgün qurulması səlahiyyətli orqanın mövcudluğunu tələb edir ki, Hərbi Şura belə bir orqan olmalıdır. Nazir məlumat verirdi ki, Rusiya ordusunun Hərbi Şurası hərbi xidmətin müxtəlif sahələrində uzun illər təcrübəsi olan şəxslərdən təşkil edilir və onlar bu vaxt başqa vəzifələrdən azad edilirdilər (123).

Hərbi Şuranın bu cür təşkilinin onun fəaliyyətinin səmərəliliyini xeyli artırdığını etiraf etməklə bərabər, Hərbi nazir S.Mehmandarov həmin variantın Azərbaycanda tətbiqinin qeyri-mümkün olduğunu da inkar etmirdi. Onun fikrincə, bir tərəfdən Azərbaycanda təcrübəli zabitlər çox az idi və onlar da ordunun bu və ya digər sahəsində çox məsuliyyətli və lazımlı vəzifələr tutmuşdular, o biri tərəfdən də bir neçə yüksək rütbəli zabitin ştatla Hərbi Şuraya

təsdiq edilməsi əlavə maliyyə xərcləri tələb edirdi. Ona görə də nazir Hərbi Şuranın fəaliyyətinin ictimai əsaslarla qurulmasını məqsədəuyğun bilirdi. Ancaq S.Mehmandarov Nazirlər Şurasından xahiş etdi ki, bu orqanın işinin təşkili üçün lazımi vəzifəli şəxslərin təyin edilməsi barədə ona səlahiyyət verilsin. Hərbi nazir, həmçinin maliyyə və təsərrüfat məsələlərinin müzakirəsi zamanı müvafiq nazirliklərin nümayəndələrinin də Hərbi Şuranın işinə cəlb edilməsinə razılıq verilməsini xahiş edirdi (124).

Yeni təkliflərlə bağlı Hərbi Şuranın yeni Əsasnaməsinin layihəsi hazırlandı və təsdiq üçün Nazirlər Şurasına göndərildi. Bu layihəyə görə Şuranın tərkibi sədr və üzvlərdən ibarət idi. Adətən, Şuranın iclaslarına nazir müavini sədrlik edir, xüsusi hallarda isə Hərbi nazir özü Şuranın iclasına sədrlik edirdi. Şuranın üzvlüyünə aşağıdakı şəxslər təklif olunurdular: Ümumi qərargahın rəisi, Baş Ərkani-hərbin rəisi, Bakıda yerləşən piyada və süvari diviziyalarının komandirləri, Topçu idarəsinin rəisi, İstehkam və Ləvazimat idarələrinin rəisləri. Hərbi ədliyyə, Hərbi xəstə və Hərbi baytar hissələrinin rəisləri onların xidmət sahələrinə aid olan məsələlər müzakirə edildikdə həlledici səslə Şuranın iclasında iştirak edə bilərdilər. Maliyyə məsələlərinin müzakirəsində Dövlət nəzarət orqanının nümayəndəsi də həlledici səs alırdı. Digər məsələlərin müzakirəsinə Maliyyə və Ticarət Nazirliklərinin nümayəndələri, habelə qoşunların birləşmə, hissə, idarə və müəssisə rəhbərləri Şuraya dəvət oluna bilərdi. Şura öz fəaliyyətində Rusiya qoşunlarının hərbi dairələrinin şuralarının əsasnaməsini rəhbər tutmalı idi. Bu əsasnamələrin Azərbaycan qanunvericiliyinə zidd gələn maddələri qüvvədən düşmüş hesab edilirdi. Hərbi Şuranın fəaliyyətinin sənədləşdirilməsi Nazirliyin Dəftərxanasına tapşırılırdı (125).

Hərbi Şura ilə bağlı bir qədər irəli gedib qeyd etmək lazımdır ki, 1920-ci ilin əvvəllərində Hərbi Şuranın yeni tərkibi təsdiq edildi. Həm də nazirin əmri ilə iki Şura yaradıldı: Kiçik Hərbi Şura və Böyük Hərbi Şura. Kiçik Hərbi Şura Hərbi nazirin sədrliyi altında yaradıldı və onun tərkibinə nazirin müavini, Ümumi qərargahın rəisi, Baş Ərkani-hərbin rəisi, Bakı istehkamat hissəsinin rəisi daxil idilər. Böyük Hərbi Şura isə Hərbi nazirin müavininin

sədrliyi altında yaradıldı və tərkibinə Ümumi qərargahın rəisi, Baş Ərkani-hərbin rəisi, qərargahları Bakıda yerləşən piyada və süvari diviziyalarının komandirləri, Topçu, İstehkam və Ləvazimat idarələrinin rəisləri, Hərbi ədliyyə, Hərbi xəstə və Hərbi baytar hissələrinin rəisləri daxil idilər. Dövlət nəzarət orqanının nümayəndəsi də Böyük Hərbi Şuranın iclasında iştirak etməli idi (126).

1919-cu il sentyabr ayının əvvəllərində Hərbi Nazirliyin rəhbərliyi Topçu idarəsinin səlahiyyətlərinin genişləndirilməsi barədə Nazirlər Şurası qarşısında məsələ qaldırdı. Bununla əlaqədar hazırlanan məktubda göstərilirdi ki, Nazirliyin bir çox idarələri, o cümlədən Topçu idarəsi ordunun ilkin dövründə yaradılmışdı. Son zamanlar isə bu işin həcmi xeyli genişləndirilmişdir və ona görə də idarələrin, o cümlədən də Topçu idarəsinin vaxtının çoxu təchizat məsələlərinin həllinə sərf olunur. Halbuki bu idarə orduda olan topçu hissə və birləşmələrin xidmətinin bütün sahələrinə rəhbərlik etməli, həmin hissələrdə xidmətin, təlim və tərbiyənin təşkili, onların zəruri əmlakla təmin edilməsi sahəsində Hərbi nazirin qarşısında birbaşa məsuliyyət daşımalıdır. Topçu hissələrində texniki-taktiki hazırlığı yaxşılaşdırmaq, nizami xidməti təkmilləşdirmək üçün Hərbi Nazirlik Topçu idarəsinin strukturunda qismən dəyişiklik etməyi və səlahiyyətlərini genişləndirərək onu Baş Topçu idarəsi adlandırmağı təklif etdi (127).

Baş Topçu idarəsinin yeni strukturu hazırlanarkən onun əlavə xərclərə yol verməməsi də nəzərə alınmışdı. Nazirlər Şurasına göndərilən məktubda göstərilirdi ki, yeni struktur təsdiq ediləcəyi halda əvvəlki strukturla müqayisədə ayda cəmi 1300 manat əlavə xərc lazım olacaqdır (128).

Baş Topçu idarəsinin Əsasnaməsində deyilirdi ki, bu orqan: 1) Topçu idarəsinin sərəncamında olan əmlakın, texniki vasitələrin bölüşdürülməsi ilə; 2) ordunun topçu əmlakı baxımından təmin edilməsi ilə; 3) ordunun bütün topçu hissə və birləşmələrinin texnikasının idarə edilməsi ilə; 4) rəhbər sənədlərin və xüsusi göstərişlərin hazırlaması ilə; 5) texniki heyətin ümumi qeydiyyatı və bölüşdürülməsi ilə; 6) Hərbi nazirin göstərişinə əsasən ordunun texniki təchizatının, topçu hissələrinin isə həm nizami, həm də texniki planda təchizatının yoxlanılması ilə məşğul olmalıdır. Baş

Topçu idarəsinin rəisi topçu hissələrinin texniki hazırlığı və ordunun topçu əmlakı ilə təchiz edilməsi məsələlərinə məsuliyyət daşımalı idi. O, yuxarıdan heç bir göstəriş gözləmədən hərbi hissələri və birləşmələri təsdiq olunmuş ştata uyğun olaraq bütün texniki vasitələrlə təchiz etməli və ya bu məsələnin həlli üçün yollar aramalı idi. Bütünlükdə topçu hissələrində xidmətin hərtərəfli təşkili, həmin hissələrin daimi döyüş hazırlığı vəziyyətində olması məsuliyyəti Baş Topçu idarəsinin üzərində idi (129).

Baş Topçu idarəsinin Əsasnaməsində bildirilirdi ki, bu idarənin rəisi qəbul edilmiş əmrlər və rəhbəredici sənədlər əsasında əlavə göstərişləri gözləmədən hərbi hissələrin topçu ləvazimatı ilə təchiz edilməsinə məsuliyyət daşıyır. O, vəzifə səlahiyyətləri çərçivəsində bütün hərbi hissələrin topçu ləvazimatına olan ehtiyacından xəbərdar olmalı, ordunun bütünlükdə topçu ləvazimatı ilə təchiz edilməsi üçün Hərbi naziri məlumatlandırmalı, onun qarşısında lazımi vəsatət qaldırmalı və ordunun texniki hissələrinin komplektləşdirilməsinə qayğı göstərməli idi.

1919-cu il sentyabr ayının 13-də Hərbi nazir Baş Topçu idarəsinin yeni ştatını təsdiq etdi. Həmin ştata görə Baş Topçu idarəsinin strukturu aşağıdakı vəzifələrdən təşkil olunmuşdu: idarə rəisi, idarə rəisinin texniki hissə üzrə müavini, qoşunlarda silahların hazırlıq vəziyyətini yoxlamağa məsul olan qərargah zabiti, nizami hissə üzrə baş yavər, tapşırıqlar üçün baş zabit, topçu detallarının təchizatı bölməsinin müdiri (mülki), sursat, odlu və soyuq silahlarla təchizat üzrə məsul şəxs (mülki), təsərrüfat hissəsinin müdiri, silah texniki. Bundan başqa, idarənin ştatında bir neçə katib, çapar, mehtər və sürücü də var idi (130).

Hərbi Nazirliyin rəhbərliyi, eyni zamanda, Hərbi xəstə idarəsinin strukturunun genişləndirilməsi barədə Nazirlər Şurasının qarşısında vəsatət qaldırdı. Hərbi nazir bu məsələ ilə bağlı göndərdiyi raportunda xahiş edirdi ki, Nazirlər Şurasının qərarı qəbul edilənədək ona əlavə tibbi kadrların xidmətə cəlb edilməsinə icazə verilsin. Nazirlər Şurasının rəhbirliyi Hərbi nazirin bu məsələ ilə bağlı qaldırdığı vəsatəti də məqsədəuyğun sayaraq təklif olunan yeni ştat layihəsini təsdiq etdi (131).

1919-cu ilin payızında təşkil edilən mühüm və böyük hərbi strukturlardan biri Bakı istehkamat hissəsi (Bakinskiy ukreplyonnıy rayon) idi. Tarixi ədəbiyyatda bu ifadə «Bakı möhkəmləndirilmiş rayonu» kimi tərcümə edilsə də, mənbələrdə onun tərcüməsi «Bakı istehkamat hissəsi» kimi qalmışdır (132). Bu strukturun yaradılmasında başlıca məqsəd şimaldan, xüsusən dənizdən ehtimal olunan Denikin təhlükəsinin qarşısını almaq və bütünlükdə Bakının etibarlı müdafiəsini təşkil etmək idi. İngilis qoşunları 1919-cu ilin yayında Bakını tərk edərkən hərbi donanmanı Denikin qoşunlarının sərəncamına verdikdən sonra Bakı şəhəri dəniz tərəfdən tamamilə müdafiəsiz qalmışdı. Hərbi nazir S.Mehmandarov 1919-cu il sentyabrın 13-də Dövlət Müdafiə Komitəsinin sədrinə yazdığı raportunda Bakı şəhərinin müdafiəsinin təşkili istiqamətində görülməkdə olan işlər barədə məlumat verməklə bərabər, onu da əlavə edirdi ki, planlaşdırılan işləri əlaqələndirmək və Bakının mühafizəsi ilə bağlı bütün məsələləri bir əldə mərkəzləşdirmək üçün Bakı istehkamat hissəsinin rəisi vəzifəsini təsis etmək lazımdır (133).

Hərbi nazirin raportu elə həmin gün də Dövlət Müdafiə Komitəsində müzakirə edilmiş və nazirin qaldırdığı məsələnin məqsədəuyğunluğu barədə qərar qəbul edilmişdi. Qərarda Bakı istehkamat hissəsinin rəisi vəzifəsini təsis etmək, bu vəzifəni şəhərin hərbi general-qubernatoru vəzifəsi ilə birləşdirmək, Bakı şəhər rəisliyi ərazisini ona tabe etmək öz əksini tapmışdı (134).

Hərbi nazirin 13 sentyabr 1919-cu il tarixli 405 nömrəli əmrində göstərilirdi ki, Bakı istehkamat hissəsinin rəisi Hərbi nazirin təqdimatı əsasında Nazirlər Şurası sədrinin əmri ilə təyin edilir. İstehkamat hissəsi öz strateji əhəmiyyətinə görə birinci dərəcəli qalaya bərabər tutulurdu. Onun hüdudları Qızılburundan Ələtə qədər müəyyənləşdirilmişdi. Bakı istehkamat hissəsinin rəisi vəzifəsinin səlahiyyətləri korpus komandirinin səlahiyyətləri səviyyəsində idi və Bakı qarnizonunun birbaşa Hərbi nazirin özünə tabe olan hissələrindən başqa digər bütün hissələri, idarə, təşkilat və müəssisələri istehkamat hissəsinin rəisinə tabe olmalı idi. Bakının hərbi limanı, orada mövcud olan üzən obyektlər, Nizovaya liman körpüsündən tutmuş Ələt stansiyasına qədər sahil boyun-

ca yerləşdirilmiş toplar da istehkamat hissəsinə tabe etdirildi. İstehkamat hissəsinin öz bayrağı olmalı idi. Həmin bayraq Bayıl burnunda, radiostansiyanın yanında qaldırılmalı və onun mühafizəsi təmin edilməli idi (135).

1919-cu il sentyabrın 9-da Topçu idarəsinin rəisi general-mayor M.Tlexas Bakı istehkamat hissəsinin rəisi təyin edilmiş və ona tapşırılmışdı ki, Baş Ərkani-hərblə birlikdə istehkamat hissəsinin ştat layihəsini hazırlasın (136).

Bakı istehkamat hissəsinin təsdiq edilmiş ştatında da sayca çox adam yox idi. Bu ştatlarda dayanan şəxslər Bakı qarnizonunun hissələri tərəfindən Bakı ətrafında aparılacaq işlərə rəhbərlik etməli və onu nəzarət altında saxlamalı idi. Qərargahdan başqa İstehkamat hissəsində Topçu idarəsi, İstehkam idarəsi, Ləvazimat idarəsi, Hərbi xəstə idarəsi, Rabitə qrupu və Katerlər qrupu var idi (137).

1919-cu ilin sentyabrında Ümumi qərargahın, növbətçi generalın, Baş Ərkani-hərbin, general-kvartirmeysterin, topoqrafiya şöbəsi rəisinin səlahiyyətləri də genişləndirildi və onların hüquq və səlahiyyətləri diviziya komandirinin hüquq və səlahiyyətlərinə bərabər tutuldu (138).

Elə sentyabr ayında da Bakı hərbi limanının təyyarə dəstəsinin, zirehli avtomobillər taqımının, mövqe batareyasının ştatlarının hazırlanmasına başlandı (139). Sentyabrın 14-dən təyyarə dəstəsinin və zirehli avtomobillər dəstəsinin, sentyabrın 4-dən mövqe batareyasının, oktyabrın 1-dən isə «Astrabad» hərbi gəmisinin ştatları qüvvədə sayıldı (140).




**Bakı istehkamat hissəsinin strukturu**

6-cı Göyçay piyada alayının formalaşdırılması da böyük sürətlə aparılırdı. Qışlaların çatışmamasına, geyim, ərzaq çətinlikləri ol-

masına baxmayaraq, 1919-cu il oktyabrın sonuna qədər alayın təşkili, demək olar ki, başa çatdırıldı (141).

Formalaşma prosesinin necə getməsi barədə hissə komandirləri mütəmadi olaraq hesabat verirdilər. Həmin hesabatlar həm diviziya komandirinə, həm Ümumi qərargaha, həm də Baş Ərkani-hərbə göndərilirdi. Hissə komandirləri komplektləşmənin, silah və texnika ilə təchizatın vəziyyəti, işlək silahların miqdarı, xarab silahların bərpası, şəxsi heyətin əhval-ruhiyyəsi, ərzaq, geyim və tibb xidmətinin vəziyyəti, təlim-tərbiyənin gedişi, fərariliyin vəziyyəti, qoşunların yerləşdirilməsi və sənədləşmənin aparılması barədə yuxarı orqanlara məlumat verməli idilər. Bütün bu məsələləri özündə birləşdirən xüsusi hesabat forması hazırlanmışdı ki, onların öyrənilməsi rəhbər orqanlara formalaşma prosesini daimi nəzarət altında saxlamaq imkanı verirdi (142).

Noyabr ayında Xaçmaz dəstəsi ləğv edildi. Hərbi nazirin müvafiq əmrində göstərilirdi ki, ləğv edilmiş Xaçmaz dəstəsinin yerinə Quba dəstəsi yaradılır və polkovnik Kəsəmənli bu dəstənin komandiri təyin edilir. Quba qəzasında olan bütün hissələr bu dəstənin tərkibinə daxil edilirdi. Polkovnik Kəsəmənli, eyni zamanda, Qusar qarnizonunun rəisi təyin edildi (143).

Qarşıya müəyyən çətinliklərin çıxmasına baxmayaraq, mövcud olan imkanlar ordunun sıralarını genişləndirməyə imkan verirdi. Buna görə qərara alındı ki, Lənkəran köməkçi (ehtiyat) taboru alaya çevrilsin. Taborda bu genişlənmə işinə lazımi hazırlıq görülməsi üçün Ümumi qərargahın rəisi general-mayor H.Səlimov həmin taborun komandiri kapitan Səməd bəy Rəfibəyova məktub göndərərək başlıca olaraq hansı məsələlərə diqqət yetirilməsini açıqladı. Onun yazdıqlarına görə yaradılması planlaşdırılan alayın başqa alaylardan fərqli olaraq dörd tabordan ibarət olması nəzərdə tutulmuşdu. General H.Səlimov tələb edirdi ki, 1) Lənkəran taborunun dörd bölüyündəki şəxsi heyət siyahıda bölüşdürülsün və 16 bölüyə paylansın. Bölüşdürülən şəxsi heyətin siyahısı tutulsun ki, lazım olan vaxt onları yeni bölüklər üzrə qruplaşdırmaq mümkün olsun; 2) bölüklərin komandiri vəzifəsinə və digər komandir vəzifələrinə hələlik təlim komandasında olan kiçik rütbəli şəxslər təyin edilsin; 3) taborların komandiri vəzifəsini müvəqqəti icra edə

biləcək şəxslər müəyyənləşdirilsin; 4) planlaşdırılan şəxsi heyətin ümumi sayı üçün heç olmasa yay geyimi, yatacaq əşyalar alınsın və ehtiyatda saxlanılsın; 5) şəxsi heyətin yerləşdirilməsi üçün zəruri olan binalar müəyyənləşdirilsin və onların əsgər qışlası üçün uyğunlaşdırılması planı hazırlansın; 6) xəbər verilsin ki, alayın bütün şəxsi heyəti üçün Lənkəranda qış gödəkcələri sifariş etmək mümkündürmü və əgər mümkündürsə, hansı qiymətə; 7) hazırda mövcud olan kadrlarla mütəmadi olaraq dərslər aparılsın (144).

Lənkəran taborunun alaya çevrilməsinə başlanması ərəfəsində Şamaxı Şəhər Duması şəhər başçısı A.Hüseynbəyovun sədrliyi altında iclas keçirib Azərbaycan Ordusunun yaradılan hissələrindən birinə «Şirvan» adı verilməsi barədə müvafiq orqanlar qarşısında vəsatət qaldırılması haqqında məsələni müzakirə etdi. Milli qoşun hissələrinin təşkilinə öz yardım və himayəsini göstərmək istəyən Duma üzvlərinin qəbul etdikləri qərarda deyilirdi ki, hələ inqilabdan əvvəl «Şirvan» adı altında iki alay mövcud olmuşdur və həmin alaylar öz şücaəti ilə Qafqazda ad çıxarmışdılar. Bu alaylar Dünya müharibəsində də öz hünərlərini göstərmişdilər. Qərarda daha sonra deyilirdi ki, hazırda həyat şəraiti böyük müsibətlərlə qarşılaşmış Şirvan üçün əvvəlkindən tam fərqlidir. Şamaxı şəhərinin və qəzasının əhalisi 1918-ci il mart hadisələri zamanı böyük qurbanlar vermiş və əhalisinin yarıdan çoxunu itirsə də, respublikanın təşkilinə və onun möhkəmlənməsinə hər zaman dəstək olmuşdur. Sonuncu çağırış və səfərbərlik zamanı Şamaxı qəzası Azərbaycan Ordusuna 2 mindən çox gənc əsgər vermişdi. Qərarda bildirilirdi ki, həmin gənclər Vətəni sədaqətlə qorumağa və lazım gələrsə, onun yolunda qurban getməyə həmişə hazırdırlar. Şamaxı Şəhər Duması əsgəri ənənələri bərpa etmək, qəza əhalisinin arzu və istəklərini həyata keçirmək məqsədilə Bakı qubernatorluğundan xahiş edirdi ki, qaldırılan məsələnin həllində və Azərbaycan Ordusu hissələrindən birinə «Şirvan» adı verilməsində mümkün köməkliyi göstərsin (145).

Şamaxı Şəhər Dumasının qaldırdığı təklif Daxili İşlər Nazirliyinin xətti ilə Hərbi Nazirliyə daxil oldu. Hərbi Nazirliyin rəhbərliyi bu təklifi müdafiə edərək Lənkəran köməkçi (ehtiyat)

taborunun bazasında yaradılan 7-ci alaya «7-ci Şirvan alayı» adı verməyi qərara aldı (146).

1919-cu ilin noyabr ayında Azərbaycan Xalq Cümhuriyyətinin təşkilatlanmış hərbi strukturları, onların rəhbərləri və dislokasiyası aşağıdakı kimi idi:

| Sıra №-si | Hərbi strukturlar | Rəisinin adı | Dislokasiya yeri |
|---|---|---|---|
| 1. | Hərbi nazir | Tam art. generalı Səməd bəy Mehmandarov | Bakı, Krasnovodski küç.1 |
| 2. | Hərbi nazirin müavini | Tam art. generalı Əliağa Şıxlinski | -"- |
| 3. | Hərbi Nazirliyin Dəftərxanası | Yusif bəy Tahirov | -"- |
| 4. | Baş Ərkani-hərb | General-leytenant Məmməd bəy Sulkeviç | -"- |
| a) | General-kvartirmeyster şöbəsi | Polk. Vasili Dimitriyeviç Karqaleteli | -"- |
| b) | Hərbi topoqrafiya şöbəsi | General-mayor İbrahim ağa Vəkilov | -"- |
| c) | Hərbi daşınmalar rəisinin şöbəsi | Polk. Vasili Dimitriyeviç Karqaleteli | -"- |
| ç) | Qoşun daşınmaları rəisi | P-pk Vladimir Fyodoroviç Klementyev | Bakı, Krasnovodski və Çadrovı küçələrinin kəsişməsi, "Tiflis" mehmanxanası |
| d) | Stansiya komendantları: | | |
| | Poylu | Poruçik Şirinbəyov | |
| | Ağstafa | Poruçik Balıkov | |
| | Gəncə | Polkovnik Poşev | |
| | Yevlax | Şt.-kap. Kurovitski | |
| | Kürdəmir | Polk. Ququşev | |
| | Bakı | Poruçik Hacıyev | |
| | Xaçmaz | Şt.-kap. Mirzəyev | |
| e) | Hərbiyyə məktəbi | Polk. Rüstəm bəy Şıxlinski | Bakı, Torqovı və Budaqovski küç. kəsişməsi |
| ə) | Zirehli qatarlar | | |
| | N-1 | Rotmistr Əlibəy Əliyev | Ağstafa |

| Sıra №-si | Hərbi strukturlar | Rəisinin adı | Dislokasiya yeri |
|---|---|---|---|
| | N-2 | Kap. Mixayil Ustinoviç Kandelaki | Xaçmaz |
| f) | Dəmir yolu məktəbi | Polk. Koçladze | Gəncə |
| 5. | Ümumi qərargah | Gen.-mayor Həbib bəy Səlimov | Bakı, Krasnovodski .1 |
| a) | Növbətçi generalın şöbəsi | Gen.-mayor Həmid bəy Qaytabaşı | -"- |
| b) | Yerli briqada rəisinin idarəsi | Polk. İsgəndər Seyfulin | -"- |
| c) | Hərbi rəislər (çağırış üzrə): | | |
| | Bakı | P-pk Sədrəddin Mirzə Qacar | Bakı, İçərişəhər, Böyük qala küç. |
| | Gəncə | Yasavul Aleksey İvanoviç Qabulov | Gəncə |
| | Quba | P-pk Məmməd bəy Məmmədbəyov | Quba |
| | Nuxa | P-pk Əhməd bəy Yusifbəyov | Nuxa |
| | Salyan | P-k Brılkin | Salyan |
| | Göyçay | P-pk Konstantin Mixayloviç Andreyev | Göyçay |
| | Şuşa | P-pk Boris Dimitriyeviç Zilov | Şuşa |
| ç) | Hərbi nazirin komendaturası | Kap. Fyodor Kupriyanoviç Artemenko | Bakı, Krasnovodski küç.1 |
| d) | Hərbi Nazirliyin nəşriyyatı | P-k Georgi İvanoviç Lisyakov | -"- |
| 6. | Topçu idarəsi | Gen.-mayor Murad Gəray Tlexas | Bakı, Krasnovodski küç.4 |
| a) | Topçu emalatxanası və anbar | - | Gəncə |
| b) | Topçu anbarı | - | Ləki |
| c) | Topçu anbarı bölməsi | - | Kürdəmir |
| 7. | Mühəndis idarəsi | Gen.-leyt. Gennadi Nikolayeviç Tarxanov | Bakı, Krasnovodski küç.4 |
| a) | Mühəndis şöbəsi | - | -"- |
| b) | Mənzil şöbəsi | - | -"- |
| c) | İstehkam məktəbi | P-pk Boris Konstanti- | Bakı, Sadovı və |

| Sıra №-si | Hərbi strukturlar | Rəisinin adı | Dislokasiya yeri |
|---|---|---|---|
| | | noviç Bekov | Mixaylovski küç. |
| ç) | Avtohissə | P-pk Odoşelidze | Bakı, "Yar" mehmanxanası |
| d) | Mühəndis anbarı | - | Gəncə |
| 8. | Ləvazimat idarəsi | Gen.-mayor Həşimbəyov | Bakı, Krasnovodski küç.4 |
| a) | Ərzaq anbarları: | | |
| | Bakı | İmamquliyev | Bakı, Balaxanı küçəsi |
| | Gəncə | Məmmədov | Gəncə |
| | Xankəndi | P-pk Nikolay Fyodoroviç Umansev | Xankəndi |
| | Zaqatala | Axundov | Zaqatala |
| b) | Əşya anbarları: | | |
| | Bakı | Bayramov | Bakı, Fon dəyirmanı |
| | Gəncə | Polk. Vəkilov | Gəncə |
| c) | Paltar emalatxanası | Şaxbudaqov | Gəncə |
| ç) | Dəri zavodu | Praporşik Danilevski | Gəncə |
| 9. | Hərbi-tibb idarəsi | Bahadur Qayıbov | Bakı, "Yar" mehmanxanası |
| a) | Tibb lazaretləri: | | |
| | Bakı | Doktor İvanov | Bakı, Bayıl |
| | Gəncə | Rəfibəyov | Gəncə |
| | Xankəndi | Həkim Tabakend | Xankəndi |
| b) | Aptek anbarı | Postnikov | Gəncə |
| 10. | Hərbi baytar idarəsi | Avtandil Qavriloviç Kvitaşvili | Bakı, "Yar" mehmanxanası |
| 11. | Hərbi məhkəmə hissəsi | Gen.-mayor Vasili İvanoviç Dubrovski | Bakı, İçərişəhər, Böyük qala küçəsi |
| a) | Hərbi məhkəmə | Teymur bəy Makinski | -"- |
| b) | Hərbi prokuror | Murtuza bəy Palavandov | -"- |
| 12. | Bakı şəhər komendantı | Gen.-mayor Firudin bəy Vəzirov | -"- |
| a) | Nazirlər Şurası yanında konvoy bölüyü | - | -"- |
| 13. | Gəncə şəhər komendantı | Polk. Svanadze | Gəncə |
| 14. | 1-ci piyada diviziyası | Gen.-mayor Cavad bəy | -"- |

| Sıra №-si | Hərbi strukturlar | Rəisinin adı | Dislokasiya yeri |
|---|---|---|---|
| | | Şıxlinski | |
| a) | Diviziya qərargahı | Polk. Vasili Nikolaye-viç Sokolov | -"- |
| b) | 1-ci Cavanşir piyada alayı | P-k Levestam | Xankəndi |
| c) | 2-ci Zaqatala piyada alayı | P-k Əhməd bəy Dibirov | Zaqatala |
| ç) | 3-cü Gəncə piyada alayı | P-k Cahangir bəy Qasım-bəyov | Gəncə |
| d) | 1-ci topçu briqadası | Gen.-mayor Məmməd Mirzə Qacar | Gəncə |
| | 1-cü yüngül divizion | P-k Vladimir Samsono-viç Xarkeviç | Xankəndi |
| | 2-ci dağ divizionu | P-k Nikolay İosifoviç Novruzov | Xankəndi |
| 15. | 2-ci piyada diviziyası | Müv. komandir gen.-ma-yor Makeyev | Bakı, Nikolayevski küç. 5 |
| a) | Diviziya qərargahı | P-pk Mahmud bəy Zey-nalov | -"- |
| b) | 4-cü Quba piyada alayı | P-k Həsən bəy Ququşev | Qusar |
| c) | 5-ci Bakı alayı | P-pk İsrafil bəy İsrafilov | Bakı, Salyan kazar-maları |
| ç) | 6-cı Göyçay piyada alayı | P-k Əfəndiyev | Bakı, Bayıl |
| d) | 2-ci topçu briqadası | | |
| | 1-ci yüngül divizion | P-pk Əhmədbəyov (müvəqqəti) | Bakı (müvəqqəti-Xankəndi) |
| | 2-ci dağ divizionu | - | Bakı |
| e) | Lənkəran ehtiyat taboru | Kap. Səməd bəy Rəfibə-yov | Lənkəran |
| 16. | Süvari diviziyası | Gen.-mayor Teymur bəy Novruzov | Gəncə |
| a) | Komandir müavini | Gen.-mayor Davud bəy Yadigarov | Xankəndi |
| b) | Diviziya qərargahı | P-pk Eristov | -"- |
| c) | 1-ci Tatar süvari alayı | P-k Nuh bəy Sofiyev | Qusar |
| ç) | 2-ci Qarabağ süvari alayı | P-k Tuqanov | Xankəndi |

| Sıra №-si | Hərbi strukturlar | Rəisinin adı | Dislokasiya yeri |
|---|---|---|---|
| d) | 3-cü Şəki süv. alayı | P-k Xosrov Mirzə Qacar | Xankəndi |
| e) | Atlı dağ batareyası | P-pk Dunin-Marsinkeviç | Bakı |
| 17. | Əlahiddə haubitsa batareyası | P-pk Tarxanov | Gəncə |
| 18. | Bakı istehkamat hissəsi | Gen.-mayor Murad Gəray Tlexas | Bakı |
| a) | Bakı istehkamat hissəsinin qərargahı | P-k Hacıbəylinski | Bakı |
| b) | Liman rəisi | P-k Ağalarov | Bakı |

1919-cu ilin sonlarında Bakı istehkamat hissəsinin müdafiə taboru yaradıldı, süvari, piyada alaylarının, əlahiddə taborlarının və hərbi məktəbin döyüş bayraqlarının təsviri təsdiq edildi, qoşunların rəhbərliyində bir sıra dəyişikliklər həyata keçirildi.

Bakı istehkamat hissəsinin əlahiddə taboru istehkam-qalanın möhkəmləndirilməsi üçün nəzərdə tutulmuşdu. Onun tərkibində 4 piyada bölüyü, bir pulemyot bölüyü, təlim bölüyü, rabitə komandası və qeyri-nizami komanda var idi. Şəxsi heyətin tərkibi isə 30 zabitdən, 7 məmurdan, bir molladan və 1073 əsgərdən ibarət idi (147).

Piyada və süvari alayları, əlahiddə taborlar və hərbi məktəb üçün döyüş bayraqlarının təsviri 1919-cu il dekabrın 8-də elan edildi (148). Bayraqların biri digərindən fərqlənmirdi. Adları çəkilən bütün hissələr üçün eynitəsvirli döyüş bayrağı təsdiq edilmişdi. Bayrağın təsvirinin layihəsinin hazırlanması Hərbi topoqrafiya şöbəsinə tapşırılmışdı və həmin layihə hazırlanarkən milli simvollardan istifadəyə, milli ənənələrlə bağlı olan müəyyən elementlərin nəzərə alınmasına xüsusi diqqət yetirilməli idi.

Döyüş bayrağı parça, lent, ucluq, ağac və dəstəkdən ibarət idi. Parça gümüşü saçaqlarla tamamlanan, kənarlarına gümüşdən naxış vurulmuş mavi rəngli ştof ipəkdən və atlasdan ibarət idi. Bayrağın o biri ucunun naxışı görünməsin deyə parça ikiqat bükülmüşdü. Yuxarı sol küncündə gümüşü saplarla səkkizguşəli ulduz və aypara çəkilmişdi. Bayrağın qırağı ilə işlənmiş naxış Şərqin böyük sərkərdəsi Teymurləngin Səmərqənd şəhərindəki qəbrinin

üzərində olan təsvirdən götürülmüşdü və Azərbaycan Ordusu hissələrinin döyüş bayrağında şərqin qəhrəmanlıq ənənələrinə sadiqlik təcəssüm edilmişdi. Bayrağın bir üzündə ərəb əlifbası ilə «Azərbaycan» sözü, o birində isə müqəddəs Qurandan bir ayə – «Nəsri min Allah və fəthi qərib» (Allahdan kömək olarsa, qələbə yaxındadır) yazılmışdı. Bayrağın lentləri 15 santimetr enində yaşıl və qırmızı rəngli qırmızı parçadan hazırlanmışdı və ucluqları 10 santimetr uzunluğunda olan saçaqlarla tamamlanmışdı. Qırmızı lentin üzərində gümüşü saplarla içində 7 ox olan oxqabı, iki yay, boncuq və Teymurləngin nizəsinin rəsmi çəkilmişdi. Lentlər bayraq ağacının yuxarısına düyünlənmişdi. Bayrağın ucluğu 5 hissədən ibarət idi: konus silindr, kürə (şar), kəsik ellipsoid və nizə. Bayraq ağacı 2,6 metr uzunluğunda və 3,7 santimetr diametrində olmalı idi. Dəstək – gümüşü silindrdən ibarət olub bayrağın aşağı qurtaracağında ağaca geydirilirdi. Dəstəyin aşağı və yuxarı qurtaracağı 2,5 millimetrlik qızılı haşiyə ilə əhatə edilmişdi. Daha sonra 1,5 millimetr enində qızılı haşiyə ilə tamamlanan mavi mina var idi. Qızılı haşiyələrin arasında yuxarı künclərdə Azərbaycan ulduzları nəqş olunmuş, aşağı künclərdə isə qızıldan ayparalı altun ziqzaq, daha sonra bayrağın rəngləri ilə boyanmış, kürəciklərlə bəzədilmiş qabarıq gümüşü halqalar keçirdi. Dəstəyin gümüşü hissəsində bayrağın məxsus olduğu hərbi hissənin adı və həmin hissəsinin yaranma tarixi həkk olunurdu.

Döyüş bayrağının təsvirinin elan olunması ilə bağlı əmrdə deyilirdi ki, təsdiq olunmuş eskizlərin əsasında indiki dövrdə xalqın milli şüurunun inkişafı, məscid və kitablarda, habelə böyük Teymurləng və onun davamçıları tərəfindən inşa edilmiş tikililərdə əks olunan qədim memarlıq nişanələri dayanmışdır ki, onlar indi də Azərbaycan xalqı üçün əzizdir (149).

Hərbi strukturlara döyüş bayraqlarının verilməsi qərarı istər qoşun hissələri, istərsə də ictimaiyyət tərəfindən son dərəcə rəğbətlə qarşılandı. Milli hərbi ənənəçiliyin və hərbi xidmətə sədaqətin simvolu kimi dəyərləndirilən bu döyüş bayraqlarının hazırlanmasını bir sıra ictimai təşkilatlar öz üzərinə götürməyə hazır olduqlarını bildirdilər. Respublika hökuməti xalqın və ictimaiyyətin milli döyüş bayraqlarının hazırlanması ilə bağlı bu tə-

şəbbüskarlığını ölkə ordusuna qayğısı kimi qəbul edir və bu prosesin düzgün istiqamətləndirilməsinə çalışırdı. Bəzi ictimai təşkilatlar döyüş bayraqlarını özləri hazırlatdıraraq özləri də müvafiq hərbi strukturlara təqdim etmək arzusunda olduqlarını gizlətmirdilər. Ancaq Daxili İşlər Nazirliyinin rəhbərliyi ictimai təşkilatların maraq göstərdikləri təqdirdə yalnız döyüş baraqlarının hazırlanması xərcini ödəyə bilmələrinin mümkünlüyünü bildirirdi. Nəzərdə tutulmuşdu ki, bayraqlar mərkəzləşdirilmiş şəkildə hazırlatdırılsın və hökumət strukturları tərəfindən də hərbi hissələrə təqdim edilsin. Ona görə də Daxili İşlər Nazirliyinin rəhbərliyi Bakı qubernatorundan xahiş edirdi ki, döyüş bayraqlarının hazırlanmasına yardım etmək istəyən təşkilatların siyahısı müəyyənləşdirilsin və Hərbi Nazirliyə təqdim edilsin. Hərbi Nazirliyin qərarına əsasən bütünlükdə aşağıdakı hərbi strukturlara döyüş bayraqlarının verilməsi planlaşdırılmışdı: 1-ci Cavanşir piyada alayı, 2-ci Zaqatala piyada alayı, 3-cü Gəncə piyada alayı, 4-cü Quba piyada alayı, 5-ci Bakı piyada alayı, 6-cı Göyçay piyada alayı, 7-ci Şirvan piyada alayı, 8-ci Ağdaş piyada alayı, Lənkəran ehtiyat taboru, Nuxa ehtiyat taboru, Bakı qala taboru, kürd piyada taboru, 1-ci Tatar süvari alayı, 2-ci Qarabağ süvari alayı, 3-cü Şəki süvari alayı, kürd süvari divizionu, İstehkam taboru, Hərbiyyə məktəbi (150).

Bakı istehkamat hissəsində xidməti yüksək səviyyədə təşkil etmək, qarşıya qoyulan vəzifələrə layiqincə nail olmaq üçün general-mayor Tlexas Baş Topçu idarəsinin rəisi vəzifəsindən azad edildi və ona imkan verildi ki, bütün diqqəti Bakının müdafiəsinin möhkəmləndirilməsi ilə bağlı olan məsələlər üzərində cəmləşdirsin. Baş Topçu idarəsinin rəisi vəzifəsinə 1-ci topçu briqadasının komandiri general-mayor Məmməd Mirzə Qacar təyin edildi. Hərbi məktəbin rəisi polkovnik Rüstəm bəy Şıxlinski isə 1-ci topçu briqadasının komandiri təyin edildi (151).

1919-cu ilin sonlarında 8-ci Ağdaş piyada alayının və Zəngəzurdakı kürd əhalisindən ibarət hərbi hissəsinin formalaşdırılmasına başlanması planlaşdırılırdı (152).

Bütün bu təşkilati işləri həyata keçirməklə Hərbi Nazirlik 1919-cu ilin sonunadək Azərbaycan Ordusunun şəxsi heyətinin sayını 20 min nəfərə, ordudakı atların sayını isə 5 min başa çatdır-

mağı nəzərdə tuturdu. 1920-ci il üçün davam etdiriləcək təşkilati işlər ordunun sayını daha da artırmalı və onu 40 minə çatdırmalı idi. Nəzərdə tutulmuşdu ki, ilin sonunadək atların sayı 10 min baş olacaqdır (153).

Ordunun sayının il ərzində iki dəfə artırılmasına nail olmaq üçün 1920-ci ilin elə ilk günlərindən çox geniş quruculuq işlərinin aparılması planlaşdırılırdı. Tərtib edilmiş fəaliyyət planına görə il ərzində aşağıdakı hissələr yaradılmalı idi: 9-cu piyada alayı, 4-cü süvari alayı, iki haubitsa batareyası, haubitsa divizionunun qərargahı, bir dağ-süvari batareyası, dağ-süvari divizionunun qərargahı, üç batareyadan ibarət yüngül səhra divizionu, hər biri bir bölük həcmində olan dörd məhəlli komanda və hər biri üç bölükdən ibarət olan üç məhəlli komanda. Bu məhəlli komandalar səfərbərlik idarələrinin yanında yaradılmalı və çağırışçıların xidmət yerinə çatdırılması ilə məşğul olmalı idi. 9-cu piyada alayının yaradılmasından sonra 3-cü piyada diviziyasının qərargahı təşkil edilməli, 7-ci Şirvan, 8-ci Ağdaş və 9-cu piyada alayları bu diviziyanın tərkibinə daxil edilməli idi (154).

1919-cu ilin yayından etibarən əvvəlcə Qarabağda, sonra Lənkəranda, sonra isə Zəngəzurda hərbi şəraitin kəskinləşməsinə, Qarabağ və Zəngəzurdakı şəraitin səngiməməsinə baxmayaraq, Hərbi Nazirliyin rəhbərliyi quruculuq işindəki ahəngdarlığı saxlamağa çalışırdı. 1920-ci ilin elə ilk günlərindən 3-cü zirehli qatarın komplektləşdirilməsinə başlandı (155). Ştata görə onun şəxsi heyəti 3 nəfər baş çavuşdan, 18 nəfər çavuşdan, 27 nəfər kiçik çavuşdan, 66 nəfər onbaşıdan, 228 sıravidən, 3 nəfər katibdən, 3 nəfər feldşerdən, 9 nəfər parovozçudan, 9 konduktordan, 6 nəfər dəmiryol ustasından, 6 nəfər mühafizəçidən və 9 nəfər ustadan ibarət idi (156).

1920-ci il yanvarın 1-də 1-ci Tatar süvari alayının rotmistri Sultanov kürd süvari divizionunun komandiri təyin edildi (157).

Zəngəzurun əhalisinə qarşı genişlənən erməni təcavüzünün qarşısının alınması üçün kürd əhalisindən təşkil edilən və Azərbayan Ordusunun tərkibində rəsmiləşdirilən təkcə süvari divizionu deyildi. Kürd əhalisinin, həm də kürd piyada taboru formalaşdırıldı (158).

Kürd piyada taborunun tərkibində dörd piyada bölüyü, bir pulemyot bölüyü və bir qeyri-nizami bölük var idi. Onun şəxsi heyəti 1074 nəfər nizami əsgərdən, 103 qeyri-nizami əsgərdən (cəmi 1177 əsgər), 39 zabitdən və 9 mülki məmurdan ibarət idi. Bu struktur dinc dövr üçün nəzərdə tutulmuşdu. Müharibə başlanacağı təqdirdə kürd piyada taboru 4 taborlu piyada alayına çevrilməli idi (159).

Kürd süvari divizionu isə iki bölükdən və təlim komandasından ibarət idi. Süvari divizionunun komandirinin səlahiyyətləri əlahiddə tabor komandirinin səlahiyyətlərinə, onun müavininin səlahiyyətləri isə nizami taborun (qeyri-əlahiddə) komandirinin səlahiyyətlərinə bərabər tutulurdu. Süvari divizionunun şəxsi heyəti 14 zabitdən, 391 nizami əsgərdən, 59 qeyri-nizami əsgərdən (cəmi 450 əsgər) ibarət idi. Divizionun ştatında 426 at var idi (160).

1920-ci il yanvarın 19-da Dövlət Müdafiə Komitəsi «Kürdlərin hərbi xidməti haqqında Əsasnamə» qəbul etdi (161) və kürdlərin hərbi xidmət keçməsinin hüquqi bazası yaradıldı. Həmin Əsasnamədə deyilirdi ki, Qarabağın kürd əhalisi hərbi xidməti, əsasən, Zəngəzur qəzasında yerləşən hərbi hissələrdə keçməlidirlər. Burada çağırışçı kontingenti çox olduğu təqdirdə onlar başqa hissələrə də göndərilə bilərlərdilər. Dinc şəraitdə kürd əhalisindən dördbölüklü kürd piyada taboru və ikibölüklü kürd süvari divizionu yaradılmalı idi. Kürd piyada taboru 1-ci piyada diviziyasının tərkibinə daxil edildi. Kürd hissələrində də xidmət digər hissələrdəki kimi ikiillik olmalı idi. Həmin hissələr üçün zabit kadrları o biri hissələrdən seçilməli və müvafiq vəzifələrə Hərbi nazirin əmri ilə təyin edilməli idi. Kürd zabitlərinin hazırlanması üçün isə hərbi məktəbin tərkibində qısamüddətli kurslar açılmışdı. Xidmətə çağırılanlar hərbi hissəyə öz paltarında, silahı, təchizatı və atı ilə gəlməli idi. Onların hansı paltarda gəlməsi, hansı təchizatı gətirməsi Hərbi nazirin təsdiq etdiyi siyahı ilə müəyyənləşdirilirdi. Çağırışçıların özləri və gətirdikləri paltarın, təchizatın yaxşı vəziyyədə saxlanılması və onların təmiri üçün Hərbi nazirin əmri ilə təsdiq edilmiş həcmdə maliyyə vəsaiti ayrılırdı. Silahın təmiri, patron təchizatı, hərbi qulluqçuların iaşəsi, yataq əşyaları ilə təmin olunması xidməti xərclərin hesabına həyata keçirilirdi. Əs-

gərlərin əşyaları və atları xidmət zamanı sıradan çıxdıqları halda onlar hökumətin vəsaiti hesabına əvəz edilirdi (162).

1920-ci il istər Azərbaycan xalqının, istərsə də Azərbaycan Ordusunun həyatında çox mürəkkəb bir il idi. Azərbaycan Ordusunun rəhbərliyi bu il üçün böyük quruculuq planı müəyyənləşdirib onun həlli ilə məşğul olsa da, 1920-ci ilin aprelində baş verən bolşevik işğalı onu yarımçıq qoydu. İlin dörd ayı ərzində görülən işlər də çox mürəkkəb bir şəraitdə həyata keçirilirdi. Erməni təcavüzü həqiqətdə ilin əvvəlindən ara vermirdi. Mart ayının üçüncü ongünlüyündən isə bu təcavüz artıq açıq müharibəyə çevrildi. Ona görə də 1920-ci ildə ordu quruculuğu, onun möhkəmləndirilməsi və sıralarının genişləndirilməsi üçün nisbətən münasib şərait ilk üç ayda mövcud oldu. Bu üç ayın birinci ayını da S.Mehmandarov xidmətdə olmamışdı. Xəstəliyi ilə bağlı hərbi nazir bütünlükdə ordunu tərk etmək fikrində olduğunu bildirsə də (163), 1920-ci il fevral ayının əvvəllərində öz vəzifəsinin icrasına qayıtdı. Heç şübhəsiz ki, bu fakt özü də ordunun quruculuq prosesinə öz təsirini göstərməyə bilməzdi. Bütün bunlara görə 1920-ci ilin ilk bir neçə ayı ərzində ordunun qurulması prosesinin 1919-cu ilə xas sürətini saxladığını iddia etmək olmaz.

1920-ci ildə çağırış-səfərbərlik kampaniyasını 1920-ci il maartın 15-dən başlamaq planlaşdırılmışdı (164). Yeni çağırış kampaniyasının uğurlu keçirilməsi ordunun say tərkibinin artırılmasına, yeni hərbi hissələrin yaradılmasına imkan verə bilərdi. Lakin 1920-ci il martın 20-dən erməni qoşunlarının Qarabağda kütləvi hücumu qarşıya qoyulan bir sıra vəzifələrin həyata keçirilməsinə mane oldu. Belə bir şəraitdə yeni hərbi hissələrin yardılmasından daha çox, mövcud hissələrin canlı itkilərinin bərpa edilməsi böyük aktuallıq kəsb edirdi. Bütünlükdə 1920-ci ilin bir neçə ayı daha çox ordunun idarəetmə strukturlarının təkmilləşdirilməsinə cəhd göstərilməsi ilə xarakterik idi. Bu, hər şeydən əvvəl idarəetmə strukturlarının fəaliyyətinin səmərəliliyinin artırılması ilə, onlarda yaranan bürokratik ünsürlərin aradan qaldırılması ilə bağlı idi. Hərbi nazirin 14 fevral 1920-ci il tarixli 99 nömrəli əmri bu baxımdan səciyyəvidir. Nazir həmin əmrdə mövcud olan nöqsanlı hallara toxunaraq bildirirdi: «Ordu hissələrinin, idarələrinin və

müəssisələrinin çoxunun yaradılmasından artıq bir ildən çox vaxt keçmişdir. Qoşun hissələrinin həyatını normal hala salmaq üçün bu müddət tamamilə kifayətdir. Təəssüf ki, həqiqətdə mən bunu görmürəm» (165).

Hərbi nazirin başlıca iradı qoşun hissələrinin iaşə və ərzaqla təminatında yol verilən laqeydlik və biganəlik halları idi. O, hissələrdə şəxsi heyətin ərzaq sarıdan korluq çəkməsini obyektiv çətinliklərlə deyil, Ləvazimat idarəsinin bu xidməti təşkil edə bilməməsi, bu xidmətin təşkilinə məsul olan orqanların öz işləkliyini itirməsi ilə bağlayırdı. Nazirin fikrincə, Ləvazimat idarəsi və onun diviziyalardakı nümayəndələri sənədləşmə aparmaqla işlərini bitmiş hesab edir və məsuliyyət daşıdıqları işin əhatəli təşkilinə maraq göstərmirdilər. Buna görə də S.Mehmandarov bu xidmət sahəsinin yenidən qurulmasının, bürokratik əngələ çevrilən artıq elementlərin ixtisar edilməsinin zəruriliyini vurğulayırdı (166). Heç şübhəsiz ki, 1920-ci ilin fevral ayında idarəetmə strukturlarında əsaslı yenidənqurmaya başlanmasında Hərbi nazirin Ləvazimat idarəsinin fəaliyyətindən aldığı təəssüratı da öz rolunu oynamışdı.

Hərbi nazirin 17 fevral 1920-ci il tarixli 107 nömrəli əmri ilə Baş Ərkani-hərb rəisi general-leytenant Sulkeviç Azərbaycan Ordusu sıralarından tərxis edildi və onun vəzifəsinin müvəqqəti icrası Bakı istehkamat hissəsinin rəisi general-mayor H.Səlimova həvalə olundu. Elə həmin əmrlə Azərbaycan Ordusu qərargahının yenidən qurulması barədə komissiya yaradıldığı elan edildi. General-mayor H.Səlimov bu komissiyanın sədri, general- mayor Həmid bəy Qaytabaşı və polkovnik Karqaleteli bu komissiyanın üzvləri təyin olundular. Hərbi nazir əmrdə xüsusi olaraq vurğuladı ki, komissiya sayca az, lakin işlək keyfiyyətlərə malik olan bir qərargahın layihəsini hazırlamağa çalışmalıdır (167).

Həmin əmrin digər bir paraqrafı ilə Hərbi nazir ordunun da təchizat rəisi vəzifəsinin təsis edilməsi üçün işçi komissiyasının tərkibini təsdiq etdi. Bu komissiyaya da general-mayor H.Səlimov başçılıq edirdi. Komissiyanın üzvləri isə Nazirliyin idarə rəisləri və general-kvartirmeyster polkovnik Karqaleteli idilər. Nazir komissiyaya tövsiyə edirdi ki, bu məsələyə ciddi yanaşılsın, ətraflı

təhlil aparılsın və müəyyən müddət keçəndən sonra təsdiq edilmiş strukturun yenidən baxılmasına zərurət yaranmasın (168).

General-mayor H.Səlimova Baş Ərkani-hərb rəisi vəzifəsinin həvalə edilməsi və Nazirliyin idarəetmə strukturunun təkmilləşdirilməsi barədə layihələrin hazırlanması kimi məsuliyyətli işin tapşırılması ilə əlaqədar olaraq o, 1920-ci il fevralın 17-də Bakı istehkamat hissəsinin rəisi vəzifəsindən azad edildi və həmin vəzifəyə 2-ci piyada diviziyasının komandiri general-mayor Usubov təyin edildi. General Usubov, həm də özünün ilkin vəzifəsini icra etməli idi (169).

1920-ci ilin fevralında general-mayor H.Səlimovun sədrliyi altında yaradılan hər iki komissiyanın iclası oldu və hazırlanmış layihələr müzakirə edildi. Fevralın 21-də olan iclasda ordunun qərargahının yenidən qurulmasına baxıldı. Məruzə ilə çıxış edən general-mayor H.Səlimov bildirdi ki, yeni layihə hazırlanarkən aşağıdakı dəyişikliklər nəzərdə tutulmuşdur: Ümumi qərargahın növbətçi generalının idarəsində əvvəlki dörd bölmə yerinə üç bölmə planlaşdırılmışdır. Ümumi qərargahın və Baş Ərkani-hərbin jurnal xidməti birləşdirilmişdir. Azərbayan Ordu Livası Rəyasəti ləğv edilmiş və həmin idarənin funksiyası general-kvartirmeysterin idarəsində olan səfərbərlik bölməsinə verilmişdi. General-kvartirmeyster idarəsində 6 bölmənin yerinə 4 bölmə planlaşdırılmış və idarənin əməkdaşlarının sayı 9 nəfər azaldılmışdır. Hərbi topoqrafiya şöbəsində zabitlərin biri ixtisara salınmışdır. Hərbi Nazirliyin Dəftərxanasında yeni ştata görə zabitlərin sayı iki nəfər azaldılmışdır. Bir nəfər katib də ixtisara salınmışdır. Əvəzində yeni qərargahda tapşırıq generalı vəzifəsi təsis edilmiş və bütün bölmə rəislərinin kateqoriyası bir pillə qaldırılaraq alay komandirinin hüquq və səlahiyyətlərinə bərabər tutulmuşdur. Bundan başqa, general-mayor H.Səlimovun sözlərinə görə növbətçi generalın idarəsində sənədləşmə işləri üzrə iki yeni ştat açılmışdır. Bu da iki qərargahın birləşdirilməsi ilə sənədləşmə işlərinin artacağına görə edilmişdir (170).

General-mayor H.Səlimovun sədrliyi altında hazırlanan bu layihə Nazirlər Şurasına təqdim edildi və orada bəyənildikdən sonra 1920-ci il martın 1-dən onun tətbiqinə başlanıldı. Bu barədə

Hərbi nazirin əmri 1920-ci il martın 2-də imzalandı. Əmrə görə Azərbaycan Ordusunun Ümumi qərargahı və Baş Ərkani-hərb bir qərargahda birləşdirildi və bu struktur Azərbaycan Ordusunun Qərargahı adlandırıldı. General-mayor Həbib bəy Səlimov Azərbaycan Ordusu Qərargahının rəisi təyin edildi və Qərargahın formalaşdırılması ona tapşırıldı (171).

Sonuncu struktur dəyişikliyindən sonra Hərbi Nazirliyin aparatının ştat tərkibi belə idi (172):

| **Sıra №-si** | **Vəzifə** | **Sayı** | **Rütbə kateqoriyası** | **Vəzifə kateqoriyası** |
|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** |
| 1. | Hərbi nazir | 1 | Tam general və ya gen.-leytenant | |
| 2. | Hərbi nazirin yanında tapşırıq generalı | 2 | General-mayor | Diviziya komandirinin müavini |
| **1** | **2** | **3** | **4** | **5** |
| 3. | Hərbi nazirin yanında tapşırıq üzrə qərargah zabiti | 2 | Qərargah zabiti | Alay komandirinin müavini |
| 4. | Hərbi nazirin yanında tapşırıq üzrə baş zabit | 2 | Baş zabit | Bölük komandiri |
| 5. | Yavər | 1 | | Bölük komandiri |
| 6. | Hərbi nazirin müavini | 1 | Tam general, general-leytenant | |
| 7. | Nazir müavininin yavəri | 1 | | Bölük komandiri |
| 8. | Ordu qərargah rəisi | 1 | Gen.-leytenant, (gen.-mayor) | |
| 9. | Ordu qərargah rəisinin yavəri | 1 | | Bölük komandiri |
| 10. | Ordu qərargah rəisinin tapşırıq və ezamiyyət generalı | 1 | Gen.-mayor | Alay komandiri |
| 11. | Baş molla | 1 | Mülki | |

Bu cədvəldə vəzifəli şəxslərin qarşısında göstərilən vəzifə kAteqoriyası belə başa düşülməlidir: Azərbaycan Ordusunda xidmət edən zabitlərin maaşlarını və maliyyə təminatlarını müəyyənləşdirmək üçün vəzifə kateqoriyalarının siyahısı hazırlanmışdı. Bütün vəzifələr bu siyahıda yox idi. Bu siyahıya nazir, onun müavini, Azərbaycan Ordusunun Qərargah rəisi, korpus, diviziya,

alay, tabor, bölük komandirləri və onların müavinləri daxil idi. Adları həmin siyahıya düşməyən vəzifələr isə səlahiyyətlərinə görə həmin vəzifələrdən birinə bərabər tutulur və bu vəzifədə xidmət edənlər həmin vəzifə kateqoriyasına uyğun olaraq maaş alırdılar. Məsələn, Ordu Qərargahının tapşırıq və ezamiyyət generalı alay komandirinin vəzifəsinə bərabər tutulurdu və həmin vəzifənin icraçısı general-mayor olduğu təqdirdə belə alay komandiri səviyyəsində maliyyə təminatı ala bilərdi.

Azərbaycan Ordusu Qərargahının strukturu isə belə idi: 1. Növbətçi generalın idarəsi. Bu idarənin tərkibində a) ümumi bölmə; b) təftiş bölməsi; c) pensiya bölməsi; ç) qeyri-nizami bölük; e) nəşriyyat var idi. 2. General-kvartirmeyster idarəsi. Bu idarənin tərkibində a) əməliyyat-kəşfiyyat bölməsi; b) məhəlli qoşunlar şöbəsi və səfərbərlik bölməsi; c) hərbi əlaqələr (daşınmalar) bölməsi; ç) nizami və ümumi bölmə; e) rabitə komandası var idi. 3. Hərbi topoqrafiya şöbəsi (tərkibində a) xəritəçəkmə bölməsi və b) anbar); 4. Hərbi ədliyyə hissəsi; 5. Hərbi Nazirliyin Dəftərxanası. Dəftərxana qanunvericilik-kodifikasiya bölməsindən və maliyyə bölməsindən ibarət idi (173).

Hərbi Nazirliyin aparatı da daxil olmaqla Azərbaycan Ordusu Qərargahının ştatında 11 general, 33 qərargah zabiti, 25 baş zabit, 18 məmur, 270 əsgər, 16 at və 26 nəqliyyat vasitəsi var idi (174). Azərbaycan Ordusunun təchizat rəisi vəzifəsinin təsis edilməsi və təchizat strukturlarının yenidən qurulması üçün yaradılmış komissiyanın son iclasında da komissiyanın sədri, general-mayor H.Səlimov məruzə ilə çıxış etdi. O bildirdi ki, yeni struktur dəyişiklikləri aparılarkən işlək və çevik bir orqanın yaradılması üçün Hərbi nazirin tövsiyələri əsas tutulmuşdur. Əvvəlki strukturla müqayisədə müəyyən ixtisarlar aparılmış və yeni yaradılan vəzifələrə təcrübəli şəxslər təklif olunmuşdur. H.Səlimovun məruzəsindən sonra qərara alındı ki, diviziyaların qərargahlarında olan ləvazimat zabitlərinin ştatı ləğv edilsin. Çünki bu ştatlar artıq bir elementə çevrilmişdi və onları icra edən zabitlərin fəaliyyəti lazımi bir səmərə ilə müşayiət olunmurdu. H.Səlimovun təklifi ilə Ləvazimat və Topçu idarələri rəislərinin iki müavinindən biri də ixtisara düşdü. S.Mehmandarovun tövsiyəsindən sonra Ləvazimat

idarəsinə üçüncü qərargah zabiti vəzifəsi də artırılmışdı. Həmin üç qərargah zabitindən biri Gəncədə yerləşməli, Gəncə və onun ətrafında olan hissələrin təchizatını nəzarət altında saxlamalı, ikinci zabit Bakıda yerləşməli və burada həmin işi görməli, üçüncü zabit isə Ləvazimat idarəsində olmalı idi (175).

General-mayor H.Səlimovun təqdim etdiyi layihəyə görə təchizat strukturları birləşdirilərək Azərbaycan Ordusunun Təchizat rəisinin idarəsi yaradılmalı idi. Ona tabe olan idarələr isə baş idarə olmaq səlahiyyətini itirirdi. Ordunun Təchizat rəisi idarəsinə aşağıdakı idarələr aid idi: 1. Ləvazimat idarəsi; 2. İstehkam təchizatı idarəsi; 3. Topçu təchizatı idarəsi; 4. Hərbi Xəstə Hissəsi rəisinin idarəsi; 5. Hərbi Baytar Hissəsi rəisinin idarəsi (176).



Azərbaycan Ordusu Qərargahının strukturu




**Azərbaycan Ordusunun Təchizat rəisi idarəsinin strukturu**

Ordunun təchizat rəisi idarəsinin strukturu 1920-ci il martın 15-dən tətbiq edilməyə başladı. Hərbi nazirin müvafiq əmri ilə general-mayor Şahzadə Məmməd Mirzə Qacar Azərbaycan Ordusunun təchizat rəisi təyin edildi. Diviziyanın qərargahlarında ixtisara düşən təchizat zabitləri Ordunun təchizat rəisinin Dəftərxanasının komplektləşdirilməsinə göndərilməli idi. 1919-cu ilin sonu və 1920-ci ilin əvvəllərində Azərbaycan Ordusunun bir neçə hərbi gəmisi də var idi. Məlumdur ki, ingilis qoşunları Bakıya gələn kimi Xəzər donanmasını ələ keçirmiş və Bakını tərk etdikdə isə bu donanmanı Denikinin sərəncamına vermişdi. Denikin və onun ətrafındakılar Xəzər donanmasının Azərbaycanın səlahiyyətlərinə verilməsinə hər vasitə ilə mane olurdular (Bu barədə aşağıda daha ətraflı danışılacaqdır). Ona görə də Azərbaycan müstəqilliyinin elan edilməsinin ilk günündən öz donanmasını yaratmaq imkanına malik deyildi. 1919-cu ilin sonu və 1920-ci ilin əvvəllərində Azərbaycan donanmasında «Qars» və «Ərdəhan» hərbi gəmiləri və «Astrabad», «Araz», «Nargin» və s. köməkçi gəmiləri var idi (177).

1920-ci ilin aprelində bolşevik işğalı ərəfəsində Azərbaycanın əsas döyüş vahidləri aşağıdakılardan ibarət idi: iki piyada diviziyasında birləşmiş olan 1-ci Cavanşir, 2-ci Zaqatala, 3-cü Gəncə, 4-cü Quba, 5-ci Bakı, 6-cı Göyçay, 7-ci Şirvan, 8-ci Ağdaş piyada alayları, süvari diviziyasında birləşmiş olan 1-ci Tatar, 2-ci Qarabağ, 3-cü Şəki süvari alayları və iki topçu briqadası.




**Topçu briqadasının döyüş strukturu**

Bolşevik işğalı ərəfəsində adları çəkilən bu nizami birləşmə və hissələrdən əlavə Azərbaycan Ordusunun tərkibində aşağıdakı idarə, müəssisə, təşkilat, hissə və bölmələr var idi (178):

– Azərbaycan Ordusu Qərargahı;
– Hərbi nazirin Dəftərxanası;
– Bakı komendaturası və hərbi hauptvaxt;
– Gəncə komendaturası;
– xaricdəki hərbi nümayəndəliklər;
– Hərbiyyə məktəbi;
– Bakı, Gəncə, Biləsuvar, Xaçmaz, Yevlax, Ağstafa, Poylu və Kürdəmir dəmir yolu stansiyalarının komendantları;
– ordunun Təchizat rəisi idarəsinin dəftərxanası;
– ordunun topçu təchizatı idarəsi;
– zirehli qatarlar (üç ədəd);
– topçu divizionu;
– əlahiddə batareya;
– hərbi zavod;
– Ləki topçu cəbbəxanası;
– Gəncə anbarlar şöbəsi;
– ordunun İstehkam təchizatı idarəsi;
– Hərbi dəmir yolu məktəbi;
– istehkam taboru;
– İstehkam məktəbi;
– Bakı, Gəncə və Xankəndi iş icraçıları qrupu;
– istehkam anbarı;

– avtokomanda;
– radiostansiya;
– Sürücülər məktəbi;
– Bakı istehkamat hissəsi;
– Gəncə istehkamat hissəsi;
– hərbi liman;
– hərbi gəmilər;
– zirehli avtomobillər taqımı;
– təyyarə dəstəsi;
– ordunun ləvazimat idarəsi;
– iaşə anbarı;
– əlbəsə (paltar) anbarı;
– dəriaşılayan zavod;
– geyim və çəkmə emalatxanası;
– ordunun Hərbi Xəstə Hissəsi rəisinin idarəsi;
– ordunun Hərbi Baytar Hissəsi rəisinin idarəsi;
– hərbi hospital;
– əsgəri xəstəxanalar (lazaretlər);
– hərbi aptek anbarı;
– hərbi feldşer məktəbi;
– baytar xəstəxanası (nalbənd emalatxanası və baytar məktəbi ilə birlikdə);
– Hərbi məhkəmə;
– Prokuror nəzarəti;
– Hərbi ədliyyə idarəsi;
– hərbi müstəntiqlər qrupu;
– əlahiddə tabor;
– məhəlli komandalar;
– mühafizə bölüyü;
– kürd nişançı taboru;
– kürd süvari divizionu.

Şimal sərhədlərinin mühafizəsinin möhkəmləndirilməsi üçün yaradılmış olan Quba dəstəsi Hərbi nazirin 11 yanvar 1920-ci il tarixli 24 nömrəli əmri ilə ləğv edildi (179).

1920-ci ilin Novruz bayramı ərəfəsində Qarabağda erməni qoşunlarının başladığı geniş miqyaslı hücumlar bir qədər səngidik-

dən sonra aprelin 8-də Hərbi nazir S.Mehmandarov yenidən öz vəzifəsindən istefa verdiyini bildirdi. Onun 8 aprel 1920-ci il tarixli 197 nömrəli əmrində deyilirdi: «Aprelin 6-da mən səhhətimin xarablaşmasına görə ehtiyata tərxis olunmağım üçün raport vermişəm. Bunu Hərbi Nazirliyə elan edərək, Hərbi nazirin müavini tam artilleriya generalı Şıxlinskiyə təklif edirəm ki, qanuni əsaslarla Hərbi Nazirliyin müvəqqəti idarəçiliyinə başlasın. Yəni Hərbi nazir təyin edilənə qədər məni xəstə saysınlar».

General Ə.Şıxlinski xidməti ezamiyyətdə olduğu üçün aprelin 6-7-də nazir vəzifəsini müvəqqəti olaraq general Usubov icra etdi. Ə.Şıxlinski ezamiyyətdən aprelin 8-də qayıtdı və elə həmin gündən də nazir vəzifəsinin icrasına başladı.

S.Mehmandarovun istefasının, doğrudan da, səhhətinin xarablaşması ilə bağlı oldğunu iddia etmək çətindir. Belə olsaydı, o, yəqin ki, səhhətinin müalicəsi ilə məşğul olub geri qayıdardı. Qəti söyləmək mümkün olmasa da, çox güman ki, onu narahat edən başqa məsələlər var idi və istefa verməsi də digər səbəblərdən irəli gələ bilərdi. Bununla belə, verdiyi raportuna baxmayaraq, respublikada baş verən proseslərə, Azərbaycanın müstəqilliyinə qarşı güclənən təhlükələrə biganə qala bilməyən S.Mehmandarov aprelin 24-də yenidən Hərbi nazir vəzifəsinin icrasına başladı (180). O, əvvəlki işgüzarlıq və qətiyyyətlə bu məsul vəzifədəki fəaliyyətini davam etdirirdi. Bunu onun bir neçə gün ərzində imzaladığı əmrlərdən də görmək mümkündür. Lakin o, bu vəzifədə xidmətini uzun müddət davam etdirə bilmədi. Aprelin 27-nə keçən gecə Azərbaycan Parlamenti hakimiyyəti təhvil vermək məcburiyyətində qaldı.

Aprelin 28-i S.Mehmandarovun sonuncu xidmət günü idi və həmin gün o özünün sonuncu iki əmrini imzaladı. 237 nömrəli əmrində o yazırdı: «Azərbaycan Parlamentinin qərarı ilə sovet hakimiyyəti tanınmışdır. Bunu elan etməklə əmr edirəm:

1. Bütün hissələrdə, qərargahlarda, idarələrdə, təşkilat və müəssiələrdə yeni hakimiyyətə təhvil verilənədək işi əvvəlki kimi davam etdirməli;

2. Hərbi Nazirliyin sərəncamında yüz milyonlarla qiymətində əmlak, ərzaq ehtiyatı, pul, silah, sursat olduğu üçün onların israfı-

na, yanlış və qanunsuz məsrəfinə təkcə buna yol verənlər deyil, həm də Hərbi Nazirliyin hissələrində, idarələrində, təşkilat və müəssisələrində qanun-qaydaya və təsərrüfat fəaliyyətinin düzgün aparılmasına cavabdeh olanlar məsuliyyət daşıyırlar» (181).

238 nömrəli sonuncu əmrində S.Mehmandarov yazırdı: «Bu gün mən öz vəzifəmi sovet hakimiyyəti tərəfindən təyin edilmiş hərbiyyə və bəhriyyə komissarı Çingiz İldırıma təhvil verdim. Bunu elan edib salamatlaşan zaman mən bütün əziz xidmət yoldaşlarıma sədaqətli və cəsur xidmətlərinə görə öz səmimi minnətdarlığımı bildirirəm. Şübhə etmirəm ki, onlar yeni hakimiyyət dövründə də hamımız üçün əziz olan Azərbaycan naminə vicdan və sədaqətlə xidmət edəcəklər.

Salamat qalın, böyükdən tutmuş kiçik əsgərə qədər sizin hamınıza ürəkdən, bütün səmimiyyətimlə həm işdə, həm də ailə həyatında hər cürə əmin-amanlıq, müvəffəqiyyət və xoşbəxtlik arzu edirəm

Allah amanında.

Hərbi nazir, tam artilleriya generalı S.Mehmandarov» (182).

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.26

2. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (MDA), fond 2894, siyahı 2, iş  4, vərəq 2

3. Гуковский А. Английская интервенция в Закавказье в 1918–1921 годах. См: «Знамя», № 6–7, 1940, с.239

4. Azərbaycan arxivi, № 1–2. Bakı, 1988, s.60

5. Qasımlı M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. III hissə. B., 2004, s.271–273

6. Yenə orada, s.273

7. Azərbaycan arxivi, № 1–2. B., 1988, s.63

8. Yenə orada, s.66

9. Azərbaycan Respublikası Mərkəzi Dövlət arxivi (MDA), f.2894, siy.1, iş 32, v.302

10. Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920). Parlament, I c., Bakı, 1998, s.39

11. Yenə orada, s.123

12. Yenə orada, s.101

13. Yenə orada, s.57

14. Yenə orada, s.172

15. Yenə orada, s.182

16. Yenə orada, s.107, 110

17. Азербайджанская Демократическая Республика (1918–1920). Парламент. Баку, 1998, с.81

18. «Азербайджан», 12.04.1919

19. Süleymanov M. Mehmandarov. B., 2000, s.197

20. Азербайджанская Республика. Баку, 1998, с.217

21. Азербайджанская Демократическая Республика (1918–1920). Законодательные акты. Баку, 1988, с.24, 37, 62, 65, 94, 110, 152, 249

22. MDA, f.2894, siy.1, iş 1, v.24

23. Стеклов А. Армия Мусаватского Азербайджана. Б., 1928, s.32–33

23a. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с. 169–170
24. MDA, f. 2901, siy.1, iş 6, v.52
25. MDA, f. 2901, siy.1, iş 6, v.52
26. Стеклов А. Армия Мусаватского Азербайджана. Б., 1928, с.65
27. Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920). Parlament, I c., Bakı, 1998, s.315
28. MDA, f.970, siy.1, iş 166, v.22
29. «Азербайджан», 18.09.1918
30. MDA, f.2898, siy.2, iş 49, v.23
31. Адрес-календарь Азербайджанской Республики. Баку, 1920, s.27
32. MDA, f.2894, siy.1, iş 27, v.302
33. Yenə orada
34. MDA, f.2898, siy.2 iş 37, v.7,9
35. Yenə orada, v.13
36. Hərbi Bilik, 1993, №1, s.106
37. MDA, f.2898, siy.2, iş 22, v.152
38. MDA, f. 2894, siy. 1, iş 1, v.6–7
39. Yenə orada, v.6
40. Yenə orada
41. Yenə orada, v.7
42. MDA, f. 2894, siy. 4, iş 5, v.7
43. MDA, f. 2894, siy. 1, iş 1, v.37
44. MDA, f. 2894, siy. 1, iş 44, v.26
45. MDA, f. 2894, siy. 1, iş 27, v.302
46. MDA, f. 2898, siy. 2, iş 49, v.35
47. MDA, f. 2894, siy. 1, iş 1, v.41
48. MDA, f. 2898, siy. 1, iş 20, v.39
49. MDA, f. 2898, siy. 2, iş 16, v.18
50. MDA, f. 2894, siy. 2, iş 3, v.15
51. MDA, f. 2894, siy. 2, iş 4, v.2
52. MDA, f. 2898, siy. 1, iş 19b, v.6
53. MDA, f. 2894, siy. 1, iş, 40, v.55
54. MDA, f. 2894, siy. 1, iş 4, v.23

55. MDA, f. 2898, siy. 1, iş 23, v.42
56. MDA, f. 2894, siy. 1, iş 27, v.55
57. MDA, f. 2898, siy. 2, iş 1, v.5
58. MDA, f. 2894, siy. 1, iş 40, v.33
59. MDA, f. 2894, siy. 1, iş 1, v.42
60. MDA, f. 2898, siy. 1, iş 4, v.50
61. MDA, f. 2894, siy. 1, iş 40, v.22
62. Yenə orada, v.50–51
63. MDA, f. 2898, siy. 2, iş 5, v.419
64. MDA, f. 2898, siy. 2, iş 12, v.18
65. Yenə orada, v.22
66. MDA, f. 2898, siy. 1, iş 2, v.22
67. MDA, f. 2894, siy. 1, iş 40, v.16
68. MDA, f. 2898, siy. 1, iş 1, v.43
69. MDA, f. 2898, siy. 1, iş 19b, v.19
70. MDA, f. 2898, siy. 1, iş 1, v.43
71. MDA, f. 2898, siy. 1, iş 1, v.43–44
72. MDA, f. 2894, siy. 1, iş 26, v.3
73. Yenə orada, v.5
74. MDA, f. 2894, siy. 1, iş 4, v.12
75. MDA, f. 2894, siy. 1, iş 3, v.31
76. MDA, f. 2894, siy. 1, iş 27, v.303
77. MDA, f. 2898, siy. 1, iş 29, v.4
78. MDA, f. 2898, siy. 2, iş 12, v.186, 221
79. MDA, f. 2894, siy. 1, iş 4, v.63
80. Yenə orada, v.78
81. Yenə orada, v.83
82. MDA, f. 2898, siy. 2, iş 2, v.207
83. Yenə orada, v.216
84. MDA, f. 2894, siy. 1, iş 4, v.25
84a. Süleymanov M. Mehmandarov. Bakı, 2000, s.195
85. MDA, f. 970, siy. 1, iş 226, v.33
86. MDA, f. 2898, siy. 2, iş 23, v.8
87. MDA, f. 2898, siy. 2, iş 23, v.4
88. MDA, f. 2898. siy. 2, iş 12a, v.4–5
89. Yenə orada, v.7, 19

90. Yenə orada, v.47
91. Yenə orada
92. MDA, f. 2894, siy. 1, iş 5, v.36
93. MDA, f. 2898, siy. 2, iş 12a, v. 66
94. Miralay İsrafil bəy. Azərbaycan ordusu haqqında. Bax: Hərbi Bilik, 1996, № 4, s.27–34
95. MDA, f. 2898, siy. 2, iş 23, v.172
96. Yenə orada, v.174–175
97. MDA, f. 2894, siy. 2, iş 17, v.120
98. Yenə orada, v.140
99. MDA, f. 2898, siy. 2, iş 12a, v.25
100. MDA, f. 2898, siy. 2, iş 17, v.1
101. MDA, f. 2898, siy. 2, iş 12, v.23
102. Yenə orada, v.47
103. Yenə orada, v.27
104. MDA, f. 2894, siy. 1, iş 9, v.60
105. MDA, f. 2898, siy. 2, iş 38, v.20a
106. MDA, f. 2898, siy. 2, iş 24, v.90
107. MDA, f. 2898, siy. 1, iş 22, v.86
108. MDA, f. 2898, siy. 2, iş 12, v.66
109. Yenə orada, v. 66
110. MDA, f. 2898, siy. 1, iş 13, v.23
111. Hərbi Bilik, 1996, № 1, s.92
112. MDA, f. 894, siy. 3, iş 1, v.27
113. MDA, f. 2898, siy. 2, iş 12a, v.50
114. Yenə orada, v. 55
115. Yenə orada, v. 61, 75
116. Yenə orada, v. 66, 71
117. Yenə orada, v. 59
118. MDA, f. 2898, siy. 2, iş 12, v.59
119. MDA, f. 2894, siy. 1, iş 5, v.85
120. MDA, f. 2894, siy. 1, iş 13, v.158
121. Yenə orada, v.160
122. MDA, f. 2894, siy. 1, iş 13, v.160
123. MDA, f. 2894, siy. 1, iş 23, v.38
124. Yenə orada,

125. Yenə orada, v.40
126. MDA, f. 2898, siy. 2, iş 13, v.124
127. MDA, f. 2894, siy. 1, iş 23, v.6
128. Yenə orada, v.6
129. Yenə orada, v.9
130. Yenə orada, v.14, 47
131. Yenə orada, v.15, 17
132. MDA, f.2899, siy.1, iş 6, v.83
133. MDA, f.2898, siy.1, iş 13, v.26
134. MDA, f.2894, siy.1, iş 21, v.53
135. MDA, f.2894, siy. 1, iş 5, v.125
136. MDA, f.2898, siy.2, iş 12, v.85
137. MDA, f.2894, siy.1, iş 5, v.126
138. MDA, f.2898, siy.2, iş 12b, v.167
139. MDA, f.2894, siy.1, iş 19b, v.8
140. MDA, f.2894, siy.1, iş 7, v.59
141. MDA, f.2898, siy.2, iş 25, v.58
142. Yenə orada, v.45–46
143. MDA, f.2898, siy.2, iş 12, v.212
144. MDA, f.2898, siy.2, iş 25, v.102
145. Yenə orada, v.40–41
146. Yenə orada, v.125, 127, 138
147. MDA, f.2894, siy.1, iş 7, v.65
148. MDA, f.2894, siy.1, iş 6, v.154
149. Yenə orada, v.157
150. MDA, f.1054, siy.2, iş 101, v.42–43
151. MDA, f.2898, siy.2, iş 12a, v.221
152. MDA, f.2898, siy.2, iş 16, v.14
153. MDA, f.2894, siy.1, iş 13, v.12a
154. MDA, f.2898, siy.1, iş 2, v.24
155. MDA, f.2898, siy.2, iş 5, v.66; f. 2898, siy. 2, iş 8, v.19
156. MDA, f.2898, siy.2, iş 8, v.60
157. MDA, f.2894, siy.1, iş 7, v.16
158. MDA, f.2894, siy.1, iş 39, v.2
159. Yenə orada, v.1–5
160. Yenə orada, v.3–4

161. Yenə orada, v.67
162. Yenə orada, v.67–68
163. MDA, f.970, siy.1, iş 86, v.127
164. MDA, f.2898, siy.2, iş 3, v.150
165. MDA, f.2894, siy.1, iş 39, v.86
166. Yenə orada
167. Yenə orada, v.95
168. Yenə orada
169. Yenə orada
170. MDA, f.2894, siy.2, iş 4, v.1
171. MDA, f.2894, siy.1, iş 39, v.108
172. MDA, f.2898, siy.2, iş 20, v.109
173. MDA, f.2894, siy.1, iş 39, v.109–112
174. Yenə orada, v.112
175. MDA, f.2894, siy.1, iş 19, v.1
176. Yenə orada
177. Дарабади П.Г. О вооруженных силах Азербайджанской Демократической Республики (1918–1920). Bax: Azərbaycan EA xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1991, №1, s. 27–34
178. MDA, f.2898, siy.2, iş 3, v.70–71
179. MDA, f.2894, siy.1, iş 7, v.29
180. MDA, f.2894, siy.1, iş 39, v.185
181. MDA, f.2898, siy.2, iş 3, v.287
182. Yenə orada, v.288

# II FƏSİL

# CÜMHURİYYƏT ORDUSUNUN MADDİ-TEXNİKİ TƏMİNATI

## *1. Qoşunların mənzil və maliyyə təminatı*

Qoşunların maddi-texniki təminatının həlli Azərbaycan hökumətinin və Hərbi Nazirliyin rəhbərliyinin daim diqqət mərkəzində dayanan başlıca məsələlərdən biri idi. Ordunun inkişaf səviyyəsini, hərbi imkanlarını, döyüş potensialını müəyyənləşdirən başlıca amil kimi bu problem bütün mövcudluğu dövründə Cümhuriyyət ordusu quruculuğunun mürəkkəb sahələrindən birini təşkil edirdi. Əslində, bu problemin nə vaxtsa arzu edilən səviyyədə həll olunduğundan da danışmaq mümkün deyil. Ancaq Azərbaycan hökumətinin daimi diqqəti, mövcud olan ehtiyatlardan məqsədyönlü və səmərəli şəkildə istifadə edilməsi qoşun hissələrinin döyüş hazırlığının qənaətbəxş səviyyədə saxlamağa imkan verirdi.

Ordunun maddi-texniki təminatında mövcud olan bir çox çətinliklər obyektiv səbəblərlə bağlı idi. Məsələn, çar Rusiyası Azərbaycandan əsgər çağırmamaqla bərabər, burada hərbi infrastrukturun inkişafına da fikir vermirdi. Çünki həmin dövrdə Azərbaycan istiqamətindən Rusiya üçün elə ciddi bir təhlükə gözlənilmirdi. Azərbaycanın sərhəd olduğu İran Rusiya üçün qorxulu bir rəqib deyildi. Ona görə də burada çoxlu sayda hərbi qüvvələrin yerləşdirilməsinə və onlar üçün zəruri olan infrastrukturun yaradılmasına lazımi diqqət yetirilmirdi. Türkiyənin hərbi potensialından daha çox ehtiyat edən Rusiya bu dövlətin sərhədi boyunca daha çox qoşun saxlayırdı. Bu qoşun hissələrinin yerləşdirilməsi və onlara xidmət göstərilməsi üçün qışlalar, xidməti binalar, anbarlar tikilmiş, strateji yollar çəkilmişdi. Bunlardan isə sonralar daha çox Gürcüstan və Ermənistan faydalandı.

Bununla bağlı S.Mehmandarov belə yazırdı: «Zaqafqaziyanın Xəzər dənizi və İran sərhədi boyu olan şərq hissəsi Zaqafqaziya respublikası dağıldıqdan sonra indiki Azərbaycan ərazisini təşkil

etmişdir. İran Rusiya üçün zəif qonşu olduğundan Xəzər dənizi isə daxili dəniz olduğundan təbiidir ki, bütün diqqət Türkiyə sərhədinə yönəldilmişdi və bu sərhəd boyu sahə hərbi baxımdan həmişə təkmilləşdirilirdi. Burada aşağıdakılar mövcud idi:

1) toplarla, çoxlu sursatla, ərzaq ehtiyatları və təchizatla təmin edilmiş Qars və Batum kimi güclü qalalar;

2) Aleksandropol və Tiflisdə topçu anbarları və emalatxanaları kimi geniş baza tikililəri; Tiflisdə, Kutaisidə, Batumda, Aleksandropolda, İrəvanda, Qarsda, Sarıqamışda çoxlu sayda abad qışlalar, hərbi xəstəxanalar, Qafqaz qoşunları üçün lazımi ehtiyatlarla dolu olan ləvazimat və topçu anbarları;

3) Sarıqamışa qədər uzadılmış strateji şose və dəmir yolu şəbəkəsi.

Yuxarıda göstərilən səbəblərə görə Azərbaycan Cümhuriyyətinin ərazisi bütün binalardan məhrumdur. Xüsusilə Gürcüstana daha zəngin miras qalmışdır. Hətta çoxlu sayda kiçik qəza şəhərlərinin də (Qori, Düşet) çox abad kazarmaları var. Tiflisdə isə təkcə çoxsaylı qarnizonlar yox, hətta Qafqazın bütün baş idarəsini tuta biləcək xidməti binalar vardır».

Azərbaycanda olan azsaylı qışlalar, anbarlar, emalatxanalar isə çox böyük dağıntılara məruz qalmışdı. Onların bərpa edilməsi və yenilərinin tikilməsi onsuz da kəsad olan maddi imkanlara əlavə bir ağırlıq gətirirdi.

Çar Rusiyası ordusundan qalmış olan hərbi tikililər, əsasən, böyük şəhərlərdə tikilmişdi. Çünki bu böyük şəhərlər özləri Rusiya üçün ucqarları təşkil edirdilər. Azərbaycanın ucqarlarında isə qoşunlar demək olar ki, yox dərəcəsində idi. Yeni şəraitdə müstəqil Azərbaycan Ordusunun, əsasən, ucqar məntəqələrdə, Qarabağ ətrafında, şimal sərhədi boyunca yerləşdirilməsi zərurəti ortaya çıxmışdı. Həmin ərazilərdə hərbi tikililər olmadığı üçün, şübhəsiz ki, qoşun hissələri uyğunlaşdırılmış binalarda yerləşdirilə bilərdi. Bu da maliyyə xərclərinin artırılması hesabına həll edilə bilərdi. Havaların soyuması vəziyyəti xüsusilə mürəkkəbləşdirirdi. Nəticədə hökumət də əlavə qayğılarla rastlaşmalı olurdu.

1918-ci ilin noyabrında ingilis qoşunlarının Bakıya daxil olması ilə Hərbi Nazirliyin və Azərbaycan qoşunlarının Bakını tərk et-

məsi, həm də buradakı hərbi tikililərdən istifadə etmək imkanının itirilməsi demək idi. Yuxarıda göstərildiyi kimi, Hərbi Nazirliyin özünün aparatı heç də yetərli olmayan bir binada yerləşdirilmişdi (1). Hərbi Nazirliyin rəhbər heyəti, bütünlükdə zabitlər isə çox da münasib olmayan yaşayış binalarında məskunlaşmışdılar. Əlahiddə Azərbaycan korpusunun komandiri vəzifəsində olarkən Ə.Şıxlinski ordunun Ümumi qərargah rəisi Həbib bəy Səlimova göndərdiyi qeydində xahiş edirdi ki, onun yaşayış şəraitinin yaxşılaşdırılması imkanını yaddan çıxarmasın. Ə.Şıxlinski narahatlıqla bildirirdi ki, «indiki rütubətli mənzildə 2–3 həftə yaşasam, burada ölərəm» (2).

Yeni şəraitdə Azərbaycan Ordusunun hissələrinin, əsasən, ucqar məntəqələrdə, Qarabağ ətrafında, şimal sərhədi boyunca yerləşdirilməsi zərurəti ortaya çıxmışdı. Həmin ərazilərdə hərbi tikililər olmadığı üçün qoşun hissələri uyğunlaşdırılmış binalarda yerləşdirilə bilərdi.

Ona görə də Hərbi Nazirliyin rəhbərliyi ilk növbədə bu məsələlərin həllinə ciddi diqqət yetirirdi. Vəziyyətin heç olmasa müəyyən qədər yaxşılaşdırılması üçün bir sıra tədbirlər həyata keçirilirdi. Tikinti-bərpa işlərinin aparılması məqsədilə dərhal 300 min rubl vəsait ayrıldı. Nazirin göstərişi ilə bu vəsait ilk növbədə tikinti materiallarının alınmasına, taxtlar düzəldilməsinə, qapı və pəncərələrin möhkəmləndirilməsinə, otaqların və binaların qızdırılmasına istiqamətləndirildi. S.Mehmandarovun məlumatına görə kifayət qədər sobalar əldə edilmişdi və ona görə də onlardan da yaxşı istifadə edilməsinə cəhd göstərilirdi (3).

Hərbi nazir S.Mehmandarov hərbi hissələrlə elə ilk tanışlıq zamanı qoşunların yerləşməsi məsələlərinə ciddi diqqət yetirirdi. 1918-ci il noyabrın 27-də 1-ci Tatar süvari alayında olarkən Hərbi nazir qışlaların vəziyyətindən heç də razı qalmadı. Otaqlar darısqal və çirkli idi. Atların tövlələri də ən adi tələblərə cavab vermirdi. Dekabrın 2-də isə nazir 2-ci Qarabağ süvari alayının vəziyyəti ilə tanış oldu. Onun fikrincə, qışlalar qənaətbəxş olsa da, at tövlələri qaranlıq və bərbad vəziyyətdə idi. 4-cü və 5-ci dağ-topçu batareyalarında gördükləri də naziri qane etmədi. 4-cü batareyada üstüörtülü park olmadığı üçün toplar açıq havada,

qarın, yağışın altında saxlanılırdı. Ağdam şərab zavodunun həyətində yerləşmiş olan 5-ci dağ-topçu batareyasının isə qışlaları yaşayış üçün xeyli narahat idi (4).

2-ci Qarabağ süvari alayında qışlaların yaxşı vəziyyətdə olmadığını alay komandiri Süleyman bəy Əfəndiyev də etiraf edirdi. Daxili əmrlərindən birində polkovnik Süleyman bəy Əfəndiyev qışlaların natəmiz saxlanıldığını və onların yaşayış üçün narahat olmasını, zabitlərin öz vəzifələrinə məsuliyyətlə yanaşmadığını qeyd edirdi (5).

S.Əfəndiyev 1-ci piyada diviziyasının komandiri kimi də bir sıra əmrlərində qoşunların vəziyyətinə toxunmuşdu. 12 yanvar 1919-cu ildə hərbi hissələrlə əyani tanışlıqdan sonra imzaladığı əmrdə Şuşadakı qoşunların vəziyyətinin yaxşı olduğunu, Əsgəran taborunun vəziyyətinin isə heç də yaxşı olmadığını, şəxsi heyətə sabun və yatacaq dəyişəyinin verilmədiyini qeyd edirdi. 6 fevral 1919-cu il tarixli əmrində S.Əfəndiyev yenidən Əsgərandakı qoşun bölmələrinin yerləşdirilməsi məsələsinə qayıdırdı. Xüsusən, döyüş postlarında onlar üçün ən adi şəraitin yaradılmadığını qeyd edirdi. Diviziya komandiri təəccübünü gizlətmirdi ki, ətrafda çoxlu meşəlik olmasına baxmayaraq, əsgərlərin yatması üçün normal taxtlar düzəldilməmişdi, postlar təchiz edilməmişdi və yaşayış yerləri natəmiz saxlanılırdı (6).

Ağdam qarnizonunun mürəkkəb şəraitdə yaşaması barədə parlament üzvləri ilə birlikdə orada olmuş Daxili İşlər nazirinin müavini general Ağabəyov da öz hesabatında hökumətə məlumat vermişdi. Onun müşahidələrinə görə qarnizonun hissələri çox namünasib yerləşdirilmişdi. Binalar çatışmadığından eyni hissənin bölmələri bir-birindən xeyli aralı olan tikililərdə məskunlaşmışdılar və yataq əşyaları çatışmadığından hərbi qulluqçular çox vaxt elə yerdə yatırdılar. Yorğan-döşək az idi. Münasib xəstəxana binası olmadığına görə müxtəlif xarakterli xəstələr bir yerdə müalicə olunurdular. Əsgəranda qoşun bölmələrinin yaşadığı bina daxmadan başqa bir şey deyildi. Bu bina normal yaşayış imkanlarından xeyli uzaq, dar və çirkli idi. Yandırılan ocağın tüstüsü hər tərəfi bürüyürdü, axşamlar isə otaqların işıqlandırılması üçün lampa tapılmırdı. Zabitlərin yaşadığı otaqlar da əsgər qışlasından heç

nə ilə fərqlənmirdi. General Ağabəyov fikrini onunla yekunlaşdırırdı ki, Ağdamda qoşunların münasib qışlaları yoxdur (7).

1919-cu il yanvarın 1-də Hərbi nazir Hacıqabulda yerləşən 2-ci Bakı piyada alayının formalaşması və onun yerləşdirilməsi vəziyyəti ilə tanış oldu. S.Mehmandarovun həmin tanışlıqla bağlı imzaladığı əmrdən aydın olurdu ki, mövcud olan tikililərdən necə istifadə edilməsi komandir və zabitlərin işgüzarlığından, şəxsi heyətə hansı qayğı ilə yanaşmasından da çox asılı idi. Əgər birinci taborda şəxsi heyətin yerləşdirilməsi lazımi tələblərə cavab vermirdisə, otaqlar çirkli və soyuq idisə, eyni zamanda, yatacaq əşyaları yox idisə, ikinci taborda qışlalar təmiz və səliqəli, otaqlar işıqlı və isti idi. Bir sözlə, tabor komandirinin işgüzarlığı və qayğıkeşliyi dərhal hiss olunmuşdu (8).

Vaxtilə rus qoşunlarının yaşamış olduğu qışla və tikililərdə, habelə qışla yerinə istifadə edilən şəxsi binalarda yaşayış üçün zəruri olan müəyyən əmlak saxlanılmışdı. Hərbi hissələr şəhəri tərk edərkən otaqlardakı taxtlar, çarpayılar, şkaflar və digər mebellər təhvil verilmişdi. Bu qışlaları təhvil alan Azərbaycan Ordusunun bəzi hissə və bölmələri təhvil alınan binalara və mebelə qarşı hədsiz ehtiyatsızlıqla yanaşır və onların sıradan çıxmasının aradan qaldırılması üçün heç nə etmirdilər. Hərbi nazir S.Mehmandarov 1919-cu ilin əvvəlində bu məsələ ilə bağlı xüsusi əmr imzaladı, komandir və zabitləri xidməti mülkiyyətə qayğı göstərməyə çağırdı (9).

14 fevral 1919-cu il tarixli 74 nömrəli əmrində isə Hərbi nazir hərbi obyektlərdə qoşun hissələri tərəfindən tikinti və bərpa işlərinin aparılması qaydasını müəyyən etdi. Ətrafda yerləşən qoşun hissələrinin tikililərində bərpa işlərinin müstəqimən İstehkam idarəsi tərəfindən aparılması imkanı olmadığı üçün onların icrasının yerlərdə həyata keçirilməsinə icazə verilirdi. Bunun üçün qoşun hissələrinin komandirləri görülən işlərin həcmini, ona sərf olunacaq maliyyə vəsaitinin miqdarını müəyyənləşdirib İstehkam idarəsinə bildirməli və sonra həmin vəsaiti almalı idi. Alınan maliyyə vəsaiti qoşunlarda İstehkam idarəsinin rəisinin möhrü ilə möhürlənmiş və surğuclanmış kitaba mədaxil edilməli idi. Nəzərə tutulan işlər qurtardıqdan sonra Ümumi qərargahın və İstehkam

idarəsinin zabitlərindən təşkil edilmiş komissiya bu işləri yoxlamalı və onların ayrılan maliyyə vəsaitinə uyğunluğu barədə akt tərtib etməli idi (10).

Tikinti və bərpa işlərinin aparılmasında israfçılığa, ayrı-ayrı zabitlərin maliyyə vəsaitlərinin bu və ya digər yolla mənimsənilməsinə yol verməmək üçün çox vaxt müsabiqələr (tenderlər) keçirilirdi. İstehkam idarəsi görüləsi işin həcmini «Azərbaycan» qəzeti vasitəsi ilə elan edir və icraçı təşkilatları əməkdaşlığa dəvət edirdi. Lakin bu üsul çox vaxt səmərəli və əlverişli olmurdu. Çünki hədsiz bahalaşma şəraitində tərtib edilən smetalar bir aydan sonra müəyyənləşdirilən maliyyə xərclərinə uyğunluq təşkil etmirdi. Əşyaların bahalaşması nəticəsində icraçılar ziyanla işləməli olurdular ki, bu da onlara sərf etmirdi. Ona görə keçirilən müsabiqələrdə bəzən heç kim iştirak etmirdi. Bu isə Nazirliyin sifarişlərinin ləngiməsinə səbəb olurdu. İstehkam idarəsinin rəisi Hərbi nazir qarşısında tikinti işlərinin hərbi hissələrin özləri tərəfindən təsərrüfat müqavilələri əsasında aparılmasının məqsədəuyğunluğu barədə vəsatət qaldırmışdı. Verilən təklifə görə hərbi hissələr yerlərdə icraçı orqanlarla cari qiymətlər əsasında müqavilə bağlayıb Nazirliyin icraçı qruplarının nəzarəti altında onu həyata keçirə bilərdilər (11).

Mövcud olan çətinliklərə baxmayaraq, güclü ordunun formalaşdırılması üçün vacib olan hərbi infrastrukturun yaradılması və onun lazımi səviyyədə saxlanması həm Hərbi Nazirliyin, həm də hökumətin daimi nəzarəti altında idi. Dövlətin hərbi büdcə üçün ayırdığı vəsaitin müəyyən bir hissəsi də məhz infrastrukturun yaradılmasına, bərpasına və yaxşı vəziyyətdə saxlanılmasına istiqamətləndirilməli idi. Bunu S.Mehmandarovun təqdim olunan smeta ilə bağlı Nazirlər Şurasına göndərdiyi təliqəsindən də aydın görmək mümkündür. Nazir ilk növbədə hərbi infrastruktur baxımından Azərbaycanın qonşu respublikalarla müqayisədə daha mürəkkəb vəziyyətdə olduğunu xatırladırdı (12). Qoşunların yerləşdirilməsi, hərbi infrastrukturun yaradılması, binaların qışa hazırlığı və digər bu kimi məsələlər həm 1919, həm də 1920-ci ildə dəfələrlə Dövlət Müdafiə Komitəsinin müzakirəsinə çıxarılmış və burada maliyyə vəsaiti ayrılması, bu və ya digər dövlət

orqanlarına müvafiq tapşırıqlar verilməsi barədə qərarlar qəbul edilmişdi (13).

Nəticədə qoşunların yerləşdirilməsi və hərbi infrastrukturun yaradılması üçün xeyli işlər görmək mümkün olmuşdu. 1920-ci ildə Azərbaycan Ordusunun birləşmə, hissə, idarə, müəssisə və təşkilatlarının sayı da hərbi infrastrukturun yaradılması baxımından nəzərəçarpacaq işlərin görüldüyünü sübut edirdi.

Qısa müddətdən sonra elə Ağdam qarnizonunun vəziyyətində xeyli dəyişiklik yarandı. Həm 1-ci Cavanşir piyada alayında, həm də 2-ci Qarabağ süvari alayında otaqlar təmiz və səliqəli idi. Binalar müəyyən bərpa işləri tələb etsələr də, yaşayış yeri sahmana salınmışdı. Taxtlar və çarpayılar çatışmadığı üçün xüsusi hörmə çarpayılar düzəldilmişdi və əsgərlərin istifadəsinə verilmişdi (14). 2-ci Qarabağ süvari alayının hər bölüyünün öz at tövləsi var idi. Cavanşir piyada alayında isə silah emalatxanası açılmış və onun üçün bina da ayrılmışdı (15).

Şəxsi heyətin yerləşdirilməsi üçün Lənkəran köməkçi taborunda xeyli işlər görülmüşdü. Qışlalardan başqa emalatxanalar da yaxşı qurulmuş və münasib binalarda yerləşdirilmişdi. Taborda, hətta dəmirçixana və çörəkbişirmə sexi də açılmışdı. Taborun yerləşdirilməsində, qışla və köməkçi binaların yaxşı təchiz edilməsində, bütünlükdə hissənin formalaşdırılmasında göstərdiyi təşəbbüskarlıq və işgüzarlığa görə hissə komandiri kapitan Səməd bəy Rəfibəyov Hərbi nazirin təşəkkürünü almışdı (16).

Qoşunların ərzaq ehtiyatının toplanılması üçün Hacıqabulda, Gəncədə və Ağdamda iaşə anbarları yaradılmışdı (17). Ləkidəki topçu anbarı sıxlıq yaratdığı üçün Kürdəmirdə ikinci topçu anbarı yaradılmış və bunun üçün müvafiq bina təchiz edilmişdi (18). Hissələrin çoxunda əsgər xəstəxanaları açılmış və həmin xəstəxanalar müvafiq binalarla təchiz edilmişdi (19).

Hətta Gəncə qarnizonu iclasının da öz xüsusi binası var idi ki, burada həm qarnizon iclasları və qarnizon miqyasında tədbirlər keçirilir, həm də zabitlər xidmətdən sonra istirahət edirdilər. Qarnizon iclası binasının bu tədbirlərin keçirilməsinə hazırlanması üçün Ləvazimat idarəsindən tələb olunan qədər maliyyə vəsaiti ayrılmışdı (20).

Ümumi qərargah rəisi general Həbib bəy Səlimov 1919-cu il iyunun 7-də Cavanşir alayının Şuşada yerləşən taborunun yaşayış şəraitindən ümumən qane olduğunu bildirirdi. Generalın iradları onunla bağlı idi ki, şəxsi heyətin heç də hamısında adyal və ağ örtüklər yox idi, samanın yoxluğu üzündən döşəklər vaxtlı-vaxtında doldurulmurdu. Ancaq tabor üçün ayrılan bina heç də pis deyildi. 1919-cu ilin birinci yarım ilini Şuşa taboru şəxsi binalarda yaşamışdı. Bu da bir sıra problemləri aradan qaldırmağa zəmin yaratmışdı. 1919-cu ilin iyununda tabor əsgər qışlalarına köçməyə başladı. Həmin qışlalar şəhərin erməni məhəlləsində yerləşirdi və iki mərtəbədən ibarət idi. Binanın otaqları hündür və işıqlı idi, döşəməsi asfaltla örtülmüşdü. Bu binalar yalnız kiçik bərpa işləri tələb edirdi. Qısa müddətdən sonra buradakı otaqlar tam normal hala salındı, zəruri olan yataq əşyaları ilə təmin edildi və məişət guşələri yaradıldı. H.Səlimovun yazdıqlarına görə qarşıya çıxan başlıca çətinlik binaların qızdırılmasına lazım olan odunun alınması üçün maliyyə vəsaitinin buraxılmaması idi (21).

İyunun 6-da 2-ci dağ-topçu divizionunda gördüklərini general-mayor H.Səlimov öz hesabatında böyük razılıqla təsvir edirdi. Divizionun bütün binaları əla vəziyyətdə idi, əsgərlərin hamısının adyalı və döşəkağı var idi (22).

Hərbi binaların qızdırılması üçün bütün hissələrə pul ayrıldı. Hər bir binanın qızdırılmasına zəruri olan odunun, kerosinin və mazutun norması müəyyənləşdirildi və müxtəlif məntəqələrdə onların qiyməti müxtəlif olduğu üçün real bazar qiymətlərinə uyğun gələn qiymət cədvəli təsdiq edildi. Hissələr həmin cədvələ uyğun olaraq ayrılmış pul əsasında bu yanacağı ala bilərdilər. 1920-ci ilin yanvar, aprel ayları üçün həmin qiymət cədvəli aşağıdakı şəkildə təsdiq edilmişdi (23).

| **Yaşayış məntəqəsinin adı** | **3 girdinlik normal odun növü**<br>**rubl qəpik** | **Kerosin (pudla) 1pud=16,38 kq** | **Mazut (pudla)** |
|---|---|---|---|
| Bakı | 1175 | 18 | 9 |
| Gəncə | 1238 | 40 | 18 |
| Lənkəran | 900 | 50 | 20 |
| Şuşa | 720 | 60 | 35 |
| Xankəndi | 720 | 60 | 35 |

| Yaşayış məntəqəsinin adı | 3 girdinlik normal odun növü rubl | qəpik | Kerosin (pudla) 1pud=16,38 kq | Mazut (pudla) |
|---|---|---|---|---|
| Qusar | 337 | 50 | 30 | 15 |
| Quba | 337 | 50 | 30 | 15 |
| Qaryagin | 2044 | | 120 | - |
| Nuxa | 1550 | | 100 | - |
| Göyçay | 560 | | 40 | - |
| Ləki | 200 | | 40 | - |
| Qazax | 530 | | 50 | - |
| Kürdəmir | 560 | | 40 | - |
| Zaqatala | 480 | | 120 | - |
| Şamaxı | 480 | | 80 | - |

Əsgər xəstəxanalarının qızdırılmasına vəsait ayrılmasına xüsusi diqqət yetirilirdi. Bununla bağlı Hərbi nazir ayrıca bir əmr imzalamışdı. Həmin əmrlə əsgər xəstəxanalarının qızdırılması üçün zəruri olan yanacağın normaları müəyyənləşdirildi. Əsgər xəstəxanaları üçün ayrılmış olan binalar oktyabrın 1-dən aprelin 1-nə kimi qızdırılmalı idi. Otaqlarda olan hər bir soba üçün 3 girdinlik ağacdan 12 verşok (4,45 sm) odun ayrılmalı idi. Xəstəxanaların mətbəxlərində istifadə üçün ayda bir sajen yandırıla bilərdi. Mətbəx sobası ilboyu işlədiyindən bu norma hər ay üçün təsdiq edilmişdi. Bundan başqa, xəstəxanaların çörək sexi, hamamı, camaşırxanası üçün də odun normaları müəyyənləşdirilmişdi (24).

İşlədiləcək yanacaq normaları və onların qiymətləri müəyyənləşdirilərkən böyük məsrəflərə yol verilməməsi nəzərə alınmışdı. Bununla yanaşı, Hərbi Nazirlik şəxsi heyətin sağlamlığına ziyan gətirə biləcək lüzumsuz qənaət edilməsini də düzgün saymırdı. Mövsümün sonunda hissələr həm yanacaq üçün ayrılmış pulun xərclənməsi barədə hesabat verməli, onu əsaslandırmalı, həm də qənaət edildiyi təqdirdə onun nəyin hesabına olduğu haqda izahat verməli idi (25).

Zabitlərin mənzil və yaşayış şəraiti ilə təmin edilməsi də müəyyən sənədlərlə nizamlanırdı. Mənzilləri olmayan zabitlər hökumət hesabına yaşayış sahələri ilə təmin edilməli idilər. Bunun üçün də normativlər mövcud idi. Qüvvədə olan qanunvericiliyə görə vəzifəsindən və ailə vəziyyətindən asılı olaraq za-

bitlərə ayrılmalı olan yaşayış sahələrinin ölçüləri də müxtəlif idi. Bunu aşağıdakı cədvəldən də görmək olar (26).

| **Vəzifə** | **Otaqların sayı** | **Otaqların sahəsi kv. sajen (2,3 m)** |
|---|---|---|
| Hərbi nazir | 8 | 52 |
| Hərbi nazirin müavini | 7 | 45,5 |
| Qərargah rəisi | 6 | 39 |
| Generallar (ailəli) | 5 | 32,5 |
| Generallar (subay) | 4 | 26 |
| Qərargah zabitləri, alay komandirləri (ailəli) | 4 | 26 |
| Qərargah zabitləri, alay komandirləri (subay) | 3 | 19 |
| Digər qərargah zabitləri (ailəli) | 3 | 19 |
| Digər qərargah zabitləri (subay) | 2 | 13 |
| Baş zabitlər, bölük komandirləri (ailəli) | 2 | 13 |
| Baş zabitlər, bölük komandirləri (subay) | 1 | 6,5 |

Digər zabitlər cədvəldə göstərilən vəzifə kateqoriyalarına müvafiq olaraq otaqla təmin edilirdilər.

Zabitlərin yaşayış sahələrinin qızdırılması, odun və yanacaq alınması, mənzillərin normal səviyyədə saxlanılması üçün hər ay xüsusi vəsait ayrılır və vəzifə kateqoriyalarına uyğun olaraq maaşa əlavə edilirdi. Respublikadakı bahalaşma ilə əlaqədar olaraq bu maliyyə vəsaitinin miqdarında da dəyişiklik edilirdi. Məsələn, 1919-cu ilin əvvəlində zabitlərə yaşayış sahələrinin qızdırılması üçün verilən vəsait 1919-cu ilin sonunda üç dəfə qaldırılmışdı. Aşağıdakı cədvəldə bu artımın miqdarı göstərilmişdir (27).

Yaşayış sahələrinin qızdırılması üçün ayrılan aylıq vəsaitin miqdarı

| **Vəzifə** | **1919-cu ilin əvvəlində** | **1919-cu ilin dekabrında** |
|---|---|---|
| Hərbi nazir | 7200 rubl | 21600 rubl |
| Hərbi nazirin müavini | 3600 rubl | 10800 rubl |
| Qərargah rəisi | 3300 rubl | 9900 rubl |
| Diviziya komandiri | 3300 rubl | 9900 rubl |

| Vəzifə | 1919-cu ilin əvvəlində | 1919-cu ilin dekabrında |
|---|---|---|
| Diviziya komandirinin müavini | 3000 rubl | 9000 rubl |
| Nazirliyin Dəftərxanasının rəisi | 3000 rubl | 9000 rubl |
| Alay komandiri | 3000 rubl | 9000 rubl |
| Alay komandirinin müavini | 2700 rubl | 8100 rubl |
| Tabor komandiri | 2100 rubl | 6300 rubl |
| Ştabs-kapitan | 1800 rubl | 5400 rubl |
| Poruçik | 1800 rubl | 5400 rubl |
| Podporuçik, praporşik | 1800 rubl | 5400 rubl |

Digər zabitlər müvafiq vəzifələrə uyğun tutulurdular.

Bütün bunlar heç də o demək deyil ki, Azərbaycan Ordusu üçün hərbi infrastrukturun yaradılması, qoşunların, köməkçi xidmətlərin yerləşdirilməsi üçün binaların tikilməsi, kirayəyə götürülməsi, bütün zabitlərin yaşayış sahəsi ilə təmin edilməsi tam ödənilmişdi. Obyektiv səbəblərlə şərtlənən müəyyən çətinliklər qalmaqda davam edirdi. Məsələn, 1919-cu ilin yayında süvari diviziyasında hərbi binalar çatışmadığı üçün bir sıra bölmələrin formalaşdırılması da ləngiyirdi (28). 1919-cu ilin noyabrında Gəncə piyada alayının hissə və bölmələri şəhərin müxtəlif hissələrində, kirayə edilmiş binalarda yerləşdirilmişdi. Alayın 1-ci taborunun 11 və 12-ci bölüklərinin binaları isə ümumiyyətlə, olmadığı üçün onlar karvansarada məskunlaşmışdılar (29). 6-cı Göyçay piyada alayının hissə və bölmələrinin bəziləri Bayılda donanma qışlalarında yerləşdirilsələr də, bütünlükdə alayın ixtiyarına verilmiş binalar zəruri tələblərə cavab vermirdi (30). 1920-ci ilin martında Tərtərdəki qoşun bölmələrinin yaşayış şəraiti hələ də pis vəziyyətdə idi. Ayrılan bina namünasib idi. Əsgərlərin çoxu quru yerdə yatırdı (31).

Tibb xidmətinin lazımi səviyyədə təşkili üçün zəruri olan bina və tikililər də çatışmırdı. Çox halda tibb obyektləri uyğunlaşdırılmış binalarda yerləşdirilmişdi ki, bu da tibb xidmətinin təşkilinə öz təsirini göstərirdi. Ordunun inkişafı ilə mənzil təminatına olan tələbat da durmadan artırdı. Hökumətin və ordunun rəhbərliyinin məqsədyönlü fəaliyyəti ilə bu ehtiyacın aradan qaldırılmasına cəhd göstərilirdi. Lakin qısa müddət ərzində bu problemi birdəfəlik həll etmək mümkün deyildi. Ona görə də ordunun bütün möv-

cudluğu ərzində qoşunların mənzil təminatına olan ehtiyac da qalmaqda davam edirdi.

Normal xidmət şəraitinin yaradılması üçün Hərbi Nazirliyin rəhbərliyi hərbi qulluqçuların həyat şəraitinin yaxşılaşdırılmasını, onları ehtiyaclardan xilas edəcək maliyyə vəsaiti ilə təmin edilməsini də diqqət mərkəzində saxlayırdı. Zabit zəhmətinin ağırlığına yaxşı bələd olan Hərbi nazir S.Mehmandarov və eləcə də onun müavini bu insanların şərəfini həmişə yüksək tutmağa çalışmış və onların məişət problemlərinə də böyük qayğı ilə yanaşmışdılar. Bu baxımdan hərbi qulluqçuların xidməti maaşla vaxtında təmin edilməsi, onun real həyat səviyyəsinə uyğunlaşdırılması istiqamətində Hərbi Nazirliyin rəhbərliyinin tutduğu mövqe daha xarakterikdir. Məsələn, belə bir fakt məlumdur ki, zabit heyətinin maaşının verilməsi gecikdiriləndə Hərbi Nazirliyin rəhbərliyi dərhal Nazirlər Şurasının qarşısında məsələ qaldırmışdı. Nazirlər Şurası isə Hərbi Nazirliyin rəhbərliyinin qaldırdığı məsələ ilə razılaşıb mövcud olan çətinliklərə baxmayaraq, zabit heyətinin maaşının vaxtında ödənməsi üçün Maliyyə Nazirliyinə göstəriş vermişdi. Növbəti ayda isə Nazirlər Şurasını göstərişi ilə zabit heyətinin maaşı vaxtından hətta 15 gün əvvəl ayrılmış və Hərbi Nazirliyə xəbər göndərilmişdi ki, həmin vəsait alınıb zabitlərə paylansın (32).

General S.Mehmandarov Hərbi Nazirliyin fəaliyyətə başlamasının elə ilk günlərindən zabitlərin maaşlarının artırılması məsələsini qaldırdı. Həmin məsələnin zəruriliyini o, 1919-cu il fevralın 25-də ölkə Parlamentində çıxış edərkən aşağıdakı səbəblərlə əlaqələndirirdi: 1) Cəbhədə olmuş bütün zabitlər istisnasız olaraq özlərinin əmlakının, geyiminin, baqajının böyük bir hissəsini itirmişlər. Onlar bu əşyaları ömürləri boyu toplamışdılar və artıq onu bərpa etmək mümkün deyildi. Nazirin sözünə görə indi birmanatlıq əşya üçün 30 və ya 40 manat lazım gələcəkdi. Yəni hər şey o dərəcədə bahalaşmışdı. Ona görə də zabitlərin köhnə maaşla yaşamaları da artıq mümkün deyildi. 2) Nazirin fikrincə, fövqəladə bahalıq əhali üçün ağır idi, zabitlər üçün isə xüsusilə ağır idi. Çünki onların çoxu evlərindən çox-çox uzaqda xidmət edirdilər, ya da tez-tez ezamiyyətdə olurdular. 3) Əsgərlərin tə-

lim-tərbiyəsi ilə məşğul olan zabitlər onları ölümə belə aparmağı bacarmalı idilər. Bunun üçün isə zabitlər əsgərlər qarşısında lazımi nüfuza malik olmalı idilər. Həmin nüfuzu da zabit öz fərdi keyfiyyətləri ilə qazana bilərdi. Bunun üçün zabit öz xarici görkəmi ilə də əsgər hörmətini qazanmalı idi. Bahalıq şəraitində həmişə nümunəvi qaydada geyinmək üçün isə zəruri olan maliyyə vəsaitinə ehtiyac var idi. 4) Azərbaycanın təcrübəli zabitlərə çox böyük ehtiyacı var idi. Ona görə başqa millətlərdən olan, o cümlədən rus ordusunda xidmət etmiş zabitləri orduya dəvət etmək lazım gəlirdi. Yeni yaradılan ordu üçün, eyni zamanda, ciddi seçmə aparılması zəruri idi. Əsgəri xidmət keçməmiş əhalidən təşkil edilmiş orduda çavuşlarsız keçinmək mümkün deyildi və istedadlı zabitlərə ehtiyac var idi. İstedadlı zabitlər isə özlərinə hər yerdə yaxşı maaşlı iş tapa biləcəklərindən onları yüksək maaşla maraqlandırmaq lazım idi. 5) Nazirin dediyinə görə hələ Müsəlman korpusunun mövcudluğu dövründə təyin edilmiş maaşlar o vaxt müəyyən ehtiyacları ödəməyə qadir olsa da, indi həmin maaş ən adi ehtiyacları ödəyə bilmirdi. Bu da maaşların artırılmasını zəruriləşdirirdi. 6) Zabitlərin xidməti təkcə müharibə dövründə deyil, həm də sülh dövründə ağır keçirdi. Primitiv şəraitdə, əsasən, gözdən-qulaqdan uzaq yaşayan zabitlər tez-tez açıq havada, qar və yağış altında gecələməli olur, vətən uğrunda səhhətlərini, bəzənsə hətta canlarını belə əsirgəmirdilər. Nazirin fikrincə, ağır və çətin zabit xidməti layiqincə qiymətləndirilməli idi (33).

Zabitlərdən başqa əsgər heyəti də maliyyə vəsaiti ilə təmin olunmalı idi. Bu vəsait də xeyli az idi. Əsgərlərin ən adi ehtiyaclarının ödənməsi üçün Hərbi Nazirlik respublika hökuməti qarşısında verilən maliyyə vəsaitlərinin qaldırılması barədə vəsatət qaldırdı. Həmin vəsatətdən sonra hökumətin qərarına əsasən 1918-ci il dekabrın 1-dən əsgər heyətinə aşağıdakı vəsait verilməyə başlandı: sıravi – 50 rubl, yefreytor – 60 rubl, kiçik çavuş – 70 rubl, böyük çavuş – 90 rubl, onbaşı – 120 rubl (34).

Bundan başqa, əsgərlər üçün ayda üç rubl təsərrüfat pulu da verilirdi (35). Bu pul əsgərlərin geyimlərinin bərpası və digər kiçik məişət xərcləri üçün nəzərdə tutulmuşdu.

İqtisadi çətinliklərlə bağlı həyat şəraitinin ağırlaşması, qiymətlərin bahalaşması 1919-cu il ərzində də davam etdi. Həmin ilin yayında Hərbi Nazirliyin rəhbərliyi həm əsgər heyəti, həm də zabit heyəti üçün məvaciblərin yenidən artırılması məsələsini qaldırdı. Hərbi Şuranın 16 iyun 1919-cu il tarixli iclasında əsgərlər üçün aylıq məvacib aşağıdakı şəkildə təsdiq edildi: sıravi – 100 rubl, yefreytor – 110 rubl, kiçik çavuş – 130 rubl, böyük çavuş – 150 rubl, onbaşı – 200 rubl (36).

Hərbi nazir S.Mehmandarov əsgərlərin həyat şəraitinin yaxşılaşdırılması üçün onlara ayrılan məvacibin artırılmasına lazımi əhəmiyyət verirdi. Hərbi nazir əsgər maaşının artırılmasını, həm də ilk dəfə hərbi xidmət keçməyə başlayan azərbaycanlıların qarşılaşdıqları çətinliklərin həlli üçün bir vasitə kimi dəyərləndirirdi. Həyat və məişət problemlərinin qismən həll edilməsi isə fərariliyin də qarşısının alınmasına kömək edə bilərdi.

Hərbi Şuranın əsgər maaşlarının artırılması barədə 16 iyun 1919-cu il tarixli qərarından sonra S.Mehmandarov imzaladığı xüsusi əmrində əsgər məvaciblərinin bir qədər də artırılacağı barədə vəsatət qaldıracağı haqda məlumat verirdi. Nazir bildirirdi ki, onlar həmişə tütün, kibrit, iynə, sap almaq ehtiyacı ilə qarşılaşırlar. Buna görə onlara verilən məvacib də artırılmalıdır. S.Mehmandarov onu da əlavə edirdi ki, əsgər məvaciblərinin yeni norması barədə verdiyi təklif başqa ölkələrlə müqayisədə az olsa da, bu artım dövlət xəzinəsinə ayda 1 milyon 200 min rubla başa gələcəkdir. Hərbi Şuranın qərarı əsasında hazırlanmış əmr layihəsi üzərində S.Mehmandarov öz əli ilə düzəlişlər edərək əsgər məvacibinin aşağıdakı şəkildə olmasını məqsədəuyğun bilmişdi: sıravi – 100 rubl, yefreytor – 120 rubl, kiçik çavuş – 140 rubl, böyük çavuş – 180 rubl və onbaşı – 240 rubl (37).

Hərbi nazir S.Mehmandarovun bu təklifi dövlət orqanlarında da müdafiə olundu və müvafiq qərar qəbul edildi.

Dövlət Müdafiə Komitəsi özünün 28 iyun 1919-cu il tarixli qərarı ilə Hərbi nazirin təklifini təsdiq etdi və əsgərlərin bəzi kateqoriyalarının məvaciblərinin daha da artırılmasını məqsədəuyğun saydı.

Həmin ilin avqust ayında isə Azərbaycan hökuməti zabitlərin, həkimlərin, çinovniklərin maaşının qaldırılması barədə qərar qəbul etdi və təsdiq üçün həmin qərarı Parlamentə göndərdi (38). Həmin təklifə əsasən zabitlərin maaşı aşağıdakı şəkildə təsdiq edildi (39):

| **Vəzifə kateqoriyası** | **Məvacib (rubl)** | **İaşə pulu (rubl)** | **Mənzil-kommunal pulu (rubl)** |
|---|---|---|---|
| Hərbi nazir | 2470 | 7180 | 600 |
| Hərbi nazirin müavini | 2470 | 4880 | 300 |
| Ümumi qərargah rəisi və Baş Ərkani-hərb rəisi (gen.-leytenant) | 1950 | 4275 | 275 |
| Ümumi qərargah rəisi və Baş Ərkani-hərb rəisi (gen.-mayor) | 1560 | 4265 | 275 |
| Diviziya komandiri (gen.-leytenant) | 1960 | 3850 | 275 |
| Diviziya komandiri (gen.-mayor) | 1560 | 3840 | 275 |
| Diviziya komandirinin müavini (gen.-mayor) | 1560 | 3320 | 250 |
| Diviziya komandirinin müavini (polkovnik) | 1430 | 3320 | 250 |
| Dəftərxana rəisi (polkovnik) | 1430 | 3320 | 250 |
| Alay komandiri (polkovnik) | 1430 | 3120 | 250 |
| Alay komandiri (podpolkovnik) | 1170 | 3120 | 250 |
| Alay komandirinin müavini (polkovnik) | 1430 | 2575 | 225 |
| Alay komandirinin müavini (podpolkovnik) | 1170 | 2575 | 225 |
| Tabor komandiri (podpolkovnik) | 1170 | 2530 | 200 |
| Tabor komandiri (kapitan) | 910 | 2530 | 200 |
| Bölük komandiri (kapitan) | 910 | 2235 | 175 |
| Baş zabit (kapitan) | 910 | 1740 | 175 |
| Ştabs-kapitan | 780 | 1690 | 150 |
| Podporuçik | 520 | 1610 | 150 |
| Praporşik | 390 | 1460 | 150 |

Azərbaycan hökumətinin qərarı ilə istisna hal kimi Baş Ərkani-hərbin rəisi general-leytenant M.Sulkeviçin maaşı Hərbi nazirin müavinin aylıq maaşına bərabər tutulurdu. Bu barədə qərar M.Sulkeviçin keçdiyi şərəfli xidmət yolunu nəzərə alaraq Hərbi

nazir S.Mehmandarovun Nazirlər Şurası qarşısında qaldırdığı vəsatətdən sonra qəbul edilmişdi (40).

Hərbi Şuranın 16 iyun 1919-cu il tarixli iclasında belə bir məsələ də qaldırıldı ki, əsgəri şücaətinə görə «Georgi» ordeni və medalı ilə təltif edilmiş zabitlərə bu orden və medalların dərəcələrinə görə məvacib artımı verilsin. Müzakirələrdən sonra «Georgi» ordeni və medalı almış zabitlərin məvaciblərinin aşağıdakı miqdarda artırılması qərara alındı: «Georgi» xaçına görə: 4-cü dərəcə üçün – 3rubl, 3-cü dərəcə üçün – 5 rubl, 2-ci dərəcə üçün – 8 rubl, 1-ci dərəcə üçün – 10 rubl, «Georgi» medalına görə: 4-cü dərəcə üçün – 1 rubl, 3-cü dərəcə üçün – 1,5 rubl, 2-ci dərəcə üçün – 2 rubl, 1-ci dərəcə üçün – 3 rubl (41).

Hərbi Nazirliyin rəhbərliyi bu və ya digər obyektiv tələblər üzündən Azərbaycan Ordusunda xidməti başa vuranların da yaşayış şəraitinin yaxşılaşdırılmasına qayğı göstərməyə çalışırdı. Məsələn, 1919-cu ilin iyununda S.Mehmandarov Azərbaycan hökuməti qarşısında iki nəfər əlilə xüsusi yardım göstərilməsi barədə məsələ qaldırdı. Xidməti vəzifəsinin icrası zamanı vəfat etmiş şəxslərin ailələrinə qayğı göstərilməsi üçün Hərbi Nazirliyin fondundan dəfələrlə maddi yardım ayrılmışdı. Hərbi Nazirlik üzrə 1920-ci il yanvarın 12-də imzalanmış əmrdə 1-ci Cavanşir piyada alayının yaralanmış praporşiki Səmədova əlavə heç bir gəlir mənbəyi olmadığı üçün Nazirliyin fondundan 5000 rubl vəsait ayrılması təsbit olunmuşdu. Elə həmin ilin fevral ayında həyat şəraitlərinin nisbətən yaxşılaşdırılması və səhhətlərinin müalicəsi üçün Nazirliyin fondundan general-mayor Vəkilova, praporşik Hacıyevə, praporşik Səfiyevə – 3000 rubl, kapitan Ledomskiyə, poruçik Voluyevə, praporşik Rzabəyova – 5000 rubl yardım ayrılmışdı (42).

Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların sosial qayğısını gücləndirmək üçün Hərbi nazir tərəfindən pensiya və birdəfəlik müavinətlərin verilməsini nizamlayan xüsusi sənəd də qəbul edildi. İlk vaxtlar bu sahədə də çar Rusiyası ordusunda qüvvədə olmuş qanunlardan istifadə olunurdu. Lakin Azərbaycan şəraiti kifayət qədər fərqli idi və həmin qanunlardan istifadə edilməsi lazımi səmərəni vermirdi. Ona görə də Hərbi nazir

S.Mehmandarov hökumət sədrinin adına yazdığı raportda bildirirdi ki, Azərbaycan reallığını bütünlüklə nəzərə alan pensiya və birdəfəlik müavinətlər haqqında qanunvericilik bazasının yaradılması məqsədilə Hərbi Nazirliyin nəzdində xüsusi bir işçi qrupu təşkil edilmişdir (43). Həmin qanunvericilik bazasının hazırlandığı dövrdə isə müvəqqəti hal kimi bəzi hərbi qulluqçulara və ya onların ailələrinə müvəqqəti pensiya təyin edilirdi. Məsələn, məlumdur ki, Xankəndi hərbi xəstəxanasının vəfat etmiş hərbi həkimi Kutsevin ailəsinə pensiya kəsilməsi üçün Hərbi nazir tərəfindən hökumət qarşısında vəsatət qaldırılmış və hökumət də yeni pensiya qanunvericiliyinin işə düşməsinə qədər müvəqqəti olaraq Kutsevin ailəsinə 1000 rubl pensiya təyin etmişdi (44).

Pensiya və birdəfəlik müavinətlərlə bağlı yeni hazırlanmış sənədə görə Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçular pensiya almaq hüququ əldə etmək üçün Azərbaycan vətəndaşlığını qəbul etməli və Azərbaycan Respublikasına sədaqət andı içməli idilər. Pensiya almalı olan vətəndaşlar iki qrupa bölünürdülər. Birinci qrupa Azərbaycan və Zaqafqaziyadan olan müsəlmanlar, ikinci qrupa isə digər ərazilərdən olan müsəlmanlar və məzhəblərindən asılı olmayaraq bütün digər hərbi qulluqçular daxil idilər. Birinci qrupa daxil olan hərbi qulluqçular Azərbaycan Ordusu sıralarında ən azı bir il xidmət etməli idilər. Eyni zamanda, onlar obyektiv səbəblər nəzərə alınmazsa, 50 yaşından tez pensiyaya çıxa bilməzdilər. Hərbi nazir, general-mayor Murad Gəray Tlexasın da istisna hal kimi birinci qrupa daxil edilməsini məqsədəuyğun bilirdi. Onun fikrincə, general-mayor Tlexas bu hüququ Azərbaycan xalqı qarşısında göstərdiyi təmənnasız və sədaqətli xidməti ilə qazanmışdı. O, Müsəlman korpusunun yarandığı ilk günlərdən, yəni 1918-ci il yanvarın 1-dən milli tərkibli qoşun hissələrinin sıralarında xidmət edirdi (45).

Azərbaycan Ordusu sıralarında xidmət edən hərbi qulluqçu digər dövlətlərin ərazisində dövlət qulluğuna götürülürdüsə, o, Azərbaycan pensiyasından məhrum edilirdi. Hərbi qulluqçu digər dövlətin ordusunda xidmət etsəydi, onda hərbi pensiyadan məhrum olurdu. Milliyyətindən və məzhəbindən asılı olmayaraq hər hansı bir Azərbaycan vətəndaşı bu qərar qəbul edilənədək

Azərbaycan Ordusunda deyil, Rusiya ordusunda xidmət etmiş və hazırda Azərbaycan vətəndaşlığını qəbul etmişdisə, onda o, 100 faiz artırılmaqla Azərbaycan pensiyasını ala bilərdi. 1918-ci il martın 23-dən sentyabrın 15-dək Bakı şəhəri rayonunda hərbi əməliyyatlarda iştirak etmiş nizami hissələrin tərkibində birgünlük xidmət iki günə, arxa hissələrdə isə ikigünlük xidmət üç günə hesablanırdı. Bu güzəştlər pensiyalar hesablanarkən nəzərə alınmalı idi (46).

Zabitlərə, orduda işləyən məmurlara, həkimlərə, mollalara ildə bir dəfə məvacibi saxlanılmaqla biraylq məzuniyyət verilirdi. Həmin şəxslərin arzusu ilə onlar iki ilin məzuniyyətini birləşdirərək iki ildə bir dəfə iki ay müddətində məzuniyyətə getmək səlahiyyətinə malik idilər. Məzuniyyətdən vaxtında qayıtmadıqda gecikmiş günlərin məvacibi kəsilməli idi (47). Görünür, bir çox zabitlər bu hüquqlarından sui-istifadə etmiş və məzuniyyətdən xeyli gec qayıtmışdılar. Ona görə də Hərbi nazirin 12 yanvar 1919-cu il tarixli əmrində göstərilirdi ki, məzuniyyətdən bir gün gecikən zabitin bütün məzuniyyət dövrü üçün məvacibi kəsiləcəkdir (48).

Əsgərlər də ildə bir dəfə məzuniyyət almaq hüququndan istifadə edə bilərdilər (49).

Hərbi Nazirliyin rəhbərliyi və şəxsən Hərbi nazirin özü hissələrdə olarkən subyektiv səbəblər üzündən məvaciblərin gecikdirilməsi, maliyyə vəsaitlərindən düzgün istifadə edilməməsi hallarına rast gəlir və belə faktlara qarşı barışmaz mövqe tuturdu. Məsələn, 2-ci Bakı piyada alayında maliyyə pozğunluqlarına yol verdiyinə görə Nazirlikdən göndərilən komissiyanın müəyyən faktları üzə çıxaracağından qorxan xəzinədarın özünü öldürməsi barədə I fəsildə danışılmışdı. Hərbi nazir Yevlaxda olarkən topçu briqadasından ezamiyyətə gəlmiş 2 zabitlə rastlaşmış və onlara ezamiyyət pulu verilmədiyi aydınlaşdırılmışdı. Pulları olmadığı üçün yükləri necə aparmaq barədə düşünən zabitlərə nazir öz cibindən pul vermiş və yüklərin tezliklə hissəyə çatdırılmasını tapşırmışdı. Nazir bu fakta qarşı öz narazılığını ifadə edərək bildirirdi ki, hissələrdən ezamiyyət xərclərini almayan zabitlər qatarlarda, şəxsi avtomobil və faytonlarda havayı getmək məcburiyyə-

tində qalırdılar ki, bu da çox zaman mülki əhalinin haqlı narazılığı ilə qarşılanırdı (50).

Bütün bu məsələlərə və bütünlükdə maliyyə işlərinin hesabatının vaxtında aparılmasına Hərbi nazir son dərəcə ciddi yanaşırdı. 1919-cu il yanvarın 1-də imzaladığı 1 nömrəli əmrində də nazir tələb edirdi ki, maliyyə və xərclənmiş pul vəsaitlərinin ciddi uçotu və nəzarəti aparılsın və bu zaman 1917-ci il yanvarın 1-nə qədər rus ordusunda qüvvədə olan qanunvericilik bazası əsas götürülsün (51).

Nazirin tələbi ilə hissələrdə maliyyə-pul vəsaitlərinin xərclənməsi mütəmadi olaraq yoxlanılırdı. Nazirlikdən hissələrə ezam olunan komissiyalardan başqa məsələlər kimi pul vəsaitlərinin xərclənməsinin yoxlanılması da tələb olunurdu. Eyni zamanda, hissələrin rəhbərliyindən tələb olunurdu ki, alınan pul vəsaitlərinin xərclənməsi barədə vaxtlı-vaxtında hesabat təqdim etsinlər. Lakin yoxlamalar göstərirdi ki, bu tələbə heç də həmişə vaxtında əməl olunmurdu. Məsələn, 1-ci Cavanşir piyada alayında xərclənən pul vəsaitlərinin hesabatı xeyli gecikdirilmişdi. Bu isə hissədə elə bir qeyri-obyektiv çətinlik yaratmışdı ki, Hərbi nazir onunla bağlı xüsusi bir əmr də imzalamışdı. 1919-cu il martın 26-da imzalanmış 149 nömrəli əmrdə göstərilirdi ki, hissələr tələbnamə verdikləri zaman lazım olan qədər vəsaiti alırdılar. Ancaq hissə komandiri nazirin belə bir tələbini unutmuşdu ki, alınan vəsaitin hesabatı verilmədən növbəti avans buraxıla bilməz. Ona görə də hissənin Şuşada yerləşən taborunda maliyyə çətinliyi yaranmışdı. Bu isə şəxsi heyətin hətta iaşə təminatında çətinliklər yaratmışdı. Nəticədə əsgərlər arasında fərarilik etmək əhval-ruhiyyəsi artmışdı. Taborun komandiri şəxsi heyətin ac qalmaması üçün Şuşada imkanlı şəxslərdən borc pul almaqla iaşə çətinliklərini nisbətən aradan qaldıra bilmişdi. Hərbi nazir öz əmrində yaranmış bu vəziyyəti fövqəladə bir vəziyyət kimi dəyərləndirirdi. O, bir tərəfdən hissənin maliyyə işinə cavabdeh olan şəxslərinin məsuliyyətsizliyini, digər tərəfdən də mülki şəxslərdən hərbi hissə üçün borc pul alınmasını qətiyyətlə pisləyirdi (52).

Nazirin tapşırığı ilə növbətçi general, polkovnik Jilyayev Bakıdakı əsgər xəstəxanasında olarkən buradakı xəstələrin bir çoxu-

nun 2–3 ay məvacib almadığını üzə çıxarmışdı. Polkovnik Jilyayevin hesabatı əsasında hazırlanmış əmrdə nazir cavabdeh şəxslərdən təcili tədbirlər görməyi, xəstə əsgərlərin məvaciblərinin dərhal çatdırılmasını tələb etmişdi (53).

1920-ci ilin yanvarında bahalaşma ilə əlaqədar olaraq əsgərlərə təsərrüfat işləri üçün ayrılan aylıq pul (məvacibdən əlavə) 3 rubldan 10 rubla çatdırıldı (54). Əsgər xəstəxanalarında yatan əsgərlər üçün isə bu pul 12 rubl miqdarında təsdiq edildi (55). Bahalaşma ilə əlaqədar olaraq xəstəxanada yatan hərbi qulluqçulara verilən gündəlik iaşə üçün ayrılan pulun miqdarı da artırıldı. Əsgərlər üçün bu vəsait 55 rubl, zabitlər üçün isə 82,5 rubl oldu (56).

Ölkədə gedən hədsiz bahalaşma, yaşayış şəraitinin çətinləşməsi, alınan məvaciblərin ən adi ehtiyacları rubl ödəməməsi 1920-ci ilin əvvəllərində zabitləri yenidən dözülməz məhrumiyyətlərə məhkum etmişdi. Hərbi Nazirliyin rəhbərliyi dərhal hökumətə müraciət edib hərbi qulluqçuların məvacibinin yaşayış minimumlarına uyğunlaşdırılması barədə qərar qəbul edilməsini xahiş etdi. 1920-ci il yanvarın 31-də Hərbi nazirin Nazirlər Şurası sədrinin adına göndərdiyi məktubuda deyilirdi: «Həyatın bahalaşması üzündən hərbi qulluqçular çox çətin və böhranlı vəziyyətdədirlər, çoxları böyük borc içindədir və öz ailələrinə maddi kömək göstərmək imkanına malik deyildirlər. Hətta paltarlarını təmir etməyə və doyunca yeməyə pulları çatmır. Bütünlüklə özünü xidmətə həsr edən hərbi qulluqçuların digər idarələrin işçiləri kimi boş vaxtlarında kənarda qazanmaq imkanları yoxdur. Bundan başqa, öz geyim formalarını və şərəflərini qorumağa çalışaraq onlar həmişə şax geyinməlidirlər. Əsgəri xidmət hərbi qulluqçudan bütün qüvvəsini sərf etməyi tələb edir. Bu isə o vaxt mümkündür ki, o, ailəsinin ən zəruri əşyalara ehtiyac duymadığına əmin olsun» (57).

Məktubda hərbi qulluqçuların məvacibinin 80 faiz artırılması və həmin artımın 1919-cu il oktyabrın 1-dən hesablanması xahiş olunurdu ki, zabitlər öz borclarını ödəyə bilsin (58).

1920-ci il martın 11-də Parlament hərbi qulluqçuların məvaciblərinin 80 faiz artırılması barədə təklifi qəbul etdi. Azərbaycan Ordusu zabitlərinin vəzifə kateqoriyaları üzrə məvacibləri aşağıdakı şəkildə təsdiq edildi (59).

| Vəzifə kateqoriyası | Məvacib (rubl) | İaşə pulu (rubl) | Mənzil-kommunal pulu (rubl) | Məcmu (rubl) |
|---|---|---|---|---|
| Hərbi nazir | 4705 | 10770 | 600 | 16075 |
| Hərbi nazirin müavini | 4446 | 9504 | 300 | 14250 |
| Ümumi qərargah rəisi və Baş Ərkani-hərb rəisi (gen.-leytenant) | 3510 | 7695 | 275 | 11480 |
| Ümumi qərargah rəisi və Baş Ərkani-hərb rəisi (gen.-mayor) | 2808 | 7677 | 275 | 10760 |
| Diviziya komandiri (gen. leytenant) | 3510 | 6930 | 275 | 10715 |
| Diviziya komandiri (gen.-mayor) | 2808 | 6912 | 275 | 9995 |
| Diviziya komandirinin müavini (gen.-mayor) | 2808 | 5976 | 250 | 9034 |
| Diviziya komandirinin müavini (polkovnik) | 2574 | 5976 | 250 | 8800 |
| Alay komandiri (polkovnik) | 2574 | 5616 | 250 | 8440 |
| Alay komandiri (podpolkovnik) | 2106 | 5616 | 250 | 7972 |
| Alay komandirinin müavini (polkovnik) | 2574 | 4635 | 225 | 7434 |
| Alay komandirinin müavini (podpolkovnik) | 2106 | 4635 | 225 | 6966 |
| Tabor komandiri (podpolkovnik) | 2106 | 4554 | 200 | 6860 |
| Tabor komandiri (kapitan) | 1638 | 4554 | 200 | 6392 |
| Bölük komandiri (kapitan) | 1638 | 4023 | 175 | 5836 |
| Baş zabit (kapitan) | 1638 | 3132 | 175 | 4945 |
| Ştabs-kapitan | 1404 | 3042 | 150 | 4596 |
| Podporuçik | 936 | 2898 | 150 | 3984 |
| Praporşik | 702 | 2628 | 150 | 3480 |

Bu artım Cümhuriyyət ordusunun mövcudluğu dövründə son maaş artımı idi. Hökumət mövcud olan iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, hərbi qulluqçuların həyat şəraitinin yaxşılaşdırılması üçün Hərbi Nazirliyin qaldırdığı vəsatətlərə qayğı ilə yanaşırdı. Bütünlükdə Cümhuriyyət ordusu quruculuğu humanistliyi ilə seçilirdi. Möhkəm ordunun formalaşdırılması üçün hərbi

qulluqçuların və onların ailələrinin həyat şəraitinin yaxşılaşdırılması, gündəlik qayğılarının aradan qaldırılması başlıca vəzifə kimi irəli sürülürdü. Buna nail olunması üçün isə ardıcıl bir xətt izlənilirdi.

## *2. Qoşunlarda tibb xidmətinin təşkili*

Qoşun hissələrinin şəxsi heyətinin tibb xidməti ilə təmin edilməsi də Azərbaycan Ordusunun formalaşmasında böyük əhəmiyyətə malik idi. Bu məsələ həm tibb obyektlərinin yerləşdirilməsini, onlar üçün sanitar tələblərinə cavab verən tikililərin ayrılmasını, həm də ümumiyyətlə, hərbi tibb xidmətinin təşkilini, şəxsi heyətin yararlı tibb xidməti və qayğısı ilə təmin edilməsini özündə birləşdirirdi. Məsələnin vacibliyi və aktuallığı onunla şərtlənirdi ki, Azərbaycanın tibb şəbəkələri, milli kadrları az idi, əhalinin isə tibbi savadı xeyli aşağı idi. Ağır yaşayış şəraiti, sanitar normalarına əməl edilməməsi və bunun nəzarət altında saxlanmaması müxtəlif xəstəliklərin, o cümlədən yoluxucu xəstəliklərin geniş yayılmasına yol açırdı. Belə xəstəliklər, şübhəsiz ki, hərbi hissələrə də sirayət edir, hissələrin döyüş hazırlığı səviyyəsinə ciddi təsir göstərirdi.

1919-cu ilin əvvəllərində qoşun hissələrində səpmə yatalaq xəstəliyi geniş yayılmışdı. Xüsusən Ağdam qarnizonunda bu xəstəlik çox böyük miqyas almışdı. 1-ci piyada diviziyasının komandiri general Süleyman bəy Əfəndiyev az qala hər gün səpmə yatalağa yoluxma və bu xəstəliyin müalicəsi barədə Hərbi nazirə məlumat göndərir, qəti tədbirlərin görülməsini xahiş edirdi. Məsələn, 1919-cu il yanvarın 21-də Ağdam qarnizonunun əsgər xəstəxanasında 110 nəfər xəstə var idi. Onlardan 2-si səpmə yatalağı, 8-i qarın yatalağı, 8-i dizenteriya kimi yoluxucu xəstəliyə tutulmuşdu. Gün ərzində xəstələrdən biri ölmüşdü. Yanvarın 23-də xəstələrin sayı 204-ə çatmışdı. Onlardan 119-u əsgər xəstəxanasında, digərləri isə xüsusi otaqlarda yerləşdirilmişdi. Gün ərzində 4 xəstə ölmüşdü (60). Yanvarın 24-də isə xəstələrin sayı 215 nəfərə çatmış və gün ərzində yenə 4 xəstə ölmüşdü. Xəstəliyin belə təhlükəli miqyas almasında S.Əfəndiyev ilk növbədə həkim Sulakovu təqsirləndirirdi. Diviziya komandirinin fikrincə, həkim

Sulakov öz vəzifəsinə məsuliyyətsizcəsinə yanaşaraq epidemiyanın qarşısının alınması üçün ciddi bir iş görmür və dərman ayrılması barədə mərkəzi orqanlara sifariş göndərməklə fəaliyyətini bitmiş hesab edirdi. Hətta xəstələrlə görüşməyə də ehtiyat edən bu həkimin biganəliyi və laqedliyi isə xəstələrin sayının artması ilə müşayiət olunurdu. Ona görə də diviziya komandiri S.Əfəndiyev Hərbi Nazirliyə göndərdiyi raportunda Sulakovun vəzifədən azad edilməsi və onun yerinə milli kadrın təyin olunması barədə məsələ qaldırdı (61).

Ömrünün işgüzar dövrünü yaşayan general-mayor S.Əfəndiyev də Ağdamda səpmə yatalağına yoluxdu və onun həyatını bu xəstəlikdən xilas etmək mümkün olmadı.

Yeri gəlmişkən qeyd olunmalıdır ki, milli kadrlar çatışmadığından Azərbaycan Ordusuna qeyri-milli tibb kadrları da qəbul edilirdi və onların heç də hamısı öz vəzifə borcunun icrasına Ağdam qarnizonunun həkimi Sulakov kimi yanaşmırdı. Hərbi nazir öz əmrlərinin birində Xankəndindəki əsgər xəstəxanasının həkimi Kutsevin fədakar zəhmətini də xüsusi qeyd edirdi. Bu həkim qarnizonda yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün bütün bacarığını sərf edir, yorulmadan çalışırdı. Hətta özü də səpmə yatalağa yoluxan zaman daha çox ondan kömək gözləyən xəstələrin qayğısı ilə yaşayırdı. Həmin təmənnasız xidmətlərinə görə Hərbi nazir Kutsevin həmişə dərin ehtiramla xatırlanacağını bildirirdi (62).

1919-cu il fevralın 24-də imzaladığı başqa bir əmrində isə Hərbi nazir göstərirdi ki, Ağdamda səpmə yatalaq epidemiyasından diviziya həkimi Ukladnikov, alay həkimi Smirnov və şəfqət bacısı Umanskaya vəfat etmişdir. Nazir onların da fədakar xidmətlərini son dərəcə yüksək qiymətləndirir və təmənnasız xidmətlərinə görə Azərbaycan Respublikasının bu insanları heç vaxt unutmayacağını qeyd edirdi. Eyni zamanda, nazir həmin insanların ailələrinin də qayğı altına alınması barədə zəruri tədbirlər görüləcəyini bildirirdi (63).

Hərbi hissələrdə malyariya xəstəliyinin yayılması da qeydə alınmışdı. Həmin xəstəliyin epidemiyasının əsas mərkəzlərindən biri Lənkəran ətrafında idi. Ona görə Lənkəran köməkçi (ehtiyat)

taborunun şəxsi heyəti arasında da bu xəstəliyə yoluxanların sayı çox idi (64). Sonuncu vəzifəsi 2-ci piyada diviziyasının komandir müavini olan polkovnik Kəsəmənli də malyariyaya yoluxması nəticəsində vəfat etmişdi (65).

Havanın soyuması, yaşayış şəraitinin lazımi tələblərə cavab verməməsi, sanitariya normalarının gözlənilməməsi ilə genişlənən xəstəliklərin qarşısının alınması üçün Hərbi Nazirliyin rəhbərliyi ilk növbədə hərbi müalicə ocaqlarının açılmasına və onların lazımi kadr və avadanlıqla təchiz edilməsinə ciddi əhəmiyyət verirdi. 1918-ci il dekabrın 14-də Gəncə Praporşiklər məktəbinin 10 nəfərlik tibbi qəbul otağı, 1918-ci il dekabrın 15-də Hacıqabulda yerləşən 2-ci Bakı alayının 60 nəfərlik əsgər xəstəxanası, 1919-cu il yanvarın 1-də 1-ci Cavanşir piyada alayının 60 nəfərlik əsgər xəstəxanası, 2-ci Qarabağ süvari alayının 20 nəfərlik müayinə otağı, 1919-cu il fevralın 4-də Əlahiddə Zaqatala taborunun 20 nəfərlik əsgər xəstəxanası açıldı (66).

1919-cu və 1920-ci illər ərzində qoşun hissələrində və qarnizonda müalicə ocaqlarının sayı daha da artırıldı. Əvvəlcə əsgəri xəstəxanaların bəziləri ləğv edilib birləşdirildi, ya da onların sahəsi genişləndirildi. Məsələn, 1919-cu ilin yayında 1-ci Cavanşir piyada alayının nəzdindəki 60 nəfərlik əsgər xəstəxanası və 2-ci Qarabağ süvari alayının nəzdindəki 20 nəfərlik müalicə otağı ləğv edildi. Bu müalicə ocaqları Xankəndi əsgər xəstəxanasına qatıldı (67). Ancaq bu alayların müalicə ocaqları sonradan yenə bərpa olundu. 1919-cu il noyabrın 8-də Lənkəran köməkçi taborunda 30 nəfərlik əsgəri xəstəxana açıldı. 30 nəfərlik əsgəri xəstəxana noyabr ayında, həm də 3-cü Gəncə piyada alayının nəzdində açıldı. Gəncədəki əsgəri xəstəxananın xəstələrlə dolduğu və əlavə xəstə qəbul edə bilmək imkanı olmadığı üçün 3-cü alayda yeni əsgər xəstəxanası açılması məqsədəuyğun bilindi (68).

Bundan başqa, Hərbi nazirin əmri ilə 1919-cu il noyabrın 24-də Şuşada 5 nəfər zabit və 100 nəfər əsgər üçün nəzərdə tutulmuş 105 nəfərlik əsgər xəstəxanası, 1920-ci il yanvarın 1-də Bakı şəhərində 5-ci Bakı piyada alayının əsgər xəstəxanası, 1920-ci il yanvarın 13-də Xankəndində 2-ci Qarabağ süvari alayının 30 nəfərlik müayinə otağı, 1920-ci il fevralın 1-də Xankən-

dində 1-ci Cavanşir piyada alayının 30 nəfərlik müayinə otağı açıldı (69).

Hərbi nazirin əmri ilə bütün qarnizonlarda sanitar komissiyaları yaradıldı. Bu komissiyaların tərkibinə bir həkim, bir kiçik həkim və bir zabit daxil edilmişdi. Həmin komissiyalar həftədə iki dəfə qarnizonun şəhərciyində reyd keçirməli, qarnizon binalarını, hərbi obyektləri, şəxsi heyətin paltarlarını, gigiyena vəziyyətini, yeməyin bişirilməsini yoxlamalı idilər (70).

Hərbi nazirin əmrindən sonra əsgər xəstəxanalarının lazımi dərman ləvazimatı ilə təmin edilməsi üçün 2 milyon 200 min rubl vəsait ayırıldı (71). Eyni zamanda, hərbi tibb müəssisələrinin fəaliyyətinə və bütünlükdə qoşunlarda tibb xidmətinin təşkilinə, şəxsi heyətin tibb xidməti ilə təmin edilməsinə rəhbərlik edən Hərbi xəstə hissəsinin ştatlarının və səlahiyyətlərinin genişləndirilməsi və onun idarəyə çevrilməsi barədə hökumət qarşısında məsələ qaldırıldı. Hökumətin razılığı ilə Hərbi xəstə hissəsi Hərbi xəstə idarəsinə çevrildi (72).

Tibb xidmətinin vəziyyətini yaxşılaşdırmaq üçün əsgər xəstəxanalarının ştatları da artırıldı (73). 1920-ci ilin yanvarından isə əsgər xəstəxanalarında işləyən feldşerlərin maaşı qaldırıldı (74).

Azərbaycan Ordusundakı bütün tibb ştatları mülki vəzifələr idi. Hətta Hərbi xəstə hissəsinin və sonradan isə idarəsinin müdiri də mülki şəxs idi. Tibb kadrları da könüllülük, ya da səfərbərlik əsasında xidmətə cəlb edilirdilər. Uzun müddət Hərbi xəstə hissəsinə, bu hissənin səlahiyyətləri genişləndirildikdən sonra isə Hərbi xəstə idarəsinə rəhbərlik edən həkim Bahadır bəy Qayıbov da səfərbərlik yolu ilə Azərbaycan Ordusuna çağırılmış və 1919-cu ilin iyun ayında ona tibb xidmətinə rəhbərlik etmək tapşırılmışdı (75).

Azərbaycan Ordusuna çağırılan həkimlərə məmur çini verilirdi. Bu həkimlər xüsusi forma geyinməli idilər ki, onu da dövlətdən ayrılan vəsaitin hesabına əldə edirdilər (76).

Lakin bu səfərbərlik yolu ilə tibb kadrlarına, xüsusilə kiçik sanitar heyətinə və feldşerlərə olan ehtiyacı ödəmək mümkün deyildi. Hərbi nazir 1919-cu ilin ilk aylarında Gəncə əsgəri xəstəxanasının vəziyyəti ilə tanış olduqdan sonra dərhal ora hərbi hissələr-

dən 26 nəfər əsgərin gətirilməsi və onlardan sanitar kimi istifadə edilməsi barədə əmr verdi (77).

Qoşun hissələrinin bölük feldşer köməkçiləri ilə təmin edilməsi üçün isə Gəncə əsgər xəstəxanasının nəzdində nazirin əmri ilə feldşer məktəbi açıldı. Bu məktəbə 1-ci Cavanşir, 2-ci Bakı və 3-cü Gəncə piyada alaylarından 15 nəfər, 1-ci Tatar və 2-ci Qarabağ süvari alaylarının hər birindən, habelə topçu briqadasından 6 nəfər, İstehkam məktəbindən isə 1 nəfər savadlı əsgər göndərilməli idi. Məktəbdə təhsil müddəti 4 ay olmalı idi (78).

Sanitar heyətinə bütün əsgər xəstəxanalarında ehtiyac olduğu üçün nazir bu məsələnin ümumordu miqyasında həll edilməsi barəsində əmr verdi. 15 fevral 1919-cu il tarixli 78 nömrəli həmin əmrdə göstərilirdi ki, hərbi müalicə müəssisələrinin təcrübəli kiçik sanitar heyəti ilə təmin edilməsi üçün bütün hissələrdə 2 aylıq sanitar kursları açılmalı, bu kurslar üçün xüsusi proqram hazırlanmalı və hissə həkimləri tərəfindən tədris edilməli idi. Əmrə əsasən hər hissədən könüllülük əsasında 12 nəfər seçilməli və hissə komandirləri tərəfinən günün müəyyən edilmiş vaxtında onlar tibbi məşğələlər keçməli idilər (79).

Feldşer kadrlarının hazırlanması üçün orduda xüsusi məktəb açılmışdı (bu barədə aşağıda danışılacaqdır). Orduda tibbi müalicə şəbəkəsinin genişlənməsi və onun lazımi kadrlarla təchiz edilməsi üçün əhəmiyyətli işlər görülsə də, bu orqanların fəaliyyəti, bütünlükdə qoşunlarda sanitar vəziyyət Hərbi Nazirliyin ciddi nəzarəti altında saxlanılırdı. Xidmətin ilk aylarında səhhətini korlamış olan əsgərlər qısamüddətli məzuniyyətə buraxılırdılar ki, onlar evdə daha yaxşı qayğı ilə əhatə olunsunlar və tezliklə sağalıb xidmətə qayıtsınlar. Ancaq bu, heç də həmişə gözlənilən nəticəni vermirdi. Ona görə də nazir belə bir praktikaya son qoyulması barədə əmr verdi. Nazirin fikrincə, bu, əsgərlərdə hərbi əhval-ruhiyyənin formalaşmasına, xidməti vəzifələrinə məsuliyyət aşılanmasına pis təsir etməklə bərabər, onların səhhətinin bərpasına lazımi kömək göstərmirdi. Nazir qısamüddətli məzuniyyətlər verilməsinin əvəzində səhhəti korlanmış və zəifləmiş əsgərlər üçün xüsusi komandaların yaradılmasını məqsədəuyğun bilirdi. Hər 150 nəfər üçün nəzərdə tutulan belə komandaların aşağıdakı mən-

təqələrdə yaradılması barədə göstəriş verildi: 1) Xankəndində, 1-ci Cavanşir piyada alayının nəzdində – Qarabağ general-qubernatorluğunda yerləşən qoşun hissələri üçün; 2) Qusarda, 2-ci Bakı piyada alayının nəzdində – Bakı rayonunun hissələri üçün; 3) Nuxa şəhərində, 4-cü Zaqatala piyada alayının Nuxadakı bölüyünün nəzdində – Zaqatala ətrafındakı qoşun hissələri üçün; 4) Hacıkənddə, Praporşiklər məktəbinin nəzdində – Gəncə ətrafında yerləşən qoşun hissələri üçün. Bu komandaların formalaşdırılması adları çəkilən hissələrin komandirlərinə tapşırıldı (80).

Səhhəti zəif olanlar üçün yaradılan komandalar tibb obyektlərindən kənarda, boş qışlalarda və ya münasib bina və çadırlarda yerləşdirilməli idi. Komandaların komplektləşdirilməsi hərbi həkimlərin müayinəsi və qərarı ilə həyata keçirilirdi. Hissənin və ya əsgərlərin müalicə olunduğu xəstəxananın həkiminin qərarı ilə kimlərin səhhəti zəif olanlar üçün komandaya göndərilməsi müəyyənləşdirilir, bu barədə müvafiq hissə komandirinə məlumat verilirdi. Hissə komandirinin əmri ilə rəsmiləşdiriləndən sonra səhhəti zəif olan yaxınlıqdakı komandaya göndərilirdi. Həmin komandalar yerləşdikləri əraziyə görə Qusar, Nuxa, Hacıkənd və Xankəndi komandaları adlandırılırdı. Bu komandalar üçün yüngül xidmət rejimi müəyyənləşdirilmişdi. Əsgərlər vaxtaşırı həkimlər tərəfindən müayinə edilirdilər. Müalicə müddəti bitdikdən sonra əsgərlər yenidən həkim müayinəsindən keçir, onların nizami xidmətə yararlı olub-olmadığı müəyyənləşdirilirdi. Həkimlərin qərarından sonra əsgərlər ya nizami hissələrə, ya da köməkçi hissələrə göndərilirdi (81).

Təkcə səhhəti zəifləyənlər üçün olan komandalarda deyil, bütün qoşun hissələrində sanitar-gigiyena normalarına riayət edilməsi daim nəzarət və qayğı altında idi. Xəstəliklərin çoxalması ilə döyüş hazırlığının zəifləməsinin qarşısını almaq üçün Hərbi nazir də müvafiq əmrlər imzalayırdı. 1919-cu il iyunun 5-də nazirin imzaladığı 281 nömrəli əmr havaların hədsiz qızması ilə mədə-bağırsaq xəstəliklərinin, dizenteriya və xoleranın yayılması təhlükəsinin qarşısının alınmasına yönəldilmişdi. Nazir tələb edirdi ki, 1) bütün bölüklərdə, komandalarda, bölmələrdə qaynadılmış su saxlanılması üçün xüsusi baklar düzəldilsin, onların qapaqları

qıfılla bağlansın, yanına fincan qoyulsun və əsgərlər lazım olarsa, ancaq qaynadılmış su içsinlər; 2) hansı hissənin ki, yaxınlığında su xətləri və mənbələri yoxdur, uzaqdan suyun daşınması üçün arabalar üzərində bərkidilmiş çəlləklərdən istifadə edilsin. Gətirilən su hissələrdə xüsusi çəlləklərdə saxlanılsın, onların gigiyena normaları qorunsun; 3) ləvazimat xidmətinin anbarlarında saxlanılan ehtiyatlar imkan verirsə, bütün əsgərlər su qabları, çay içmək üçün fincanlar, çörək saxlamaq üçün torbalarla təchiz edilsin; 4) əsgərlərə çiy su içmək qadağan edilsin; 5) hər hansı zərurət üçün şəhər kanallarından və arxlarından su gətirilməsinə icazə verilməsin; 6) bütün bölüklərdə, komandalarda əlüzyuyanlar qoyulsun və onlardan istifadə edilməsinə nəzarət gücləndirilsin. Xüsusilə mətbəx əlüzyuyan, təmiz dəsmal və sabunla təchiz edilsin; 7) hissələrin həkimləri savadlı tərcüməçilərin vasitəsi ilə şəxsi heyətlə söhbətlər aparsın; səhhətin qorunması, xüsusilə xolera xəstəliyinin profilaktikası barədə onlara lazımi məsləhət verilsin; 8) binalarda, həyətlərdə, ayaq yollarında təmizliyin qorunması üçün ən qəti tədbirlər görülsün, ayaq yolları və zibil toplanan yerlər vaxtlı-vaxtında dezinfeksiya edilsin; 9) bütün ərzaq növlərinin keyfiyyətinə, onların mühafizəsinə və milçəklərdən qorunmasına ciddi fikir verilsin (82).

Nazirin bu əmrdə irəli sürdüyü tələblər, görünür, hər yerdə lazımi şəkildə icra edilmədiyindən kütləvi xəstəliklərin qarşısını tamamilə almaq mümkün olmamışdı. Yuxarıdakı məlumatlardan görünürdü ki, bəzi qarnizonlarda vəziyyət müəyyən qədər yaxşı olsa da, bəzi hissələrin əsgər xəstəxanalarında heç yer də çatmırdı. Ona görə də 1919-cu ilin noyabr ayında Hərbi nazir profilaktik tədbirlərin gücləndirilməsi ilə bağlı yeni bir əmr imzaladı. Həmin əmrdə də yoluxucu xəstəliklərin qarşısının alınması üçün sanitar-gigiyenik tədbirlər içərisində nazir, əsasən, otaqlara, yaşayış sahələrinin təmizliyinin saxlanılmasına, əsgərlərin üst-başının yaxşı olmasına, başlıca yoluxma mənbəyi olan sudan düzgün istifadə edilməsinə, əsgərlərin lazımsız yerə şəhərə buraxılmasına, buna ehtiyac olduqda isə onların yerli əhali ilə az təmasda olmasına və s. məsələlərə ciddi diqqət yetirilməsini xüsusilə vurğulayırdı (83).

Müvafiq əmri imzalamaqdan əlavə Hərbi nazir özü şəxsən əsgər xəstəxanalarında olur, onların vəziyyəti barədə ətraflı məlumat əldə edirdi. 1919-cu il yanvarın 19-da o, Gəncə dəmir yolu stansiyasındakı baraklarda yerləşən 210 yerlik əsgər xəstəxanasında olmuş və gördüklərindən heç də razı qalmamışdı. Nazirin bildirdiyinə görə xəstələrin otaqları pis vəziyyətdə idi, qapı və pəncərələr möhkəmləndirilməmişdi, otaqlar çox soyuq idi. 275 nəfər üçün cəmi bir vanna var idi. Nazir tələb edirdi ki, vanna otağı ən azı üçə çatdırılsın ki, yoluxucu xəstəliklərlə və zöhrəvi xəstəliyə tutulanlar ayrıca vanna otaqlarında yuyunsunlar. Xəstəxananın həyət-bacası çox çirkli idi, səliqə və sahmana heç bir diqqət yetirilmirdi. Xəstəxanada vəfat edənlər 4–5 gün dəfn edilməmiş qalırdılar. Dəfn mərasimlərinin keçirilməsi üçün xəstəxanada molla yox idi. S.Mehmandarov Ümumi qərargahın rəisinə tapşırırdı ki, dərhal xəstəxanaya molla təyin etsin: «Yanvarın 19-da dəmir yolundakı binalarda yerləşən 210 nəfərlik Gəncə hərbi lazaretində oldum. Xəstələrin palataları yaxşı vəziyyətdə saxlanılmır. Qapı və pəncərədəki boşluqlar tutulmayıb, ona görə də otaqlardan yel vurur və soyuqdur. Hərarət ölçənlər yoxdur. 275 nəfərə cəmi bir vanna var. Onlar ən azı üç ədəd olmalıdır. Belə ki, yoluxucu və zöhrəvi xəstələr üçün xüsusi vannaların olmasını güman edirəm. Ayaq yolları iyrənc vəziyyətdə saxlanılır. Həyət zibillidir, hər tərəfdə çirkli pambıq parçaları görmək mümkündür. Xəstələr də pis gündə saxlanılır, ağlar çatışmır. Halbuki buradakı anbarda nə qədər istəsən ağ parça vardır. Bunu qayğıkeşliyin və işə həvəsin olmaması ilə izah etmək olar. Vəfat edənlər 4–5 gün dəfn edilmir. Dəfni təşkil etmək üçün molla yoxdur. Lazaretin baş həkimi nə üçünsə indiyə kimi bu barədə susub. Ümumi qəragah rəisi dərhal bura molla təyin etsin.

Sanitarlar cəmi 26 nəfərdir. Ancaq nədənsə cəmi 6-sı işləyir. Qalanların nə ilə məşğul olduğunu mən öyrənə bilmədim. Dərhal məlumat verilsin. Feldşerlərin çatışmadığı hiss olunur. Hətta zöhrəvi xəstələr palatasında da şəfqət bacıları işləyir. Anlaya bilmirəm, həkimlər buna necə yol verirlər? Bu, qətiyyən yolverilməzdir» (84).

Sanitarların xəstəxanada öz vəzifələrini layiqincə yerinə yetirməməsi, xəstələr üçün bişirilən yeməklərin ən adi tələblərə ca-

vab verməməsi, xəstələrə lazımi qayğının göstərilməməsi də Hərbi nazirin ciddi narahatlığına səbəb olmuşdu. Vəzifə borcunu lazım olan səviyyədə yerinə yetirmədiyinə, məsuliyyətsizlik və laqeydlik nümayiş etdirdiyinə görə əsgər xəstəxanasının baş həkimi Şpakovski və xəstəxananın təsərrüfat müdiri dərhal Hərbi nazir tərəfindən tutduqları vəzifədən uzaqlaşdırıldılar. Bir neçə gündən sonra isə Hərbi xəstə hissəsinin müdiri Sulakov da öz vəzifəsindən uzaqlaşdırıldı. Bununla bağlı imzaladığı müvafiq əmrdə Hərbi nazir göstərirdi ki, vəzifədə olduğu müddətdə Sulakov tam fəaliyyətsizlik göstərmiş və tibb xidmətinin təşkilində tam yararsızlığını nümayiş etdirmişdir (85).

Əsgər xəstəxanalarında tibbi xidmətin təşkili zamanı azərbaycanlı sanitarlardan az istifadə edilməsi, rus və erməni sanitarların işə daha çox qəbul edilməsi də Hərbi nazirin narahatlığına səbəb olmuşdu. Ona görə də o, Hərbi xəstə hissəsinin müdirindən tələb edirdi ki, əsgər xəstəxanalarına daha çox azərbaycanlı sanitarları qəbul etsinlər və azərbaycanlı xəstə əsgərlərin xidmətində də məhz azərbaycanlı sanitarlar dayansınlar. Eyni zamanda, nazir xəstələrə qarşı qayğı və səmimiyyətin artırılmasını tələb edirdi (86).

Hərbi qulluqçular arasında xəstəliklərin qarşısının alınması üçün Hərbi Nazirliyin rəhbərliyi ərzaq və əşya xidmətinin yaxşılaşdırılmasına da xüsusi diqqət yetirirdi.

### *3. Qoşunların ərzaq və əşya təminatı*

Qoşunların ərzaq və əşya təminatı Hərbi Nazirliyin rəhbərliyinin diqqətini kifayət qədər çəkən məsələlərdən biri idi. Azərbaycan şəraitində bu sahədə mövcud olan çətinliklər xidmətin düzgün qurulmasını daha da mürəkkəbləşdirirdi. 1919-cu il fevralın 25-də Parlamentdəki çıxışında Hərbi nazir xidmətin təşkilinin bu məqamları üzərində də xüsusi dayanmışdı. S.Mehmandarov ordunun şəxsi heyətinin yemək və paltarla təmin edilməsinə adi məişət qayğısı kimi baxmır, onu hərbi xidmətin təşkilinin vacib sahələrindən biri sayırdı. Onun fikrincə, soyuq havada isti paltara malik olmayan və doyunca yedizdirilməyən əsgər fərarilik etmək barədə düşünməyə başlayırdı. Buna isə əsas var idi. Çünki

S.Mehmandarova Hərbi Nazirliyə rəhbərlik tapşırılanda qoşun hissələrində vəziyyət son dərəcə mürəkkəb idi. Millət vəkilləri qarşısındakı çıxışında nazir deyirdi: «…Mən Hacıqabula getdim, Ləki və Kürdəmirdə oldum, Ağdamda hər şeylə tanış oldum… İnsanların görkəmi heç də yaxşı deyildi, tutqun və qəmli idi, pis geyinmişdilər, deməyə ehtiyac yoxdur ki, yeməkləri çox pis idi. Onun dadına baxanda kiçik ət qırıntıları və kələm yarpaqları üzən qaynanmış suyu gördüm" (87).

Milli qoşun hissələrinin maddi-texniki təminatı, o cümlədən ərzaq və əşya təminatı baxımından hansı böyük çətinliklərlə qarşılaşdığını Həbib bəy Səlimovun Nazirlər Şurasına göndərdiyi raportundan da aydın görmək mümkündür. Həmin raport türk hərbi qüvvələrinin Azərbaycanı tərk etməsindən sonra yazılmışdı. H.Səlimov təminat məsələlərinə toxunanda bildirirdi ki, qoşun hissələrində olan atların vəziyyəti çox pisdir. Yəni kifayət qədər yem yox idi ki, atlara verilsin. Raportdan aydın olurdu ki, hərbi qulluqçular iki ay maaş almamışdılar, mövcud olan topları çəkmək üçün atlar yox idi, pal-paltar həddən artıq az idi, əsgərlər az qala acından ölürdülər. H.Səlimov həyəcan təbili çalırdı ki, hərbi qulluqçular un şorbasından başqa bir yemək görmürlər. Hökumət qarşısında o belə bir sual qoyurdu: «Yeməksiz, geyimsiz ordu olarmı?» (88)

H.Səlimov sonra yazırdı ki, indi günün şüarı «hər şey ordu üçün» olmalıdır. Onun fikrincə, ilk növbədə ordunun yığcam bir strukturu qəbul edilməli və ona uyğun olaraq da təminat-təchizat işləri aparılmalı idi. İstər Müsəlman korpusunun, istər Əlahiddə Azərbaycan korpusunun və istərsə də Cümhuriyyət ordusunun təşkilində xüsusi xidmətləri olmuş Həbib bəy Səlimov milli qoşun hissələrinin formalaşmasının uğurla davam etdirilməsi üçün öz raportunda konkret olaraq aşağıdakı şərtləri irəli sürürdü:

«1. Günün şüarı belə olmalıdır: hər şey cəbhə üçün!

2. Qarşıya çox da böyük vəzifələr qoymaq, başlıcası isə aldanmaq lazım deyil. Bir korpusu elə yaratmaq lazımdır ki, bu korpus kağız üzərində yox, həqiqətən mövcud olsun və o, daxili və xarici düşmənə qarşı bir siperə çevrilsin…

3. Bir korpusun yaradılması və təchizi üçün vəsait əsirgəmək lazım deyil. Çünki böyük Napoleon demişdir: müharibə üçün üç şey lazımdır: 1) pul, 2) pul, 3) pul. Ordu geyindirilməli və yedizdirilməlidir. Çünki yarıac və yalın ordu hər cürə yoluxma və o cümlədən də bolşevizm mənbəyidir.

4. Ordu tələb olunan miqdarda at, araba və təchizatla təmin edilməlidir.

5. Formalaşmanın sürətləndirilməsi üçün pal-paltarın, təchizatın və atların qeyri-mərkəzləşdirilmiş şəkildə alınmasına müəyyən imkan verilməlidir.

6. Ac əsgərin mədəsinin doldurulması üçün ərzağın yalnız ordu anbarından alınması sistemindən imtina edilməlidir. Bu sistem köhnəlmişdir və heç bir Avropa ölkəsində ondan istifadə edilmir. Ordunun ərzaqla təminatının heç olmasa qarışıq sisteminə keçmək lazımdır. Bunun üçün korpus və diviziya anbarları yaradılmalı və ora ordu anbarlarından ərzaq buraxılmalıdır» (89).

Ərzaq və əşya təminatı məsələləri qoşunların gündəlik həyatı ilə bağlı olan məsələlər idi və burada hər hansı bir ləngiməyə yol verilməsi dərhal acı nəticələri ortaya çıxara bilərdi. Ona görə də elə ilk günlərdən bu məsələlərə diqqət gücləndirildi. Hərbi nazir S.Mehmandarov qoşunların şəxsi heyətinin məişətində elə bir səviyyəyə nail olmaq istəyirdi ki, xidmətə yeni gələn əsgər heç bir korluq çəkməsin, ev həyatı üçün darıxmasın və xidmətin çətinliklərini asanlıqla yaşasın. Çünki əsgərin xidmətə bağlılığı da ilk növbədə yemək və geyməkdən başlayırdı.

Bu sahədə mövcud olan bir sıra çətinliklər, həm də xidmətin təşkilində yol verilən nöqsanlarla bağlı idi. Həm Hərbi nazir S.Mehmandarov, həm də nazir müavini Ə.Şıxlinski belə nöqsanlara qarşı çox sərt mövqe tuturdular. Mövcud olan vəziyyətlə yerindəcə tanış olmaq üçün S.Mehmandarov kimi Ə.Şıxlinski də Hərbi Nazirliyin təşkilinin ilk günlərindən hissələrə səfər etdi. Bu tanışlıqlar zamanı Zaqatalada hərbi xidmətin təşkili, iaşə təminatı, yeməklərin yüksək keyfiyyətdə olması onu razı salmışdısa (90), 1919-cu il yanvarın əvvəllərində Praporşiklər məktəbində, topçu divizionunda iaşənin təşkili onu razı salmamışdı. Bu narazılıq da daha çox məsul şəxslərin öz vəzifələrinə məsuliyyətlə yanaş-

mamalarından irəli gəlirdi. Adı çəkilən hissələrdə əsgərlərə səhər-axşam eyni yeməklər verilirdi, menyunun müxtəlif olmasına diqqət yetirilmirdi. Hərbi nazir də belə vəziyyətlə razı deyildi. O imzaladığı əmrdə tələb edirdi ki, əsgərlərə adət etdikləri milli xörəklər bişirilib verilsin, onlara verilən quru çayın və şəkərin miqdarı artırılsın (91).

Nazir bu fikrini Parlamentdəki çıxışında da xüsusi vurğulayırdı. O bildirirdi ki, türk qoşunları Azərbaycanı tərk edərkən kifayət qədər ərzaq ehtiyatı saxlamışdılar. Bu ehtiyatlar qoşunların şəxsi heyətinin iaşəsini gücləndirməyə imkan verirdi. Şəxsi heyətə ayrılan ərzaq normalarının artırılması barədə nazir xüsusi bir əmr imzaladı. Eyni zamanda, o tələb edirdi ki, yad ölkələrin mədəniyyətinə aid olan yeməklərin bişirilməsinə son qoyulsun, hərbi qulluqçulara bozbaş, dolma kimi milli yeməklər, həftədə bir dəfədən az olmayaraq isə plov bişirilsin. Nazir bildirirdi ki, şəkər və qənd normalarının artırılması əsgərlərə səhər və axşam qaynar çay içmək imkanı verirdi. Yoluxucu xəstəliklərin epidemiyası yayılanda isə nazir çay və şəkər normasını daha da artırdı ki, əsgərlər bütün gün ərzində çiy su içməsinlər, özlərini qaynar çayla təmin edə bilsinlər (92).

1919-cu ilin əvvəlində şəxsi heyət üçün ərzaq normaları aşağıdakı şəkildə müəyyənləşdirilmişdi. Hər bir adam üçün gündəlik ət norması 34 funt miqdarında təyin edilmişdi. Onun da 24 funtu nahar yeməyinə, 10 funtu isə axşam yeməyinə ayrılmalı idi. Şəkər norması adambaşına 6 zolotnik, çay isə 0,5 zolotnik həcmində müəyyənləşdirilmişdi. Çörək adambaşına 2,25 funt miqdarında olmalı idi. Əsgərlər üçün müəyyənləşdirilmiş bu pay bütün generallara, zabitlərə, müharibə dövrünün məmurlarına da verilməli idi. Ancaq onlar üçün çay və şəkər artırılmış normada müəyyənləşdirilmişdi. Generallar 15 funt şəkər, 1,5 funt çay, qərargah zabitləri 10 funt şəkər, 1 funt çay, baş zabitlər 5 funt şəkər, 0,5 funt çay, məmurlar isə 3 funt şəkər, 0,25 zolotnik çay ala bilərdilər (93).

Hərbi nazirin əmri ilə Azərbaycan Ordusu üzrə həm isti yemək bişirilməsi üçün norma, həm də bütünlükdə iaşə norması və onların qiymətləri təsdiq edilmişdi. İsti yemək hazırlanması üçün norma və qiymət aşağıdakı şəkildə müəyyənləşdirilmişdi (94).

**İsti yeməyin hazırlanması üçün müəyyənləşdirilmiş ərzağın qiyməti cədvəli**

| Ərzağın adı | Ərzağın miqdarı | Gəncə, Bakı, Zaqatala quberniyalarında | | Bakı şəhərində | |
|---|---|---|---|---|---|
| | | rubl | qəpik | rubl | qəpik |
| Ət | 0,75 funt | 8 | 57,00 | 12 | 11,00 |
| Duz | 11 zolotnik | - | 17,19 | - | 12,89 |
| Təzə göyərti | 60 zolotnik | 1 | 87,50 | 2 | 18,80 |
| Quru göyərti | 4 zolotnik | 1 | 87,50 | 2 | 18,80 |
| Yağlar | 10 zolotnik | 3 | 82,00 | 4 | 51,00 |
| Un | 4 zolotnik | - | 31,25 | - | 32,29 |
| İstiot | 16 zolotnik | - | 2,08 | - | 2,08 |
| Ümumi məbləğ | - | 16 | 64,52 | 21 | 47,58 |
| Yuvarlaqlaşdırılmış məbləğ | - | 17 | | 21 | |

İsti yemək üçün müəyyənləşdirilmiş ərzaq bütünlükdə gündəlik iaşə normasının tərkibinə daxil idi. Gündəlik iaşə noması və onun qiyməti isə aşağıdakı kimi müəyyənləşdirilmişdi (95):

**İaşə normasına daxil olan ərzaq növlərinin miqdarı və qiymətinin cədvəli**

| Ərzağın adı | Ərzağın miqdarı | Ərzağın qiyməti | |
|---|---|---|---|
| | | rubl | qəpik |
| Ət | 0,75 zolotnik | 8 | 57.00 |
| Duz | 11 zolotnik | - | 17,19 |
| Təzə göyərti | 60 zolotnik | 1 | 87,50 |
| Quru göyərti | 4 zolotnik | 1 | 87,50 |
| Yağlar | 10 zolotnik | 3 | 82,00 |
| Un | 4 zolotnik | - | 31,25 |
| İstiot | 16 zolotnik | - | 2,08 |
| Çörək | 2 funt | 10 | - |
| Yarma | 24 zolotnik | 2 | 75,00 |
| Şəkər | 6 zolotnik | 2 | 50,00 |
| Çay | 0,5 zolotnik | - | 78,12 |
| Ümumi məbləğ | - | 30 | 80,14 |
| Yuvarlaqlaşdırılmış məbləğ | - | 31 | |

Ordunun ərzaqla təminatınaLəvazimat idarəsi məsuliyyət daşıyırdı. Bu qurumun fəaliyyətinin səmərəliliyinin artırılması

üçün malik olduğu struktura türk qoşunlarının Azərbaycanda olduğu vaxtla müqayisədə müəyyən dəyişikliklər edilmişdi. Yuxarıda göstərildiyi kimi, qoşunların ərzaqla təminatının təşkili üçün Gəncə, Ağdam və Hacıqabulda ərzaq anbarları yaradılmış və hansı hissənin hansı anbardan təchiz edilməsi müəyyənləşdirilmişdi. Ərzağın alınmasında, toplanılmasında hissələrə də müəyyən səlahiyyətlər verilmişdi. Yerlərdə ərzaq ancaq təsdiq edilmiş qiymətlər çərçivəsində alına bilərdi. Ancaq qiymətlərin vaxtaşırı bahalaşması ilə bağlı bu heç də həmişə mümkün olmurdu.

Ərzaq ehtiyatlarının toplanılması ilə də, əsasən,Ləvazimat idarəsi məşğul olurdu. Qoşunların sayının artması ilə Ləvazimat idarəsi ərzaq anbarlarının sayını da artırmışdı. Sonradan Bakıda, Zaqatalada, Xankəndində, Qusar və Lənkəranda da ərzaq anbarları yaradıldı. Qarnizonların hər birinin öz ərzaq anbarı var idi. Qarnizonun hərbi hissələri zəruri olan ərzağı həmin anbarlardan təhvil almalı idi. Əlavə maliyyə xərclərinə yol verilməməsi üçün ərzağın alınmasında bir çox hallarda müsabiqə üsulundan istifadə edilirdi. Müsabiqələrin keçirilməsi üçün əvvəldən elanlar verilirdi. Bu elanlarda böyük partiyalarda un, taxıl, arpa, preslənmiş və preslənməmiş ot, saman, çay, şəkər, duz, sabun və s. alınması elan olunurdu. Əşyaların tədarükünə imkanı olanlar müsabiqəyə dəvət edilirdilər. Müsabiqədə iştirak edənlər tələb olunan malları hansı qiymətə, hansı şərtlərlə sata bilmələri haqqında ətraflı məlumat hazırlayıb ağzı bağlı zərflərdə müsabiqəni keçirən komissiyaya təqdim etməli idilər. İcraçı şəxslər malları yuxarıda adları çəkilən ərzaq anbarlarından birinə təqdim edə bilərdilər (96).

Ordu üçün alınan malların hansı keyfiyyətdə olmasının normaları da müəyyənləşdirilmişdi. Ərzaqlar istər Ləvazimat idarəsi tərəfindən bazardan alınanda, istərsə də müsabiqə yolu ilə tədarük ediləndə həmin keyfiyyət normaları gözlənilməli idi. Həmin keyfiyyət normaları aşağıdakı kimi təsdiq edilmişdi.

Buğda dənələri – dolu, quru, təmiz, qabığı nazik, içərisi ağ və parazitsiz olmalı idi. Bütün buğdalar eyni ölçüdə, eyni formada, açıq-parlaq rəngdə olmalı idi. Belə dənələrin kraxmalı çox olurdu. Ölçülərinə görə dənlər üç yerə bölünməli idi – böyük, orta və kiçik. Buğdanın nəmliyi 13–19 faiz arasında olmalı idi.

Un – quru buğdadan döyülməli, təzə qoxuya və dada malik olmalı, nəmliyi 13,5 faizdən yuxarı qalxmamalı idi. Turş və acı dada malik un keyfiyyətsiz sayılırdı. Unun qatışığı da müəyyən ölçüdə olmalı idi. 12 nömrəli ələklə ələnəndə unda heç bir qatışıq və çöküntü qalmamalı idi. 20 nömrəli ələklə ələnəndə isə keyfiyyətli unun 3,5 faiz çöküntüsü qala bilərdi.

Qurudulmuş çörək (suxarı) – yaxşı qurudulmalı, yaxşı keyfiyyətə malik olan undan hazırlanmalı idi.

Qarabaşaq yarmasının nəmliyi 13,5 faiz olmalı, yaxşı təmizlənməli idi. Onun daxilində əlavə qatışıqlar 0,5 faizdən, yetişməmiş dənlər isə 1 faizdən artıq olmamalı idi.

Ət – 2–10 yaşında olan və ağırlığı ən azı 6 pud olan, yeni kəsilən heyvanlardan hazırlanmalı idi. Arıq heyvanların əti keyfiyyətsiz sayılırdı. Kəsilən ət baytar həkimi tərəfindən yoxlanılmalı və onun möhrü vurulmalı idi. Şəxsi heyətə xüsusi halda soyuducuda saxlanılmış ət verilə bilərdi. Bu vaxt onun kəsilmə müddəti üç həftədən artıq olmamalı idi. Buzlaşdırılmış ət isə 6 aydan artıq saxlanılmamalı idi. Qoyun əti – 5 yaşdan yuxarı olmayan və diri çəkisi 1 pud 2 funtdan az olmayan, orta köklükdə olan qoyunlardan hazırlanmalı idi.

Kələm – möhkəm, sıx, şaxta vurmamış, göy və çürümüş yarpaqlardan təmizlənmiş və ləkəsiz görkəmdə olmalı idi.

Kartof – nazikqabıqlı, üstü hamar, çürüməmiş, cücərməmiş, ləkəsiz yemək sortundan olmalı idi. Kəsilən kartofun daxili ağ və ya sarı olmalı idi.

Soğan – möhkəm, qatları sıx, şirəli, çürüməmiş olmalı idi. Şaxta vurmuş və üzərində qara ləkələri olan soğanlar keyfiyyətsiz sayılırdı. Kəsilən soğanın daxili ağ, özü isə kəskin soğan qoxusuna malik olmalı idi.

Qənd – kəllə və ya qıçalanmış şəkildə ola bilərdi. Kəllə qənd ağ kristal şəklində olub azacıq göyümtül rəngə çalmalı idi. Üstündə heç bir ləkəsi olmamalı idi. Qıçalanmış qəndin içində ufantı və qırıntı 1,5 faizdən artıq olmamalı idi.

Çay – açıq və preslənmiş formada ola bilərdi. Onlar üçqat kağızla bükülməli, qatışıqsız olmalı, qara rəngə çalmalı idi (97).

Atlar üçün tədarük olunan yemin də keyfiyyət göstəriciləri müəyyən edilmişdi və yem ehtiyatı toplanarkən həmin göstəricilər əsas tutulmalı idi (98).

Tədarük olunan ərzağın, ot və ələfin istifadəsində qanunsuzluğa, artıq məsrəflərə yol verməmək üçün 1919-cu ilin aprel ayında onların mühafizəsi və daşınması zamanı yol verilə biləcək itkilərin norması da müəyyənləşdirilmişdi. Nazirin müvafiq əmri ilə təsdiq olunmuş bu normativləri aşan itkilər üçün cavabdeh şəxslər məsuliyyət daşıyırdı (99):

**Ərzaq və əşyaların saxlanılması və daşınması zamanı yol verilə biləcək itkilərin miqdarı cədvəli**

| Ərzaq və əşyaların adı | Anbarda saxlanılan zaman %-lə | Dəmir yolu və su ilə daşınan zaman %-lə | Şose və torpaq yolu ilə daşınan zaman %-lə |
|---|---|---|---|
| Çörək | 0,25 | 1,5 | 2,0 |
| Qurudulmuş çörək | 0,25 | 0,75 | 1,0 |
| Yarma | 0,5 | 0,8 | 1,0 |
| Darı yarması | 0,75 | 1,25 | 1,5 |
| Un | 0,65 | 0,5 | 1,0 |
| Çay | 0,1 | 0,25 | 0,25 |
| Qıçalanmış qənd | 0,1 | 0,25 | 0,4 |
| Şəkər tozu | 0,5 | 0,8 | 1,0 |
| Duzlu salo | 0,25 | 0,5 | 0,75 |
| Kərə yağı | 0,5 | 0,5 | 1,0 |
| Düyü | 0,5 | 0,8 | 1,0 |
| Makaron | 0,25 | 0,5 | 1,0 |
| Duzlu kələm | 0,7 | 0,5 | 0,75 |
| Duz | 0,4 | 1,0 | 1,5 |
| İstiot | 0,3 | 0,25 | 0,5 |
| Soğan | 0,25 | 0,5 | 0,75 |
| Arpa | 0,8 | 0,8 | 1,0 |
| Arpa və döyülmüş qarğıdalı | 0,8 | 0,8 | 1,0 |
| Preslənmiş ot | 1,5 | 1,5 | 2,0 |
| Preslənmiş saman | 1,5 | 3,0 | 5,0 |
| Sabun | 1,0 | 0,25 | 0,5 |

Hərbi Nazirliyin ərzaq ehtiyatı təkcə pulla alınan əşyalar hesabına yaradılmırdı. Azərbaycan hökuməti özünün 19 avqust 1919-cu il tarixli qərarı ilə Əkinçilik Nazirliyinə tapşırdı ki, Quba, Göyçay, Cavad, Nuxa və Ərəş qəzalarında kirayəyə verilmiş

torpaqlardan kirayə haqqı kimi hökumətə alınan bütün natura məhsullar Hərbi Nazirliyin ərzaq anbarlarına verilsin (100). Bu məhsullar ehtiyacın bir hissəsini ödəyirdi, ərzağın əsas hissəsi isə bazardan alınmaqda idi. Hökumət tərəfindən 1919-cu il üçün həmin il aprel ayının 9-da təsdiq edilən hərbi xərclərin smetası (101) bu bahalaşma ilə tam şəkildə ayaqlaşa bilmirdi. O biri tərəfdən, 1919-cu ilin yayında və payızında çoxsaylı qoşun hissələrinin yaradılması ərzaq ehtiyatının xeyli artırılmasını tələb edirdi. Ona görə də icraçılarla bağlanmış müqavilələr də tezliklə öz gücünü itirir, heç kəs köhnə qiymətlər əsasında malını satmaq istəmirdi. Bu məsələ 1919-cu ilin noyabr ayında Hərbi Şuranın iclasında xüsusi olaraq müzakirə edildi. İclasın gedişindən aydın oldu ki, ərzaq ehtiyatının yaradılması üçün hələ havalar soyumamışdan əvvəl müəyyən tədbirlər görülmüşdü. Podratçı təşkilatlarla bir pud taxılı 145 rubla, arpanı 60 rubla və otu 2 rubla almaq üçün müqavilələr imzalanmış, hətta avans da verilmişdi. Lakin sonra qiymətlər bahalaşdığı üçün sahibkarlar müqavilə şərtlərinə əməl etməmiş və Hərbi Nazirliyə çox az miqdarda ərzaq vermişdilər. Belə bir vəziyyətdə Nazirliyin rəhbərliyi daha fəal tədbirlərin həyata keçirilməsini lazım bilirdi. Hökumətə ünvanlanmış raportda bildirilirdi ki, hazırda ordunun ərzaq ehtiyatlarını iki yolla yaratmaq mümkündür. Birincisi – Ərzaq Nazirliyinin gücü ilə, ikincisi isə – Hərbi Nazirliyin Ləvazimat idarəsinin gücü ilə. Ləvazimat idarəsinin gücü ilə yalnız ərzağın mövsüm vaxtı yerlərdən satın alınması və ordu anbarlarına daşınmasının təşkil olunması nəzərdə tutulurdu. Bütün ehtiyacların aradan qaldırılması üçün Nazirliyin rəhbərliyi tərəfindən təxmini bir hesablama da aparılmışdı. 1919-cu ilin payızında belə güman edilirdi ki, ilin sonuna kimi ordunun şəxsi heyətinin sayı 20 min, atların sayı isə 5 min olacaq. 1920-ci ildə yeni məhsulun toplanacağı vaxta qədər, yəni həmin ilin payızına qədər ordunun şəxsi heyətinin sayının 40 minə, atların sayının isə 10 minə çatacağı güman edilirdi və ərzaq ehtiyatının da bu miqdara müvafiq tədarük edilməsi zəruri bilinirdi. Göstərilən müddət ərzində orduya 570 min pud taxıl lazım olacaqdı. Hər pudu 110 rubldan olan bu qədər taxıl üçün 62700000 rubl tələb olunurdu. Raportda il ərzində tələb olunan ətin, dü-

yünün, yağın, duzun, tərəvəzin, şəkərin və s. ərzağın miqdarı və onun alınmasına lazım olan maliyyə vəsaitinin həcmi göstərilmişdi. Bütünlükdə isə ordunun birillik ərzaq ehtiyatlarının hazırlanması üçün 162141150 rubl vəsait tələb olunurdu. Nazirliyin rəhbərliyi hökumət qarşısında belə bir məsələ qaldırırdı ki, bu hesablamalar Ərzaq Nazirliyinə təqdim olunacaq. Ərzaq Nazirliyi isə müəyyənləşdirməli idi ki, bu ərzağın hansını və hansı hissəsini özü tədarük edəcək, hansının tədarükünü isə Hərbi Nazirliyin Ləvazimat idarəsinə tapşıra bilər. Hərbi Nazirliyin rəhbərliyi onu da əlavə edirdi ki, Ləvazimat idarəsinin gücü ilə ərzaq tədarükü xəzinəyə daha ucuz başa gələ bilər. Ona görə xahiş olunurdu ki, buna dərhal icazə verilsin. Bunun üçün hətta yerlərdəki vəziyyət öyrənilmiş, harada hansı ərzağın çox və ucuz olması haqqında məlumat toplanılmışdı (102).

1919-cu il sentyabr ayının sonlarında Hərbi Nazirliyin Hərbi Şurası ərzağın toplanılması və tədarükü ilə bağlı hökumətin müvafiq qərar qəbul edəcəyi vaxta qədər müvəqqəti və zəruri hal kimi Ləvazimat idarəsinə tapşırdı ki, podratçıların vasitəsi ilə hər pudu 145 rubl olmaqla 30 min pud taxıl, hər pudu 60 rubl olmaqla 30 min pud yonca, hər pudu 20,5 rubl olmaqla 30 min pud preslənmiş ot və s. tədarük etsin. Qərarda o da tələb olunurdu ki, bütün satınalmalar Dövlət Nəzarəti orqanının, Ticarət Nazirliyinin, Sənaye və Ərzaq nazirliklərinin nümayəndələrinin iştirakı ilə aparılsın (103).

Ərzaq və yemin tədarükü Hərbi Nazirlik üçün ciddi əhəmiyyət kəsb edirdi və ona görə də Hərbi Şuranın bu qərarından sonra Ləvazimat idarəsi dərhal bəzi praktiki addımlar atmağa başladı. Bir sıra podratçılarla nəzərdə tutulan qiymətlər əsasında taxılın, yoncanın və otun alınması haqqında müqavilələr bağlandı, bəzi hissələrə isə avans verildi ki, onlar öz gücü ilə yerlərdə yem tədarükünü aparsınlar. Lənkərana ştabs-kapitan Talışxanovun rəhbərliyi altında xüsusi bir komissiya göndərildi. Talışxanov orada ərzaq tədarükü aparmalı idi. Eyni zamanda, Qarabağ general-qubernatoruna müəyyən vəsait buraxıldı ki, Xankəndi qarnizonu üçün ərzaq və yem tədarükünə başlansın. Lakin bir sıra obyektiv səbəblər üzündən bu tədbirlər gözlənilən səmərəni vermədi. Podratçılar bağlanmış müqavilələrə tamamilə əməl etmədilər. Bunu

onlar satınalma qiymətlərinin bahalaşması ilə əlaqələndirirdilər. Hərbi hissələrdən Zaqatala və Xankəndində yerləşənlər müəyyən qədər ərzaq tədarükünə nail ola bilmişdilər. Qalan hərbi hissələr isə qiymətlərin çox baha olduğunu bildirirdilər. Talışxanov Lənkəranda cəmi 7000 min pud taxıl və arpa toplaya bilmişdi. O da Bakı qarnizonunun cari məsrəflərinə işlənmişdi. Talışxanov da ona tapşırılan vəzifəni yerinə yetirə bilmədi. Çünki yerlərdə ərzaq tədarükü yalnız hökumət tərəfindən təyin olunmuş Xüsusi komissiya vasitəsi ilə həyata keçirilə bilərdi. Belə olanda Ləvazimat idarəsi qubernatorlar qarşısında hərbi məsrəflər üçün yerlərdə ərzaq məhsularının satışının təşkili barədə vəsatət qaldırdılar. Lakin belə satışların təşkili də uzun sürən proseslər idi. Ona görə də Ləvazimat idarəsinin rəhbərliyi Hərbi Nazirliyin rəhbərliyi qarşısında Ləvazimat idarəsinin əməkdaşlarının vasitəsi ilə yerlərdə nağd pula ərzaq məhsullarının alınmasına icazə verilməsi barədə məsələ qaldırdı. Yalnız bu yolla heç olmasa cari ehtiyacları aradan qaldırmaq olardı (104).

Böyük miqdarda ərzaq ehtiyatlarının alınması üçün sahibkarlarla müqavilə bağlanması bəzən başqa səbəblərə görə də özünü doğrultmurdu. Məsələn, bir sıra hissələrə sahibkarlar müqavilə şərtlərinə uyğun gəlməyən aşağı sortlu ət gətirirdilər. Hərbi nazir 5 yanvar 1920-ci il tarixli 13 nömrəli əmrində belə halların qarşısının alınmasını qətiyyətlə tələb edirdi. O təkid edirdi ki, hissələrə gətirilən ət məhsulları baytar həkimi tərəfindən yoxlanılsın və lazımi tələblərə cavab vermədikdə həmin ət geri qaytarılsın. Eyni zamanda, əti tədarük edən sahibkarlar məcbur edilsin ki, öz hesabına bazardan yaxşı ət alıb hissəyə gətirsin (105).

Nəticədə mövcud olan obyektiv çətinliklər ordunun iaşə təminatına öz təsirini göstərirdi. 1919-cu ilin oktyabr və noyabr aylarında bütün hissələrdə, xüsusilə də Qarabağda olan hissələrdə bu sahədə bir gərginlik yaranmışdı (106).

Bu gərginliyi müəyyən qədər səngitmək üçün Hərbi Şuranın iclaslarında ət əvəzinə əsgərlərə xaricdə istehsal olunmuş konservlərin alınıb verilməsi təklifləri də irəli sürülürdü (107). Ancaq elə Hərbi Şuranın iclaslarında o da vurğulanırdı ki, konserv alınmasına son qoymaq lazımdır. Çünki əsgərlər konserv yemirdilər (108).

Ordunun ərzaq təminatında yaranmış gərginlikdən bir çoxları sui-istifadə etməyə çalışırdılar. Hərbi Nazirliyin rəhbərliyinin əldə etdiyi məlumatlara görə ayrı-ayrı məsuliyyətsiz şəxslər qoşun üçün nəzərdə tutulan qəndi və şəkəri hissədən çıxararaq kənara satır, ya da digər lazımi əşyalara dəyişirdilər. Hərbi nazirin 23 iyun 1919-cu il tarixli 317 nömrəli əmrində göstərilirdi ki, ordunun özündə hazırda böyük ehtiyac duyulan bu ərzaqların satılması və ya dəyişdirilməsi yolverilməzdir və buna son qoyulmalıdır. Əmrdə inanılması mümkün olmayan bu bəlanın aradan qaldırılması üçün hissə komandirləri tərəfindən müvafiq tədbirlərin görülməsinin zəruriliyi vurğulanırdı. Əmrdə o da təsdiqlənirdi ki, Hərbi Nazirlik tərəfindən müvafiq komissiyalar yaradılacaq və ərzağın saxlanılması yoxlanılacaqdır.

Bir sıra hərbi hissələrdən ərzaq və əşyaların oğurlanması barədə də məlumatlar alınırdı. Hərbi nazir S.Mehmandarov bu halı hərbi qulluqçuların adına yaraşmayan şərəfsizlik kimi qiymətləndirirdi. Bununla bağlı imzaladığı əmrlərindən birində o həmin mənfi hala öz münasibətini belə bildirirdi: «Belə halların qarşısı amansız şəkildə alınmalıdr, belə əməllərə yol verənlər isə mərhəmət göstərilmədən cəzalandırılmalıdır. Oğurluq elə bir şərəfsizlikdir ki, ondan heç vaxt təmizlənmək mümkün deyil. Hətta belə bir qanun da var – unter-zabit rütbəsindən məhrum edilmiş əsgər oğurluğa görə cəzalandırılmayıbsa, yaxşı davranışına görə əvvəlki rütbəyə bərpa edilə bilər. Qoşun hissələrində oğurluq kökündən kəsilməlidir. Bu bəla ilə mübarizədə mən amansız olacağam və ən sərt cəzaları tətbiq edəcəyəm» (109).

Qoşunlar üçün ayrılmış ərzağın istifadəsində yol verilən başqa bir neqativ halla şəxsən Hərbi nazir S.Mehmandarov özü rastlaşmışdı. Azərbaycanın qoşun dəstələrinin Lənkəran ətrafında keçirdiyi əməliyyatdan sonra S.Mehmandarov bura gəlmiş və Lənkəran köməkçi taborunda xidmətin təşkili ilə yaxından tanış olmuşdu. Əsgərlərin iaşəsi ilə maraqlananda aydın olmuşdu ki, hissə komandiri ştabs-kapitan Əliyevin əmri ilə 341 nəfərlik yemək üçün 4 pud 10,5 funt ət yerinə qənaət məqsədilə 2 pud 5 funt ət ayrılması qərara alınıb. Bu fakt naziri çox təəccübləndirmiş və bununla bağlı 1919-cu il sentyabr ayının 14-də 407 nömrəli əmri im-

zalamışdı. Nazir təkidlə tələb edirdi ki, ərzaq təminatında yaranan gərginliyə görə yersiz qənaət edilməməlidir. S.Mehmandarov tələb edirdi ki, əsgərin mədəsi hesabına heç bir qənaətə yol verilməsin. Əsgər üçün ayrılan ərzaq bütünlüklə əsgərə çatdırılsın (110).

Yaranmış gərginlikdən hökumətin köməyi olmadan çıxmaq olmazdı və bu kömək də imkan daxilində ardıcıl olaraq göstərilirdi. Əsgər və zabitlərin təminatı ilə bağlı məsələlərə həm hökumətin iclasında baxıldı (111), həm də Hərbi Şuranın iclaslarında bu məsələlərlə bağlı bir sıra müvafiq qərarlar qəbul edildi. 1920-ci ilin fevral-mart aylarında ərzaq və iaşə təminatı ilə bağlı Hərbi nazirin müvafiq əmrləri imzalandı. Hökumətlə razılaşdırıldıqdan sonra qoşunlar üçün ərzaq məhsullarının yeni satınalma qiymətləri təsdiq edildi. Bu satınalma qiymətləri respublikanın müxtəlif bölgələrində bazar qiymətləri nəzərə alınaraq müəyyənləşdirilmişdi (112).

Ərzaq məhsullarının bahalaşması ilə əlaqədar olaraq əsgərlərin gündəlik iaşə normasına daxil olan ərzağın qiymətinə də dəyişiklik edildi və gündəlik iaşə üçün ayrılan pulun miqdarı xeyli artırıldı. İsti yemək hazırlanması üçün ayrılan ərzağın miqdarı və qiyməti aşağıdakı şəkildə təsdiq edilmişdi (113).

**Gündəlik isti yeməyin hazırlanması üçün ayrılan ərzağın miqdarı və qiyməti cədvəli**

| Ərzağın adı | Ərzağın gündəlik miqdarı | Bakıdakı qiymətlər rubl | qəpik | Gəncədəki qiymətlər rubl | qəpik | Digər bölgələrdəki qiymətlər rubl | qəpik |
|---|---|---|---|---|---|---|---|
| Ət | 0,75 funt | 18 | 21 | 18 | 21 | 16 | 93 |
| Duz | 11 zol. | - | 57 | - | 57 | - | 57 |
| Təzə göyəti | 60 zol. | 6 | 06 | 5 | 56 | 5 | 56 |
| Quru göyərti | 4 zol. | 6 | 06 | 5 | 56 | 5 | 56 |
| Yağlar | 10 zol. | 10 | 95 | 10 | 28 | 9 | 24 |
| Un | 4 zol. | - | 53 | - | 50 | - | 50 |
| İstiot | 161 zol. | - | 34 | - | 34 | - | 34 |
| Ümumi məbləğ | - | 42 | 72 | 41 | 02 | 38 | 07 |
| Yuvarlaqlaşdırılmış məbləğ | - | 43 | | 41 | | 38 | |

Bütünlükdə hərbi qulluqçuların gündəlik iaşə normasına daxil olan ərzağın miqdarı və qiyməti aşağıdakı kimi təsdiq edilmişdi (114).

**Gündəlik iaşə normasına daxil olan ərzağın miqdarı və qiyməti cədvəli**

| Ərzağın adı | Ərzağın miqdarı | Ərzağın qiyməti rubl | qəpik |
|---|---|---|---|
| Ət | 0,75 funt | 16 | 93 |
| Duz | 11 zol. | - | 57 |
| Təzə göyərti | 60 zol. | 5 | 56 |
| Quru göyərti | 4 zol. | 5 | 56 |
| Yağlar | 10 zol. | 9 | 24 |
| Un | 4 zol. | - | 50 |
| İstiot | 161 zol. | - | 34 |
| Zörək | 2 funt | 24 | 30 |
| Qənd | 6 zol. | 9 | - |
| Yarma | 24 zol. | 4 | 85 |
| Çay | 0,5 zol. | 1 | 82 |
| Ümumi məbləğ | - | 78 | 67 |
| Yuvarlaqlaşdırılmış məbləğ | - | 79 | |

Bütün bu addımlar hərbi qulluqçuların iaşəsinin gücləndirilməsinə istiqamətlənmişdi. Görülən işlərin nəticəsində qoşunların iaşəsində bu və ya digər dəyişikliklər baş verirdi. Məsələn, Xankəndi qarnizonunun rəisinin qarnizon üzrə imzaladığı əmrlərindən birində 1-ci Cavanşir piyada alayında iaşənin yaxşılaşdırılması xüsusi olaraq vurğulanırdı. Əmrdə bildirilirdi ki, alayın mətbəxində lazımi təmizlik mövcuddur, aşpazlar təmiz və səliqəli geyinmişlər, hər gün mətbəx üzrə növbətçi təyin olunur, növbətçi tərəfindən anbardan mətbəxə tələb olunan miqdarda ərzağın buraxılmasına nəzarət olunur, yeməklər keyfiyyətlə bişirilir. Yoxlamanın aparıldığı gün alay mətbəxində qovurma hazırlanıbmış. Əmrdə həmin yeməyin çox dadlı hazırlandığı qeyd olunur və iaşənin yaxşılaşdırılmasına yetirdiyi diqqətə görə alay komandiri polkovnik Sofiyevə təşəkkür elan olunurdu (115).

Novruz bayramının gəlişi münasibətilə Hərbi nazirin əmrinə əsasən əsgərlərə xüsusi bayram yeməyi hazırlanırdı. Bu yeməklər üçün buraxılan ərzağın miqdarı artırılır və xüsusi hazırlanan bu

yeməklə əsgərlərdə bayram əhval-ruhiyyəsinin yaradılmasına səy göstərilirdi.

Bununla belə, Hərbi nazir S.Mehmandarov qoşunların ərzaq təminatına son dərəcə tələbkarlıqla yanaşırdı və bu sahəyə məsul olanların bir an da olsa öz vəzifə borclarına laqeydlik göstərmələri ilə barışa bilmirdi. Onun fikrincə, bu sahədə mövcud olan bəzi nöqsanlar təchizat orqanlarının öz fəaliyyətlərini zamanın tələbinə uyğun qura bilməməsindən irəli gəlirdi. Bununla bağlı Hərbi nazir 1920-ci il fevralın 14-də son dərəcə sərt bir əmr imzaladı və həmin əmrdən bir müddət sonra Nazirliyin təchizat orqanlarında ciddi struktur dəyişikliyi aparıldı və daha mükəmməl bir sistem yaradıldı. Nazirin imzaladığı həmin əmrdə deyilirdi: Ordunun hissələrinin, idarələrinin və müəssisələrinin çoxunun təşkilindən artıq bir ildən çox vaxt keçmişdir. Bu müddət qoşun hissələrində xidmətin düzgün təşkili üçün tamamilə kifayət idi. Təəssüf ki, əməldə mən bunu görmürəm. Son zamanlar üzə çıxarılan çoxlu çatışmazlıqlar göstərir ki, ordunun mövcudluğu üçün onun zəruri əşyalarla təchizatı son dərəcə pis qurulmuşdur və buna məsul olan Ləvazimat idarəsi heç də yüksək səviyyədə deyil.

Ordu məmurlarının saxlanılması üçün kifayət qədər vəsait buraxılır və onun bacarıqla istifadə ediləcəyi təqdirdə qoşun hissələri zəruri əşyalara ehtiyac duymamalı idi. Bununla belə, mən tez-tez eşitməli oluram ki, qoşun hissələrində əsgərlərin vaxtlı-vaxtında çay, şəkər, çörək, maaş, və ağ almadığı müşahidə olunur. Geyim əşyaları da həmçinin.

Bu yolverilməz hadisənin səbəblərini araşdırarkən mən belə qənaətə gəlirəm ki, bütün bunlar başlıca olaraq Ləvazimat idarəsinin daxil olan və göndərilən sənədlərin işləməsi ilə məşğul olan bir quruma çevrilməsi ilə bağlıdır. İdarə qoşun hissələrində həqiqi vəziyyətlə maraqlanmır və buna görə də onun çatışmazlıqlarını bilmir. Ordu təchizinin bu və ya digər məsələləri ilə bağlı nə edilməsi haqqında mənim tələblərimə həmişə cavab verilir ki, tapşırıq icra edilmişdir. Həqiqətdə isə sonradan məlum olur ki, tapşırıq yalnız kağız üzərində icra edilmişdir. Yəni Ləvazimat idarəsindən daha bir sənəd işlənib göndərilmişdir. Belə qayda yolverilməzdir.

Ləvazimat idarəsi rəisindən qətiyyətlə tələb edirəm ki, mənim tələblərim kağız üzərində qalmasın və onların əməli olaraq həyata keçirilməsi barədə qərarlar qəbul etsin.

Mən tez-tez qoşun hissələri komandirlərindən teleqram alıram ki, qənd və çay, bəzənsə un tamamilə yoxdur, əsgərlər yeməksiz qalmışdır. Onda sual ortaya çıxır – Bəs diviziyaların təchizatçıları nə işlə məşğul olur? Əgər Ləvazimat idarəsi diviziyaların ehtiyaclarını ödəməyə müvəffəq olmamışlarsa və ya buna imkan olmamışsa nə üçün onlar öz tərəflərindən vaxtında zəruri tədbirləri görməmişlər? Belə vəziyyət yolverilməzdir!

Diviziya təchizatçılarına əmr edirəm ki, öz fəaliyyyətlərini kağız üzərində deyil, əməldə göstərsinlər. Tələb edirəm ki, onlar diviziya hissələrində tez-tez olsunlar, onların ehtiyaclarını öyrənsinlər və diviziya hissələrinin zəruri ehtiyaclarının vaxtında ödənməsi üçün tədbirlər görsünlər. Bunun üçün hər diviziya təchizatçısı hər an dəqiqliklə bilməlidir ki, bu və ya digər hissədə nə var, onu nə ilə təchiz etmək lazımdır. O həm də bilməlidir ki, hissənin yerləşdiyi ərazidə hansı ərzağı və ya əşyanı hansı qiymətə tədarük etmək mümkündür. Eyni zamanda, diviziya təchizatçıları Ləvazimat idarəsinə çatışmayan ərzaq barədə vaxtında məlumat verməlidir ki, ehtiyatlar sona çatmamış onu bərpa etmək mümkün olsun. Hər halda hər bir hissədə daimi ehtiyat və yem ən azı birhəftəlik olmalıdır.

Həmin həftəlik ehtiyatın işlədilməsinə başlanması vaxtı çatanda Ləvazimat idarəsindən yeni ehtiyatlar daxil olmasa, diviziya təchizatçıları teleqramla Ləvazimat idarəsinin rəisinə və mənə məruzə edilməsi üçün Ümumi qərargah rəisinə xəbər verməlidir ki, zəruri ehtiyatlar bərpa edilsin və ya onların yerindəcə satın alınması üçün icazə əldə edilsin.

Diviziya təchizatçıları qoşun hissələrində olarkən, həm də maliyyə və əşya təminatının bütün hesabatının aparılmasını yoxlamalı və yerindəcə səhvlərin düzəldilməsi üçün göstərişlər verməlidirlər.

Hissələrin təminatı ilə bağlı məsələlərin düzgün həlli üçün diviziya təchizatçıları diviziya komandirlərinin razılığı ilə vaxtaşırı hissələrin təsərrüfat rəisləri ilə iclaslar keçirməli və orada meydana çıxan təsərrüfat məsələlərini birlikdə müzakirə etməlidirlər.

Diviziya komandirlərindən və Ləvazimat idarəsi rəisindən tələb edirəm ki, diviziya təchizatçılarının fəaliyyətinə diqqət yetirsinlər və burada göstərilən tələblərimin həyata keçirilməsini nəzarət altında saxlasınlar. Yoxsa onların fəaliyyətləri məni məcbur edəcək ki, diviziya təchizatçıları ştatını ləğv edim. Onda Ləvazimat idarəsinin rəisi birbaşa hissə komandirləri ilə işləməli olacaq» (116). Nazirin fikrincə, ordu məmurlarının saxlanılması üçün kifayət qədər vəsait buraxılırdı və həmin vəsaitdən düzgün və səmərəli istifadə ediləcəyi təqdirdə qoşun hissələri zəruri əşyalara ehtiyac duymamalı idi. Əslində isə belə deyildi və vaxtaşırı olaraq nazirə bu və ya digər hissədən çay, şəkər, çörək, geyim əşyaları və s. sahədə gərginlik yaranmsı barədə məlumatlar gəlirdi. Bu vəziyyətin mövcudluğunu araşdırarkən nazir belə bir qənaətə gəlirdi ki, Ləvazimat idarəsi təchizat idarəsi olmaqdan daha çox sənədlərlə işləyən bir quruma çevrilmişdir. Ona görə də bu strukturun mənsubları real vəziyyətlə maraqlanmır və əməli işlər görmürdülər. Nazir öz əmrində də qeyd edirdi ki, «bu vəziyyət yolverilməzdir». Onun sözlərinə görə əgər hissələrdə bu və ya digər ərzaq məhsulu çatışmırdısa, deməli, təchizat mənsubları lazımi işlə məşğul olmurdular.

Nazir diviziya təchizatçılarına əmr edirdi ki, öz fəaliyyətlərini kağız üzərində deyil, praktiki olaraq qursunlar, tez-tez diviziyaların hissələrinə yollansınlar, onların ehtiyaclarını öyrənsinlər və diviziya hissələrinin zəruri ehtiyaclarının vaxtında ödənməsi üçün tədbirlər görsünlər. «Bunun üçün hər diviziya təchizatçısı hər an dəqiqliklə bilməlidir ki, bu və digər hissədə nə var, onu nə ilə təchiz etmək lazımdır. O həm də bilməlidir ki, hissənin yerləşdiyi ərazidə hansı ərzağı və ya əşyanı hansı qiymətə tədarük etmək mümkündür. Eyni zamanda, diviziya təchizatçıları Ləvazimat idarəsinə çatışmayan ərzaq barədə vaxtında məlumat verməlidirlər ki, ehtiyatlar sona çatmamış onu bərpa etmək mümkün olsun» (117).

Hərbi nazir bu tələbləri bütün təchizat sahələrinin mənsublarına qarşı irəli sürürdü. Çünki konkret tarixi şəraitdə belə tələbkarlıq və məsuliyyətlə qarşıya qoyulmuş vəzifələrin öhdəsindən gəlmək olardı.

Azərbaycan Ordusunun formalaşdırılmasına başlayandan bəri Hərbi Nazirliyin rəhbərliyinin qarşısında dayanan həlli vacib problemlərdən biri də şəxsi heyətin əsgəri geyimlə təmin edilməsi idi. Hərbi nazir S.Mehmandarov etiraf edirdi ki, bu məsələ də bütün ağırlığı ilə qarşımızda dayanır. Hərbi Nazirliyin bərpasından sonra yaxınlaşan qış ərəfəsində şəxsi heyətin isti paltarı, şineli, gödəkcəsi, demək olar ki, yox idi. Mövcud olan paltar ehtiyatı da sayı artmaqda olan ordunun ehtiyaclarını ödəməyə qabil deyildi. Hərbi nazir özü bu vəziyyəti belə qiymətləndirirdi: «Qarşımda dayanmış vəzifələrin ağırlığı xüsusilə onda idi ki, mən paltar, ayaqqabı, heç nə almamışdım. Bir sözlə, mən ilk növbədə təşkilati işlərlə məşğul olmalı oldum, maddi vəziyyəti yaxşılaşdırmaq, hamını geyindirmək, yatacaq əşyaları ilə təmin etmək lazım idi» (118).

Hissələrdə olan keyfiyyətsiz geyim ehtiyatları uzunmüddətli istifadəyə davam gətirmirdi. Bir tərəfdən də davam edən fərarilik və xidmətdən qaçan əsgərlərin hərbi geyimlərini özləri ilə aparmaları pal-paltara olan ehtiyacı daha da artırırdı. Hissəyə gələn çağırışçıların bəziləri paltarı alan kimi dərhal qaçır və ona verilmiş paltarı da özü ilə aparırdı (119).

1918-ci ilin sonlarında geyim baxımından hissələrin bir çoxu acınacaqlı vəziyyətdə idi və bunu hissələrin vəziyyəti ilə tanış olan hökumət nümayəndələri də gizlətmirdilər. Məsələn, Ağdamda yerləşən hissələrin kiçik çinli hərbçilərinin çox azının xidməti paltarı var idi. Çoxları isə cır-cındıra bürünmüşdü. Belə paltar nəinki geyim formasının tələblərinə cavab vermir, heç onu geyinənləri soyuqdan belə qoruya bilmirdi. Qazax piyada alayının *(sonralar 3-cü Gəncə piyada alayı adlandırıldı – M.S.)* Ağdamda olan bir bölüyünün əsgərləri xidməti şinel əvəzinə evlərindən gətirdikləri cırıq adyallara bürünürdülər. Bir çoxlarının heç buna da imkanı yox idi. Çoxları əllərinə keçən cırıq çuval və kisələrlə soyuqdan qorunurdu. Ayaqqabısı olmadığından sırada ayaqyalın dayananlar da var idi (120). Ordunun formalaşmasının ilk aylarından belə çətinlik bir çox hissələr üçün xarakterik idi. 1918-ci ilin noyabrında 2-ci Qarabağ süvari alayının komandiri hissə daxili əmrində 3-cü bölükdə şəxsi heyətin geyiminin vəziyyətindən razı qalmadığını bildirirdi (121).

Hərbi nazir S.Mehmandarov 5-ci dağ-topçu batareyasında olarkən əsgərlərin çoxunun pal-paltarının olmadığı barədə məlumat almışdı (122). Qarabağda olan hissələrdə 1919-cu ilin əvvəllərində pal-paltarla təminat elə böhranlı bir hal almışdı ki, Qarabağ general-qubernatoru Hərbi Nazirlikdən müəyyən müddət ərzində çağırışın dayandırılmasını xahiş etmişdi. Çünki xidmətə çağırılanların paltarla təmin edilməməsi onların valideynləri arasında da ciddi narazılıqlara səbəb olurdu. Ümumi qərargah rəisi H.Səlimov Qarabağ general-qubernatoruna verdiyi cavabında bildirirdi ki, deyilənlər doğru olsa da, çağırışı dayandırmaq olmaz. Çağırışın dayandırılması qoşun hissələrinin formalaşdırılmasına əks-təsir göstərə bilər. Məsələnin həlli yoluna gəlincə isə qərargah rəisi yazırdı ki, bu sahədə lazım olan tədbirlər həyata keçirilməkdədir (123).

Doğrudur, hissələrin heç də hamısında vəziyyət böhranlı hal almamışdı. Məsələn, hələ 1918-ci il dekabrın 2-də Hərbi nazir S.Mehmandarov 2-ci Qarabağ süvari alayına gələndə şahid olmuşdu ki, bölmələrin çoxunun şəxsi heyəti isti paltara malikdir. Əsgərlərin gödəkcəsi, papağı, pambıq şalvarı vardır. Onların müəyyən hissəsi çəkmə geyinmişdi (124). Bununla belə, ümumordu miqyasında vəziyyət xeyli mürəkkəb idi. Mövcud olan gərginliyin aradan qaldırılması üçün S.Mehmandarov dərhal Gürcüstanın Hərbi nazirinə məktub yazıb kömək göstərilməsini xahiş etdi. Nazir bildirirdi ki, Gürcüstanda hərbi paltar çoxdur və Gürcüstan Hərbi Nazirliyinin bu paltarı satmaq imkanı da vardır. Lakin bəslənilən ümid özünü doğrultmadı və Gürcüstandan müsbət cavab alınmadı (125). Ona görə də daxili imkanların səfərbərliyə alınması üçün tədbirlər görüldü. Əvvəlcə, şəxsi heyətin paltarla təminat norması müəyyənləşdirildi. Hərbi nazirin 1 yanvar 1919-cu il tarixli 1 nömrəli əmri ilə hər bir əsgərə 1 ədəd papaq, 2 ədəd köynək, 2 ədəd alt paltarı, 2 ədəd əl-üz dəstmalı, 2 ədəd corab və ya ayaqdalağı verilməsi qərarlaşdırıldı (126). Bütünlükdə isə əsgərlərin geyim normasına aşağıdakı əşyalar daxil idi: köynək, papaq, yun corab, yun əlcək, mahud gödəkcə, mahud şalvar, mahud yay şalvarı, mahud yay gödəkcəsi, şinel, tulup, çəkmə, qurşaq kəməri, silah kəməri, patronqabı, asma çanta, ehtiyat patron çantası, əşya kisəsi və s. (127).

1919-cu ilin əvvəllərində Nazirliyin az miqdarda geyim ehtiyatı var idi. Hərbi Nazirlik üzrə 1 yanvar 1919-cu il tarixli əmrdə həmin məhdud ehtiyatın aşağıdakı şəkildə paylanması barədə göstəriş verilmişdi. Mövcud olan 500 ədəd ləzgi şalı iki süvari alayı arasında bərabər sayda bölünməli idi. Şinel, mahud köynək və isti şalvarların piyada və topçu hissələrinə, şəxsi heyətin kəmiyyətinə müvafiq olaraq bölünməsi lazım bilinirdi. Şinelin olmaması və mahud köynəyin çatışmaması üzündən mövcud olan gödəkcələr də paylanmalı idi. Ayaqqabı ehtiyatı isə demək olar ki, yox idi. Nazirliyin anbarında olan azacıq dəri və ayaqqabı altlıqları Hərbi nazirin əmri ilə ayaqqabı və ya çarıq tikilməsi üçün əsgərlərə paylanmalı idi (128). Eyni zamanda, hissə komandirinə səlahiyyət verilirdi ki, anbarlarda mövcud olan xammaldan paltar hazırlamaq üçün mütəxəssislərə sifariş versin və iş haqqını hissənin maliyyə vəsaitlərindən ödəsin (129). Sifarişlər icra olunduqdan sonra maliyyə məsrəfi aktlaşdırılmalı və Nazirliyə təqdim edilməli idi. Müvəqqəti hal kimi çağırışçıların özlərinin geyimlərindən də istifadə edilməsinə icazə verilirdi. Şəxsi geyimlərin xidmətdə istifadə edilməsi ilə bağlı nazirin əmri ilə xüsusi komissiya yaradıldı və bu komissiya çağırışçıların xidmətə yararlı olan geyim əşyalarının əvəzində onlara pul ödənci verilməsi barədə qərar qəbul etdi. Şəxsi əşyalar iki növə bölünürdü: təzə əşyalar və istifadə edilmiş əşyalar. Bu növlərin hər birinin öz qiyməti var idi. Mahud şinelin təzəsi üçün qiymət – 100 rubl, işlədilmişi üçün – 24 rubl, ləzgi mahudundan olan şalvarın təzəsi üçün – 35 rubl, işlədilmişi üçün – 20 rubl, mahud şalvarın təzəsi üçün – 35 rubl, işlədilmişi üçün – 20 rubl, mahud gimnastyorkanın təzəsi üçün – 40 rubl, işlədilmişi üçün – 24 rubl (130) və nəhayət, çəkmənin təzəsi üçün – 150 rubl, işlədilmişi üçün – 100 rubl müəyyən edilmişdi (131).

Ordunun pal-paltarla təmin edilməsi üçün sahibkarlar da bu işə cəlb edildi. Bakıda və digər bölgələrdə fəaliyyət göstərən uyğun müəssisələrdə hərbi sifarişlərin icrasının imkanları öyrənildi. Bir çox sahibkarlar ordu üçün lazım olan paltarın tikilməsinə hazır olduqlarını bildirsələr də, onların xammalı yox idi. Bunun üçün də onlar Hərbi Nazirlikdən «ağ» parça verilməsini tələb edirdilər.

Nazirliyin ixtiyarında isə belə parça yox idi. Eyni zamanda, belə parçaların ölkə daxilində əldə edilməsi də mümkün deyildi (132).

Hərbi nazir S.Mehmandarov Parlamentdəki çıxışında göstərirdi ki, Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi Cəfərovla əlaqə saxlayıb Gürcüstanın sənaye müəssisələrində bu məsələnin həllinin mümkünlüyünün öyrənilməsini xahiş edib. Nazir respublikanın daxilində də bu problemin həlli ilə bağlı imkanların aranmasını şəxsi nəzarəti altında saxlayırdı. O, Nuxada olarkən şəhər başçısı Adilxanovla, şəhər məclisinin nümayəndələri ilə görüşmüş, Nuxadakı müəssisələrin istehsalı ilə yaxından maraqlanmış və nəticədə ayaqqabıya olan ehtiyacın qismən aradan qaldırılması üçün mövcud olan yerli imkanlardan istifadə edilməsi qərara alınmışdı. Nazirin bildirdiyinə görə o, burada çarıq əldə edə bilmişdi ki, ayaqqabı və çəkmə yerinə müvəqqəti onlardan istifadə etmək mümkün idi (133).

Şuşada olarkən nazir burada hərbi geyimin tikilməsi üçün tamamilə yararlı olan parça görmüş və onun alınması üçün müqavilə bağlamışdı. Nazir xüsusi razılıqla qeyd edirdi ki, mundir geyimləri üçün də Şuşada yaxşı möhkəm material əldə edilmiş və onun alınması üçün müqavilə bağlanmışdı (134).

Mövcud olan çətinliklərin aradan qaldırılması üçün əl atılan vasitələr çox vaxt özünü doğrultmur, tədarük olunan əşyalar heç də həmişə öz keyfiyyəti ilə fərqlənmirdi. Hərbi geyimlər nazirin qeyd etdiyi kimi, ağ parçadan tikilir və sonra süni yolla rənglənirdi. Belə parçalar çox davamsız olurdu və bir neçə aydan sonra sıradan çıxırdı. Möhkəm olmayan parçadan tikilmiş şalvarlar da az vaxtdan sonra yararsız hala düşürdü. Məcburiyyət üzündən istifadə edilən çarıqlar da istifadədə xeyli çətinliklər yaradırdı. Əvvəlcə, çarığın yağmurlu havada geyinilməsi onun tezliklə xarab olmasına və əsgərlərin soyuqlamasına səbəb olurdu. Digər tərəfdən, elə quru şəraitdə də çarıqdan istifadə müddəti elə də uzun olmurdu. Yaxşı halda 3–4 həftədən sonra çarıqlar yararlılığını itirirdi. Eyni zamanda, çarıqların patavalarının bağlanması xeyli vaxt aparır və bununla da əsgərlər üçün müəyyən narahatçılıq yaradırdı (135).

Hərbi nazir vəziyyətdən çıxmaq üçün hissələrin ətrafında olan yaşayış məntəqələrindən xidmət üçün münasib olan paltarların

alınmasına da icazə verirdi. Bunun üçün o əmr edirdi ki, müvafiq komissiya yaradılsın və əhalidən paltar alınması həmin komissiyaya tapşırılsın (136).

Ordunun geyim ehtiyatının təkmilləşdirilməsi üçün müsadirə olunmuş əmlakdan da istifadə edilirdi. Dövlət orqanlarının qəbul etdiyi qərara görə liman anbarlarında mövcud olan əmlakın bir hissəsi müsadirə edilmişdi. Həmin anbarlara 1918-ci il sentyabrın 15-də gətirilmiş olan əmlak tamamilə müsadirə edilib Hərbi Nazirliyin sərəncamına verilmişdi. Bu əmlak, əsasən, bolşevik hakimiyyəti dövründə gətirilmiş və hərbi məqsədlər üçün ehtiyat yığılmışdı. Orada mövcud olan digər əşyalardan istifadə isə qəbul edilmiş qərar əsasında tənzimlənirdi. (137).

Hərbi Nazirliyin rəhbərliyi mövcud olan pal-paltar ehtiyatından qənaətlə işlədilməsinə də xüsusi diqqət yetirirdi. Xüsusən geyim əşyalarının oğurlanmasının qarşısının alınması üçün Hərbi nazir ən qəti tədbirlərin görülməsini tələb edirdi. Bununla bağlı hələ 1918-ci il dekabrın 8-də imzaladığı 5 nömrəli əmrində o, paltarların oğurlanması kimi şərəfsiz əməllərdə Azərbaycan zabitlərinin adlarının hallanmasını çox böyük təəssüf hissi ilə qeyd edirdi. Nazir belə halların baş verməsində hissələrin komandirlərini də günahkar bilir və hər hansı hissədə paltar oğurluğunun davam edəcəyi təqdirdə həmin hissələrin komandirlərinin də məsuliyyətə cəlb ediləcəyini vurğulayırdı (138). Bundan başqa, Ləvazimat idarəsinin rəisi 1919-cu ilin fevral ayında bütün hissə komandirlərindən tələb edirdi ki, paltar qıtlığını nəzərə alaraq əsgərlər üçün nəzərdə tutulmuş geyim əşyalarını zabitlərə, mülki şəxslərə paylamasınlar. Çünki bunun nəticəsində mahud geyim ehtiyatı da məsrəf olunur və xidmətə yeni cəlb edilən əsgərlər paltarsız qalırdı (139).

Geyimə olan ehtiyacın ödənilməsi, xüsusilə qoşunların ayaq geyimləri ilə təchiz edilməsi üçün Hərbi Nazirliyin tərkibində Dəri zavodunun açılması məsələsi qaldırıldı və 1919-cu ilin sonlarında Hərbi Şura bu təklifi müdafiə edib Dəri zavodunun açılması, onun lazımi istehsal vasitələri ilə təchiz olunması üçün qərar qəbul etdi (140).

Qoşun hissələri formalaşdıqca onların tərkibində paltar emalatxanaları açılırdı. Hələ 1919-cu ilin əvvəllərində Hərbi nazir əmr-

lərinin birində tələb edirdi ki, Ləvazimat idarəsinin paltar emalatxanasında qısa müddət ərzində lazım olan miqdarda paltarın hazırlanması mümkün olmadığı üçün hissələrin özündə hissə komandirlərinin nəzarəti altında paltarların tikilməsinə başlansın. Bunun üçün dərzilərin işə götürülməsinə də icazə verilirdi.

Dərzilərin görməli olacaqları işin maliyyə tərəfi də müəyyən edilmişdi. Bir gimnastyorkanın tikilişi üçün dərzi 7,5 rubl, bir şalvar üçün 7,5 rubl, bir alt köynəyi və bir alt şalvarının hər biri üçün 3,5 rubl ala bilərdi. Lazım olan paltarların tikişi üçün zəruri olan parça və astar Ləvazimat idarəsindən alınmalı idi. Görülən işlər barədə hissə komandirləri həftədə iki dəfə Ləvazimat idarəsinə məlumat verməli idi. Hissədə hazırlanan əşyalar xüsusi komissiyanın nəzarəti altında şəxsi heyətə paylana bilərdi (141).

Nazir hissələrdə yalnız paltar emalatxanalarının deyil, əşya hazırlanması üzrə digər emalatxanaların da açılmasını və onların işinin səmərəli şəkildə qurulmasını tələb edirdi. Buna uyğun olaraq 1-ci piyada diviziyasının komandiri də əmrlərinin birində əşya təchizatına olan ehtiyacın tezliklə aradan qaldırılması üçün hissələrdə çəkmə, paltar, habelə nəccar, dəmirçi və s. emalatxanaların tezliklə açılmasını tələb edirdi. Bu emalatxanaların işinin qurulması üçün Hərbi nazirin əmrinə müvafiq olaraq kənardan mütəxəssislərin işə götürülməsinə də icazə verilirdi (142).

Amma, görünür, hərbi hissələrin heç də hamısında bu emalatxanalar vaxtında açılmamış, açılanlar isə öz fəaliyyətlərini lazımi səviyyədə qurmamışdılar. Çünki Hərbi nazir hərbi hissələrdə apardığı müşahidələrdən sonra belə bir qənaətə gəlmiş və bununla bağlı xüsusi bir əmr də imzalamışdı. Həmin əmrində Hərbi nazir bildirirdi ki, hissələrə çoxlu miqdarda geyim əşyalarının buraxılmasına baxmayaraq, hərbi qulluqçuların çoxu cırılmış və üzülmüş paltarlarda gəzirlər. Bunu nazir hissələrdə adıçəkilən emalatxanaların açılmaması ilə bağlayırdı və hissə komandirlərindən bir daha tələb edirdi ki, dərhal bu emalatxanaların açılmasına nail olsunlar (143).

Bununla belə, emalatxanalar hissələrin özlərini geyim əşyaları ilə təmin etmək iqtidarında deyildi və zəruri olan geyim əşyalarının çoxu əsasən kənardan alınırdı ki, bu da Ləvazimat idarəsinin rəhbəriyi altında həyata keçirilirdi. Sahibkarlardan geyim əşya-

larının alınması da çox vaxt müsabiqə yolu ilə keçirilir və bu müsabiqənin şərtləri əvvəlcə, adətən, Hərbi Şurada müzakirə edilirdi. Məsələn, Hərbi Şuranın 24 noyabr 1919-cu il tarixli iclasında Kadişşevin çəkmə emalatxanasının təklif etdiyi başmaqlar çarıqdan daha davamlı və eyni zamada, ucuz başa gəldiyi üçün onların alınması məqsədəuyğun bilinmişdi (144). Hərbi Şuranın 1919-cu il dekabr ayındakı iclası çarıq alınması üçün keçirilmiş sövdələşməni ləğv etmiş, çust üçün keçirilmiş sövdələşməni isə daha məqsədəuyğun bilərək təsdiq etmişdi (145). Yenə Hərbi Şura özünün başqa bir iclasında qoşunlarda böyük ehtiyac duyulan səfər çantalarının hər biri 815 rubl olmaqla 18 min ədəd alınmasını qeyri-məqsədəuyğun saymışdı (146).

Hərbi Şuranın 1920-ci il fevralın 15-də keçirilmiş iclası da xüsusi olaraq qoşunların əşya təminatına həsr edilmişdi. İclasa S.Mehmandarov sədrlik edirdi və onun gedişində Əhməd bəy Delibazovun və A.Babacanovun geyim əşyalarının hazırlanması üçün irəli sürdükləri şərtlər müzakirə olunmuşdu. Adıçəkilən şəxslər Hərbi Nazirlik üçün lazım olan geyim əşyalarının tikilməsini və hazırlanmasını münasib qiymətlərlə öz üzərlərinə götürməyə hazır olduqlarını bildirmişdilər. Onların rəhbərlik etdiyi emalatxanalarda paltarların biçilməsi üçün xüsusi maşınlar mövcud idi. Bu imkan verirdi ki, tikiləcək paltarlar eyni cür olsun və hərbi tələblərə cavab versin. Hərbi Şuranın qərarında adı çəkilən sahibkarların təklifləri ümumən qəbul edilməklə bildirilirdi ki, paltarların biçilməsi bütünlüklə Ləvazimat idarəsinin Gəncədəki emalatxanasında, xüsusi hərbi komissiyanın nəzarəti altında aparılmalıdır. Paltarların tikilişi də Hərbi Nazirliyin emalatxanalarında aparılmalı idi. Zərurət yarandığı halda dərzilər parçanı özləri ilə aparıb axşamlar evdə də işləyə bilərdilər. Bu zaman sahibkarlar məsuliyyəti öz üzərlərinə götürməli idilər. Tikiliş işlərinin sürətləndirilməsi üçün Delibazova 50 nəfər əsgər də verilməli idi. Həmin əsgərlər işin icrasına kömək etməklə bərabər, özləri də dərzilik peşəsinə yiyələnməli idilər (147).

Görülən işlərin nəticəsində artıq 1919-cu ilin ikinci yarısından ordunun geyim təchizatı yaxşılaşmağa başlamışdı. Məsələn, Zaqataladakı Əlahiddə taborda (sonra alaya çevrildi) şəxsi heyətin

geyim vəziyyəti heç bir narahatlıq doğurmurdu. Nazirliyin qayğısı və tabor komandiri Dibirovun təşəbbüskarlığı, işgüzarlığı bu sahədə olan gərginliyi aradan qaldırmağa imkan vermişdi (148).

1919-cu ilin iyun ayında 2-ci Qarabağ süvari alayını, 1-ci Cavanşir piyada alayını, bu alayın Şuşada yerləşən 1-ci taborunu, 2-ci dağ-topçu divizionunu yoxlayan Nazirliyin komissiyası öz hesabatında bu hissələrin pal-paltarla təminatında ciddi narahatlıq doğuracaq bir irad göstərməmişdi (149).

Cavanşir piyada alayında bütün əsgərlər yay köynəkləri, şalvarları, çarıxları ilə, iki cüt corabla, papaqla təmin edilmişdilər. Əsgərlərin 70 faizinin ikinci gimnastyorkası, 50 faizinin isə ikinci şalvarı var idi. Bundan başqa, alayda ağ tikilməsi üçün 30 min arşın bəyaz, habelə 2823 ədəd dəsmal, 138 ədəd balışüzü, 103 ədəd alt balışüzü, 944 ədəd ayaqdolağı, 400 ədəd triko şalvar, 303 ədəd papaq, 439 ədəd silah qayışı və digər əşyalar var idi (150).

Azərbaycan hökumətinin göstərdiyi qayğı nəticəsində Hərbi Nazirlik qoşunların paltar təminatında böyük dəyişikliklər yaratmaq üçün real imkanlar əldə etmişdi. 1919-cu il dekabrın 27-də öz növbəti iclasını keçirən Hərbi Şura əldə edilmiş imkanlardan istifadə edərək ordunun növbəti ildə paltar təminatını xeyli yaxşılaşdırmaq məsələsini müzakirə etdi. Burada qərara alındı ki, 1920-ci il üçün 25 min əsgərə 5 min ədəd də ehtiyat olmaq şərti ilə cəmi 30 min dəst alt paltarı və yatacaq əşyaları hazırlanması üçün əməli tədbirlər görülsün. Sifariş verilməsi və yerlərdə hazırlanması nəzərdə tutulan əşyalar aşağıdakılar idi: adambaşına köynək – 2 ədəd, alt şalvarı – 2 ədəd, əl dəsmalı – 2 ədəd, əl-üz dəsmalı – 2 ədəd, alt balışüzü – 1 ədəd, döşəkağı – 2 ədəd, ayaqdolağı – 3 ədəd, döşəküzü – 1 ədəd, balışüzü – 2 ədəd, adyal – 1 ədəd, bəyaz gimnastyorka – 2 ədəd, bəyaz şalvar – 2 ədəd. Bütün bu əşyaların tikilməsi üçü 2 milyon 40 min arşın parça lazım idi. Paltarın bir hissəsini hissələrin emalatxanasında hazırlamaq, bir hissəsini də sövdələşmə yolu ilə əldə etmək planlaşdırılırdı (151).

Qoşun hissələri üçün zəruri olan pal-paltarın əldə edilməsi üçün Hərbi Nazirlik İtaliya hökuməti ilə, İtaliyanın sənaye kampaniyaları ilə danışıqlar aparmaq qərarına gəldi. Bunun üçün xüsusi komissiya təşkil edildi. Komissiyaya 2-ci piyada divizi-

yasının komandiri general Usubov rəhbərlik edirdi. Komissiyanın tərkibində Ləvazimat idarəsnin, habelə Yollar Nazirliyinin nümayəndələri də var idi. S.Mehmandarov general Usubova tapşırmışdı ki, o, İtaliyanın Soloniki şəhərinə yollanıb Azərbaycan Ordusuna zəruri olan topçu, istehkam, tibb, geyim və s. ləvazimatın əldə edilməsi üçün danışıqlar aparsın. Ancaq nazir ilk növbədə pal-paltarın alınmasını və digər işlərin görülüb qurtarmasını gözləmədən dərhal Batuma yola salınmasının zəruriliyini vurğulayırdı. Hərbi pal-paltarın 25 min komplekt alınması planlaşdırılırdı. Onların da çoxu isti paltarlar və yarımçəkmələr olmalı idi (152).

General Usubovun rəhbərlik etdiyi komissiya 1919-cu il oktyabr ayında Batumdan gəmi ilə İtaliyanın Soloniki şəhərinə gəldi. O, ingilis qoşunlarının vaxtilə burada yerləşmiş olan böyük paltar anbarları ilə əlaqə saxladı və onlardan paltar almağın mümkünlüyü ilə maraqlandı. Məlum oldu ki, Antanta komandanlığı buradakı paltar ehtiyatlarını rumın, çex və polyak qüvvələrinə paylayıbdır. Həmin qüvvələrin əlində olan paltar ehtiyatları isə az miqdarda olduğundan general Usubov və rəhbərlik etdiyi komissiya oktyabrın 20-də Romaya gəldi, İtaliyanın Müdafiə Nazirliyi ilə əlaqə saxlandı və zəruri olan əşyaların siyahısı Nazirliyə təqdim olundu. Azərbaycandan olan komissiya ona tapşırılan vəzifəni həll etmək üçün Genuya və Turindəki müvafiq kampaniyalarla əlaqə saxladı. İtaliyanın Müdafiə Nazirliyi Azərbaycandan olan komissiyanın xahişinə müsbət cavab vermədi və Azərbaycana hərbi geyim satmaqdan imtina etdi. Belə olanda komissiya yenidən şəxsi kampaniyalarla danışıqlar aparmağa başladı. Noyabrın 10-dan sonra Genuya, Milan, Turin, Verona və Triento şəhərlərinin kampaniyaları ilə əlaqə saxlandı. Ancaq bu şəhərlərdə də lazım olan əşyaları əldə etmək mümkün olmadı. Yalnız Kiono, Qella və Ko yoldaşlığı ilə aparılan danışıqlar ümidverici nəticələr verdi. Bu kampaniyanın anbarlarında 25 min dəst münasib paltar var idi. Komissiya həmin paltardan 20 min dəst seçib götürdü. Ancaq kampaniyanın rəbərliyi söz verdi ki, bir neçə gün ərzində qalan paltarları da tikib hazır edə bilər. Kampaniya, eyni zamanda, generallar və zabitlər üçün də 500 dəst paltar hazırlamağa söz verdi. Noyabrın 23-də Azərbaycandan olan komissiya ilə İtaliya kam-

paniyası arasında müqavilə imzalandı. Müqavilədə 25 min dəst paltarın satılması nəzərdə tutulurdu. Müqaviləni Azərbaycan tərəfindən general-mayor İbrahim ağa Usubov və məmur Xanbudaqov imzaladılar. Müqaviləyə görə 1919-cu il dekabrın 20-də kompaniya nəzərdə tutulmuş əşyaları gəmilərlə Turindən Bakıya yola salmalı idi. Ancaq bu mümkün olmadı. Adıçəkilən kampaniyada sosialistlər güclü təsirə malik idilər. Onlar keçmiş çar Rusiyasının bütün ərazisini Sovet Rusiyasının ərazisi bilir və müstəqilliyini elan etmiş respublikaları Sovet Rusiyasının düşməni hesab edirdilər. Sosialistlərin təsiri altında olan fəhlələr kampaniyanın rəhbərliyindən tələb edirdilər ki, Sovet Rusiyasının daxili işinə qarışmasın və Sovet Rusiyasının düşmənlərinə kömək etməsin. Bu vəziyyətin nəticəsi kimi Azərbaycana göndərilməsi nəzərdə tutulan yüklər fəhlələr tərəfindən həbs edildi (153).

Buna görə də Azərbaycandan olan komissiya danışıqları dayandırıb geri qayıtdı və 1920-ci ilin fevralında Bakıya çatdı (154).

Sonradan müqavilə ilə nəzərdə tutulan əşyalar nəhayət ki, Bakıya gətirildi. Ancaq bu əşyalar Azərbaycanın işğalı ərəfəsində çatdırıldığından Qırmızı Ordunun sərəncamına keçdi (155).

1920-ci il martın 15-də orduya növbəti çağırış kampaniyasının başlanması nəzərdə tutulmuşdu. Yeni çağırılan gənclərin hissələrdə qarşılanmasına hazırlıq işləri ilə bağlı Hərbi nazirin 25 fevral 1920-ci ildə imzaladığı 125 nömrəli əmrdə başqa məsələlər kimi paltarla təminat işinə də ciddi diqqət yetirilirdi. Bu əmrə əsasən hissəyə gələn çağırışçılar dərhal paltarla da təmin edilməli idilər (156). Yəni artıq ordunun imkanları bu sahədəki gərginliyi aradan götürmüşdü.

Əsgərlərdən başqa ordunun zabit heyətinin və həkimlərinin xidməti paltarları da dövlət xəzinəsi hesabına ödənilirdi. Bu məsələnin özü də Hərbi Nazirliyin rəhbərliyinin daimi nəzarəti altında idi və hər hansı bir narahatlıq yarandığı zaman məsələ dərhal dövlət orqanları qarşısında qaldırılırdı. Məsələn, 1920-ci il yanvarın 30-da Hərbi nazir Dövlət Müdafiə Komitəsində çıxış edərək Zəngəzur və Quba dəstələrinin zabitlərinin isti paltarla təchiz edilməsi və bunun üçün maliyyə vəsaiti ayrılmasını xahiş etdi.

Dövlət Müdafiə Komitəsi Hərbi nazirin təklifini dəstəkləyərək lazımi maliyyə vəsaitinin ayrılması barədə qərar qəbul etdi (157).

1920-ci il fevralın 2-də isə Hərbi nazirin məruzəsindən sonra Dövlət Müdafiə Komitəsi Azərbaycan Ordusunun generallarının, qərargah zabitlərinin və baş zabitlərinin, habelə həkimlərinin xidməti geyimlə təchiz edilməsi üçün 23 milyon 950 min rubl pul ayırmaq barədə qərar qəbul etdi. Həmin qərara müvafiq olaraq adları çəkilən kateqoriyalardan olan hər bir şəxsə 25 min rubl xərclənməli idi. Bu pula 1 dəst qış kostyumu, 1 dəst yay kostyumu, 1 ədəd palto, 1 ədəd papaq, 1 cüt ayaqqabı, 3 ədəd alt köynəyi və 2 dəst yatacaq əşyası alınmalı və ya hazırlanmalı idi. Nəzərdə tutulan maliyyə vəsaitinin 20 milyon rublu Hərbi Nazirliyin 1920-ci il smetasına əlavə olaraq ayrılmışdı (158).

Lakin 1920-ci ilin aprel çevrilişi başqa sahələrdə olduğu kimi bu sahədə də nəzərdə tutulan işləri davam etdirməyə imkan vermədi.

### *4. Qoşunların hərbi-texniki təchizatı*

Azərbaycan Ordusunun formalaşmasının və möhkəmlənməsinin vacib istiqamətlərindən biri də qoşun hissələrinin atlarla, süvari təchizatı ilə, silah, sursat və texnika ilə təchiz edilməsi məsələləri idi. Qoşunların döyüş hazırlığının ümumi səviyyəsi, hissələrin döyüşkənliyi həm süvari vasitələrindən, həm də texniki vasitələrdən birbaşa asılı idi. Bunlardan birincisini, əsasən, respublikanın daxili imkanları hesabına təmin etmək mümkün idisə, texniki vasitələr, əsasən, xaricdən idxal edilib ordunun sərəncamına verilə bilərdi. Lakin onların hər ikisinə olan ehtiyacın aradan qaldırılması Hərbi Nazirliyin rəhbərliyindən eyni dərəcədə gərginlik, təşəbbüskarlıq, ardıcıllıq və qətiyyətlilik göstərməsini tələb edirdi. Çünki türk qoşunlarının Azərbaycanı tərk etməsindən sonra bu sahələrdə də vəziyyət heç də ürəkaçan deyildi. Yuxarıda qoşun hissələrindəki atların nə vəziyyətdə olması barədə S.Mehmandarovun Parlamentdəki çıxışı xatırlanmışdı. Hərbi nazirin bu çıxışı hissələrlə əyani tanışlıq zamanı şahidi olduqlarından doğan qənaətə əsaslanırdı. 1918-ci il noyabr ayının 27-də 1-ci Tatar süvari alayında gördüyü atları Hərbi nazir bir dəri və bir sümük

adlandırır, onların yemlənməsinə qayğı göstərilmədiyini bildirirdi. 2-ci Qarabağ süvari alayında saxlanılan atların vəziyyəti də 1-ci süvari alayındakından fərqlənmirdi (159). Halbuki süvari diviziyası hələlik bu iki alaydan ibarət idi və Azərbaycan Ordusunun ən yaxşı at ehtiyatı bu alaylarda cəmlənməli idi. Çevik bir qüvvə kimi nəzərdə tutulan süvari hissələrinin atlarının yararsız halda olması bu qoşun növünün qarşısında dayanan taktiki vəzifələrin həllini də mümkünsüz edirdi.

4-cü və 5-ci dağ-topçu batareyalarının döyüş hazırlığının əsas elementini təşkil edən atların vəziyyəti Hərbi nazirdə narahatlıq və təşviş doğurmuşdu. S.Mehmandarov hərbi hissələrlə bu tanışlıqdan sonra imzaladığı müvafiq əmrində 4-cü dağ-topçu batareyasında, 2-ci Qarabağ süvari alayında mövcud olan silah və texnikanın da çox pis vəziyyətdə olduğunu qeyd edirdi (160).

Bölmə komandirləri sərəncamlarında olan atlara düzgün qulluq göstərmirdilər. Onların nə vaxt nallandığından və ya köhnə nalların nə vaxt dəyişdirilməli olduğundan xəbərdar deyildilər. Süvarilər isə atlara qulluq etmək barədə ən adi məlumata malik deyildilər (161). Bütün bunlar yenidən bərpa edilmiş Hərbi Nazirliyin fəaliyyətinin ilk ayının təəssüratları idi. Lakin mövcud olan çətinliyin qısa vaxt ərzində aradan qaldırılması da mümkünsüz idi. Buna görə ilk aylar Hərbi Nazirliyin rəhbərliyinin fəaliyyəti üçün də daha çox bu və ya digər hissənin özünün imkanlarını səfərbər etmək, mövcud olanların səmərəli istifadəsinə nail olmaq, heç olmasa vəziyyətin daha da mürəkkəbləşməsinə yol verməmək istiqamətində qurulmuşdu.

Azərbaycan Ordusunun hissələrində mövcud olan silahlar, əsasən, çar Rusiyası qoşunlarından miras qalmış, Bakı tutulan zaman əldə edilmiş və türk qoşunlarından qalmış silahlar idi. Onlar da heç də kifayət qədər deyildi. Mövcud olan silahlar hissələrin ehtiyacını ödəməyə çatmırdı. 1919-cu ilin fevralında Qarabağ general-qubernatoru bölgədə sakitlik yaratmaq üçün Hərbi Nazirlikdən azacıq silah və sursat istəyəndə buna mənfi cavab almışdı. Hərbi nazir şəxsən hökumətin sədrinə bildirdi ki, Hərbi Nazirliyin özü hərbi-texniki təchizata böyük ehtiyac duyduğundan Qarabağ general-qubernatoruna silah verə bilməz. Əksinə, nazir hökumətin

sədri qarşısında məsələ qaldırırdı ki, ordu üçün həm atıcı silah, həm də top alınmalıdır. Onun sözlərinə görə birincinin yoxluğu üzündən 2-ci piyada diviziyasının təşkilinin gecikməsi mümkün idi, ikincinin qıtlığı üzündən isə 2-ci dağ-topçu divizionunda topçu batareyasının formalaşdırılması yarımçıq qala bilərdi. Nazir, eyni zamanda, hökumətin sədrindən xahiş edirdi ki, onun Tiflisə getməsi və silah əldə etməsi üçün Gürcüstanın Hərbi Nazirliyi ilə danışıqlar aparmasına icazə versin (162).

Belə bir qıtlıq şəraitində hissələrdə olan atların və silahların saxlanılmasına zəruri diqqətin yetirilməməsi də Hərbi nazirdə böyük narahatlıq doğururdu. 1919-cu il yanvar ayının sonlarında bir neçə hissə və bölmə ilə tanışlıqdan aldığı təəssüratı ümumiləşdirərək S.Mehmandarov 17 fevral 1919-cu il tarixdə 85 nömrəli əmri imzaladı. Bu əmrdə o, şahidi olduğu nöqsanları sadalayaraq bütün komandirlərdən oxşar səhvlərə yol verilməməsini tələb etdi (163).

3-cü Gəncə piyada alayının Qazaxda yerləşən birinci taborunda atlar nisbətən yaxşı vəziyyətdə olsa da, silahların saxlanılması Hərbi naziri razı salmadı. Çünki alayda silah dayaqları yox idi, tüfənglər bir-birinin üstünə qalaqlanırdı, heç biri təmizlənmirdi, yağlanmırdı, sürtkü materialları mövcud deyildi, silah qayışları alınmamışdı, silahların süngüləri yox idi. Ağdamdakı topçu bölməsinin atlarının əksəriyyəti qotur idi, Xankəndində yerləşmiş 2-ci Qarabağ süvari alayı bölüyünün atları döyüş vəzifələrini yerinə yetirmək qabiliyyətində deyildi (164).

3-cü Gəncə alayının digər taborlarında da silahın saxlanılması vəziyyəti ürəkaçan deyildi. Silahların bir çoxunun detalları xarab olmuşdu, döyüş patronunun çoxunu pas atmışdı (165).

Bəzi hissələrdə isə silahların itməsi faktı üzə çıxarılmışdı. Onların axtarışı ilə bağlı həyata keçirilən tədbirlər də bir çox hallarda lazımi nəticəni vermirdi. Hərbi Nazirliyin rəhbərliyi hissə komandirlərindən tələb edirdi ki, mövcud olan silahlar əmrlə qeydiyyatdan keçirilsin, əmrdə onların nömrəsi, buraxılma ili və istehsal edilən zavodun adı göstərilsin. Yalnız hissə üzrə əmrdən keçirələndən sonra silahlar bölmələr üzrə bölüşdürülməli və bölmələrdə də onlar müvafiq qeydiyyat kitablarında qeydiyyatdan keçirilməli idi. Eyni zamanda, tələbə olunurdu ki, silahların saxla-

nılması və onlara qulluq ciddi nəzarət altına götürülsün. Silahların xarab olması bu və ya digər şəxsin günahı üzündən olsaydı, bazar qiyməti ilə həmin şəxsdən silahın qiyməti tutulmalı idi (166).

Silahların, texnikanın və atların saxlanılması üzrə mövcud olan nöqsanlar Hərbi Nazirliyin rəhbərliyinin diqqətindən qaçmırdı. Üzə çıxarılan faktlar dərhal ümumiləşdirilərək Hərbi nazirin əmri ilə rəsmiləşdirilir və nöqsanların aradan qaldırılması üçün ən sərt tədbirlərin qəbul edilməsi, xidməti təşkil edə bilməyən komandirin tutduğu vəzifədən uzaqlaşdırılması belə istisna edilmirdi.

Hərbi nazirin qəbul etdiyi qərarlar təkcə bu və ya digər zabitin, komandirin fəaliyyətinin qiymətləndirilməsi ilə kifayətlənmirdi. 1919-cu ilin aprel ayından başlayaraq ordunun at və süvari ləvazimatı ilə təchiz edilməsi sisteminin təkmilləşdirilməsinə cəhd göstərilirdi. Həmin vaxta qədər süvari qoşunlarına çağırılan gənc özü ilə at da gətirməli idi. Bu isə çox zaman gözlənilən nəticəni vermirdi. Çünki çağırış-səfərbərlik işində nöqsanların mövcud olduğu şəraitdə orduya çağırılan yoxsul təbəqənin yaxşı atı yox idi. Xidmətə yararsız atların hissəyə gətirilməsi isə döyüş hazırlığının yüksəldilməsində əhəmiyyətli bir rol oynamırdı (167). 1919-cu ilin yazında aparılan yoxlamalardan sonra bu atların çoxu çıxdaş edilmişdi. Tatar süvari alayının atlarının yarısı xidmətə yararsız kimi qiymətləndirilmişdi. Süvari diviziyası komandirinin yazdığına görə belə atların xidmətə çağırılması döyüş hazırlığını aşağı salmaqla bərabər, artıq israfçılığa da səbəb olurdu. Çünki həmin atların yedizdirilməsi üçün çəkilən xərclər səmərəsiz qalırdı (168).

Ona görə də 1919-cu ilin aprel ayının sonlarından başlayaraq çağırışçıların özləri ilə at gətirmələrinə son qoyuldu.

Süvari diviziyasının komandiri vəziyyətdən çıxış yolu kimi varlı ailələrdən onların övladlarının xidməti əvəzinə at verməlirini təklif edirdi. Diviziya komandiri bu variantın ədalətsiz bir variant olduğunu etiraf edirdi. Lakin bu variantdan istifadə edilməsini heç olmasa atlara olan ehtiyacın aradan qaldırılmasının və xidmətdə olan kasıb uşaqlarının xidmətlərinin asanlaşdırılması yolu kimi qəbul edirdi (169).

Bu təklif qəbul edilməsə də, hər halda əvvəlki təcrübəyə son qoyuldu. 1919-cu ilin aprel ayından başlayaraq atların da çağırış-

çılar üzrə deyil, çağırış məntəqələri üzrə toplanılmasına başlandı. Hər çağırış məntəqəsi üzrə çağırılacaq atların, habelə yəhərlərin norması müəyyənləşdirilirdi. Ancaq atlar və yəhərlərin təchizat mənbəyi təkcə çağırış deyildi. Eyni zamanda, bazardan da atlar alınırdı. Hərbi nazirin əmri ilə atların alınması üçün xüsusi komissiya yaradılmışdı və at alqı-satqısı bu komissiyanın rəhbərliyi altında həyata keçirilirdi. Nazir bu komissiyanın işində əliəyriliyə, israfçılığa yol verilməməsini başlıca vəzifə kimi irəli sürürdü (170).

Qoşun hissələrində nazirin əmri ilə yaradılan başqa bir komissiya atların xidmətə yararlı olub-olmadığını müəyyənləşdirirdi. Bu komissiya, əsasən, baytar həkimlərindən təşkil edilirdi (171).

Qoşunların atla təchizat sisteminin təkmilləşdirilməsi hissələrdə atların sayının artmasına da müsbət təsir göstərdi. 1919-cu ilin artıq yayında vəziyyət 1919-cu illin əvvəli ilə müqayisədə xeyli yaxşılaşmışdı. 1919-cu ilin may ayında süvari diviziyasının sərəncamına 397 baş at verilmişdi. Bu atların 200 başı Göyçay qəzasından, 100 başı Şamaxı qəzasından, 97 baş isə Bakı qəzasından alınmışdı. Bu atların təxminən yarısı Şəki süvari alayına verildi (172). Həmin ilin iyun ayında süvari diviziyası iki böyük partiyada at aldı. Birinci partiya 100 atdan ibarət olub Müsüslüdən, ikinci partiya isə 44 atdan ibarət olub Salyandan toplanılmışdı. Bu atların hamısı 3-cü Şəki süvari alayına verildi (173).

1919-cu il avqustun 1-də 1-ci Tatar süvari alayında 442 at var idisə (174), həmin ilin sentyabr ayında burada atların sayı artıq 467 başa çatmışdı (175). Belə artım bütün süvari alaylarında mövcud idi. Bunu aşağıdakı cədvəldən də görmək mümkündür ( 176):

| **Hissələrin adı** | **1 avqust 1919-cu ildə** | | **15 avqust 1919-cu ildə** | |
|---|---|---|---|---|
| | atların sayı | yəhərlərin sayı | atların sayı | yəhərlərin sayı |
| 1-ci Tatar süvari alayı | 442 | 150 | 435 | 180 |
| 2-ci Qarabağ süvari alayı | 330 | 234 | 412 | 232 |
| 3-cü Şəki süvari alayı | 380 | 298 | 442 | 393 |

Doğrudur, mövcud olan atlar süvari alaylarının ştatının təxminən yarısını təşkil edirdi. Ancaq görmək çətin deyil ki, həyata keçirilən tədbirlər atların ümumi miqdarının getdikcə artmasına səbəb olurdu.

Süvari diviziyasının sərəncamına daxil olan atlardan topçu hissələrinə də verilirdi. 2-cü yüngül topçu batareyası əlavə olaraq 31 at, 6-cı dağ-topçu batareyası 54 at və haubitsa batareyası 69 at almışdı. Nəticədə bu batareyalarda atların sayı 75 başa çatdırılmışdı. Halbuki bu batareyaların sülh dövrü üçün ştatında 59 baş at olmalı idi. 3-cü yüngül topçu batareyasına 22 baş at verilərək bölmədəki atların say 59 başa çatdırılmışdı. Bunlardan başqa, 2-ci yüngül topçu divizionuna 37 baş, dağ-süvari batareyasına isə 35 baş at verilmişdi (177).

1919-cu il sentyabr ayının sonlarında 1-ci Tatar süvari alayının atlarla təchiz edilməsi mənzərəsi belə idi (178):

| | Ştat üzrə | Mövcud | Çatışmır | |
|---|---|---|---|---|
| | | | miqdarı | faizlə |
| Atların ümumi sayı | 979 | 467 | 512 | 52,3 |
| Onlardan nizami atlar | 762 | 411 | 351 | 46 |

Piyada alaylarında isə 1919-cu ilin yayında atlarla təchizat səviyyəsi aşağı idi. Məsələn, həmin il sentyabr ayının ilk günlərində 1-ci Cavanşir piyada alayında ştatla 239 baş ata qarşı yalnız 44 baş, 2-ci Zaqatala piyada alayında ştatla 206 baş ata qarşı cəmi 10 baş və 3-cü Gəncə piyada alayında ştatla 160 baş ata qarşı 29 baş at var idi (179).

Yuxarıdakı cədvəldən göründüyü kimi, hətta süvari alaylarında mövcud olan atların çoxu yəhərsiz idi. Bu da bütünlükdə hissələrin döyüş hazırlığına təsir edirdi. Süvari diviziyasının komandiri 1919-cu il sentyabrın 11-də Hərbi Nazirliyə göndərdyi arayışında bildirirdi ki, 1-ci Tatar süvari alayı nizami planda lazımi döyüş hazırlığına malikdir. Lakin şəxsi heyətin çoxu atsızdır. Yəhər isə daha çox çatmır. Diviziya komandiri 1-ci Tatar süvari alayı komandirinin hissəsini yəhərlə təmin etmək üçün irəli sürdüyü təklifini Hərbi nazir tərəfindən müdafiə edildiyini bildirirdi. Diviziya komandirinin fikrincə, bu təklifin həyata keçirilməsi mövcud olan şəxsi heyəti 4–5 gün ərzində bütünlüklə at belinə qaldırmağa imkan verər (180).

Həmin vaxt Quba ətrafında yerləşən və Quba dəstəsinin tərkibinə daxil olan 1-ci Tatar süvari alayının komandiri təklif edirdi

ki, Quba qəzasında olan 220 kəndin hər birindən pulla 2 ədəd yəhər alınsın. Ümumən, alınmış 440 ədəd yəhər alayın mövcud ehtiyaclarını ödəməyə bəs edərdi. Alay komandiri təklif edirdi ki, bunun üçün xüsusi komissiya təşkil edilsin, bu komissiya kəndlərin nümayəndələri ilə danışıq aparsın və alqı-satqıya rəhbərlik etsin. Hər kənd üçün 2 ədəd yəhər elə də çox deyildi və bu, kəndlərdə ciddi bir narazılıq da yaratmazdı (181).

Atların yəhərlərlə təmin edilməsi üçün hissələrin daxili imkanlarından istifadə olunurdu. Süvari alaylarında həm nalbəndxanalar, həm də yəhərtikmə emalatxanaları var idi. Bu emalatxanaların səmərəli işləməsi üçün süvari diviziyasının komandiri müvafiq strukturların qarşısında yəhərtikən ustaların xidmətə çağırılması və süvari alaylarına göndərilməsi barədə vəsatət qaldırmışdı. 1919-cu ilin sentyabr ayında diviziya komandirinin arzuladığı qədər usta çağırılmasa da (182), hər halda bu emalatxanalar fəaliyyət göstərir, yəhərlə bərabər digər süvari təchizatının hazırlanması və bərpası ilə məşğul olurdu (183).

Süvari alaylarında atlar süvarilər arasında bölüşdürülmüşdü və hər at konkret olaraq bir süvarinin adına yazılmışdı. Süvari yalnız öz atını istifadə edə bilərdi və başqasının atını təlimə çıxarmaq ixtiyarı yox idi. Bu tələb əvvəlki vaxtlardakı təcrübədən fərqli olaraq atlara qayğının və eləcə də buna cavabdeh olan hərbi qulluqçuların məsuliyyətinin artırılmasına imkan verirdi (184).

Atların yemləndirilməsində bir asanlıq yaratmaq üçün alaylara Hərbi Nazirlik tərəfindən torpaq sahəsi ayrılmışdı. Bu torpaq sahələri alayların özləri tərəfindən qorunmalı və orada atlar üçün ot əkilib-biçilməli idi (185).

Orduya cəlb edilmiş olan atların mühafizəsi və qorunması üçün də Hərbi Nazirliyin rəhbərliyi tərəfindən müvafiq tədbirlər həyata keçirilirdi. Bəzi hissələrdə atların dəyişdirilməsi və ya onların yoxa çıxması xəbərini alandan sonra nazir əmr etdi ki, bütün atların ciddi qeydiyyatı aparılsın. Bunun üçün atlar surğuclanıb-möhürlənmiş kitablarda qeyd edilsinlər. İki nüsxədə işlənmiş bu kitablardan biri hissədə saxlanılmalı, biri isə Ümumi qərargaha göndərilməli idi (186).

Atların qorunmasında, işlədilməsində və onların təchizatında biganəlik və laqeydliyə yol verən şəxslərə qarşı Hərbi nazir çox barışmaz mövqe tuturdu. 1919-cu ilin sentyabr ayında Gəncədə 4 baş ingilis atının ölməsi xəbərini eşidən kimi nazir xüsusi komissiya təyin etdi ki, bu faktı yoxlasın və cavabdeh şəxsləri müəyyənləşdirsin. Nazir komissiyaya tapşırıq verdi ki, təhqiqatın nəticələrini şəxsən ona məruzə etsin. Bu məsələ ilə bağlı imzaladığı əmrdə nazir hissə komandirlərinin atların qorunmasına olan münasibətini onların dövlət malına münasibəti kimi qiymətləndirir və bunun dözülməz bir hal olduğunu vurğulayırdı (187).

1919-cu ilin sentyabr ayında Gəncədən Bakıya daşınarkən dördçarxlı arabanın və üç ədəd yəhərin qatardan aşıb xarab olmasına görə təqsirkar bilinən poruçik Kordzaxiya Azərbaycan Ordusunun sıralarından xaric edilmişdi. Xidməti əmlakın qorunmasında ehtiyatsızlıq və laqeydlik göstərdiyi üçün Hərbi nazir Kordzaxiyanı Azərbaycanda hər hansı bir dövlət qulluğunda işləmək hüququndan məhrum etmişdi (188).

Hərbi nazir S.Mehmandarov qiymətli cins olan ingilis atlarının yerli-yersiz minilməsini, onlardan istifadə edilməsini də qadağan etmişdi. O, bir sıra zabitlərin səhərlər bu atlarla işə gəlməsinə təəccübünü bildirir və belə hallara son qoyulmasını tələb edirdi. Məsələ ilə bağlı S.Mehmandarov 1919-cu il oktyabrın 1-də imzaladığı 449 nömrəli əmrində bildirirdi: «Mənə minik üçün ayrılmış ingilis atı və iki şəxsi ata malik olmağıma baxmayaraq xidmət yerinə piyada gedirəm. Bunu gənclər də edə bilərlər» (189).

Hissələrdə atların miqdarının, onların vəzifələrinə görə bölüşdürülməsinin nizamlanması ilə bağlı nazir 1919-cu il oktyabrın 23-də 494 nömrəli əmr imzaladı. Həmin əmrdə göstərilirdi ki, mövcud ştatların dəyişilməsinə kimi piyada, süvari və topçu hissələrində atlar əmrdə göstərildiyi miqdarda saxlanılsın və qeyd olunan qayda üzrə bölüşdürülsün. Yeni normalara görə piyada alayında 26 minik atının, 2 qoşqu atının və 76 baş malın saxlanılmasına icazə verilirdi. Minik atları alay komandiri, onun yavəri, müavini, 3 nəfər tabor komandiri, 3 nəfər pulemyot komandasının komandiri, 6 nəfər pulemyot komandasının zabiti, 10 nəfər çapar və rabitə rəisi üçün nəzərdə tutulmuşdu. Süvari alaylarının hər birin-

də 600 baş nizami at, alay qərargahı üçün 6 baş minik atı, 19 baş yük atı, pulemyot komandaları üçün 75 baş at və 10 baş mal olmalı idi. Əmrdə topçu hissələrində olan atların sayı da göstərilmişdi. Bu atlar topçu hissələrini hərəkətə gətirmək üçün bəs etməli idi. Həmin hissələrin komandir heyətini gəzdirmək üçün də atlar nəzərdə tutulmuşdu (190).

1919-cu ilin ikinci yarısında qoşunların atlarla və yəhərlərlə təchizat səviyyəsi xeyli yaxşılaşdırılmışdı, amma qoşqu arabalarında olan vəziyyət əvvəlki kimi qalmışdı. Hərbi Nazirliyin rəhbərliyi əldə olunan imkandan istifadə edərək 1920-ci ildə bu sahədə də dönüş yaratmağı planlaşdırırdı. Təsdiq edilmiş plana görə Azərbaycan Ordusuna 1920-ci ildə aşağıdakı miqdarda müxtəlif növ qoşqu arabaları alınmalı idi (191):

| **Arabaların növləri** | **Ştat üzrə** | **Mövcud** | **Çatışmır** | **Çatışmır (% hesabı ilə)** |
|---|---|---|---|---|
| İkiatlı dördçarxlı araba | 393 | 34 | 359 | 91,4 |
| Biratlı dördçarxlı araba | 156 | 25 | 131 | 34,0 |
| Telefon əmlakının nəqli üçün araba | 80 | 9 | 71 | 88,8 |
| Biratlı dördçarxlı təsərrüfat arabası | 885 | 400 | 485 | 54,9 |
| İkiatlı dördçarxlı təsərrüfat arabası | 129 | 71 | 58 | 45,0 |
| Müxtəlif tiplərdə qoşaatlı yük arabaları | 556 | 243 | 313 | 56,2 |
| Xəstə daşıyan dördatlı araba | 39 | 3 | 36 | 97,4 |
| Qoşaatlı xəstə daşıyan arabalar | 12 | 3 | 9 | 75,0 |
| Piyada qoşunlar üçün mətbəx arabaları | 217 | 81 | 136 | 62,7 |

Bu cədvəldən, həm də 1919-cu ildə Azərbaycan Ordusunda nə qədər araba mövcud olduğunu da görmək mümkündür. Çatışmayan çoxlu sayda arabanın növbəti ildə alınmasının planlaşdırılması isə ordunun maddi imkanlarının, texniki potensialının yüksələn inkişaf prosesində olduğunu sübut edirdi.

Eyni mənzərəni ordunun silah və sursatla təchizatında da görmək mümkündür. 1919-cu ilin əvvəlində bu sahədə mövcud olan qıtlıq ilin ikinci yarısında artıq aradan qaldırılmış, nəzərəçarpacaq irəliləyişlərə nail olunmuşdu. Müvafiq hesabat sənədlərinin öyrənilməsi göstərir ki, 1918–1920-ci illər ərzində Azərbaycan Ordusunun təchizatında aşağıdakı atıcı və soyuq silahlar olmuşdur (192):

– üçxətli rus piyada tüfəngi;
– üçxətli rus draqun tüfəngi;
– üçxətli rus kazak tüfəngi;
– üçxətli rus karabini;
– üçxətli naqan sistemli revolver;
– Berdanka sistemli 4,2 xətli rus piyada tüfəngi;
– Berdanka sistemli 4,2 xətli rus piyada tüfəngi;
– Berdanka sistemli 4,2 xətli rus kazak tüfəngi;
– Mauzer sistemli türk tüfəngi;
– Lebal sistemli fransız tüfəngi;
– Manlixer sistemli Avstriya tüfəngi;
– Mauzer sistemli alman tüfəngi;
– Yapon tüfəngi;
– Vetterli sistemli İsveçrə tüfəngi;
– Smit və Vesson sistemli rus revolveri;
– topçu qılıncı;
– Draqun qılıncı;
– kazak qılıncı;
– Asiya qılıncı;
– düz xəncər, əyri xəncər, nizə.

Hissələrin təchizatında yaranan ilk nəzərəçarpacaq müsbət dəyişiklik isə Gürcüstanla bağlanan hərbi müdafiə paktından sonra meyana gəldi. Şimaldan gözlənilən təhlükənin qarşısının alınması tədbirlərini və qarşılıqlı əlaqələrin nizamlamasını nəzərdə tutan bu müdafiə paktı 1919-cu il iyunun 16-da Tiflisdə imzalandı. Yuxarıda qeyd edildiyi kimi, bu müqaviləyə uyğun olaraq elə həmin gün iki respublika arasında hərbi-texniki saziş də imzalandı.

Bu sənədlər imzalanandan sonra tərəflər arasında texniki əlaqələr də gücləndi və Azərbaycanın Hərbi Nazirliyi öz ordusunun

texniki təchizatını müəyyən qədər təkmilləşdirmək imkanı əldə etdi.

Qarşılıqlı razılaşma əsasında Gürcüstandan alınması nəzərdə tutulan ərzağın, silah və sursatın qəbul edilməsi üçün Hərbi nazirin əmri ilə xüsusi komissiya yaradıldı və Topçu idarəsinin rəisi general-mayor M.Tlexas bu komissiyanın rəhbəri təyin edildi (193).

General Tlexasın rəhbərlik etdiyi komissiya 1919-cu ilin iyul ayında Tiflisdə səmərəli fəaliyyət göstərdi və Azərbaycan Ordusunun təchizatı üçün böyük əhəmiyyət kəsb edən xeyli sayda texniki vasitə və ərzaq toplayıb Azərbaycana göndərdi.

Komissiya tərəfindən Azərbaycana göndərilən ərzaq, əsasən, qənddən ibarət idi. Əldə edilən 4 min pud qənd iki dəfəyə eşelonlarla Azərbaycana yola salındı (194).

İyulun 11-də Tiflisdən ilk silah və sursat eşelonu yola salındı. Bu eşelonda 12 ədəd dağ topu, dağ topları üçün 10 yeşik partlayıcı maddə, 1500 ədəd tüfəng, toplar və tüfənglər üçün çoxlu sayda ehtiyat detallar gətirildi. İyulun 19-da yola salınan ikinci eşelonda 8 ədəd yüngül top, toplar üçün 16 yeşik partlayıcı maddə, 1500 ədəd tüfəng, toplar, tüfənglər üçün ehtiyat detallar, 12885 rublluq dərman, tibb ləvazimatı və topoqrafiya əşyaları var idi. İyulun 17-də növbəti bir eşelon Tiflisdən yola düşməli idi. Bu eşelonda, əsasən, istehkam ləvazimatı toplanılmışdı. Lakin yüklənən malların əvəzinin hansı yolla ödənəcəyinin aydınlaşdırılmaması üzündən bu eşelonun göndərilməsi bir qədər ləngidi və nəhayət iyulun 21-də bu eşelon da yola salındı (195).

General Tlexasın iyulun 23-də Hərbi nazirin adına göndərdiyi teleqramında bildirilirdi ki, iyulun 24-də növbəti eşelonun yola salınması planlaşdırılır. Həmin eşelonda haubitsalar üçün 10 yeşik partlayıcı maddə, haubitsalar üçün ehtiyat detallar, xəncər, süngü, süvari təchizatı olmalı idi. Bu eşelona top, pulemyot və tüfənglər üçün də ehtiyat hissələrinin toplanılması nəzərdə tutulmuşdu. İyulun 18-dən etibarən komissiya çoxlu sayda mətbəx arabalarının, dördçarxlı arabaların qəbuluna başladı. Şəxsi adamlardan alınan əmlakın keyfiyyətinə komissiya tərəfindən xüsusi fikir verilirdi. Alınan bütün əmlak üçün gürcü tərəfinə 80 min rubl avans ve-

rilmişdi. Gələcəkdə alınan əmlakın məbləğinin bir hissəsinin Gürcüstan tərəfinə neftlə ödənməsi razılığı əldə edilmişdi (196).

Bu əmlakın gətirilməsi Azərbaycan Ordusunun hissələrinin ehtiyacını müəyyən qədər aradan qaldırdı. Mövcud olan ehtiyac tamamilə aradan qaldırılmasa da, vəziyyət kifayət qədər yaxşılaşdı. 1919-cu il avqustun 1-də süvari alaylarının odlu və soyuq silahla təchizat mənzərəsi aşağıdakı şəkildə idi (197):

| Alayların adı | Mövcud əsgər sayı | Tüfəng | | Revolver | | Qılınc | | Xəncər | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | mövcud | çatışmır | mövcud | çatışmır | mövcud | çatışmır | mövcud | çatışmır |
| 1-ci Tatar süvari alayı | 685 | 319 | 433 | - | 155 | 437 | 256 | 676 | 175 |
| 2-ci Qarabağ süvari alayı | 705 | 593 | 159 | - | 155 | 258 | 535 | - | 851 |
| 3-cü Şəki süvari alayı | 661 | 430 | 329 | - | 155 | 244 | 549 | 344 | 307 |

Bu cədvəldə çatışmayan silahların sayı ştat göstəricilərinə görə verilmişdir. Mövcud olan əsgərlərin sayına görə isə tüfənglə təchizat ümumən 60–65 faiz arasında idi. Süvari diviziyasının komandiri hissələrin vaxtında silahlarla təmin edilməsinin, həm də mənəvi əhəmiyyətə malik olduğunu yazırdı. Onun sözlərinə görə xidmətə çağırılan əsgər gəldiyi gündən silahla təmin edilsə, onda silaha qarşı, onun öyrənilməsinə və düzgün istifadəsinə qarşı bir maraq yaranardı. Bu da onun döyüş əhval-ruhiyyəsinə müsbət təsir edər (198).

Piyada alaylarının isə təchizat səviyyəsi daha yaxşı idi. 1919-cu il sentyabrın 25-də 1-ci Cavanşir piyada alayında mövcud olan 1703 əsgərin 1015 üçxətli rus tüfəngi və 24 ədəd «Maksim» pulemyotu, 2-ci Zaqatala piyada alayında mövcud olan 1342 əsgərin 1190 ədəd üçxətli rus tüfəngi və 4 ədəd «Maksim» pulemyotu, 3-cü Gəncə piyada alayında mövcud olan 1218 əsgərin 1573 tüfəngi və 17 ədəd «Maksim» pulemyotu var idi (199).

1919-cu ilin avqustunda ingilis qoşunları Bakını tərk edərkən müəyyən miqdarda hərbi sursat, radiostansiya və bir neçə gəmi Azərbaycana verildi (200). Verilən məlumata görə «Qars», «Ər-

dəhan» hərbi gəmilərinin, «Astrabad», «Araz» və «Nargin» köməkçi gəmilərinin Hərbi Nazirliyə verildiyi güman edilir (201). İngilislərin getməsindən sonra Hərbi Nazirliyin tərkibində Hərbi liman təsis edildi. Ancaq 1919-cu ildə yuxarıda göstərilən gəmilərin hamısının işlək olmasını iddia etmək olmazdı.

1919-cu il sentyabrın 1-də Hərbi limanın, oktyabrın 1-də isə «Astrabad» gəmisinin ştatının açıldığı barədə nazirin əmri olsa da, 1919-cu ilə aid olan arxiv sənədlərində yuxarıda adları çəkilən gəmilər barədə məlumatlarla rastlaşmaq çətindir. Digər tərəfdən, məlumdur ki, ingilis qoşunlarının getməsindən sonra Bakının Denikin təhlükəsindən qorunması üçün yaranan əsas narahatlıqlardan biri hərbi gəmilərin olmaması və dəniz istiqamətindən Bakının müdafiəsiz qalması idi (bu barədə aşağıda danışılacaqdır). Digər tərəfdən isə texniki qüvvələr olmadığı üçün Dövlət Müdafiə Komitəsinin 13 dekabr 1919-cu il tarixli qərarı ilə Hərbi liman Yollar Nazirliyinin sərəncamına verildi (202).

Azərbaycan Ordusunun sərəncamında 3 ədəd zirehli qatar da var idi. Onlar rəsmi şəkildə – 1-ci zirehli qatar, 2-ci zirehli qatar və 3-cü zirehli qatar adlandırılırdılar. Bu qatarlar işlək vəziyyətdə idi və onlardan döyüş tapşırıqlarının icrası üçün istifadə edilirdi. Həmin zirehli qatarlarda qarışıq silahlardan istifadə edilirdi. Hərbi Nazirliyin 1920-ci ilin fevral ayına olan əmrində bu qatarların silahlarındakı müxtəlifliyə son qoyulması qərara alındı. Bu qərara əsasən 1-ci zirehli qatarın pulemyotları "Maksim" pulemyotları ilə, 2-ci zirehli qatardakı pulemyotlar "Kolt" pulemyotları ilə, 3-cü zirehli qatardakı pulemyotlar isə "Lyuis" pulemyotları ilə əvəzləndi (203).

Hərbi təchizata olan ehtiyacın qismən ödənilməsi üçün həm respublikanın potensialından, həm də hissələrin daxili imkanlarından da istifadə edilirdi. Bununla bağlı Gəncədəki hərbi zavod yenidən quruldu. Hərbi Nazirliyin rəhbərliyi Nazirlər Şurası qarşısında bu zavodda mərmi sexi açılması və bunun üçün zəruri olan maliyyə vəsaitlərinin ayrılması barədə məsələ qaldırdı (204). Gəncə zavodunun yenidən qurulması məsələsi Parlamentin iclaslarının birində də müzakirə edildi və nəzərdə tutulan yenidənqurmanın həyata keçirilməsi üçün 688 min rubl vəsaitin ayrılması barədə qərar qəbul edildi (205).

Xarab olmuş silahların təmir və bərpası üçün hissələrdə olan silah emalatxanalarının imkanlarından da istifadə edilirdi. Bu işi lazımi səviyyədə təşkil etmək üçün hissələrə mülki ustaların qəbul edilməsi məsələsi də qaldırılmışdı. Bu məsələ ilə bağlı Topçu idarəsinin rəisi general-mayor M.Tlexas Hərbi Nazirliyin rəhbərliyinə xüsusi raportla müraciət etdi. Həmin raportda bildirilirdi ki, Gəncə piyada alayında, Tatar süvari alayında, Şəki süvari alayında, Ləki topçu anbarında ustaların olmaması üzündən silah emalatxanalarını işə salmaq mümkün deyil. Bu isə ona səbəb olur ki, silahlar ən adi xarablığına görə topçu emalatxanasına göndərilir. Halbuki onları hissələrin özündə də təmir etmək olardı. Mülki ustalar isə maaşların azlığı üzündən hissələrdə çalışmaq istəmirdilər. Nazirliyin rəhbərliyindən xahiş olunurdu ki, mülki ustaların əmək haqqları artırılsın. Bu xahişə Nazirliyin Hərbi Şurasında da baxılmış və hissələrə qəbul olunan mülki ustaların maaşlarının artırılması barədə qərar qəbul olunmuşdu (206).

Həyata keçirilən tədbirlər nəticəsində müəyyən müddətdən sonra Gəncədə topçu emalatxanasını da açmaq mümkün oldu. Bu emalatxananın 5 bölməsi var idi: top bölməsi, silah-pulemyot bölməsi, taxta bölməsi, dəmirçi bölməsi, süvari təchizatı bölməsi (207).

Qoşun hissələrinin topçu ləvazimatı ilə təmin edilməsi topçu anbarlarından həyata keçirilirdi. Hərbi Nazirliyin bərpa edildiyi vaxt Azərbaycan Ordusunun yalnız bir topçu anbarı (cəbbəxanası) var idi və o da Ləki stansiyasında yerləşirdi. Amma ordunun tərkibi genişləndikdən sonra anbarların da sayının artırılmasına ehtiyac yarandı və bu ehtiyacın aradan qaldırılması məqsədilə Kürdəmirdə də silah anbarı yaradıldı. Hər iki anbar dəmir yolu xəttinin üzərində idi və bu da anbarlara və anbarlardan daşınmaları asanlaşdırırdı.

Hərbi Nazirliyin bərpasından sonra silah və sursat ehtiyatlarının istifadəsinin qaydaya salınması üçün görülən işlərdən biri türk hərbi hissələrindən qalmış hərbi əmlakın toplanılması və qeydiyyata alınması oldu. Çünki türk hərbi hissələrinin qısa bir müddət ərzində Azərbaycanı tərk etməsi onların özləri ilə aparmadığı silah və sursatın nəzarətsiz qalmasına səbəb olmuşdu. Xüsusilə dəmir yolu boyu məntəqələrdə çoxlu sayda nəzarətsiz top, mərmi, pulemyot və

onlar üçün mərmi, güllələr və digər ləvazimat mövcud idi. Onların nəzarətdən kənar qalması, həm də əhali üçün müəyyən təhlükə törədirdi. Qısa müddət ərzində bu nəzarətsiz silah və sursat da toplanaraq Ləki və Kürdəmirdəki silah anbarlarına təhvil verildi, onlar ciddi qeydiyyata alındı və ehtiyac duyulan hərbi hissələrə paylandı. Toplanılmış bu nəzarətsiz silah və sursat, eyni zamanda, Azərbaycan Ordusunun müəyyən ehtiyaclarının ödənməsində faydalı oldu (208).

Qoşun hissələrində silahın hansı vəziyyətdə olması Hərbi Nazirliyin rəhbərliyinin daimi nəzarəti altında idi. Vaxtaşırı Nazirliyə hissələrdən təqdim olunan arayış-məlumatda işlək və qeyri-işlək silahların sayı, silah emalatxanasının vəziyyəti və nə qədər silah təmir edilməsi barədə də məlumatlar verilirdi (209).

2-ci piyada diviziyasının komandiri 27 oktyabr 1919-cu il tarixli əmrində Lənkəran köməkçi (ehtiyat) taborunda silah emalatxanasının yaxşı təchiz edildiyini, səmərəli işlədiyini qeyd edərək komandir kapitan S.Rəfibəyova təşəkkür elan etdi. Tabora verilmiş olan 300 ədəd tüfəngdən 205 ədədi qısa müddət ərzində texniki tələblərə uyğun şəkildə təmir edilmişdi (210).

1920-ci ilin əvvəllərində hərbi uğursuzluqlara düçar olan Denikin ordusunun komandanlığı Azərbaycan Ordusuna 20 ədəd top, 100-dən çox pulemyot, 15 min tüfəng, 10 milyon patron, 9 ədəd təyyarə və başqa texnika, silah və sursat verdi (211). Bunlar qoşun hissələrinin maddi-texniki imkanlarını bir qədər də yaxşılaşdırdı.

Eyni zamanda, əhalidə olan silah və sursatın toplanılmasına və ordunun ixtiyarına verilməsinə də diqqət yetirilirdi. Doğrudur, əllərdə olan silahların respublikadan çıxarılmasına və ya onların satılmasına da cəhd göstərilirdi. Məlum olan belə halların qarşısı dərhal alınır və lazımi tədbirlər həyata keçirilirdi. Məsələn, əməliyyat məlumatlarından sonra məlum olmuşdu ki, müəyyən qrup şəxslər Azərbaycanda əllərdə olan silahları toplayaraq İrana və Türküstana aparırlar. İrana aparılması üçün nəzərdə tutulan böyük sayda silah və sursat, əsasən, Bakı qəzasının Qobu kəndində toplanılır və sonra da Cavad qəzasının Kələqaynı kəndinə daşınırdı. Bu kənd silah və sursatın İrana nəql edilməsi bazası hesab olunurdu. Bakının Buzovna kəndindən isə gəmilər vasitəsi ilə Türküstana silah və sursat daşınırdı. Ölkə üçün strateji əhəmiyyət

kəsb edən və orduda böyük ehtiyac duyulan silahlar mövcud olan məlumata görə 2500 rubla, patonlar isə 1,5 rubla satılırdı (212).

Silah və sursatın belə böyük miqdarda alışı və satışı onların dövlət anbarlarıdan oğurlana bilməsi nigarançılığını yaratmışdı. Lakin Bakı–Sabunçu polis idarəsinin verdiyi məlumatda bildirilirdi ki, satılan silahlar, əsasən, əhalidən alınıb, dövlət anbarlarından isə silah oğurlanması hallarına təsadüf edilməyib. Əhalidə olan silahlar da türk qoşunlarının Azərbaycanda olduğu vaxtlardan qalmışdı. Döyüşlərdə iştirak edən əhalinin heç də hamısından silahlar toplanılmamışdı. 1919-cu ilin may ayının 13-də Buzovna yaxınlığında Azərbaycandan qeyri-qanuni yolla yük daşıyan türkmən gəmisi saxlanılmışdı. Aparılan yüklərin içində silah və sursat da var idi. Bu siqnallardan sonra polis tərəfindən Bakının kəndlərində ciddi axtarış işləri aparıldı. Nəticədə Nardaran kəndinin bir neçə sakinindən 35 ədəd tüfəng və təxminən 4700 ədəd patron, Maştağa sakinlərindən 11 ədəd tüfəng və 1200-dən artıq patron, habelə Bakıya gəlmiş iki İran vətəndaşından 9 ədəd tüfəng alındı. 1919-cu ilin fevralında isə Bakı sakini İsgəndər İsgəndərov Şubanı yaxınlığında Türkiyə istehsalı olan 100 sandıqdan çox mərmi aşkar etmişdi. Həmin mərmilərin türk qoşunlarından qaldığı güman edilirdi. Bundan başqa, Heybətdə, Qobuda və Xırdalanda da türklərdən qalma sursat və hərbi təchizat aşkar edilib dövlətə təhvil verilmişdi (213).

Lakin Hərbi Nazirliyin rəhbərliyi 1920-ci ildə Azərbaycan Ordusunun maddi-texniki təchizatını daha da təkmilləşdirmək üçün qarşıya böyük planlar qoymuşdu. Bu planların həyata keçirilməsi Azərbaycanın döyüş imkanlarını və müdafiə qüdrətini xeyli artırmalı idi.

1920-ci ildə Xəzər hərbi donanmasının yaradılması və möhkəmləndirilməsi üçün xaricdən saatda ən azı 23 uzel gedən 6 ədəd sürətli katerlərin alınması planlaşdırılırdı ki, belə katerlər 34–76 mm-lik topla və bir ədəd zenit topu ilə təchiz edilirdi. Onlar dənizdə çevik manevrlər etməklə yanaşı, kifayət qədər təsirli atəş qüvvəsinə də malik idi. Sonra 47 mm-lik və ya 57 mm-lik topla, 2 ədəd mina qurğusu ilə silahlanmış və həmin sürətlə üzə bilən 12 ədəd kater, habelə sualtı qayıqlarla mühafizə üçün nəzərdə tu-

tulmuş, bir ədəd 57 mm-lik topla, bir ədəd zenit topu ilə təchiz edilmiş və saatda 26 uzeldən 3 uzelədək sürətlə hərəkət edə bilən katerin alınması planlaşdırılırdı. Sadalanan silahlardan başqa, bu katerlərin hər birinə ən azı 2 ədəd pulemyot, fəaliyyət radiusu 200–250 mil olan simsiz teleqraf qurğuları qoyulmalı idi. Katerlərin həcm ölçüləri etibarilə elə də böyük olmaması, uzunluğunun 18–20 metri aşmaması məqsədəuyğun sayılırdı ki, onları sökmədən, qurulu halda dəmir yolu vasitəsi ilə Bakıya gətirmək mümkün olsun. Dənizdən düşmən gəmilərinin hücumlarının qarşısının alınması, Bakı hövzəsinin müdafiəsinin gücləndirilməsi üçün mina düzən gəminin alınması da 1920-ci ilin planlarına daxil idi (214).

Xəzər hərbi donanmasının formalaşdırılması barədə Azərbaycan hökumətinin hazırladığı plana, habelə çox da böyük olmayan 6 ədəd 120 mm-lik, 16 ədəd 76 mm-lik uzaqvuran top, 20 ədəd 57 mm-lik, 20 ədəd 47 mm-lik, 20 ədəd 37 mm-lik top (cəmi 92 ədəd) alınması, sahildə yerləşdirilmiş toplar üçün kifayət qədər mərmi əldə edilməsi də daxil idi. İngilis qoşunlarından alınmış gəmilərin sökülmüş silahlarını bərpa etmək üçün də Hərbi Nazirlik əməli tədbirlər həyata keçirmək fikrində idi (215).

Hərbi Nazirliyin 1920-ci ilə planlaşdırdığı fəaliyyətinin başqa bir sahəsini də mövcud olan hava qüvvələrinin möhkəmləndirilməsi və bunun üçün 12 ədəd hidroplanın və 6 ədəd aeroplanın əldə edilib Azərbaycana gətirilməsi təşkil edirdi (216).

Piyada qüvvələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi də Hərbi Nazirliyin rəhbərliyinin diqqət mərkəzində idi. Nazirliyin rəhbərliyi təkcə qoşunların siyahısının deyil, onlar üçün zəruri olan silah və texnikanın sayının da artırılmasına və onların ştat göstəricilərinə uyğunlaşdırılmasına çalışırdı.

Aşağıdakı cədvəldən 1919-cu ildə Azərbaycan Ordusunda nə qədər silah və sursatın olduğu və nə qədər çatışmadığı aydın görünür. 1920-ci ildə Hərbi Nazirlik bu çatışmayan silah, sursat və texnikanı əldə etməyi planlaşdırırdı (217).

Qoşun hissələrinin maddi-texniki təchizatı ilə bağlı Hərbi Nazirliyin 1920-ci il üçün fəaliyyət proqrammı, eyni zamanda, onu göstərirdi ki, hərbi hissələrin döyüş potensialının genişlənmə-

sinə xüsusi diqqət yetirilir. 1919-cu ilboyu mürəkkəb tarixi şəraitə baxmayaraq, ordunun yüksək xətt üzrə inkişafda olması, Azərbaycan hökumətinin ordunun formalaşmasına daimi qayğısı 1920-ci il üçün qarşıya qoyulan planların da reallığından xəbər verirdi. Lakin ortaya çıxan yeni tarixi reallıq bu planların icrasına imkan vermədi.

| Əşyaların adı | Ştat üzrə | Mövcud | Çatışmır | Çatışmır (% hesabı ilə) |
|---|---|---|---|---|
| 1902-ci il nümunəli üçdüyməli yüngül top | 54 | 32 | 22 | 40,7 |
| 1909-cu il nümunəli üçdüyməli dağ topu | 54 | 24 | 30 | 55,5 |
| 1910-cu il nümunəli 48 xətlik haubitsa | 14 | 4 | 10 | 71,5 |
| «Maksim» pulemyotu | 416 | 116 | 344 | 72,2 |
| İngilis tüfəngləri | 40000 | 1400 | 26000 | 65 |
| «Brauninq» revolveri | 5000 | 100 | 4900 | 98 |
| Top və pulemyotlu zirehli avtomobil | 10 | 1 | 9 | 90 |
| Yalnız pulemyotlu zirehli avtomobil | 10 | 11 | 9 | 90 |
| Tank | 5 | - | 5 | 100 |
| Stereotruba | 100 | 1 | 99 | 99 |
| Durbin | 500 | - | 500 | 100 |
| Üçdüyməli səhra qumbarası | 54000 | 4500 | 49500 | 91,7 |
| Üçdüyməli şrapnel | 108000 | 43000 | 65000 | 60,2 |
| Üçdüyməli dağ qumbarası | 54000 | 9000 | 45000 | 83,4 |
| Üçdüyməli dağ şrapneli | 108000 | 8000 | 100000 | 92,6 |
| 48 xətlik haubitsa bombası | 31500 | 10000 | 21500 | 68,3 |
| 48 xətlik haubitsa şrapneli | 10500 | 4000 | 6500 | 62 |
| Tüfəng üçün üçxətlik patron | 40 milyon | 8 milyon | 32 milyon | 80 |
| Pulemyot üçün patron | 46 milyon | - | 46 milyon | 100 |
| Revolver patronu | 500000 | - | 500000 | 100 |

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (MDA), fond 2898, siyahı 2, iş 37, vərəq 7
2. Yenə orada, v.13
3. Siyasi Sənədlər Arxivi, f. 277, siy.2, iş 79, v.6
4. MDA, f. 2894, siy. 1, iş 1, v.6–7
5. MDA, f. 2898, siy.2, iş 49, v.16
6. MDA, f. 2898, siy. 2, iş 16, v.21, 43
7. Стеклов А. Армия Мусаватского Азербайджана. Б., 1928, с.23–24
8. MDA, f. 2894, siy.11, iş 40, v.8
9. Yenə orada, v.21
10. Yenə orada
11. MDA, f. 2894, siy.11, iş 15, v.633
12. MDA, f. 2898, siy.1, iş 19, v.6
13. MDA, f. 2898, siy.2, iş 23, v.1, 4, 9
14. MDA, f. 2898, siy.2, iş 12a, v.112
15. MDA, f. 2894, siy.1, iş 9, v.11, 12
16. MDA, f. 2898, siy.2, iş 40, v.61
17. Hərbi Bilik, № 4–5, 1994, s.107
18. MDA, f. 2899, siy.1, iş 3, v.53
19. MDA, f. 2898, siy.2, iş 12a, v.172; f. 2898, siy.2, iş 3, v.118
20. MDA, f. 2898, siy.2, iş 12a, v.6
21. MDA, f. 2916, siy.1, iş 3, v.8
22. MDA, f. 2898, siy.2, iş 12a, v.14
23. MDA, f. 2894, siy.1, iş 39, v.78
24. Yenə orada. v.102
25. Yenə orada
26. MDA, f. 2894, siy. 1, iş 15, v.140
27. Yenə orada v.133
28. MDA, f. 2898, siy.2, iş 23, v.181
29. MDA, f. 2898, siy. 2, iş 25, v.58
30. Yenə orada
31. MDA, f. 2894, siy.1, iş 10, v.24
32. MDA, f. 2894, siy. 1, iş 8, v.21, 35

33. SSA, f. 277, siy.2, iş 79, v.2–3
34. MDA, f. 2894, siy.1, iş 1, v.25
35. MDA, f. 2894, siy.1, iş 7, v.55
36. MDA, f. 2894, siy.1, iş 13, v.70
37. Yenə orada, v.7a
38. MDA, f. 2894, siy.1, iş 27, v.45
39. MDA, f. 2898, siy.2, iş 12a, v.108–109
40. Yenə orada, v.109
41. MDA, f. 2894, siy.1, iş 3, v.70
42. MDA, f. 2894, siy.1, iş 39, v.21, 65
43. MDA, f. 2894, siy.1, iş 20, v.43
44. MDA, f. 2894, siy.1, iş 35, v.44
45. MDA, f. 2894, siy.1, iş 12, v.27
46. Yenə orada. v.28
47. MDA, f. 2894, siy.3, iş 12, v.2
48. MDA, f. 2894, siy.1, iş 9, v.7
49. MDA, f. 2894, siy.3, iş 12, v.2
50. MDA, f. 2898, siy.2, iş 5, v.403
51. MDA, f. 2894, siy.1, iş 3, v.2
52. MDA, f. 2894, siy.1, iş 37, v.1
53. MDA, f. 2894, siy.1, iş 7, v.48
54. Yenə orada, v.55
55. MDA, f. 2894, siy. 1, iş 8, v.29
56. Yenə orada
57. MDA, f. 2894, siy.1, iş 21, v.13
58. Yenə orada
59. MDA, f. 2898, siy.2, iş 3, v.197
60. MDA, f. 2898, siy.2, iş 10, v.36,39
61. Yenə orada, v.40, 42
62. MDA, f. 2898, siy.2, iş 12a, v.17
63. MDA, f. 2898, siy.1, iş 23, v.128
64. MDA, f. 2898, siy.2, iş 25, v.35
65. MDA, f. 2894, siy.1, iş 7, v.23
66. MDA, f. 2898, siy.1, iş 12a, v.172
67. Yeə orada, v.172
68. Yenə orada, v.214

69. MDA, f. 2898, siy.2, iş 12a, v.214; f. 2894, siy.1, iş 39, v.87
70. MDA, f. 2898, siy.2, iş 12, v.58
71. MDA, f. 2894, siy.1, iş 17, v.2
72. MDA, f. 2894, siy.1, iş 23, v.15
73. MDA, f. 2898, siy.2, iş 12a, v.161
74. MDA, f. 970, siy.1, iş 96, v.2
75. MDA, f. 2898, siy.2, iş 12, v.27
76. Yenə orada,v.145
77. MDA, f. 2898, siy.2, iş 12, v.98
78. MDA, f. 2898, siy.1, iş 23, v.47
79. MDA, f. 2898, siy.1, iş 23, v.97
80. MDA, f. 2898, siy.2, iş 12, v.304
81. Yenə orada
82. Yenə orada, v. 301
83. MDA, f. 2898, siy. 2, iş 12a, v.212
84. MDA, f. 2898, siy.2, iş 12, v.32
85. Yenə orada, v.32, 33
86. MDA, f. 2898, siy.2, iş 12a, v.258
87. Siyasi Sə nə dlə r Arxivi (SSA), f. 277, siy.2, iş 79, v.4–5
88. MDA, f. 2898, siy.2, iş 23, v.1
89. Yenə orada
90. MDA, f. 2894, siy.1, iş 4, v.61
91. MDA, f. 2894, siy.1, iş 1, v.5
92. SSA, f. 277, siy.2, iş 79, v.6
93. MDA, f. 2894, siy.3, iş 2, v.1
94. MDA, f. 2894, siy.1, iş 39, v.36
95. Yenə orada, v.37
96. MDA, f. 2894, siy.4, iş 7, v.20
97. Yenə orada, v.1–13
98. Yenə orada, v.13–14
99. MDA, f. 2894, siy.1, iş 4, v.41–42
100. MDA, f. 2894, siy.1, iş 35, v.51
101. Yenə orada, v.19
102. MDA, f. 2894, siy.1, iş 10, v.129
103. Yenə orada, v.13a
104. MDA, f. 2894, siy.1, iş 15, v.8

105. MDA, f. 2894, siy.1, iş 7, v.17
106. MDA, f. 2894, siy.4, iş 6, v.17
107. MDA, f. 2894, siy.1, iş 13, v.25
108. Yenə orada, v.6
109. Süleymanov M. Mehmandarov. Bakı, 2000, s.134
110. MDA, f. 2894, siy.2, iş 1, v.121
111. MDA, f. 2894, siy.1, iş 39, v.85
112. Yenə orada, v.158
113. Yenə orada
114. Yenə orada, v.159
115. MDA, f. 2898, siy. 2, iş 15, v.54
116. Süleymanov M. Mehmandarov. Bakı, 2000, s.135
117. Süleymanov M. Mehmandarov. Bakı, 2000, s.135–136
118. Süleymanov M. Mehmandarov. Bakı, 2000, s.72
119. Стеклов А. Армия Мусаватского Азербайджана. Б., 1928, с. 42
120. Yenə orada, s.23
121. MDA, f. 2898, siy.2, iş 49, v.16
122. MDA, f. 2894, siy.1, iş 1, v.7
123. SSA, f. 277, siy.2, iş 43, v.33
124. MDA, f. 2894, siy.1, iş 1, v.6
125. SSA, f. 277, siy.2, iş 79, v.7
126. MDA, f. 2894, siy.1, iş 3, v.1
127. MDA, f. 2898, siy.2, iş 3, v.5
128. MDA, f. 2894, siy.1, iş 3, v.1
129. MDA, f. 2898, siy.1, iş 13, v.73
130. MDA, f. 2894, siy.1, iş 40, v.47
131. MDA, f. 2894, siy.3, iş 2, v.1
132. SSA, f. 277, siy.2, iş 79, v.1
133. Yenə orada, v.7
134. Yenə orada, v.1
135. Стеклов А. Армия Мусаватского Азербайджана. Б., 1928, с. 42
136. MDA, f. 2898, siy.2, iş 5, v.403
137. MDA, f. 2894, siy.1, iş 13, v.28
138. MDA, f. 2894, siy.1, iş 1, v.3

139. MDA, f. 2894, siy.1, iş 40, v.31
140. MDA, f. 2894, siy.1, iş 15, v.99
141. MDA, f. 2894, siy.1, iş 30, v.25
142. MDA, f. 2916, siy.1, iş 1, v.95
143. MDA, f. 2894, siy.1, iş 6, v.35
144. MDA, f. 2894, siy.1, iş 15, v.82
145. Yenə orada, v.109, 145
146. MDA, f. 2894, siy.1, iş 13, v.5
147. MDA, f. 2894, siy.1, iş 16, v.153
148. MDA, f. 2898, siy.2, iş 23, v.61
149. MDA, f. 2898, siy.2, iş 12a, v.8–14
150. MDA, f. 2898, siy.2, iş 23, v.12
151. MDA, f. 2894, siy.1, iş 15, v.115
152. MDA, f. 2898, siy.1, iş 25, v.7
153. MDA, f. 2894, siy.2, iş 2, v.59–65
154. Yenə orada, v.65
155. Стеклов А. Армия Мусаватского Азербайджана. Б., 1928, с. 42
156. MDA, f. 2898, siy.2, iş 3, v.150
157. MDA, f. 2894, siy.1, iş 8, v.7
158. MDA, f. 2894, siy.1, iş 39, v.137
159. MDA, f. 2894, siy.1, iş 1, v.6
160. Yenə orada, v.6, 7
161. MDA, f. 2898, siy.2, iş 49, v.30
162. SSA f.277, siy.2, iş 43, v.1
163. MDA, f. 2898, siy.2, iş 5, v.403–404
164. Yenə orada
165. MDA, f. 2894, siy.1, iş 3, v.11
166. MDA, f. 2916, siy.1, iş 1, v.99
167. MDA, f. 2898, siy.2, iş 24, v.48
168. MDA, f. 2898, siy.2, iş 24, v.98
169. Yenə orada
170. MDA, f. 2894, siy.1, iş 9, v.65
171. MDA, f. 2894, siy.1, iş 40, v.7
172. MDA, f. 2898, siy.2, iş 24, v.93
173. Yenə orada, v.19

174. Yenə orada
175. Стеклов А. Армия Мусаватского Азербайджана. Б., 1928, с. 42
176. MDA, f. 2898, siy. 2, iş 24, v.19, 102
177. MDA, f. 2898, siy.2, iş 25, v.93
178. Стеклов А. Армия Мусаватского Азербайджана. Б., 1928, с. 55
179. MDA, f. 2898, siy. 2, iş 24, v.172
180. Yenə orada, v.192
181. MDA, f. 2898, siy.2, iş 23, v.185
182. MDA, f. 2898, siy.2, iş 24, v.192
183. MDA, f. 2898, siy.2, iş 23, v.86
184. MDA, f. 2898, siy.2, iş 50, v.77
185. Yenə orada, v.74
186. MDA, f. 2894, siy.1, iş 5, v.27
187. MDA, f. 2898, siy.2, iş 12a, v.112
188. Yenə orada, v.114
189. Yenə orada, v.125
190. Yenə orada, v.170
191. Стеклов А. Армия Мусаватского Азербайджана. Б., 1928, с. 67
192. MDA, f. 2894, siy.1, iş 9, v.131
193. MDA, f. 2894, siy.1, iş 5, v.3
194. MDA, f. 2898, siy.2, iş 23, v.202
195. Yenə orada
196. Yenə orada, v.202–203
197. MDA, f. 2898, siy.2, iş 24, v.100
198. Yenə orada
199. Yenə orada, v.172
200. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918–1920. Bakı, 1993, s.256
201. Дарабади П.Г. Военные вопросы в курсе истории Азербайджана. Баку, 1993, с.123
202. MDA, f. 2894, siy.1, iş 13, v.76
203. MDA, f. 2896, siy.1, iş 10, v.23
204. MDA, f. 2894, siy.1, iş 21, v.3

205. MDA, f. 2894, siy.2, iş 3, v.12
206. MDA, f. 2894, siy.1, iş 14, v.1,4
207. MDA, f. 2896, siy.1, iş 4, v.114
208. MDA, f. 2896, siy.1, iş 2, v.114
209. MDA, f. 2898, siy.2, iş 24, v.20; f. 2898, siy.2, iş 25, v.74
210. MDA, f. 2898, siy.2, iş 46, v.61
211. Токаржевский. Е. А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957, с.248
212. MDA, f. 1046, siy.4, iş 93, v.2
213. MDA, f. 894, siy.2, iş 39, v.56, 59
214. Стеклов А. Армия Мусаватского Азербайджана. Б., 1928, с. 62–63
215. Yenə orada, s.63
216. Yenə orada
217. Yenə orada

# III FƏSİL

# KADR HAZIRLIĞI

## *1. Ordunun zabit heyəti*

Azərbaycan Ordusunun zabit kadrlarla təmin edilməsinin iki mənbəyi var idi. Birinci daxili mənbə, yəni milli zabit kadrları, ikincisi isə xarici mənbə, yəni rus, gürcü və digər millətlərdən olan kadrlar. Öz çəkisi etibarilə ikinci mənbəyə aid olan zabitlər ordunun kadr heyətində heç də az deyildi və bu da, əslində, obyektiv şəraitlə şərtlənirdi. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanın milli zabit kadrları həddən artıq az idi və yeni yaradılan qoşun hissələrinin kadr heyəti ilə təmin edilməsi üçün qeyri-milli kadrlardan istifadə edilməsinə xüsusi diqqət yetirilirdi. Onların arasında da çar ordusunda xidmət etmiş rus zabitləri çoxluq təşkil edirdi və Azərbaycan Ordusunun formalaşmasında bu zabitlərin də özünəməxsus xidməti və rolu var idi. 1919-cu ilin əvvəlində ordunun Ümumi qərargahında ərzaq payı olan zabitlərin siyahısındakı 48 zabitdən yalnız 14-ü azərbaycanlı idi (1). Yəni qərargahın fəaliyyətini tənzimləyən zabitlərin az qala dörddə üçü qeyri-azərbaycanlı zabitlər idi və ordunun formalaşmasının çox məsuliyyətli sahələri onlara tapşırılmışdı. Bu kadrların arasında general-leytenant Tarxanov, general-mayor Makeyev, polkovnik Serebrennikov, polkovnik Bekov, polkovnik Mixaylov, polkovnik Xarkeviç, polkovnik Mixaylovski və s. kimi fəaliyyəti həmişə rəğbət doğuran zabitlər var idi. Müxtəlif vəzifələrdə xidmət edən bu zabitlər öz təcrübəsi və tapşırılan işə yüksək sədaqəti və məsuliyyəti ilə fərqləndiyi üçün ordunun möhkəmləndirilməsi istiqamətində ən vacib sahələrə göndərilirdilər. Onlar qoşun hissələrində xidmətin təşkilinə yaxından kömək edirdilər. Bu zabitlərdən bir çoxunun ezamiyyətdə olduqları bir sıra hissələrdə təchizat işinin təşkilindəki nöqsanlar barədə verdikləri məlumatlardan sonra Hərbi nazir S.Mehmandarov ordunun təchizat sistemində ciddi dəyişikliklər etmək qənaətinə gəlmişdi (2).

Milliyyətindən asılı olmayaraq xidməti vəzifəsini sədaqətlə yerinə yetirən heç bir zabitin fəaliyyəti Hərbi Nazirliyin rəhbərli-

yinin diqqətindən qaçmırdı. 1919-cu ilin yayında Şuşada hərbi vəziyyət mürəkkəbləşəndə, orada yerləşən qoşun bölmələri erməni silahlı dəstələrinə layiqli cavab verdilər. Hərbi nazir öz əmrinin birində qeyd edirdi ki, şəhərin mühafizəsində dayanan və qarovul xidmətini icra edən şəhər qarnizonu öz mövqelərini şücaətlə qorudu və tapşırılan vəzifənin öhdəsindən dəqiqliklə gəldi. Nazir bu uğurun qazanılmasında 1-ci Cavanşir piyada alayının buradakı birinci taborunun komandiri ştabs-kapitan Ştollun və bölük komandiri poruçik Yan Kosinskinin fəaliyyətini vəzifə borcunun vicdanlı icrası kimi qiymətləndirir və qorxmazlığı ilə əsgərləri də ruhlandıran bu zabitlərin hər ikisinə səmimi təşəkkürünü çatdırırdı (3).

Azərbaycan Ordusu sıralarında xeyli sayda gürcü zabiti də var idi (4) və onların sədaqətli xidməti, Azərbaycan Ordusunun formalaşmasındakı rolları minnətdarlıqla qiymətləndirilirdi. İstefaya çıxan general-mayor Amaşukelinin Azərbaycan Ordusu sıralarındakı xidmətinə Hərbi nazirin verdiyi qiymətə I fəsildə toxunulmuşdu. Onu da qeyd etmək lazımdır ki, bolşevik işğalı ərəfəsində Azərbaycan hökumətinin ordu ilə bağlı son qərarlarından biri də məhz iki gürcü zabitinə – polkovnik Karqatleteli və polkovnik Çxeidzeyə general-mayor rütbəsi verilməsi ilə bağlı idi.

Bütün zabitlər kimi qeyri-azərbaycanlı zabitlərin Azərbaycan Ordusunda xidmətə qəbulu Hərbi nazirin əmri ilə rəsmiləşdirilirdi. Onlar xidmətə qəbul olunan kimi Azərbaycan Respublikasına sədaqət andı qəbul etməli idilər. Qəbul edilən hər bir zabitin əvvəlki xidmət stajı, rütbəsi və müvafiq hüquqları saxlanılırdı. Hətta Azərbaycan Ordusunda xidmət edərkən gürcü zabiti rotmistr Pxakadze Gürcüstan hökumətinin qərarı ilə podpolkovnik rütbəsinə layiq görülmüşdü və Azərbaycanın Hərbi nazirinin müvafiq əmri ilə Pxakadzenin yeni rütbəsi buradakı xidməti zamanı nəzərə alınırdı (5).

Bir sözlə, orduya qəbul edilən qeyri-azərbaycanlı zabitlərin xidmətinin icrası üçün azərbaycanlı zabitlərlə bir səviyyədə lazımi şərait yaradılır və qayğı göstərilirdi. Bununla belə, onlara qarşı çox böyük tələbkarlıq da nümayiş etdirilirdi. Zabit kadrlarının hədsiz qıtlığına baxmayaraq, onların hər birinin fəaliyyəti

daimi nəzarət altında idi və hərbi xidmətin tələblərinə cavab verməyən və ya vəzifəsinin icrasına laqeydlik və biganəlik göstərənlərə qarşı ən sərt tədbirlər həyata keçirilirdi. Məsələn, gürcü generalı Purseladze zabit mənəviyyatının və davranış qaydalarının tələblərinə cavab verə bilmədiyi, tabeliyində olanların gözü qarşısında sərxoşluq edib kart oynamağa meyil göstərdiyi üçün Hərbi nazirin 20 fevral 1920-ci il tarixli əmri ilə Azərbaycan Ordusu sıralarından xaric edilmişdi (6).

Azərbaycan Ordusunda xidmətin tələblərinə cavab verməyən digər qeyri-azərbaycanlı zabitlərə qarşı da belə ciddi bir tələbkarlıq mövcud idi. Hər şeydən əvvəl Azərbaycan Ordusuna qəbul edilən bütün zabitlər qarşısında belə bir tələb qoyulurdu ki, onlar bir ay ərzində komanda və əmrlərin Azərbaycan dilində qarşılığını öyrənməli və şəxsi heyətə bütün əmrləri Azərbaycan dilində verməlidirlər. Göstərilən müddət ərzində Azərbaycan dilində zəruri lüğət bazasını öyrənə bilməyən zabitlər onların birbaşa komandirləri tərəfindən Azərbaycan Ordusundan xaric olunması üçün təqdim edilməli idilər (7). Hərbi nazir 1919-cu il iyunun 25-də imzaladığı başqa bir əmrində də xüsusi olaraq qeyd edirdi ki, bu tələb gürcü zabitlərinə də aiddir və onlar Azərbaycan Ordusuna qəbul ediləndən sonrakı bir ay müddətində şəxsi heyətə Azərbaycan dilində komanda vermək üçün zəruri olan lüğət bazasını öyrənməlidirlər. Əks təqdirdə bir ayın sonunda onlar da xidmətdən azad edilməli idilər (8). Qeyri-azərbaycanlı zabitlərin Azərbaycan dilini öyrənməsi ilə bağlı 8 oktyabr 1919-cu il tarixli 460 nömrəli başqa bir əmrində Hərbi nazir göstərirdi ki, komanda sözlərini Azərbaycan dilində bilməyən zabit bölük komandiri vəzifəsinə təyin edilə bilməz (9).

Hərbi Nazirliyin rəhbərliyi qeyri-azərbaycanlı zabitlərdən Azərbaycan dilində zəruri söz ehtiyatlarına malik olmasını tələb etməkdən əlavə, həm də onlardan xidməti keyfiyyətlərin təkmilləşdirilməsini, daim öz üzərlərində işləmələrini, ardıcıllıq, təşəbbüskarlıq və mənəvi bütövlük göstərmələrini tələb edirdi. Hərbi nazir 21 may 1919-cu il tarixli 258 nömrəli əmrində göstərirdi ki, qoşun hissələrinin tələsik yaradılması ilə əlaqədar olaraq qoşunların təlim və tərbiyəsində lazımi hazırlığı olmayan bir sıra

zabitlər də xidmətə qəbul edilmişdirlər. Nazir təəssüflə qeyd edirdi ki, ötən beş ay müddətində belə zabitlər öz üzərlərində işləmək üçün kifayət qədər vaxta malik olsalar da, Azərbaycan dilini bilməmələri, təcrübələrinin aşağı olması və çalışqanlıq göstərməmələri üzündən əvvəlki səviyyədə qalmaqdadırlar. Ona görə bu zabitlər onlara bağlanan ümidləri doğrultmadığı üçün Azərbaycan Ordusu sıralarından xaric edildilər. Xaric olunanların siyahısında 10 nəfər zabitin adı var idi (10).

Ordu sıralarından xaric edilən qeyri-azərbaycanlı zabitlərin bir çoxu hətta Azərbaycanda yaşamaq hüququndan məhrum edilirdilər. Bu məsələ Hərbi nazirin müvafiq əmrində hökmən qeyd edilirdi (11). Hərbi nazir Nazirlər Şurasının sədrinin adına göndərdiyi məktubunda, ümumiyyətlə, ordu sıralarından xaric edilmiş rus zabitlərinin etibarsız elementlər kimi Azərbaycandan çıxarılması barədə lazımi tədbirlərin həyata keçirilməsinin zəruriliyini vurğulayırdı (12).

Konkret tarixi şəraitin xüsusiyyətləri, denikinçilərin, biçeraxovçuların Bakıda açıq fəaliyyəti, Bakıdakı Rus Milli Şurasının rus əhalisi arasında iş aparması və onları Denikin ordusu sıralarına cəlb etməyə çalışması Azərbaycan Ordusunda xidmət edən rus zabitlərinin müəyyən hissəsinə də təsir göstərməyə bilməzdi. Ona görə Hərbi Nazirliyin rəhbərliyi əqidəcə qeyri-sabit olan belə zabitlərin əvəz edilməsi üçün yollar axtarırdı.

1919-cu ilin ilk aylarında Tiflisdəki diplomatik nümayəndəliyin məlumatı əsasında Xarici İşlər Nazirliyi Hərbi Nazirliyə sorğu göndərdi ki, Azərbaycan Ordusunda xidmət etmək arzusunda olan xarici zabitlər arasında hansı ixtisasda olanların seçilməsinə üstünlük verilməsi məqsədəuyğundur? (13). Azərbaycanda xidmət etmək istəyən belə zabitlər arasında türk zabitləri də var idi. Hərbi Nazirlik bu sorğu ilə bağlı verdiyi cavabında bildirirdi ki, müsəlman məzhəbinə mənsub olan türk zabitlərinin Azərbaycan Ordusuna qəbul edilməsi çox yaxşı olardı. Çünki Praporşiklər məktəbinin növbəti buraxılışından sonra ordudakı etibarsız rus zabitlərinin təmizlənməsinə başlanmalı və piyada qoşunlarında onların miqdarı 5–7 faizdən artıq olmamalı idi. Süvari qoşunlarında və topçu hissələrində vakant vəzifələrə Krımdan gəlməsi göz-

lənilən tatar-müsəlman zabitlərin təyin ediləcəyi planlaşdırılırdı. Türk zabitlərinin qəbul edilməsi və etibarsız elementlərin yerinə vəzifələrə təyin edilməsi qoşunların xeyrinə olardı. Hərbi nazir buna rəğbətlə yanaşsa da, ingilis qoşunları komandanlığının türklərə olan barışmaz münasibəti onu ehtiyatlı hərəkət etməyə vadar edirdi. İngilis qoşunları komandanlığı Azərbaycan Ordusunda türk zabitlərinin olmasına heç bir vəchlə yol vermirdi və onların çoxsaylı xəfiyyələri Azərbaycan qoşunlarına türk zabitlərinin qəbul edilib-edilməməsini daim nəzarət altında saxlayırdılar (14).

Buradan Hərbi Nazirliyin rəhbərliyinin kadr siyasətinin Azərbaycan Ordusu zabitlərinin milliləşdirilməsinə, müsəlman zabitlərin sayının artırılmasına, sədaqətliliyi şübhə doğuranların isə ordudan uzaqlaşdırılmasına istiqamətləndiyi aydın görünür.

Rus zabitlərinin bir çoxunun sabit mövqedə dayanıb öz zabit vəzifəsini qoruya bilməməsi Azərbaycan Ordusunda xidmət edən rus zabitlərinin heç də hamısı tərəfindən müdafiə edilmirdi. 1919-cu ilin fevral ayında Hərbi nazirin razılığı ilə rus zabitləri Gəncə şəhərində ümumi iclas keçirib bir sıra rus zabitlərinin Azərbaycan Ordusundakı xidməti barədə müzakirələr apardılar, qarşılarında dayanan vəzifələr haqqında söhbət açdılar. Bir neçə gündən sonra rus zabitləri Gəncə şəhərində növbəti ümumi iclas çağırdılar. Hərbi nazirin razılığı olmadan çağırılan bu iclasda da başlıca olaraq Azərbaycan Ordusunun rus zabitlərinin xidməti vəzifənin icrasına münasibəti, onların peşə və mənəvi-etik keyfiyyətləri müzakirə edildi. İclasda Azərbaycan Ordusunda xidmət edən rus zabitlərinin Şurası seçildi. Bu Şura könüllü olaraq öz üzərinə Azərbaycan Ordusunda xidmət etmək istəyən rus zabitlərinin seçilməsi, onların mənəvi və hərbi keyfiyyətlərinə görə Azərbaycan Ordusunda xidmətə yararlılığının müəyyənləşdirilməsi vəzifəsini götürdü. Hərbi nazir S.Mehmandarov bir sıra rus zabitlərinin kadrların seçilməsi üçün narahatlıq keçirmələrindən razılıq duyduğunu bildirməklə yanaşı qeyd edirdi ki, zabit kadrlarının seçilməsi, xidmətə qəbul edilməsi Hərbi Nazirliyin müstəsna səlahiyyətidir və hər hansı bir qurumun bu səlahiyyətlərə müdaxilə etməsi qəbul olunmazdır. Nazir onu da əlavə edirdi ki, səbatlı kadrların qəbul edilməsi hazırda Hərbi Nazirliyin rəhbərli-

yinin ciddi diqqəti altındadır, dini və milli mənsubiyyətindən asılı olmayaraq orduya yalnız layiqli kadrlar seçiləcəkdir (15).

Nazirə görə, bu və ya digər zabitin əməlinə qiymət verilməsi isə zabitlərin Şərəf məhkəmələrinin səlahiyyətinə aiddir. Belə məhkəmələr hər bir alayda yaradılmalı idi. Bütün millətlərdən olan zabitlər bir yerə yığışaraq özləri arasından ən layiqlilərini, mənəvi, etik, əxlaqi keyfiyyətləri ilə hörmət qazanmış zabitləri bu Şərəf məhkəmələrinə seçməli və sonra da bu və ya digər zabitin əməllərinin qiymətləndirilməsini bu məhkəmələrə etibar etməli idilər. Ona görə də S.Mehmandarov bu və ya digər millətlərdən olan zabitlərin toplaşaraq qurum yaratmalarını və bu qurumların işinin konkret millətdən olan zabitlərin əməllərinin qiymətləndirilməsi üzərində qurulmasını yolverilməz hesab edirdi. Onun fikrincə, bu təcrübə tezliklə digər millətlərdən olan zabitlərin də öz qurumlarının yaratmasına yol aça bilərdi. Nazir zabitlərin əməllərinin qiymətləndirilməsi üçün yalnız Şərəf məhkəmələrini tanıdığını və ordudan xaric ediləsi zabitlərin hərəkətlərinin də məhz bu məhkəmələrdə təhqiq edilməsinin və onların xidmətin tələblərinə uyğun gəlməyən hərəkətlərinin burada araşdırılmasının vacibliyini vurğulayırdı (16).

Bu məsələ ilə bağlı 17 fevral 1919-cu il tarixli əmrinin birinci bəndini nazir belə tamamlayırdı: "Bütün millətlərdən olan zabitlərə xatırladıram ki, onlar həqiqi dövlət xidmətindədirlər və mövcud qanunlar qarşısında eyni məsuliyyəti daşıyırlar" (17).

Bu tələblər bütünlüklə azərbaycanlı zabitlərə də şamil edilirdi. Hərbi Nazirliyin kadr siyasətində milli tərkibin sayının artırılmasına xüsusi diqqət yetirilsə də, onlara qarşı tələbkarlıq da azaldılmırdı. Hər bir azərbaycanlı zabitin xidməti bütün instansiyalar üzrə daimi qayğı və nəzarət altında saxlanılırdı.

Hərbi Nazirliyin azərbaycanlı zabit kadrlarının ilkin bazasını hələ Müsəlman korpusunda toplaşmış, sonra isə xüsusi Azərbaycan korpusunda xidmətini davam etdirmiş zabitlər təşkil edirdilər. Onların arasında general-leytenant Ə.Şıxlinski, polkovnik Həbib bəy Səlimov, polkovnik Süleyman bəy Əfəndiyev, polkovnik Həmid bəy Qaytabaşı, polkovnik Əmənulla Mirzə Qacar, polkovnik Yadigarov kimi təcrübəli və savadlı zabitlər var

idi. Azərbaycan Ordusunun tərkibində xidmətlərini davam etdirərkən bu zabitlər həm məsuliyyətli vəzifələrə təyin edilməklə ordunun möhkəmləndirilməsinin mühüm sahələrini öz üzərinə götürmüş, həm də müstəqil Azərbaycan dövlətinin yüksək hərbi rütbələrinə layiq görülmüşdülər. Azərbaycan Ordusunda xidmət edən azərbaycanlı zabitlər tək bunlar deyildilər və vaxtilə çar ordusunda xidmət etmiş azərbaycanlı zabitlər milli ordunun yaradılmasında bütün bacarıqlarını sərf etməyi özlərinin şərəf və vətəndaşlıq borcu sayırdılar.

Nazirlər Şurasının 19 fevral 1919-cu il tarixli qərarı ilə bütün nazirliklərə tapşırılmışdı ki, Hərbi Nazirliyin razılığı olmadan heç bir müsəlman zabit mülki işə qəbul edilməsin (18). Nəticədə iş üçün dövlət müəssisələrinə müraciət edən azərbaycanlı və digər müsəlman zabitlər Hərbi Nazirlik tərəfindən aşkar edilir və onların xidmət etmək imkanları öyrənilirdi.

Hərbi Nazirliyin rəhbərliyi gənc zabitlər arasında qərargah işlərindən yaxşı baş çıxaran zabitlərin ixtisaslaşmasına da xüsusi diqqət yetirirdi. Bununla bağlı birinci və ikinci diviziyaların hər birindən 3 nəfər praporşik Baş Ərkani-hərbə ezam olunmalı və onlar burada qərargah işlərinin xüsusiyyətlərini öyrənməli idilər (19).

İlkin zabit rütbəsi, adətən, hərbi təhsil müəssisələrini bitirənlərə verilirdi. 1919-cu ilin mart ayında Şərur və Naxçıvan qəzalarının erməni təcavüzkarlarından müdafiəsi zamanı göstərdikləri şücaətlərə görə bir qrup şəxs cənub-qərbi Azərbaycan general-qubernatorunun köməkçisi Bəhram xan Naxçıvanski tərəfindən ilkin zabit rütbəsi verilməsinə təqdim edilmişdi. Hərbi nazir, Bəhram xan Naxçıvanskinin vəsatətinə əsasən təqdim edilən şəxslərə praporşik rütbəsi verilməsi barədə əmr imzalamaqla bərabər, bildirirdi ki, gələcəkdə belə hallara yol verilməməlidir. Çünki hərbi şücaətlərinə görə zabitliyə irəli sürülən şəxslər əvvəlcə Gəncə Praporşiklər məktəbində imtahan verməli və müvəffəq qiymət aldığı halda zabit rütbəsinə təqdim olunmalıdırlar (20).

Hərbi nazirin yalnız ilkin zabit rütbəsi olan praporşik rütbəsini vermək səlahiyyəti var idi. Bunu o, 1918-ci il 15 dekabr tarixli 18 nömrəli əmri ilə bütün qoşunlara da elan edirdi. Praporşikdən sonrakı bütün hərbi rütbələr Hərbi nazirin təqdimatı ilə Nazirlər Şurası

sədrinin qərarı ilə verilirdi (21). Nazirlər Şurasının hərbi qulluqçulara hərbi rütbələr verilməsi ilə bağlı qərarı Hərbi nazirin müvafiq əmri ilə bütün qoşunlara elan edilirdi. Bu əmrdə mütləq göstərilirdi ki, adları çəkilən zabitlərə növbəti rütbələr Nazirlər Şursının hansı nömrəli və hansı tarixdən olan qərarı əsasında verilmişdir (22).

Nazirin əmri ilə zabitlərin növbəti hərbi rütbəyə təqdim olunmasının dövriliyi də müəyyənləşdirilmişdi. Vaxtı çatması ilə əlaqədar növbəti hərbi rütbəyə müvafiq sənədlər Novruz, Ramazan və Qurban bayramları ərəfəsində təqdim edilməli idi. Döyüş igidliyinə və digər şücaətinə görə fərqlənənlər isə istənilən vaxt hərbi rütbə alınmasına təqdim edilə bilərdilər (23).

Bir çox hərbi hissələrin komandirləri öz zabitlərini kütləvi surətdə növbəti hərbi rütbələrə təqdim edirdilər. Hərbi nazir bununla razılaşmırdı və belə bir praktikaya son qoyulmasını tələb edirdi. Onun fikrincə, kütləvi təqdimatların göndərilməsi zamanı hissə komandirləri zabitlərin şəxsi işlərini lazımınca nəzərdən keçirmirdilər, bir çox məsələlərin fərqinə varmadan müvafiq sənədləri imzalayırdılar. Təqdim edilənlər arasında elələri də olurdu ki, sonuncu rütbəni almasından cəmi 3–4 ay keçmişdi. Nazir diqqəti belə bir məqama yönəldirdi ki, vaxtı çatdı-çatmadı zabitlərin növbəti hərbi rütbəyə təqdim edilməsi bu tədbirin əməli və mənəvi keyfiyyətlərini itirir və o, zabit həyatında hiss olunacaq bir məqama çevrilmir. Onun fikrincə, kütləvi təqdimatların göndərilməsi Hərbi Nazirliyin rəhbərliyini də ən layiqliləri seçib haqqında vəsatət qaldırmaq imkanlarından məhrum edirdi. S.Mehmandarov xüsusi olaraq vurğulayırdı ki, hər bir zabit növbəti rütbəyə xidməti və mənəvi keyfiyyətlərinə görə təqdim edilməlidir. Qayda üzrə zabit o vaxt növbəti rütbəyə təqdim oluna bilər ki, o, sonuncu rütbəsində ən azı bir il baş zabit və ən azı 2 il qərargah zabiti kimi xidmət etmiş olsun. Azərbaycan Ordusu sıralarında 6 aydan az xidmət etmiş zabit rütbəyə təqdim edilə bilməzdi (24).

Azərbaycan Ordusunda aşağıdakı hərbi rütbələr tətbiq edilirdi (25):

| **piyada qoşunları** | **süvari qoşunları** |
|---|---|
| praporşik | praporşik |
| podporuçik | kornet |

| | |
|---|---|
| poruçik | poruçik |
| ştabs-kapitan | ştabs-rotmistr |
| kapitan | rotmistr |
| podpolkovnik | podpolkovnik |
| polkovnik | polkovnik |
| general-mayor | general-mayor |
| general-leytenant | general-leytenant |
| tam general | tam general |

Ali rütbələrdən Nazilər Şurasının qərarı ilə Azərbaycan Ordusu zabitlərinə general-mayor və tam general rütbələri verilmişdi. I fəsildə qeyd edildiyi kimi, Hərbi Nazirlik bərpa ediləndən sonra Azərbaycan hökumətinin qərarı ilə general-mayor rütbəsini ilk dəfə Süleyman bəy Əfəndiyev, sonuncu dəfə isə Karqaleteli və Çxeidze almışdılar. Tam general rütbəsi isə yalnız bir nəfərə – Ə.Şıxlinskiyə verilmişdi. Nazirlər Şurasının 28 iyun 1919-cu il tarixli 29 nömrəli qərarı ilə Hərbi nazirin müavini Əliağa Şıxlinski yüngül artilleriya üzrə tam artilleriya generalı rütbəsinə layiq görülmüşdü (26).

Hərbi Nazirliyin arxiv sənədlərinin öyrənilməsi göstərir ki, 1918–1920-ci illər ərzində Azərbaycan Ordusunun sıralarında müxtəlif vaxtlarda və vəzifələrdə 28 general xidmət etmişdir. Onlar aşağıdakılardır: tam artilleriya generalı Səməd bəy Mehmandarov, tam artilleriya generalı Əliağa Şıxlinski (Hərbi nazirin müavini), general-leytenant Məmməd bəy Sulkeviç, general-leytenant Tarxanov (İstehkam idarəsinin rəisi), general-mayor Həbib bəy Səlimov (Ümumi qərargahın rəisi), general-mayor Süleyman bəy Əfəndiyev (1-ci piyada diviziyasının komandiri), general-mayor Murad Gəray Tlexas (Topçu idarəsinin rəisi, Bakının general-qubernatoru), general-mayor Həmid bəy Qaytabaşı (növbətçi general), general-mayor Teymur bəy Novruzov (süvari diviziyasının komandiri), general-mayor İbrahim ağa Usubov (2-ci piyada diviziyasının komandiri), general-mayor Cavad bəy Şıxlinski (1-ci piyada diviziyasının komandiri), general-mayor Vəkilov (topoqrafiya şöbəsinin rəisi), general-mayor Davud bəy Yadigarov (1-ci piyada diviziyası komandirinin müavini), general-mayor Firudin

bəy Vəzirov (Bakı şəhərinin hərbi komendantı), general-mayor Həşimbəyov (Ləvazimat idarəsinin rəisi), general-mayor Məmməd Mirzə Qacar (Hərbi Nazirliyin təchizat rəisi), general-mayor Amaşukeli (süvari diviziyası komandirinin müavini), general-mayor Dubrovski (Hərbi ədliyyə hissəsinin rəisi), general-mayor Mençukov (Müsəlman korpusunun və Əlahiddə Azərbaycan korpusunun qərargah rəisi), general-mayor Sisianov (Ləvazimat idarəsinin rəisi), general-mayor Makeyev (2-ci piyada diviziyası komandirinin müavini), general-mayor Purseladze (tapşırıq generalı), general-mayor Feyzulla Mirzə Qacar (Gəncə qarnizonunun rəisi), general-mayor Xlebnikov (Hərbiyyə məktəbinin müəllimi), general-mayor Əmənulla Mirzə Qacar (süvari diviziyası komandirinin müavini), general-mayor Çxeidze (Hərbiyyə məktəbinin rəisi), general-mayor Əmir Mirzə Kazım Qacar (Gəncə şəhərinin hərbi komendantı), general-mayor D.Karqaleteli.

Ordu sıralarında bir sıra nəsillərin bir neçə nümayəndəsi, eyni zamanda, xidmət edir və fədakar zəhmətləri ilə Azərbaycan Ordusunun şərəfini yüksəklərdə saxlamağa çalışırdılar. Məsələn, Şıxlinskilər nəslindən ordu sıralarında iki general xidmət edirdi. Biri tam artilleriya generalı Ə.Şıxlinski, o biri isə uzun müddət 1-ci piyada diviziyasının komandiri vəzifəsində xidmət etmiş general-mayor Cavad bəy Şıxlinski idi. Bu nəslin başqa bir nümayəndəsi polkovnik Rüstəm bəy Şıxlinski isə uzun müddət Praporşiklər məktəbinin və Hərbiyyə məktəbinin rəisi olmuşdu.

Yadigarovlar nəslinin də Azərbaycan Ordusu sıralarında bir neçə nümayəndəsi xidmət edirdi. Onların arasında general-mayor Davud bəy Yadigarov, kornet Rəhim bəy Yadigarov, kornet Vəli bəy Yadigarov, praporşik Adil bəy Yadigarov da var idi.

Azərbaycan Ordusuna daha çox zabit və generalı isə Qacarlar nəsli vermişdi. Onlar aşağıdakılardır: general-mayor Məmməd Mirzə Qacar, general-mayor Feyzulla Mirzə Qacar, general-mayor Əmənulla Mirzə Qacar, general-mayor Əmir Mirzə Kazım Qacar, polkovnik Seyfulla Mirzə Qacar, polkovnik Xosrov Mirzə Qacar, rotmistr Rza Mirzə Qacar, kornet İdris ağa Qacar, kornet Firudin Mirzə Qacar, praporşik Abbas Mirzə Qacar. Qacarlar nəslinin nümayəndələrindən Azərbaycan ordusunda çox məsuliyyətli vəzifə

tutanlar da var idi. Bolşevik işğalı ərəfəsində polkovnik Sədrəddin Mirzə Qacar Ləvazimat idarəsinin rəisi, general-mayor Məmməd Mirzə Qacar ordunun təchizat rəisi idi. Bütün sahələr üzrə ordunun təchizat məsələlərinə birbaşa o cavabdehlik daşıyırdı. Hərbi nazir S.Mehmandarov onun fəaliyyətinə çox yüksək qiymət verirdi. Bu generalın sonsuz işgüzarlığına, 1-ci piyada diviziyası komandiri vəzifəsinin müvəqqəti icraçısı olduğu vaxt erməni təcavüzkarları ilə mübarizə aparmaq üçün xüsusi təyinatlı taborun formalaşdırılmasında, təchiz edilməsində göstərdiyi xidmətlərinə görə Hərbi nazir öz əmrlərindən birində ona dərin təşəkkürünü çatdırdı (27).

Zabit kadrlarının hazırlanmasına, kənardan cəlb edilməsinə xüsusi fikir verilsə də, Azərbaycan Ordusunun mövcudluğu dövründə bu problemi də bütünlüklə aradan qaldırmaq mümkün olmadı. Ancaq mövcud olan hərbi təhsil ocaqlarının bir neçə buraxılışı vəziyyəti xeyli yaxşılaşdırdı və planlaşdırılan tədbirlər yaxın gələcəkdə problemin demək olar ki, aradan qaldırılmasına imkan verə bilərdi. Buna görə bir sıra hissələrdə zabit kadrlarına olan ehtiyac daha çox idi, bir sıra hissələrdə isə bu qıtlıq xüsusi bir şəkildə hiss olunmurdu. Süvari diviziyasında zabitlərin qıtlığı üzündən bəzi bölüklərin formalaşdırılması ləngiyirdi (28). 1-ci topçu briqadasının zabitlərinin çatışmazlığı üzündən şəxsi heyətin təlim-tərbiyəsini lazımi səviyyədə aparmaq mümkün deyildi.

Zabit olmadığından bu iş kiçik çinli şəxslərə tapşırılırdı ki, bu da gözlənilən nəticəni vermirdi (29).

1919-cu il sentyabrın 9-da Topçu idarəsinin rəisi general M.Tlexas Hərbi Nazirliyin rəhbərliyinə məlumat verirdi ki, formalaşdırılmasına başlanmış 1-ci yüngül topçu divizionunda indiyə kimi nə bir zabit var, nə də bir savadlı əsgər və xahiş edirdi ki, heç olmasa divizion üçün Azərbaycan dilini bilən iki zabit ayrılsın (30).

1919-cu il sentaybr ayının əvvəllərində 1-ci piyada diviziyasının alaylarında zabitlər ştat və siyahı üzrə, habelə mövcudluğuna görə aşağıdakı şəkildə idi (31):

| Hissələrin adı | Ştat üzrə | | | Siyahı üzrə | | | Mövcud | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | gene-ral | qərar-gah zabiti | baş zab. | gene-ral | qərar-gah zabiti | baş zab. | gene-ral | qərar gah zabiti | baş zab. |
| 1-ci Cavanşir alayı | - | 6 | 55 | - | 3 | 59 | - | 1 | 34 |
| 2-ci Zaqatala piyada alayı | - | - | - | - | 3 | 60 | - | 2 | 41 |
| 3-cü Gəncə piyada alayı | - | - | - | - | 4 | 63 | - | 4 | 30 |

Cədvəldən göründüyü kimi, adları çəkilən hissələrin ştat üzrə zabitlərinin yarıdan bir qədər çoxu mövcud idi. Bəzi hissələrdə zabit heyətinə olan ehtiyacın aradan qaldırılması üçün münasib yollar aranırdı. Məsələn, Zaqatala alayı hələ əlahiddə tabor kimi mövcud olan vaxt hissə komandirinin təşəbbüsü ilə bir sıra zabit vəzifələrinə orduya çağırılmış qeyri-peşəkar şəxslər təyin edilmişdi və hissə komandirliyinin rəhbərliyi altında bu şəxslərin uğurlu fəaliyyəti Hərbi nazirin özü tərəfindən də qeyd edilmişdi (32).

1-ci Tatar və 2-ci Qarabağ süvari alaylarında da peşəkar zabitlər, demək olar ki, yox idi. Onların yerinə dinc dövrün süvari məktəblərini qurtaran şəxslər təyin edilmişdi (33).

Xüsusilə 1919-cu ilin əvvəllərində bu alaylarda zabit qıtlığı daha çox hiss olunurdu. Bəzi alaylarda zabit ştatlarına hərbi təcrübəsi olmayan şəxslər qəbul edildiyi halda süvari diviziyasının komandiri bunun əksinə idi. Onun fikrincə, hissədə 4 nəfər az təcrübəli, naşı zabitlərin olmasındansa, bir təcrübəli zabitin olması daha yaxşıdır. Ona görə də 1919-cu ilin aprelinə qədər süvari alaylarında böyük zabit qıtlığı qalmaqda davam etdi. Həmin vaxt süvari alaylarına Gəncə Praporşiklər məktəbindən yeni milli kadrların verilməsi barədə məsələ qaldırıldı. Diviziya komandirinin fikrincə, milli kadrlar kimi onlar tapşırılan vəzifələrə daha sədaqətlə yanaşacaqdılar və tez bir zamanda həm də zabit kimi yetişəcəkdilər (33a).



General-mayor Əmənulla Mirzə Qacar



Cümhuriyyət ordusunun zabiti (müasir rəsm)



Cümhuriyyət ordusunun topçusu (müasir rəsm)




Cümhuriyyət ordusunun əsgəri (müasir rəsm)



General-mayor Əmir Kazım Mirzə Qacar



General-mayor Həmid bəy Qaytabaşı

Bütünlükdə süvari alaylarında da ümumi vəziyyət piyada alaylarından çox da fərqlənmirdi. Lakin problem yerində də qalmırdı. Aşağıdakı siyahıdan da görmək mümkündür ki, zabitlərin mövcud miqdarında az da olsa müəyyən dəyişikliklər var idi. (34):

| Hissələrin adı | Siyahı üzrə 1919-cu il avqustun 1-də | | | Siyahı üzrə 1919-cu il avqustun 15-də | | |
|---|---|---|---|---|---|---|
| | **general** | **qərargah zabiti** | **baş zab.** | **general** | **qərargah zabiti** | **baş zab.** |
| Süvari diviziyasının qərargahı | 1 | 2 | | 1 | 2 | 1 |
| 1-ci Tatar süvari alayı | - | 3 | 23 | - | 4 | 23 |
| 2-ci Qarabağ süvari alayı | - | 4 | 29 | - | 3 | 30 |
| 3-cü Şəki süvari alayı | - | 4 | 19 | - | 3 | 21 |

Bir sıra hissələrin komandirləri kadr ehtiyacını aradan qaldırmaq üçün öz tanış zabitlərini yanlarına çəkməyə cəhd göstərirdilər ki, bu da Hərbi Nazirliyin rəhbərliyinin ciddi narazılığı ilə qarşılanırdı. Hərbi nazirin bu məsələ ilə bağlı müvafiq əmrində göstərilirdi ki, zabitlərin hara təyin edilməsini ordunun rəhbərliyi müəyyənləşdirir və bu vaxt o əsas tutulur ki, bütün hissələrdə zabitlərin miqdarı eyni səviyyədə olsun (35). Zabit kadrlarına belə bir ehtiyac duyulduğu vaxtda Hərbi Nazirliyin rəhbərliyi onların düzgün seçilib yerləşdirilməsinə, ixtisas hazırlığının daim təkmilləşdirilməsinə, mənəvi tərbiyəsinə xüsusi diqqət yetirirdi. Yəni keyfiyyət göstəriciləri kəmiyyət göstəricilərindən heç də az əhəmiyyət kəsb etmirdi və Nazirliyin rəhbərliyini zabitlərin sayının azlığından daha çox onların hərbi keyfiyyətlərinin aşağı olması narahat edirdi. Özünün 1 mart 1919-cu il tarixli 119 nömrəli əmrində Hərbi nazir S.Mehmandarov bildirirdi: «... İndi isə xəbərdar edirəm ki, yalnız maaş almaq üçün xidmət edib heç bir səmərəli fəaliyyət göstərməyən şəxslər mənim tərəfimdən heç bir mövqeyi nəzərə alınmadan dərhal xidmətdən xaric ediləcəklər. Azərbaycan Ordusuna qəbul olunmuş zabitlərə tapşırıram ki, öz işlərinə ciddi münasibət göstərsinlər. Əks təqdirdə, onlar tezliklə xidmətdən uzaqlaşdırılacaqlar. Öz biganə xidmətləri ilə hissələrdə düşkünlük yaradan belə zabitlərin varlığındansa, olmaması daha yaxşıdır» (36).

Ancaq qısa müddət ərzində mövcud olan çatışmazlıqları aradan qaldırmaq mümkün olmadı. Ona görə 1919-cu il mart ayının 26-da Hərbi nazir bu məsələlərlə bağlı yeni bir əmr imzaladı. Hərbi nazir bildirirdi ki, bir sıra hissələrdə daxili işlər qanunsuz və hətta cinayətkar şəkildə aparılır. Bu da hissə daxilində sui-istifadə hallarının sayını artırırdı. Bunun nəticəsi kimi hissələrdə heç bir əsas olmadan kimə gəldi geyim əşyaları və s. paylanırdı. Hətta alış-verişlər zamanı maliyyə vəsaitlərinin israfına yol verilirdi. Nazir onu da əlavə edirdi ki, daxili qayda-qanunun olmadığı hissələrin şəxsi heyəti arasında da bir yekdillik və vahidlik yox idi. Bu da tabor və bölük komandirlərinin öz vəzifələrinə məsuliyyətsizcəsinə yanaşmalarına yol açırdı. S.Mehmandarov təəssüflə qeyd edirdi ki, bir çox şəxslər Azərbaycan Ordusu sıralarına yalnız maaş almaq xatirinə gəlmişlər. Belələrinin bir çoxu dövlət əmlakının oğurlanması kimi hallara görə hətta həbsxanalara düşmüşdülər. Onun sözlərinə görə belə şəxslər xidmətdən azad edilməlidirlər. Belə bir qətiyyətin göstərilməməsində və Azərbaycan Ordusunun bu arzuolunmaz ünsürlərdən təmizlənməməsində nazir diviziya komandirlərini də təqsirləndirirdi. Nazir bir daha qətiyyətlə tələb edirdi ki, öz vəzifələrinin öhdəsindən gələ bilməyənlər, verilən əmrləri yerinə yetirməyənlər dərhal xidmətdən azad edilsinlər, dövlət əmlakının israfına yol verənlər isə cinayət məsuliyyətinə cəlb edilsinlər. S.Mehmandarov, eyni zamanda, öz işini düzgün qura bilməyən komandirlərin xidmətdən uzaqlaşdırılmasını məqsədəuyğun bilirdi. O əlavə edirdi ki, indiyə qədər ordunun formalaşmasının çətin şəraitində belə zabitlərin fəaliyyətinə yumşaqlıqla yanaşmışdısa, bundan sonra xidmətə yüngül münasibət bəsləyənlərə qarşı prinsipiallıq nümayiş etdirəcəkdir. Nazir diviziya komandirlərindən də bu işdə ona yardımçı olmağı tələb edirdi (36a).

Əmrlərinin birində 1919-cu ilin mart ayında 3-cü Gəncə piyada alayında xidmətin təşkilinin qənaətbəxş səviyyədə olmadığını göstərməklə nazir mövcud nöqsanların çoxunun zabitlərin fəaliyyəti ilə bağlı olduğunu qeyd edirdi. O, alay komandiri polkovnik Seyfulla Mirzə Qacara xəbərdarlıq etməklə bərabər, onun tabeliyində olan komandir və zabitlərə qarşı tələbkarlığı artırmağa çağırırdı. Nazir tələb edirdi ki, həvalə olunan məsuliyyətli vəzifə-

ləri icra etmək qabiliyyətində olmayan, tutduğu vəzifəyə uyğun gəlməyən tabor komandirləri dərhal ordudan xaric edilmək üçün təqdim olunmalıdırlar. Nazirin fikrincə, alayda baş verənlərə və bu zaman zabitlərin səmərəsiz fəaliyyət göstərməsinə qarşı alay komandiri biganə qalmamalı idi (37).

Bu məsələ ilə bağlı 20 mart 1919-cu il tarixli 137 nömrəli əmrində Hərbi nazir təəccüblə qeyd edirdi ki, bir sıra bölük komandirləri xidmətdən sonra uzaqda yaşamalarını bəhanə edərək şəxsi heyətə baş çəkmirdilər. Nazir belə bir faktı da dözülməz hal kimi, bölük komandirlərinin öz vəzifələrinin icrasına laqeyd münasibətin ifadəsi kimi qiymətləndirirdi (38).

Zabitlərin seçilməsində və yerləşdirilməsində bəzi hissə komandirlərinin sabit və qətiyyətli mövqedə dayanmaması da naziri ciddi narahat edirdi. 17 fevral 1919-cu il tarixli 83 nömrəli əmrində nazir göstərirdi ki, hissə komandirlərindən biri tabeliyində olan zabitlərdən birinin həvalə olunan vəzifəni icra edə bilmədiyi üçün xidmətdən qovulması barədə vəsatət qaldırmış və bu vəsatət müdafiə olunmuşdu. Bir müddətdən sonra isə hissə komandiri həmin zabitin yenidən xidmətə bərpa olunması barədə vəsatət qaldırmışdı. Bununla bağlı nazir bütün komandir heyətinin nəzərinə çatdırırdı ki, belə mövqedə dayanmaq yolverilməzdir və oxşar hərəkətlərə yol verən komandirlərə qarşı qanunun bütün ciddiliyi ilə ən sərt tədbirlər həyata keçiriləcəkdir (39).

Xidməti vəzifənin icrasına məsuliyyətsizcəsinə yanaşan hər bir zabitə qarşı sərt tədbirlər həyata keçirilirdi. Bu baxımdan 3-cü Şəki süvari alayının yavəri poruçik Qalacovla bağlı nazirin imzaladığı əmr xarakterik bir əmr idi. Adıçəkilən poruçik 1919-cu il dekabrın 2-də qatarla gedəndə bir sıra məxfi sənədləri yaddan çıxarıb qatarda qoymuşdu. Qatar bələdçisi təsadüfən onları tapıb Parlamentin dəftərxanasına təhvil vermişdi. Məxfi sənədlərin qorunmasına məsuliyyətsizcəsinə yanaşdığına görə poruçik Qalacov bir ay həbs edilməklə, tutduğu vəzifədən azad edilib kiçik zabit vəzifəsinə təyin olunmuşdu. Nazir bildirirdi ki, o, bu vəzifədə ən azı üç il işləməli və sonra onun yüksək vəzifəyə irəli çəkilməsi şəxsən Hərbi nazirin razılığı ilə olmalıdır (40).

Süvari diviziyasının komandiri də özünün daxili əmrlərindən birində zabitlər qarşısında belə tələblər qoyurdu, onların seçilməsinə, təyin edildikləri vəzifənin icrasına məsuliyyət hissi aşılanmasına xüsusi diqqət yetirirdi: "Alay komandirlərindən tələb edirəm ki, zabit heyətinə ən ciddi diqqət yetirsinlər. Xüsusən də bölük komandirlərinə ki, onlar həqiqətən təyin edildikləri vəzifəyə uyğunluq təşkil etsinlər. Onlar tərəfindən yol verilən bütün fəaliyyətsizlik və nöqsanlar haqqında müvafiq tədbirlər görülməsi üçün mənə xəbər verilsin" (41).

1-ci və 2-ci piyada diviziyalarının komandanlığı da tabeliyində olan zabitlərə qarşı belə ciddi və işgüzar tələblər irəli sürürdülər (42).

Zabit heyətinin mənəvi-əxlaqi cəhətdən formalaşmasına, şəxsiyyətlərinin bütövləşməsinə də Hərbi Nazirliyin rəhbərliyi tərəfindən xüsusi diqqət yetirilirdi. Mənəvi keyfiyyətlərin bütövlüyü, saflığı, milli ənənələrə dayaqlanması, milli mənafelər üstündə köklənməsi Azərbaycan zabitinə xas olacaq xüsusiyyətlər kimi qiymətləndirilirdi. Vətən uğrunda ən çətin mübarizələrə hazır olan əsgərləri də mənəvi keyfiyyətləri hörmət və ehtiram doğuran zabitlər yetişdirə bilərdi. Əgər Həbib bəy Səlimov hələ Hərbi Nazirlik yaranmamışdan əvvəl qoşunların yenidən qurulması zərurətini Nazirlər Şurasına yazdığı məktubunda əsaslandırarkən ordu quruculuğu üçün hər şeydən əvvəl maliyyə vəsaitinin lazım olduğunu bildirir və bununla bağlı Napoleonun fikrini xatırladırdısa (43), sədaqətli xidməti, bacarığı, yorulmazlığı ilə Azərbaycanın hərb tarixində özünə layiqli yer tutmuş Həmid bəy Qaytabaşı özünün mütaliə qeydlərində şəxsi heyətin və o cümlədən də zabitlərin mənəvi keyfiyyətlərini hərbi uğurun əldə edilməsində başlıca şərt sayırdı. O da fikrini əsaslandırmaq üçün Napoleonun belə bir ifadəsinə müraciət edirdi ki, hərbi uğurun üç hissəsi mənəvi keyfiyyətlərdən, bir hissəsi isə maddi amildən asılıdır (44).

H.Qaytabaşı öz qeydlərində zabit xarakterinin formalaşması üçün aşağıdakı cəhətlərin zəruri olduğunu vurğulayırdı: 1) igidlik; 2) qətiyyət; 3) iradənin gücü; 4) zirəklik; 5) tabeliyində olanlara inam aşılamaq qabiliyyəti; 6) arxasınca aparmaq bacarığı; 7) hərbi bilik (45).

Hərbi nazirin müavini Ə.Şıxlinski nazir vəzifəsinin icraçısı kimi imzaladığı əmrlərin birində Azərbaycan Ordusunda xidmət edənlərə qarşı belə bir tələb irəli sürürdü. Onun bəzi zabitlərin xidmətə münasibəti haqqındakı qeydləri bütünlükdə Cümhuriyyət zabitlərinin mənəvi və işgüzar keyfiyyətlərinə qarşı irəli sürülən tələblər idi:

«Vəzifələrindən uzaqlaşdırılmış həkim Hacı Qasımov və müşavir Əliyev öz xahişləri əsasında bu yaxınlarda yenidən xidmətə qəbul edilmişdilər. Vəzifələrinin icrasına başlamağa imkan tapmamış onlar yenidən onu icra etməkdən imtina etdilər. Güman edirəm ki, öz Vətəninin həqiqi övladları qurulmaqda olan dövlətin belə ağır vaxtında, xüsusən də eyni məzhəb və eyni qandan olan yurddaşlarımızdan ibarət ziyalı işçilər bizim üçün belə qiymətli olduğu bir vaxtda bu cür hərəkət etməməlidirlər. Azərbaycanlılar həmişəlik yadda saxlamalıdırlar ki, doğma ordumuz xeyriyyə evi deyildir və ondan ötrü mövcud deyil ki, hər bir azərbaycanlı orada özünə xeyirli olan yeri tutsun. O, Vətənin dayağıdır və ora ölkənin ən yaxşı qüvvələri daxil olmalıdır.

Özünün xırda şəxsi maraqlarını doğma diyarın və öz xalqının maraqlarında üstün tutan adamların qiyməti çox deyil və ordu təəssüf etmədən onlarla vidalaşır. Ancaq qoy belələri heç olmasa özləri haqqında mənasız yazışmalarla ordunun işini artırmasınlar…».

Ə.Şıxlinskinin fikrincə, öz kiçik şəxsi maraqlarını doğma yurdunun və xalqının maraqlarından üstün tutan şəxslərə orduda yer olmamalı, hər bir işdə şəxsi xeyir güdən kəsif xislətli insanlardan ordu hər vasitə ilə təmizlənməli idi. Generala görə, belə insanlar nəinki orduda, heç bir dövlət vəzifəsində xalqına fayda gətirə bilməzlər (46).

Hərbi Nazirliyin mövcud olduğu il yarım ərzində Azərbaycan Ordusunun real qüvvəyə çevrilməsində onun rəhbərliyini təmsil edən sərkərdələrin hərbi və mənəvi keyfiyyətlərinin də öz rolu var idi. Əvəzsiz Hərbi nazir olan S.Mehmandarov bu məsul vəzifədəki bütün fəaliyyəti ilə bütöv şəxsiyyət olduğunu sübut etdi. Onun ardıcıllığı, qətiyyəti və eyni zamanda, insaniliyi, qayğıkeşliyi ətrafındakılar üçün də nümunə və örnək idi. S.Mehmandarov sədaqətli xidməti, həvalə olunan çox mürəkkəb vəzifənin icrasını təşkil etmək bacarığı və qabiliyyəti ilə göstərirdi ki, o, peşəkar

Azərbaycan hərbinin ən böyük şəxsiyyətlərindən biridir. Öz əmrlərində də dəfələrlə qeyd etdiyi kimi, S.Mehmandarov Azərbaycan xalqının milli mənafelərini şəxsi mənafelərindən üstün tutmuş və hərbi nazir kimi fəaliyyətində də bunu sübut etmişdi. O, nazir seçildiyi gündən bolşevik işğalına qədər bir neçə kabinet dəyişikliyini yaşasa da, hökuməti təşkil edən bütün siyasi xadimlər hərbi nazir portfelini S.Mehmandarova etibar etmişdilər.

S.Mehmandarovun adı ölkənin siyasi xadimləri arasında ardıcıllıq, prinsipiallıq və vətənpərvərlik, xalq arasında isə mübarizlik simvoluna çevrilmişdi.

S.Mehmandarovun 1919-cu il fevralın 25-də Parlamentdəki böyük çıxışı onun proqram xarakterli bir çıxışı idi (47). Bu çıxışında nazir ötən 4 ayda görülmüş işlər barədə məlumat verir, həm də qarşıda dayanan vəzifələrin mürəkkəbliyini açıqlayırdı. Parlament üzvlərini maraqlandıran məsələləri Hərbi nazir elə bir dildə aşkarlayıb məlumat verdi ki, onun ordu quruculuğunda tutduğu mövqenin düzgünlüyünə qarşı kimsədə şübhə yeri qalmadı. Həmin çıxışın sonunda Hərbi nazir bir sıra qoşun hissələrində vəziyyətin mürəkkəbliyi ilə bağlı tənqid və mülahizələrin ifrat xarakter alması, onun şəxsiyyətinə qarşı yönəldilmiş fikirlərin əsassız olmasına toxunurdu: "Cənablar, mən nəyi isə tənqid etmək fikrindən uzağam. Bizdə nə pis idisə indi tədricən yaxşılaşır... Ancaq onu demək istəmirəm ki, azad müzakirələr əleyhinəyəm. Çünki heç bir sahədə sağlam tənqid və azad müzakirələr olmadan inkişafa nail olmaq mümkün deyil. Qəzet bu sahədə böyük əhəmiyyətə malikdir. Mən sizə yalnız məlum olan bir şeyi deyim. Mədəni ölkə olan İngiltərədə İrlandiya üsyanları zamanı konservativ quruluş üzvlərinin çoxu qəzetlərin bağlanmasını tələb edirdilər. Üzvlərdən biri isə sübut etdi ki, Parlamentin özünü ləğv etmək, aradan götürmək daha yaxşı olar, nəinki qəzetlərin qarşısını almaq. Lakin adamların tənqid adı altında haqsızlıqlara yol verməsi insanda qəmgin əhval-ruhiyyə yaradır. Sizin vaxtınızı çox alsam da, demək istəyirəm ki, haqqımda qaldırılan səs-küy Azərbaycan xəzinəsinə sağmal inək, Hərbi Nazirliyə isə isti ocaq kimi baxdıqları üçün mənim tərəfimdən xaric edilən zabitlər və şəxslər tərəfindən aparılır. Bu səs-küy məndə nifrət hissləri yaradır, lakin bu

məni elə də narahat etmir. Hazırladığım plana heç bir dəyişiklik edilə bilməz. Bu çətin yolla gedirəm və nə qədər ki, bu vəzifədəyəm heç bir qüvvə mənim qarşımı almağa qadir deyil. Son olaraq deyim ki, bu müddət ərzində mənim tərəfdən çoxlu suallar ortaya atılmışdır. Onlar nəinki həll edilmiş, hətta praktiki olaraq həyata keçirilmişdir. Məni Hərbi nazir vəzifəsində kim əvəz edərsə, fəaliyyətimin miqyası və səmərəliliyi barədə çox geniş materiallar əldə edə biləcəkdir" (48).

S.Mehmandarovun çıxışından sonra bir sıra Parlament üzvləri çıxış edərək həm Hərbi nazirin söylədiklərinə, həm də ordu quruculuğunun gedişinə öz münasibətlərini bildirdilər. Parlamentin üzvü A.Səfikürdski öz çıxışında dedi: "...Bizim də nöqsanlarımız olub. Lakin bu gün qarşımızda çıxış edən Hərbi nazirin iş başına gəlməsi ilə hərbi işin vəziyyəti yaxşılaşır. Bu yaxşılaşma gündən-günə artmaqdadır... Əlbəttə ki, biz ordumuza pul verməkdən imtina etməyəcəyik. Ancaq bu zaman xalq pulunun hər qəpiyinə qənaətçiliklə yanaşmaq lazımdır. Belə münasibəti biz bu gün Hərbi nazirin sözlərində gördük" (49).

S.Mehmandarovun Parlamentdəki çıxışı ictimaiyyət arasında da bir rəğbət və orduya qarşı bir inam yaratdı. Üzeyir bəy Hacıbəyov öz məqalələrinin birində bununla əlaqədar belə yazırdı: "Bir neçə zaman bundan əvvəl Parlament iclaslarının birində hərbiyyə nazirimiz S.Mehmandarovun ordumuzun təşkili haqqında bəyanatını dinlədik. Ordu görməmiş, rəsmi əsgərliyə adət etməmiş olan millətimiz içində birinci qədəm olaraq ordu təşkil etmək işinin nə qədər çətin bir əmr və bu işin bu qədər qarışıq zamanda nə tövr müşkülat və maneələr qarşısında əngəllərə düçar olduğunu eşidib bütün çətinliklərini təsəvvürə gətirməklə bu çətinlikləri rəf və izalə edəcək olan zatın nə qədər sahibi qüdrət və maliki-qüvvət bir orqanizator olması lüzumunu da dərk etdik. Bu təsəvvüratdan hasil olan təəssüratın o rəngi və ya bu rəngdə olması hərbiyyə nazirimiz olan general həzrətlərinin istedadına bağladığımız ümidin qəvi və ya zəifliyinə vabəstə idi... Ordu təşkili işimiz bu intizam ilə davam edərsə, bir qədər zamandan sonra mükəmməl bir ordusu ilə sayılan bir dövlət olduğumuzu hər kəs iqrar etməyə məcbur olacaqdır" (50).

Çox mürəkkəb bir tarixi şəraitdə fəaliyyət göstərməsinə baxmayraq, S.Mehmandarov ona həvalə edilmiş olan məsuliyyətli vəzifənin icrasında yersiz güzəştlərə getmək, barışdırıcı mövqedə dayanmaq kimi hallara qarşı qətiyyətli mövqe tuturdu.

Yüksək peşəkarlığı ilə bərabər, şəxsiyyət bütövlüyü, mənəvi keyfiyyətləri S.Mehmandarova xalq arasında sonsuz nüfuz və ehtiram qazandırmışdı. Qəzetlər onun haqqında böyük qürur hissi ilə yazırdılar, onun ictimaiyyət arasına çıxması hədsiz sevinc və iftixarla qarşılanırdı. 1919-cu il sentyabrın 15-də hökumət və parlament üzvlərinin iştirakı ilə Azərbaycan Ordusunun generalları və yüksək rütbəli zabitlərinin şərəfinə ziyafət verildi. Qəzetlərin yazdığına görə burada diqqət mərkəzində S.Mehmandarov idi və onun şərəfinə bir neçə dəfə yüksək alqışlar səsləndi (51).

S.Mehmandarovun yüksək peşəkarlığı onun düşmənləri tərəfindən də etiraf olunurdu. Bununla bağlı Nağı Şeyxzamanlının xatirələrində maraqlı qeydlər vardır. Həmin qeydlər rus generalı Denikinin S.Mehmandarova olan münasibətini açıqlayır. N.Şeyxzamanlı yazırdı: «Ağların generalı Denikin 1919-cu ildə sərhədlərimizə yaxınlaşaraq Cümhuriyyətimizə hədə-qorxu gəlirdi. Dövlətimiz və xalqımız onların təhdidlərinə əhəmiyyət vermirdilər. Bir ziyafət vaxtı Denikin təhdidlərindən söz açılmışdı. Dövlətimizin, xalqımızın və ordumuzun fikirləri eyni idi. Gələcəkləri varsa, görəcəkləri də var. Ziyafətdə onların hamısı Müdafiə naziri general Mehmandarlıya qulaq asırdılar. Möhkəm iradəli, 75 yaşlı *(1919-cu ildə S.Mehmandarovun 63 yaşı var idi – M.S.)* qoca aslan ayağa qalxır. Ətrafına baxaraq deyirdi: Əziz övladlarım, general Denikinin nə mənası var, nə də qiyməti. Denikin məni rus millətindən, çardan və ordusundan yaxşı tanıyır. Və çox yaxşı bilir ki, mənim rəhbərlik etdiyim rus orduları daima digər rus ordularından üstün olmuşdur. Övladlarım, mən bütün gəncliyimi, gücümü rus ordusuna sərf etmişəm. Nə xoşbəxt insanam ki, ixtiyar yaşımda millətimin ordusunu yaratmaq mənə nəsib oldu. Qurduğumuz orduya komandanlıq edirəm, mənim komandanlıq etdiyim orduya qarşı Denikin cəsarət edib vuruşmaz. Narahat olmayın və işinizlə məşğul olun» (52).

1919-cu il oktyabrın 15-də Lənkəran Şəhər duması Şəhər əhalisi adından Hərbi nazir S.Mehmandarovu Azərbaycan Parlamentinə üzv seçdi.

Azərbaycan Ordusunun rəhbərliyində, qoşun birləşmələrinin komandanlığında bütöv mənəvi keyfiyyətləri və yüksək peşəkarlığı ilə fərqlənən generallar az deyildirlər və onların hər birinin fəaliyyəti Hərbi nazir S.Mehmandarovun fəaliyyətini tamamlayırdı.

Lakin S.Mehmandarov tərəfindən rəhbərlik edilən hərbi-təşkilati işlərin ağırlığını öz üzərinə götürən və tapşırılan vəzifələrə sədaqətlə yanaşan zabitlər də az deyildilər. Cümhuriyyət ordusunun formalaşmasında və Azərbaycanın ərazi bütövlüyünün qorunmasında onların da özünəməxsus yeri və rolu var idi. Həmin zabitlərdən aşağıdakıların adlarını çəkmək olar:

– polkovnik Ağalarov – 1-ci Tatar süvari alayının komandiri, Bakı limanının komendantı;

– polkovnik Nuh bəy Sofiyev – 1-ci Cavanşir piyada alayının, 1-ci Tatar süvari alayının komandiri;

– polkovnik Şirin bəy Kəsəmənli – Praporşiklər məktəbinin rəisi, 4-cü Quba piyada alayının komandiri, 2-ci piyada diviziyası komandirinin müavini, Xaçmaz dəstəsinin rəisi;

– polkovnik Rüstəm bəy Şıxlinski – 1-ci haubitsa divizionunun komandir müavini, Hərbiyyə məktəbinin rəisi, 2-ci topçu briqadasının komandiri;

– polkovnik Xosrov Mirzə Qacar – 3-cü Şəki süvari alyının komandiri;

– polkovnik Tuqanov – 2-ci Qarabağ süvari alayının komandiri;

– polkovnik Əfəndiyev – 6-cı Göyçay piyada alayının komandiri;

– podpolkovnik Əhməd bəy Dibirov – 2-ci Zaqatala piyada alayının komandiri;

– podpolkovnik İsrafil bəy İsrafilov – 1-ci Cavanşir piyada alayının, sonra isə 5-ci Bakı piyada alayının komandiri;

– podpolkovnik Mehdi bəy Sultanov – Ləki topçu anbarının rəisi, sonra isə 8-ci Ağdaş piyada alayının komandiri;

– podpolkovnik Səməd bəy Rəfibəyov – 1-ci piyada diviziyası komandirinin baş adyutantı, Lənkəran ehtiyat taborunun, sonra isə

7-ci Şirvan piyada alayının və 1-ci Cavanşir piyada alaylarının komandiri;

– podpolkovnik Tonqiyev – 1-ci Tatar süvari alyının komandiri.

Bu siyahını uzatmaq da olar. Rus ordusu tərkibində sanballı hərbi təcrübə qazanmış, sonra isə Cümhuriyyət ordusu tərkibində xidmətə başlamış, S.Mehmandarovun təqdimatı ilə bu və ya digər rütbələr alan azərbaycanlı zabitlərin hamısının sədaqətli xidməti, sonsuz vətənpərvərliyi yüksək mənəvi keyfiyyətlərin ifadəsi idi. Beləlıəri Azərbaycan zabitinin şərəfini yüksək saxlamağa çalışdıqları kimi, tabeliyində olan zabitləri də belə görməyə çalışır, onların davranış normalarını pozmalarına qarşı barışmaz mövqe tuturdular. Məsələn, 1-ci topçu briqadasında poruçik Ertuqanov öz komandirinə şər atdığı üçün Şərəf məhkəməsinə verilmiş və bu məhkəmənin qərarına uyğun olaraq Azərbaycan Ordusundan xaric edilmişdi (53).

Haubitsa divizionunun komandiri podpolkovnik Qiyasbəyovun tabeliyində olan əsgərlərə nizamnamədə nəzərdə tutulmayan cəza verməsi insan şərəfini alçaldan bir hərəkət kimi qiymətləndirilmiş və ona Hərbi Nazirliyin rəhbərliyi tərəfindən töhmət elan olunmuşdu (54). Bir sıra zabitlərin ictimaiyyət arasında özlərini ləyaqətli aparmamaları, dəmir yolu kassalarında növbələri gözləmədən bilet almağa çalışmaları və beləliklə də, ictimaiyyət arasında Azərbaycan zabitinin mənəvi əxlaq keyfiyyətləri haqqında pis fikir formalaşmasına səbəb olmaları ilə bağlı Hərbi nazir xüsusi əmr imzalamış, bütün zabitlərdən öz hərəkətlərinə məsuliyyətlə yanaşmalarını tələb etmişdi (55).

1919-cu il iyunun 5-də 1-ci Cavanşir piyada alayının kapitanı Vahid bəy Nəbibəyov Hərbi nazirin adına raport yazıb xidmətdən azad olunmasını xahiş etmişdi. O, raportunda belə bir ifadə işlətmişdi: "Səhhətim və şərait mənə respublika hökumətinə xidmət etməyə imkan vermir". Hərbi nazir vəzifəsinin müvəqqəti icraçısı olan Ə.Şıxlinski belə sözlərin işlədilməsini Azərbaycan zabitinin ləyaqətini əks etdirməyən ifadə kimi qiymətləndirmiş və onun xidmətdən azad olunması ilə bərabər, həm də bir ay müddətində həbs edilməsi barədə əmr vermişdi (56).

Ancaq sonradan bu məsələ həll olunmuşdu. Güman ki, kapitan V.Nəbibəyov Hərbi nazir S.Mehmandarov qarşısında məsələnin mahiyyəti ilə bağlı izahat vermək imkanı əldə etmiş və özünü doğrulda bilmişdi. Bir neçə gündən sonra S.Mehmandarov imzaladığı əmrində V.Nəbibəyovun işlətdiyi ifadə ilə qərəzli məqsəd güdmədiyi üçün onu bağışladığını bildirirdi. Özü də S.Mehmandarov əvvəlki əmri imzalamış olan müavini Ə.Şıxlinskinin nüfuzunun qorunmasına da ehtiramla yanaşırdı. İkinci əmrdə S.Mehmandarovun "mən ona *(Nəbibəyova – M.S)* verdiyim cəzanı bağışlayıram" cümləsini işlətməsi, birinci əmrin məsuliyyətini də öz üzərinə götürməsi, heç şübhəsiz ki, Ə.Şıxlinskinin nüfuzunun qorunması istəyindən irəli gəlirdi (57).

Hissələrdə zabitlərin hansı mənəvi keyfiyyətlərə malik olmaları, zabit şərəfini necə qorumaları daimi müşahidə altında saxlanılırdı. Bununla bağlı Hərbi Nazirliyin rəhbərliyi birləşmə və hissə komandirlərindən tələb edirdi ki, onlar vaxtaşırı göndərdikləri arayış-məlumatlarda hissələrin zabitlərinin arasında mövcud olan ovqata da toxunsunlar, hər bir zabitin adının qarşısında onun xidməti və peşə keyfiyyətlərini qeyd etsinlər (58).

Hərbi Nazirliyin rəhbərliyi bütün zabitlərdən tələb edirdi ki, onlar heç vaxt hissə ilə əlaqələrini kəsməsinlər, hətta saat 8-dən sonra bir yerə getsələr belə, harada olmaları barədə evdə məlumat saxlasınlar ki, lazım olanda onları tapmaq mümkün olsun (59).

Cümhuriyyət ordusunun formalaşmasında son dərəcə böyük xidmətləri olan Süleyman bəy Əfəndiyev 2-ci Qarabağ süvari alayının komandiri olarkən alay süvarilərindən birinin atdığı təsadüfi atəşlə digər süvarini öldürməsi ilə əlaqədar imzaladığı əmrində zabitlərə qarşı irəli sürdüyü tələblərini aşağıdakı kimi ifadə edirdi: «Deyilənlər mənə güman etməyə əsas verir ki, bölüyün zabitləri öz tabeliyində olanlar arasında hörmət və etibara malik deyildirlər və onlar öz söhbətləri ilə əsgərlərdə hərbi düşüncə və əsgər düzlüyü hisslərini oyada bilməmişlər. Yəni zabit və unter-zabit işi tamamilə yox dərəcəsindədir. Bizim atalarımızın, analarımızın, bacılarımızın və bizim bütün xalqımızın nəzərlərinin dikildiyi və mövcudluğunun bizim gənc vətənimizin daxili və xarici düşmənlərini dəhşətə gətirən formalaşmaqda olan cavan ordu-

muzda belə özünü məhvetmə yolverilməzdir. Həqiqətin gizlədilməsi və bununla da ləyaqətsiz adamlara bizimlə birlikdə Vətənin və xalqın qoruqçusu olan yüksək əsgər adını daşımağa imkan vermək daha böyük dəhşətdir. Belə adamlar döyüşçü adını daşımamalıdırlar və qoşunlarda onlara yer olmamalıdır. İndiyə qədər süvarilərdə Vətənə, yoldaşlığa və doğruçuluğa qarşı döyüşçü hörməti və məhəbbəti oyada bilmədiyi üçün 2-ci bölüyün komandirinə ilkin olaraq töhmət elan edirəm» (60).

Hərbi Nazirliyin rəhbərliyi, eyni zamanda, zabitlərin yerli-yersiz ezamiyyətlərə göndərilməsinə də son qoyulmasını tələb edirdi. Belə ezamiyyətlər hissələrdə xidmətin təşkilində bir boşluq yaratmaqla bərabər, əlavə dövlət xərclərinə səbəb olurdu. Buna görə də Hərbi Nazirliyin rəhbərliyi həm Nazirliyin icazəsi olmadan zabitlərin ezamiyyətə getməsinə son qoyulmasını (61), həm də Bakıya ezamiyyətə gələn zabitlərdən mütləq Ümumi qərargaha gəlmələrini tələb edirdi (62).

Kadrların düzgün seçilməsi, hərbi keyfiyyətlərinə müvafiq olaraq yerləşdirilməsi, mənəvi cəhətdən formalaşması ilə bərabər, onların peşə hazırlığının təkmilləşdirilməsi, zabitlərin müasir hərbi-elmi tələblər səviyyəsində olması da Hərbi Nazirliyin kadr siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Zabitin həm mənəvi, həm də ixtisas keyfiyyətlərinə malik olması onun şəxsiyyətini tamamlayan, əsgəri xidmətin lazımi səviyyədə təşkili üçün zəruri olan əsas cəhətlər kimi götürülürdü.

Zabitlərin ixtisas hazırlığının təkmilləşdirilməsi Hərbi Nazirliyin rəhbərliyi tərəfindən ikitərəfli bir proses kimi qəbul edilirdi. Bir tərəfdən hər bir zabit özü ardıcıl olaraq öz üzərində işləyib bilik və təcrübi səviyyəsini təkmilləşdirməli idisə, digər tərəfdən də Nazirliyin, birləşmə və hissələrin rəhbərliyi zabit heyətinin təlimini, bilik səviyyəsinin artırılmasını təşkil etməli idi. Bu məsələlərə Hərbi nazir S.Mehmandarov öz münasibətini belə bildirirdi: "Çoxlu rəhbər şəxslər və komandirlər bildirirlər ki, tabeçiliklərində olan zabitlər və dərəcəli çinlər öz vəzifələrinə uyğun deyillər. Buna da günahkar komandirlərin özləridir. Onlar öz zabitləri ilə dərslər aparmalı, onları tərbiyə etməli və ümumiy-

yətlə, bütün sahələr üzrə onları hazırlamalıdırlar ki, tutduqları vəzifəyə layiq olsunlar" (63).

Zabitlərin öz üzərində çalışmalarının zəruriliyi ilə bağlı bolşevik işğalından bir neçə il sonra – 1926-cı ildə Azərbaycan hərbi məktəbini qurtaran zabitlər qarşısında S.Mehmandarovun söylədikləri xarakterik fikirlərdir... "Siz daha müstəqil yola çıxmısınız. Ancaq bu müstəqil yolda sizi çətin və məsuliyyətli iş gözləyir. Onun bacarıqlı və vicdanlı icrasından sizə tabe olan adamların döyüş hazırlığının səviyyəsi asılı olacaqdır. Bax bu iş barədə sizin üçün təntənəli olan gündə öz xidməti və döyüş təcrübəmə əsaslanaraq bir neçə söz demək istərdim.

Siz, yoldaşlar, Azərbaycan hərbi məktəbini bitirib yadınızda yaxşı saxlamalısınız ki, heç bir təhsil ocağı, hətta ali məktəb elmi bilik vermir, yalnız gələcəkdə özünü təkmilləşdirməyə hazır olan gəncləri buraxır..." (64).

Bu məsələlərin vacibliyi nəzərə alındığı üçün idi ki, zabit heyətinin hazırlıq səviyyəsinin təkmilləşdirilməsi döyüş hazırlığı planında nəzərdə tutulmuşdu və nizamlı şəkildə aparılırdı. Zabitlər üçün də xüsusi təlim planı hazırlanmış və bu plana uyğun olaraq dərs saatları ayrılmışdı. Hissələrdə zabitlərin hazırlıq səviyyəsinin təkmilləşdirilməsi üçün nəzərdə tutulan plan Hərbi Nazirliyin müəyyənləşdirdiyi proqrama uyğun olaraq hazırlanırdı. Məsələn, 1-ci piyada diviziyasının hazırladığı plan əsasında diviziyanın hissələrində həftədə iki dəfə zabitlərlə dərs keçirilirdi (65).

1-ci haubitsa divizionunda zabitlərlə ilkin məşğələlər topdan atəş, atəş qaydalarının öyrənilməsi, bucaqölçmə nəzəriyyəsi, topların paralel istiqamətləndirilməsi, artilleriyanın taktikası, artilleriyanın təşkili, topların əsas ballistik xüsusiyyətləri və xarakteristikası, batareyanın quruluşu, səfər hərəkəti və topçu kəşfiyyatı mövzuları ətrafında aparılmışdı. Hissədə atların olmadığı vaxtlar bu dərslər otaqlarda, nəzəri şəkildə aparılırdı (66).

1-ci topçu briqadasının 2-ci dağ divizionunda gənc zabitlərlə, praporşiklərlə dərs gündə 2 saat aparılırdı. Bundan artıq vaxt ayırmaq mümkün deyildi, çünki onlar 7 saatlıq səhra təlimlərində iştirak edirdilər. Zabitlərin müxtəlif naryadlara göndərilməsi isə dərslərdə ardıcıl olaraq iştirak etmələrinə mane olurdu (67).

Yuxarıda qeyd edildiyi kimi, Praporşiklər məktəbini bitirib topçu hissələrinə gələn gənc praporşiklər topçuluqdan imtahan verməli idilər. 1-ci topçu briqadasında belə zabitlər üçün 2 aylıq kurslar planlaşdırılmışdı. Praporşiklər həmin kursu xüsusi zabitlərin rəhbərliyi altında keçdikdən sonra imtahan verməli idilər (68).

Süvari diviziyasının komandiri tələb edirdi ki, hissəyə gələn gənc zabitlərlə dərhal süvari xidmətinin əsasları barədə dərslər keçirilsin, onlara qılınc işlətmə üsulları, atəş hazırlığı, piyada təlimi və s. keçilsin və sonra onlar təlimatçı kimi əsgərlərin öyrədilməsinə buraxılsın. Diviziya komandiri general-mayor Novruzov tələb edirdi ki, bütün zabitlər Sıra Nizamnaməsini əzbər bilməlidirlər (69).

Ümumi döyüş hazırlığı planı çərçivəsində süvari diviziyasının zabit heyəti üçün 1919-cu ilin aprel-oktyabr ayları ərzində aşağıdakı dərs proqramı tutulmuşdu (70).

**Daxili xidmət:**

1. Hərbi qulluqçuların qarşılıqlı münasibətləri. Rəis və tabelikdə olan;
2. Rəislərin ümumi vəzifələri;
3. Kiçik çinlərin ümumi vəzifələri;
4. Hərbi salam verilməsi qaydası;
5. Qışlaların təmiz və qaydasında saxlanılması;
6. Kiçik çinlərə məzuniyyət və hissədən kənara icazə verilməsi;
7. Daxili xidmət naryadları. Növbətçinin, gün növbətçisinin və mühafizəçinin (dozorun) vəzifələri;
8. Atlara, süvari təchizatına qulluq, at tövləsində qaydanın yaradılması;
9. Bölükdə xidmətin sənədləşdirilməsi, əsgərlərin adlı siyahısı, əmlak cədvəli, naryad vərəqi, atların müxtəsər təsviri, gün cədvəli, bölük kitabı və əşyaların siyahısı.

**Qarovul xidməti:**

1. Qarovulun vəzifəsi, onun dəyişdirilməsi, qarovul rəisinin, dəyişdirici və saatdarın hüquq və vəzifələri;
2. Parol və buraxılış;
3. Hərbi əmlakın qorunması, məhbusların qarovul altında saxlanılması qaydası;

4. Post cədvəlləri.

**İntizam Nizamnaməsi:**

1. Hərbi intizam haqqında məlumat;
2. İntizam cəzaları;
3. Rəislərin cəza vermək səlahiyyətləri;
4. İntizam cəzasının verilməsi və onun tətbiqi qaydası;
5. Şikayətlər haqqında;
6. Zabit cəmiyyətləri məhkəməsi haqqında.

**Sıra xidməti:**

1. Atların yəhərlənməsi qaydası;
2. Atların sürülməsi: atda oturuş qaydası və onun idarə edilməsi;
3. Maneələrdən tullanma;
4. Atla birlikdə üzmə;
5. At üzərində qılınc və süngü işlətmə qaydası;
6. Piyada sıra: sırada dayanmaq, hərəkət, qılınc və tüfənglə priyomlar, hərbi salamın verilməsi;
7. Taqım və bölük təlimləri, bölüyün tərkibi, bölüyün sırası və rəislərin sırada yeri, komandalar, siqnal və şərti işarələr; düzlənmək və istiqamət, kolon, genişləndirilmiş sırada və kolonda hərəkət;
8. Hücum;
9. Açılmış sıra, bölüyün süvarilərinin piyadaya keçməsi.

**Tüfəng və revolverdən atmaq barədə təlimat:**

1. Atəş açmaq dərsləri üçün nəzəri hazırlıq;
2. Nişangahın düzgün təsbit edilməsi;
3. 800 addıma qədər məsafəyə tək-tək təlim atışı;
4. Döyüşdə tüfəng atəşi, hissənin atəşinin idarə edilməsi sahəsində taqım və bölük komandirlərinin vəzifələri;
5. Tüfəngin sökülməsi və yığılması, silaha qulluq qaydası.

Səhra xidməti.

**Kəşfiyyat:**

1. Kəşfiyyatın təşkili barədə ümumi göstərişlər;
2. Kəşfiyyat xidməti, məlumat və onun çatdırılması;
3. Rabitənin yaradılması;
4. Səfər hərəkəti zamanı kiçik dəstələrin dəf edilməsi. Zastava və dozor xidməti;

5. Dağlarda səfər hərəkətinin xüsusiyyətləri;
6. Kiçik bölmələrin döyüşdə fəaliyyəti.

**Səhra və Sıra Nizamnamələrinə əsasən tapşırığın yerinə yetirilməsi:**

1. Tapşırığın yerinə yetirilməsi, zastava, taqım və bölük komandirinin müxtəlif taktiki vəziyyətdə rolu. Bu zaman nizamnamələri bilmə səviyyəsi, onların əraziyə tətbiqi, əmrin verilməsinin, məlumatın hazırlanmasının düzgünlüyünün yoxlanılması.
2. Xəritənin və planların oxunması, miqyas haqqında məlumat, səmtləmə, məsafənin müəyyənləşdirilməsi, kəşfiyyatın və dozorların hərəkət marşrutunun müəyyənləşdirilməsi;
3. Quşlar vasitəsi ilə poçtun təşkili.

**Atlar haqqında məlumat:**

Zabit dərslərinin birinci ayında baytar həkimi atlar haqqında ümumi məlumat verməli idi (71).

Zabitlərlə planlaşdırılan dərslərin gedişi barədə vaxtaşırı Hərbi Nazirliyə məlumat verilirdi.

1920-ci ilin əvvəllərində Azərbaycan Ordusunda 958 nəfər zabit və dərəcəli çin var idi (72). Məlumatların qıtlığı üzündən bu göstərilən sayın nə qədərinin zabit və nə qədərinin dərəcəli çin olduğunu söyləmək çətindir. Dərəcəli çinlər, mülki şəxslər elə də çox deyildilər. Məsələn, piyada alaylarının hər birinin ştatında 61 zabit və cəmi 6 dərəcəli çin var idi (73). Ordunun ümumi qərargahının yeni strukturunda 69 zabit və 18 dərəcəli çin var idi (74). Faiz nisbəti ilə götürülsə, güman etmək olar ki, 1920-ci ilin əvvəllərində Azərbaycan Ordusunun tərkibində mövcud olan zabitlərin sayı 800-dən artıq idi. Azərbaycan Ordusunun təşkilinin ağırlığı da bu sayda olan zabitlərin üzərinə düşmüşdü. Çətin şəraitdə formalaşmasına baxmayaraq, Azərbaycan Ordusunun qısa vaxt ərzində real qüvvəyə çevrilməsində bu zabitlərin də öz rolu var idi.

## *2. Zabit kadrlarının hazırlığı*

1918-ci ilin noyabrından Azərbaycanda ordu quruculuğunun milli kadrlar hazırlığı sahəsində də yeni mərhələ başladı. Birinci Dünya müharibəsinin nəticələrinə görə türk qoşunları Qafqazı tərk etdikdən sonra Azərbaycan Ordusunun formalaşdırılması da bütünlüklə Azərbaycan hökumətinin üzərinə düşdü. Bunu nəzərə alaraq hələ türk qoşunlarının Azərbaycanı tərk etməsi ərəfəsində Azərbaycan hökumətinin 1918-ci il noyabr ayının 1-də qəbul etdiyi qərara əsasən bərpa edilmiş Hərbi Nazirliyin qarşısında dayanan mühüm vəzifələrdən biri də milli hərbi kadrlar hazırlığının davam etdirilməsi və prosesin təkmilləşdirilməsi idi. Çünki milli hərbi kadrlar olmadan yeni və möhkəm bir ordu qurmaq da mümkün deyildi. Qeyd etmək lazımdır ki, daha çox ixtisaslar üzrə milli kadrların hazırlanması hökumətin diqqət mərkəzində idi. Nazirlər Kabinetinin 27 oktyabr 1918-ci il tarixli iclasında qərara alınmışdı ki, Bakı şəhərində üç hərbi məktəb açılsın. Daxili İşlər Nazirliyinə həmin məktəblərin təchizi üçün 50 min rubl vəsait ayrılması məqsədəuyğun bilinmişdi (75). Buradan məlum olmur ki, Bakıda konkret olaraq hansı məktəblərin açılması nəzərdə tutulmuşdu. Çox güman ki, Praporşiklər məktəbinin, İstehkam məktəbinin və Hərbi dəmiryolçular məktəbinin açılması planlaşdırılırdı. Çünki Hərbi Nazirlik tərəfindən açılan növbəti hərbi məktəblər məhz bu məktəblər idi. Ancaq bu da məlumdur ki, 1918-ci il noyabrın 17-də Bakıya daxil olan ingilis qoşunları komandanı Tomson bütün milli hərbi strukturların paytaxtdan çıxarılmasını tələb etməsi ilə əlaqədar həmin məktəblərin də Bakıda açılması mümkün olmadı.

Gəncədə fəaliyyət göstərməli olan Hərbi Nazirliyin rəhbərliyi digər hərbi strukturlar kimi yeganə hərbi təhsil ocağının işinin yeni səviyyədə qurulmasına da xüsusi diqqət yetirirdi. Burada daha bilikli kadrların hazırlanması üçün tezliklə məktəbin statusu da dəyişdirildi. Hərbi nazirin əmri ilə 1918-ci il dekabr ayının 1-dən Gəncə Podpraporşiklər məktəbi Gəncə Praporşiklər məktəbi adlandırıldı (76). Bu, sadəcə ad dəyişikliyi deyildi, həm də məktəbin statusu artırıldı. Əgər əvvəlcə məktəbi qurtaranlar buraxılış imtahanlarından dərhal zabit rütbəsi ala bilmirdilərsə, Praporşiklər

məktəbini qurtaranlara isə uğurlu buraxılış imtahanlarından dərhal sonra ilkin zabit rütbəsi olan praporşik rütbəsi verilməli idi.

Türk qoşunları Azərbaycanı tərk etdikdən sonra Praporşiklər məktəbinin ilk rəisi podpolkovnik Şirin bəy Kəsəmənli (Kəsəmənski) oldu. Onunla, habelə Praporşiklər məktəbinə qəbul edilən zabitlər və məmurlarla bağlı Hərbi nazir ilk əmri 1918-ci il dekabr ayının 24-də imzalamışdı. Bu əmrdə Kəsəmənlidən başqa daha üç zabitin və iki məmurun adı var idi. Kapitan Vetoşnikov məktəb rəisinin müavini, kapitan Jeleyşikov məktəb rəisinin yavəri, poruçik Mansurov isə zabit kimi qəbul edilmişdilər. Podpolkovnik Kəsəmənli və poruçik Mansurovun adları qarşısında yazılmışdı ki, onlar məktəbdəki əvvəlki vəzifələrini davam etdirirlər (77). Buradan belə güman etmək olar ki, hələ Hərbi Nazirlik bərpa edilməzdən əvvəl Şirin bəy Kəsəmənli hərbi məktəbdə xidmətə başlamışdı.

Şirin bəy Kəsəmənlinin Praporşiklər məktəbində fəaliyyəti elə də çox uzun çəkmədi. Lakin bu məktəbin yenidən qurulmasının əsas ağırlığı məhz onun üzərinə düşdü. Şirin bəy bu işin öhdəsindən bacarıqla gəldi və Praporşiklər məktəbinin tədris prosesinin düzgün qurulması üçün çox böyük xidmətlər göstərdi. Şirin bəy Kəsəmənlinin sonralar vaxtsız vəfatı ilə əlaqədar Hərbi Nazirlik üzrə imzalanan 10 yanvar 1920-ci il tarixli 17 nömrəli əmrdə onun işgüzarlığı və xidməti keyfiyyətləri barədə belə yazılmışdı: «Vətənini dərin bir məhəbbətlə sevən Kəsəmənli yeni ordumuzun yaranmasında öz gücünü əsirgəmədi. Təyin olunduğu vəzifədə tapşırılan bütün hər bir işin öhdəsindən bacarıqla gəldi. Hədsiz enerjiyə malik idi, heç bir çətinlikdən qorxmazdı. Bütün çətinlikləri fövqəladə bacarıqla dəf edib işlərini uğurla başa çatdırırdı. 1918-ci ildə o, Praporşiklər məktəbinin rəisi təyin edildi…» (78).

Məktəbin fəaliyyətinin təşkili üçün ilk növbədə bura zəruri sayda zabitlərin cəlb edilməsi lazım idi ki, onlar Azərbaycanı tərk etmiş olan türk zabitlərini əvəz etsinlər. Qısa vaxt ərzində məktəbə daha bir neçə zabit qəbul edildi. Mövcud olan arxiv sənədlərinə görə 1919-cu ilin ilk günlərində Praporşiklər məktəbində xidmət edən zabitlər bunlar idi: podpolkovnik Ş.Kəsəmənli, kapitan Vetoşnikov, kapitan Jeleyşikov, kapitan Xan Xoyski, poruçik

Sərməstbəyov, poruçik Vəzirov, poruçik Şeydayev, podporuçik Şabarov və podporuçik Rzabəyov (79).

1919-cu il aprel ayının 8-də imzalanmış 186 nömrəli əmrlə podpolkovnik Şirin bəy Kəsəmənli 2-ci Bakı piyada alayının komandiri təyin edildi (80). Həmin günün səhərisi isə Azərbaycan hökumətinin qərarı ilə Ş.Kəsəmənli polkovnik rütbəsinə layiq görüldü. Onun 2-ci Bakı piyada alayına (sonradan bu alay 4-cü Quba alayı adlandırıldı) komandir təyin edilməsi həmin alayda vəziyyətin ürəkaçan olmaması ilə bağlı idi. Hərbi nazir S.Mehmandarov Ş.Kəsəmənlinin savadına və təşkilatçılıq qabiliyyətinə bələd olduğu üçün onu həmin alaya komandir təyin etdi. Elə həmin əmrdə də 1-ci haubitsa topçu divizionunun komandiri polkovnik Rüstəm bəy Şıxlinski Praporşiklər məktəbinin rəisi təyin edildi. Hərbi nazirin adı çəkilən əmri imzalamasından bir gün əvvəl, yəni aprelin 7-də Ümumi qərargah rəisi vəzifəsini icra edən Qaytabaşı nazirin göstərişinə əsasən Rüstəm bəy Şıxlinskiyə əmr edirdi ki, təcili surətdə Praporşiklər məktəbini Şirin bəy Kəsəmənlidən qəbul etsin və əmrin icrası barədə ona məlumat versin. Aprel ayının 9-da Ümumi qərargaha göndərdiyi raportunda R.Şıxlinski bildirirdi ki, aprelin 8-də podpolkovnik Kəsəmənlidən Praporşiklər məktəbini, şəxsi heyətini və xəzinədarlığını qəbul edərək məktəbin rəisi vəzifəsinin icrasına başlamışdır (81).

Praporşiklər məktəbinin bazasında Hərbiyyə məktəbi təşkil olunana kimi bu təhsil ocağına polkovnik Rüstəm bəy Şıxlinski rəhbərlik etdi. Praporşiklər məktəbinin sonrakı buraxılışları da onun rəhbərliyi altında oldu (82). Şirin bəy Kəsəmənli yeni vəzifəyə təyin edilməzdən əvvəl burada çəkdiyi zəhmətin bəhrəsini də gördü. Bu məktəbin ilk buraxılışı (Podpraporşiklər məktəbinin ilk buraxılışı nəzərə alınmazsa) Ş.Kəsəmənlinin yeni vəzifəyə təyin edilməsi ilə təxminən bir vaxta düşdü.

Məktəbə qəbul olunanlar bir müddətdən sonra Azərbaycan xalqına sədaqət andı içməli idilər. Andiçmə mərasimi, adətən, məscidlərin qarşısında, mollaların iştirakı ilə aparılırdı. Məsələn, məktəbin rəisi Ş.Kəsəmənlinin 13 fevral 1919-cu il tarixli əmrində bildirilirdi ki, 2-ci bölük yunkerləri və qeyri-nizami komandanın əsgərləri fevralın 14-də and içməli idilər. Bunun üçün onlar

şərqi oxuya-oxuya şəhərin baş məscidinin qarşısına yollanmalı idilər. Növbədə və naryadda olmayan bütün məktəb müəllimləri mərasimdə iştirak etməli idilər (83).



Polkovnik Şirin bəy Kəsəmənli




Cümhuriyyət ordusunun zabitləri



Polkovnik Rüstəm bəy Şıxlinski



General-mayor Seyfulla Mirzə Qacar



Cümhuriyyət ordusunun əsgəri



Cümhuriyyət ordusunun əsgər və zabitləri



Cümhuriyyət ordusunun zabitləri



General-mayor İbrahim ağa Vəkilov



Cümhuriyyət ordusunun zabitləri

Məktəbi bitirənlər xidməti tərk edə bilməzdilər. Onlar ən azı hər bir əsgərin xidmət etməli olduğu qədər, yəni 2 il xidmət etməli idilər. Bundan sonra, onlar arzu etdikləri halda hərbi xidmətdən azad edilə bilərdilər. Məktəbdən üzrlü halda yunkerlər yalnız səhhətlərinə görə azad edilə bilərdilər. Bunun üçün də xüsusi komissiya təşkil edilir, xəstələnmiş yunkerin tibbi müayinəsi aparılır və onun xidməti davam etdirə bilməməsi haqqında müvafiq sənəd imzalanırdı. Həmin sənədin əsasında isə məktəb rəisi tərəfindən yunkerə hərbi xidmətdən azad edilməsi barədə şəhadətnamə verilirdi. Podpolkovnik Kəsəmənlinin imzası ilə 1919-cu il martın 30-da yunker İsmayıl Quliyevə xəstəliyinə görə aşağıdakı məzmunda şəhadətnamə verilmişdi. Şəhadətnamə belə adlanırdı: «Həqiqi xidmətdən tərxis olunanlar üçün hərbi mükəlləfiyyətin yerinə yetirilməsi barədə şəhadətnamə». Həmin şəhadətnamədə deyilirdi: «Bu sənədi təqdim edən Gəncə Praporşiklər məktəbində xidmət edən İsmayıl Məşədi Hilalqulu oğlu Quliyev Gəncə hərbi lazareti nəzdində təşkil edilmiş komissiya tərəfindən 20 mart 1919-cu il tarixdə müayinə edilərək sağalmaz xəstəliyə tutulduğuna görə nizami və qeyri-nizami xidməti davam etdirməyə tamamilə yaramadığı müəyyən olunmuşdur. Ona görə də hərbi xidmətdən və dövlət könüllüləri tərkibinə daxil edilməkdən tamamilə azad edilmişdir (84).

Quliyev Şuşa sakinidir, 1888-ci ildə anadan olmuşdur, məzhəbi islamdır. Gəncə Praporşiklər məktəbində hərbi xidmətə könüllü olaraq 1918-ci il sentyabrın 22-də daxil olmuş və sıravi rütbəsində yunkerliyə qəbul edilmişdi. Səfərdə olmamış və döyüşlərdə iştirak etməmişdir. Fərqləndirmə nişanları yoxdur. Hərbi xidmətdən azad edilən yunker Quliyev ümumi vətəndaşlıq qanunları və qaydaları çərçivəsində ona aid olan bütün şəxsi və əmlak hüququndan istifadə edə bilər. Bu zaman o, məxsus olduğu əmlakdan verilən vergilərdən azad edilmir. Ancaq şəhadətnamə veriləndən sonrakı bir il müddətində şəxsi natural mükəlləfiyyətdən azaddır. Başlıcası isə həmin müddət ərzində adambaşına yığılan bütün ictimai ödənclərdən azaddır. Yaşayış yerinə çatan kimi Quliyev dərhal bu şəhadətnamə ilə məhəlli polisə getməyə borcludur ki, aid olduğu məhəllədə onunla bağlı lazımi göstərişlər verilsin» (85).

Praporşiklər məktəbində təlim-tərbiyənin və tədris prosesinin yüksək səviyyədə aparılması üçün hər şeydən əvvəl məktəbin maddi-texniki bazasının yaradılmasına xüsusi diqqət yetirilirdi. Bu məsələ həm Hərbi Nazirliyin, həm də məktəbin komandanlığının diqqət mərkəzində idi. Yunkerlər məktəbə qəbul olunan kimi xüsusi geyim forması, yatacaq əşyaları və digər zəruri əşyalarla təmin edilirdilər. Tədris prosesi üçün zəruri olan dəftərxana ləvazimatı da yunkerlərə dövlət hesabına verilirdi. Məktəbdə tədris və yaşayış şəraitinin yaxşılaşdırılması üçün zəruri addımlar atılırdı. Hərbi Nazirlik üzrə 1918-ci il dekabrın 11-də verilən 7 nömrəli əmrdə S.Mehmandarov məktəbin rəisindən tələb edirdi ki, dərhal Ləvazimat şöbəsindən 10 min rubl pul alıb binanın çatışmayan şüşələrinin salınmasına, otaqların qızdırılmasına, lampa və kerosin alınmasına xərcləsin. S.Mehmandarov əmrində onu da qeyd edirdi ki, bütün bu işlərin görülməsi üçün beş gün vaxt ayrılır və həmin müddət bitdikdən sonra şəxsən özü əmrin icra edilməsi vəziyyətini yoxlayacaqdır. Məktəbin hansı maddi bazaya malik olduğunu və onun daha nəyə ehtiyacı olduğunu aydınlaşdırmaq üçün S.Mehmandarov podpolkovnik Ş.Kəsəmənliyə əmr edirdi ki, türk zabitlərindən qəbul edilən əşyaların müfəssəl siyahısını ona təqdim etsin və hər bir əşyanın qarşısında onun istifadəyə yararlı olub-olmadığını göstərsin. Həmin əmrdə S.Mehmandarovun diqqət yetirdiyi başqa bir məsələ isə yunkerlərin iaşəsinin lazımi tələblərə cavab verməməsi idi. O təəccüb edirdi ki, Gəncədə yerləşən bəzi hissələrin əsgərlərinə, o cümlədən də Praporşiklər məktəbinin yunkerlərinə hər gün eyni cür yemək verilir və yeməklərin menyusunda heç bir dəyişiklik edilmir. Bu isə S.Mehmandarovu razı salmırdı. Ona görə də o, qəti surətdə bütün müvafiq rəis və komandirlərdən tələb edirdi ki, əsgər və yunkerlərə hər gün müxtəlif yeməklər verilsin. Özü də S.Mehmandarov daha çox milli xörəklərin bişirilməsini tələb edirdi (86).

1919-cu il fevral ayının 8-də Hərbi nazirin müavini Əliağa Şıxlinski Praporşiklər məktəbində oldu, burada görülən işlərlə tanış oldu. Görülən bəzi işlər onu qane etdi, bir sıra məsələlərin ümumi vəziyyəti isə onu qane etmədi. Gördükləri barədə o, Hərbi nazirə müfəssəl raport təqdim etdi. Ə.Şıxlinskinin fikrincə, yun-

kerlər yaxşı geyinmişdilər. Onların ayaqqabıları müxtəlif olsa da, istifadəyə yararlı idi. Məktəbdə paltar və ayaqqabı təmiri emalatxanası açılmışdı ki, bu da yaxın vaxtlarda yunkerlərin geyimlərinin daha yaxşı hala gətirilməsinə kömək edə bilərdi. Çörəyin və bişirilən xörəklərin keyfiyyəti də Ə.Şıxlinskini qane etmişdi. Ancaq naharda yunkerlərə bir yemək verilirdi. İkinci xörəyin bişirilməsinə isə vəsait çatışmırdı. Ə.Şıxlinski yazırdı ki, indiki vəziyyətdə iki keyfiyyətsiz xörəyin bişirilməsindənsə, bir keyfiyyətli və dadlı yeməyin bişirilməsi daha yaxşıdır. Məktəbdə mağaza da fəaliyyət göstərirdi. Orada ağ çörək və meyvə satılırdı. Ancaq buradakı çörəyin qiyməti şəhərlə müqayisədə daha baha idi. Ona görə də Ə.Şıxlinski təklif edirdi ki, mağazada çörəyin qiymətinin aşağı salınması nəzarət altında saxlanılsın, ya da həmin mağaza ümumiyyətlə bağlansın.

Nazir müavininin fikrincə, yunkerlərin otaqları təmiz və səliqəli saxlanıldığı halda, bir sıra yardımçı otaqların vəziyyəti heç də belə deyildi. Ona görə Ə.Şıxlinski təklif edirdi ki, yataq əşyaları ilə bağlı məktəbə mümkün kömək göstərilməlidir. Bütünlükdə, Ə.Şıxlinski məktəblə tanışlıqdan yaxşı təəssürat aldığını bildirir və mövcud nöqsanların aradan qaldırılması üçün yerindəcə lazımi göstəriş və tövsiyələr verdiyini qeyd edirdi (87).

Bu raportla tanışlıqdan sonra imzaladığı 16 fevral 1919-cu il tarixli 75 nömrəli əmrində Hərbi nazir S.Mehmandarov yenidən Praporşiklər məktəbinin yunkerlərinin iaşə və digər təminatına toxunmuşdu. Görünür, məktəbdə iaşənin yaxşılaşdırılması ilə bağlı görülən işlər onu tamamilə təmin etmirdi. Nazir bir daha tələb edirdi ki, yunkerlərin iaşəsi yaxşılaşdırılsın. O qeyd edirdi ki, yunkerlərin iaşəsi əsgərlərin iaşəsinə nisbətən daha yaxşı olmalıdır. Ona görə də nazir həmin əmrində yunkerlərin iaşə normalarının 1,5 dəfə artırılması barədə göstəriş verdi. Bundan başqa, nazir əmr etdi ki, Nazirlik tərəfindən bəyaz parça alınan kimi ilk növbədə Praporşiklər məktəbinə verilsin və burada yataq əşyalarına olan ehtiyac aradan qaldırılsın. Əmrdə, habelə məktəbin qışlalarının təmiz saxlanılması vacibliyi də vurğulanmışdı (88). Bu sahədə məktəbdə olan vəziyyət naziri heç də təmin etmirdi.

Elə həmin əmrində Hərbi nazir məktəb rəisinə tapşırırdı ki, orada olan mağazanın işi də məktəbin öz qüvvəsi ilə yenidən qurulsun və burada gələcək zabitlərə qarşı yol verilən ədalətsizliklərə son qoyulsun.

1919-cu il fevral ayının 20-də Ümumi qərargah rəisi Həbib bəy Səlimov da Praporşiklər məktəbində oldu. O, maliyyə vəsaitinin necə xərclənməsini və tədris prosesinin vəziyyətini yoxladı. H.Səlimov apardığı yoxlamanın nəticələri barədə müfəssəl raport yazdı və həmin raport əsasında ümumi qərargah üzrə müvafiq əmr imzalandı. H.Səlimovun yazdıqlarından aydın olur ki, maliyyə vəsaitinin xərclənməsi və istifadə olunan əşyalar barədə hesabatın aparılması lazımi tələblərə cavab vermirdi. O, hansı nöqsanlara, hesabat sənədlərinin tərtibində hansı səhvlərə yol verildiyini göstərərək onların aradan qaldırılması üçün öz məsləhətlərini də verdi (89).

Məktəbi bitirdikdən sonra yunkerlər zabit geyimi ilə təchiz edilməli idilər. Bu məsələ də məktəb rəhbərliyinin nəzarəti altında aparılmalı idi. Həmin məsələ ilə bağlı buraxılış imtahanını uğurla vermiş hər bir yunkerə 4 min rubl pul ayrılırdı. Pulun təyinatı üzrə xərclənməsini nəzarət altında saxlamaq üçün Hərbi nazir tələb edirdi ki, yunkerlər özləri üçün lazım olan geyimi sifariş etsinlər və sonra da təqdim etdikləri hesab əvəzində onların xərci Nazirlik tərəfindən ödənsin. Geyimin sifariş haqqı ödənildikdən sonra qalan pulu yunkerlər nağd şəkildə ala bilərdilər (90).

Türk qoşunları Azərbaycanı tərk etdikdən sonra Praporşiklər məktəbində tədrisin təşkili tamamilə yeni kadrların üzərinə düşdü. Bu isə öz növbəsində tədrisin məzmununda müəyyən dəyişiklərin baş verməsi ilə nəticələndi. Əvvəllər, heç şübhəsiz ki, təlimin təşkilinin türk təcrübəsi əsas götürülürdü. Yeni şəraitdə isə Rusiya hərbi məktəblərinin təcrübəsi əsas götürüldü. Ona görə tədrisdə istifadə olunan dərsliklər də, əsasən, rus müəlliflərinin kitabları idi. Dərsləri aparanlar da daha çox Rusiya hərbi məktəblərinin məzunları idi. Taktika dərsləri Bonç-Bureviçin «Taktika», Anisimovun «Süvari taktikası», Kotelnikovun «Taktikadan konspektlər» və s. kitabları üzrə aparılırdı. Ancaq bu və ya digər kitablar məktəbdə kifayət qədər deyildi. Bu da tədris prose-

sini xeyli çətinləşdirirdi. Həmin çətinliyi aradan qaldırmaq üçün 1919-cu il mart ayının 12-də podpolkovnik Ş.Kəsəmənli məktubla Gürcüstan hərbi məktəbinin rəisinə müraciət etdi ki, müvafiq ödənc əsasında Gəncə Praporşiklər məktəbinə taktika, topoqrafiya, artilleriya, istehkam, qanunşünaslıq, fizika, yunkerlər üçün təlimat, intizam, qarnizon və çöl xidmətləri nizamnamələri, rus ordusu tarixi və s. kitablar verilsin. Həmin il aprelin 19-da Praporşiklər məktəbinin yeni rəisi polkovnik R.Şıxlinski də dərsliklər alınması ilə bağlı Gürcüstan hərbi məktəbinin rəisinə müraciət etdi (91). Mövcud olan arxiv sənədlərinə görə Gürcüstan hərbi məktəbindən 1919-cu il iyun ayının 25-də xeyli kitab alınmışdı (92). Ondan bir qədər əvvəl isə, yəni 1919-cu il aprelin 2-də 2-ci Bakı piyada alayından Praporşiklər məktəbinə bir miqdar kitab alınmışdı. Bu kitablar əsasında tərtib edilmiş tədris proqramının icrasına həm məktəbin müəllimləri, həm də kənar müəllimlər cəlb edildilər. Əsas fənlərin tədrisi, əsasən, Hərbi Nazirliyin məsul zabitləri tərəfindən aparılırdı. Gəncə Praporşiklər məktəbinin Bakıya köçürülməsinin əsas səbəblərindən biri də elə bu idi ki, Hərbi Nazirliyin Bakıya köçməsi ilə məktəbdə dərs aparan zabitlərin də çoxu Bakıya gəlmişdilər. Həmin zabitlərin yenidən dərs prosesinə cəlb edilməsi yalnız məktəbin Bakıya köçürülməsindən sonra mümkün ola bilərdi. Məsələn, aşağıdakı cədvəldən də görmək mümkündür ki, Hərbi Nazirliyin zabitləri məktəbdəki tədris prosesində necə yaxından iştirak edirlər. R.Şıxlinskidən başqa digər zabitlər Nazirliyin məsul işçiləri idilər.

| **Rütbəsi və adı** | **Fənnin adı** | **Yanvar 1919** | **Fevral 1919** | **Mart 1919** | **Arpel 1919** |
|---|---|---|---|---|---|
| Gen.-mayor Səlimov | Taktika | 10 saat | 23 s. | 20 s. | 10 s. |
| Polk. R.Şıxlinski | Topçu | 9 s. | 21 s. | 1 s. | - |
| Polk. Sokolov | Taktika | 9 s. | 9 s. | 1 s. | - |
| Podpolk. Vəkilov | İstehkam | 6 s. | 25 s. | 29 s. | 34 s. |
| Kapit. Ledomski | Topoqrafiya | - | - | - | 21 s. |
| Məmur Poladzadə | İlahiyyat | - | 13 s. | 17 s. | 19 s. |

Məktəbdə tətbiq edilən rejim və tədris proqramı da yunkerlərin hərtərəfli bir zabit kimi yetişməsi üçün nəzərdə tutulmuşdu. Gün rejimi ilin müxtəlif vaxtlarında fərqli şəkildə tərtib edilirdi.

Məsələn, 1919-cu ilin yazı üçün Praporşiklər məktəbinin xidmət rejimi belə idi:

| | |
|---|---|
| 6.00 | Yunkerlərin yataqdan qalxması |
| 6.30 | Səhər çayı |
| 7.00-7.30 | Səhər gimnastikası |
| 8.00-11.00 | Sıra hazırlığı |
| 11.00-12.00 | Yuxarı sinif şagirdləri üçün mühazirə, aşağı siniflər üçün nizamnamələr |
| 13.00-14.00 | Nahar yeməyi |
| 14.00-17.10 | İstirahət saatları |
| 17.30-19.10 | Yuxarı sinif şagirdləri üçün mühazirə, aşağı siniflər üçün nizamnamələr |
| 19.30 | Axşam yeməyi |
| 21.00 | Axşam yoxlaması |

1919-cu ilin iyulunda isə Praporşiklər məktəbində aşağıdakı rejim qüvvədə idi:

| | |
|---|---|
| 6.00 | Yunkerlərin yataqdan qalxması |
| 7.00 | Səhər çayı |
| 8.10 | Sıra düzülüşü |
| 10.15-11.15 | Nizamnamələr |
| 11.15-12.15 | Yuxarı sinif şagirdləri üçün mühazirə, aşağı siniflər üçün nizamnamələr |
| 13.00 | Nahar yeməyi |
| 15.00-17.00 | Nizamnamələr |
| 17.15-19.15 | Sıra hazırlığı |
| 19.30 | Axşam yeməyi |
| 20.30 | Axşam yoxlaması |

1919-cu il yanvar ayının əvvəllərində imzaladığı əmrində Praporşiklər məktəbinin rəisi tələb edirdi ki, hər gün səhər çayından əvvəl məktəbin növbətçi zabiti yunkerləri səhər gimnastikasına çıxarsın (93). Bu gəzinti səhər saat 6-dan 6.30-dək aparılırdı.

Yuxarıdakı xidmət rejiminə, habelə tədris proqramına uyğun olaraq həftəlik dərs cədvəli tərtib olunmuşdu. Bu dərs cədvəli

müəyyən müddət üçün nəzərdə tutulurdu. Yeni yunkerlər üçün tədris yükü tədricən ağırlaşdırılırdı. Məsələn, 1919-cu il yanvar ayının əvvəllərində həftəlik dərs cədvəli aşağıdakı kimi idi (94):

**Şənbə günü**

| | |
|---|---|
| 8.00-9.0 | Gimnastika |
| 9.00-10.00 | Cərgə təlimi |
| 10.00-11.00 | Addımlama, əsgəri salamverme |
| 15.00-16.00 | Daxili Xidmət Nizamnaməsi |
| 16.00-17.00 | Topoqrafiya, şərti işarələr |

**Bazar günü**

| | |
|---|---|
| 8.00-9.00 | Gimnastika |
| 9.00-10.00 | Sıra təlimi |
| 10.00-11.00 | Atışa hazırlıq |
| 11.00-12.00 | Addımlama |
| 15.00-16.00 | Topoqrafiya, şərti işarələr |
| 16.00-17.00 | Qarnizon Xidməti Nizamnaməsi |
| 17.00-18.00 | Daxili Xidmət Nizamnaməsi |

**Bazar ertəsi**

| | |
|---|---|
| 8.00-9.00 | Gimnastika |
| 9.00-10.00 | Sıra təlimi |
| 10.00-11.00 | Əsgəri salamlama |
| 11.00-12.00 | Addımlama |
| 15.00-16.00 | Sıra təlimi |
| 16.00-17.00 | Əsgəri salamlama |
| 17.00-18.00 | Sıra təmrinləri |

**Çərşənbə axşamı**

| | |
|---|---|
| 8.00-9.00 | Gimnastika |
| 9.00-10.00 | Addımlama |
| 10.00-11.00 | Atışa hazırlaşma |
| 11.00-12.00 | Silah təmrinləri |
| 15.00-16.00 | Sıra nizamnaməsi |
| 16.00-17.00 | Daxili Xidmət Nizamnaməsi |
| 17.00-18.00 | Qarnizon Xidməti Nizamnaməsi |

**Çərşənbə**

| | |
|---|---|
| 8.00-9.00 | Gimnastika |
| 9.00-10.00 | Əsgəri salamlama |
| 10.00-11.00 | Addımlama |
| 11.00-12.00 | Cərgə təlimi |
| 15.00-16.00 | Silah təmrinləri |
| 16.00-17.00 | Addımlama |
| 17.00-18.00 | Cərgə təlimi |

**Cümə axşamı**

| | |
|---|---|
| 8.00-9.00 | Gimnastika |
| 9.00-10.00 | Cərgə təlimi |
| 10.00-11.00 | Addımlama |
| 11.00-12.00 | Silah təmrinləri |

Sonralar tədris yükünün artırılması nəzərdə tutulan həftəlik dərs cədvəlinə xeyli dəyişikliklər edilmişdi. Bu dərs cədvəlində hərbi fənlərin tədrisinə daha çox yer verilmişdi.

Tədris dövrünün ilk həftələrində və aylarında nizamnamələrin tədrisi üstünlük təşkil edirdi. Bütünlükdə isə tədris dövründə nizamnamələrin və istifadədə olan atıcı silahların öyrədilməsinə xüsusi diqqət yetirilirdi. Tədris prosesində kifayət qədər yer ayrılan nizamnamələrin öyrədilməsi zamanı aşağıdakı məsələlər yunkerlərə aydınlaşdırılmalı idi (95).

**İntizam Nizamnaməsi** – hərbi təşkilatın zabitlərinə və məmurlarına verilmiş intizam cəzaları; hərbi təşkilatın zabitlərinə və mülki məmurlarına intizam cəzasının verilməsi sahəsində rəislərin səlahiyyət dərəcəsi; intizam cəzalarının tətbiqi qaydaları; cəzalandırma jurnalı; inzibati qaydada müəyyənləşdirilmiş pul cərimələri haqqında; zabit cəmiyyətləri məhkəməsi haqqında; zabitlər arasında baş vermiş mübahisələrin araşdırılması qaydaları haqqında.

**Daxili Xidmət Nizamnaməsi** – rəislərin vəzifəsi, əsgərlər arasından təyin edilmiş kiçik komandirlərin ümumi vəzifələri; manqa komandiri; taqım unter-zabiti və kiçik unter-zabit; kiçik komandirlərin vəzifələri; kiçik vəzifəlilər – bölük təsərrüfatının müdiri, yefreytorlar, katib, yavər, feldşerlər, taqım yefreytorları və

könüllü işçilər; feldfebel rəislərinin vəzifələri; kiçik zabitlər; bölük komandirləri; tabor komandirləri; hissə komandirlərinin müavinləri; təsərrüfat müdiri; əlahiddə hissənin komandiri və onun müavini; əsgərlərin qışlalara yerləşdirilməsi; binaların təmiz saxlanması; yanacağın qəbulu; binaların qızdırılması və işıqlandırılması; daxili xidmət naryadları; sutkalıq naryadların dəyişdirilməsi; komandaların göndərilməsi və hərəkəti; sutkalıq naryad üzvlərinin vəzifələri; növbətçi-feldfebel, çayxana növbətçisi, dumbul və şeypur çalan, dəftərxana növbətçisi; qarovul rəisi; hissə üzrə növbətçi; sağlamlığın qorunması məsələləri; qoşunların adi yolla hərəkəti; qoşunların dəmir yolu və su ilə hərəkəti.

**Qarnizon Xidməti Nizamnaməsi** – qarovul unter-zabitinin vəzifələri; hauptvaxtdakı qarovul rəisinin vəzifələri; türmə və digər həbs yerlərindəki qarovul rəisinin vəzifələri; müvəqqəti olaraq bəzi yerlərdə qoyulmuş qarovul rəisinin vəzifələri; fəxri qarovul; fəxri saatdar; fəxri buyruqçu və çaparlar haqqında; naryad və fəxri qarovulların təqdimatı; gündəlik naryad və onların vəzifələri; hərbi həkim obyektləri üzrə növbətçilərin vəzifələri; qoşunların mülki hakimiyyətə yardımları; ümumi müddəalar; yanğının söndürülməsi və digər fəlakətlər zamanı yardımlar; dozorlar və polisə kömək haqqında; məhbusların müşayiət olunması; rəislərə münasibətdə hərbi qulluqçuların vəzifələri və komandirlərə özünü təqdimetmə.

Üçxətli tüfəngin və revolverin quruluşu; bölük və komandalarda tüfəngin müayinəsi; tüfəngdə baş verən nasazlıq; üçxətli revolver haqqında ümumi məlumat; revolverin hissələri və onların təsviri; revolverə aid əşyalar; döyüş patronu və onun saxlanılması; revolverin sökülməsi və yığılması; revolverin təmizlənməsi və onun mühafizəsi; revolverin bölük və komandalarda müayinəsi və s.

Bu mövzular yuxarı siniflər üçün nəzərdə tutulmuşdu. Aşağı siniflər üçün isə ayrıca proqram hazırlanmışdı. Həmin proqram nisbətən yüngülləşdirilmiş proqram idi və müəyyən fərqlərə malik idi.

Sıra Nizamnaməsi üzrə də ayrıca proqram tərtib edilmişdi. Bir təlim dövründə yunkerlərə taqım təlimi, sıxlaşan sıra, səpələnmiş sıra, tək və cərgə təlimləri, bölük təlimləri, bölüyün döyüş ni-

zamı, bölüyün səfər hərəkəti və s. mövzular öyrədilirdi (96). Bu mövzular yunkerlərə həm nəzəri, həm də əyani şəkildə öyrədilirdi. Yunkerlər üçün düşərgə dərsləri də tədris proqramına daxil edilmişdi. Bu zaman onlar Daxili Xidmət Nizamnaməsinin düşərgə xidmətini, piyadaların düşərgə fəaliyyəti barədə təlimatı və Çöl Nizamnaməsini öyrənirdilər. Düşərgə xidməti üzrə – düşərgəyə təyin edilmiş növbətçinin və sutkalıq naryadın vəzifələri, əlahiddə qoşun hissələrindəki növbətçi və gün növbətçilərinin xüsusi vəzifələri, qoşun hissələrinin təlimə çıxarılması, paradlar, düşərgəyə dönüş, həyəcan siqnalı ilə qaldırılmış qoşunlara komandir tərəfindən baxış; piyadaların döyüşdə fəaliyyəti barədə təlimat üzrə – taborun fəaliyyəti, yaxında olan düşməni adlamaq, alay, briqada və diviziyanın fəaliyyəti, süvari hücumunun dəf edilməsi, gecə zamanı fəaliyyət; Çöl Nizamnaməsi üzrə isə – kəşfiyyat, səfər hərəkəti, bütün qoşun növlərindən olan bölmə və hissələrin döyüş zamanı fəaliyyəti, qoşunların idarə edilməsi və s. mövzular yunkerlərə öyrədilməli idi (97).

Piyada silahlarının quruluşu, onlardan istifadə qaydaları, nişangah və nişanalma nəzəri şəkildə yunkerlərə öyrədildikdən sonra onlar poliqona çıxaraq atış təmrinlərini də icra etməli idilər. Atış təmrinlərini icra etmək üçün Gəncə kənarında xüsusi yer ayrılmışdı. Gəncə şəhər komendantı podpolkovnik Abatsiyevin bildirdiyinə görə qarnizon rəisinin əmri ilə həmin yer Gəncənin şimal-şərqindəki pravoslav qəbiristanlığının yaxınlığında idi.

Atış təmrinlərinin icrası proqramı da həm yuxarı siniflər, həm də aşağı siniflər üçün ayrıca tərtib edilirdi. Yuxarı siniflər üçün ilkin atış təmrinləri üç gün davam etməli idi. Həmin vaxt ərzində üç təmrin icra edilməli idi. Gün ərzində bu təmrinlərin biri icra olunurdu. Tək atış təmrinləri isə 7 gün davam etməli idi. Həmin müddət ərzində on təmrin yerinə yetirilməli idi (98).

Praporşiklər məktəbində tədris proqramının necə yerinə yetirilməsi daim Hərbi Nazirliyin rəhbərliyinin diqqət mərkəzində idi. Yuxrıda qeyd edilmişdi ki, 1919-cu ilin fevralında Hərbi nazirin müavini Ə.Şıxlinski və Ümumi qərargahın rəisi H.Səlimov Praporşiklər məktəbində olmuşdular. Onların bura gəlişində əsas məqsəd tədris proqramının icrasının vəziyyəti ilə tanış olmaq idi.

Tanışlıq zamanı Ə.Şıxlinski və H.Səlimovu qane edən və etməyən tərəflər var idi. Bunlar Hərbi nazirin adına yazılmış raportda və onun əsasında nazir tərəfindən imzalanmış müvafiq əmrdə öz əksini tapmışdı. Sıra hazırlığının və topçu bölməsindəki ixtisas hazırlığının vəziyyəti Ə.Şıxlinskidə bir sıra iradlar doğurmuşdu. Topların quruluşu və onlardan atış qaydaları üzrə sinifdə keçirilən dərslərdən birini müşahidə edən nazir müavini bu dərsin müəllim tərəfindən deyil, feyerverk tərəfindən aparılmasını düzgün saymırdı (99).

Bunun düzgün olmadığını bildirən Ə.Şıxlinski raportunda onu da qeyd edirdi ki, topçu dərslərini aparmalı olan topçu divizionunun zabiti divizionda işlərinin çox olması üzündən dərsə gələ bilməmişdi. Ə.Şıxlinskinin qənaəti belə idi ki, topçu bölməsində dərslərin belə təşkil edilməyindənsə, bu bölmənin bağlanması daha yaxşı olardı. Çünki belə dərslərin heç bir faydası yox idi. Ya da onun fikrincə, daha sərbəst bir zabit tapılmalı idi ki, topçuluğa aid olan dərsləri ardıcıl şəkildə apara bilsin.

1919-cu ilin fevralında Ə.Şıxlinski daha bir dəfə Praporşiklər məktəbində oldu. Məktəbə bu səfəri zamanı da o, təlim-tərbiyə prosesinin gedişində mövcud olan müəyyən nöqsanları üzə çıxararaq məktəb rəhbərliyinin diqqətinə çatdırdı. Müşahidələrindən sonra Ə.Şıxlinski yazırdı ki, yunkerlər uzun müddətdən bəri açıq sırada eyni vaxtda silahdan atəş açılmasını təmrin edirlər. Bu zaman silahların havada bir xətt üzrə saxlanılmasına və çaxmağın bir vaxtda şaqqıldamasına diqqət yetirilirdi. O isə tələb edirdi ki, atəş hazırlığı zamanı əsas diqqət nişangahın düzgün qoyulmasına, silahın düzgün dayaqlandırılmasına və hədəfin düzgün nişan alınmasına yönəldilsin.

Ə.Şıxlinski yunkerlərin təklikdə silah təmrinlərini öyrənmə metodikasını da düzgün saymırdı. Onun müşahidələrinə görə yunkerlər bir cərgədə dayanır, hər biri qışqıraraq özünə komanda verir və sonra da özü verdiyi komandanı icra edirdilər. Heç kim onların hərəkətinin doğruluğunu yoxlamırdı. Ə.Şıxlinski bildirirdi ki, belə metod nəinki yunkerləri bir təlimatçı kimi hazırlamırdı, hətta onların öz səhvlərini görməsinə də imkan vermirdi.

Fevral ayının 27-də məktəbdə yoxlamada olarkən H.Səlimov yunkerlərin sıra təlimi dərslərində iştirak etdi. Birinci olaraq o, 2-ci bölüyün süngü döyüşünü müşahidə etdi. Burada dərsi poruçik Vəzirov aparırdı. Bölük iki dəstəyə bölünərək üzbəüz sıraya düzülmüşdü. Onlar verilmiş komandaları, eyni zamanda, yerinə yetirirdilər. H.Səlimovun fikrincə bu metod səmərəsiz bir metod idi. Çünki tək bir zabit, eyni zamanda, hərəkət edən 60 nəfərin nöqsanlarını görə bilməzdi. Ona görə də H.Səlimov əmr edirdi ki, belə dərslər aralanmış sırada keçirilsin, tələb olunan material əvvəlcə yunkerlərə təklikdə, sonra isə qrup şəklində öyrədilsin. Hər bir qrupda da 3–4 nəfərdən artıq adam olmasın. O, eyni zamanda, tələb edirdi ki, bölük komandirləri yunkerlərin arasında 8–10 nəfəri seçib keçilən mövzuları ayrıca onlara öyrətsin və sonra da onları bütün bölüyün öyrədilməsinə cəlb etsin.

1-ci bölükdə isə H.Səlimov cərgə təlimi üzrə dərsləri, süngü döyüşünü, müqəvvanın süngülənməsini və bölüyün daxilində addımlamanı müşahidə etmişdi. Onun qeydlərinə görə cərgə təlimində olan yunkerlərin duruşları yaxşı idi. Cərgədə sıxlaşmaq və seyrəlmək isə öyrənilməmişdi. Onlar elə bir yerdə dayanıb dururdular. Verilən komandaların icrası zamanı yunkerlər ayaqlarını tələb olunan kimi tutsalar da, atdıqları addım geniş deyildi. Dərsi aparan yunker sıranı düzləndirmir və cərgəni irəliyə necə hərəkət etdirməyi bacarmırdı. Ona görə də H.Səlimov belə bir qənaətə gəlmişdi ki, yunkerlərə cərgə təlimi lazımi səviyyədə keçilməmişdir. Ancaq bölük komandiri kimi hazırlanan hər bir yunkerdən tələb olunurdu ki, bu mövzunu yaxşı öyrənsin və zəruri vərdişləri əldə etsin. Süngü döyüşü və müqəvvanın süngülənməsi mövzusunun öyrədilməsində də H.Səlimov xeyli nöqsanlar üzə çıxarmışdı. Bu nöqsanlar aşağıdakılardan ibarət idi: Əvvəla yunkerlər düzgün öyrədilmirdi, verilən komandaları onlar təkrarən yerinə yetirə bilmirdilər. «Döyüşə hazırlan» komandasını da onlar düzgün icra edə bilmirdilər. Müqəvvanın süngülənməsi zamanı lazımi ardıcıllıq da gözlənilmirdi. Dərslərin düzgün və səmərəli aparılması üçün H.Səlimov ilk növbədə zabitlərin özlərinin hazırlıq səviyyəsinin yuxarı qaldırılmasını zəruri hesab edirdi. Onun fikrincə, yunkerlər süngü döyüşünə əvvəlcə yerində, sonra müqəvvaya ya-

xınlaşaraq və nəhayət qaçaraq və «ura» qışqıraraq öyrədilməli idilər. H.Səlimov dərslərin gedişində meydana iki müqəvva qoydurmuş və yunkerlərə onları süngü ilə vurmaq əmr etmişdi. Əmri icra edən yunkerlər bu müqəvvalardan birini süngüləmiş və onunla yanaşı dayanan ikinci müqəvvaya diqqət yetirməmişdilər. H.Səlimov bunu da nöqsan sayırdı və yunkerlərin diqqətinin gücləndirilməsini vacib bilirdi.

Sıxılmış sırada yunkerlərin addımlaması tərzi də H.Səlimovu tamamilə qane etmirdi. Xüsusən də addımlar kifayət qədər sərbəst və çevik deyildi. Bir komandanın icrasından digər komandanın icrasına keçərkən yunkerlər addımlarını zəiflədirdilər.

H.Səlimov gördüyü nöqsanların dərhal aradan qaldırılmasını tələb edirdi. O qeyd edirdi ki, bölmə komandiri kimi hazırlanan hər bir yunkerin gələcək vəzifəsi əsgərlərin təlimatçıları olmaqdırsa, onda onlar bütün tədris proqramını yaxşı öyrənməli, düzgün komanda verməyi, mövcud nöqsanları üzə çıxarmağı və onları aradan qaldırmağı bacarmalıdırlar. Bu keyfiyyətləri isə tək və cərgə təlimi dərslərində əldə etmək mümkün idi. H.Səlimov hesab edirdi ki, həmin keyfiyyətlərin möhkəmləndirilməsi üçün yuxarı siniflərin tək sıra təlimi dərslərinə yenidən qayıtması artıq gec idi. Çünki bununla digər tədris yükləri yerinə yetirilməmiş qala bilərdi. Onun fikrincə, yuxarı sinif bu keyfiyyətləri cərgə təlimində möhkəmləndirə bilərdi. Ona görə də təklif edirdi ki, məktəb rəhbərliyi bu məsələyə diqqəti artırsın, nizamnamədə nəzərdə tutulan bütün material tədris edilsin və bunun üçün gündə ən azı bir saat dərs keçilsin. O, eyni zamanda, təklif edirdi ki, gündə bir saat dərs süngü döyüşünün öyrədilməsinə, birsaatlıq dərs isə atıcılığa ayrılsın. Atıcılıq dərslərinin keçilməsi ilə yunkerlər həm nişangahın qurulmasını, düzgün nişan alınmasını, həm də hərəkətləri nəzəri şəkildə başqalarına izah edilməsini, nişangahın nəyə xidmət etdiyini, güllə yatağının quruluşunu, güllənin uçuşuna təsir edən maneələrin nədən ibarət olduğunun əsgərlərə öyrədilməsini bacarmalı idilər. Yəni H.Səlimov qətiyyətli şəkildə bildirirdi ki, yunkerlər nəzəri və praktiki hazırlığı, komandaların düzgün icrasını və onların tədris edilməsini, zabitliklə müəllimlik keyfiyyətlərini özündə birləşdirməyi bacarmalı idi.

Hərbi Nazirliyin rəhbərliyinin Praporşiklər məktəbini vaxtaşırı yoxlaması yalnız təftiş xarakteri daşımırdı. Azərbaycan Ordusunun milli kadrlarını hazırlayan bu məktəbin fəaliyyətinin yaxşılaşdırılması üçün, eyni zamanda, əməli tədbirlər də görülürdü. Ə.Şıxlinskinin ilk səfərindən sonra Hərbi nazir S.Mehmandarovun müvafiq əmr imzalaması və zəruri tədbirləri müəyyənləşdirməsi, Hərbi Nazirliyin zabitlərinin tədris prosesində iştirak etməsi bunların nümayişi idi.

Qarşıya qoyulan məqsədə nail olunması üçün məktəbdə nizam və intizamın möhkəmləndirilməsinə də böyük diqqət yetirilirdi. Özü də bu zaman həm yunkerlər, həm də məktəbin daimi kollektivi arasındakı nizam və intizam ciddi nəzarət altında saxlanılırdı. Məktəbin rəhbərliyi əmin idi ki, nizam və intizamı zəruri tələblərə cavab verməyən yunkerlərdən hazırlıqlı və xidməti vəzifəsinə sadiq zabit yetişə bilməz. Məktəbin müəllim kollektivinə irəli sürülən tələbkarlıq isə ondan irəli gəlirdi ki, onların hər biri hərəkətləri ilə yunkerlərə canlı nümunə olsun.

Bu keyfiyyətlərə nail olmaq üçün məktəbin rəhbərliyi zabit və yunkerləri xidməti uğurlarına görə vaxtlı-vaxtında fərqləndirməyə və mükafatlandırmağa, nöqsanlara yol verənləri isə cəzalandırmağa çalışırdı. Məktəb rəhbərliyi tərəfindən daxili xidmətin düzgün təşkili nəzarət altında saxlanılır və bu yolla mövcud olan nöqsanlar da üzə çıxarılırdı. Praporşiklər məktəbinin daxili əmrlərindən də görmək mümkündür ki, xidmətin necə aparılması vaxtaşırı yoxlanılmış və onun nəticələri imzalanan əmrlərdə öz əksini tapmışdı.

Bu mənada məktəbdə zabitlərin xidmətinə xüsusi diqqət göstərilirdi. Çünki istər tədris prosesinin təşkilində, istərsə də nizami xidmətin qurulmasında zabitlərin rolu böyük idi. Ona görə də məktəb zabitlərinə qarşı həm qayğı, həm də yüksək tələbkarlıq irəli sürülürdü. Bu baxımdan məktəb rəisinin imzaladığı əmrlərdə vəzifə borcuna sədaqətlə yanaşan zabitlər həvəsləndirildiyi kimi, zabitlər tərəfindən özünü göstərən laqeydlik hallarına qarşı da ciddi tələbkarlıq nümayiş etdirilirdi. Məsələn, məktəb rəisi polkovnik R.Şıxlinski 31 may 1919-cu il tarixində imzaladığı əmrində növbətçi zabitin öz vəzifə borclarının icrasına məsuliyyətsizcəsinə ya-

naşmasını ciddi tənqid edirdi. Məktəb rəisinin narazılığına səbəb olan məqam o idi ki, növbətçiliyi qəbul edən zabitlər Daxili Xidmət Nizamnaməsinə uyğun olaraq növbətçi zabitin vəzifələrini düzgün bilmirdilər. Bunun nəticəsi idi ki, hətta Hərbi Nazirliyin rəhbərliyi məktəbə gələndə məktəb növbətçisi onları düzgün qarşılamırdı. Əmrdə konkret hal kimi Hərbi Nazirliyin Ümumi qərargah rəisinin iki dəfə məktəbə gəlişi zamanı onun məktəb növbətçisi tərəfindən vaxtında qarşılanmaması və ona məruzə edilməməsi göstərilirdi. Başqa bir halda isə məktəb növbətçisi şəxsi heyətin harada olması barədə lazımi məlumata malik deyildi və şəxsi heyətin bir hissəsinin icazəsiz məktəbi tərk etməsini də adi bir hal kimi qarşılamışdı. Məktəb rəisi imzaladığı əmrində Daxili Xidmət Nizamnaməsinin konkret maddələrini sadalamaqla növbətçilərin vəzifələrini bir daha zabitlərə xatırladırdı. Əmrin sonunda isə məktəb rəisi tələb edirdi ki, zabitlər Daxili Xidmət Nizamnaməsini ciddi öyrənsinlər və məktəb növbətçiliyini edərkən nizamnamədən irəli gələn vəzifələrini düzgün icra etsinlər (100).

Başqa bir halda isə məktəbin kiçik zabiti praporşik Şıxlinskinin intizamsızlığı məktəb rəisinin iradları ilə qarşılanmışdı. Bununla bağlı imzalanmış əmrlərdən birində praporşik Şıxlinski də məktəb növbətçisi kimi öz vəzifəsini düzgün icra etmədiyi üçün məktəb rəisinin tənqidinə məruz qaldı. Məktəb rəisi göstərirdi ki, növbətçiliyin təşkilini yoxlayarkən istirahət növbə üzvlərinin ayaqqabılarını çıxararaq istirahət etdiklərinin şahidi olmuşdu ki, bu da nizamnamə tələbinə zidd idi. Belə bir hala yol verilməsində ilk növbədə qarovul rəisi günahkar bilindi və bir ay onun məktəbdən ayrılmasına qadağa qoyuldu. Məktəb rəisi, eyni zamanda, məktəb üzrə növbətçini də belə bir səhlənkarlığa yol verməkdə tənqid edirdi. Onun çağırışı əsasında məktəb növbətçisi vaxtında yetişməyəndə məktəb rəisi özü onun otağına yollandı və onun da paltarını çıxarmasının şahidi oldu. Məktəb növbətçisi, eyni zamanda, sutka ərzində qarovulu yoxlamamış və bununla bağlı müvafiq kitabda qeydlər etməmişdi. Ona görə praporşik Şıxlinskiyə töhmət elan olundu. Belə halların gələcəkdə təkrarlanmaması üçün məktəb rəisi

tələb etdi ki, zabitlər qarnizon xidmətinin tələblərini ciddi şəkildə öyrənsin və mənimsəsin (101).

Başqa bir halda isə praporşik Şıxlinski yunker bölüyünün sıra təlimi zamanı məktəb rəisinin nümayəndəsi olan podpolkovnik Qiyasbəyovun yaxınlaşmasını gördükdə yunkerlərə "farağat" komandası verməmişdi. Hətta podpolkovnik Qiyasbəyovun tələb etməsinə baxmayaraq, praporşik Şıxlinski özünün bölüyün yüksək vəzifəli zabiti olmadığını iddia edərək "farağat" komandası verməkdən imtina etmişdi. Məktəb rəisi isə həmin anda bölüyün yanında olan yeganə zabit kimi praporşik Şıxlinskinin bu əmri verməyə borclu olduğunu bildirirdi və yol verdiyi intizamsızlığa görə ona birhəftəlik ev dustaqlığı cəzası verilmişdi. Məktəb rəisi qeyd edirdi ki, praporşik Şıxlinski bu intizamsızlığı ilə yunkerlərə yararsız nümunə olmaqla bərabər, məktəbin də nüfuzunu aşağı salırdı. Əmrdə tələb olunurdu ki, zabitlər tərəfindən belə intizamsızlıq hallarına son qoyulsun. Əks təqdirdə, belə zabitlərin məktəbdən xaric edilməsi haqqında Hərbi Nazirlik qarşısında vəsatət qaldırılacaqdır (102).

Görünür, praporşik Şıxlinski bu iradlara qarşı məsuliyyətlə yanaşmışdı. Çünki bu iradlardan bir neçə ay sonra, yəni 1919-cu il avqust ayının 15-də məktəb rəisi tərəfindən bir neçə praporşik, o cümlədən praporşik Şıxlinski vaxtından əvvəl növbəti rütbə verilməsinə təqdim edildilər. Digər zabitlər isə Vəkilov, Axundzadə, Məmmədov, Vəzirov, İmanov, Səlimxanov və İsmayılov idilər. Məktəb rəisinin Baş Ərkani-hərb rəisinə göndərdiyi təqdimat məktubunda öz vəsatətini onunla əsaslandırırdı ki, məktəbdə zabitlərin xidməti hərbi hissələrdəki xidmətdən dəfələrlə ağırdır. Çünki məktəbdə ilboyu dərslər davam edir və zabitlər də yunkerlərlə qışda 4–6 saat, yayda isə 8 saat dərs aparmalı olurdular. Hərbi hissələrdə isə zabitlər dərslərin aparılmasına yalnız rəhbərlik edirdilər. Bundan başqa, məktəbdə yunkerlərə verilən biliyin həcmi hərbi hissələrdə əsgərlərə verilən biliyin həcmindən xeyli artıq idi. Bu da zabitlərdən əlavə gərginlik tələb edirdi. Məktəb zabitləri, eyni zamanda, zabitlərin azlığı üzündən tez-tez növbətçilik etməli olurdular: "Öz vəsatətimi onunla əsaslandırıram ki, rəhbərlik etdiyim məktəbdə

zabitlərin xidməti aşağıdakı səbəblərə görə qoşun hissələrindəki xidmətdən xeyli ağırdır. Məktəbdə bütün ilboyu zabitlərin demək olar ki, bütün gün ərzində dərsləri vardır. Zabitlər qış vaxtı 4–6 saat, yay vaxtı isə 8 saat dərs dedikləri halda, qoşun hissələrindəki zabitlər dərslərə yalnız rəhbərlik edirlər və onların verdiyi göstərişlər əsasında dərsləri çavuşlar da apara bilərlər. Nizamnamələr və nizami hazırlıq üzrə kursun həcmi məktəbdə hissələrə nisbətən xeyli böyük olduğuna baxmayaraq, buranın zabitləri boş vaxtlarında da nizamnamə və xidmət üzrə dərslərdə iştirak edirlər ki, onlara həvalə olunmuş vəzifələri daha yaxşı öyrənsinlər. İstənilən hərbi hissəyə nisbətən məktəbdə zabitlərin sayı az olduğundan məktəb zabitləri həm növbətçilik edir, həm yunkerlərlə nizami hazırlıq üzrə dərs aparırlar, həm də bölük komandiri kimi yunkerlərin təhsil davamiyyətini nəzarət altında saxlayırlar və onlara zəruri olan məsləhətlər verirlər" (103).

Nəhayət, məktəbdə yüksək rütbəli zabitlərin sayı da az idi. Məktəb rəisi bu məqamın da nəzərə alınmasını və ona görə adları çəkilən zabitlərin rütbələrinin yüksəldilməsini xahiş edirdi (104).

Amma Baş Ərkani-hərb rəisi general-leytenant M.Sulkeviç bu vəsatətlə bağlı bildirdi ki, rütbəyə təqdim olunanlar ən azı bir il xidmət etməlidirlər (105).

Təhsil uğurları və nizam-intizamı ilə fərqlənən yunkerlər vaxtaşırı məktəb rəhbərliyi tərəfindən həvəsləndirilir və mükafatlandırılırdı. Belə yunkerlər əsgəri rütbələrə layiq görülür, ya da onlara qısamüddətli məzuniyyətlər verilir. Məsələn, 1919-cu il yanvar ayının əvvəllərində 13 nəfər yunkerə əla davranışı və biliklərinə görə yefreytor rütbəsi verilmişdi. 1919-cu il aprelin 1-də isə birinci bölüyün yunkerlərindən Həsən Həsənov, Həsən Abdullayev, Həsən Eyubov, Həmid Mahmudov, Qurbanəli Qurbanəliyev, Əlişövkət Abuzərov, Məmmədəli Ağababayev, Abdulla Ağayev, Bahadur Əliyev, Məmmədhüseyn Əliyev, Mənsur Əliyev, Məmmədheydər Əliyev və başqaları fərqləndiklərinə görə birinci dərəcəli unter-zabit rütbəsinə layiq görülmüşdülər. Bu siyahıda bütünlüklə 49 yunkerin adı var idi (106).

Praporşiklər məktəbində buraxılış imtahanlarının keçirilməsi üçün xüsusi imtahan komissiyası təşkil edilirdi. Bu imtahan komissiyalarına həm Praporşiklər məktəbinin zabitləri, həm də Hərbi Nazirliyin və qarnizon hissələrinin nümayəndələri daxil edilirdi. Məsələn, 1919-cu ilin aprelində Hərbi nazirin göstərişinə əsasən Ümumi qərargah rəisinin imzaladığı sərəncamda göstərilirdi ki, sıra təlimlərinin keçirilməsi üçün məktəb rəisi polkovnik R.Şıxlinskinin sədrliyi altında komissiya yaradılır. Komissiyaya məktəbin, 3-cü Gəncə piyada alayının, 1-ci topçu briqadasının və 3-cü Şəki süvari alayının zabitləri daxil edilmişdi (107).

Praporşiklər məktəbinin növbəti buraxılışı 1919-cu ilin aprelində oldu. Bu buraxılışda 135 nəfər sınaq imtahanlarını uğurla verərək ilkin zabit rütbəsinə layiq görüldülər. Buraxılış mərasiminə Bakıdan dövlət və hökumət nümayəndələri də dəvət edilmişdilər. Onların arasında Parlamentin sədr müavini H.Ağayev, Parlamentin üzvü A.Rzayev, Gəncə şəhərinin başçısı Səfikürdski və başqaları da var idi (108). Məktəbin rəisi R.Şıxlinskinin raportunu qəbul etdikdən sonra Hərbi nazir S.Mehmandarov yunkerləri təhsili başa vurmaları və praporşik rütbəsi almaları münasibətilə təbrik etdi. Sonra qonaqlara və gənc zabitlərə ziyafət verildi. Ziyafətdə Hərbi nazir bir daha çıxış etdi və gənc zabitləri təbrik etdi. S.Mehmandarov öz çıxışında dedi: «Sizə çox məsuliyyətli bir vəzifə həvalə olunur. Bu gündən siz bizim gənc ordumuzun rəhbərlərinə çevrilirsiniz. Unutmayın ki, siz əsgərlərə yalnız mehriban və səmimi münasibətinizlə Azərbaycanın istiqlaliyyətinə sadiq olan möhtəşəm ruhlu ordunun yaradılması kimi ali məqsədə nail ola bilərsiniz. Şəxsi ləyaqət hissini yüksək tutaraq fiziki güc tətbiq etməkdən çəkinin, çünki bu təsir vasitəsi insanda özünə və başqalarına qarşı ehtiram hissini məhv edir. Ciddi olun, ancaq intizamın pozulması üzrə hər bir hadisəni fərdiləşdirin və buna müvafiq olaraq qərar qəbul edin. İntizamın pozulması halı heç də həmişə qərəzli iradənin ifadəsi olmur. Yalnız bu yolla siz qardaşlarınız olan əsgərlərin hörmətini qazana bilərsiniz, yalnız qarşılıqlı məhəbbət və etimad əsasında ordu yekdil və güclü ailəyə çevrilə bilər, yalnız belə ordu həqiqi ordudur, xalqın dayağı, bizim istiqlaliyətimizin dayağıdır».

Sonra Parlamentin sədr müavini H.Ağayev də gənc zabitlərə üz tutdu və məktəbi başa vurmaları münasibətilə onları təbrik etdi. Qısa təbrik nitqində o dedi: "Siz bizim ordumuza qatılacaq, dirilik suyu kimi onu canlandıracaqsınız. İnanıram ki, siz müəllimləriniz və komandirləriniz tərəfindən aşılanan Azərbaycanın müstəqilliyi ideyasından ruhlanaraq bu ideyanı bizim ordumuza da təlqin edəcəksiniz. Bu ideyadan kənarda bizim milli qurtuluşumuz yoxdur. Siyasətdən kənarda olmaqla inanıram ki, siz hamınız yalnız gənc ordumuzun möhkəmləndirilməsinə və bununla da bizim gənc, müstəqil dövlətimizin möhkəmləndirilməsinə xidmət edəcəksiniz" (109).

Məktəbin buraxılışından dərhal sonra yeni dövrənin qəbuluna başlandı. Bununla bağlı türk (Azərbaycan) və rus dillərində elanlar hazırlandı və müxtəlif yerlərdə yapışdırıldı. Praporşiklər məktəbinə qəbul müsabiqə yolu ilə aparılırdı. Müsabiqədə iştirak etmək istəyənlər müvafiq savad səviyyəsinə malik olmalı idilər. Ərizə verənlərin savadı ali ibtidai məktəbin tam kursu və ya gimnaziyanın 4 sinfi və ya bunlara uyğun gələn səviyyədə olmalı idi. Məktəbə qəbulun başlanması barədə «Azərbaycan» qəzetində elan verilirdi. Aparılan müsabiqənin nəticələri də «Azərbaycan» qəzetində çap edilirdi. 1919-cu ilin mayında məktəbə qəbul barədə aşağıdakı məzmunda elan verildi: «Gəncə Praporşiklər məktəbinə daxil olmağı arzulayan şəxslərin ərizələrinin qəbulu aprelin 16-dan mayın 5-nə kimi aparılacaqdır. Məktəbə daxil olmaq istəyənlər məktəb rəisinin adına ərizə yazmalı və ona təhsil və doğum haqqında şəhadətnamələri əlavə etməlidirlər. Təhsil senzi ali ibtidai məktəblərin tam kursundan, gimnaziyanın və ya müvafiq təhsil müəssisələrinin 4 sinfindən aşağı olmayan şəxslər qəbul ediləcəklər. Bu tələblərə cavab verən həm mülki şəxslər, həm də əsgərlər qəbul ediləcəklər. Mayın 5-dən sonra üzrsüz səbəblərə görə sənədlərin qəbulu aparılmayacaqdır. Sənədlərin qəbulundan sonra məktəbə daxil olmaq istəyənlər tibbi müayinədən keçməli olduqları üçün başqa yerdə yaşayanlar Gəncəyə gəlməlidirlər. Məktəbə qəbul edilənlərin siyahısı mayın 5-də məktəbin giriş qapısının yanında asılacaq və «Azərbaycan» qəzetində çap oluna-

caqdır. Qəbul olunanların hamısı mayın 5-dən 15-nə kimi məktəbə gəlməlidirlər. Üzrsüz səbəblərə görə mayın 15-dən sonra gələnlər isə qəbul edilməyəcəklər» (110).

Əhali arasında Praporşiklər məktəbində oxumaq üçün böyük maraq var idi və bunun nəticəsi idi ki, məktəbə 100 nəfərdən artıq yunker qəbul edilmişdi.

Praporşiklər məktəbinin yeni dövrəsi üçün gün rejimi aşağıdakı kimi müəyyənləşdirilmişdi (111):

6.00 – Yunkerlərin yataqdan qalxması

6.30 – Səhər çayı

7.00 - 7.30 – Gimnastika

8.00 - 11.00 – Sıra təlimi

11.00 - 12.00 – Yuxarı siniflər üçün mühazirə, aşağı siniflər üçün nizamnamələr

13.00 –Nahar

17.30-19.30 – Yuxarı siniflər üçün mühazirə, aşağı siniflər üçün nizamnamələr

19.30 – Axşam yeməyi və axşam çayı

21.00 – Axşam yoxlaması.

Cümə axşamı nahardan sonra və cümə günləri yunkerlərlə dərslər keçirilməli deyildi.

1919-cu ilin iyun ayından isə məktəb yay rejiminə keçdi. Bununla əlaqədar olaraq gün rejimi aşağıdakı qaydada müəyyənləşdirildi (112):

5.00 – Yunkerlərin yataqdan qalxması

5.00 - 5.50 – Yuyunma və səhər yoxlanışı

6.00 - 6.30 – Gimnastika, qılıncoynatma və atıcılıq

6.35 - 7.00 – Səhər yeməyi

7.05 - 7.55 – 1-ci dərs, siyasi savadlanma üzrə

8.00 - 8.50 – 2-ci dərs

9.00 - 9.50 – 3-cü dərs

10.00 - 10.50 – 4-cü dərs

11.00 - 11.50 – 5-ci dərs

12.30 - 13.15 – Nahar yeməyi

13.15 - 15.00 – İstirahət
15.00 - 18.00 – Nizamnamələr və sıra təlimi
18.00 - 19.00 – Şam yeməyi
19.00 - 21.00 – Söhbətlər və məşqlər
22.00 – Yatmaq üçün işarə

1919-cu il iyul ayının 7-də Praporşiklər məktəbi Gəncədən Hacıkəndə köçürüldü. Çox güman ki, məktəbin Hacıkəndə köçürülməsi tədris prosesinin daha səmərəli aparılması ilə bağlı idi.

Yunkerlər burada düşərgə şəraitində yaşayırdılar.

1919-cu il iyul ayının sonu və avqust ayının əvvəllərində Hərbi Nazirliyin Bakı şəhərinə köçürülməsindən sonra Praporşiklər məktəbinin də Bakıya köçürülməsi qərara alındı. Bununla bağlı, Hərbi nazir əvvəlcə Praporşiklər məktəbinin avqust ayının 28-də yenidən Gəncəyə köçürülməsi barədə əmr verdi. Polkovnik R.Şıxlinskinin elə həmin tarixdəki məktəbdaxili əmrində deyilirdi ki, bu gün Praporşiklər məktəbi saat 13-də Hacıkənddən hərəkət etdi və saat 16.30-da Gəncədəki yerinə çatdı. Elə həmin günlərdə Praporşiklər məktəbində buraxılış imtahanları keçirildi. 1919-cu ilin son günlərində baş tutmuş imtahanlar zamanı 114 yunker müvəffəq qiymət alaraq təhsili başa vurdular. Sentyabr ayının 1-də isə növbəti tədris dövrünün başa çatması münasibətilə Gəncənin Topçu meydanında Praporşiklər məktəbi yunkerlərinin paradı təşkil edildi (113).

Sentyabr ayının 4-də isə R.Şıxlinski məktəbin Bakıya köçürülməsi barədə Hərbi nazirin müvafiq əmrini yerinə yetirmək üçün lazımi göstəriş verdi. Sentyabr ayının 6-da Praporşiklər məktəbi Bakıya köçürüldü və burada Torqovı küçəsi ilə Budaqovski küçəsinin kəsişməsində olan 10-cu əsgər xəstəxanasının binasında yerləşdirildi (114).

Köçürülmə ilə bağlı R.Şıxlinskinin Hərbi Nazirliyə göndərdiyi 6 sentyabr 1919-cu il tarixli raportunda göstərilirdi ki, bu gün 16 zabit, 2 podpraporşik, 109 yunker, 133 əsgər və 8 atdan ibarət məktəb Bakı şəhərinə gəlmişdir.

### *a) Hərbiyyə məktəbi*

Praporşiklər məktəbi Bakıya köçdükdən az sonra bu təhsil ocağının statusu yenidən qaldırıldı. Çox güman ki, məktəbin Bakıya köçürülməsi, həm də bu məsələ ilə bağlı idi. 1919-cu ilin oktyabr ayında Praporşiklər məktəbi Hərbiyyə məktəbi adlandırıldı. Nazirin müvafiq əmri 1919-cu il oktyabrın 31-də imzalandı. Praporşiklər məktəbinin aşağıdakı müəllim heyəti və işçiləri isə oktyabr ayının 15-dən Hərbiyyə məktəbinin ştatında sayılırdılar (115):

Polkovnik Rüstəm bəy Şıxlinski – məktəbin rəisi

Kapitan Ququşov – məktəbin müfəttişi vəzifəsinin icraçısı

Kapitan Jeleyşikov – məktəb rəisinin adyutantı

Kapitan Vetoşnikov – təsərrüfat hissəsi rəisi vəzifəsinin icraçısı

Ştabs-kapitan Sərməstbəyov – tabor komandiri

Ştabs-kapitan Şeydayev – 1-ci bölüyün komandiri

Ştabs-kapitan Vəzirov – 2-ci bölüyün komandiri

Praporşik Axundzadə – qeyri-nizami komandanın rəisi

Praporşik İsmayılov – kürd bölməsinin rəisi

Məmur Nelyubov – xəzinədar

Məmur Qeynats – məktəbin baş həkimi

Məmur Kutilyok – kapelmeyster

Bunlardan başqa, praporşiklər Məmmədov, Vəkilov, Şıxlinski, Əsgərov, Bədəlov, Vəzirov, Hüseynov, İmanov, Rüstəmov, Səlimxanov məktəbin kiçik zabitləri vəzifəsinə qəbul edilmişdilər.

Bu əmrdən görünür ki, Praporşiklər məktəbinin Hərbiyyə məktəbinə çevrilməsi üçün təşkilati işlər hələ xeyli əvvəl başlamışdı. Nazirin əmri ilə Praporşiklər məktəbinin rəisi R.Şıxlinski Hərbiyyə məktəbinin də rəisi olaraq qalırdı.

Məktəbin statusunun qaldırılması ilə təlim-tərbiyə prosesinin qarşısında qoyulmuş vəzifələrin mahiyyəti, miqyası xeyli genişlənmişdi, tədris yükü kifayət qədər ağırlaşdırılmışdı ki, bu da keyfiyyətcə daha hazırlıqlı zabitlərin hazırlanmasına imkan verməli idi.

1919-cu il dekabr ayının 1-də Hərbiyyə məktəbinin rəisi polkovnik R.Şıxlinski 2-ci topçu briqadasının komandiri təyin edildi. Onun yerinə isə 4-cü Quba piyada alayının polkovniki Çxeidze

təyin olundu. Dekabr ayının 8-də Şıxlinski öz vəzifəsini polkovnik Çxeidzeyə təhvil verdi.

Məktəb üzrə imzaladığı sonuncu – 344 nömrəli əmrdə polkovnik R.Şıxlinski yazırdı: "Yeni xidməti təyinatımla əlaqədar məktəbi tərk edərkən tabor komandiri ştabs-kapitan Sərməstbəyova, sinif müfəttişi kapitan Quruşova, ştabs-kapitan Şeydayevə, ştabs-kapitan Vəzirova, təsərrüfat müdiri kapitan Vetoşnikova, məktəb rəisinin yavəri kapitan Vetoşnikova, bütün zabitlərə və məmurlara xidməti vəzifələrinin icrası zamanı göstərdikləri faydalı fəaliyyətlərinə görə minnətdarlığımı bildirirəm. Yunkerlərə də çalışmalarına və yaxşı davranışlarına görə təşəkkür edirəm. Bizim hamımız üçün əziz olan məktəbə uğurlar arzu edirəm" (116).

Hərbiyyə məktəbinin açılmasında başlıca məqsəd ilkin təhsili olan gəncləri hərbi-nizami və elmi istiqamətdə hazırlamaq, müvafiq qoşun növlərində xidmət etmək üçün onlara zəruri bilik vermək və vərdişlər aşılamaq idi. Burada təhsil alanlar da yunker adlandırılırdı. Məktəb üç şöbədən ibarət idi – piyada, topçu və istehkam şöbələri. Piyada şöbəsi iki bölüklü bir tabor, topçu və istehkam şöbələri isə hər biri bir taqım miqdarında olmalı idi. Hərbiyyə məktəbi birbaşa Baş Ərkani-hərb rəisinə tabe edilmişdi. Məktəbin müstəqimən idarə edilməsi isə məktəb rəisinin səlahiyyətində idi. Hərbiyyə məktəbinin rəisliyinə namizəd Baş Ərkani-hərb rəisi tərəfindən seçilməli və təsdiq üçün Hərbi nazirə təqdim edilməli idi. Hərbiyyə məktəbinin rəisliyinə namizəd ali hərbi məktəblərdən birini bitirmiş polkovnik və ya general rütbəli şəxslərdən seçilməli idi. Bu zaman, həm də ona diqqət yetirilməli idi ki, həmin zabit hərbi xidmət sahəsində kifayət qədər təcrübəli olsun (117).

Məktəb rəisi təlim-tərbiyə və tədris prosesini istiqamətləndirməli, daxili qayda-qanunun və xarici abadlığın qorunmasına nəzarət etməlidir. Məktəb rəisinə aşağıdakı hüquqlar verilirdi:

– sinif müfəttişi istisna olmaqla bütün zabitlərin və məmurların seçilməsi;

– həqiqi hərbi xidmətdə olmamaqla Hərbiyyə məktəbində çalışan məmurların, mülki şəxslərin bu və digər vəzifələrin icrasına

buraxılması, həmin vəzifədən uzaqlaşdırılması, işə qəbul edilən şəxslərə ştat cədvəlinə uyğun olaraq maaşların təyin edilməsi;

– xidməti zərurət yaranarsa, bu və ya digər zabitin Baş Ərkani-hərb rəisinə məlumat verilməsi şərti ilə müvəqqəti olaraq vəzifədən kənarlaşdırılması;

– təlim-tərbiyə hissəsi üzrə çalışan məmurların tətil müddətində 28 günlük məzuniyyətə buraxılması. Digər hərbi qulluqçular isə müəyyənləşdirilmiş qaydada məzuniyyətə buraxıla bilərdilər;

– öz vəzifəsini sədaqətlə yerinə yetirən şəxslərin mükafatlara təqdim edilməsi;

– könüllü xidmətçilərin işə qəbul edilməsi və işdən azad edilməsi, onlara müəyyənləşdirilmiş smeta daxilində maaşların kəsilməsi;

– icrası zəruri olan məsələlərlə bağlı bu və ya digər qurumlarla əlaqə yaradılması, yüksək səviyyədə həlli tələb olunan məsələlərlə bağlı baş Ərkani-hərb qarşısında vəsatət qaldırılması;

– nəzarət işlərində və intizam cəzaları verilməsində məktəb rəisi diviziya komandirinin səlahiyyətlərinə, təsərrüfat işləri sahəsində isə alay komandirinin səlahiyyətlərinə malik idi.

Hərbiyyə məktəbinə 17–28 yaşları arasında olan istənilən hərbi qulluqçu və mülki şəxs daxil ola bilərdi. Bunun üçün onlar tələb olunan ilkin təhsil bazasına malik olmalı idilər. Piyada şöbəsinə daxil olmaq istəyənlərin təhsil səviyyəsi gimnaziyanın 4 sinfi və ya ali ibtidai məktəblərin tam kursundan aşağı ola bilməzdi. Topçu və istehkam şöbələrinə ərizə verənlər isə gimnaziyanın tam kursunu və ya ona müvafiq olan təhsil ocağını bitirməli idilər. Qəbul üçün ərizə verənlər məktəbdə sınaq imtahanlarından keçməli idilər. Piyada şöbəsinə ərizə verənlər malik olduqları ilkin təhsil səviyyəsində sınaq imtahanlarını keçməli idilər. Topçu və istehkam şöbəsinə daxil olmağı arzulayanlar isə bəzi fənlər üzrə əlavə imtahanlara cəlb edilməli idilər. Sınaq imtahanlarından keçmək istəyənlər üçün imtahan proqramı Hərbiyyə məktəbinin özündə hazırlanırdı. Nəzərdə tutulmuşdu ki, məktəbdə sənədlərin qəbulu barədə «Azərbaycan» qəzetində elan verilsin. Mülki şəxslər bu elanı oxuduqdan sonra məktəbə müraciət etməli idilər. An-

caq Azərbaycanın ayrı-ayrı məntəqələrindən tez-tez Hərbiyyə məktəbinə müraciət edilir və çoxları məktəbdə oxumaq arzusunda olduqlarını bildirirdilər.

Məsələn, Şamaxı sakini Miryaqub Mirzəyev belə bir məktubla məktəbin rəisinə müraciət etmişdi: "Vətən naminə həyatımı ölkənin müdafiəçiləri sırasında hərbi xidmətə həsr etmək üçün yeni başlanan ilin əvvəlindən rəhbərlik etdiyiniz məktəbin müdavimləri sırasına qəbul edilməmi Siz əlahəzrətdən xahiş etmək mənim üçün şərəfdir. Təhsil senzim var, kommersiya məktəbini 7 sinfini bitirmişəm. Zəruri sənədləri isə tələb olunan kimi yollayacağam". Məktub müəllifi daha sonra yazırdı ki, cavab müsbət olarsa, onun Şamaxıdakı ünvanına məktub göndərilsin. Məktəbin rəisi həmin məktuba dərkənar qoyaraq qəbul barədə "Azərbaycan" qəzetində nə vaxt elan çap ediləcəyini Mirzəyevə çatdırmağı tapşırdı (118).

Heç şübhəsiz ki, mətbuatın çətin yayıldığı əyalətlərdə məktəbə qəbulun qaydasından və onun nə vaxt başlayacağından vaxtında xəbər tuta bilmirdilər və ona görə də birbaşa məktəbin özünə müraciət edirdilər. Hərbi hissələrə isə məktəbə qəbulun başlanması barədə Hərbi Nazirlikdən göndərilən əmr vasitəsi ilə xəbər verilirdi. Bu məlumat alınan kimi arzu edənlərin sənədləri məktəbə təqdim olunmalı idi.

Əsasnamədə göstərilirdi ki, Hərbiyyə məktəbində təhsil iki il davam etməli və buraxılış avqustun ortalarında olmalı idi. Yeni dərs ili isə sentyabrın 1-də başlamalı idi (119).

Əsasnamədə, eyni zamanda, göstərilirdi ki, yunkerlərlə aparılan təlim-tərbiyənin qarşısında aşağıdakı vəzifələr dayanır:

1) hərbi və vətəndaşlıq borcu hisslərinin yunkerlərə dərindən aşılanması;

2) doğrucul, itaətkar və cəsur xarakterin formalaşdırılması;

3) vətənin müdafiəsi naminə hazır olan yüksək hərbçi hisslərinin möhkəmləndirilməsi;

4) möhkəm intizamın və rütbəcə böyüklərə ciddi ehtiramın aşılanması;

5) yunkerlər arasında səmimi yoldaşlıq hisslərinin qorunması.

Məktəbdaxili rejim də bu vəzifələrin həll edilməsinə uyğun olaraq qurulmalı idi. Həmin vəzifələrin həllinə nail olmağa ça-

lışan, təhsildə və davranışda yaxşı nəticələr göstərən yunkerlər məktəb rəisinin əmri ilə mükafatlandırılır və həvəsləndirilirdi. Yüksək nəticələrə nail olan yunkerlər baş çavuş (feldfebel), baş portupey-yunker, kiçik portupey-yunker rütbələrinə layiq görülürdülər.

Bu rütbələrə layiq görülmək üçün yunkerlər konkret olaraq aşağıdakı tələblərə cavab verməli idilər: baş çavuş rütbəsinə layiq görülənlərin bütün fənlər üzrə ümumi təhsil balı 10 baldan, ayrı-ayrı fənlər üzrə isə 6 baldan aşağı olmamalı idi. Davranış norması isə birinci dərəcəyə cavab verməli idi. Portupey-yunker rütbələrinə təqdim olunanların isə bütün fənlər üzrə ümumi balı 9 baldan, bu və ya digər fəndən isə ümumi balı 6 baldan aşağı olmamalı idi. Onların da davranış norması birinci dərəcə səviyyəsində olmalı idi. Əgər bu rütbələrə yunkerlər təhsil ilinin əvvəlində təqdim edilsəydilər, onda əvvəlki tədris ilinin sonunda verilmiş imtahanların nəticələri nəzərə alınmalı idi. Təhsilə həvəs göstərməyən, davranış normalarını pozan və bəslənilən etimadı doğrultmayan yunkerlər isə cəzalandırıla bilərdilər. Bu məqsədlə onlar rütbədən məhrum edilə, ya da yüksək rütbədən aşağı rütbəyə keçirilə bilərdilər. Xüsusi hallarda Baş Ərkani-hərb rəsinin icazəsi ilə yunkerlər hərbi məhkəməyə də verilə bilərdilər (120).

Qeyd etmək lazımdır ki, mövcud olduğu dövrdə Hərbiyyə məktəbi üzrə daxili əmrlə xeyli sayda yunker yuxarıda göstərilən qaydada həm mükafatlandırılmış, həm də cəzalandırılmışdı. Yunkerlərin cəzalandırılması və mükafatlandırılması məktəbdə mövcud olan intizam komitəsinin qərarı ilə baş verirdi. Bu komitə əsasnaməyə əsasən məktəbdə yaradılmış iki məşvərətçi komitədən biri idi. Bu komitəyə məktəb rəisi sədrlik edirdi. Onun üzvləri isə sinif müfəttişi, onun müavini, tabor komandiri, bölük komandirləri, topçu, istehkam taqımları komandirləri, kiçik zabitlər və məktəb imamı idilər. Komitənin vaxtaşırı keçirilən iclasında yunkerlərin hərəkətləri, onlara verilən cəzalar, yunkerlərin davranışlarının və mənəviyyatlarının qiymətləndirilməsi, bölük komandirlərinin yunkerlərin mükafatlandırılması ilə bağlı təqdimatları müzakirə edilirdi. Məsələn, 1920-ci il fevralın 6-da keçirilən iclasın qərarı ilə bir

neçə yunker 2-ci dərəcəli davranış səviyyəsindən 3-cü dərəcəli davranış səviyyəsinə keçirilmiş və onlara xəbərdarlıq edilmişdi ki, təkrar intizamsızlıqlara yol verdikləri halda məktəbdən qovulacaqlar. Elə həmin iclasın qərarı ilə başqa bir neçə yunker intizamsızlıqlarına görə məktəbdən qovulmuşdu. Fevralın 8-də keçirilən iclasda isə əksinə çoxlu sayda yunker nümunəvi davranışlarına görə 1-ci dərəcəli davranış səviyyəsinə keçirilmişdi. İntizam komitəsində məktəbin zabitlərinin də davranış normaları müzakirə edilir və müvafiq qərarlar qəbul edilirdi (121). Məktəbi tərk edib qaçan yunkerlərin hər biri barədə həmin yunkerlərin yaşadığı qəza polisinə və Əxzi-Əsgər İdarəsinə xəbər verilir ki, onun axtarışı ilə məşğul olsunlar. Bu məqsədlə yazılan məktublar məktəb rəisi tərəfindən imzalanırdı və orada yunkerlərin özləri ilə apardıqları xidməti əşyalar da göstərilirdi. Məktəbin arxivində mövcud olan sənədlərdən görmək mümkündür ki, yerlərdə məktəbdən qaçan yunkerlərin axtarışı ilə çox ciddi məşğul olunmuş və onun nəticələri barədə məktəbə məlumat verilmişdi. Qaçan yunkerlərdən könüllü olaraq qayıdanlar da var idi. Onlar yenidən öz təhsillərini davam etdirirdilər (122).

İntizam komitəsinin və məktəbdə mövcud olan ikinci məşvərətçi komitənin – pedaqoji komitənin qərarı ilə məktəbdən xaric edilənlər də müəyyən vaxtdan sonra yenidən məktəbə qəbul oluna bilərdilər. Müəyyən hallarda isə yunkerlər bu hüquqdan məhrum edilməklə qovula bilərdilər. Belə hallarda onlar bir daha Hərbiyyə məktəbinə qəbul oluna bilməzdi. Bəziləri isə müəyyən müddət hərbi hissələrdə xidmət etdikdən sonra Hərbiyyə məktəbinə qəbul edilə bilərdilər. Bu halda ilk növbədə həmin hərbi hissənin onun barəsində müsbət təqdimatı olmalı idi. Əgər yunker dərs ilinin əvvəlində və ya ortasında məktəbdən kənarlaşdırılmışdırsa, onda yenidən qəbul imtahanı verməli idi. Birinci ilin tədris proqramını bitirənlər isə məktəbə bərpa edildikdə aşağı sinifdən yuxarı sinfə keçid imtahanlarını verməli idilər. Bu və ya digər səbəblərə görə ikinci dəfə məktəbdən kənarlaşdırılanlar da ora yenidən qəbul olunmaq hüququnu itirirdilər. Yunkerlərin məktəbdən kənarlaşdı-

rılması və ya xaric edilməsi, habelə belələrinin hərbi hissələrə göndərilməsi Baş Ərkani-hərb rəisinin əmri ilə olmalı idi. İntizam pozğunluqlarına və təhsil nəticələrinə görə məktəbdən uzaqlaşdırılanlar hansı hissəyə göndərilmələrini seçmək hüququna malik deyildilər. Belələri, həm də Hərbiyyə məktəbinin daxil olduğu qarnizonun hərbi hissələrində xidmət edə bilməzdilər və digər qarnizonların hərbi hissələrinə göndərilməli idilər. Öz ərizəsi ilə Hərbiyyə məktəbindən xaric olanların isə hansı hərbi hissədə xidmət etmək istəmələri nəzərə alına bilərdi (123).

Məktəbdə mövcud olan ikinci məşvərətçi komitəyə – pedaqoji komitəyə də məktəb rəisi sədrlik edirdi. Bu komitənin tərkibinə əlavə olaraq sinif müfəttişi, onun müavini, tabor komandiri, bölük komandiri, topçu və istehkam taqımlarının komandirləri, kiçik zabitlər, imam, müəllimlər və həkimlər daxil idi. Pedaqoji komitənin iclasları məktəb rəisinin qərarı ilə çağırılırdı. Bu iclaslarda məktəbin həyatı ilə bağlı ümumi məsələlər, tədris prosesi ilə ortaya çıxan məsələlər müzakirə edilməli idi. Pedaqoji komitənin xüsusi iclasları da ola bilərdi. Bu zaman orada bütün üzvlərin iştirakı məcburi deyildi. Belə iclaslarda məktəb rəisi, sinif müfəttişi, onun müavini, imam və digər üzvlərdən isə iştirakı zəruri olanlar iştirak edə bilərdilər. Xüsusi iclaslarda isə manqa, taqım və bölüklər üzrə yunkerlərin təhsil nəticələri və davranış normaları müzakirə edilə bilərdi. Bütün iclaslarda hansı məsələnin müzakirə ediləcəyi məktəb rəisi tərəfindən müəyyənləşdirilirdi. Müvafiq qərar səs çoxluğu ilə qəbul edilirdi. Əgər məktəb rəisi bu qərarla razılaşmasaydı, onda öz qərarına uyğun hərəkət etməli və bu barədə Baş Ərkani-hərb rəisinə məlumat verməli idi. Keçirilən iclasların protokolları xüsusi jurnallarda öz əksini tapırdı.

Hərbiyyə məktəbində təlim-tərbiyə prosesinin aparılması ilə öz səlahiyyətləri daxilində tabor komandiri, bölük komandirləri və sinif müfəttişi məşğul olurdular. Tabor komandirinin bu sahədəki vəzifələri aşağıdakılardan ibarət idi:

– tabeliyində olan şəxsi heyətin nizam-intizamına, hərbi etikanın qorunmasına, xidməti vəzifələrin vaxtında və dəqiqliklə yerinə yetirilməsinə nəzarət etmək.

Bölük komandiri isə tabor komandirinin nəzarəti altında bölüyün və taqımların yunkerlərinin xidmətinə, hərbi tərbiyəsinə, təhsilinə və hazırlığına rəhbərlik etməli, onların nizamnamələrdən irəli gələn tələblərə və intizama riayət etmələrini, sinifdaxili və sinifxarici dərslərin keçirilməsini nəzarət altında saxlamalı idi (124).

Tədris işlərinin təşkilinin və həyata keçirilməsinin əsas ağırlığı sinif müfəttişinin üzərinə düşürdü və bu sahədə o, məktəb rəisinin ən yaxın köməkçisi idi. Onun namizədliyinin seçilməsi Baş Ərkani-hərb rəisinin səlahiyyətlərinə daxil idi. Sinif müfəttişi həm ali hərbi təhsilə, həm də tədris işlərinin təşkili üzrə müəyyən təcrübəyə malik olmalı idi. Tədris hissəsi üzrə məktəbdə çalışan bütün şəxslər üçün sinif müfəttişi müstəqim rəis idi. Dərs prosesində məktəb üzrə növbətçi ona tabe idi. Onun səlahiyyətləri alay komandirinin səlahiyyətlərinə bərabər tutulurdu (125).

Sinif müfəttişinə aşağıdakı vəzifələr həvalə olunmuşdu:

– məktəbə müəllimlər seçilməsi sahəsində məktəb rəisinə yardımçı olmaq;

– tədris hissəsi üzrə təlimata uyğun olaraq məktəbdə təlim prosesini və praktiki dərsləri istiqamətləndirmək;

– dərslərin illik cədvəlini tərtib etmək. Bu cədvəl məktəb rəisi tərəfindən təsdiq edilməli idi;

– bütün fənn müəllimlərinin təsdiq olunmuş proqram üzrə siniflərdə dərsləri aparmalarına, məktəb rəisinin yazılı icazəsi olmadan dərslərin proqramdan kənara çıxmamasına, bütün siniflər üzrə müəyyənləşdirilmiş tədris yükünün bütünlüklə keçilməsinə, təkrarlanmasına və vaxtında başa çatdırılmasına nəzarət etmək;

– mühazirə, məşq və imtahanlar vaxtı daimi olaraq məktəbdə olmaq, bütün sahələrdə qayda-qanunun saxlanılmasına, bütün müəllimlərin fəaliyyətinin, yunkerlərin davranışlarının və təhsillərinin, onların biliklərinin müəllimlər tərəfindən düzgün qiymətləndirilməsinin nəzarət altına alınmasına diqqət yetirmək;

– yunkerlərin dərs kitabları və dərs əşyaları ilə təchiz edilməsi, kitabxana kitablarının qorunması və onların çoxaldılması, fizika kabineti və bütünlüklə təlim-tərbiyə üçün lazım olan dərs vəsaitlərinin mühafizəsi üçün zəruri göstərişlər vermək;

– tədris hissəsi və təsərrüfat hissəsi üzrə müəyyənləşdirilmiş hesabatın düzgün aparılmasına diqqət yetirmək.

Təlim-tərbiyə prosesinin gedişində ortaya çıxan çətinliklərdən biri, heç şübhəsiz ki, məktəbin maddi-texniki bazasında çatışmazlıqların olması idi. Bu çətinliyi aradan qaldırmaq üçün məktəb rəhbərliyi müxtəlif vasitələrə əl atırdı. Məsələn, yunkerlərin fiziki hazırlığının artırılması üçün zəruri olan idman qurğularını əldə etmək məqsədilə polkovnik Çxeidze 2-ci kişi gimnaziyasının direktoru ilə görüşmüş və həmin gimnaziyada olan idman alətlərinin və qurğularının bir hissəsinin müvəqqəti istifadə üçün Hərbiyyə məktəbinə verilməsini xahiş etmişdi. Bu məqsədlə polkovnik Çxeidze Baş Ərkani-hərb rəisinə də müraciət etmişdi. Raportlarının birində o bildirirdi ki, Dənizçilik iclasının binasında qalmış mebel, kitabxana, idman qurğularının və s. onlara verilməsinə köməklik göstərsin (126).

Praktiki dərslərin aparılması üçün də məktəbin müəyyən əşyalara ehtiyacı var idi. Məsələn, topların material hissəsinin öyrədilməsi üçün məktəb rəhbərliyi Bakı istehkamat hissəsinə müraciət etmiş və oradan top, patron qutuları, təlim patronları, stereotruba, durbin, bussol, bucaqölçən və s. kimi əşyalar almışdı (127).

Tədris kursu ərzində Hərbiyyə məktəbində aşağıdakı fənlər öyrədilirdi: hərbi fənlər – taktika, artilleriya, istehkam işləri, topoqrafiya, hərbi inzibatçılıq, qanunşünaslıq; ümumtəhsil fənləri – dinşünaslıq, türk dili və ədəbiyyatı, riyaziyyat, fizika və kimya haqqında məlumat, coğrafiya, ümumi tarix və türk xalqlarının tarixi.

Məktəbdə hərbi fənlərin əksəriyyətini Hərbi Nazirliyin yüksək rütbəli zabitləri tədris edirdilər. Bunu 1919-cu ilin sonu 1920-ci ilin əvvəlləri üçün tərtib edilmiş dərs cədvəlindən də görmək mümkündür. Bu cədvələ görə taktika dərslərini general-mayor H.Səlimov, polkovnik Karqaleteli və podpolkovnik Zeynalov, qanunşünaslığı general-mayor Dubrovski, artilleriyanı polkovnik Rozenmeyer, topoqrafiyanı general-mayor Vəkilov və podpolkovnik Vəkilov aparırdılar. Onlardan başqa, polkovnik Jilyayev (inzibatçılıq), kapitan Ledomski (topoqrafiya), kapitan Vəzirov (istehkam), polkovnik Malçuqovski (artilleriya), podpolkovnik Zeynalov (taktika), kapitan Ququşov (fizika və kimya), Axundzadə (türk

dili) və digərləri də məktəbdə tədrisin aparılmasına cəlb edilmişdilər (128).

Məktəbdə tədris prosesinin aparılması Hərbi Nazirliyin rəhbərliyinin, xüsusən də Baş Ərkani-hərb rəisi general-leytenant M.Sulkeviçin ciddi nəzarəti altında idi. O həm tədris prosesinin təkmilləşdirilməsi ilə, həm də məktəbin ehtiyaclarının ödənməsi ilə yaxından maraqlanırdı. 1920-ci ilin əvvəllərində məktəb rəisinə göndərdiyi məktubunda M.Sulkeviç yazırdı ki, atıcılıq dərslərində əsas diqqət müxtəlif səngərlərdən gözlə görülən hədəflərə atışa yönəldilməlidir. Baş Ərkani-hərb rəisi tələb edirdi ki, təlim atışlarının aparılması qaydalarının layihəsi hazırlansın, ora məktəb rəhbərliyinin lazım bildiyi zəruri əlavələr edilsin, həmin əlavələr praktikada yoxlanılsın və nəticələri barədə ona raport təqdim edilsin (129).

Atış üzrə hazırlıq məşğələləri aparılandan sonra yunkerlər praktiki güllə atışına çıxarılırdılar və nəzəri məşğələlərdə əldə edilmiş biliklər əsasında atış poliqonunda əməli dərslər aparılırdı.

M.Sulkeviç, eyni zamanda, məktəbin yunkerlər və zabitləri üçün yeni geyim formalarının hazırlanması ilə maraqlanırdı. Təqdim edilmiş geyim layihələrini M.Sulkeviç heç də qənaətbəxş saymırdı. Onun fikrincə, yunkerlərin geyim eskizləri hazırlanarkən aşağıdakı məqamlar nəzərə alınmalı idi:

1) bayır geyimləri keçmiş vitse-mundirə oxşadılmalı, yaxalıq qatlanmalı, yaxalıq üzərinə klapanlar tikilməli və üzərində qoşun növünün emblemi olmalı idi. Piyadalar üçün emblem çapraz qoyulmuş tüfənglər, süvaridə çarpaz qılınclar, topçuda çarpaz qoyulmuş top lülələri, istehkamda bel və balta və s.;

2) ənvərka papaqlarda alayın rənginə uyğun zolaq, kokarda yerində ulduz, çənə altından keçən bərkidici qayışda düymə əvəzinə milli rənglərdə olan rozetka, papağın üstündə isə möhkəm astar olamlı idi;

3) səfər formasında – sinəsində qara düymələri, möhkəm bağlanması üçün daxildən iki qarmaq keçiricisi olan boz Qafqaz köynəyi olmalı idi. Şalvarlar da Qafqaz materialından hazırlanmalı və kənarında isə kant olmamalı idi.

Hərbiyyə məktəbini bitirənlər verdikləri buraxılış imtahanlarının nəticələrinə, nizami hazırlığın səviyyəsinə və davranışlarına görə üç dərəcəyə bölünməli idilər. Birinci dərəcə üzrə məktəbi bitirənlərin bütün imtahanlar üzrə orta balı 9-dan aşağı olmamalı idi. Özü də bu zaman hərbi fənlər üzrə ən aşağı bal 9 bal, bu və ya digər bəzi fənlər üzrə isə ən aşağı bal 6 bal, nizami xidmət üzrə ən aşağı bal 10 bal olmalı, davranış üzrə isə birinci dərəcə əldə edilməli idi. İkinci dərəcə üzrə buraxılanlar aşağıdakı göstəricilərə malik olmalı idilər. Ümumi bal – ən aşağı 7 bal, hərbi fənlər üzrə ən aşağı 7 bal, digər fənlərdən ən aşağı 6 bal, nizami xidmətdən isə ən aşağı 9 bal olmalı idi. Davranış norması ikinci dərəcəyə bərabər olmalı idi. 2-ci dərəcə üçün tələb olunan normativləri yerinə yetirə bilməyənlər üçüncü dərəcə üzrə buraxılırdılar (130).

Əsasnaməyə görə Hərbiyyə məktəbini 1-ci dərəcə üzrə bitirənlərə podporuçik rütbəsi verilməli və hissələrə göndərilməli idilər. Bu şəxslər növbəti rütbə almaq üçün bir il qədəmə (güzəştə) malik olurdular. İkinci dərəcə üzrə məktəbi bitirənlər də podporuçik rütbəsi alırdılar. Ancaq onlar növbəti rütbəni almaq üçün heç bir güzəştə malik deyildilər. Məktəbi 3-cü dərəcə üzrə bitirənlərə isə heç bir rütbə verilmirdi. Onlar çavuş rütbəsində hissələrə göndərilirdilər. 6 ay həmin hissədə xidmət etdikdən sonra hissə komandirləri tərəfindən onlar podporuçik rütbəsinə təqdim edilə bilərdilər.

Əsasnaməyə görə Hərbiyyə məktəbində mərmər fəxri lövhə düzəldilməli idi. Hər il məktəbi yüksək qiymətlərlə bitirənlərin adları bu lövhəyə həkk edilməli idi. Belələrinin imtahan verdikləri bütün fənlər üzrə orta balı 11 baldan aşağı olmamalı idi.

Təlim-tərbiyə prosesinin yüksək səviyyədə olması üçün məktəbin yunkerləri müxtəlif təsərrüfat işlərindən azad edilmişdilər. Məktəb rəisi də bu tələbə əməl edilməsinə ciddi şəkildə nəzarət edirdi. Bununla bağlı onun imzaladığı əmrlərdən birində deyilirdi ki, yunkerlərin mətbəxdə təsərrüfat işlərinə cəlb edilməsinə yol verilməsin. Belə bir vəziyyətin şahidi olduqdan sonra məktəb rəisi tabor və bölük komandirlərinin qarşısında da bu tələbi qoyurdu və bildirirdi ki, təsərrüfat işlərinin görülməsi üçün məktəbdə təsərrüfat komandası mövcuddur (131).

Əmrlərinin başqa birində isə məktəb rəisi yunkerlər üçün hazırlanan iaşənin qeyri-qənaətbəxş olmasından narazılıq edirdi. Yunkerlərə əsgərlər üçün nəzərdə tutulan ərzaq normasının 1,5 misli verilirdi. Baxmayaraq ki, əsgərlərlə müqayisədə yunkerlərə üstünlük verilirdi, bütünlükdə mövcud şəraitdə bu normanın özü də yunkerlərin qidalandırılması üçün yetərli deyildi. Bununla belə, məktəb rəisi ayrılan ərzaq normasından müəyyən tələblərə cavab verəcək iaşənin hazırlanmasının mümkün olduğunu bildirirdi. Amma tamamilə dadsız və yeknəsəq bir yemək hazırlanırdı, yeməklərin hazırlanmasına nəzarət edilmirdi. Ərzaqlar bəzən yarıbişmiş şəkildə yunkerlərə paylanırdı. Bu məsələ ilə bağlı məktəb rəisi məktəbin zabit heyətinin ayrıca iclasını çağırdı ki, orada yunkerlərin iaşəsi məsələsi müzakirə edilsin (132).

Məktəbin əsasnaməsində təhsil müddəti iki il göstərilsə də, 1920-ci il aprel ayının 24-də onun buraxılışı oldu. Buraxılışın belə tez edilməsinin nə ilə bağlı olduğunu dəqiq söyləmək mümkün deyildir. Çox güman ki, hissələrdə zabit kadrlarına olan ehtiyacın aradan qaldırılması üçün belə bir qərar qəbul edilmişdi. İlk buraxılışda Hərbiyyə məktəbini 104 nəfər gənc bitirərək podporuçik rütbəsi aldı.

Ancaq məktəbin buraxılışının tez baş verməsi heç də sovet qoşunlarının Azərbaycana qarşı təhlükəsi ilə bağlı deyildi. Çünki 1920-ci il aprel ayının 26-da Hərbiyyə məktəbinin rəisi general-mayor Çxeidze Cümhuriyyət Ordusunun Qərargah rəisi general-mayor Həbib bəy Səlimova göndərdiyi məktubunda bildirirdi ki, may ayının 15-də məktəbin aşağı sinfinə qəbul imtahanları başlayacaqdır. Bununla əlaqədar xahiş olunurdu ki, namizədlərin göndərilməsi ilə bağlı hissə komandirlərinə göstəriş verilsin (133).

Aprel ayının 27-də məktəb üzrə imzalanan daxili əmrdə isə bildirilirdi ki, topçuluq, istehkam, fizika və riyaziyyat üzrə məktəbə 4 yeni müəllim ştatı verilib (134). Yəni hətta Cümhuriyyətin süqut etdiyi gün belə Hərbiyyə məktəbi öz adi həyatını yaşayırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Hərbiyyə məktəbi bağlanmadı. Ancaq məktəbin adı, rəhbərliyi və siyasi yönümü dəyişdirildi.

### *b) Azərbaycan Xalq Cümhuriyyəti ordusunun digər hərbi məktəbləri*

Cümhuriyyət ordusunun formalaşması prosesi genişləndikcə bir sıra ixtisaslar üzrə milli hərbi kadrların hazırlanmasına da ehtiyac artırdı. Elə buna görədir ki, 1919–1920-ci illər ərzində Azərbaycanda daha üç məktəb açıldı. İstehkam məktəbi, Hərbi dəmiryolçular məktəbi və Şuşa feldşer məktəbi. Bu məktəblərin heç birinin, o cümlədən də İstehkam məktəbinin əhatəli arxivi elmi dövriyyədə olmadığından burada təlim-tərbiyənin təşkili, məktəb rəhbərliyinin qarşısına çıxan çətinliklər və onların həll edilməsi vəziyyəti, məktəbdə buraxılışların nə vaxt olması və s. Məsələlər barədə geniş məlumat vermək imkanı yoxdur. İstehkam məktəbinin yaradılmasına başlanması barədə əmr Hərbi Nazirlik üzrə 1919-cu il yanvar ayının 28-də verilmişdi. 48 nömrəli həmin əmrdə Hərbi Nazirliyin İstehkam şöbəsinin rəisinə tapşırılırdı ki, dərhal İstehkam məktəbinin təşkilinə başlansın (135). Məktəb zabit kadrları deyil, kiçik komandirlər və kiçik mütəxəssislər hazırlayırdı.

İstehkam məktəbi öz fəaliyyətinə Gəncədə başlamışdı. Praporşiklər məktəbinin üzləşdiyi çətinliklər İstehkam məktəbi üçün də xas idi. Burada kifayət qədər zabit yox idi. Təchizat və təminat məsələlərində bir sıra çətinliklər var idi. Ancaq təlim-tərbiyənin yaxşılaşdırılması, bacarıqlı mütəxəssislərin hazırlanması üçün müəyyən işlər də görülürdü. Bunun nəticəsi idi ki, qarnizon üzrə keçirilən kütləvi tədbirlərə, tarixi hadisələr münasibətilə təşkil edilən paradlara İstehkam məktəbi də cəlb edilirdi.

1919-cu ilin iyulunda İstehkam məktəbi də Praporşiklər məktəbi ilə birlikdə Hacıkəndə köçürüldü. Sonradan Praporşiklər məktəbinin Bakıya köçürülməsi məsələsi qalxanda İstehkam məktəbinin də bura köçürülməsi məqsədəuyğun bilindi. Bunun üçün də İstehkam məktəbi 1919-cu il avqustun sonlarında Praporşiklər məktəbi ilə birlikdə əvvəlcə Gəncəyə, həmin il sentyabr ayının 5-də isə Bakıya köçürüldü. Bu məktəbin sonrakı fəaliyyəti də Bakı ilə bağlı idi.

İstehkam məktəbinin bütün mövcudluğu dövründə ona Boris Konstantinoviç Bekov rəhbərlik etmişdi. O, zadəgan nəslindən olub Saratov quberniyasında doğulmuşdu. Bekov 2-ci Moskva kadet korpusunu və Pavlov hərbi məktəbini bitirmiş və uzun müddət Uzaq Şərqdə xidmət etmişdi. Xidməti uğurlarına görə çoxlu sayda orden və medallarla mükafatlandırılmışdı. O, 1915-ci ildən Qafqaz cəbhəsində xidmət edirdi. 1919-cu il yanvarın sonlarında podpolkovnik Bekov Azərbaycan Ordusu sıralarına qəbul edildi. Əvvəlcə Hərbi Nazirliyin İstehkam şöbəsinə, qısa müddətdən sonra isə İstehkam məktəbinin rəisliyinə təyin edildi.

İstehkam məktəbi Cümhuriyyətin süqutundan sonra, 1920-ci il iyul ayının 14-də ləğv edildi.

Hərbi dəmiryolçular məktəbinin açılması hərbi daşınmaların, hərbi infrastrukturun işinin təşkilində dəmir yolunun artan əhəmiyyəti və bu nəqliyyat növü üçün hərbi mütəxəssislərin hazırlanması zərurəti ilə bağlı idi. Dəmir yolu nəqliyyatında çalışanların, demək olar ki, hamısı qeyri-azərbaycanlı idilər. Bu isə dəmir yolunun fasiləsiz və sabit işləməsinə heç də tam təminat vermirdi. Nazirliyin rəhbərliyi bu məsələni diqqət mərkəzində saxlayırdı və dəmir yolunun etibarlı işinə nail olmaq üçün vaxtında milli kadrların hazırlanmasını lazım bilirdi.

Məktəbin Gəncə dəmir yolu stansiyasında açılması planlaşdırılırdı və öz statusuna görə o, ixtisasartırma kursunun oxşarı idi. Bura həm əsgərlər, həm də zabitlər cəlb edilməli və kurs müddətində onlara dəmiryolçu peşələri öyrədilməli idi. Mövcud olan bir neçə arxiv sənədindən görmək mümkündür ki, Hərbi dəmiryolçular məktəbinin açılması üçün təşkilati işlərə 1919-cu ilin yazında başlanmışdı. Həmin il may ayının 28-də Praporşiklər məktəbinin rəisinə Baş Ərkani-hərb rəisinin göndərdiyi məktubdan yəqin etmək olar ki, artıq müəyyən təşkilati işlər başa çatmışdır. Çünki Baş Ərkani-hərb rəisi general-leytenant Sulkeviç xahiş edirdi ki, yaxınlarda Gəncədə formalaşdırılacaq Hərbi dəmiryolçular məktəbində oxumaq üçün 20 nəfər gənc zabitin siyahısı tərtib edilsin. Bu siyahı məktəbin son buraxılışı olan zabitlər içərisindən seçilməli və bu zaman onların savad səviyyəsi və texniki ixtisasa marağı nəzərə alınmalı idi. Son buraxılışın zabitləri artıq xidmət

yerlərinə göndərildiyindən məktəbin rəisi siyahını tərtib edərkən onların hansı hissədə olmalarını da göstərməli idi. İyun ayının 3-də Praporşiklər məktəbinin rəisi polkovnik R.Şıxlinski Baş Ərkani-hərb rəisinə belə bir siyahı təqdim etdi (136). Həmin siyahıda tələb edildiyi kimi 20 nəfərin adı var idi. Onlar 1-ci Cavanşir piyada alayından, 2-ci Bakı piyada alayından, 3-cü Gəncə piyada alayından, 2-ci Qarabağ süvari alayından, 3-cü Şəki süvari alayından və Əlahiddə Zaqatala piyada taborundan idilər. Bu zabitlər Gəncədə açılacaq Hərbi dəmiryolçular məktəbinin ilk dinləyiciləri olmalı idilər. Ancaq məktəbin açılması müəyyən qədər ləngidi. Onun təşkili ilə bağlı Hərbi nazir S.Mehmandarov 390 nömrəli əmri 1919-cu il sentyabrın 4-də imzaladı. Həmin əmrdə deyilirdi ki, məktəbdə oxuyanların sayı əsgərlər üçün 120 nəfər, zabitlər üçün 20 nəfər təyin edilmişdir. Hissələrdən göndərilməli olan zabitlər sentyabr ayının 15-nə kimi məktəbə gəlməli idilər (137).

Hərbi dəmiryolçular məktəbi ilə bağlı növbəti əmri Hərbi nazir 1919-cu il oktyabrın 7-də imzalamışdı. Həmin əmrlə dəmiryolçular məktəbinin müvəqqəti ştatları elan edilirdi. Məktəbdə tikinti, dartı qüvvəsi və mexanika, hərəkət, teleqraf və təxribatçı (partlatma işləri üzrə mütəxəssis) ixtisasları üzrə mütəxəssislər hazırlanmalı idi. Yeni ştata görə burada oxuyacaq əsgərlərin sayı da artırılaraq 181 nəfərə çatdırılmışdı. Əmrlə məktəbin açılması 1919-cu il avqustun 10-dan hesab edilirdi (138).

Cümhuriyyət ordusunda mövcud olan digər bir məktəb Şuşa feldşerlər məktəbi idi. Bu məktəbin açılmasında başlıca məqsəd qoşun hissələrində tibb xidmətinin yaxşılaşdırılması və bunun üçün zəruri olan hərbi kadrların hazırlanması idi. Çünki şəxsi heyətin sağlamlığının lazımi şəkildə qoruna bilməməsi döyüş hazırlığının səviyyəsinə də kifayət qədər təsir göstərirdi. Xəstəliklərin yayılması, onların qarşısının səmərəli şəkildə alınmaması ayrı-ayrı hallarda bəzi hissələri iflic vəziyyətinə salmışdı. Onların həllinin çətinliyi başlıca olaraq onunla şərtlənirdi ki, Azərbaycanın tibb şəbəkələri və milli kadrları az idi, əhalinin isə savadı xeyli aşağı idi. Ağır yaşayış şəraiti, sanitar normalarına əməl edilməməsi və bunun nəzarət altında saxlanılmaması müxtəlif xəs-

təliklərin hərbi hissələrə də sirayət etməsinə səbəb olur və bununla da döyüş hazırlığı aşağı düşürdü.

1919-cu il yanvar ayının 19-da Hərbi nazir S.Mehmnadarov Gəncə dəmir yolu stansiyasında baraklarda yerləşən 210 nəfərlik əsgər xəstəxanasında oldu. Burada o həm xəstəxananın vəziyyəti, həm də milli kadrların çatışmamasının tibb xidmətinin təşkilinə göstərdiyi təsirlə yaxından tanış oldu. Mövcud çətinliklərin aradan qaldırılması ilə bağlı kiçik tibbi personalın hazırlanması üçün mümkün işlərin görülməsi barədə Hərbi nazir üç gün sonra, yəni yanvar ayının 22-də 36 nömrəli əmri imzaladı. Həmin əmrdə deyilirdi ki, qoşun hissələrinin kiçik tibbi personalla təmin edilməsi üçün Gəncə əsgər xəstəxanası nəzdində bölük feldşeri şagirdlərini hazırlayan feldşer məktəbi açılsın. Bu məktəbdə təhsil 4 ay nəzərdə tutulmuşdu. Nazirin əmrinə əsasən 1-ci Cavanşir, 2-ci Bakı və 3-cü Gəncə piyada alaylarından məktəbə 15 nəfər, 1-ci Tatar və 2-ci Qarabağ süvari alaylarının hərəsindən 6 nəfər, topçu briqadasından 6 nəfər və İstehkam məktəbindən 1 nəfər savadlı əsgər bu feldşer məktəbinə göndərilməli idi (139). Görünür, bu məktəb də hissələrdə kiçik tibbi personala olan ehtiyacı aradan qaldırmağa bəs etmirdi. Ona görə Hərbi nazir 1919-cu il fevralın 15-də imzaladığı 78 nömrəli əmrində tələb edirdi ki, hərbi müalicə obyektlərinin təcrübəli kiçik sanitar heyəti ilə təmin edilməsi üçün bütün hissələrdə 2 aylıq sanitar kursları açılmalı, bu kurslar üçün xüsusi proqram hazırlanmalı və həmin proqram hissə həkimləri tərəfindən tədris edilməli idi. Əmrə əsasən hər hissədən könüllülük əsasında 12 nəfər savadlı əsgər seçilməli və onlar hissə komandirləri tərəfindən günün müəyyən edilmiş vaxtlarında dərslərə cəlb edilməli idilər (140).

Hərbi nazir S.Mehmandarov bu problemin aradan qaldırılmasına çox ciddi əhəmiyyət verirdi. Ona görə də Şuşa şəhərində hərbi feldşer məktəbinin açılmasını Hərbi nazir çox böyük maraq və razılıqla qarşıladı. Həmin məktəbin açılmasının təşəbbüskarı 1-ci Cavanşir piyada alayının Şuşa şəhərində yerləşən birinci taborunun həkimi Mehmandarov olmuşdu. O, orduda azərbaycanlı tibb kadrlarına böyük ehtiyac olduğunu gördükdən sonra komanda üzrə Hərbi Nazirlik qarşısında feldşer məktəbinin açılması təklifini

irəli sürdü. Hərbi Nazirliyin rəhbərliyi həkim Mehmandarovun təklifini xüsusilə də ona görə razılıqla qarşıladı ki, bu məktəbdə təhsilin Azərbaycan dilində aparılması nəzərdə tutulmuşdu. Ona görə də bu təklifi bəyənərək onun təsdiq olunmasını yuxarı dövlət orqanlarından xahiş etdi. Həmin məktəbin smeta və ştatı Azərbaycan Parlamentinin qərarı ilə 1920-ci il aprel ayının 26-da təsdiq edildi (141). Yəni məsələnin qaldırıldığı gündən Parlament qərarına qədər xeyli vaxt keçmişdi. Bu gecikmənin nə ilə bağlı olduğunu söyləmək çətindir. Ola bilsin ki, feldşerlər məktəbinin açılması barədə qərarın ləngidilməsi maliyyə çətinlikləri ilə bağlı olmuşdu. Ancaq Hərbi nazir S.Mehmandarov həmin məktəbin açılmasına çox böyük inadkarlıq göstərmişdi. Onun 3 sentyabr 1919-cu il tarixli 406 nömrəli əmrində göstərilirdi ki, Şuşa hərbi feldşer məktəbi ştatının qanunvericilik səviyyəsində təsdiqi gözləmədən dərhal bu məktəbin açılmasına başlansın (142). Məktəb Hərbi Nazirliyin Hərbi xəstə hissəsinə tabe idi. Hərbi feldşer məktəbinin açılması məsələsi 1919-cu il avqust ayının 31-də Hərbi Nazirliyin Hərbi Şurasında müzakirə edilmiş və onun ştat layihəsi bəyənilmişdi. Məktəbin təşkili də bu bəyənilmiş ştata əsasən nəzərdə tutulmuşdu.

S.Mehmandarov 1919-cu il oktyabrın 27-də Baş nazirə göndərdiyi məktubunda Şuşa hərbi feldşer məktəbinin təşkilinə çox böyük ehtiyac olduğunu yazırdı. O bildirirdi ki, bölük feldşerlərinin çatışmaması üzündən onları həqiqi hərbi xidmətdə olmayan şəfqət bacıları əvəz edirlər. Bu isə gözlənilən nəticəni vermirdi. Hərbi feldşer məktəbinin açılmasını da bu sahədə mövcud olan çətinliklərin aradan qaldırılması ilə əlaqələndirən S.Mehmandarov 1-ci Cavanşir piyada alayının Şuşada olan həkimi Mehmandarov tərəfindən müvafiq təklif aldığını və ən başlıcası isə həmin məktəbdə dərslərin Azərbaycanca keçiriləcəyini Baş nazirin diqqətinə çatdırırdı. Hərbi nazir onu da əlavə edirdi ki, Nazirlik tərəfindən Şuşa şəhərində 40 nəfər üçün nəzərdə tutulmuş 6 aylıq feldşer məktəbinin açılmasına qərar verilmiş və həkim Mehmandarovdan əlavə, həkim Ağayev və həkim Ağakişibəyov da bu məktəbdə dərslərin aparılmasına cəlb edilmişdi (143).

Hərbi nazir məktubunda onu da yazırdı ki, Hərbi feldşer məktəbinin Əsasnaməsi artıq həkim Mehmandarov və onun köməkçiləri tərəfindən hazırlanmışdır. Həmin Əsasnamədə göstərilirdi ki, Hərbi feldşer məktəbinin açılmasında əsas məqsəd Azərbaycan Ordusu hissələrində xidmət edəcək bölük feldşerlərinin hazırlanmasıdır. Məktəbə ilkin hərbi hazırlıq keçmiş savadlı və feldşer olmağı arzulayan əsgərlər, habelə xidmətdə olmayan mülki şəxslər qəbul edilə bilərdilər. Mülki şəxslər feldşer məktəbinə qəbul edilməzdən əvvəl onların tibbi müayinəsi aparılmalı və hərbi xidmətə yararlı olub-olmamaları müəyyənləşdirilməli idi. 30 yaşından yuxarı mülki şəxslər feldşer məktəbinə qəbul edilə bilməzdilər. Məktəbin rəisi və müəllimləri Hərbi xəstə hissəsi tərəfindən seçilərək təsdiq üçün Hərbi nazirə təqdim edilməli idi. Məktəbdə dərslər Hərbi xəstə hissəsi tərəfindən təsdiq edilmiş proqram əsasında Azərbaycan dilində aparılmalı idi. Məktəb rəisinin özü də müəllim kimi tədris prosesində iştirak etməli idi. Bütünlükdə tədris yükünün müəllimlər arasında bölüşdürülməsi də onun səlahiyyətlərinə aid idi. Məktəbdə oxumaq istəyənlərin seçilməsi məktəb rəisinin səlahiyyətinə daxil idi. Təlim-tərbiyənin təşkilinə, nizam və intizamın qorunmasına yardımçı olmaq üçün məktəbə podpraporşik və ya unter-zabit ezam edilə bilərdi. Məktəbə daxil olan mülki şəxslər dövlət hesabına yalnız yeməklə təmin olunur və gecələmək üçün onlara yer ayrılırdı. Məktəbin Əsasnaməsində göstərilirdi ki, kurs dövründə orada oxuyanlar heç bir kənar işə cəlb edilməməli idilər. Kursun sonunda praktiki dərslər Şuşa şəhər xəstəxanasında keçirilə bilərdi. Dərslərin ilk iki həftəsi ərzində kursa gələnlər davranış normalarını pozub təhsil almağa layiq olmadıqlarını nümayiş etdirdikləri təqdirdə məktəb rəisinin əmri ilə məktəbdən xaric edilə bilərdilər. Kursun sonunda oxuyanlar buraxılış imtahanları verməli idilər. İmtahanlar tədris edilən bütün fənnlər üzrə aparılmalı idi. Bunun üçün məktəb rəisinin sədrliyi altında komissiya təşkil edilməli idi. Komissiyaya məktəbin bütün müəllimləri, diviziya həkimi və Hərbi Nazirliyin nümayəndəsi daxil olmalı idi. Buraxılış imtahanlarını uğurla verənlər bölük feldşeri olmaq barədə şəhadətnamə alırdılar.

Beləlləri gələcəkdə tibb feldşeri hüququnu qazanmaq üçün imtahan verib müvafiq vəzifələrdə xidmət edə bilərdilər. Məktəbi bitirənlər hissələrə təyin edildikləri gündən başlayaraq iki il xidmət etməli idilər. Əgər məktəbi bitirən əsgərlərin xidmət müddəti bitənə kimi iki il tamam olmazdısa, onda qalan müddəti onlar muzdlu feldşer kimi davam etdirməli və müvafiq maaş almalı idilər. Buraxılış imtahanlarından qənaətbəxş qiymət almayanlar isə məktəb rəisinin qərarı ilə təkrar kursda saxlanıla bilərdilər (144).

Hərbi feldşer məktəbinin tədris proqramında aşağıdakı fənlərin keçilməsi nəzərdə tutulmuşdu: anatomiya və fiziologiya, cərrahiyyə, zöhrəvi xəstəliklər, gözün birləşdirici örtüyünün iltihabı, daxili xəstəliklər, xəstəyə qayğı, bədbəxt hadisələr və qəfil xəstələnmə zamanı ilkin yardım, gigiyena haqqında ümumi məlumat, dezinfeksiya, əczaçılıq.

Hərbi feldşer məktəbində buraxılışın olub-olmaması barədə qəti fikir söyləmək çətindir. Çox güman ki, bolşevik işğalı bu məktəbin də fəaliyyətinə son qoymuşdu.

Bu məktəblərdən başqa, Nuxa şəhərində də hərbi məktəbin açılmasına cəhd göstərilmişdi. Onun açılması üçün yerli əhali tərəfindən məsələ qaldırılmışdı. Gəncədə açılmış hərbi məktəbdə oxumaq istəyən nuxalılar çox idi. Lakin məsafə uzaqlığı onların çoxunu bu imkandan məhrum edirdi. 1919-cu il mart ayının 13-də Nuxa əhalisinin nümayəndələri məktubla Hərbi nazir S.Mehmandarova müraciət etdilər. Həmin müraciət 44 nəfər tərəfindən imzalanmışdı və onlar bildirirdilər ki, Nuxa şəhərinin və qəzasının 200 minlik əhalisi adından məktuba imza atmışlar. Nuxa nümayəndələri məktubda əvvəlcə Allaha şükranlıqlarını ifadə edirdilər ki, Azərbaycan övladları öz sinələri ilə Bakını qorudular və xalqa qarşı qırğınların qarşısını igidliklə aldılar. Vətənin müdafiəsini hər bir azərbaycanlının müqəddəs vəzifəsi sayan Nuxa nümayəndələri öz övladlarının da hərbi təhsil aldıqdan sonra Vətən müdafiəçilərinin sıralarına qoşulmalarını arzu edirdilər. Bunun üçün də onlar Hərbi nazirə müraciət edirdilər ki, Nuxada hərbi məktəb açılmasına yardımçı olsun. Nuxa əhalisinin nümayəndələri bildirirdilər ki, övladlarını Gəncədəki hərbi məktəbə göndər-

mək onlar üçün müəyyən çətinliklər yaradır və ona görə də Nuxada da hərbi məktəbin olmasını arzu edirlər. Nuxalılar Hərbi naziri əmin edirdilər ki, müvafiq hərbi təhsil alandan sonra onların övladları canları və qanları ilə Vətən xidmətində dayanacaqlar (146).

Bu müraciətə Hərbi Nazirlikdə baxılmış və qaldırılan məsələnin mümkünsüzlüyü ilə bağlı Nuxa sakinlərinə cavab verilmişdi. Hərbi nazir S.Mehmandarov Nuxa əhalisinin böyük vətənpərvərlik keyfiyyətlərini yüksək qiymətləndirsə də, onların xahişinə əməl edilməsinin qeyri-mümkün olmasını bildirmişdi. Onun qənaətinə görə həmin məktəbin açılmasının qeyri-mümkünlüyü lazımi sayda hazırlıqlı hərbçi-pedaqoqların olmaması ilə bağlı idi. Hərbi Nazirlik Gəncədə yerləşdiyi üçün buradakı hərbi məktəbdə dərslərin aparılmasına bu qurumun zabitləri cəlb edilirdi. Nuxada isə bu kadrlar yox idi və dərslərin aparılması qeyri-mümkün idi. Ümumi qərargahın rəisi Həbib bəy Səlimov təəssüflə bu xəbəri nuxalılara çatdırmaqla mövcud şəraitdə yeganə çıxış yolunun yalnız Gəncə hərbi məktəbinin imkanlarından istifadə edilməsində görürdü. O, müxtəsər olaraq məktəbə qəbul qaydalarını da nuxalıların nəzərinə çatdırırdı (147).

Bütünlükdə isə nəzərə alınmalıdır ki, hərbi kadrlar hazırlığı Hərbi Nazirliyin strateji fəaliyyət sahəsinə daxil idi və bu istiqamətdə mümkün olan işlər görülürdü.

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (MDA), fond 2894, siyahı 4, iş 5, vərəq 47
2. MDA, f.2894, siy.1, iş 10, v.24, 27, 30, 37, 40, 49, 60; f.2894, siy.2, iş 20, v.86
3. MDA, f.2894, siy.1, iş 5, v.36
4. MDA, f.2894, siy.1, iş 33, v.87
5. MDA, f.2894, siy.1, iş 5, v.69
6. MDA, f.2898, siy.2, iş 3, v.123
7. MDA, f.2894, siy.1, iş 40, v.22
8. MDA, f.2894, siy.1, iş 5, v.10
9. MDA, f.2894, siy.1, iş 6, v.62
10. MDA, f.2898, siy.2, iş 12, v.272
11. MDA, f.2898, siy.2, iş 12a, v.218
12. MDA, f.2894, siy.1, iş 26, v.15
13. MDA, f.2898, siy.1, iş 20, v.12
14. MDA, f.2894, siy.1, iş 26, v.16
15. MDA, f.2894, siy.1, iş 40, v.29
16. Yenə orada
17. Yenə orada
18. MDA, f.2894, siy.1, iş 35, v.8
19. MDA, f.2898, siy.2, iş 12a, v.117
20. MDA, f.2894, siy.1, iş 4, v.13
21. MDA, f.2894, siy.1, iş 1, v.24
22. MDA, f.2898, siy.2, iş 12a, v.19, 234
23. MDA, f.2894, siy.1, iş 4, v.13
24. MDA, f.2894, siy.1, iş 40, v.159
25. MDA, f.2898, siy.2, iş 12a, v.19
26. Yenə orada, v.41
27. Yenə orada, v.120
28. MDA, f.2898, siy.2, iş 23, v.96
29. Yenə orada, v.65
30. MDA, f.2898, siy.2, iş 24, v.188
31. Yenə orada, v.172
32. MDA, f.2894, siy.1, iş 4, v.78

33. MDA, f.2898, siy.2, iş 24, v.96
33a. Yenə orada, v.96
34. Yenə orada, v.19, 101
35. MDA, f.2898, siy.1, iş 19b, v.258
36. MDA, f.2898, siy.1, iş 23, v.158
36a. MDA, f.2894, siy.1, iş 37, v.1
37. MDA, f.2898, siy.1, iş 19b, v.152
38. Yenə orada
39. MDA, f.2894, siy.1, iş 40, v.29
40. MDA, f.2898, siy.2, iş 12a, v.251
41. MDA, f.2898, siy.2, iş 23, v.86
42. MDA, f.2898, siy.2, iş 10, v.14–15; f.2898, siy.2, iş 17, v.26
43. MDA, f.2894, siy.1, iş 9, v.1
44. MDA, f.2898, siy.1, iş 4, v.34
45. Yenə orada, v.35
46. MDA, f.2898, siy.2, iş 12, v.77
47. Siyasi Sənədlər Arxivi, f.277, siy.2, iş 79, v.2–15
48. Yenə orada
49. «Азербайджан», 04.03.1919
50. Hacıbəyli Ü. Fitnələr qarşısında Bakı, 1995. s.68
51. «Азербайджан», 17.09.1919
52. Şeyxzamanlı N. İstiqlal mücadiləsi xatirələri. Bakı, 1997
53. MDA, f.2894, siy.1, iş 5, v.54
54. Yenə orada, v.47
55. MDA, f.2894, siy.1, iş 6, v.72
56. MDA, f.2898, siy.2, iş 12, v.317
57. MDA, f.2898, siy.2, iş 12a, v.5
58. MDA, f.2894, siy.1, iş 9, v.11
59. Yenə orada, v.88
60. Süleymanov M. Mehmandarov. Bakı, 2000, s.257
61. MDA, f.2894, siy.1, iş 4, v.18
62. MDA, f.2894, siy.1, iş 9, v.97
63. MDA, f.2898, siy.1, iş 19b, v.78
64. Аббасов А.Т. Генерал Мехмандаров. Баку, 1977, с.73–75
65. MDA, f.2898, siy.2, iş 23, v.68
66. Yenə orada, v.146

67. Yenə orada. v.181
68. Yenə orada
69. MDA, f.2898, siy.2, iş 24, v.194
70. MDA, f.2898, siy.1, iş 24, v.19–20
71. Yenə orada
72. MDA, f.2894, siy.1, iş 21, v.17
73. MDA, f.2898, siy.2, iş 24, v.172
74. Yenə orada, v.112
75. «Азербайджан», 29.10.1918
76. MDA, f.252, siy.2, iş 5, v.15
77. MDA, f.2894, siy.1, iş 1, v.34
78. MDA, f.2894, siy.1, iş 39, v.20
79. MDA, f.252, siy.2, iş 3, v.20
80. MDA, f.2898, siy.1, iş 196, v.191
81. MDA, f.252, siy.3, iş 2, v.48–49
82. «Азербайджан», 12.04.1919
83. MDA, f.252, siy.2, iş 6, v.77
84. MDA, f.252, siy.2, iş 18, v.68
85. MDA, f.252, siy.2, iş 18, v.68
86. MDA, f.2894, siy.1, iş 1, v.5
87. MDA, f.2898, siy.1, iş 1, v.101
88. Yenə orada, v.98
89. MDA, f.2898, siy.1, iş 19b, v.113
90. MDA, 2898, siy.1, iş 19, v.225
91. MDA, f.252, siy.2, iş 17, v. 221, 271
92. MDA, f.252, siy.2, iş 18, v.34
93. MDA, f.252, siy.2, iş 16, v.6
94. Yenə orada, v. 12-13
95. MDA, f.252, siy.2, iş 16, v.102–103
96. Yenə orada, v.98–99
97. Yenə orada, v.97
98. MDA, f.252, siy.2. iş 9, v.2
99. MDA, f.2898, siy.1, iş 23
100. MDA, f.252, siy.2, iş 7, v.98
101. MDA, f.252, siy.2, iş 7, v.1
102. MDA, f.252, siy.1, iş 7, v.5

103. MDA, f.252, siy.1, iş 1, v.14
104. MDA, f.252, siy.1, iş 1, v.14
105. MDA, f.252, siy.1, iş 1, v.71
106. MDA, f.252, siy.2, iş 75, v.3
107. MDA, f.252, siy.2, iş 16, v.126
108. «Азербайджан», 12.04.1919
109. Süleymanov M. Azərbaycanda ilk milli hərbiyyə məktəbi. 1918. Bakı, 2000, s.85
110. MDA, f.252, siy.2, iş 16, v.357
111. MDA, f.252, siy.2, iş 7, v.93
112. MDA, f.252, siy.2, iş 27, v.1
113. MDA, f.252, siy.2, iş 16, v.243
114. MDA, f.252, siy.2, iş 9, v.39, 43, 56
115. MDA, f.252, siy.2, iş 11, v.26
116. MDA, f.252, siy.2, iş 11, v.26
117. MDA, f.252, siy.3, iş 3, v.20
118. MDA, f.252, siy.3, iş 3, v.20
119. MDA, f.2894, siy.1, iş 6, v.81
120. MDA, f.2894, siy.1, iş 6, v.82
121. MDA, f.252, siy.2, iş 24, v.52, 53, 70
122. MDA, f.252, siy.2, iş 20 v.12, 69, 73, 179
123. MDA, f.2894, siy.1, iş 6, v. 84
124. MDA, f.2894, siy.1, iş 6, v.84
125. Yenə orada, v.87
126. MDA, f.2894, siy.1, iş 4, v.9
127. Yenə orada, v.46
128. MDA, f.252, siy.2, iş 16, v.391
129. MDA, f.252, siy.1, iş 5, v.4
130. MDA, f.2894, siy.1, iş 24, v.13, 26
131. MDA, f.252, siy.2, iş 24, v.13
132. Yenə orada, v.26
133. MDA, f.252, siy.3, iş 3, v.28
134. MDA, f.252, siy.2, iş 26, v.86
135. MDA, f.2898, siy.1, iş 23, v.59

136. MDA, f.252, siy.2, iş 16, v.79, 70
137. MDA, f.2894, siy.1, iş 5, v.110
138. MDA, f.2894, siy.1, iş 6, v.17
139. MDA, f.2898, siy.1, iş 23, v.47
140. MDA f.2898, siy.1, iş 23, v.97
141. Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920). Parlament, II c., Bakı, 1998, s.970
142. MDA, f.2894, siy.1, iş 5, v.127
143. MDA, f.2894, siy.1, iş 23, v.24
145. MDA, f.2894, siy.1, iş 23, v.26
146. MDA, f.2894, siy.1, iş.35, v.84
147. Yenə orada

# IV FƏSİL

# ÇAĞIRIŞ VƏ SƏFƏRBƏRLİK İŞİNİN TƏŞKİLİ

## *1. Çağırış və səfərbərlik işinin hüquqi bazasının yaradılması*

Bərpa edilmiş Hərbi Nazirliyin fəaliyyətə başlamasının elə ilk günlərindən ortaya çıxan əsaslı problemlərdən biri də çağırış və səfərbərlik işinin təşkili məsələsi idi. Nazirliyin həmin dövrə aid olan sənədləşmələrində bu məsələyə xüsusi yer verilir, onun yaxşılaşdırılmasının yolları aranırdı.

Bu məsələlərin həllinə nail olmaq üçün Hərbi Nazirliyin rəhbərliyi öz fəaliyyətini bir neçə istiqamətdə qurmağa çalışırdı. Bunlardan biri çağırış və səfərbərlik işinin təşkilinin, fərariliyin qarşısının alınmasının hüquqi bazasının yaradılması idi. Bu sahədəki praktiki fəaliyyətin tənzimlənməsi üçün mövcud qanunvericilik aktları təkmilləşdirilir, yeni-yeni qərarlar, əmr və sərəncamlar qəbul edilirdi.

Hərbi Nazirlik bərpa edilən zaman çağırış işinin hüquqi bazasını türk hərbi qüvvələrinin Azərbaycanda olduğu zaman türk hərbçilərinin iştirakı ilə hazırlanmış və təsdiq edilmiş sənədlər təşkil edirdi. Türk hərbçilərinin iştirakı ilə hazırlanmış bu sənədlərdə, sözsüz ki, çağırış işində Türkiyənin təcrübəsi əsas götürülmüşdü. İlk vaxtlarda çağırış və səfərbərlik işini bu qanun əsasında aparmaq məcburiyyəti yaranmışdı.

İstər Türkiyədə, istərsə də digər ölkələrdə mövcud olan təcrübəyə görə çağırış və səfərbərlik işi Daxili İşlər Nazirliyi tərəfindən, konkret olaraq ona tabe olan strukturlar tərəfindən aparılırdı. Azərbaycanda da çağırış işi Daxili İşlər Nazirliyinə tabe olan strukturlar tərəfindən aparılırdı. Bu sistem ikili tabelik və ikili nəzarət tələb etsə də, onun dəyişdirilməsi hər halda məqsədəuyğun sayılmamışdı.

Hərbi Nazirlik tərəfindən bu işin tənzimlənməsi üçün Nazirliyin aparatında çağırış və səfərbərlik işinə rəhbərlik edən xüsusi struktur – Azərbaycan Ordu Livası Rəyasəti (Upravlenie mestnoy briqadı) yaradılmışdı. Polkovnik Klimentyev bu Rəyasətin rəisi

təyin edilmişdi. Daxili İşlər Nazirliyinin strukturları tərəfindən çağırılan çağırışçılar Ordu Livası Rəyasətinin yerlərdəki strukturlarına təhvil verilir və onlar vasitəsi ilə hərbi hissələrə çatdırılırdılar. 1918-ci ilin dekabr ayının 10-da imzaladığı 10 nömrəli əmrində S.Mehmandarov polkovnik Klimentyevdən tələb edirdi ki, həm çağırışın mövcud vəziyyəti, həm də onun bütünlükdə yaxşılaşdırılması barədə öz fikir və mülahizələrini ümumiləşdirib Nazirliyə təqdim etsin. S.Mehmandarov başlıca diqqəti Ordu Livası Rəyasətinin yerlərdəki strukturları olan hərbi rəislərin idarələrinin sayının artırılmasına, əhalinin sıx olduğu ərazidə də yeni çağırış orqanlarının yaradılmasının məqsədəuyğunluğuna yönəldirdi. Onun fikrincə, Ordu Livası Rəyasəti hərbi rəislərin idarələrinin fəaliyyəti üzərində nəzarəti daha da gücləndirməli, çağırışın təşkilində bu orqanların yol verdiyi və camaatın haqlı narazılığına səbəb olan nöqsanlar haqqında qətiyyətli tədbirlər həyata keçirilməli, günahkar şəxslər cinayət məsuliyyətinə cəlb edilməli idilər (1).

Əmrdə hərbi rəislərin idarələrinin əsasnaməsinin layihəsinin hazırlanması da polkovnik Klimentyevə tapşırılırdı. Hərbi rəislərin idarələri bölmələr üzrə çağırışın təşkilinə ümumi rəhbərlik edirdi. Çağırış işinin icrası isə Daxili İşlər Nazirliyinə tabe olan əxzi-əsgər idarələrinin üzərində idi.

Tezliklə çağırış işinin hüquqi bazasının təkmilləşdirilməsi məqsədilə 1918-ci ilin ortalarında əhalinin hərbi mükəlləfiyyəti barədə qəbul edilmiş qanun dövrün tələblərinə cavab verməyən qeyri-kamil bir sənəd kimi ləğv edildi. Hərbi nazirin 1919-cu il 5 fevral tarixli 10 nömrəli əmri ilə Azərbaycanın çağırış işinin təşkili ilə bağlı yeni qanunu hazırlananadək çar Rusiyasının 1915-ci ildə dərc olunmuş hərbi mükəlləfiyyət haqqındakı əsasnaməsi əsas götürülməli idi (2).

Yerli şəraitin tələblərinə uyğun olaraq müvəqqəti əsas götürülmüş hərbi mükəlləfiyyət əsasnaməsinə dəyişiklik və əlavələr edilirdi, onun müəyyən maddələrinin düzgün tətbiqi üçün müvafiq şərhlər verilirdi. Məsələn, bir sıra polis məmurları polis orqanlarında xidmət etdiyi üçün hərbi xidmətə cəlb edilmirdilər. Bu məsələ hərbi mükəlləfiyyət əsasnaməsi ilə uyğunluq təşkil etmirdi. Mükəlləfiyyət əsasnaməsinə əsasən yalnız ehtiyatda olan polis

məmurları ümumi mükəlləfiyyət zamanı çağırışdan azad edilirdilər. Ona görə Hərbi nazir tələb edirdi ki, şəhər və qəza polis orqanlarında çalışan bütün polis məmurlarının sənədləri yenidən yoxlanılsın, çağırış yaşına düşənlərin siyahıları yenidən tərtib edilsin və həmin siyahılar qəza əxzi-əsgər idarələrinə təqdim edilsinlər. Həmin polis məmurlarından öz atları ilə xidmət etmək istəyənlər süvari hissələrinə göndərilə bilərdilər (3).

Daxili İşlər Nazirliyinin rəhbərliyi Hərbi Nazirliyin bu şərhi ilə razılaşdı və 26 mart 1919-cu il tarixində Daxili İşlər naziri Bakı qubernatoruna göstəriş verdi ki, çağırış yaşına çatmış aşağı çinli polis məmurları xidmətə göndərilsinlər və xidmətdən yayınmaq üçün polis orqanlarına işə düzəlməyə çalışan belələrinin işə götürülməsinə yol verilməsin (4).

1919-cu il fevral ayının 12-də Daxili İşlər naziri X.Xasməmmədov çar Rusiyası hərbi mükəlləfiyyət əsasnaməsinin tətbiqi ilə bağlı ölkə qubernatorlarına xüsusi məktub ünvanladı. Məktubda bildirilirdi ki, hazırda yeni hərbi mükəlləfiyyət əsasnaməsinin layihəsi hazırlanır. Həmin əsasnamənin qəbul edilməsinə qədər isə Rusiya əsasnaməsində öz əksini tapmış müddəaların tələbləri yerinə yetirilsin. Nazir tələb edirdi ki, Azərbaycan Ordusunun formalaşmasının sürətləndirilməsi üçün 1894–1899-cu illər təvəllüdlü şəxslərin çağırışına bir an da olsa ara verilməməlidir. Bu vəzifəni nazir dövlət əhəmiyyətli vəzifə sayırdı. Nazir qubernatorlardan onu da tələb edirdi ki, qəza əxzi-əsgər idarələrinin çağırışla bağlı fəaliyyətini dayandırmadan müvəqqəti olaraq qəbul edilmiş mükəlləfiyyət əsasnaməsinin tələbləri onlara izah edilsin. Bu məsələyə onun üçün toxunulurdu ki, türk hərbçilərinin iştirakı ilə qəbul edilmiş hərbi mükəlləfiyyət əsasnaməsində reallığı əks etdirməyən bir sır müddəalar var idi. Həmin əsasnaməyə əsasən xeyli sayda gənc hərbi xidmətdən möhlət almışdı. Daxili İşlər naziri əmin idi ki, müvəqqəti qəbul edilmiş hərbi mükəlləfiyyət əsasnaməsi əsas götürülərsə, möhlət verilməsi ilə bağlı mövcud olan bir sıra qərarlar ləğv edilə bilər. Daxili İşlər naziri qubernatorlardan tələb edirdi ki, qəza əxzi-əsgər idarələrinin əmri əsasında hər bir kənddə çağırışçı siyahılarının tərtibi üçün xüsusi komissiyalar yaradılsın. Çağırışçıların yaş həddinin müəyyənləşdi-

rilməsində də hərbi mükəlləfiyyət əsasnaməsinin tələbləri əsas götürülməli idi. Azərbaycanlı əhalinin doğum tarixinin sənədləşdirilməməsi bir çox hallarda çağırışçıların da yaş həddinin müəyyənləşdirilməsini çətinləşdirirdi. Nazir tələb edirdi ki, belə hallarda daha çox etibarlı şəxslərin, mollaların, digər şəxslərin sorğusu aparılsın, onların vasitəsi ilə gənclərin yaşı dəqiqləşdirilsin. Polis məmurları siyahıyaalma komissiyalarının fəaliyyətini daim nəzarət altında saxlamalı və qanunsuzluğa yol verənlər məsuliyyətə cəlb edilməli idilər. Məktubunun sonunda Daxili İşlər naziri qubernatorlardan tələb edirdi ki, qəza əxzi-əsgər idarələri qısa zaman ərzində öz fəaliyyətlərini müvəqqəti qəbul edilmiş hərbi mükəlləfiyyət əsasnaməsi əsasında qursunlar (5).

Məlumdur ki, Parlamentin 1919-cu il fevralın 25-də olan iclasında Hərbi nazir S.Mehmandarov da böyük bir nitqlə çıxış etdi və həmin çıxışında çağırış və səfərbərlik işinin vəziyyətinə, bu istiqamətdə görülən işlərə də xüsusi yer ayrıldı. Nazir məlum olan nöqsan və çatışmazlıqlara toxunur, hərbi rəis idarələrinin sayının artırıldığını bildirirdi. O, Bakıda yeni bir hərbi rəisliyin də təşkil edildiyini Parlament üzvlərinin nəzərinə çatdırırdı. Həmin idarə Bakı şəhərində çağırış və səfərbərlik işinə rəhbərlik etməli idi. Nazir çağırış sistemində dəyişiklik edilməsi, bütün məntəqələrdə eyni vaxtda çağırışa son qoyulması, hərbi rəislərin idarələrinin yeni əsasnaməsinin hazırlanması barədə Parlamentə məlumat verdi. O, bir sıra kateqoriyaların xidmətdən azad edilməsi və ya onlara güzəşt verilməsi barədə öz mülahizələrini də Parlament üzvlərinə çatdırdı. Onun fikrincə, ilk növbədə müəllimlərə güzəşt verilməsi lazım idi. Müəllimlərə güzəşt verilməsi əhalinin savadlandırılmasında mövcud olan çətinliklərin nəzərə alınması ilə bağlı idi. Çünki milli məktəblərin müəllimlərinin xidmətə çağırılması həmin məktəblərin bağlanması ilə nəticələnə bilərdi. S.Mehmandarov qeyd edirdi ki, bizim savadlılarımız elə də çox deyil ki, mövcud olan məktəbləri də bağlayaq (6).

Hərbi nazir sonra Hərbi dəmiryolçular məktəbində oxuyan azərbaycanlılara da xidmətdən güzəşt veriləcəyini bildirirdi. Onun sözlərinə görə ölkənin təsərrüfat həyatı və hərbi infrastrukturu üçün strateji nəqliyyat növü olan dəmir yolunda azərbaycanlı

sürücülər xeyli az idi.

Mövcud olan mütəxəssislər isə, əsasən, rus, gürcü və ermənilərdən ibarət idi. Onların milli kadrlarla əvəz edilməsi üçün həm Bakıda, həm də Gəncədə dəmir yolu məktəblərində oxuyanlara hərbi mükəlləfiyyətdən güzəşt verilirdi. S.Mehmandarov əlavə edirdi ki, yaxın gələcəkdə ocaqçılara, maşinistlərə, hökumət nəşriyyatlarının mürəttiblərinə (yığıcılarına), habelə gəmilərin matroslarına da xidmətdən möhlət veriləcəkdir. Ancaq o gəmilərin matroslarına möhlət verilməli idi ki, onlar daşınmalar barədə əvvəldən sazişlər imzalamışdılar. Yeni sazişlər bağlayan gəmilərin matroslarına isə bu güzəşt şamil edilmirdi (7).

S.Mehmandarov bildirirdi ki, Azərbaycanın çox böyük çağırışçı ehtiyatı vardır və ildə 60 min gənci xidmətə cəlb etmək olar. Bütün bu ehtiyatların hamısının orduya çağırılmasına heç ehtiyac da yox idi. Bunun üçün gələcəkdə daha çox kateqoriyalardan olan gənclərə güzəşt verilməsi barədə məsələ qaldırılacağı bildirilirdi. Nazir onu da əlavə edirdi ki, hazırda əgər 19 yaşından 24 yaşınadək 6 yaş qrupu üzrə çağırış aparılırsa, yaxın vaxtlarda 2 yaş qrupu üzrə çağırışa keçilməsi planlaşdırılır. Bu da xeyli sayda adamın xidmətdən azad edilməsi demək idi (8).

1919-cu il aprelin 17-də respublika Parlamenti Hərbi Nazirliyin təqdimatı əsasında 1915-ci ildə dərc olunmuş hərbi mükəlləfiyyət əsasnaməsinə əlavələr edilməsi haqqında qanun qəbul etdi. Həmin qanun bir sıra fəaliyyət sahələrinə aid olan şəxslərə çağırışdan möhlət verilməsi ilə bağlı idi. Bu güzəştlər azərbaycanlılara şamil edilirdi. Birinci güzəşt təhsillə bağlı idi. Dəmir yolu məktəblərində oxuyan azərbaycanlı tələbələr təhsil müddətində xidmətə çağırılmaqdan azad edilirdilər. Təhsili başa vurduqdan sonra isə onlar hərbi xidmətə çağırılaraq dəmir yolu bölmələrinə göndərilməli idilər. Digər güzəşt isə fəaliyyət sahəsi ilə bağlı idi. Azərbacan dəmir yolunda çalışan maşinist və onun köməkçiləri çağırış yaşı çatanda xidmətə çağırılmış hesab edilərək dəmir yolu bölüyünün siyahılarına daxil edilsələr də, əvvəlki vəzifələrində qalmaqda davam edirdilər. Dövlət nəşriyyatlarında çalışan mürəttiblər və xidmətçilər də çağırışdan azad edilərək ordunun ehtiyatına keçirilirdilər. Şəxsi nəşriyyatlarda çalışanlara bu güzəşt şa-

mil edilmirdi. Respublikanın poçt-teleqraf sahəsində çalışan teleqrafçılar, mexaniklər, radiotexniklər və digər işçilər də çağırışdan möhlət ala bilərdilər (9).

Ölkə Parlamenti Azərbaycanda çağırış və səfərbərlik haqqında qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı 1919-cu ilin may ayının 26-da yeni bir qanun qəbul etdi. Bu qanun Azərbaycan Respublikasında hərbi mükəlləfiyyəti həyata keçirən strukturların təşkili haqqında idi. Qanunla hərbi mükəlləfiyyəti həyat keçirməli olan strukturların təşkili, ölkənin mərkəzi və qəza əxzi-əsgər idarələrinin ştatı təsdiq edildi. Qanunla Gəncə, Qazax, Nuxa, Cavanşir, Cəbrayıl, Bakı, Göyçay, Salyan, Şamaxı, Zaqatala və Şuşa qəza əxzi-əsgər idarələri açılmış hesab edildi və onların fəaliyyəti üçün zəruri maliyyə vəsaiti ayrıldı. Eyni zamanda, Mərkəzi Əxzi-Əsgər İdarəsinin fəaliyyəti üçün də maliyyə vəsaiti təsdiq edildi. Bununla bərabər, zərurət yarandığı halda qanun Daxili İşlər nazirinə Hərbi nazirlə razılaşdırdıqdan sonra digər qəzalarda da əxzi-əsgər idarələrini açmasına razılıq verirdi (10).

Bu qanunla bərabər ölkə Parlamenti Azərbaycan Respublikasının əxzi-əsgər orqanlarının əsasnaməsini də təsdiq etdi (11). Əsasnaməyə görə Azərbaycan Respublikasında hərbi mükəlləfiyyət işləri ilə məşğul olan ali orqan Azərbaycan Mərkəzi Əxzi-Əsgər İdarəsi idi. Bu idarənin vəzifəsi əhalinin hərbi xidmətə cəlb edilməsinin və əhali tərəfindən natural hərbi mükəlləfiyyətin həyata keçirilməsinin təşkili idi. Ali orqan kimi bu idarə ölkə miqyasında fəaliyyət göstərən digər əxzi-əsgər orqanlarının fəaliyyətinə nəzarət etməli və hərbi mükəlləfiyyətlə bağlı zəruri sərəncamları verməli idi. Mərkəzi Əxzi-Əsgər İdarəsinə konkret olaraq aşağıdakı məsələlərin həlli həvalə edilirdi:

– bütün respublika ərazisində çağırışın düzgün aparılmasının və hərbi mükəlləfiyyət yaşlı şəxslərin xidmətə qəbul edilməsinin düzgünlüyünə nəzarət;

– hərbi məqsədlər üçün at, araba və digər natural mükəlləfiyyətlərin təşkili;

– hərbi mükəlləfiyyətə düşən şəxslərin müayinədən keçirilməsinin təşkili;

– qəza, dairə və şəhər əxzi-əsgər idarələrinin işi barədə alın-

mış şikayətlərə baxılması. Belə şikayətlərə baxılandan sonra çıxarılan qərarlara daha apelyasiya qaydasında baxıla bilməzdi;

– yerli əxzi-əsgər orqanlarının hesabatlarına baxılması və onların əsasında hər çağırış barədə respublika üzrə hesabatların hazırlanması;

– qəza, dairə və şəhər əxzi-əsgər idarələrində baş verən anlaşılmazlıqların çözülməsi;

– hərbi mükəlləfiyyətin keçirilməsi, habelə əxzi-əsgər orqanlarının saxlanılması üçün illik büdcənin hazırlanması və mütəmadi olaraq zəruri maliyyə kreditlərinin ayrılması barədə vəsatətlərin hazırlanması;

– mərkəzləşdirilmiş qaydada alınmış kreditlərin qəza, dairə və şəhər əxzi-əsgər orqanları arasında bölüşdürülməsi;

– zərurət yarandığı halda ezam edilmiş xüsusi şəxslər vasitəsi ilə qəza, dairə və şəhər əxzi-əsgər idarələrinin fəaliyyətinin yoxlanılması;

– qəza və şəhər əxzi-əsgər orqanlarının qərarlarının yoxlanılması və lazım gələndə nəzarət qaydasında onların ləğv olunması.

Mərkəzi Əxzi-Əsgər İdarəsinə Daxili İşlər nazirinin müavini rəhbərlik edirdi. Hərbi Nazirliyin, Ədliyyə Nazirliyinin nümayəndələri və İdarənin İşlər İdarəsinin rəisi isə bu qurumun üzvləri idilər. Mərkəzi Əxzi-Əsgər İdarəsinin Dəftərxanası bu İdarənin İşlər İdarəsinin rəisinin tabeliyində idi. Hərbi mükəlləfiyyətlə bağlı olan maliyyə məsələlərinin həlli zamanı Maliyyə Nazirliyinin nümayəndəsi həlledici səslə, Dövlət Nəzarət İdarəsinin nümayəndəsi isə məşvərətçi səslə Mərkəzi Əxzi-Əsgər İdarəsinin işinə cəlb edilirdi. Mərkəzi Əxzi-Əsgər İdarəsinin aparatının fəaliyyətinə əsasən bu qurumun İşlər İdarəsinin rəisi rəhbərlik edirdi. O, hökumətin qərarı ilə bu vəzifəyə təsdiq edilməli və ya həmin vəzifədən azad edilməli idi. Mərkəzi İdarənin katibi isə İşlər İdarəsinin təqdimatı əsasında Daxili İşlər naziri tərəfindən təsdiq edilə bilərdi.

Yerlərdə hərbi mükəlləfiyyətin həyata keçirilməsi ilə qəza, dairə və şəhər əxzi-əsgər idarələri məşğul olmalı idilər. Bu strukturlara aşağıdakı vəzifələr həvalə olunurdu:

– çağırışçıların siyahısının tərtib edilməsi;

– çağırışçılar siyahısının yoxlanılması;
– əxzi-əsgər idarəsinə bağlı olan sahələrdə hərbi mükəlləfiyyət vaxtı çatmış şəxslərin sayı və xidmətə qəbul edilənlərin sayı haqqında Mərkəzi Əxzi-Əsgər İdarəsinə məlumat verilməsi;
– hərbi mükəlləfiyyətin yerinə yetirilməsi üçün çağırılanların hüquqlarının müəyyənləşdirilməsi;
– çağırışçıların hansı qayda üzrə xidmətə qəbul edilməsinin müəyyənləşdirilməsi;
– çağırış vaxtı və çağırışdan sonra xidmətə qəbul edilməli olan şəxslərin xidmətə yararlılığının yoxlanılması;
– çağırışa düşənlərin qəbul edilməsi;
– çağırış məntəqələrində işin başa çatmasından sonra Mərkəzi Əxzi-Əsgər İdarəsinə çağırışın keçirilməsi və xidmətə qəbul haqqında müfəssəl hesabatın verilməsi;
– əlavə çağırışın keçirilməsi, eləcə də artıq olduqları üçün xidmətdən geri qaytarılmış şəxslərin qəbul edilməsi;
– məsuliyyətə cəlb edilməli olan şəxslər haqqında polis orqanlarına məlumat verilməsi, habelə xidmətə qəbul edilənlərin sayı barədə qəza hərbi rəisinin məlumatlandırılması;
– ordunun ehtiyaclarının ödənməsi üçün yerlərdə atların, arabaların səfərbərliyinin keçirilməsi, Mərkəzi Əxzi-Əsgər İdarəsinin göstərişi əsasında onların siyahıya alınması;
– Mərkəzi Əxzi-Əsgər İdarəsinin göstərişləri əsasında səfərbərlik planının hazırlanması;
– sülh və ya müharibə dövründə hərbi xidmətin keçilməsi ilə əlaqədar olaraq əmək qabiliyyətini itirənlərin, xəstələnənlərin qeydiyyatının aparılması və onlara pensiya kəsilməsi.

Qəza, dairə və şəhər əxzi-əsgər idarələrinə yerli qəza rəisləri və ya Daxili İşlər naziri tərəfindən təyin edilmiş xüsusi şəxslər rəhbərlik etməli idilər. Qəza rəisinin xəstə olduğu vaxtlarda onu qəza rəisinin müavini əvəz etməli idi. Bu əxzi-əsgər qurumlarının üzvləri də var idi. Onlar Hərbi Nazirliyin nümayəndəsindən, yerli əhalinin təmsilçisindən ibarət idi. Şəhərlərdə şəhər özünüidarəsinin təmsilçisi əxzi-əsgər qurumunun üzvü olmalı idi. Bu qurumların katibləri isə Mərkəzi Əxzi-Əsgər İdarəsinin İşlər İdarəsi rəisinin əmri ilə təyin edilirdi.

Əsasnamədə bildirilirdi ki, ölkənin bütün qəza mərkəzlərində əxzi-əsgər idarələri yaradılmalıdır. Lakin qeyddə o da göstərilirdi ki, bu qurumlar zərurət yarandıqca tədricən də yaradıla bilər. Orada ilk növbədə yuxarıda adları çəkilən qəza əxzi-əsgər idarələrinin yaradılması zəruri sayılırdı.

Çağırışın və hərbi mükəlləfiyyətin həyata keçirilməsinə məsuliyyət daşıyan orqanların fəaliyyəti, əsasən, Rusiya təcrübəsinə əsaslanırdı. Onların təşkili ilə yerlərdə çağırışın təşkilinə də müəyyən nizamlılıq gətirmək mümkün idi. Həmin orqanların qarşısında dayanan vəzifələrin konkretləşdirilməsi isə məsul şəxslərin fəaliyyətinə daha çox aydınlıq gətirdi.

1919-cu ilin iyun ayında Azərbaycan Parlamenti bir daha çağırış və səfərbərliyin təşkili, fərariliyə qarşı mübarizənin gücləndirilməsi ilə bağlı məsələ müzakirə etdi və burada çağırış və səfərbərlik işində əsas tutulan hərbi mükəlləfiyyət haqqında 1915-ci ildə qəbul edilmiş əsasnamənin 20-ci maddəsinə dəyişiklik müzakirə olundu (12). Bu müzakirələr kifayət qədər gərgin keçdi və həmin müzakirələrin gedişində göstərilən maddəyə dəyişiklikdən əlavə bütünlükdə ordu quruculuğu ilə bağlı maraqlı fikirlər söyləndi. Müzakirələrdə söylənilən fikirlərdən də aydın oldu ki, gündəliyə çıxarılan məsələ Hərbi Nazirliyin mütəxəssisləri tərəfindən ciddi şəkildə götür-qoy edilmiş və nəticədə hərbi xidmətin müddətinin 2 ilə endirilməsi məqsədəuyğun bilinmişdi. Qüvvədə olan mükəlləfiyyət əsasnaməsinə görə isə hərbi xidmət 3 il 3 ay davam etməli idi. Bu müddət Rusiyada da qüvvədə idi və 1915-ci ildə Rusiyada dərc edilmiş mükəlləfiyyət əsasnaməsi qəbul edilərkən xidmət müddətinə dəyişiklik edilməmişdi. Hərbi Nazirliyin rəhbərliyinin fikrincə, hər bir çağırışçının hazırlıqlı döyüşçüyə çevrilməsi üçün 2 il kifayət idi. Parlament müzakirələrində isə bu qənaətlə razı olanlar da, olmayanlar da var idi. Həmin qənaətlə razı olmayanlardan bəziləri xidmət müddətinin ya daha uzun olmasını, ya da daha qısa olmasını əsaslandırmağa çalışırdılar.

Qanun layihəsini Parlamentə təqdim edən Qarabəy Qarabəyli bildirdi ki, hərbi xidmət müddətinin 3 il 3 ay olması bir tərəfdən gəncləri qorxudur və onları xidmətdən çəkindirirsə, o biri tərəf-

dən də xidmət müddətinin uzunluğu iqtisadiyyatın inkişafına mənfi təsir göstərir. Çünki işçi qüvvəsi uzun müddət öz işindən uzaq düşməli olurdu. Bir tərəfdən də 3 ildən sonra gənclərin çoxu öz peşələrini yaddan çıxarırdılar.

Xidmət müddətinin bir il olması tərəfdarları adından Parlamentdə Hacı Kərim Saniyev çıxış etdi. O, dövlət üçün möhkəm ordunun mövcudluğunu heç də inkar etmirdi. Əksinə, onun fikrincə: «Bir hökumətin əsgəri olmasa, o hökumətin gələcəyi təmin olmaz. Əsgər gərək olsun. Əsgər nə qədər qüvvətli olsa, nə qədər ürəklə işə girsə hökumətin, millətin təminatı o qədər artıq olar».

Saniyev fikrini onunla əsaslandırırdı ki, Azərbaycanda fəhlə və işçi qüvvəsi azdır. Bu azmış kimi əsgərliyə də, əsasən, elə fəhlə və kəndlilər, başqa sözlə, zəhmət adamları alınırdılar. Varlılar və imkanlılar isə müxtəlif bəhanələrlə xidmətdən yayınırdılar. Ona görə də qəzalarda taxıl zəmiləri biçilməmiş qalmışdı. Saniyevin sözlərinə görə xidmət müddətinin iki il olması elə bizim özümüzə zərbə vurmaq idi. Əsgərlik nə qədər zəruri olsa belə, əsgəri ac saxlamaq da mümkünsüz idi. Saniyev onu da bildirirdi ki, azərbaycanlılar onsuz da təbiətcə hərbçidirlər və əsgəri hazırlıq üçün onlara elə bir il də bəs edər.

Palament üzvü Əsədulla Əhmədov isə hərbi xidmətin 4 il olmasını istəyirdi və müzakirələr zamanı da bunu dilə gətirdi. Onun fikrincə, yaxşı təlim görmüş 40 əsgər böyük bir qüvvəni təşkil edə bilər. Təlim görməmiş, küçədən yığılan əsgərlər isə çətinliyə düşən kimi silahlarını yerə töküb qaçmaq haqqında fikirləşəcəklər. Çıxışı zamanı o dedi: «Madam ki, məmləkətimizi müdafiə etmək istəyirik, madam ki, qara qüvvələrin qarşısını saxlamaq istəyirik, o zaman müdafiə lazımdır. Müdafiə də əsgər ilə olur. …Biz də arzu edərdik ki, millətlər arasında heç vaxt dava olmaya idi və qan tökülməyə idi. Amma siz bilirsiniz ki, əsgəri, müdafiədən ötrü biz istəyirik. Biz öz məmləkətimizdə rahat əyləşə bilməliyik, üzümüzə gələn bəlanın qabağını saxlamalıyıq». Bir sözlə, Ə.Əhmədov belə fikirləşirdi ki, yaxşı əsgərin hazırlanması üçün uzun bir müddət lazımdır. Bununla belə, o, Hərbi Nazirliyin təqdimatı ilə razılaşır və hərbi xidmət müddətinin 2 ilə endirilməsinə etiraz etmirdi.

Məmməd Əmin Rəsulzadə və Qarabəy Qarabəyli hərbi xidmət müddətinin 2 ilə endirilməsini məqsədəuyğun saydılar və bununlu bağlı müzakirələrə çıxarılmış qanun layihəsini müdafiə etdilər. M.Ə.Rəsulzadə bildirirdi ki, Vətənin müdafiəsi üçün həqiqi əsgər lazımdır. Həqiqi əsgərə və möhkəm bir orduya malik olmaq üçün isə əsgərliyin iki il olması qəbul edilməlidir. Q.Qarabəyli isə əlavə edirdi ki, hazırlayacağımız qüvvə gərək elə bir qüvvə olsun ki, düşmən qarşısına getdikdə özünü baha satsın, nahaq yerə özünü ölümə verməsin.

Uzun sürən müzakirələrdən sonra Hərbi Nazirliyin irəli sürdüyü təklif qəbul edildi və hərbi mükəlləfiyyət əsasnaməsinə dəyişiklik edildi. Bu dəyişiklikdə bildirilirdi ki, 1918–19-cu illərdə xidmətə çağırılan 19–24 yaş arasındakı gənclərin xidmət müddəti 2 il saxlanılır və sonra onlar ehtiyata buraxılırlar. Ancaq bu müddət xidmət normalarını pozanlara, özbaşına xidməti tərk edənlərə, fərarilərə şamil edilmirdi. Fərarilər və xidmətdən yayınanlar üçün isə xidmət müddəti 3 il elan olunurdu. Bundan əlavə, əsgərlərin fərarilikdə və həbsdə olduğu müddət xidmət müddəti sayılmırdı (13).

1919-cu il iyun ayının 16-da Azərbaycan Parlamenti ölkə ərazisində yaşayan həkimlərin həqiqi hərbi xidmətə çağırılması haqqında növbəti bir qanunu qəbul etdi. Bu qanunun qəbul edilməsi ordu sıralarında tibb kadrlarına böyük ehtiyacın olması ilə bağlı idi. Qanuna əsasən Azərbaycan vətəndaşı olan və ya son beş ili Azərbaycanda yaşayan və 45 yaşından aşağı olan həkimlər 3 il müddətinə hərbi xidmətə çağırılmalı idilər. Qanunla Daxili İşlər Nazirliyinə və Hərbi Nazirliyə tapşırılırdı ki, yerlərdəki əxzi-əsgər orqanları vasitəsi ilə respublikada yaşayan bütün həkimlərin qeydiyyatı aparılsın. Qeydiyyat zamanı həkimlərin yaşı, yaşayış yeri, məzhəbi, ailə və xidməti vəziyyəti, səhhəti, təhsili və həkimlik stajı barədə məlumatlar da qeydə alınmalı idi. Hərbi nazirə belə bir hüquq verilirdi ki, Daxili İşlər naziri və Səhiyyə naziri ilə razılaşdırdıqdan sonra yaşı, təhsili, həkimlik stajı, təcrübəsi, səhhəti və ailə vəziyyəti uyğun gələn azərbaycanlı həkimləri ilk növbədə xidmətə çağırsın. Qeyri-azərbaycanlı həkimlər isə ehtiyatda sayılmalı idi. Onlar da azərbaycanlı həkmlərlə eyni səviyyədə hərbi mükəlləfiyyət daşımağa borclu idilər. Zərurət

hiss olunduğu dərəcədə onlar da hərbi xidmətə çağırıla bilərdilər. Həkimlərin hərbi xidmətə çağırılması yeni çağırışçıların xidmətə çağırılması qaydaları əsasında aparılmalı idi. Eyni zamanda, onların xidmətə çağırışı respublikanın Mərkəzi Əxzi-Əsgər İdarəsi xətti ilə aparılmalı idi. Qanunla Hərbi nazirə müəyyən həkimlərə möhlət verilməsi hüququ da verilirdi. Bu zaman Hərbi nazir bu və ya digər həkimə möhlət verilməsini Daxili İşlər naziri və Səhiyyə naziri ilə razılaşdırmalı idi (14).

1919-cu ilin yayında respublikanın şimal sərhədlərində hərbi vəziyyət mürəkkəbləşəndə bir sıra müdafiə tədbirləri həyata keçirildi. Şimal sərhədlərinin daha da möhkəmləndirilməsi və xarici təcavüz təhlükəsinin qarşısının alınması üçün səfərbərliyin keçirilməsinə də müəyyən hazırlıq işləri aparılırdı. Səfərbərlik işinin bu və ya digər məsələlərinin necə həyata keçirilməsi ilə bağlı Dövlət Müdafiə Komitəsinin sərəncamı ilə Mərkəzi Əxzi-Əsgər İdarəsinin nəzdində Xüsusi orqan yaradılmışdı. Bu Xüsusi orqan müharibə dövründə əhalidən 1) atların və digər yük heyvanlarının toplanılması və orduya çatdırılması; 2) ordunun canlı qüvvəsinin təkmilləşdirilməsi, Hərbi Nazirliyin müəyyən tapşırıqlarının həllinə yardımçı olacaq partizan dəstələrinin yaradılması üçün adamlar toplamalı idi. Bu vəzifələrin yerinə yetirilməsi üçün yaradılmış yeni orqan qərara aldı ki, respublikanın bütün ərazisində yeni zamanda 1) müsəlman, xristian və digər əhalidə olan heyvanların və nəqliyyat vasitələrinin qeydiyyatı aparılsın; 2) silah daşımağa qadir olan bütün müsəlman əhalisinin siyahıyaalınması aparılsın. Siyahıyaalma Azərbaycan dilində aparılmalı idi. Şəhərlərin polis sahələri üzrə bu işlər eyni vaxtda başlanmalı və üç həftə ərzində başa çatdırılmalı idi. Hər bir polis sahəsində bu işlərin aparılması üçün xüsusi bir nəzarətçi də təyin edilməli idi. Şəhər polis sahələrində siyahıyaalmanın aparılması ilə məhəllə ağsaqqalları, tanınmış adamlar, savadlı adamlar və təyin edilmiş adamlar məşğul olmalı idilər (15).

Bu siyahıyaalmaya böyük dövlət əhəmiyyətli bir tədbir kimi yanaşılırdı. Ona görə də Mərkəzi Əxzi-Əsgər İdarəsindən yerli idarəetmə orqanları qarşısında ciddi vəzifələr qoyulmuşdu. Tələb olunurdu ki, yerli polis şöbələrinə də bu tədbirin dövlət əhə-

miyyəti aydınlaşdırılsın ki, onlar da həmin işi ciddi şəkildə həyata keçirsinlər. Eyni zamanda, tələb olunurdu ki, yerli orqanlar əhali arasında lazımi təbliğat işləri aparsınlar və əhali başa düşsün ki, bu tədbirin həyata keçirilməsində məqsəd Vətənin mövcud olan təhlükədən qorunmasıdır. Ümid edilirdi ki, müvafiq təbliğat və izahetmə işlərindən sonra əhali siyahıyaalma işinə böyük vətənpərvərliklə yanaşacaq və ordu üçün zəruri olan yük heyvanlarını və nəqliyyat vasitələrini siyahıyaalmadan gizlətməyəcəkdir. Məsləhət bilinirdi ki, tədbirin icrasına başlamazdan əvvəl əhalinin iclasları və toplantıları keçirilsin, orada polis nümayəndələri və ya yerli idarəetmə orqanlarının nümayəndələri tərəfindən həyata keçirilən tədbirin məqsəd və məramı əhaliyə izah edilsin. Yerli orqanlardan o da tələb olunurdu ki, varlı və imkanlı şəxslərin atları və nəqliyyat vasitələrini və ya onların ən yaxşılarını gizlətmələrinə imkan verilməsin. Bu adamların hətta müəyyən miqdarda at və ya nəqliyyat vasitəsi alıb dövlətin sərəncamına verməsinə məcbur edilməsi də istisna edilmirdi. Partizan dəstələrinə qatılmaq üçün əhali arasından elələri seçilməli idi ki, onlar kifayət qədər yetkin insanlar olsunlar və partizan dəstələrinə qoşulandan sonra hərbi tapşırıqların icrasına can yandırsınlar. Adlarının siyahıyaalma siyahılarına düşməsindən çəkinənlər, habelə atlarını və malik olduqları nəqliyyat vasitələrini siyahıyaalmadan gizlədənlər cəzalandırılmalı idilər. Bu hüquq yerli idarəetmə orqanlarına verilirdi. Bu işlərə dərhal başlanmalı və hər həftə Mərkəzi Əxzi-Əsgər İdarəsinə görülən işin nəticəsi barədə məlumat çatdırılmalı idi (16).

Cümhuriyyətin mövcudluğu dövründə dövlət və hökumət orqanları çağırış və səfərbərlik işinin təşkili ilə bağlı bir sıra digər qərarlar və sərəncamlar qəbul etdi. Onlardan biri Dövlət Müdafiə Komitəsinin 1919-cu il sentyabrın 8-də Dağıstan ləzgilərinin Azərbaycan Ordusunda xidmətə qəbul edilməsinə icazə verilməsi haqqında idi. Dağıstan ləzgilərinin çoxu Könüllü ordunun mahiyyətcə təcavüzkar ordu olduğunu gördükləri üçün bu ordunun tərkibində xidmət etmək istəmir və Azərbaycan ərazisinə keçirdilər. Onlar, eyni zamanda, Azərbaycan Ordusunun tərkibində xidmət etməyə hazır olduqlarını da bəyan edirdilər. Lakin digər

ölkənin vətəndaşı olmaları onların Cümhuriyyət ordusuna qəbul edilməsinə müəyyən çətinliklər yaradırdı. Dövlət Müdafiə Komitəsinin qəbul etdiyi qərar isə bu hüquqi məhdudiyyəti aradan qaldırırdı (17).

Eyni zamanda, yaranmış şəraitlə əlaqədar Vətənin müdafiəsində dayanmaq istəyən çoxlu sayda könüllülər də ordu sıralarına gəlirdilər. Bu könüllülər, əsasən, xidmət yaşı keçmiş şəxslər idi. Ona görə onları adi çağırışçı kimi qeydiyyatdan keçirmək mümkün olmurdu. Hərbi nazir 1919-cu il noyabrın 20-də imzaladığı əmrində könüllü şəkildə ordu sıralarına qatılmaq istəyən şəxslərin «könüllü» deyil, «həvəskar» adlandırılmasını rəsmiləşdirdi. Həvəskarların orduya çağırılması və onların xidmətinin təşkili hərbi mükəlləfiyyət haqqında əsasnamənin müvafiq maddələri ilə tənzimlənirdi. Həmin hüquqi əsaslara görə xidmətə yazılmaq istəyən həvəskarlar da müvafiq müayinədən keçməli və əxzi-əsgər orqanlarının qeydiyyatına düşməli idilər. Onlar da xidmətə qəbul edildikdən sonra dövlət təminatına alınmalı idilər. Ancaq hissələrdə müvafiq qeydiyyatdan keçməmiş həvəskarlar da mövcud idi. Ona görə Hərbi nazir hissə komandirlərindən tələb edirdi ki, beləlləri barədə müvafiq əxzi-əsgər orqanlarına məlumat versinlər və orada onları qeydiyyata aldırsınlar (18).

Hərbi nazirin 1920-ci il aprel ayının 18-də Daxili İşlər nazirinə göndərdiyi məktubunda (19) da çağırış və səfərbərlik işinin təşkilinin bir sıra normalarına ciddi diqqət yetirilməsi öz əksini tapmışdı. Bolşevik işğalı ərəfəsində yazılmış olan bu məktubda Hərbi Nazirliyin rəhbərliyinin respublikanın müstəqilliyinin gələcəyinə olan inamını görməmək mümkün deyil. Çünki o, Hərbi Nazirliyin perspektiv fəaliyyət planından söhbət açırdı. 1919-cu ildə və 1920-ci ilin əvvəllərində Azərbaycanda 1894–1899-cu il təvəllüdlü, yəni 6 illik yaş çərçivəsində gənclərin çağırışı aparılırdı. Hərbi Nazirliyin rəhbərliyi belə uzun bir yaş mərhələsində çağırışın aparılmasını müvəqqəti hal sayırdı. Hərbi nazirin Daxili İşlər nazirinə yazdığı məktubunda bildirilirdi ki, 1920-ci ilin oktyabrından yalnız 1900-cu ildə anadan olanların çağırışı aparılacaqdır. Bununla, Hərbi Nazirlik çağırış işinə bir sistemlilik gətirmək istəyirdi. Bu məsələ ilə əlaqədar olaraq Hərbi nazir Daxili

İşlər nazirindən göstərilən yaş çərçivəsində çağırışın yekunlaşdırılmasını və yeni çağırış kampaniyasına hazırlığın cidiləşdirilməsini xahiş edirdi. Yeni kampaniyaya hazırlıq deyəndə Hərbi nazir daha çox mövcud olan nöqsanların və sui-istifadə hallarının aradan qaldırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu. Nazir xatırladırdı ki, hərbi mükəlləfiyyət haqqında əsasnamədə də əxzi-əsgər orqanları tərəfindən çağırışa hazırlıq işləri aparılması məsələsi öz əksini tapmışdır. Əhali arasında izahetmə işlərinin aparılması, çağırışçı siyahılarının tərtib edilməsi bu hazırlıq işlərinə daxil idi. Burada müəyyən çətinlik və nöqsanlar mövcud idi. İlk növbədə doğum şəhadətnamələri və ailə siyahıları lazımi tələblərə cavab vermirdi və onların əsasında tərtib edilən çağırışçı siyahıları da reallığı əks etdirmirdi. Hərbi nazir ona görə də Daxili İşlər naziri qarşısında bir daha müsəlman əhalisinin həyətlər və məhəllələr üzrə yenidən siyahısının aparılması məsələsini qaldırırdı. Ümid edilirdi ki, bu polis orqanlarının və yerli hakimiyyət nümayəndələrinin işə məsuliyyətli münasibəti nəticəsində tərtib edilmiş mükəmməl siyahılar çağırışın aparılmasında özünü göstərmiş nöqsanların aradan qaldırılmasına imkan verəcəkdir. Hərbi nazirin fikrincə, növbəti çağırış kampaniyasına hazırlığın aparılması zamanı qəza əxzi-əsgər idarələrinin rəhbərləri aşağıdakı məqamları əldə rəhbər tutmalı idilər:

– yerlərdə çağırışçı siyahılarının tərtibinə yerli idarəetmə orqanlarının başçıları rəhbərlik etməli idilər;

– yerlərdə çağırışçı siyahılarının tərtibinə rəhbərlik edən şəxslər çağırış yaşı çatmış olan bütün gənclərin adlarının həmin siyahıya düşməsinə və kimsənin bu siyahıdan kənarda qalmamasına ciddi nəzarət etməli idilər. Hərbi nazir bir daha qeyd edirdi ki, hərbi mükəlləfiyyət ümumidir və burada heç kimə üzrsüz səbəbə görə istisna edilməməli idi;

– tələb olunurdu ki, kəndlərin məqamları kənddəki çağırışçıların siyahısını çağırışçı siyahıları tərtib edən şəxslərə təqdim etsinlər. Çünki həmin şəxslər kənd əhalisini yaxşı tanıyırdılar və onlar heç də kənar şəxslər kimi bu siyahıların tərtibində, yaş həddinin müəyyənləşdirilməsində ciddi qüsurlara yol verməzdilər;

– kəndlərdə tərtib edilmiş çağırışçı siyahıları sonradan əxzi-əs-

gər orqanlarına təqdim edilməli idi. Orada isə bu siyahılar kənd məqamlarının, kənd komissiyalarının və yerli pristavın iştirakı ilə yoxlanılmalı idi;

– çağırış günlərində isə çağırışçı siyahıları əxzi-əsgər orqanlarının heyəti tərəfindən bir də ciddi şəkildə yoxlanılmalı idi;

– siyahıların sonuncu yoxlanışı və eləcə də çağırışın getdiyi günlərdə müvafiq kəndlərin məqamları, kənd komissiyaları və yerli pristavlar əxzi-əsgər orqanlarında olmalı və yenidən meydana çıxa biləcək suallarla bağlı cavab verməyə hazır olmalı idilər;

– əxzi-əsgər idarələrində işlərin gedişinə qəza rəisi rəhbərlik etməli idi. Yalnız çox zəruri hallarda onu müavini əvəz edə bilərdi;

– əxzi-əsgər orqanlarında çağırış işinin təşkilinə bir bayram əhval-ruhiyyəsinin verilməsi tələb olunurdu ki, bura gələnlər də çağırışın dövlət əhəmiyyətli ciddi bir tədbir olduğuna əminlik hasil etsinlər;

– çağırışa hazırlıq işləri başa çatdırıldıqdan sonra çağırışın tarixi və onun keçiriləcəyi yer barəsində yerli polislər, habelə dövlətin rəsmi orqanı olan «Azərbaycan» qəzeti vasitəsi ilə əhaliyə xəbər verilməli idi. Bu elanlarda o da bildirilməli idi ki, vaxtında çağırışa gəlməyənlər və ya qəsdən çağırışçıları ləngidənlər və ya onları gizlədənlər qanun qarşısında məsuliyyət daşıyırlar.

Məktubunun sonunda Hərbi nazir Daxili İşlər nazirindən xahiş edirdi ki, Mərkəzi Əxzi-Əsgər İdarəsi vasitəsi ilə yerlərə lazımi təlimatlar və sənədlərin nümunələri göndərilsin. Bu iş yerlərdəki məsul şəxslərin fəaliyyətini yüngülləşdirə bilərdi.

Lakin respublikada baş verən bolşevik çevrilişi Hərbi Nazirliyin planlaşdırdığı bu kampaniyanın da həyata keçirilməsinə imkan vermədi. Bütünlükdə isə qeyd edilməlidir ki, mürəkkəb tarixi şəraitdə çağırış və səfərbərlik işinin təşkilində mövcud olan obyektiv və subyektiv çətinliklərin aradan qaldırılmasında dövlət və hökumət orqanları tərəfindən aparılan hüquqi hazırlığın kifayət qədər əhəmiyyəti var idi.

### *2. Fərariliyə qarşı mübarizənin aparılması*

Çağırış və səfərbərlik işlərinin təşkili istiqamətində Hərbi Nazirliyin diqqət mərkəzində olan ciddi məsələlərdən biri də qoşun

hissələrində baş verən fərarilik hallarının aradan qaldırılmasına cəhd göstərilməsi idi. Bu məsələnin mövcudluğu hissələri və bölmələri iflic vəziyyətinə salmaqla bərabər, çağırış işinin nəticələrini də heçə endirirdi. Eyni zamanda, həmin məsələnin bir siyasi tərəfi də var idi. Bu da Azərbaycan əhalisinin, Azərbaycan əsgərlərinin ölkənin müstəqilliyinə münasibəti məsələsi idi. Çünki Azərbaycan Ordusu ölkənin müstəqilliyinin qorunması üçün yaradılmış bir struktur idi və orduda baş verən fərarilik halları ordunu ciddi böhran qarşısında qoyduğu kimi, ölkənin müstəqilliyinə əminliyi də zəifləddirdi.

Uzun illər boyu Azərbaycan əhalisinin əsgəri xidmətə çağırılmaması, Hərbi Nazirliyin bərpasından əvvəl çağırış işinin təşkilində ciddi ədalətsizliklərə yol verilməsi adamlarda xidmətə qarşı böyük bir etimadsızlıq, təşviş və qorxu hissləri yaratmışdı. Digər tərəfdən, xidmətə cəlb olunanlara qarşı fiziki cəzaların tətbiq edilməsi, onların şəxsiyyətlərinin təhqir olunması, ən adi yaşayış normalarına malik olmamaları fərariliyin kütləvi şəkil almasına zəmin yaradırdı. Çağırış və səfərbərlik işinin təşkili yeni Hяrbi Nazirliyin rəhbərliyi üçün nə qədər aktual idisə, fərariliyin qarşısının alınması və bunun üçün səmərəli tədbirlər sisteminin tətbiq edilməsi də o qədər vacib idi. Bunun üçün elə ilk günlərdən əhali və çağırışçılar, habelə xidmətdən yayınanlar arasında təbliğat işi genişləndirilir, xidmətin təşkilində mövcud olan yeniliklər, tarixi dövrün xüsusiyyətləri onların diqqətinə çatdırılır və psixoloji ovqatlarında bir dəyişiklik yaradılması, xidmət şəraitinin yaxşılaşdırılması, əsgərlərə sosial qayğının artırılması, onlara münasibətdə qanunsuzluqların qarşısının alınması üçün cəhd göstərilirdi.

Fərariliyin mövcudluğu hissələrin döyüş hazırlığını zəiflətməklə bərabər, xidmətə yenicə cəlb olunmuş çağırışçılara dağıdıcı təsir göstərir, onların da xidmətdən yayınmalarına psixoloji bir zəmin yaradırdı. Hərbi Nazirliyin rəhbərliyi genişlənməkdə olan bu bəlanın qarşısının alınmasında inzibati orqanların və yerli hakimiyyət qurumlarının fəaliyyətinə böyük ümid bəsləyirdi, Daxili İşlər Nazirliyinin müvafiq strukturlarını, bu Nazirliyin yerlərdəki orqanlarını ciddi əməkdaşlığa dəvət edirdi. Fərarilərin tutulub geri qaytarılmasının başlıca məsuliyyəti

də əslində bu orqanların üzərində idi.

1918-ci il dekabr ayının əvvəllərində 1-ci Tatar və 2-ci Qarabağ süvari alaylarına, 1-ci piyada diviziyasının Qarabağ bölgəsində yerləşən bəzi bölmələrinə baxış keçirəndən sonra S.Mehmandarov hissələrin komplektləşdirilməsi vəziyyəti ilə bağlı yazırdı:

«1-ci diviziyanın digər adamlarını mən görə bilmədim. Mənə vəd edilmiş 7–8 min öyrədilmiş *(təlim keçmiş – M.S.)* adamlar yerinə Bərdədən Şuşaya qədər müxtəlif məntəqələrə səpələnmiş 800 adam var idi. Diviziya komandirinin məruzəsinə əsasən bu adamların çoxu da yedizdirilməmiş və geyindirilməmişdi. Demək olar ki, onların hamısı təlim keçməmişdilər. Əmr edirəm ki, dərhal bütün adamlar iki taborda birləşdirilsin. Onlardan biri Ağdamda, digəri isə Şuşada yerləşdirilsin. Hacıqabul, Zaqatala və Qazaxdakı adamların sayı hələlik məlum deyil. Diviziya komandiri dərhal adamların sayı haqqında dəqiq məlumat toplasın və mənə məlumat versin.

Əsgərlər geyindirilmədiyi və yeməklərinə heç bir diqqət yetirilmədiyi üçün hissələr daxilində fərarilik yayılmışdır. Mən fikirləşirəm və ümid edirəm ki, əsgərə qayğı göstərilsə, isti geyindirilsə və yaxşı yedizdirilsə, fərarilərin sayı kəskin şəkildə azalacaqdır. Bundan başqa, əmr edirəm ki, yerli orqanlar tərəfindən onların tutulması, həbsxanaya alınması və müharibə dövrünün qanunları əsasında onların məhkəmə tərəfindən məhkum edilməsi üçün tədbirlər görülsün» (20).

Belə cəzasızlıq və hüquqi boşluq birdən-birə çətin xidmət şəraitinə düşmüş olan digər gəncləri də əsgərliyi tərk etməyə, öz ailəsinə qayıtmağa sövq edirdi.

Daxili İşlər Nazirliyinin strukturlarının, yerli idarəçilik orqanlarının fərariliyin qarşısının alınması işində çiyinlərinə düşən vəzifələrin icrasına məsuliyyətsizcəsinə yanaşması Hərbi Nazirliyin rəhbərliyini də ciddi narahat edirdi. Hərbi nazirin 10 dekabr 1918-ci il tarixli 10 nömrəli əmri də bu narahatlığın ifadəsi idi. Nazir yenidən fərarilik məsələsinə qayıdır və bu işdə hərbi hissə komandirləri ilə bərabər, yerli hakimiyyət məqamlarının məsuliyyətinə də toxunurdu. Naziri xüsusilə belə bir məsələ narazı salırdı ki, deyilənlərə baxmayaraq, fərarilərin tutulub geri qaytarılması

istiqamətində hər hansı bir səmərəli işlər görülmür. «Fərarilik davam edir və indiyə kimi bir nəfər də olsa fərari tutulmamışdır. Mən çoxsaylı sərəncamlarıma əlavə edirəm ki, fərarilərin tutulması və məhkəməyə verilməsi üçün təcili tədbirlər görülsün. Bununla yanaşı, qubernatorun məlumatlandırılması üçün sərəncam verilir ki, o yerli orqanların və kənd qurumlarının məsul şəxslərindən öz rayonlarında fərarilərin tutulması üçün ən ciddi tədbirlərin görülməsini tələb etsin. Yerli orqanların köməyi olmadan fərariliyə son qoyulmayacaqdır. Bütün fərarilər həbs olunmalı, ilkin təhqiqat aparılmalı və sonra da müharibə dövrünün qanunları əsasında mühakimə edilməsi üçün məhkəməyə verilməlidir. Bütün bu tələblər məmurların hamısına məlum olmalıdır» (21).

1918-ci ilin dekabr ayında S.Mehmandarov məktubla Daxili İşlər nazirinin özünə də müraciət etdi. Bu məktubda da başlıca olaraq fərarilik məsələlərinə, onu doğuran səbəblərə və aradan qaldırılması yolunda Daxili İşlər Nazirliyi orqanlarının qarşısında dayanan vəzifələrə toxunulurdu. Məktubda göstərilirdi ki, bu bəlanın başlanğıcı hələ türk qoşunları Azərbaycanda olarkən qoyulmuşdu və indiyədək onun qarşısını almaq mümkün olmamışdır. Hərbi xidmətə yeni cəlb olunanların hələ Hərbi Nazirliyin bərpasından əvvəl başlanan fərariliyi isə qalmaqda davam edirdi. Nazir yazırdı: «Əvvəllər bunun üçün müxtəlif səbəblər mövcud idi: pis yemək, paltar və ayaqqabının verilməməsi, başlıcası isə türk komandirlərinin cavan əsgərləri çox möhkəm döyməli. Silahlı qüvvələrə rəhbərlik mənə həvalə edildiyi indiki zamanda isə hərbi hissələrə xidmət şəraiti xeyli dəyişmişdir. Yemək yaxşılaşmış, paltar və ayaqqabı verilir, türk komandanlığı zamanı tətbiq edilən döyülmə hallarının gələcəkdə olmaması üçün ciddi göstərişlər verilmişdir» (22).

S.Mehmandarov narahatlıqla qeyd edirdi ki, xidmət şəraitində belə müsbət dəyişikliklərin yaranmasına baxmayaraq, fərarilik hələ də davam edir. Onun fikrincə, bunun əsas səbəblərindən biri əxzi-əsgər idarələrinin fəaliyyətinin düzgün təşkil edilməməsi ilə bağlı idi. Əxzi-əsgər idarələrinin rəisləri çağırış işinin təşkili üçün əllərində əsas tutmalı olduqları sənədlərə açıq-açığına məhəl qoymurdular və bu işi, əsasən, öz şəxsi mənafeləri üzərində

qurmağa çalışırdılar. Xidmətə o adamlar çağırılırdılar ki, onların rüşvət verib canlarını qurtarmaq imkanı yox idi. İmkanlı şəxslər isə qeyri-qanuni əlaqələr yaradır və müəyyən məbləğ əsasında övladlarını əsgəri xidmətdən azad edirdilər. Məktubda göstərilirdi ki, belə seçmə üsulun tətbiqi nəticəsində qoşun hissələrində bir nəfər də olsa imkanlı adamın övladı yoxdur. Yalnız Praporşiklər məktəbində imkanlı ailələrin nümayəndələrinə rast gəlmək olardı ki, onlar da öz arzusu ilə bura gəlmişdilər.

S.Mehmandarov fərariliyin mövcudluğunun digər səbəbləri barədə öz məktubunda belə yazırdı: "İkincisi, hərbi mükəlləfiyyətin bütün ağırlığı kənd cavanlarının, xüsusilə də kasıbların üzərinə düşmüşdür. Belə ki, kənd komissiyaları və kəndlərin məsul şəxsləri çağırış siyahılarını tərtib edərkən, öz mənfəətləri naminə ora, əsasən, çağırış yaşına çatmamış yeniyetmələri və ya çağırış yaşını ötmüş gəncləri daxil edirdilər. Bunu dəfələrlə çağırış zamanı əxzi-əsgər idarələrində də bildirmişlər. Üçüncüsü, qəza və şəhər polis nümayəndələri çağırış siyahılarının düzgün tərtib edilməsini gözləməli olduqları halda bu xidməti vəzifələrinə laqeydcəsinə yanaşmış və bu istiqamətdə cinayətkar səhlənkarlığa yol vermişlər. Qubernatorluq tərəfindən dəfələrlə xəbərdar olunmalarına baxmayaraq, polis nəfərləri fərariləri tutmurlar. Buna görə də fərarilər açıq-açığına küçələrdə gəzir və sakitcə evlərində yaşayırlar" (23).

Məktubda bildirilirdi ki, hərbi hissələrdən qanunsuz yerə buraxılmış olan gənclər də bütün günü şəhərdə veyillənirlər. Onların özləri könüllü şəkildə xidmətə qayıtmaq istəmədikləri kimi, polis orqanları da bununla bağlı heç bir qətiyyətli tədbirə əl atmırdı və əslində, elə polis orqanlarının gözü qarşısında fərarilik əl-qol açırdı.

S.Mehmandarov məktubunda polis orqanlarının daha bir səhlənkar hərəkətini Daxili İşlər nazirinin diqqətinə çatdırırdı. Onun qeyd etdiyinə görə polis mühafizə dəstələrinin tərkibində çoxlu sayda çağırış yaşı çatmış gənclər var idi. Həmin gənclər əsgəri xidmətə yollanmamaq üçün bu dəstələrin tərkibinə daxil olurdular. Bu dəstələrin tərkibində hətta fərarilər də mövcud idi. Polis orqanları isə belə şəxsləri xidmətə yollamaqdansa, onları himayə edirdi. "Bütün bu təəssüf doğurucu hallar çağırışçı gənclərə zərər-

li təsir göstərir. Onlar əxzi-əsgər idarələri rəislərinin, kəndin məsul şəxslərinin və polis nümayəndələrinin qeyri-doğru hərəkətlərindən qəzəblənərək və fərarilərə qarşı heç bir tədbir görülmədiyini bilərək xidmətdən qaçırlar. Əsgərlərin məişətinin qoşunlarda yaxşılaşdırılması üçün görülən işlər də fərarilik axınının qarşısını almağa qadir deyildir" (24).

Hərbi xidmətə çağırışın təşkilində mövcud olan nöqsanların aradan qaldırılması üçün S.Mehmandarov Daxili İşlər nazirindən daha qətiyyətli tədbirlərin həyata keçirilməsini xahiş edirdi. Məktubda göstərilirdi ki, fərarilərin tutulub saxlanılması barədə polis orqanlarına ciddi tapşırıqların verilməsi, fərarilərin tutulmasına barmaqarası yanaşan polislərə qarşı isə sərt cəzaların tətbiq edilməsi, onların məhkəmələrə verilməsi yaxşı olardı. S.Mehmandarov onu da təkid edirdi ki, əvvəlki çağırış siyahıları yenidən tərtib olunsun, burada yol verilmiş olan çatışmazlıqlar aradan qaldırılsın, çağırışçıların toplanılmasında mövcud olan ədalətsizlik ləğv edilsin və bütün sosial təbəqələrin nümayəndələri qanunauyğun olaraq xidmətə cəlb edilsinlər (25).

Daxili İşlər nazirinə ünvanladığı məktubunu S.Mehmandarov belə tamamlayırdı: "Yaranmış vəziyyətdə nöqsanların aradan qaldırılması üçün təcili tədbirlər görülməsə, hərbi hissələrin komplektləşdirilməsi qeyri-müəyyən vaxta qədər təxirə salınacaqdır. Bu isə bir sıra məntəqələrdə təbliğatçı çıxışlarla və talançı dəstələrin meydana gəlməsi ilə pozulmaqda olan daxili sabitliyin bərqərar edilməsi üçün öz ordusunun tezliklə formalaşdırılmasını tələb edən ölkəyə sonsuz fəlakətlər gətirə bilər» (26).

Həmin məzmunda başqa bir məktubu isə S.Mehmandarov Yelizavetpol qubernatoruna göndərdi və Daxili İşlər nazirindən müvafiq göstəriş alana qədər ondan fərariliyə qarşı ciddi tədbirlər həyata keçirilməsini xahiş etdi. Məktubda bildirilirdi ki, fərarilərin siyahısı yerli polis orqanlarına təqdim edilmiş və gələcəkdə də təqdim ediləcəkdir. Ona görə də əllərində siyahıların olmasına baxmayaraq, polis orqanlarının heç bir iş görməməsi yalnız təəccüb doğurur. S.Mehmandarov qeyd edirdi ki, polis nümayəndələrinin fərarilərin tutulmasında səhlənkarlığa yol verməsi dözülməzdir və belə polislər barədə gələcəkdə teleqrafla Daxili

İşlər nazirinə şəxsən məlumat vermək və onların cinayət məsuliyyətinə cəlb olunması barədə vəsatət qaldırmaq məcburiyyətində qalacaqdır (27).

1918-ci il dekabrın 25-də S.Mehmandarov xidmətə çağırış işinin yaxşılaşdırılması ilə bağlı xalqa da müraciət etdi. Bu müraciət həm rus dilində, həm də Azərbaycan dilində çap edilərək vərəqələr şəklində əhali arasında yayıldı. Bu müraciətində də o, ilk növbədə qoşun hissələrində fərariliyi doğuran səbəblərə, səhvlərə, nöqsanlara toxunurdu. O, hissələrdə mövcud olmuş ağır məişət şəraitini etiraf edirdi. Müraciət həm ordu quruculuğunun hansı ağır şəraitdə olduğunu, yenicə bərpa edilmiş Hərbi Nazirliyə hansı vəziyyətin miras qaldığını göstərməklə bərabər, həm də başlanan quruculuq prosesinin uğurla davam etdirilməsində xalqın da qarşısında məsuliyyətli vəzifələr dayandığını açıqlayırdı. S.Mehmandarov müraciətində əhalinin nəzərinə əsgərlərə məvacib veriləcəyini, fiziki güc tətbiq edilməsinə qarşı lazımi tədbirlər görüləcəyini də çatdırırdı. Müraciətin sonunda fərarilik edənlərin günahlarının bağışlandığı və müəyyən edilmiş müddət ərzində geri qayıdacaqları təqdirdə onları heç bir cəza gözləmədiyi bildirilirdi.

S.Mehmandarovun bu müraciəti tarixi müraciət idi. Əhali və ictimaiyyət arasında geniş əks-sədaya səbəb olan bu müraciətin maliyyə məsələsinə aid olan məqamlarına yuxarıda toxunulsa da onun Azərbaycan dilində olan tam mətni aşağıdakı kimi idi: «Azərbaycan vətəndaşları! Bu ilin yazında Azərbaycan ayrılıb müstəqil hökumət şəklinə düşdü və bu gündən etibarən cəmi hökumət məmurları camaat arasında asayişin olmasına və anarxiya olmamasına çalışırlar və camaat arasında qanuna müvafiq iş görülməsinə səy edirlər. Bu məqsədə çatmaq üçün başqa binagüzarlıqdan əlavə hərbi qüvvə təşkilinə başladılar. Bu vaxtlarda türk ordusu gəlib bizim Azərbaycan qoşunlarını türk komandanları ixtiyarına alıb hər bir barədə kəfil oldular. İndi anlaşılır ki, türk komandanları öz hərbi işlərində çox səhvlər göstəriblər. Əsgərlik vəzifəsinə ancaq fağırların uşaqları götürülür. Məsələn, dövətlilərin və bəylərin uşaqları azad ediliblər və türklər qəbul etdiyi əsgərləri çox pis yedirib və pis geyindirib, hətta bəzilərinə heç libas verməmişlər və türk əsgərlərindən bizimkilərə az yemək ver-

mişlər. Natəmiz və quru yer üstündə yatırmışlar. Hətta döyürmüşlər. Axırda nəticə o oldu ki, Azərbaycan əsgərləri dəstə-dəstə fərar etdilər. İndi isə qoşun düzəltməyi öz öhdəmə götürmüşəm və cəmi vətəndaşları – istər fağır, istər dövlətli əsgərliyə çağırıram. Hər kəs ki, bir dövlətli uşağını qələmdən salıb azad etsə, böyük cəzaya düçar olacaqdır və burası da məlum olsun ki, əsgərlər yaxşı geyəcəklər və yeməklərin də yaxşı olmağına mən çox çalışıram. Otaqları isti olacaq və hər bir əsgər üçün ayrı yorğan-döşək hazırlatmışam. Bundan əlavə, dekabr ayından etibarən aybaay hər bir nəfər əsgərə 50 manat, onbaşılara 60 manat və balaca unter əfsərlərə 70 manat, böyük unter əfsərlərə 90 manat, feldfebellərə 120 manat məvacib veriləcəkdir. Bu məvacib onlar üçün cib xərcliyidir. Və əmr etmişəm ki, bu gündən sonra əsgərlərə təcavüz olmasın. Onları döymək və vurmaq olmasın. Ey vətəndaşlar! Bu qanunlar tamam olandan sonra sizə məlum edirəm ki, o şəxslər ki, əsgərlikdən qaçıbdılar, onların böyük xətalarını əfv etdim. Ancaq gərəkdir ki, onlar bu sənə yanvar ayının əvvəlinə kimi gəlib öz bölüklərinə qayıtsınlar. Hər kəs qayıtmasa hərbi qanuna görə onlara cəza veriləcəkdir. Əziz olan Vətənimiz tərəfindən Vətən əhlinə müraciət edib deyirəm ki, vətən hissi, millət hissi olan cavanlarımız, hansı ki, əsgərliyə düşür, borcludur ki, məhəlli əxzi-əsgər idarələrinə gəlib yazılsınlar və bununla milli qoşunumuzun təşkil olunması barəsində bizə yardım etsinlər. Hər kəs öz vəzifəsini unudub gəlmək istəmirsə, camaatın töhməti altında qaldığından divani-hərbiyyəyə veriləcəkdir. Mənim bu dəvətnaməm hər bir yerdə yapışdırılsın. Savadlı adamlar borcludur ki, savadsızlara oxuyub qandırsınlar" (28).

S.Mehmandarov Azərbaycanın müstəqilliyinin qorunmasında, ölkə daxilində mövcud olan anarxiyanın və özbaşınalıqların aradan qaldırılmasında türk hərbi qüvvələrinin tarixi fəaliyyətinə bütünlükdə çox yüksək qiymət verirdi. Ona görə də onun bu müraciətdə türk hərbi qüvvələrinin Azərbaycanda olarkən müəyyən nöqsanlara yol verilməsi barədə söylədikləri ifrat şəkildə başa düşülməməlidir. Məsələn, 1919-cu il fevral ayının 25-də Parlamentdəki böyük çıxışında S.Mehmandarov türk hərbi qüvvələrinin Azərbaycandakı fəaliyyətinə belə qiymət verirdi: «...Bizim mü-

səlmanlar vəfalılıq və sədaqətdə çox möhkəmdirlər. Heç kəs Azərbaycanda anarxiyanın aradan qaldırılmasında və qayda-qanunun bərpa edilməsində türklərin xidmətini dana bilməz» (29).

Sözsüz ki, həmin dövrdə çağırış işinə tətbiq edilən hüquqi normalarda, bu prosesin aparılmasına nəzarətin təşkil edilməsində müəyyən nöqsanlar var idi. Lakin unutmaq lazım deyil ki, yerlərdə çağırış siyahılarını tərtib edən də, çağırışı aparan da yerli hakimiyyət və polis orqanları idi. Bu orqanların çağırışla bağlı fəaliyyəti Cümhuriyyətin mövcud olduğu bütün dövrdə müəyyən narazılıqlar doğurmuşdu. Ona görə onların yol verdiyi nöqsanların da ümumiləşdirilərək türk hərbi qüvvələrinin adına yazılması obyektivliyi tam şəkildə əks etdirmir.

S.Mehmandarov çağırış işində yol verilmiş nöqsanlardan birini də əhalinin ailə vəziyyətinin nəzərə alınmamasında görürdü. Rüşvət vermək imkanı olmayan ailələrin övladları heç nəyə diqqət yetirilmədən qoşun hissələrinə göndərilirdi. Ata-ananın yeganə övladı və yeganə çörək gətirəni də əsassız olaraq xidmətə cəlb edilirdi ki, bu da camaat arasında haqlı narazılıqların genişlənməsinə səbəb olurdu. Hərbi nazir çağırış işində belə ədalətsizliyə yol verilməməsi və onun hüquqi cəhətdən möhkəmləndirilməsi üçün Nazirlər Şurasının qarşısında vəsatət qaldırdı. Azərbaycan hökumətinin 18 yanvar 1919-cu il tarixli qərarı ilə ailənin yeganə övladı və müəllimlər hərbi mükəlləfiyyətdən azad edildilər (30).

Hərbi Nazirliyin rəhbərliyi sadəcə müraciətlər qəbul etməklə və ya müəyyən əmrlərin imzalanması ilə fərariliyin qarşısının alınması sahəsindəki fəaliyyətini bitmiş hesab etmirdi. Bu məsələnin həll edilməsi Hərbi Nazirliyin rəhbərliyinin praktiki fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Bu sahədəki işlər ardıcıl davam etdirilsə də, Hərbi Nazirliyin bərpasından sonrakı ilk aylarda ona xüsusilə ciddi diqqət yetirilirdi. İstər qoşun hissələri komandirlərindən, istərsə də Daxili İşlər Nazirliyi vasitəsi ilə yerli idarəetmə orqanlarından fərariliyə qarşı mübarizənin gücləndirilməsi tələb olunurdu. Bir sıra qəzaların rəhbərləri tərəfindən də bu məsələnin ümumdövlət əhəmiyyəti düzgün qiymətləndirilir və konkret tədbirlər həyata keçirilirdi. Məsələn,

1919-cu il yanvar ayının 9-na kimi Cavad qəzasında artıq 64 nəfər fərari saxlanılaraq Hərbi Nazirliyin yerlərdəki nümayəndələrinə təhvil verilmişdi. 1919-cu ilin yanvar-mart ayları ərzində Göyçay qəzasında isə 209 nəfər fərari saxlanılıb müvafiq orqanlara təhvil verilmişdi (31).

Məlumatların qıtlığı üzündən digər qəzalarda fərariliyə qarşı aparılan işlərin nə səviyyədə olmasının mənzərəsini yaratmaq çətindir. Ancaq məlumdur ki, bu iş aparılırdı. Bu istiqamətdə aparılan kampaniyanın müsbət nəticələrindən biri də bu idi ki, bir çox fərarilər özləri atdıqları addımın səhv olduğunu başa düşür və geri qayıdırdılar. Məsələn, 1919-cu il fevral ayının ortalarına kimi Əlahiddə Zaqatala taborunun birinci bölüyünün 23 əsgəri, üçüncü bölüyünün isə 9 əsgəri könüllü şəkildə xidməti davam etdirməyə qayıtmışdılar (32).

Fərariliyin aradan qaldırılması istiqamətində aparılan işlərin səmərəliliyinin artırılması ilə bağlı S.Mehmandarovun 1919-cu il fevralın 5-də imzaladığı 10 nömrəli əmr də ciddi sənədlərdən biri idi. Burada Hərbi nazirin çağırış işinin təşkilində çar Rusiyası dövründə qəbul edilmiş mükəlləfiyyət nizamnaməsinin əsas götürülməsi, Azərbaycanın bir sıra qəzalarında hərbi rəislərin yeni idarələrinin təşkil edilməsi fikirləri ilə bərabər, fərariliklə mübarizə ilə bağlı da fikirləri öz əksini tapmışdı. Onun başlıca iradı yenə də yerli idarəetmə orqanları tərəfindən siyahıların düzgün tərtib edilməməsi, bu siyahılarda çağırışçıların hamısının nəzərə alınmaması ilə bağlı idi. Səməd bəy tələb edirdi ki, bu siyahılar tərtib edilərkən Azərbaycan hökumətinin müvafiq dekreti rəhbər tutulsun və sosial mənşəyindən asılı olmayaraq 19 yaşından 24 yaşına kimi bütün gənclər çağırışçı siyahısına daxil edilsinlər. S.Mehmandarov təkid edirdi ki, çağırış işinə başlanması ərəfəsində siyahılar bir də yoxlanılsın və dəqiqləşmələr aparılsın. Hərbi rəislər və yerli idarəetmə orqanları müxtəlif yaşayış məntəqələrində çağırışın müxtəlif vaxtlarda aparılması gününü müəyyən etməli idilər. Bu, S.Mehmandarov tərəfindən çağırışın təşkilinə gətirilmiş bir yenilik idi. Əvvəllər çağırış bütün yaşayış məntəqələrində eyni vaxtda aparılırdı. Ona görə bütün məntəqələrdə çağırışın gedişini lazımi nəzarət altında saxlamaq müm-

kün olmurdu. S.Mehmandarov mövcud tarixi şəraitdə yaşayış məntəqələrində çağırışın eyni vaxtda deyil, müxtəlif vaxtlarda aparılmasını və bu zamanda nəzarətin lazımi səviyyədə təşkil edilməsini məqsədəuyğun bilirdi: «Çağırış üzrə işlərin gedişi barədə yerlərdən alınan məlumatlardan aydın olur ki, türk komandanlığı tərəfindən başlanmış yığım sistemsiz və bəzi istisna ilə, əsasən, şəxsi iradə ilə təyin edilmiş türk zabitləri tərəfindən aparılırdı. Nəticədə, yığım qeyri-bərabər və ədalətsiz olmuş, əhalinin bütün təbəqələri və sinifləri üçün hərbi mükəlləfiyyətin məcburi prinsipi arxa plana keçmişdi. Bundan başqa, çağırış siyahıları da yerli orqanlar tərəfindən heç də düzgün tərtib edilməmişdi, orada çoxlu xətalar var idi. Bəzi qəza rəisləri çağırışın başa çatdığını söyləsələr də, yuxarıda göstərilən səbəblərə görə türklər tərəfindən aparılmış çağırışı icra edilmiş hesab etmiş olmaz. Ona görə də dərhal çağırış siyahılarına yenidən baxılsın və onlar yenidən tərtib edilsin. Ora hökumətin dekteri ilə müəyyən edilmiş qaydada çağırış yaşında olan 19 yaşından 24 yaşına kimi bütün gənclər istisnasız olaraq daxil edilməlidirlər. Xüsusi diqqət yetirilməlidir ki, bu siyahıya bəylərin, tacirlərin və imkanlıların da övladları daxil edilsinlər. Çağırışdan əvvəl siyahılar əxzi-əsgər rəisləri tərəfindən yoxlanılmalıdır. Əxzi-əsgər rəisləri əxzi-əsgər şöbələrinin nümayəndələri ilə birlikdə çağırış gününü təyin etməlidirlər».

S.Mehmandarov ilk növbədə bir daha bu bəlanı törədən səbəbləri diqqət mərkəzinə gətirir və onun aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsini tələb edirdi: «Yeni çağırılanların fərarilik etməsi səbəbləri içərisində əsas yerlərdən birini onların düzgün yığılmaması təşkil edir. Bu qeyri-düzgünlüyün aradan qaldırılması üçün yerli orqanlar tərəfindən təcili təbirlər görülməlidir. Eyni zamanda, bütün fərarilər və türk komandanlığı tərəfindən hissələrdən buraxılanlar tutulmalıdırlar. Onların cəzasız qoyulması əhali arasında çaşqınlıq yaradır və çağırışın uğurla aparılmasına əngəl olur, fərariliyi gücləndirir və fərarilərdə inam yaradır ki, onların xidməti tərk etməsi digər keçmiş yoldaşları kimi cəzasız qalacaqdır» (33).

Əmrinin sonunda S.Mehmandarov yerli idarəetmə orqanlarının rəhbərlərinin diqqətini bu məsələyə cəlb edərək bildirirdi ki, qə-

zalarda nə qədər fərarinin olması barədə, habelə yerli orqanlar tərəfindən saxlanılan fərarilərin sayı barədə mütəmadi olaraq hökumət orqanına məlumat veriləcəkdir. Hərbi nazir, eyni zamanda, onu da bildirirdi ki, qəzalarda xidmətdən yayınmış tacir, bəy və imkanlı adamların uşaqlarının siyahısı tərtib ediləcək və qəza rəisinin adı əlavə olunmaqla həmin siyahılar müvafiq dövlət orqanlarına təqdim ediləcək ki, həm birincilər, həm də ikincilər barəsində lazımi ölçü götürülsün.

Həyata keçirilən tədbirlər əhali arasında da müəyyən bir fəallaşmaya, onların çağırış işinə münasibətində nəzərəçarpacaq dönüşün yaranmasına səbəb olmuşdu. 1919-cu il fevralın 25-də Azərbaycan Parlamentində çıxış edərkən A.Səfikürdski bildirirdi ki, son vaxtlar indiyədək görünməmiş halları müşahidə etmək mümkündür. İndi əhali özü fərarilərə qarşı çıxış edir, hərbi mükəlləfiyyətdən boyun qaçıranları əhali özü tutub müvafiq orqanlara təhvil verir. Səfikürdski xalqın xidmətə münasibətində belə dönüş yaranmasını ilk növbədə əldə edilmiş istiqlaliyyətin qorunması, xalqın hüquqlarının təmin edilməsi keşiyində dayanılmasının yalnız öz qüvvələrimizlə mümkün olduğunun başa düşülməsi ilə bağlayırdı. O bildirirdi ki, respublikanın müstəqilliyinə ölkə xaricindən Denikin qüvvələri kimi təhlükə mövcud olduğu kimi, ölkə daxilində də istiqlaliyyətə qənim kəsilən qüvvələr vardır. Belə qüvvələrin qarşısı isə yalnız güclü ordu ilə alına bilərdi. Buna görə Səfikürdski gənclərin xidmətdən fərariliyinə səbəb olan nöqsanların aradan qaldırılması üçün Hərbi Nazirliyin rəhbərliyi tərəfindən görülən işləri dəstəklədiyini bildirirdi (34).

Hərbi Nazirlikdə fəaliyyətə başladığı ilk gündən fərariliyə qarşı qətiyyətli mübarizə aparmağı təkid edən S.Mehmandarov da Parlamentdəki çıxışında fərariliyin aradan qaldırılması sahəsində müəyyən müsbət nəticələrin əldə edildiyini və bu məsələnin artıq əvvəlki kimi ciddi dayanmadığını bildirirdi. Onun fikrincə, əvvələr bu barədə xeyli danışılıb fəryad qopardılırdısa, bu narahatlıq artıq yavaş-yavaş səngiməkdədir. S.Mehmandarov qeyd edirdi ki, hərbi mükəlləfiyyət həyata keçirilən bütün ölkələrdə fərarilik mövcuddur. Lakin bu istiqamətdə görülən iş məsələnin böhranlı hal almasını qabaqlayır və prosesi istiqamətləndirir. Belə bir

vəziyyət Ermənistanda və Gürcüstanda da ortaya çıxmışdı. Nazir əlavə edirdi ki, fərariliklə bağlı olan problem müvəqqəti haldır və gənclərdə, onların valideynlərində Vətən, torpaq təəssübkeşliyi artdıqca xidmətə münasibət də dəyişəcəkdir. S.Mehmandarov da çıxışında əhalinin fərariliyə münasibətinin getdikcə dəyişdiyini sübut edən nümunələr gətirirdi. Yəni əhali də bu hala qarşı mənfi münasibət bəsləyirdi. Hətta bəzi fərarilərin döyülməsi və zorla geri qaytarılması faktları da olmuşdu: «…Haqqında çoxlu danışılan fərariliyin olduğunu düzgün sayıram. Ancaq indi bu məsələ barəsində genişliyi ilə danışmağa dəymir. Məsələ bundadır ki, hərbi mükəlləfiyyət tətbiq edilən bütün inkişaf etmiş mədəni ölkələrdə də fərarilik vardır. Hərbi mükəlləfiyyət gürcülərdə və ermənilərdə olanda orada da fərarilik var idi. Bunun aşağıdakı səbəbləri var: birincisi ümumi bərbadlıq hamıya pis təsir göstərmişdir, ikincisi müsəlmanlar əvvəllər hərbi mükəlləfiyyət keçməmişlər. Bütün bunlar müvəqqəti haldır. İndi insanlarda vəzifə borcu aşılanır. Ona görə də fərariliyə xüsusi diqqət yetirməyə ehtiyac yoxdur. Özü də fərariliyin azaldığı vaxtda. Axır zamanlarda isə Yelizavetpolda son iki həftə ərzində heç bir fərarilik hadisəsi olmamışdır. Tərifləməyə ehtiyac olmasa da, onu da qeyd etmək lazımdır ki, fərariliyə mənfi yanaşan əhali özü də bu məsələdə bizə yardım edir. Bir neçə dəfə belə hadisə olmuşdur ki, əhali özü fərarilərin üstünə düşmüş və onları döymüşlər. Bu da fərarilərə təsir göstərə bilər. Müsəlmanlarda anadangəlmə intizamın olmasını, böyüklərə hörmətlə yanaşılmasını nəzərə alsaq, mən əminəm ki, yaxın gələcəkdə fərariliyə son qoyulacaq və işlər öz normal axarına düşəcəkdir» (35).

Bu çıxışı zamanı «fərariliyə xüsusi diqqət yetirməyə ehtiyac yoxdur» – deyəndə S.Mehmandarov, heç şübhəsiz ki, yüksək dövlət orqanında həmin məsələ ətrafında çox geniş müzakirələr aparılmasına zərurət olmadığını nəzərdə tuturdu. Çünki bu məsələdə artıq müsbət meyillər görünməkdə idi. Amma bütünlükdə bu məsələ bu və ya digər dərəcədə Cümhuriyyət ordusunun mövcudluğu dövründə qalmaqda davam edirdi və S.Mehmandarov bu məsələni heç vaxt diqqətdən kənarda saxlamamışdı.

Nazirin fərariliklə bağlı Parlamentdəki çıxışı heç də bu bəlaya

qarşı mübarizənin zəiflədilməsi demək deyildi. Müəyyən müsbət dəyişikliklər meydana gəlsə də, fərariliyə qarşı qətiyyətli mövqe heç vaxt zəifləməmişdi. Bütünlükdə, Azərbaycan Ordusunun bütün mövcudluğu dövründə fərariliyə nə son qoyulmuşdu, nə də bu məsələ diqqətdən kənarda qalmışdı.

Hərbi nazir S.Mehmandarov tələb edirdi ki, bütün hissələr vaxtaşırı fərarilər haqqında raport versin və bu raporta aşağıdakı məlumatlar daxil edilsin: 1) fərarinin adı və familiyası; 2) qaçma vaxtı; 3) fərarinin vətəni (quberniya, qəza, kənd); 4) fərari hansı xidməti mülkiyyəti özü ilə aparıb; 5) fərariliyə səbəb (36).

Nazir, eyni zamanda, tələb edirdi ki, xidmətə qayıdan fərarilər barədə də raportlar verilsin və həmin raportlara aşağıdakı məlumatlar daxil edilsin: 1) fərarinin adı; 2) qaçma tarixi; 3) qayıtma tarixi; 4) fərarilik barədə nə vaxt və hansı nömrəli raportla Ordu Livası Rəyasətinə məlumat verilib; 5) hissədən aparılmış xidməti əşyalardan hansı geri qaytarılmayıb (37).

Yerlərdən Hərbi Nazirliyə daxil olan məlumatlar da fərariliyə qarşı aparılan işlərin səmərəsinin xeyli artmasından xəbər verirdi. 1919-cu il mart ayının ortalarında Ərəş qəzasının rəisi Ordu Livası Rəyasətinin rəisinə göndərdiyi məktubunda fərarilərin tutulub saxlanılmasına diqqətin gücləndirildiyini bildirirdi. O yazırdı ki, pristavlar, kənd böyükləri bir-bir, iki-iki fərari tutub qəza orqanlarına təhvil verirlər. Qəza orqanları isə onları qaçdıqları hissələrə göndərirdi. Fərarilərin xidmət yerinə çatdırılması üçün müşayiətçi şəxslər təyin olunurdu. Ancaq hər gün gətirilən fərarilərin yanına müşayiətçi qoşub hissələrə göndərilməsinin müəyyən çətinlik yaratdığını nəzərə alaraq qəza rəisi xahiş edirdi ki, Ərəş ərazisindən tutulan fərarilərinLəkidəki topçu cəbbəxanasına təhvil verilməsinə icazə verilsin. Hərbi nazir S.Mehmandarov bu təklifi müdafiə etdi. Çünki bu, fərarilərlə iş aparmaq üçün həm yerli orqanların vəziyyətini yüngülləşdirir, həm də daşınmalara olan xərci müəyyən qədər azaldırdı (38).

Fərarilərə qarşı mübarizə Zaqatala bölgəsində də xeyli güclənmişdi. Zaqatalada olan Əlahiddə tabordan fərarilik edənlərin sayının çoxalması barədə məlumat alınan kimi qubernator əhaliyə müraciət etdi. O, bildirirdi ki, fərariliyin artması ilə barışa bilməz

və bununla bağlı ən sərt qərarların qəbul edilməsindən çəkinməyəcəkdir. Qubernator bəyan edirdi ki, fərariləri gizlədən şəxs Vətən qarşısında məsuliyyət daşıyır. Günahkar şəxslər 5 min rubla kimi cərimə ediləcək, ya da 3 ay müddətində həbs olunacaqlar. Qubernator onu da bildirirdi ki, hər hansı bir kənddə fərarilərin gizlədilməsi barədə məlumat alarsa, həmin kəndin ətrafında hərbi postlar qoyulması barəsində məsələ qaldıracaqdır. Zaqatala qubernatoru öz müraciətini belə bitirirdi: "Fərariliyə şərait yaradan hər bir şəxs özünə iyrənc bir şərəfsizlik qazanır. Belə ki, o ən yaxşı arzularımızın həyata keçəcəyini şərtləndirən möhkəmlənməmiş gənc ordumuzu zəiflədir və nəticədə respublikamızın bütün müsəlmanlarının ən vacib istəklərinin həyata keçməsinə mane olur" (39).

Bölgələrin bir çoxunda yerli hakimiyyət orqanları tərəfindən bu istiqamətdə konkret və əməli tədbirlər həyata keçirilirdi. Bu da öz nəticəsini göstərirdi. 1919-cu il aprel ayının 1–10-u arasında Cavad qəzasının rəhbərliyi tərəfindən 33 nəfər fərari tutulub Şuşa hərbi rəisliyinə təqdim edildi. Aprel ayının 16-dan may ayının 20-nə kimi isə daha 8 fərari tutulub təhvil verildi (40). Ancaq Hərbi Nazirliyin rəhbərliyi bunu kafi saymırdı. 1919-cu il may ayının 24-də Ümumi qərargahın rəisi general-mayor H.Səlimov Bakı qubernatoruna göndərdiyi məktubunda bildirirdi ki, Cavad qəzasından çağırılan çağırışçılar arasında fərarilik halları kütləviləşib. H.Səlimov Hərbi nazir adından xahiş edirdi ki, Bakının qubernatoru bu məsələyə ciddi diqqət yetirsin, fərarilərin tutulması üçün təcili tədbirlər həyata keçirilsin, onları gizlədənlərə, habelə səmərəsiz fəaliyyət göstərən yerli polis əməkdaşlarına qarşı müvafiq cəzalar tətbiq edilsin (41).

Fərariliyə qarşı mübarizənin səmərəliliyinin artırılması üçün bir sıra digər qətiyyətli addımlar da atıldı. Hərbi nazirin 14 iyun 1919-cu ildə imzaladığı 292 nömrəli əmri də belə addımlardan biri idi. Bu əmrdə fərarilərə və onları gizlədənlərə qarşı bir sıra cəza normaları təsbit edilmişdi. Daxili İşlər Nazirliyi ilə razılaşdırılandan sonra qəbul edilən bu normalara görə fərarini gizlədən hər bir şəxs 10 min rubl məbləğində cərimə olunur, ya da 6 ay müddətində həbs edilirdi. Fərarinin gizləndiyi kəndin vəzifəli

şəxsləri onun tutulması üçün səhlənkarlıq göstərməkdə günahlandırılırdılarsa, dərhal vəzifədən azad edilməli idilər. Sonra əgər fərari hissənin əşyalarını özü ilə aparmış olardısa, onun dəyərini ikiqat məbləğində ödəməli idi. Əsgərin özünün pulu olmasa, həmin pul onun ailəsindən tutulurdu. Nəhayət, çağırışçının gizlədilməsi və ya çağırışdan yayındırılmasında günahlandırılan ailə 10 min rubl cərimə verməli və ya ailənin böyük kişisi 6 ay müddətində həbs olunmalı idi (42).

Bu istiqamətdə də müəyyən konkret tədbirlər həyata keçirilirdi. Məsələn, Göyçay qəzasının Qaracallı kəndində öz fərari yaxınlarını gizlətdikləri üçün bəzi kənd sakinləri qəza rəisi tərəfindən bir ay müddətinə həbs edilmişdilər. Bakı quberniyasına aid olan Yeni Şilyan kəndində fərarilərin tapılmamasında günahkar olduqları üçün 4 nəfər həbs edilmişdi. Sonradan onların ikisinin həbsi 10 min rubl cərimə ilə əvəzlənmişdi (43). Bir müddət sonra Göyçay qəzasının rəisi Bakı qubernatoru Nərimanbəyov qarşısında qəzanın Lək-Çıplaq cəmiyyətinin beş sakininin çağırışçıları mütəmadi olaraq çağırışçı siyahılarından gizlətməklə onların fərariliyinə kömək etdiyi üçün həbs edilməsi barəsində məsələ qaldırdı. Qəza rəisinin bu vəsatəti təmin edildi və adları çəkilən şəxslər 3 ay müddətinə həbs edildilər (44).

1919-cu ilin yayında Göyçay qəzasının rəisi Bakı qubernatoruna bildirirdi ki, qəza ərazisində gizlənən fərarilərin axtarılıb tapılması üçün bütün yerli polis əməkdaşlarına göstəriş verilmişdir. Qəza rəhbərliyi tərəfindən əhali və polis əməkdaşları arasında izahetmə işləri də aparılmışdı ki, fərariliyin davam etməsi ölkə və dövlət üçün təhlükə yarada bilər. Qəza rəisinin sözlərinə görə polis əməkdaşları da bu məsələnin əhəmiyyətini reallıqla qiymətləndirmişdilər və onların fəallığının nəticəsi idi ki, təkcə iyul ayının sonlarında fərarilərin gizlədilməsində günahkar sayılan 24 nəfər həbs edilmişdi. Göyçay qəza Əxzi-Əsgər idarəsinin fəaliyyət göstərdiyi yarımillik bir dövr ərzində isə 679 nəfər fərari tutulub müvafiq orqanlara təhvil verilmişdi (45).

Qəzada hərbi əmlakla birlikdə fərarilik edən şəxslərə qarşı isə daha qətiyyətli tədbirlər həyata keçirilirdi. Qaçırılan hərbi əmlakın xərci ya nağd şəkildə, ya da hərbi natura şəklində tutularaq

Hərbi Nazirliyə təhvil verilirdi. Bakı quberniyasının digər qəzalarında da fərarilərin özləri ilə apardığı hərbi əmlakın xərci tutularaq Hərbi Nazirliyə təhvil verilirdi. Quba qəzasından verilən məlumata görə fərarilik etmiş konkret şəxsdən özü ilə apardığı hərbi əmlaka görə onun qohumlarından 997 rubl 28 qəpik tutularaq yerli hərbi orqanlara təhvil verilmişdi. Belə şəxslərin qəzalar və quberniyalar üzrə ayrıca siyahısı aparılırdı. Məslən, 1919-cu ilin sentyabrında Bakı quberniyası üzrə hərbi əmlakla qaçanların sayı 112 nəfər, oktyabrın sonlarında 123 nəfər və noyabrın əvvəllərində 202 nəfər olmuşdu (46).

Qarabağda yerləşən hissələrdən, xüsusilə süvari hissələrindən fərarilik edənlərin sayı çox idi. 1919-cu il mart ayının 19-da 1-ci piyada diviziyasının komandiri məktubla Qarabağ general-qubernatoruna müraciət etdi. Diviziya komandiri bildirirdi ki, son zamanlar Xankəndi qarnizonundan əsgərlərin fərarilik halları artmışdır və onların çoxu cəzalandırılmayacaqlarına əmindirlər. Qanizonun hərbi hissə komandirləri fərarilərin tapılıb geri qaytarılmasında yerli hakimiyyət orqanlarının süstlüyündən narazı idilər. Belə halın davam etməsi isə digər əsgərlərə də pis təsir edirdi. Diviziya komandiri yazırdı ki, fərarilik hallarının aradan qaldırılması üçün yerli hakimiyyət orqanları hissələri icazəsiz tərk edənləri tapıb geri qaytarmalı və Əsgəran yaxınlığında çayın və şose yolun hər iki tərəfini nəzarət altında saxlayacaq polis postları qoyulmalıdır. Onun fikrincə, fərarilərin əksəriyyəti məhz bu məntəqədən keçib yaşadıqları yerə gedirdilər (47).

1919-cu ilin mart ayının 26-da 2-ci Qarabağ süvari alayının komandiri süvari diviziyası komandirinin adına yazdığı raportda bildirirdi ki, dəfələrlə qəza rəhbərliyinə müraciət edilsə də, fərarilərin yerlərdə saxlanılıb geri qaytarılması üçün təsirli bir addım atılmır. Hətta alay komandiri hər bir fərarinin dəqiq ünvanını da yerli idarə orqanlarına çatdırırdı. Uzun müddət ərzində bir nəfər də olsa fərari saxlanılıb geri qaytarılmamışdı. Belə cəzasızlıq digər hərbi qulluqçulara da pis təsir edirdi və onlar da cəzasız qalacaqlarına əmin olduqlarından hissəni tərk edirdilər (48).

Elə həmin gün Baş Ərkani-hərb rəisinin adına yazdığı raportunda da 2-ci Qarabağ süvari alayının komandiri fərarilərin saxla-

nılıb geri qaytarılmasında yerli hakimiyyət orqanlarının fəaliyyətsizliyindən şikayət edir və bu məmurların cəzalandırılması üçün müvafiq orqanlar qarşısında vəsatət qaldırılmasını xahiş edirdi (49).

Qarabağda yerli orqanların fərarilərin tapılıb geri qaytarılmasına biganə münasibəti Azərbaycan Ordu Livası rəisini də məcbur etdi ki, 1919-cu il aprelin 5-də Qarabağ general-qubernatoruna müraciət etsin. Müraciətdə deyilirdi ki, Qarabağ general-qubernatorluğunda yerli polis əməkdaşlarının fərarilərin tapılması kimi mühüm bir işə münasibəti formaldır və onlara edilən müraciətlərə çox zaman yazılı cavab verməklə görüləcək iş bitmiş hesab olunur. Hər hansı bir nəticənin əldə edilməsi üçün isə təsirli tədbirlər görülmür. Müraciətdə konkret bir misal da göstərilirdi. Fərarilərlə bağlı təqdim edilmiş siyahı bir müddət sonra polis idarəsi tərəfindən geri qaytarılmışdı və bildirilmişdi ki, siyahıda adları çəkilən şəxslər göstərilən ünvanda yaşamadığı üçün onların tapılması mümkünsüzdür. Ordu Livası rəisi bu məlumatı təəccüblə qarşılayırdı və öz təəccübünü Qarabağ general-qubernatoruna da çatdırırdı. O, haqlı olaraq bildirirdi ki, xidmətdən fərarilik edən şəxs axtarıldığını bildiyi halda, şübhəsiz ki, öz ünvanında yaşamaya da bilərdi. Bu şəxslərin çoxu gizlənirdi və onların gizləndikləri yerlərdə tapılması üçün əməliyyat-axtarış tədbirləri həyata keçirilməlidir. Müraciətdə o da əlavə olunurdu ki, polislər bu əməlləri ilə gənc Azərbaycan Ordusunun möhkəmləndirilməsinə can yandırmadıqlarını nümayiş etdirirlər (50).

Sözsüz ki, Qarabağ general-qubernatorluğu belə müraciətlərə qarşı biganə qalmırdı və vilayət ərazisində olan fərarilərin tapılması üçün müəyyən cəhdlər göstərirdi. Ancaq bütünlükdə Qarabağ general-qubernatorluğuna aid olan yerli idarəetmə orqanlarının fərarilərin saxlanılıb geri qaytarılması istiqamətindəki fəaliyyətinin nəticələri Hərbi Nazirliyin rəhbərliyini qane etmirdi. Məsələn, 1919-cu ilin sonuna qədər Qarabağ general-qubernatorluğu üzrə 971 nəfər fərari qeydə alınmışdı. Onlardan 406 nəfəri saxlanılaraq geri qaytarılmış, 565 nəfəri isə tapılmamışdı (51). Bakı quberniyası üzrə isə bu statistika belə idi: ilin sonuna kimi fərarilik edənlərin ümumi sayı 1855 nəfər idi. Onlardan 820-si saxlanılıb geri qaytarılmışdı, 1035-i isə tapılmamışdı (52). Yəni quberniya-

ların hər ikisi üzrə fərarilik edənlərin heç yarısı tapılmamışdı.

Yayın gəlməsi və köçlərin başlaması ilə bəzi hissələrdə fərarilərin sayı da artdı. Hətta hissələrin çoxunda növbətçilərin, müşahidəçilərin, qarovulun gücləndirilməsinə baxmayaraq, fərarilərin qarşısını almaq mümkün olmurdu (53). Bir çox hallarda fərarilik valideynlər və əhalinin müəyyən nümayəndələri tərəfindən də müdafiə olunurdu. Hətta əhali tərəfindən fərarilərin tutulmasına qarşı müqavimət göstərənlər də tapılırdı. Məsələn, 1919-cu il iyun ayının 4-də Xınnalı kəndinə fərariləri saxlamağa gəlmiş 3-cü Şəki süvari alayının praporşiki Mahmud ağa Vəkilov burada silahlı müqavimətlə üzləşmişdi. Həmin kənddə Şəki süvari alayından 3 nəfər fərari gizlənirdi. Praporşik Vəkilov onların ikisini tutmuş və üçüncüsünü təqib etmək üzrə idi. Kəndin digər başında gizlənməyə çalışan fərarini tutmağa yollananda kənd sakinlərindən biri onu silahla qarşılamışdı. Bunu görəndə Vəkilov ona müraciətlə bildirmişdi ki, qaçmış əsgərin arxasınca gəlmişdir. Ancaq silahlı şəxs atəş açaraq onu ölümcül yaralamışdı. Praporşik Vəkilovun həlak olması ilə bağlı əmrində Hərbi nazir S.Mehmandarov bildirirdi ki, ölümcül yaralanmasına baxmayaraq, Vəkilov təmkinini itirməmiş, mənəvi təpər nümayiş etdirmiş, atdan enərək aramla yerə uzanmış və gözlərini yummuşdu. Nazirin sözlərinə görə igid zabit beləcə öz həyatını Vətəninə və xalqına qurban etmişdi (54).

1919-cu ilin yayında ölkədəki hərbi şəraitlə bağlı olaraq partizanların toplanılmasına da başlanmışdı. Bu partizan hissələri və bölmələri zərurət yarandığı halda təcavüzün dəf edilməsinə cəlb edilməli idi. Qarabağ-Zəngəzur bölgəsində yaradılan partizan dəstələrindən birinə Kazım bəy rəhbərlik edirdi. Kazım bəy türk zabiti idi və gizli şəkildə Azərbaycanda qalaraq Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi uğrunda öz mübarizəsini davam etdirirdi. Kazım bəyin dəstəsinə partizanların cəlb edilməsi üçün onlara yüksək maaş veriləcəyi elan edilmişdi. Bu xəbər nizami süvari hissələrinin bəzi süvarilərinə əks-təsir göstərirdi. Onlar yüksək maaş almaq üçün fərarilik edərək sonradan Kazım bəyin dəstəsinə qoşulurdular. 2-ci Qarabağ süvari alayının komandiri polkovnik Tuqanov bu barədə süvari diviziyasının komandirinə

məlumat verməklə müvafiq tədbirlərin həyata keçirilməsini məqsədəuyğun bilirdi.

Mövcud olan məlumatların təhlili göstərir ki, bəzi hissələrin hərbi qulluqçularının həmin hissələrin yerləşdikləri məntəqədən olması da fərariliyin artmasına şərait yaradırdı. Yəni hərbi qulluqçular elə bir çətinlik çəkmədən öz evlərinə gedə bilirdilər. Məsələn, 4-cü Quba piyada alayından olan fərarilərin çoxu elə yerli əsgərlər idi. Bu alayda xidmət edənlər arasında ləzgilər çoxluq təşkil edirdilər. Bu əsgərlərin çoxunun evi alayın yerləşdiyi yerdən cəmi 2–3 verst aralı idi. Onların valideynləri vaxtaşırı görüşə gəlir və onlara bu və ya digər dərəcədə təsir göstərməyə çalışırdılar. Nəticədə, fərariliyin sayı artırdı. Hissə komandanlığı tərəfindən bu fərariliyin qarşısının alınması üçün tədbirlər həyata keçirilsə də, bu bəlanı aradan qaldırmaq mümkün olmurdu. Hissə komandanlığı bir çox fərarilərin valideynlərini və qohumlarını həbs edir və bu yolla onları məcbur edirdi ki, fərariləri geri qaytarsınlar. Bir neçə gündən sonra həbs olunanlar fərariləri gətirməyə söz verdikləri üçün azad edilirdilərsə də, onlar öz sözlərinə əməl etmirdilər. Eyni zamanda, hissənin patrulları və Quba hərbi rəisliyinin əməkdaşları tərəfindən də fərarilərin tapılması üçün cəhdlər göstərilirdi. Tutulan şəxslər hissəyə gətirilir, həbs edilir, mollanın və digər şəxslərin vasitəsi ilə onlarla izahetmə işləri aparılırdı. Beləlıəri bir neçə gündən sonra hissədən qaçmayacaqlarına and içib söz verdikdən sonra həbsdən azad edilirdilər. Bununla belə, onların çoxu yenə də öz vədlərinə əməl etmir və fərarilik edirdilər. Quba piyada alayının komandiri 2-ci piyada diviziyasının komandirinə yazdığı raportunda təcili və qətiyyətli tədbirlərin həyata keçirilməsini xahiş edirdi. O bildirirdi ki, tapılmış fərarilər hauptvaxtda saxlanılır və əgər onlar azadlığa buraxılsa, yenidən fərarilik edəcəklər. Hissə komandiri çıxış yolu kimi ləzgi əsgərlərin Quba qəzasından uzaq olan hərbi hissələrə dəyişdirilməsini məqsədəuyğun bilirdi (55).

Qoşun hissələrindən fərarilik edənlərin müəyyən hissəsi, eləcə də hərbi çağırışdan yayınan bəzi şəxslər ələ keçməmək üçün Gürcüstan ərazisində gizlənirdilər. Güman edirdilər ki, onlar başqa respublikanın ərazisində olduqları üçün geri qaytarıla bilməyə-

cəklər. Ancaq Hərbi Nazirliyin rəhbərliyi bu istiqamətdə də lazımi tədbirlər həyata keçirirdi. Bununla bağlı Hərbi Nazirliyin general-kvartirmeysteri Nazirliyin rəhbərliyi qarşısında fərarilərin geri qaytarılması üçün lazım olan silahlı müşayiətçilərin ayrılması məsələsini qaldırırdı. General-kvartirmeyster təklif edirdi ki, Gürcüstan ərazisində saxlanılan fərarilər Bakıya gətirilsin və onların Bakıya çatdırılması və mühafizəsi üçün Poylu stansiyasına 3 nəfər, Ağstafa stansiyasına 4 nəfər, Yevlax stansiyasına 3 nəfər, Kürdəmir stansiyasına 2 nəfər, Biləcəri stansiyasına 2 nəfər və Xaçmaz stansiyasına 3 nəfər əlavə əsgərlər ayrılsın (56).

1-ci Tatar süvari alayında da oxşar vəziyyət yaranmışdı. Bu hissədə xidmət edən süvarilərin də çoxu ləzgi idi və onlar, əsasən, Qusar ətrafındakı kəndlərdən toplanılırdı. Bir tərəfdən yaşayış kəndlərinin yaxın olması, digər tərəfdən də valideynlərin və qohumların süvarilər arasında ziyanlı təbliğat aparmaları fərariliyə rəvac verirdi. Hissə komandanlığı tərəfindən hissə daxili rejimin daha da sərtləşdirilməsinə göstəriş verilsə də, bu da fərariliyin qarşısını ala bilmirdi. Özü də fərarilik edənlər silahlarını da aparmağa çalışırdılar. Hissə komandiri polkovnik Sofiyevin süvari diviziyasının komandirinə yazdığı raportdan aydın olurdu ki, bəzi süvarilər fərarilik etməzdən əvvəl silah saxlanılan otağın qapısını qırmağa və silah əldə etməyə çalışmışdılar. Yerli polis əməkdaşlarının da son dərəcə fəaliyyətsiz olduqları bir şəraitdə polkovnik Sofiyev yeganə çıxış yolunun hissənin dislokasiya yerinin dəyişdirilməsində görürdü. O, eyni zamanda, təklif edirdi ki, alay yalnız ləzgilərlə komplektləşdirilməsin, alaya azərbaycanlı əsgərlər də verilsin. Süvari diviziyasının komandiri polkovnik Sofiyevin vəsatəti ilə razılaşır və Tatar süvari alayında fərariliyin qarşısının alınması üçün onun Qusardan köçürülməsini və başqa bir alayla əvəzlənməsini məqsədəuyğun bilirdi (57).

Fərariliyin qarşısının alınması üçün xidmət kartlarının tətbiqinə də başlanmışdı. Parlamentin 1919-cu ilin iyun ayında çağırış və səfərbərliyin təşkili ilə bağlı qəbul etdiyi qərarının elan edilməsi ilə bağlı imzaladığı əmrində S.Mehmandarov tələb edirdi ki, fərarilikdə olan əsgərlər haqqında dərhal onların xidmət kartında

qeyd edilsin ki, gələcəkdə həmin qeydlərə əsasən fərarilikdə olmuş əsgərin xidmət müddəti üç ilə çatdırılsın (58).

Xidmət kartlarının tətbiqi də xidmətin təşkilinə gətirilən yeniliklərdən biri idi. Həmin yeniliyin tətbiqinə Parlamentin çağırışla bağlı iyul ayında qəbul etdiyi qərardan sonra başlanmışdı. Bu kartlar əsgərlərin ştat sayı miqdarında tutulmalı və bura əsgərin xidmətindəki bütün yerdəyişmələr, xidməti dəyişikliklər yazılmalı idi. Nazir tələb edirdi ki, kartların işlənməsi üçün xüsusi bir katib ayrılsın. O, eyni zamanda, çağırışçılar üçün hissələrdə ayrıca əlifba kitabının tutulmasını da vacib bilirdi (59).

Qəbul edilən qərarlar və onların həyata keçirilməsi ilə bağlı aparılan işlər bir sıra hissələrdə fərariliyin xeyli səngiməsinə səbəb oldu. Məsələn, 3-cü Gəncə piyada alayından verilən raportda göstərilirdi ki, Hərbi nazirin 14 iyun 1919-cu il tarixli 292 nömrəli əmri Azərbaycan dilinə tərcümə olunub əsgərlərə şərh edildi. Həmin əmr vərəqələrdə çap edilərək kazarmalarda asılmışdı ki, daim əsgərlərin gözləri qarşısında olsun. Bununla bərabər, alay hərbi məhkəmələrinin fəaliyyəti də əsgərlərə xeyli təsir göstərmiş və vəziyyət xeyli yaxşılaşmışdı (60). 1919-cu ilin aprelində bu hissəyə Şuşadan gətirilmiş 36 nəfərlik yeni əsgərlərdən hissədə cəmi 2–3 nəfər qalmışdı. Həmin ilin sonlarına doğru bu hissədən fərarilik, demək olar ki, yox dərəcəsində idi. Hətta fərarilik edənlərdən könüllü surətdə geri qayıdanlar da var idi (61).

3-cü Gəncə piyada alayında 1919-cu ilin iyun ayında fərarilərin sayı 129 nəfər, həmin il noyabr ayının birinci yarısında artıq 44 nəfər idi. 6-cı Göyçay piyada alayında noyabr ayında fərarilərin sayı 77 nəfər, dekabrın əvvəllərində 31 nəfər olmuşdu. 2-ci Zaqatala piyada alayında avqustun 2-ci yarısında fərarilərin sayı 85 nəfər idisə, sentyabrın əvvəlində onların sayı 46 nəfərə enmişdi (62).

Fərariliyin xüsusilə kütləvi hal aldığı Süvari diviziyasında da 1919-cu ilin avqust ayında vəziyyət müəyyən qədər sabitləşmişdi (63).

Bir daha qeyd edilməlidir ki, Cümhuriyyət ordusunun mövcudluğu dövründə hissəni özbaşına tərketmə hallarının tamamilə ləğv edilməsi mümkün olmamışdı. Lakin bu istiqamətdə kifayət

qədər ardıcıl, davamlı və məqsədyönlü fəaliyyət göstərilirdi. Bu da imkan vermişdi ki, fərarilik halları xeyli aşağı salınsın.

### *3. Çağırış və səfərbərlik işinin təşkili*

Cümhuriyyət ordusunun mövcudluğu dövründə Azərbaycan vətəndaşlarının çağırış və səfərbərliyə cəlb edilməsi bu işi təşkil etməli olan strukturların formalaşdırılması ilə bir vaxtda aparılırdı. Qarşısında dayanan vəzifələri lazımınca başa düşən və çevik işləyən müvafiq strukturlar olmadan çağırışı təşkil etmək də mümkün deyildi. Ona görə də Hərbi Nazirliyin bərpasından sonra bu sahəyə ciddi diqqət yetirilməyə başlandı.

Azərbaycanda hələ çar Rusiyası dövründən çağırış işi ilə məşğul olan bəzi strukturlar var idi. Çünki çar Rusiyası dövründə də Azərbaycanda yaşayan rus dilli əhali arasında çağırış aparılırdı. Bu kontingent, əsasən, Bakıda və onun ətrafında yaşadığından çağırışla məşğul olan strukturlar da yalnız bu ərazini əhatə edirdi. Azərbaycanın müstəqilliyinin elan edilməsindən, xüsusən Bakının azad edilməsindən sonra çağırışın aparılacağı əhatə dairəsi kifayət qədər genişləndi və ona görə çağırış və səfərbərliyi aparacaq struktur şəbəkəsinin də genişlənməsinə ehtiyac yarandı.

İlk növbədə Hərbi Nazirlik sistemində çağırış və səfərbərlik işinə nəzarəti həyata keçirəcək Azərbaycan Ordu Livası Rəyasətinin fəaliyyətinin gücləndirilməsinə diqqət artırıldı. Bu struktur, həm də çağırışın təşkili ilə bağlı yerlərdən daxil olan şikayətlərə baxaraq qanunauyğun qərarlar çıxarmalı idi. Bu strukturun rəhbərinin qarşısında rəhbərlik etdiyi strukturun fəaliyyətinin yaxşılaşdırılması üçün təklif və mülahizələrini hazırlamaq vəzifəsi qoyuldu.

Eyni zamanda, çağırış sahəsində Daxili İşlər Nazirliyi ilə qarşılıqlı iş birliyinin yaradılmasına, bu Nazirlik vasitəsi ilə əxzi-əsgər orqanlarının fəaliyyətinə tələbkarlığın artırılmasına lazımi prinsipiallıq nümayiş etdirildi. Hərbi Nazirliyin rəhbərlyi hərbi rəislərin idarələri ilə əxzi-əsgər idarələrinin fəaliyyət həmahəngliyinə nail olmağa çalışırdı. Çünki yalnız bu yolla çağırış və səfərbərlik işinin səmərəliliyini artırmaq olardı.

1919-cu ilin əvvəllərində yerlərdə hərbi rəislərin idarələrinin sayı artırıldı. Sayı 6-ya çatdırılmış həmin idarələr aşağıdakı şəhər və məntəqələrdə yerləşməli idi: 1. Gəncə şəhərində yerləşən hərbi rəis idarəsi. Bu idarənin rəisi podpolkovnik Vəzirov təyin edilmişdi. Həmin idarə Gəncə və Qazax qəzalarını əhatə edirdi; 2. Nuxa şəhərində yerləşən hərbi rəis idarəsinə rotmistr Qabulov başçılıq edirdi. Bu idarəyə Zaqatala dairəsi, Nuxa və Ərəş qəzaları daxil idi; 3. Bərdə şəhərindəki idarənin rəisi podpolkovnik Zilov idi. Bu idarəyə Cavanşir, Qaryagin, Şuşa və Zəngəzur qəzaları aid idi. Bərdədə yerləşən idarə çox böyük ərazini əhatə edirdi və buna görə də bütün ərazilərdə düzgün nəzarətin həyata keçirilməsi xeyli çətin idi. Hərbi Nazirliyin rəhbərliyi nəzərdə tutmuşdu ki, imkan yaranan kimi Şuşada yeni bir hərbi rəis idarəsi yaradılsın və Şuşa ilə Zəngəzur qəzaları bu idarənin əhatə dairəsinə daxil edilsin; 4. Qubada yerləşən idarənin rəisi podpolkovnik Məmmədbəyov idi. Bu idarə Bakı və Quba qəzalarında və Bakı şəhərində çağırışın təşkili ilə məşğul olmalı idi; 5. Salyanda yaradılmış idarənin rəisi polkovnik Brılkin təyin edilmişdi. Bu idarənin fəaliyyət sahəsinə Cavad və Lənkəran qəzaları daxil idi. 6. Göyçayda yerləşən idarə isə Göyçay və Şamaxı qəzalarını əhatə edirdi. Bu idarənin rəisi podpolkovnik Voyçek idi (64).

1919-cu il fevral ayının sonlarına yaxın Bakının mədən rayonlarını əhatə edən bir hərbi rəis idarəsi də yaradıldı və bununla respublikada hərbi rəislərin idarələrinin sayı 7-yə çatdırıldı. Qəza əxzi-əsgər idarələri isə 11 yerdə yaradılmışdı (65).

Bakı quberniyası üzrə də Əxzi-Əsgər İdarəsinin yaradılması nəzərdə tutulmuşdu. Əslində isə bu struktur fəaliyyət göstərmədi və onun vəzifələri respublika Əxzi-Əsgər İdarəsinə həvalə olunmuşdu (66).

İlk vaxtlar bir qəzada yaradılmış Əxzi-Əsgər İdarəsi bir neçə qəzaya xidmət göstərirdi. 1919-cu ilin əvvəllərində Bakı quberniyasında iki qəza Əxzi-Əsgər İdarəsi yaradılmışdı. Birincisi – Bakı qəza Əxzi-Əsgər İdarəsi idi. Bu idarə Bakı şəhərini, Bakı, Lənkəran və Quba qəzalarını əhatə edirdi. İkincisi isə Şamaxı Əxzi-Əsgər İdarəsi idi. Bu idarə Şamaxı, Göyçay və Cavad qəzalarını əhatə edirdi (67).

Bakı quberniyasının iki qəzasında Əxzi-Əsgər İdarəsinin olması, əslində, çar Rusiyası dövrünün təcrübəsinə əsaslanırdı. Quberniyada yaşayan xristian və yəhudi əhalisinin çar Rusiyası ordusuna çağırışını təşkil etmək üçün bu iki idarə kifayət edirdi. 1918-ci ilin erməni qırğınlarından sonra Şamaxıdakı Əxzi-Əsgər İdarəsi də, demək olar ki, tamamilə dağıdılmışdı. Ona görə bu idarənin fəaliyyətinin bərpa edilməsinə də ehtiyac var idi. Qısa müddət ərzində bu idarənin fəaliyyəti də bərpa edildi (68).

Ancaq, sözsüz ki, bu dağınıqlıq çağırış işinin aparılmasına da mənfi təsir göstərirdi. Ona görə Daxili İşlər naziri X.Xasməmmədov 1919-cu il fevralın 12-də Bakı qubernatoruna çağırış işinin təşkili üçün heç olmasa müvəqqəti qəza əxzi-əsgər idarələrinin yaradılması tapşırığını verdi. Daxili İşlər naziri, eyni zamanda, tələb edirdi ki, hansı qəzalarda əxzi-əsgər idarələrinin yaradılmasının zəruri olması barədə Bakı qubernatoru öz təkliflərini versin (69).

Bakı qubernatoru öz təkliflərini hazırlayıb Daxili İşlər Nazirliyinə təqdim etdi. O, ən azı Quba, Göyçay, Lənkəran və Cavad qəzalarında əxzi-əsgər idarələrinin yaradılmasını məsləhət bilirdi. Ancaq o, öz təkliflərini təqdim etməzdən əvvəl Daxili İşlər Nazirliyi Göyçay və Cavad qəzalarında əxzi-əsgər idarələrinin açılması barədə göstəriş vermişdi (70).

Qəza əxzi-əsgər idarələrinin açılması sonradan da davam etdirildi və onların sayı yuxarıda deyildiyi kimi artırıldı. Daxili İşlər Nazirliyi tərəfindən Bakıdakı Mixaylovsk xəstəxanası çağırışçıların tibbi müayinəsinin keçiriləcəyi yer kimi seçildi. Tibbi müayinə ilə bağlı mübahisə doğuran məsələlər burada həll olunmalı idi. Əldə edilmiş razılaşmaya əsasən çağırışçılar burada müayinədən keçirilir və sonra onların maliyyə xərci Daxili İşlər Nazirliyi tərəfindən ödənilirdi (71).

Güman edilirdi ki, adları çəkilən strukturların formalaşdırılması çağırış işinin daha səmərəli təşkilinə də müsbət təsir göstərəcəkdir. İlk növbədə isə bu orqanların və yerli polis orqanlarının vasitəsi ilə seçki siyahılarında mövcud olan nöqsanların aradan qaldırılması qarşıda dayanan başlıca vəzifələrdən biri idi. Çünki, əslində, çağırış işində mövcud olan nöqsanların əksəriyyəti məhz siyahıların düzgün tərtib edilməməsi, çağırış yaşlı vətəndaşların

hamısının bu siyahılara daxil edilməməsi ilə bağlı idi. Çağırışla bağlı sosial narazılıqlar da, əsasən, siyahıların tərtibində sui-istifadə hallarına yol verilməsindən irəli gəlirdi.

Hərbi Nazirliyin rəhbərliyi fəaliyyətə başlamasının ilk günlərindən müvafiq orqanlar qarşısında bütün ciddiyyəti ilə qaldırdığı məsələlərdən biri, heç şübbhəsiz ki, çağırışçı siyahılarının düzgün tərtibinə xüsusi diqqətin yetirilməsi idi. Bu məsələ Daxili İşlər Nazirliyinin məsuliyyət sahəsinə daxil idi və ona görə də bu Nazirliyin yerli orqanlarının fəaliyyətinin yenidən qurulmasına ehtiyac meydana çıxırdı.

Hələ 1918-ci il oktyabrın 24-də Daxili İşlər Nazirliyinin rəhbərliyi Bakı qubernatorundan tələb edirdi ki, çağırışçı siyahıları yenidən yoxlanılsın, bəylərin, mollaların və digər imkanlı şəxslərin hərbi xidmət yaşı çatmış övladlarının siyahıları çıxarılsın və Nazirliyə təqdim olunsun (72). Adları çəkilən şəxslərin övladları xidmətdən imtina edən və ya xidmətdən yayındırılan əsas kontingent idi. Çağırış işində mövcud olan əsas narazılıqlar da məhz həmin kontingentlə bağlı idi.

Həmin il noyabr ayının 2-də Daxili İşlər Nazirliyi Bakı qubernatorunun qarşısında vəzifə qoydu ki, 19–24 yaşları arasında olan vətəndaşların noyabr ayının 15-nə kimi yerli hərbi rəisin yanında xidmətə yararlı olub-olmaması barədə qeydiyyatdan keçməsi təşkil edilsin. Müayinə və qeydiyyata gəlməyənlər xidmətdən yayınanlar kimi dəyərləndirilərək məsuliyyətə cəlb edilməli idilər. Bakı qubernatorundan o da tələb olunurdu ki, müayinənin və qeydiyyatın gedişi barədə hər iki həftədən bir müfəssəl raport təqdim etsin (73).

1918-ci il dekabr ayının 31-də Bakı qubernatoruna yazdığı məktubunda Daxili İşlər nazirinin müavini general-mayor S.Ağabəyov yerli hakimiyyət və polis orqanlarında çalışanların da çağırışçı siyahılarına düşüb-düşməməsinin yoxlanılmasını tapşırdı. Nazir müavinin fikrincə, Azərbaycanın hərbi qüvvələrinin daha tez formalaşması üçün bu işin görülməsi böyük əhəmiyyət kəsb edirdi. Çoxları güman edirdi ki, polis orqanlarında və yerli hakimiyyət orqanlarında işə düzəlməklə hərbi mükəlləfiyyətdən azad olacaqdılar. Bu da xidmətdən yayınmaya gətirib çıxarırdı. Hərbi mükəlləfiyyət üçün əsas tutulan qanunvericiliyə əsasən qə-

za rəisləri, polismeysterlər, pristavlar və onların müavinləri hərbi mükəlləfiyyətdən möhlət ala bilərdilər. Qalan polis və yerli hakimiyyət əməkdaşları belə güzəştə malik deyildilər. Daxili İşlər nazirinin müavini tələb edirdi ki, çağırış yaşı çatmış belə əməkdaşların siyahısı tutulsun və tədricən onların əvəz edilməsi ilə xidmətə çağırılması təmin edilsin (74).

Çağırış işində əvvəllər mövcud olmuş hüquqi bazanın ləğv edilməsi və yenisinin tətbiqi ilə bağlı 1919-cu il fevralın 5-də imzaladığı əmrində Hərbi nazir çağırış işindəki nöqsanların hələ də davam etdiyini təşviş və narahatlıqla qeyd edirdi. Onun başlıca iradı isə məhz yerli idarəetmə orqanları tərəfindən siyahıların düzgün tərtib edilməməsi, bu siyahılarda çağırışçıların hamısının nəzərə alınmaması ilə bağlı idi. Xüsusilə imkanlı təbəqənin övladlarının siyahılara düşməməsi çağırışın da natamam aparılması ilə başa çatırdı. S.Mehmandarovun fikrincə, bəzi yerli idarəetmə orqanları məsuliyyət daşıdıqları ərazidə çağırışın başa çatdırıldığını bildirsələr də, əslində, belə deyildi və imkanlıların yayındırıldığı üçün çağırışın da başa çatmadığını nəzərə çatdırırdı. Nazir tələb edirdi ki, bu siyahılar tərtib edilərkən Azərbaycan hökumətinin müvafiq dekreti rəhbər tutulsun və sosial mənşəyindən asılı olmayaraq 19 yaşından 24 yaşına kimi bütün gənclər çağırışçı siyahısına daxil edilsinlər. S.Mehmandarov təkid edirdi ki, çağırış işinə başlanması ərəfəsində siyahılar bir də yoxlanılsın və dəqiqləşmələr aparılsın. Hərbi rəislər və yerli idarəetmə orqanları müxtəlif yaşayış məntəqələrində çağırışın müxtəlif vaxtda aparılması gününü müəyyən etməli idilər. Bu, Hərbi Nazirliyin rəhbərliyi tərəfindən çağırışın təşkilinə gətirilmiş bir yenilik idi. Əvvəllər çağırış bütün yaşayış məntəqələrində eyni vaxtda aparılırdı. Ona görə bütün məntəqələrdə çağırışın gedişini lazımi nəzarət altında saxlamaq mümkün olmurdu. S.Mehmandarov mövcud tarixi şəraitdə yaşayış məntəqələrində çağırışın eyni vaxtda deyil, müxtəlif vaxtlarda aparılmasını və bu zaman nəzarətin lazımi səviyyədə təşkil edilməsini məqsədəuyğun bilirdi: «Çağırış üzrə işlərin gedişi barədə yerlərdən alınan məlumatlardan aydın olur ki, türk komandanlığı tərəfindən başlanmış yığım sistemsiz və bəzi istisna ilə, əsasən, şəxsi iradə ilə təyin edilmiş türk zabitləri

tərəfindən aparılırdı. Nəticədə, yığım qeyri-bərabər və ədalətsiz olmuş, əhalinin bütün təbəqələri və sinifləri üçün hərbi mükəlləfiyyətin məcburi prinsipi arxa plana keçmişdi. Bundan başqa, çağırış siyahıları da yerli orqanlar tərəfindən heç də düzgün tərtib edilməmişdi, orada çoxlu xətalar var idi. Bəzi qəza rəisləri çağırışın başa çatdığını söyləsələr də, yuxarıda göstərilən səbəblərə görə türklər tərəfindən aparılmış çağırışı icra edilmiş hesab etmək olmaz. Ona görə də dərhal çağırış siyahılarına yenidən baxılsın və onlar yenidən tərtib edilsin. Ora hökumətin dekteri ilə müəyyən edilmiş qaydada çağırış yaşında olan 19 yaşından 24 yaşına kimi bütün gənclər istisnasız olaraq daxil edilməlidirlər. Xüsusi diqqət yetirilməlidir ki, bu siyahıya bəylərin, tacirlərin və imkanlıların da övladları daxil edilsinlər. Çağırışdan əvvəl siyahılar əxzi-əsgər rəisləri tərəfindən yoxlanılmalıdır. Əxzi-əsgər rəisləri əxzi-əsgər idarələrinin nümayəndələri ilə birlikdə çağırış gününü təyin etməlidirlər» (75).

İstər Hərbi Nazirliyin, istərsə də Daxili İşlər Nazirliyinin tələbləri və göstərişləri yerlərdə bu və ya digər dərəcədə nəzərə alınırdı. Məsələn, 1919-cu il fevralın 15-də Qarabağ general-qubernatoru X.Sultanovun sədrliyi altında Şuşada keçirilən qəza rəislərinin iclasında bir sıra digər məsələlər kimi çağırış və səfərbərlik işinin vəziyyəti də müzakirə olundu və bununla bağlı müvafiq qərarlar qəbul edildi. Qəza rəisləri qərara aldılar ki, hər bir kənddə əhali arasında nüfuz və hörmətə malik olan adamlardan ibarət xüsusi komissiyalar təşkil edilsin, çağırışçıların siyahılarının tərtib edilməsi və toplanılması bu komissiyalara tapşırılsın. Siyahıları sahə pristavları əhaliyə elan etməli və ona riayət olunmasına nəzarət etməli idilər. İclas görüləcək işlər barədə Hərbi Nazirliyə məlumat verilməsini lazım bildi və qəza rəislərinə tapşırdı ki, uşaqlarını xidmətə göndərmək istəməyən imkanlı adamlar qanun qarşısında məsuliyyət daşıdıqları və bu qanuna əsasən cinayət məsuliyyətinə cəlb ediləcəkləri barədə xəbərdar olsunlar (76).

Lakin elə Hərbi Nazirliyin yazışmalarından aydın olur ki, həm Qarabağda, həm də digər quberniya və qəzalarda çağırış işindəki

çatışmazlıqlar qalmaqda davam edirdi. Hərbi nazir S.Mehmandarovun 1919-cu il mart ayının 17-də Gəncə qubernatoru general-mayor İ.Vəkilova ünvanladığı məktubu da çağırış işində hələ də ciddi nöqsanların qaldığını nümayiş etdirirdi. Nazir təəssüflə qeyd edirdi ki, Gəncə quberniyasında qəza əxzi-əsgər idarələrinin fəaliyyətə başlamasından üç ay keçsə də, çağırış yaşı çatanların Azərbaycan Ordusunda xidmətə cəlb edilməsi çox zəif gedir. Ordunun təşkili məsələlərinə belə səhlənkarcasına yanaşılmasında S.Mehmandarov başlıca olaraq şəhər və qəza polis əməkdaşlarını günahlandırırdı. Məhz onların biganəliyi, dövlət tapşırıqlarının icrasına diqqət yetirməmələri çağırış işində ciddi bir dəyişiklik yaratmamışdı. 1919-cu ilin əvvəllərində çağırışçı siyahılarının yenidən tərtib edilməsi barədə yerli orqanlara sərəncam göndərilsə də, Gəncə quberniyasına aid olan polis orqanları bu işi kənd komissiyalarının üzvlərinə, kənd məqamlarına tapşırmışdı. Hərbi nazirin fikrincə, beləlbegri isə tapşırılan vəzifələrə məsuliyyətlə yanaşmamış, onlar şəxsi maraqlarını dövlət maraqlarından üstün tutmuş və nəticədə qəsdən çağırışçı siyahılarında yayındırmalara yol verilmişdir. S.Mehmandarov onu da qeyd edirdi ki, bəzi quberniyalarda yerli idarəetmə və polis orqanları hətta tabeliyində olduqları Daxili İşlər nazirinin göstərişlərini də yerinə yetirmirdilər. Nümunə kimi o, Şuşa və Qaryagin qəzalarının hakimiyyət orqanlarını göstərirdi. Hərbi nazirin məktubunun yazıldığı vaxta kimi bu qəzalarda hətta çağırışçı siyahıları da tərtib edilməmişdi. Bir sıra başqa qəzalarda isə siyahılar tərtib edilsə də, həmin siyahılarda ciddi nöqsanlar var idi. Bu siyahılara ya çağırış yaşı ötmüş şəxslər, ya da çağırış yaşı çatmamış şəxslər daxil edilirdilər. Nazirin sözlərinə görə Gəncə şəhərində və qəzasında 120 min kişi yaşayırdı. Güman edilirdi ki, çağırışa cəlb edilən 6 yaş çərçivəsində (19–24 yaş) bu əhalinin ən azı 10 faizi xidmətə cəlb edilməli idi. Müəyyən güzəştlərə malik olan şəxslər də nəzərə alınmaqla gözlənilirdi ki, ən azı bu ərazidən 8–10 min nəfər çağırışçı xidmətə cəlb ediləcəkdir. Həqiqətdə isə Gəncə şəhərindən və qəzasından cəmi 1800 nəfər xidmətə cəlb edilmişdi (77). Bu isə kişi əhalisinin ümumi sayının 1,5 faizini təşkil edirdi.

S.Mehmandarova görə, savadsız yerli əhali çağırışın müstəqil

dövlətin formalaşması və möhkəmləndirilməsi üçün hansı əhəmiyyətə malik olduğunu heç də lazımi səviyyədə qiymətləndirə bilmirdi. Belə olan halda yerli idarəetmə orqanlarının və polis əməkdaşları vətəndaşlıq mövqeyi nümayiş etdirərək əhali arasında təbliğat və izahetmə işləri aparmalı olduqları halda heç bir fəallıq nümayiş etdirmir, çağırışdan yayınanları tapıb xidmətə cəlb etmirdilər. Yerli əhali də bu orqanların fəaliyyətsizliyindən sui-istifadə edirdi. Məsələn, bəzi məntəqələrdə tərtib olunmuş siyahıya əsasən xidmətə yararlı olanlar ya tapılmır, ya da xəstə olurdular. Adları siyahıda olub, xidmətə yararlı olmayanlar isə hamısı heç bir narahatlıq keçirmədən çağırışa gəlirdilər. Çünki onlar bilirdilər ki, ilk müayinədən sonra xidmətə yararsız kimi geri qaytarılacaqlar. Bəzi yerlərdə isə mollalar hərbi mükəlləfiyyətə qarşı əks-təbliğat aparırdılar. Gəncə qəzasının Qırxlı kəndində molla yalan məlumatlar verməklə çağırış aparanları aldatmağa çalışmışdı. S.Mehmandarov Gəncə qubernatorundan xahiş edirdi ki, göstərilən nöqsanların aradan qaldırılması üçün təcili və qətiyyətli tədbirlər həyata keçirsin. Bu məsələyə F.Xoyski də öz münasibətini bildirmişdi. Onun S.Mehmandarovun Gəncə qubernatoruna yazdığı məktubuna qoyduğu dərkənarda deyilirdi: «Mən güman edirəm ki, orduya yeni əsgərlərin yığılması dövlət həyatının ən başlıca məsələsidir. Ona görə də bu işə məsuliyyətsiz və ötəri münasibət göstərən polis çinləri ciddi qanuni məsuliyyətə cəlb edilməli və bağışlanılmadan xidmətdən azad edilməlidirlər» (78).

Quba qəzasında da çağırış işinin təşkilində mollaların səhlənkarlığının işə çətinliklər yaratdığı aydın olmuşdu. 1919-cu ilin ilk aylarında burada çağırışçı siyahıları əvvəllər mövcud olmuş formalar əsasında aparılırdı. Bu formalar əvvəla lazımi tələblərə cavab vermirdi, digər tərəfdən də onların tərtibində mollalar daha çox iştirak edirdilər. Bu isə yenə də siyahıların ciddi qüsurlarla tərtibinə yol açırdı. Eyni zamanda, məlum olmuşdu ki, çağırış yaşı çatmış gənclərin böyük bir hissəsinin adı çağırışçı siyahısına düşməmişdir. Çağırışçıların bir çoxunun təqdim etdiyi doğum şəhadətnaməsi isə reallığa cavab vermirdi (79).

Çağırışla bağlı saxtakarlıqlarda molların əli olmasından Cavad qəzasının rəisi də şikayət edirdi. Onun sözlərinə görə xidmətdən

yayınmaq istəyənlər Cavad qəzasında da var idi. Beləlari öz niyyətlərinə yetmək üçün çox hallarda mollalara üz tuturdular. Mollalar da müəyyən ödənclərin əvəzində doğum kitablarında saxtakarlıq edir, köhnə qeydləri pozur, çağırış yaşı çatmış şəxslərin yaşını ya az, ya da çox göstərirdilər. Bəzən doğum kitablarına yeni əlavələr edirdilər. 1919-cu ilin əvvəlində Cavad qəzasında bir neçə belə fakt aşkar edilmişdi. Aşkar olunan bu faktlar dəqiqləşdirilmək üçün quberniya Əxzi-Əsgər İdarəsinə göndərilmişdi. Doğum kitablarında adları olmayanlar və ya sadəcə olaraq doğum tarixini gizlətməyə çalışanlar yerli qazılara müraciət edirdilər. Yerli qazılar da müraciət edənlərin yaş həddini qonşuların, tanışların, kənd sakinlərinin ifadələri əsasında müəyyən edirdilər. Şahid kimi çağırılanlar da yalan ifadə verirdilər və çağırış yaşı çatmışların yaşlarının saxtalaşdırılmasına vasitəçilik edirdilər. Bu da öz növbəsində çağırışın aparılması üçün əlavə çətinliklər yaradırdı (80).

Bir sıra qəzalarda hərbi rəislərin də öz fəaliyyətlərini düzgün təşkil edə bilməməsi haqqında məlumatlar alınırdı. Hələ hərbi rəisliklərin formalaşdığı vaxtlarda Hərbi nazir S.Mehmandarov onların qarşısında ciddi vəzifə qoymuşdu ki, hər bir çağırış sahəsi üzrə çağırışçı siyahılarının hazırlanıb Ümumi qərargaha təqdim olunması ilə məşğul olsunlar. Bu siyahılarda çağırış yaşı çatanların məşğuliyyəti və hansı təbəqəyə mənsubluğu göstərilməli idi. Hərbi rəislərdən, eyni zamanda, tələb olunurdu ki, əxzi-əsgər idarələri tərəfindən xidmətə çağırılanların siyahısını da hazırlayıb Nazirliyə təqdim etsinlər. Çağırılanlarla bağlı da məşğuliyyət və hansı təbəqəyə mənsubluq göstərilməli idi. S.Mehmandarov bildirirdi ki, hərbi rəislər adları çəkilən siyahıların və digər siyahıların düzgün tərtib edilib Nazirliyə təqdim edilməsinə görə mənim qarşımda məsuliyyət daşıyırlar. Yerli məmurların və kənd komissiyalarının çağırışla bağlı hər bir qanunsuz işi barədə də hərbi rəislər Hərbi nazirə məruzə etməli idilər. Nazirin sözlərinə görə bəzi yerlərdə hətta hərbi rəislərin də qanunsuz yerə çağırışçıların xidmətdən azad edilməsində əli olmaları barədə söhbətlər gəzirdi. Bununla bağlı o, respublika Ordu Livası Rəyasətindən tələb edirdi ki, belə halları araşdırsın və vəzifəsinə məsuliyyətsizcəsinə yanaşan hərbi rəislər vəzifələrindən kənarlaşdırılsınlar (81).

Konkret olaraq Cavad qəzasında da yerli məmurların, mollaların və digər şəxslərin çağırış işində müəyyən səhlənkarlıqlara yol verməsi ilə bərabər, hərbi rəis polkovnik Brılkinin əliəyrilikləri barədə də müəyyən söz-söhbətlər gəzməkdə idi. Bu xəbərlər Hərbi nazir S.Mehmandarova da çatmışdı. Bununla əlaqədar o, Daxili İşlər nazirindən xahiş etdi ki, haqqında söhbət gəzən məsələnin araşdırılmasına göstəriş versin və onun doğru olduğu halda günahkarlar cəzalandırılsın. Hərbi rəislə bağlı deyilənlərin doğru olduğu halda isə Hərbi Nazirlik tərəfindən məsələnin yoxlanılması üçün müstəntiq göndərilməli idi. Bir müddət sonra Cavad qəzasının rəisi istər yerli çinlərin, istərsə də polkovnik Brılkinin çağırış işi ilə bağlı qanunu pozmadığını bildirdi. Ancaq görünür bu məlumat Hərbi naziri qane etməmişdi. Çünki istər hərbi rəisin, istərsə də yerli çinlərin çağırış işinə birtərəfli yanaşmaları haqqında söhbətlərin arası kəsilmirdi. Belə olanda Hərbi nazir bu dəfə Bakı qubernatorundan məsələnin aydınlaşdırılmasına kömək göstərməsini xahiş etdi. Bakı qubernatoru dərhal bu xahişə əməli münasibət göstərdi və qubernatorluğun xüsusi tapşırıqlar üzrə çinovniki podpolkovnik Qalvini qaldırılan məsələni yoxlamaq üçün Cavad qəzasına ezam etdi (82).

Podpolkovnik Qalvin Cavad qəzasında çağırış işinin təşkilini, bu qəzada çağırışın nəticələrinin aşağı olmasının səbəblərini araşdırmış və sonra da Bakı qubernatoruna müfəssəl bir raport təqdim etmişdi. Araşdırmalar zamanı məsul şəxslərin sui-istifadə hallarına yol verməsi barədə o, ciddi nöqsanlara rast gəlməmişdi. Salyanda olduğu üç gün ərzirndə şəhərdə, əhalinin gur olduğu bazarda çağırışla bağlı şikayətlərin qəbulu haqqında elanlar da vurulmuşdu. Bununla belə, əhali tərəfindən şikayətlə bağlı kimsə ona müraciət etməmişdi. Çağırışın aşağı olmasının səbəblərini isə Qalvin aşağıdakı səbəblərlə izah edirdi: 1) hər şeydən əvvəl çağırışçı siyahıları son dərəcə nöqsanlı şəkildə tərtib edilmişdi. Bu siyahılar da kənd komissiyaları tərəfindən hazırlanmışdı. Siyahılarda ya yaş həddi düzgün göstərilməmiş, ya da çağırışçıların ailə vəziyyətinin ağır olması və bununla möhlət almaları üçün qeyri-doğru məlumatlar daxil edilmişdi. Çağırışda da çox vaxt xarici və fiziki göstəricilərə yox, mollalar tərəfindən tərtib edilmiş do-

ğum siyahılarına əsaslanılırdı; 2) bir çox hallarda bəylərin, xanların, mollaların və digər imkanlı şəxslərin övladları çağırışçı siyahılarına daxil edilməmişdilər; 3) çağırışın aparıldığı vaxtlarda çağırış yaşına çatanların çoxu İrana, Lənkəran qəzasına və Bakıya gedir və bu yolla çağırışdan gizlənirdilər; 4) Salyan şəhəri üzrə çağırışçı siyahısı ümumiyyətlə hazırlanmamışdı. Çünki şəhər idarəsi hələ formalaşmamışdı; 5) qəzadakı köçərilər çağırışdan qurtulmaq üçün vaxtından əvvəl Şuşa və Zəngəzura doğru köç etmişdilər. Qəzanın əhalisinin bir hissəsi isə Kür və Araz çaylarının daşmasının qarşısını almaq üçün bəndvurma işlərində iştirak edirdilər; 6) ilk çağırış vaxtı Muğan sahəsinin əhalisi övladlarının xidmətə getməsinə qəti etiraz edirdilər. Onlar bildirirdilər ki, Şahsevən tayfaları vaxtaşırı sərhədi keçərək əhaliyə hücum edir, mal-qaranı və əhalinin var-yoxunu özləri ilə aparırdılar. Bunlardan qorunmaq üçün onlar xidmət yaşı çatanları kənddə saxlamağa çalışırdılar; 7) nəhayət kənd pristavlarının çox tez-tez dəyişməsi üzündən çağırışçı siyahıları da çox pis vəziyyətdə idi (83).

Cavad qəzasının hərbi rəisi haqqında söylənilənlər öz təsdiqini tapmasa da, Hərbi nazir S.Mehmandarov, ümumiyyətlə, hərbi rəislərin çağırışın təşkili istiqamətindəki fəaliyyətlərindən razı deyildi. 1919-cu ilin birinci yarısında çağırışın təşkilində ciddi bir dönüş yaratmaq mümkün olmamışdı. Vəziyyətin belə olmasında başqa səbəblərlə yanaşı, Hərbi nazir hərbi rəislərin qətiyyətsizliyini çağırışın daha səmərəli təşkilinə mane olan amillərdən biri kimi qiymətləndirirdi. 1919-cu ilin mayında o bildirirdi ki, hərbi rəislər onlara həvalə olunmuş vəzifələri tamamilə dərk etmirlər. Hərbi nazir dəfələrlə göstəriş vermiş, sərəncamlar imzalamışdı ki, hərbi rəislər yerlərdə çağırışçı siyahılarının tərtibinin düzgünlüyünə nəzarət etsinlər. Bu siyahılarda nöqsanların aşkarlanacağı təqdirdə isə onlar yerli məmurlardan tələb etməli idilər ki, siyahılara yenidən baxılsın. Eyni zamanda, onlar siyahıların nöqsanlı şəkildə tərtib edilməsinin günahkarlarını da müəyyənləşdirərək onlar barəsində respublika Ordu Livası Rəyasətinə məruzə etməli idilər. Onlar isə bunu etmirdilər. Hərbi nazir təəccüblə bildirirdi ki, hərbi rəislər çağırışçı siyahılarının necə tərtib olunmasını da yerli məmurlara, kənd komissiyalarının üzvlərinə izah etmir, onla-

rın Vətən qarşısındakı məsuliyyətini anlatmırlar. S.Mehmandarovun fikrincə, hərbi rəislər çox vaxt onların məsuliyyət sahəsinə aid olmayan məsələlərlə məşğul olurdular. Bu da onları əsas fəaliyyət sahələrindən yayındırırdı. Hərbi nazir bir daha vurğulayırdı ki, hərbi rəislərin vəzifəsi çağırışın aparılmasının düzgünlüyünü nəzarət altında saxlamaq və əxzi-əsgər idarələrindən xidmətə cəlb edilmiş kontingenti qəbul etmək idi. Hərbi rəislər isə çox zaman vaxtlarını ayrı-ayrı adamlara sərf edir, qeyri-rəsmi şəkildə kimlərin necə xidmətdən azad edilə bilməsi məsələlərinin müzakirəsi ilə məşğul olurdular. S.Mehmandarov qətiyyətlə bildirirdi ki, hərbi rəislər belə praktikaya son qoymalıdırlar (84).

Göstərilən bütün tələbkarlığa, nümayiş etdirilən ardıcıllığa baxmayaraq, çağırışçı siyahılarının tərtibində nöqsanlara yol verilməsi uzun müddət qalmaqda davam edirdi. 1919-cu ilin sonlarında Azərbaycan Ordu Livası Rəyasətinin sədri polkovnik Seyfulinin Bakı qubernatoruna göndərdiyi məktubunda yenə də qəza məmurlarının çağırışçı siyahılarının hazırlanmasına son dərəcə biganə yanaşmalarından şikayətlənirdi. Şikayətə səbəb olan məsələ ondan ibarət idi ki, qəza məmurları istər çağırışçı siyahılarının hazırlanmasına, istərsə də bütünlükdə çağırışın aparılmasına son dərəcə biganə yanaşır və ona maraq göstərmirdilər. Qəza məqamlarının diqqət göstərmədiyi çağırış kimi mürəkəb bir məsələnin isə özbaşına icra ediləcəyini gözləmək düzgün olmazdı. Bəzi qəzalarda bu biganəlik halları o dərəcəyə çatmışdı ki, hətta qəzaların hərbi rəisləri tərəfindən qeydlərə də əhəmiyyət verilmir və belə qeydlər hərbi rəislərin qəza məmurlarının işinə qarışması kimi qiymətləndirilirdi. Polkovnik Seyfulinin fikrincə, qəza məmurları ilə hərbi rəislərin arasında olan fikir anlaşılmazlığı son nəhayətdə çağırışın uğurla aparılmasına mənfi təsir göstərirdi. O, Hərbi nazirin adından Bakı qubernatorundan xahiş edirdi ki, çağırış kimi dövlət əhəmiyyətli bir işin düzgün icrası üçün qəza məmurlarına bir daha göstəriş versin və onlar da çağırışın təşkili ilə bağlı hərbi rəislərin tələblərini vaxtında, gecikdirmədən yerinə yetirsinlər (85).

Polkovnik Seyfulin öz məktubunda konkret olaraq Quba qəzasında belə anlaşılmazlığın olduğunu göstərirdi. Məktubu alan kimi Bakı qubernatoru dərhal Quba qəza rəisindən izahat istədi.

Quba qəza rəisi isə çağırış işindəki çətinliklərin bölgədə epidemiya yayılması və çağırış işini aparmalı olacaq savadlı və rus dilini bilən adamların çatışmaması ilə izah etdi (86).

Mövcud olan belə nöqsanlar və bir sıra obyektiv çətinliklər isə öz növbəsində çağırış işinin təşkilinə əks-təsir göstərirdi. Mövcud olan məlumatların təhlili də göstərirdi ki, bu səbəblər üzündən müəyyən vaxtlarda çağırış işinin gedişi Hərbi Nazirliyin rəhbərliyində və müvafiq məqamlarda haqlı təşviş və narahatlıq doğururdu. 1918-ci ilin noyabrının əvvəllərində Daxili İşlər nazirinin Bakı qubernatoruna göndərdiyi məktubunda da bu narahatlığı görmək mumkündür. Çünki mükəlləfiyyət üçün yararlı olan 19–24 yaşlı gənclərin müəyyən hissəsi xidmətə cəlb edilməmişdi. O bildirirdi ki, bu və digər səbəblər üzündən xidmətə cəlb edilməyən gənclər noyabr ayının 15-nə kimi yerli hərbi rəislərin yanında müayinə və qeydiyyatdan keçməlidirlər. Həmin vaxta kimi qeydiyyatdan keçməyənlər xidmətdən yayınanlar kimi qiymətləndirilməli və onlar polislər tərəfindən saxlanılmalı idilər. Daxili İşlər naziri tələb edirdi ki, bir tərəfdən əhali arasında izahat işləri aparılsın, digər tərəfdən də polis əməkdaşlarına ciddi tapşırıq verilsin ki, noyabrın 1-dən sonra çağırış yaşı çatanların saxlanılmasında qətiyyətli addımlar atsınlar (87).

Çağırış işinin lazımi səviyyədə təşkil edilməməsində Hərbi Nazirliyin rəhbərliyi bolşevizmin əhaliyə təsirini də istisna etmirdi. Ölkədə kifayət qədər imkanlara malik olan bolşevik təşkilatları və onların fəalları yerlərdə, əhali arasında təbliğat apararaq hər vasitə ilə çağırış yaşı çatmışları Cümhuriyyət ordusunda xidmətdən yayındırmağa çalışırdılar. Hətta bolşevik təşkilatlarının Bakıda olan mərkəzi orqanlarının nümayəndələri də öz ziyanlı təbliğatlarını aparmaq üçün yerlərə yollanırdılar. Belə «səfərlərin» biri barəsində Hərbi nazir S.Mehmandarov Daxili İşlər nazirinə də məlumat vermişdi. Həmin məlumata əsasən, bolşevik təşkilatlarının rəhbərlərindən bir neçəsi Şuşada səfərdə olarkən gənclərin Cümhuriyyət ordusunda xidməti əleyhinə təbliğat aparmış və bundan sonra, Şuşa qəzasında çağırışın səviyyəsi xeyli aşağı düşmüşdü. Bununla bağlı Daxili İşlər naziri Qarabağ general-qubernatorundan belə təbliğatın qarşısının alınmasını və lazım

gələrsə, bu bolşeviklərin saxlanılması üçün qətiyyətli tədbirlərin həyata keçirilməsini tələb etdi (88).

Hərbi nazir S.Mehmandarovun hərbi xidmətə çağırışın gedişi barədə Daxili İşlər naziri N.Usubbəyliyə 1919-cu il aprelin 15-də göndərdiyi raportunda da bolşevizmin əhali arasında ziyanlı təbliğatına toxunulmuşdu. Nazir bildirirdi ki, vətəndaşların xidmətə cəlb edilməsinə ciddi münasibət göstəriləcəyi halda 19–24 yaşlarında olan gənclərin çağırışı ordunun canlı qüvvəyə olan ehtiyacını ödəyəcəkdir. S.Mehmandarovun yazdıqlarına görə çağırış işinin uğurla getməsinə bəylərin, tacirlərin övladlarının xidmətdən yayınması mane olurdu. Vətənin müdafiəsinin çətinliklərini bölüşmək istəməyən imkanlı təbəqələrin çağırış işinə qarşı belə münasibəti sadə xalq kütlələrinin narazılığı ilə qarşılanır və bu narazılıq Qazax və Gəncə qəzalarında hətta kütləvi etirazlara gətirib çıxarırdı. Bu narazılıqlardan bolşeviklərin öz maraqları üçün istifadə edə biləcəyindən Hərbi nazir çox ehtiyatlanırdı. Onun qeydlərinə görə bolşeviklər artıq bu vəziyyətdən istifadə edir, burjuaziyanın hərbi xidmətdən yayındığı və onların əziyyətlərinin də zəhmətkeş sinif üzərinə düşməsi barədə təbliğat aparılırdı. S.Mehmandarov əlavə edirdi ki, əgər lazımi göstərişlər verilməsə və Daxili İşlər Nazirliyi tərəfindən müvafiq kömək göstərilməsə, onda Hərbi Nazirlik çağırış kimi ümumdövlət əhəmiyyətli işin öhdəsindən təkbaşına gələ bilməz: «Yalnız hər iki strukturun birgə və dostcasına fəaliyyəti nəticəsində hərbi xidmətin icrası üçün əhali arasında çağırışın aparılması və Azərbaycan Respublikasının şərəfinin və müstəqilliyinin dayağı olan ordunun yaradılması işinin müvəffəqiyyəti mümkündür» (89).

Ancaq çağırış işinin təşkilinə mane olan subyektiv amillər arasında yerli məmurların və məsul şəxslərin biganəliyi, işə laqeydliyi, bəzənsə şəxsi maraqları ümumdövlət maraqlarından üstün tutması daha çox narahatlıq doğururdu. Ona görə də istər Hərbi Nazirlik tərəfindən, istərsə də Daxili İşlər Nazirliyi tərəfindən bu məsələyə daha çox diqqət yetirilirdi.

1919-cu il may ayının 10-da göndərdiyi məktubunda Daxili İşlər naziri Bakı qubernatoruna bildirirdi ki, əxzi-əsgər idarələrində vətəndaşların hərbi mükəlləfiyyətin icrasına cəlb edilməsində

sui-istifadə hallarına yol verilməkdədir. O tələb edirdi ki, belə sui-istifadə hallarının müəyyənləşdirilməsi, onların aradan qaldırılması və qanunçuluğun bərpa edilməsi üçün səmərəli tədbirlər həyata keçirilsin. Nazir onu da tələb edirdi ki, belə şəxslər cinayət məsuliyyətinə cəlb edilməli və həmin halların təkrarlanmasının qarşısı alınmalıdır. O bildirirdi ki, yaxın vaxtlarda şəxsən quberniyalarda vəziyyətlə tanış olacaq və vətəndaşların mükəlləfiyyətdən azad edilməsi hallarına rast gəldikdə təkcə birbaşa məsul olan şəxslər deyil, eyni zamanda, quberniyanın məsul şəxsləri də cəzalandırılacaqdır (90).

Həmin ayın 19-da Daxili İşlər naziri çağırış işinin yarıtmaz təşkili ilə yenidən Bakı qubernatoruna məktub göndərdi. Çağırış işinin ümumi vəziyyətindən razı qalmayan nazir bildirirdi ki, çağırış məntəqələrinə daha çox xidmətə qəbul edilməsi qeyri- mümkün olan şəxslər gəlirlər. Xidmətə yararlı şəxslər isə çağırış məntəqələrinə gəlmirdilər. Nazirin müşahidələrinə görə çağırış yaşı çatanların müayinəsi və qeydiyyatı aparılanda Bakının kənd əhalisi böyük ruh yüksəkliyi ilə, hətta musiqinin müşayiəti ilə müvafiq məntəqələrə gəlirdilər. Ancaq bunu şəhər əhalisi haqqında söyləmək çətin idi. Çağırış başlanan günü şəhər əhalisindən yaxşı halda 2–3 nəfər gəlirdi. Daxili İşlər naziri ordunun ən yaxın vaxtlarda formalaşdırılmasını ümumdövlət əhəmiyyətli bir vəzifə sayırdı və çağırışda bu nöqsanların davam etməsinin yolverilməz olduğunu bildirirdi. Başlıcası isə şəhər əhalisi arasında çağırış işindəki nöqsanların aradan qaldırılmasına diqqət yönəldilirdi. Çünki şəhər əhalisinin xidmətdən yayınması ümumdövlət əhəmiyyətli işin icrasına mane olmaqla bərabər, kənd əhalisi arasında da xoşagəlməz bir ovqat yaradırdı (91).

Bir sıra məntəqələrdə adı çağırış siyahısında olan gənclər çağırış məntəqəsinə gətirilirdilər. Ancaq qeydiyyatdan keçdikdən sonra onlar öz qohumları ilə əvəz edilirdilər. Adətən, belə çağırışçılar ya böyük qardaşla, ya da səhhəti normal olmayan bir nəfərlə əvəz edilirdi ki, hissədə o, xidmətə yararsız sayılıb geri qaytarılsın. Çağırışçının əvəz edilməsi isə çox vaxt hissələrə aparılarkən yolda baş verirdi. Belə hallara yol verilməməsi üçün Hərbi nazir tələb edirdi ki, əxzi-əsgər idarələrində həkim komissiyasından keçər-

kən bütün çağırışçıların adlarının qarşısında onların fiziki ölçüləri yazılsın və hissədə qəbul edilərkən çağırışçılar həmin fiziki ölçülərə görə yoxlanılsınlar (92).

Çağırış işinin icrası ilə bağlı yerli hakimiyyət orqanlarının, xüsusilə cavabdeh polislərin fəaliyyətindəki səhlənkarlıq da aradan qaldırılmamışdı. Hərbi Nazirliyin rəhbərliyi bu məsələ ilə bağlı bir neçə dəfə Daxili İşlər Nazirliyi qarşısında məsələ qaldırmışdı. Yerlərdə mövcud olan bürokratizm, qanunsuzluq halları, əxzi-əsgər idarələrində də özünü göstərirdi. Bu orqanın fəaliyyətinin yaxşılaşdırılması üçün 1919-cu ilin iyun ayının elə ilk günlərində Bakının hərbi rəisi podpolkovnik Sədrəddin Mirzə Qacar Bakı və Balaxanı-Sabunçu polis rəislərinə müraciət etmək məcburiyyətində qalmışdı. Sədrəddin Mirzə Qacar polis rəislərindən xahiş edirdi ki, çağırış işində mövcud olan nöqsanların aradan qaldırılması üçün aşağıdakı məsələlərə diqqət gücləndirilsin: 1) çağırışla məşğul olan bütün polis işçiləri daim diqqət altında saxlanılsın; 2) pristavlara tapşırılsın ki, çağırış günləri hörmətli və nüfuzlu adamlar tərəfindən tərtib edilmiş siyahılar üzrə çağırışçıların toplanılması istiqamətində polis nəfərlərinin fəaliyyətinə şəxsən rəhbərlik etsinlər; 3) çağırış siyahılarını tərtib edən komissiyalara övladları hərbi xidmətdə olan nüfuzlu şəxslər daxil edilsin; 4) çağırışçını çağırışdan gizlədən bütün şəxslər sosial mövqeyindən asılı olmayaraq dərhal həbs edilsinlər və gizlətdikləri çağırışçı xidmətə çağırılan günədək həbsdə saxlanılsınlar. Pristavlar tələb etsinlər ki, həbs olunanların siyahısı iki nüsxədə tərtib olunsun, onlardan biri Əxzi-Əsgər İdarəsinin rəisinə təhvil verilsin; 5) əhaliyə elan edilsin ki, çağırış günü çağırış yaşı çatmış olan gənclər adları çağırışçıların siyahısına daxil edilib-edilməməsindən asılı olmayaraq çağırış məntəqələrinə gətirilməlidirlər. Çağırışçını gizlədənlər isə həbs ediləcəklər; 6) siyahıları tərtib edən şəxslərə çatdırılsın ki, adları siyahıya düşməyənlər üçün əlavə siyahılar tərtib edilsin və əxzi-əsgər idarələrinə təqdim edilsin. Bu adamlar xəbərdar edilsin ki, kiminsə adı siyahıya düşməsə, onlar məsuliyyət daşıyırlar və çağırışçıları gizlətdiklərinə görə onlar istintaqa cəlb olunacaqlar; 7) pristavlara tapşırılsın ki, onlar əlavə siyahıların tərtibini nəzarət altına götürsünlər, xəfiyyələr vasitəsi ilə top-

lanılan məlumatlar əsasında həmin siyahıların doğruluğu yoxlanılsın; 8) pristavlar xəbərdar edilsin ki, gənclərin yaşının çağırış yaşına uyğun gəlib-gəlməməsi şübhə doğursa, onların adları siyahıya salınsın ki, bu məsələ əxzi-əsgər idarələrində həkim komissiyası tərəfindən müəyyənləşdirilsin; 9) pristavlara göstəriş verilsin ki, Hərbi nazirin əmrinə əsasən iyun ayının 1-nə kimi bu və ya digər səbəblərə görə çağırışdan möhlət almış şəxslər də yoxlanılmaq üçün əxzi-əsgər idarələrinə çağırılsınlar; 10) çağırış siyahılarını tərtib edən komissiya üzvlərinə bildirilsin ki, pristavlarla bərabər onlar da çağırış günü əxzi-əsgər idarələrinə gəlsinlər (93).

Lakin bu israrlı tələblər yerli orqanların fəaliyyətində ciddi dəyişikliklərin yaranmasına səbəb olmadı. 1919-cu ilin ortalarında isə respublikada hərbi şərait mürəkkəbləşməkdə idi. Bir tərəfdən Denikin təhlükəsi, Lənkəran bölgəsinin respublikanın nəzarətindən kənarda olması, digər tərəfdən də erməni təcavüzünün genişlənməsi ordunun gücləndirilməsini tələb edirdi. Güclü ordu olmadan bu təhlükələrin qarşısını almaq mümkün deyildi. Ümumi qərargahın rəisi general-mayor H.Səlimov da 1919-cu ilin may ayında Bakı qubernatoruna yazdığı məktubunda bu məqamları ona xatırladırdı. O, Hərbi nazirin adından təkidlə xahiş edirdi ki, çağırışın gücləndirilməsi ilə qoşunların formalaşdırılmasına kömək göstərsin. Onun sözlərinə görə qoşunlara yeni çağırışçılar daxil olmasa, Hərbi Nazirlik ona həvalə olunmuş vəzifləri yerinə yetirə bilməyəcək və yaranmış vəziyyətə görə məsuliyyət də daşımayacaqdır (94).

Vəziyyət elə mürəkkəb hal almışdı ki, bir neçə gündən sonra eyni xahişlə Hərbi nazir S.Mehmandarov özü də Daxili İşlər nazirinə müraciət etdi. Nazir yazırdı: «Vəziyyətin qeyri-adi, vaxtın isə mühüm olması ilə əlaqədar Sizin vətənpərvərliyinizə müraciət edirəm və qoşun hissələrinin ştata uyğun komplektləşdirilməsi üçün çağırışın gücləndirilməsi haqqında təcili sərəncamlar verməyinizi xahiş edirəm» (95). Daxili İşlər naziri bu məktuba yazdığı dərkənarında təcili tədbirlər görülməsini qeyd edirdi. Bu tədbirlər arasında fərarilərin və xidmətdən yayınanların valideynlərinin həbsi də nəzərdə tutulmuşdu.

S.Mehmandarovun məktubundan bir neçə gün sonra Daxili İşlər naziri qubernatorlara bir də müraciət etdi və çağırış işinin

yaxşılaşdırılması ilə bağlı onların qarşısında ciddi tələblər qoydu. Onun sözlərinə görə qəzaların bir çoxunda 1918-ci ilin payızında Azərbaycan hökuməti tərəfindən qəbul edilmiş, 1919-cu ilin əvvəlində isə ləğv edilmiş mükəlləfiyyət haqqında müvəqqəti qaydalara əsaslanırdılar. Bu isə çağırışın lazımi səviyyədə aparılmasına mane olurdu. Həmin qaydalar əsasında çağırılanların da çoxu fiziki keyfiyyətlərinə görə xidmətin tələblərinə cavab vermirdi. Ona görə də belələri xidmət yerinə çatan kimi geri qaytarılırdılar. Daxili İşlər naziri verilən ciddi tapşırıqlara baxmayaraq, bəzi qəza məqamlarının hələ də köhnə sənədlərə əsaslanmasından təəssüfləndiyini bildirir və gələcəkdə yalnız yeni qüvvədə olan sənədlərə əsaslamağı tələb edirdi (96).

İrəli sürülən bu tələblər, görülən müəyyən işlər istər-istəməz bu və ya digər dərəcədə çağırışın gedişinə də az-çox təsir göstərirdi. Hətta birbaşa hissələrə gələrək xidmətə könüllü yazılanlar da var idi. Ancaq Hərbi nazir tələb edirdi ki, Praporşiklər məktəbindən başqa heç bir hissənin könüllüləri qəbul etmək səlahiyyəti yoxdur. Xidmətə gələnlər mütləq əxzi-əsgər idarələrinin qeydiyyatından keçməli və onlar tərəfindən hissələrə göndərilməli idilər (97).

Xidmətə cəlb olunanların əxzi-əsgər idarələrində xüsusi forma üzrə qeydiyyatı aparılır və sonra işlənmiş olan həmin formaların bir nüsxəsi hərbi hissələrə təqdim edilirdi. Bu formalar aşağıdakı kimi idi:

| Sıra №-si | Çağırışçının adı, atasının adı və familiyası (burada onun yaşı da göstərilirdi) | 1. Savadı 2. Məşğuliyyəti 3. Ailə vəziyyəti | Yaşayış yeri | Çağırış məntəqəsinə gəldiyi vaxt | Qeyd |
|---|---|---|---|---|---|
| | | | | | |

Gətirilən çağırışçılar hissədə həmin formalı siyahı üzrə qəbul edildikdən sonra məlumatlar xüsusi kitablara yazılırdı. Həmin kitabların forması aşağıdakı kimi idi (98):

| Çağırış məntəqəsinin nömrəsi | 1. Xidmətə çağırılanların adı və familiyası 2. Hansı sosial | Xidmətə nə vaxt çağırılıb | Təvəllüdü | Boyu | Hansı xidmətə qadirdir (burada çağırışçının bütün nöqsanları və | 1. Məzhəbi 2. Ailə vəziyyəti, uşaqlarının sayı, |
|---|---|---|---|---|---|---|
| | | İl, ay, gün | İl, ay, gün | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | təbəqəyə mənsub olması haqqında məlumat | | | | bədən çatışmazlıqları göstərilməli idi) | atasının məzhəbi |
| | | | | | | |

Məlumatların qıtlığı bütün ilboyu aparılan çağırış prosesinin bütöv mənzərəsini təsəvvür etməyə imkan vermir. Ancaq 1919-cu il avqust ayının 15-də əsas döyüş hissələrinin komplektləşdirmə mənzərəsi aşağıdakı kimi idi (99):

| **Hissələrin adı** | **Ştat üzrə** | **Siyahı üzrə** | **Mövcud** | **Faizlə miqdarı** |
|---|---|---|---|---|
| 1-ci Cavanşir piyada alayı | 2481 | 2435 | 1591 | 64,2 |
| 2-ci Zaqatala piyada alayı | 2481 | 1851 | 1114 | 44,9 |
| 3-cü Gəncə piyada alayı | 2481 | 1806 | 1105 | 44,5 |

1919-cu il avqustun 15-də 1-ci Tatar süvari alayında 645, 2-ci Qarabağ süvari alayında 529, 3-cü Şəki süvari alayında 568 əsgər və çavuş var idi (100). Nəzərə alınsa ki, 1-ci Tatar süvari alayının ştatında 803 nizami əsgər və çavuş var idi (101), onda görmək çətin deyil ki, süvari alaylarında ştatın yarıdan çoxu mövcud idi. Bu rəqəmlər daim dəyişirdi. Məsələn, 1-ci Cavanşir piyada alayında 1919-cu il sentyabrın 5-də əsgər və çavuşların mövcud sayı 1703 nəfər, 2-ci Zaqatala piyada alayında isə 1342 nəfər idi (102).

1919-cu ilin avqustun 15-də 1-ci topçu briqadasının 1-ci divizionunda ştatla 482 nəfər əsgər və çavuşa qarşı 342 nəfər, 2-ci divizionda isə 402 nəfərə qarşı 285 nəfər mövcud idi (103). Yəni 1-ci topçu briqadası əsgər və çavuşlarla təxminən 70 faiz komplektləşdirilmişdi.

Bununla belə, çağırışın ümumi səviyyəsi Hərbi naziri qane etmirdi. 1919-cu ilin oktyabr ayında o, Daxili İşlər nazirinin adına yazdığı məktubunda bildirirdi: "Çox böyük təəssüflə qeyd edirəm ki, maliyyə məsələlərindən başqa bütün məsələlərdə mənə yalnız sözdə kömək edirlər. Artıq beş aydır ki, mən ordunun komplektləşdirilməsi, təchizatı və səfərbərlik üzrə bir sıra məsələlər qaldırmışam, lakin onların heç biri öz həllini tapmamışdır" (104). Nazir qeyd edirdi ki, Mərkəzi Əxzi-Əsgər İdarəsinin Əsasnaməsinin hazırlanması, partizanların siyahısının tutulması, atların mü-

kəlləfiyyəti, əhalinin müdafiə işlərinə cəlb edilməsi qaydaları ilə bağlı olan həmin məsələlər Dövlət Müdafiə Komitəsinin iclaslarında da qaldırılmış, lakin heç biri haqqında lazımi qərar qəbul edilməmişdir. Nazirə görə, çağırış işinin uğuru qəza rəislərinin vicdanına bağlı idi. Hansı qəza rəisi ki, bu işə vicdanla yanaşırdı, orada vəziyyət də yaxşı idi. Məktubda Şamaxı qəzasının rəisi Zülqədərovun bu sahədə səmərəli fəaliyyəti xüsusilə qeyd olunurdu. Şamaxıdan 1800 nəfər, Kürdəmir sahəsindən isə 930 nəfər çağırışçı xidmətə cəlb olunmuşdu. Nazir göstərirdi ki, 80000 əhalisi olan Bakı şəhəri 5000 çağırışçı vermək əvəzinə cəmi 800 nəfər çağırışçı toplamışdı. Qarabağ general-qubernatorluğu 7200 nəfər əvəzinə cəmi 1902 nəfər çağırışçı vermişdi (105).

Mövcud mürəkkəb tarixi şərait üzündən çağırış kampaniyasını konkret zaman kəsiyində aparmaq mümkün olmadı. Yəni nəzərdə tutulmuş vaxt ərzində qoşun hissələrinin formalaşdırılması üçün lazımi sayda çağırışçılar toplamaq mümkün olmadı. Belə olanda çağırış kampaniyasını ilboyu aparmaq lazım gəldi. Bu bir tərəfdən çağırışla məşğul olan hərbi orqanları və Daxili İşlər Nazirliyinin orqanlarını mütəmadi olaraq gərginlik içində saxlayırdı, digər tərəfdən də yeni əsgərlərlə normal hərbi hazırlıq aparmağı çətinləşirdi. Çünki hər gələn yeni əsgərlə yeni proqram başlamaq lazım gəlirdi.

Çağırışla məşğul olan orqanların Hərbi Nazirliyin rəhbərliyi qarşısında qaldırdığı başqa bir məsələ isə ondan ibarət idi ki, yeni əsgərlərin kiçik partiyalarla hərbi hissələrə göndərilməsi daha çox sayda müşayiətçilərin olmasını tələb edirdi. Bunun üçün nəzərdə tutulmuş ştat az idi və əslində, çağırış kampaniyasının özünəməxsusluğu onların sayının artırılmasını tələb edirdi. Ona görə hərbi hissələrdən əlavə qüvvələrin alınması zərurəti yaranırdı. Təklif olunurdu ki, hərbi hissələri bu əlavə yükdən azad etmək üçün hərbi rəisliklərin yanında könüllülərdən ibarət yerli komandalar yaradılsın. Əlavə xərclərə yol verilməməsi üçün hərbi rəisliklərin təxliyə hissəsi rəisi bu komandaların rəhbəri də ola bilərdi. Təklif olunurdu ki, Bakı, Gəncə, Şuşa və Nuxa hərbi rəisliklərində bir bölük həcmində, Quba, Göyçay, Lənkəran qəzalarında isə yarım bölük həcmində yerli komanda yaradılsın. Bu böl-

mələrdə, eyni zamanda, nizami dərslərin aparılması üçün bir kadr zabitinin təyin olunması da məqsədəuyğun bilinirdi. Təklif Nazirliyin Hərbi Şurasında baxılmış və təsdiq olumuşdu (106).

Yuxarıda qeyd edilmişdi ki, bir sıra kateqoriyadan olan şəxslərə hüquqi əsasda çağırışdan möhlət verilmişdi. Bununla bərabər, bir sıra şəxslər də bu və ya digər səbəblər üzündən onlara möhlət verilməsini xahiş edirdilər. Məsələn, Şamaxı qəzasının Nəvai kəndindən müvəkkil edilmiş Hacı Şirəli Hacı Mürsəlqulu oğlu və Hacı Ağamirzə Kərbəlayi Abbas oğlu kənd camaatı adından Bakı qubernatoruna müraciət edərək kənddəki çağırış yaşı çatmış şəxslərə çağırışdan 5 ay möhlət verilməsini xahiş etmişdilər. Həmin şəxslər bu möhləti aşağıdakı səbəblə izah edirdilər: 1918-ci ilin mart ayında ermənilər tərəfindən Bakıda törədilən qırğınlardan Nəvai kəndi də ciddi ziyanlar görmüşdü. Belə ki, Bakıdan sonra ermənilər ətraf məntəqələrdə azərbaycanlı əhalinin qırğınlarını davam etdirdilər. Bir neçə gündən sonra erməni-daşnak qüvvələri Nəvai kəndinə hücum etdilər və əhalini qılıncdan keçirdilər. Qocalara, qadınlara və gənclərə rəhm edilmədi. Çağırış yaşında olanların da bir hissəsi öldürüldü, bir hissəsi isə kənddən qaçmaq məcburiyyətində qaldı. Nəvai xaraba bir vəziyyətə salındı. Əhali arasında aclıq başlandı, tif xəstəliyi yayıldı. Yerli sakinlər ümid edirdi ki, 1919-cu ilin məhsulunu toplamaqla onların vəziyyətini bir qədər yaxşılaşdırmaq olar. Bu məhsulu toplamaq üçün isə işçi qüvvəsinə ehtiyac var idi. Gənclərin xidmətə çağırılacağı halda yetişmiş məhsulun tolanacağı şübhə doğururdu. Kənd ağsaqqalları bildirirdilər ki, biz hamılıqla əzizimiz olan Vətənimizi qorumağa borcluyuq və orduda xidmət etmk bizim hər birimizin müqəddəs borcudur. Ancaq kənd sakinləri xahiş edirdilər ki, Nəvai vətəndaşlarının çağırışa cəlb edilməsi məhsul toplanışı mövsümünün sonuna kimi təxirə salınsın (107).

Bakının Bülbülə kəndindən isə Pərvaz Muxtar qızı qubernatordan xahiş edirdi ki, xidmətə çağırılmış iki oğlundan birini geri qaytarsınlar ki, ailəyə köməyi dəysin. Bakı qubernatoru bu kimi xahişlərin cavabında bildirirdi ki, çağırış hərbi orqanlar tərəfindən aparılır və kimlərə möhlətin verilməsi də həmin orqanlar tərəfindən müəyyənləşdirilir. Ona görə də hərbi orqanlara

müraciət edilməsi məsləhət bilinirdi (108).

Sənədlərin olmaması üzündən konkret olaraq bu xahişlərlə bağlı hansı qərarın qəbul edildiyini söyləmək çətindir. Ancaq çox güman ki, qoşun hissələrinin fomalaşdırılması və güclənən xarici təcavüzlərin qarşısının alınması üçün gərgin işlər görüldüyü bir vaxtda hüquqi əsasda nəzərdə tutulmamış möhlətlərin verilməsi qeyri-mümkün idi. Bunu general-mayor H.Səlimovun Cavad qəzasının əhalisinə verdiyi bir cavabdan da aydın görmək mümkündür. Bu qəzanın əhalisi Hərbi Nazirliyə müraciət etmişdi ki, Şahsevən tayfalarının qarətçi yürüşlərinin qarşısının alınması üçün çağırış yaşı çatmış yerli cavanlara çağırışdan möhlət verilsin. Çünki həmin cavanlar da əhalinin qarətçi yürüşlərdən qorunmasında iştirak edirdilər. Hərbi Nazirliyin rəhbərliyi isə bunu mümkün saymırdı. Bildirilirdi ki, əgər ordunun formalaşdırılmasına başlandığı gündən əhali bu işdə fəal iştirak etsəydi, qoşun hissələri formalaşardı və onların vasitəsi ilə əhalini də müxtəlif qarətçi yürüşlərdən qorumaq mümkün olardı. Cavad qəzasının rəisinə cavabında general-mayor H.Səlimov qeyd edirdi ki, ordunun tezliklə formalaşdırılması sorağında olan Hərbi nazir S.Mehmandarov qəza vətəndaşlarına çağırışdan möhlət verilməsini mümkün saymır (109).

1919-cu ilin yayında şimal sərhədi boyunca Denikin təcavüzü təhlükəsinin artması hökuməti əlavə müdafiə tədbirləri görməyə məcbur edirdi. Bu tədbirlərdən biri də ordunun kifayət qədər formalaşmadığı bir zamanda partizan qüvvələrinin təşkili və onların ölkənin müdafiəsinə cəlb edilməsi idi. Həmin qüvvələr sərhəd bölgələrində qoşun hissələri ilə birlikdə ölkənin müdafiəsinin gücləndirilməsində iştirak etməli idilər. 1919-cu ilin payızında partizan dəstələrinin təşkili istiqamətində görülən işlər kifayət qədər fəallaşdı. Ancaq bu işin aparılması da çətinliklərlə müşayiət olunurdu. Həmin çətinliklər çağırış və səfərbərlik işində mövcud olan çatışmazlıqlardan irəli gəlirdi. Burada da müəyyən sui-istifadə hallarına yol verilirdi. Konkret tarixi şərait isə səmərəli və təsirli yolların axtarılıb tapılmasını tələb edirdi.

Çağırış və səfərbərlik işlərini aparmağa məsul olan yerli orqanların fəaliyyətinə tələbkarlığı gücləndirməklə bərabər, hökumət partizan dəstələrinin təşkili ilə bağlı xüsusi çağırış hazırlayıb əhali

arasında yaymağa başladı. Bundan başqa, yerlərdə hörmət və nüfuz sahibi olan insanların gücündən və imkanlarından istifadə edilməsinə diqqət artırıldı. Məsələn, Biləsuvar sahəsi üzrə nüfuzlu şəxslərin siyahısı müəyyənləşdirilmişdi və həmin şəxslərə partizan dəstələrinin yaradılması ilə bağlı hökumət çağırışının əhali arasında yayılması, partizan dəstələri üçün könüllülərin, at və arabaların toplanılması üçün konkret tapşırıqlar verilmişdi. Quba və Qusarda bir sıra nüfuzlu və hörmətli şəxslər özləri partizanların toplanılması üçün köməklərini təklif etmiş və onların təklifi hökumət tərəfindən alqışlanmışdı. Qubadan Əbdülrəhim əfəndi 1000 nəfər, Molla Hacıbaba 1000 nəfər, Yusif əfəndi 500 nəfər, Qusardan Osman Mustafa oğlu 300 nəfər və s. gətirməyə söz vermişdi. Siyahıda adları olan nüfuzlu şəxslər bütünlükdə 5981 nəfər adamı partizan dəstələrinə gətirməyə söz vermişdilər (110).

Göstərilən rəqəm kifayət qədər böyük bir rəqəmdir. Ona görə onun icra edildiyi müəyyən şübhə doğurur. Bu barədə məlumatlar mövcud olmasa da, sonradan müvafiq orqanların partizan dəstələrinin formalaşdırılması üçün narahatlıqlar keçirməsi də həmin prosesin müəyyən çətinliklərlə aparıldığını nümayiş etdirir.

Partizanların toplanılması və bütünlükdə səfərbərliyin aparılmasının təşkili ilə bağlı hökumət tərəfindən 1919-cu il iyulun 18–23-ü arasında geniş müşavirə keçirildi. Bu müşavirə zamanı əvvəlcə Hərbi nazirin patizanların toplanılması ilə bağlı 1919-cu il iyul ayının 11-də hökumət sədrinə ünvanladığı məktub müzakirə olundu. Həmin məktubda yaranmış vəziyyətlə əlaqədar ölkə üzrə səfərbərliyin keçirilməsi və partizan dəstələrinin formalaşdırılmasının zəruriliyi əsaslandırılırdı. Bundan başqa, adı çəkilən müşavirədə yerli hakimiyyət orqanları nümayəndələrinin iştirakı ilə əhalinin ümumi siyahıyaalınması, atlar, arabalar, yəhərlər və başqa qoşqu əşyaları haqqında məlumatların toplanılması, səfərbərliyin aparılması ilə bağlı qəza rəislərinin və kənd məqamlarının təlimatlandırılması, partizan dəstələrinin toplanılması üçün Gəncə, Bakı, Zaqatala quberniyalarına, Qarabağ general-qubernatorluğuna və Bakı şəhərinə normaların müəyyənləşdirilməsi, sərhəd mühafizə qüvvələrinin hərbi əməliyyatlara cəlb edilməsi, səfərbərlik və döyüş əməliyyatları zamanı əhalinin döyüş mövqe-

lərinin möhkəmləndirilməsinə, yolların tikilməsinə cəlb edilməsi məsələləri müzakirə edilmişdi. Ancaq müşavirədə müzakirə olunan bu məsələlər öz icrasını elə də asanlıqla tapmadı. Həmin ilin oktyabr ayının sonuna olan yazışmalardan aydın olur ki, respublikanın mürəkkəb şəraitdə olmasına baxmayaraq, üç ay ərzində müşavirədə müzakirə olunan məsələlər üzrə lazımi nəticə əldə edilməmişdir. Baş Ərkani-hərb rəisi də təəssüflə Bakı qubernatoruna bildirirdi ki, respublikanın ağır dövründə son dərəcə mühüm sayılan məsələlər öz həllini tapmamışdır. Buna görə də həmin məsələləri Dövlət Müdafiə Komitəsinin müzakirəsinə çıxarmaq planlaşdırılırdı (111).

1919-cu ilin noyabrında Zəngəzura qoşun dəstələri göndərmək ərəfəsində Hərbi Nazirliyin rəhbərliyi Ermənistanın Qazax və Gədəbəylə həmsərhəd xəttinin möhkəmləndirilməsinə diqqəti artırdı. Çünki Zəngəzurda döyüşlərin başlaması ilə erməni hərbi qüvvələrinin bu istiqamətdən hücuma keçə bilməsi ehtimal edilirdi. Bu istiqamətdə görülə biləcək işlərin mərkəzində isə, əsasən, səfərbərlik işlərinin aparılması və partizan dəstələrinin formalaşdırılması dayanırdı. Hərbi Nazirliyin rəhbərliyi ilk növbədə Qazax, Gədəbəy və Öküzlü ərazilərinin kəşfiyyatının aparılması üçün ora zabitlərdən ibarət kəşfiyyatçı qrupunun göndərilməsini planlaşdırırdı. Bu kəşfiyyat qrupu yerli idarəetmə orqanları ilə birlikdə məntəqələrin hansı müddətdə və nə qədər sayda piyada və atlı partizanlar vermək imkanını müəyyənləşdirməli idi. Partizan dəstələrinin toplanılması Gədəbəydə, Qazaxda və Öküzlüdə aparılmalı idi. Eyni zamanda, müəyyənləşdirilməli idi ki, partizan dəstələrinin hansı strukturlar əsasında formalaşdırılması yerli şərait üçün daha məqsədəuyğundur. Partizanların hansı silahlarla silahlandıqları da öyrənilməli idi. Bu da mühüm idi. Çünki Hərbi Nazirlik yerlərdə hansı silahlar üçün patronların lazım olduğunu bilməli və buna uyğun tədarük işləri aparmalı idi. Kəşfiyyat qrupu adı çəkilən rayonlarda hansı telefon və teleqraf əlaqələrinin olmasını, partizanların toplanılması haqqında sərəncamların hansı qaydada ötürüləcəyini də aydınlaşdırmalı idi. Bundan başqa, Ermənistanla sərhəd xəttinin müşahidəsinin aparılması, bu müşahidələrin nəticələrinin Gəncə qarnizonu rəisinə çatdırılması, sərhəd

xəttində fövqəladə hadisə baş verəcəyi halda partizan dəstələrinə nizami qoşun hissələri ilə kömək göstərilməsinin hansı zaman ərzində mümkün olması məsələlərinə də diqqət yetirilməli idi.

Baş Ərkani-hərb rəisi general-leytenant M.Sulkeviç Gəncə qarnizonu rəisinə göndərdiyi məktubunda ondan tələb edirdi ki, yuxarıda sadalanan məsələlərin həlli ilə bağlı öz mülahizələrini yazıb ona təqdim etsin. Gəncə qarnizonu rəisi konkret olaraq aşağıdakı məsələlərlə bağlı öz münasibətini açıqlamalı idi:

– partizanların struktur forması kimi bölük, tabor və alay formalarının hansının daha məqsədəuyğun olmasının müəyyənləşdirilməsi;

– partizanların fəaliyyətinə rəhbərlik forması: onların diviziyalar arasında bölüşdürülməsi, yoxsa ayrıca bölmələrdə birləşdirilməsi;

– partizanların toplanış qaydası və sürəti;

– partizanların sınaq toplanışlarının zəruri olub-olmaması. Zəruri olduğu təqdirdə onun necə, ildə neçə dəfə və harada keçirilməsi (112).

Qarnizon rəisinin diqqətinə çatdırılırdı ki, partizanlar bölmələrə bölündükləri gündən əsgər sayılmaqla müharibə dövrünün qanunlarına uyğun məsuliyyət daşıyırlar. Fərarilik və əmrlərə etinasızlıq göstərdikləri halda onlar cəzalandırılmalı idilər.

Baş Ərkani-hərb rəisi, əslində, özü də səfərbərliyə cəlb edilən partizanların sınaq toplanışlarının keçirilməsini vacib sayırdı. Çünki bu sınaqlar zamanı partizanların və atların səhhəti, silahların vəziyyəti, geyim əşyaları, atların təchizat əşyaları, patronların sayı, bölmələrin siyahı üzrə tərkibi, bölmə komandirlərinin öz vəzifələrini necə bilmələri, səfərbərliyin keçirilməsinin və düşmən mövqelərinə hücum üçün toplanışın keçirilməsinin gizliliyinin qorunması ilə bağlı vəzifələri necə başa düşmələri, dəmir yolu körpülərinin partladılması yolları yoxlanılmalı idi. Sınaq toplanışları yerli vəsaitlər hesabına həyata keçirilməli idi. General-leytenant M.Sulkeviç Gəncə qarnizonu rəisinin diqqətinə onu da çatdırırdı ki, sadaladıqları görülməli olan işlərin təxmini proqramıdır. Zərurət yarandığı halda yerli şəraitə uyğun olaraq bu proqrama əlavələr edilə bilərdi. Baş Ərkani-hərb rəisi onu da məs-

ləhət bilirdi ki, bu proqramın həyata keçirilməsinə yerli idarəetmə orqanlarının əməkdaşlarından başqa əhali arasında hörmət və nüfuz SAhibi olan şəxslər də cəlb edilsinlər. Çünki onların məsləhətləri və təklifləri də səfərbərliyin aparılması üçün faydalı ola bilərdi (113).

Ancaq Azərbaycanın sərhədlərinə təcavüz ehtimalı yalnız Qazax-Gədəbəy bölgəsində deyil, digər yerlərdə də olduğu üçün Baş Ərkani-hərb rəisi, eyni zamanda, Xankəndi, Zaqatala qarnizonlarının rəislərinə, Xazmaz dəstəsinin rəisinə, Bakı istehkamat hissəsinin rəisinə, Qarabağ və Qazax general-qubernatorlarına, Bakı və Zaqatala qubernatorlarına məktub göndərərək oxşar tapşırıqların onlar tərəfindən də icra olunmasının və nəzarət altında saxlanılmasının vacibliyini vurğuladı (114).

Mövcud olan sənədlərdən belə güman etmək olar ki, bu yazılanlardan və deyilənlərdən sonra da quberniya və qəzalarda partizanların toplanılması işində hər hansı bir fəallıq müşahidə edilməmişdi. Çünki 1919-cu il noyabr ayının 17-də Hərbi Nazirliyin rəhbərliyi Dövlət Müdafiə Komitəsinin sədrinə müraciət edərək Bakı quberniyasında tezliklə partizan dəstələrinin toplanılmasına başlanması üçün göstəriş verməsini xahiş etdi. Bu müraciətdən bir neçə gün sonra, yəni noyabr ayının 20-də Bakı qubernatoru Quba qəza rəisinə dəmir yolu xətti ətrafında olan kəndlərdə və yaşayış məntəqələrində toplana biləcək partizanların siyahısının tərtib edilməsini tapşırdı. Siyahılar hazırlanan kimi dərhal qubernatora təqdim edilməli və eyni zamanda, partizanlara izah edilməli idi ki, onlar çağırış işarəsi alan kimi müəyyənləşdirilmiş yerlərdə toplaşsınlar. Onlara, həm də izah edilməli idi ki, sərhəd xəttinin qorunması hər bir vətəndaşın müqəddəs vəzifəsidir və bu işə biganə yanaşanlar cinayət məsuliyyətinə cəlb edilə bilərlər (115).

Partizanların toplanılması və səfərbərlik yolu ilə işçi qüvvəsinin hərbi təyinatlı vəzifələrin icrasına cəlb edilməsi məsələsi Dövlət Müdafiə Komitəsinin 1919-cu il noyabr ayının 20-də və 21-də keçirilən iclaslarının müzakirəsinə də çıxarıldı. Ayın 20-ə olan iclas səfərbərlik yolu ilə işçi qüvvəsinin cəlb edilməsi ilə bağlı idi. Bu məsələ ilə bağlı Hərbi nazir məruzə etdi. O bildirdi ki, Denikin qüvvələri ölkənin daxilinə təcavüz etdiyi halda

Xaçmaz stansiyasına kimi dəmir yolu xəttinin sökülməsinə ehtiyac vardır. Dövlət Müdafiə Komitəsi bununla razılaşdı və Quba qəza rəisinə tapşırdı ki, xarici təcavüzün baş verəcəyi halda Yalamadan Xaçmaza kimi dəmir yolu xəttinin sökülməsi üçün lazımi miqdarda işçi qüvvəsinin verilməsini təmin etsin. Noyabr ayının 21-də isə partizanların toplanılması məsələsi Dövlət Müdafiə Komitəsində müzakirə olundu. Bu məsələ ilə əlaqədar da iclasda Hərbi nazir məruzə etdi. Müzakirələrdən sonra qərara alındı ki, partizanların toplanılması məsələsinin dövlət əhəmiyyətli bir tədbir olması bir daha bütün qubernatorların və general-qubernatorların diqqətinə çatdırılsın və onlardan tələb edilsin ki, görülmüş işlər barədə vaxtaşırı Dövlət Müdafiə Komitəsinə məlumat versinlər (116).

Hərbi Nazirliyin rəhbərliyi təkcə partizanların toplanılmasını deyil, həm də onlarla sınaq toplanışlarının aparılmasını vacib sayırdı. Belə tədbirlərin keçirilməsi isə sözsüz ki, müəyyən təşkilati işlərin aparılmasını, müəyyən maliyyə vəsaitlərinin xərclənməsini tələb edirdi. Ona görə S.Mehmandarov noyabr ayının sonlarında Dövlət Müdafiə Komitəsinin sədri qarşısında müvafiq vəsatət qaldırdı. Vəsatətdə də bildirilirdi ki, partizan işinin daha möhkəm əsaslar üzərinə qoyulması üçün sınaq toplanışlarının keçirilməsinə ehtiyac vardır. Nazirin sözünə görə silah daşımağı bacaran kişi əhali üçün sınaq toplanışları Hərbi Nazirliyin və Daxili İşlər Nazirliyinin razılaşdırdığı vaxtlarda keçirilməlidir. Elə həmin Nazirliklərin razılaşdırması əsasında bu toplanışların 3 gündən artıq olmaması məqsədəuyğun sayılırdı. Toplanışın vaxtı, harada keçirilməsi və ona nə qədər sayda adamın cəlb edilməsi isə yenə qarşılıqlı şəkildə nizamlanmalı idi. Sınaq toplanışlarında Hərbi Nazirliyin nümayəndəsi də iştirak etməli idi. Bu nümayəndə aşağıdakı məsələləri aydınlaşdırmalı idi: a) «Səfərbərlik haqqında Təlimata» uyğun olaraq partizanların toplanılması barəsində işarənin hansı sürətlə yerlərə çatdırılması; b) toplanış məntəqəsinə yetişmə sürəti; c) dəstə tərkibin sayının, insanların və atların səhhətinin vəziyyətinin, silahların, geyimin, təchizatın, süvari təchizatının vəziyyətinin, patronlarının miqdarının yoxlanılması; ç) adamların və atların toplanış məntəqəsinə gəlməsindən sonra onların ərzaqla təminatı barədə mülahizə və təkliflər. Bu zaman nəzərə

alınmalı idi ki, partizanlar bölüyə gələn günün sabahı ərzaqla dövlət hesabına təmin edilməyə başlanmalı idilər. Çağırışın aparıldığı gün isə partizanlar özlərini və atlarını ərzaq və yemlə təmin etməli idilər. Partizan dəstələrinə rəhbərliyin kadr zabitlərinə tapşırılması qərara alınmışdı. Nəzərdə tutulmuşdu ki, sınaq toplanışları zamanı da məhz həmin zabitlər toplanış məntəqələrinə ezam edilsinlər. Qəza rəisləri və pristavlar isə toplanış məntəqələrində həmin zabitlərə mümkün köməklikləri göstərməli idilər. Eyni zamanda, əhali arasında müəyyən izahetmə işləri də aparılmalı idi. Çünki toplanışı əhali atların və silahların toplanılması və müsadirə edilməsi kimi də başa düşə bilərdi. Buna yol verilməməsi üçün Hərbi nazir lazım bilirdi ki, bütünlükdə tədbirin elə əhalinin təhlükəsizliyinin təmin edilməsinə yönəldildiyinin onlara izah edilməsi işləri toplanışa hazırlıq və onun icrası ilə bir vaxtda aparılsın (117).

Partizanların toplanış məntəqələrinə gəlməsinin fəallaşdırılması və onların çəkəcəyi xərcin azaldılması üçün Dövlət Müdafiə Komitəsi qərara aldı ki, toplanış məntəqələrinə gələn gün də partizanlara dövlət hesabına nahar yeməyi verilsin (118). Sonrakı günlərin xərci isə yuxarıda deyildiyi kimi dövlət xəzinəsi hesabına ödənilməli idi.

Dövlət Müdafiə Komitəsi sınaq toplanışlarının keçirilməsinə icazə verəndən sonra onun icrası qaydaları daha da konkretləşdirildi. Mərkəzi Əxzi-Əsgər İdarəsinin hazırladığı və Hərbi nazir tərəfindən bəyənilən qaydalarda göstərilirdi ki, sınaq toplanışlarının keçirilməsinə ümumi rəhbərlik yerli hakimiyyət orqanları kimi Bakı, Qarabağ və Qazax general-qubernatorlarına, Gəncə və Zaqatala qubernatorlarına və Lənkəran müvəkkilinə həvalə olunur. Toplanışlar hər qəzanın polis sahələri üzrə aparılmalı idi. Toplanışlar keçirilən zaman qəza rəisi və Hərbi Nazirlikdən ezam olunmuş zabit də toplanış məntəqəsinə gəlməli idilər. Ona görə qəza rəisi əvvəlcədən toplanışların keçirilməsi cədvəlini tutmalı və hansı marşrut üzrə hərəkət edəcəklərini dəqiqləşdirməli idi. Onun tərəfindən hazırlanan cədvəl yerli pristavlara göndərilməli idi ki, onlar nə vaxt toplanış keçirməsindən xəbərdar olsunlar. Partizanların toplanış məntəqəsinə gəlməsi və onların hazırlığı

Hərbi nazirin Dövlət Müdafiə Komitəsinin sədri qarşısında qaldırdığı yuxarıdakı vəsatətində göstərilənlər əsasında yoxlanılmalı idi. Yerlərə ezam olunmuş zabitlər bununla bağlı xüsusi olaraq təlimatlandırılmışdılar. Nəzərdə tutulmuşdu ki, yoxlama işləri bir gün ərzində başa çatdırılsın. Toplanışların başlanması və başa çatması barəsində onun keçirilməsinə məsul olan şəxslər teleqramla qubernatorlara, Baş Ərkani-hərbə və Mərkəzi Əxzi-Əsgər İdarəsinə məlumat verməli idilər. Bundan sonra, yerlərə ezam olunmuş şəxslər və qəza rəisləri toplanışın keçirilməsi, toplanış zamanı aşkarlanmış çatışmazlıqlar və onların aradan qaldırılması ilə bağlı tədbirlər haqqında müfəssəl raport hazırlayıb yuxarıda adları çəkilən yuxarı orqanlara göndərməli idilər. O da nəzərdə tutulmuşdu ki, sahələr üzrə topanışlar keçiriləndən sonra qəzalar və quberniyalar üzrə də toplanışlar keçirilsin. Bununla bağlı əlavə məlumat verilməli idi. Toplanışlara cəlb edilən zabitlər yerli qarnizon rəisləri tərəfindən müvafiq qubernatorlarla razılaşdırılaraq müəyyənləşdirilməli idi (119).

Bu qərarlardan sonra ölkənin bir sıra məntəqələrində partizanların sınaq toplanışları keçirildi. Məsələn, əldə olan məlumatlara görə Xaçmazda sınaq toplanışına 184 partizan, Dəvəçidəki sınaq toplanışına isə 150-dən artıq partizan gəlmişdi (120).

Müvafiq bölüklərin tərkibinə daxil edilən partizanlar hərbi andı qəbul edir və bundan sonra, onlar hərbi qulluqçu kimi məsuliyyət daşıyırdılar. Nəzərdə tutulmuşdu ki, sınaq toplanışları ildə iki dəfə keçirilsin. Onlardan biri köçlərin geri qayıtmasından sonra və biri də yaz əkin işlərinin başlamasından əvvəl. Bu toplanışlar sahələr və ya kəndlər üzrə olmalı idi. Bölük toplanışları isə hökumətin xüsusi qərarından sonra həyata keçirilməli idi. Bölük toplanışlarında şəxsi heyətin nizamlanması, vahid fəaliyyət vərdişləri aşılanmalı və səfərbərliyin elan edilməsi ilə komandirlərin görməli olacağı işlər izah olunmalı idi. Partizanlar həvalə olunan vəzifələrə görə bir neçə qrupa bölünürdülər: 1) müstəqil vəzifə alan partizanlar. Onlar səfərbər edildikdən sonra Ermənistan və Dağıstan sərhədində toplaşmalı və orduya yardım göstərməli idilər; 2) ordunun tərkibinə verildiyi ərazidə səfərbərliyin və toplanışın mühafizəsini təşkil edən partizanlar; 3) dəniz sahilinin mühafi-

zəsini təmin edən postlar, habelə şəraitin tələbi ilə sərhəd xəttinin (Ermənistan və Dağıstan) mühafizəsini gücləndirən partizanlar; 4) Bakı istehkamat hissəsi qarnizonunun tərkibinə təyin edilmiş partizanlar; 5) təxliyə xətlərinin mühafizəsinə təyin edilənlər; 6) dəmir yolunun mühafizəsinə təyin edilənlər; 7) ordunun arxasında qayda-qanunun təmin edilməsi üçün Təchizat rəisinin sərəncamına təyin edilənlər; 8) ehtiyat hissələrin və taborların formalaşdırılmasına və yerləşdirilməsinə təyin edilənlər; 9) dinc dövrdə mövcud olmayan arxa xidmət qurumlarının formalaşdırılmasına təyin edilənlər; 10) fəhlə dəstələrinə təyin edilənlər (121).

Təlimata əsasən piyada bölüyündə – partizanların sayı 192–250 nəfər arasında, süvari bölüyündə isə 128–160 nəfər arasında ola bilərdi. Hər bir bölük də 4 taqımdan təşkil olunurdu. Bölük və taqım komandirləri zabitlərdən təyin olunmalı idilər. Ona görə də hər bir bölüyün ştatında 5 zabit var idi. Baş Ərkani-hərb rəisi general-leytenant M.Sulkeviç tələb edirdi ki, bu vəzifələrə layiqli şəxslər təyin edilsinlər. Bölüklərin hərbi baxımdan daha yaxşı hazırlanması üçün qarnizon rəisləri tərəfindən xidmətdənkənar vaxtlarda bir neçə zabit də ayrıla bilərdi (122).

Beləliklə, qəbul olunmuş qayda və normalar əsasında yerlərdə partizanların sınaq toplanışlarına başlandı. Lakin hər yerdə bu sınaq toplanışları gözlənilən səviyyədə keçmirdi. Bunda isə təcrübəsizliklə bərabər, sözsüz ki, təşkilati işlərdə yol verilən çatışmazlıqlar da özünü göstərirdi. Əldə edilən məlumatlar və aparılan müşahidələr həm Daxili İşlər Nazirliyi rəhbərliyi, həm də Mərkəzi Əxzi-Əsgər İdarəsi tərəfindən ümumiləşdirildikdən sonra bu qurumlar tərəfindən yerli idarəetmə orqanlarının rəhbərlərinə birgə məktub göndərildi. Bu məktubda sınaq toplanışlarının daha yaxşı səviyyədə aparılması üçün görülməli olan təcili işlər yerli idarəetmə orqanları rəhbərlərinin diqqətinə çatdırıldı. Məktubda tələb olunurdu ki, hər bir kənd üzrə, şəhərlərdə isə küçələr üzrə partizanların siyahıları yoxlanılsın, bu siyahlardan 14–15 yaşında olan uşaqların və 60–70 yaşında olan yaşlıların adları çıxarılsın. Sınaq toplanışlarının təyin edildiyi günlərdə bütün yararlı şəxslərin öz silah və atları ilə gəlməsi təmin edilsin.

Sınaq toplanışlarının keçirildiyi günlər xaos və anlaşılmazlıqların aradan qaldırılması üçün polislərin qarşısına belə bir vəzifə qoyulurdu ki, qəzalar üzrə, şəhərlərdə isə rayonlar üzrə partizanların toplanışı ilə bağlı fəaliyyət planlarını hazırlasınlar. Bu fəaliyyət planında görülməli olan işlər polis sahələri üzrə, onlar isə kəndlər üzrə bölünməli idi. Belə bölgü şəhərlərdə də aparılmalı idi. Qəza və rayonlar üzrə partizanların siyhıları qəza və şəhər polis idarələrində saxlanılmalı, onların çıxarışları isə pristavlara göndərilməli idi. Eyni zamanda, partizanların təmin edilməsinə söz verən etibarlı şəxslərin siyahıları da tutulmalı idi. Pristavlarda olan siyahılarda da kənd böyükləri tərəfindən daha konkret bölgü aparılmalı və həmin bölgülər onun köməkçilərinə verilməli idi. Həmin bölgüdə partizanların toplanış yeri və vaxtı göstərilməli idi. Toplanış işarəsi alınan kimi pristavlar kənd böyüklərinə xəbər verməli və onların vasitəsi ilə partizanların toplanış məntəqəsinə gəlmələrini təmin etməli idilər. Bu işdə polis idarələrinin müxtəlif çinləri də öz köməkliklərini göstərməli idilər. Məktubda növbəti sınaq toplanışının 1920-ci il martın 1-də keçirilməsi nəzərdə tutulduğu qeyd edilir və həmin vaxta qədər lazımi hazırlığın görülməli olduğu bildirilirdi (123).

Keçirilmiş sınaq toplanışlarının nəticələri Hərbi Nazirliyin rəhbərliyi tərəfindən də ümumiləşdirildi və S.Mehmandarovun Daxili İşlər nazirinə göndərdiyi məktubunda bu kampaniyanın başqa çatışmazlıqları diqqət mərkəzinə gətirildi. Hərbi nazirin ilk iradı əhali arasında sınaq partizan toplanışlarının keçirilməsi istiqamətində lazımi izahat işlərinin aparılmaması ilə bağlı idi. Çoxları sınaq toplanışlarına çağırışı xidmətə məcburi çağırış kimi başa düşür və buna görə də hər vasitə ilə ondan yayınmağa çalışırdılar. Belələrinin çoxu toplanışa gələndə də silahlarını özləri ilə gətirmirdilər. Yenə fikirləşirdilər ki, onların silahları əllərindən alınacaqdır. Toplanışa çağırılmalı olanların əvvəlcədən siyahıları hazırlanmırdı. Mövcud olan siyahılarda isə yuxarıda deyildyi kimi, yaşı uyğun gəlməyənlər çox idi. Siyahıların tərtibinə məsuliyyətsizcəsinə yanışılmasını S.Mehmandarov qətiyyətlə pisləyirdi. Bundan başqa, siyahıların tərtibində ayrı-seçkiliklərə də yol verilirdi. Burada da daha çox yoxsul və kasıb təbəqənin nümayəndə-

ləri sınaq toplanışlarına cəlb edilirdilər. Varlı təbəqənin nümayəndələrinin adları isə çox halda ilkin siyahılara salınır, əsas siyahılara isə salınmırdı. Bu da müəyyən narazılıqların meydana gəlməsi ilə nəticələnirdi. Özünü göstərən çatışmazlıqların aradan qaldırılması üçün S.Mehmandarov Daxili İşlər nazirindən təcili və səmərəli tədbirlərin görülməsini xahiş edirdi. O, xüsusilə iki məqamı məqsədəuyğun sayırdı. Birincisi, tapşırılan vəzifələrin icrasına məsuliyyətlə yanaşmaları üçün yerli idarəetmə orqanlarının əməkdaşlarına təzyiq göstərilməsini, ikincisi isə aparılan sınaq toplanışlarının məqsəd və məramını yerli əhaliyə izah etmək üçün din xadimlərindən, nüfuzlu şəxslərdən istifadə edilməsini. Daxili İşlər Nazirliyinin rəhbərliyi S.Mehmandarovun qənaəti ilə tam razılaşaraq göstərilən nöqsanların aradan qaldırılması ilə bağlı yerli idarəetmə orqanlarının rəhbərlərinə ciddi tapşırıqlar verdi (124).

Partizan dəstələrinin təşkilindən əlavə Quba qəzasında daimi xalq milis dəstələrinin təşkilinə də başlanmışdı. Bununla bağlı Dövlət Müdafiə Komitəsi 1919-cu il noyabr ayının 27-də qərar qəbul etmişdi. Bu dəstə iki yüz nəfərdən ibarət olmalı idi. Həm atlılardan, həm də piyadalardan ibarət olan bu dəstə hərbi əməliyyatların başlaması ilə Hərbi Nazirliyin sərəncamına keçməli idi. Həmin dəstənin təşkili üçün Bakı qubernatorunun sərəncamına 200 milyon rubl vəsait buraxılmışdı. Qəbul edilmiş qərara əsasən xalq milis dəstələri çağırış yaşında olmayan şəxslərdən komplektləşdirilməli idi ki, kimsə çağırışdan yayınmaq üçün milis dəstələrinə getməsin. Milis dəstələrinə qəbul seçim əsasında aparılmalı idi. Bu zaman dəstəyə qəbul edilən şəxslərin həm fiziki keyfiyyətlərinə, həm də mənəvi keyfiyyətlərinə diqqət yetirilməli idi. Milis dəstələrinin üzvlərinə yerli polis əməkdaşları səviyyəsində maaş verilməli idi. Qərarın qəbul edilməsindən təxminən bir ay sonra Bakı qubernatoru Daxili İşlər Nazirliyinin rəhbərliyinə raport verdi ki, Quba qəzasında 200 nəfərlik milis dəstəsi artıq təşkil olunmuşdur (125).

1920-ci ilin əvvəllərində Daxili İşlər Nazirliyinin rəhbərliyi Bakı qubernatorunu bir daha xəbərdar edirdi ki, milis dəstələrinə çağırış yaşında olan vətəndaşlar qəbul edilməsin. Çünki mövcud olan faktlar bunu deməyə əsas verirdi. Nazirlikdən bildirilirdi ki,

belə halların olması nizami ordunun formalaşmasına əks-təsir göstərə bilər (126).

Hərbi Nazirliyin rəhbərliyi də çalışırdı ki, çağırış yaşında olan vətəndaşlar ancaq orduya cəlb edilsinlər. Çünki qarşıya qoyulmuş vəzifələri yalnız bu yolla icra etmək mümkün idi. Yuxarıda qeyd edildiyi kimi, 1919-cu ilin sonuna ordunun şəxsi heyətinin sayının 20 minə, 1920-ci ilin sonunda isə onun sayının 2 dəfə artırılaraq 40 minə çatdırılması planlaşdırılırdı (127).

Şəxsi heyətin sayının bir il ərzində iki dəfə artırılmasının planlaşdırılması, heç şübhəsiz ki, çağırışçı ehtiyatının mövcudluğunu və bu istiqamətdə görülə biləcək işlərin nəticələrinin reallığı ilə şərtlənirdi.

Bəzi tarixi ədəbiyyatlarda 1920-ci ilin aprel ayında Azərbaycan Ordusunda şəxsi heyətin sayının 30 minə çatdığı göstərilir (128). Lakin bu məlumatın dəqiqliyi şübhə doğurur. Çağırış işinin yaxşı qurulacağı təqdirdə 1920-ci ilin ortalarında bu rəqəmin əldə edilməsi, bəlkə də, mümkün idi. Bolşevik işğalı ərəfəsində isə bu sayda ordunun varlığını iddia etmək olmaz. 1920-ci ilin əvvəlində mövcud olan mürəkkəb tarixi şərait çağırışın belə görünməmiş sürətlə aparılması üçün münasib deyildi. O biri tərəfdən yuxarıda qeyd edildiyi kimi, 1920-ci ildə kütləvi çağırış kampaniyasına mart ayının 15-dən başlanmalı idi. Bu isə təxminən Qarabağda irimiqyaslı döyüşlərin başlanması ilə bir vaxta düşürdü. Ona görə də xidmətə cəlb edilən çağırışçıların böyük bir hissəsi döyüş zonasındakı canlı itkilərin bərpasına yönəldilməli idi. M.Ə.Rəsulzadə əsərlərinin birində Cümhuriyyət ordusunun sayını 17 min (129), digər bir əsərində isə 25 minə qədər olduğunu göstərirdi (130). Qafqaz İslam Ordusunun komandanı olmuş Nuru paşa isə sonradan yazmış olduğu xatirələrirndə Cümhuriyyət ordusunun 20 mindən artıq olduğunu bildirirdi (131). Bu rəqəmlər həqiqətə daha yaxındır. Çünki mövcud vəziyyətin öyrənilməsi, 1919-cu ildə çağırış-səfərbərlik işinin təcrübəsinin araşdırılması və 1920-ci ilin birinci rübündə ölkədə və ordu daxilindəki şəraitin nəzərə alınması göstərir ki, bolşevik işğalı ərəfəsində Azərbaycan Ordusunun sayı yaxşı halda 25 min nəfərdən artıq ola bilməzdi.

## İstifadə olunmuş mənbə və ədəbiyyat

1. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (MDA), fond 2894, siyahı 1, iş 1, vərəq 4
2. MDA, f.2894, siy.1, iş 40, v.3
3. MDA, f.1046, siy.1, iş 2, v.11
4. Yenə orada, v.19
5. MDA, f.1046, siy.1, iş 51, v.26–27
6. Siyasi Sənədlər Arxivi (SSA), f.277, siy.2, iş 79, v.10
7. Yenə orada
8. Yenə orada
9. Азербайджанская Демократическая Республика (1918–1920). Законодательные акты. Баку, 1998, с.41
10. MDA, f.895, siy.3, iş 36, v.46
11. Yenə orada, v.47–48
12. Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920). Parlament. I c., Bakı, 1998, s.897–908
13. MDA, f.2894, siy.4, iş 1, v.89
14. MDA, f.895, siy.3, iş 172, v.3
15. MDA, f.2767, siy.1, iş 142, v.159–160
16. Yenə orada, v.160
17. MDA, f.2898, siy.2, iş 22, v.123
18. MDA, f.2900, siy.1, iş 1, v.116
19. MDA, f.1046, siy.1, iş 185, v.115–116
20. MDA, f.2898, siy.2, iş 16, v.11
21. MDA, f.2894, siy.1, iş 1, v.9
22. MDA, f.2898, siy.1, iş 20, v.15
23. Yenə orada, v.35
24. Yenə orada
25. Yenə orada
26. Yenə orada, v.36
27. Yenə orada
28. Hərbi Bilik, № 2, 1993, s.118
29. Süleymanov M. Mehmandarov. Bakı, 2000, s.71
30. MDA, f.2898, siy.1, iş 19b, v.52
31. MDA, f.1046, siy.1, iş 37, v.2, 40–45

32. MDA, f.2891, siy.1, iş 44, v.24
33. MDA, f.897, siy.2, iş 23, v.10
34. «Азербайджан», 04.03.1919
35. SSA, f.277, siy.2, iş 79, v.11
36. MDA, f.2894, siy.1, iş 9, v.35
37. Yenə orada
38. MDA, f.2898, siy.2, iş 42, v.8–9
39. MDA, f.2894, siy.1, iş 44, v.26
40. MDA, f.1054, siy.2, iş 2, v.47
41. MDA, f.1046, siy.1, iş 37, v.43
42. MDA, f.2894, siy.1, iş 4, v.174
43. MDA, f.1046, siy.1, iş 175, v.6, 24, 26
44. Yenə orada, v.3
45. MDA, f.1046, siy.1, iş 50, v.17, 20
46. Yenə orada, v.35–40, 43, 79–84, 117–123
47. MDA, f.1054, siy.2, iş 2, v.1
48. MDA, f.1046, siy.1, iş 37, v.104
49. MDA, f.1054, siy.2, iş 2, v.2
50. Yenə orada, v.3
51. Yenə orada, v.32
52. MDA, f.1046, siy.1, iş 174, v.29
53. MDA, f.1054, siy.2, iş 2, v.16
54. MDA, f.2894, siy.1, iş 4, v.168
55. MDA, f.1046, siy.1, iş 50, v.128
56. MDA, f.2898, siy.1, iş 27, v.127
57. MDA, f.2898, siy.2, iş 25, v.29, 39
58. MDA, f.2894, siy.4, iş 1, v.89
59. MDA, f.2894, siy.1, iş 24, v.72
60. MDA, f.2894, siy.1, iş 9, v.68
61. MDA, f.2898, siy.2, iş 24, v.98
62. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928, с.54
63. MDA, f.2898, siy.2, iş 24, v.98
64. MDA, f.2894, siy.1, iş 40, v.3
65. «Азербайджан», 04.03.1919
66. MDA, f.1046, siy.11, iş 5, v.83

67. MDA, f.1046, siy.1, iş 51, v.4
68. Yenə orada, v.32
69. Yenə orada, v.31
70. Yenə orada, v.22, 32
71. Yenə orada, v.76
72 MDA, f.1046, siy.2, iş 22, v.1
73. Yenə orada, v.13
74. MDA, f.1046, siy.2, iş 45, v.11
75. MD, f.897, siy.2, iş 23, v.10
76. SSA, f.277, siy.2, iş 43, v.16
77. Азербайджанская Демократичесая Республика (1918–1920). Армия. Баку, 1998, с.83–84
78. Yenə orada, s.84–85
79. MDA, f.1046, siy.1, iş 2, v.36
80. Yenə orada, v.60
81. MDA, f.2894, siy.1, iş 3, v.24
82. MDA, f.1046, siy.4, iş 181, v.2–6
83. Yenə orada, v.6
84. MDA, f.2894, siy.1, iş 4, v.152
85. MDA, f.1046, siy.1, iş 185, v.28
86. Yenə orada, v.26–27, 29
87. MDA, f.1046, siy.1, iş 37, v.1
88. MDA, f.1054, siy.1, iş 4a, v.2
89. MDA, f.2894, siy.1, iş 26, v.13
90. MDA, f.1046, siy.1, iş 37, v.40
91. MDA, f.1046, siy.1. iş 2, v.71
92. MDA, f.2894, siy.1, iş 9, v.36
93. «Азербайджан», 07.07.1919
94. MDA, f.1046, siy.1, iş 2, v.80
95. MDA, f.1046, siy.1, iş 2, v.85
96. MDA, f.1046, siy.1, iş 113a, v.1
97. MDA, f.2894, siy.1, iş 9, v.44
98. MDA, f.2898, siy.2, iş 34, v.169
99. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928, с.55
100. MDA, f.2898, siy.2, iş 25, v.167

101. Yenə orada, v.33
102. MDA, f.2898, siy.2, iş 24, v.172
103. MDA, f.2898, siy.2, iş 25, v.167
104. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928, с.52
105. Yenə orada, s.51–52
106. MDA, f.2894, siy.1, iş 16, v.96
107. MDA, f.1046, siy.11, iş 55, v.7
108. Yenə orada, v.8, 26
109. Yenə orada, v.22
110. MDA, f.1046, siy.2, iş 73, v.14, 16
111. MDA, f.1046, siy.2, iş 75, v.1, 6
112. MDA, f.1046, siy.2, iş 75, v.4
113. Yenə orada, v.4
114. Yenə orada, v.3
115. Yenə orada, v.7, 8
116. Yenə orada, v.16, 85
117. Yenə orada, v.79
118. Yenə orada, v.88
119. Yenə orada, v.77
120. Yenə orada, v.9, 10, 37–40
121. Yenə orada, v.97, 145
122. MDA, f.1046, siy.2, iş 102, v.7
123. MDA, f.1046, siy.2, iş 101, v.50–51
124. MDA, f.1046, siy.2, iş 102, v.27
125. MDA, f.1046, siy.2, iş 75, v.95, 168
126. MDA, f.1046, siy.2, iş 101, v.48
127. MDA, f.2894, siy.1, iş 13, v.129
128. Гражданская война в СССР. Т.2, М., 1986, с.332
129. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s.55
130. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı, 1991, s.42
131. Mustafa Budak. Nuru paşanın Kafkas İslam Ordusu hakkında raporu. Bax: Kafkas araşdırmaları, c.4. İstanbul, 1998, s.104

# V FƏSİL

# QOŞUNLARIN TƏLİM VƏ TƏRBİYƏSİ

## *1. Döyüş hazırlığı*

Döyüş hazırlığının təkmilləşdirilməsi, onun əsaslandırılmış bir sistem kimi formalaşdırılması ordu quruculuğunun yeni mərhələsinin qarşısında dayanan mühüm məsələlərdən biri idi. Hərbi Nazirliyin bərpasına qədərki müddət ərzində ordu hissələrinin döyüş hazırlığı ilə məşğul olmaq üçün kifayət qədər vaxt yox idi. Xidmətə cəlb olunan gənclər çox vaxt birbaşa cəbhəyə göndərilir və ən adi döyüş vərdişlərini də elə səngərdə əldə etməli olurdular. 1918-ci ilin noyabrından Azərbaycan Ordusunun qurulmasının bütün məsuliyyətini öz üzərinə götürən Hərbi Nazirlik bu sahəyə də xüsusi diqqət ayırırdı. Hərbi Nazirliyin rəhbərliyinin qoşun hissələri ilə ilk tanışlığı isə göstərirdi ki, bu istiqamətdə görüləsi işlər xeyli çoxdur. Məsələn, 1918-ci il dekabrın 2-də 2-ci Qarabağ süvari alayında olan general S.Mehmandarov şəxsi heyətin döyüş hazırlığına malik olmadığını qeyd edirdi (1). Bu alayda döyüş hazırlığının qaldırılması istiqamətində çox işlər görülməsinin zəruriliyini alay komandiri Süleyman bəy Əfəndiyev də öz daxili əmrlərində etiraf edirdi. Dekabrın 15-də (1918-ci il) Boyəhməli kəndində yerləşən 1-ci bölükdə olarkən o, süvarilərin xarici görkəmlərinin lazımi tələblərə cavab vermədiyini, onların atəş hazırlığının aşağı olduğunu, nişangah qaydalarını bilmədiklərini, tüfənglərin nömrəsini yadda saxlamadıqlarını, verilən suallara qorxa-qorxa cavab verdiklərini qeyd edirdi. Komandirin yazdığına görə süvarilərin bir çoxu kimə və nəyə xidmət etdiklərini də aydın təsəvvür etmirdilər. Polkovnik S.Əfəndiyev, eyni zamanda, qeyd edirdi ki, nə yeni, nə də köhnə süvarilər atlara qulluq edilməsi qaydasını bilmirlər. Halbuki atların vaxtında təmizlənməsi, onların gümrah saxlanılması süvari hissələrində döyüş hazırlığının çoxsaylı elementlərindən biridir (2).

2-ci Qarabağ süvari alayının 3-cü bölüyündə şəxsi heyət nisbətən daha yaxşı təlim görmüşdü. Onların sırada hərəkəti, rəislərin

salamına gümrahlıqla cavab vermələri, atların qənaətbəxş vəziyyətdə olması S.Mehmandarovu da razı salmışdı. Görülmüş bu işlərə görə o, bölüyün komandiri poruçik Sadıqova öz minnətdarlığını da bildirmişdi (3).

4-cü dağ-topçu batareyasında şəxsi heyətin ümumi döyüş hazırlığı S.Mehmandarovu qane etsə də, 5-ci dağ-topçu batareyasında, 1-ci piyada diviziyasının hissə və bölmələrində döyüş hazırlığının səviyyəsi onda təşviş və narahatlığa səbəb olmuşdu (4).

1919-cu il yanvarın 1-də 2-ci Bakı piyada alayında olan Hərbi nazir burada da döyüş hazırlığına kifayət qədər diqqət yetirilmədiyini bildirirdi. Alayın şəxsi heyəti təlim atışlarını başlasa da, bunun üçün zəruri olan heç bir hazırlıq təmrinlərini yerinə yetirməmişdi. Nəticədə birdən-birə atəş mövqeyinə çıxarılan əsgərlər səmərəsiz yerə patronları zay edirdilər (5).

Hərbi nazirin müavini general-leytenant Ə.Şıxlinski də bir çox hərbi hissə və bölmələrdə oxşar vəziyyətin şahidi olmuşdu. 1-ci topçu briqadasının 1-ci divizionunda təlimin gedişini müşahidə etdikdən sonra Ə.Şıxlinski qeyd edirdi ki, şəxsi heyət cüt sırada böyük meydan boyu addımlayırdı. Onların yanında olan üç nəfər təlimatçı isə öz vəzifələrini əsgərlərin addımlarını saymaqla bitmiş hesab edirdi. Sıra təliminin tələbləri isə həyata keçirilmirdi. Əsgərlər öz gövdələrini arxaya tərəf meyilləndirərək xırda addımlarla addımlayırdılar (6).

Ə.Şıxlinskinin 3-cü Gəncə piyada alayında gördüyü təlimin keyfiyyəti topçu divizionunda gördüyündən çox da fərqlənmirdi. Burada əsgərlər ümumi sırada bir təhər addımlasalar da, cərgə ilə addımlamağa hazır deyildilər. Cüt sırada isə addımlarını düzgün ata bilməyən əsgərlər bir-birinə mane olur, biri digərinin dabanlarını döyürdü. Tabor komandiri podpolkovnik Qasımbəyov təlimin bu vəziyyətdə olmasını müvafiq nizamnamələrin göndərilməməsi və təlim zamanı köhnə türk nizamnamələrinin əsas tutulması ilə bağlasa da, Ə.Şıxlinski qeyd edirdi ki, bu izah tamamilə əsassızdır. Əvvəla, ona görə ki, Azərbaycan Ordusunda təlim rus ordusu nizamnamələri əsasında qurulmuşdu və bu rəhbər sənədlər əsasında yetişmiş olan tabor komandiri də təlimi öz təcrübəsi üzərində qurmalı idi. O biri tərəfdən, Ə.Şıxlinski bildirirdi

ki, türk ordusunun özündə də sıra təlimləri zamanı iri addımlar tətbiq edilir. Buna görə də o tələb edirdi ki, zabitlər öz vəzifəsinin icrasına məsuliyyətlə yanaşsınlar və yol verdikləri səhlənkarlıq üçün bəhanə axtarmasınlar (7).

Ə.Şıxlinski 1-ci Tatar süvari alayının 3-cü bölüyünün təlimində də ciddi nöqsanların olduğunu görmüş və bu nöqsanları imzaladığı əmrdə digər hissələrin də nəzərinə çatdırmışdı. Bu bölüklə Gəncənin küçələrində rastlaşan Ə.Şıxlinski süvarilərə yerində dönmək əmri verəndə məlum olmuşdu ki, onlar ən adi hərəkəti yerinə yetirə bilmirlər. Ə.Şıxlinski, eyni zamanda, süvarilərin təlim məqsədilə küçəyə çıxmalarını düzgün saymırdı. Bildirirdi ki, bunun üçün hissənin təlim meydanından istifadə edilməsi daha məqsədəuyğundur (8).

Qoşunlarda təlim-tərbiyənin qurulmasında rus ordusunun nizamnamələri əsas götürülsə də, Hərbi Nazirliyin rəhbərliyi bu nizamnamələrin bütün müddəalarının rəhbər tutulmasını düzgün saymırdı. Bu nizamnamələrdə bir sıra məqamlar I Dünya müharibəsindən əldə edilmiş qənaətlərlə səsləşmirdi və yeni dövrün tələblərinə cavab vermirdi. Baş Ərkani-hərb rəisi general-leytenant M.Sulkeviç 1919-cu il aprel ayının əvvəllərində Hərbi nazirin adına yazdığı raportunda adları çəkilən nizamnamələrin təkmilləşdirilməsi, onların Azərbaycan Ordusu üçün uyğunlaşdırılması barədə məsələ qaldırdı. M.Sulkeviç yazırdı ki, bizim əsgərlərin öyrədilməsindəki çətinliklərin həlli əyani nümayiş, praktikanın nəzəriyyəyə nisbətən üstünlük təşkil etməsini tələb edir (9).

Nizamnamələrin təkmilləşdirilməsi ilə bağlı Sulkeviç təklif edirdi ki, üç komissiya yaradılsın. Birincisi – piyada komissiyası. Bu komissiya piyadalar üçün Sıra Nizamnaməsini və atış təlimatını nəzərdən keçirməli idi. İkincisi – süvari komissiyyası. Bu komissiya Süvari Nizamnaməsini təkmilləşdirməli idi. Ümumi komissiya adlandırılan üçüncü komissiya isə bütün qoşun növlərinin nümayəndələrindən təşkil edilməli və Səhra Nizamnaməsini araşdırmalı idi. Birinci komissiyaya general-mayor Usubov, 2-ci və 3-cü komissiyalara isə süvari diviziyasının qərargah rəisi general-mayor Amaşukelinin sədr təyin edilməsi təklif olunurdu (10).

Mövcud olan məlumatlardan aydın olur ki, qoşunların təlim-tərbiyəsinin aparılmasında Rusiya ordusunda mövcud olan aşağıdakı təlimatlardan, əsasnamələrdən və rəhbər sənədlərdən istifadə edilirdi:

– Piyada topçuların nizami xidmətinin nizamnaməsi;
– Topçuluğun nizami xidmət nizamnaməsi;
– Piyada sıra nizamnaməsi;
– Piyada topların sürətli atışının nizami xidmət nizamnaməsi;
– Atlı-topçu divizionunun fəaliyyət nizamnaməsi;
– Yüngül, dağ və mortir toplarının təlim komandası haqqında əsasnamə;
– Süvari təlimi haqqında əsasnamə;
– Piyada təlimi haqqında əsasnamə;
– Piyada daxilində kəşfiyyat komandası haqqında əsasnamə;
– Mühəndis qoşunlarının təlim əsasnaməsi;
– Piyada daxilində pulemyot komandası haqqında əsasnamə;
– Piyada taqım və manqa komandirlərinin nizami xidmət əsasnaməsi;
– Piyadanın tək təlimi haqqında əsasnamə;
– Yüngül artilleriyanın nizami xidmət nizamnaməsi;
– Süngü döyüşü üzrə təlim;
– Piyadanın döyüşdə atış təlimi;
– Qoşunlarda mühəndis işi haqqında təlimat;
– Tüfəngdən və revolverdən atış təlimi üçün təlimat.

Bu siyahı qoşunlarda mövcud olan rəhbər sənədlərin tam siyahısı deyildir. Bununla belə, bu siyahıya əsasən, qoşunlarda təlim-tərbiyənin hansı istiqamətlərdə getdiyi haqqında müəyyən təsəvvür əldə etmək mümkündür.

Qoşun hissələrində təlim və tərbiyənin təşkilində çavuş heyətinin xüsusi yeri var idi. Bu kontingentin Azərbaycan Ordusunda çatışmaması döyüş hazırlığının ümumi səviyyəsinə mənfi təsir göstərirdi. Həmin boşluğun aradan qaldırılması üçün ordu daxilində bir sıra tədbirlər həyata keçirilirdi. 1918-ci il dekabrın 10-da Gəncədə təlim taborunun yaradılması barədə əmr imzalandı. Taborda 1000 nəfər əsgər hazırlıq keçməli idi. Bu əsgərlər üç pi-

yada bölüyündə birləşməli idilər (11). Ancaq məlumdur ki, bu tabor uzun müddət mövcud olmadı və 1919-cu ilin yanvarında ləğv edilərək 3-cü Gəncə piyada alayının 2-ci taboruna çevrildi (12).

Bundan sonra, çavuş heyətinin hazırlanmasının ağırlığı hissələrin öz üzərinə düşdü. Bütün hissələrin tərkibində təlim komandaları var idi. Bu komandalara hissənin bölmələrindən əsgərlər toplanılır və onlara ən təcrübəli zabitlər dərs keçirdilər. Onlar üçün xüsusi dərs proqramı hazırlanırdı. Təlim komandalarının dərs proqramına bölük taktiki təlimi, qarovul xidməti, saatdarların dəyişdirilməsi qaydası, atəş hazırlığı, nişangahın təyin edilməsi, düzgün nişanalma qaydası, Daxili Xidmət Nizamnaməsi, İntizam Nizamnaməsi, sıra təlimi, silahla hərəkətlər, silahlararın sökülməsi və yığılması, silaha qulluq qaydaları, qarovul rəisinin və bölüşdürücünün vəzifələri, süngü döyüşünün qaydaları, saatdarların hüquq və səlahiyyətləri, hərbi qulluqçuların məsuliyyəti, qarovulun bölüşdürülməsi, qarovul binalarının sahmana salınması və s. daxil idi. Komandalarda fiziki və mənəvi hazırlığa da yer verilmişdi. Səhərlər gimnastika üçün vaxt ayrılmışdı. Dərs cədvəlinə mollaların söhbəti də salınmışdı. Bundan başqa, komandada hərbi andın əhəmiyyəti, fərarilik və ona qarşı cəza tədbirləri, xidmət borcu, şəxsi gigiyena və s. mövzularda da söhbətlər aparılmalı idi (13).

Təlim kurslarının təşkili istiqamətində 2-ci piyada diviziyasında görülən işlər Hərbi Nazirliyin rəhbərliyi tərəfindən təqdir olunmuş və diviziya komandirinin nazirin adına göndərdiyi raportunun məzmununun bütün qoşun hissələrinə çatdırılması barədə göstəriş verilmişdi. Raportda bildirilirdi ki, çavuş heyətinin tamamilə olmaması onların görməli olduğu bütün işin ağırlığını podporuçiklərin və zabitlərin üzərinə qoymuşdur. Ancaq dövrün tələbi ilə tələsik hazırlanmıış olan podporuçik və zabit kadrlarının ümumi hazırlıq səviyyəsi, praktikada təlimin müasir səviyyədə təşkilinə imkan vermirdi. Buna görə də 1-ci piyada diviziyasında iki təlim kursu yaradılmışdı. Onlardan biri çavuş hazırlamaq üçün, ikincisi isə cavan podporuçiklərin və zabitlərin hazırlıq səviyyəsinin təkmilləşdirilməsi üçün nəzərdə tutulmuşdu. Hərbi nazir bu fikrin məqsədəuyğunluğunu təsdiq edərək onun bütün hissələrdə tətbiq edilməsi barədə göstəriş vermişdi (14).

1919-cu ilin ortalarında 5-ci Bakı piyada alayının nəzdində bütün 2-ci piyada diviziyası üçün təlim-pulemyot məktəbi yaradıldı. Diviziyanın komandiri göstəriş verdi ki, hər alaydan bir zabit, 2 çavuş və 23 savadlı əsgər bu təlim məktəbinə göndərilsin. Onlar bu kursu bitirdikdən sonra yenidən öz hissələrinə qayıtmalı idilər. Yəni hissələrin əsgərlərinin qruplarla belə xüsusi kurslara cəlb edilməsi onların döyüş hazırlığına müsbət təsir göstərə bilərdi (15).

Təlim-pulemyot məktəbi 1919-cu ilin əvvəlində 1-ci piyada diviziyasının tərkibində də açılmışdı. Bəzi müəlliflərin isə bunu kiçik zabit məktəbi (16) adlandırmalarını doğru saymaq olmaz. Azərbaycanda zabit hazırlayan məktəblər barədə yuxarıda artıq danışılmışdır. Bu məktəblər birbaşa Hərbi Nazirliyə tabe olan təhsil müəssisələri idi. Yenicə formalaşma mərhələsi keçirən 1-ci diviziyanın tərkibində isə zabit hazırlayan məktəbin açılması mümkün deyildi və diviziyanın heç belə səlahiyyətləri də yox idi.

Diviziya miqyasında yaradılan kurslardan biri də 1919-cu ilin sonlarında süvari diviziyasının nəzdində açılmışdı. Diviziya komandiri general-mayor Novruzovun müvafiq əmrində göstərilirdi ki, uryadniklərin çatışmadığı, alayların daimi xidməti ezamiyyətlərdə olması və onların nəzdində olan təlim məktəblərinin zabitlərinin böyük səriştəyə malik olmamasına görə diviziyanın nəzdində təlim komandası yaradılır. Bu təlim komandasında süvarilər 6 ay dərs keçməli idilər. Komandanlığın fikrincə, həmin komandanın təşkili diviziyanın döyüş hazırlığında olan boşluğun aradan qaldırılmasına kömək edəcəkdi (17).

Təlim komandalarının şəxsi heyəti kursun sonunda tədris olunan fənlər üzrə imtahan verdilər. Kursların buraxılışı hissə üçün əlamətdar bir hadisə sayılırdı. 1919-cu il aprelin 7-də 2-ci süvari alayının təlim komandasının ilk buraxılışı oldu. Kursun nəticələri ilə bağlı alay komandiri polkovnik Davud bəy Yadigarovun imzaladığı əmrdə təlim komandasının şəxsi heyətinin ümumi hazırlıq səviyyəsindən razılıq ifadə olunurdu. Onun fikrincə, cəmi iki ay ərzində süvarilər nizamnamələr üzrə proqramı yüksək səviyyədə mənimsəmiş, qarnizon və səhra xidməti üzrə yaxşı biliklər ədə etmişdilər. Alay komandiri qeyd edirdi ki, süvarilər aldığı bilikləri praktikada yaxşı nümayiş etdirirlər, verilən suallara və

komandalara aydın və gümrah cavab verirlər və bütün fəaliyyətləri ilə sübut edirlər ki, öz gələcəklərini, tabeliklərində olanlara qarşı xidməti və mənəvi borclarını düzgün başa düşürlər (18).

Təlim komandasını bitirən süvarilər komanda vermək vərdişlərinə kifayət qədər yiyələnmişdilər. Onların verdiyi komandalar aydınlığı, səlisliyi ilə fərqlənirdi. Sırada yerdəyişmələr tez və düzgün həyata keçirilirdi. İmtahan üzrə verilən çöl tapşırıqları da süvarilər tərəfindən lazımi səviyyədə icra edilirdi. Alay komandiri atsürmə vərdişlərinin də qənaətbəxş səviyyədə öyrənildiyini qeyd edir, göstərdikləri çalışqanlıq və zəhmətkeşliyə görə bütün süvarilərə təşəkkürünü çatdırır və əlavə edirdi ki, təlim komandasında əldə etdiyi nailiyyətlərlə Azərbaycan əsgəri, həm də nəyə qadir olduğunu nümayiş etdirir. Polkovnik D.Yadigarov şübhə etmirdi ki, təlim komandasında alınan biliklər hissələrdə döyüş hazırlığının ümumi səviyyəsinin qalxmasına da müsbət təsirini göstərəcəkdir (19).

Bu müsbət hallara baxmayaraq, Azərbaycan Ordusunda çavuş heyətinə böyük ehtiyac son günə qədər qalmışdı və ona görə bu kontingentin təlim-tərbiyənin təşkilində görməli olduğu işin əsas ağırlığını zabitlər öz üzərinə götürmüşdü. 1919-cu ilin avqust ayının 15-də bir sıra hissələrdə çavuş heyəti ilə təminat səviyyəsi aşağıdakı kimi idi (20):

| Hissələrin adı | Ştat üzrə | Siyahı üzrə mövcuddur | |
|---|---|---|---|
| | | miqdarı | % hesabı ilə |
| 1-ci Cavanşir piyada alayı | 355 | 55 | 15,5 |
| 2-ci Zaqatala piyada alayı | 355 | 45 | 12,6 |
| 3-cü Gəncə piyada alayı | 355 | 14 | 3,9 |
| 4-cü Quba piyada alayı | 355 | 35 | 9,8 |
| 5-ci Bakı piyada | 355 | 18 | 5 |
| 1-ci yüngül topçu divizionu | 77 | 16 | 20,8 |
| 2-ci dağ-topçu divizionu | 57 | 16 | 28 |

Çavuş heyətinin hazırlanması təlim kursları ilə bitmirdi. Döyüş hazırlığı planı çərçivəsində ilboyu çavuş heyəti ilə də xüsusi dərslər keçirilir, onların hazırlıq səviyyəsi təkmilləşdirilirdi. Zaqatala piyada alayında ümumi döyüş hazırlığı planı əsasında çavuşlar

həftədə iki dəfə saat 14.30-dan 16.30-dək dərs keçməli idilər. Bu dərslərdə, adətən, 2 fənn tədris olunurdu. Saat 14.30-dan 15-dək Çöl Nizamnaməsi, Sıra, Qarnizon və Daxili Xidmət Nizamnamələri öyrənilir, qalan vaxt ərzində isə taktika keçirilirdi. Aşağıdakı mövzular taktika üzrə tədris proqramına daxil edilmişdi: 1) taqım komandirinin vəzifələri; 2) ərazidə və plan üzrə səmtləmə; 3) atəşin idarə edilməsi (atəş hazırlığı); 4) döyüş zamanı patron ehtiyatının yaradılması və onun məsrəfi; 5) ərazi üzərindəki obyektlər uğrunda mübarizə, çöl qurğuları; 6) səngərlərin yerinin müəyyənləşdirilməsi və tikilməsi, onların müdafiəsi. Süni maneələrin hazırlanması; 7) pulemyotun əhəmiyyəti və ondan taktiki planda istifadə edilməsi; 8) döyüş tərtibatının hissələri arasında əlaqə, döyüşdə qarşılıqlı yardım; 9) döyüş vaxtı cinahlara göndərilmiş dozorun və zastava rəisinin vəzifələri; 10) dağlarda səfər hərəkətinin və döyüşlərin xüsusiyyətləri; 11) gecə və qış vaxtı səfər hərəkətinin və döyüşlərin xüsusiyyəti; 12) səfər hərəkəti zamanı komandirlərin, dozorların, səfər zastavalarının, ön cinah və arxa dəstələrin vəzifələri və s. (21).

Çavuşlarla dərslər qrup şəklində, birtərəfli, ikitərəfli keçirilə bilərdi. Hər dərsdən sonra çavuşlar və dərs rəhbəri tərəfindən dərsin gedişi müzakirə edilməli və hər bir çavuşun hərəkətinə və biliyinə qiymət verilməli idi (22).

Bir sıra ixtisaslar üzrə mütəxəssislərin mövcudluğu da qoşunların döyüş hazırlığının əhəmiyyətli elementlərindən biri idi. Yuxarıda qeyd edilmişdi ki, bir sıra problemlərin yerlərdə həll edilməsi üçün hissələrdə müxtəlif emalatxanalar döyüş hazırlığının lazimi səviyyədə saxlanılması üçün silahların təmirini, atların nallanmasını, soyuq silahların bərpasını və s. vəzifələri öz üzərinə götürdülər. Həmin emalatxanaların səmərəli işləməsi zəruri mütəxəssislərin olmasını tələb edirdi. Belə mütəxəssislər həm çağırış-səfərbərlik yolu ilə hissələrə cəlb edilirdilər, həm də onlar qoşunların özündə, xüsusi kurslarda hazırlanırdılar. 1919-cu ilin martında Hərbi nazir özünün 120 nömrəli əmri ilə tələb edirdi ki, baytar həkimləri olan hissələrin nəzdində təlim dəmirçixanaları açılsın. Həmin əmrə əsasən təlim dəmirçixanalarından biri 1-ci Tatar süvari alayının nəzdində açılmalı idi. 12 nəfər üçün nəzərdə tu-

tulmuş bu dəmirçixanaya hər bölükdən 2 nəfər olmaqla 8 nəfər Tatar süvari alayından, 2 nəfər 2-ci Bakı piyada alayından və 2 nəfər də 3-cü Gəncə piyada alayından cəlb edilməli idi. İkinci dəmirçixana 2-ci Qarabağ süvari alayının nəzdində açılmalı idi. Bu dəmirçixana 8 nəfər (Qarabağ süvari alayının 4 bölüyünün hər birindən 2 nəfər) üçün nəzərdə tutulmuşdu. Üçüncü dəmirçixana birinci topçu briqadasının 1-ci yüngül topçu divizionunun nəzdində açılmalı idi və bura divizionun üç batareyasının hər birindən 2 nəfər cəlb olunmalı idi. Dördüncü dəmirçixana isə 2-ci dağ-topçu divizionunun nəzdində 6 nəfər üçün açılmalı idi. 4 nəfər topçu batareyalarından, 2 nəfər isə 1-ci Cavanşir piyada alayından gəlməli idi. Dəmirçixanalarda təlimin müddəti 4 ay nəzərdə tutulmuşdu (23).

Silahların və topların təmiri üzrə əsgərlər arasından mütəxəssislərin hazırlanması üçün isə 1919-cu ilin aprel ayında Gəncədə topçu emalatxanasında təlim kursları açıldı. Nazirin əmrinə görə bu kurslara piyada və süvari alaylarının hər birindən 6 nəfər əsgər, Topçu briqadasının hər batareyasından isə 4 nəfər əsgər göndərilməli idi (24).

Əsgərlər arasında müxtəlif ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün başqa vasitələrdən də istifadə olunurdu. Məsələn, Gürcüstanla hərbi əməkdaşlıq barədə saziş bağlanandan sonra bir neçə zabitlə bərabər 10 nəfər əsgər də Tiflisə hərbi kurslara göndərilmişdi. Həmin əsgərlər radio-teleqraf ixtisası üzrə kurslarda təhsil almalı idi (25).

Bundan əlavə, Baş Ərkani-hərb rəisi Sulkeviçlə qarşılıqlı danışıqlardan sonra Bakıdakı ingilis qoşunlarının qərargah rəisi azərbaycanlı zabit və əsgərlərin ingilis topları üzərində topçu işinin vərdişlərinə öyrədilməsinə kömək göstərilməsinə razı olduğunu bildirmişdi. Sulkeviç ingilis nümunəli topların öyrənilməsi üçün 2–3 zabitin rəhbərliyi ilə 50–80 nəfərlik qrupun yaradılmasını məqsədəuyğun bilirdi (26). Bu kursun təşkili Hərbi nazirlə razılaşdırıldıqdan sonra Sulkeviç müəyyənləşdirilmiş sayda əsgər və zabitin göndərilməsi üçün hissə komandirlərinə teleqram göndərdi (27).

Təlim-tərbiyə prosesinin əsas tərkib hissəsini sıravi heyətlə aparılan döyüş hazırlığı təşkil edirdi. Sıravi heyət qoşunlarda

mütləq çoxluğa malik idi və bütün təşkilatçılıq işləri də məhz bu heyətin ümumi hazırlıq səviyyəsinin qaldırılmasına istiqamətləndirilmişdi.

Döyüş hazırlığı proqramı həm qoşun növlərinə görə, həm də ilin fəsillərinə görə fərqli xüsusiyyətə malik idi. Ümumi tələb və meyarlar saxlanılmaqla hər qoşun növü öz xüsusiyyətlərindən irəli gələn vərdişlərin əldə edilməsinə daha geniş yer verirdi.

Hər bir qoşun növünün özünün xarkterik xüsusiyyətləri var idi. Bu xarakterik xüsusiyyətlərin üzə çıxarılmasında və qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində sıravi heyətin döyüş hazırlığının çox mühüm yeri var. Məsələn, general Qaytabaşının razı olduğu qənaətlərə görə piyada qoşunları aşağıdakı xarakterik xüsusiyyətlərə malik idi:

– piyada qoşunları həm odlu, həm də soyuq silahlarla vuruşur. Onlar döyüşü hazırlayıb qələbə ilə sona çatdıra bilər;

– piyada qoşunları gərgin və uzunmüddətli döyüşlər aparmağa qadirdir;

– piyada qoşunları uzun müddət öz nizamını saxlaya və qısa müddət ərzində sıralarını bərpa edə bilər;

– piyada qoşunları ilin bütün fəsillərində, istənilən ərazidə fəaliyyət göstərə bilər;

– Piyadalar bütün döyüş vəzifələrini icra edə bilərlər;

– piyada qoşunlarının formalaşdırılması, komplektləşdirilməsi, təchizatı, ərzaq təminatı, başqa qoşun növlərinə nisbətən daha sadədir;

– piyada qoşunlarının saxlanılması daha ucuz başa gəlir. Bütün bu xüsusiyyətlərinə görə piyada qoşunları əsas qoşun növü sayılır (28).

Piyada qoşunlarda mövcud reallığa əsaslanaraq hazırlanan döyüş hazırlığı proqramının qarşıya qoyduğu əsas vəzifə də bütün bu xüsusiyyətləri özündə canlı şəkildə əks etdirən hissələrin formalaşdırılması idi.

Döyüş hazırlığı proqramları hissələrin özlərində hazırlanırdı. Hissənin yerləşdiyi ərazi, malik olduğu təlim bazası və s. amillərə görə hazırlıq proqramları bir-birindən azacıq fərqlənsə də, ümumi tələblər konkret qoşun növünün bütün hissələri üçün eyni idi.

Döyüş hazırlığının planında yay və qış mərhələlərinin

xüsusiyyətləri nəzərə alınırdı, lakin bu mərhələlər arasında qəti bir sərhəd yox idi. Hər təlim mərhələsinə aid olan təlim-tərbiyə proqramları bir neçə dövrü əhatə edirdi. Hər biri bir neçə həftədən və ya aydan ibarət olan bu dövrlərin müəyyənləşdirilməsində də xüsusi meyar yox idi. Bu dövrlər, əsasən, təlim prosesinin qarşısına qoyulan konkret vəzifələrlə müəyyənləşdirilirdi.

Zaqatala piyada alayında qəbul edilmiş proqram 6 həftə üçün nəzərədə tutulmuşdu. Bu proqramın qarşısında dayanan vəzifələr aşağıdakı kimi müəyyənləşdirilmişdi: sıravi əsgərdən ona etibar edilmiş silahdan yaxşı istifadə etməyi bacaran, qarşıya çıxan çətinlikləri dəf etməyə qadir olan şüurlu döyüşçü hazırlamaq. Bunun üçün sıravi aşağıdakıları mənimsəməli idi: 1) döyüş fəaliyyətinin bütün növlərində (döyüş, səfər, istirahət, mühafizə xidməti, kəşfiyyat, qarovul və daxili xidmət) əsgərin vəzifələrini öyrənmək; 2) döyüş silahını (tüfəng, əl qumbarası və pulemyot), ondan istifadəni və atmağı, ona qulluq etməyi, habelə soyuq silahdan istifadə etməyi bacarmaq; 3) çöldə gimnastika ilə məşğul olmaq. Bunun üçün əl altında olan əşyalardan ən sadə alətlər – paralel qollu turnik, üfüqi tir, müxtəlif maneələr hazırlanmalı idi. Dərslərin ikitərəfli və şərti düşmənə qarşı mübarizə əsasında hazırlanmış taktiki təlimlə başa çatdırılması nəzərdə tutulurdu. Proqramda gecə dərslərinin keçilməsi də nəzərdə tutulmuşdu. Əsgərlər gündə 6 saat fəal məşğul olmalı idilər (29).

6 həftəlik döyüş hazırlığı proqramı aşağıdakı şəkildə tərtib edilmişdi (30):

A. Birinci həftə

saat 7.00 - 8.30 – Passiv gimnastika
saat 8.30 - 9.00 – İdman qurğuları üzərində gimnastika
saat 9.15 - 9.55 – Tüfəngin qundağının düzgün dayaqlandırılması, bütün vəziyyətlərdə düzgün nişanalma, nişangahın düzgün qurulması
saat 10.00 - 11.00 – Sıra dərsləri. Dönmə hərəkətləri, cərgə təlimi və bir sıradan iki sıraya keçid
saat 11.00 - 11.30 – Səpələnmiş sıra ilə tanışlıq

saat 13.00 - 14.30 – Nişançının zəncirvari hərəkət zamanı vəzifələri, tüfənginin sökülməsi və yığılması

B. İkinci həftə

saat 8.00 - 8.30 – Passiv gimnastika
saat 8.30 - 9.00 – İdman qurğuları üzərində gimnastika
saat 9.15 - 9.55 – Tüfəngin qundağının düzgün dayaqlandırılması, nişangahın düzgün qurulması, bütün vəziyyətlərdə tüfəngin doldurulması, tətiyin çəkilməsi
saat 10.00 - 11.00 – Sıra dərsləri. Taqım təlimləri
saat 11.00 - 11.30 – Səpələnmiş sıra – səpələnmiş taqım və onun ərazidə istifadə edilməsi
saat 13.30 - 14.30 – Nişançının zəncirvari hərəkət zamanı vəzifələri, tüfənginin sökülməsi və yığılması, təmizlənməsi

C. Üçüncü həftə

saat 8.00 - 8.30 – Passiv gimnastika
saat 8.30 - 9.00 – İdman qurğuları üzərində gimnastika
saat 9.15 - 9.55 – Qundağın düzgün dayaqlandırılması, nişanalma, nişangahın düzgün qurulması, tüfəngin doldurulması, tətiyin çəkilməsi, tək-tək atəş və yaylım atəş
saat 10.00 - 11.00 – Sıra dərsləri. Taqım təlimi
saat 11.00 - 11.30 – Taqımın səpələnmiş sırası və ərazidə taktiki məsələnin həlli
saat 13.30 - 14.30 – Çöl Nizamnaməsi. Keşikçi xidməti, onun məqsədi. Keşikçi tərtibləri haqqında ümumi məlumat, zastava, çöl qarovulu, saatların, dozorun, pusqunun vəzifələri, mühafizə keşiyində, ehtiyatda, zastavada, çöl qarovulunda riayət olunmalı qaydalar.

Ç. Dördüncü həftə

saat 8.00 - 8.30 – Passiv gimnastika
saat 8.30 - 9.00 – İdman qurğuları üzərində gimnastika
saat 9.15 - 9.55 – Qundağın düzgün dayaqlandırılması, nişanalma, nişangahın düzgün qurulması, tüfəngin doldurulması, tətiyin çəkilməsi
saat 10.00 - 11.00 – Bölük praktiki təlimi
saat 13.30 - 14.30 – Keşikçi xidməti, onun məqsədi, mühafizə keşiyi, keşikçi dəstəsi və çöl qarovulu haqqında məlumat

D. Beşinci həftə

saat 8.00 - 8.30 – Passiv gimnastika
saat 8.30 - 9.00 – Qurğular üzərində gimnastika
saat 9.30 - 9.55 – Qundağın düzgün dayaqlandırılması, bütün vəziyyətlərdə nişanalma, nişangahın qurulması, tüfəngin doldurulması və tətiyin çəkilməsi
saat 10.00 - 11.00 – Ərazidə praktiki məsələlərin həlli ilə bölük taktiki təlimi
saat 13.30 - 14.30 – Keşikçi xidməti, səfər və hücum məlumatları. Hər bir sıravi üçün Qarnizon Nizamnaməsindən zəruri olan məlumatlar

E. Altıncı həftə

saat 8.00 - 10.00 – Zəif atıcılarla atışın müxtəsər kursunun keçilməsi
saat 10.00 - 10.30 – Bölük komandirləri tərəfindən tərtib edilmiş proqramın sıra və praktiki təlimin zəif mənimsənilmiş bölmələrinin təkrarı
saat 13.30 - 14.30 – Sıravi üçün Daxili Xidmət, İntizam və Qarnizon Nizamnamələrindən zəruri olan məlumatlar

2-ci süvari alayında 1919-cu ilin may ayında Azərbaycanın

istiqlaliyyətinin birilliyi münasibətilə keçiriləcək parada hazırlaşmaq üçün müvəqqəti məşğələlər proqramı tərtib edilmişdi. Bu proqrama görə hər gün səhər saat 8-də süvari dərsləri başlamalı idi. Saat 14-dən 15-dək piyada məşğələləri keçilməli, saat 15.30-dan 16.30-dək isə atlara bir sıra elementlərin öyrədilməsi üzrə təlimlər aparılmalı idi (31).

Hərbi paradın keçirilməsindən sonra 2-ci süvari alayında əvvəlcə 2 həftəlik proqram tutuldu. Proqrama həm süvarilər üçün, həm də zabitlər üçün dərslər daxil edilmişdi. Proqramın hazırlanması zamanı alay komandirinin bir sıra tələbləri də nəzərə alınmışdı. Məsələn, hələ 1919-cu ilin fevral ayında alay komandiri polkovnik Davud bəy Yadigarov göstəriş verdi ki, hər gün saat 11-dən 12-dək zabitlərin atla məşğələləri keçirilsin. Təyin olunmuş vaxtda bütün zabitlər komandirlərin və ya baş zabitlərin rəhbərliyi altında təlim meydanında toplaşmalı və burada müəyyənləşdirilmiş elementləri yerinə yetirməli idilər (32).

Polkovnik Yadigarov, eyni zamanda, bölük komandirlərindən və rəislərindən tələb edirdi ki, dərs proqramının düzgün yerinə yetirilməsinə ciddi riayət etsinlər. Dərslər proqramda göstərilən vaxtda başlasın və vaxtında da başa çatdırılsın (33).

Hər gün saat 5-də isə otlaqlar üzrə növbətçi zabitin rəhbərliyi altında atlar tövlədən çıxarılmalı və ayrılmış otlaq sahələrinə sürülməli idi.

Mayın 31-dən iyunun 15-dək olan dövrü əhatə edən proqramda saat 11-dən 12-dək zabitlərin atlarla məşğələləri, saat 15-dən 17-dək isə zabitlərin sinif məşğələləri nəzərdə tutulmuşdu. Sinif məşğələlərində, adətən, nizamnamələr öyrədilirdi. Zabitlərin dərslərinə alayın yüksək rütbəli zabitləri rəhbərlik edirdilər (34).

Proqramda süvarilər üçün hər gün gimnastika, sıra təlimləri, atəş hazırlığı, keşikçi xidməti üzrə hazırlıq nəzərdə tutulmuşdu (35).

1919-cu il iyunun 15-dən sonrakı dövr üçün yeni proqram hazırlandı. Çox güman ki, bu proqram da uzun müddət üçün nəzərdə tutulmamışdı. Çünki proqrama hər gün üçün təxminən eyni dərslər salınmışdı (36):

saat 7.30-8.30 – Gimnastika, soyuq silahın işlədilməsi

saat 9.00-11.00 – Piyada, süvari təlimi, atəş hazırlığı, nişan-

alma və qundağın düzgün dayaqlandırılması

11.30-12.30 – Zabitlərlə dərs

15.00-17.00 – Keşikçi xidməti, quşlarla təşkil edilən poçt.

Həftəlik tərtib edilmiş proqramda yalnız sonuncu dərs "Səfər hərəkəti" ilə günaşırı növbəli keçirilirdi (37).

Tərtib olunmuş proqramların həyata keçirilməsinə bir sıra səbəblər bu və ya digər dərəcədə təsir göstərirdi. 3-cü Gəncə piyada alayının komandiri bildirirdi ki, əsgərlərin təlim komandasını bitirəndən sonra döyüş hazırlığının aparılmasına cəlb edilməsi ümumi hazırlıq səviyyəsini qaldırmış və əsgərlərin çoxunun şüurunda xidməti borcların icrasına və hərbi xidmətin mahiyyətinə münasibətdə bir dönüş yaratmışdır (38).

Ancaq mövcud olan arxiv sənədlərində hissə komandirləri təlim-tərbiyənin gedişinə əks-təsir göstərən amillərə daha çox toxunur və Hərbi Nazirliyin rəhbərliyinin diqqətini də bu amillərin aradan qaldırılması üzərində cəmləşdirməyə çalışırdılar. Hissələrdə narahatlıq doğuran məsələlərdən biri zabit kadrlarının kifayət qədər olmaması idi. Savadlı, təcrübəli zabit kadrları çatışmayan hissələrdə əsgərlərlə dərslərin aparılması gənc zabitlərə tapşırılırdı ki, bu da təlimin keyfiyyətinə mənfi təsir göstərirdi (39).

Bir sıra qoşun hissələrində, xüsusilə topçu hissələrindəki zabitlər Azərbaycan dilini bilmirdilər və ya zəif bilirdilər. Bu zabitlərlə əsgərlər arasında ünsiyyət yaranmasının çətinləşməsi döyüş hazırlığının keyfiyyətinə təsir edir, topların material-texniki hissəsi haqqında biliklərin əldə edilməsini mürəkkəbləşdirirdi (40).

2-ci dağ-topçu divizionunda atların çatışmaması topların və onların təchizatının təlim meydanlarına çıxarılmasına və praktiki dərslərin aparılmasına mane olurdu (41).

Hissələrin şəxsi heyətinin keşikçi və mühafizə xidmətlərinə cəlb edilməsi, gücləndirilmiş naryadların təyin edilməsi təlimin ümumi ahəngini pozurdu. Çağırış-səfərbərlik işinin qeyri-ahəngdar aparılması da təlim prosesinin təşkilinə maneçilik törədirdi. Çağırışçılar hissələrə böyük qruplarda deyil, kiçik qruplarla daxil olurdular. Zabit heyətinin azlığı üzündən bir neçə nəfər üçün ayrıca proqram hazırlanması mümkün deyildi. Ümumi təlim prosesinə qoşulmaları isə onları bir sıra ilkin vərdişlərin və an-

layışların əldə edilməsindən məhrum edirdi (42).

Mülki hakimiyyət orqanlarının xahişi ilə asayişin bərpa edilməsi üçün çoxsaylı naryadların ayrılması hissələrdə gərginlik yaratmaqla bərabər, təlim-tərbiyə prosesinin gedişini də ümumi axarından çıxarırdı (43).

Hərbi nazirin tələblərini 1-ci topçu briqadasının komandirinə çatdırmaqla Baş Ərkani-hərb rəisi M.Sulkeviç topçu bölmələrində ümumi və mücərrəd taktiki vəzifələrin izahına çox vaxt sərf edilməsini məqsədəuyğun bilmirdi. Onun fikrincə, nizamnamələrin öyrənilməsi heç də onların oxunması demək deyil. Bu praktikadan əl çəkilməsi təkid edilirdi. M.Sulkeviçin yazdığına görə belə məşğələlər gənc zabitlərin dərslərdə mürgüləməsinə səbəb olurdu. Baş Ərkani-hərb rəisinin bildirdiyinə görə gənc zabitlərə konkret tapşırıqlar verilməli və dərs rəhbərləri tərəfindən də həmin tapşırıqların mənimsənilməsi yoxlanılmalı idi (44).

Bir sıra hissələrin şəxsi heyətinin döyüş tapşırıqlarının icrasına cəlb edilməsi də təlim-tərbiyə prosesinin ahəngdarlığına güclü əks-təsir göstərirdi. 1-ci Cavanşir piyada alayının komandirinin Hərbi Nazirliyə göndərdiyi arayışda bildirilirdi ki, ermənilərin 1919-cu ilin yayında Şuşada təcavüzü gücləndirmələri dərslərin düzgün axarını kəskin şəkildə dəyişdirmişdir. Atış kursunun keçilməsi tamamilə dayandırılmışdı. Əsgərlərin yalnız yarısı 1 saylı döyüş tapşırığını, tək-tək atış üçün hazırlıq məşğələlərini keçə bilmişdi. Şuşa, Əsgəran və Xocalı ətrafında keşikçi postlarına gücləndirilmiş naryadların göndərilməsi bölüklərdəki bütün hazırlıqlı əsgərlərin məsrəfinə gətirib çıxarmışdı. Hər səhər hissənin düzülüşündə bölüklərin sırasında cəmi 10–15 əsgər dayanırdı. Bunun nəticəsində əsgərlərin 60 faizi ilə fərdi sıra hazırlığı, cəmi 40 faizi ilə isə cərgə sıra hazırlığı keçirilmişdi. Zabitlər isə yalnız axşamlar nizamnamələrin və digər rəhbər – normativ sənədlərin mütaliəsi ilə məşğul olmağa vaxt tapırdılar.

Bölmələrdə əsgərlərin həddən artıq az olması təlim proqramının da yenidən qurulmasına səbəb olurdu. Şəxsi heyətin böyük bir hissəsi isə təlim-tərbiyə prosesindən kənarda qalırdı (45).

Təlim-tərbiyə prosesinin qarşısında dayanan vəzifələrin həllinin və ortaya çıxan problemlərin aradan qaldırılmasının müxtəlif

şəkildə həlli bu və ya digər hissələrdə döyüş hazırlığının eyni səviyyədə olmaması ilə nəticələnirdi. Hərbi Nazirliyin rəhbərliyinin həyata keçirdiyi yoxlama-tanışlıq hissələrin bir çoxunda döyüş hazırlığı səviyyəsinin qənaətbəxş olduğunu təsdiqləyirdisə, bir sıra hissələrdə ümumi hazırlıq səviyyəsi lazımi tələblərə cavab vermirdi. Bu yoxlama-tanışlıqların nəticəsi kimi ortaya çıxan arayış-hesabatlar ümumiləşdirilir və sonra rəsmiləşdirilərək bütün qoşun hissələrinin komandanlıqlarının nəzərinə çatdırılırdı. Həmin arayış-hesabatlarda hissələrin döyüş hazırlığının ümumi mənzərəsi ətraflı təhlil edilir və bütün hissə komandirlərinin diqqəti döyüş hazırlığına verilən tələblər üzərində cəmləşdirilirdi.

General-mayor İbrahim ağa Usubov 1919-cu ilin mart ayında 3-cü Gəncə piyada alayında təlim-tərbiyənin gedişi ilə tanış olandan sonra öz hesabatında yazırdı ki, alayda dərslər sistemsiz keçirilir, proqram yoxdur, türk nizamnamələri döyüş hazırlığı üçün əsas tutulur. Sıra təlimlərində ancaq addımlama, dönmə və hərbi salamvermə hərəkətləri yerinə yetirilir. Zabitlər özləri sıra təlimini və nizamnamələri zəif bilirlər. Sırada intizam çox zəifdir, "farağat" komandası veriləndən sonra sırada tərpəniş və nizamsızlıq hiss olunur. Komandirlərin salamına sıradakılar çox süst cavab verirlər (46).

1919-cu ilin əvvəlində Əlahiddə Zaqatala taboru ilə tanışlıqdan sonra Ə.Şıxlinski təlim-tərbiyənin gedişi barədə yazırdı ki, təşkil edilmiş təlim komandası hazırlıq səviyyəsinə görə başqa bölmələrdən müsbət tərəfə fərqlənir. Zabitlər öz əsgərlərini yaxşı tanıdığı kimi əsgərlər də bütün zabitləri, onların rəhbərlərini yaxşı tanıyırlar. Sırada tam intizam vardır. Əsgərlərin əllərinin vəziyyəti düz olmasa da, onların sıradakı duruşu normaldır. Dönmə hərəkətləri çevik və eyni vaxtda yerinə yetirilir. Silahla hərəkətlər aydın şəkildə həyata keçirilir. Sıraların yenidən düzülüşü yaxşıdır. Taktiki təlimlərin keçirilməsinə ciddi əhəmiyyət verilir. Bu zaman şərti düşmən müəyyənləşdirilir, vəzifələr dəqiqləşdirilir və sonra onların icrasına başlanır. Zabitlər və əsgərlər atəş altında hərəkət, ərazinin xüsusiyyətlərindən istifadə etmək, səpələnmiş sıranı idarə etmək barədə lazımi təsəvvürlərə malikdirlər (47).

1919-cu ilin iyun ayında general-mayor Həbib bəy Səlimov Qarabağda yerləşən qoşun hissələrinin vəziyyəti, onlarda

təlim-tərbiyənin gedişi ilə yaxından tanış olmuş və qənaətlərini əks etdirən müfəssəl bir hesabat hazırlamışdı. General Səlimov əvvəlcə 2-ci Qarabağ süvari alayında olmuşdu. İyun ayının 4-də o, 1-ci, 2-ci və 4-cü bölüklərə, bir pulemyot komandasına baxış keçirdi. Birinci bölüyün komandiri kornet Kərimov, 2-ci bölüyünkü ştabs-rotmistr Yadigarov, 4-cü bölüyünkü poruçik Sadıqov, pulemyot komandasının komandiri isə ştabs-rotmistr Çervinov idi. Baxış üçün çıxarılan bölmələrdə 150 nəfər var idi ki, onlardan da 40 nəfəri hissəyə aprelin 15-də gəlmiş yeni əsgərlər idi. 3-cü bölük və digər bölüklərin bir sıra süvariləri naryadda olduğundan onlar baxışa cəlb edilməmişdilər.

Baxış üçün düzülən sıralar salamlaşmaya gur, aydın və gümrah cavab verirdilər. Süvarilərin görkəmi yaxşı təsir bağışlayırdı, baxmayaraq ki, generalın fikrincə, bir sıra süvarilər at üzərində yaxşı oturuşa malik deyildilər. General Səlimovun şəxsi heyətin geyiminə də xüsusi bir iradı yox idi. Ancaq bir çox atların və yəhərlərin ümumi vəziyyəti onu razı salmadı. Yəhərlərin təmiri və bərpası üçün hissədə emalatxana olmadığı üçün general kənardan mülki mütəxəssislərin cəlb edilməsinə icazə verdi. Pulemyot komandasında topçu hissələrində işlədilən arabalardan istifadə olunurdu. Bu arabaların yaxşı qoşulması, atların yaxşı bərkidilməsi heç bir irad doğurmurdu (48).

Generalın əmri ilə əvvəlcə baxışa çıxarılan bütün bölmələrə təntənəli marşla meydandan keçmək işarəsi verildi. Ahəstə hərəkət zamanı süvarilər özlərinin kifayət qədər inamlı tutur, aralarındakı məsafəyə, sıraların düzlüyünə düzgün riayət edirdilər, lakin sürətli hərəkət zamanı sıranın düzlüyü pozulur və süvarilər bir-birinin hərəkətinə mane olurdular. Pulemyot komandasının şəxsi heyətinin hərəkətləri isə generalda çox yaxşı təəssürat yaratdı. Təntənəli marşdan sonra 2-ci bölükdə pulemyot komandası nümunəvi təlim keçirməli idi. Həmin təlim şeypurçuların işarəsi ilə başladı və bütünlükdə generalı qane etdi. Sonra bölüyün bir taqımına sırada səpələnmək əmri verdi. Taqımın süvarilərinin sırada səpələnməsinə bölük komandiri Yadigarov özü rəhbərlik edirdi. Generalın fikrincə, sıranın səpələnməsini bir qədər də sürətlə icra etmək olardı. Taqım əvvəlcə bir cərgədə

düzüldü və sonra da zəncir üzrə səpələnməni icra etdi. Səlimovun qeydlərinə görə taqımın atlardan düşüb cərgəyə düzülməsində də müəyyən lənglik var idi. Onun bir iradı da bunda idi ki, süvarilər ərazidən yaxşı istifadə edə bilmirlər, müəyyən edilmiş xətdə atəş mövqeləri seçsələr də, hansı tərəfə atmalı olduqlarını bilmirdilər, çünki onlara hədəf göstərilməmişdi. Eyni zamanda, komandir taqıma səpələnmək əmri versə də, cinahlardan onun mühafizəsini təşkil etməmişdi. Pulemyot komandası isə böyük sürətlə müəyyən edilmiş mövqeləri tutdu, qısa müddət ərzində pulemyotları arabadan götürüb atəş mövqeyində yerləşdirdi. Lakin hədəf göstərilmədiyindən onlar da pulemyotu müxtəlif səmtə istiqamətləndirmişdilər. Pulemyotun komandasına atəşin hansı növünün açılması barədə də göstəriş verilməmişdi. General Səlimov onu da nəzərə alırdı ki, bölüklərin ən təcrübəli və hazırlıqlı əsgərləri Şuşa ətrafına döyüş mövqelərinə göndərilmişdi. Bütünlükdə o, alayın döyüş hazırlığından razı qaldı və bu barədə Hərbi Nazirliyin rəhbərliyinin adına yazdığı hesabatda da məlumat verdi (49).

İyunun 5–6-da general-mayor Səlimov 1-ci Cavanşir piyada alayının Xankəndində olan bölmələrinə baxış keçirdi. Baxışa 5-ci, 6-cı və 7-ci bölüklər, təlim komandası, 2-ci və 3-cü pulemyot bölükləri və orkestr çıxarıldı. Sırada 25 zabit, 224 əsgər dayanmışdı. Baxışda iştirak edən 5-ci bölüyün komandiri ştabs-kapitan Klimentyev, 6-cı bölüyün komandiri ştabs-kapitan Belozıqin, 7-ci bölüyünkü ştabs-kapitan Krivsov, təlim komandasının komandiri ştabs-kapitan Ratuşev idi. Pulemyot bölüklərinə polkovnik Tauren rəhbərlik edirdi (50).

Alayın komandiri polkovnik Sofiyevin verdiyi məlumata görə döyüş hazırlığı xüsusi proqram üzrə keçirilirdi. Bu proqrama müvafiq olaraq təlim komandasına tədris üçün 12 həftə, bölüklərə isə 6 həftə ayrılmışdı. Baxış keçirilən gün təlimin 4-cü həftəsi başa çatdırılmışdı. Baxışa çıxarılan bölmələrin ümumi görünüşü, sırada dayanması, salamlaşmaya cavabı bütünlükdə general-mayor Səlimovda yaxşı təəssürat yaratdı.

5-ci və 6-cı bölüklərdə sıra və atəş hazırlığına baxış keçirildi. Əsgərlərin sırada dayanması, tək-tək və cərgə ilə hərəkətlər, addımlama, atəşə hazırlıq təmrinləri, sıranın səpələnməsi, habelə

əsgərlər tərəfindən İntizam, Daxili, Qarnizon və Çöl Xidməti nizamnamələrindən zəruri olan biliklərə necə yiyələnmələri yoxlanıldı. 7-ci bölükdə isə gimnastika hərəkətləri nəzərdən keçirildi. General-mayor Səlimovun fikrincə, əsgərlər düzgün dayanmağı və dönmə hərəkətinin icrasını öyrənmişdilər, silahla edilən hərəkətlərin icrası qənaətbəxş idi. Bütün vəziyyətlərdə atəş mövqeyi tutmaq və tüfəngi döyüşə hazırlamaq ümumən yerinə yetirilirdi. Lakin əsgərlərin heç də hamısı nişangahı düzgün qurmur, tüfəngin doldurulmasını və boşaldılmasını vaxtında icra etmirdilər. Bir sıra zabitlər və çavuşlar sıra hərəkətlərinin icrası zamanı istifadədən çıxarılmış nizamnamələrdə olduğu kimi komanda verirdi. Komandalar çox zəif və süst verildiyi üçün onların icrası da əsgərlər tərəfindən süst həyata keçirilirdi. Burada zabitlərin və çavuşların təqsirkar olduğunu sübut etmək üçün Səlimov özü sıralara komanda verib dediklərini əyani nümayiş etdirdi (51).

Cərgənin seyrəlməsi, sıxlaşması, bir cərgədən iki cərgəyə keçid, seyrəlmiş və sıxlaşmış sırada düzülüşlər, hərəkətlər yaxşı icra edilsə də, əsgərlərin addımları xırda idi, hərəkət taktını yalnız sol ayaqları ilə tuturdular. Ümumən, bölüklərin sıra hazırlığı general-mayor Səlimovu razı saldı. Ancaq onların taktiki hazırlıq səviyyəsindən general heç də razı qalmadı. Onun hesabatından məlum olurdu ki, əsgərlər süngü döyüşünə, ümumiyyətlə, bələd deyillər. Döyüş mövqelərinə hərəkət zamanı əsəgərlərin zəncir boyu səpələnməsi də düzgün icra edilmir və ümumiyyətlə, əsgərlər hərəkət zamanı zəncir boyu səpələnmiş sırada ərazinin xüsusiyyətlərindən lazımınca istifadə etməyi bacarmırdılar. Səlimovun qeydlərinə görə taktiki hazırlıq dərslərində əyanilikdən istifadə edilmirdi, əsgərlər əraziyə çıxarılmırdı və ona görə də ərazidə düzgün mövqe tutmaqda çətinlik çəkirdilər. Onun fikrincə, nizami piyada xidməti nizamnaməsinin 78-ci maddəsində əsgərlərin səpələnmiş sırada 12 bənddə izah edilmiş vəzifələri bir-bir əsgərə öyrədilməli və əyani göstərilməli idi. 7-ci bölükdə gimnastika hərəkətləri yaxşı yerinə yetirilirdi, nizamnamələrdən verilən suallara əsgərlərin cavabı qənaətbəxş idi. Səhra Nizamnaməsi üzrə biliklər isə tələb olunan səviyyədə deyildi. Ümumiy-

yətlə, general-mayor Səlimov 1-ci Cavanşir piyada alayında da təlim-tərbiyənin təşkilinə ciddi və ardıcıl diqqət yetirildiyini və bu sahədə müəyyən irəliləyişlərin mövcud olduğunu qeyd edirdi (52).

Döyüş hazırlığına ciddi diqqət yetirilməsinin nəticəsi idi ki, sentyabr ayında 1-ci Cavanşir alayında ümumi vəziyyət daha da yaxşılaşmışdı. Bölüklərdə taktiki təlimlər keçirilirdi. Bu təlimlərin uğurla keçirilməsi yaxın vaxtlarda bölüklərin qarşı-qarşıya taktiki təlimlərinə, sonra isə taborların təlimlərinin başlanmasına yaxşı zəmin yaratmışdı (53).

Qoşunlarda təlim-tərbiyənin ümumi gedişi ilə tanış olandan sonra Ə.Şıxlinski əsgərlərin fərdi hazırlığına daha çox yer ayrılmasını xüsusilə məqsədəuyğun sayırdı. Onun fikrincə, əsgərin fərdi hazırlığı onun bütün təlim-tərbiyəsinin əsas tərkib hissəsini təşkil edirdi. Bu məsələ bütün nizamnamə tələblərinin əsgər tərəfindən vaxtında yerinə yetirilməsinə, onun hərəkətlərində çevikliyin aşılanmasına təsir göstərməklə bərabər, həm də döyüşçü kimi formalaşmasında tərbiyəvi əhəmiyyətə malik idi. Fərdi hazırlığın düzgün təşkili və onun ardıcıl aparılması hərbi xidmətin elə ilk günlərindən əsgərləri onlara verilən əmrlərin və göstərişlərin müstəqil şəkildə icra edilməsinə alışdırırdı. Əksinə, fərdi hazırlıq tam keçirilmədən əsgərin ümumi sıraya salınması və ümumi komandaların icrasına məcbur edilməsi onda kütlə (sürü) xüsusiyyətlərinin möhkəmlənməsinə zəmin yaradırdı. Bu onları döyüş tapşırığının icrası zamanı köməksiz bir vəziyyətə salırdı. Ə.Şıxlinski alay və diviziya komandirlərindən tələb edirdi ki, şəxsi heyətin təlim-tərbiyə prosesinin gedişini öz əllərində möhkəm saxlasınlar, bir sıra vacib elementləri nəzərdən qaçırmasınlar. O, təəssüflə qeyd edirdi ki, bəzən hissə komandirlərinə hərb işinin əlifbasını öyrətmək ehtiyacı yaranırdı, halbuki belə olmalı deyildi (54).

Hərbi Nazirliyin rəhbərliyi qış təlim mərhələsində təlim-tərbiyənin təşkilinə və həyata keçirilməsinə də belə yüksək tələblər irəli sürürdü. Yay təlim mərhələsində əldə edilmiş nəzərəçarpacaq irəliləyişlərin daha da möhkəmləndirilməsi, qoşun hissələrinin döyüşkənliyinin gücləndirilməsi başlanmış işin ardıcıl surətdə davam etdirilməsi, təlim-tərbiyə prosesinin fəslin tələblərinə uyğun şəkildə qurulması və bu prosesə bir məqsədyönlülük

gətirilməsi ilə bağlı idi. Yeni mərhələ üçün hissə və birləşmələrdə hazırlanan təlim-tərbiyə proqramının qarşısında məhz belə vəzifələr dayanırdı və bütün diqqət də bu vəzifələrin həyata keçirilməsinə istiqamətləndirilirdi.

2-ci piyada diviziyasının komandirinin qış təlim mərhələsində təlim-tərbiyənin təşkili ilə bağlı 27 noyabr 1919-cu il tarixli əmrində deyilirdi ki, diviziyanın alayları dərhal qış dərslərinin cədvəllərini hazırlasın, hava şəraiti imkan verdikcə dərslər açıq havada keçirilsin. Diviziya komandiri diqqəti ilk növbədə əsgərlərin fiziki hazırlığı üzərinə yönəldirdi, onların qol əzələlərinin və bütünlükdə bədənlərinin möhkəmləndirilməsi üçün vaxtaşırı gimnastika edilməsinin, zəruri idman avadanlığının hazırlanmasının məqsədəuyğunluğunu vurğulayırdı. Onun qənaətinə görə, hər bir təmrinin icrasına başlamamışdan əvvəl bu hərəkətin mahiyyəti izah edilməli, dərs rəhbəri tərəfindən əyani nümayiş etdirilməli, sonra da əsgərlər tərəfindən icrasına nail olunmalı idi. Boş vaxtlarda isə bölüklər arasında oyunların, müsabiqələrin keçirilməsi lazım bilinirdi. Bu vaxt buraxılan hər bir səhvin təmkinlə, sakitcə əsgərlərə başa salınması, onlarda icra etdikləri hərəkətlərə qarşı məsuliyyət və meyil yaradılması diviziya komandirinin əmrində dərs rəhbərlərinə qarşı irəli sürülən tələb kimi təsbit edilmişdi. Dərs rəhbərlərindən tələb edilirdi ki, əsgərlərə əvvəlcə döyüş şəraiti, sonra isə sülh dövrü üçün zəruri olan vərdişlər və biliklər aşılansın. Gün ərzində dərslər 6 saat müddətində planlaşdırılsın və müəyyən müddətdən sonra gündəlik dərslərin müddəti 7 saata çatdırılsın. Dərs zamanı çox məlumatın verilməsi lazım bilinmirdi. Başlıcası o gözlənilməli idi ki, əgər verilən kiçik bilik əsgər tərəfindən mənimsənilibsə, şifahi cavab almadan həmin biliyin praktikada yoxlanılmasına daha çox üstünlük verilsin. Əmrdə qeyd edilirdi ki, gənc əsgərlərin ikiaylıq təlimi başa çatdıqdan sonra tabor komandirləri bilikləri yoxlamalı və müvəffəqiyyətli hazırlığa malik əsgərlər ümumi sıraya qatılmalı, müvəffəq olmayanlardan isə bölüklər və ya taborlar üzrə komandalar yaradılmalı və bu komandalarda davam etdiriləcək təlimlərə rəhbərlik üçün taborların ən yaxşı zabitləri təyin olunmalıdırlar. Gənc əsgərlərin təlimi başa çatdıqdan sonra onların bilik səviyyə-

si alay komandirinin sədrliyi altında olan komissiya tərəfindən yoxlanılmalı idi (55).

Əmrdə tələb olunurdu ki, Səhra Nizamnaməsinin və səngər işinin öyrənilməsi praktiki olaraq ərazidə aparılsın. Bu iş əvvəlcə plan üzərində, bölüklərdə hazırlanmış qum yeşiklərinin üzərindəki hazırlıq dərsləri ilə başlanmalı və praktiki məşğələlərlə əldə edilən vərdişlərlə möhkəmləndirilməli idi (56).

Məlumdur ki, 1920-ci il martın 15-də növbəti kütləvi çağırış kampaniyasına başlanmalı idi. Bu çağırış zamanı xidmətə cəlb olunan gənclərin hissələrdə qarşılanması, yerləşdirilməsi, onların təlim-tərbiyəsinin təşkili ilə bağlı Hərbi nazirin 1920-ci ilin fevral ayında imzaladığı 125 nömrəli müvafiq əmrində də döyüş hazırlığı məsələlərinə geniş yer ayrılmışdı. Döyüş hazırlığının təşkili ilə bağlı Hərbi nazirin irəli sürdüyü tələblər tezliklə gənc əsgərlərə ən zəruri döyüş vərdişlərini aşılamalı və onları xidmətin bütün gərginliyini öz üzərinə götürməyə hazırlamalı idi. Nazirin xatırlanan əmrində döyüş hazırlığının təşkili ilə bağlı aşağıdakı bəndlər var idi:

– gənc əsgərlər hissələrdə mehribanlıqla qarşılanmalı idi ki, onlar tədricən xidməti çətinliklərə alışsın;

– onlarla dərhal təlimlərin keçirilməsinə başlansın, ancaq ilk vaxtlar onların dərslərdən yorulmasına yol verilməsin, dərslərin yükü tədricən artırılsın;

– bölüklərdə gənc əsgərlər ərazi prinsipi üzrə bölüşdürülsünlər. Bu onlara boş vaxtlarında öz yerliləri ilə daha çox ünsiyyətdə olmağa imkan verər;

– bütün bölüklərdə gənc əsgərlərlə işləmək üçün müəllimlər ayrılsın. Elə etmək lazımdır ki, hər 6–8 əsgərə bir müəllim təyin edilsin;

– gənc əsgərlər bölüklərdə ayrıca qruplaşdırılsın və onlara rəhbərlik zabitlərə tapşırılsın;

– bölük komandirləri kifayət qədər təcrübəyə malik olmadıqları üçün gənc əsgərlərə dərslərin keçirilməsi tabor komandirlərinin nəzarəti altında aparılsın;

– gənc əsgərlərə rəhbərlik edəcək komandirlərin və zabitlərin hazırlıq səviyyəsinə diqqət yetirilsin. Bu zabitlər gənc əsgərlərin

təliminə başlamazdan əvvəl özləri a) sülh dövründə əsas xidmət olan qarovul xidmətinin təşkilini; b) fərdi və cərgə təlimini; c) döyüşçünün hazırlaşdırılmasını; ç) atışa hazırlıq təmrinlərini; d) süngü döyüşünün əsaslarını yaxşı bilməlidirlər.

Nazir irəli sürülən tələblərin keyfiyyətli həllinin heç də asan olmadığını yaxşı bilirdi. Lakin qısa müddət ərzində həmin tələblərin həllinə nail olmağın mümkünlüyünə də əmin idi. Ona görə də o, öz əmrini bu sözlərlə bitirirdi: "Yuxarıda göstərilənlər o vaxt asanlıqla əldə edilir ki, zabit özü düzlük və səmimiyyət nümunəsinə çevrilir. Əks təqdirdə biz heç vaxt lazımi nəticəni əldə edə bilməyəcəyik" (57).

Azərbaycan Ordusunun qoşun növlərinin təchizatında həm odlu, həm də soyuq silahlar var idi. Doğrudur, hərb işinin inkişafı ilə odlu silahlar qoşunlarda getdikcə özünə daha çox yer qazanırdı, ancaq soyuq silahlar da hələ aradan çıxmamışdı və əsas silah növlərindən biri sayılırdı. Bu silahların hər birinin özünün xarakterik xüsusiyyətləri və təyinatı var idi. Əgər soyuq silahlar (qılınc, süngü) düşmənə müstəqimən zərbə vurmaq üçün nəzərdə tutulmuşdusa, odlu silahlar (müxtəlif qumbaralar, top, tüfəng, tapança) qeyri-müstəqim müəyyən məsafədən zərbə vurmaq üçün nəzərdə tutulmuşdu. Onlar aşağıdakı digər xüsusiyyətlərə də malik idi:

– odlu silah uzaq məsafədən təsir göstərirsə, soyuq silah yalnız müstəqim təmas zamanı təsirə malik olurdu;

– odlu silahla fəaliyyət uzun müddət üçün, soyuq silahla isə qısa müddət üçün nəzərdə tutulurdu;

– odlu silahın nəticəsi qeyri-qəti idisə, soyuq silahın qəti idi;

– odlu silahın işlədilməsi üçün bacarıq lazım idisə, soyuq silah üçün fiziki hazırlıq və qorxmazlıq lazım idi;

– odlu silahın işlədilməsi üçün bir nöqtədə dayanmaq lazım idi, soyuq silahın işlədilməsi üçün isə hərəkət etmək lazım idi;

– odlu silahın işlədilməsi üçün təmkin, soyuq silah üçün isə canfəşanlıq lazım idi;

– odlu silahı atəş üçün hazırlamaq lazım idi, soyuq silah isə zərbə üçün həmişə hazır idi;

– odlu silah üçün güllə, patron lazım idi, soyuq silah üçün yox;

– odlu silah daim təkmilləşdirilir, soyuq silah isə buna az

meyillidir;

– odlu silah hücumu başlamaq üçün, soyuq silah isə onu sona çatdırmaq üçün istifadə edilirdi.

Soyuq silah başlıca olaraq süvari qoşun növünün işlətdiyi əsas silah növündən biri idi. Ona görə də topçu hissələri əgər piyadaların atəş zərbəsini gücləndirirdisə, süvarilər də onların soyuq zərbələrini gücləndirirdi. Yəni döyüş zamanı müxtəlif qoşun növlərinin zərbə təsirlərinin nizamlanmasına və qarşılıqlı əlaqələrinin yaradılmasına xüsusi diqqət yetirilirdi (58).

Piyada hissələrinin əsas silahı olan tüfənglər də həm atəş, həm də soyuq silahı özündə birləşdirirdi. Piyadaların bu çox işlətdiyi silaha qarşı irəli sürülən tələblərə görə onlar yüngül, dəqiq, sürətlə atan, uzağı vuran, dağıdıcı təsirə malik, sadə, möhkəm, düşmən silahından üstün olmalı idi (59).

Həm odlu silahdan, həm də soyuq silahdan bacarıqlı istifadə vərdişlərinin aşılanması təlim-tərbiyənin başlıca tərkib hissəsi idi. Atəş və soyuq silah hazırlığı ümumi proqram çərçivəsində aparılsa da, bu sahənin öz xüsusiyyətləri var idi və onun aparılmasına ən yaxşı zabitlər rəhbərlik edirdilər. Bütünlükdə silah hazırlığı qoşunlarda silaha qulluq, silahın saxlanılması ilə paralel olaraq aparılırdı. Yuxarıda toxunulduğu kimi, Hərbi Nazirliyin rəhbərliyinin hissələrlə hər bir tanışlığında mövcud olan silahların saxlanılmasına, onlara necə qulluq edilməsinə də diqqət yetirilir və mövcud olan nöqsanların aradan qaldırılması üçün lazımi göstərişlər verilirdi.

Xüsusi olaraq silahların saxlanılması vəziyyətini yoxlamaq üçün də hissələrdə yoxlamalar aparılırdı. Belə yoxlamalardan biri 1919-cu ilin aprel ayında keçirildi. Yoxlama 1-ci Tatar süvari alayın, 2-ci Bakı piyada alayını, 3-cü Gəncə piyada alayını, İstehkam məktəbini, Gəncə stansiyası komendantının komandasını, zirehli qatarı, Praporşiklər məktəbini, 1-ci yüngül topçu divizionu əhatə edirdi. Yoxlamanı aparan komissiya hissələrdə bir sıra çatışmazlıqlar aşkara çıxarmış və bunu Hərbi Nazirliyin rəhbərliyinə çatdırmışdı. Hissələrdə ən müxtəlif silahlar, müxtəlif sistemli pulemyotlar mövcud idi. Komissiyanın qənaətinə görə bu yolverilməz idi. Piyada hissələrində üçxətli tüfəng və "Maksim" pu-

lemyotu, süvari hissələrində isə üçxətli tüfəng və "Kolt" pulemyotu olmalı idi (60).

Yuxarıda qeyd edildiyi kimi, atəş hazırlığı nəzəri hazırlıqdan başlayırdı. Əsgərlər silahla tanış edilir, onlardan istifadə qaydası, silahların sökülüb-yığılması göstərilirdi. Atəş üçün hazırlıq təmrinləri var idi. Bu təmrinlər də icra edildikdən sonra əsgərlərə təlim atışı keçirilirdi. Eyni hərəkətlər pulemyotlar üzərində icra edilirdi. Pulemyotların öyrədilməsi üzrə təsdiq edilmiş təlimatda bildirilirdi ki, bu silah indiki müharibələrdə böyük əhəmiyyət kəsb etmişdir. Ona görə də hissələrdə pulemyotun öyrədilməsinə ciddi diqqət yetirilməlidir. Təlimatda qeyd edilirdi ki, qısa zaman ərzində yaxşı pulemyotçular hazırlamaq çətindir. Bunun üçün uzun vaxt və geniş təcrübə lazımdır. Ona görə də hərbi qulluqçulara döyüş zamanı pulemyotdan yaxşı istifadə etməsi üçün lazım olan hər şey öyrədilməlidir. Təlimatda tələb olunurdu ki, təlim prosesi savadsız əsgərlərin başa düşə biləcəyi və qavrayacağı qədər sadə təşkil edilməlidir (61).

Pulemyotun material-texniki hissələrini öyrənmək, atəş xüsusiyyətlərini mənimsəmək üçün xüsusi təlim qurğularından da istifadə edilirdi. Döyüşdə güclü zərbə qüdrətinə malik olan pulemyotun tədrisi zamanı əsgərlər aşağıdakıları öyrənməli idilər: 1) pulemyotun material hissəsini; 2) pulemyotun və onun qıfılının sökülüb-yığılmasını; 3) pulemyotun atəşə hazırlanmasını; 4) pulemyotun detallarının qarşılıqlı əlaqəsini; 5) atışda dayanma baş verməsinin səbəbini və onun aradan qaldırılmasını; 6) ikiatlı pulemyot arabalarının qoşulması və hərəkətə hazırlanmasını; 7) pulemyotun doldurulması qaydalarını; 8) patronların doldurulmasını, nişanalma, məsafənin gözlə və atışla təyin edilməsini (62).

Pulemyotçular aşağıdakı atış kurslarını keçməli idilər: 1) 1 nömrəli hazırlıq atış kursu. Bu atış kursu kiçik atış meydanında 25 addım məsafədə tək-tək atışla 3 patronun atılması ilə həyata keçirilməli idi; 2) 2 nömrəli hazırlıq atış kursu. Bu atış kursu 25 metrlik məsafəyə 25 patronun atılması ilə həyata keçirilməli idi; 3) 1 nömrəli təlim atışı. Bu atış isə avtomatik şəkildə 200 addımda olan 3 hədəf üzərində həyata keçirilməli idi (63).

Atış hazırlığının həyata keçirilməsi üçün atış meydanları təchiz

edilmişdi. Baş Ərkani-hərb rəisi Sulkeviç 1919-cu ilin may ayında Gəncə, Xankəndi, Nuxa, Qazax, Zaqatala, Qusar və Bakı qarnizonlarının rəislərindən tələb edirdi ki, atış meydanları üçün münasib yer seçib onu təchiz etsinlər. Bunun üçün lazım olan maliyyə vəsaiti də ayrılmışdı (64). Bakı qarnizonu üçün atış meydanı Qurd qapısında yaradılmışdı.

1919-cu ilin may ayında Hərbi Nazirlik təlim atıcılığının kursunu hazırladı və Hərbi nazirin 27 may 1919-cu il tarixli 271 nömrəli əmri ilə bu kurs bütün qoşunlara elan edildi. Kurs həm piyadalar, həm də süvarilər üçün nəzərdə tutulmuşdu. Nazirliyin əmrində tələb olunurdu ki, hissələr dərhal təlim atıcılığına başlasınlar. Həmin əmrlə nazir, eyni zamanda, qarnizonların rəislərindən tələb edirdi ki, atış meydanlarının təchizi qurtarmayıbsa, bu iş dərhal başa çatdırılsın və atışların başlanması barədə teleqrafla məlumat verilsin (65).

Atış kurslarının hazırlanması və onun həyata keçirilməsinə rəhbərlik üçün Hərbi Nazirlik tərəfindən xüsusi komissiya yaradılmışdı. Komissiyaya Baş Ərkani-Hərb rəisi Sulkeviç sədrlik edirdi (66).

1919-cu ildə Azərbaycan Ordusunun piyada və süvari hissələrində təlim atışı kursunun həyata keçirilməsi üçün metodiki göstəriş də hazırlanmışdı. Bu göstərişdə bildirilirdi ki, indiyə kimi bir sıra hissələr atışa hazırlıq təmrinləri üçün heç bir vəsaitə malik deyildilər. Nəticədə də bölük və bölmələrdə əsgərlər nəinki düzgün nişanalma qaydalarını, atəşdən doğan və ya tüfəngin özü ilə bağlı olan qeyri-dəqiqliyin meydana gəlməsi səbəblərini öyrənməmişlər, hətta bütün vəziyyətlərdə qundağın düzgün dayaqlandırılması, silahın doldurulması, nişangahın qurulması, tətiyin düzgün çəkilməsi qaydalarını da lazımınca mənimsəməmişlər. Ona görə də atışın dərhal döyüş patronları ilə başlanması doğru deyil (67).

Bütün bu deyilənlər, habelə hissələrdə atəş hazırlığı üzrə təcrübəli zabitlərin azlığı və atış meydanlarının tələb olunan səviyyədə təchiz edilməməsi üzündən 1919-cu il üçün təlim atışı kursu böyük ixtisarla tərtib edilmişdi. Kurs iki hissədən ibarət idi: 1) ilkin fərdi atış təmrinləri və 2) fərdi hazırlıq atışı təmrinləri.

İlkin fərdi atış təmrinləri kursu (68)

| Sıra №-si | Məsafə (addım) | Nişangah | Atış hədəfi | Atıcının vəziyyəti | Təmrinin icra edilməsi şəraiti |
|---|---|---|---|---|---|
| 1. | 200 | 11 | Qurşaq hədəfi. 30x36 verşok ölçüsündə olan lövhənin ortasından | Uzanmış vəziyyətdə | Qeyri-müəyyən vaxt ərzində. Hər atışdan sonra nəticə nümayiş etdirilir |
| 2. | 200 | 11 | Döş hədəfi. 20x20 verşok ölçüdə olan lövhənin ortasından | -----«----- | ----»---- |
| 3. | 200 | 11 | Baş hədəfi. 20x20 verşok ölçüdə olan lövhənin ortasından | ------«------ | ----»---- |

İlkin fərdi atış təmrinlərinin aparılmasında məqsəd əsgərin döyüş patronları ilə atəşə öyrədilməsi və hədəfin vurulmasına nail olmaq idi.

Fərdi hazırlıq atışları təmrinləri kursu (69)

| Sıra №-si | Məsafə (addım) | Nişangah | Atış hədəfi | Atıcının vəziyyəti | Təmrinin icra edilməsi şəraiti | Patronların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | 200 | 11 | Döş hədəfi | Uzanmış vəziyyətdə | Qeyri-müəyyən vaxt ərzində | 5 |
| 2 | 300 | 11 | Qurşaq hədəfi | Ayaq üstə | --"-- | 5 |
| 3 | 300 | 11 | Baş hədəfi | Uzanmış vəziyyətdə | --"-- | 5 |
| 4 | 500 | 11 | Üç döş hədəfi | --"-- | --"-- | 5 |
| 5 | 800 | | Üç yanaşı qurşaq hədəfi | --"-- | --"-- | 5 |
| 6 | 400 | 11 | Peyda olan qurşaq hədəfi | --"-- | Hər atışa 10 saniyə | 5 |
| 7 | 400 | 11 | Peyda olan döş hədəfi | --"-- | --"-- | 5 |
| 8 | 600 | | Döş hədəfinin peyda olması ilə yox olan qurşaq hədəfi | --"-- | Əvvəlcə 1 dəqiqə müddətində qurşaq hədəfinə 3 patron, sonra 1 dəqiqə ərzində döş hədəfinə 3 patron | 6 |
| 9 | 600 | | Üç yanaşı döş hədəfi | Səngərdə diz üstündən | 500 metr məsafəyə qaçandan sonra qeyri-müəyyən vaxt ərzində | 5 |
| 10 | 80 | | Üç yanaşı döş hədəfi | Səngərdə ayaq üstə | 50 metr məsafəyə qaçandan sonra qeyri-müəyyən vaxt ərzində | 5 |

İlk vaxtlar əsgərlərin hədəfi vura bilməsi və bununla da özünə və tüfəngin döyüş keyfiyyətlərinə inam yaranması üçün ilkin fərdi atəşin yaxın məsafəyə, 200 addımlıqda olan hədəflər üzərində keçirilməsi, sonra isə hədəflərin tədricən kiçildilməsi məsləhət bilinirdi (70).

Fərdi hazırlıq atışlarının keçirilməsində əsas məqsəd isə döyüşçüyə müstəqil surətdə dəqiq və sürətli ata bilmək vərdişlərinin aşılanması idi. Hərbi Nazirlik tərəfindən hazırlanmış metodiki göstərişdə bildirilirdi ki, Dünya müharibəsinin təcrübəsi səngərdən atış vərdişlərinin öyrənilməsinin zəruriliyini təsdiqləyir. Ona görə də fərdi hazırlıq atışları kursuna səngərdən 600 və 800 metrlik məsafələrdən atış təmrinləri də salınmışdı (71).

1919-cu ilin iyun ayında 1-ci Cavanşir piyada alayında bir sıra atış təmrinləri keçirləndən sonra məlum oldu ki, tüfənglərin çoxunda atəş zamanı güllələr hədəfə düz dəymir, hədəfdən yayınır. Güllələrin hədəfdən belə yayınma halları silahların lülələrinin çox işlədilməsindən və lülədaxili aşınmadan irəli gəldiyi üçün təcili təmir və bərpa işlərinin aparılması lazım idi. Bundan başqa, tüfənglərin təxminən yarısının arpacıqlarının dəyişdirilməsi ehtiyacı yaranmışdı. Onların lazımi normalara cavab verməməsi atəşin dəqiqliyinə təsir göstərirdi. Ona görə də hissə komandanlığı atəş hazırlığının lazımi səviyyədə aparılması üçün Topçu idarəsinin cəbbəxanalarından təchizat detallarının ayrılmasını vacib sayırdı (72).

1919-cu ilin iyun ayında general-mayor H.Səlimov 1-ci Cavanşir piyada alayında təftiş yoxlaması apararkən hissənin atəş hazırlığına da diqqət yetirmişdi. Məlum olmuşdu ki, əsgərlər silahların sökülüb-yığılmasını bacarsalar da, onların hissələrinin funksiyalarını və onlardan istifadəni hələ bilmirdilər. Bölüklərdə nişangah qurğuları üzərində çox az məşğələ keçirilmişdi. Ona görə də əsgərlər nişangahın təyinatına, silahın dəqiq atəş açmamasının mahiyyətinə bələd deyildilər. Zabitlər bunu nişangah qurğularının azlığı ilə izah etsələr də, general-mayor Səlimov bildirirdi ki, təlim məşğələlərini heç olmasa qum kisələrinin üzərində aparmaq olardı. Əsgərlər süngü döyüşünə də bələd deyildilər (73).

Pulemyot bölüklərində də general-mayor Səlimov oxşar

mənzərənin şahidi oldu. Piyada bölükləri ilə müqayisədə daha zəif hazırlığa malik olan pulemyot bölüyünün şəxsi heyəti də pulemyotu söküb-yığa bilmir, nişangahı qurmağı, güllələrin yayınmasının qarşısını alan mexanizmin işlədilməsini, dəqiq və təqribi nişanalmanın icra edilməsini bacarmırdılar (74).

General-mayor Səlimov təftiş yoxlamasının nəticələri ilə bağlı hesabatında bütünlükdə bu hissədə də vəziyyətin yaxşılaşdırılması istiqamətində nəzərəçarpacaq işlər görüldüyünü və bunun davam etdirildiyini qeyd edirdi. Heç şübhəsiz ki, alayın komandanlığı atəş hazırlığı sahəsində mövcud olan nöqsanların aradan qaldırılması üçün zəruri olan tədbirləri həyata keçirirdi. Nəticədə artıq həmin ilin sentyabr ayında alayın Şuşada olan 1-ci taboru fərdi döyüş atışının 5-ci təmrininin icrasını başa çatdırmışdı (75).

Süvari diviziyasının komandiri general-mayor Novruzov 1919-cu ilin sentyabrında 1-ci Tatar süvari alayına baxış keçirərkən atəş hazırlığının vəziyyəti ilə tanış oldu. O, bu tanışlığın nəticələri ilə bağlı imzaladığı əmrində bildirirdi ki, atəş təlimi çox zəifdir, döyüş mövqelərinə hərəkət zamanı əsgərlərin zəncir boyu səpələnməsi çox süst şəkildə icra edilirdi. Manqalar arasında sərhəd bilinmirdi, çavuşlar arxada mövqe tutmaqdansa, əsgərlərlə bir sırada dayanırdılar. Ərazinin xüsusiyyətlərindən atəş mövqeyinin seçilməsi üçün istifadə edilmirdi (76).

Atəş hazırlığında mövcud olan nöqsanların aradan qaldırılması üçün 2-ci piyada diviziyasının komandiri qış təlim mərhələsinə hazırlıqla bağlı 1919-cu il noyabr ayının 27-də imzaladığı əmrində hissə komandirləri qarşısında aşağıdakı vəzifələri qoyurdu: silahların qorunması, qulluq edilməsi, sökülüb-yığılması üçün bölükdə xüsusi hazırlığa malik bir çavuş və ya əsgər olmalıdır. Bu şəxslər atəş hazırlığı üzrə dərs aparаrkən bölüyün siyahısı üzrə əsgərləri iki-iki çağırmalı, tüfəngin detallarını onlara göstərməli və nədən ötrü olduğunu başa salmalıdır. Hədəfi nişanalma, nişangahın qurulması, tüfəngin tuşlanması, tətiyin çəkilməsi qaydası əsgərlərə hər gün proqramda hansı dərslərin nəzərdə tutulmasından asılı olmayaraq öyrədilməlidir. Hər bir hissədə nişangah qurğuları olmalıdır. Diviziya komandirləri tələb

edirdi ki, dərhal belə qurğular əldə edilsin, tuşlanma təmrinləri üçün lazım olan qum dolu kisələr gətirilsin. Bu işləri alaylar öz qüvvələri daxilində də görə bilərdilər. Eyni zamanda, alayların silah emalatxanasında təlim patronlarının hazırlanmasının təşkili məqsədəuyğun sayılırdı. Əmrə görə hər bir əsgər üçün ən azı bir daraq təlim patronunun hazırlanması lazım idi (77).

Hissələrin formalaşmasının və təlim-tərbiyəsinin bir sıra məsələləri kimi atəş hazırlığının vəziyyəti, atəş təmrinlərinin icrası barədə vaxtaşırı Hərbi Nazirliyə məlumat verilirdi. Müəyyən məxfilik doğuran bir sıra belə məlumatlar bəzən adi teleqramlarla Hərbi Nazirliyə ötürülürdü və surəti Nazirliyə göndərilən daxili əmrlərdə bəzən məxfi məlumatlar açıqlanırdı. Hərbi nazir birləşmə və hissə komandirlərindən döyüş hazırlığı səviyyəsinin qorunmasının vacib elementi kimi bu məsələyə ciddi diqqət yetirilməsini tələb edirdi (78).

Məxfi yazışmaların aparılması üçün Hərbi Nazirlik tərəfindən xüsusi bir təlimat da hazırlanmışdı. Həmin təlimata görə aşağıdakı sənədlər məxfi yazışmaya aid idi və onların işlənməsində və göndərilməsində zəruri tələblərə riayət olunmalı idi:

– əməliyyat-səfərbərlik məlumatlarının (istər əməliyyat planı, istərsə də səfərbərlik cədvəli olsun ) şifrləri, yeni hissələrin yaranması, onların cəmlənmə məntəqələri, döyüş hazırlığı səviyyəsi, şəxsi heyətin və atların sayı, hərbi xarakterli obyektlərin yerləşməsi, hissələrin komplektləşdirilməsi, istehkam rayonlarının planı və sxemləri, onların silah və təchizatı və kəşfiyyat işlərinin nəticələri barəsində məlumatları, smeta-hesabatları özündə əks etdirən sənədlər;

– şifrlənmiş teleqramların mətnləri;

– mükafatlandırma və ya yüksək vəzifələrə təyinat məqsədilə hazırlanmış təqdimatlar;

– zabit cəmiyyəti məhkəmələrinin kargüzarlığı üzrə yazışmalar;

– hərbi qulluqçuların dövlət və siyasi cinayətləri haqqında yazışmalar;

– imza edən şəxsin mülahizəsinə görə məxfi saxlanılması vacib olan məlumatları özündə əks etdirən sənədlər (79).

Hərbi Nazirlik üzrə sənədlər öz məxfilik dərəcəsinə görə üç kateqoriyaya bölünmüşdü. Birinci kateqoriya "şəxsən özünə" qrifi ilə fərqləndirilirdi. Bu kateqoriyadan olan yazışmalar şəxsən ünvanlandığı şəxsə təqdim edilməli və həmin sənədin məzmunu da yalnız həmin şəxsə bəlli olmalı idi.

İkinci kateqoriyaya aid olan sənədlər "məxfi" adlanırdı. Bura o yazışmalar daxil idi ki, onlar aidiyyəti olmayan şəxslər üçün məxfi qalmalı idi. Üçüncü kateqoriyaya aid olan sənədlər isə "elan edilməməli" qrifi ilə işarələnərdi. Bu kateqoriyaya daxil olan yazışmalar məxfi sayılmırdı, lakin onların geniş kontingent üçün bəlli olması məqsədəuyğun bilinmirdi (80).

Qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün Hərbi Nazirliyin rəhbərliyi kəşfiyyat işinin təşkilini, qoşunların xidməti ilə bağlı olacaq məlumatların toplanılmasını və onların vaxtında öyrənilməsini də diqqətdən kənarda qoymurdu. Baş Ərkani-hərb rəisi qarnizon rəislərindən tələb edirdi ki, əldə etdikləri bütün informasiyaları dərhal Hərbi Nazirliyə göndərsinlər. O bildirirdi ki, məlumatların vaxtında lazımi orqanlara çatdırılması böyük əhəmiyyətə malikdir. Onlardan yalnız vaxtında çatdırıldıqda maksimum istifadə etmək olar. Vəziyyətin hər an dəyişə biləcəyi bir vaxtda mühüm əhəmiyyət kəsb edən məlumatların ləngidilməsi və onların lazımi orqanlara ötürülməsinin gecikdirilməsi malik olduğu əhəmiyyəti tamamilə itirir (81).

Hərbi hissələrin özündə də kəşfiyyat işi təşkil edilir və ehtimal olunan təhlükə barədə ətraflı məlumatların toplanılması üçün iş aparılırdı. Baş Ərkani-hərbin rəisi general-leytenant Sulkeviç öz əmrlərinin birində 1-ci Cavanşir piyada alayının praporşiki Qaraşarova verilən tapşırıq üzrə ətraflı məlumat toplayıb çatdırdığına görə öz təşəkkürünü bildirirdi (82). Həmin tapşırıq əsasında praporşik Qaraşarov Ağdamda, Qaryagində, Cəbrayılda, Hadrutda, İran sərhədində, Zəngəzurda olmuş, bu yerlərdə hərbi-siyasi vəziyyəti müfəssəl öyrənmiş və sonra müşahidə etdiklərini geniş şəkildə Baş Ərkani-hərbin kəşfiyyat bölməsinə məruzə etmişdi. Bu məruzədə yerlərdə Azərbaycan Ordusuna münasibət, konkret tarixi şəraitdə erməni millətçi qüvvələrinin potensialı barədə dəyərli məlumat vardı.

Kəşfiyyat işləri təkcə respublikanın daxilində deyil, həm də respublikadan kənarda təşkil olunmuş və agentura yaradılmışdı. Bu agenturanın saxlanılması üçün Hərbi Nazirliyin smetasında xüsusi maddə də nəzərdə tutulmuşdu (83).

Hərbi Nazirliyin rəhbərliyi Petrovsk, Dərbənd, Temir xan Şura, Qroznı, Vladiqafqaz, Taqanroq, Batum, İrəvan, Qars, Dilican, Rəşt, Krasnovodsk, Tiflis, Astarxan şəhərlərində 14 rezidentin saxlanılmasını planlaşdırırdı. Bu rezidentlər başlıca olaraq Denikin qoşunlarının, erməni ordusunun fəaliyyəti və planları barədə daha dürüst məlumatların toplanılması üçün təyin edilməli idilər (84).

Hərbi Nazirliyin rəhbərliyi hökumət orqanlarına göndərdiyi təqdimatında bildirirdi ki, adları çəkilən rezidentlərdən başqa xüsusi tapşırıqların icrasını öz üzərinə götürə biləcək kəşfiyyatçıların fəaliyyətinin maliyyələşdirilməsi də zəruridir. Böyük risk tələb edən tapşırıqları yerinə yetirəcək agentlərə yüksək məbləğdə ödəncin verilməsi planlaşdırılırdı. Xüsusi tapşırıqları icra edəcək kəşfiyyatçıların biri Ermənistanda, biri Gürcüstanda, biri İranla Türküstanda, ikisi Denikin ordusunun tərkibində fəaliyyət göstərməli və iki nəfər də ehtiyatda saxlanılmalı idi (85).

Hərbi xərclərin əsaslandırılması üçün hazırlanmış smeta hesablamalarında göstərilirdi ki, hər bir rezidentlə əlaqə saxlayacaq bir rabitəçi də maliyyələşdirilməlidir. Bu rabitəçilər rezidentlərə lazımi tapşırıqları çatdırmalı və eyni zamanda, onların toplamış olduğu məlumatları əldə edib mərkəzə təqdim etməli idilər (86).

İstər erməni qoşunlarının, istərsə də Denikin qoşunlarının fəaliyyəti və planları barədə məlumat toplamaq üçün təşkil edilən kəşfiyyat kifayət qədər səmərəli işləyirdi. Bunun nəticəsi idi ki, Azərbaycanın istiqlaliyyəti üçün təhlükə törədən qüvvələrin hərəkətləri və niyyətləri barədə Hərbi Nazirliyin əlində lazımi məlumatlar toplanırdı. Bu da vaxtında lazımi tədbirlərin planlaşdırılmasına və həyata keçirilməsinə zəmin yaradırdı.

Bütün bu görülən işlər qoşunların döyüş hazırlığının ümumi səviyyəsində də öz əksini tapır və hərbi hissələrin döyüşkən qüvvəyə çevrilməsinə zəmin yaradırdı.

## *2. Şəxsi heyətin mənəvi tərbiyəsi məsələləri*

Qoşunların təlim və tərbiyəsinin əsas istiqamətlərindən biri də şəxsi heyətin mənəvi tərbiyəsi, zabit və əsgərlərin dünyagörüşünün genişləndirilməsi, xidməti borca şüurlu münasibət bəsləyən sədaqətli döyüşçü, bütöv şəxsiyyət və yetkin Azərbaycan vətəndaşı formalaşdırılması idi. Bu məsələ bütün təlim-tərbiyə prosesinin fövqündə dayanırdı və ordu quruculuğunda onun yeri kifayət qədər reallıqla qiymətləndirilirdi. Uzun illər boyu hərbi xidmətdən yadırğamış olan xalqın övladlarını ordu quruculuğu prosesinin gərginliklərinə, ağırlıqlarına alışdırmaq, onlara yeni dəyərlər aşılamaq, yaradıcı xidmətə ruhlandırmaq, mübarizlik, vətənpərvərlik göstərilməsinə həvəsləndirmək bütün səviyyələrdən olan komandirlərin diqqətdən bir an da olsa qaçırmadığı fəaliyyət sahəsi idi. Azərbaycan Ordusu sıralarında şərəfli xidmət yolu keçmiş olan general-mayor Qaytabaşının yaddaş dəftərində olan qeydlərə görə düzgün və dəqiq qurulmuş olan bu fəaliyyət sahəsi nəhayətdə döyüşçüdə aşağıdakı keyfiyyətləri formalaşdırmalı idi: 1) fədakarlıq səviyyəsinə çatdırılmış olan borc hissləri və ya yoldaşının xilası üçün özünü qurban verməyə hazır ola bilmək; 2) qorxmazlıq və təşəbbüskarlıq; 3) bütün rəislərə sonsuz tabelik; 4) hərbi şəraitdə bütün ağırlıq və çətinliklərə sinə gərmək (87).

Hərbi Nazirliyin rəhbərliyi şübhə etmirdi ki, ordunun vahid bir orqanizm şəklində birləşdirilməsinin başlıca zəmini müstəqil Azərbaycan Ordusunda xidmət edən hər bir hərbi qulluqçuda xidməti borca şüurlu münasibət yaradılması, vətən və xalq qarşısında şəxsi məsuliyyətin vətəndaş mövqelərindən dərk edilməsidir.

Azərbaycanın müstəqilliyinə sədaqət hisslərinin aşılanması bütün təlim-tərbiyə prosesinin fövqündə dayanırdı. Hərbi Nazirliyin rəhbərliyi ilk növbədə şəxsi mövqeləri ilə, Azərbaycanın müstəqilliyinə olan sədaqətləri ilə bu hisslərin hərbi qulluqçulara aşılanmasında nümunə olmağa çalışırdı. Hər şeydən əvvəl S.Mehmandarovun özü bütün varlığı ilə Azərbaycanın müstəqilliyini alqışlayan və qorunmasına çalışan bir şəxs idi. Heç şübhəsiz ki, Səməd bəy Hərbi nazir təyin ediləndə də bir tərəfdən onun peşəkarlığı, hərbi təcrübəsi və savadı nəzərə alınmışdısa, digər tərəfdən

də onun Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinə olan sədaqəti və bağlılığı nəzərə alınmışdı. Çünki Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi yaxşı bilirdi ki, mövcud tarixi şəraitdə əldə edilmiş müstəqilliyin qorunması üçün güclü ordunun yaradılmasına böyük ehtiyac vardır. Belə bir ordunun rəhbərliyində Azərbaycanın müstəqilliyinə sadiq olan şəxs dayanmasaydı, Azərbaycana sədaqətli olan qoşun hissələrinin formalaşdırılmasına da nail olmaq mümkün olmazdı. S.Mehmandarovun Azərbaycanın müstəqilliyinə münasibətdə mövqeyi qəti və aydın olmasaydı, hökumət rəhbərliyi tərəfindən tərəddüdsüz Hərbi Nazirliyin rəhbərliyinə təklif edilməzdi.

Səməd bəy bir sıra əmrlərində, çıxış və bəyanatlarında Azərbaycanın müstəqilliyinə öz münasibətini açıq şəkildə bildirmişdir. Bunlar isə onun əqidəsinin bütövlüyünü və saflığını nümayiş etdirirdi. 1918-ci il dekabr ayının 25-də Azərbaycan Ordusunun təşkili ilə bağlı xalqa ünvanladığı bəyanatının elə ilk cümlələrindən S.Mehmandarov Azərbaycanın öz müstəqilliyini əldə etdiyini və bu müstəqilliyin qorunması üçün ordu təşkilinə başlandığını bildirirdi. «Bu ilin yazından Azərbaycan öz müstəqilliyini əldə etmişdir. Həmin andan ölkəmizin hökumətinin başında dayanan insanların səyləri ölkədə anarxiyanın yol verilməməsinə və hər hansı bir yerdə pozulmuş olan qanunçuluğun bərpasına yönəldilmişdir. Bu məqsədlə digər hökumət tədbirləri ilə bərabər qərara alınmışdı ki, ölkənin silahlı qüvvələri də yaradılsın. Yəni Azərbaycan qoşunları formalaşdırılsın» (88).

Bəyanatının sonunu isə S.Mehmandarov belə tamamlayırdı: «Sonra əziz olan Vətənimizin adından ölkəmizin bütün əhalisinə Vətənə olan məhəbbətimiz naminə, yüksək vətənpərvərlik hissləri naminə bu xahişlə müraciət edirəm ki, ölkədə qanunçuluğun qorunması üçün zəruri olan qoşunlarımızın formalaşdırılması işində mənə kömək etsinlər».

Bu cümlələrdə S.Mehmandarov Azərbaycanı – «əziz olan Vətənimiz» deyə adlandırırdı. Bu sözlər adi sözlər deyildi və onlar Cümhuriyyət ordusu rəhbərinin bir vətəndaş kimi mənəvi keyfiyyətini dəqiqliklə əks etdirirdi. Onun Cümhuriyyət ordusundakı bütün fəaliyyəti də əziz olan Azərbaycan Vətəni naminə qurul-

muşdu. Özü də Səməd bəy təkcə əziz olan Azərbaycana sədaqətlə xidmət etməklə öz işini bitmiş hesab etmirdi. O, eyni zamanda, tabeliyində olan bütün hərbi qulluqçuların da bu əqidədə olmasına çalışırdı.

Hərbi nazir kimi imzaladığı sonuncu əmrində də Səməd bəy Azərbaycanı «əziz olan Vətənim» adlandırır və baş verən bolşevik çevrilişindən sonra da əzizi olan Vətənin gələcəkdə əmin-əmanlıq içərisində olacağına ümidvar olduğunu bildirirdi.

1919-cu il may ayının 28-də Azərbaycanın müstəqilliyinin birinci ildönümü qeyd ediləndə Səməd bəy Mehmandarovun əmri ilə bütün qarnizonlarda hərbi parad keçirildi. 1920-ci ilin yanvarında Azərbaycanın istiqlaliyyəti müttəfiq dövlətlər tərəfindən tanınanda da Səməd bəyin əmri ilə qoşun hissələrində xüsusi tədbirlər keçirildi. Bu hadisə münasibətilə bütün qarnizonlarda parad təşkil edildi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi naminə dua mərasimləri keçirildi və hissələrdə bayram süfrələri açıldı. Bunlar isə heç şübhəsiz ki, hərbi qulluqçularda Azərbaycanın müstəqilliyinə olan münasibətin formalaşmasına müsbət təsir göstərirdi.

Hərbi Nazirliyin rəhbərliyi Azərbaycanın müstəqilliyinə təhlükə törədə biləcək hər hansı qüvvəyə qarşı çox qətiyyətli və barışmaz mövqe tuturdu və belə qüvvələrə qarşı ən sərt vasitələrə əl atmaqdan belə çəkinmirdi. Həmin tarixi şəraitdə Azərbaycanın müstəqilliyinə qənim kəsilən qüvələr həm ölkə daxilində, həm də ölkə xaricində müvcud idi və həmin qüvvələr qarşılarına qoyduqları məqsədə çatmaq üçün ən müxtəlif təxribatçı vasitələrə əl atırdılar. Ölkədə asayişin pozulması və anarxiyanın yaradılması da müstəqilliyə bir təhlükə sayılırdı və ona görə belə qüvvələrin zərərsizləşdirilməsi də vacib vəzifələrdən biri sayılırdı. Məsələn, 1919-cu il yanvar ayının 10-da bir dəstə soyğunçu Dəllər stansiyasında özbaşınalıqlar törətməyə çalışanda həmin dəstəyə qarşı qoşun bölməsi göndərildi. Baş verən atışmada qoşun bölməsindən bir əsgər şəhid oldu. S.Mehmandarov ölkə daxilindəki anarxiyanın aradan qaldırılmasında şəhid olmuş əsgərin fəaliyyətini yüksək qiymətləndirdi və bu münasibətlə xüsusi bir əmr də imzalamışdı. 20 yanvar 1919-cu il tarixli həmin əmrdə deyilirdi:

«Bu ilin yanvarında Tatar süvari alayının 1-ci bölüyü soyğunçuların tutulması işində mülki hakimiyyət orqanlarına kömək göstərilməsi üçün Dəllər stansiyasına göndərilmişdi. Soyğunçular səngərdə oturaraq atəş açırdılar. Yarım bölük tərəfindən onların atəşə tutulmasına baxmayaraq, soyğunçular gecənin qaranlığından istifadə edərək gizlənə bildilər. Atışma zamanı Marul kəndinin sakini olan bir süvari – Namaz Söyün oğlu öldürülmüşdür. Mərhum tərəfindən Vətən qarşısındakı borcunun şərəf və vicdanla yerinə yetirilməsinə görə onun ailəsinə 10 min rubl miqdarında birdəfəlik vəsait verilsin. Şərəflə həlak olmuş əsgərin şəxsində ailə yeganə himayədarını itirdiyindən yaşayış üçün tamamilə köməksiz qalmaması üçün mənim tərəfimdən Nazirlər Şurası qarşısında ailəyə həmişəlik olaraq ayda 1200 rubl pensiya verilməsi barədə vəsatət qaldırılmışdır. Bu əmr Azərbaycan Cümhuriyyətinin bütün bölük, batareya və komandalarında oxunsun» (89).

Bununla S.Mehmandarov anarxiya və qanunsuzluq yaradanlara qarşı barışmaz olduğunu nümayiş etdirməklə bərabər, ölkənin müstəqilliyi yolunda şəhid olanların ailəsinin qayğıya layiq olduqlarını və onlara daimi qayğı altında olacaqlarını bildirirdi.

Ölkədə olan ingilis hərbi qüvvələrinin səlahiyyət hədlərini aşmasını və ingilis hərbçilərinin milli qoşun hissələrinin fəaliyyətinə müdaxilə etməsini də Səməd bəy Mehmandarov Azərbaycanın müstəqilliyi ilə bir araya sığışmayan əməllər kimi dəyərləndirirdi. Məlumdur ki, bu qüvvələr Azərbaycana gələn kimi Hərbi Nazirliyin və milli qoşun hissələrinin Bakıdan çıxarılmasına nail olmuşdular. Bundan əlavə, ingilis hərbçiləri bəzən milli qoşun hissələrinin fəaliyyətinə də yerli-yersiz müdaxilə edirdilər. Belə halların hər birinə qarşı Səməd bəy dərhal qətiyyətli mövqe tutur və öz münasibətini bildirirdi. Məsələn, 1919-cu il martın sonlarında Qarabağda fəallaşmağa çalışan erməni millətçi təcavüzkarlarına Xankəndi qarnizonunun rəisi tərəfindən layiqli cavab verilmişdi. Hadisənin mahiyyətini erməni millətçiləri bölgədə olan ingilis hərbçilərinə tamam başqa şəkildə çatdıraraq onların yardımına arxalanmaq istəyirdilər. İngilis hərbçiləri də Xankəndi qarnizonunun rəisindən erməni millətçilərinə qarşı silahlı müqavimət göstərilməsini dayandırmağı tələb etmiş və S.Mehmandarov da

bundan xəbər tutmuşdu. Səməd bəy ingilis hərbçilərinin belə özbaşınalığını yolverilməz sayırdı və bildirirdi ki, bu hərəkətlər Azərbaycanın müstəqilliyinə ziddir və onların qoşun hissələri ilə hər hansı bir əlaqəsi yalnız Hərbi Nazirliyin vasitəsi ilə ola bilər (90).

Bu hadisədən bir müddət sonra, yəni 1919-cu il aprel ayının 1-də hindlilərdən ibarət olan 100 nəfərlik hərbçi dəstəsi Azərbaycan hökumətinin xəbəri olmadan Ağstafa və Gəncə stansiyalarına daxil olmuş və bu stansiyaları nəzarət altına almışdılar. İngilis hərbçilərinin müstəqil Azərbaycan daxilində özlərini belə saymazyana aparmaları yenidən Səməd bəy Mehmandarovun ciddi narahatlığına səbəb oldu. O, Nazirlər Şurası sədrinin adına yazdığı məktubda ingilisləri tutduqları mövqedən sui-istifadə edərək xəbərsiz və icazəsiz Azərbaycan qoşun birləşmələrinin mövqelərini tutmasını açıq müdaxilə kimi qiymətləndirir və bu faktlarla bağlı ingilis komandanlığının qarşısında məsələ qaldırılmasını xahiş edirdi.

Elə həmin məktubda S.Mehmandarov ingilis hərbçilərinin Azərbaycanın müstəqilliyinə qarşı zidd mövqe tutan Denikin qoşunları ilə münasibətlərinə də işarə edərək bildirirdi ki, həmin münasibətlər ölkənin mənafelərinə cavab vermir və bu cəhət nəzərdən qaçırılmamalıdır.

İngilis kapitanı Dellinin Denikin ordusunun nümayəndəsi ilə heç kimdən icazə almadan Azərbaycanın şimal sərhədinə getməsini, orada Denikin təhlükəsinə qarşı aparılan müdafiə işləri barədə kəşfiyyat xarakterli məlumatlar toplamasını da S.Mehmandarov çox böyük hiddətlə qarşıladı. Yəni, əslində, ingilis hərbçiləri Azərbaycanın müstəqilliyinin qorunması üçün həyata keçirilmiş hərbi tədbirlərin düşmən əlinə keçməsinə açıq vasitəçilik edirdilər. Bunu Səməd bəy ilk növbədə elə ingilis hərbçilərinin Azərbaycanın müstəqilliyinə qarşı tutmuş olduqları düşmən mövqe ilə izah edirdi. Həmin hadisə ilə bağlı Səməd bəyin gəldiyi qərar da çox sərt idi. Hadisə barədə məlumat alan kimi S.Mehmandarov Nazirlər Şurasının sədrinə məktub yazdı və ondan ingilis komandanlığına etiraz bildirilməsini xahiş etdi. İngilis hərbçilərinin Azərbaycanın müstəqilliyi əleyhinə yönəldilmiş olan hərəkəti Səməd bəyi o dərəcədə qəzəbləndirmişdi ki, Nazirlər Şu-

rasının sədrinə yazdığı məktubunda bu barədə qəti qərar qəbul edilməsini təkidlə irəli sürürdü. Müfəssəl yazılmış həmin məktubda Azərbaycanın müstəqilliyinin qorunması naminə şimal sərhədlərinin möhkəmləndirilməsi məsələlərinə toxunulsa da, onun əsas məzmununu ingilis hərbçilərinin heç bir çərçivəyə sığışmayan əməllərinə qarşı etiraz təşkil edirdi. Azərbaycanın müstəqilliyinə qənim kəsilən qüvvələrə qarşı Səməd bəyin dönməz iradəsini və əqidəsini nümayiş etdirən bu məktubda deyilirdi:

"... Məni daha çox təəccübləndirən ingilis komandanlığının ikiüzlü siyasəti və bir də onun Azərbaycana xeyirxah münasibət bəsləməsi barədə verdiyi yalan vədlərdir. Özünüz fikir verin. Bir tərəfdən ingilis komandanlığı vəd verir ki, Samur çayı yaxınlığında sərhədin pozulmasına imkan verməyəcək və onu pozan hər bir şəxs həbs ediləcəkdir. O biri tərəfdən isə ingilis kapitanı Delli Könüllü ordunun zabitləri ilə, yəni Azərbaycanın düşmənləri ilə Xaçmaza yollanır və ingilis komandanlığının göstərişləri əsasında tələb edir ki, qoşunların və müdafiə mövqelərinin nəzərdən keçirilməsi üçün onlara imkan yaradılsın. O, körpülərin minalanıb-minalanmaması barədə sorğular aparır və bununla da könüllü ordunun fəaliyyəti üçün zəruri olan məlumatlar toplanılır.

Kapitan Dellinin bu eşidilməmiş tələbləri həyasızlığın və ya hərbi sirlərə riayət edilməsinin ən adi tələblərini başa düşə bilməməsi kütbeyinliyin görünməmiş nümunəsidir. Onun general Usubova qoşunların yerləşməsi, mövqeləri, körpülərin minalanması, azərbaycanlı əhalinin əhval-ruhiyyəsi barədə suallar verməsi də bunu göstərir.

İngilis komandanlığı vasitəsi ilə bu açıq və həyasız casusluq üsulları bizim tərəfimizdən ciddi etiraz edilməsini tələb edir. Elə həmin ingilislər Sizin bildiyiniz kimi, Quba qəzasında çəkilişlər aparır, mövqeləri nəzərdən keçirir, əhalini sorğu-suala tuturdular. Bütün bu söylənilənlərdən mənə belə gəlir ki, Qafqazdan gedənə kimi ingilislər Azərbaycan və Gürcüstanın işğalı üçün Könüllü orduya kömək göstərməyə tələsirlər.

Ona görə zəruri bilirəm ki:

1. Azərbaycana və onun müstəqilliyinə qarşı şərəfsiz hərə-

kətlər etmiş ingilis komandanlığına yazılı şəkildə qəti etiraz bildirilsin;

2. Bu etirazın surəti İngiltərə, Amerika, Fransa və İtaliya hökumətlərinə göndərilsin və belə bir inam ifadə olunsun ki, Qafqazdakı ingilis komandanlığının düşünülməmiş siyasəti heç də İngiltərənin siyasəti deyildir və yalnız yerli komandanlıq buradakı müsəlman və gürcü əhalisinin ingilislərə olan nüfuz və inamını birdəfəlik qırırlar;

3. Eyni zamanda, bu etirazın bir surəti də Topçubaşova göndərilsin ki, o da şəxsən Antantaya etirazını bildirsin.

…14. Siz bu söylənilənlərlə razılığınızı bildirərsinizsə, onda teleqrafla mənə və bizim tərəfdən Gürcüstanla danışıqlarda iştirak edən digər şəxslərə məlumat verin ki, biz birlikdə general Kori və onun müavininə öz etirazımızı bildirək. Əgər dəyişiklik edilməsini lazım bilsəniz də bizə məlumat verin.

Tiflisdən qayıdan kimi təltif edildiyim 1-ci və 2-ci dərəcəli «Müqəddəs Mixail və Müqəddəs Georgi» ordenini Sizə göndərəcəyəm (onun birinci dərəcəlisini bolşeviklər talan vaxtı məndən almışdılar). 2-ci dərəcəlisini isə xahiş edirəm ki, ingilislərə qaytarasınız və bildirəsiniz ki, bunu gəzdirmək istəmirəm, çünki mən onları Azərbaycanın düşməni sayıram» (91).

Azərbaycanın müstəqilliyinə münasibətdə belə aydın və qətiyyətli mövqe Cümhuriyyət ordusu zabitlərinin böyük əksəriyyətinin mənəvi yetkinliyinin göstəricisi idi. Məsələn, 2-ci Qarabağ süvari alayının komandiri polkovnik Süleyman bəy Əfəndiyev alay komandirliyi vəzifəsinin təhvil verilməsi ilə bağlı imzaladığı əmrində Azərbaycanın müstəqilliyinə olan bağlılığını belə ifadə edirdi: "Azərbaycan Respublikası Hərbi Nazirliyi üzrə 24 nömrəli əmrlə mən süvari diviziyasının komandiri təyin edilmişəm. ...Təəssüf ki, rəhbərliyin iradəsi ilə mən sizdən ayrılmalıyam, cənab zabitlər. Siz mənimlə birlikdə, doğrudan da, qorxuya deyil, vicdana görə qüvvənizi əsirgəmədən işləmisiniz, ... əsgəri vəzifənizə şüurlu surətdə yanaşmısınız. Mən inanıram ki, siz gələcəkdə də məğrur olacaqsınız, nəzərləri möcüzə-bahadırlara dikilmiş bizim azad vətənin və millətin bayrağını daşıyacaqsınız. Bu isə

sizdən haradan gözlənilməsinə baxmayaraq, Vətənin düşmənlərdən müdafiəsi üçün şüurlu və birgə işi tələb edir. Vətənin gələcəyi sizin əlinizdədir. Onun abadlaşması, çiçəklənməsi və ya asılı olması bizim özümüzdən asılıdır".

Qeyd etmək lazımdır ki, 1920-ci ilin əvvəllərində Azərbaycanın dövlət ordenlərinin və medallarının təsis edilməsi qərara alınmışdı. Bu məsələ ilə bağlı hökumətin 30 yanvar 1920-ci il tarixli iclasında Hərbi nazir S.Mehmandarov məruzə etmişdi. Onun məruzəsindən sonra ordenlərin layihələrinin hazırlanması qərara alındı. Qərarda o da bildirilirdi ki, bütün layihələrin məzmununun əsasını məhz Azərbaycanın müstəqilliyi təşkil etmələdir (92). Ancaq 1920-ci ilin aprel işğalı ilə bağlı bu işi başa çatdırmaq mümkün olmadı.

Qoşunların şəxsi heyətinin mənəvi tərbiyəsində tələbkarlıqla qayğı, əsaslandırılmış və məqsədyönlü iş üzvü vəhdət təşkil edirdi. Eyni zamanda, bu məsələ ayrıca təcrid olunmuş şəkildə deyil, bütün təlim-tərbiyə prosesinin ümumi axarında həll edilirdi. Hərbi qulluqçunun şəxsiyyətinə hörmət, ona etimad, inam və ümid bütün görülən işlərin mərkəzində dayanırdı.

Hərbi Nazirliyin rəhbərliyi qoşun hissələrinin şəxsi heyətinin mənəvi tərbiyəsini hər şeydən əvvəl xalqın milli-mənəvi dəyərləri üzərində aparılmasını zəruri sayırdı. Nazirliyin rəhbərliyində, hissə və birləşmələrin komandanlığında olan yüksək rütbəli zabitlərin hamısının bir hərbçi kimi çar Rusiyası ordusunda tamam fərqli olan milli-mənəvi meyarlar çərçivəsində yetişmələrinə baxmayaraq, Azərbaycanın milli dəyərlərinə olan münasibəti qürur mənbəyi, vətənpərvərliyin bariz nümunəsi idi. Bununla bağlı əvvəlki fəsillərdə artıq bir sıra məqamlara toxunulmuşdur. Əsgərlərin məişətinin təşkilinin milli zəminlər üzərində qurulması, xidmət nizamnamələrinə milli elementlərin daxil edilməsi, hərbi simvolların milli planda tərtib edilməsi və s. bir sıra məsələlər milli-mənəvi dəyərlərə münasibətin ifadəsi idi. Azərbaycan döyüşçüsünün mənəvi dünyasının yaradılmasında mənsub olduğu xalqın tarixi keçmişinin öyrənilməsinə, onun qəhrəmanlıq nümunələri üzərində tərbiyələndirilməsinə böyük diqqət yetirilirdi. Bu baxımdan Hərbi nazir S.Mehmandarovun bu günümüz üçün də

öz aktuallığını itirməyən çox qiymətli fikirləri qorunub saxlanılmaqdadır. Həmin fikirlərin mahiyyəti bundan ibarətdir ki, Azərbaycanın qəhrəmanlıq tarixi həm araşdırılmalı, həm də xalq kütlələrinə, o cümlədən qoşunların şəxsi heyətinə çatdırılmalıdır. S.Mehmandarov şübhə etmirdi ki, yalnız azərbaycanlılardan təşkil edilmiş olan hərbi qüvvələr öz xalqının qəhrəmanlıq tarixini yaxşı bilməli, ondan ibrət götürməlidir. Hərbi nazir bu istiqamətdə aparılan işlərdə ifratçılığa varmağa, milli tərbiyəni millətçiliyin qızışdırılması ilə bir səviyyədə tutulmasına heç cürə razı deyildi. O, milli tarixi keçmişin öyrənilməsində yalnız sağlam hisslərin aşılanmasını və mütərəqqi xəttin izlənilməsini əsas sayırdı: "Bolşevizmə qarşı mübarizənin istiqamətlərindən biri xalq içərisində sağlam milli hisslərin yaradılmasıdır. Azərbaycanın yaranmaqda olan gənc ordusu üçün bu xüsusilə lazımdır. Yalnız azərbaycanlılardan təşkil olunmuş hərbi qüvvələrimiz öz xalqının ümumdünya tarixinin səhifələrinə yazmış olduğu və bizdən daha çox Avropa xalqlarının xatırlayıb danışdıqları çoxlu igidlikləri, şərəfli döyüş keçmişini bilməlidirlər. Bir əsrdən də artıq rus ağalığından xilas olmuş türk xalqı bilməlidir ki, biz heç də həmişə əsarətdə olmamışıq, həm də öz iradəmizi Avropa və Asiyaya nümayiş etdirmişik. Güman edirəm türk tarixinin bilicilərindən kiməsə xalqımızın müxtəsər tarixini və bu günümüzə qədər olan ən mühüm hadisələri əks etdirən kütləvi kitabçaların tərtib və nəşr edilməsinin tapşırılması faydalı olardı. Sadə xəritələrin əlavə edilməsi də yaxşı olardı. Burada bizim tarixi qəhrəmanlığımız və yad hakimiyyətlər altında olduğumuz vaxt çəkdiyimiz iztirablar güzgüdə olduğu kimi öz əksini tapmalıdır. Onların ifadə tərzi obyektiv və təmkinli olmalıdır ki, millətçilik barədə təsəvvür yox, bəlkə əsrlik yuxudan oyanan millətdə sağlam milli hisslər yaratsın.

Bizim bir sıra müsəlman mütəfəkkirlərin meyil etdiyi ifrat sosial təlimlər müsəlman xalq kütlələrindən yüksək mədəni inkişaf tələb edir. Onların qaranlıq, nadan kütlələrlə calaşdırılması bütün Avropa Rusiyasının məruz qaldığı anarxiya və terrora yol aça bilər. Biz müsəlmanlar şüurlu həyata və milli yaradıcılığa yenicə qədəm qoymuşuq. İnternasional ideyalar hələlik bizdən çox uzaqdır. Bax buna görə də bizim ziyalılarımızın ən mühüm vəzifələ-

rindən biri xalqı və ordunu onun tarixi keçmişi ilə tanış etməkdir. Bu bizim internasional səylərimizin əsassızlığını, xalqda milli hisslərin və türk irqinə mənsubluqdan qürur keçirməyin inkişaf etdirilməsi üçün yaxşı sübut olardı. Belə kütləvi tarixi nəşrlər xalq arasında və qoşunlarda geniş yayılmalı və bunun üçün hər bir kənd müəllimi, hər bir müsəlman zabit ondan geniş istifadə etməlidir. Gələcəkdə ümumxalq qərarı və hökumətin köməyi ilə türk xalqının böyük xadimləri və rəhbərləri müvafiq abidələr qoyulmaqla əbədiləşdirilməlidirlər" (93).

Çıxışlarının birinə S.Mehmandarov hərb tarixinin öyrənilməsinin zəruriliyi barədə öz fikirlərini belə davam etdirirdi:" ... hərb tarixinin öyrənilməsi əqli dünyagörüşünü genişləndirir, tənqidi mühakiməni, diribaşlıq və zirəkliyi inkişaf etdirir. Hərb tarixini öyrənməklə siz ovucunuzun içində olduğu kimi bu və digər tərəfin bütün səhvlərini, nəyi etməyin lazım gəlmədiyini və necə hərəkət lazım olduğunu görürsünüz, hərb tarixini öyrənməklə siz ən çətin vəziyyətdən baş çıxarmaq və müvafiq qərarı çıxarmaq vərdişləri əldə edirsiniz; hərb tarixini öyrənməklə döyüş zamanı qoşunlara çox baha başa gələn səhvlərin buraxılmasından özünüzü müəyyən qədər qorumuş olursunuz. Güman edirəm ki, deyilənlər hərb tarixinin öyrənilməsinin əhəmiyyətini başa düşməyə kifayətdir. Bunun üçün də mən belə hesab edirəm ki, hərb tarixi hər bir hərbi adam üçün stolüstü kitaba çevrilməlidər. Onu öyrənməklə siz, heç şübhəsiz ki, özünüzü həsr etdiyiniz yolda uğurlar qazanacaqsınız" (94).

İstiqlaliyyət əldə edildikdən sonra Azərbaycan hökuməti Azərbaycan dilini respublikanın dövlət dili elan etmişdi. Azərbaycan dili ordunun da dövlət dili elan edilmişdi və bu faktın özü də Azərbaycan əsgərlərində milli hisslərin inkişafına kömək edəcək bir amil kimi qiymətləndirilirdi. Komandaların milli dildə verilməsi, dərslərin milli dildə aparılması əsgərlərdə xidmətə qarşı bir bağlılıq yaradırdı. Artıq məlumdur ki, Hərbi Nazirliyin rəhbərliyi hətta rus və gürcü zabitlərin qarşısında da belə tələb qoymuşdu ki, bir ay müddətində bütün komanda sözlərinin azərbaycanca qarşılığını öyrənsinlər və şəxsi heyətə Azərbaycan dilində komanda versinlər. Əks təqdirdə, onlar xidmətdən uzaqlaşdırılmalı idilər.

Hərbi nazir bütün hissə komandirlərindən, idarə və şöbə rəislərindən tələb edirdi ki, möhürlər Azərbaycan və rus dilində hazırlansın. Hərbi Nazirliyin bərpasından sonra ilk aylarda aparılan yazışmalarda möhürlər və künc ştamplarında hissələrin və strukturların adı yalnız rus dilində yazılırdı. S.Mehmandarov bunu yolverilməz sayırdı. O bildirirdi ki, künc ştampları və möhürlər hazırlanarkən respublikanın dövlət dilinin Azərbaycan dili olması yaddan çıxarılmamalıdır. Onlarda hissə, birləşmə, idarə və şöbələrin adları birinci Azərbaycan dilində yazılmalı, sonra isə aşağıda rus dilində yazılmalıdır (95).

Zabitlərə Azərbaycan dilinin yaxşı öyrədilməsi üçün həm ordu daxilində, həm də ordudan kənar bir sıra kurslar təşkil edilmişdi. Ordudan kənar Azərbaycan dili kursları Maarif Nazirliyinin 20 avqust 1919-cu il tarixli qərarı ilə Bakı Realnı məktəbində açılmışdı. Pulsuz olan həmin axşam kurslarında həftədə üç dəfə dərs keçirilməli idi. Hərbi nazirin əmri ilə bu barədə qoşunlara məlumat verilməklə zabitlərə həmin kurslara getmək tövsiyə olunurdu (96).

Az sonra belə kurslar ordunun daxilində də yaradıldı. Ümumi qərargah rəisinin 21 sentyabr 1919-cu il tarixli sərəncamında göstərilirdi ki, Azərbaycan dilinin dövlət dili olması haqqında Azərbaycan hökumətinin 27 iyun 1918-ci il tarixli qərarının reallaşdırılması məqsədilə Ümumi qərargahın nəzdində də hərbi qulluqçular üçün Azərbaycan dili kursları açılmışdır. Bu kurs iki şöbədə təsis edilmişdi. Birinci şöbə Azərbaycan dilini heç bilməyənlər üçün nəzərdə tutulmuşdu. Kursda dərslər iki semestrdə keçirilməli idi. Birinci semestr sentyabrın 26-dan dekabrın 20- dək, ikinci semestr 1920-ci il yanvarın 2-dən aprelin 1-dək davam etməli idi. Dərslər həftədə 3 dəfə 2 saat həcmində planlaşdırılmışdı. Belə kursların hərbi hissələrdə də açılması nəzərdə tutulmuşdu (97).

Dil kursları təkcə zabitlər üçün deyil, həm də əsgərlər üçün açılırdı. Məlumdur ki, orduya gələn əsgərlərin mütləq çoxluğu savadsız idi. Bu isə onların milli dəyərlərlə yaxından tanışlığına maneçilik törətməklə bərabər, təlim-tərbiyə prosesinin ümumi gedişinə də mənfi təsir göstərirdi. Savadlı əsgərlərin azlığı üzün-

dən çavuş heyətinin hazırlanması da xeyli ləng gedirdi.

1920-ci ildə Hərbi Nazirlik əsgər heyətinin savadlandırılması işində nəzərəçarpacaq irəliləyişin əldə edilməsini planlaşdırırdı. Bu məsələ ilə bağlı Hərbi nazir 1920-ci il martın 3-də 129 nömrəli əhatəli bir əmr imzaladı. Həmin əmrdə deyilirdi ki, əsgərlər arasında Azərbaycan dilində savadın yayılması və təlim komandalarının savadlı əsgərlərlə komplektləşdirilməsi üçün piyada və süvari alaylarında tabor məktəbi yaradılmalıdır. Taborlardakı savad məktəbləri aşağıdakı tələblər əsasında təşkil edilməli idi:

1) tabor məktəblərinə savadsızlar, az savadlılar, lakin fəhmli əsgərlər göndərilməli idi;

2) hər bir bölük məktəbə 15 əsgər göndərməli idi;

3) tabor məktəblərində tədris müddəti 4 ay idi;

4) tabor məktəblərinə rəhbərlik Azərbaycan dilini yaxşı bilən, xüsusən də vaxtilə müəllim işləmiş zabitlərə tapşırılmalı idi;

5) tabor məktəblərini bitirən əsgərlərin arasından 20–25 nəfər ən yaxşısı seçilərək alay məktəbinə göndərilməli idi;

6) alay məktəbləri isə tabor məktəblərini bitirən əsgərlərin savad səviyyəsini daha da təkmilləşdirməli və təlim komandalarında hazırlıq keçmələri üçün onlara zəruri olan biliklər verməli idi;

7) alay məktəblərində də təhsilin müddəti 4 ay olmalı idi;

8) alay məktəbində ilkin savaddan başqa əsgərlər hesablamanın dörd qaydasını və Azərbaycan xalqının müxtəsər tarixini keçməli idilər;

9) alay məktəblərində dərslərin keçirilməsinə alay mollaları da cəlb edilməli idi;

10) süvari alaylarının hər birində alay məktəbi yaradılmalı və ora hər bir süvari alayından 5–10 savadlı əsgər cəlb edilməli idi;

11) topçu hissələrində belə məktəblər hər bir batareya və divizionda təşkil edilməli idi;

12) bu məktəblərdə işləyən müəllimlər üçün əlavə mükafatlandırma vəsaitləri nəzərdə tutulmalı idi;

13) dərslər xidmətdənkənar vaxtlarda, gündə 2 saat müddətində keçirilməli idi;

14) dəftərxana ləvazimatının əldə edilməsi üçün alayların maliyyə vəsaitindən ayda bir min rubl ayrılmasına icazə verilirdi.

Bundan başqa, nazir əmrində ordunun qərargah rəisinə, ləvazimat rəisinə tapşırıq vermişdi ki, məktəblərin işinin təşkili üçün Maarif Nazirliyi ilə əlaqə yaradılsın və lazımi işlər görülsün (98).

Qoşunların ümumi təlim-tərbiyəsi çərçivəsində əsgərlərlə söhbətlər aparılması, onlara Azərbaycanın tarixi, əsgəri borcun mahiyyəti, hərbi anda sədaqət və s. mövzuların çatdırılması da nəzərdə tutulurdu. Belə dərslərin aparılmasına ən yaxşı zabitlər və hissələrin mollaları cəlb edilirdilər (99).

Qoşunların şəxsi heyətinin milli tarixi köklərə bağlanılması və onların mənəvi saflaşması baxımından Novruz bayramlarının ümumordu miqyasında qarşılanmasının və keçirilməsinin təşkili də diqqəti cəlb edirdi. Öz mövcudluğu dövründə Azərbaycan Ordusu iki dəfə Novruz bayramını qarşılamış və hər ikisini də təntənəli şəkildə keçirmişdi. Novruz bayramının qeyd edilməsi əsl bayram ovqatında həyata keçirilirdi. Hər iki bayram da qoşunların hərbi paradı ilə şəxsi heyətin yadında qalmışdı.

1919-cu ilin Novruz bayramı ərəfəsində nazirin imzaladığı əmrə əsasən şəxsi heyət üç gün dərslərdən azad edildi. Bu əmrə əsasən ümumi bayram süfrəsi açılmalı, əsgərlərin iaşəsi gücləndirilməli idi (100).

1920-ci ilin Novruz bayramının yadda qalan şəkildə keçirilməsi üçün üç gün ərzində əsgərlərin iaşəsinə hər gün üçün əlavə 40 rublun xərclənməsinə icazə verildi.

Novruz bayramı ərəfəsində Hərbi nazir mərhəmət və qayğı göstərərək cəzalandırılmış əsgərlərin günahından keçir, ya da cəzalarını azaltmaqla onlara bayram sevinci bəxş edirdi. 1919-cu ilin Novruz bayramı ərəfəsində Hərbi nazir S.Mehmandarov ölüm hökmünə məhkum edilmiş 6 əsgəri əfv edərək onların cəzalarını 6 illik həbslə əvəz etdi. 3-cü Gəncə piyada alayından olan həmin əsgərlər 1919-cu il martın 8-də axşam silahlı şəkildə yolda rastlaşdıqları bir neçə nəfəri hədələyərək soymuşdular. Əsgər adına və şərəfinə yaraşmayan bu əməllərə görə onlar dərhal hərbi səhra məhkəməsinə verilmiş və burada onlara ölüm cəzası kəsilmişdi. Hərbi nazir 14 mart 1919-cu il tarixli 127 nömrəli əmrində bildirirdi ki, bu hökm tamamilə ədalətli hökmdür. Lakin əsgərlərin öz günahlarını etiraf etməsini, ordu quruculuğu prosesində bir sıra

çətinliklərin olmasını, habelə Novruz bayramının yaxınlaşmasını nəzərə alaraq nazir ölüm cəzasını həbs cəzası ilə əvəz etməyi məqsədəuyğun bildi (101).

1920-ci ilin Novruz bayramı ərəfəsində də Hərbi nazir S.Mehmandarov əmr imzalayaraq intizam qaydasında həbs edilmiş bütün hərbi qulluqçuları azad etdi. Ancaq həmin əmrdə göstərilirdi ki, bu tələb istintaq altında olan hərbi qulluqçulara şamil edilmir (102).

Hərbi Nazirliyin rəhbərliyi, eyni zamanda, hərbi qulluqçuların milli-mənəvi normalarla səsləşməyən hərəkətlərə yol verməsinə qarşı kəskin mövqe tutur və bunu ordunun mənəvi saflığının qorunmasına təhlükə kimi qiymətləndirirdi. Hərbi nazirin 14 mart 1919-cu il tarixli 126 nömrəli əmrində deyilirdi ki, alınan məlumatlara görə ordunun bir sıra zabitləri və məmurları klub və cəmiyyətlərdə böyük pulla qumar oyunları oynayırlar. Əmrdə şəhər komendantından, idarə rəislərindən tələb olunurdu ki, bu məsələ ciddi nəzarət altında saxlanılsın və kimsə belə bir işdə günahkar bilinərsə, dərhal xidmətdən azad olunması üçün təqdim olunsun (103).

III fəsildə qeyd edilmişdi ki, zabit nüfuzu və şərəfi ilə bir araya sığmayan belə hərəkətlər üçün Hərbi nazir hətta generala da güzəştə getməmiş və general-mayor Purseladzeni Azərbaycan Ordusunun sıralarından xaric etmişdi. 1920-ci ilin mart ayında Novruz bayramı ərəfəsində S.Mehmandarovun əmri ilə əsgər şərəfi, əxlaqı və alicənablığı anlayışları ilə bir araya sığmayan əməllərə yol verdiyi, zabit şərəfini qoruyub saxlaya bilmədiyi və davranış normalarına riayət etmədiyi üçün iki azərbaycanlı praporşik də xidmətdən azad edilmişdilər (104).

Hərbi nazir əsgərlərə qarşı fiziki təzyiq göstərilməsini də qətiyyətlə pisləyirdi və belə halların baş verməsinə qarşı çox ciddi mövqe tuturdu. O bəyan edirdi ki, belə hallara yol verilməsi hərbi hissələrin təşkilatlanmasına mane olur və şəxsi heyətin mənəvi cəhətdən korlanmasına yol açırdı. S.Mehmandarov diviziya komandirlərindən və hissə rəhbərlərindən ciddi şəkildə tələb edirdi ki, əsgərlərə qarşı fiziki təzyiqlərə yol verilməsinin qarşısı alınsın və belə hərəkətlərə yol verənlər barədə şəxsən ona məlumat verilsin.

S.Mehmandarov bütün fəaliyyəti boyu zabit və komandirləri əsgər zəhmətini düzgün qiymətləndirməyə, yersiz hərəkətləri, əsaslandırılmamış əmrləri ilə əsgərlərdə xidmətin müqəddəsliyinə, komandirlərinə qarşı etibarsızlığın yaranmasına yol verməməyə çağırırdı. 1919-cu il fevral ayının əvvəlində Hərbi nazirin Şuşaya gəlməsi münasibətilə buradakı taborun şəxsi heyəti açıq havada düzülmüş və qarşılanma mərasimi keçirilmişdi. S.Mehmandarov onun xəbəri olmadan şəxsi heyətin soyuq havada sıraya düzülməsinin və bu vəziyyətdə xeyli gözləməsinin komandir heyətinə qarşı əsgərlərdə hər hansı hörmətin formalaşdırılmasına zəmin yaratmadığını qeyd edir və belə hərəkətlərə qarşı kəskin etirazını bildirirdi (105). O, süni şəkildə ordu rəhbərliyinə qarşı hörmət yaradılmasının tamamilə əleyhinə idi və əsgər qəlbinə daha qayğıkeş və prinsipial münasibətlərlə yol tapmağa çalışırdı. Xidmətə qarşı sədaqət və vicdanlı münasibət göstərən heç bir əsgərin və zabitin ibrətamiz əməlləri Hərbi nazirin diqqətindən kənarda qalmırdı. Belə əməllər əmrlə ordunun bütün şəxsi heyətinə elan edilirdi və onlara nümunə kimi təqdim olunurdu. Hərbi nazir özünün 3 mart 1919-cu il tarixli 130 nömrəli əmrində göstərirdi ki, 1-ci Tatar süvari alayının əsgəri, Bakı qəzasının Saray kəndinin sakini Xanmirzə Məlik Əhməd oğlu xəstə anasına baş çəkmək üçün icazə alıb evlərinə gedibmiş. Necə olursa əsgər öz evlərində vəfat edir. Ancaq vəfatından qabaq xəstə anasından xahiş edir ki, əsgər libası hökumət malı olduğu üçün onu hissəyə göndərsin. Anası da oğlunun vəsiyyətinə əməl edərək xidməti paltarı geriyə qaytarır. S.Mehmandarov vəfat etmiş süvarinin xidməti ilə maraqlandıqda məlum oldu ki, o, həmişə nümunəvi davranışı, sonsuz təmizliyi, işgüzarlığı və intizamlılığı ilə fərqlənirmiş. Belə bir əsgərin – Vətən müdafiəçisinin ölümünü Hərbi nazir ağır bir itki sayırdı və onun Azərbaycan Ordusu sıralarında xidmətə vicdanlı münasibətini hamıya nümunə göstərirdi. Adı çəkilən əmrini S.Mehmandarov aşağıdakı cümlələrlə bitirirdi: "Belə bir süvarinin ölümü xidmət etdiyi hissə üçün böyük itkidir. Hamının diqqətini belə bir məsələyə cəlb edirəm ki, ölüm anına qədər Xanmirzə Məlik Əhməd oğlu bütün xidməti əmlakı öz hissəsinə qaytarmağa borclu olduğunu unutmamışdı. Onun qoca anası isə

çox kasıb olmasına baxmayaraq, oğlunun iradəsini yerinə yetirməyə imkan tapmışdı. Allah bizim Vətənimizə belə təmiz insanlardan daha çox qismət eləsin" (106).

Hərbi nazirin başqa əmrlərində hissələrdə Xanmirzə kimi əsgərlərin hərəkətləri ilə daban-dabana zidd olan əməllərə yol verildiyinin və onların həm zabitlər, həm də əsgərlər tərəfindən törədildiyinin şahidi olmaq mümkündür. Məsələn, 28 fevral 1920-ci il tarixli 125 nömrəli əmrində S.Mehmandarov bildirirdi ki, bir sıra hərbi hissələrdə, o cümlədən də hərbi məktəbin özündə bəzi zabitlər və hətta çavuşlar tərəfindən xidməti əmlaka, maliyyə vəsaitlərinə qərəzli münasibət barədə məlumat alınmaqdadır. Hərbi nazir bu sayaq əməlləri şərəfsizlik kimi qiymətləndirirdi, belə mənəvi düşkünlüyə yuvarlanmış hər bir zabitə və çavuşa qarşı ən qətiyyətli tədbirlərin tətbiqinin zəruriliyini vurğulayırdı. Hərbi nazir bütün səviyyələrdə olan komandirlərdən tələb edirdi ki, gənclərin tərbiyəsinə diqqət yetirsinlər və mənəviyyatsızlığa yol verib xidməti əmlaka nankorcasına yanaşan çavuşlar rütbələrinin aşağı salınması üçün təqdim edilsinlər (107).

Hərbi nazir hərbi qulluqçular arasında xidmət intizamın artırılmasını onların mənəvi keyfiyyətlərinin mühüm göstəricilərindən biri sayırdı. Bu məsələ ilə bağlı imzaladığı əmrlərindən birində S.Mehmandarov bütün səviyyəli komandirlərdən və zabitlərdən tələb edirdi ki, verilmiş əmrlər yuxarıların nəzarəti olmadan icra olunsun və sonra da yuxarı orqanlara lazımi məlumat verilsin. Onun yazdıqlarından belə məlum olurdu ki, hissələrə göndərilən əmrlər, teleqramlar bir çox hallarda sadəcə məlumat kimi qəbul edilir, amma onların tələbinin yerinə yetirilməsi diqqətdən kənarda qalırdı. Hərbi nazir bildirirdi ki, əmrlərin vaxtında və düzgün icra edilməsi və sonra da əlaqədar instansiyalara vaxtında məlumat təqdim olunması hərbi xidmətin əsasını təşkil edir. Bu tələbə əməl olunmaması qoşunların idarə edilməsini dinc dövrdə çətinləşdirər, müharibə dövründə isə qeyri-mümkün edər. S.Mehmandarov komandir heyətindən tələb edirdi ki, xidməti intizamın gücləndirilməsi üçün zəruri addımları həyata keçirsinlər və bununla bağlı iradların aradan qaldırılmasını təmin etsinlər.

Hərbi nazirin 25 iyun 1919-cu il tarixli 311 nömrəli əmrinin məzmunundan məlum olur ki, çoxdan xidmətdə olan bir sıra əsgərlərin xidmətə yeni gələn əsgərlərdən rüşvət alması halları da mövcuddur. Nazir təəssüflə qeyd edirdi ki, bu barədə məlumatlar bütün hissələrdən alınmaqdadır. S.Mehmandarov köhnə və yeni əsgərlər arasında rüşvətalma faktının olmasını gənc əsgərlərin tərbiyəsinə və intizamına ziyan gətirən özbaşınalıq kimi qiymətləndirirdi. O diviziya komandirlərindən qətiyyətlə tələb edirdi ki, belə özbaşınalıqlara təcili surətdə son qoyulsun və günahkar şəxslər məsuliyyətə cəlb olunsunlar (108).

Xidməti tələblərə məsuliyyət nümayiş etdirməyərək hərbi intizamın pozulmasına yol açan bütün hərəkətlər ciddi şəkildə cəzalandırılırdı. Gəncə hərbi rəisinin idarəsində xidmət edən əsgər otağa daxil olan zabitə əsgəri qaydada hərbi-təzim etmədiyi üçün hərbi səhra məhkəməsinə göndərilmişdi (109).

Bəzi əsgərlərin nalayiq hərəkətləri barədə "Azərbaycan" qəzetində qeydlər çap olunandan sonra Hərbi nazirin əmrinə müvafiq olaraq Baş Ərkani-hərbin rəisi Sulkeviç həmin əsgərlərin tapılıb məsuliyyətə cəlb olunması barədə göstəriş verdi (110).

Hərbi Nazirliyin rəhbəri şəxsi heyətin mənəviyyatının korlanmasına, intizamsızlığın genişlənməsinə, ordunun dayaqlarını təşkil edən dəyərlərin zəiflədilməsinə istiqamətlənmiş yad təbliğatların qarşısının alınması ilə də kəskin mübarizə aparırdı. Xalqın və ordunun qarşılaşdığı obyektiv çətinliklərdən istifadə edərək öz fəaliyyətini genişləndirməyə çalışan bir sıra qüvvələr tutduqları ifrat mövqe ilə Azərbaycan dövlətçiliyinin əsaslarına qarşı mübarizə aparır və ordunun şəxsi heyətini də bu mübarizəyə qatmağa çalışırdılar. Çox da böyük potensiala malik olmayan qüvvələrə türk hərbi qüvvələrinin Azərbaycanı tərk etməsindən sonra Azərbaycanda qalmış və mövcud reallıqları, tarixi şəraiti düzgün qiymətləndirə bilməyən bir neçə kiçik çinli türk zabiti də qoşulmuşdu. Belə zabitlərin rəhbərliyi və iştirakı ilə hələ 1918-ci il noyabr ayının sonlarında Ağdamda etirazlar edilməsinə cəhd göstərildi. Lakin Hərbi Nazirliyin həyata keçirdiyi təxirəsalınmaz və qətiyyətli tədbirlər nəticəsində orduda itaətsizliyə nail olmağa çalışan bu kiçik qüvvə Ağdamdan qaçıb dağıldı (111).

Ancaq Hərbi nazir S.Mehmandarov bildirirdi ki, əhalinin bəzi dairələri ordu daxilində əks-təbliğat apararaq bu qüvvələri açıq himayə edir, onun üzvlərinə kömək göstərirdilər. Polis orqanlarının qətiyyətsizliyi isə kiçik çinli zabitlərin qanunazidd hərəkətlərinin davam etməsinə şərait yaradırdı. Mövcud vəziyyəti düzgün qiymətləndirməyi bacarmayan həmin türk zabitlərinə Gəncə Podpraporşiklər məktəbinin məzunlarından da qoşulanlar var idi. Ağdamda ilk cəhdləri uğursuzluğa düçar olan kiçik çinli zabitlər Hacıqabula gələrək buradakı piyada alayının şəxsi heyəti və zabitləri arasında da təbliğata başladılar. Lakin burada onların əməlləri müdafiə olunmadı. Belə olanda kiçik çinli türk zabitləri yenidən Ağdama qayıtdılar. Hacıqabuldakı alaydan 1-ci Cavanşir piyada alayına dəyişdirilən bir neçə podpraporşik də onlara qoşuldu. Ağdamdakı bəzi dairələrin də dövlətə qarşı iddialı mövqe tutması kiçik çinli türk zabitlərinin ətrafında toplaşanları tezliklə ordu əleyhinə itaətsizlik aktına sövq etdi (112). Güman edilirdi ki, bütün qoşun hissələrində onların ideyalarını müdafiə edənlər tapılacaq və ümumordu miqyasıda mövcud Azərbaycan hakimiyyətinə qarşı itaətsizlik göstəriləcəkdir. Bunun üçün bir çox hissələrə xüsusi nümayəndələr və emissarlar da göndərildi. İtaətsizliyin başlanması isə 1918-ci il dekabrın 29-da nəzərdə tutulmuşdu (113).

Azərbaycan dövlətçiliyi əleyhinə təbliğat aparan bu qüvvələr güman edirdilər ki, apardıqları təbliğat və təşviqat işləri ilə özlərinə hissələrdə lazımi arxa və dayaq tapacaq və onların vasitəsi ilə hissələrin komandanlığını həbs edərək öz tələblərini irəli sürəcəklər.

Ancaq Ağdamdan başqa digər heç bir hissədə qoşunların şəxsi heyəti ordunun rəhbərliyinə və bütünlükdə Azərbaycan dövlətçiliyinə qarşı mövqe tutmadı. Burada başlanan özbaşınalığın və qanunsuzluğun ilham mənbəyi isə Qazax piyada alayının *(sonradan Gəncə piyada alayı adlandırıldı – M.S.)* pulemyot komandası idi. Qazax piyada alayının Ağdamda yerləşən 2-ci taborunun, Şuşada yerləşən 1-ci taborunun şəxsi heyətinin müəyyən qismi də bu özbaşınalıqlara qoşuldu. İtaətsizlik göstərən qüvvələr 1-ci piyada diviziyasının komandiri general-mayor Usubovu və diviziya

qərargahını həbs edərək aşağıdakı şərtlərin qəbul olunmasını tələb etdilər:

1) bütün rus zabitləri dərhal Azərbaycan Ordusundan xaric edilsin və onlar türk zabitləri ilə əvəz olunsun;

2) təcili olaraq ingilis qoşunları Şuşadan və bütün Azərbaycandan çıxarılsın;

3) Şuşaya doğru irəliləyən Andronikin dəstəsinin qarşısının alınması üçün qəti tədbirlər görülsün (114).

General-mayor Usubov irəli sürülən tələblərlə razılaşdığını və həmin tələblərin Hərbi Nazirliyə ötürülməsinə hazır olduğunu bildirəndən sonra həbsdən azad edildi. Sonra o, yaranmış vəziyyət barədə Hərbi Nazirliyə məlumat verib bu özbaşınalıqların aradan qaldırılması üçün kömək istədi. Hərbi nazir S.Mehmandarovun əmri ilə general S.Əfəndiyev dərhal Bərdəyə yollandı və oradan 2-ci Qarabağ süvari alayı ilə birlikdə Ağdama doğru hərəkətə başladı. Hadisə yerinə çatandan sonra general-mayor S.Əfəndiyev əmr etdi ki, Ağdam qarnizonunun şəxsi heyəti üzbəüz iki sıra boyu düzülsünlər. Ağdama gələn qüvvəyə qarşı müqavimət göstərməyin mənasız olduğunu anlayan əsgər və zabitlər əmrə tabe oldular. Qazax alayının pulemyot komandası isə əmrə tabe olmadı və bu komandanın hərbçiləri haqlı cəza alacaqlarından qorxub qaçıb dağılışdılar (115). Pulemyot komandasının qaçıb dağılan şəxsi heyəti özü ilə 18 pulemyot və 30 min patron apara bilmişdi (116).

Ağdamdakı mürəkkəbləşən vəziyyətin sabitləşdirilməsinə kömək göstərilməsi üçün Daxili İşlər nazirinin müavini general-mayor Ağabəyov ora göndərildi. Ağdama gələn kimi dərhal o, vəziyyətin araşdırılmasına başladı. Mərkəzə göndəriyi raportunda general-mayor Ağabəyov da yaranmış gərginliyin əsas törədicilərinin kiçik çinli türk zabitlərinin olduğunu təsdiq edirdi. Onun raportundan aydın olur ki, Azərbaycan Ordusunun bir podpraporşiki, üç nəfər kiçik çinli hərbi qulluqçusu və bir neçə yerli əhali də bu hadisələrin fəal iştirakçılarından idi. Həmin türk zabitləri, Ağdamdakı pulemyot komandasının komandiri podpraporşik Şirin Muradov, üç hərbi qulluqçu və bir neçə yerli sakin haqlı cəzadan yaxalarını qurtarmaq üçün üç faytonla Ağdamdan Qaryaginə qaçdılar. General-mayor Ağabəyov Qaryaginin qəza rəisinə teleq-

ram göndərərək qanun pozucularının teziliklə həbs olunmasını tələb etdi (117).

Qeyd etmək lazımdır ki, türk hərbi qüvvələri Azərbaycanı tərk edəndən sonra gizli şəkildə xeyli sayda türk zabiti Azərbaycanda qalmışdı və onların heç də hamısı Azərbaycanın müstəqilliyinə qarşı şübhəli mövqe tutmamışdılar. Əksinə, ingilislər tərəfindən ciddi təqiblərə baxmayaraq, Azərbaycanda qalan türk zabitləri bütün bacarıqlarını bu müstəqil dövlətin düşmənlərinin aradan qaldırılmasına və ölkənin möhkəmləndirilməsinə sərf edirdilər. Onlardan biri də Zəngəzurda erməni quldur dəstələrinə qarşı ardıcıl mübarizə aparan və buradakı Azərbaycan əhalisini erməni qırğınlarından qorumağa çalışan Kazım bəy idi. O, Ağdamda vəziyyətin mürəkkəbləşməsini və bu hadisələrdə türk zabitlərinin də iştirak etməsini eşidən kimi dərhal Ağdama gəlmiş və günahkar türk zabitlərinin həbs edilərək Azərbaycan hökumətinin sərəncamına verilməsinə kömək etməyə hazır olduğunu bildirmişdi. Kazım bəy topladığı məlumatlardan sonra aşkar etmişdi ki, türk zabitlərinə Ələddin bəy adlı birisi rəhbərlik edir və onlar Ağdamdan qaçaraq Qaryagin ərazisində gizlənirlər. Kazım bəy bu barədə Cəbrayıl qəzasının rəisinə məlumat verərək ondan həmin şəxsin və onun silahdaşlarının tutulmasına kömək göstərilməsini xahiş etdi. Qəza orqanlarının məsul şəxslərinin, ordu nümayəndələrinin, eləcə də Kazım bəyin fəal və qəti iştirakı ilə tezliklə Ağdamda iğtişaşlar yaradanlar həbs edildilər, onlardan 7 ədəd tüfəng və 1 ədəd revolver alındı və özləri də Ağdama yola salındı. Cəbrayıl qəzasının rəisi yuxarı orqanlara göndərdiyi raportunda günahkar şəxslərin tutulmasında və Azərbaycan dövlətçiliyinə sədaqət göstərməsində Kazım bəyin fəaliyyətini xüsusilə qeyd edirdi (118).

Azərbaycan Ordusu daxilində ilk ciddi sınaq olan bu özbaşınalıqlar həyata keçirilən ciddi və qətiyyətli tədbirlərdən sonra tezliklə yatırıldı və təlim-tərbiyə prosesinin ahəngi bərpa olundu. İfrat mövqedə dayanan qüvvələr ordu daxilində özlərinə sosial baza tapa bilmədilər və onların ideyaları şəxsi heyət arasında lazımi əks-səda yaratmadı.

İstər Ağdamda baş verən hadisələr, istərsə də hissələrdə aparılan müşahidələr göstərirdi ki, kiçik zabit heyətinin mənəvi

təlim-tərbiyəsi ciddi diqqət tələb edir. 1919-cu ilin martında Əlahiddə Zaqatala taborunun komandiri podpolkovnik Dibirov Ümumi qərargahın rəisinə ünvanladığı raportunda da kiçik zabit heyətinin mənəvi keyfiyyətlərinin kifayət qədər aşağı olduğunu bildiridi. Bu taborun kiçik zabit heyəti, əsasən, Gəncə podpraporşiklər məktəbini bitirmiş gənclər idi. Onlar isə xidmətin ilk çətinliklərinə və sınaqlarına lazımi səviyyədə sinə gərə bilməmişdilər. Xüsusilə onların çoxunun bir taborda birləşməsi dedi-qodulara rəvac verilməsi üçün şərait yaratmışdı. Bu zabitlər başqa zabitlərə və dövlət mülkiyyətinə münasibətdə prinsipial mövqe tuta bilmirdilər. Xüsusilə onlar rus dilli zabitlərlə yola getmək istəmirdilər. Rus dilində olan söhbətlərə, rus dilində verilən əmrlərə heç qulaq asmaq belə istəmirdilər. Eyni zamanda, yeri gəldi-gəlmədi başqalarının işlərinə müdaxilə edirdilər, özlərinə aid olmayan işlərlə məşğul olurdular. Tabor komandirinin fikrincə, kiçik zabitlər ilk vaxtlar daha çox dağıdıcı şəxslər kimi tanınmışdılar, qurucu zabitlər kimi yox. Bu zabitlərin mənəvi tərbiyəsi ilə məşğul olmaq üçün taborun komandanlığı xeyli əziyyət çəkməli olmuşdu. Bununla belə kiçik zabitlərin heç də hamısında prinsipial xidmət keyfiyyətlərinin əldə edilməsi mümkün olmamışdı. Tabor komandiri aparılan işlərin müəyyən nəticəsinin olduğunu bildirsə də, onun mütəmadi olaraq aparılmasını zəruri sayırdı. Eyni zamanda, Hərbi Nazirliyin rəhbərliyi qarşısıda belə bir məsələ qaldırırdı ki, hərbi məktəbi bitirən kiçik zabitlər bərabər sayda bütün hissələrə bölünsünlər ki, onların daha çox təcrübəli zabitlərlə əhatə olunmaq imkanı olsun. Onun fikrincə, zabit heyəti Azərbaycan hökumətinin xidmətində dayanmalı olduğunu lazımınca anlasa, onlarla şəxsi heyət arasında da münasibətlər düzgün qurular (119).

Ordunun şəxsi heyətinin mənəvi əhval-ruhiyyəsinə mənfi təsir göstərən təbliğatlar da mövcud idi. Xüsusilə ziyanlı təbliğatın aparılması ordunun mövcudluğunun bütün tarixi boyu davam etmişdi. Bu təbliğatı aparan qüvvələr arasında bolşeviklər və kommunistlər xüsusilə fərqlənirdilər. Doğrudur, denikinçilər də Azərbaycan Ordusu daxilində olan rus zabitləri vasitəsi ilə hərbi hissələrdə müəyyən ovqat yaratmağa çalışırdılar. Lakin bolşevik təbliğatı denikinçilərlə müqayisədə daha əhatəli, geniş və ardıcıl idi.

Xüsusilə Qırmızı ordu hissələrinin cənuba doğru hərəkəti dərinləşdikcə Azərbaycandakı bolşevik qüvvələrinin fəaliyyəti və onların ordunun möhkəmlənməsinə qarşı istiqamətlənmiş əks-təbliğatı daha dağıdıcı xarakter alırdı. Cəmiyyət və ordu daxilində mövcud olan çətinliklər və problemlər isə bəzən bolşevik təbliğatının yayılmasına obyektiv zəmin yaradırdı.

Azərbaycan Ordusunun möhkəmlənməsinə qarşı istiqamətlənmiş təbliğat sırf şəxsi heyət arasında aparılmırdı. Mövcud reallıqlardan məharətlə istifadə edən bolşevik təbliğatçıları ilk növbədə savadsız kütlələrin şüuruna təsir göstərməyə, onları öz övladlarını Azərbaycan Ordusu sıralarında xidmətə göndərməkdən çəkindirməyə çalışırdılar. Çağırış-səfərbərlik işində mövcud olan çətinliklərin bir səbəbi də məhz bu cəhətlə bağlı idi. 1919-cu il martın 8-də Nazirlər Şurası sədrinin adına göndərdiyi məktubunda Hərbi nazir S.Mehmandarov bildirirdi ki, Qazax qəzasının kəndləri, demək olar ki, bütünlüklə çağırışçı verməkdən imtina edirlər. Bu da həmin zonada aparılan bolşevik təbliğatının nəticəsi idi. Bolşevik ünsürləri bölgədəki həm hərbi qüvvələrin, həm də əhalinin arasında ciddi təbliğat aparırdılar ki, bu da ordu quruculuğu prosesini xeyli çətinliklərlə qarşılaşdırırdı. Nazir vəziyyətin ciddiliyini belə təsvir edirdi: "Hazırda vəziyyət çox ciddidir. Əgər hökumət, xüsusilə də Daxili İşlər Nazirliyi və yerli inzibati orqanlar bu təbliğatın qarşısının alınması üçün fəal tədbirlər həyata keçirməsələr, mənə həvalə olunan vəzifənin uğuruna zəmanət verə bilmərəm... Təbliğat mənbələrinin ləğvi üçün əsaslı işlər görülməlidir və nə qədər ki gec deyil hökumətin qərarlarının həyata keçirilməməsinə zəmin yaradan bütün səbəblər kökündən qoparılmalıdır" (120).

Baş Ərkani-hərbin rəisi general-leytenant Sulkeviçin 1919-cu il aprelin 6-da qarnizon rəislərinə göndərdiyi sərəncamında bildirilirdi ki, Zaqafqaziya dəmiryolçularının nümayəndələrinin son günlərdə Ksanka stansiyasında keçirilən qurultayında da Azərbaycanda, onun ordusunun şəxsi heyəti arasında bolşevik təbliğatının gücləndirilməsi qərara alınmışdı. Bunun üçün Bakı təşkilatına tapşırılmışdı ki, təbliğat işinin aparılması üçün zəruri olan vəsaitin və ədəbiyyatın təchiz edilməsini öz üzərinə götürsün. Qoşun his-

sələri arasında bolşevik təbliğatının genişləndirilməsi üçün xüsusi bir qrup yaradılmışdı. Bu qrupa iki rus zabiti və bir neçə dəmiryolçu daxil idi. Həmin şəxslərin vasitəsi ilə qoşunlarla əlaqə yaradılması, şəxsi heyət arasında bolşevik ədəbiyyatının yayılması nəzərdə tutulmuşdu (121).

1919-cu il aprelin 7-dən 15-dək Bakıda keçirilmiş olan Zaqafqaziya Dağıstan və Zakaspi Həmkarlar İttifaqının qurultayında (122) bir sıra məsələlərlə yanaşı, Azərbaycanda bolşevik təbliğatının genişləndirilməsinə də toxunulmuşdu. Qurultay qarşıda dayanan başlıca vəzifənin Zaqafqaziya hüdudlarında Sovet hakimiyyətinin qurulması uğrunda mübarizə aparılmasından ibarət olduğunu vurğulayırdı. Hərbi nazir S.Mehmandarov şübhə etmirdi ki, belə vəzifəni qarşıya qoyan bolşeviklərin məqsədi Azərbaycanın müstəqilliyini məhv etmək və yenidən Sovet Rusiyası ilə birləşdirməkdir. 1919-cu il aprelin 21-də Daxili İşlər nazirinin adına ünvanladığı raportunda S.Mehmandarov Azərbaycanın istiqlaliyyətinin qorunacağına, respublika hökumətinin fəaliyyətinin əsasını təşkil etdiyi üçün bolşeviklərin dağıdıcı əməllərinə qarşı hökumət səviyyəsində lazımi addımlar atılacağına ümid edirdi (123).

Hərbi nazirin fikrincə, Zaqafqaziya bolşevizminin mərkəzi olan Bakıda bu qüvvələr fəaliyyətini genişləndirdikcə orduya göstərilən təsir də güclənəcəkdi. Ona görə də S.Mehmandarov Daxili İşlər nazirindən xahiş edirdi ki, polis orqanları Bakı qarnizonuna daxil olan hissələrə qarşı təbliğat işinin aparılmasını nəzarət altına götürsünlər və bununla hissələrin komandanlığına yardım etsinlər. Daxili İşlər Nazirliyi tərəfindən bolşevik təbliğatının qarşısının alınmasına qarşı yönəldilmiş tədbirləri S.Mehmandarov ordunun vahidliyinin və bütövlükdə Azərbaycanın istiqlaliyyətinin qorunması uğrunda aparılan mübarizə kimi qiymətləndirirdi və bu iki orqan arasında qarşılıqlı-faydalı əməkdaşlığın yaxşı əsaslar üzərində qurulacağına ümid etdiyini bildirirdi (124).

Bununla belə, bolşevik təbliğatı gündən-günə genişlənir və onun orduya nüfuz etmək ehtimalı real xarakter alırdı. Xüsusilə azərbaycanlılardan olan bolşeviklər, nəyin bahasına olursa-olsun Bakı qoşun bölmələrinin qışlalarına yol taparaq azərbaycanlı əsgərlər arasında öz təbliğatlarını aparmağa və bununla da daxili nizam

və intizamı pozmağa cəhd göstərirdilər. Hərbi nazir S.Mehmandarov qeyd edirdi ki, Bakıda olan hərbi qüvvələr, xüsusən piyada hissələri kifayət qədər formalaşmamışdı və buna görə də bolşeviklərin apardığı təbliğatın bu qüvvələrə daha tez təsir göstərəcəyi ehtimalı var idi. S.Mehmandarov 1919-cu il mayın 11-də Daxili İşlər nazirinə göndərdiyi məktubunda hələ tam formalaşmamış qoşun bölmələrinin bolşeviklərin dağıdıcı təbliğatından qorunması üçün hərbi şəhərciklərə polis nəzarətinin gücləndirilməsini və kənar adamların şəhərciklərə girməsinə yol verilməməsini xahiş edilirdi (125).

Azərbaycan Ordusunun qoşun hissələri arasında bolşevik təbliğatı aparmaq üçün "Hümmət" təşkilatının nəzdində xüsusi hərbi komissiya yaradılmışdı. Bu komissiyanın üzvləri – D.Bünyadzadə, M.D.Hüseynov, H.Cəbiyev və Ə.Əhmədov Azərbaycan Ordusunun hissələri ilə əlaqəyə girməli, tək-tək mövcud olan kommunistləri birləşdirərək ordu daxilində partiya qrupları yaratmalı idilər. "Hümmət" təşkilatının nəzdindəki hərbi komissiya ilə bərabər Rusiya Kommunist (bolşevik) Partiyası Bakı Komitəsinin nəzdində hərbi təşkilat yaradılmış və hərbi komissiyanın üzvlərindən biri də həmin qurumun nümayəndəsi kimi hərbi təşkilata daxil edilmişdi. Bakı Komitəsinin nəzdində yaradılan hərbi təşkilatın fəaliyyətinin başlıca məqsədi qoşun hissələri arasında güclü dayaq toplamaq və ona arxalanaraq hakimiyyətin ələ keçirilməsi üçün silahlı üsyan qaldırmaq idi (126).

"Hümmət" təşkilatı nəzdindəki hərbi komissiyanın üzvlərindən biri olan M.D.Hüseynovun verdiyi məlumata görə qısa müddət ərzində Lənkəran, Qarabağ və Quba qarnizonlarında bolşevik qruplarını yaradılmasına nail olunmuşdu. Bakı qarnizonuna daxil olan hissələrdə aparılan iş də səngimək bilmirdi (127). Bolşeviklərin göstərdikləri ciddi cəhddən sonra 5-ci Bakı piyada alayında 15 nəfərdən ibarət partiya qrupu yaradılmışdı. Bu qrup qoşun hissələri arasında ən güclü mərkəzlərdən biri sayılırdı (128). M.D.Hüseynov bu qrupun fəaliyyətinə arxalanaraq hətta alayın bölüklərini bolşevik nəzarəti altında saxlamağın mümkünlüyünü də irəli sürürdü (129).

7-ci Şirvan piyada alayında da bolşeviklərin dayaq qrupu yara-

dılmışdı. Burada boşeviklər bir neçə çavuşu öz sıralarına sövq edə bilmişdi (130).

Bakıda bolşevik strukturlarının fəaliyyəti genişləndikcə onların yerlərdəki ardıcılları da hərəkətə gəlirdilər. Quba piyada alayından göndərilən məktub və raportlarda bildirilirdi ki, yerli bolşeviklər də artıq açıq fəaliyyət üçün baş qaldırmışlar və onlar qarnizon əsgərlərini öz təbliğat dairələrinə salmaqdan da çəkinmirlər (131). Həmin alaydan göndərilən başqa bir məlumatda isə bildirilirdi ki, əsgərlər arasında Azərbaycan dövlətçiliyi əleyhinə təbliğatlar aparmaq üçün Qubaya xüsusi təlimatlandırılmış üç nəfər bolşevik gəlmişdir. Onların təşkil edəcəyi təbliğat kampaniyasının təsir dairəsinə düşməmək üçün hissə komandanlığı əsgərlərin mülki əhali ilə ünsiyyətini tam nəzarət altında saxlamağa çalışırdı (132).

Mövcud olan məlumatlara görə 3-cü Gəncə piyada alayında da bolşeviklərin partiya qrupu yaradılmışdı. Xankəndi qarnizonunda isə tək-tək partiyaçılar var idi (133).

"Hümmət" təşkilatı nəzdində yaradılmış olan hərbi komissiyanın fəaliyyəti 1920-ci ilin fevralınadək davam etdirildi. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası yaradılandan sonra isə AK(b)P Mərkəzi Komitəsinin nəzdində əməliyyat qərargahı təşkil edildi. Azərbaycan Ordusunun hissə və bölmələrində bolşevik təbliğatının aparılması bu qərargahın tərkibində olan siyasi şöbəyə tapşırıldı. Həmin şöbəyə Dadaş Bünyadzadə rəhbərlik edirdi. Siyasi şöbənin qoşun hissələri ilə əlaqə saxlayan xüsusi adamları var idi və bu adamlar vasitəsi ilə şəxsi heyət arasında bolşevik ədəbiyyatının yayılmasına cəhd göstərilirdi (134).

1920-ci il fevralın 5-də 6-cı Göyçay piyada alayının əsgərləri şəhərdəki postlarda növbəni başa vurub geri qayıdanda bolşevik fəalları onlara bolşevik təmayüllü 15 qəzet vermişdilər. Əsgərlər isə qəzetləri onbaşıya, o da bölük komandirinə təhvil verdi. Hissənin komandanlığı şəhər inzibati orqanlarına yazdığı məktubunda əsgərlərə təsir göstərməyə çalışmış bolşevik fəallarının ünvanını açıqlayaraq onlara qarşı lazımi tədbirlər görülməsini xahiş etdi (135).

Quba qarnizonunun rəisi podpolkovnik Məmmədbəyov Hərbi Nazirliyə göndərdiyi raportunda şəhər çayxanalarının çayçıların-

dan birinin əsgərlər arasında bolşevik ədəbiyyatı yayılmasına görə həbs edildiyi barədə məlumat verirdi (136).

1919-cu ilin sonu və 1920-ci ilin ilk ayları ərzində formalaşdırılan hərbi gəmilərin şəxsi heyəti arasında da bolşeviklərin təbliğat işləri ara vermirdi. Hərbi Nazirliyin rəhbərliyi "Qars", "Ərdəhan" və digər hərbi gəmilərin komplektləşdirilməsinə, onların döyüş hazırlığı səviyyəsinə gətirilməsinə xüsusi diqqət yetirirdi. Ancaq bu sahədə də azərbaycanlılar arasında ixtisaslı kadrlar olduqca az idi. Gəmilərin döyüş hazırlığını təmin etmək üçün Hərbi Nazirlik keçmiş dənizçiləri, xüsusən də qeyri-azərbaycanlı dənizçiləri gəmilərdə xidmətə qəbul etmək məcburiyyətində qalırdı. Bu kontingent arasında isə bolşevizmə meyillilik xeyli güclü idi. Hərbi gəmilərə yol tapmış olan bolşeviklər boş yerlər üçün öz tanışlarını dəvət edir və onların xidmətə götürülməsinə nail olurdular. Nəticədə bolşeviklər hərbi gəmilərdə daha çox tərəfdarlarının toplanılmasına müvəffəq olmuşdular (137). Hərbi gəmilərin bolşevik fəalları ilə komplektləşdirilməsində Bakı limanının rəisi və Hərbi Donanmanın rəis müavini təyin edilmiş Çingiz İldrım öz vəzifə imkanlarından və ona göstərilən etimaddan xüsusilə sui-istifadə edirdi (138).

Qoşun hissələrində genişlənən bolşevik təbliğatına qarşı ümumdövlət səviyyəsində mübarizə aparılması ilə bağlı hələ 1919-cu il sentyabrın 13-də Dövlət Müdafiə Komitəsində məsələ müzakirə olundu. Burada Yollar nazirinin təklifi ilə qoşunlarda bolşevik təbliğatı ilə mübarizə aparmaq üçün hərbi əks-kəşfiyyat təşkilatının yaradılması barədə qərar qəbul edildi (139). Ancaq Hərbi nazirin müavini Ə.Şıxlinski adıçəkilən təşkilatın bolşevik təbliğatına qarşı səmərəli fəaliyyət göstərəcəyini qəbul etmir və onun yaradılmasını məqsədəuyğun saymırdı. Dövlət Müdafiə Komitəsinə göndərdiyi raportunda o, öz fikrini belə əsaslandırırdı: birincisi, hərbi əks-kəşfiyyatın başlıca vəzifəsi bolşevizmə qarşı mübarizə aparmaq yox, ölkə daxilindəki hərbi casuslarla mübarizə aparmaqdır. Bolşevizmə qarşı mübarizə tək Hərbi Nazirliyin gücü çata bilməyəcəyi ümumdövlət işidir. İkincisi, rus ordusunun dairə qərargahlarında və Baş Qərargahında təsis edilmiş olan əks-kəşfiyyat strukturlarının fəaliyyətinin təcrübəsi də göstərirdi

ki, Hərbi Nazirliyə böyük miqdarda maliyyə vəsaiti ayrılsa da, təcrübəli icraçılar aparatı olmadan bolşevizmlə mübarizəni təşkil etmək çox mürəkkəb bir vəzifədir. Ona görə Ə.Şıxlinski təklif edirdi ki, əks-kəşfiyyat sturkturu Daxili İşlər Nazirliyinin tərkibində təşkil edilsin. Çünki Daxili İşlər Nazirliyinin bu iş üçün hazır polis aparatı var idi və bu aparat bir qədər də gücləndiriləcəyi təqdirdə həm dövlət casusluğuna qarşı, həm də xalq və ordu arasında aparılan bolşevik təbliğatına qarşı uğurla mübarizə apara bilərdi. Üçüncüsü, Ə.Şıxlinskinin fikrincə, Hərbi Nazirlik öz üzərinə yalnız xarici kəşfiyyatı, yəni ehtimal olunan düşmən haqqında məlumatların toplanılmasını götürməlidir. Bu iş hərbi xarakter daşıyır və ona görə də ənənəvi olaraq hərbi qurumlar tərəfindən həyata keçirilir. Xarici kəşfiyyat ölkədən kənardakı rezidentlər tərəfindən yerinə yetirilir və bu sahəyə general-kvartirmeysterin tabeliyində olan kəşfiyyat şöbəsi vasitəsi ilə rəhbərlik edilir (140).

Verilən təkliflərin nəzərə alınması Ə.Şıxlinskinin fikrincə, qoşunlarda bolşevizm təbliğatının qarşısının daha səmərəli şəkildə alınmasına kömək etməli idi.

Sovet tarixşünaslığında bolşevik təbliğatından sonra Azərbaycan Ordusunun şəxsi heyəti arasında intizamsızlığın artması, xidməti borclara məsuliyyət hissinin xeyli aşağı düşməsi barədə yazılsa da (141), əslində, vəziyyət təsvir edildiyi qədər də böhranlı deyildi. Doğrudur, 1920-ci ilin aprel çevrilişi ərəfəsində hərbi gəmilərdə şəxsi heyətin əsasının qeyri-azərbaycanlılar olması üzündən bolşeviklərin nüfuzu güclü idi. Ancaq qoşun hissələrində vəziyyət komandanlıqların nəzarəti altında idi. Burada bolşevik elementləri mövcud olsa da, onların ümumi çəkisi ordunu böhran qarşısında qoymaq dərəcəsində deyildi. Bütün ordu daxilində cəmi 35–40 kommunist var idi (142). 1919-cu ilin payızında Moskvada verdiyi məlumatında N.Nərimanov orduda mövcud olan real nöqsan və çatışmazlıqlara toxunmaqla bərabər, qoşunların şəxsi heyəti arasında intizamın möhkəm olduğunu qeyd edirdi. O, eyni zamanda, əlavə edirdi ki, Azərbaycan əsgərləri kifayət qədər çalışqan və itaətkardırlar (143). Yəni bolşevik təbliğatı nə qədər gücləndirilsə də, hissə daxilində aparılan işlər nəticəsində Azər-

baycan əsgərləri ümumən öz mənəvi-döyüş keyfiyyətlərini qoruyub saxlaya bilmişdilər. Bunu tək bolşevik fəalları deyil, Azərbaycana gəlmiş olan xarici jurnalistlər də qeyd edirdilər. İngilis jurnalisti Skotland Liddel 1919-cu ilin sentyabrında yazdığı məqalələrindən birində Azərbaycan Ordusunda əldə edilmiş möhkəm intizamla bağlı şahidi olduqlarını ayrıca başlıq altında öz oxucularına çatdırırdı. S.Liddel gördüklərini belə təsvir edirdi: "Gündüz Bakıya çatdım və yaxşı bir faytonda otelə yollandım. Faytonçu yaxşı geyinmişdi... Mənimlə cavan bir azərbaycanlı zabit də gedirdi. Yolboyu yeni Azərbaycan Ordusunun yüzlərlə gənc əsgəri ilə qarşılaşdıq. Hamısı hərbi salam verirdi. Mən təəccüb içində idim. Bu mənim son iki ildə gördüyüm əsgərlər deyildi. Bunlar yeni adamlar idilər, bunlar yeni, intizamlı, gənc, qüvvətli və cəsur əsgərlər idilər.

Azərbaycan Ordusu tez yaradıldı və sürətlə lazımi görkəm alır. Azərbaycan başa düşdü ki, intizamsız ordu mövcud ola bilməz. Adamların çoxu cavandır, əvvəllər xidmət etməyiblər, köhnə rejimin rus ordusunu parçalamış bolşeviklər tərəfindən hələ yoldan çıxarılmayıblar. Azərbaycanda dəmir intizam var. Elə bir intizam ki, Rusiyada da görünməmişdi" (144).

Bir fransız jurnalisti isə Azərbaycanın qoşun hissələri arasında mövcud olan ovqat barədə belə yazırdı: "Rus çarları zamanı azərbaycanlılar hərbi xidmətə çağırılmırdılar. Bax buna görə də onlar atıcılıq təmrinlərini yerinə yetirməyi çox sevirlər. Azərbaycan zabitləri xalqa silahdan istifadə etməyi öyrədirdilər. Zərurət yarananda bütün xalq öz ölkəsini qorumağa hazır olacaqdır. Axşam, gündüz əməyindən sonra hər yerdə milli mahnıların necə oxunduğunu eşitmək olar: "Marş, irəli, irəli, Azərbaycan əsgəri" " (145).

Oxunan bu marşlar Azərbaycan əsgərinin mənəvi yaşantılarını əks etdirən bədii nümunələr idi. Onlar dövrün həm söz ustaları, həm də əsgərlər və xalq tərəfindən yaradılırdı. Əsgər həyatının elə bir sahəsini və ya qayğısını tapmaq mümkün deyil ki, ona şərqilər həsr edilməsin, marşlarda tərənnüm olunmasın.

Hərbi şərqilər şəxsi heyətin mənəvi-ideoloji tərbiyəsinin müstəqil bir istiqaməti idi. Bu şərqilər Cümhuriyyət ordusunun hər bir hərbi qulluqçusunda mənəvi kamillik və bütövləşmə ilə

bərabər kollektivçilik ruhu da yaradırdı. Çünki bu şərqilər, adətən, kollektiv şəkildə ifa edilirdi və bir növ kollektiv iradənin ifadəsinə çevrilirdi. Bu şərqilərdə, həm də xalqın ordusuna olan məhəbbəti öz əksini tapırdı. Ona görə həmin şərqilər sevilə-sevilə oxunurdu.

Hərbi şərqilərin ordunun şəxsi heyətinin və eləcə də müstəqilliyini yenicə əldə etmiş bütün xalqın mənəvi hisslərinin və vətənpərvərlik duyğularının qaldırılmasında əhəmiyyəti nəzərə alındığı üçün o vaxtlar dövlət qəzeti olan «Azərbaycan» qəzetində vaxtaşırı belə şərqilər çap olunurdu. 1919-cu ildə B.Səttaroğlu adlı bir müəllif də müxtəlif hərbi şərqiləri və marşları toplayaraq «Ordu marşları» adı altında ayrıca bir kitabçada nəşr etdirmişdi. 1918–20-ci illərdə dövri mətbuatda, habelə «Ordu marşları» kitabında olan şərqilər, marşlar və şeirlər «Əsgər olmaq bir şərəfdir türk üçün, islam üçün» (Bakı, 1993) adlı kitabda toplanaraq çap edilmişdir. Bu kitabda toplanılan bədii söz nümunələri Cümhuriyyət dövründə ədəbi fəaliyyətin bu sahəsinə xeyli diqqət yetirildiyini nümayiş etdirir. Tədqiqatlar da göstərir ki, Cümhuriyyət ordusunda əsgər şərqilərinin oxunmasına ən yüksək səviyyədə diqqət yetirilmişdir. Bunu arxiv sənədləri də sübut edir. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivinin 2894 nömrəli fondunda Cümhuriyyət ordusunun şərqiləri toplanılmış xüsusi bir qovluq saxlanılır (siyahı 1, iş 32). Bütün şərqilər əski əlifba ilə yazılmışdır. Onlar müxtəlif hissələrdən Hərbi Nazirliyin ünvanına göndərilmişdir. Qovluqda mövcud olan sənədlərdən aydın olur ki, bu şərqilər 1920-ci ilin əvvəllərində Hərbi Nazirliyə göndərilmişdir. Burada 1-ci Tatar süvari alayının, 3-cü Gəncə piyada alayının, 4-cü Quba piyada alayının, Lənkəran ehtiyat taborunun, 2-ci piyada diviziyasının komandirlərinin təqdimat məktubları da vardır. Həmin məktublarda göstərilir ki, hissəmizin şəxsi heyəti tərəfindən oxunan hərbi şərqiləri sizə göndəririk. Çox güman ki, Hərbi Nazirlikdən bütün hissələrə göstəriş verilibmiş ki, oxunan hərbi şərqilərin mətnləri toplanılaraq Nazirliyə göndərilsin. Bunun nə üçün edildiyini söyləmək çətindir. Ola bilsin ki, Hərbi Nazirlik ordu miqyasında oxunan hərbi şərqiləri sistemləşdirərək ya nəşr etmək, ya da cəm halında hissələrə göndərmək niyyətində

imiş.

Qovluqda müvcud olan şərqilərdən yalnız bir neçəsinin müəllifi göstərilmişdir. Müəllifi göstərilməyən şərqilər arasında bədii cəhətdən dolğun olan şərqilər də var, zəif olan şərqilər də. Nisbətən zəif olan şərqilər çox güman ki, hərbi qulluqçuların özləri tərəfindən yazılmışdır.

Qovluqda mövcud olan şərqilərdən bir neçəsinə (çox az sayda) «Əsgər olmaq bir şərəfdir, türk üçün, islam üçün» kitabında da rast gəlmək mümkündür və həmin kitabda onların müəllifləri də göstərilmişdir. Oxşar şərqilərin müəlliflərinin eyni şəxs olduğuna şübhə edilməsə də, qovluqda olan şərqi ilə adıçəkilən kitabda verilən şərqi arasında müəyyən fərqlər mövcuddur. Məsələn, müəllifi Namiq Kamal olduğu göstərilən marş kitabda aşağıdakı kimi verilmişdir:

Muzik çalır, əsgər silah alıyor
Musiqanlar cəng havası çalıyor
Ay analar, Vətən sizə qalıyor
Getməliyiz, getmək düşdü ellərə
Düşmən ayaq basmasın bu yerlərə
Sol, sol, sol, irəli, irəli Azərbaycan əsgəri

Türk oğluyam, qorxum yoxdur ölümdən
Düşmən qaçıb qurtaramaz əlimdən
Ayrılmaram o sevimli elimdən
Qoymaram elim düşə özgə əllərə
Düşmən ayaq basmasın bu yerlərə
Sol, sol, sol, irəli, irəli Azərbaycan əsgəri

Bunun oxşarı olan şərqi arxivdə saxlanılan qovluqda aşağıdakı şəkildə verilmişdir:

Boru çalır, əsgər silah alıyor
Musiqiçilər cəng havası çalıyor
Ey analar, Vətən sizə qalıyor
Getməliyiz, getmək düşdü ərlərə
Düşmən ayaq basmasın bu yerlərə
Sol, sol, sol, irəli, irəli, Vətən fədailəri
Sol, sol, sol, irəli, irəli, Azərbaycan əsgəri

Bu şərqinin ikinci və üçüncü bəndi isə nəqarət istisna olmaqla Namiq Kamalın marşının ikinci bəndindən tamamilə fərqlənir.

Heç şübhəsiz ki, bu fərq hərbi qulluqçuların marşın ifasına daha sərbəst yanaşmalarının, eyni zamanda, onların ürəklərindən keçənlərin səsləndirilməsi istəyindən irəli gəlmişdir.

Cümhuriyyət ordusunun hərbi şərqiləri qəhrəmanlıq nümunələridir və onların hamısını vahid bir məzmun ətrafında qruplaşdırmaq mümkündür. Bu məzmun da müstəqil Azərbaycan dövlətini sədaqətlə qorumaq, Vətəni etibarlı şəkildə müdafiə etmək, vətəndaşlıq borcunu namusla ödəmək istəyi və arzularıdır. Bu şərqiləri nəzərdən keçirməklə Azərbaycan əsgərinin mənəvi dünyasını, psixoloji ovqatını aydınlığı ilə dərk etmək mümkündür. Heç şübhəsiz ki, bu şərqilərdə ifadə olunan qətiyyət, qəhrəmanlıq pafosu, əsgəri borca vicdanlı münasibət elə Azərbaycan əsgərinin mənəvi-psixoloji dünyasını müəyyənləşdirən cəhətlərdir. Azərbaycan əsgərinə daxili qüvə verən və onu hər cürə məhrumiyyətlərə sinə gərməyə ruhlandıran da məhz bu cəhətlər idi.

Müstəqil Azərbaycan dövlətinin müdafiəsində dayanan Cümhuriyyət ordusunun şərqilərində Azərbaycanın istiqlalının vəsfi əsas mövzulardan birini təşkil edir. Belə şərqilərdə uzun mübarizələrdən sonra istiqlal marşının yenidən çalınması, millətin bayrağının bayraqlar içində öz yerini tutması, xalqın öz azadlığını əldə etməsi qabarıq şəkildə təsvir olunmuşdur:

Bayrağımız qalxdı göylərə sarı
Tazədən çalındı istiqlal marşı
Çoxdan sönən atəşimiz
Cəngdən parladı, yenə azadıq biz
Yaşasın milləti-Azərbaycan
Çox fəxr eylə Azərbaycan
İstiqlal aldıq.

Həmin şərqinin başqa bir bəndində isə Azərbaycanın üçrəngli və ay-ulduzlu bayrağının səmalara qalxması obrazlı şəkildə belə təsvir olunmuşdur:

Üçrəngli bayrağımız qalxdı havaya
Səkkizguşəli yıldız yetişdi aya
Səni çox yaşa bayrağımız
Yaşasın kölgəsində bayrağımız

Azərbaycanın istiqlalı, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi hərbi şərqilərdə qabarıq şəkildə öz əksini tapmışdır.
Şərqilərin birində deyilir:

Parlamanımız Qafqaziyada var olsun
Düşmənlərin ürəyində dağ olsun
Var millətin Nəsib bəyə duası
Möhkəm olsun dinimizin binası

Göründüyü kimi, bu şərqidə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində əhəmiyyətli işlər görmüş ölkə Parlamentinin, habelə uzun müddət Cümhuriyyətin Baş naziri olmuş Nəsib bəy Yusifbəylinin fəaliyyəti təqdir olunmuşdur.

Nəsib bəy Yusifbəyli hərbi şərqilərdə xatırlanan yeganə tarixi şəxsiyyət deyildir. Həm xalq, həm də Cümhuriyyət ordusunun hərbi qulluqçuları Azərbaycanın istiqlalı yolunda fədakarlıq göstərən insanları layiqincə qiymətləndirir və onların şəninə şərqilər qoşurdu. Cümhuriyyət ordusunun hərbi şərqilərində Hərbi nazir Səməd bəy Mehmandarovun adına daha çox rast gəlmək mümkündür. Neçə-neçə hərbi şərqidə Səməd bəy Mehmandarova bəslənilən xalq məhəbbətinin izlərini görmək mümkündür. Onun haqqında qoşulan şərqilər ona olan ümumxalq ehtiramının ifadəsi idi. Hərbi şərqilərin birində deyilirdi:

Unutma, qardaşım, hələ mart ayını
Silah əldə tutub, oğul, saxla hər yanı
Allah, özün saxla Səməd paşanı
Əsgərlərin pədəri Səməd paşanı
Saxla kölgəndə Səməd paşanı
Allah, özün saxla Azərbaycanı

Bu parçada Səməd bəy Mehmandarova qarşı minnətdarlıq və qayğı hissləri qabarıq şəkildə tərənnüm edilmişdir. Çünki xalq və hərbi qulluqçular Səməd paşanın fəaliyyətini Azərbaycanın istiqlaliyyətinin qorunmasında önəmli bir qüvvə kimi dəyərləndirirdilər. Burada Səməd bəy, həm də əsgərlərin pədəri (atası) adlandırılır. Bu da Hərbi nazirin əsgər və zabitlərə qarşı necə böyük qayğı göstərdiyinin və həmin qayğının hərbi qulluqçular tərəfindən minnətdarlıqla anıldığının ifadəsidir.

Səməd bəy Mehmandarov şərqilərdə Azərbaycan xalqının

böyük sərkərdəsi və sərdarı kimi vəsf olunmuşdur. Bu baxımdan aşağıdakı şərqi parçası xarakterikdir:

Qafqazlılar əkbərimiz
Səməd paşa sərdarımız
Allah, Allah fəryadımız
Qan axıdar xəncərimiz

Başqa bir şərqidə isə Səməd paşa aslan ürəkli və şanlı bir komandin kimi vəsf olunur:

Aslan ürəkli Səməd paşamız
Şanlı komandan, sənsən babamız
Sənə qurban olsun ata-anamız
Al bir düşməndən türkün qanını

Şərqilərin hər birində Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov belə qürur, əzəmət və səmimiyyətlə annılır. Elə şərqilər var ki, orada Səməd bəyin adı xatırlanmaqla yanaşı ümumən generalların (paşaların), zabitlərin sədaqətli xidmətləri də minnətdarlıqla qeyd edilir və Allahdan onlara kömək dilənir:

...Allah, özün saxla Azərbaycanı
Paşaları, bəyləri, hamı çox yaşa
Hər kim istər bizi, etsin tamaşa
...Zabit vəkilləri, hamı çox yaşa
Artsın rütbələriniz, olsun tamaşa

Cümhuriyyət ordusunun hərbi şərqiləri içərisində süvari diviziyasının komandiri general-mayor Teymur bəy Novruzova həsr edilmiş şərqi də vardır. Bu da onu göstərir ki, misilsiz qəhrəmanlıq və cəsurluq göstərən Azərbaycan oğulları dillər əzbəri olan şərqilərn mövzularına çevrilirdilər. Qovluqda mövcud olan qeydlərdən müəyyən etmək olar ki, Teymur bəy haqqında olan şərqini süvari diviziyasının hərbi qulluqçusu Əli Şövkət əfəndi yazmışdır. Şərqidə deyilir:

...Xoş gəldiniz zəhmət çəkib
Alayımızı ucaltdınız
Əsgərlərin vürudu budur
Minlər yaşa, Teymur paşa
Paşalığın mənsəbinin
Vürudu sizə var olsun

Əvəzinizdə biz ölürüz
Minlər yaşa, Teymur paşa

Hərbi şərqilər arasında Azərbaycan övladlarını xidmətə çağıran, Vətən və torpaq qarşısındakı borcunu başa düşməyə səsləyən, hərb işinin çətinliklərinə sinə gərməyə ruhlandıran nümunələr də az deyil. Belə şərqilərin bəzilərində hərbi xidmətdən yayınmaq şərəfsiz bir əməl kimi pislənilir və cavanların bu yoldan çəkinmələrinin zəruriliyi vurğulanır:

Ey milləti islam, oyan, bəsdir dəxi yatmamalı
Yada salın mart ayını, əsgərlikdən qaçmamalı, yanmalı
Ey cavanlar, qeyrət edin, əsgərliyə toplanmalı
Vətən və millətə xidmət edib qaçmamalı, yanmalı

Və ya

Haydı, baxalım
Həp toplanalım
Künüllü əsgərə
Biz yazılalım

Hərbi şərqilərin böyük əksəriyyətində isə Azərbaycanın düşmənlərinə qarşı mübariz bir ruh, dönməzlik və qətiyyət ifadə olunmuşdur.

Qoşa addım qoşarıq biz irəliyə
Türk oğluyuz, biz dönməriz heç vaxt geriyə
Əmir əmr etsə, əmr etsə, əmr etsə
Qovarıq düşməni hər yerə getsə

Və ya

Cihad var, cihad var, partladalım bombalar
Qəhr olsun, məhv olsun, xain alçaq düşmənlər
Qoşa addım irəli, dönməyəlim biz geri
İrəli, irəli, Vətən fədailəri
İrəli, irəli Azərbaycan əsgərləri

Qoşunların şəxsi heyətinin mənəvi cəhətdən formalaşmasında və bütövləşməsində dini dəyərlərin də xüsusi yeri var idi. Xidmətə çağırılmış gənclər dini mərasimlərin icrasından ayrılmırdılar, əksinə, hissə və birləşmələrdə müqəddəs dini ayinlərin, islamın vacibatlarının yerinə yetirilməsi üçün hər cürə şərait yaradılırdı. Bu sahədə bir nizamlılıq yaratmaq üçün hissələrin ştatında molla-

lar var idi. Müvafiq əmrə əsasən hər bir alayda molla ştatı, alaydan ayrıca yerləşən taborlarda isə imam ştatı var idi. Həmin mollaların fəaliyyətinə Hərbi Nazirliyin baş mollası rəhbərlik edirdi. S.Mehmandarovun 6 yanvar 1919-cu il tarixli əmri ilə bu vəzifəyə 1-ci Tatar süvari alayının mollası axund Baratzadə təyin edilmişdi.

Alaylarda ibadət yerləri də yaradılmışdı. Yuxarıda qeyd edildiyi kimi, təlim-tərbiyə proqramına mollaların əsgərlərlə söhbəti də daxil edilirdi. Mollalar xidmətin müqəddəsliyi, dini kitablarda xidməti borcun yerinə yetirilməsinin vacibliyi və fəzilətləri barədə söhbətlər edirdilər. Hissələrin mollaları sadəcə olaraq ayinlərin icrasına rəhbərlik etmirdilər. Hərbi nazir S.Mehmandarov orduya qəbul edilmiş din xadimlərinin qarşısında dayanan başlıca vəzifənin əsgərlərin dini-mənəvi tərbiyəsi olduğunu vurğulayır və bununla bağlı tələb edirdi ki, həmin vəzifələrə nail olunması üçün ilk növbədə din xadimləri özləri qanunun və şəriətin bütün tələblərinin icrasının nümunəsi olmalıdırlar (146).

Buna görə də dini ayinlərin icrası, dini-mənəvi tərbiyə Hərbi Nazirliyin rəhbərliyinin nəzarəti altında idi. Vaxtaşırı bu məsələlərlə bağlı nazir əmr imzalayır və qoşunlara elan olunurdu. Baş mollanın fitvası əsasında Hərbi nazirin 30 may 1919-cu il tarixdə imzaladığı 277 nömrəli əmrində bildirilirdi ki, qeyri-nizami hissələrin əsgərlərinin hamısı ramazan ayında oruc tutmalıdırlar. Nizami hissələrin əsgərləri isə ramazan ayının 1, 15, 19, 21, 23, 30-cu günləri və bir də cüməyə düşən günlər oruc tutmalıdırlar. Əsgərlərin oruc olduğu günlərdə keçirilən dərslər 3 saatdan artıq olmamalı idi (147).

Dini bayramlar qoşunlarda böyük təntənə ilə qeyd edilirdi. 1919-cu ilin Orucluq bayramında hətta qoşunların paradı da təşkil edilmişdi. Hərbi nazirin əmrinə əsasən Orucluq bayramı münasibətilə əsgərlərə üç gün istirahət verilmiş və həmin günlər ərzində şəxsi heyətə bayram yeməkləri hazırlanması üçün əlavə pul ayrılmışdı (148).

Qurban bayramı münasibətilə şəxsi heyətə bir gün istirahət verilirdi. Bayram günləri qoşun hissələri Hərbi Nazirliyin rəhbərliyini təbrik etdiyi kimi, Hərbi Nazirliyin rəhbərliyi də qoşun hissələrinin şəxsi heyətini təbrik edirdi. Məsələn, Hərbi nazirin Qurban bay-

ramı münasibətilə Zaqatala piyada alayına göndərdiyi teleqramda deyilirdi: "Təbrik üçün alayın bütün çinlərinə öz minnətdarlığımı bildirirəm. Eyni zamanda, Sizin hamınızı təbrik edirəm". Ə.Şıxlinskinin göndərdiyi teleqramda isə yazılırdı: "Sizə və mənim üçün əziz olan zaqatalalılara təşəkkür edirəm və hamınızı Qurban bayramı münasibətilə təbrik edirəm. Alayınızda şahidi olduqlarım onun uğurları üçün möhkəm zəmindir. Qadir Allah alayın hazırlanması üçün yorulmaz və vicdanlı xidmətinizdə sizə yar olsun" (149).

Hərbi nazirin əmri ilə qoşunlarda xristian bayramları da qeyd edilirdi. Həmin günlərdə xristian dininə mənsub olan zabit və məmurlara istirahət verilirdi (150).

Şəhid olmuş və ya xidmət müddətində vəfat etmiş hərbi qulluqçuların son mənzilə yola salınması zamanı dini normalara riayət edilməsinə də Hərbi Nazirliyin rəhbərliyi son dərəcə ciddi diqqət yetirirdi. Mərhumun dəfninə göstərilən ən adi səhlənkarlıq bütünlükdə hərbi qulluqçuların qayğısına, onların dini tərbiyəsinə göstərilən səhlənkarlıq kimi qiymətləndirilirdi. Hərbi qulluqçunun dini və insani tələblərə uyğun olaraq son mənzilə yola salınmasını Hərbi Nazirliyin rəhbərliyi bütün hissənin, başlıcası isə bu işlərə məsul olan mollaların ən böyük vəzifə, mənəvi və insani borcu kimi qəbul edirdi. Dəfn tədbirlərinin icra edilməsi üçün Nazirliyin smetasında xüsusi xərclər də nəzərdə tutulmuşdu.

**Hərbi qulluqçuların dəfni üçün nəzərdə tutulan xərclər**

| | 1919-cu il iyunun 1-dək | | | | 1919-cu il iyunun 1-dən sonra | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | müsəlman | | xristian | | müsəlman | | xristian | |
| | rubl | qəpik | rubl | qəpik | rubl | qəpik | rubl | qəpik |
| Qəbrin qazılması | 30 | | 30 | | 40 | | 50 | |
| Kəfən | 145 | | | | 160 | | | |
| Ətirli əşyalar və dəfn | 25 | | | | 50 | | | |
| Rütubətli torpaqda işlədilən taxta | 50 | | | | 80 | | | |
| Cənazə | | | 150 | | | | 280 | |
| Əklil və dua | | | 50 | | | | 80 | |
| Qəbirüstü xaç | | | 50 | | | | 60 | |

Hərbi qulluqçular son mənzilə böyük hörmət və ehtiramla yola

salınırdılar. 3-cü Şəki süvari alayının podpolkovniki, xəstəlikdən vəfat etmiş Şahverdi xan Ziyadxanovun dəfninin təşkili üçün nazirin imzaladığı əmrdə göstərilirdi ki, mərhumun evinə hərbi naryad göndərilsin. Bu hərbi naryada 3-cü Şəki süvari alayının mövcud olan bütün şəxsi heyəti, topçu briqadasının bir topçu batareyası, bir bölük yunker və orkestr daxil idi. Dəfn mərasimində Hərbi Nazirliyin bütün zabitlərinin iştirak etməsi zəruri idi (151).

Digər zabitlərin dəfni də belə böyük hörmət və ehtiramla icra edilirdi (152). Hərbi nazirin əmri ilə hətta hərbi qəbiristanlığa qulluq edilməsi və onun qorunması üçün xüsusi ştat da ayrılmışdı (153).

Əsgər şərəfinə böyük bir hörmətlə yanaşan Hərbi nazir vəfat edənlərin dəfninə azacıq səhlənkarlığın şahidi olan kimi dərhal ona qarşı öz münasibətini bildirir və müvafiq əmr imzalayırdı. Onun 1919-cu il dekabrın 28-də imzaladığı 600 nömrəli əmr əsgər xəstəxanalarında vəfat edən hərbi qulluqçuların dəfninin ləngidilməsi ilə bağlı idi. Nazir tələb edirdi ki, əsgər xəstəxanalarında hər hansı əsgər vəfat edərdisə, bu barədə dərhal əsgərin mənsub olduğu hərbi hissəyə xəbər verilsin və Daxili Xidmət Nizamnaməsində təsbit edilmiş qaydalar əsasında onun dəfni təşkil edilsin. Əmrdə göstərilirdi ki, dəfn mərasimi alay mollaları tərəfindən icra edilməlidir. Göstərilən tələblərin yerinə yetirilməsinə hər hansı biganəliyin yol verilməsi, nazirin fikrincə, müvafiq mollaların öz vəzifə borclarını lazımınca başa düşməməsi ilə bağlı idi və belələri dərhal tutduğu vəzifədən uzaqlaşdırılmalı idilər (154).

9 yanvar 1920-ci il tarixli 13 nömrəli əmrində də Hərbi nazir bir sıra hərbi hissələrdə mollaların vəfat edənlərin lazımi qaydada dəfnini icra etmədiklərinə görə həm baş mollanın, həm də hissə komandirlərinin qarşısında çox ciddi tələblər qoyurdu (155).

1920-ci ilin yanvarında Hərbi Şura müzakirələrdən sonra vəfat edən hərbi qulluqçuların dəfni üçün zəruri olan vəsaiti təxminən iki dəfə artırdı.

Hərbi Nazirliyin rəhbərliyi qoşunların şəxsi heyətinin mənəvi əhval-ruhiyyəsinə, xidmətə qarşı formalaşan münasibətinə təsir göstərə biləcək bütün mövcud amilləri nəzərə almağa və onların reallaşdırılmasını qarşılıqlı şəkildə əlaqələndirməyə çalışırdı. Qo-

şunların mənəvi ovqatında nəzərəçarpacaq dəyişikliklərin yaranması da bu ardıcıllığın və sistemliliyin nəticəsi idi.

### *3. Qarnizon və qarovul xidməti*

Azərbaycan Ordusunun arxivinin öyrənilməsi göstərir ki, xidmətin təşkili işində daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri də qarovul və qarnizon xidmətinin düzgün qurulması məsələsi olmuşdu. Bu məsələ vaxtaşırı istər hissə komandirlərinin, istərsə də Hərbi Nazirliyin rəhbərliyinin imzaladığı əmrlərin mövzusuna çevrilirdi. Həmin əmrlərdə mövcud olan nöqsanlar açıqlanır və onların aradan qaldırılması yolları göstərilirdi.

Qarovul xidməti sülh şəraitində qoşunların icra etdiyi ən əsas döyüş tapşırığı kimi qəbul edilirdi və ona görə də həm qoşun komandirləri, həm də Hərbi Nazirliyin rəhbərliyi qarovula göndərilən şəxsi heyətdə yüksək məsuliyyət, sərvaxtlıq, intizam, döyüş tapşırığının icrasına dəqiqlik aşılamağa çalışırdı. Xüsusən onlara verilmiş olan silahla düzgün davranmaları, qarovul nəfərlərinin Nizamnamədən irəli gələn vəzifələrə riayət etmələri bu xidmətin təşkili üçün irəli sürülən əsas tələblər idi. Lakin təəssüf ki, xidmətin təşkilinə məsul şəxslər tərəfindən lazımi diqqət yetirilmədiyi, qarovul nəfərlərinin öz vəzifələrini bilməməsi və bununla bağlı xidmətin tələblərinə riayət edilməməsi üzündən bəzən çox kobud çatışmazlıqlar özünü göstərirdi. 1918-ci il dekabrın 2-də 2-ci Qarabağ süvari alayında döyüş patronları verilmiş süvarinin biri ehtiyatsızlıq üzündən açdığı atəşlə başqa bir süvarini öldürmüşdü. Alay komandiri polkovnik Süleyman bəy Əfəndiyev bu hadisə ilə bağlı imzaladığı əmrində göstərirdi ki, süvarilərin odlu silahla ehtiyatla davranmaması zabitlər tərəfindən şəxsi heyət arasında heç bir işin aparılmamasının, zabit sözünün heç bir hörmət və nüfuza malik olmamasının nəticəsidir. Alay komandiri qeyd edirdi ki, bütün xalqın böyük ümid bəslədiyi ordunun şəxsi



Musiqiçilər dəstəsi



Parlamentin mühafizə dəstəsi

heyətinə belə ehtiyatsızlıq üzündən xətər yetirilməsi yolverilməz bir haldır. Xidmətin tələblərinə əməl etməyib belə hallara səbəb olan əsgər isə vətənin və xalqın şərəfinin müdafiəçisi kimi bir adı daşımağa layiq deyil və belələri ordudan uzaqlaşdırılmalıdır (156).

S.Əfəndiyevdən sonra 2-ci Qarabağ süvari alayına komandir təyin edilmiş polkovnik Yadigarovun 1919-cu ilin fevralında imzaladığı daxili əmrlərdən görünürdü ki, hissədə qarovul xidmətinin təşkilində hələ də bir sıra nöqsanlar qalmaqdadır. Fevralın 18-də imzaladığı əmrdən məlum olur ki, alayın qarovul otağında bir nizamsızlıq hökm sürməkdədir. Qarovul rəisi özü xidmətin təşkilinə məsuliyyətlə yanaşmır, qarovul otağına gələn komandir və rəisləri qarşılamır, qarovul rəisinin vəzifələrindən isə heç xəbəri yoxdur. Onun məsuliyyətsizliyi üzündən otaqlar təmizlənməmiş, inzibati qaydada həbs olunmuş əsgərlər yuxudan qaldırılmamışdı (157).

At tövlələrinə baş çəkərkən də polkovnik Yadigarov oxşar mənzərənin şahidi olmuşdu. Alay komandiri təəccüb edirdi ki, tövlələrin qorunmasına xidmət təcrübəsi olan əsgərlər deyil, hissəyə yenicə gətirilmiş və hələ hərbi geyim almamış şəxslər təyin edilmiş və hətta onlara odlu silah da verilmişdi (158).

Polkovnik Yadigarovun gəldiyi qənaət belə idi ki, bölmə komandirləri əsgərləri qarovula və sutkalıq naryadlara göndərməzdən qabaq onların öz vəzifəsini necə bilməsini yoxlamırlar, bu sahədə onlarla məşğul olmurlar. Ona görə də alay komandiri bütün komandirlərdən tələb edirdi ki, əsgərləri naryada və qarovula göndərməzdən əvvəl onlarla söhbət aparılsın, qarovulun və növbətçinin vəzifələrinə nə dərəcədə bələd olmaları yoxlanılsın (159).

Polkovnik Yadigarov öz əmrində qeyd edirdi ki, alay üzrə növbətçi təyin edilən alay zabitləri və bölük komandirləri qarovulun yoxlanılması qaydaları ilə bağlı Qarnizon Xidməti Nizamnaməsinin 126-cı maddəsini yerinə yetirmirlər. Həmin maddəyə görə naryadı başa vurmuş alay növbətçisinin köməkçisi dərhal poçt cədvəlini alay dəftərxanasının nizami hissəsinə təqdim etməlidir. Naryadı qəbul edən zabit isə naryadın şəxsi heyətinin düzülüşündən və yoxlanılmasından əvvəl yeni qarovul üçün həmin cədvəli

oradan götürməlidir (160).

Qarovul xidmətinin təşkilində nöqsanlara yol verilməməsi üçün polkovnik Yadigarov başqa bir əmrində tələb edirdi ki, naryadı qəbul edəcək zabit gündüz saat 11.30-da yeni qarovulun şəxsi heyətini alay qərargahının qarşısındakı meydanda düzməli, onların sayını dəqiqləşdirməli, qarovul xidməti barədə biliklərini yoxlamalıdır. Burada naryadın bütün şəxsi heyəti ilə təlimat aparılmalı və hər şeyin qaydasında olduğuna əmin olduqdan sonra onlar azad edilməlidir. Bundan başqa, polkovnik Yadigarov bölmə komandirlərindən də tələb edirdi ki, tez-tez qışlaları və tövlələri yoxlasınlar, xüsusilə də gecə vaxtı qarovul xidmətinin necə yerinə yetirilməsini nəzarət altında saxlasınlar (161).

Qarovul xidmətinin təşkilinə tez-tez toxunan digər hissə komandirlərinin imzaladığı əmrlərdən aydın olur ki, mövcud olan nöqsanların çoxu zabitlərin, bölmə komandirlərinin qarovulun şəxsi heyətinin naryada hazırlaşdırılmasına kifayət qədər məsuliyyətlə yanaşmamasının nəticəsidir. Hərbi məktəbin rəisi polkovnik Rüstəm bəy Şıxlinski də daxili əmrlərdə məktəb növbətçiləri olan zabitlərin öz vəzifələrini bilməməsini, naryadları düzgün təyin etməyi bacarmamasını, bəzən qarovul yerinə gün növbətçisinin göndərildiyini qeyd edirdi. Bir çox zabitlər isə hansı bölmələrin naryada cəlb edilib-edilməyəcəyi barədə heç təsəvvürə də malik deyildilər (162).

2-ci piyada diviziyasının komandiri də qarovul xidmətinin təşkili ilə bağlı əmrlərində göstərirdi ki, dəfələrlə yoxlanılmasına, iradlar söylənilməsinə baxmayaraq, qarovulun çinləri öz vəzifələrini çox zəif bilirlər, hətta qarovul rəisi təyin edilən zabitlər Qarnizon Xidməti Nizamnaməsi ilə yaxşı tanış deyildirlər. Qarovul yoxlanılmır, yoxlanılırsa da bu barədə kitabda müvafiq qeydlər edilmir. Diviziya komandiri hissə növbətçilərindən və qarovul rəislərindən tələb edirdi ki, naryadı qəbul etməzdən əvvəl saatdarların və saatdarların dəyişdiricilərinin öz vəzifələrini necə bilmələrini yoxlasınlar və onları təlimatlandırsınlar (163).

2-ci piyada diviziyasının komandiri qarovul xidmətinin daha yaxşı təşkili ilə bağlı imzaladığı başqa bir əmrində hissə komandirlərindən aşağıdakıları tələb edirdi: elə bir ciddi nəzarət təş-

kil edilsin ki, qarovul xidmətində olmayan əsgərlər silaha və patronlara malik olmasınlar. Zabitlər öz yanlarında silahlı əsgərləri gəzdirməsinlər; bölüklərdə mövcud olan bütün tüfənglər qışlalarda və ya düşərgələrdə, etibarlı yerlərdə saxlansın. Onların qorunması üçün xüsusi mühafizələr təyin edilsin; bölük növbətçiləri sutkalıq növbəni dəyişərkən mövcud silahları siyahı üzrə təhvil versinlər; bölük komandirləri və müvafiq zabitlər sutkada iki dəfədən az olmayaraq silahların mövcudluğunu yoxlasınlar. Silah növbətçiləri və bölük üzrə növbətçilər silahların sayını və gün ərzində kimlərə silah verildiyini bilməli idilər; bütün bölüklərdə silahların yoxlanılmasını özündə əks etdirən kitablar açılmalı idi. Hər yoxlamadan sonra bu kitabda yoxlama vaxtı və yoxlanılan silahların miqdarı göstərilməli idi. Bölükdə çatışmayan silahların harada olması barədə də qeydlər edilməli idi (164).

Qarovul çinlərinin öz vəzifələrini kifayət qədər bilməmələrini Hərbi nazir də öz əmrlərinin birində qeyd edirdi. O göstərirdi ki, postda dayanan saatdarlar hətta mənim yanımda gəlib-gedənlərlə danışır, onlardan hədiyyə alır, bəzən lazım olan şəxsləri içəri buraxmırlar, qarovul otağında kənar adamları görmək mümkündür. Bunu müvafiq şəxslərin nəzərinə çatdırmaqla nazir tələb edirdi ki, belə hallara son qoyulmalı, qarovul xidməti müvafiq normalar çərçivəsində təşkil edilməlidir (165).

Baş Ərkani-hərb rəisi hissə komandirlərinə göndərdiyi sərəncamında qarovul heyətlərinin xidmətə başlamazdan əvvəl öz vəzifələrini necə bilmələrinin yoxlanılmasını tələb edirdi. O bildirirdi ki, bu, Hərbi nazirin tələbidir. Qarovul xidmətində olan hərbi qulluqçuların çoxu öz vəzifə borclarının nədən ibarət olmasına bələd deyildilər ki, bu da Qarnizon Xidməti Nizamnaməsinin tələblərinin pozulması demək idi (166).

Təkcə hissələrin daxilində deyil, qarnizon obyektlərində də qarovul xidmətinin təşkilində bəzən oxşar nöqsanlarla rastlaşmaq mümkün idi. Bakı qarnizonunun rəisi qarnizon hauptvaxtında qarovul xidmətinin yarıtmaz təşkil edilməsi ilə dəfələrlə rastlaşmışdı və söylədiyi iradlar da yerinə yetirilməmiş qalmaqda idi. 6-cı Göyçay piyada alayının nəzdində olan bu obyektdə də nə qarovul rəisləri, nə də qarovulun digər çinləri vəzifələrinin nədən

ibarət olması barədə ən adi təsəvvürlərə malik deyildilər. Qarovulun şəxsi heyəti müəyyənləşdirilmiş yerdə düzülmürdü, əsgərlərin çoxu "qarovul" komandası verilən zaman tüfəngin necə tutulmasını bilmirdilər, qarovulun patron çantası yox idi, patronlar stol üzərinə qalaqlanırdı, posta göndərilən qarovullar patronsuz yola salınırdı, qarovul otağında Qarnizon Xidməti Nizamnaməsi yox idi, Hərbi nazirin və hökumətin sədrinin mühafizəsi üçün təyin olunmuş postlara göndərilən saatdarların xarici görkəminə diqqət yetirilmirdi (167).

Hərbi Nazirliyin bərpasının ilk aylarından Gəncə şəhərində komendatura yaradılmışdı. Hərbi Nazirliyin aparatı və bir sıra hissələrin qərargahı da Gəncədə yerləşirdi. Nazirliyin əsas idarəetmə orqanları və strukturları Gəncədə yerləşdiyindən burada qarnizon və qarovul xidmətinin təşkilinə xüsusi fikir verilirdi. Qarnizon üzrə naryadlar və qarovul postları müəyyənləşdirilmişdi və bu xidmətlər qarnizonda yerləşən hissələrin şəxsi heyəti tərəfindən yerinə yetirilirdi. Gəncə qarnizonu rəisinin əmri ilə 1919-cu ilin fevralından etibarən 1-ci Tatar süvari alayı və 3-cü Gəncə piyada alayı gündəlik 5 nəfər aşağı çinli hərbi qulluqçunu silahlandırıb şəhər komendantının sərəncamına göndərməli idi. Həmin silahlılar ya şəhərə patrul kimi, ya mühüm obyektlərin qarovuluna göndərilir, ya da gözlənilməz hadisələrin aradan qaldırılması üçün komendaturada növbədə saxlanılırdı. Eyni zamanda, qarnizon rəisi, qarnizonun hissə komandirlərinə göstəriş vermişdi ki, gecə vaxtı şəhərciklərin ətrafına xüsusi patrullar təyin edilsin, icazəsiz hissədən çıxmışlar saxlanılsın və müvafiq qaydada cəzalandırılsınlar (168).

Qarnizon rəisinin əmri ilə 1-ci Tatar süvari alayı və 3-cü Gəncə piyada alayı, eyni zamanda, 1919-cu ilin mart ayından başlayaraq növbətçi taqım təyin etməli idi. Bu taqım bütün şəxsi heyət ilə, hissə daxilində bütün təchizatı ilə birlikdə döyüş tapşırığını icra etməyə hazır dayanmalı və həyəcan siqnalı veriləcəyi təqdirdə müəyyənləşdirilmiş nöqtədə yoxlanılmalı idi. Həyəcan siqnalı elan edildiyi vaxt Tatar süvari alayı bir süvarini çapar sifəti ilə komendantın sərəncamına göndərməli idi. Həyəcan siqnalının alınması ilə adları çəkilən alaylar da dərhal daimi döyüş vəziyyətinə gətirilməli və

verilə biləcək vəzifələrin icrası üçün hazır olmalı idilər (169).

Qarnizon rəisinin əmri ilə, eyni zamanda, hərbi hissələrin və müəssisələrin sanitar vəziyyətinin, şəxsi heyətin məişət şəraitinin və verilən yeməklərin vəziyyətinin nəzarət altında saxlanılması üçün qarnizonun sanitar komissiyası yaradılmışdı. Komissiya həftədə iki dəfə qarnizon hissələrinin sanitar vəziyyətini yoxlamlı idi (170).

Həmin komissiya mütəmadi olaraq qarnizonun sanitar vəziyyətini yoxlayır və onun nəticələrini qarnizon rəisinə məruzə edirdi. Həmin yoxlamalar isə heç də hər yerdə vəziyyətin yaxşı olmadığını üzə çıxarırdı. Məsələn, 1919-cu il martın 17-də 3-cü Gəncə piyada alayında aparılan yoxlama əsgərlərin çoxunun döşəkağı və balışlarının olmamasını, içməli su üçün su baklarının əlüzyuyanların, çörəyin saxlanılması üçün şkafların olmamasını və s. çatışmazlıqları aşkar etmişdi (171).

Əsgərlərin hamama aparılmasında bir nizam yaradılması üçün qarnizon rəisi tərəfindən müəyyən qaydalar müəyyən edilmişdi. Həmin qaydalarda hansı hissənin həftənin hansı günləri, şəhərin hansı hamamına getməsi dəqiqləşdirilmişdi (172). Bu qaydalar şəhərdəki hamamlardan daha səmərəli istifadə edilməsinə imkan verirdi.

1919-cu il iyunun sonlarından 1-ci piyada diviziyasının komandiri polkovnik Cavad Şıxlinski Gəncə qarnizonunun rəisi təyin edildi. Onun qarnizon rəisi təyin edilməsi ilə qarnizon xidmətinin təşkilinə irəli sürülən tələblər daha da kəskinləşdirildi. Yalnız qarovul və naryadların təyin edilməsinə, onların öz vəzifələrini yerinə yetirməsinə deyil, bütünlükdə qarnizonda nizam-intizama əməl olunmasına, xidmət normalarına riayət edilməsinə nəzarət daha da gücləndirildi. Qarnizon rəisinin əmri ilə qarnizon üzrə aşağıdakı qarovul naryadları müəyyənləşdirilmişdi (173).

Əsas qarovul üzrə:

1) qarnizon hauptvaxtı və ləvazimat anbarları – 3 nəfər;
2) hərbi aptek anbarı – 2 nəfər;
3) Gəncə quberniya xəzinədarlığı – 3 nəfər keşikçi qarovul;
4) Hərbi Nazirliyin binası – 1 nəfər;
5) əsgər xəstəxanası – 1 nəfər;
6) 1-ci piyada diviziyası qərargahının qarajı – 1 nəfər.

Hərbi Nazirliyin aparatı Bakı şəhərinə köçürüləndən sonra buradakı komendaturanın səlahiyyətləri xeyli genişləndirildi. Bununla bağlı Hərbi Nazirliyin dövlət orqanları qarşısında qaldırdığı vəsatətdə deyilirdi ki, Bakıda yerli qarnizondan başqa xarici qoşunlar da var. Onların şəhərdəki davranışının tənzimlənməsi, hərbçi olmayan şəxslərin hərbi geyimdə olmasına yol verilməməsi və qarnizon xidmətinin daha yaxşı təşkili üçün digər dövlətlərin paytaxtında olduğu kimi Bakıda da xüsusi komendatura yaradılması məqsədəuyğun olardı. Şəhər komendantının səlahiyyətlərinin diviziya komandirinin səlahiyyətlərinə bərabər tutulması təklif olunurdu (174). 1919-cu il avqustun 1-də səlahiyyətləri genişləndirilmiş olan Bakı komendantı vəzifəsinə general-mayor Firudin bəy Vəzirov təyin edildi. (175). F.Vəzirov bu vəzifəyə təyin olunanda 69 yaşı var idi. Zabitlik təcrübəsi, ordu quruculuğuna verə biləcəyi xidmətləri nəzərə alınaraq o, Hərbi Nazirliyin rəhbərliyi tərəfindən ordu sıralarına dəvət edilmişdi. F.Vəzirov da bu dəvəti böyük məmnuniyyətlə qəbul etmiş, biliyini, bacarığını Azərbaycan Ordusunun möhkəmləndirilməsinə sərf etməyə razı olmuşdu.

Şəhər komendantlarının, qarnizon rəislərinin qarşısına qoyulan başlıca vəzifə qarnizon xidmətinin düzgün təşkilinə, qarnizon daxilində nizam-intizama, hərbi davranış normalarına riayət edilməsinə nail olunması idi.

Hələ 1918-ci ilin dekabrında polkovnik İvanovu Gəncə şəhərinin müvəqqəti komendantı təyin etməsi ilə bağlı əmrində S.Mehmandarov bildirirdi ki, vəzifəsinin icrasına başlamaqla o, Qarnizon Xidməti Nizamnaməsi əsasında öz işini qurmalı, qarnizona gələn bütün zabitlərin uçotunu aparmalı, məzuniyyətə və ezamiyyətə gəlmiş zabitlərdən müvafiq sənədləri tələb etməli, davranış normalarını nəzarət altında saxlamalı, bütün hərbi qulluqçuların, o cümlədən mülki məmurların geyim formaları qaydasını pozmasına yol verməməli idi. Elə həmin əmrdə qeyd edilirdi ki, Azərbaycan Ordusu sıralarında xidmət etməyən zabitlərin (üzürlü səbəblər istisna olmaqla) Azərbaycan ərazisində hərbi geyimdə gəzmələri qadağandır. Bu tələb də qarnizon xidmətinin təşkilinə məsul olan şəxslər tərəfindən həyata keçirilməli idi (176).

Qarnizon xidmətinin təşkilində daha çox irad doğuran məqamlar hərbi qulluqçuların geyim formalarını pozması, hissədən kənarda, ictimaiyyət arasında hərbi davranış normalarına riayət etməməsi ilə bağlı idi. Geyim forması qaydalarının pozulması daha çox zabitlər arasında qeydə alınırdı. Heç şübhəsiz ki, əsgərlər arasında da belə hallar istisna deyildi. 2-ci Qarabağ süvari alayının komandiri daxili əmrlərinin birində bütün bölmə komandirlərindən tələb edirdi ki, təsdiq edilməmiş geyim növlərindən istifadə edilməsinə yol verilməsin, poqonsuz hərəkət edilməsinə isə birdəfəlik son qoyulsun (177).

1919-cu ilin oktyabrında 2-ci piyada diviziyasının Ləvazimat şöbəsinin gürcü əsilli ober-zabiti Avaliani bir ay ərzində xidmətə papaqsız və poqonlarsız gəldiyi üçün 7 sutka ev həbsinə məruz qalmışdı. Geyim formasını belə kobud şəkildə pozmaqla Avaliani hətta Baş Ərkani-hərbin binasına da getmiş və onun geyim normalarına riayət etməməsi burada Hərbi nazir S.Mehmandarov tərəfindən də müşahidə edilmişdi. S.Mehmandarov dərhal bu zabitin Azərbaycan Ordusu sıralarından xaric edilməsi barədə tapşırıq vermişdi. Yalnız 2-ci diviziya komandirinin işə qarışmasından sonra Avalianinin birinci dəfə daha yüngül cəza ilə cəzalandırılması qərara alındı (178).

2-ci piyada diviziyasının komandiri bir çox hallarda əsgərlərin də geyim normalarına riayət etməməsini və onların belə vəziyyətdə şəhərdə veyillənməsini öz əmrlərində qeyd edirdi. Bəzi komandirlərin və zabitlərin nəzarətsizliyi üzündən bir sıra əsgərlər axşam yoxlamasından sonra şəhərin küçələrinə çıxır, geyim normalarına əməl etmədən, rastlaşdıqları zabitlərə hərbi salam verməyi bacarmadan küçələrdə gəzişirdilər. Diviziya komandiri hissə komandirlərindən belə hallara qətiyyətlə son qoyulmasını tələb edirdi (179).

Hərbi nazir S.Mehmandarov 1919-cu ilin iyun ayında imzaladığı əmrlərdən birində göstərirdi ki, bir çox topçu əsgərlər, hətta bir sıra zabitlər qırmızı lampaslı şalvarlar geyirlər. Halbuki Azərbaycan Ordusu üçün təsdiq edilmiş geyim formasında belə bir element yox idi. Ona görə nazir həm hissə komandirlərindən, həm də qarnizon rəislərindən tələb edirdi ki, geyim formalarına riayət

edilməsinə nail olunsun (180).

Azərbaycan Ordusu sıralarında xidmət etməyən bir çox zabitlər üzərində "Azərbaycan" sözü yazılmış poqonlar gəzdirirdilər. Azərbaycan Ordusu sıralarında xidmətə qəbul edilmiş bir sıra gürcü zabitlər isə üzərində gürcü simvolları olan poqonlar və furajkalardan istifadə edirdilər. Hərbi nazir hər iki halın qarşısının alınmasını tələb edirdi. Xidmətə yenicə qəbul edilmiş gürcü zabitlərinə Azərbaycan Ordusunun geyim forması ilə təsdiq olunmuş papaq və poqonların əldə edilməsinə bir ay vaxt ayrıldı. Bu vaxt ərzində geyim formasını sahmana salmayan zabitlərə qarşı müvafiq tədbirlər görülməli idi (181).

Hərbi nazir, eyni zamanda, qarnizonların rəislərindən, şəhərlərin və dəmiryol stansiyalarının komendantlarından tələb edirdi ki, ezamiyyətə gəlmiş zabitlər istisna olmaqla Gürcüstan və Ermənistan zabitlərinin Azərbaycan ərazisində hərbi formada gəzməsinə imkan verməsinlər (182).

Hərbi nazirin müşahidələrinə görə Azərbaycan və Gürcüstan ordularından tərxis edilmiş zabitlər, habelə bir sıra keçmiş rus ordusu zabitləri poqonlarını çıxarsalar da, dəmir düymələri, rəngli yaxalıqları olan hərbi palto, kokardalı furajka, dəmir düyməli səfər mundiri, baftalı və kantlı şalvarlar geyinir, kütlə arasında seçilir, əhalidə və əsgərlərdə onların ordu zabiti olması təsəvvürü yaradırdı. Ona görə də tələb olunurdu ki, furajkadan kokarda, səfər mundirindən və paltolardan dəmir düymələr, rəngli yaxalıqlar, şalvardan baftalar qoparılsın. Bütün bunlara əməl olunmasına nəzarət qarnizon rəislərinə və şəhər komendantlarına tapşırılırdı (183).

Bir sıra kiçik rütbəli zabitlər isə bəzən onlar üçün daşınması icazə verilməyən silahları daşıyırdılar. Bu silahların arasında müxtəlif tipli revolverlər və soyuq silahlar var idi. Gəncə şəhər qarnizonunun rəisi hissə komandirlərindən tələb edirdi ki, bu məsələyə də nəzarəti gücləndirsinlər. Əks təqdirdə, qanunsuz silah gəzdirənlər məsuliyyətə cəlb edilməli və onların silahları əllərindən alınmalı idi (184).

Qarnizonlarda geyim formasına tutulan iradlardan biri də polislərin hərbi geyim elementlərindən istifadə etməsi ilə əlaqədər idi. Onlar hərbi formaya oxşar forma və üstündə "Azərbaycan" sözləri

yazılmış olan poqonlar geyirdilər. Hərbçilərə isə küçədə rastlaşanda hərbi salam vermirdilər. Bu əsgərlər arasında çaşqınlıq, əhali arasında isə ordu daxilində intizamsızlığın mövcud olması təəssüratı yaradırdı. Gəncə şəhər komendatı məsələ ilə əlaqədar ölçü götürülməsi üçün Hərbi Nazirliyin rəhbərliyinə, Hərbi nazirin müavini Ə.Şıxlinski isə Daxili İşlər nazirinə müraciət etdi (185).

Müxtəlif təşkilatların əməkdaşlarının hərbi geyimdən istifadə etməsinə son qoyulması üçün Hərbi nazir S.Mehmandarov məktubla Nazirlər Şurasının sədrinə müraciət etdi. Məktubda bildirilirdi ki, təkcə polislər deyil, bir sıra digər strukturların əməkdaşları da heç bir maneçilik olmadan malik olduqları hərbi geyimlərdən istədikləri vaxt istifadə edirlər, kütlə arasına çıxırlar. Bu isə həm əhalidə, həm də mətbuatda söz-söhbətə səbəb olur və həmin adamların günahları ordunun ayağına yazılırdı. Ona görə də Hərbi nazir xahiş edirdi ki, hərbi geyimlərdən belə sui-istifadə edilməsinə, onların mülki paltar yerinə geyilməsinə icazə verilməsin (186).

Orduda xidmət edən zabitlərin özlərinin də bəzi geyim formalarından sui-istifadə etməsi hallarına təsadüf olunurdu. Bir çox zabitlər növbəti rütbəyə təqdimat yazılan kimi müvafiq əmrin olmamasına baxmayaraq, dərhal poqonlarını dəyişdirir, həqiqi rütbələrindən yuxarı rütbə poqonu daşıyırdılar. Süvari hissələrinə dəyişdirilmiş bəzi piyada zabitləri isə özlərini süvari zabiti hesab edir və süvari zabit kimi təqdim edirdilər. Halbuki piyada zabitinin süvari qoşunlarına daxil edilməsi və bununla da onların özlərini süvari zabiti adlandırması üçün Hərbi nazirin xüsusi əmri olmalı idi (187).

Geyim formasına riayət edilməsi ilə bərabər, Hərbi Nazirliyin rəhbərliyi zabitlər və əsgərlər tərəfindən hərbi davranış normalarına riayət edilməsini də ciddi nəzarət altında saxlayırdı. S.Mehmandarov hələ 1919-cu ilin mart ayında Gəncə komendantına əmr etmişdi ki, polislərlə birlikdə Gəncədə yaşayan və xidmətdə olmayan bütün zabitlər qeydiyyata alınsınlar. Çünki bu zabitlərin çoxu hərbi formada şəhər arasında zabit şərəfinə ləkə gətirən hərəkətlər edərək camaat arasında haqlı narazılığla səbəb olurdular. Əhali də onları Azərbaycan Ordusunun zabitləri hesab

etdiklərindən öz narazılıqlarını ordu ilə bağlayırdılar (188).

1919-cu ilin sentyabr ayında oxşar əmri Bakı şəhər qarnizonunun rəisi də imzaladı. O, Bakıda rəsmi xidmətdə olan xarici dövlətlərin zabitlərindən başqa bütün digər zabitlərin qeydiyyatdan keçməsini tələb edirdi. Bu tədbir üçün bir həftə vaxt ayrılmışdı. Həmin vaxt ərzində qeydiyyatdan keçməyənlər şəhərdən xaric edilməli idilər.

Hərbi salamın verilməsi həm zabitlər, həm də əsgərlər arasında hərbi intizamın vacib elementlərindən biri sayıldığı üçün ona riayət edilməsi həm hissə, həm də qarnizon daxilində daimi diqqət altında idi. Hərbi Nazirliyin rəhbərliyi bu elementin icrasına komandirlərin nüfuzunu saxlayan, şəxsi heyətə intizam vərdişlərini aşılayan lazımlı bir hərəkət kimi baxırdı və ona riayət edilməməsi hərbi intizamın kobud şəkildə pozulması kimi qiymətləndirilirdi. İngilis jurnalisti Skotland Liddel Azərbaycan Ordusundakı intizamın möhkəmliyindən yazarkən küçələrdə qarşılaşan əsgər və zabitlərin bir-birinə hərbi salam verməlРərini xüsusilə qeyd edir və əlavə edirdi ki, Kerenski hökumətinin ordusunun çox böyük sürətlə dağılmasının, öz intizamını itirməsinin əsas səbəblərindən biri də əsgər və zabitlər arasında hərbi salam verilməsinin ləğv edilməsi idi (189).

Zabitlər arasında hərbi salam verilməməsi hallarının heç biri məsul şəxslərin, o cümlədən Hərbi Nazirliyin rəhbərliyinin diqqətindən kənarda qalmırdı. Hərbi salamın verilməməsinə görə zabitlərin hətta həbs edilməsi, sonra da ordu sıralarından xaric edilməsi faktları da mövcuddur (190).

Qarnizon xidmətinin təşkilində xüsusi təşvişlə qarşılanan məsələlərdən biri əsgərlərin hissədən kənarda intizamsızlıqlar törətməsi, bəzənsə cinayət hərəkətlərinə əl atması idi. Belə halların qarşısının alınması üçün Hərbi Nazirliyin rəhbərliyi çox barışmaz mövqedə dururdu. Hərbi nazir öz əmrlərində bir neçə dəfə qeyd etmişdi ki, qatarlarda çoxlu əsgər və zabit olmasının qarşısı alınsın. Onlar çox vaxt xidməti mövqelərindən istifadə edərək qatarlara pulsuz minir və sərnişinlər arasında narahatlığa səbəb olurdular (191). Onların bəziləri hətta sərnişinlər arasında qanunsuz axtarışlar da aparırdılar. S.Mehmandarovun 27 dekabr 1918-ci il

tarixdə imzaladığı 35 nömrəli əmrdə göstərilirdi ki, Hacıqabulda yerləşən 2-ci piyada alayının hərbi qulluqçuları burada sərnişinlər arasında özbaşına axtarışlar aparmış və onların bəzi əşyalarını özləri ilə götürmüşdülər. Alay komandirindən tələb olunurdu ki, bu şəxsləri aşkar etsin, əsgərlər hərbi məhkəməyə verilsin, zabitlər isə xidmətdən xaric olunmaq üçün təqdim edilsinlər (192).

1919-cu ilin martın 8-də Gəncədə 3-cü piyada alayının 6 əsgərinin yoldan keçənləri soyması faktı məlum olan kimi onlar dərhal hərbi səhra məhkəməsinə verilmiş və bir həftədən sonra bu məhkəmədə ölüm cəzasına məhkum edilmişdilər. Oğurluq hallarının Azərbaycan əsgərinin şərəfini necə ləkələdiyini və belə halların cəzasız qalmayacağını nümayiş etdirmək üçün hərbi səhra məhkəməsinin qərarı Hərbi nazirin əmri ilə bütün qarnizon qarşısında elan edildi. Bunun üçün 1919-cu il martın 14-də saat 12-də 3-cü Gəncə alayının 5-ci bölüyü tam heyətdə, digər bölüklərdən isə bir taqım Gəncənin Topçu meydanına çıxarıldı. Bura 1-ci Tatar süvari alayının, Praporşiklər məktəbinin, 1-ci topçu divizionunun, İstehkam məktəbinin hər birindən bir taqım da çıxarılmışdı. Hərbi bölmələrin hamısı silahla meydanda düzülmüş və Hərbi səhra məhkəməsinin qərarı onlara elan olunmuşdu (193). Məlumdur ki, sonradan Novruz bayramının gəlişi münasibətilə Hərbi nazir onları əfv etmiş, ölüm cəzasını 6 illik həbslə əvəz etmişdi. Bununla belə, nazir bu hadisənin çox ciddi şəkildə araşdırılmasını tələb edirdi. Nazir təəccüb edirdi ki, 3-cü Gəncə piyada alayının 5-ci bölüyündən olan həmin əsgərlər necə icazəsiz şəhərə çıxmış, cinayət törətmişlər və heç kəsin də bundan xəbəri olmamışdı. Yalnız axşam saat 9.30-da komendant hadisədən xəbər tutmuş və Dondukov küçəsində onları tərk-silah edərək həbsə almışdı. Həmin gün 3-cü piyada alayının pulemyot komandasının bir neçə kiçik çinli hərbçiləri də icazə vərəqi olmadan şəhərdə gəzdikləri vaxt yaxalanmışdı.

3-cü piyada alayında belə özbaşınalıqların mövcud olmasına görə Hərbi nazir ilk növbədə hissə komandirini günahlandırır və hissədə daxili xidmətin düzgün təşkili üçün təcili tədbirlər görülməsini tələb edirdi. Nazirin bu məsələ ilə bağlı imzaladığı müvafiq əmrdə vurğulanırdı ki, şəxsi heyətin hissədən kənara bura-

xılmasına, axşam yoxlanışına, xidmətdən sonra zabitlərin qışlalara baş çəkməsinə, əsgərlərin daimi nəzarət altında saxlanılmasına xüsusi diqqət yetirilsin (194).

Əsgərlərin və kiçik çinli hərbi qulluqçuların xüsusilə axşamlar hərbi intizamın və davranış normalarının tələblərinə əməl etməsi üçün Gəncə qarnizonunun rəisi hissələrdə gecə patrullarının təyin edilməsini vacib sayırdı. Həmin patrullar öz hissələrinin ətrafında müşahidə aparmalı və intizam tələblərini pozanları tutub saxlamalı idilər (195).

Hərbi intizamı pozduqlarına görə həbs olunanlar üçün hər bir hissənin daxilində hauptvaxtların hazırlanmasına başlanmışdı. İlk vaxtlar intizamsızlıqları üçün həbs olunanlar saxlanılmaq üçün qarnizon hauptvaxtına göndərilirdi. Lakin bunu qarnizon rəisi düzgün saymırdı və ona görə də 1919-cu ilin əvvəlindən Gəncə qarnizonunun hərbi hissələrində daxili hauptvaxtların tikilməsi məqsədəuyğun bilindi (196).

Həyata keçirilən qətiyyətli tədbirlər əsgərlərin hissədən kənarda davranış normalarına riayət etmələrinə müsbət təsir göstərsə də, bəzi nöqsanlar qalmaqda idi. Qarnizon xidmətinin, eləcə də əsgərlərin mənəvi tərbiyəsinin təşkilində azacıq səhlənkarlığa yol verilməsi müvafiq nəticələri ilə Hərbi Nazirliyin rəhbərliyinin də narahatlığına səbəb olurdu. Hərbi nazirin 18 iyun 1919-cu il tarixdə imzaladığı 302 nömrəli əmrindən aydın olur ki, Gəncə qarnizonunun bəzi hissələrinin əsgərləri şəhərin ermənilər yaşayan hissəsində gəzişir və küçədən keçən qadınlara söz atırlar. Ayrı-ayrı əsgərlərin belə özbaşınalığı Hərbi Nazirliyin rəhbərliyinin ciddi təşvişinə səbəb olmuş və çox böyük nigarançılıqla qarşılanmışdı. Adı çəkilən əmrdə bu hadisəyə belə qiymət verilirdi: "Əsgərlər arasındakı bu özbaşınalıq yolverilməzdir. Əsgərlər hər yerdə və həmişə dinc əhalinin müdafiəçiləri olmalıdırlar, yoxsa qarnizonda təsadüf edildiyi kimi asayişi pozmamalıdırlar. Əsgərlər arasında qadınlara sataşma hallarını isə mən xüsusi təəssüflə qeyd edirəm. Hansı ki, müsəlmanlar arasında qadına ehtiram həmişə ən yaxşı keyfiyyətlərdən biri olmuşdur. Əsgərlərin küçədə nalayiq hərəkətləri hissələrdə əsgərlərin şəhərə buraxılması üzərində nəzarətin olmamasından, habelə əsgərlərin əxlaqi tərbiyəsinə diqqət

yetirilməməsindən xəbər verir" (197).

Hərbi nazir bildirirdi ki, gələcəkdə əsgərlər belə hərəkətlərə yol verərlərsə, onların mənsub olduqları hissələrin zabitləri və komandirləri ciddi məsuliyyətə cəlb ediləcəklər (198).

Gəncə şəhərində yerləşən hərbi hissələrin qanunsuz şəkildə hissələri tərk edən hərbi qulluqçuları küçələrdə gəzişdikləri zaman yerli əhaliyə də müəyyən narahatlıqlar gətirirdilər. Qarnizon rəhbərliyinə daxil olmuş şikayətlərə əsasən bəzi hərbi qulluqçular şəhərdə su daşıyan arabaları saxlayır və onları məcbur edirdilər ki, suyu pulsuz olaraq hərbi hissələrə aparsınlar. Belələri, eyni zamanda, icazəsiz olaraq şəhər əhalisinin bağlarına girir, meyvə dərir, atları başqalarının otlaq sahələrinə aparırdılar. Bu da əhalidə müəyyən narazılıqların baş qaldırmasına səbəb olurdu (199).

Belə hallar Gəncə qarnizonunun rəhbərliyi tərəfindən mütəmadi olaraq araşdırılır və müvafiq əmrlər imzalanırdı. Həmin əmrlərdən birində bildirilirdi ki, sadalanan xoşagəlməz halların baş verməsinin səbəblərindən biri zabitlərin əsgərlərin tərbiyəsində və formalaşmasında yaxından iştirak etməməsi və komandirlərə lazımi köməyi göstərməmələridir. Qarnizon rəisinin fikrincə, zabitlər boyunlarına düşən vəzifələrirn icrasına vicdanla yanaşacaqları təqdirdə belə mənfi halların qarşısı da alına bilərdi. Eyni zamanda, o da əlavə olunurdu ki, hissələrdə unter-zabitlər çatışmadığı üçün zabitlər əsgərlərlə daha çox iş aparmalıdırlar. Zabitlər öz söhbətləri və tərbiyəvi işləri ilə əsgərləri əsgər şərəfini alçaldan əməllərdən çəkindirməyə, öz şərəflərini yüksək tutmağa, Vətən və ailəsi naminə layiqli xidmətə sövq etməli idilər. Bu məqsədə nail olmaq üçün qarnizon rəisi hissə komandirlərindən tələb edirdi ki, natiqlik qabiliyyəti olan zabitləri əsgərlərlə işə cəlb etsinlər və bununla da əsgərlər arasında baş verən intizamsızlıqların qarşısının alınmasına cəhd göstərilsin (200).

Hissələrdən kənara buraxılanların hərəkətlərinin nəzarət altında saxlanılması və nizamlanması üçün Baş Ərkani-hərbin rəisi general-leytenant Sulkeviç bütün hissə komandirlərindən tələb edirdi ki, belə əsgərlərə ya xüsusi nişan, ya da təsdiqlənmiş icazə sənədi verilsin (201).

2-ci Qarabağ süvari alayının komandiri verdiyi əmrlə bölmə

komandirlərindən tələb edirdi ki, hətta xidməti işlər üçün də əsgərlərin tək-tək şəhərə və bazara buraxılmasına son qoyulsun. Onun fikrincə, belə işlərin icrası üçün xüsusi qrup yaradılmalı və bir nəfər zabit də həmin qrupun rəhbəri təyin edilməli idi (202).

2-ci piyada diviziyasının komandiri də əsgərlərin hissədən kənara buraxılması və qarnizon daxilində onların hərəkətlərini nəzarət altında saxlamağa imkan verən əmrlər imzalamışdı. İlk növbədə tələb olunurdu ki, hissədən kənara buraxılan əsgərlər intizamlı davranmağı, qarşısına çıxan zabitlərə hərbi salam verməyi bacarmalıdır. İcazənin müddəti üçün məhdudiyyət də qoyulurdu.

Diviziya komandirinin əmrlərindən birində isə əsgərlərin tək-tək kino və teatra buraxılmasına qadağa qoyulurdu. Verilən göstərişə görə kino və teatrlara ən azı 5 nəfərdən ibarət olan qrup buraxılmalı və qrup üzvlərindən biri böyük təyin edilməli idi. İstirahət ocaqlarına bütöv bir bölmə getdikdə isə zabitlərdən biri onun rəhbəri təyin edilməli idi (203).

Zabitləri narahat edən məsələlərin müzakirəsi, onların sosial qayğısının gücləndirilməsi, asudə vaxtlarının təşkili üçün Qarnizonun Zabit iclasları (klubları) yaradılmışdı. Bu strukturların formalaşdırılması üçün Hərbi Nazirliyin fondundan maliyyə vəsaiti ayrılırdı (204). Qarnizonun Zabit iclaslarının icraçı komitələri seçilirdi (205). Qarnizonun Zabit iclası üzvlərinin 2/3 hissəsi iştirak etdikdə səlahiyyətli sayılırdı (206). Bu qurumun üzvləri üzvlük haqqı da verməli idi. Gəncə qarnizonunun zabitləri üçün bu üzvlük haqqı məvacibin bir faizi həcmində müəyyənləşdirilmişdi (207).

Xankəndi qarnizonunun Zabit iclasında isə üzvlük haqqı belə müəyyənləşdirilmişdi – qərargah zabitləri üçün 30 rubl, böyük zabitlər üçün 20 rubl və podpraporşiklər üçün 10 rubl. 1919-cu il mayın 13-də burada keçirilmiş iclasda o da qərara alınmışdı ki, şəfqət bacıları da Qarnizonun hərbi iclaslarına üzv qəbul olunsunlar və onlar üçün 5 rubl həcmində üzvlük haqqı müəyyənləşdirilsin (208).

Xankəndi qarnizonunun Zabit iclasında bir qrup zabit yumoristik jurnal hazırlayırdı. Bir neçə nömrədən sonra qarnizon rəisi bu jurnalın buraxılmasını məqsədəuyğun bilmədi. Öz qərarını o, bununla əsaslandırırdı ki, adi zarafat üçün hazırlanmış yazı və ya

rəsm zabiti gülüş obyektinə çevirir, onun şəxsiyyətinə hörmətsizlik yaradırdı. Belə zarafatlar bəzən zabitin heysiyyətinə toxunur və münaqişələrə səbəb olurdu. Qarnizon rəisi bildirirdi ki, bir zabitin digərinə zarafat etməsi ictimai şəkildə deyil, məhdud dairədə, yaxın yoldaşlar arasında baş verə bilər. Ancaq onun jurnal səhifəsinə çıxarılması və ictimaiyyətə çatdırılması, əslində, bu jurnalın hazırlanması zamanı qarşıya qoyulmuş məqsəd deyildi. Ona görə də jurnalın hazırlanmasının nəinki dayandırılması, həm də buraxılmış nömrələrin də məhv olunması əmr edilirdi (209).

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, 1919-cu ilin ortalarında Xankəndi qarnizonunda kifayət qədər sağlam bir mühit yaradılmışdı. Doğrudur, Hərbi Nazirliyə Xankəndi qarnizonunda elə də yaxşı vəziyyətin olmaması barədə xəbərlər də çatdırılmışdı. Hərbi nazir dərhal bu xəbərlərə qarşı reaksiya vermiş və Ümumi qərargahın rəisi general-mayor Səlimovu vəziyyəti yerindəcə yoxlamağa göndərmişdi. Bu yoxlama isə deyilənlərin tamam əksini üzə çıxarmışdı. Xüsusilə Qarabağ süvari alayında qarovul və qarnizon xidmətinin təşkili çox yüksək qiymətləndirilmişdi. Hərbi nazirin adına ünvanladığı raportunda o yazırdı: «…Sonda xüsusi olaraq məruzə etmək istəyirəm ki, Xankəndində bir neçə gün yaşayıb qarnizonda əla qanun-qayda və ciddi intizam gördüm. Mənzil-qərargahda bir nəfər də olsa işsiz gəzən görünmürdü. Adamlar hər hansı bir işin icrası üçün göndəriləndə sıra ilə gedirdilər. Dərhal nəzərə çarpır ki, qarnizonda daxili qanun-qaydaya xüsusi diqqət yetirilir» (210).

Bununla əlaqədar, Hərbi nazir öz əmrində polkovnik Yadigarova, polkovnik Sofiyevə və podpolkovnik Novruzova təşəkkürünü bildirmişdi (211).

Alaylarda da Zabit iclasları (klubları) təşkil edilmişdi. Bu təşkilatlar zabitlərin daha ucuz qiymətə ərzaqla təmin edilməsində də müəyyən rol oynayırdı. Başlıcası isə bu klublar zabitlərin ünsiyyəti istiqamətində əhəmiyyət kəsb edirdi. 2-ci piyada diviziyası komandirinin bu məsələ ilə bağlı yuxarı orqanlara yazdığı raportundan da göründüyü kimi, xüsusilə ucqarlarda yerləşən alayların zabitləri boş vaxtlarında məhz bu klublarda öz fikirlərini bölüşür, qəzet və jurnallarla tanış olur və beləcə vaxtlarını keçirir-

dilər. Zabit klublarında rəqs və dram dərnəkləri yaradılır və zabitlərin mənəvi tərbiyəsi istiqamətində səmərəli işlər görülürdü. Zabit klublarının səmərəli fəaliyyət göstərmədiyi hissələrdə isə gənc zabitlərin alkoqollu içkilərə və qumar oyunlarına meyilliliyi müşahidə olunurdu. Ona görə də yerlərdə Zabit iclaslarının fəaliyyətinin daha yaxşı qurulmasına diqqət yetirilirdi. Buna nail olunması üçün isə 2-ci piyada diviziyasının komandiri Hərbi Nazirliyin rəhbərliyi qarşısında müəyyən miqdarda maliyyə vəsaitinin buraxılması barəsində vəsatət qaldırırdı (212).

Qarnizon miqyasında planlaşdırılan və həyata keçirilən mühüm tədbirlərdən birini tarixi günlər və bayramlar münasibətilə keçirilən paradlar təşkil edirdi. Bu böyük tədbirlərə bayram xarakteri verilir və onun keçirilməsinə xüsusi hazırlıq işləri görülürdü. Hərbi paradlar həm də formalaşmaqda olan Azərbaycan Ordusunun gücünün və qüdrətinin nümayişinə çevrilirdi.

Azərbaycan Ordusunun ilk paradı 1919-cu ilin Novruz bayramında keçirildi. Parad əvvəlcə martın 22-nə planlaşdırılsa da, sonradan martın 24-nə dəyişdirildi. Nazirin əmrinə əsasən paradda Gəncə qarnizonunun hissələri, habelə 1-ci Cavanşir piyada alayının bir bölüyü, 2-ci Bakı piyada alayının isə bir taboru iştirak etməli idi. Parada hazırlıqla bağlı nazirin əmrində göstərilirdi ki, paradın keçirilməsinə xüsusi hazırlıq görülməli və ona azad Azərbaycan xalqının milli bayramı xarakteri verilməlidir. Nazir tələb edirdi ki, parada çıxarılan şəxsi heyət yeni və birtipli formada olmalı, görkəmlərinin şaxlığına fikir verilməlidir (213).

Azərbaycan Ordusunun növbəti paradı 1919-cu il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin birilliyi münasibətilə keçirildi. Hərbi nazirin əmri ilə həmin gün Gəncə qarnizonunun paradı Topçu meydanında olmalı idi. Parada Praporşiklər məktəbinin bir bölüyünün, 1-ci topçu briqadasının iki batareyasının, 3-cü Şəki süvari alayının 2 süvari bölüyünün çıxarılmasına göstəriş verilmişdi. Bölüklər sıraya 32 cərgədə dayanmalı idilər. Ayın 27-də təbilçilərin iştirakı ilə baş məşq keçirilməli və mayın 28-də saat 10-da paradın bütün şəxsi heyəti meydanda öz yerlərini tutmalı idilər. Paraddan əvvəl Hərbi Nazirliyin baş mollası tərəfindən təntənəli dua mərasimi keçirilməsi nəzərdə tutulmuşdu. Qarnizonun bütün zabitləri

təntənəli dua mərasimində və paradda iştirak etməli və meydanın sol cinahında toplaşmalı idilər. Parada komandanlıq etmək 3-cü Şəki süvari alayının komandiri polkovnik Xosrov Mirzə Qacara həvalə olunmuşdu (214).

1919-cu il mayın 28-də Bakı qarnizonunda da qoşun hissələrinin paradı keçirildi. Gündüz saat 1-də "Azadlıq" meydanında təşkil edilmiş parada piyada bölmələri və hökumət orqanlarının mühafizə bölüyü çıxarılmışdı. Paradı Hərbi nazir S.Mehmandarov qəbul edirdi (215).

Gəncə qarnizonunda yerləşən qoşun hissələrinin 1919-cu il iyunun 30-da Ramazan ayının başlaması münasibətilə, həmin il sentyabrın 6-da Qurban bayramı münasibətilə paradı keçirildi (216).

1919-cu il sentyabrın 15-də isə həm Gəncədə, həm də Bakıda daha təntənəli bir parad keçirildi. Bu parad Bakı şəhərinin bolşevik-daşnak qüvvələrindən azad edilməsinin 1 illiyinə həsr edilmişdi. Bakıdakı parad bulvarla üzbəüz olan Naberejnıda olmalı və ona Praporşiklər məktəbinin komandiri polkovnik Rüstəm bəy Şıxlinski komandanlıq etməli idi (217). "Azərbaycan" qəzeti qoşun hissələrinin parada gəlməsini belə təsvir edirdi: "Qoşunların qarşısında bir neçə generalın və ordunun yüksək çinlərinin müşayiəti ilə at belində igid hərbçi, ordumuzun təşkilatçısı, tam artilleriya generalı Səməd bəy Mehmandarov gedirdi. Onlar şəhərin Şamaxı küçəsinə daxil olanda çoxsaylı publikanın gurultulu alqışları qopdu... Qoşunlar keçən küçələr adamlarla dolu idi. Hətta evlərin damları da "Yaşasın Azərbaycan", "Yaşasın bizim əsgərlər" şüarları qışqıran qadın və uşaqlarla tutulmuşdu" (218).

Qoşun hissələrinin növbəti paradı 1920-ci il yanvarın 14-də keçirildi. Bu parad müttəfiq dövlətlər tərəfindən Azərbaycanın istiqlaliyyətinin tanınmasına həsr edilmişdi. Hərbi nazirin əmri ilə Azərbaycanın istiqlaliyyətinin tanınması bütün qarnizonlarda təntənəli şəkildə qeyd edildi və paradlar keçirildi (219).

Nəhayət, 1920-ci il martın 20-də Azərbaycan Ordusunun qoşun hissələrinin sonuncu paradı keçirildi. Şahidlərdən biri bu paradı sonralar belə xatırlayırdı: "1920 sənəsi 22 mart Novruz bayramı münasibətilə icra edilən son rəsmi keçidi dəxi təxəttür etməmək qeyri-mümkündür. Əcaba hansı azərbaycanlı o məsud gü-

nü xatırlamır? Ordunun qabiliyyət və intizamı, mənəviyyatı təsəvvürün fövqündə idi. Əcnəbi səfirləri az bir zamanda, vasitəsizlik içində, bu qədər münəzzəm təşkilata malik bir əsgəri-qüvvət vücuda gətirildiyinə heyran qalırdı. Əhalidən bir çoxu duyduğu fərd məhzuziyyətdən ağlayırdı. O gün Azərbaycanın ən şanlı, ən bəxtiyar günü idi. Fəqət... Fəqət. Azərbaycan Ordusunun son rəsmi-keçidi idi" (220).

Azərbaycan Ordusunun formalaşdırılması, ilkin təşkilati problemlərin həlli real, obyektiv çətinliklərlə qarşılaşsa da, qoşun hissələrinin təlim-tərbiyəsinə, ən qısa zaman ərzində onların döyüşkən və mübariz hissələrə çevrilməsinə diqqət bir an da olsa nəzərdən qaçırılmırdı. Döyüşçü hissəyə daxil olduğu gündən onun təlim-tərbiyəsinə başlanırdı. Qış və yay təlim mərhələləri üzrə təlim-tərbiyə proqramları hazırlanır və bunun əsasında dərslər keçirilirdi. Hissələrin komplektləşdirilməsinin xüsusiyyətləri ilə əlaqədər olaraq təlim-tərbiyə proqramı bütün mərhələ üçün deyil, mərhələ daxilində bir neçə dövr üçün hazırlanırdı. Döyüş hazırlığının nəzəri məsələləri ilə praktiki tərəfi üzvi şəkildə əlaqələndirilirdi. Hissələrin təlim meydanlarında bütün təmrinlər sistemli şəkildə yerinə yetirilirdi. Zabitlərin çatışmaması, hissələrə yeni əsgərlərin az-az gətirilməsi, döyüş tapşırıqlarının icrası, mülki hakimiyyət orqanlarına vaxtaşırı göstərilənköməklər döyüş hazırlığının ümumi ahənginə mənfi təsir göstərsə də, mövcud olan bütün imkanlar səfərbərliyə alınırdı. Başlıcası isə şəxsi heyətdə vəzifə borclarına şüurlu münasibət formalaşdırılmasına, əsgər və zabitlərin mənəvi tərbiyəsinə böyük əhəmiyyət verilirdi. Bu istiqamətdə hərbi qulluqçuya qayğı ilə tələbkarlıq düzgün əlaqələndirilirdi. Qoşunların şəxsi heyətinin mənəvi tərbiyəsi hərb işinin müsbət təcrübəsi, xalqın milli və dini ənənələri, dəyərləri üzərində aparılırdı. Azərbaycan əsgərinin şərəfini doğrultmayan, istər hissə, istərsə də qarnizon daxilində hərbi davranış normasını pozanlara qarşı qətiyyətli tədbirlər həyata keçirilirdi. Bütün bunların nəticəsi idi ki, özünün fiziki, maddi və hərbi imkanlarına görə Azərbaycan Ordusunun hissələri kifayət qədər döyüşkən hissələrə çevirilmişdilər.

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (MDA), fond 2894, siyahı 1, iş 1, vərəq 6
2. MDA, f.2898, siy.2, iş 49, v.30
3. MDA, f.2894, siy.1, iş 1, v.7
4. Yenə orada
5. MDA, f.2898, siy.2, iş 12, v.27
6. Yenə orada, v.94
7. Yenə orada
8. Yenə orada
9. MDA, f.2894, siy.1, iş 26, v.12
10. Yenə orada
11. MDA, f.2898, siy.2, iş 16, v.11
12. MDA, f.2898, siy.2, iş 12, v.8
13. MDA, f.2898, siy.2, iş 17, v.44–45
14. MDA, f.2898, siy.1, iş 30, v.6
15. MDA, f.2898, siy.2, iş 17, v.38
16. Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992, s.256
17. MDA, f.2898, siy.2, iş 25, v.157
18. MDA, f.2898, siy.2, iş 50, v.70
19. Yenə orada
20. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928, с.56
21. MDA, f.2898, siy.2, iş 23, v.7
22. Yenə orada
23. MDA, f.2898, siy.2, iş 12, v.110
24. Yenə orada, v.195
25. MDA, f.2898, siy.1, iş 13, v.1
26. MDA, f.2898, siy.1, iş 8, v.23
27. MDA, f.2898, siy.1, iş 30, v.81
28. MDA, f.2894, siy.1, iş 4, v.39
29. MDA, f.2898, siy.2, iş 23, v.3
30. Yenə orada, v.67
31. MDA, f.2898, siy.2, iş 50, v.119

32. Yenə orada, v.9
33. Yenə orada, v.66
34. Yenə orada, v.128
35. Yenə orada
36. Yenə orada, v.160
37. Yenə orada
38. MDA, f.2898, siy.2, iş 23, v.68
39. Yenə orada, v.65
40. Yenə orada
41. Yenə orada
42. Yenə orada, v.48
43. Yenə orada, v.85
44. MDA, f.2898, siy.1, iş 37, v.7
45. MDA, f.2898, siy.2, iş 23, v.12
46. MDA, f.2894, siy.1, iş 1, v.11
47. MDA, f.2894, siy.1, iş 4, v.60–61
48. MDA, f.2898, siy.2, iş 12a, v.8
49. Yenə orada, v.8–9
50. Yenə orada, v.10
51. Yenə orada
52. Yenə orada, v.11–12
53. MDA, f.2898, siy.2, iş 24, v.184
54. MDA, f.2898, siy.1, iş 23, v.135
55. MDA, f.2898, siy.2, iş 17, v.48
56. Yenə orada
57. MDA, f.2894, siy.1, iş 39, v.105
58. MDA, f.2894, siy.1, iş 4, v.33
59. Yenə orada, v.40
60. Yenə orada, v.94–96
61. MDA, f.2894, siy.1, iş 3, v.18
62. MDA, f.2894, siy.1, iş 3, v.18
63. Yenə orada
64. MDA, f.2898, siy.1, iş 28, v.63
65. MDA, f.2894, siy.1, iş 4, v.150
66. MDA, f.2898, siy.1, iş 19a, v.228
67. Yenə orada

68. Yenə orada, v.228
69. Yenə orada
70. Yenə orada
71. MDA, f.2898, siy.2, iş 23, v.229
72. Yenə orada, v.12
73. MDA, f.2898, siy.2, iş 12a, v.11
74. Yenə orada
75. MDA, f.2898, siy.2, iş 24, v.184
76. Yenə orada, v.192
77. MDA, f.2898, siy.2, iş 17, v.48
78. MDA, f.2898, siy.1, iş 9, v.7
79. MDA, f.2898, siy.2, iş 12a, v.147
80. Yenə orada
81. MDA, f.2898, siy.1, iş 19, v.5
82. MDA, f.2898, siy.1, iş 15, v.7
83. MDA, f.2898, siy.2, iş 8, v.21
84. Yenə orada
85. Yenə orada
86. Yenə orada, v.46
87. MDA, f.2898, siy.1, iş 4, v.35
88. Süleymanov M. Mehmandarov. Bakı, 2000, s.301
89. Yenə orada, s.303
90. Yenə orada, s.304
91. Yenə orada, s.305–307
92. MDA, f.2894, siy.1, iş 17, v.15
93. MDA, f.894, siy.10, iş 124, v.2–3
94. Аббасов А.Т. Генерал Мехмандаров. Баку, 1977, с.76
95. MDA, f.2894, siy.1, iş 9, v.32
96. MDA, f.2894, siy.4, iş 1, v.97
97. MDA, f.2894, siy.1, iş 9, v.93
98. MDA, f.2894, siy.1 iş 39 v.113
99. MDA, f.2898, siy.2, iş 17, v.44–45
100. MDA, f.2894, siy.1, iş 1, v.10
101. Yenə orada, v.7
102. MDA, f.2894, siy.1, iş 39, v.134
103. MDA, f.2894, siy.1, iş 1, v.6

104. MDA, f.2894, siy.1, iş 39, v.130
105. MDA, f.2898, siy.2, iş 5, v.404
106. MDA, f.2894, siy.1, iş 39, v.114
107. Yenə orada, v.105
108. MDA, f.2894, siy.1, iş 1, v.10
109. MDA, f.2894, siy.2, iş 1, v.99
110. MDA, f.2898, siy.1, iş 28, v.41
111. Siyasi Sənədlər Arxivi (SSA), f.277, siy.2, iş 79, v.12
112. SSA, f.277, siy.2, iş 43, v.24
113. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928, с.24
114. Yenə orada, s.25
115. SSA, f.277, siy.2, iş 79, v.12–13
116. MDA, f.2898, siy.2, iş 10, v.14-15
117. MDA, f.894, siy.2, iş 76, v.8
118. Yenə orada, v.11
119. MDA, f.2898, siy.2, iş 33, v.23
120. SSA, f.277, siy.2, iş 43, v.25
121. Борьба за советскую власть в Азербайджане. 1918–1920. Баку,1967, с.100
122. Yenə orada, s.523
123. MDA, f.894, siy.7, iş 5, v.50
124. Yenə orada
125. Yenə orada, v.56
126. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928, с. 71–73
127. Katibli M.M. Çingiz İldrım. Bakı, 1964, s.51
128. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928, с.71
129. Katibli M.M. Çingiz İldırım. Bakı, 1964, s.51
130. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928, с.71
131. MDA, f.894, siy.7, iş 26, v.37
132. Yenə orada, v.44
133. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку,

1928, с.71
134. Yenə orada
135. Борьба за советскую власть в Азербайджане. 1918–1920. Баку, 1967, с.402
136. Yenə orada, s.440
137. Katibli M.M. Çingiz İldırım. Bakı, 1964, s.56
138. Yenə orada, s.55
139. MDA, f.894, siy.7, iş 25, v.14
140. Yenə orada, v.15–16
141. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928, с.69–74; Katibli M.M. Çingiz İldırım. Bakı, 1964, s.51–56
142. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928, с.71
143. Борьба за советскую власть в Азербайджане. 1918–1920. Баку, 1967, с.292
144. MDA, f.970, siy.1, iş 171, v.18
145. MDA, f.970, siy.1, iş 226, v.41
146. MDA, f.2894, siy.1, iş 39, v.12
147. MDA, f.2894, siy.1, iş 4, v.153
148. MDA, f.2894, siy.1, iş 5, v.6a
149. MDA, f.2894, siy.1, iş 45, v.96
150. MDA, f.2894, siy.1, iş 9, v.49
151. MDA, f.2894, siy.1, iş 9, v.50
152. MDA, f.2894, siy.1, iş 7, v.23
153. MDA, f.2894, siy.1, iş 39, v.101
154. MDA, f.2894, siy.1, iş 6, v.203
155. MDA, f.2894, siy.1, iş 39, v.12
156. MDA, f.2898, siy.2, iş 49, v.20
157. MDA, f.2898, siy.2, iş 50, v.4
158. Yenə orada, v.6
159. Yenə orada, v.61
160. Yenə orada, v.62
161. Yenə orada, v.99, 105
162. MDA, f.2898, siy.2, iş 20, v.45
163. MDA, f.2898, siy.2, iş 47, v.33
164. Yenə orada

165. MDA, f.2894, siy.1, iş 6, v.71
166. MDA, f.2898, siy.2, iş 48, v.66
167. MDA, f.2898, siy.2, iş 17, v.46
168. MDA, f.2898, siy.2, iş 14, v.1
169. Yenə orada, v.2
170. Yenə orada, v.3
171. Yenə orada, v.5
172. Yenə orada, v.8
173. MDA, f.2898, siy.2, iş 14, v.28
174. MDA, f.2894, siy.1, iş 21, v.3
175. MDA, f.2898, siy.2, iş 12a, v.50
176. MDA, f.2894, siy.1, iş 1, v.42
177. MDA, f.2898, siy.2, iş 50, v.225
178. MDA, f.2898, siy.2, iş 17, v.31
179. Yenə orada, v.39
180. MDA, f.2898, siy.1, iş 5, v.10
181. Yenə orada, v.31
182. MDA, f.2894, siy.1, iş 39, v.75
183. Yenə orada
184. MDA, f.2898, siy.2, iş 14, v.31
185. MDA, f.2898, siy.2, iş 22, v.62,65
186. Yenə orada, v.189
187. MDA, f.2898, siy.2, iş 12, v.52
188. Yenə orada, v.109
189. MDA, f.970, siy.1, iş 171, v.39
190. MDA, f.2898, siy.1, iş 16, v.31
191. MDA, f.2894, siy.1, iş 1, v.4
192. Yenə orada, v.43
193. MDA, f.2898, siy.2, iş 12, v.116
194. Yenə orada, v.109
195. MDA, f.2898, siy.2, iş 14, v.1
196. Yenə orada, v.5
197. MDA, f.2894, siy.1, iş 5, v.1
198. Yenə orada
199. MDA, f.2898, siy.2, iş 14, v.14
200. Yenə orada, v.11

201. MDA, f.2898, siy.1, iş 28, v.14
202. MDA, f.2898, siy.2, iş 50, v.227
203. MDA, f.2898, siy.2, iş 17, v.10
204. MDA, f.2898, siy.2, iş 12a, v.6
205. MDA, f.2899, siy.1, iş 3, v.113
206. MDA, f.2898, siy.2, iş 14, v.30
207. Yenə orada, v.56
208. MDA, f.2898, siy.2, iş 50, v.113
209. Yenə orada, v.118
210. Süleymanov M. Mehmandarov Bakı, 2000, s.232
211. MDA, f.2898, siy.1, iş 15, v.87
212. MDA, f.2894, siy.1, iş 16, v.102–103
213. MDA, f.2894, siy.1, iş 9, v.8, 23
214. Yenə orada, v.42
215. «Азербайджан», 31.05.1919
216. MDA, f.2898, siy.2, iş 12a, v.4; f.2898, siy.2, iş 14, v.50
217. MDA, f.2898, siy.2, iş 21, v.68
218. «Азербайджан», 17.09.1919
219. MDA, f.2898, siy.2, iş 18, v.17
220. Miralay İsrafil bəy. Azərbaycan ordusu haqqında. Bax: Hərbi Bilik, 1996, № 4, s. 27–34

# VI FƏSİL

## AZƏRBAYCAN ORDUSUNUN DÖYÜŞ FƏALİYYƏTİ

1918–20-ci illərdə Azərbaycanda ordu quruculuğunun başlıca obyektiv çətinliklərindən biri də o idi ki, qoşun hissələrinin formalaşması və onların döyüş fəaliyyəti eyni vaxtda aparılırdı. İstiqlaliyyətin elan edildiyi elə ilk günlərdən xarici müdaxilə və təcavüz təhlükəsi saatbasaat güclənməkdə idi. Mövcud tarixi şərait və vəziyyət isə Azərbaycan Ordusunun qoşun hissələrinin daim döyüşə hazır olmasını tələb edirdi.

Azərbaycanın dövlət müstəqilliyinin və ərazi bütövlüyünün qorunması kimi ali vəzifəsi olan qoşun hissələrinin döyüş əməliyyatlarında iştirakı onların qarşılaşdığı çox ciddi sınaq olmalı idi. Bu döyüşlər Azərbaycan Ordusunun nəyə qadir olduğunu, təlim-tərbiyə prosesinin nəyə gətirib çıxardığını, xalqın orduya bağladığı ümidlərin əbəs olub-olmadığını üzə çıxarmalı idi.

### *1. Lənkəran əməliyyatı*

1918-ci ilin payızında Bakı və Qarabağ yad qüvvələrdən təmizləndikdən sonra Lənkəran bölgəsi istisna olmaqla Azərbaycanın bütün ərazisində respublika hökumətinin səlahiyyətləri bərpa edildi. İngilis qoşunlarının Bakıya gəlməsi, türk qoşunlarının isə Azərbaycandan çıxarılması respublikanın cənubunu da təmizləyib orada qanuni dövlət orqanlarının yaradılmasını təxirə saldı.

Tutduğu geostrateji mövqe etibarilə Lənkəran bölgəsi müxtəlif siyasi qüvvələrin diqqətini cəlb edir və onlar qarşıya qoyulan məqsədlərin əldə edilməsi naminə burada möhkəmlənməyə çalışırdılar. Çox qısa müddət ərzində burada bir neçə siyasi qüvvə öz hakimiyyətini elan etdi. 1918-ci ilin əvvəllərində müsavatçı qüvvələr buradakı silahlı ünsürləri tərk-silah edib hakimiyyət orqanlarını nəzarət altına alsalar da, 1918-ci ilin aprelində "Aleksandr Jander" gəmisində bölgəyə gələn bolşevik qüvvələri hakimiyyəti ələ keçirdilər (1). Ancaq bolşeviklərin hakimiyyəti də bölgədə uzun sürmədi. Bakı Xalq Komissarları Sovetinin yıxılması və "Sentrokaspi

Diktaturası"nın yaradılması ilə cənub bölgəsində də bolşevik qüvvələrinin nüfuzu xeyli zəiflədi. Onların əvəzinə bölgədə yerləşdirilmiş olan və bölgənin rus əhalisi tərəfindən müdafiə olunan rus qoşun hissələrinin millətçi zabitləri fəallaşmağa başladılar. Rusiyadakı Denikin qoşunları ilə sıx əlaqəsi olan bu qüvvələrə polkovnik İlyaşeviç rəhbərlik edirdi. O, İranla sərhəd xəttinin qorunması üçün Muğanın cənubunda yerləşdirilmiş olan 29-cu rus sərhəd briqadasının komandiri idi. Rus millətçi zabitlərinin tipik nümayəndəsi olan polkovnik İlyaşeviç Azərbaycanın müstəqil olmasını heç vəchlə qəbul etmək istəmir və onu bölünməz Rusiyanın tərkib hissəsi sayırdı. Buna görə də o, yaranmış vəziyyətdə güc tətbiq edərək bölgəni öz nəzarəti altına gətirmək və burada möhkəmlənərək məntəqəni denikinçilərin Azərbaycan üzərinə gələcək hücum bazasına çevirmək üçün fəal tədbirlərin icrasına əl atdı. 1918-ci ilin avqust ayında o, öz qərargahı ilə Cavad qəzasının Biləsuvar kəndindən Lənkəran qəzasının Prişib kəndinə köçdü. İlyaşeviçin komandiri olduğu briqadada bu vaxt 6 minə qədər silahlının olduğu güman edilirdi. Həmin silahlıların təzyiqi ilə avqustun 4–5-də Prişib kəndində fövqəladə qurultay çağırıldı və orada Lənkəran və Cavad qəzalarında hakimiyyət məsələsi müzakirə edildi. Qəbul edilən qərara görə həmin qəzaları idarə etmək üçün 5 nəfərdən ibarət "Müvəqqəti diktatura" yaradıldı. Bu diktatura "beşlər diktaturası"da adlandırılırdı (2).

Beləliklə, millətçi rus zabitləri cənub bölgəsində hakimiyyəti öz əllərinə aldılar. İxtiyarlarında olan silahlı qüvvələrə, bölgənin rus qolçomaqlarına, Bakıdakı rus milli komitəsinə və Denikinin yardımlarına arxalanaraq Müvəqqəti diktatura əhalini çapıb-talamağa, öz mənafeyinə uyğun olan yeni bir rejim yaratmağa başladı. Bakı şəhəri bolşevik-daşnak qüvvələrindən azad edildikdən sonra cənub bölgəsində zülm və özbaşınalıqlardan cana doymuş olan əhali öz nümayəndələrini Nuru paşanın yanına göndərib ondan kömək istədi. Nuru paşa yaxın vaxtlarda Lənkəran bölgəsinin də təmizlənəcəyini vəd etdi. Ancaq türk qoşunlarının Azərbaycanı tərk etməsi ilə bu vəd yerinə yetirilməmiş qaldı (3).

İngilis qoşunları tərəfindən də himayə olunan denikinçilər isə cənub bölgəsində möhkəmlənməkdə davam edirdilər. Mövcud

olan məlumatlara görə 1918-ci ilin son aylarında cənub bölgəsindəki denikinçi qüvvələrin sayı 10 min nəfərə çatdırılmışdı (4).

Türk qoşunları Azərbaycanı tərk etdikdən sonra respublika hökumətinin belə bir qüvvə ilə mübarizə aparmaq imkanı yox idi. Qoşun hissələri hələ kifayət qədər möhkəmlənməmişdi. Ona görə də kömək göstərilməsi üçün müraciət edən Lənkəran nümayəndələrinə Azərbaycanın Xarici İşlər naziri bildirmişdi ki, indiki halda bu məsələ general Tomsonun qarşısında qaldırılmalıdır (5).

1918-ci il dekabrın sonlarında Lənkəran əhalisinin nümayəndə heyəti Bakıya Tomsonun görüşünə gəldi (6). Nümayəndə heyətinə Teymur bəy Bayrambəyov başçılıq edirdi. İngilis generalı ilə görüşdə nümayəndə heyəti bölgənin ağqvardiyaçılardan təmizlənməsi və orada Azərbaycan hökumətinin səlahiyyətlərinin bərpası barədə məsələ qaldırdı. General Tomson bu işdə lazımi tədbirlərin həyata keçiriləcəyi barədə nümayəndə heyətinə vəd verdi (7).

Cənubda özlərini hakim elan etmiş millətçi rus zabitləri isə mövcud olan münasib tarixi şəraitdən istifadə edərək öz mövqelərini möhkəmləndirməyə və ona qanuni don geyindirməyə çalışırdılar. 1919-cu ilin fevralında rus zabitlərinin nəzarəti altında olan ərazilər "Lənkəran Respublikası" elan edildi və Suxorukovun rəhbərliyi ilə demokratik hökumət təşkil olunduğu bildirildi (8).

İdarəçilik üsuluna yeni bir don geyindirilsə də, cənubda elan olunan qurum hərbçilərin diktaturasından başqa bir şey deyildi və günü-gündən genişlənməkdə olan xalq narazılıqlarından bu qurumu qoruyan da hərbçilərin süngüsü idi. Azərbaycan hökumətinin qətiyyətli tədbirlər həyata keçirmək imkanı olmadığı bir vaxtda bu süngülər hələlik xalq qəzəbinin qarşısını almağa kifayət edirdi.

Cənub bölgəsinin yeni oyuncaq qurumu mövcudluğunun tanınması naminə Azərbaycanın hökumət orqanları ilə danışıqlar aparmaq kimi vasitələrə də əl atırdı. 1919-cu il martın əvvəllərində Gerasimovun sədrliyi altında bir nümayəndə heyəti təşkil edildi və Azərbaycan hökumətinin yanına göndərildi. 1919-cu il martın 21-də Azərbaycanı parçalamaq iddiasında olan qüvvələrin Prişibdə qurultayı çağırıldı. Bu qurultayda həm Gerasimov dinlənildi, həm də oyuncaq qurumun möhkəmləndirilməsi yolları

müzakirə edildi. Belə bir qərar qəbul edildi ki, Paris Sülh konfransı öz işini qurtaranadək Lənkəran qəzası Azərbaycanın hakimiyyəti altına verilməsin və "Muğan vilayəti" adı altında yaradılan müstəqil bir quruma tabe etdirilsin (9).

Azərbaycanın cənubunda yaranmış olan qanunsuzluq və özbaşınalıqlardan bolşevik qüvvələri də öz planları üçün istifadə etməyə çalışırdılar. Onlar da Lənkəran bölgəsini Bakı üzərinə qətiyyətli hücumun başlanması üçün əlverişli baza kimi görürdülər. Lənkəranın ələ keçirilməsi həm də qaçıb dağılmış olan bolşevik elementlərinin toplaşmasına, onların qüvvələrinin birləşdirilməsinə imkan verə bilərdi. Bunun üçün onlar tədricən bölgəyə axışır, əhali arasında təbliğat aparmaqla bərabər öz silahlı dəstələrini də formalaşdırırdılar. Heç şübhəsiz ki, ağqvardiyaçı rus zabitlərinin iradəsini həyata keçirən yeni qurumun qanunsuzluq və özbaşınalıqlarından cana doyan yerli əhalinin genişlənən narazılıqları da bolşevik üsyanının uğuru üçün zəmin yaradırdı.

1919-cu ilin yazında bolşeviklərin Qafqaz Diyar Komitəsi Lənkəran bölgəsində silahlı yolla hakimiyyəti ələ almaq üçün ciddi hazırlıq işlərinə başladılar. Tərtib edilmiş üsyan planına görə qırmızı partizanlar və digər bolşevik qüvvələri oyuncaq qurumun yerləşdiyi binanı, qoşunların qərargahını, radiostansiyanı, dəniz agentliyini tutmalı idilər. Ağqvardiyaçı zabitlərin əsas simalarının siyahısı tutulmuşdu. Silahlı üsyan başlanan kimi həmin zabitlər dərhal həbs edilməli idilər. Şəhərin mərkəzi küçələrinə silahlı drujinaçı dəstələr qoyulmuşdu. Bolşeviklər tərəfinə keçmiş olan zirehli avtomobil Xan sarayı yaxınlığında dayanmışdı. Şəhərin mərkəzi meydanlarına pulemyotlar çıxarılmışdı və aprelin 25-də onlar hamısı üsyana hazır vəziyyətdə idi. Həmin gün Lənkəranda ağqvardiyaçı zabitlərin müşavirəsi keçirilirdi. Gündüz müşavirədən sonra zabitlər nahar yeməyi üçün evlərinə dağıldıqda bolşevik qüvvələri qəti hücuma keçdilər. Bir süvari taqımı qoşunların qərargahını tutdu. Qırmızı partizanlar isə oyuncaq hökumət orqanının yerləşdiyi binanı, poçtu, radiostansiyanı, dəniz agentliyini və mayakı tutdular. Bir neçə saat ərzində şəhərin ən vacib nöqtələri ələ keçirildi (10).

Dərhal da kütləvi həbslərə başlandı. Polkovnik İlyaşeviç başda

olmaqla rus zabitlərinin elan etdiyi oyuncaq hökumətin bütün fəalları həbs edildi. Əvəzində yeni inqilabi idarəetmə orqanı yaradıldı. Hələlik müvəqqəti xarakter daşıyan bu orqana Jirikov başda olmaqla üç nəfər rəhbərlik edirdi (11).

Hakimiyyət məsələsinin həll edilməsi üçün 1919-cu il mayın 15-dən Lənkəranda kəndli deputatları Muğan sovetinin fövqəladə qurultayı çağırıldı. Qurultayda iştirak edən deputatların təxminən yarısı azərbaycanlı deyildi (12). Dörd gün davam edən qurultayda Azərbaycanın cənubunda Sovet hakimiyyəti qurulduğu elan edildi və 35 nəfərdən ibarət qanunverici orqan seçildi. "Muğan Diyar Soveti" adlandırılan bu orqanın sədri vəzifəsinə David Çirkin, onun müavini vəzifəsinə isə Şirəli Axundov irəli çəkildi (13).

Zaqafqaziya sovet hakimiyyətinin yeganə dayaq nöqtəsi olan Lənkəran bölgəsində üsyan xəbəri alınan kimi bura bolşevik yardımı daha da artırıldı. 1919-cu il aprel ayının sonuncu günləri Bakı bolşevikləri gizlicə "Vstreça" gəmisi ilə Lənkərana xeyli miqdarda silah və sursat, 9 milyon rubl pul və çoxlu siyasi ədəbiyyat gətirdilər (14).

Şimali Qafqazda Denikin ordusuna qarşı mübarizə aparan XI Ordunun bir qrup döyüşçüsü müqavimətə dözməyərək geri çəkilməyə və Bakıya gəlməyə məcbur olmuşdu. S.Orconikidzenin göstərişi ilə həmin döyüşçülərdən də 200 nəfərə qədəri 1919-cu ilin may ayında Lənkərana aparıldı (15).

Həştərxandan da Lənkərandakı bolşevik qüvvələrinə böyük kömək göstərilirdi. Leninin tapşırığı ilə kommunist T.İ.Ulyansev (Otradnev) də Lənkərana gəlib burada İnqilabi Şura təşkil etdi (16).

1919-cu il may ayının sonunda cənubda elan olunmuş sovet hakimiyyətinin sərəncamında bir piyada taboru, süvari eskadronu, 6 səhra və 3 dağ topu, 3 hidroplan var idi. Silahlı qüvvələrin ümumi sayı 5–6 min nəfərə çatırdı (17).

Ancaq yenicə elan edilmiş bolşevik hakimiyyəti də əhalinin həyat şəraitinin yaxşılaşdırılması üçün lazımi iş görə bilmədi. Tezliklə bunu anlayan xalq kütlələri bolşevizmə əks olan mövqelərə meyillənməyə başladılar. Hətta bolşeviklərin sosial bazası güman edilən buradakı rus əhalisi də ağqvardiyaçı zabitlərin ətra-

fında cəmləşir, onların təşkil etdikləri silahlı dəstələrdə birləşirdilər. Novo-Qulyayevka və Petropavlovka kəndləri ətrafında 5 min nəfərlik silahlı dəstə təşkil etməyə müvəffəq olan (18) ağqvardiyaçı zabitlər iyunun 15-də Prişibdə qurultay keçirdilər və sovet hakimiyyətinin devrilməsi məqsədilə Lənkəran üzərinə hücum qərarı qəbul etdilər (19).

Sovet hakimiyyətinə, onun yeritdiyi siyasətə qarşı Azərbaycan kəndliləri də yorulmaz mübarizə aparırdılar. Bu istiqamətdə Astarada Hüseyn Ramazanovun rəhbərliyi altında təşkil edilmiş partizan dəstəsi xüsusilə səmərəli fəaliyyət göstərirdi. Əvvəllər elə də böyük olmayan bu partizan dəstəsi may ayının əvvəllərində Şahağac və Alekseyevka kəndlərinə hücuma keçdi. Lakin daha böyük gücə malik olan bolşevik qüvvələri H.Ramazanovun partizan dəstəsinin hücumunun qarşısını ala bildi (20).

İyunun 10-da H.Ramazanovun partizan dəstəsi yenidən Astaradakı bolşevik qüvvələri üzərinə hücuma keçdi. Onlar arasında gedən gərgin döyüşlər bir neçə gün davam etdi. Lənkərandan gələn əlavə qüvvələr bolşevik dəstələrini müəyyən qədər gücləndirsələr də, onlar ciddi bir uğur qazana bilmədilər. İyunun 17-də isə bütünlükdə Lənkərana doğru geri çəkilmək məcburiyyətində qaldılar. (21).

Bu hərbi uğursuzluqdan sonra öz hərbi mövqelərini möhkəmləndirmək üçün bolşeviklər bir sıra tədbirlər həyata keçirdilər. Hakimiyyət Ulyansevin rəhbərliyi altında olan Hərbi İnqilab Şurasına verildi, müxtəlif məhəlli müdafiə komitələri yaradıldı, əhalinin qırmızı qüvvələrin sırasına səfərbərliyi elan edildi, imkanlı şəxslər üzərində 8 milyon manatlıq təzminat qoyuldu (22).

Lakin bu tədbirlərin heç biri süngü gücünə öz hakimiyyətlərini elan etmiş və əsasən də rus və erməni bolşevikləri tərəfindən idarə olunan sovetlərin mövqeyinin möhkəmlənməsində ciddi bir dönüş yaratmadı. Geniş xalq kütlələri tərəfindən müdafiə olunmayan bu oyuncaq qurum elan edildiyi gündən məruz qaldığı böhrandan çıxa bilmədi. İyunun 23-də ağqvardiyaçı zabit Xoşevin rəhbərliyi altında 500 nəfərlik silahlı dəstə bölgədə hakimiyyətin yenidən denikinçi rus zabitlərinin əlinə keçməsi üçün növbəti cəhd göstərdi. Bolşeviklərin çaş-baş düşməsindən istifadə edən

ağqvardiyaçılar iyunun 25-də Lənkəranın şimal-şərq hissəsini, habelə mayakı tutdular. Xoşev hətta bolşevik qüvvələrindən 9 saat ərzində hakimiyyəti təhvil verməyi, polkovnik İlyaşeviç başda olmaqla həbs edilmiş 82 rus zabitinin dərhal azadlığa buraxılmasını tələb etdilər (23). Ancaq bir neçə gün ərzində bolşeviklər bütün güclərini səfərbərliyə alıb denikinçi zabitlərin rəhbərlik etdiyi dəstəni Lənkərandan uzaqlaşdıra bildilər. Bu döyüşlərin gedişində bolşeviklər xeyli itki verdilər. Onlar Hərbi İnqilab Şurasının sədri Ulyansevi də itirdilər (24).

Bölgədə Azərbaycan hökumətinin bərpa edilməsini arzulayan azərbaycanlı qüvvələrin də sayı artmaqla bərabər, fəaliyyətləri də genişlənirdi. İyunun axırlarında Bakıdan Məlik-Yeqanovun rəhbərliyi altında Astaraya canlı qüvvə gəldi və H. Ramazanovun dəstəsi ilə birləşdi (25).

Hüseyn Əlixanın və Rəşid xanın kiçik dəstələri də Ramazanovun və Şahverənin başçılığı altında olan başqa bir partizan dəstəsinə qoşuldular (26). Şahverənin rəhbərliyi altında yaradılan və denikinçi, bolşevik qüvvələrinə qarşı fəal mübarizə aparan partizan dəstəsi Zuvand dağlarında özünə məskən tapmışdı (27).

Mövcud olan məlumatlara görə iyul ayının sonlarında H.Ramazanovun və Şahverənin dəstələri də Astara, Şahağac və Alekseyevka kəndlərinə hücum etdilər. Astarada 20 çekist, 10 milisioner və 10 qırmızı əsgər öldürüldü. Şahağacada 15 nəfərlik sovet postu məhv edildi. Partizanların başqa bir qrupu isə Alekseyevka kəndində bolşeviklərin 200 piyadası, 60 süvarisi və bir dağ-topçu batareyası ilə qarşılaşdı. Bolşevik süvariləri partizanların İrana çəkilmək yolunu kəsdilər. Topların işə salınması onların vəziyyətini xeyli mürəkkəbləşdirdi. Erməni bolşeviklərinin komandirliyi altında olan Lənkəran taborunun birinci bölüyünün və Muğan süvari eskadronunun fəal hərəkətləri partizanlar tərəfindən hərbi təşəbbüsün itirilməsinə səbəb oldu və onlar sərhəddəki dağlara sarı geri çəkildilər (28).

1919-cu il iyulun 5-də Prişibdə denikinçi rus zabitlərinin, malakan və rus kəndlilərinin növbəti qurultayı çağırıldı. Qurultayda bir sıra Azərbaycan kəndlərinin nümayəndələri də iştirak edirdi. Burada qərara alındı ki, bölgə kommunist təxribatçılardan

təmizlənsin və muğanlıların hakimiyyəti bərpa olunsun (29).

İyul ayının ikinci yarısında rus zabitlərinin rəhbərliyi altında olan Muğan qüvvələri Lənkəran üzərinə hücuma keçdilər. İyulun 15-də onlar artıq şəhərin şimal həndəvərinə soxula bilmişdilər (30).

Lənkərandakı bolşevik qüvvələri təkcə muğanlıların deyil, həm də azərbaycanlılardan ibarət olan könüllü dəstələrin hücumuna məruz qaldılar. İyulun 17-də, gecə saat 12-də başlanan hücum ərəfəsində Şahverənin rəhbərliyi altında olan 500 nəfər yaxşı silahlanmış dəstə H.Ramazanovun dəstəsi ilə birləşdi və onlar xalqın mənafeləri naminə birgə fəaliyyət göstərməyi qərara aldılar. Birləşmiş dəstənin komandanlığının keçirdiyi hərbi şurada Lənkəran üzərinə üç istiqamətdən hücum etmək məqsədəuyğun bilindi. Şahverənin rəhbərliyi altında olan bir dəstə qərbdən, Ramazanovun rəhbərliyi altında olan ikinci dəstə cənubdan, Lənkəran çayının yatağı boyu, Hacı Osmanın rəhbərliyi altında olan üçüncü dəstə isə şərqdən Lənkəran üzərinə hücuma keçməli idi (31).

Əlaqələndirilmiş şəkildə həyata keçirilən hücum könüllü milli dəstələrin uğurları ilə başladı. Hər tərəfdən sıxışdırılan bolşevik silahlıları geri çəkilmək məcburiyyətində qaldılar. Onların bir hissəsi şəhər qülləsində, bir hissəsi isə dənizdə dayanmış "Milyutin" gəmisində və digər üzən obyektlərdə özlərinə sığınacaq tapdılar. Ayın 18-də bolşevik qüvvələri sığındıqları yerlərdən könüllü dəstələrin mövqelərini güclü top atəşlərinə tutdular. Şəhərin mərkəzində isə zirehli avtomobil azərbaycanlı silahlıların irəliləməsinə mane oldu. Vuruşan bolşeviklərin əksəriyyəti erməni idi. Onlar öz ailələrini Sara adasına təxliyə etmişdilər. Gün ərzində davam edən atışmalardan sonra Böyük bazar, habelə çoxlu sayda evlər tamamilə dağıdıldı (32).

Lənkəranın daxilində döyüşlər bir neçə gün davam etdi. Bolşevik qüvvələri tamamilə mayaka doğru sıxışdırılmışdı. Onların sərancamında olan toplar və pulemyotlar bu mövqeni möhkəm saxlamağa və azərbaycanlıların hücumlarının qarşısını almağa imkan verirdi. Şəhərin qalan hissəsi isə demək olar ki, azərbaycanlı könüllülərin əlinə keçmişdi. Şəhərin şimal nöqtəsindən başlayaraq Hacı Qurban küçəsinə kimi bütün dənizboyu sahə Şahverənin

dəstəsinin, şəhərin qərb ətəyindən başlayaraq sol sahilinə kimi H.Ramazanovun dəstəsinin, Sutamordob tərəf isə dənizdən başlayaraq Lənkəran çayının sağ sahilinə kimi Hacı Osmanın dəstəsinin nəzarəti altında idi (33).

Kifayət qədər qüvvəsi olan Azərbaycan könüllüləri öz hücumlarını davam etdirmək niyyətində idilər. Bolşevik qüvvələri vəziyyətlərinin çıxılmaz olduğunu yaxşı anlayırdılar. Buna görə də onlar şəhəri tərk edib Sara adasına çəkilməyi qərara aldılar. Ancaq hakimiyyəti Azərbaycanın milli qüvvələrinə deyil, Muğan qüvvələrinə təhvil verdilər. İyulun 24-25-də Muğan qüvvələri şəhərin mühüm obyektlərinə buraxıldı və onların həbs edilmiş zabitlərinin hamısı azad olundular (34).

Lənkəranın mühüm obyektlərini ələ keçirən muğanlılar əvvəlcə iyulun 26-da Prişibdə özlərinin növbəti qurultayını çağırdılar. Orada qərara alındı ki, kəndli deputatları Muğan sovetinin mayın 15-dəki fövqəladə qurultayında seçilən hakimiyyət orqanı etibarsız sayılsın və o, öz səlahiyyətlərini hazırkı qurultayda seçilən hakimiyyət orqanına təhvil verilsin (35).

Polkovnik İlyaşeviç həbsdən azad edilən kimi bölgədə idarəçiliyi yenidən öz əlinə aldı. O, dərhal azərbaycan könüllülərinin sıxışdırılmasına başladı. Bu könüllü dəstələrdən birinin rəhbəri olan Yusif bəyə göndərdiyi ultimatumunda polkovnik İlyaşeviç bildirirdi ki, onların mübarizəsi bolşeviklərin əleyhinə istiqamətlənmişdi. Bu qüvvələr isə artıq devrilmiş və Lənkəran-Muğan qüvvələrinin əlinə keçmişdir. Guya əlavə qan tökülməsinə razı olmayan rus polkovniki, Yusif bəydən tələb edirdi ki, 12 saat ərzində öz dəstəsini rus Astarasının hüdudlarından kənara çıxarsın. Əks təqdirdə, o, Yusif bəyin dəstəsinə qarşı güclü hücuma keçəcəyi ilə hədələyirdi. Yusif bəy isə polkovnik İlyaşeviçə cavab göndərdi ki, o, Azərbaycan hökumətindən başqa heç bir hökuməti tanımır və heç kəsin ultimatumunu qəbul etməyəcəkdir (36). Bölgədə gedən proseslər Azərbaycan hökuməti tərəfindən də diqqətlə izlənilirdi. Bolşevik qüvvələri Lənkəranı tərk etdikdən sonra Azərbaycan hökuməti tərəfindən Lənkəran qəzasının idarə edilməsi üzrə fövqəladə müvəkkil təyin edilmiş olan Məlik-Yeqanov bölgəyə göndərildi. O, Lənkərana deyil Astaraya gəldi. Sərəncamın-

da olan qüvvələrlə Azərbaycan könüllülərini bölgədən vurub çıxaracağına əmin olan İlyaşeviç Azərbaycan hökumətinin qanuni dövlət orqanının Astaraya gəlməsi xəbərini eşidəndən sonra planlarını bir də götür-qoy etməyə məcbur oldu. O, Yusif bəyə yeni bir məktub göndərdi. Azərbaycanın qanuni hakimiyyət nümayəndələrinin bölgəyə gəlməsinə təəccübünü gizlətməyən İlyaşeviç məktubunda bildirirdi ki, Muğanın Azərbaycana birləşdirilib-birləşdirilməməsinə beynəlxalq sülh konfransında baxılmalıdır. İngilislərin razılığı olmadan bu məsələ həll edilə bilməz. O təklif edirdi ki, yeni təyin olunmuş qubernator Lənkərana gəlib səlahiyyətlərini təsdiq edən sənəd təqdim edərsə, onun mühafizəsi təmin olunar və bölgənin taleyi ilə bağlı məsələlərin müzakirəsinə başlanar (37).

Məlik-Yeqanovla bərabər, Astaraya Azərbaycan qoşun bölmələri də göndərilmişdi (38). İlyaşeviçin ətrafındakılarla Azərbaycanın hakimyyət nümayəndələri arasında danışıqlar bir neçə gün davam etdi. Muğanlılar vaxtı uzatmaqla güman edirdilər ki, ingilislər məsələyə müdaxilə edəcək və Muğanın Azərbaycana birləşdirilməsinə imkan verməyəcəklər. Lakin tezliklə onların bu ümidləri də boşa çıxdı və ingilislər Muğanın Azərbaycan hökumətinin hakimiyyəti altına gətirilməsinə tərəfdar oldular. İngilis komandanlığı bu məsələ ilə bağlı İlyaşeviçin tərəfdarlarına öz tələbini çatdırdı. Həmin tələbdə deyilirdi: "Müttəfiq dövlətlərin və admiral Kolçakın nümayəndələrinin Parisdə qəbul etdikləri razılaşmaya əsasən Britaniya hökuməti qərara gəlir ki, Muğan vilayəti və Lənkəran qəzası Azərbaycanın hüdudları daxilində olan ərazi kimi bu respublikanın hakimiyyət orqanları tərəfindən idarə edilməlidir və həmin ərazilərdə bu hakimiyyət bərqərar olmalıdır. Lənkəranda və Muğanda qanuni hakimiyyəti bərqərar etməyə çalışan Azərbaycan Respublikasının qanuni hərəkətlərini müdafiə edən Britaniya hakimiyyəti bölgədəki rus əhalisinin maraqlarını nəzərə alacaq lazımi hakimiyyət orqanlarının yaradılmasına kömək üçün ora öz fövqəladə komissiyasını göndərir" (39).

İngilis komandanlığının və bütünlükdə müttəfiq dövlətlərinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmək xəbəri Muğan qüvvələrini çaş-baş salsa da, onlar hakimiyyəti asanlıqla təhvil ver-

mək niyyətində də deyildilər. Onlar bildirdilər ki, ingilis komandanlığının tələbləri avqustun 10-da Ümummuğan qurultayında müzakirə ediləcək. Nümayəndələrinin hamısının bölgədəki rus əhalisindən olacaq qurultayın hansı qərar çıxaracağını təsəvvür etmək elə də çətin deyildi. Bununla belə, Muğan qüvvələrinin liderləri çətin vəziyyətə düşdüklərini hiss etdiklərindən hər gün bölgədəki azsaylı qoşun bölmələrinin, könüllü silahlı dəstələrin mövqelərini gülləyə tutur və bu yolla özləri üçün daha sərfəli güzəştlərə nail olmaq istəyirdilər. Qarşılıqlı atışmalar nəticəsində hər iki tərəfdən ölən və yaralananlar var idi (40).

1919-cu il avqustun 10-na keçən gecə Muğan qüvvələri yenidən hücuma keçdilər. Bütün cəbhəboyu həyata keçirilən bu hücumla muğanlılar Azərbaycan qüvvələrinin müdafiədə dayanan mövqelərinə xeyli yaxınlaşdılar. Hücumun uğurlu olacağı təqdirdə hansısa bir güzəştə ümid edən Muğan qüvvələrinin silahlıları Azərbaycanın müdafiə səngərlərinin təmas xəttinə çatdılar. Lakin göstərdikləri cəhdlər heç bir nəticə vermədi və böyük itkilərə məruz qalaraq səhərə yaxın geri çəkilməli oldular. Bu uğursuz hücum muğanlıların bölgədə möhkəmlənmək ümidini boşa çıxardı və onlar ingilis nümayəndəliyinə xəbər göndərərək Azərbaycan hökumətini tanımağa razı olduqlarını bildirdilər (41).

Avqustun 11-də muğanlıların qurultayı çağırıldı və burada da onların Azərbaycan hökumətinə tabe olduğu bəyan edildi. Ancaq qəbul olunan qərarda muğanlıların özlərini Rusiyanın tərkib hissəsi kimi görməyə ümidlərini hələ də kəsmədikləri aydın görünürdü: "Özümüzü Böyük Rusiyanın tərkib hissəsi sayaraq və rus meyilliliyini itirməyərək Muğan və Lənkəran qəzası üzərində Azərbaycanın qanuni hakimiyyəti tanınsın və bu məsələ Ümumrusiya Müəssisələr Məclisində həll edilənə kimi Rusiyanın və rus xalqının şərəfini alçaltmayan şərtlər əsasında müvəqqəti olaraq Azərbaycan Respublikasının tərkibinə daxil olunması qəbul edilsin" (42).

Muğanlıların, ingilislərin və Azərbaycanın hakimiyyət orqanlarının nümayəndələri görüşərək Muğanın hansı şərtlər əsasında Azərbaycan hökumətinin nəzarəti altında keçməsini müzakirə etdilər. Əldə olunan razılaşmaya əsasən avqustun 11-də axşam saat 6-da hər iki tərəf öz mövqelərindən geri çəkilməli və ingilis

komandanlığının nümayəndəsi tərəflərin döyüş mövqeyini gəzərək razılaşmaya necə əməl edildiyini yoxlamalı idi. Ayın 13-dən etibarən isə şəhər Azərbaycan hökumətinin nəzarəti altına keçməli idi (43).

Qərara alınmışdı ki, şəhərə əvvəlcə azsaylı qoşun bölməsinin müşayiəti ilə hakimiyyət nümayəndələri daxil olunsunlar, inzibati binaları və əmlakı təhvil alsınlar. Ayın 12-də gündüz saat 1-də bir qrup əsgər zabitlərin komandanlığı altında şəhərə doğru hərəkətə başladı. Güclü yağış yağmasına baxmayaraq, onların, eləcə də onları qarşılayan şəhər əhalisinin çox yüksək əhval-ruhiyyəsi var idi. Şəhərin həndəvərinə toplaşmış olan əhali "Yaşasın Azərbaycan", "Yaşasın əsgərlərimiz və zabitlərimiz" deyə qışqırırdılar. Rəsmi qarşılama mərasimi məscidin yanında keçirildi. Çıxış edənlər Azərbaycanın hökumət nümayəndələrinin və bölgədəki qoşun bölmələrinin təmkinli hərəkətlərini xüsusi qeyd etdilər və onlara öz minnətdarlıqlarını bildirdilər. Əhali qarşısında çıxış edən fövqəladə müvəkkil bölgədə qanunçuluğun bərpasının zəruriliyindən danışdı və toplaşanlara Azərbaycan əsgərlərinin "Ya Lənkəranı azad etməliyik, ya da ölməliyik" əzmi ilə vuruşduğunu vurğuladı (44).

Elə həmin gün də Məlik-Yeqanov Lənkəran qəzası əhalisinə belə bir müraciət imzaladı: "Tam qanun-qayda və sakitlik bərpa edilənədək mən Lənkəran qəzasında hərbi vəziyyət elan edirəm. Bununla bağlı aşağıdakılar qadağan edilir:

1. Azərbaycan Respublikasının hakimiyyəti əleyhinə təbliğat işləri ilə məşğul olmaq;
2. İcazəsiz silah gəzdirmək və silahla şəhərdə gəzmək;
3. İlkin tələbat üçün zəruri olan malların qiymətini qaldırmaq;
4. Vətəndaşların dinc həyatını pozan yersiz atəşlər açmaq;
5. Sərxoş vəziyyətdə şəhərdə gəzmək;
6. Axşam saat 10-dan sonra şəhərdə gəzmək;
7. Oğurluq əşyaları alıb satmaq, əhalidə olan bütün hərbi əşyalar dərhal hakimiyyət orqanlarına qaytarılmalıdır" (45).

Muğanlılar Lənkəranı təhvil vermək məcburiyyətində qalsalar da, çox güclü hərbi qüvvəyə malik idilər. Silahlı dəstələrin tərkibində olan zabitlərin böyük bir hissəsi keçmiş rus ordusunda xid-

mət yolu keçmiş təcrübəli zabitlər idi. Bu qüvvələr, eləcə də bölgənin rus əhalisi ixtiyarlarında olan çoxsaylı ağır hərbi texnika, silah və sursatla Azərbaycanın ərazi bütövlüyü üçün potensial təhlükə idi və nə qədər ki, bu qüvvələr zərərsizlədirilməmişdi Azərbaycan istənilən vaxt üç tərəfdən – şimaldan, dənizdən və cənubdan şovinist rus dairələrinin silahlı təzyiqinə məruz qala bilərdi. Şübhə yox idi ki, Denikin qoşunları ilə əlaqə saxlayan muğanlılar istənilən vaxt Denikin tərəfində döyüşlərə girməyə və arxadan Azərbaycan hökumətinə güclü zərbə endirməyə hazır idilər. Eyni zamanda, Azərbaycan hökumətinin nümayəndəsi Lənkərana gəlsə də, bölgədə olan bütün rus kəndləri tamamilə yeni hakimiyyətin iradəsini yerinə yetirməyə hazır deyildilər. Əksinə, əllərində olan silahlarla onlar da öz iradələrini qəbul etdirməyə çalışırdılar.

Bütün bunlar Azərbaycan hökumətindən qətiyyətli tədbirlər görməyi, respublikanın cənubunda birdəfəlik sabit vəziyyətin yaradılmasını tələb edirdi. Belə qətiyyətli tədbirlər Azərbaycan Ordusunun qoşun hissələrinin bölgəyə göndərilməsi ilə yerinə yetirildi.

Hərbi Nazirliyin rəhbərliyi bölgəyə qoşun dəstəsi göndərməsi barədə göstərişi hələ bolşevik qüvvələri burada öz hakimiyyətlərini elan etdikləri vaxt almışdı. Azərbaycan hökuməti bölgədə vəziyyətin sabitləşdirilməsi və qanuni hakimiyyətin bərqərar edilməsi üçün ingilis komandanlığı ilə məsləhətləşmələr aparmağı, Azərbaycan hökumətinin nümayəndəsi olan fövqəladə müvəkkilin bölgəyə göndərilməsi üçün yollar aramaqla bərabər problemin hərbi yolla həlli məsələsini də mümkün sayırdı və buna hazırlıq görülməsi üçün hələ iyul ayının əvvəlində Hərbi Nazirliyə tapşırıq vermişdi.

1919-cu il iyulun 7-də Hərbi nazir S.Mehmandarov Nazirlər Şurasının sədrinə məktub yazaraq ona aldığı tapşırığın icrası ilə bağlı bir sıra mülahizələrini çatdırdı. Nazir yazırdı ki, yaranmış şəraitdə Lənkərana xüsusi qoşun dəstəsi göndərmək imkanı yoxdur. Çünki Qarabağda ermənilərin təcavüzünün fəallaşması nəticəsində vəziyyət xeyli mürəkkəbləşmişdir. Oradan heç bir qüvvəni çıxarıb Lənkərana göndərmək düzgün olmazdı. Respubli-

kanın şimalında olan Xaçmaz dəstəsinin hissələrinin gətirilməsi və onun zəiflədilməsi də xoşagəlməz nəticələr verə bilərdi. Nazirin qənaətinə görə, Gəncədə olan qüvvələri Lənkərana göndərməklə Gəncənin özünü müdafiəsiz qoymaq da məqsədəuyğun olmazdı. Çünki quberniyanın bir sıra məntəqələrində hökumət əleyhinə həyəcanlar baş verirdi və hökumət əleyhinə olan qüvvələr Gəncənin müdafiəsinin zəifləməsindən istifadə etməyə çalışardılar (46).

S.Mehmandarov məktubunda hökumət miqyasında görülməsi vacib olan məsələlərə də toxunurdu. Bu, birinci növbədə hissələrin komplektləşdirilməsi sahəsində yerli inzibati orqanların qarşısında dayanan vəzifələrlə bağlı idi. S.Mehmandarova görə, döyüş bölgələrində olan hissələrin heç də hamısının tam şəkildə komplektləşdirilməməsi mövcud gərginliyi ortaya çıxarmışdı. O əlavə edirdi ki, Lənkəran məsələsi ilə bağlı artıq Hərbi Nazirlikdə müşavirə keçirilmiş və alınan tapşırığın yerinə yetirilməsi üçün lazımi tədbirlərin icrasına başlanmışdır. Nazirin fikrincə, Lənkəran istiqamətinə qoşun dəstəsini yaxşı halda bir aydan sonra göndərmək mümkün olardı. Çünki bir tərəfdən ora göndəriləcək hissələrin kəm-kəsirlərinin düzəldilməsi, komplektləşdirilməsi üçün bəzi işlər görülməli və dəstə özü hazırlanmalı idi. Dəstənin tərkibinə daxil olan hissələr kollektiv şəkildə fəaliyyət göstərmələri üçün müəyyən təmrinlər icra etməli, qarşılıqlı əlaqələr sahmana salınmalı idi. Lənkərana göndəriləcək dəstənin tərkibi isə aşağıdakı kimi planlaşdırılırdı: bir piyada alayı, bir süvari alayı, bir yüngül batareya, bir haubitsa batareyası, bir dağ-süvari və ya dağ batareyası, iki zirehli avtomobil və iki aeroplan. Bütünlükdə isə həmin məktubun məzmunu aşağıdakı kimi idi: «Son zamanların siyasi hadisələri Qarabağ və Lənkəran hadisələrini xeyli dərəcədə kəskinləşdirmişdir. Bizim silahlı qüvvələrin indiki vəziyyətində onların eyni vaxtda və dərhal həlli mümkün deyildir. Çünki Xaçmaz istiqamətindən hər hansı bir hissəni götürmək olmaz. Quberniyada həyəcanların sakitləşmədiyi bir vaxtda Gəncənin boşaldılması isə təhlükəlidir. Buna baxmayaraq, mənim tərəfimdən aşağıdakı hazırlıq göstərişləri verilir və onların uğuru büsbütün rəhbərliyin bu işə lazımi münasibətindən asılıdır:

1. Xankəndində yerləşən 1-ci Cavanşir piyada və 2-ci Qarabağ süvari alaylarını təyin edilmiş ştata çatdırmaq. Bunun üçün çağırış orqanları və polis bütün gücünü səfərbər etməlidir ki, təkcə Şuşa qəzası üzrə bir ayda cəmi dörd çağırışçı verilməsi ilə nəticələnən tam uğursuz fəaliyyət əvəzinə daha çox çağırışçı cəlb edilməsi, at və yəhərlər cəlb edilməsi lazımi enerji ilə həyata keçirilsin;

2. Gürcülərdən alınmış toplardan 26 iyun tarixli 3154 nömrəli raportda məlumat verildiyi kimi batareyalar yaradılacaq. Ancaq çağırışçılar və atlar tapılmasa bu batareyaları da biz görə bilməyəcəyik;

3. Qarabağda mümkün ola biləcək hadisələrə qarşı Xankəndi qarnizonunun gücləndirilməsi üçün Zaqataladan 800 nəfərlik birinci taboru gətirmək. Əgər 4-cü Zaqatala piyada alayının *(sonradan 2-ci Zaqatala piyada alayı olmuşdur – M.S.)* 3-cü taborunun formalaşması uğurla getsə, onda 2-ci taboru da əlavə edərəm. 1-ci Cavanşir piyada və 2-ci Qarabağ süvari alayları ştat sayına çatdırılarsa, onların gücü hər cürə hadisənin qarşısını almağa kifayət edər;

4. Lənkəran qəzasına ekspedisiya üçün aşağıdakı tərkibdə olan dəstəni nəzərdə tuturam: 1-ci süvari alayı, 1-ci yüngül, 1-ci haubitsa və 1-ci dağ-süvari və ya dağ batareyaları, 2 zirehli avtomobil və 2 aeroplan.

Bu qoşunlar bir aydan tez hərəkət edə bilməzlər. Çünki onlar həm adamlar, həm də atlar sarıdan ştat sayına çatdırılmamışdır. Bundan başqa, bu hissələri yetişdirmək və heç olmasa bir neçə atış keçirmək lazımdır.

Həmin müddət ərzində isə əməliyyat rayonunun (Muğan və Lənkəran) zəruri kəşfiyyatı aparılacaq və toplanılmış məlumatlar əsasında əməliyyat planı hazırlanacaqdır. Lənkəran məsələsi ilə bağlı ilkin iclas artıq keçirilmişdir.

Təkrar edirəm ki, Hərbi Nazirlik tərəfindən bütün tədbirlər həyata keçirilir, ancaq formalaşmanın uğuru tamamilə rəhbərlərin fəaliyyətindən asılıdır» (47).

Mövcud olan arxiv sənədlərindən məlum olur ki, Hərbi nazir S.Mehmandarov Parlamentin üzvü M.Ə.Rəsulzadəni də Lənkəran məsələsi ilə bağlı keçirilən müşavirəyə dəvət etmişdi. Həmin

müşavirə 1919-cu il iyulun 5-də Parlamentin yaxınlığında yerləşən Realnı məktəbin binasında keçirilmişdi (48).

Lənkərana qoşun dəstəsi göndərilməsinə hazırlıq tədbirləri çərçivəsində Lənkəranın və ətrafının kəşfiyyatı aparıldı. Bolşeviklərin ağalığı dövründə aparılmış bu kəşfiyyatla onların qüvvələrinin və hərbi texnikasının sayı, yerləşdikləri məntəqələr, hərbi imkanları, ərazinin xüsusiyyətləri, hərəkət marşrutu üzərində olan kəndlərin demoqrafik tərkibi, hakim yüksəkliklər və s. məsələlər barədə ətraflı məlumat toplanıldı. Həmin məlumata əsasən Lənkəran ətrafında bolşeviklərin 1200–1500 nəfər arasında canlı qüvvəsi var idi. Hərbçilər arasında çoxlu sayda müharibə iştirakçısı var idi. Onların əksəriyyətini də ruslar və ermənilər təşkil edirdilər. Bu qüvvələrin 4 topa malik olduğu bildirilirdi. Ancaq kəşfiyyat məlumatında o da bildirilirdi ki, zabitlərin çoxu müharibə təcrübəsinə malik olsa da, bütünlükdə qüvvə lazımi səviyyədə təşkilatlanmamışdı. Muğanda isə iki dəstə formalaşmışdı. Daha çoxsaylı və güclü olan birinci dəstə bolşeviklərin dəstəsi idi. Bu dəstənin bir neçə zabiti və 12 ədəd topu var idi. İkinci dəstə isə bolşeviklərin əleyhinə olsa da, Azərbaycanın müstəqilliyini də tanımaq istəmirdi. Həmin dəstə daha çox Denikinlə əlaqə saxlamağa çalışırdı. Dəstə tərəfindən Denikinin yanına xüsusi nümayəndə heyəti göndərilmişdi ki, Lənkəran və Muğanın işğalı Denikin qüvvələri tərəfindən həyata keçirilsin. Bu dəstənin də 12 ədəd topu var idi. Lakin hər iki dəstənin toplarının bir çoxu işləmirdi. Eyni zamanda, bu dəstədə olan adamların sayını dəqiqləşdirmək mümkün olmamışdı. Prişib kəndində isə 1000 nəfərlik bolşevik dəstəsi dayanmışdı. Kəşfiyyat məlumatına görə Salyandan Lənkərana gedən yolun kənarında azərbaycanlı kəndləri yerləşmişdi. Bu kəndlərdə xeyli sayda silah var idi və Cümhuriyyət ordusunun Lənkərana doğru hərəkətinə həmin kəndlər kömək göstərə bilərdilər (49).

Xüsusi dəstənin Lənkərana göndərilməsi 1919-cu ilin avqust ayına planlaşdırılırdı. Ancaq hələ iyulun 23-də Hərbi nazir S.Mehmandarov Lənkəran qəzasının sakinlərinə müraciətnamə imzaladı. Bu müraciətnamə aşağıdakı məzmunda idi:

"Vətəndaşlar!

Azərbaycan Respublikası hökumətinin iradəsi ilə mən Lənkəran qəzasına dəstə göndərirəm. Vətəndaş müharibəsinə birdəfəlik son qoymaq, qayda-qanun yaratmaq, sizi dinc əhaliyə əzab verən zorakı dəstələrdən və qatillərdən azad etmək işi bu dəstəyə tapşırılıb.

Azərbaycanın ayrılmaz bir hissəsi olan qəzada məskunlaşmış bütün millətlərə ədalətli münasibət bəsləyən Azərbaycan qoşunları sizin yanınıza qanunçuluğun daşıyıcısı kimi gəlirlər.

Silahlı qüvvələrin himayəsi ilə ölkənin bütün sahələrinin idarə olunmasında təcili mülki idarəetmə orqanları bərpa ediləcək. Mən əminəm ki, siz özünüz də Azərbaycan Respublikasının gələcək tamhüquqlu vətəndaşları kimi sülh şəraitində birgə yaşamağın möhkəm əsasının qoyulması marağındasınız və görəcəyiniz bütün tədbirlər ölkədə qanun-qaydanın bərpa olunmasında hökumətin bütün qanuni əmrlərinin könüllü surətdə yerinə yetirilməsində öz xeyirxah münasibətinizlə Azərbaycan Respublikası hökumətinin nümayəndələrinə hər cürə köməklik göstərəcəksiniz.

Bununla bərabər, məlum edirəm ki, sovetlər, komitələr və ya "Muğan Respublikası" adı altında hər hansı özbaşına təşkilatın yaradılmasına yol verilməyəcəkdir.

Lənkəran qəzasında yalnız bircə Azərbaycan Respublikasının hakimiyyəti tanınmalıdır və onun göstərişlərinə itaət etməyənlər müharibə dövrünün qanunlarına əsasən qiyamçı kimi məsuliyyətə cəlb olunacaqlar.

Dəstə rəhbərinin əmri ilə əhali silahları təhvil verməlidir. Kim buna əməl etməsə, hərbi səhra məhkəməsinə veriləcəkdir.

Xəbərdar edirəm ki, rus əhalisinə qarşı hər hansı bir zorakılığa və soyğunçuluğa yol verməyəcəyəm, çünki qəzada yaşayan başqa millətlərin nümayəndəsi kimi onları da Azərbaycan Respublikasının vətəndaşı sayıram.

Amma rus əhalisinin şəxsiyyətinə və toxunulmazlığına təminat verərkən mən onlardan da yerli hakimiyyətin verdiyi qanunların yerinə yetirilməsinə əməl etmələrini tələb edirəm.

Hər bir silahlı müqavimət ölüm cəzası ilə cəzalandırılacaq və belə hallarda qoşunlara amansız olmaları barədə əmr olunub.

Bununla bağlı bu və digər bəhanələrlə ordu və hakimiyyət

əleyhinə zorakılıq göstərmək niyyətinə düşənləri də xəbərdar edirəm.

Mən də öz növbəmdə dəstə komandirinə əmr etmişəm ki, qoşunun əhaliyə heç bir xətər toxundurmaması haqda ölçü götürsün və dinc əhaliyə qarşı hər hansı zorakılıq göstərənlər ciddi cəzalandırılsınlar" (50).

Bu müraciətin ilkin mətni rus dilində hazırlanmışdı. Baş Ərkani-hərbin rəisi Sulkeviçin əmri ilə mətn Azərbaycan dilində tərcümə edilərək çoxaldılmış və Xüsusi Lənkəran dəstəsinin komandiri H. Səlimova verilmişdi ki, bölgəyə gələndə əhali arasında yayılsın və təbliğ edilsin.

1919-cu il avqust ayının əvvəllərində Lənkəran dəstəsi artıq formalaşdırılmış və hərəkət üçün müəyyən hazırlıq da görülmüşdü. Bununla bağlı avqustun 4-də Hərbi nazir müvafiq əmr imzaladı. Həmin əmrlə dəstənin komandanlığı həvalə olunmuş Ümumi qərargahın rəisi general-mayor Həbib bəy Səlimova göstəriş verilirdi ki, dəstənin tərkibinə daxil olan hissələrlə Hacıqabul, Salyan, Pokrovsk, Prişib və Lənkəran marşrutu ilə Lənkəran qəzasına hərəkət etməli və orada qayda-qanun ilə sakitliyi bərqərar etməlidir (51).

Dəstənin ümumi sayının 3,5 min nəfər olacağı güman edilirdi. Əmrdə bu sayda olan şəxsi heyətə və atlara ərzaq və yem normaları da müəyyən edilmişdi. Mövcud olan normativlər əsasında aparılan hesablamalar göstərirdi ki, bir sutka ərzində 3500 nəfər üçün 67 pud ət, 197 pud çörək, 55 pud tərəvəz, 10 pud duz, 6,5 pud qənd, 18,25 funt çay və 1000 baş at üçün 250 pud arpa və 250 pud saman lazımdır. Bütünlükdə sutka ərzində 335 pud ərzaq və 500 pud heyvan yemi məsrəf olunmalı idi. Bu qədər yükün daşınması üçün 42 ədəd araba tələb olunurdu. Hissələr onların anbarlarında olan ehtiyatlar hesabına deyil, Hərbi Nazirliyin Ləvazimat idarəsinin hesabına təmin edilməli idi. Ətin isti havada uzun müddət saxlanılması mümkün olmadığı üçün dəstəyə ətlik heyvanların verilməsi nəzərdə tutulurdu. Çörəyin isə Hacıqabulda, Salyanda və Pokrovskda bişirilməsi planlaşdırılırdı (52).

Dəstənin tərkibinə daxil olan hissələrin və əmlakın Hacıqabula gətirilməsinə süvari diviziyası da kömək göstərməli idi. Bununla

bağlı Hərbi Nazirliyin rəhbərliyi süvari diviziyasının komandirinə müvafiq göstəriş vermişdi (53).

Dəstənin tibbi təminatında çətinliklər mövcud olsa da, zəruri olan tədbirlər həyata keçirilirdi. Başlıca olaraq lazımi sayda tibb kadrları çatışmırdı. Hərbi xəstə idarəsinin rəisi təklif edirdi ki, 5-ci Bakı piyada alayının tibb personalı ilə təmin edilməsi üçün tezliklə həkimlərin mobilizasiyası aparılsın. Belə olmasa idi, hissələri tibb personalı ilə heç 50 faiz də təmin etmək mümkün olmazdı. Amma qısa zaman ərzində ehtiyacı aradan qaldırmaq üçün Hərbi xəstə idarəsinin rəisi 3-cü Gəncə piyada alayının kiçik feldşerini Bakı alayına göndərmək və eləcə də şəhər təşkilatlarından üç şəfqət bacısını işə dəvət etmək qərarına gəlmişdi. Lənkərana getməli olan digər hissələrə də tibb personalı təyin edilmişdi. Sanitar personalı isə yox dərəcəsində idi. Bu ehtiyacın aradan qaldırılması üçün təklif olunurdu ki, təcili şəkidə əməliyyata yola düşən hissə və bölmələrdən savadlı əsgərlər seçilsin və heç olmasa qısa müddət ərzində onlara ibtidai tibb bilikləri öyrədilsin. Bütünlükdə, Lənkəran dəstəsinə 48 nəfər sanitar tələb olunurdu. Dəstə lazım olan dərman ləvazimatı və tibb avadanlıqları ilə təmin edilməli idi. Salyanda müalicə obyektinin açılması planlaşdırılırdı. Yüngül xəstə və yaralılar burada müalicə olunmalı, ağırları isə Salyandan gəmilərlə Bakıya göndərilməli idi (54).

Baş Ərkani-hərbin rəisi Sulkeviçin imzaladığı sərəncama görə Lənkəran dəstəsi avqustun 12-də Hacıqabula toplaşmalı və səhərisi gün, yəni avqustun 13-də Salyana doğru hərəkətə başlamalı idi (55).

Lənkəran dəstəsinin formalaşdırılması və cənub bölgəsinə hərəkəti ilə bağlı mövcud olan sənəd və məlumatlar göstərir ki, bu dəstənin bütün fəaliyyəti Hərbi nazir S.Mehmandarovla Baş Ərkani-hərbin rəisi Sulkeviçin ciddi nəzarəti altında olmuşdu. Düzgün qurulmuş rabitə ilə S.Mehmandarov və Sulkeviç dəstə barədə tam məlumata malik olmuş və onun bütün fəaliyyətini tənzimləyə bilmişdilər. Lənkəran dəstəsinin yaradılmasında və ona tapşırılan döyüş vəzifələrini uğurla yerinə yetirməsində Sulkeviçin də böyük rolu və xidmətləri olmuşdur. Hərbi nazirin əmrləri dəstəyə çox vaxt Sulkeviçin sərəncamları və teleqramları vasitəsi ilə çatdırılırdı.

Lənkəran dəstəsinin qərargahı da təşkil edilmişdi. Dəstənin fəaliyyəti bu qərargah tərəfindən idarə edilirdi. Qərargah rəisi vəzifəsinə podpolkovnik Ehsan xan Naxçıvanski təyin edilmişdi (56). Dəstənin fəaliyyətinin sənədləşdirilməsi aparılır və gündəlik döyüş əmri imzalanırdı. Döyüş əmrlərinin hamısı mövcud olmasada da, arxivlərdə qalan sənədlərdən dəstənin fəaliyyətinin, hərəkətinin ümumi mənzərəsini təsəvvür etmək mümkündür (57).

Lənkəran dəstəsinə daxil olan hissə və bölmələr 1919-cu il avqustun 12-də Hacıqabulda toplaşdılar. Həmin gün hissə və bölmələrin hamısında hərbi səfər üçün hazırlıq işləri aparıldı, həvalə olunan tapşırıqlar dəqiqləşdirildi və qarşılıqlı fəaliyyətin tənzimlənməsi üçün zəruri məsləhətləşmələr həyata keçirildi. Ancaq əvvəldən müəyyənləşdirildiyi kimi dəstə avqustun 13-də yola düşmədi.

Mövcud olan sənədlərdən aydın olur ki, dəstənin tərkibinə daxil olan hissə və bölmələrin Hacıqabula toplaşması avqustun 13-ü səhərə kimi davam etmişdi. Ola bilsin ki, bəzi hissə və bölmələr ləngidiyi üçün dəstənin heyətinin tam formalaşması da bir gün təxirə salınmışdı. Həmin gün (avqustun 13-də) Lənkəran dəstəsinə daxil olan hissə və bölmələrin Hacıqabuldakı toplanış məntəqəsində paradı keçirildi. Çoxlu sayda yerli əhalinin tamaşa etdiyi paradı general H.Səlimov qəbul edirdi. Qəzetlərin yazdığına görə dəstənin tərkibinə daxil olan hissə və bölmələr qısa müddət ərzində vahid kollektiv kimi formalaşmış, yüksək çeviklik və məharət nümayiş etdirə bilmişdilər. Bu da dəstənin komandiri, general H.Səlimovun böyük sevincinə səbəb olmuşdu (58).

Dəstənin ilk döyüş əmri 1919-cu il avqustun 13-də imzalandı. Əmrdə dəstənin qarşısında dayanan vəzifə, onun tərkibi, hərəkət vaxtı, hərəkət qaydaları və s. məsələlər öz əksini tapmışdı. Dəstənin tərkibinə 5-ci Bakı piyada alayı, 3-cü Şəki süvari alayı, 2-ci yüngül topçu, 6-cı dağ-topçu və əlahiddə haubitsa batareyaları, istehkam taqımı və zirehli maşınlar taqımı daxil idi (59).

İlk döyüş əmrində göstərilirdi ki, dəstənin malyariya xəstəliyinin geniş yayıldığı ərazilərdən keçəcəyi üçün çiy su içilməsi qadağan edilsin, malyariyanın yayılması üçün zəmin yaradan qarpız, yemiş və meyvələrdən istifadə məhdudlaşdırılsın,

dəstə qaynanmış su ilə təchiz edilsin, hərəkətdən qabaq hamıya çay verilsin. General Səlimov tələb edirdi ki, hissə və bölmələr hərəkət qaydalarına riayət etməli, aralarındakı məsafəni gözləməli, heç kəs sıradakı yerini dəyişməməlidir. Gündəlik mənzil başına çatanda hissə və bölmələr Səhra Nizamnaməsinə uyğun olaraq yerləşməli və dəstənin mühafizəsi təmin edilməli idi (60).

Dəstənin şəxsi heyətinin davranış normalarına ciddi əməl etməsi zəruriliyi döyüş əmrində xüsusilə vurğulanırdı. General H.Səlimov hissə və bölmə komandirlərinin nəzərinə çatdırırdı ki, hər bir nəfərin əməlinə onlar göz yetirməli, dəstənin qarşısında dayanan vəzifələrin doğru və düzgünlüyü şəxsi heyətə çatdırılmalıdır. Dəstə komandirinə görə, bütün şəxsi heyət məzhəbindən asılı olmayaraq bütün yerli əhaliyə hörmət və ehtiramla yanaşmalı, ölçülüb-biçilmiş hərəkətləri ilə özlərinə hörmət qazanmalı və özlərini qanunçuluğun dayağı kimi nümayiş etdirməlidirlər. Əmrdə bildirilirdi ki, qayda-qanunu pozanlar, talan və zorakılıqda günahlandırılanlar dəstənin nəzdində yaradılacaq hərbi səhra məhkəməsinə veriləcəkdir. Nəhayət, əmrdə müəyyənləşdirilirdi ki, hər gün axşam saat 6-da hissə və bölmələr şəxsi heyətin və atların sayı barədə dəstənin qərargahına məlumat təqdim etməlidirlər (61).

Avqustun 15-də dəstə Salyana çatdı. Şəxsi heyət iki gün ərzində çox yorulduğu üçün general Səlimov ayın 16-nı istirahət günü elan etdi. O əmr verdi ki, Salyanda aralıq sursat anbarı yaradılsın və buraya bütün toplar, pulemyotlar və tüfənglər üçün tam döyüş komplekti cəmləşdirilsin (62).

Salyana çatana kimi Səlimov muğanlıların yanına öz nümayəndələrini göndərdi və onları sülh yolu ilə deyilənlərə əməl etməyə çağırdı (63). Eyni zamanda, Səlimov S.Mehmandarovun Lənkəran qəzasının əhalisinə imzaladığı müraciətnamənin yayılmasına başlanması barədə göstəriş verdi (64).

Avqustun 14-də Lənkəran dəstəsi hərəkətə başlayan günü Hərbi nazir S.Mehmandarov general Səlimova teleqram göndərdi. Teleqramlardan birində tələb olunurdu ki, dəstənin tərkibinə daxil olan yüngül topçu batareyası dərhal geri Hacıqabula, oradan da Bakıya göndərilsin (65).

O biri teleqramda isə deyilirdi ki, yaranmış olan vəziyyət qoşunların tezliklə Bakıya qaytarılmasını tələb edir. Ona görə də nazir bildirirdi ki, dəstə Lənkərana çatan kimi ona birgünlük istirahət verilsin və geri Hacıqabula qayıtsın. Lənkəranda isə qanunçuluğun qorunması üçün 600 nəfərlik bir tabor saxlanılmalı idi. Gələcəkdə Lənkəran köməkçi (ehtiyat) taboru təşkil edildikdən sonra oradakı tabor geri qayıtmalı idi (66).

Heç şübhəsiz ki, Hərbi nazir S.Mehmandarov Səlimovdan sadəcə olaraq Lənkərana çatıb geri qayıtmağı tələb etmirdi. O, dəstədən qarşıya qoyulan bütün vəzifələrin operativ və sürətlə yerinə yetirilməsini tələb edirdi. Çünki yaranan vəziyyət vaxt itirmədən qoşunların geri qaytarılmasını, respublikanın dövlət müstəqilliyi üçün meydana gələn təhlükənin sovuşdurulmasına cəlb edilməsini zəruri edirdi. Denikin qoşunlarının Azərbaycana müdaxiləsi təhlükəsi respublikada çox böyük gərginlik yaratmışdı. Bu təhlükə hər an reallaşa bilərdi və həmin təhlükənin qarşısının alınması üçün heç də kifayət qədər qüvvə yox idi. Lənkəran dəstəsinin tərkibində olan hissə və bölmələr şimaldakı müdafiə mövqelərini müəyyən dərəcədə möhkəmlədə bilərdilər. Digər tərəfdən, Qarabağda hərbi şərait xeyli mürəkkəbləşmişdi və Qarabağ ermənilərі ilə müvəqqəti razılaşma hələ əldə edilməmişdi. Nəhayət, Şamaxı qəzasının malakan əhalisi Azərbaycan hökumətinə qarşı itaətsizlik göstərir, yerli idarəetmə orqanlarının iradəsinin əksinə gedirdilər. Buradakı hökumət əleyhinə çıxışlar elə bir miqyas almışdı ki, Şamaxı qəza rəisi malakanların tərk-silah edilməsi üçün hərbi qüvvə göndərilməsini xahiş etmiş (67), Hərbi nazir isə ora Şəki süvari alayını göndərməyi qərara almışdı (68).

Beləliklə, 1919-cu ilin yayında respublikada bir neçə böyük gərginlik ocağı yaranmışdı. Heç şübhəsiz ki, belə həyəcanların başlanması, eyni zamanda, təsadüfi deyildi. Nəzərə alınsa ki, erməni-daşnak qüvvələri ilə Denikin arasında sıx əlaqələr mövcud idi, onda məlum olar ki, bu həyəcanların hamısı bu və ya digər dərəcədə Denikin qoşunlarının fəallaşması ilə bağlı idi.

General Səlimova göndərdiyi teleqramında S.Mehmandarov daha sonra tələb edirdi ki, əhalidən alınmış olan toplar və odlu silahlar Hacıqabula, oradan da Gəncəyə nəql edilsin. Əhalidə olan

topçu təchizatının toplanılması, Muğan qüvvələrinin hakimiyyətdə olduqları vaxt Lənkəranın müdafiəsində işlətdikləri zirehli avtomobilin axtarılıb tapılması, yığılan silahların miqdarı barədə vaxtaşırı məlumat göndərilməsi barədə də teleqramda Səlimova lazımi göstəriş verilirdi (69).

Yuxarıda qeyd edilmişdi ki, avqustun 8–10-u arası Muğan qüvvələrinin liderləri Azərbaycan hökumətinə tabe olmağa razılıq versələr də, danışıqları hər vasitə ilə uzadırdılar və öz niyyətlərinə nail olmaq üçün hətta geniş miqyaslı hücuma da keçmişdilər. Azərbaycan hökumətinə qarşı birmənalı mövqedə dayana bilməyən bu qüvvələrin respublikanın istiqlaliyyəti üçün real təhlükə təşkil etdiyinə şübhəsi olmayan S.Mehmandarov avqustun 14-də Səlimova göndərdiyi başqa bir teleqramında əhalidə olan həm odlu, həm də soyuq silahların, topların, pulemyotların, revolverlərin, patronların, qılınc, süngü, bıçaq və xəncərlərin yığılmasını tələb edirdi. Nazir Səlimova çatdırırdı ki, əhali arasında izahat işləri aparılsın və onlar silahlarını gizlədəcəyi təqdirdə hərbi səhra məhkəməsinə veriləcəkləri barədə xəbərdar olunsunlar. Belə sərt tələblər hərbi qulluqçulara qarşı da irəli sürülürdü. Əhalidən alınmış silahı gizlətməyə cəhd göstərən hər bir hərbi qulluqçu ciddi məsuliyyətə cəlb olunmalı idi. «Muğanın rus əhalisinin ikibaşlı davranışından, onların etibarsızlığından, danışıqları daim uzatmasından doğacaq silahlı toqquşma ehtimalının istisna edilməsi məqsədilə əmr edirəm: həmin əhalidən bütün tüfənglər, revolverlər, pulemyotlar, toplar, patronlar, soyuq silahlar – süngülər, qılınclar, xəncərlər yığılsın, bunun üçün komissiya təşkil edin, ona bütün yığılmış tüfəng, pulemyot, top və süngülərin nömrələrinin protokollaşdırılmasını tapşırın. Əhalini xəbərdar edin ki, sadalanan bu silahların gizlədilməsində günahkar olanlar hərbi səhra məhkəməsinə veriləcəklər. Əgər sizdə bütün silahların təhvil verilməsi barədə əminlik olmasa, onda geri qayıdanda rus əhalisindən bütün silahların yığılması barədə yenidən yoxlama aparın. Kimdə silah tapılsa, onu hərbi səhra məhkəməsinə verin. Zabit və əsgərləri xəbərdar edin ki, yığılmış silahların mənimsənilməsinə cəhd göstərilərsə, onlar ciddi məsuliyyətə cəlb olunacaqlar. Yığılmış silahı və döyüş sursatlarını topçu idarəsinin rəisi-

nə göndərin. Bu teleqramı alan kimi mənə teleqraf göndərin» (70).

Hərbi Nazirliyin rəhbərliyi ingilis qoşunları komandanlığından xahiş etdi ki, nümayəndələrinin birini Lənkəran dəstəsinə göndərsin və əhalidən silahların toplanılmasını müşahidə etsin. İngilis qoşunlarının nümayəndəsi muğanlıların çoxlu silaha malik olduqlarını görüb Azərbaycanın dövlət müstəqilliyinə qarşı çevrilə biləcək bu silahların toplanılmasına təsir göstərə bilərdi. Ancaq general Sulkeviç teleqramlarından birində Səlimova bildirirdi ki, ingilis qoşunları komandanlığı bu təklifə tərəfdar çıxmamışdır (71).

Avqustun 17-də Lənkəran dəstəsi Salyandan hərəkətə başladı. Səhər saat 4-də 3-cü Şəki süvari alayı, 6-cı dağ-topçu batareyası və bir zirehli avtomobil yola düşdü. Həmin qrupdan 30 dəqiqə sonra 5-ci Bakı piyada alayı, haubitsa batareyası və digər bölmələr hərəkətə başladılar. General-mayor Səlimov imzaladığı müvafiq döyüş əmrində dəstənin hər iki qrupundan tələb edirdi ki, hərəkət zamanı marşrutboyu müşahidə aparsınlar və şəxsi heyətin mühafizəsini təmin etsinlər. Avqustun 17-si axşamını dəstə Şorsulu-Ramazanlı məntəqəsində keçirməli idi (72).

S.Mehmandarovun avqustun 14-də general-mayor Səlimova göndərdiyi sonuncu teleqramda rus əhalisində olan hər cürə silahın yığılması məsələsini qoyurdu. Bu tələb nazirin Lənkəran qəzası əhalisinə müraciətnaməsində irəli sürdüyü tələblə müqayisədə daha qətiyyətli idi. Bölgədəki rus əhalisi isə bəhanə edirdi ki, ingilis komandanlığının iştirakı ilə polkovnik İlyaşeviçin və Azərbaycan hökuməti nümayəndəsinin əldə etdiyi razılaşmada, ümumiyyətlə, tərk-silah məsələsindən söhbət getmirdi. Rusdilli əhali silahların hamısını təhvil verəcəyi təqdirdə bölgədə mövcud olan silahlı dəstələrin basqınları qarşısında müdafiəsiz qalacaqlarını irəli sürürdülər. Onlar bütünlüklə silahlarını təhvil verməyi xoş iradə ilə qarşılamırdılar. Bütün bunlara görə general-mayor Səlimov Hərbi Nazirliyə göndərdiyi teleqramda təkidlə soruşurdu ki, silahların toplanılması ilə bağlı hansı tələbi yerinə yetirməlidir.

«3631, 3632, 3634 nömrəli teleqramları ayın 15-də aldım. Ayın 16-da batareyanı yola salıram. Sizin müraciətnamənizi yaymışam və ingilis nümayəndəsinə məlumat vermişəm ki, itaətkarlıq edən-

lərdən silah alınmayacaqdır. Aldığım məlumatlara görə muğanlılar yerli hakimiyyət vasitəsi ilə pulemyot və qılıncları təhvil verməyə hazırdırlar və deyəsən, dəstəni dostcasına qarşılamağa hazırlaşırlar. Onlar yalnız müvəqqəti olaraq silahlarının saxlanılmasını xahiş edirlər. Çünki müsəlman əhalisinin, xüsusən də şahsevənlərin onlara düşmən münasibətindən qorxurlar.

Məruzə edirəm ki, Sizin müraciətnamənizdən sonra 3631 nömrəli teleqramda *(məzmunu yuxarıda verilmiş 14 avqust tarixli teleqram – M.S.)* verilən sərəncamın yerinə yetirilməsi mənim üçün çətin olacaqdır. Çünki heç kəs mənə inanmayacaqdır. Bu isə Sizin və hökumətin hakimiyyətini gözdən salacaqdır. Qalan hər şey isə Sizin sərəncamınıza uyğun olaraq dərhal yerinə yetiriləcəkdir. Məruzə edirəm ki, Kür çayını və qollarını keçmək üçün üç gün vaxt lazımdır. Bu gün axşama kimi Kürü keçməyi başa çatdıracağam. Ayın 16-da dəstəyə istirahət verəcəyəm. 17-də yenidən hərəkətə başlayacağam. Dəstənin vəziyyəti hələlik çox gözəldir, tam qanun-qayda var. Salyanın və yolüstü kəndlərin əhalisi qoşunları sevinclə qarşılayırlar» (73).

Görünür, silahların toplanılması ilə bağlı Səlimov bölgədəki rus əhalisinin güclü müqaviməti ilə rastlaşmışdı. Ona görə də o, həmin məzmunda Hərbi Nazirliyə ikinci bir teleqram göndərib hansı tələbin fəaliyyət üçün rəhbər tutulmasını dəqiqləşdirməyi xahiş etmişdi. Səlimovun bildirdiyinə görə bölgədəki rus əhalisi ingilislərin iştirakı ilə Lənkəranda imzalanmış və silahların əhalidən yığılmasını nəzərdə tutmayan razılaşmanın həyata keçirilməsini tələb edirdilər (74).

Avqust ayının 17-də M.Sulkeviç Səlimova cavab teleqramı göndərdi. O, bildirirdi ki, muğanlılar Azərbaycan hökumətinə qarşı ikibaşlı mövqe tutduqları və avqustun 11-də keçirdikləri qurultayda qərəzli və hədələyici bir qərar qəbul etdikləri üçün onların bütün silahları toplanılmalıdır. Müraciətnamədə irəli sürülən tələblərə dəyişiklik edilməsi bununla bağlı idi. Rus əhalisinin baş verə biləcək hər hansı bir təhlükədən qorunmasına gəlincə general-leytenant Sulkeviç əlavə edirdi ki, bu yerli hakimiyyət orqanlarının işidir və bu istiqamətdə onlar lazım olan tədbirləri həyata keçirəcəklər (75).

Avqustun 17-də general-mayor Səlimov təkcə rus əhalisi ilə olan münasibətlərin aydınlaşdırılmasına deyil, həm də dəstədə nizam və intizamın möhkəmləndirilməsinə xeyli vaxt ayırdı. Həmin gün dəstə Salyandan Şorsuluya doğru irəliləyərkən 3-cü Şəki süvari alayının süvarisi Yəhya Sarı oğlu yolda içində Biləsuvar kəndinin və Astraxanka kəndinin iki rus mənşəli sakini olan furqonu saxlamış, öldürəcəyi ilə hədələyərək onlardan 3725 rubl pul almışdı. Rus sakinləri bu barədə dəstənin rəhbərliyinə şikayət etdilər. Səlimov bu barədə məlumat alan kimi dərhal soyğunçu əsgəri hərbi səhra məhkəməsinə vermək haqqında göstəriş verdi. Avqustun 19-da 5-ci Bakı piyada alayının komandiri podpolkovnik İsrafilovun sədrliyi altında təşkil edilən hərbi səhra məhkəməsi dəstə komandanlığının tələblərinə riayət etmədiyi və döyüş şəraitində əsgər şərəfinə ləkə gətirən hərəkətlə məşğul olduğu üçün onu ölüm cəzasına məhkum etdi (76).

Avqust ayının 18-də Lənkəran dəstəsi öz hərəkətini davam etdirdi. General-mayor Səlimovun və dəstənin qərargah rəisi podpolkovnik Ehsan xan Naxçıvanskinin imzaladığı 6 nömrəli döyüş əmrində göstərilirdi ki, həmin gün hissə və bölmələr 18 verst yol getməlidirlər. Hərəkətə başlamazdan əvvəl 3-cü Şəki süvari alayından irəliyə göndərilən zabit kəşfiyyat qrupu marşrutun təhlükəsizliyini öyrənib dəstə komandanlığına xəbər verməli idi. Rus kəndlərinə əmrsiz daxil olmaq qəti qadağan edilirdi. Yol ayrıclarına xüsusi qarovullar təyin edilməli idi. Yük arabaları və dəstəni tamamlayan qrup əvvəlcə müəyyənləşdirilmiş ardıcıllıqla hərəkət etməli idi. İstirahət yerinə çatan kimi 5-ci piyada alayı düşərgənin ətrafına mühafizə postları qoymalı, hava qaralandan sonra düşərgəyə kənar adam buraxılmamalı idi (77).

Avqust ayının 19-da dəstə artıq Pokrovskda idi. Avqustun 20-si dəstəyə istirahət günü elan edilmişdi (78).

Lənkəran dəstəsi sadəcə olaraq müəyyən edilmiş marşrut üzrə hərəkət etmirdi. Həm də marşrutboyu yerləşən rus kəndlərindən silah da toplanılırdı. Avqustun 17–18-də dəstə tərəfindən rus kəndlərindən 3 top və 5 pulemyot alınıb Bakıya yola salındı. Ayın 19-da həmin silahlar artıq Bakıya çatmışdı. S.Mehmandarov avqustun 19-da Səlimova göndərdiyi teleqramında tələb edirdi ki,

Azərbaycan hökumətinin və ordusunun nüfuzunun aşağı düşməsinə yol verməmək üçün daha qətiyyətlə hərəkət edin və dəstənin mümkün qədər tez Bakıya qaytarılmasını təmin edin. S.Mehmandarov elə həmin gün general Səlimova daha bir teleqram göndərdi. Nazir bir daha xatırladırdı ki, Azərbaycan hökumətinin muğanlılarla heç bir razılaşması yoxdur və silahların yığılmasına qarşı onların hər hansı bir müqavimət göstərməsi əsassızdır. Hərbi nazir bildirirdi ki, muğanlılara rəhbərlik edən polkovnik İlyaşeviç və onun oğlu Azərbaycan hökumətinin tələblərinə qarşı çıxmaqda davam edərsə, həbs olunmalı və Bakıya göndərilməlidir: «Hökumət tərəfindən qəbul edilmiş heç bir öhdəlik yoxdur, heç bir məhdudiyyət qoyulmadan tam itaətkarlıq tələb olunur. Bütün toplar, puleymotlar, zirehli avtomobillər yığılmalıdır, itaətkarlıq bildirənlərdə isə soyğunçu dəstələrdən özünümüdafiə üçün tüfənglər saxlanıla bilər. Onların hər birinə tüfəng nömrəsi göstərilməklə Sizin tərəfinizdən möhürlə təsdiq olunmuş silah daşımağa icazə verilməlidir. Qıcıqlandırıcı hərəkətlərinə görə polkovnik İlyaşeviç və onun oğlu saxlanılmalı və Bakıya göndərilməlidir» (79).

Avqustun 20-də Pokrovska çatandan sonra bu kənd də dəstə tərəfindən mühasirəyə alındı və əhalidə olan silahların toplanılmasına başlandı. Kənd əhalisindən 2 ədəd top və 4 pulemyot alındı (80).

S.Mehmandarov ayın 20-də Səlimova göndərdiyi teleqramında qeyd edirdi ki, əgər əhali Azərbaycan hökumətini tanıyıb onun qərarlarını bütünlüklə yerinə yetirməyə söz verirsə, onların tüfəngini saxlamaq olar. Ancaq zirehli avtomobil, toplar və pulemyotlar isə heç nədən asılı olmayaraq toplanılmalıdır (81).

Avqustun 21-də dəstə Prişibə doğru hərəkət etməli idi. Dəstə komandanlığının imzalamış olduğu 10 nömrəli müvafiq əmrində hissə və bölmələrin hərəkət zamanı yeri, onların vəzifələri barədə mükəmməl məlumat mövcud idi. Dəstənin avanqardına polkovnik Şahzadə Xosrov Mirzə Qacar komandanlıq etməli idi. Onun tərkibinə 5-ci Bakı piyada alayının bir taboru, 6-cı haubitsa batareyasının 4 topu, 3-cü Şəki süvari alayının bir bölüyü, zirehli avtomobillər taqımının bir avtomobili daxil idi. Avanqardın saat 4-də Prişib-Nikolayevsk yolu ilə hərəkətə başlaması və Prişibə 3

verst qalmış irəli süvari və piyada dozorlar göndərməsi nəzərdə tutulurdu. Piyada bölmələrin döyüşqabağı mövqelər tutması, süvarilərin onların cinahlarında, topların isə Prişibdən 4 verst aralı olan təpəliklərin arxasında yerləşdirilməsi planlaşdırılmışdı. Dəstə komandirinin əlavə əmrinə əsasən avanqard irəli hərəkəti davam etdirən zaman Prişibi adlamalı, Əhmədli kəndi yaxınlığında çayı keçib Nikolayevskaya gedən şose yolun cənubunda dayanmalı və Əhmədli kəndinin şimalına və şimal-qərbinə keşikçi-mühafizə dəstələri göndərməli idi (82).

Dəstənin əsas qüvvələrinə 5-ci Bakı piyada alayının komandiri podpolkovnik İsrafilov komandirlik edirdi. Onun tərkibinə 5-ci piyada alayının 9 bölüyü, haubitsa batareyasının 4 ədəd topu və Şəki süvari alayının 4 bölüyü daxil idi. Əsas qüvvələr avanqarddan yarım saat sonra, yəni səhər saat 4.30-da hərəkətə başlamalı və günün sonuna Əhmədli kəndi yaxınlığındakı düşərgəyə çatmalı idi. 5-ci piyada alayının bir bölüyü isə dəstənin aryerqardını təşkil edirdi. Aryerqard səhər saat 5-də hərəkətə başlamalı və bütün arabalardan sonra irəliləməli idi (83).

Prişibdə və onun ətrafında əhalidən nə qədər silah toplandığını söyləmək çətindir. Mövcud olan sənədlərdə bu barədə məlumat yoxdur. Ancaq məlumdur ki, Prişibdə əhalidən 105 baş at və 101 ədəd yəhər yığıldı.

Avqustun 22-də dəstə Əhmədli kəndi yaxınlığındakı düşərgədən hərəkəti davam etdirirdi. Həmin gün 27 verst yol qət olunmalı və Qumbaşı stansiyası yaxınlığında, Lənkərana aparan yolun üzərində düşərgə salınmalı idi. Kolonun tərkibi və sırası əvvəlki şəkildə saxlanılmışdı. Avqustun 22-nə imzalanmış döyüş əmrində ştabs-rotmistr Ağalarov Prişibin komendantı təyin edilirdi. O, əhalidən toplanılmış olan silahı, sursatı, hərbi təchizatı aktlaşdırmalı və sonra da mühafizə altında Salyana göndərməli idi (84).

Avqustun 23-də dəstə Lənkərana çatdı. Lənkərana girərkən dəstənin sırasında dəyişiklik edildi. Şəhərə girən dəstənin ardıcıllığı belə idi: 5-ci Bakı piyada alayının bir taboru, haubitsa batareyası, piyada alayının digər taboru və 3-cü Şəki süvari alayı. Hissə və bölmələrin tərkibində su çənləri daşıyan arabalar və sanitar arabaları da hərəkət edirdi. Qalan bütün əmlak, sursat isə arxada

hərəkət edirdi (85).

Dəstənin Lənkərana gəlişi yerli əhali arasında böyük sevinc və təntənə ilə qarşılandı. Avqustun 24–25-də hissə və bölmələrə istirahət verildi. Dəstə komandanlığının döyüş əmrində göstərilirdi ki, bu günlər ərzində şəxsi heyət istirahət etməklə bərabər, növbəti tapşırıqlar üçün hazırlıq aparmalı, hərbi qulluqçuların səbəbsiz yerə şəhərdə gəzişməsinə yol verilməməlidir (86).

Sonrakı günlər ərzində dəstənin əmlakı Lənkəranda saxlanıldı və bura əsas bazaya çevirildi. Avqustun 26-da dəstə Yeddi Oymaq kəndinə doğru hərəkətə başladı, avqustun 26-da Biləsuvar, avqustun 28-də Astraxanka, yaşayış məntəqələrində oldu (87). Biləsuvarda dəstə əhalidən 6 ədəd top və ona lazım olan çoxlu alət və təchizat əldə etdi (88).

Avqustun sonuna Lənkəran dəstəsi ona həvalə olunmuş vəzifələri tamamilə yerinə yetirdi, xüsusi bir silahlı müqavimətə rast gəlmədən bölgənin rus əhalisini, polkovnik İlyaşeviçin rəhbərliyi altında olmuş silahlı dəstələri tamamilə tərk-silah etdi və respublikanın cənubunda Azərbaycanın istiqlaliyyəti üçün mövcud olan təhlükə birdəfəlik sovuşduruldu.

Tərk-silah zamanı əhalidən və Muğan qüvvələrindən 22 ədəd top alındı. Həmin topların 20 ədədi tam işlək vəziyyətdə, 2-si sökülmüş vəziyyətdə idi. Bundan başqa, 25 ədəd tam işlək pulemyot və 7 ədəd işləməyən pulemyot toplanılmışdı (89).

1919-cu il sentyabrın 3-də Lənkəran dəstəsi həvalə olunan döyüş tapşırığını yerinə yetirdikdən sonra Hacıqabula qayıtdı və həmin gün dəstənin komandiri general-mayor Səlimovun və dəstənin qərargah rəisi podpolkovnik Ehsan xan Naxçıvanskinin imzası ilə 23 nömrəli sonuncu döyüş əmri imzalandı. Burada göstərilirdi ki, Lənkəran dəstəsinin qarşısına çox mürəkkəb bir vəzifə qoyulmuşdu. 2500 nəfərlik şəxsi heyət 8 topun müşayiəti ilə 8 min nəfərlik silahlı dəstə və 6 top batareyası çıxarmaq imkanına malik olan Muğanın rusdilli əhalisindən bütün silah və sursatı toplamalı idi. Dəstə əhaliyə heç bir xətər yetirmədən bu çətin vəzifənin öhdəsindən gəldi, yalnız ultimativ tələblərlə xeyli sayda silah və sursat topladı. Toplardan və pulemyotlardan başqa əhalidən 4 minə qədər mərmi, 3 yük avtomobili, 209 xidməti at və çoxlu say-

da hərbi təchizat yığılmışdı. Yığılan əmlakın içərisində motosiklet, telefon aparatları, toplar və pulemyotlar üçün ehtiyat detallar da var idi. Döyüş tapşırığının icrası ərzində dəstə 425 verst yol qət etmişdi. Bu müddət ərzində dəstənin şəxsi heyəti davranış normalarına lazımınca riayət etmiş və kəndlərdən silah toplanılarkən əhalidən heç bir şikayət alınmamışdı. Hətta vaxtı ilə rus ordusunda xidmət etmiş keçmiş əsgərlər Azərbaycan Ordusundakı nizam və intizamın Napoleon dövrlərində olduğundan da möhkəm olduğunu qeyd edirdilər.

Əmrdə qeyd olunduğuna görə bir sıra ucqar kəndlərdə Azərbaycan Ordusunun çox qısa zamanda formalaşması əhalinin heyrətinə səbəb olmuşdu. Orkestrin sədaları altında şax addımlarla hərəkət edən qoşun bölmələrini gördükdə çoxları ordunun baş komandanı, Hərbi nazir S.Mehmandarova öz xeyir-dualarını göndərirdilər. General-mayor Səlimov qürur hissi ilə vurğulayırdı ki, yaratdığı gənc ordunun əhalinin hörmət və məhəbbətini qazanmasını S.Mehmandarova çatdırmaqdan şərəf duyacaqdır.

Tapşırılan vəzifələrin tamamilə icra edildiyi üçün general Səlimov hissə və bölmələrin komandirlərinə, dəstənin tərkibinə daxil olan bütün zabitlərə və əsgərlərə öz minnətdarlığını bildirirdi. Xidmətdə xüsusilə fərqlənən bir neçə zabitə isə şəxsən minnətdarlığını çatdırmağı Həbib bəy Səlimov özünün şəxsi və vəzifə borcu bilirdi. Həmin hərbi qulluqçular bunlar idi: 5-ci Bakı piyada alayının komandiri podpolkovnik İsrafilov, 3-cü Şəki süvari alayının komandiri polkovnik Xosrov Mirzə Qacar, 6-cı dağ-topçu batareyasının komandiri podpolkovnik Tarxanov, dəstənin qərargah rəisi podpolkovnik Ehsan xan Naxçıvanski, dəstənin həkimi, məmur Bulatov, dəstənin ləvazimat rəisi Xan Talışinski.

Lənkəran dəstəsinin cənub bölgəsində fəaliyyəti ərzində yuxarıda göstərilən silahlardan başqa Muğandakı qüvvələrdən və rus əhalisindən 517 ədəd berdanka tüfəng, 93 ədəd türk tüfəngi, 382 ədəd ov tüfəngi, 289 ədəd müxtəlif silahlar, 36 ədəd süngü, 670 ədəd ingilis patronu, 12454 ədəd berdanka patronu, 26 ədəd səhra bombası, 3 ədəd aeroplan bombası, 15 ədəd qılınc və 40 ədəd xəncər alınmışdı. Bütün bu silahlar sonradan Lənkəranda təşkilinə başlanan köməkçi tabora təhvil verilmişdi (90).

Respublikanın cənubunda aparılan təmizləmə əməliyyatından sonra burada vəziyyətin birdəfəlik sabitləşdirilməsi üçün Hərbi Nazirliyin rəhbərliyi Nazirlər Şurası qarşısında qondarma Muğan hökumətinin bütün çinovniklərinin və onun silahlı dəstəsinin bütün zabitlərinin Azərbaycanın hüdudlarından çıxarılması barədə məsələ qaldırdı (91).

Lənkəran hadisələrindən təxminən iki ay sonra, 1919-cu il oktyabr ayının sonlarında Hərbi nazir S.Mehmandarovla cənubi Rusiya Silahlı Qüvvələri Baş komandanının Azərbaycandakı nümayəndəsi arasında aparılmış yazışmalardan aydın olur ki, Lənkəran bölgəsində silahlı Muğan qüvvələrində olan rus zabitlərindən heç biri qalmamışdır və rusdilli zabitlərin hər hansı birinin, hər hansı bir məqsədlə bu bölgəyə səfəri Azərbaycanın hökumət orqanlarının icazəsi ilə ola bilərdi və həmin səfər dövlət orqanlarının ciddi nəzarəti altında saxlanılmalı idi (92).

1919-cu il sentyabr ayının birinci yarısında Hərbi nazir S.Mehmandarov da bir neçə gün ərzində Lənkəranda oldu (93). Lənkəran dəstəsinin burada görmüş olduğu işlərlə, bölgədəki mövcud vəziyyətlə yaxından tanış oldu. Bakıya qayıtdıqdan sonra o, Lənkəran dəstəsinin fəaliyyətinin nəticələri ilə bağlı 19 sentyabr 1919-cu il tarixli 420 nömrəli əmrini imzaladı. Əmrin ikinci bəndində deyilirdi: "Lənkəran şəhərinin tutulması, həmin rayonda qayda-qanunun bərpa edilməsi və Azərbaycan hökumətinin hakimiyyətinin təsdiq edilməsi üçün mənim tərəfimdən Lənkərana Ümumi qərargah rəisi general-mayor Səlimovun komandanlığı altında üç qoşun növündən ibarət xüsusi dəstə təchiz edilmiş və göndərilmişdi.

Hacıqabuldan Lənkərana və geriyə olan 430 verstlik məsafəni güclü istidə bizim gənc ordumuz xəstələr və arxada qalanlar olmadan 15 günə qət etmişdir. Bütün yürüş ərzində dəstədə qayda-qanun pozulmamış, yerli sakinlərdən heç birinə kiçik bir ziyan da vurulmamışdır. Yolboyu şəhər və kəndlərin əhalisi dəstənin zabit və əsgərlərinin nəzakətli davranışlarını böyük minnətdarlıqla qeyd edirdilər. Mən buna dəstənin Lənkərandan getməsindən sonra olan şəxsi səfərim zamanı əmin oldum. Hamıda öz əsl hərbi görkəmi və nümunəvi nizam-intizamı ilə güclü təəssürat yaradan

dəstə zəngin hərbi qənimətlə Lənkəran qəzasını və Muğanı əzizimiz Azərbaycanın ağuşuna qaytardı, zülmdən və anarxiyadan əziyyət çəkən əhalini sakitləşdirdi və əmin-amanlığı təmin etdi. Bütün bunlar bir damla qan tökülmədən həyata keçirildi.

Yürüşün bu cür yaxşı nəticələrinə, başlıcası isə hərəkətin nizamının qurulmasını təşkil edən, qoşunun ehtiyaclarına qayğı və ağıllı tələbkarlıq göstərən dəstə rəisinə, general-mayor Həbib bəy Səlimova xidmətlərinə görə səmimi təşəkkürümü bildirirəm. Dəstənin tərkibinə daxil olan hissələrin rəislərinə, bütün zabitlərə və sanitar heyətinə qayğıya, yol və dayanacaqlarda tam qayda-qanunun qorunmasına görə təşəkkür edirəm.

Azərbaycan Ordusunun birinci hərbi yürüşündə özlərini qoçaq və şərəfli döyüşçü kimi göstərən gənc əsgərlərə ürəkdən "sağ ol" deyirəm" (94).

Lənkəran dəstəsinin nə döyüş əmrlərində *(onların heç də hamısı mövcud deyil – M.S.)*, nə də dəstə komandanlığının Hərbi Nazirliklə teleqram mübadiləsində aparılan əməliyyat zamanı hərbi qulluqçulardan kimsənin şəhid olması barədə məlumat yoxdur. S.Mehmandarovun yuxarıdakı əmrində də dəstə qarşısında dayanan vəzifələrin bir damla qan tökülmədən yerinə yetirildiyi vurğulanır. Bununla belə, ingilis jurnalisti Skotland Liddel Bakıdan hazırladığı yazılarından birində Lənkəran ətrafındakı döyüşlərdə həlak olmuş 9 nəfər əsgərin dəfn mərasimini təsvir edirdi. Müəllif bu əsgərlərin Lənkəranda bolşeviklərə qarşı aparılan mübarizədə şəhid olmalarını vurğulamasından güman etmək olar ki, həmin itki Xüsusi Lənkəran dəstəsinin bölgəyə gəlməsindən əvvəl burada mövcud olan azsaylı qoşun bölmələrinin və könüllü silahlıların Lənkəranın azad edilməsi uğrunda apardığı döyüşlər zamanı verilmişdi. İngilis jurnalisti bu dəfn mərasiminin ümumxalq kədərinə və yekdilliyinə çevrildiyinə xüsusi diqqət yetirirdi və bununla da oxucularına sadə xalq kütlələrinin gənc Azərbaycan Ordusuna olan münasibətini çatdırırdı: "Ötən bazar ertəsi mən Bakıda tamamilə fərqli dəfn mərasiminin şahidi oldum. Lənkəran ətrafında 9 Azərbaycan əsgəri öldürülmüşdü. Bolşeviklər əleyhinə hərbi əməliyyat gənc Azərbaycan Ordusunun ilk döyüş fəaliyyəti idi. 9 əsgərin cənazəsi dəniz yolu ilə Bakıya gətirilmiş

və burada onlara möhtəşəm bir dəfn mərasimi təşkil edilmişdi. Nadir hallarda belə kütləvi mənzərənin şahidi olmuşdum. Tabutların arxasınca gedənlərin uzun sırasında Azərbaycanın bütün nazirliklərinin və ictimai təşkilatlarının nümayəndələri var idi. Görkəmli adamlar və tüfənglərinin lüləsi aşağı çevrilmiş bir neçə min əsgər azərbaycanlıların çiyinlərində apardığı 9 tabutun ardınca düzülmüşdülər. Küçələr adamlarla və əsgərlərlə əhatə olunmuşdu" (95).

İngilis jurnalistinin fikrincə, bu qədər adamın küçələrə çıxması bir tərəfdən Azərbaycan Ordusuna səmimi münasibəti ilə bağlı idisə, o biri tərəfdən bolşevizmə olan nifrətdən irəli gəlirdi (96).

Apardığı müşahidələr əsasında Skotland Liddel yazısında Azərbaycan Ordusu barədə də öz təəssüratını bölüşürdü. Onun fikrincə, əgər tabutlar və matəm marşı olmasaydı, küçə ilə irəliləyən əsgər və zabitlərin gümrah və şax yerişi gənc Azərbaycan Ordusunun paradını andırardı (97).

## *2. Qarabağda təcavüzkar millətçi erməni separatizminin aradan qaldırılması istiqamətində Azərbaycan hökumətinin fəaliyyəti*

Qafqaz İslam Ordusunun ləğv edilməsi Qarabağda tamamilə yeni bir hərbi-siyasi şərait yaratdı. Erməni araşdırmaçıları bu şəraiti Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilməsi üçün münasib məqam kimi dəyərləndirirdilər (98). Onların təbirincə Qarabağın azərbaycanlı əhalisini büsbütün etnik təmizləməyə məruz qoyulması və bundan sonra Qarabağın asanlıqla Ermənistana birləşdirilməsi üçün daha əlverişli bir şərait yaranmışdı. Çünki silahsız azərbaycanlı əhalinin təhlükəsizliyini az-çox qorumağa qadir olan Qafqaz İslam Ordusunun ləğv olunması ilə azərbaycanlı əhali, demək olar ki, müdafiəsiz qaldı. Ciddi şəkildə silahlanmış və Qafqaz İslam Ordusu tərəfindən də tam tərk-silah edilməmiş Qarabağ erməniləri, habelə bu bölgəyə göndərilmiş olan çoxsaylı erməni dəstələri isə millətçi təcavüzkarlığı genişləndirmək üçün əlverişli fürsət əldə etdilər. Ona görə də 1918-ci ilin son aylarında erməni millətçilərinin, quldur və silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı təcavüzkarlığının daha qanlı səhifələ-

rindən biri açıldı. Erməni tədqiqatçılarının yazdıqlarına görə, elə bu dövrlərdə quldur Andronik Zəngəzurdan Qarabağa doğru irəliləməyə başladı. Ermənilərin fikrincə, bu, Andronikin qələbə yürüşü idi. Çünki o, azərbaycanlılara məxsus olan bütün strateji məntəqələri ələ keçirdi və bölgənin azərbaycanlı əhalisi böyük vahimə içərisində öz yurd-yuvalarını buraxıb qaçqın düşmək məcburiyyətində qaldılar. Qarabağ istiqamətindəki azərbaycanlı kəndləri məhv etməklə Andronik Şuşanın 40 kilometrliyinə qədər irəlilədi (99).

Erməni mənbələri quldur Andronikin azərbaycanlı əhaliyə qarşı törətdiyi vəhşiliklər haqqında belə yazırlar – noyabr ayının sonlarında Zəngəzurda kök salmış Andronik Qarabağa doğru yürüş başladı və onun bu quldur yürüşləri zamanı Zəngəzur və Qarabağda 150 azərbaycanlı kəndi məhv edildi. 1918-ci ilin ortalarından başlayaraq Andronikin rəhbərliyi altında olan erməni quldur dəstələri Zəngəzurun azərbaycanlı kəndlərinin məhv edilməsində və bölgənin azərbaycanlı əhalidən təmizlənməsində görünməmiş fəallıq nümayiş etdirdilər. Erməni millətçiləri ümid edirdilər ki, Andronikin Qarabağa doğru irəliləməsi bu bölgənin Ermənistana birləşdirilməsi ilə başa çatacaqdır (100).

Gorusu tutub burada öz qərargahını yerləşdirən Andronik Zəngəzurun azərbaycanlılardan təmizlənməsini çox tezliklə başa çatdırmaq üçün ən amansız əməllərə əl atırdı. Qarabağda erməni əhalisinin millətçi-təcavüzkar hisslərinin qızışdırılmasında da Andronikin emissarları xüsusi canfəşanlıq göstərirdilər. Andronik bir neçə dəfə öz quldur dəstələri ilə birlikdə Qarabağa soxulmağa cəhd göstərdi. Lakin hər dəfə Zabux dərəsində ağır zərbə alaraq geri çəkilməli oldu (101).

Azərbaycan Fövqəladə İstintaq Komissiyasının üzvü Mixaylov öz məruzəsində bildirirdi ki, yüksək dağlıq ərazilərdə yerləşdiyi üçün Zəngəzur qəzası Şuşa və Cəbrayıl qəzalarından ayrı düşmüşdü. Qəzanın azərbaycanlı kəndləri erməni kəndlərinin əhatəsində idi və erməni quldur dəstələri bu vəziyyətdən istifadə edərək daim müsəlman kəndlərinə talançı basqınlar edirdilər. Qəzada yerli erməni silahlı dəstələri olduğu kimi, Andronikin rəhbərliyi altında

olan silahlı quldur dəstələri də bu qəzaya toplaşmışdılar. Bu isə qəzanın azərbaycanlı əhalisinin vəziyyətini daha da ağırlaşdırırdı. Quldur Andronik azərbaycanlı əhali qarşısında qəti tələb qoydu ki, ya Ermənistan hökumətini tanısınlar, ya da qəza ərazisini tərk etsinlər. Öz yurd-yuvasını itirmək istəməyən azərbaycanlı əhaliyə qarşı terror, qətllər və təcavüz həyata keçirildi. Quldur Andronikin dəstələri hücum etdikləri kəndləri elə bir vəziyyətə salırdılar ki, daha orada yaşamaq mümkün olmasın. Ermənistana birləşdiriləcək ərazilərin genişləndirilməsi məqsədilə yerli azərbaycanlı əhaliyə divan tutulurdu. Mixaylov öz məruzəsində bildirirdi ki, Sisian mahalının 1-ci polis sahəsinin müsəlman kəndləri bütünlüklə, 2-ci polis sahəsinin kəndlərinin əksəriyyəti, 3-cü, 4-cü və 5-ci polis sahəsinin kəndlərinin isə çoxu məhv edilmişdi. Onun məlumatına əsasən 50 min müsəlman öz ev-eşiyindən qaçqın düşməli olmuşdu (102).

Sonra Mixaylov öz məruzəsində dağıdılıb məhv edilmiş 115 kəndin adlarını sadalamışdır. Erməni millətçi-təcavüzkar qüvvələri eyni vəhşilikləri İrəvan və Naxçıvan qəzalarında məskunlaşmış azərbaycanlı əhaliyə, habelə Qarabağın azərbaycanlı əhalisinə qarşı nümayiş etdirirdilər. Mövcud olan faktlar göstərir ki, 1918-ci ilin sonlarına doğru Cavanşir, Cəbrayıl və Şuşa qəzalarında da azərbaycanlı əhaliyə qarşı erməni təcavüzkarlığı görünməmiş miqyas almışdı (103).

Gəncə quberniyasının general-qubernatoru Vəkilov quberniya ərazisində baş verən erməni təcavüzkarlığının miqyası haqqında qeyd edirdi ki, müsəlmanlara olan nifrət hisslərindən gözləri bağlanan ermənilər müsəlman qanından sərxoş olublar, onlar təcavüzkarlıqlarını dayandırmır, müsəlman kəndlərini dağıdır, qadınları və uşaqları zorlayır, insanları öldürürlər. Vəkilov daha sonra yazırdı: “Onların vəhşiliyinin sərhədi yoxdur, qaranlıq orta əsrlərin bütün dəhşətləri belə onların qarşısında sönük görünür. İnanmaq mümkün deyil ki, XX əsrdə öz mədəniliyi haqqında bütün Avropaya züy tutan bir xalq mövcuddur ki, köməksiz və dinc əhaliyə qarşı vəhşiliyin bütün üsullarını tətbiq edir” (104).

Gəncə qubernatoru Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər nazirinin adına ünvanladığı məruzəsində bildirirdi ki, hər gün quberniyada yaşayan neçə-neçə azərbaycanlının öldürülməsi, qadınların zorlanması, uşaqların tonqallarda yandırılması, insanların burun, qulaq və dillərinin kəsilməsi haqqında çoxsaylı raportlar alır. Qubernator onu da əlavə edirdi ki, hansısa bir ermənininin itməsi ilə bağlı bütün aləmə car çəkilir. Lakin quberniyada hər gün çoxlu sayda azərbaycanlının həyatına son qoyulur, amma buna heç kim məhəl qoymur.

Gəncə general-qubernatoru bildirirdi ki, Qarabağda fəaliyyət göstərən erməni terrorçu-silahlı dəstələrinin qərargahı Hadrutdur. Onda olan məlumatlara görə, erməni quldur dəstələri silah ehtiyatlarını artırmaqda davam edirdilər və şübhə etmirdi ki, bu silahlanmanın sonu azərbaycanlı əhaliyə qarşı yeni qırğınlar dalğası ilə başa çatacaqdır.

1918-ci il noyabr ayının 17-də müttəfiq dövlətlərin qoşunlarının komandanı general Tomson Mudros sülh müqaviləsinin şərtlərinə əsasən Bakıya daxil oldu. İngilis qoşun dəstəsinin Bakıya gəlməsi və Bakıya nəzarətin general Tomsonun əlinə keçməsi Zəngəzurda, Qarabağda və digər bölgələrdə müdafiəsiz qalmış azərbaycanlı əhaliyə qarşı təcavüzkarlıqlar həyata keçirən erməni millətçilərinin əl-qolunu daha geniş açdı. Erməni millətçiləri güman edirdilər ki, I Dünya müharibəsi cəbhələrində müttəfiq dövlətlər tərəfində vuruşduqları üçün Antanta dövlətləri nəhayət ki, ermənilərin iddia etdikləri ərazilərdə Ermənistan dövləti yaradılmasına kömək edəcəklər (105). Bunun üçün erməni millətçiləri general Tomsona yaltaqlanmaq üçün yollar aramağa başladılar. 1918-ci il noyabr ayının 23-də Bakıdakı Erməni Milli Şurasının üzvləri general Tomsonun qəbuluna düşə bildilər. Bu fürsətdən yararlanmağa çalışan yepiskop Baqrat Bakıda ermənilərin incidilməsi və Bakı ermənilərinin hüquqlarının qorunmasının zəruriliyi haqqında general Tomsona gen-bol iftiralar çatdırdı. Sonra da erməni keşişi general Tomson qarşısında ermənilərin daha yaxşı qorunması üçün bir sıra təkliflər səsləndirdi ki, onlardan biri də Qarabağa olan er-

məni iddiasının təmin edilməsi idi. Baxmayaraq ki, Bakıya gəlişinin ilk günlərində general Tomson Azərbaycanın milli hökumətinə qarşı kifayət qədər sərt münasibət bəsləyirdi, bununla belə o, ermənilərin qaldırdığı məsələlərə səbirlə yanaşdı. Çünki apardığı müzakirələr və müşahidələr ona ermənilərin iç üzünü tanımağa imkan verdi. Sonradan mərkəzə göndərdiyi hesabatlarında da o, erməniləri xəyanətkar və etibarsız insanlar kimi xarakterizə edirdi (106).

1918-ci ilin sonlarında Andronikin silahlı dəstəsi Şuşa və Cəbrayıl qəzasının kəndlərində də qırğın və talanları xeyli genişləndirdi (107). Hətta bu qırğınların miqyasından ingilis qoşunlarının komandanı Tomson da dəhşətə gəldi və Andronikə belə bir teleqram göndərdi: " Andronikə və ya Şuşa rayonundakı erməni komandanına. Aldığım məlumatlara görə ermənilər azğınlıq və talanlar törədirlər. Müttəfiqlərin nümayəndəsi kimi mən sizə əmr edirəm ki, bu qanunsuzluqlara birdəfəlik son qoymaq üçün tədbirlər görün və bütün ermənilərə xəbər verin ki, onlar sakitcə öz evlərində qalsınlar. Əgər siz bu əmri yerinə yetirməsəniz baş verə biləcək qan tökülməsinə görə şəxsən məsuliyyətə cəlb ediləcəksiniz. Xahiş edirəm bu teleqramı aldığınızı təsdiq edəsiniz. General Tomson" (108).

Lakin erməni millətçiləri sakitləşmək və dinc insanlara qarşı qırğınları dayandırmaq fikrində deyildi. Bölgədə baş verənləri müşahidə edən general Tomson üçün də aydın olurdu ki, ermənilər yaşayan hər bir məntəqə real təhlükə və qırğınlar mənbəyidir. Alınan məlumatlar da bunu sübut edirdi. 1918-ci il dekabr ayının ilk günlərində general Tomson Gəncə, Qarabağ və Cavanşir qəzalarında yaşayan ermənilərin başbilənlərinə teleqram göndərdi və adları çəkilən məntəqələrin ermənilərini qanunsuzluqlara və vəhşiliklərə son qoymağa çağırdı. Onun teleqramında deyilirdi: “Bütün ermənilərə xəbər verilsin ki, öz evlərində sakit otursunlar. Əgər onlar bu əmri yerinə yetirməsələr, tökülən qanlara və baş verən qanunsuzluqlara görə bilavasitə cavab verməli olacaqlar” (109).

Bununla, general Tomson Azərbaycan ərazilərində ermənilərin törətdikləri cinayətlərə və qırğınlara çox aydın münasibət bildirdi. Müttəfiq dövlətlərin hərbi qüvvələrinin bölgəyə gəlməsindən sonra

erməni təcavüzkarlarının fəallaşmasının səbəblərini də general Tomson lazımınca başa düşürdü və sonralar bunu onun özü də açıqlayırdı. General Tomson bununla bağlı bildirirdi: “Məsələ bundadır ki, bəzi ermənilər Azərbaycanın Britaniya tərəfindən tutulmasından intiqam məqamı kimi istifadə edə bilmədiklərindən çox mütəəssir olmuşlar. Onlar başa düşməyə borcludurlar ki, məsələni hərbi qüvvələr deyil, sülh konfransı həll edəcəkdir” (110).

Əslində, yuxarıda qeyd edildiyi kimi, ermənilər ingilislərin Azərbaycanı nəzarət altına almasından sadəcə qisasçılığın genişləndirilməsi üçün deyil, azərbaycanlıların ata-baba torpaqlarının etnik təmizləmədən sonra Ermənistanın tərkibinə qatılması üçün istifadə edəcəklərini güman edirdilər. Bölgədə azərbaycanlı əhaliyə qarşı isə ermənilər intiqamçılığı davam etdirirdilər və ingilis qüvvələrinin Bakıya daxil olmasından sonra ermənilərin bu vəhşiliyi daha da genişləndi. Azərbaycan hökumətinin milli qırğınların dayandırılması ilə bağlı Ermənistan hökumətinə ünvanladığı müraciətlər isə heç bir nəticə vermədi.

Məsələnin araşdırılması və vəziyyətdən çıxış yolunun tapılması məqsədilə 1918-ci il dekabr ayının 15-də Qarabağı təmsil edən deputat Allahverdiyev Andronikin quldur dəstələrinin Qarabağ bölgəsində törətdiyi vəhşiliklər haqqında sorğu verdi. Onun sorğusunda bildirilirdi ki, Andronikin tabeliyində olan silahlı dəstələr Azərbaycan Respublikasının sərhədlərini aşaraq Şuşa, Zəngəzur və Cavanşir qəzalarında kəndləri talan edir, yerli əhalini qırıb-çatır. Bununla bağlı sorğuda Azərbaycan hökumətinin hansı işlər gördüyü soruşulurdu (111).

Qaldırılan məsələ xüsusi və təcili əhəmiyyətə malik olduğu üçün Azərbaycan Parlamentinin 20 dekabr 1918-ci il tarixli iclasının müzakirəsinə çıxarıldı və Azərbaycan Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Parlamentdə çıxış etdi. O, deyilənləri təsdiq etdi və xatırlatdı ki, əslində, erməni millətçilərinin azərbaycanlı əhaliyə qarşı təzavüzkarlıqları xeyli əvvəldən başlamışdır. Elə ilk günlərdən də bu proseslər Azərbaycan hökumətinin nəzarəti altında olmuşdur. Azərbaycan hökuməti hələ Bakı şəhəri azad olunmazdan

qabaq Ermənistan hökumətinə nota göndərərək Andronikin ətrafına topladığı silahlı dəstələrlə azərbaycanlı əhaliyə qarşı törətdiyi qırğınlara son qoyulmasını, bölgənin erməni əhalisinin azərbaycanlılara qarşı qızışdırılmasının dayandırılmasını tələb etmişdi. Ermənistan hökumətindən isə cavab alınmışdı ki, Andronikin təxribatlarının Ermənistan hökumətinin mövqeyi ilə heç bir əlaqəsi yoxdur. Ermənistan hökuməti onu da bəyan etmişdi ki, Andronikin zərərli fəaliyyətini aradan qaldırmaq arzusunda olsa da, buna fiziki imkanlar çatmır (112).

Azərbaycan hökumətinin sədri təsdiq edirdi ki, Qafqaz İslam Ordusunun ləğvi ilə dağlarda gizlənən erməni quldur dəstələri Andronikin rəhbərliyi altında yenidən azərbaycanlı kəndləri soyub-talamağa, əhalini isə qırıb-çatmağa başlamışdır. Parlament dinləmələrinin keçirildiyi ərəfədə Andronikin silahlı dəstələrinin və digər erməni quldur dəstələrinin özbaşınalıqlarının qarşısının alınması üçün Azərbaycan hökuməti general Tomsona müraciət etdi. Yuxarıda qeyd edildiyi kimi, general Tomson həm Andronikə, həm də digər erməni dəstələrinə teleqramlar ünvanladı. Teleqramın Andronikə çatdırılması üçün azərbaycanlılardan, erməni və ingilislərdən ibarət xüsusi heyət yaradıldı və bu heyət Şuşaya göndərildi. Sonra heyət yolunu Zəngəzura doğru davam etdirdi və general Tomsonun teleqramı Andronikə təqdim edildi. Qeyd etmək lazımdır ki, həmin günlərdə "Kavkazskoye slovo" qəzetində general Tomsonun Andronikə ünvanladığı iddia olunan bir teleqramın mətni çap olundu. Bu "teleqramda" general Tomsonun Andronikə tamam başqa bir münasibət bəslədiyi ifadə olunurdu ki, bu da azərbaycanlı əhalinin haqlı narazılığına səbəb olmuşdu. Fətəli xan Xoyski bildirirdi ki, general Tomsonun Andronikə göndərdiyi teleqramın qəzetdə dərc olunan teleqramla heç bir əlaqəsi yoxdur (113).

Andronikin yanına göndərilmiş heyət Cəbrayıla yollandıqdan sonra, onun silahlı dəstələri azərbaycanlı kəndlərə yenidən basqınlar etməyə başladılar. Baxmayaraq ki, heyət üzvləri və elə ermənilərin özləri tərəfindən həmin azərbaycanlı əhaliyə təcavüzə məruz qalmayacaqları barədə zəmanət verilmişdi. Azərbaycan hökuməti dər-

hal bu məsələ ilə bağlı yenidən general Tomsona müraciət etdi və Andronikin silahlı dəstələrinin məhv edilməsi haqqında onun qarşısında məsələ qaldırıldı. General Tomson da bu müraciətə Qarabağa yeni bir heyət göndərməklə cavab verdi. Bu heyətin mühafizəsinə 2 zirehli maşın və müəyyən sayda ingilis əsgərləri də verildi (114).

Erməni mənbələrində də Tomson tərəfindən Qarabağa ikinci heyət göndərilməsi təsdiq olunur. Ermənilərin dediyinə görə bu heyətə daxil olan ingilislər tələb etdilər ki, təcavüzkarlığa son qoyulsun. İngilis nümayəndələri bildirdilər ki, təcavüzkarlığa və müharibəyə səbəb olanlar ingilislərin də düşməni sayılacaqlar. Heyət üzvləri ermənilər tərəfindən bağlanmış yolların açılmasına da cəhd göstərdilər. Qarabağ erməniləri göstərilən bütün cəhdlərə baxmayaraq, silahı yerə qoymayacaqlarını bildirdilər. Onlar gizlətmirdilər ki, məqsədləri Qarabağın Ermənistana birləşdirilməsidir. Ona görə də ermənilər dinc yaşayışa çağırış sədalarına qulaq asmadılar. Hətta ingilis nümayəndələrinin Azərbaycanın ərazi bütövlüyünü tanıması haqqındakı bəyanatları da erməniləri öz təcavüzkarlıqlarından döndərmədi (115).

Hadisələrin sonrakı inkişafı da göstərdi ki, bu heyətin Qarabağa səfərinin də erməni vəhşiliklərinin qarşısının alınmasında təsirli nəticəsi olmadı. Mövcud olan faktlar onu göstərir ki, Andronik və onun ətrafındakılar törətdikləri vəhşiliklərin əleyhinə olan ermənilərə qarşı da amansızlıq nümayiş etdirirdilər. Məsələn, məlumdur ki, Andronikin yerli erməniləri zorla öz dəstəsinə cəlb etdiyi hallar da olmuşdur. Bu vaxt onun istəyi ilə razı olmayanlar isə dar ağacından asılırdı. Çoxlu sayda erməni Andronikin Gorusdakı həbsxanalarına atılmışdı. Ermənilər özləri də bildirirdilər ki, Andronik bölgədə qaldığı halda müsəlmanlarla ermənilər arasında dinc yaşayışın bərqərar olması mümkün deyil (116).

Erməni millətçilərinin Qarabağdakı təcavüzkarlığı elə bir miqyas almışdı ki, ilk baxışdan müttəfiq dövlətlərin mənafelərinin icraçısı olan general Tomson hətta Qarabağ ermənilərinin İrəvan ətrafına köçürülməsi və bununla da Qarabağda asayişin yaradılması təklifini də irəli sürmüşdü (117).

Cinayət və qırğınlar yolu ilə Qarabağın erməniləşdirilməsinə cəhd göstərənlər öz təcavüzkar əməllərini Qarabağa olan tarixi, etnik haqları ilə əsaslandırmaqdan belə çəkinmirdilər. Qarabağın dağlıq hissəsinin erməni çoxluğunu onlar bu bölgənin Ermənistana birləşdirilməsi üçün təkzibedilməz arqument kimi qəbul edirdilər. Elə bu dövrlərdə ermənilərin Qarabağa olan əsassız iddialarının saxtalığının əsaslandırılması üçün "Azərbaycan" qəzetində "Qarabağ" adlı məqalə çap edildi. Məqalənin müəllifi A.Şepatyev idi. Ermənilərin Qarabağa irəli sürdükləri iddialarının mənasızlığını əsaslandırmaq üçün müəllif kifayət qədər tutarlı məqamlara toxunmuşdu. Müəllif bildirirdi ki, bütünlüklə Qarabağ bölgəsi Kür və Araz çayları arasında yerləşməklə Şuşa, Zəngəzur, Qaryagin və Cəbrayıl qəzalarını birləşdirirdi. Əsasən heyvandarlıqla məşğul olan Qarabağ əhalisi üçün aran və dağlıq zona vahid bir fəaliyyət məkanını təşkil edirdi. Qışda aranda, yayda isə dağlıq zonada əhalinin sayı təbii olaraq artırdı. Məqalədə Qarabağın qısaca tarixi və bu bölgədə hansı xalqların yaşaması da təsvir edilmişdi. Hər halda müəllif faktlarla əsaslandırırdı ki, ermənilərin bu bölgəni öz vətənləri adlandırmasının heç bir əsası yoxdur. Müəllif qeyd edirdi ki, Qarabağın əhalisi əsasən azərbaycanlılardan ibarətdir. Ermənilər isə Qarabağın dağlıq hissəsində, Vəngdən Şuşaya və Gəncəyə doğru uzanan zolaq üzərində yaşayırlar. Bu zolaq isə müsəlman əhalinin köç marşrutları ilə kəsişirdi. Müəllif bir daha qeyd edirdi ki, yaylaq mövsümündə buralarda müsəlman əhalinin sayı xeyli artır. Yəni bununla müəllif əsaslandırmağa çalışırdı ki, Qarabağın dağlıq hissəsi heç də onun aran hissəsindən təcrid edilmiş şəkildə deyildi, sonradan bura köçürülmüş ermənilərin ilin müəyyən vaxtlarında çoxluq təşkil etməsi isə müsəlman əhalinin məişət tərzi ilə bağlı idi. Məqalədə 1916-cı ilə aid olan statistik rəqəmlər təqdim olunur. Həmin statistikaya əsasən Qarabağda 322 min müsəlman və 242 min erməni yaşayırdı. Müəllif əsərində bu məlumatla da razılaşmır və Qarabağda yaşayan müsəlmanların sayının xeyli çox olduğunu qeyd edirdi. Apardığı təhlillərdən sonra müəllif 4 tərəfdən müsəlman aləmi ilə əhatə edilən və müsəlman aləmi ilə inteq-

rasiya olunan Qarabağın dağlıq hissəsinin Ararat Respublikasının tərkib hissəsi olmasını əsassıs sayırdı (118).

Vətən axtarışında qarşıya qoyulan məqsədə çatmaq üçün hər cürə qeyri-insani əməllərdən çəkinməyən erməni millətçilərinin cilovlanması üçün Azərbaycan hökuməti daha qətiyyətli addımlar həyata keçirməyi qərarlaşdırdı. 1919-cu il yanvar ayının 15-də keçirilən iclasda Azərbaycan hökuməti Qarabağda yaranmış mürəkkəb vəziyyəti ətraflı müzakirə etdi. Bölgədəki vəziyyət haqqında Daxili İşlər naziri X.Xasməmmədov məruzə etdi. Daxili İşlər naziri Qarabağda və ətrafında baş verən erməni cinayətləri haqqında məlumat verəndən sonra erməni millətçi-separatizminin qarşısının alınması üçün yeni bir general-qubernatorluğun yaradılmasını təklif etdi. Həmin general-qubernatorluq Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarını əhatə etməli idi (119).

Qarabağı əhatə edən yeni general-qubernatorluğun yaradılması zərurəti bir neçə səbəblə əlaqələndirilirdi. Əvvəla, Rusiyada Fevral inqilabının baş verməsindən sonra erməni millətçilərinin ifrat dərəcədə fəallaşması bölgədəki müsəlman əhaliyə qarşı təcavüzkarlıqla müşayiət olunurdu. Bu təcavüzkarlığın qarşısının alınması günü-gündən daha da aktuallaşırdı. O biri tərəfdən Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndən sonra Azərbaycan ərazisində və o cümlədən də Qarabağda yaşayan ermənilər arasında separatçılıq meyilləri xeyli gücləndi. Bu separatçılıq meyilləri xaricdə kök salmış erməni millətçiləri tərəfindən fəal şəkildə dəstəklənirdi. Cümhuriyyətin ilk aylarında mövcud olan siyasi, iqtisadi və hərbi çətinlik üzündən Qarabağda genişlənməkdə olan millətçi separatçılığa təsirli müqavimət göstərmək imkanı yox idi. Yeni yaradılacaq general-qubernatorluq yerlərdə bu məsələ ilə daha yaxından məşğul ola bilərdi. Daha sonra bildirilirdi ki, Andronikin quldur-terrorçu dəstələrinin talançı basqınlarının qarşısının alınması da yerində təşkilatlanmanın aparılmasını tələb edir. Nəhayət, yerlərdəki idarəetmə orqanlarının fəaliyyətinin nizamlanması, bu orqanlarla çevik əlaqə yaradılması, onların fəaliyyətinin vaxtında və düzgün istiqamətləndirilməsi də bölgədə xüsusi hakimiyyət orqa-

nının təşkilinə ehtiyacı şərtləndirirdi. Qarabağda yaradılacaq yeni general-qubernatorluğun əsas vəzifələri isə aşağıdakılar olmalı idi: erməni millətçi hərəkatına qarşı mübarizə və bu millətçi-separatçı hərəkatın qarşısının alınması, general-qubernatorluğa daxil olan qəzalarda qanunçuluğun bərpası və qorunması, yerli hakimiyyət orqanlarının fəaliyyətinin bərpası, erməni təcavüzkarlıqları nəticəsində qaçqın düşmüş əhaliyə ərzaq yardımlarının göstərilməsi, qaçqınların əvvəlki yaşayış yerlərinə qaytarılması və s. (120).

Bütünlükdə, Azərbaycan hökumətinin 1919-cu il yanvar ayının 15-də olan iclasında Qarabağ general-qubernatorluğunun yaradılması haqqında qərar qəbul etdi.

Erməni mənbələrinə görə 1919-ci il yanvar ayının 15-də Ağdamda müsəlmanların qurultayı keçirildi və bu qurultayda da Qarabağdakı vəziyyət müzakirə olundu. Çox güman ki, ermənilər tərəfindən qurultay adlandırılan həmin tədbir sadəcə bölgənin ağsaqqallarının və nüfuzlu adamlarının toplantısı idi. Erməni mənbələrinə görə müsəlmanlar erməni əhalisinin itaətsizliyini müzakirə etmiş, ermənilərin zərərsizləşdirilməsi, köçəri əhalinin problemlərinin həll edilməsi, general Andronikə qarşı müqavimətin təşkil edilməsi, Ağdamdan Zəngəzura gedən yolun açılması, müəyyən məntəqələrdə qoşun bölmələri yerləşdirilməsi və onların köməyi ilə köçlərin maneəsiz olaraq Zəngəzur yaylaqlarına ötürülməsi məsələləri müzakirə edilmişdi (121).

Əslində, bu qaldırılan məsələlərin hamısı bölgənin azərbaycanlı əhalisini narahat edən məsələlər idi. Azərbaycan hökumətinin lazımi gücü hələ formalaşmadığı bir vaxtda yerli əhalinin öz gücü ilə Andronikin quldur dəstələrinin qırğınlarının qarşısının alınması, yolların quldur dəstələrinin nəzarətindən çıxarılması, yerli əhalinin həyatında və məişətində mühüm rola malik olan heyvan sürülərinin yaylaqlara aparılmasına erməni millətçiləri tərəfindən yaradılan maneələrin aradan qaldırılmasına cəhd göstərilməsi təbii görünməli idi. Qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi vaxtlarda azərbaycanlı əhalinin yaylaq köçləri məsələsi erməni millətçilərini ciddi narahat edirdi və bu yaylaq

köçlərinə problem yaradılması sonralar da davam etdi. Azərbaycanlı əhalinin yay aylarında Qarabağın dağlıq hissələrinə, Zəngəzura köç etmələri həmin məntəqələrin Azərbaycan həyatı ilə bağlı olduğunu sübut edirdi. Erməni millətçiləri isə bununla barışa bilmirdilər. Onlar Zəngəzuru və Qarabağın dağlıq hissəsini erməniləşdirmək üçün həm bu məntəqələrin azərbaycanlı əhalisinə qarşı etnik təmizləmə həyata keçirir, həm də azərbaycanlıların bu məntəqələrdəki yaylaqlara gəlməsinin qarşısını almağa çalışırdılar.

Qarabağda yeni general-qubernatorluğun yaradılması haqqında Azərbaycan hökumətinin qərarı Ermənistan dövləti tərəfindən qəzəb və həyəcanla qarşılandı. Çünki bu qubernatorluğun yaradılması Qarabağın dağlıq hissəsinin və Zəngəzurun Azərbaycandan qoparılmasını çətinləşdirə bilərdi. Ona görə də Ermənistan hökuməti 1919-cu il yanvar ayının 21-də Qarabağ haqqında beynəlxalq təşkilatların qərarını gözləmədən, özbaşına Zəngəzuru və Qarabağı Ermənistana birləşdirmək haqqında qərar qəbul etdi. Həmin qərarda bildirilirdi ki: 1) Zəngəzurun və Qarabağın erməni rayonları Ermənistanın ayrılmaz hissəsi hesab olunur. Qərara görə bu rayonlar Ermənistan hökuməti tərəfindən təyin olunmuş orqanlar tərəfindən Ermənistan qanunları əsasında idarə edilir; 2) Mövcud şəraitdə bölgənin idarə olunması çətin olduğu üçün idarəetmə funksiyası Zəngəzur Erməni Milli Şurasına tapşırılırdı. Bu Şura Ermənistan hökumətinin qərarına görə Zəngəzur-Qarabağ Vilayət Şurası adlanmalı idi; 3) Bu Şura Ermənistan hökuməti adından bölgənin idarəçiliyini öz özərinə götürməli idi. Haqqında danışılan qərar əsasında Ermənistan dövləti hətta Armen Şaxmazyan adlı birisini də Qarabağın general-qubernatoru təyin etdi (122).

Lakin erməni müəlliflərinin qeyd etdiyi kimi, bu qərarın Qarabağla bağlı olan hissəsi kağız üzərində qaldı (123). Ermənilər Qarabağın dağlıq hissəsini göstərdikləri bütün səylərə baxmayaraq, rəsmi nəzarət altına ala bilmədilər. Qarabağda onların nail ola bildiyi isə yalnız günahsız azərbaycanlı əhalinin vəhşicəsinə qətlə yetirilməsi, Azərbaycan kəndlərinin talanıb-soyulması, yolların bağlanması və s. oldu. Çünki 1919-cu ilin yanvar ayının sonlarında

Azərbaycan hökumətini qərarı ilə Xosrov bəy Sultanovun Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarının general-qubernatoru təyin olunması bölgədə erməni təcavüzünün və terrorunun cilovlanmasına xeyli kömək etdi. 1919-cu il yanvar ayının 29-da imzalanan həmin qərarda general-qubernatorluğa müəyyən miqdar maliyyə vəsaiti buraxmaqla general-qubernatorluq nəzdində 600 nəfərlik süvari dəstəsinin təşkilinə də icazə verildi. Xosrov bəy Sultanov general-qubernatorluq təşkil olunması ilə bağlı Azərbaycan hökumətinin qərarından dərhal sonra Bakıda təşkilati işlərə başladı və bir müddət sonra Şuşaya gəldi (124).

Qarabağda vəziyyətin sabitləşdirilməsi ilə bağlı Azərbaycan hökumətinin tədbirlərinin qətiləşməsi və X.Sultanovun da general-qubernator vəzifəsinə təyin edilməsi Ermənistan hökumətini xüsusilə təşvişə saldı. Qarabağa olan əsassız iddialarının reallaşdırılması üçün Ermənistan hökuməti X.Sultanovun Qarabağ general-qubernatoru təyin olunmasına qarşı Azərbaycan hökumətinə etiraz notası göndərdi. Ermənistan hökumətinin üzvləri Qarabağın və Zəngəzur torpaqlarının Ermənistan torpaqları olduğunu iddia edərək yeni yaradılan general-qubernatorluğun ləğvini tələb edirdilər və bununla bağlı Azərbaycan hökumətinə rəsmi nota da göndərdilər. Azərbaycan Xarici İşlər Nazirliyinin 1919-cu il yanvarın 31-də verdiyi cavab notasında bildirilirdi ki, Zəngəzur və Qarabağ Azərbaycanın əzəli və ayrılmaz hissəsidir. Bu ərazilərdə öz vətəndaşlarının həyatının və əmlakının qorunması, qayda-qanunun bərpa edilməsi Azərbaycan hökumətinin təkcə hüququ yox, həm də mənəvi borcudur. Notada qeyd olunurdu ki, yeni general-qubernatorluğun yaradılması Azərbaycanın Ermənistanın daxili işlərinə qarışması deyil, əksinə, onun ləğvinin tələb olunması Ermənistanın Azərbaycanın daxili işlərinə qarışmasıdır (125).



Xosrov bəy Sultanov



General-mayor Cavad bəy Şıxlinski



Cümhuriyyət ordusunun topçuları



Cümhuriyyət ordusunun topçuları



Cümhuriyyət ordusunun topçusu

Qarabağda qanunçuluğun bərpa edilməsi üçün Azərbaycan hökumətinin həyata keçirməyə başladığı qətiyyətli tədbirlər Qarabağda kök salmış erməni millətçilərini də ciddi narahat etməyə başladı. Bunu 1919-cu il yanvarın 31-də Qarabağın Erməni Milli Şurasının Ermənistan hökumətinə göndərdiyi məktubu da təsdiq edir. Qarabağdakı erməni millətçiləri İrəvan hökumətinə açıq-aydın anladırdılar ki, Ermənistan hökuməti Qarabağa olan müdaxilələrini davam etdirməsə, Qarabağı Azərbaycandan qoparmaq çətin olacaqdır. Qarabağın erməni millətçiləri qeyd edirdilər ki, bölgədə kifayət qədər erməni döyüşçüsü səfərbərliyə alınıb. Lakin onların silah və sursatı yetərincə deyil. Ona görə Qarabağ millətçiləri Ermənistan hökumətindən tezliklə silah, sursat və maliyyə vəsaiti göndərilməsini xahiş edirdilər. Erməni millətçiləri xüsusi həyəcanla bildirirdilər ki, azərbaycanlı əhalinin yaylaq köçləri başlamazdan əvvəl bölgədə möhkəmlənmək lazımdır. Əks təqdirdə, ermənilərin vəziyyəti xeyli pis ola bilərdi (126).

Qarabağ general-qubernatorluğunun yaradılması haqqında Azərbaycan hökumətinin qərarı Qarabağda və Zəngəzurda Azərbaycan əhalisinə qarşı qırğınların güclənməsinə yeni bir təkan verdi. Azərbaycan hökumətinin bu qətiyyətli qərarından qəzəblənən erməni millətçiləri 1919-cu il yanvarın axırı, fevralın əvvəllərində neçə-neçə Azərbaycan kəndinin üzərinə hücuma keçib çoxlu qırğınlar törətdilər (127).

Erməni müəllifləri ingilis qüvvələri komandanlığının əmrinə əsasən erməni silahlılarının öz bazalarına geri çəkildiyini və silahlı qarşıdurmanın dayandırıldığını iddia edirlər. Onlar hətta Qarabağda yerləşdirilən Azərbaycan Ordusu bölmələrinin əsasını Osmanlı əsgərlərinin təşkil etdiyini və bu bölmələrə Azərbaycan hərbçilərinin paltarı geyindirilmiş Osmanlı zabitlərinin rəhbərlik etdiyini uydururdular (128). Elə digər erməni mənbələrinin məlumatları ilə asanlıqla təkzib edilə biləcək belə məlumatlar, əslində, erməni millətçi-terrorçu qüvvələrinin Qarabağın azərbaycanlı əhalisinə qarşı həyata keçirilən təcavüzkarlıqların pərdələnməsindən başqa bir şey deyildir.

1919-cu il yanvar ayının 31-də Qarabağın Erməni Milli Şurası bölgədə fəaliyyət göstərən qeyri-qanuni erməni silahlı dəstələrinin komandirləri ilə müşavirə keçirdi. Bu müşavirədə erməni millətçiliyini və təcavüzkarlığını təmsil edən şəxslər qərara aldılar ki, Azərbaycan dövlətini tanımasınlar. Onların fikrincə, sülh konfransı çağırılana qədər Qarabağın Azərbaycanın hakimiyyət orqanları tərəfindən idarə edilməsinə yol verilməməli idi. Ermənilərə görə, Qarabağda ingilis general-qubernatorunun rəhbərliyi altında xüsusi idarəetmə forması yaradılmalı idi.

Bir erməni mənbəsində isə deyilirdi ki, erməni millətçiləri Qarabağda Azərbaycan hakimiyyətini tanımırlar. Çünki ermənilər ingilislərlə birlikdə türklərə və azərbaycanlılara qarşı vuruşmuşdular (129). Başqa sözlə, onlar bir daha ona işarə edirdilər ki, Osmanlı Türkiyəsinə qarşı ingilislərlə müttəfiq olduğu üçün, indi də ingilislər gərək Qarabağda ermənilərə müttəfiqlik haqqını qaytarsınlar.

Erməni millətçilərinin özbaşınalıqlarını və cinayətkar əməllərini yaxından izləyən ingilis həbçiləri onların irəli sürdükləri əsassız təklifləri qəbul etmədilər. Əvəzində ingilislər özləri X.Sultanovun rəhbərliyi altında qarışıq tərkibli general-qubernatorluğun yaradılmasını təklif etdilər. Belə bir orqanın tərkibində azərbaycanlılar və ermənilər bərabər sayda təmsil edilməli idilər. Lakin Qarabağın Erməni Milli Şurası qətiyyətlə bu təklifə qarşı çıxdı (130). Çünki aydın idi ki, bərabər sayda təmsil olunmuş bir idarəçilik qurumu bölgədə asayişin təmin olunmasına müsbət zəmin yarada bilərdi. Erməni millətçiləri isə bunu istəmirdilər. Ermənistan dövlətinin və onun himayəsi altında olan Andronik kimi quldurların, habelə bölgəyə göndərilən çoxsaylı millətçilərin başlıca məqsədi Qarabağı tezliklə erməniləşdirmək və onu Azərbaycandan qoparmaq idi. Bu niyyətə qarşı ola biləcək hər cürə təklif və əməl erməni millətçiləri və separatçıları tərəfindən qəbul edilmədiyi kimi, bölgədə qarşılıqlı dinc yaşayışın bərpasına, qarşılıqlı etimadın möhkəmləndirilməsinə yönəldilmiş hər cürə təklif və əməllər də qəbul olunmurdu.

Xosrov bəy Sultanov Qarabağda öz fəaliyyətini qarşılıqlı anlaşma və etimad üzərində qurmağı planlaşdırsa da, yaxşı anlayırdı ki,

bölgədə kök salmış kənar millətçi qüvvələrin və silahlı dəstələrin zərərsizləşdirilməsi, Qarabağın və Zəngəzurun dinc əhalisinin müdafiəsinin təmin edilməsi üçün qətiyyətli tədbirlərə əl atılmasına ehtiyac olacaqdır. Onun üçün X.Sultanov Hərbi Nazirlikdə onun sərəncamına bir miqdar silah və sursat verilməsini xahiş etdi. Lakin Hərbi Nazirliyin rəhbərliyi ordunun özündə silah və sursata böyük ehtiyac olduğu üçün X.Sultanovun xahişinə mənfi cavab verildi (131).

1919-cu il fevral ayının 10-da X.Sultanov Qarabağın müvəqqəti general-qubernatoru kimi Şuşaya gəldi və elə həmin gün o, şəhər qlavası kimi Şahnəzərovu, şəhər yepiskopu Vahanı yanına çağırdı, bölgədə asayişin və birgəyaşayışın təmin edilməsi üçün onlarla fikir mübadiləsi apardı (132).

Fevral ayının 12-də isə X.Sultanov Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının əhalisinə müraciət etdi. Həmin müraciətdə deyilirdi: "...Məsuliyyətsiz ünsürlərin rəhbərliyi altında olan silahlı dəstələr öz şəxsi iddialarını həyata keçirmək üçün kəndləri yandırır, əhalini məhv edir, minlərlə qadın və uşağı qaçqınlığa məruz qoyur. Əhalinin ümumi siyasi vəziyyəti gizlədilir. Bu şəxslər özlərinin şəxsi məqsədlərini gizlədərək ona siyasi don geyindirməyə çalışırlar. Bütün bunları nəzərə alaraq hakimiyyət adları çəkilən dörd qəzada general-qubernatorluq yaratmağı qərara almışdır. Öz həyatını xalqına həsr etmiş bir ictimai xadim kimi mən bildirirəm ki, millətindən asılı olmayaraq qanunçuluğa və ədalətə ciddi əməl edəcəyəm və bildirirəm ki, general-qubernatorluğun rayonlarında yeganə hökumət Azərbaycan hökumətinin hakimiyyətidir və hamı məcburi şəkildə bu hakimiyyətə tabe olmalıdır. Hər hansı bir şəkildə qayda-qanunun pozulması, hərc-mərcliyə yol açan hərəkət general-qubernatorluğun qanunları ilə ciddi şəkildə cəzalandırılacaq. Qanun qarşısında hamı bərabərdir" (133).

1919-cu il fevralın 15-də isə X.Sultanov müvəqqəti general-qubernatorluğa daxil olan qəzaların rəhbərləri və ictimaiyyətin nümayəndələri ilə görüşdü. Bu görüşdə Cavanşir qəzasının rəisi Bəhram bəy Məlikabbasov, Zəngəzur qəzasının rəisi Camal bəy Sultanov, Şuşa qəzasının rəisi Abbas bəy Qalabəyov və digərləri

çıxış edərək Andronikin və onun kimi ifrat millətçilərin yerlərdə köməksiz azərbaycanlı əhaliyə qarşı divan tutmalarından məlumat verdilər. Zəngəzur qəzasının rəisi öz çıxışında qəzadakı 166 azərbaycanlı kəndinin viranə qoyulması və bu kəndlərdə yaşayan 37 min azərbaycanlının öldürülməsi və yurdlarından didərgin salınması haqqında danışdı. Erməni təcavüzkarlığının qarşısının alınması, bölgədə dinc-qarşılıqlı yaşayışın və etimadın bərpası üçün qəza rəisinin irəli sürdüyü təkliflər içərisində Andronikin silahlı dəstələrinin və kənardan bölgəyə gətirilmiş erməni təhrikçilərinin bölgədən uzaqlaşdırılması təklifi əsas yer tuturdu. Qəza rəisləri Azərbaycan hökumətini tanıyan və tanımağa meyilli olan yerli erməni əhaliyə yardımlar göstərilməsini də gündəliyə gətirdilər. Azərbaycan hökumətini tanımayan erməni məmurlarına maaş verilməsinin dayandırılması, Şuşada öz vəzifələrini lazımi şəkildə yerinə yetirməyən erməni məmurlarının isə vəzifədən azad edilməsi təklifləri də müşavirə iştirakçıları tərəfindən səsləndirildi (134).

1919-cu il fevral ayının 17-də isə X.Sultanov Şuşadakı ingilis missiyasının üzvü kapitan Seyran ilə görüşdü. Bölgədə mövcud olan mürəkkəb şəraitin sabitləşdirilməsi üçün ingilis missiyası qarşısında bir sıra məsələlər qaldırıldı: bölgəyə fəlakətlər gətirən Andronikin dəstəsinin tərk-silah edilməsi və bu dəstənin bölgədən kənarlaşdırılması, erməni silahlıları tərəfindən bağlanmış olan Ağdam, Şuşa və Qaryagin yollarının açılması və qaçqınların həyat şəraitinin yaxşılaşdırılması və s. (135).

Əslində, bu məsələlər ingilis missiyasının da diqqət mərkəzində idi və anlaşılırdı ki, Andronikin dəstəsi tərk-silah edilmədən, erməni təcavüzü cilovlanmadan bölgədə asayişi və dinc yaşayışı təmin etmək mümkün olmayacaq. Ona görə də bu məsələlərin həlli ilə bağlı ingilis missiyası öz üzərinə bir sıra öhdəliklər götürdü. Kapitan Seyran bildirdi ki, Andronikin dəstəsinin tərk-silah edilməsi ilə ingilis missiyası da məşğuldur. Fevral ayının 19-da isə Britaniyanın Cənubi Qafqazdakı qüvvələrinin komandanı general-mayor Uorker Ermənistan Hökumətinin sədrinə teleqram göndərib müba-

hisəli məsələlərin sülh konfransında həll edilməsinə qədər silah gücünə ərazilərin işğalına son qoyulmasına çağırdı (136).

Mövcud olan faktlardan aydın olur ki, X.Sultanov Şuşaya gəldiyi ilk günlərdən buradakı ingilis missiyasının nümayəndələri ilə bir neçə dəfə müşavirə keçirmiş və general Tomsondan aldığı təlimatlar əsasında bölgədə sabitliyin təmin edilməsi məsələsi müzakirə edilmişdi. Öz növbəsində ingilis missiyasının nümayəndələri də müşavirələrə erməni icmasının nümayəndələrinin dəvət edilməsini və birlikdə sülhə aparan yolların aranmasını məsləhət bildilər. Elə onların təkidi ilə müşavirələrin birinə erməni icmasının nümayəndələrini də dəvət etdilər. Bu nümayəndələr isə özlərini müşavirədə Azərbaycanın və ya Ermənistanın nümayəndələri kimi deyil, Rusiyanın təbəələri kimi təqdim etdilər. Başqa sözlə, onlar Azərbaycan və Ermənistan hökumətinə tabe olmadıqları kimi, ingilis missiyasını da tanımadıqlarını və nə vaxtsa Rusiya hakimiyyətinin yenidən geri qayıdacağını bəyan etmək istədilər. Bu isə ingilis missiyası nümayəndəliyinin xoşuna gəlmədi. Asayişin bərpası üçün irəli sürülən təklifin rədd edilməsi isə ingilis missiyası üzvlərinin ermənilərlə bağlı olan narahatlıqlarını bir qədər də gücləndirdi. Bununla belə, missiyanın üzvləri müvəqqəti general-qubernatorluğun strukturunun təkmilləşdirilməsi təklifini irəli sürdülər. İngilis missiyası hər halda birmənalı şəkildə bildirirdi ki, X.Sultanov bütün qəzalarda general-qubernator kimi tanınmalı və onun müavini vəzifəsinə isə (mülki hissə üzrə) erməni təyin edilməli idi.

İngilis missiyası güman edirdi ki, belə bir format Qarabağın idarəçiliyini yaxşılaşdıra bilər. Şuşadakı ingilis missiyası adından mayor Monk-Mezon Qarabağ Erməni Milli Şurasına müraciət edərək bütün erməniləri yeni hakimiyyət orqanına tabe olmağa çağırdı. O bildirirdi ki, Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının müvəqqəti general-qubernatoru Britaniya komandanlığının razılığı ilə təyin edilmişdir. Onun mülki hissə üzrə müavinləri ermənilərdir. Bundan başqa, general-qubernatorluğun nəzdində 3 erməni və 3 azərbaycanlıdan ibarət şura yaradılmışdır. Şuranın tərkibində ingilis missiyasının bir nümayəndəsi də vardır və bu qu-

bernatorluqda qoşun hissələrinin bütün fəaliyyəti ingilislərin nəzarəti altında həyata keçirilməlidir. Bütün bunlardan sonra Britaniya missiyası əhaliyə bəyan edirdi ki, Qarabağ general-qubernatorluğunun göstəriş və sərəncamları hamı üçün məcburidir və hər hansı itaətsizlik göstərilməsinə qarşı ən qətiyyətli tədbirlər həyata keçiriləcəkdir (137).

Monk-Mezon onu da bildirirdi ki, müvəqqəti general-qubernatorluğa daxil olan ərazilərin hansı dövlətə məxsusluğu haqqında son qərar sülh konfransı tərəfindən qəbul olunacaq və ona görə də ingilis mayoru Erməni Milli Şurasını təcavüzkar əməllərdən əl çəkməyə çağırırdı. İngilis missiyası nümayəndəsinin bu bəyanatı erməni millətçilər tərəfindən özünəməxsus şəkildə təfsir edildi və bu təfsirin ingilis tərəfinə də qəbul etdirilməsinə cəhd göstərildi. Erməni millətçiləri bildirdilər ki, əgər Qarabağın hansı dövlətə məxsusluğu sülh konfransında qəbul olacaqsa, deməli sülh konfransına qədər burada erməni idarəçiliyi yaratmaq və Qarabağı Azərbaycanın nəzarətindən çıxarmaq mümkündür.

Hər halda 1919-cu il fevralın 19-da Şuşada Erməni Milli Şurası üzvlərinin, erməni silahlı dəstələri rəhbərlərinin, yerlərdəki erməni millətçilərinin nümayəndələrinin toplantısı keçirildi. Erməni millətçiləri bu toplantını Qarabağ ermənilərinin IV qurultayı kimi təqdim etməyi xoşlayırlar. Bu toplantıya yığışanlar Qarabağın sadə və dinc yaşayışa meyilli olan əhalisi deyil, ifrat daşnaklar idi. Silahlı terror dəstələrini təmsil etdikləri üçün onların sülh yaratmağa yönəlmiş qərarlar qəbul edəcəyi də gözlənilən deyildi. Əslində, elə belə də oldu. Ermənilərin IV qurultay adlandırdıqları toplantı Azərbaycan hökuməti ilə hər hansı bir əməkdaşlığa getməyi rədd etdi və Qarabağda vəziyyətin sabitləşdirilməsinin yeganə yolunu bölgənin tamamilə erməniləşdirilməsində gördü (138).

Qarabağ ermənilərinin toplantısı Ermənistan hökumətinin Qarabağa olan iddialarına Azərbaycan hökumətinin etirazını da qəbulolunmaz hesab etdilər və qərara aldılar ki, öz etirazlarını həm Azərbaycan hökumətinə, həm də müttəfiq dövlətlərin qoşunlarının komandanı general Tomsona göndərsinlər.

Toplantı tərəfindən seçilən Qarabağın Erməni Milli Şurası bölgədə qarşılıqlı dinc yaşayışın təmin edilməsi çağırışlarını bir kənara qoyaraq millətçi-separatçı niyyətlərindən əl çəkməyəcəklərini bildirdi. Erməni Milli Şurasının üzvləri Şuşadakı ingilis missiyasına məktub göndərdilər və Qarabağın Azərbaycandan qoparılması üçün separatçı fəaliyyətlərindən əl çəkməyəcəklərini bir daha bəyan etdilər (139).

Bununla da məlum oldu ki, erməni millətçiləri və onların təmsilçisi olan Erməni Milli Şurası Qarabağda asayişin bərqərar edilməsi üçün Şuşadakı ingilis missiyasının rəhbəri mayor Monk-Mezonun müraciətini qəbul etmədi. Onda Şuşadakı ingilis missiyası Qarabağdakı erməni silahlı dəstələrinin rəhbərlərinə müraciət etdi, onları Azərbaycan hökumətinin Qarabağdakı orqanı ilə qarşılıqlı əməkdaşlığa dəvət etdi. Erməni komandirlərinə çatdırıldı ki, X.Sultanov Qarabağ general-qubernatoru vəzifəsinə ingilis komandanlığının razılığı ilə təyin olunubdur və general-qubernatorun qərarlarının icrasından imtina edilməsi yolverilməzdir. Erməni silahlı dəstələrinin rəhbərləri də öz cavabında Qarabağ general-qubernatorunu tanımadıqlarını və bu məsələdə Qarabağın Erməni Milli Şurasının üzvlərinin mövqeyini dəstəklədiklərini bildirdilər (140).

Belə olanda Şuşadakı ingilis missiyasının nümayəndəsi keçmiş rus zabiti Maslennikov bir daha erməni silahlı dəstələrinin rəhbərlərinə müraciət etdi. Müraciətdə bildirilirdi ki, Qarabağın Erməni Milli Şurası ingilis missiyasının təkliflərinə hələ də konkret cavab açıqlamayıb. Erməni Milli Şurasının verdiyi cavab daha çox siyasi qərardır. Missiyanın fikrincə, erməni silahlı dəstələrinin rəhbərləri təklifə konkret münasibət bildirməlidirlər. Missiyanın erməni silahlılarına ilk müraciətində qeyd edilirdi ki, əgər onlar bölgənin idarə edilməsi üçün yaradılan şuraların tərkibinə qatılmaqdan imtina edirlərsə, onda onların Azərbaycan hökumətinə qarşı əməlləri Böyük Britaniya hökumətinə qarşı yönəlmiş düşmən əməlləri kimi qiymətləndiriləcəkdir. Bundan sonra, bölgədə hansı vəziyyətin yarana biləcəyinə məsuliyyət məsələsi də erməni silahlılarına xatırladıldı. Maslennikovun ikinci müraciətində bir daha qeyd olunurdu

ki, erməni silahlıları yuxarıda xatırlanan konkret məsələlərə öz münasibətlərini bildirməlidirlər. Maslennikovun müraciətində deyilirdi ki, erməni silahlı dəstələrinin rəhbərləri ya müsəlmanlarla və Azərbaycan hakimiyyət orqanları ilə əməkdaşlığa razılıq verməli, ya da əks təqdirdə, öz məsuliyyətlərini etiraf etməlidirlər. Vərəndə, Dizak, Xaçın və Çiləbörd silahlı dəstələrinin komandirləri leytenant Maslennikova göndərdikləri növbəti cavab məktubunda bildirdilər ki, yalnız Erməni Milli Şurası qaldırılan məsələlərə cavab verməyə səlahiyyətlidir. Onlar isə müdafiə işlərinə məsuliyyət daşıyırlar (141).

Elə həmin günlərdə Çiləbördün erməni komissarı Ermənistan hökumətinin sədrinə göndərdiyi məktubunda belə bir məqama toxunurdu ki, indi Qarabağ erməniləri sülh konfransının qərarını gözləməlidirlər. Əgər sülh konfransının qərarı ermənilərin xeyrinə olsa, Qarabağ Ermənistanın tərkib hissəsi elan olunacaq. Yox, əgər sülh konfransı Azərbaycanın xeyrinə qərar çıxararsa, onda Qarabağ erməniləri qiyamla üzbəüz qalacaqlar ki, bu qiyamın nə ilə başa çatacağını təsəvvür etmək mümkün deyil (142).

Sülh konfransına bağlanılan gözləntilərin yerli-yersiz ortaya atılması, əslində, ermənilər tərəfindən ingilis missiyasının və Azərbaycan hökumətinin diqqətinin yayındırılmasına yönəlmiş bir gediş idi. Zəngəzurun taleyi ilə bağlı erməni millətçiləri sülh konfransının qərarının gözlənilməsini elə də vacib saymırdılar. Çünki elə ingilis missiyasının xeyir-duası ilə Zəngəzur qeyri-rəsmi şəkildə erməni millətçilərini divanına verilmişdi (143). Qarabağ məsələsində isə ermənilər həm Azərbaycan hökumətinin qətiyyətli mövqeyi, həm də ingilis missiyasının erməni təcavüzkarlığını müdafiə etməyən mövqeyi ilə rastlaşmışdılar. Bu iki qütbün oxşar mövqelərinin neytrallaşdırılması üçün ermənilər tez-tez sülh konfransının qərarlarını gözləməyi təklif edirdilər. Əslində isə onlar sülh konfransının qərarlarını deyil, Qarabağın etnik təmizlənməsi üçün münasib məqamı gözləyirdilər.

Hər halda general Tomson tərəfindən Şuşaya təyin olunmuş ingilis missiyası birmənalı şəkildə bildirdi ki, erməni millətçilərinin

Qarabağ ərazisindəki təcavüzkar-separatçı fəaliyyəti qanundankənardır və bölgədə dinc yaşayışın bərqərar olmasını istəyirlərsə onda erməni millətçiləri Qarabağın qanuni hakimiyyət orqanları ilə əməkdaşlıq etməli və bölgənin idarəsində iştirak etməlidirlər.

Dövrün erməni millətçiləri, habelə müasir erməni müəllifləri erməni millətçi-təcavüzkar separatizminə qarşı ciddi mövqe nümayiş etdirən general Tomsonu və bölgədəki ingilis missiyasını azərbaycanpərəst mövqe tutmaqda ittiham edirdilər. Baxmayaraq ki, general Tomson Azərbaycanın müstəqilliyini tanımadığını elan etmiş, Azərbaycanın müstəqilliyinin müdafiəsini təşkil etməli olan Hərbi Nazirliyi və Azərbaycan milli hərbi qüvvələrini Bakıdan sürgün etmiş, Zəngəzur və Naxçıvanda ermənipərəst mövqenin möhkəmlənməsinə zəmin yaratmışdı. Yuxarıda qeyd edildiyi kimi, Osmanlı Türkiyəsinə qarşı həyata keçirilən qırğınlardakı fəal iştirakına görə ermənilər özlərini ingilislərin müttəfiqi sayırdılar və erməni təcavüzkarlığının yayılması üçün Zəngəzurda onlar üçün yaradılan şəraitin Qarabağda açıq şəkildə davam etdirilmədiyindən ermənilər ingilis missiyasından heç də razı deyildilər.

Hər halda Qarabağda kök salan erməni millətçiləri öz separatçı planlarını Şuşadakı ingilis missiyasının siyasi dəstəyini ala bilməyəndə yuxarı orqanları ələ almağa cəhd göstərdilər. Bunun üçün onlar müttəfiq dövlətlərin qüvvələrinin komandanı kimi general Tomsonla və Cənubi Qafqazdakı ingilis hərbi qüvvələrinin Tiflisdə qərarlaşan komandanı general-mayor F.Uorkerə yollar axtarmağa başladılar. 1919-cu il fevral ayının 23-də Ermənistan Xarici İşlər Nazirliyi Britaniyanın Cənubi Qafqazdakı hərbi qüvvələrinin komandanı F.Uorkerə, fevral ayının 24-də isə Qarabağın Erməni Milli Şurası general Tomsona məktub göndərdi. Bu məktubların hər ikisinin məzmunu ingilis missiyası qarşısında erməni yaltaqlığı və Qarabağın Azərbaycandan qoparılması üçün ingilis qüvvələrinin xeyir-duasının alınmasına cəhd göstərilməsindən ibarət idi. Qarabağ Erməni Milli Şurasının məktubunda bildirilirdi ki, Erməni Milli Şurasının Qarabağın keçmişinə və gələcəyinə münasibətini açıqlamaq üçün yepiskop Vahan və Qrant Bahadurov general Tom-

sonun yanına göndərilir. Erməni millətçiləri bildirirdilər ki, onlar silahlı yolla Qarabağın erməniləşdirilməsini həyat keçirmək üzrə idilər. Lakin general Tomsondan alınan məktubdan sonra onlar hərbi əməliyyatları dayandırdılar. Erməni millətçiləri general Tomsonda belə bir təsəvvür yaratmaq istəyirdilər ki, Qarabağda ermənilər general Tomsonun iradəsini qəbul etdilər. Amma Azərbaycan hökuməti general Tomsonun iradəsini qəbul etmədi və Azərbaycanın milli qoşun hissələrinin Qarabağda yerləşdirilməsinə başlandı. Qarabağın Erməni Milli Şurası Qarabağla bağlı ən düzgün qərarın bu bölgənin Ermənistana birləşdirilməsində olduğunu bildirirdilər. Eyni zamanda, generalın nəzərinə çatdırılırdı ki, Qarabağın müvəqqəti general-qubernatorluğunun yaradılması, bu qubernatorluğun tərkibində ingilis missiyasının nümayəndəsinin iştirakı ilə müsəlmanlardan və ermənilərdən ibarət şura təşkil edilməsi ermənilər üçün qəbuledilməzdir. Erməni Milli Şurası iddia edirdi ki, Qarabağ erməniləri Azərbaycan hökumətindən ayrı yaşamaq istəyirlər və ona görə də general-qubernatorluğun və qarışıq şuranın yaradılması ermənilərin istəyinə ziddir. Bunun üçün ermənilər ingilis missiyasının dəstəklədiyi idarəçilik formatını qəbul edə bilməyəcəklərini bəyan edirdilər. Erməni Milli Şurası Qarabağın idarəçiliyinin onların arzuladıqları formada qurulması üçün general Tomsonun razılığını almaq istəyirdilər (144).

1919-cu il martın 12-də Şuşadakı ingilis missiyasının rəhbəri Qarabağın Erməni Milli Şurasının sədrinə məktub göndərdi. Bu məktubu, eyni zamanda, ermənilərin general Tomsona yazdıqları məktuba cavab kimi də xarakterizə etmək olar. Erməni Milli Şurasının nəzərinə bir daha çatdırıldı ki, ingilis hərbi qüvvələrinin Bakıdakı baş komandanı general-qubernator kimi X.Sultanovun fəaliyyətini dəstəkləyir. Sülh konfransı tərəfindən bölgənin statusu müəyyənləşdirilənə qədər general-qubernatorun sərəncamlarının məcburi olması da ermənilərin nəzərinə çatdırıldı. Məktubda qeyd olunurdu ki, Erməni Milli Şurasının X.Sultanov tərəfindən təyin olunan şəxsləri tanımamaq səlahiyyəti yoxdur. İngilis missiyasının rəhbəri xahiş edirdi ki, Erməni Milli Şurası general-qubernator

tərəfindən təyin edilən vəzifəli şəxslərə hörmətlə yanaşsın. Erməni millətçiləri X.Sultanovun hər hansı bir təyinatı ilə razı olmayacaqları təqdirdə öz münasibətlərini ingilis missiyasına açıqlaya bilərdilər. İngilis missiyasının rəhbəri bildirirdi ki, X.Sultanov tərəfindən məmurların seçilməsində Erməni Milli Şurası da iştirak edə bilər. Bunun üçün ermənilər general-qubernator yanında təşkil olunmuş şuraya öz nümayəndələrini göndərməli idilər. Baxmayaraq ki, general Tomson da belə bir qarışıq şuranın yaradılmasının və həmin şuranın Qarabağın idarəçiliyində iştirakının tərəfdarı idi, ermənilər yenə də onun təşkilində iştirak etməkdən imtina etdilər. İngilis missiyasının rəhbəri qeyd edirdi ki, Erməni Milli Şurası öz fəaliyyətində ingilis missiyasının iradəsinə əks getməyəcəyinə söz versə də, vədinə əməl etmir. Ona görə xahiş olunurdu ki, Erməni Milli Şurası ingilis missiyasına qarşı müxalifət yolunu tutmasın, əksinə, missiyaya yardım göstərsin (145).

İngilis qüvvələrinin Cənubi Qafqazdakı komandanı general F.Uorkerə bəslənilən erməni ümidləri də özünü doğrultmadı və Qarabağdakı separatçılıq üçün ondan da dəstək almaq mümkün olmadı. General F.Uorker Ermənistanın xarici işlər nazirinə göndərdiyi cavab məktubunda yazırdı ki, X.Sultanovun general-qubernator vəzifəsinə təyin edilməsi general Tomsonun razılığı ilə baş vermişdir. Məktubda bir daha qeyd edilirdi ki, bu təyinatın əsas məqsədi sülh konfransına kimi Qarabağda qanunçuluğun bərpa edilməsidir (146).

Mövcud olan faktlardan aydın olur ki, general F.Uorkerlə danışıqlar aparmaq və Qarabağın erməniləşdirilməsində onun razılığını almaq üçün Qarabağdan Erməni Milli Şurasının katibi Q.Bahadurov da Tiflisə yollanıbmış. Lakin o da Tiflisdə erməni millətçi-separatizmi üçün lazımi dəstəyi qazana bilməmişdi. General F.Uorker ümumiyyətlə onu qəbul etmədi. Onun adından podpolkovnik Kembi Q.Bahadurova kifayət qədər birmənalı və qətiyyətli cavab verdi. Q.Bahadurovun nəzərinə çatdırıldı ki, ermənilərin tutmuş olduğu ərazilər haqqında Tiflisdəki ingilis qərargahı ilə yalnız Ermənistan hökuməti danışa bilər. Q.Bahadurov isə Ermə-

nistan hökuməti tərəfindən belə bir səlahiyyətə malik deyildir. Sonra da bildirildi ki, Qarabağla bağlı olan bütün məsələlər general Tomsonun fəaliyyət sahəsinə aiddir və general F.Uorker general Tomson tərəfindən bu bölgənin necə idarə edilməsi məsələsinə heç bir vəchlə müdaxilə etmək niyyətində deyil. Podpolkovnik Kembi Bahadurovun diqqətinə onu da çatdırdı ki, qayda-qanunun yaradılması üçün general Tomson tərəfindən verilən göstərişləri Qarabağın erməni əhalisi qəbul etməsə, ermənilər nəinki ciddi cəzalandırılacaq, eyni zamanda, onların niyyətlərinin Sülh konfransında nəzərə alınması şansı da təhlükə altına düşəcəkdir. Nəhayət, podpolkovnik Kembi qeyd etdi ki, Q.Bahadurov tərəfindən general F.Uorkerə ünvanlanmış suallar general Tomsona göndərilməlidir və onun hər bir əmri Qarabağ erməniləri tərəfindən danışıqsız icra olunmalıdır (147).

Ermənilər hətta bununla da general F.Uorkerdən əl çəkmədilər. Onlar güman edirdilər ki, general F.Uorker ilə general Tomson arasında ixtilaf yaratmaqla Qarabağ məsələsində ingilis missiyasının mövqeyini dəyişmək mümkün olacaqdır. Bununla bağlı, Qarabağın Erməni Milli Şurasının sədri A.Şahnəzərov Tiflisin Erməni Milli Şurasının sədrinə məktub göndərdi və onu Qarabağ Erməni Milli Şurası ilə general Uorker arasında vasitəçilik etməyə çağırdı. A.Şahnəzərov heç nədən çəkinmədən bildirirdi ki, general Tomson və Şuşadakı ingilis missiyası bizim maraqlarımızı qorumaq əvəzinə bizi Azərbaycana tabe etmək istəyir. A.Şahnəzərov onu da qeyd edirdi ki, özlərini İngiltərənin, Fransanın, İtaliya və Amerikanın müttəfiqləri saydıqları üçün çətinliklə qarşılaşacaqlarını ehtimal etmirdilər. Onun fikrincə, müttəfiq dövlətlər, o cümlədən də ingilis nümayəndələri onların bu çətinliklərini qiymətləndirib əvəzində erməni maraqlarını dəstəkləməli idilər. A.Şahnəzərov Qarabağda erməni maraqlarını qorumadığı üçün general Tomsonu və Şuşadakı ingilis missiyasını borclu çıxartmaqla yanaşı, Qarabağın general-qubernatorunun göstərişlərinin yerinə yetirilməsi haqqında general Tomsonun tələblərinə əməl etməyəcəklərini bildirirdi. Sonra da Tiflis Erməni Milli Şurasının sədrindən xahiş edilirdi ki, general

Tomsonun Qarabağ ermənilərinin "ədalətli" tələblərinə qarşı mövqe tutmasını general Uorkerin diqqətinə çatdırsın (148).

General Tomson isə erməni millətçilərini tutduqları təcavüzkarlıq yolundan çəkindirmək və Qarabağda birgəyaşayış zəruriliyini çatdırmaq üçün 1919-cu il mart ayının ilk günlərində Qarabağdan 6 erməni nümayəndəsi ilə görüşməyə hazır olduğunu bəyan etdi. Qarabağın Erməni Milli Şurası bir neçə gün fikirləşdikdən sonra, nəhayət ki, 6 nəfərlik bir heyətin siyahısını Şuşadakı ingilis missiyasına təqdim etdi. Bu 6 nəfərdən yalnız biri Erməni Milli Şurasının üzvü idi, qalanları isə Erməni Milli Şurasından deyildi. Şuşadakı ingilis missiyasının üzvlərinin fikrincə, bu heyətin üzvləri erməni qiyamçıları və erməni millətçi-separatçılığının aparıcı nümayəndələri idilər. Ona görə onların namizədliyi qəbul olunmadı. İngilis missiyasından bildirdilər ki, Erməni Milli Şurasının sədrinin və onun iki müavininin Bakıya göndərilməsi yaxşı olar. Buna isə Erməni Milli Şurası razı olmadı. Ermənilər ehtiyat edirdilər ki, millətçi hərəkatın qarşısının alınması üçün Erməni Milli Şurasının rəhbərləri həbs oluna bilərlər. Ona görə qərara alındı ki, Erməni Milli Şurasının üzvlərindən heç kim Bakıya göndərilməsin. Əvəzində yeni bir heyətin siyahısı hazırlanıb ingilis missiyasına təqdim olundu (149).

Yeni təqdim olunan heyətin general Tomsonla görüş üçün Bakıya gedib-getməməsi məlum deyil. Amma general Tomsonun Şuşa yeparxiyasının keşişi Vahanla və Qarabağ Erməni Milli Şurasının katibi Q.Bahadurovla görüşməsindən belə güman etmək olar ki, Qarabağ ermənilərinin yeni heyəti də ingilis missiyası tərəfindən qəbul olunmadı. Keşiş Vahan və Q.Bahadurov isə Qarabağın Erməni Milli Şurasının məktubunu general Tomsona təqdim etmək üçün əvvəldən Bakıya gəlmişdilər. Görünür, general Tomson elə onlarla görüşməyi məqsədəuyğun bilmişdi. Adları çəkilən şəxslər general Tomsonun qarşısında aşağıdakı tələbləri qoydular: 1. Qarabağın dərhal Ermənistana birləşdirilməsi və ya sülh konfransı çağırılanadək Qarabağın müvəqqəti olaraq Ermənistan hakimiyyəti altına verilməsi; 2. Türk qoşunlarının gəlişindən əvvəlki

vəziyyəti bərpa etmək, yəni Qarabağ hökumətini yenidən bərpa etmək; 3. Yerli erməni idarəçiliyi saxlanılmaqla və azərbaycanlıların maraqlarının qorunmasına zəmanət verməklə erməni zonasında ingilis general-qubernatorunun təyin edilməsi və ya; 4. Bütün Qarabağda yerli idarəçilik orqanlarını təşkil etməklə ingilis general-qubernatorluğunu yaratmaq (150).

Tomson ermənilərin bu tələblərini dəstəkləmədi. Ermənilər isə Azərbaycan hökumətini tanımaqdan imtina etdilər (151).

Bununla general Tomson bir daha ermənilərin nəzərinə çatdırdı ki, Qarabağda Azərbaycan hakimiyyəti tanınmalıdır. Zəngəzurla bərabər Qarabağı da Ermənistan dövlətinin tərkibinə qatmaq istəyən erməni millətçi-separatçıları Cənubi Qafqazdakı ingilis hərbçilərinə təzyiqlər göstərmək cəhdindən də əl çəkmirdilər. Mövcud olan faktlardan aydın olur ki, 1919-cu il mart ayının sonlarında Qarabağdan başqa bir nümayəndə heyəti də Bakıdakı ingilis missiyasının rəhbərliyi ilə görüşməyə gəlmişdi. Bu heyətə Qarabağ Erməni Milli Şurasının sədri Arsen Şahnəzərov və Şuşa şəhər qlavası Gerasim Məlik-Şahnəzərov daxil idilər. Bu şəxslərin hər ikisinin Daşnaksutyun partiyasının üzvü, qatı millətçi olması haqqında ingilis missiyasında yetərincə məlumat var idi və ona görə də bu şəxslərlə aparılan danışıqlar da kifayət qədər ciddi keçdi. Onlardan başqa, general-qubernator X.Sultanov və Şuşadakı ingilis missiyasının rəhbəri mayor Monk-Mezon da Bakıya gəlmişdilər. 1919-cu il mart ayının 26-da erməni nümayəndələri Bakıdakı ingilis qüvvələrinin komandanı polkovnik Şatelvortla görüşdülər. Həmin görüş haqqında Arsen Şahnəzərovun qeydlərindən aydın olur ki, tərəflər arasında əsas müzakirə mövzusu Qarabağın Azərbaycan hakimiyyətinin tabeliyindən çıxarılması cəhdi idi. Polkovnik Şatelvortun – ermənilər Qarabağda hansı idarə üsulunu istəyir? – sualına A. Şahnəzərovun cavabı belə oldu: ermənilər istəyirlər ki, hakimiyyət sizin əlinizdə olsun, yerli hakimiyyət nəzdində yaradılmış şuraya isə hər iki xalqın nümayəndələri daxil edilsin. Həmin təklifə polkovnik Şatelvort belə bir münasibət bildirdi: "Bu mümkün deyil. Biz hökumətlərlə işləyirik, müxtəlif orqanlarla yox. Bax Qars-

da tatarlar erməni respublikasının hakimiyyətini tanımırlar. Amma biz onlardan ermənilərə tabe olmağı tələb edirik və onlar tabe olmalıdırlar. Qarabağda da belə bir vəziyyət yaranıb. Biz burada mövcud hakimiyyət vasitəsi ilə fəaliyyət göstərməliyik, yoxsa biz qanun-qayda yarada bilmərik" (152).

Polkovnik Şatelvortdan ümidində olduqları cavabı ala bilməyəndə A.Şahnəzərov erməni xislətinə uyğun olaraq Azərbaycan xalqına qarşı çirkab yağdırmaqdan belə çəkinmədi. A.Şahnəzərov ermənilərin müsəlmanlara nisbətən daha mədəni bir xalq olduğunu və ona görə də Azərbaycan hakimiyyətinin qəbul edilməz olduğunu söylədi. Polkovnik Şatelvort A.Şahnəzərovun bu cəfəng iftirası ilə razı olmadı və Qarabağ ermənilərini dinc şəraitdə azərbaycanlılarla birgə yaşayışa dəvət etdi. Aşağıda polkovnik Şatelvortla A.Şahnəzərov arasında baş vermiş dialoqun kiçik bir parçası verilmişdir:

"...Polkovnik Şatelvort – Ola bilsin ki, sizin xalq sülh arzulamır və əgər general-qubernatorluq tətbiq edilsə, onda ermənilər riskli fəaliyyət yolunu tutacaq?

A.Şahnəzərov – Biz daha çox sülhə çalışırıq, lakin alçaldıcı sülhə yox. Əgər Azərbaycan general-qubernatorluğu tətbiq edilərsə, onda xalq hər şeyə getməyə hazır olacaq.

Şatelvort – Siz xalqın nümayəndələrisiniz. Deyirlər, xalq arasında sizin nüfuzunuz var. Siz xalqa izah etməlisiniz ki, Azərbaycan müvəqqətidir. Sizin taleyiniz sülh konfransından asılıdır. Əgər konfransın qərarından sonra siz (Qarabağ nəzərdə tutulur) Azərbaycana veriləcəksinizsə və qalmaq istəməsəniz, azad şəkildə Ermənistana gedə bilərsiniz.

A.Şahnəzərov – Gələcək maraqlandırmır. Müvəqqəti idarəçilik haqqında danışıram. Biz xalqın içinə gedib tabe olmağı təbliğ edə bilmərik. Bu satqınlıqdır.

Şatelvort – Mən xəbərdarlıq edirəm. Azərbaycana və onun general-qubernatoruna qarşı hər hansı bir çıxış İngiltərəyə qarşı çıxış deməkdir. Biz o dərəcədə güclüyük ki, sizi tabe olmağa məcbur edə

bilərik. Siz nümayəndəsiniz, hər şeyə cavabdehsiniz və biz də sizdən tələb edəcəyik.

A.Şahnəzərov – Nəyə görə xalq üçün çıxılmaz vəziyyət yaradılsın? Başqa bir çıxış yolu tapın. İdarəetməni öz əlinizə alın. Biz razıyıq ki, general-qubernator müsəlman olsun. Amma Azərbaycandan olmasın.

Şatelvort – Təkrar edirəm ki, biz bölgədə administrasiya yaradılması yolunu öz üzərimizə götürə bilmərik. İki amerikalının da daxil olacağı bizim missiya yalnız general-qubernatorun fəaliyyətini izləmək tapşırığı alıb. Daha bu missiya idarəetməni öz əlinə almalı deyil. Ermənilərin maraqları heç bir vəchlə kənar tutulmayacaq. Çünki missiyanın Azərbaycan administrasiyasının daxili fəaliyyətinə müdaxilə etmək hüququ vardır. Siz yolları açmalısınız, siz ermənilərin daxilinə nüfuz etməyə imkan verməlisiniz ki, əyani şəkildə ermənilərin nə istədiyini görək" (153).

Göründüyü kimi, polkovnik Şatelvort Azərbaycan hökumətinin tanınmasından əlavə erməni nümayəndələri qarşısında bir sıra tələblər də qoydu – ermənilər tərəfindən bağlanmış yolların açılması, azad şəkildə erməni əhalisinin mövqeyinin öyrənilməsi və s. Çünki ingilis missiyasının rəhbərliyinə artıq yaxşı məlum idi ki, millətçi erməni liderlərinin ifrat tələbləri heç də Qarabağın sadə erməni əhalisinin tələbləri deyil və Qarabağ əhalisi adından irəli sürülən tələblərin arxasında da əslində qatı millətçilərin təcavüzkar-separatçı tələbləri dayanır. Bu qənaətə ingilis missiyasının nümayəndələri öz müşahidələri əsasında gəlmişdilər. Şuşadakı ingilis missiyasının rəhbəri mayor Monk-Mezon da belə bir qənaətdə idi və o, öz qənaətini Bakıdakı ingilis missiyasının rəhbərliyinə də çatdırdı. Onun fikrincə, məhz daşnaklar tərəfindən idarə olunan ermənilər Qarabağdakı Azərbaycan hökumətinə qarşı düşmən mövqe tutublar. Monk-Mezona görə, bu heç də təbii bir hal deyildi. Çünki əvvəllər ermənilər Qarabağda müsəlmanlarla birlikdə kifayət qədər dinc yaşamışdılar. İngilis missiyasının rəhbəri general-qubernator vəzifəsinə təyin edilmiş X.Sultanovu zəkalı və yumşaq bir adam kimi xarakterizə edirdi. Onun nəzərincə, X.Sultanov erməniləri narazı

salacaq bir iş görməmişdi. Ermənilər sadəcə olaraq X.Sultanovun gələcəkdə ermənilərə qarşı nə isə edə biləcəyindən ehtiyatlanaraq ona qarşı mövqe tutmuşdular. Monk-Mezon Qarabağda vəziyyətin sabitləşdirilməsi üçün açıq şəkildə tələb edirdi ki, Daşnaksutyun partiyasına aid olan bütün erməni millətçi-liderləri Qarabağdan kənarlaşdırılsın. Yalnız bu halda ermənilərin ictimai baxışları da dəyişə bilərdi. Monk-Mezonun fikrincə, erməni millətçilərinin Azərbaycana və azərbaycanlılara qarşı ifrat mövqeyi yaxın zamanlarda ciddi partlayışa gətirib çıxara bilərdi. Bu ehtimal yaylaq mövsümünün yaxınlaşması ilə bağlı idi. Güman edilirdi ki, erməni silahlıları köçlərin ənənəvi yaylaq yollarını kəsməklə silahlı qarşıdurmaya səbəb ola bilərlər (154).

Qarabağda vəziyyətin mürəkkəbləşdirilməsində erməni millətçi-separatçılarının qızışdırıcılığının böyük rol oynamasını polkovnik Şatelvort da bölüşürdü. Məktublarının birində onunla görüşdə olmuş A.Şahnəzərov haqqında yazırdı ki, əslində, bu adamın Şuşa kəndlilərini təmsil etməyə haqqı çatmır. Çünki A.Şahnəzərov 4 il Tiflisdə yaşayıb işləmiş, sonra bir il Berlində olmuş, sonra da Parisə getmişdi. Başqa sözlə, A.Şahnəzərov uzun müddət heç Qarabağda yaşamamışdı. Şatelvort qeyd edirdi ki, erməni nümayəndələri X.Sultanova qarşı barışmaz mövqe nümayiş etdirsələr də, onun qanunsuz fəaliyyəti haqqında ciddi bir dəlil göstərə bilmirlər. Ona görə polkovnik Şatelvort erməni nümayəndələrinin Azərbaycan hökumətinə tabe olmamaq tələblərini əsaslı saymırdı (155).

Erməni nümayəndələrindən sonra polkovnik Şatelvort Xosrov bəy Sultanov və mayor Monk-Mezonla görüşdü, Qarabağda vəziyyətin sabitləşdirilməsi və erməni təcavüzkarlıqlarına son qoyulması üçün onlarla fikir mübadiləsi apardı. Polkovnik Şatelvort da X.Sultanovu yumşaq bir adam kimi xarakterizə edir və Qarabağın idarə edilməsində onun yumşaq mövqe tutduğunu bildirirdi. O, X.Sultanovun belə bir siyasət aparmasını müdafiə edirdi. Görüş zamanı X.Sultanov ingilis missiyasının Qarabağ əhalisinə bəyanat-müraciətinin qəbul edilməsini xahiş etdi. Qısa müzakirələrdən sonra belə bir müraciətin mətni qəbul edildi. Müraciətdə deyilirdi

ki, Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının əhalisinə məcburi icra üçün ingilis komandanlığı aşağıdakıları elan edir:

1. Azərbaycan hökumətinin 15 yanvar 1919-cu il tarixli qərarına əsasən doktor Sultanov Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının general-qubernatoru təyin olunub və o, ingilis komandanlığının dəstəyinə malikdir;

2. Mövcud qanunlara görə bütün əhalinin ehtiyaclarının ödənməsi üçün general-qubernator yanında 6 nəfər məlumatlı erməni və müsəlmandan ibarət şura yaradılır;

3. İngilis komandanlığının nümayəndəsi kimi şuraya bir nəfər ingilis missiyasının zabiti daxil ola bilər;

4. General-qubernatorluq daxilində bütün işçilərin maaşı və başqa xərcləri Azərbaycan xəzinəsindən ödənilir;

5. Bütün mübahisəli məsələlər öz qəti həllini sülh konfransında tapacaq;

6. General-qubernatorluq daxilində hərbi hissələrin hər cürə yerdəyişməsi haqqında əvvəlcədən ingilis missiyasının diqqətinə çatdırılmalıdır;

7. Bu müraciətlə ingilis komandanlığı bildirir ki, general-qubernatorluq hüdudlarında qanunçuluq və sakitliyin yaradılması üçün general-qubernatora həvalə olan vəzifələrin icrası zamanı general-qubernator və onun orqanlarına aid olan bütün sərəncamlar və tədbirlər sözsüz icra olunmalıdır. İngilis komandanlığı bütün qanuni fəaliyyətə tam dəstək verir (156).

Mayor Monk-Mezon tərəfindən Şuşaya gətirilən həmin müraciətdə ingilis missiyasının Qarabağ hadisələrinə məlum mövqeyi bir daha təsdiq olundu. Göründüyü kimi, müraciətdə çox açıq şəkildə qeyd olunurdu ki, Sultanovun idarəçilik fəaliyyəti ingilis komandanlığı tərəfindən müdafiə olunacaq. Ermənilər bunu aydınlığı ilə başa düşməli və müxalifətçilik yolundan əl çəkməli idilər (157).

Bir qədər irəli gedərək qeyd etmək lazımdır ki, 1919-cu il aprel ayının 6-da Şatelvort ingilis komandanlığı adından X.Sultanovun Qarabağın general-qubernatoru təyin edilməsini təsdiqləyən qərar

imzaladı (158) və bununla da X.Sultanovun Qarabağda Azərbaycan hökumətinin nümayəndəsi kimi tanınması təsdiqləndi.

Mart ayının sonlarında general Tomson İrəvanda oldu. Burada o, Ermənistan hökumətinin sədri Xatisovla, general Androniklə və digər şəxslərlə görüşdü. Həmin görüşlərdə də başlıca məsələ kimi Qarabağda yaranmış vəziyyət müzakirə olundu. General Tomson həmin görüşlər zamanı əsas diqqəti Qarabağın siyasi statusu məsələsindən Qarabağdakı humanitar vəziyyət üzərinə yönəldə bildi. Danışıqlar zamanı general Tomson Ermənistan dövləti tərəfindən Qarabağa göndərilən erməni millətçi-təhrikçilərinin bölgədə vəziyyətin sabitləşdirilməsinə fayda gətirmədiyini açıqladı. Konkret olaraq general Tomson onun xahişi əsasında general Baqratuninin Qarabağa göndərdiyi şəxslərin fəaliyyətinə toxundu. General Tomson bildirdi ki, Ermənistandan göndərilmiş bu şəxslər Qarabağdakı qaçqınlara kömək göstərmək əvəzinə əməlləri ilə daha çox qanunsuzluq və qarışıqlıq yaranmasına səbəb olublar. Ona görə də həmin şəxslər çox tezliklə Qarabağdan uzaqlaşdırıldılar (159).

Erməni millətçilərinin Qarabağ məsələsi ətrafında apardıqları siyasi fəallıq onların hərbi sahədə apardıqları hazırlıq işləri ilə müşayiət olunurdu. Əslində, erməni millətçilərinin fəaliyyətində təcavüzkarlıq heç zaman onların gündəliyindən kənarda qalmamışdı. Lakin yeni şəraitdə erməni millətçiləri bu məsələnin reallaşması üçün yeni vasitələrə əl atmaqdan belə çəkinmirdilər.

Erməni millətçilərinin iddialarının zorakılıq təmsilçisi olan Andronikin dəstəsi ilə bərabər ingilis komandanlığının təkidi ilə Qarabağdan çıxarılması bölgədə erməni gücünün müəyyən qədər zəifləməsi demək idi. Lakin millətçi-separatizmin həyata keçirilməsi erməniləri vadar edirdi ki, hərbi qüvvələrin artırılmasına diqqət yetirilsin. 1919-cu il mart ayının ortalarında erməni millətçiləri bildirdilər ki, Qarabağda 10–12 minlik tüfənglə silahlanmış dəstələr toplamaq mümkündür. Amma o da bildirilirdi ki, belə böyük hərbi qüvvələrə rəhbərlik edəcək nüfuzlu hərbçi yoxdur. Erməni millətçiləri, eyni zamanda, Qarabağa əlavə sursatın və maliyyə vəsaitlərinin gətirilməsini də lazım bilirdilər (160).

Erməni Milli Şurası bölgədə yaranmış vəziyyəti təhlil edərək tərəflər arasındakı qarşıdurmanın silahlı toqquşmaya yol açacağını istisna etmirdi. Erməni təcavüzkarlığının cilovlanması üçün Əsgəranda, Xankəndində, Şuşada Azərbaycanın qoşun bölmələrinin yerləşdirilməsi də erməni millətçilərinin təcavüzkarlığını səngitmədi. Çünki onlar anlayırdılar ki, Azərbaycanın Qarabağda möhkəmlənməkdə olan nüfuzuna qarşı yalnız təcavüzkarlıqları ilə cavab verə bilərlər. Qarabağın Erməni Milli Şurası Qarabağın Azərbaycandan qoparılması və erməniləşdirilməsi üçün Ermənistan hökumətindən aşağıdakı tədbirlərin həyata keçirilməsini xahiş etdi: 1) Ermənistan hökuməti diplomatik təsirin bütün vasitələrindən istifadə etsin ki, müttəfiqlər vasitəsi ilə Qarabağın ermənilər yaşayan hissəsində və Zəngəzurda general-qubernatorluğun ləğv olunmasına və Qarabağdan Azərbaycanın qoşun bölmələrinin çıxarılmasına nail olsun; 2) Milis alaylarının təşkili və yerlərdə güllə və hərbi ehtiyatların alınması üçün təcili maddi yardım göstərilsin; 3) Qarabağın erməni əhalisi üçün üçxətli patronlar və digər hərbi ehtiyatlar buraxılsın; 4) Qarabağın ermənilər yaşayan ərazilərində hərbi işin təşkili üçün enerjili və nüfuzlu hərbi rəhbər təyin edilsin; 5) Andronikin hələlik kənarlaşdırılmaması və Zəngəzurdan uzaqlaşdırılmaması üçün bütün tədbirlər həyata keçirilsin; 6) Mümkün qədər tezliklə Zəngəzur və Basarkeçər möhkəmləndirilsin və bura nizami qoşun hissələri yeridilsin. Mümükn olan bütün işlər görülsün ki, Zəngəzur elə indi Ermənistanın tərkib hissəsinə çevrilsin; 7) Qarabağ ermənilərinə imkan yaradılsın ki, nümayəndəsi Avropaya getsin və erməni heyəti şurasının tərkibinə qatılsın (161).

Qarabağda mövcud olan silahlı dəstələr Dizak, Vərəndə, Xaçın və Çiləbörd üzrə toplanmışdılar. Bu məntəqələrdə toplanılan silahlı ermənilərin rəhbərləri, əslində, həm də həmin məntəqələrin rəhbərləri idi. Yerli əhalinin idarə olunmasında silahlı dəstələrin rəhbərlərinin iradəsi əsas götürülürdü. Silahlı dəstələrin rəhbərləri öz fəaliyyətlərini general Andronikdən aldıqları təlimatlar və göstərişlər əsasında qururdular (162). Başqa sözlə, Qarabağda olan erməni silahlı dəstələri Andronikin yolu ilə gedərək yerlərdə azər-

baycanlı əhaliyə qarşı təcavüzkarlığı və etnik təmizləmə siyasətini davam etdirirdilər. İngilis missiyası tərəfindən Andronikin silahlı dəstəsinin Qarabağa doğru irəliləməsinin dayandırılması və bununla da Qarabağdakı erməni silahlı qurumlarına mərkəzləşdirilmiş rəhbərliyin zəifləməsi erməni millətçilərində müəyyən narahatlıq da yaratdı. Bu istiqamətdə lazımi işlərin görülməsi diqqət mərkəzinə gətirildi. Erməni millətçi təşkilatları məsələ qaldırdılar ki, Qarabağın Ermənistana birləşdirilməsi üçün mütləq aşağıdakı işlər görülməlidir: 1) Qarabağdakı erməni silahlı dəstələrinin birləşdirilməsi üçün dərhal bura Ermənistandan hərbi rəhbər göndərilsin; 2) General Andronik ya Qarabağa göndərilsin, ya da Zəngəzurda saxlanılsın. Zəngəzurda erməni alayı yaradılsın; 3) Qarabağda erməni silahlı dəstələrinin gücləndirilməsi üçün maliyyə vəsaitləri ayrılsın.

Ermənistanın hərbi xadimləri isə Qarabağda erməni briqadasının yaradılmasını və bu briqadaya general D.Pirumov kimi hərbçilərin təyin olunmasını tələb edirdilər (163). Yəni ermənilər görürdülər ki, istər Azərbaycan qanunları, istərsə də müttəfiq dövlətlərin Cənubi Qafqazdakı nümayəndəliyinin mövqeyi erməni millətçilərinin təcavüzkar mövqeyi ilə səsləşmir. Əksinə, ermənilərin azərbaycanlılarla dinc birgəyaşayışı əsas ideya kimi irəli sürülür. Belə olan halda ermənilər öz niyyətlərinə, yəni Qarabağın Azərbaycandan qoparılmasına zor vasitəsi ilə nail ola bilərdilər. Bu məqsədə çatmaq üçün isə erməni millətçiləri bütün ermənilərin potensialını səfərbərliyə almağa çalışırdılar. İrəvan ermənilərinin, Tiflis ermənilərinin, hətta Bakı ermənilərinin bütün diqqəti Qarabağın Azərbaycandan qoparılmasına cəlb edilmişdi.

Bu məsələdə ermənilərin həyasızlığı elə bir səviyyəyə çatdı ki, əzəli Azərbaycan torpaqlarına şəriksiz sahib durmaq üçün nəinki Zəngəzur və Qarabağda, az qala Azərbaycanın bütün ərazisində hərbi hazırlığın gücləndirilməsinə başlandı. Hətta Bakı şəhərində erməni milli xadimləri, o cümlədən Amazasp Azərbaycana qarşı silahlı mübarizə aparılması üçün silah gəzdirmək qabiliyyətinə malik olan bütün erməniləri siyahıya alır, dəstələr düzəldir,

silahlandırır və onlara təlim keçirdi (164). Erməni hökumətinin Bakıdakı hərbi nümayəndəsi Ermənistan hökumətinin sədrinə və Hərbi nazirinə göndərdiyi məktublarında bildirirdi ki, keçmiş Bakı ordusunun burada 8–10 min nəfər əsgəri vardır. Belə böyük bir qüvvənin toplanıb Ermənistan hökumətinin sərəncamına göndərilməsi üçün general Tomsonun qarşısında da məsələ qaldırıldı. General Tomson bütün erməni əsgər və zabitlərinin Ermənistana göndərilməsinə razılıq verdi. Hətta həmin əsgər və zabitlərin silahla Ermənistana göndərilməsi məsələsinin mümkünlüyü də nəzərdən keçirildi. Ermənistanla Gürcüstan arasında müharibənin başlanması bu məsələnin tezliklə icrasını bir qədər ləngitsə də, onların siyahıya alınması və qruplaşdırılması davam edirdi (165).

Bakıda erməni hərbi dəstələrinin formalaşdırılmasını general Tomsonun özü də təsdiq edirdi. O, Nazilər Şurasının sədri F.Xoyskiyə göndərdiyi məktubunda bildirirdi ki, Bakıda, həqiqətən, Ermənistana yola salınması üçün keçmiş erməni əsgərlərinin və zabitlərinin siyahıya alınması aparılmalıdır. Ancaq bu dəstənin silahlandırılmasına icazə verilməmişdir (166).

Bundan başqa, erməni tərəfi öz hərbi qüvvələrinin gücləndirilməsi üçün general Biçeraxovla da əməkdaşlıq imkanlarını nəzərdən keşirirdi. Bakıdakı Ermənistan hərbi nümayəndəsi bu məqsədlə Biçeravoxla görüşmüş və onunla danışıqlar aparmışdı. Ermənistan rəhbərliyinə göndərdiyi məlumatında o bildirirdi ki, qoşunsuz qalan Biçeraxov ingilislərin də hər cürə köməyindən məhrum olmuşdur. Onun məlumatına görə ingilislərdən yeni kömək almaq üçün Biçeraxov hansısa nizami ordu dəstəsinə malik olmalıdır. Bunun üçün Biçeraxov rus təmayülü ilə daha çox seçilən erməni ordusuna ümid bəsləyir. Erməni hərbi nümayəndəsi qeyd edirdi ki, Biçeraxovun hərbi-texniki imkanları olsa da, erməni qoşunlarının tamamilə ona tabe edilməsi erməni niyyətlərinin həyata keçməsinə mane ola bilər. Ona görə də bu məsələdə milli maraqların daha dərindən ölçülüb-biçilməsini məqsədəuyğun sayırdı.

Yuxarıda qeyd edildiyi kimi, kəskinləşməkdə olan erməni təcavüzünün qarşısını almaq üçün Qarabağın mühüm strateji əhə-

miyyətli nöqtələrində – Xankəndində, Şuşada, Ağdamda Azərbaycanın qoşun hissələri yerləşdirilmiş, Əsgəranda mühafizə postları qoyulmuşdu. Hərbi Nazirliyin rəhbərliyi bu hissələrin və onlara həvalə edilmiş postların möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi və həmin hissələr dəfələrlə yoxlanılmışdı.

Qarabağda yerləşən hərbi hissələrdən daha operativ və çevik istifadə edilməsi üçün general-qubernator X.Sultanov 1919-cu il aprel ayının ilk günlərində həmin qüvvələrin operativ planda general-qubernatorluğa tabe edilməsi haqqında Nazirlər Şurasının sədri qarşısında məsələ qaldırdı. X.Sultanov N.Yusifbəylinin adına göndərdiyi məktubunda bildirirdi ki, burada söhbət Azərbaycan ərazilərinin üçdə birinin taleyindən gedir. Onun fikrincə, Qarabağa general-qubernator təyin edildiyi üçün Qarabağdakı vəziyyətə daha çox məsuliyyət daşıyır və konkret şəraitdə onun ixtiyarına hərbi qüvvələr verilmədən bu məsələni qəti şəkildə həll etmək də mümkün deyil. X.Sultanov bildirirdi ki, bu məsələ ya tezliklə həll edilməli, ya da onun istefası qəbul edilməli və hərbi qüvvələr onun yerinə gələcək yeni şəxsə tabe etdirilməlidir. Qarabağın general-qubernatoru bölgədəki hərbi qüvvələrin ona tabe etdirilməsinin vacibliyini başqa bir arqumentlə də əsaslandırmağa çalışırdı. Azərbaycan hökuməti razı olmuşdu ki, milli hərbi qüvvələrin ölkə daxilindəki yerdəyişmələri barədə ingilis missiyasına xəbər versin. Qarabağdakı hərbi qüvvələrin yerdəyişməsi barədə rabitənin çətinlikləri üzündən Hərbi Nazirlik istəsəydi, belə vaxtında ingilis qüvvələrinə xəbər verə bilməzdi. X.Sultanovun fikrincə, Qarabağdakı qüvvələr ona tabe etdirilsə, onların yerdəyişmələri haqqında vaxtında Şuşadakı ingilis qüvvələrinə xəbər verə bilərdi. Bu da ingilis missiyası ilə Azərbaycan hökuməti arasında narazılıqların meydana gəlməsini aradan qaldıra bilərdi (167).

Məsələyə tezliklə hökumətin iclasında baxıldı və Qarabağda vəziyyətin sabitləşdirilməsi üçün X.Sultanovun vəsatətinin icrası məqsədəuyğun sayıldı. Bununla bağlı, N.Yusifbəyli Hərbi nazir S.Mehmandarovun adına məktub göndərdi. Həmin məktubda da Zəngəzur ətrafındakı vəziyyətin mürəkkəbləşdiyi, Tarovlu, Əli-

quluuşağı və 4-cü sahənin ərazisində erməni silahlılarının qırğınlar törətməsi qeyd edildi. Hökumətin sədri həm Qarabağda 2 minlik bir hərbi qüvvənin saxlanılmasını, həm də bu qüvvələrin X.Sultanova tabe etdirilməsinin hökumət tərəfindən məqsədəuyğun sayıldığını Hərbi nazirin diqqətinə çatdırdı. Eyni zamanda, bu məsələnin icrası ilə bağlı hökumətə məlumat verilməsi də Hərbi nazirdən xahiş edildi (168).

S.Mehmandarova ünvanladığı başqa bir teleqramında isə N.Yusifbəyli bildirirdi ki, istənilən halda Qarabağda fəaliyyət göstərən hərbi qüvvələr Qarabağ general-qubernatorunun razılığı ilə döyüş tapşırıqlarını yerinə yetirir. Belə olduğu halda general-qubernator öz göstərişlərinə və hərbi qüvvələrin istifadəsinə məsuliyyət daşıyır. Bununla hökumət yenə də Qarabağdakı hərbi qüvvələrin general-qubernatora tabe etdirilməsinin lazımlılığını qeyd edirdi. Hökumətin sədri, eyni zamanda, bölgədəki hərbi qüvvələrdən düzgün istifadə edilməsi üçün hökumət tərəfindən Qarabağ general-qubernatoruna hərbi məsələlər üzrə müavin təyin edilməsi haqqında qərar qəbul edildiyini bildirirdi (169).

Hərbi Nazirliyin rəhbərliyi Qarabağdakı hərbi qüvvələrin Qarabağ general-qubernatoruna tabe etdirilməsi məsələsi ilə razı olmadı və bunu hökumət qarşısında da əsaslandırdı. Hökumətin rəhbərliyi Hərbi Nazirliyin arqumentləri ilə razılaşdı və belə qərara alındı ki, Qarabağ general-qubernatoru yalnız zərurət yarananda hərbi qüvvələrdən istifadə edilməsi barəsində hökumət qarşısında məsələ qaldıra bilər (170).

Qarabağdakı hərbi qüvvələrin sayının 2 min nəfərə çatdırılması məsələsinə gəlincə isə S.Mehmandarov 1919-cu il aprelin 21-də N.Yusifbəylinin adına göndərdiyi raportunda bildirirdi ki, hazırda Qarabağdakı hərbi qüvvələrin sayı 1500 nəfərdir. Bu qüvvələr hərbi sursatla lazımi səviyyədə təmin edilmişdir. Hərbi nazir onu da əlavə edirdi ki, çağırış işininin davam etdirilməsi nəticəsində təkcə Qarabağda yerləşən Cavanşir piyada alayının şəxsi heyətinin sayı 3000 nəfərə çatdırılacaqdır. Bundan başqa, 2-ci Qarabağ süvari alayı da bölgədə yerləşir. Bu iki alay ştata uyğun komplekt-

ləşdiriləcəyi təqdirdə bölgədə güclü bir hərbi qüvvəni təşkil edə bilərdilər. Ancaq Hərbi nazir çağırış işinin səmərəli təşkilində hökumətin kömək göstərməsinin vacibliyini də qeyd edirdi (171).

Qarabağda dinc yaşayışın təmin edilməsi və asayişin qorunması üçün istər ingilis missiyasının prinsipial mövqeyi, istərsə də Azərbaycan hökumətinin konkret addımları erməni millətçilərini nəinki sakitləşdirmədi, əksinə, onlar niyyətlərinə çatmaq üçün başqa yollar aramağa başladılar. Onlar əvvəlcə Qarabağda hakimiyyətin bölünməsini təklif etdilər. Ermənilər təklif edirdilər ki, Qarabağ general-qubernatoru Qarabağın azərbaycanlı əhalisini idarə etsin, Qarabağın erməni əhalisi isə Şuşadakı ingilis missiyasının nəzdindəki erməni nümayəndəsi və Qarabağın Erməni Milli Şurası tərəfindən idarə edilsin. Sonra Qarabağda ingilis general-qubernatorluğunun yaradılması təklifi ortaya atıldı. Bu təkliflərlə bərabər, Ermənistanın Qarabağ üzrə səlahiyyətli nümayəndəsi təyin edildi. Əvvəlcə podpolkovnik Arzumanyan, sonradan isə əlavə olaraq Şahmazyan bu vəzifəyə təyin edildilər. General Andronik isə ingilis missiyasına Qarabağ ermənilərinin mənafelərinin qorunmaması bəhanəsi ilə xəbərdarlıq göndərdi (172).

Erməni millətçiləri öz təcavüzkar mövqelərini müxtəlif toplantılarda da səsləndirməkdə davam edirdilər. 1919-cu il aprel ayının 2-də Sisian və Zəngəzur erməniləri toplantı keçirdilər və orada belə bir qərar qəbul etdilər: 1) Ermənistanın bir hissəsi olan Zəngəzura Azərbaycan tərəfindən edilən iddialara silahla cavab verilsin; 2) Azərbaycan təbəələrinin Zəngəzur dağlarına sürülər gətirməsi qadağan edilsin və sürülərini güclə Zəngəzur yaylaqlarına aparmaq istəyənlərə qarşı silahlı mübarizə aparılsın. Toplantı iştirakçıları bu qərarı Ermənistan hökumətinin Qarabağ üzrə nümayəndəsi Arsen Şahmazyana göndərərək ondan xahiş etdilər ki, Qarabağda silahlı qurumların təşkilinə başlasın. Onlar bu istiqamətdə Şahmazyana kömək göstərməyi də vəd edirdilər (173).

Ermənistan hökumətinin rəhbərliyi də müttəfiq dövlətlərin Cənubi Qafqazdakı nümayəndələrinə bir neçə bəyanat göndərdi və bu bəyanatlarda birtərəfli şəkildə Qarabağ Ermənistanın tərkib hissəsi

kimi təqdim olundu. Bütün bu fəallıqlar Ermənistan dövlətinin Qarabağdakı vəziyyətə birbaşa müdaxiləsi ilə müşayiət olunurdu. Həmin müdaxilələr Qarabağda dinc yaşayışın təmin edilməsinə imkan vermirdi. İngilis missiyasının rəhbərliyi də erməni millətçi-lərinin bu müdaxilələrini görür və həmin müdaxilələri Qarabağda vəziyyətin mürəkkəbləşməsinin əsas səbəbi sayırdılar. Məsələn, polkovnik Şatelvort general Tomsonun və Ermənistan hökumətinin sədri Xatisovun iştirakı ilə Tiflisdə təşkil olunmuş iclasda Ermə-nistan dövlətinin Qarabağa müdaxiləsi haqqında aşağıdakı faktları açıqladı: Qarabağdakı erməni silahlı dəstələri Ermənistandan gəl-mə zabitlər tərəfindən idarə olunur, Ermənistanın Qarabağ üzrə nümayəndəsi A.Şahmazyan etiraf edib ki, Qarabağda olan hərbi qüvvələr Ermənistan ordusunun tərkibinə daxildir və Ermənistan adından Qarabağ ermənilərinə hər cürə yardım vəd edib, Ermənis-tanın Qarabağdakı nümayəndəsi orada Ermənistan dövləti adından hərbi dəstələr təşkil edir. Bu faktları səsləndirdikdən sonra general Tomson açıq şəkildə Ermənistan hökumətinin sədrinə bəyan etdi ki, Qarabağın işlərinə müdaxilə etməklə Ermənistan İngiltərəyə qarşı müharibə elan etmişdir. Sonra da general Tomson tələb etdi ki, Şahmazyan və digər bütün təbliğatçı nümayəndələr Qarabağdan geri çağırılsın (174).

Qeyd etmək lazımdır ki, erməni millətçi-separatizminin ifrat ifadəsini təmsil edən A.Şahmazyanın Qarabağda həyasızlığı o də-rəcəyə çatmışdı ki, Şuşadakı ingilis missiyasına qarşı da say-mazyanalıq nümayiş etdirirdi. Buna görə hətta Ermənistan hö-kuməti ingilis missiyası rəhbərliyi qarşısında izahat verməli ol-muşdu (175).

1919-cu il mart ayının sonlarında X.Sultanov və mayor Monk-Mezon Bakıda olarkən polkovnik Şatelvortun Qarabağ əha-lisinə ünvanladığı bəyanat-müraciəti general-qubernatorluq tərə-findən aprel ayının ortalarında açıqlandı. Polkovnik Şatelvortun kifayət qədər qətiyyətli mövqeyi erməni millətçilərinin vəziyyətini xeyli çətinləşdirdi. Onlar polkovnik Şatelvortun müraciətində irəli sürülən tələblərə olan narazılıqlarına Qarabağın bütün erməniləri-

nin narazılığı görüntüsü vermək üçün 1919-cu il aprel ayının 23-də Şuşada Qarabağ ermənilərinin V qurultayının keçirilməsini qərara aldılar. Bu qurultayın ifrat millətçi və separatçı qərar qəbul edəcəyini əvvəlcədən də gözləmək mümkün idi. Qarabağ ermənilərinin V qurultayından bir neçə gün sonra Tiflisdə Cənubi Qafqazdakı ingilis missiyasının nümayəndələri ilə erməni millətçilərinin nümayəndələrinin görüşü keçirildi. Həmin görüşdə Qarabağdakı erməni silahlı terror dəstələrindən birinin komandiri olan Sokrat Şahnəzərov polkovnik Şatelvortun nəzərinə çatdırdı ki, Qarabağda hər şeyi qarışdıran Erməni Milli Şurasıdır. General Tomson da bu görüşdəki çıxışında bildirdi ki, bölgənin sadə erməni əhalisi özünü dinc şəkildə aparır, amma erməni hökumətinin agentləri onları qızışdırmaqdan əl çəkmirlər (176).

Bütün bunların nəticəsi kimi, Qarabağ ermənilərinin V qurultayı adlandırılan toplantı həm Azərbaycan hökumətinin, həm də ingilis missiyasının və konkret olaraq polkovnik Şatelvortun qarşılıqlı dinc yaşayışa çağıran müraciətinə kifayət qədər təcavüzkar bir cavab verdi. Toplantının qərarında deyilirdi ki, Qarabağ ermənilərinin V qurultayı polkovnik Şatelvortun Azərbaycan hakimiyyətini qəbul etmək haqqında tələbini müzakirə edərək və bu tələbi şərtləndirən səbəbləri nəzərdən keçirərək öz qərarını dəyişdirməyi qeyri-mümkün sayır. Toplantının qərarında sonra bildirilirdi ki, Azərbaycan hakimiyyəti ilə hər hansı bir əlaqə yaradılması qeyri-mümkün sayılır (177).

İngilis missiyasının nümayəndələrinin artıq heç bir şübhəsi yox idi ki, Qarabağda vəziyyətin mürəkkəbləşməsinin əsas günahkarları erməni millətçiləri və Daşnaksutyun partiyasının qızışdırıcı separatçıları idi. Ona görə Azərbaycan hökumətinin və Qarabağın general-qubernatoru X.Sultanovun tövsiyələri ilə erməni millətçi-təhrikçilərinin Qarabağdan uzaqlaşdırılması ingilislər üçün də zəruri bir vəzifəyə çevrildi. İngilis missiyası tələb etdi ki, Erməni Milli Şurasının iki üzvündən başqa digər üzvləri Qarabağ ərazisindən kənarlaşdırılsınlar. Çünki məhz Erməni Milli Şurasının üzvləri havaların istiləşməsi ilə müsəlman əhalinin sürülərinin yaylaqlara

buraxılmasına qarşı qətiyyətlə etiraz etdilər. Ona görə də ingilis missiyası Şuşa nümayəndəliyinin rəhbəri mayor Monk-Mezon bildirdi ki, silahı olan müsəlman əhalini tərk-silah etmək olmaz. Çünki əks təqdirdə erməni silahlıları müsəlman əhalini qıracaqlar. Vaxt keçdikcə bu məsələ kifayət qədər mürəkkəbləşdi. Xüsusilə azərbaycanlı əhalinin sürülərinin yaylaqlara buraxılmaması ətrafında erməni millətçilərinin qızışdırıcılıq fəaliyyəti bölgənin şəraitini böhranlı hala çatdırdı. Ermənilər bu məsələni qızışdırmaqla yerli əhalini təkcə Azərbaycan hakimiyyətinə qarşı deyil, həm də ingilis missiyasına qarşı qaldırmağa çalışırdı. 1919-cu il may ayının 6-da general Tomson Tiflisdə Ermənistanın Tiflisdəki diplomatik nümayəndəsini qəbul edərək bu məsələni bir daha qətiyyətli şəkildə onun nəzərinə çatdırdı. General Tomson bəyan etdi ki, Qarabağda qayda-qanunun və asayişin pozulması Ermənistan dövlətinin Qarabağ üzrə nümayəndəsi kapitan Şahmazyanın millətçi fəaliyyəti ilə bağlıdır. Özünü Qarabağ ermənilərinin general-qubernatoru adlandıran bu şəxs dinc erməni əhalisinin Azərbaycan hakimiyyətini tanıması əleyhinə millətçi-təhrikçilik fəaliyyəti aparır. General Tomson açıq şəkildə bildirirdi ki, özünü qeyri-qanuni şəkildə general-qubernator kimi təqdim edən kapitan Şahmazyanın Qarabağdakı təxribatçı fəaliyyətinə dözə bilməz. O tələb edirdi ki, Ermənistan dövləti kapitan Şahmazyanı dərhal geri çağıraraq həbs etsin, Daşnaksutyun partiyasının fəaliyyətinə son qoyulsun. Əks təqdirdə, general Tomson vəd edirdi ki, çətinliklə yaradılan asayişi pozmaqda günahlandırılan Şahmazyanı özü həbs etdirəcəkdir (178).

Erməni millətçiləri ingilis missiyasının rəhbərinin dinc yaşayışa ünvanlanmış bu çağırışını da ənənəvi qaydada qəbul etmədilər. Əksinə, pozuculuq və qızışdırıcılıq fəaliyyətlərini daha da genişləndirdilər. Məsələnin yerində araşdırılması və asayişin bərpasında əməli kömək göstərilməsi üçün Azərbaycan hökumətinin xahişi ilə yenicə general rütbəsi almış Şatelvort may ayının ortalarına yaxın hətta Zəngəzurda da oldu. Lakin onun Zəngəzura yola düşməsindən bir neçə gün öncə, yəni 1919-cu il may ayının 6-da Şuşadakı ingilis missiyası bir daha bölgənin erməni əhalisinə müraciət etdi,

onları qanuni hakimiyyət orqanlarına tabe olmağa, dinc-qarşılıqlı yaşayışı bərpa etməyə çağırdı. Bu müraciətdə açıq və birmənalı şəkildə bildirilirdi ki, Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının general-qubernatoru vəzifəsinə Xosrov bəy Sultanov təyin edilmiş və bu təyinat Britaniya komandanlığının razılığı ilə həyata keçirilmişdir. Müraciətdə bir daha bəyan edilirdi ki, general-qubernatorun müavini erməni olacaq və general-qubernatorun yanında yaradılmış 6 nəfərlik şura isə bərabər sayda azərbaycanlılardan və ermənilərdən təşkil olunacaqdır. Britaniya missiyası qətiyyətlə tələb edirdi ki, qanuni hakimiyyət orqanı olan general-qubernatorun və onun tabeliyində olan qurumların bütün göstərişləri əhali tərəfindən qeyd-şərtsiz olaraq yerinə yetirilməlidir. Əks təqdirdə, tabe olmayanlara qarşı sərt cəzalar həyata keçiriləcəkdir (179).

Bu müraciətin, əslində, erməni əhaliyə ünvanlandığı şübhəsiz idi. Çünki məhz ifrat erməni millətçi-separatçıları tərəfindən təhrik edilən erməni əhali asayişin qorunmasında maraqlı deyildi. Belə olanda onların yeni vətən axtarışlarına son qoyula bilərdi. Yuxarıda göründüyü kimi, ingilis missiyası X.Sultanovu Zəngəzurun da qanuni hakimi sayırdı və ingilis missiyası ermənilərə onu da çatdırırdı ki, ərazi iddialarının qanuni olub-olmaması sülh konfransında baxıla bilər və sülh konfransının nəticələrini gözləmək lazımdır. Məsələnin belə qoyuluşu erməni millətçilərini heç də qane etmirdi. Onlar sülh konfransına kimi Zəngəzuru da, Qarabağın dağlıq hissəsini də azərbaycanlı əhalidən təmizləyərək bu məntəqələri erməni əhalisinin məskunlaşdığı bir ərazi kimi tanıtmaq istəyirdilər.

General Şatelvortun Zəngəzura səfəri də bu məntəqənin Azərbaycan hakimiyyəti altında olmasının təsdiqi idi. Bununla bir daha erməni tərəfində nümayiş etdirildi ki, azərbaycanlı əhali öz köç sürülərini bu məntəqələrin yaylağına gətirə bilərlər. General Şatelvort və onu müşayiət edən ingilis mühafizə dəstəsi Dığda erməni silahlı dəstələri tərəfindən saxlanıldı. Sonradan ermənilər general Şatelvorta bildirdilər ki, Gorusa mühafizə dəstəsi ilə yox, təkbaşına yolana bilər. General Şatelvort bu tələblə razılaşmalı oldu. O, gorusa yollandı və orada bir daha qanuni hakimiyyət orqanlarının ta-

nınmasının və azərbaycanlı əhalinin köç sürülərinin Zəngəzura buraxılmasının zəruriliyini təkid etdi. Gorusda toplanmış olan erməni millətçiləri növbəti toplantını keçirdikdən sonra bölgənin qanuni hakimiyyət orqanlarını tanımaqdan, azərbaycanlı əhalinin köç sürülərini yaylaqlara buraxmaqdan imtina etdilər. Belə olanda ingilis generalı erməni əhalini qanunsuzluqlara təhrik edən Şahbazyan, Şirinyan, Osipov, Kalmakov kimi millətçilərin təhvil verilməsini tələb etdi. Doğrudur, bu millətçilər general Şatelvortun yanına gəldilər. Lakin onların ardınca çoxlu sayda erməni silahlısı general Şatelvortu mühasirəyə aldılar. Ermənilər generala təzyiq göstərmək üçün hətta üç ədəd top da meydana gətirdilər. Eyni zamanda, ingilis hərbçilərinə qarşı qızışdırıcı şüarların söylənməsinə başlandı. Ona görə də Zəngəzurda qanuni Azərbaycan hakimiyyət orqanlarının bərpası ilə bağlı Şatelvortun göstərdiyi səylər bir nəticə vermədi. Bundan başqa, erməni silahlıları ilə doldurulmuş Zəngəzurda qanuni Azərbaycan hakimiyyətinin möhkəmləndirilməsi üçün X.Sultanovun fikrincə, adekvat addım atılmalı, yəni məntəqədə Azərbaycanın milli qoşun hissələri yerləşdirilməli idi (180).

Erməni silahlı dəstələri təkcə Zəngəzurda deyil, elə Şuşanın özündə də vəziyyətin mürəkkəbləşməsində az rol oynamırdılar. Şahnəzərov və Minasbəyov kimilərinin ifadələrinə görə Qarabağın Erməni Milli Şurası Şuşanın erməni məhəlləsini nəzarət altında saxladığını iddia etsələr də, bura kənardan erməni silahlı dəstələri gəlir və onlar azərbaycanlı əhali arasında soyğunçuluq, talan və cinayətkarlıqla məşğul olurdular (181).

Erməni silahlıları Yevlax – Şuşa yoluboyu bir sıra yüksəkliklərdə mövqe tutub yoldan keçənləri təhlükə altına alırdılar. May ayının əvvəlində bu yolla hərəkət edən 9 azərbaycanlı tutulub naməlum istiqamətə aparıldı. May ayının ortalarında bu yolla hərəkət edən daha 7 azərbaycanlı yoxa çıxdı. Şuşa-Qaryagin və Qaryagin-Şuşa yolu günü-gündən güclənməkdə olan erməni silahlı qüvvələrinin tam nəzarəti altına düşdü (182).

May ayının sonlarında sürülərin dağ otlaqlarına aparılması mövsümü başlanmalı idi. Ermənilərin təcavüzünün genişləndiyi bir

vaxtda sürülərin və onların sahiblərinin üzərinə ermənilər tərəfindən basqınlar ediləcəyi təhlükəsi real xarakter aldı. Bu təhlükəni sovuşdurmaq üçün Şuşadakı Britaniya missiyasının nümayəndələri şəhərdə elanlar yayıb əhalini köçlərə ziyan yetirməməyə çağırdı (183).

Qarşılıqlı münasibətlərin kəskinləşdirilməsi üçün hər cürə hərəkətə əl atmaqdan çəkinməyən erməni millətçilərinin Britaniya missiyası nümayəndələrinin çağırışlarına qulaq asmayacağı Qarabağ general-qubernatorluğunda şübhə doğurmurdu. X.Sultanovun bildirdiyi kimi, təcavüzkar planların reallaşdırılması üçün Ermənistan hökumətindən böyük miqdarda vəsait alan Qarabağdakı təcavüzkar qüvvələr onlara bağlanılan ümidlərin əbəs olmadığını sübut etmək üçün münasib an gözləyirdilər. Yaxın günlər üçün planlaşdırılan belə əməllərin qarşısının alınması və bütünlükdə hökumət orqanı kimi general-qubernatorluğun möhkəmləndirilməsi üçün X.Sultanov bir sıra tədbirləri həyata keçirməyi qərara aldı. 1919-cu il may ayının sonlarında Şuşanın erməni hissəsində olan əsgər qışlalarına qoşun bölmələrinin yeridilməsi məqsədəuyğun bilindi. Bu qışlalar istifadəsiz qalmışdı və Azərbaycanın qoşun bölmələrinin orada yerləşdirilməsi həmin bölmələrin məişət şəraitini yaxşılaşdırmaqla bərabər, erməni millətçilərinin azğınlaşmasının məhdudlaşdırılmasına da kömək edə bilərdi. Ancaq bunun qarşıdurmanı xeyli kəskinləşdirəcəyindən ehtiyatlanan general-qubernator müəyyən qədər gözləməyi lazım bildi. Şəhərin erməni hissəsində yerləşən xəzinədarlığın və poçtun Azərbaycan hissəsinə köçürülməsi isə dərhal həyata keçirildi (184).

Xəzinədarlığın və poçtun köçürülməsi də erməni millətçiləri tərəfindən vəziyyətin qızışdırılmasında məharətlə istifadə edildi. 1919-cu il iyunun 3-də millətçi qüvvələr Şuşanın erməni hissəsindən keçən iki azərbaycanlı əsgər üzərinə hücum edib onların atını, tüfəngini və patronlarını əllərindən aldılar. Əsgərlər özləri isə güclə qaçıb canlarını qurtardılar. Erməni millətçiləri tərəfindən Azərbaycan hökuməti əleyhinə təbliğatın genişləndirilməsi, iyunun əvvəllərində Qarabağa Ermənistanın silahlı dəstələrinin gələcəyi xəbərinin yayılması və nəhayət, iyunun 3-də Azərbaycan əsgərlərinə

qarşı həyata keçirilən zorakılıq göstərdi ki, daha irimiqyaslı təcavüzlərin baş verəcəyi heç də uzaqda deyil. Gözlənilən təhlükəni sovuşdurmaq və köç kampaniyasının sakitcə başa çatmasını təmin etmək üçün iyunun 4-də Xosrov bəy Sultanov tərəfindən daha qətiyyətli və səmərəli tədbirlər həyata keçirildi. Bu tədbirlər Şuşa – Yevlax yolunun təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıyırdı.

Şuşadakı ingilis missiyasının nümayəndəsinin verdiyi məlumata görə X.Sultanov tərəfindən qətiyyətli addımlar atılması heç də səbəbsiz deyildi. İngilis nümayəndəsinin fikrincə, bu hadisələr ərəfəsində X.Sultanov Şuşaya 700 silahlı ermənininin daxil olması, daha böyük silahlı erməni dəstəsinin şəhərə yaxınlaşmaqda olması, şəhər yüksəkliklərindəki səngərlərin ermənilər tərəfindən tutulması haqqında məlumatlar almışdı. Təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi ilə isə X.Sultanov köçlərin sakit şəkildə yaylaqlara köçürülməsinə, şəhərdəki erməni təhrikçi-təbliğatçılarının tutulub şəhərdən çıxarılmasına zəmin yaratmaq istəyirdi (185).

Şuşanın azərbaycanlılar yaşayan hissəsində hələ 1905-ci ildə erməni-Azərbaycan münaqişəsi zamanı qazılmış səngərlər var idi. Bu səngərlərin bir ucu gedib Üçmıx dağına çıxırdı. Azərbaycanlıların səngəri erməni səngərlərindən 500–600 metr aralı yerləşirdi. Bu səngərlərin hər ikisində son vaxtlar hər iki tərəfdən qarovullar dayanırdı. Həmin istiqamətdə vəziyyəti daha da möhkəmləndirmək üçün iyunun 3-dən 4-nə keçən gecə İrəvan qapısı tərəfə, şəhərdən bir verst aralı yüksəkliklərin üzərində əlavə hərbi post qoyuldu. Postda 18 piyada və 9 pulemyotçu var idi. Əsgərlər tüfəng və bir ədəd pulemyotla silahlanmışdılar. İyunun 4-də səhər Azərbaycan əsgərlərinin bir qrupu erməni səngərinə keçib orada möhkəmlənmək istədi. Köç gedən yolların mühafizəsinin möhkəmləndirilməsi üçün gətirilmiş olan əsgərlərin postlarda yerləşdirilməsini erməni millətçiləri şəhərin erməni hissəsinin mühasirə edilməsi kimi qiymətləndirib ehtirasların qızışdırılmasına başladılar (186). Elə ayın 4-də erməni silahlıları azərbaycanlı əsgərlərin ətrafına toplaşmağa başladılar. Bu silahlıların sayı 50 nəfərə çatmışdı. Onların başında Arzumanyan adlı bir zabit dayanırdı. Erməni silahlıları Azərbaycan

əsgərlərindən tələb etdilər ki, tutduqları mövqeləri tərk etsinlər. Azərbaycan postunun rəisi Maksimoviç cavab verdi ki, hərbi intizama tabe olan bir şəxs kimi özbaşına mövqeləri tərk edə bilməz və bunun üçün yuxarı komandanlıqdan icazə alınmalıdır. Yuxarı komandanlıqla məsələni aydınlaşdırmaq üçün Maksimoviç uzaqlaşdıqdan sonra Azərbaycan postuna onun köməkçisi Kərimov rəhbərlik edirdi. Erməni silahlıları onun da qarşısında mövqeni tərk etmək tələbi qoydular. Yenidən mənfi cavab aldıqda erməni silahlıları Azərbaycan əsgərlərini atəşə tutdular. Nəticədə, 4 azərbaycanlı əsgər həlak oldu. Erməni tərəfdən də itki var idi. Təxribata rəhbərlik edən Arzumanyan isə Azərbaycan əsgərlərinin gülləsinin qurbanı oldu (187).

Azərbaycan əsgərlərinə qarşı belə bir təxribatın həyata keçirilməsi kütləvi təcavüzün başlanmasına bir işarə oldu. Ermənilər köçlərin üstünə hücum çəkdilər. Köç adamları arasında da ölənlər və yaralananlar oldu. Bu hadisə əks-səda verərək bir sıra yaşayış məntəqələrində silahlı qarşıdurmaya gətirib çıxardı. Bəzi yerlərdə bu silahlı qarşıdurmanın kütləvi qırğınlara çevrilməməsi üçün general-qubernatorun xahişi ilə qoşun bölmələri göndərildi. Lakin bütün münaqişə məntəqələrinə hərbi qüvvələrin göndərilməsi mümkün deyildi. Çünki qoşunların səpələnməsi Xankəndi qarnizonunun zəifləməsinə və ermənilər tərəfindən güclü hücumlara məruz qalmasına səbəb ola bilərdi (188).

Erməni təxribatları üzündən iyunun 4-də Şuşa şəhəri və onun ətrafında yerləşən kəndlər silahlı qarşıdurma mərkəzinə çevrildi. Vəziyyətin daha da kəskinləşməsinə yol verilməməsi üçün iyunun 4-də axşam Xosrov bəy Sultanov Şuşadakı ingilis qoşunlarının komandanlığına müraciət edib bütün bu təxribatların ilhamçısı olan bir neçə erməni millətçisinin şəhərdən uzaqlaşdırılması məsələsini qaldırdı (189).

Hadisələrin inkişafının əyani şahidi olan ingilis zabitləri X.Sultanovun mövqeyinin doğru olduğunu dəstəklədilər. İyunun 4-də qarşıdurmanın sakitləşdirilməsi üçün yepiskop Vahan ingilis nümayəndəliyinə müraciət edəndə oradan alınan cavab da erməni millətçi

liderlərinin Şuşadan çıxarılmasının zəruriliyini təsdiq etdi (190).

X.Sultanov qaldırdığı məsələnin həllini ingilis komandanlığından ultimativ şəkildə tələb etdi. O bildirdi ki, əgər erməni millətçiləri şəhərdən uzaqlaşdırılmasa, onda şəhərin ermənilər yaşayan birinci hissəsinə qoşun bölmələri yerdiləcək və həmin millətçilər həbs edilərək şəhərdən çıxarılacaqdır. İyunun 5-də səhər ingilis komandanlığı tərəfindən Erməni Milli Şurasının fəalları olan İşxanyan, Avetisyan və Tumanyans həbs edilib azərbaycanlı məmurların müşayiəti ilə Azərbaycan sərhədindən Ermənistana ötürüldülər (191).

İyunun 6-da bir piyada bölüyü və bir süvari bölüyünün yarısı qədər hərbçilər şəhərin erməni hissəsindəki qışlalara daxil olub orada yerləşdilər. X.Sultanovun fikrincə, Şuşanın erməni hissəsi Qarabağda erməni millətçiliyinin və separatizminin mərkəzi idi və ora Azərbaycanın qoşun bölməsinin yerləşdirilməsi erməni millətçilərinin ehtiraslarının soyumasına təsir edəcəkdi (192).

Doğrudan da, iyunun 6-da qoşun bölmələrinin şəhərin erməni hissəsinə daxil olması və millətçi liderlərin uzaqlaşdırılması ilə vəziyyət tamamilə sabitləşdirildi və hər şey öz axarına düşdü. Hətta bir çox ermənilər Qarabağ general-qubernatorluğuna məktub yazaraq Azərbaycan əsgərlərinə qarşı təxribatın baş verməsində erməni millətçi liderlərini günahlandırdılar (193).

Azərbaycan əsgərlərinə qarşı təxribat hadisəsi haqqında xəbər alın kimi 3 minə qədər kürd silahlısı şuşalıların köməyinə gəldi. Bu silahlıların Şuşaya daxil olacağı təqdirdə qarşıdurmanın daha da kəskinləşəcəyindən ehtiyatlanan X.Sultanov onların geri qaytarılmasına cəhd göstərdi. Kürd atlıları Şuşadan 18 verst aralıda dayandırıldı və geri qayıtmalarının məqsədəuyğunluğu onlara çatdırıldı. Təxminən 50–60 atlı iyunun 6-da Şuşaya daxil olsa da, onlar qarşıdurmada iştirak etmədilər (194).

Heç şübhəsiz ki, bu hadisələr hər iki tərəfdən itkilər verilməsi və əmlak dağıntıları ilə müşayiət olundu. İstər bu dövrün mənbələrində, istərsə də bu dövrə aid olan tarixi araşdırmalarda erməni rəsmiləri və müəllifləri hadisələrin mahiyyətinə toxunmadan erməni-

lərin məruz qaldığı "təcavüzlərdən" xüsusi səxavətliliklə söz açırlar. 1919-cu ilin iyun ayının əvvəllərində cərəyan edən hadisələr zamanı ermənilər yaşayan Qaybalıkənddə ermənilərin qırılması ilə bağlı bir-birindən xeyli fərqlənən rəqəmlər də erməni mətbuatında, erməni mənbələrində şişirdilməyə başlandı. Azərbaycanın hökumət komissiyası tərəfindən Qaybalıkənddə baş verən hadisələr araşdırılaraq ictimaiyyətə çatdırıldı. Qaybalıkənd hadisələri ilə bağlı Azərbaycan Parlamentində səslənən fikirlər də göstərdi ki, nəinki Qaybalıkənddə, bütünlükdə Qarabağda baş verənlər erməni millətçilərinin təcavüzkar fəaliyyəinin məntiqi nəticəsidir. Bildirildi ki, Qaybalıkənddə vaxtilə ermənilərlə azərbaycanlılar birgə yaşayırdılar. Buranın azərbaycanlı əhalisi ermənilər tərəfindən ev-eşiklərindən qovulmuş və onların əmlakı viran edilmişdi. Şuşada vəziyyət mürəkkəbləşəndə isə ətraf kəndlərin azərbaycanlı əhalisi nizamsız şəkildə toplanaraq erməni silahlılarının toplandığı məntəqələrə, o cümlədən də Qaybalıkənd erməniləri üzərinə hücum etdilər. General-qubernatorluqda bundan xəbər tutarkən dərhal Qaybalıkənd ermənilərinin mühafizəsinə silahlı dəstə göndərildi. Lakin Qaybalıkəndə aparan yol ermənilər tərəfindən atəşə tutulduğu üçün göndərilən dəstə Xankəndini adlayan yol ilə getməli olmuş və bu da onların vaxt itirməsinə səbəb olmuşdu. Ermənilər özləri də təsdiq edirdilər ki, hökumət qüvvələri yetişəndən sonra ermənilərin təhlükəsiz yerə köçürülməsinə yardımçı oldular. Baxmayaraq ki, bəzi erməni mənbələri erməni əhalisinin Azərbaycanın da hökumət qüvvələrinin təzyiqinə məruz qalmasını iddia edirlər. Lakin azərbaycanlı, rus və erməni zabitlərinin ifadələri onu göstərirdi ki, hökumət qüvvələri erməni əhalisinə təzyiqlər göstərilməsində iştirak etməmişdi. Əksinə, azərbaycanlı əhali Azərbaycanın hökumət qüvvələrini erməni millətçilərinə qarşı qətiyyətli olmamaqda günahlandırırdı (195).

Vəziyyətin normallaşdırılması üçün Qarabağ general-qubernatorunun fəaliyyəti ingilis missiyası tərəfindən də müdafiə olunurdu. X.Sultanovun təkidi əsasında erməni millətçi-təhrikçilərinin Qarabağdan çıxarılmasına kömək göstərilməsi də ingilis missiyasının

cərəyan edən hadisələrə prinsipial münasibət nümayiş etdirməsindən xəbər verir.

Şuşada Azərbaycan əsgərlərinə qarşı təxribat törədiləndən sonra şəhərdəki hərbi qüvvələrin möhkəmləndirilməsi qərara alındı. Bunun üçün ora 2-ci Qarabağ süvari alayının bir bölüyü və 2 ədəd pulemyot göndərildi (196).

Vilayətdə vəziyyətin normallaşdırılması üçün general-qubernator təklif etdi ki, Qarabağın bütün yaşayış məntəqələrinin nümayəndələrini toplayıb ümumi iclas keçirsin və qəti bir qərar qəbul edilsin. Lakin dəvət olunan nümayəndələr iclasa gəlmədilər. Belə olduqda iyunun 10-da Şuşada bütün partiyaların nümayəndələrinin və yepiskopun iştirakı ilə iclas keçirildi. Bu iclasda qərara alındı ki, Qarabağ ermənilərinin növbəti qurultayı çağırılsın və Azərbaycan hökumətinin səlahiyyətlərinin tanınmasına münasibət bildirilsin (197).

Erməni təcavüzünün qarşısının alınması üçün Azərbaycan hökumət orqanlarının qətiyyətli hərəkətləri erməni millətçilərinin güclü hay-küyünə səbəb oldu. Hadisələrdən dərhal sonra Tiflisdə ermənilərin mitinqi keçirilidi, mitinq iştirakçıları Qarabağda vəziyyətin mürəkkəbləşməsində Azərbaycanın qoşun bölmələrini və X.Sultanovu günahlandırır və onların Qarabağ ərazisindən çıxarılmasını tələb edirdilər. Tiflisdəki ermənipərəst qəzetlər də Qarabağda baş verən hadisələrin mahiyyətini tamamilə saxtalaşdıraraq ermənilərin sıxışdırılması, azərbaycanlıların təcavüzünə məruz qalması barədə yayılan məlumatları ardıcıl olaraq yaymaqda davam edirdilər. İngilis jurnalisti Skotland Liddel hələ o vaxtlar öz yazılarında qeyd edirdi ki, təbliğat aparmaq işində ermənilər böyük məharətə malikdirlər: "Ermənilər dünyada ən yaxşı təbliğatçıdırlar, onların təbliğatı son ayların işi deyil, əksinə, uzun illər boyu sistemli şəkildə aparılmışdı. Nə Rusiyada, nə də Qafqazda elə bir adam tapılmaz ki, ermənilər haqqında yaxşı söz işlətsin. Rusların, azərbaycanlıların və gürcülərin onlardan zəhləsi gedir və onlara nifrət edirlər. Doğru olub-olmadığını mən deyə bilmərəm. Ancaq fakt göz qabağıdadır. Ermənilər qəddar irqdir. Lakin onların təbliğatı xaricdə elə qurulmuşdur ki, Avropa və bütün dünya onların

tərəfindədir" (198).

Məhz belə bir təbliğatın işə salınması nəticəsində ermənilər Zəngəzur torpaqlarının büsbütün erməni sakinlərindən ibarət olduğuna ingilis komandanlığını da inandıra bilmiş və bu ərazilərin müəyyən hissəsini nəzarət altına ala bilmişdilər (199). Bu isə onlara Zəngəzurda azərbaycanlılara qarşı daha geniş qırğınlar törədilməsinə yol açırdı. Lakin Qarabağ general-qubernatorunun qətiyyətli addımları ermənilərin Qarabağda da azərbaycanlılara qarşı geniş qırğınlar törətməsinə imkan vermirdi. Vaxtında həyata keçirilmiş səmərəli tədbirlər nəticəsində erməni millətçilərinin ehtirasları xeyli səngimiş və bölgədə dinc yaşayış üçün yolların aranmasına başlanmışdı. İyunun əvvəllərində Şuşada baş verən hadisələrin öyrənilməsi üçün Azərbaycan Parlamenti tərəfindən xüsusi komissiya təşkil edildi. Həmin komissiya Qarabağda məsələnin mahiyyəti ilə yaxından tanış olduqdan sonra 1919-cu il iyulun 7-də Parlamentdə müzakirələr aparıldı. Parlamentin azərbaycanlı üzvlərinin çıxışlarında bildirilirdi ki, bölgədə sabitliyin ən yaxşı zamini erməni əhalisinin nəhayət ki, Azərbaycan hökumətini tanıması və millətçi ehtiraslara son qoyulmasıdır (200).

Bu məsələlər Qarabağ erməniləri və onların havadarları tərəfindən uzun müddət müzakirə edildi. Həmin müddət ərzində Şuşada və Qarabağda müəyyən qədər sakitlik bərqərar oldu. Erməni Milli Şurası Şuşadan çıxarıldığı üçün Şuşanın erməni və azərbaycanlı əhalisi arasındakı əlaqələr xeyli fəallaşdı. Adamlar qorxmadan şəhərin bu və ya digər hissəsinə hərəkət etməyə başladılar (201).

1919-cu il iyunun əvvəllərində baş verən hadisələrdən sonra ingilis missiyası da erməni millətçi dairələrinə qarşı kəskin mövqe tutulmasının zəruriliyini anladılar. İngilis missiyasının təkidi ilə Qarabağda Erməni Milli Şurasının tərkibi də dəyişdirildi. Güman edilirdi ki, Erməni Milli Şurasının tərkibinə yerlərdən nümayəndələrin daxil edilməsi erməni millətçi-təhrikçi qüvvələrinin ifrat təcavüzkar mövqeyinə də dəyişiklik gətirə bilər. İngilis missiyası ermənilərdən tələb edirdi ki, Qarabağda əsrlərlə dinc və dostluq şəraitində yaşamış ermənilərlə azərbaycanlılar arasında münasibətlə-

rin pisləşməsinə yol açan əməllərdən çəkinsin. Əslində, ermənilər arasında da bu tələblərin vacibliyini anlayanlar mövcud idi və ifrat erməni millətçiləri bölgədən qovulduqdan sonra Qarabağın erməni əhalisi arasında azərbaycanlı əhali ilə dinc yanaşı yaşamaq meylləri də güclənməyə başladı. Məhz bunun nəticəsi idi ki, 1919-cu il iyun ayının 28-də Şuşikənddə Qarabağ ermənilərinin VI qurultayı adlanan toplantısı keçirildi. Gözlənilirdi ki, bu toplantıda Azərbaycan hökumətinin, ingilis missiyasının və ermənilərin şəhər komissiyasının nümayəndələri iştirak edəcək və onların iştirakı ilə Qarabağda Azərbaycan hakimiyyətinin tanınması müzakirə ediləcəkdir. Lakin məlum olmayan səbəblər üzündən Azərbaycan hökumətinin və ingilis missiyasının nümayəndələri toplantıda iştirak edə bilmədilər. Ona görə toplantı qərara aldı ki, Azərbaycan hökumətinin tanınması məsələsi tarla-əkin işlərinin bitməsindən sonra çağırıla biləcək növbəti toplantıya qədər təxirə salınsın (202).

Amma elə erməni sənədlərindən aydın olur ki, Azərbaycan hökumətinin nümayəndəsi Qarabağ ermənilərinin toplantısında iştirak etmək üçün bölgəyə gəlibmiş. Ermənistan hökumətinin Azərbaycandakı nümayəndəsinin İrəvana ünvanladığı məktubunda deyilir ki, Qarabağ ermənilərinin qurultayına gedən Azərbaycan nümayəndəsi danışıqlar və müzakirələr aparmaq üçün qurultayın iki nümayəndəsini Bakıya gətirmişdir. Ermənistanın Azərbaycandakı nümayəndəsinin məktubundan Azərbaycan hökumətinin Qarabağda və Zəngəzurda cərəyan edən hadisələrin dinc yolla həll edilməsinə iradə nümayiş etdirdiyini də görmək mümkündür. Hətta Zəngəzurda dörd azərbaycanlı kəndinin bir gün ərzində yerlə-yeksan edilməsindən sonra da Azərbaycanın Xarici İşlər naziri M.Cəfərov Ermənistan hökumətinin Azərbaycandakı nümayəndəsi ilə işgüzar söhbət keçirərək iki xalqın düşdüyü vəziyyətdən çıxarılması üçün yollar aranmasını təklif etmişdi. Qarşısına işğalçılıq və yeni vətən tapılması məqsədi qoymuş erməni tərəfi isə Azərbaycan rəsmilərinin sülhsevər təkliflərini qulaq ardına vurdular (203).

Qarabağ ermənilərinin Azərbaycan hakimiyyət nümayəndələri ilə danışıqlar aparmasına gəlincə isə qeyd etmək lazımdır ki, bu

məsələ Qarabağ ermənilərinin VI qurultayının səlahiyyətli nümayəndələri olan M.Ter-Danilyan, R.Şahnəzəryan və Qarabağın erməni icmasının Bakıdakı nümayəndələri S.Melik Yolçiyan və N.Pirumov tərəfindən həyata keçirilirdi. Baxmayaraq ki, Qarabağ erməniləri Ermənistandan göndərilən emissarların və millətçi-separatçıların təsirindən büsbütün azad olmamışdı, bununla belə Qarabağ ermənilərinin Azərbaycan hakimiyyətinin nümayəndələri ilə danışıqlara başlaması Ermənistan hökumətini və millətçi-separatçı qüvvələri kifayət qədər təşvişə salmışdı. Çünki Qarabağ ermənilərinin də dinc yanaşı yaşamaq meyillərinin ifadə olunması və Azərbaycanın hakimiyyət orqanlarının tanınması Qarabağın zor gücünə Azərbaycandan qoparılması planlarına son qoya bilərdi. Həmin narahatlığı Ermənistanın Azərbaycandakı nümayəndəsinin Ermənistan hökumətinə ünvanladığı məktubunda da görmək mümkündür. Qarabağın Erməni Milli Şurasının ifrat millətçi-separatçı nümayəndələrinin Qarabağ ermənilərinin Azərbaycan hökuməti ilə apardığı müzakirələr haqqında İrəvana göndərdikləri məktublarında Ermənistan hökumətinin erməni millətçi-separatçı qüvvələrinin Qarabağın dağlıq hissəsinə olan təcavüzkar və işğalçı siyasətləri daha qabarıq ifadə olunur. Erməni millətçilərinin təşviş keçirməsinə səbəb o idi ki, Qarabağ ermənilərinin Azərbaycanın hakimiyyət nümayəndələri ilə məsləhətləşmələr aparması ermənilərin şüurunda Qarabağın Ermənistana bağlı olmaması təsəvvürünü möhkəmlədə bilərdi. Qarabağ məsələsinin Azərbaycanın daxili məsələsi olduğunu və Qarabağ məsələsini də Azərbaycanın daxili qanunları ilə tənzimlənməli olduğunu təsdiqləyə bilərdi. Mübahisəli ərazi haqqında məsələnin Ermənistan hökumətinin iştirakı olmadan müzakirəyə çıxarılması həmin ərazilərin mübahisəli olmasının artıq aradan qaldırılması demək idi. Erməni millətçiləri Qarabağ məsələsinin dövlətlərarası münasibətlər çərçivəsindən çıxaraq Azərbaycanın daxili məsələsinə çevrilməsi faktını heç bir vəchlə qəbul etmək istəmirdilər (204).

Erməni millətçilərinin narahatlığı heç də əbəs deyildi. Çünki artıq 1919-cu il iyun ayının 30-da Qarabağ ermənilərinin səlahiy-

yətli nümayəndələrinin Azərbaycan hökuməti ilə müvəqqəti razılaşmasının mətni açıqlandı. 25 bənddən ibarət olan bu razılaşmanın əsas mahiyyəti 2-ci bənddə təsbit olunmuşdu. Bu bəndə əsasən Qarabağ ermənilləri razı olurdular ki, sülh konfransı çağırılana kimi Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının mübahisəli hissələri müvəqqəti olaraq Azərbaycan Cümhuriyyətinin tərkibində sayılsın. Başqa sözlə, bu ərazilərdə Azərbaycan hakimiyyəti qeyd-şərtsiz tanınmalı idi. Bunun əvəzində Azərbaycan hökuməti də Qarabağ ermənilərinin hüquqlarının qorunması və dinc yaşayışının təmin olunması üçün bir sıra öhdəlikləri öz üzərinə götürürdü. Məsələn, Qarabağ ermənilərinə mədəni muxtariyyət verilirdi, Qarabağ general-qubernatorunun müavini vəzifəsinə erməni təyin edilməli idi, general-qubernatorluq yanında yaradılmış 6 nəfərlik şura bərabər sayda hər iki xalqın nümayəndələrindən təmsil olunmalı idi, siyasi əqidəsinə görə ermənilər təqib olunmamalı idi, erməni yaşayış məntəqələrində yerli əhalinin tərk-silah edilməsi dayandırılmalı idi, dağıdılmış erməni və azərbaycanlı kəndləri hökumət hesabına bərpa edilməli idi və s. Nəzərdə tutulurdu ki, əldə edilmiş razılaşma Qarabağ ermənilərinin növbəti qurultayında təsdiq edilsin (205). Həmin qurultayın çağırılması isə əkin-biçin işlərinin başa çatmasından sonraya planlaşdırılırdı.

1919-cu il avqust ayının əvvəllərində Şuşada olan ingilis missiyası Qarabağ ərazisini tərk etdi. İngilis missiyasının və ingilis bölmələrinin Qarabağ ərazisini tərk etməsi Azərbaycanın hakimiyyət orqanlarının Qarabağdakı vəziyyəti nəzarət altında saxlamağa yetərincə qabil olduğunu nümayiş etdirməklə bərabər, həm də erməni separatçı iddialarının dəstək qazanmadığını sübut edirdi. Bundan sonra, Qarabağda cərəyan edən hadisələrə nəzarət bölgədə yeganə səlahiyyətli hakimiyyət orqanı olan Qarabağ general-qubernatorluğunun üzərində qalırdı. Bu orqan artıq ingilis missiyasının müdaxiləsi olmadan Qarabağın şəriksiz legitim orqanına çevrildi.

İngilis missiyasının Qarabağı tərk etməsindən az sonra, yəni 1919-cu ilin avqust ayının 12-də Şuşikənddə Qarabağ ermənilərinin VII qurultayı adlanan növbəti toplantısı keçirildi. Toplantıda

erməni əhalinin nümayəndələrinin Azərbaycanın hakimiyyət nümayəndələri ilə əldə etdiyi razılaşma müzakirəyə çıxarıldı. Baxmayaraq ki, ifrat erməni millətçi-separatçıları razılaşmanın qəbul edilməsi əleyhinə toplantı iştirakçılarına təzyiq göstərməyə çalışdılar, bununla belə avqust ayının 15-də toplantı iştirakçıları razılaşmanı qəbul etdilər. Qarabağ ermənilərinin nümayəndələri birgə dinc yaşayış üçün hələ iyunun sonlarında qəbul etdikləri ilkin razılaşmaya müsbət səs verdilər. Nəticədə, Qarabağ ermənilərinin VII qurultayı Azərbaycan hökuməti ilə müvəqqəti razılaşmanı təsdiq etdi. Sənədin müvəqqəti razılaşma adlandırılması erməni millətçilərinin təcavüzkar təbliğatlarının qarşısının alınması üçün edilmişdi. Bu razılaşmada qeyd olunmuşdu ki, Qarabağın daimi statusu sülh konfransında müəyyənləşdiriləcəkdir. Azərbaycan hökuməti isə sülh konfransında məsələnin ədalətli şəkildə həll olunacağına və erməni millətçilərinin separatçı iddialarına dəstək verilməyəcəyinə əmin idi.

Bakıda Azərbaycan hakimiyyətinin nümayəndələri ilə Qarabağ ermənilərinin VI qurultayının səlahiyyətli nümayəndələrinin məsləhətləşmələri zamanı əldə edilmiş ilkin razılaşma azacıq dəyişikliklərlə VII qurultay nümayəndələri tərəfindən qəbul olundu. Bu müvəqqəti razılaşmanın əsas tələblərindən biri o idi ki, Qarabağın dağlıq hissəsində ermənilərin yaşadığı Şuşa, Cavanşir və Cəbrayıl qəzaları müvəqqəti olaraq Azərbaycan Cümhuriyyətinin tərkibində sayılır. Müvəqqəti razılaşmaya əsasən Qarabağ general-qubernatorunun mülki hissə üzrə müavini erməni təyin edilməli idi. Bu vəzifəyə Erməni Milli Şurası tərəfindən iki namizəd təqdim olunmalı və onlardan biri Azərbaycan hökuməti tərəfindən bu vəzifəyə təyin olunmalı idi (206).

“Qarabağ ermənilərinin Azərbaycan hökuməti ilə müvəqqəti razılaşması”na əsasən Qarabağ ermənilərinin mədəni muxtariyyət hüquqlarına hörmətlə yanaşılması təsbit olunurdu. Qarabağ ermənilərinin narahatlığına səbəb olmamaq üçün bölgədəki hərbi hissələrin yerdəyişmələri də nəzarət altına alınmalı, qoşun bölmələrinin hər hansı bir məntəqəyə hərəkəti əvvəlcə general-qubernatorun ya-

nındakı şurada müzakirə edilməli və şura üzvlərinin üçdə ikisinin razılığı ilə qoşunların hərəkətinə razılıq verilməli idi. Sülh konfransı çağırılanadək Qarabağ əhalisinin tərk-silah edilməsi dayandırılırdı. Siyasi səbəblərə və milli toqquşmalarda iştirakına görə Qarabağı tərk etmiş şəxslərə geri qayıtmaq hüququ, əhaliyə müxtəlif qurumlarda birləşmək, söz, mətbuat və yığıncaq azadlığı verilirdi (207).

Azərbaycan hökuməti ilə Qarabağ erməniləri arasında müvəqqəti müqavilənin imzalanması Azərbaycan ictimaiyyəti arasında rəğbətlə qarşılandı. Həmin müqaviləyə müəyyən ümidlər bağlanılırdı. Doğrudan da, iyun ayında Qarabağ general-qubernatorluğunun qətiyyətli mövqeyi və sonra da müvəqqəti müqavilənin bağlanması bir müddət bölgədə sakitliyin yaranmasına imkan verdi.

Avqust ayının 22-də Qarabağın müvəqqəti general-qubernatoru Xosrov bəy Sultanov Qarabağ ermənilərinin Azərbaycan hökumətini tanıyan razılaşmanı qəbul etməsi ilə bağlı bəyanatla çıxış etdi. O, Azərbaycan hakimiyyətinin nümayəndəsi kimi müvəqqəti razılaşmanın ermənilər tərəfindən qəbul edilməsini alqışladı və müvəqqəti razılaşmanın qəbul edilməsini Qarabağın həyatında tarixi bir gün kimi dəyərləndirdi. Onun fikrincə, həmin razılaşmanın imzalanması ilə iki xalq arasında qarşılıqlı etibarın əsası qoyuldu və o, Qarabağ general-qubernatoru kimi bu etibarın qorunmasına tərəfdar olduğunu bildirdi. X.Sultanov Qarabağ ermənilərinin vətəndaş hüquqlarının təmin olunmasını, erməni əhalinin ehtiyaclarının hərtərəfli öyrənilməsini başlıca vəzifələrdən biri adlandırırdı. Bəyanat boyu müvəqqəti razılaşmada öz əksini tapan müddəalara toxunmaqla Qarabağ general-qubernatoru onların icrasına çalışacağını vəd verdi (208).

### *3. Dığ əməliyyatı*

“Qarabağ ermənilərinin Azərbaycan hökuməti ilə müvəqqəti razılaşması”nda nəzərdə tutulan müddəaların həyat keçirilməsi, eyni zamanda, erməni millətçilərinin Zəngəzur bölgəsinə olan iddialarına da son qoya bilərdi. Ona görə əldə edilmiş müvəqqəti razılaşma erməni millətçilərinin ikiqat təşvişinə səbəb oldu. Bu isə

Qarabağda başlanan prosesin, yəni Azərbaycan hakimiyyətinin bu bölgədə möhkəmlənməsinin Zəngəzura da yayıla bilməsi ehtimalı erməni millətçilərinin təcavüzkarlığının yenidən genişlənməsinə bir təkan verdi. Naxçıvan və Şərur istiqamətlərində başlanan erməni təcavüzkar-işğalçılıq siyasətinə son qoyulması və erməni işğalçı qüvvələrinin həmin bölgələrdən qovulması ilə erməni millətçilərinin başlıca diqqəti məhz Zəngəzura cəmləşdi. Erməni millətçiləri üçün Zəngəzur qəzası strateji əhəmiyyət kəsb edirdi. Çünki bu qəzaya sahib çıxmaqla erməni millətçiləri gələcəkdə bu qəzadan həm Qarabağa, həm də Naxçıvana olan işğalçı iddiaların icrası üçün əlverişli mövqe kimi istifadə edə bilərdilər.

Ermənistan hökuməti tərəfindən qanunsuz şəkildə Qarabağ və Zəngəzura komissar təyin edilmiş və millətçi-təcavüzkar fəaliyyəti ilə təkcə Azərbaycan hökumətinin deyil, eyni zamanda, ingilis missiyasının qətiyyətli etirazları ilə qarşılaşan Şahmazyan Ermənistan hökumətinə göndərdiyi məruzəsində də Zəngəzuru öz coğrafi mövqeyi etibarilə Qarabağ və Naxçıvana təcavüz üçün bir baza rolu oynadığını bildirirdi (209). Başqa sözlə, Şahmazyan Zəngəzur qəzasının birdəfəlik erməniləşdirilməsini istəyirdi və bunun üçün hökumət qarşısında konkret məsələlər qaldırırdı.

Şahmazyanın yazdıqlarına görə 1919-cu ilin yayında Nors silahlı dəstəsində 198 erməni silahlısı var idi. Bu dəstə, əsasən, Zəngəzur erməniləri hesabına təmin edilirdi. Dəstənin gücləndirilməsi məqsədilə Şahmazyanın tapşırığı ilə onun ixtiyarına əlavə 30 min güllə göndərilmişdi. Bundan başqa, yenə Şahmazyanın göstərişi ilə Qafan və Mehridən toplanan 400–500 erməni könüllüsü, habelə 28 min güllə Qoxtanda təşkil edilmiş erməni silahlı dəstəsinin gücləndirilməsinə göndərildi. Amma Şahmazyanın fikrincə, Zəngəzurun birdəfəlik erməniləşdirilməsi üçün bu da kifayət deyildi. O qeyd edirdi ki, hazırda ixtiyarında 40 min üçxətli tüfəng gülləsi, 200 min ədəd lebel gülləsi və bir taqım top vardır. O, Ermənistan hökumətindən xahiş edirdi ki, Zəngəzurun erməniləşdirilməsi və sonra da bu qəzanın Qarabağ və digər Azərbaycan ərazilərinə qarşı təcavüzkarlıq siyasətinin dayaq nöqtəsinə çevrilməsi üçün təcili

şəkildə onun ixtiyarına 500 min üçxətli tüfəng gülləsi, 4–6 ədəd dağ topu, maliyyə vəsaiti, geyim əşyaları və s. göndərilsin. Onun yazdıqlarına görə Ermənistan dövləti deyilənləri etməzsə, onda ermənilərin Zəngəzur iddiası da xülya olaraq qalacaqdı. Ermənistan hökumətinin sədri Şahmazyanın tələbləri ilə dərhal razılaşdı və Zəngəzurda erməni təcavüzünün genişləndirilməsi məqsədilə Daxili İşlər nazirinə və Hərbi nazirə müvafiq tapşırıqlar verdi (210).

Bütün bunların nəticəsi idi ki, Qarabağda qarşılıqlı anlaşma meyilləri özünü göstərməyə başladığı bir vaxtda Zəngəzur qəzasında erməni təcavüzkarlığının alovları xeyli genişləndi.

Avqustun 7-də erməni silahlıları Saldaş Azərbaycan kəndinə hücum edib əhalini gülləyə tutdular. Aqaran, Aqavurt və Ucanis erməni kəndlərinin birləşmiş qüvvələri Birinci və İkinci Yeməzli kəndləri üzərinə hücum etdilər. Erməni silahlı qüvvələri tam bir gün ərzində bu kəndləri mühasirədə saxladılar (211).

Avqust ayının 7–8-də Amazaspın komandanlığı altında olan erməni hərbi qüvvələri yenidən Vedi üzərinə hücuma keçdi. Bu kəndin azərbaycanlı əhalisini qırıb-çatmaq üçün Amazasp böyük sayda hərbi qüvvəyə malik idi. Bu qüvvələr üç istiqamətdən Vedi üzərinə hərəkət edirdi. Ermənilərin Sasun alayı Mil dərəsi istiqamətindən, Vənk alayı Ağdamlar dağı istiqamətindən, 1-ci və 2-ci alayların qüvvələri isə dəmir yolu istiqamətindən Vedi əhalisinə zərbə endirməyi planlaşdırırdılar. Vedinin müqavimət dəstələri bu dəfə də ermənilərə layiqli dərs verdilər. Əvvəlcə Sasun alayı döyüşdə məhv edildi. Vənk alayını da belə bir tale gözləyirdi. Lakin hərəkət etdikləri ərazinin xüsusiyyətləri bu alayı tamamilə məhv olmaqdan xilas etdi. 1-ci və 2-ci alayların qüvvələri də vedililərin iradəsi qarşısında tab gətirməyərək qaçıb dağılışdılar. Ermənilərin hücumu zamanı Vedi güclü top atəşinə məruz qaldı. Lakin bu da erməni millətçilərinin dadına çatmadı. Verilən məlumata görə ermənilər bu döyüşdə 4500-ə qədər adam itirdilər. Ağır tələfatla üzləşən ermənilər geri çəkilib Ağdamlar–Məsumlu–Yuva–Xoprvirab xətti üzrə mövqe tutdular. Sürməli qəzasında isə erməni silahlı qüvvələri öz vəhşiliklərini həyata keçirə bildilər. Onlar Yuxarı və Aşağı Qarxun

kəndlərini ələ keçirdilər və oradakı əhaliyə divan tutdular (212).

Quduzlaşan erməni silahlı dəstələrinə layiqli cavab vermək üçün Zəngəzurdakı yerli müdafiə dəstələri də gücləndirildi. Bu dəstələrin arasında Xosrov bəy Sultanovun qardaşı Sultan bəyin dəstəsi daha böyük müdafiə imkanlarına malik idi. Avqustun 22–24-ü arası Xaznavar kəndi ətrafında onun dəstəsi ilə erməni silahlı dəstələri arasında döyüşlər baş verdi. Avqustun 27-də Nors kəndi, avqustun 29-da isə Nijadzor kəndi və Gümrü kəndi ətrafında qanlı döyüşlər oldu. Erməni silahlıları bu döyüşlərin gedişində xeyli itki verərək qaçmağa məcbur oldular. Erməni mənbələrinin verdiyi məlumata görə həmin döyüşlərdə Azərbaycanın qoşun bölmələri də iştirak etmişdi (213).

Ancaq Zəngəzurda qüvvələr nisbəti heç də eyni deyildi və erməni tərəfi hökumət səviyyəsində bu qəzanın azərbaycanlılardan büsbütün təmizlənməsi üçün öz təcavüzkar siyasətini davam etdirməkdə idi.

1919-cu ilin sentyabrında erməni nizami qoşun hissələrinin və silahlı dəstələrinin Zəngəzurun Azərbaycan əhalisi üzərinə basqınları xüsusilə faciəli xarakter aldı. Sentyabrın 1-də və 3-də Qafan erməniləri böyük qüvvələrlə ətrafdakı Azərbaycan kəndlərinə hücum edib çoxlu qırğınlar törətdilər. Sentyabrın 2-də və 4-də erməni silahlı dəstələri Tarovlu və Fərcan kəndlərinə basqın etdilər. Sakinlərə canlı itki yetirməklə bərabər, onların mal-qarasını sürüb özləri ilə apardılar (214).

Sentyabrın 4-də çoxsaylı erməni silahlı dəstələri Quba–Kəlaqi kəndinə hücum edib 10-dan artıq adam öldürdülər. Sentyabrın birinci həftəsi ərzində Zəngəzur qəzasının 3-cü və 4-cü sahəsinin kəndləri hər gün erməni hücumlarına məruz qalırdı. Alınan məlumatlara görə bu saysız hücumlarla erməni tərəfi Zəngəzurun müdafiə imkanlarını yoxlayırdı. Onların əsas qüvvələri Qafan rayonundakı dərələrdən birinə toplanılmışdı və yaxın vaxtlarda onlar kütləvi hücuma keçərək Zəngəzurun strateji əhəmiyyət daşıyan məntəqələrini işğal etməli idilər (215).

Genişlənən erməni təcavüzünün qarşısını almağa gücü çatma-

yan Azərbaycan kəndlərinin sakinləri yurdlarını tərk edib qaçmağa məcbur olurdular. Mövcud olan məlumatlara görə 1919-cu il oktyabr ayının əvvəllərində Zəngəzurun 110 böyük kəndi məvh edilmişdi (216). Bu kəndlərin əhalisi ya qırılmış, ya da ev-eşiklərini tərk edərək qaçmağa məcbur olmuşdular. Yurdlarını tərk etmək məcburiyyətində qalan əhalinin çoxu Qarabağa pənah gətirirdi (217).

Zəngəzur qəzasıdan qaçqın düşənlərin sayı 60 minə çatmışdı (218). Qalan əhalinin böyük əksəriyyəti isə Azərbaycanla əlaqələrin kəsilməsi üzündən aclıq və səfalət içində idi. Yayılan xəstəliklərdən isə həm mal-qara qırılır, həm də insanlar böyük əziyyət çəkirdilər (219).

Bölgədə yaşayan silahlı azərbaycanlılar malik olduqları kiçik qüvvə ilə ermənilərin genişlənən təcavüzü qarşısında qadın və uşaqların həyatını, habelə yurd-yuvalarını qorumağa çalışırdılar. Bu azsaylı qüvvələr çoxsaylı erməni silahlılarının təcavüzkarlıqlarının qarşısını almağa kifayət deyildi. Bununla belə, azərbaycanlı əhalinin özünü qorumaq cəhdləri şişirdilərək ermənilərin millətçi hissləri qızışdırılır və bununla da erməni təcavüzkarlığının genişləndirilməsinə təkan verilirdi.

Ermənilər, eyni zamanda, öz təbliğat kampaniyalarını da işə salmışdılar. Ardı-arası kəsilməyən müraciətləri, məktubları ilə onlar Amerika ictimaiyyətində ermənilərin və onların xristian kilsələrinin mövcudluğunun təhlükə altında olduğu barədə təəssürat yaratmağa və bununla da müttəfiq dövlətlərin erməni tələblərinə münasibətinin dəyişdirilməsi nəticəsində daha çox Azərbaycan ərazilərini ələ keçirməyə çalışırdılar (220).

Zəngəzurda baş verən qırğın və talanlar Azərbaycan ictimaiyyətini və hökumət rəhbərliyini ciddi narahat edirdi. Bu qanunsuzluqların qarşısının dinc yolla alınması üçün Azərbaycan hökuməti tərəfindən bir sıra cəhdlər göstərildi (221). Aparılan danışıqlar, göndərilən teleqram və notalar heç bir nəticə vermədi. Əksinə, Azərbaycan hökumətinin Zəngəzurda vəziyyəti sabitləşdirmək üçün göstərdiyi cəhdlər Ermənistan hökuməti tərəfindən Ermənistanın daxili işlərinə qarışmaq cəhdləri kimi qiymətləndirilirdi.

Ermənistan xarici işlər naziri 1919-cu il oktyabrın əvvəllərində Azərbaycanın Xarici İşlər Nazirliyinə çatdırırdı ki, Zəngəzur Ermənistan ərazisidir və oranı Azərbaycan hökumətinin nəzarəti altına almaq niyyətləri ağır nəticələrə gətirib çıxara bilər (222).

Baş Ərkani-hərb rəisi general-leytenant Sulkeviç Qarabağ ermənilərinin Azərbaycan hakimiyyətini tanımasına toxunaraq bildirirdi ki, Qarabağa nəzarətin itirilməsi ilə ermənilər heç vaxt razılaşmayacaqlar və münasib imkan yaranan kimi bu ərazini işğal etmək məqsədilə yenidən təcavüzləri genişləndirəcəklər. Təcavüzün qarşısının alınması üçün çoxlu qüvvə lazım idi. Ona görə də general-leytenant Sulkeviç təklif edirdi ki, ərazi prinsipi üzrə kürd hərbi hissələri yaradılsın (223).

Kürd hərbi hissələrinin yaradılması, eyni zamanda, Zəngəzurda erməni təcavüzünün qarşısını almaq üçün ciddi əhəmiyyətə malik idi. Kürd əhalisi də əsasən elə Zəngəzur qəzası ərazisində yaşayıdı. Bu hissələrin kürd zabitləri ilə təmin edilməsi üçün oktyabr ayında X.Sultanov Hərbi Nazirlik qarşısında hərbi məktəbdə kürd kursunun açılması barədə məsələ qaldırdı (224). Müsbət həll edilmiş bu məsələlərin hər ikisi Zəngəzurda və Qarabağda erməni təcavüzünün cilovlanması üçün atılmış daha bir addım idi.

Ermənistan hökuməti Zəngəzur məsələsini birdəfəlik həll etmək və bu qəzanın bütün ərazisini azərbaycanlılardan təmizləyib ora şəriksiz sahib çıxmaq üçün öz qanunsuz əməllərindən əl çəkmirdi. Oktyabr ayında Ermənistan hökuməti Zəngəzur ərazisinə xüsusi təxribatçılar qrupu göndərdi ki, bu qrup Zəngəzurun erməni əhalisini azərbaycanlılara və Azərbaycan hökumətinə qarşı qaldırsın. Onların ardınca isə Zəngəzurda Ermənistanın nizami qoşun hissələrinin gücləndirilməsi planlaşdırılırdı.

1919-cu ilin payızında ermənilər bütün güclərini Zəngəzura doğru istiqamətləndirdi. Çünki yuxarıda qeyd edildiyi kimi, Zəngəzur ermənilərin planlarında strateji əhəmiyyət daşıyırdı. Azərbaycanlıların öz doğma yurdlarından qovulması hesabına Ermənistanın genişləndirilməsi kimi təcavüzkar bir planın həyata keçirilməsində Zəngəzur mərkəzi yer tuturdu. Ermənilər yaxşı bilirdilər

ki, Qarabağın ələ keçirilməsi də Zəngəzurun bütünlüklə işğalından sonra mümkün ola bilərdi. Yəni Zəngəzurun Azərbaycandan qoparılması Qarabağa doğru hərəkətin ilk mərhələsi hesab olunurdu.

Ona görə Azərbaycan hökuməti üçün də Zəngəzurun qorunması strateji əhəmiyyət daşıyırdı. Bu torpaqların itirilməsi Azərbaycanın bir parçasının itirilməsi, eləcə də burada yaşayan on minlərlə azərbaycanlı əhalinin faciələrlə üzbəüz qalması demək idi. Digər tərəfdən, Zəngəzurun təhlükəsizliyinin təmin edilməsi ilə Qarabağ da ciddi təhlükələrdən xilas ola bilərdi.

Hərbi Nazirliyin rəhbərliyi də bu cəhətə diqqət yetirirdi. Lakin Cümhuriyyət ordusunun lazımınca formalaşmadığı bir vaxtda ora qoşun çıxarmaq mümkün deyildi. Yalnız 1919-cu ilin payızında Lənkəran əməliyyatı uğurla başa çatdırıldıqdan sonra Hərbi Nazirliyin rəhbərliyi Zəngəzura qoşun çıxarmaqla buradakı erməni hərbi qüvvələrinin zərərsizləşdirilməsi barədə düşünməyə başladı. Nəzərə alınırdı ki, mövcud olan konkret tarixi şərait də Zəngəzura qoşun çıxarılması üçün münasib idi. Xüsusilə azərbaycanlı yaşayış məntəqələrinin, Naxçıvan, Şərur-Dərələyəz bölgələrinin müqavimət qüvvələrinin kifayət qədər fəal olmasının milli qoşun hissələrinin Zəngəzura doğru hərəkəti ilə əlaqələndirilməsi planlaşdırılırdı. Zəngəzura doğru yürüş, əsasən, 1-ci piyada diviziyasının qüvvələri tərəfindən həyata keçirilməli idi.

1919-cu il oktyabrın 18-də Hərbi nazir 1-ci piyada diviziyasının komandirinə aşağıdakı məzmunda məktub göndərdi: "Ermənilər Zəngəzur qəzasındakı qüvvələrini gücləndirirlər. Bura qüvvələr 30–40 nəfərlik qruplarla gəlir. Ora 4 ədəd dağ topunun gətirilməsi haqqında da məlumat vardır (bəzi başqa məlumatlara görə isə 2 ədəd yüngül, 2 ədəd dağ topu gətirilmişdir). Ermənistanın Bakıdakı diplomatik nümayəndəsinin bəyanatları və erməni mətbuatının əhval-ruhiyyəsi güclü müqavimətin və nizami hərbi qüvvələrlə qarşılaşmanın olacağını bildirir. Zəngəzurun bütün erməni silahlı əhalisi də bu nizami qüvvələr ətrafında toplaşır. Mövcud olan məlumatlara görə ermənilərlə Naxçıvan, Şərur-Dərələyəz və Sürməli qəzalarının üsyan qaldırmış müsəlmanları arasında demarkasiya

xətti Daşburun, Qaraqoyunlu, Markara kəndlərindən, Eçmiədzindən, Lamurçi kəndindən, Xaçaparax kəndinin qərbindəki kilsədən, Külyəley, Aşağı Şinkovit, Təzəkənd kəndlərindən, sonra Uluxanlıya qədər olan dəmir yolundan, İmamşamlı yolayrıcından, Araza qədər uzanan Zəngi çayından və Xor-Virab monastırından keçir.

Siz yaranmış vəziyyətdən dəstənizin Zəngəzura hücumunun asanlaşdırılmasında istifadə etməlisiniz. Ona görə də Siz öz hərəkətlərinizi Ermənistanın üsyan qaldırmış müsəlman əhalisinin fəaliyyəti ilə əlaqələndirməlisiniz. Bunun üçün:

1. Naxçıvanlı qüvvələr Qıpçaq və Biçənək aşırımından Zəngəzurun bu mühüm rayonlarını müdafiə edən ermənilərin arxasından zərbə vurmaq üçün hücuma keçməlidirlər. Bu zaman naxçıvanlılar gəlməkdə olan əlavə erməni qüvvələrinə zərbə vurub İrəvanın Zəngəzurla əlaqəsini kəsə bilərlər. Bu məqsədə çatmaq üçün erməni qüvvələrinin toplaşmaqda olduğu Bazarçay vadisini mütləq ələ keçirmək lazımdır. Bu məntəqədə yaşayan malakanlar bizə təəssübkeşliklə yanaşırlar, ancaq ermənilərin qisasından qorxurlar;

2. Sürməli və Şərur-Dərələyəz qəzalarının üsyan etmiş müsəlmanlarının nümayişkaranə hərəkətlərinin çox faydası ola bilərdi. Bununla İrəvanın ətrafını müdafiə edən ermənilərin diqqəti onlara cəlb olunardı. Demarkasiya xəttinin Ermənistan paytaxtına yaxın olması üzündən ermənilər düşmən qüvvələrin bu istiqamətdəki istənilən hərəkətlərinə həssaslıqla yanaşırlar;

3. Ekspedisiyada iştirak edən kürdlər kəşfiyyatçı, dövrələmə hərəkətində olan kolonların bələdçisi, rabitəçi, mühafizəçi kimi, bir sözlə ərazi tanışlığı ilə bağlı məsələlərdə qiymətli xidmətlər göstərə bilərlər;

4. Möhkəmləndirilmiş mövqelərə hücum etmək və ya müdafiə vəziyyətinə gətirilmiş yaşayış məntəqələrinə və digər obyektlərə hücum etmək üçün Sizin dəstəyə əlavə olaraq bir haubitsa taqımı da verirəm. Bir daha təsdiq edirəm ki, dağlıq ərazidəki müharibədə dövrələmə hərəkəti məsələni həll edir, üzbəüz döyüşlər isə nadir hallarda səmərə verir. Piyadaların gənc olması üzündən hücumun mükəmməl topçu hazırlığına xüsusi diqqət yetirməyi təklif edirəm.

Deyilənlər barədə Qarabağ general-qubernatoruna məruzə edin. O, Sizə həvalə olunmuş vəzifələrin icrasına köməklik göstərəcəkdir.

Bütün bunlar Sizə ümumi göstərişlər kimi çatdırılır. Əsas fəaliyyəti isə şəraitdən asılı olaraq özünüz qurun" (225).

Hərbi nazir, eyni zamanda, özü də Qarabağ general-qubernatoruna məktub göndərdi, 1-ci piyada diviziyasının komandirinə verdiyi tapşırıqlar barədə onu da məlumatlandırdı. Bu məktubunda da Hərbi nazir bir daha qeyd edirdi ki, Zəngəzur ekspedisiyasının uğurla başa çatması üçün naxçıvanlıların Qıpçaq və Biçənək aşırımlarından ermənilərin arxasına zərbə vurmasına böyük əhəmiyyət verir. Bu məqsədə nail olmaq üçün 1919-cu il oktyabrın sonunda Minkənd, Bazarçay və Culfa məntəqələrində türk zabiti Xəlil bəyin rəhbərliyi altında olan Naxçıvan müqavimət dəstəsi yaradıldı. Ona da tapşırıq verildi ki, qeyd edilən məntəqələrdə ermənilərə arxadan zərbə vurmaqla Zəngəzur ekspedisiyasının hücumunu yüngülləşdirsin. Bu zaman Xəlil bəyin rəhbərlik etdiyi dəstədə 2000 nəfər döyüşçü var idi. Noyabrda Xəlil bəy öz dəstəsi ilə ermənilərə qarşı hücuma keçdi. Çox tezliklə Sultanbəy, Sesi və Martiros erməni kəndləri ətrafındakı erməni silahlılarına güclü zərbə endirildi. Lakin Xəlil bəyin dəstəsi nəzərdə tutulan istiqamətdə hücumu genişləndirə bilmədi ki, bu da Zəngəzur ekspedisiyasının vəziyyətinin yüngülləşdirilməsinə heç bir təsir göstərmədi (226).

Bu isə Zəngəzura göndərilməsi planlaşdırılan dəstənin işini bir qədər də çətinləşdirdi. Digər tərəfdən, Zəngəzurun ağır təbii şəraitə malik olması, buradakı erməni nizami hərbi qüvvələrinin dağlıq ərazinin xüsusiyyətlərindən istifadə edərək möhkəmləndirilmiş müdafiə mövqeləri yaratması qarşıda dayanan vəziyyətin mürəkkəbliyini daha da artırırdı. Ekspedisiyanın Zəngəzura yollanacağı halda buranın ermənilərinin başdan-başa silahlandırılacağı da istisna deyildi. Bu qəzada keçmiş rus ordusunda təlim görmüş 15 min nəfərə qədər erməninin səfərbər edilməsi mümkün idi.

Azərbaycan tərəfi isə çox böyük sayda, təchiz olunmuş və təlim keçmiş erməni hərbi qüvvələrinə Zəngəzur kimi xüsusi şəraitə malik olan bu məntəqədə güclü zərbə endirilməsi üçün hələ kifayət

qədər imkanlara malik deyildi.

Yaranmış şərait də ölkənin şimalında, qərbində və Bakının müdafiəsində dayanan hərbi qüvvələrin hamısını Zəngəzura səfərbər etməyə imkan vermirdi. Belə bir şəraitdə Hərbi Nazirliyin rəhbərliyi bölgə məntəqələrinin əhalisindən toplanılmış könüllülərdən, lazımi hərbi intizama və hərbi təcrübəyə malik olmayan müqavimət dəstələrindən istifadə etmək məcburiyyətində qaldı ki, bu da gözlənilən nəticəni vermədi. Hərbi qüvvələri əsas vəzifədən yayındırmamaq üçün Zəngəzur ekspedisiyasının arxa ilə əlaqələrinin qorunması da, əsasən, yerli könüllülərə tapşırıldı.

Azərbaycanın qoşun dəstəsinin Zəngəzura yola düşməsi ərəfəsində Qarabağ general-qubernatoru erməni dilində yerli erməni əhalisinə müraciət göndərdi. Həmin müraciətdə deyilirdi ki, bir ildən artıqdır ki, Zəngəzurda anarxiya baş alıb gedir. Erməni millətçi liderləri erməni əhalisini məhvə doğru sürükləyir. Muğanda və Qarabağda dinc həyat yarandığı kimi Zəngəzurda da asayiş bərqərar edilməlidir.

General-qubernator X.Sultanov Zəngəzurun erməni əhalisinin nəzərinə çatdırırdı ki, hələ ki gec deyil. Respublika hökuməti bu özbaşınalıqlara çox dözə bilməz. Qanunsuzluqlara dərhal son qoyulmalıdır, bu qanunsuzluqlara rəvac verən şəxslər öz silahlı tör-töküntüləri ilə bərabər qəzadan qovulmalıdırlar. Əhali belə təxribatçılara sığınacaq verməməli və onlara kömək göstərməməlidir (227).

Zəngəzurda baş verən qırğınların qarşısını almaq, qəzada Azərbaycan hökumətinin səlahiyyətlərini tam bərpa etmək üçün 1919-cu il oktyabrın 30-da Zəngəzur dəstəsi yaradıldı. Zəngəzur dəstəsinin rəhbəri 1-ci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinski idi (228). Dəstə noyabrın əvvəllərində bir neçə gün gərgin döyüşlərdə iştirak etdi.

Dəstə hələ yaradılmazdan əvvəl onun təminat və təchizat məsələlərinin həllinə başlandı. Çətin dağ şəraitində 3500 nəfər olması nəzərdə tutulmuş bu dəstənin təchizat məsələlərinin həllinin özü də ciddi təşkilati işlər tələb edirdi. Bununla əlaqədar bütün hərbi hissə-

lərə tapşırıq verildi ki, Zəngəzur dəstəsində iştirak edəcək hərbi qulluqçular əşya təminatı ilə birinci növbədə təmin edilsinlər. Dəstənin tərkibində olan atların və yük heyvanlarının otla təmin edilməsi üçün hissələrə lazımi miqdarda pul ayrılmışdı. Həmin pul əsasında hissə tərəfindən yem tədarükü görülməli idi. Ərzaq təminatında yarana biləcək çətinliklərin aradan qaldırılması üçün Hərbi Nazirliklə iş quran podratçılardan xahiş olundu ki, təcili şəkildə Gəncə və Xankəndi ərzaq anbarlarına taxıl gətirsinlər. Qarşıya məqsəd qoyulmuşdu ki, bu anbarlarda ən azı biraylıq taxıl ehtiyatı yaradılsın. Zəngəzur dəstəsində iştirak edən hərbi hissələr də məhz bu anbarlardan təmin edilməli idilər. Eyni zamanda, Hərbi Nazirlik tərəfindən Qarabağ general-qubernatorunun sərəncamına 3 milyon rubl vəsait köçürüldü ki, həmin pula yerlərdə taxıl və yem tədarükü aparılsın. 1-ci piyada diviziyasının ləvazimat rəisi dəstənin ləvazimat rəisi təyin edildi və ona tapşırıldı ki, təchizat işlərinin aparılmasına şəxsən nəzarət etsin. Ona da əlavə olaraq 300 min rubl vəsait verilmişdi. Dəstənin ləvazimat rəisi təchizat çatışmazlıqları ilə bağlı həmin vəsaitdən istifadə etməli və öz işini qurmalı idi. Dəstədə səhra şəraitində istifadə olunan çörək sexi olmadığı üçün ləvazimat rəisi yolboyu çörək bişirilməsini təmin etməli idi. Yerli əhalidən alınan heyvanlar hesabına dəstənin ət ehtiyacının təmin edilməsi planlaşdırılırdı. Qənd və çaya gəldikdə isə dəstə özü ilə ikihəftəlik ehtiyat götürməli və zərurət yarandığı halda yerlərdə bu ehtiyat artırılmalı idi (229).

1-ci piyada diviziyasının həkimi isə Zəngəzur dəstəsinin həkimi təyin edildi. Hələ sentyabr ayının sonlarında diviziya həkimi Xankəndinə yola düşdü ki, hazırlıq işlərinə başlasın. Bundan başqa, dəstənin tərkibinə daxil olan hərbi hissələr də ayrılıqda dərman ləvazimatı ilə təmin olunurdu. Eyni zamanda, nəzərdə tutulmuşdu ki, dəstənin fəaliyyət rayonunda 10 nəfərlik lazaret də açılsın. Ağır yaralılar həmin lazaretdə ilkin yardımı gördükdən sonra arabalar vasitəsi ilə Şuşaya və Xankəndinə evakuasiya olunmalı idi. Şuşada dəstənin fəaliyyəti günlərində xüsusi lazaretin açılması planlaşdırılırdı. Bütünlükdə, dəstədə 5 həkim, 3 feldşer və 9 şəfqət bacısı

olmalı idi (230).

Zəngəzur dəstəsinin keçirdiyi döyüşlər barədə məlumatlar xeyli az və müxtəsərdir. Həmin məlumatlara əsasən Azərbaycan Ordusu qoşun hissələrinin çətin hava şəraitində keçirilən irimiqyaslı döyüşlərinin müfəssəl mənzərəsini yaratmaq olmur. Ancaq əldə edilən təsəvvür döyüşlərin gərgin keçdiyindən, qoşun bölmələrinin ilk dəfə itkilərlə qarşılaşdığından xəbər verir. Dəstənin tərkibində iki qrup var idi. Birinci qrup – Birinci kolon adlanırdı və ona general-mayor Davud bəy Yadigarov komandirlik edirdi. İkinci qrupa isə polkovnik Levestam rəhbərlik edirdi və bu qrup Sağ və Sol kolonlardan ibarət idi.

Birinci kolon tərkibinə görə daha böyük idi və heç şübhəsiz ki, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün başlıca ümid də əsas zərbə qüvvəsi kimi bu kolona bağlanılırdı. Kolonun tərkibinə 2-ci Zaqatala piyada alayının bir taboru və 8 pulemyotu, 2-ci Qarabağ süvari alayının 4 bölüyü və 4 ədəd pulemyotu, 3-cü Şəki süvari alayından 2,5 bölük və 2 ədəd pulemyot, 2-ci dağ-topçu divizionunun tərkibindən iki ədəd topu olan 4-cü batareya daxil idi. Bütünlükdə kolonda 1 tabor, 6,5 bölük süvari, 14 pulemyot və 2 ədəd top var idi. Oktyabr ayının 30-da kolon Xankəndindən yola düşdü və elə həmin gün də 17.30-da Lısaqorski məntəqəsinə çatdı. Şəxsi heyət gecəni orada keçirməli oldu. Oktyabrın 31-də kolon öz yoluna davam etdi, Abdallara çatıb gecəni burada qaldı. Erməni silahlılarının qəfil hücumlarının qarşısını almaq üçün düşərgənin ətrafına ikiqat mühafizə xətti quruldu. Mühafizənin ön xəttində kürd partizanları, arxa xəttində isə 3-cü Şəki alayının süvariləri dayanmışdı (231).

Müxtəlif istiqamətlərdən irəliləyən həm Birinci kolon, həm də Sağ və Sol kolonlar Dığ yaşayış məntəqəsinə doğru hərəkətlərini davam etdirməli idilər. Dığın erməni silahlı qüvvələrindən təmizlənməsi həm Qarabağa aparan strateji yolu, həm də bölgəni nəzarət altında saxlamaq üçün böyük əhəmiyyətə malik idi. Birinci kolon Dığa doğru şimaldan irəliləməli idi.

Noyabrın 1-də general Yadigarovun əmri ilə Balasoltan və Dığ

istiqamətində kəşfiyyat qrupları göndərildi. Həmin kəşfiyyat qrupu Balasoltan kəndi istiqamətində erməni qüvvələri ilə rastlaşdı və bu qüvvələrin səngərlər qazaraq müdafiə mövqelərini möhkəmləndirməyə çalışdıqlarının şahidi oldu. Çox güman ki, onlar Azərbaycanın qoşun hissələrinin Zəngəzura doğru hərəkət etməsindən artıq xəbər tutmuşdular. Ona görə də qoşun hissələrinin irəliləməsinə mane olmaq üçün Zabux çayı üzərindəki körpünü partlatmaq istəyirdilər. Bu təxribatın qarşısını almaq üçün general-mayor Yadigarovun əmri ilə 2-ci Qarabağ süvari alayının komandiri polkovnik Tuqanov bir qrup döyüşçü ilə körpüyə tərəf yollandı və erməni qüvvələrini oradan uzaqlaşdırdı (232).

Həmin gün Zəngəzur dəstəsinin rəisi general-mayor Cavad bəy Şıxlinski Birinci kolonun yerləşdiyi düşərgəyə gəldi, şəxsi heyətin vəziyyəti, hücuma hazırlıq işləri ilə tanış oldu. Noyabrın 3-də kolonun piyada bölmələri 2 ədəd topla bərabər Sultankəndə doğru, süvari bölmələri isə Sadınlar kəndi istiqamətində irəliləməli və orada döyüşqabağı mövqe tutmalı idi. Sonra piyada bölmələrinin qarşısında Xanazax kəndini tutmaq vəzifəsi dayanırdı *(məntəqələrin adı döyüş hesabatlarında olduğu kimi verilir – red.).* Həmin məntəqələrdən də bütün qoşun hissələri və bölmələri Gorusa doğru hücumu eyni vaxtda başlamalı idilər.

Hücum zamanı kolonun sağ cinahının mühafizəsi Sultan bəy Sultanovun rəhbərliyi altında olan kürd partizanlarına tapşırılmışdı.

Noyabrın 4-nə keçən gecə kürd partizanları Keçəldağ strateji yüksəkliyini tutub orada möhkəmlənməli idilər. Bu dəstə ilə kolonun komandanlığı arasında daimi rabitə yaradılması üçün kürd partizanlarından bir neçə nəfər xüsusi tapşırıq aldı. Dəstə bütünlüklə kolonun əməliyyat tabeliyində idi və kolonun verdiyi bütün tapşırıqları yerinə yetirməli idi (233).

Yerli əhali arasında olan kürdlərdən kolona bələdçilər də verilmişdi. Kolonun komandanlığı alınan tapşırıqların icrası üçün hərəkət marşrutunu nəzərdən keçirəndə bələdçilərin verdiyi məlumatlardan aydın oldu ki, Sultankənd istiqamətindən Xanazax kəndinə çıxmaq çox təhlükəlidir və böyük itkilər bahasına başa gələ bilər.

Çünki Sultankənd dərədə yerləşirdi. Daha yüksək mövqelərdə qərar tutmuş erməni silahlıları həm Sultankəndi, həm də Sultankəndin yerləşdiyi dərənin çıxışını daim hədəfdə saxlayırdılar. Belə olanda kolonun komandiri Zəngəzur dəstəsinin rəisinə vəziyyət haqqında məlumat verərək bütün kolonu birləşdirib Kuqçi–Sadınlar yolu ilə aparılmasına icazə istədi. Dəstə rəisindən heç bir məlumat alınmadıqda general-mayor Yadigarov özü qərar qəbul edib təklif olunan marşrutla irəliləmək barədə əmr verdi (234).

Noyabrın 3-də səhər saat 10.30-da kolon hərəkətə başladı. Kolonun qabağında süvari bölmələri gedirdi. General-mayor Yadigarov bu süvari bölmələrində idi. Piyada və topçu bölmələri süvarilərdən bir qədər geridə qalmışdı. Gündüz saat 12.30-da çətin yollardan keçən süvari bölmələri Mollalar məntəqəsinə çatdı. Burada post quruldu və sonra hərəkət yenə də davam etdirildi. Gündüz saat 14.30-da süvari bölmələri Qoçaz kəndinə gəlib çatdılar. Süvari bölmələrinin istirahət üçün dayandığı vaxt, saat 15.30-da general-mayor Yadigarov verdiyi məlumata görə 2-ci Qarabağ süvari alayının komandiri polkovnik Tuqanovla 6342 hündürlüyünə qalxıb hərəkət marşrutlarını müşahidə etdilər. Onların müşahidələri kürd bələdçilərinin verdiyi məlumatların doğru olduğunu, Xanazax kəndinə Sultankənd tərəfdən hərəkət etməyin qeyri-mümkün olduğunu təsdiq etdi (235).

Noyabrın 3-də kolon Qoçaz kəndində gecələdi. General-mayor Yadigarov isə şəxsən apardığı müşahidələr əsasında ayın 4-də hərəkət planını müəyyənləşdirdi. Piyada bölmələrini təhlükəli vəziyyətə salmamaq üçün onlara Sadınlara doğru hərəkət etmək və sonra da Dat-Məlik yüksəkliyini ələ keçirmək tapşırığı verildi. Piyada bölmələrinin yüksəkliyə hücumunun möhkəmləndirilməsi üçün Yuxarı Sultankənd məntəqəsində ehtiyat qüvvə kimi 2 ədəd pulemyota malik olan bir bölük saxlanılmalı idi. Sadınlar kəndindən Dat-Məlik üzərinə piyada bölmələrinin hücumu başlananda ehtiyatda olan bölük də hücuma qoşulmalı və onun uğurla başa çatmasına kömək etməli idi. Həmin yüksəklik tutulandan sonra kolonun bütün qüvvələri piyada bölmələri ilə birləşməli və birlikdə

oradan Xanazax kəndinə hücum etməli idi. Xanazax kəndinin tutulması isə kolonun qarşısına qoyulmuş vəzifələrin təxminən yarısının yerinə yetirilməsi demək idi. Qəbul etdiyi qərar barədə general Yadigarov dəstənin rəisi general-mayor C.Şıxlinskiyə məlumat göndərdi (236).

Ayın 4-də səhər ertədən əsas qüvvələrin hərəkətindən əvvəl 2-ci Zaqatala piyada alayının komandiri və 4-cü dağ-topçu batareyasının komandiri öz qüvvələri ilə hərəkət marşrutunun kəşfiyyatını aparmalı idilər. Həmin gün havanın çox dumanlı olmasından istifadə edərək kolon Qoçazdan Qaraqışlaq dəyirmanının yanına qədər hərəkət edə bildi. Burada dəstə rəisindən əmr alındı ki, kolon hücuma ayın 5-də başlasın. Ona görə də ayın 4-də kolona istirahət verildi. Şəxsi heyətin yerləşdiyi düşərgənin mühafizəsi gücləndirildi, postların sayı artırıldı (237).

Dəstə rəisinin verdiyi əmrə görə kolon Dat-Məlik yüksəkiyini noyabrın 5-nə keçən gecə tutmalı idi. Ancaq Yadigarov yüksəkliyi ayın 5-də səhər tutmağı qərara aldı. Öz qərarını general-mayor Yadigarov kolonun şəxsi heyətinin çox yorulması ilə əlaqələndirirdi. Yalnız bir süvari bölüyü Sadınlar kəndi yaxınlığındakı Dat-Məlik yüksəkliyində olan səngərlərin tutulması üçün göndərildi. Süvari bölüyünün komandirinə, eyni zamanda, tapşırıq verildi ki, partizan dəstəsi ilə əlaqəyə girsin və ərazinin ətraflı kəşfiyyatını aparsın. Süvarilər çalışmalı idilər ki, düşmən tərəfi onların mövcudluğundan xəbər tutmasın. Saat 16-da kolonun rəisi belə bir məlumat aldı ki, Qaragöl və Qazıgöl yaxınlığındakı yüksəklik partizanlar tərəfindən tutulub. Partizanlar, eyni zamanda, onlara tüfəng güllələrinin göndərilməsini xahiş etdilər. Lakin kolonda kifayət qədər güllə ehtiyatı yox idi. Ona görə də Yadigarov partizanlara belə bir cavab verdi ki, onlar kolona yalnız əməliyyat baxımından tabedirlər. Təchizat baxımından isə partizanlar Zəngəzur dəstəsinin rəisinə tabedirlər və lazım olan sursatı da onlar Abdallardan almalıdırlar (238).

Noyabrın 5-də səhər polkovnik Dibirovun rəhbərliyi altında bir bölük iki pulemyotla bərabər Sadınlar kəndinə gəldi və bir gün əv-

vəl Qarabağ süvari alayının döyüşçülərinin tutmuş olduğu səngərlərdə möhkəmləndi. Onun verdiyi məlumata görə həmin səngərlərdən həm Dat-Məlik yüksəkliyi, həm də erməni kəndləri yaxşı görünürdü. Bölüyün iki taqımı kürdlər olan səngərlərə yerləşdirildi, iki taqım isə ehtiyatda saxlanıldı. Saat 12-də həmin mövqeyə süvarilər gəldilər və piyada olaraq sol cinahdakı səngərləri tutdular. Həmin cinahda ön xətti 2-ci Qarabağ süvari alayının 3-cü bölüyü tutdu. Sağ və sol döyüş mövqelərinin ortasında toplar üçün mövqelər müəyyənləşdirildi. Sağ döyüş sahəsinə Zaqatala taborunun iki bölüyü yerləşdirildi. Onlar kürd səngərlərinin şimal istiqamətində zəncirvari mövqe tutdular. Topların mühafizəsinin təmin edilməsi 3-cü Şəki süvari alayının bir yarımbölüyünə tapşırıldı. Həmin alayın ikinci yarımbölüyü və 3-cü bölüyü iki pulemyotla bərabər topçu mövqelərinin şimalında ehtiyat qüvvə kimi saxlanıldı. 2-ci Qarabağ alayının ikinci bölüyü isə Dat-Məlik yüksəkliyinin qərb ətəklərinə göndərildi. Həmin bölük bu yüksəkliyi arxadan əhatə etməli idi (239).

Mövcud olan məlumatlardan belə bir qənaətə gəlmək olar ki, artilleriyanın təyin olunmuş mövqelərə gec çatması hücumun da gec başlanmasına səbəb olmuşdu. Hətta həmin gün düşmən mövqeləri üzərinə hücum saat 12-də başlasa da, toplar öz mövqelərinə saat 13-də çatdırıldı. Əslində, topların gec çatdırılması yolların pis olması ilə bağlı idi. Lakin bu cəhət vaxtında nəzərə alınmadığı üçün lazımi tədbirlər də görülməmişdi. Saat 13-də toplar Dat-Məlik yüksəkliyini atəşə tutdular. Müşahidələr əsasında məlum oldu ki, Xanazax kəndi istiqamətindən ermənilərin bir dəstəsi Dat-Məlik yüksəkliyinə tərəf irəliləyir. Onda topların biri xüsusi olaraq həmin dəstənin qarşısının alınması üçün yüksəkliyin qərb ətəyini hədəfə aldı. Zaqatala taborunun Sultankənddə olan 3-cü bölüyü də Dat-Məlik yüksəkliyinə tərəf irəliləyən ermənilərin qarşısını saxlamaq üçün Xanazax kəndinə tərəf hücuma keçdi. Nəticədə ermənilər geri çəkilmək məcburiyyətində qaldılar. Bundan sonra, topçular Ağoğlan çayına tərəf aşağı hərəkət edən piyadaların hücumunu müdafiə etmək üçün Xanazax kəndinin şimal-qərb tərəfində

yerləşən erməni səngərlərini atəşə tutdular. 2-ci Qarabağ süvari alayının bölmələrinə də Xaznavar kəndinə doğru irəliləmək əmri verildi. Bu əmrin yerinə yetirilməsi üçün saat 14-də 2-ci Qarabağ süvari alayının komandiri topçulardan xahiş etdi ki, düşmənin Xaznavar kəndindən Xanazax kəndinə sarı çıxan yük karvanını atəşə tutsunlar. Saat 16-da top və pulemyot hazırlığından sonra Qarabağ süvari alayının 3-cü bölüyü Xaznavar kəndinə doğru hücuma keçdi. Çaya doğru aşağı endikdən sonra 3-cü süvari bölüyü Dat-Məlik yüksəkliyinin şərq ətəyinə doğru istiqamət götürdü. Burada ermənilər kifayət qədər fəallıq göstərməyə çalışsalar da, süvarilər tərəfindən tezliklə həmin yüksəkliklər tutuldu. Zaqatala taboruna verilmiş olan könüllülər isə şimal tərəfdən Dat-Məlik yüksəkliyinə qalxdılar. Xaznavarın arxasına hərəkət etmək tapşırığı almış Qarabağ süvari alayının 2-ci bölüyü saat 19.30-da məlumat verdi ki, Xaznavar və Bayandur kəndləri ermənilərdən təmizlənib və onlar Daşkənd, Yal yüksəkliyinin cənubuna doğru geri çəkiliblər. Belə olanda süvarilər Gorusa gedən yolu nəzarət altına aldılar. Axşam saat 19-da piyadalar da Dat-Məlik yüksəkliyinə qalxdılar. Döyüşün uğurla başa çatdığını bildirmək üçün gecə saat 24-də Dat-Məlik yüksəkliyində iki böyük tonqal yandırıldı. Gün ərzində 1 döyüşçü həlak oldu, 4 nəfər isə yaralandı. Düşmən tərəfdən isə itki daha çox idi. Səngərlərdə çoxlu meyit qalmışdı (240).

Ayın 6-da Birinci kolonun hissə və bölmələrinə göstəriş verildi ki, bir gün əvvəl ələ keçirilmiş yeni mövqelərə keçmək üçün hazırlığa başlansın. Ancaq çox tezliklə məlumat alındı ki, Dat-Məlik yüksəkliyinin cənubunda və cənub-qərbində erməni silahlı dəstələri müşahidə edilmişdir. Görünür, onlar kolonun sağ cinahının daha zəif olduğunu və burada uğur əldə etməyin mümkünlüyünü yəqin etmişdilər. Onlar 2 topla Keçəldağ yüksəkliyinə hücum etdilər. Toplar Gorus yolu istiqamətində qurulmuşdular. Ermənilərin hücum etdikləri mövqelərdə kürd partizanları dayanmışdı. Erməni qüvvələri kürd partizanlarının sağ cinahını, mərkəzini və qərargahlarını güclü atəşə tutdular. Sultan bəy general Yadigarova xəbər göndərərək top atəşləri ilə onların himayə olunmasını xahiş etdi. O

bildirdi ki, ermәnilәri öz sәngәrlәrindәn çıxarmağa çalışan zaman itkilәr verdiyi üçün partizanların qüvvәsi zәiflәmişdir. Buna görә dә o, Sultankәnd yüksәkliyini top atәşinә tutmaqla kürd partizanlarına kömәk göstәrilmәsini xahiş edirdi. Saat 7-dә Sultan bәydәn alınan başqa bir mәlumata görә isә ermәnilәrin kürdlәrin dayandığı mövqelәrә hücumu davam etmәkdә idi. Onlar hәmin mövqelәrin sağ cinahını әhatә etmәyә çalışırdılar. Saat 10-da alınan mәlumatda isә bildirilirdi ki, ermәnilәr dәqiq top atәşlәri ilә partizan dәstәsinin sağ cinahını, mәrkәzini vә qәrargahı atәşә tutublar. Bir tәrәfdәn bu aramsız atәşlәr, digәr tәrәfdәn dә havanın çox soyuq olması partizanların öz mövqelәrini qorumaq imkanlarını xeyli çәtinlәşdirirdi. Yarım saat sonra әldә edilmiş mәlumata görә Qaragöl gölü artıq ermәnilәr tәrәfindәn tutulmuşdu. Ermәnilәrin hücumunun qarşısının alınması üçün partizanlar Keçәldağa topların çatdırılmasını zәruri hesab edirdilәr (241).

Müşahidәlәr әsasında aydın oldu ki, ermәnilәr ayın 6-da artıq sәhәr saat 8-dә Üç Tәpә, Daşkәnd, Yal, Matax, Pilmor yüksәkliklәrini әlә keçirәrәk Keçәldağın cәnub-şәrq әtәyi ilә irәlilәyirlәr. Onlar kürd partizanlarını sıxışdırmaqla bәrabәr, topların kömәyi ilә nizami qoşun hissәlәri ilә dә döyüşlәri genişlәndirirdilәr. Hәtta kolonun sol cinahının әhatә olunmaq qorxusu yaranmışdı (242).

Arxiv sәnәdlәrindә Birinci kolonun döyüş fәaliyyәti barәdә nisbәtәn geniş mәlumat general-mayor Yadigarovun hesabat vә raportlarında qalmışdır. Nәzәrә alsaq ki, Hәrbi nazir S.Mehmandarov general-mayor Yadigarovun bu döyüşdәki fәaliyyәtindәn heç dә razı deyildi, onda Birinci kolonda döyüşün tәşkili barәdә mәlumatların tәfsilatı ilә söylәnildiyini demәk çәtin olardı.

Noyabrın 6-da ermәnilәrin kürd partizanları üzәrinә hücumu bir növ hәrbi tәşәbbüsün onların әlinә keçmәsinә sәbәb olmuşdu. Mövcud olan mәlumatlardan çıxış edib hәmin gün ermәnilәrin irәlilәmәsinin qarşısının alınması üçün bütün imkanlardan istifadә olunduğunu müәyyәnlәşdirmәk çәtindir. General-mayor Yadigarov kürd partizanlarına kömәk göstәrilmәsi üçün bәzi işlәr görüldüyünü bildirirdi. Patron qurtarandan sonra onlara kömәk göndәrildi.

Kolon rəisi bildirirdi ki, Abdallardan 40 min ədəd patron gətirilməkdədir. Eyni zamanda, o, kürd partizanlarından geri çəkilmələrini dayandırmağı tələb etdi. Saat 11-də partizan dəstəsindən yenidən patron göndərilməsi barədə xahiş gəldi. Onlar patron sarıdan hələ də çətinlik çəkirdilər. Eyni zamanda, xahiş olundu ki, Dat-Məlik yüksəkliyinin qərbində yerləşən erməni mövqeləri top atəşinə tutulsun. Bu, partizanların fəaliyyətini xeyli asanlaşdıra bilərdi. Sultan bəyin xahişinə müvafiq olaraq onların top atəşləri ilə himayə edilməsi Yadigarovun yazdığına görə mümkün olmadı. Çünki ermənilərin mövqeyi açıqda deyildi. Ermənilərin fəallığının qarşısını almaq üçün kolon rəisi polkovnik Dibirova bir piyada bölüyü ilə Dat-Məlik yüksəkliyini, iki piyada bölüyü ilə isə yüksəkliyin şərq və şimal-şərq ətəklərini qorumağı tapşırdı. Lakin Dibirov məlumat verdi ki, bütün piyadalar döyüşdədir və onun ixtiyarında yalnız bir ehtiyat bölük var ki, o da qüvvələrin geri çəkilməsini himayə edir. Onda kolon rəisi belə bir göstəriş verdi ki, piyadalar sağ döyüş sahəsinə doğru hərəkət etsin və Dat-Məlik yüksəkliyinin cənubunda olan yüksəkliyi tutsun. Ancaq ermənilərin kifayət qədər böyük qüvvə ilə fəallaşmaları Azərbaycan hərbi qüvvələrinin istədikləri planları həyata keçirməyə imkan vermirdi. Gorus tərəfdən erməni toplarının Xaznavar–Bayandur istiqamətində olan süvariləri atəşə tutması onların da yavaş-yavaş əvvəlki mövqelərinə çəkilməsinə səbəb oldu (243).

Gündüz saat 13-də Sisiyan tərəfdən gətirilən topları döyüşə qoşmaqla ermənilər kürd partizanlarını tutduqları bütün mövqelərdən vurub çıxardılar (244).

Həmin vaxt döyüş vəziyyəti aşağıdakı şəkil almışdı: erməni artilleriyasının təzyiqi altında kürd partizanları öz mövqelərini tamamilə tərk etmiş və sağ cinahı müdafiəsiz qoymuşdular. Bunun nəticəsində erməni qüvvələri kolonun arxasına zərbə vura bilərdi. Ermənilərin sağ cinahda əldə etdikləri müvəffəqiyyətlər isə Gorusdan gətirilmiş iki topun köməyi ilə Xaznavar və Dat-Məlik istiqamətinə hücum etməyə və dəstənin sol cinahını əhatə etməyə imkan verdi (245).

Günortadan sonra kürdlərin tərk etdiyi mövqelərə erməni topları yerləşdirildi. Bununla da ermənilər Azərbaycan hərbi qüvvələrini müstəqimən vurmaq imkanı əldə etdilər. Azərbaycan qüvvələrinin toplarının isə belə bir imkanı yox idi. Çünki onlar xeyli aralıda yerləşmişdi və onların atəşləri erməniləri tutmurdu.

Beləliklə, kürd partizanlarının hakim yüksəkliklərdə tutmuş olduqları mühafizə mövqelərindən geri çəkilməsi Birinci kolonun sağ cinahının boşalmasına səbəb oldu. Bu istiqamətdən erməni qüvvələrinin Birinci kolonun arxasına keçmək təhlükəsi yarandı. Sultan bəyin verdiyi məlumata görə həmin istiqamətdə ermənilərin 2500 nəfərlik silahlı qüvvəsi cəmləşmişdi. Ermənilər buradakı yüksəkliklərə öz toplarını yerləşdirmişdilər. Onların toplarının hakim yüksəkliklərdə yerləşdirilməsi birinci kolon üçün daha böyük təhlükə təşkil edirdi. Birbaşa hədəfə açılan atəşlər Azərbaycanın qoşun bölmələrinə çoxlu itkilər yetirə bilərdi. Bundan başqa, ermənilər Gorusdan çəkib gətirdikləri topları da əlverişli mövqelərdə yerləşdirib kolonun sol cinahını da əhatə etmək, onun arxasına keçmək təhlükəsi yaranmışdı. General-mayor Yadigarovun yazdığına görə erməni qüvvələri kolonun sol cinahının arxasına keçməmiş qoşun bölmələrinin geriyə çəkilməsi barədə göstəriş verdi. Ancaq təhlükə bununla da sovuşmadı. Hərbi təşəbbüsü tamamilə ələ keçirən erməni silahlı qüvvələri Keçəldağ yüksəklikləri ilə irəliyə hərəkət edib Sadınlar kəndini də təhlükəyə məruz qoydular. Buradan onların top atəşlərinin qarşısını almaq çox çətin idi. Camaatı labüd ölümdən xilas etmək üçün Sultan bəy kənd sakinlərinə tezliklə köçmək əmri verdi. Başqa bir çıxış yolu qalmayan kənd əhalisi tez-tələsik öz ev-eşiklərini tərk etmək məcburiyyətində qaldılar (246).

Döyüşün nəticələri barədə general-mayor Yadigarovun verdiyi raportdan göründüyü kimi, noyabrın 5-də əldə edilmiş uğurlar noyabrın 6-da tamamilə itirildi. Özü də sadəcə uğurlar itirilmədi, bütünlükdə hərbi təşəbbüs əldən verildi. Ərazinin hakim yüksəklikləri ermənilər tərəfindən tutuldu və ora toplar yerləşdirildi.

Noyabrın 6-da 1-ci Cavanşir piyada alayının komandiri pol-

kovnik Levestamın komandanlığı altında olan Sağ və Sol kolonlar da hücuma qoşuldular.

Sağ və Sol kolonların tərkibinə 1-ci Cavanşir alayı, 2-ci Zaqatala piyada alayının 2 taboru və 3-cü Şəki süvari alayının bir bölüyü daxil idi. Kolonlar gecə saat 2-də düşərgədən hərəkətə başladılar. Sağ kolon və ümumi ehtiyat qüvvəsi Margiz məntəqəsinə aparan yola dönüb saat 4-də ora çatdı. Zabux çayını keçəndən sonra qarşıdakı yüksəkliklərə təhlükəsiz qalxmaq üçün qarşıya iki bölük qüvvə göndərildi. Qəfildən bu bölmələrin gülləsi altına düşən erməni silahlıları qorxaraq mövqelərini tərk etməyə üz tutdular. Ancaq bu qarışıqlıq uzun sürmədi və ilk atəşlərin qorxusundan sonra özlərinə gələn ermənilər yerlərini möhkəmlədib cavab atəşi açdılar. Saat 8.20-də ikinci bölüyün komandiri praporşik Xanbudaqov öz əsgərləri ilə ermənilərin səngərlərinə girdilər və süngü döyüşündən sonra onların mövqelərini ələ keçirdilər (247).

Birinci taborun digər bölükləri o biri səngərləri də ələ keçirdilər. Saat 8.20-də ümumi ehtiyat qüvvəsinə əmr verildi ki, yüksəklikləri qalxıb Dığ yaylasına daxil olsunlar və kolonun sağ cinahının mühafizəsini təşkil etsinlər. Onlar bunun üçün zəruri olan müşahidə aparmalı idilər. Səhər saat 9.30-da ştabs-kapitan Ştollun komandirlik etdiyi birinci tabor Dığın şimalında olan bütün səngərləri ələ keçirdi.

General-mayor Yadigarovun komandanlıq etdiyi Birinci kolonla rabitə yaradılması üçün kürd bələdçilərinin müşayiəti ilə kəşfiyyatçılar qrupu göndərildi. Kolon özü isə Morot məntəqəsi istiqamətində hərəkətə başladı. Saat 11-də ikinci tabordan ibarət olan ehtiyat qüvvə döyüş sahəsinin sağ cinahı ilə irəliləmək əvəzinə istiqamətini bir qədər dəyişdi. Bu da onu qoşun bölmələrinin hərəkətini müşahidə edən erməni postunun üstünə gətirib çıxardı. Onların arasında başlanan atışmada ehtiyat qüvvələr ermənilərin müqavimətini qırdı və elə həmin istiqamətdə əlverişli mövqe tutdu. Saat 12-də aydın oldu ki, ehtiyat qüvvənin istiqaməti dəqiqləşdirilməlidir. Çünki onlar getdikcə əsas qüvvədən aralı düşdülər. Onda ikinci taborun komandiri ştabs-kapitan Belozıkinə göstəriş ve-

rildi ki, döyüş əmrində müəyyənləşdirilmiş istiqamətə qayıtsın. Saat 13.30-da bütün mövcud toplardan erməni mövqelərinə atəş açıldı. Polkovnik Levestamın yazdığına görə həmin gün topçular məharətlə fəaliyyət göstərdilər. Dığ yaylasının asanlıqla tutulması da onların səmərəli atəşləri nəticəsində mümkün oldu (248).

Zəngəzur dəstəsinin rəisinin əmri əsasında Sağ kolondakı 12-ci bölüyün yarısı praporşik Səmədovun komandası altında Sol kolonda podporuçik Vaçnadzenin bölməsinin möhkəmləndirilməsi üçün göndərildi. Praporşik Səmədova tapşırıldı ki, şose yolunun şərqindəki yüksəkliklərin qoşunlara yaxın olan hissəsini tutsun və Zaqatala alayının bölmələri ilə təmas yaratsın.

Gündüz saat 16-da ümumi ehtiyat qüvvə göstərilən mövqelərə gəldi və bundan sonra birinci tabor Dığ kəndinə hücum üçün müəyyənləşdirilmiş ilkin mövqelərə doğru hərəkətə başladı (249).

Sol kolon Zabux çayını keçəndən sonra Məlik yüksəkliyindən Dığ yaylasına doğru hərəkətə başladı. Burada bölmələr erməni qüvvələrinin müqaviməti ilə rastlaşdılar. Kolon bütün imkanlarını səfərbər edib ermənilərlə döyüşə girdi və qısa müddətdən sonra Zaqatala alayının bölmələri Dığ yaylasının çıxışını ələ keçirib Geranzur kəndinə doğru hücumu davam etdirdilər. Sol kolona verilmiş olan Şəki süvari alayının bir bölüyü əmr aldı ki, ixtiyarında olan 2 ədəd pulemyotla kolonun sol cinahının mühafizəsini təmin etsin. Ancaq süvari bölüyü əmri yerinə yetirmədi. Bütün döyüşboyu bu bölük qüvvələrin arxasında mövqe tutub sakit guşəyə çəkildi. Saat 15.00-da polkovnik Levastamın şəxsən özü bölüyün olduğu yerə gəldi və verdiyi əmri bir daha təkrar etdi ki, bölmə sol cinaha yollanıb Zaqatala taborunun komandiri ilə əlaqə yaratmalı və bu taborun təhlükəsiz hərəkəti üçün verilən tapşırığı yerinə yetirməlidir. Lakin süvari bölməsi yenə də əmri yerinə yetirmədi (250).

Polkovnik Levestamın yazdıqlarından aydın olur ki, onun Sol kolonla rabitəsi bütünlüklə qənaətbəxş olmamışdı. Uzun müddət o, kolonun fəaliyyəti barədə məlumatsız qalmışdı. Rabitə üçün göndərilən çoxsaylı əsgərlərdən yalnız biri saat 16.10-da polkovnik Levestama xəbər gətirdi ki, kolonun patronları qurtarmaq üzrədir. Gü-

nortadan sonra Zaqatala taborunun bölükləri Geranzur kəndi yaxınlığındakı monastır ətrafında mövqe tutmuşdular. Polkovnik Levestamın bildirdiyinə görə sonradan o, özü də bu mövqelərə gəlmiş, ancaq Zaqatala taborunun komandirini tapa bilməmişdi. Heç kəs də onun yerini bilmirdi. Başsız qalan tabora podporuçik Vaçnadze rəhbərlik edirdi. O, əvvəlcə bir bölüyü ruhlandırıb döyüşə aparır, sonra isə o biri bölüyün mövqelərinə keçib onun döyüşünə rəhbərlik edirdi. Saat 19.20-də polkovnik Levestam podporuçik Vaçnadzeyə tapşırıq verdi ki, köməyə gəlmiş praporşik Səmədovun döyüşçülərinin təmas xəttində mövqe tutsun və gecəni orada keçirsin. Gün ərzində Sol kolondan 17 nəfər əsgər yaralandı (251).

Noyabrın 7-də səhər saat 8-də Vaçnadzenin komandirlik etdiyi Zaqatala taborunun hücuma keçməsi barədə xəbər alındı. Polkovnik Levestamın əmri ilə əvvəlcə 12-ci bölüyün yarısı onun köməyinə göndərildi. Həmin istiqamətdə düşmənin güclü top atəşləri başlananda praporşik Vidadovun rəhbərliyi altında olan 8-ci bölük də ora köməyə göndərildi. 11-ci və 16-cı bölüklər isə ümumi ehtiyat qüvvə kimi saxlanıldı.

Sağ kolonun döyüş sahəsində də düşmənin müqaviməti gücləndi. Dığ kəndinin şərqindəki yüksəkliklərdə və Novruzlu məntəqəsinin cənubundakı hündürlüklərdə erməni silahlı dəstələri güclü mövqe tutmuşdular. Saat 10.30-da və 12-yə yaxın Novruzlunun cənubundakı hündürlükdə olan düşmən qüvvələri aşağı enib kolonun sağ cinahının arxasına keçməyə cəhd göstərdi. Birinci cəhd pulemyot atəşləri və ümumi ehtiyatda olan bir bölüyün düşmənin hərəkət istiqamətinin cinahına çıxarılması ilə uğursuzluğa düçar oldu. Düşmənin ikinci cəhdinin qarşısı isə haubitsa və dağ toplarının atəşləri ilə alındı. General-mayor Yadigarovum kolonunun hərəkəti barədə burada məlumat alınmamışdı. Ona görə Sağ kolonun hücumu da ləngiyirdi. Çünki general-mayor Yadigarovun kolonunun irəli hərəkət etməməsi Sağ kolonun sağ cinahının mühafizəsiz qalmasına və təhlükə altına düşməsinə səbəb ola bilərdi. Gün ərzində erməni qüvvələri iki dəfə də Sağ kolonun üzərinə qarşıdan və sağ cinahdan hücuma keçməyə cəhd göstərdi. Lakin 2-ci bölük və 6-cı

bölüyün bir taqımı düşmənin hər iki cəhdinin qarşısını aldılar (252).

Sol kolonun istiqamətindəki hadisələr daha dramatik şəkildə cərəyan edirdi. Hələ gecə ikən polkovnik Levestam Sol kolonda praporşik Səmədovun tutduğu mövqeləri nəzərdən keçirdi və podporuçik Vaçnadzeyə əmr göndərdi ki, Zaqatala taborunu sağa tərəf çəkib praporşik Səmədovun bölməsi ilə yaxınlaşsın və bununla öz döyüş sahəsini də bir qədər kiçiltsin. Səhər saat 8-də hücuma başlayan Vaçnadze tezliklə çətin vəziyyətə düşdü. Saat 9-da Zaqatala taborundan praporşik Quliyevin gətirdiyi həyəcanlı məlumatdan sonra yuxarıda qeyd edildiyi kimi, 8-ci bölük sol cinaha göndərildi. Ancaq onun komandiri praporşik Vidadov ağır vəziyyətə düşən kimi özünü itirdi, qorxaqlıq və səriştəsizlik göstərdi. Bu vaxt düşmənin güclü hücumuna sinə gərən praporşik Səmədov ağır yaralandı. Buna baxmayaraq, o, döyüş mövqeyini tərk etmədi, böyük igidlik və şücaət nümayiş etdirdi. Praporşik Vidadov əmr aldı ki, podporuçik Muradovla birlikdə həmin sahədə müqaviməti gücləndirsinlər və düşmənin hücumlarının qarşısını alsınlar. Praporşik həmin mövqelərə yaxınlaşanda Vidadovun döyüş mövqeyini tərk etdiyini və bölüyün şəxsi heyətini də öz ardınca geriyə aparmaq istədiyinin şahidi oldu. Muradov irəli atılıb yenidən səngərlərdə mövqe tutdu və Vidadovun əsgərlərini də geriyə qayıtmağa, onlara tapşırılmış döyüş mövqeyini tutmağa çağırdı. Güclü top və pulemyot atəşlərinə baxmayaraq, o, səngərdən bayıra çıxıb ayaq üstə əsgərləri bütün qüvvələri ilə döyüş aparmağa səslədi. Onun qorxmazlığı əsgərlərin geri qayıtmasına təsir göstərsə də, yaxınlıqda partlayan mərmi qəlpələrindən şəhid olması əsgərləri yenə başsız qoydu və onlar geri çəkilməyə başladılar. Saat 9-da bu istiqamətə poruçik Berinqin komandirliyi altında dağ-topçu taqımı göndərildi. Bu taqım şose yolun şərqində mövqe tutub hücum edən düşmənin qarşısını saxlamağa cəhd göstərdi (253).

Sol kolonun sol cinahında vəziyyət xüsusilə ağır idi. Səhər-səhər bu cinaha yerli əhalinin silahlıları da qoşuldu. Onlar da ermənilərə qarşı döyüşdə iştirak edirdilər. Saat 10-da bu cinahda süvari dəstələri peyda oldu. Yerli əhalidən olan silahlılar onları Azər-

baycan süvariləri bilib yaxına buraxdılar. Əslində isə həmin süvarilər erməni süvariləri idi. Onların qəflətən meydana çıxması və gözlənilmədən atəş açmaları yerli könüllüləri qorxu və təlaş içinə saldı və onlar böyük vahimə içində qaçıb dağılışmağa başladılar. Yerli könüllülərin geri çəkilməsi Zaqatala taborunun döyüşçüləri içərisində də çaxnaşmaya səbəb oldu. Bu da onların fəaliyyət nizamını pozdu. Gəncə piyada alayının bu cinahda döyüşən pulemyot komandasının bir zabiti pulemyotu götürüb erməni süvarilərini atəşə tutdu və onları geri çəkilməyə məcbur etdi. Sonra bu istiqamətdə düşmənin piyada qüvvələri görünməyə başladı və həmin qüvvələr zaqatalalılar üzərinə güclü hücuma keçdilər. Erməni piyadalarının hücumunun qarşısını yalnız ehtiyat qüvvələrdən göndərilmiş olan Cavanşir alayının iki bölüyünün köməyi ilə almaq mümkün oldu. Ancaq güclü hücumlar altına düşmüş olan zaqatalalılar böyük itki verməli oldular (254).

Saat 15.00-da Sol kolonun vəziyyəti belə idi: Sol cinahda 11-ci bölük dayanmışdı. Bu bölüyün sağında Zaqatala taborundan 40 nəfər var idi. Kolonun sağ cinahında isə 12-ci bölük mövqe tutmuşdu. Pulemyotların çoxu işləmirdi. Təcrübəli və qorxmaz zabitlərin sıradan çıxarılması bütünlükdə şəxsi heyətin əhval-ruhiyyəsinə mənfi təsir göstərmişdi. Sağ kolonun vəziyyəti isə daha yaxşı idi. Əgər general-mayor Yadigarovun Birinci kolonu döyüşdən çıxarılmasaydı, sağ cinahı daha yaxşı mühafizə olunan Sağ kolon irəliləyə hərəkət etmək üçün yaxşı imkan əldə edərdi. Sağ kolonun sağ cinahı boyu, həm də yarğan uzanırdı. Bu yarğan xəlvəti şəkildə düşmənə tərəf yaxınlaşmaq imkanı da verirdi. Ancaq Sol kolonun nizamının pozulması və xeyli zəifləməsi, digər tərəfdən də general-mayor Yadigarovun kolonunun döyüşdən çıxarılması Sağ kolonun cəbhə xəttində qalmasına imkan vermirdi. Eyni zamanda, günortadan sonra Sağ kolonun sağ cinahı boyu uzanan yarğanın başlanğıcında düşmən qüvvələrinin cəmləşdiyi müşahidə olunurdu. Onların güclü zərbəsi Sağ kolonu da çətin vəziyyətə sala bilərdi (255).

Cəbhədə baş verənlər Zəngəzur dəstəsinin rəisi general-mayor Cavad bəy Şıxlinskinin də daimi nəzarəti altında idi. O yazırdı ki,

polkovnik Levestamın sağ cinahında düşmən qüvvələrinin cəmləşməsi ona Dığı tutmağa imkan vermədi. Xüsusilə polkovnik Levestamın sol cinahının xeyli zəifləməsi şəxsi heyət arasında da çox böyük narahatçılıqlar yaradırdı. Ona görə də ayın 7-də hava qaralana yaxın polkovnik Levestama kolonları geri çəkmək əmri verildi (256).

Saat 16-dan sonra polkovnik Levestam hava qaralana kimi geri çəkilmək barədə sahənin topçu rəisinə məlumat verdi. Qaranlıq düşməyə başlayan kimi podporuçik Maksimoviçin komandası altında olan 4-cü bölüyə də geri çəkilmək və bu zaman batareyaları da himayə etmək tapşırığı verildi. Saat 19-da 11-ci və 12-ci bölüklər, saat 19.30-da isə 2-ci və 6-cı bölüklər geri çəkilmək barədə əmr aldılar (257).

General Şıxlinskinin məlumatına görə ikigünlük döyüş ərzində Zaqatala alayından 40 nəfər həlak olmuş və itkin düşmüş, 50 nəfər isə yaralanmışdı. Cavanşir alayından 5 nəfər həlak olmuş, 20 nəfər isə yaralanmışdı. Şəki süvari alayından 2 nəfər, topçulardan isə bir nəfər yaralanmışdı. Bunlardan başqa, 3 zabit həlak olmuş və 4 zabit də yaralanmışdı (258). Polkovnik Levestamın verdiyi məlumata görə Cavanşir piyada alayından 29 nəfər, topçulardan isə 2 nəfər əsgər yaralanmışdı (259).

Noyabrın 7-də Birinci kolonun fəaliyyətinə gəldikdə isə general-mayor Yadigarovun yazdıqlarına görə həmin gün hücum yenidən davam etdirildi. O bütün hissə komandirlərini toplayıb onlarla müşavirə keçirdi və davam etdiriləcək hücumla bir gün əvvəl əldən verilmiş mövqelərin bərpa edilməsini vəzifə kimi irəli sürdü. 2-ci kolonun rəisi polkovnik Levestamın ayın 7-də Dığ üzərinə hücuma keçmək niyyətində olması da 1-ci kolonun da Xaznavar üzərinə hücuma keçməsinə əsas verirdi. Xaznavar üzərinə hücuma keçilməsi isə Dığ ətrafında olan erməni qüvvələrinin diqqətini özünə cəlb edə bilərdi. Ona görə də kolon Dat-Məlik yüksəkliyi və Xaznavar kəndi istiqamətində irəliləməyə başladı. General Yadigarov saat 14-də geri çəkilmək barədə əmr alsa da, hücum davam etdirildi, hətta Dat-Məlik yüksəkliyi və Xaznavar kəndi yenidən ələ keçirildi. La-

kin kolon saat 20-də yenidən Abdallara geri çəkilmək barədə göstəriş aldı. Bundan sonra, kolon geri çəkilməyə başladı və noyabrın 8-də saat 6-da Abdallara gəlib çıxdı (260).

Beləliklə, noyabrın 3-dən 7-dək Dığ istiqamətində aparılan döyüşlərdə Azərbaycan Ordusunun qoşun bölmələri qarşıya qoyulan vəzifələrin icrasına nail olmadan ilkin vəziyyətə qayıtmalı oldular. Heç şübhəsiz ki, bu istiqamətdə düşmənin güclü qüvvələri var idi və qarşı tərəf öz qüvvələrini daha düzgün bölüşdürərək etibarlı müdafiə mövqeləri tuta bilmişdilər. Erməni qoşunlarının əsas zərbə qüvvəsi Zəngəzur dəstəsinin döyüş sahəsinin cinahlarına istiqamətləndirildiyi halda, Azərbaycanın qoşun hissələri və bölmələri bu cinah zərbələrinin qarşısının alınması üçün çevik və səmərəli tədbirləri həyata keçirə bilmədilər və nəticədə bütün dəstə çətin vəziyyətlə qarşılaşmalı oldu.

Dığ istiqamətində aparılan döyüşlərin gedişi barədə general-mayor C.Şıxlinski öz mülahizələrini ümumiləşdirərək Hərbi Nazirliyin rəhbərliyinə məruzə hazırladı. General C.Şıxlinskiyə görə, Dığ və Gorus ətrafında düşmənin 6 minə qədər canlı qüvvəsi cəmləşdirilmişdi. Onların sərəncamında 4 haubitsa və 2 ədəd top var idi. Düşmən toplarına təcrübəli zabitlər rəhbərlik edirdilər. Atəşlərin sərrast və dağıdıcı olması da bundan xəbər verirdi. Süvari qoşunlar nizami bölmələrdən ibarət idi və onun sayı 3 bölükdən az deyildi. Döyüş aparılan ərazi çox çətin ərazi idi. Təminat məsələlərinin həll edilməsi bir sıra problemlərlə qarşılaşırdı. Ətdən başqa hər şeyi çox uzaq məsafədən gətirmək lazım olurdu. Otun olmaması da atların qidalandırılmasını çətinləşdirirdi. İrəli hərəkət etmək üçün ərazidə münasib yollar yox idi. Onların çoxu Andronikin dəstəsi tərəfindən dağıdılmışdı.

Yerli könüllülərdən təşkil edilmiş partizan dəstələri hərbi baxımdan elə bir potensiala malik deyildi. Bu dəstələrin hərbi təcrübəsi, səriştəli rəhbərləri yox idi, güllə çatışmırdı, nizam və intizam lazımi tələblərə cavab vermirdi. Döyüşün gedişində onlar əsas qüvvələrə səmərəli yardım göstərə bilmirdilər. Əksinə, güclü atəş altına düşən kimi qaçıb dağılır və öz intizamsızlıqları ilə əsas qüv-

vələrin şəxsi heyətində də bir vahimə yaradırdılar. Sultan bəyin rəhbərliyi altında olan kürdlər partizanlarla müqayisədə daha yaxşı döyüşürdülər. Dəstədə intizam da xeyli sağlam idi, döyüşçülərin hamısı qorxmaz və təcrübəli Sultan bəyin ətrafında birləşmiş və verilən tapşırıqların icrası üçün bütün bacarıqlarından istifadə edirdilər. Lakin onlar çox zəif geyinmişdilər və malik olduqları paltarlarla soyuq havadan qoruna bilmirdilər.

General Cavad bəy Şıxlinski öz məruzəsində Zəngəzur dəstəsinin şəxsi heyətinin də belə ağır döyüşlərin aparılmasına hazır olmadığını bildirirdi. O, xüsusilə zabit heyətinin zəifliyindən şikayət edirdi. Əsgərlər döyüşün ağırlığını öz üzərinə götürüb heç bir çətinlikdən qorxmadığı halda onları irəli apara biləcək zabitlər az idi. Piyada qüvvələrinin komandir tərkibi təcrübəsi və nəzəri səviyyəsi çox aşağı olan gənc praporşiklərdən ibarət idi. Təcrübi və nəzəri səviyyələrinin aşağı olması isə onlara qoşunları yaxşı idarə etmək imkanı vermirdi.

Dəstə əsas bazalardan çox uzaqlaşdığı üçün xəstə və yaralıların təxliyəsi xeyli çətin idi. Tibb mütəxəssisləri yox idi. Baş verən uğursuzluqdan və bir sıra təcrübəli zabitlərin itirilməsindən sonra şəxsi heyətin mənəvi əhval-ruhiyyəsi də zəiflədi. General C.Şıxlinski onu da əlavə edirdi ki, dəstənin Dığ və Gorus istiqamətinə hərəkət etməklə bazalardan uzaqlaşması pis nəticələrə gətirib çıxara bilər. Uğursuzluğun baş verə biləcəyi halda dəstənin vəziyyəti daha da mürəkkəbləşərdi. Onun sözlərinə görə dəstənin müvəqqəti olsa belə uğursuzluğa düçar olması ermənilərdə ruh yüksəkliyinin artmasına, Qarabağda ermənilərin fəallaşmasına və nəticədə milli hərbi qüvvələrin arxasında, əsas yolların üzərində təxribatların artmasına zəmin yarada bilərdi.

General C.Şıxlinski öz məruzəsinin sonunda bildirirdi ki, Dığı və Gorusu tutmaq üçün bir də cəhd göstərmək olar. Lakin orada möhkəmlənmək üçün Zəngəzur dəstəsinə üç taborlu bir piyada alayı verilməlidir (261).

Döyüşlərdən dərhal sonra Hərbi nazir S.Mehmandarov da dəstənin fəaliyyətinə öz münasibətini bildirdi. Noyabrın 11-də C.Şıx-

linskiyə göndərdiyi teleqramında Hərbi nazir aldığı məlumatlar əsasında general Yadigarovun fəaliyyətinə çox ciddi qiymət verdi. Bu ciddi qiymət, həm də S.Mehmandarovun Dığ istiqamətində aparılan döyüşlərin nəticələrini necə böyük həyəcanla qarşıladığını nümayiş etdirirdi. O, general-mayor Yadigarovun vaxtilə komandir olduğu 2-ci Qarabağ süvari alayında səmərəsiz fəaliyyətinə və 1-ci kolonun uğursuzluğuna toxunaraq yazırdı: "Bunun təfərrüatı mənə məlum deyil. Ancaq döyüşlərin ümumi gedişinə və itkilərin miqdarına görə səhvsiz mühakimə yürütmək olar ki, bütün uğursuzluqlar başlıca olaraq general Yadigarovun fəaliyyətsizliyi üzündən baş vermişdir. Mən şəxsən heç vaxt general Yadigarovu məsul vəzifələri tutmağa qadir şəxs saymamışam" (262).

Sonra Hərbi nazir general-mayor C.Şıxlinskiyə tapşırdı ki, general Yadigarovun fəaliyyəti yoxlanılsın və baş verən uğursuzluqda günahı olduğu təqdirdə dərhal dəstədən uzaqlaşdırılsın (263).

Qeyd etmək lazımdır ki, Davud bəy Yadigarov 1919-cu il avqustun 1-dən süvari diviziyası komandirinin müavini idi (264) və 1919-cu il oktyabrın 8-də Nazirlər Şurasının qərarı ilə ona general-mayor rütbəsi verilmişdi (265). 1919-cu il dekabrın 7-də nazirin əmri ilə süvari diviziyası komandirinin müavini vəzifəsindən azad edilərək Hərbi nazirin yanında tapşırıq üzrə qərargah zabiti təyin edilməsi onun fəaliyyəti ilə bağlı S.Mehmandarovun verdiyi qiymətin doğruluğundan xəbər verir.

### *4. Qarabağ ətrafında təcavüzkarlığın dayandırılması haqqında əldə edilmiş qarşılıqlı razılaşmaların ermənilər tərəfindən pozulması*

Zəngəzura Azərbaycanın qoşun bölmələrinin yeridilməsi ilə erməni təbliğatının yeni bir mərhələsi başladı. Millətçi erməni dairələri özlərinin bütün imkanlarını, qüvvələrini və havadarlarını səfərbər edərək elə bir hay-küy yaratdılar ki, nəticədə Azərbaycan hökuməti müəyyən təzyiqlərlə qarşılaşmalı oldu. Azərbaycan hökuməti hətta məcbur olub Zəngəzur ekspedisiyası ilə bağlı qaldırılan erməni təbliğatının mahiyyəti üzrə bəyanat qəbul etdi və burada

erməni hay-küylərinin qərəzliliyini və hadisələrin saxtalaşdırıldığını açıqladı. Bu bəyanatda Azərbaycanın qoşun bölmələrinin Zəngəzurdakı döyüş fəaliyyəti barədə də müxtəlif məlumatlar verildi (266).

Əsassız erməni hay-küylərinə inanan Britaniyanın ali komissarı Uordrop və ali komissarın müavini polkovnik Rey ayrı-ayrılıqda Azərbaycanın Zəngəzura qoşun bölmələri yeritməsini təcavüz adlandırıb ona son qoyulmasını, məsələnin sülh yolu ilə həll edilməsini tələb etdilər (267).

Azərbaycana qarşı münasibətdə erməni-daşnak hökuməti ilə güclü müttəfiqlik əlaqələrində olan Denikin hər vasitə ilə Azərbaycana təzyiq göstərməyə və erməni qoşunlarının təcavüzkarlığına qarşı mübarizədə onu zəiflətməyə çalışırdı. Noyabrın 9-da imzaladığı teleqramla Denikin Azərbaycanın qoşun bölmələrinin guya Ermənistan ərazisinə soxulması ilə əlaqədar olaraq Azərbaycan Ordusu sıralarında xidmət edən bütün rus zabitlərini istefa verməyə çağırdı (268).

Bundan başqa, Azərbaycanın qoşun bölmələri Zəngəzurda olduğu vaxt Denikin qoşunlarının hissə və bölmələri Dağıstan ərazisində öz fəallıqlarını xeyli artırdılar. Bununla da Denikin və onun ətrafındakılar istəyirdilər ki, şimal sərhədlərinin müdafiəsində dayanmış Azərbaycan Ordusunun qoşun bölmələri daim gərginlik içində olsunlar və buradan Zəngəzur dəstəsinə hər hansı bir kömək göstərilməsi mümkün olmasın (269).

Zəngəzur ekspediyası erməni təbliğatının genişlənməsi nəticəsində çox böyük səs-küyə səbəb olduğu üçün bu məsələ 1919-cu il noyabrın 19-da Dövlət Müdafiə Komitəsində də müzakirə olundu. Qəbul edilmiş qərarda deyilirdi ki, Uordropun və Reyin, habelə respublika Parlamentinin erməni deputatlarının müraciətlərini və yaranmış olan vəziyyəti nəzərə alaraq Zəngəzurda erməni silahlı qüvvələri ilə Azərbaycanın qoşun bölmələri arasında silahlı qarşıdurmanın aradan qaldırılması üçün lazımi tədbirlər görülsün (270).

1919-cu il noyabrın 23-də Azərbaycanın və Ermənistanın hökumət sədrləri görüşdülər. Bu görüş Amerika nümayəndələrinin

vasitəçiliyi ilə təşkil edildi. Tərəflər razılığa gəldilər ki, tezliklə Bakıda, sonra da Tiflisdə birgə sülh konfransı çağırılsın və ərazi iddiaları üzrə bütün mübahisələr orada həll edilsin. Azərbaycan və Ermənistanın hökumət rəhbərləri Tiflisdə bir razılaşma imzaladılar. Həmin razılaşmanın birinci bəndində deyilirdi ki, Azərbaycan və Ermənistan davam edən qarşıdurmanı dayandırırlar və bir daha silah işlətməməyə söz verirlər. Razılaşmanın başqa bir maddəsində bildirilirdi ki, hər iki respublika bütün məsələləri, o cümlədən sərhəd məsələlərini sülh konfransında həll etməyi öhdələrinə götürür və hər hansı bir məsələ mübahisə doğurduqda üçüncü tərəf kimi Amerikanın nümayəndəsinin fikrini əsas tuturlar (271).

Bu razılaşma ilk növbədə Zəngəzur qəzasının gələcək statusunun müəyyənləşdirilməsi ilə bağlı idi. Azərbaycan tərəfi bu razılaşmadan sonra Zəngəzurda cərəyan edən erməni zorakılıqlarının dayandırılacağına, günahsız insan qırğınlarına son qoyulacağına, qəzanın bütünlükdə erməniləşdirilməsindən əl çəkiləcəyinə və bu qəzanın Qarabağda təcavüzün genişləndirilməsi üçün dayaq nöqtəsinə çevrilməcəyinə və nəhayət, Ermənistan hökumətinin Zəngəzur qəzası ilə bağlı ədalətli mövqeyə yaxınlaşacağına ümid edirdi.

Ermənistan rəhbərləri hətta iki hökumət başçısının təcavüzün dayandırılması barədə Tiflisdə imzaladıqları razılaşmaya da məhəl qoymadılar. Həmin razılaşmadan dərhal sonra erməni silahlı dəstələri yeni-yeni talan və qırğınlara əl atdılar. 1919-cu il noyabrın 26-da Xinzirək kəndinin erməniləri Əliquluuşağı kəndinə hücum edərək 2 azərbaycanlını öldürdülər və 6 nəfəri isə yaraladılar. Noyabrın 28-də erməni millətçiləri Zeyvə kəndi üzərinə hücum etdilər. Kəndin müdafiə dəstələri çətinliklə onların qarşısını ala bildilər. Noyabrın sonlarında Zəngəzurun Oxçi rayonunda 20 azərbaycanlı kəndi mühasirə vəziyyətində idi. Nizami və qeyri-nizami erməni silahlı dəstələri burada azərbaycanlılara qarşı hər cürə vəhşilikləri törətməkdə davam edirdilər (272).

Həmin qırğın və talanlarla bağlı noyabrın 29-da Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistanın Xarici İşlər Nazirliyinə etiraz notası göndərdi. Bu notada Tiflisdə imzalanan razılaşmanın şərtlə-

rinin əksinə olaraq Zəngəzurun Azərbaycan kəndlərində davam edən qırğınlara və vəhşiliklərə son qoyulması tələb olunurdu.

Notada deyilirdi ki, noyabrın 23-də Azərbaycanın və Ermənistanın hökumət sədrlərinin imzaladığı razılaşmaya əsasən hərbi təcavüzkarlıq dərhal dayandırılmalı və bütün mübahisəli məsələlər Azərbaycan–Ermənistan konfransının müzakirəsinə verilməlidir. Lakin bu razılaşmaya məhəl qoymayan Ermənistan qoşun hissələri sonrakı bir neçə gün ərzində Oçunir, Davidan, Atkiz, Şabadan, Anişa və Kuşnilər kəndlərini dağıtmış və bu kəndlərin əhalisinə çoxlu sayda itki verilmişdi. Notada daha sonra bildirilirdi ki, Zəngəzurun bir sıra azərbaycanlı kəndləri erməni qoşun hissələri tərəfindən mühasirəyə alınmışdır. Dərələyəz qəzasının məhv edilmiş kəndlərinin adları da notada sadalanırdı. Həmin kəndlərdə 300 nəfərin erməni vəhşiliklərinin qurbanı olduğu və 30 qadının da erməni silahlıları tərəfindən əsir götürüldüyü qeyd olunurdu. Bütün bunlarla əlaqədar Azərbaycanın Xarici İşlər naziri əldə edilmiş razılaşmanın pozulmasının dayandırılmasını və azərbaycanlı əhaliyə qarşı təcavüzlərə son qoyulmasını tələb edirdi.

Lakin Ermənistan hökuməti Zəngəzur qəzasında azərbaycanlı əhaliyə qarşı genişlənməkdə olan zorakılığı və təcavüzləri dayandırmadı. Əksinə, bu təcavüzkarlıq elə bir miqyas aldı ki, 1919-cu il dekabrın 8-də Azərbaycan hökumətinin sədri N.Yusifbəyli müttəfiq dövlətlərin Cənubi Qafqazdakı ali komissarı polkovnik Qaskelə xüsusi məktub göndərdi. Məktubda qeyd edilirdi ki, Azərbaycanla Ermənistan arasındakı qarşılıqlı məsələlərin iki ölkənin təşkil etdiyi konfransda həll edilməsi haqqında sizin qaldırdığınız təşəbbüs bu günə qədər Zəngəzurda azərbaycanlı əhaliyə qarşı davam edən zorakılıqlarla müşayiət olunur. N.Yusifbəyli bildirirdi ki, bu zorakılıqlar polkovnik Reyin iştirakı ilə iki respublika baş nazirlərinin noyabrın 23-də Tiflisdə imzaladıqları razılaşmanın da tələblərinə ziddir.

Məktubda deyilirdi ki, erməni hərbi qüvvələri Zəngəzurda dinc azərbaycanlı əhalinin yaşadığı kəndlər amansız şəkildə məhv edilməkdədir. Buna sübut olaraq göstərilirdi ki, son günlər ərzində Oxçi və Kqin dərəsində yerləşən azərbaycanlı kəndləri erməni ni-

zami hərbi qüvvələrinin topları vasitəsi ilə məhv edilmişdir. Erməni qoşun hissələri bununla da kifayətlənməyərək Zəngəzura doğru irəliləmiş və Zəngilanın Keçikli, Əsgərli və Pirçevan kəndlərini məhv etmişdir. Ətrafda yaşayan azərbaycanlı əhali isə ermənilərin bu təcavüzkarlığını cilovlanmadığı üçün öz yaşayış yerlərini tərk etməli olurdular. Azərbaycan hökumətinin sədri sonda bildirirdi ki, 23 noyabr razılaşmasına uyğun olaraq Azərbaycan hökuməti Zəngəzurda olan bütün qoşun hissələrini geri çağırdı. Eyni hərəkət Ermənistan hökuməti tərəfindən də həyata keçirilməli idi. Lakin Zəngəzurdakı erməni qoşun hissələri nəinki geri çağırılmadı, əksinə bu qoşun hissələri ixtiyarlarında olan pulemyotlardan və toplardan istifadə etməklə qəzanın azərbaycanlı əhalisinə qarşı amansız vəhşiliklərə başladı. N.Yusifbəyli hələ 23 noyabr Tiflis razılaşmasının imzalandığı zaman polkovnik Reyin yanında erməni qoşun hissələrinin Zəngəzurdan geri çəkilməyəcəyini və bunun ağır nəticələrə gətirib çıxaracağını ehtimal etdiyini xatırladırdı. Məktubunun sonunda o təklif edirdi ki, yaxın günlər ərzində amerikalı zabitlərdən ibarət xüsusi komissiya yaradılsın və Zəngəzura göndərilsin ki, bəlkə, bu komissiya Zəngəzurdakı erməni silahlı dəstələrinin tərk-silah edilməsinə kömək göstərsin (273).

Polkovnik Qaskel bu xəbərdarlığa dərhal reaksiya verdi və Ermənistan hökumətindən tələb etdi ki, Zəngəzura göndərilən hərbi qüvvələr dərhal geri çağırılsın. O xüsusi olaraq qeyd edirdi ki, Ermənistan hökumətinə qarşı irəli sürülən ittihamlar doğru olarsa, onda onlar Ermənistanın gələcəyi üçün ən güclü zərbə olacaqdır (274). Amma polkovnik Qaskelin bu xəbərdarlığı bir nəticə vermədi. Doğrudur, ermənilər polkovnik Qaskelin dəstəklədiyi Azərbaycan–Ermənistan konfransının təşkilinə razı oldular. Lakin konfransın materialları göstərir ki, bu konfransın işində iştirak etməklə ermənilərin məqsədi vaxt qazanmaq və Zəngəzurda və Qarabağ ətrafında genişlənməkdə olan erməni təcavüzkarlığından diqqəti yayındırmaq idi. Bununla belə, Tiflisdə imzalanan razılaşmaya müvafiq olaraq 1919-cu il dekabrın 14-də Azərbaycan–Ermənistan konfransının Bakıda açılışı oldu. Tərəflərin hər ikisi konfransda

müzakirə edilməsi üçün öz təkliflərini hazırladılar. Bu təkliflər, əsasən, Zəngəzurda hərbi əməliyyatların dayandırılmasına, qaçqınlar məsələsinə və kommunikasiya xətlərinin bərpasına aid idi. Hərbi məsələlərlə bağlı Ermənistanın təkliflərində aşağıdakı maddələr var idi: a) Azərbaycan öz qoşunlarını və artilleriyasını Zəngəzur sərhədlərindən əvvəlki dislokasiya məntəqələrinə qaytarsın; b) Ermənistan döyüş zamanı Zəngəzura göndərdiyi qoşunları və artilleriyanı geri çağırır. Azərbaycanın təkliflərində isə hərbi məsələlərlə bağlı aşağıdakı maddələr var idi: a) Azərbaycan və Ermənistan hökumətləri hazırkı anda əhalisi onların hakimiyyətini tanımayan əraziləri özlərinə tabe etmək üçün hərbi qüvvə tətbiq olunmamasını öz üzərinə götürürlər; b) Azərbaycan və Ermənistan hökumətləri aralarındakı bütün mübahisəli məsələləri sülh yolu ilə həll etməyə razılıq verirlər; c) Azərbaycan Respublikası hökuməti Zəngəzur rayonuna, Qarabağ general-qubernatorunun sərəncamına göndərilən hərbi qüvvələri geri qaytarır, öz növbəsində Ermənistan hökuməti də hərbi hissələri, zabitləri, təlimatçıları və komissarları Zəngəzur qəzasının hüdudlarından geri çağırır, habelə yerli erməni əhalisindən artilleriyanın, pulemyotların və digər silahların yığılmasına hərtərəfli yardım göstərir. Eyni zamanda, bu rayonun hüdudlarındakı bütün səngərlərin və möhkəmləndirilmiş mövqelərin dağıdılması üçün tədbirlər görülür (275).

Əsassız ərazi iddialarını dövlət siyasətinə çevirmiş olan Ermənistanı bu tələblər, sözsüz ki, qane etmirdi. Bu təkliflərin qəbul olunması Ermənistanın öz iddialarından əl çəkməsi demək idi. Ona görə də Ermənistan nümayəndələrinin tutduğu qeyri-əməli mövqe üzündən konfrans bir neçə gün uzandı və heç bir qərar qəbul edilmədən təxirə salındı (276).

Bakıda Azərbaycan və Ermənistan nümayəndələrinin konfransı keçirilən günlərdə Zəngəzurda nisbətən sakitlik oldu. Bu, konfransın işində də qeyd edildi. Ancaq Bakıda konfrans öz işini sona yetirən kimi Zəngəzurda təcavüzlər yenidən alovlandı. 1919-cu il dekabrın 27-də Hacılar kəndinə, dekabrın 28-də və 29-da Zabux çayı körpüsünə, dekabrın 30-da Muradlı dəyirmanına, 1920-ci ilin

yanvarının 3-də Xinzirək və Muğancıqdan Əliquluuşağı kəndi üzərinə, yanvarın 5-də isə Müsəlmanlar kəndi üzərinə hücumlar həyata keçirildi (277).

General-qubernator X.Sultanov Nazirlər Şurasının sədrinə göndərdiyi məktubunda bildirirdi ki, nizami hissələr Abdallardan geri çəkildikdən sonra 100 verstlik ərazinin müdafiəsi 250 mühafizəçinin və 1500 nəfər partizanın ümidinə qalmışdı. Bu qüvvələr isə erməni nizami qüvvələrinin təcavüzkarlığının qarşısını almağa qadir deyildi (278).

1920-ci il yanvar ayının ikinci yarısından etibarən Ermənistanın Azərbaycana qarşı təcavüzünün yeni və daha faciəli bir səhifəsi başladı. 1920-ci il yanvar ayının 13-də müttəfiq dövlətlər tərəfindən Gürcüstanla bərabər Azərbaycanın da müstəqilliyinin de- fakto tanınması erməni təcavüzlərini daha da genişləndirdi. Çünki Azərbaycanın müstəqilliyinin tanınması ilə Ermənistanın Azərbaycan torpaqlarına olan qanunsuz iddialarının qarşısı alına bilərdi. Ona görə də erməni millətçi dairələri təcavüzü genişləndirərək daha böyük Azərbaycan ərazilərini ələ keçirmək və həmin ərazilərdə möhkəmlənmək istəyirdilər (279).

Bu planı həyata keçirmək üçün Ermənistanın hərbi qüvvələri və silahlı dəstələri üç istiqamətdən Azərbaycan ərazilərində irəliləməyə çalışırdılar: a) Zəngəzur–Cəbrayıl istiqaməti; b) Zəngəzur–Şuşa–Xankəndi–Əsgəran–Ağdam istiqaməti; c) Ağdərə–Tərtər istiqaməti. Ermənistanın bu istiqamətlərdəki təcavüzkarlıqları Qarabağda və onun ətrafında toplanılmış erməni silahlı dəstələri tərəfindən dəstəklənməli idi.

Qafqazda cərəyan edən hadisələri obyektiv şəkildə işıqlandıran ingilis jurnalisti Skotland Liddel bu məsələyə də biganə qalmamışdı. Onun yazdıqlarına görə müstəqillikləri tanındıqdan sonra Azərbaycan və Gürcüstan mübahisəli məsələlərin müttəfiqlər tərəfindən həll olunmasına ümid etdikləri halda, ermənilər yenə də günahsız insanların qanını tökməkdə davam edirdilər. İngilis jurnalisti bu haqda yazdığı məqalələrin birini belə tamamlayırdı: "Ermənilər özlərini Zəngəzurdakı indiki hücumunun müvəqqəti uğu-

runa şübhə etmirlər. Onların nizami qoşun hissələrinin çoxu əvvəllər rus ordusunda xidmət etmişdi, Azərbaycan qoşunları isə yalnız yeni çağırışçılardan təşkil olunmuşdur. Lakin bu müvəffəqiyyət uzun müddət ola bilməz. Ermənilər nəinki doğru deyildirlər, onlar eyni zamanda azlıqdadırlar. Ancaq elə bir gün gələcək ki, bütün müsəlmanlar bir nəfər kimi onlara təzyiq göstərənlərə qarşı çıxacaqdır və həmin gün gəlib çatanda erməni xalqını heç nə xilas edə bilməyəcəkdir" (280).

1920-ci il yanvarın 16-da Dövlət Müdafiə Komitəsi öz iclasında Zəngəzurda hərbi şəraitin yenidən mürəkkəbləşməsini müzakirə etdi. Burada bildirilirdi ki, 1919-cu il noyabrın 23-də Tiflisdə imzalanan razılaşmadan sonra Azərbaycan öz qoşun hissələrini Zəngəzurdan geri çəksə də, Ermənistan tərəfi öz nizami qoşun hissələrini geri çağırmadı. Əksinə, onları möhkəmləndirdi. Həmin vaxtdan keçən müddət ərzində Zəngəzurun daha 40 kəndi talan edilib, sakinləri öldürülüb (281).

Bu erməni vəhşiliklərinə son qoyulmasına nail olunması üçün Azərbaycanın Xarici İşlər naziri F.Xoyski 1920-ci il yanvar ayının 17-də müttəfiq dövlətlərin Cənubi Qafqazdakı ali komissarı polkovnik Qaskelə nota göndərdi. Notada bildirilirdi ki, Zəngəzurda qan axıdılmasına son qoyulmasını istəyən Azərbaycan hökuməti müttəfiq dövlətlərin Cənubi Qafqazdakı ali komissarının müavini polkovnik Reyin və Böyük Britaniyanın bölgədəki ali komissarı mayor Uordropun məsləhətlərini nəzərə alaraq Azərbaycan hakimiyyəti əleyhinə qiyam qaldıran erməni əhalisinə kömək üçün Ermənistan hökuməti tərəfindən göndərilən nizami qoşun hissələrinə qarşı döyüşlərə girməməyi Qarabağ general-qubernatoruna tapşırmışdır. Azərbaycanın Xarici İşlər naziri bir daha xatırladırdı ki, Ermənistan hökuməti Tiflisdə imzalanmış 23 noyabr 1919-cu il tarixli razılaşmaya əməl etmir və Azərbaycandan fərqli olaraq Ermənistan Zəngəzurdan öz qoşunlarını geri çağırmadı. Əksinə, Ermənistan hökuməti Zəngəzura əlavə hərbi qüvvələr, silah və sursat göndərməkdə davam edir. Nəticədə, Zəngəzurun müsəlman əhalisi etnik və zorakı təmizləməyə məruz qalır. Bundan başqa, Şuşa və

Cəbrayıl qəzalarının erməni kəndləri ilə Zəngəzur qəzasının erməni kəndləri arasında qalan azərbaycanlı kəndləri də erməni təcavüzkarlığının obyektinə çevrilmişdi. F.Xoyski polkovnik Qaskeldən bir daha xahiş edirdi ki, Zəngəzura amerikalı zabitlərdən ibarət bir heyət göndərilsin və bu heyət qəzadakı erməni silahlı qurumlarının tərk-silah edilməsinə yardımçı olsun (282).

Yanvarın 19-da erməni nizami qoşun hissələri artilleriyadan və ağır silahlardan istifadə etməklə Zəngəzurun 8 azərbaycanlı kəndini yerlə-yeksan etdilər (283).

Yanvarın 19-da erməni qoşun hissələrinin Zəngəzurda başladığı hücumlar sonrakı günlər ərzində daha geniş miqyas aldı. Ayın 20-nə olan məlumatda göstərilirdi ki, Zəngəzurda fəaliyyət göstərən erməni silahlı dəstələri Qarabağa doğru irəliləyib buradakı erməni dəstələri ilə birləşərək Qarabağı da qan çanağına çevirmək istəyirlər. Belə olanda Əsgəran və Şuşa şəhərlərinin üzərini də təhlükə alırdı. Bu istiqamətdə hərəkət zamanı erməni qüvvələri öz marşrutları üzərində olan bütün Azərbaycan kəndlərini məhv etməyi planlaşdırırdılar (284).

Erməni qüvvələri başladıqları irimiqyaslı hücumlarda təkcə Zəngəzuru deyil, Qarabağı da birdəfəlik Azərbaycandan qoparmağa və bu əraziləri azərbaycanlı əhalidən tamamilə təmizləməyə çalışırdılar.

Yanvarın 21-də verilən məlumatlara görə Cəbrayıl qəzasında da erməni silahlı dəstələrinin hücumları geniş miqyas aldı. Burada döyüşlər Xanlıq kəndinin ətrafında gedirdi. Dəqiqləşdirilmiş məlumatlara görə erməni dəstələrində 60 ədəd pulemyot var idi.

Erməni silahlı qüvvələri qəzanın içərilərinə doğru hərəkətini davam etdirirdi. Kəndlərdə yaradılmış olan könüllü müdafiə qüvvələri çoxsaylı və yaxşı təchiz olunmuş erməni dəstələrinin qarşısını almağa qadir deyildi (285).

Yanvarın 21-də Zəngəzur qəza rəisinin yerləşdiyi Dondarlı kəndi ermənilər tərəfindən işğal edildi (286).

Elə həmin gün Parlamentin üzvü Cəlil Sultanov Qaryagindən Parlament sədrinə göndərdiyi teleqramda bildirirdi ki, Zəngəzur

qəzasında erməni hücumları 4 gündür ki davam edir. Qubadlıdan Xocaqana qədər olan 50 verstlik ərazi erməni vəhşiliklərinə məruz qalmışdı. C.Sultanov təcili olaraq bölgəyə qoşun və güllə göndərilməsini tələb edirdi. O, qəza camaatı adından xahiş edirdi ki, hökumət orqanları Ermənistan dövlətinə etiraz notaları göndərməklə işini bitmiş hesab etməsin. Erməni qoşunlarının qırğınlarının qarşısının alınması üçün daha təsirli vasitələrə əl atılsın. Hadisələrin gedişi ilə yerində tanış olan Parlamentin üzvü şübhə etmirdi ki, Zəngəzur tamamilə işğal ediləndən sonra növbə Qarabağa çatacaqdır (287).

Yanvar ayının 21-də Baş Ərkani-hərb rəisi general-leytenant Sulkeviç Xankəndi qarnizonunun rəisi general-mayor Purseladzedən tələb etdi ki, Müsəlmanlar və Alyanlı kəndləri istiqamətinə bir bölük qüvvə və 2 ədəd pulemyot göndərsin və onların köməyi ilə Zəngəzurdan irəliləyən erməni hərbi qüvvələrin Qarabağa yolunu kəsməyə çalışsın. Müsəlmanlar kəndi istiqamətindən təcavüzü genişləndirən erməni hərbi qüvvələrinin məqsədi Cəbrayıla çıxmaq, buradakı erməni silahlıları ilə birləşmək və Qarabağın cənubundan Şuşaya doğru irəliləmək idi. Cəbrayılı bütünlüklə işğal etməklə erməni millətçi dairələri Naxçıvanı da Azərbaycandan qoparmaq niyyətində idilər. Bu, Naxçıvan üzərinə hücum üçün daha əlverişli zəmin yarada bilərdi.

Doğrudur, Cəbrayıl ətrafından topalanmış partizanların köməyi ilə Dondarlı ətrafında vəziyyəti bir qədər sabitləşdirmək mümkün oldu. Lakin bu, çox da uzun sürmədi. Çünki çoxsaylı erməni qüvvələrinin qarşısının alınması üçün yetərli güc mövcud deyildi.

Yanvarın 21-də Zəngəzurda şiddətlənən erməni təcavüzünün qarşısının alınması Dövlət Müdafiə Komitəsində bir də müzakirə olundu. Burada qərara alındı ki, Zəngəzurda erməni təcavüzünün qarşısını almaq məqsədilə yerli hərbi qüvvələrin təşkilinə 5 milyon rubl ayrılsın. Qərarda göstərilməsə də, burada söhbət kürd hərbi hissələrinin təşkilindən gedirdi. Məsələnin vacibliyi nəzərə alınaraq dərhal da bu qərarın icrası ilə bağlı əməli addımlar atılmağa başlandı. Yanvar ayının 24-də artıq 4 milyon rubl Qarabağ ge-

neral-qubernatorunun sərəncamına köçürüldü (288).

Genişlənən erməni təcavüzünün dayandırılması üçün Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistan Xarici İşlər Nazirliyinə etiraz notası göndərdi.

Azərbaycanın Xarici İşlər naziri F.Xoyski polkovnik Qaskelə göndərdiyi notada olduğu kimi Ermənistanın Xarici İşlər naziri A.Xatisova da Azərbaycan hökumətinin qətiyyətli mövqeyini bildirdi. Onun yazdıqlarından aydın olur ki, artıq 1920-ci il yanvar ayının 19-da Ermənistanın qoşun hissələri silahlı erməni quldur dəstələri ilə birlikdə Zəngəzurdan Şuşa qəzası istiqamətində hücuma başlamışdılar və bu zaman onların marşrutu üzərində olan 9 azərbaycanlı kəndi büsbütün məhv edilmişdi. Azərbaycanın Xarici İşlər naziri bir daha qeyd edirdi ki, Tiflisdə imzalanan 23 noyabr 1919-cu il razılaşması erməni hərbi qüvvələri tərəfindən pozulmuş və ötən müddət ərzində 40 azərbaycanlı kəndi məhv edilmişdi. Azərbaycanın Xarici İşlər naziri bildirirdi ki, mənasız insan qırğınlarının qarşısının alınmasına və xalqlarımızın daha da yaxınlaşmasına çalışdığımız bir vaxtda müsəlman kəndlərinin məhvinin davam etdirilməsi haqqında xəbərlər alınmaqdadır. F.Xoyski narahatlıqla bildirirdi ki, Ermənistan hökumətinin öz üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi əldə edilmiş razılaşmanı da əhəmiyyətsiz edir və onun sözlərinə görə belə bir halda Azərbaycan hökuməti də qarşılıqlı münasibətlərin dinc yolla qurulacağına öz inamını itirir.

Həmin notada da Azərbaycan hökuməti qətiyyətli şəkildə Zəngəzurda genişlənməkdə olan talan və qırğınlara son qoyulmasını tələb edirdi. Notada o da bildirilirdi ki, erməni silahlı qüvvələrinin dinc azərbaycanlı əhaliyə qarşı təcavüzkar fəaliyyətinə son qoyulmazsa, onda Azərbaycan hökuməti dinc əhalinin qorunması üçün daha qəti tədbirlərə əl atacaqdır (289).

Genişlənən təcavüzün arxasında Ermənistanın dövlət və hökumət orqanları dayandığı üçün heç şübhəsiz ki, Azərbaycanın notası qulaqardına vuruldu və onun tələblərinin yerinə yetirilməsi üçün heç nə edilmədi. Ermənistan hökuməti Azərbaycanın notasına yalnız yanvarın 30-da cavab verdi. Notada bildirilirdi ki, Zən-

gəzurda nə baş verdiyindən Ermənistan hökumətinin xəbəri yoxdur və Azərbaycan tərəfindən xahiş edilirdi ki, Zəngəzurda baş verən hadisələr haqqında Ermənistan hökumətinə daha ətraflı məlumat versin (290).

Yanvarın 23-də Parlamentin üzvü C.Sultanov Parlamentin, Nazirlər Şurasının sədrlərinə, Parlamentin bir sıra fraksiyalarının sədrlərinə göndərdiyi məlumatda bildirirdi ki, 10 ədəd topun, çoxlu pulemyotun müşayiəti ilə erməni silahlı dəstələrinin yanvarın 19-da başladığı hücum hələ də dayandırılmamışdır. Ötən günlər ərzində təkcə Xocaqan və Qaladərəsi kəndləri arasında 15 azərbaycanlı kəndi məhv edildi (291).

Həmin tarixə aid olan başqa bir məlumatda Zəngəzurun üçüncü sahəsinin tamamilə ermənilər tərəfindən işğal edildiyi bildirilirdi. Öz uğurlarından ruhlanan erməni qoşunları qəzanın 4-cü sahəsi və Cəbrayıl qəzası istiqamətində də hücumları davam etdirirdilər. Dəqiqləşdirilmiş məlumatlara görə erməni hissə və bölmələrində 60 ədəd pulemyot var idi (292).

Erməni silahlı dəstələri hücumları çox böyük bir sürətlə genişləndirirdilər. Gün ərzində hərbi şəraitdə çox böyük dəyişikliklər meydana gəlirdi. Elə yanvarın 23-nə aid olan başqa bir məlumatda bildirilirdi ki, sayı 10 min nəfərə çatan erməni nizami qoşun dəstələri Zəngəzur qəzasını artıq bütünlüklə ələ keçirmişlər. Yanvarın 23-də qəzanın 4-cü sahəsinin salamat qalan son kəndləri də mühasirə edilmişdi və az müddət ərzində onların da məhv ediləcəyi heç kimdə şübhə doğurmurdu. Parlamentin üzvü C.Sultanovun verdiyi məlumata görə yanvarın 24-də Zəngəzuru viran qoyan qoşun hissələri Cəbrayıl qəzasının içərilərinə doğru hücumlarını davam etdirməli idilər ki, burada Qarabağın erməni silahlı dəstələri ilə birləşsinlər. Bununla da onlar həm Naxçıvanı Azərbaycandan ayrı salmaq, həm də Qarabağı birdəfəlik ələ keçirmək niyyətində idilər.

C.Sultanovun fikrincə, Azərbaycan hökuməti, nəhayət, təsirli tədbirlər görməsəydi, erməni millətçi qüvvələri bu planların həyata keçirilməsinə çox yaxın idilər. Son hücumlar ərzində Zəngəzurda 200 min azərbaycanlının qırıldığı güman edilirdi. C.Sultanov Par-

lament sədrinin adına gündərdiyi teleqramı bu cümlələrlə bitirirdi: "Xahiş edirəm təcili tədbirlər görülsün ki, heç olmasa Qarabağ, Şuşa və Cəbrayıl qəzaları xilas edilsin. Hər dəqiqə qiymətlidir. Ləngimək cinayətə, xalq və Vətən qarşısında xəyanətə bərabərdir. Hərbi nazirin bölgəyə gəlməsi zəruridir" (293).

Bölgədə baş verən proseslərin izlənməsi göstərir ki, Azərbaycan tərəfi ilə müxtəlif danışıqlara girib müxtəlif razılaşmalar imzalasa da, müxtəlif dövlətlərin vasitəçiliyindən istifadə etsə də, erməni millətçiləri öz xislətlərindən əl çəkmirdilər və məqsədləri Azərbaycan tərəfini sakitləşdirmək, diqqəti yayındırmaq, yeni qüvvələr toplayıb təcavüzü daha da genişləndirmək idi. Yanvar ayında genişlənən təcavüzlər də erməni millətçilərinin bu ikiüzlü siyasətinin davamı idi.

Azərbaycan qoşun bölmələrinin Zəngəzurdan çıxması, yerli könüllü dəstələrin isə lazımi imkanlara malik olmaması faciələrin vüsət almasına zəmin yaradırdı. Xankəndi qarnizonunun zəifləyəcəyi təqdirdə Qarabağdakı erməni silahlı dəstələri hücum edib Şuşanı və Əsgəranı işğal edə bilərdilər (294).

Zəngəzurda vəziyyət mürəkkəbləşən kimi Hərbi Nazirliyin məsul şəxsləri bölgəyə ezam olundular. Əvvəlcə Baş Topçu idarəsinin rəisi general-mayor Məmməd Mirzə Qacar bölgədə oldu. Vəziyyətlə tanış olandan sonra o da təcavüzkar fəaliyyəti günü-gündən genişlənməkdə olan erməni silahlı qüvvələrinə qarşı təsirli və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini lazım bildi. Ancaq bunun üçün general-mayor Məmməd Mirzə Qacar digər qarnizonlardan hərbi yardımın göndərilməsinin məqsədəuyğunluğunu da vurğulayırdı. Onun fikrincə, yerli qarnizonun qüvvələrinin səpələnməsi Əsgəran və Şuşanın işğalı ilə nəticələnə bilərdi. M.M.Qacar onu da əlavə edirdi ki, yerli ermənilər haqqında daha ciddi tədbirlər görülməlidir (295).

Yanvarın 24-də Baş Ərkani-hərb rəisi M.Sulkeviç Ağdama iki ədəd zirehli avtomobilin göndərildiyini bildirirdi. Həmin avtomobillər Şuşa–Yevlax yolunun mühafizəsini təmin etməli idi (296).

Elə həmin gün, yəni yanvar ayının 24-də süvari diviziyası komandirinin müavini polkovnik Xosrov Mirzə Qacar milli qoşun bölmələrindən Cəbrayılda təşkil olunmuş dəstənin rəhbəri təyin edildi və ondan tələb edildi ki, dərhal Cəbrayıla yola düşsün. Bu dəstənin tərkibinə 3-cü Gəncə piyada alayının bir taboru, 1-ci artilleriya briqadasının bir batareyası və 2-ci Qarabağ süvari alayının bir bölüyü daxil idi. Bu dəstənin əsas vəzifəsi Zəngəzur qəzası ilə Şuşa qəzası arasında yaşayan azərbaycanlı əhalini erməni təcavüzündən qorumaq idi. Xosrov Mirzə Qacar tabeliyində olan dəstədən bir bölüyü Cəbrayılda, digər bölmələri isə Qarabağ general-qubernatorunun razılığı ilə Həkərə çayı boyunca yerləşən Azərbaycan yaşayış məntəqələrində yerləşdirməli idi. Cəbrayıl dəstəsi müdafiədə dayanmalı və erməni hücumlarının qarşısını almalı idi. Hərbi Nazirlik tərəfindən verilən əmrdə tələb olunurdu ki, Cəbrayıl dəstəsinin rəhbəri dəstənin cinahlarını və arxasını xüsusi müşahidə altında saxlasın və bu istiqamətlərdən baş verə biləcək təhlükənin qarşısı vaxtında alınsın.

Yaranmış mürəkkəb vəziyyətdə Azərbaycanın milli qoşun bölmələrinin fəaliyyəti Xankəndi qarnizonunun rəisi general Purseladze tərəfindən əlaqələndirilməli və rəhbərlik edilməli idi. Qarabağ general-qubernatoru həm milli qoşun bölmələrinin fəaliyyətinin daha səmərəli uzlaşdırılması, həm də hərbi qüvvələrlə partizan dəstələrinin fəaliyyətinin əlaqələndirilməsi üçün Xankəndi qarnizonunun rəhbəri vəzifəsinə azərbaycanlı generallardan birinin təyin edilməsi haqqında Hərbi Nazirlik qarşısında vəsatət qaldırdı. Hərbi Nazirliyin rəhbərliyi bu vəsatəti haqlı qəbul etdi və Qarabağdakı hərbi qüvvələrin fəaliyyətinə rəhbərlik süvari diviziyasının komandiri general-mayor Teymur bəy Novruzova tapşırıldı. Qarabağda yerləşən döyüş qüvvələri və xidmət bölmələri bütünlüklə ona tabe etdirildi. General Əmənulla Mirzə Qacar isə Xankəndi qarnizonunun rəisi təyin edildi. Bundan başqa, Qarabağ dəstəsinin fəaliyyətinin general-qubernatorluğun fəaliyyəti ilə daha yaxşı əlaqələndirilməsi və bölgədə cərəyan edən hərbi-siyasi proseslərlə

daha yaxından tanış olması üçün Baş Ərkani-hərb rəisi general-leytenant Sulkeviç də bölgəyə ezam edildi.

Yanvarın 27-də general-leytenant M.Sulkeviç süvari diviziyasının komandiri general-mayor T.Novruzovla birlikdə Şuşaya gəldi. O, Xankəndi qarnizonunun rəisini yanına dəvət edib vəziyyətlə bağlı onunla məsləhətləşmələr apardı. Sulkeviçin Hərbi Nazirliyə göndərdiyi məlumatda bildirilirdi ki, süvari diviziyasının qərargahı da Yevlaxdan Xankəndinə yola düşmüşdür (297).

General Sulkeviç Qarabağ general-qubernatorluğunun nümayəndəsi və Qarabağda toplanan partizan dəstəsinin rəhbəri ilə apardığı məsləhətləşmədən sonra belə bir qərara gəldi ki, Cəbrayıl dəstəsinin gücləndirilməsi üçün ayrılmış bölmələrdən və Şəki süvari alayından Tərtərə göndərilmiş 2 bölükdən əlavə bölgəyə əlavə piyada və süvarilərin göndərilməsinə ehtiyac yoxdur. Amma general Sulkeviç Qarabağdakı dəstənin toplarla möhkəmləndirilməsini lazım bildi. Onun bildirdiyinə görə Zəngəzurda aparılan əməliyyat zamanı milli ordu topçularının sərrast fəaliyyəti azərbaycanlı əhalidə topların gücünə bir inam yaratmışdı. Ona görə bölgəyə yeni topların göndərilməsi yerli əhalidə də Qarabağ dəstəsinin gücünə bir əminlik yarada bilərdi. General Sulkeviç təklif etdi ki, bir haubitsa batareyası Şuşaya, bir dağ-topçu batareyası Cəbrayıla, bir dağ-topçu batareyası və bir pulemyot bölüyü Şuşaya göndərilsin. Hər batareyanın müşayiət ediləmsinə bir bölük ayrılması da general Sulkeviçin təklifləri arasında idi.

Digər məntəqələrdə teleqraf əlaqələrinin yaradılması üçün kabel çatışmırdı. General-leytenant Sulkeviç Hərbi Nazirliyin ehtiyatlarından bura kabel göndərilməsinə kömək göstərəcəyini bildirdi. Qoçazda müdafiə qüvvələrinin gücləndirilməsi planlaşdırılırdı. Cəbrayıldan bura partizan dəstəsi göndərilmişdi. Əlavə olaraq fevralın 4-nə kimi 400 nəfər kürd partizanı və Şuşadan 500 partizan bura gəlməli idi. Həmin sahədə müdafiə qüvvələrinin möhkəmlənməsi Zəngəzurdan Qarabağa doğru hərəkət etmək istəyən erməni qoşun hissələrinin qarşısını ala bilərdi (298).

General Sulkeviçin bu təklifləri Qarabağ general-qubernatorluğu tərəfindən də rəğbətlə qarşılandı və bu təkliflərin qəbul edilməsi üçün general-qubernatorluqdan Hərbi Nazirliyin qarşısında vəsatət qaldırıldı. General-qubernatorluqdan bildirildi ki, erməni təcavüzünün qarşısının alınması üçün bölgədə toplanan könüllülər silah və sursatla təmin ediləcəyi halda bura əlavə qoşun hissələrinin göndərilməsinə ehtiyac qalmır.

Hərbi nazir vəzifəsini müvəqqəti icra edən general Ə.Şıxlinski Qarabağ general-qubernatorunun müavininin müraciəti ilə bağlı erməni qoşun hissələrinə qarşı mübarizə tədbirlərinin gücləndirilməsini vacib sayırdı. Bunun üçün o, Xankəndindən bir top batareyasının lazım olan məntəqəyə göndərilməsi barədə göstəriş verdi. Ə.Şıxlinskinin fikrincə, başqa qarnizonlardan Qarabağa göndərilən qoşun hissəsi buraya yaxşı halda 7–8 gündən sonra gəlib çıxa bilərdi. Ancaq hələ də sovuşmayan erməni hücumlarının qarşısının alınması üçün Xankəndindəki top batareyası Zəngəzur qəzasının sərhədlərinə çox tez bir zamanda yetişə bilərdi. Ə.Şıxlinskiyə görə, bir top batareyasının Xankəndindən çıxarılması oradakı qarnizonu çox da zəiflətməzdi. Şuşa və Zəngəzur qəzalarının sərhədində güclü müdafiə qüvvələri olduğu təqdirdə Xankəndini 2–3 bölük və bir pulemyot komandası ilə müdafiə etmək olardı. Ümumən, Ə.Şıxlinski Xankəndi qarnizonunun rəisinə əmr göndərdi ki, Xankəndində bir tabor, bir batareya və iki süvari bölüyü saxlasın və qalan bölmələri erməni təcavüzünün qarşısının alınması üçün Zəngəzur istiqamətinə çıxarsın. Zəngəzur qəzası sərhədindəki müdafiə qüvvələrini arxadan himayə etmək üçün Ə.Şıxlinski Xaçmazda yerləşən 4-cü dağ-topçu batareyasının, bu batareyanın müşayiət edilməsi üçün 3-cü Gəncə piyada alayının bir piyada bölüyünün və bir pulemyot komandasının Qarabağa göndərilməsi barədə göstəriş verdi. O, erməni təcavüzünün qarşısının alınması üçün bu qüvvələrin kifayət edəcəyini bildirirdi. Ə.Şıxlinskinin əmri ilə Qarabağa 60 verst kabel də göndərildi. Tərtər istiqamətində müdafiə mövqelərinin möhkəmləndirilməsi üçün 3-cü Şəki süvari alayının iki bölüyü də Tərtərə gətirildi.

Bundan başqa, Sulkeviç erməni qoşun hissələrinin təcavüzünə qarşı mübarizə aparılması üçün təyyarələrdən istifadə edilməsini və havadan erməni hərbi bazalarına bomba atılmasını da istisna etmirdi. Onun yazdığına görə belə bir təcrübədən Gürcüstanda hökumət əleyhinə üsyanların yatırılmasında çox səmərəli şəkildə istifadə olunmuşdu. Ancaq həmin vaxt Azərbaycanda bu işi yerinə yetirə biləcək təyyarə yox idi. Sulkeviç Qarabağdan Bakıya göndərdiyi teleqramında belə bir təyyarənin Gürcüstandan müvəqqəti də olsa alınmasının mümkünlüyünü nəzərdən keçirməyi xahiş edirdi. Doğrudur, hərbi əməkdaşlıq barədə Azərbaycanla Gürcüstan arasında olan razılaşmaya əsasən gürcü zabitlərinin Azərbaycan Ordusunda xidmət etməsinə icazə verilirdi, lakin onların Azərbaycanın daxilində gedən hərbi əməliyyatlarda iştirakı qadağan idi. General-leytenant Sulkeviç bildirirdi ki, Gürcüstandan təyyarə alınarsa, onu azərbaycanlı pilot Xan Əfşar da idarə edə bilər. Bu isə Gürcüstanla olan razılaşmanın pozulması demək deyildi (299).

Sənədlərdə erməni qüvvələrinə qarşı hər hansı bir təyyarədən istifadə edilməsi barədə məlumata rast gəlmək mümkün deyil. Çox güman ki, Sulkeviçin qaldırdığı təklif öz həllini tapmamışdı.

Yanvar ayının sonlarında gərginlik nisbətən səngiməyə başladı. Çünki bir tərəfdən Zəngəzurda çoxsaylı azərbaycanlı kəndləri dağıdılmış və azərbaycanlı əhali artıq qəzadan qovulmuşdu. Ermənilər qarşıya qoyulan məqsədə nail olmuşdular. Digər tərəfdən isə Azərbaycan hökumətinin müvafiq tədbirlər görməsi, yenidən hərbi vasitələrə meyil etməsi erməniləri köhnə taktikaya əl atmağa sövq etdi. Onlar müvəqqəti sakitlik yaratmaqla həm Azərbaycan tərəfinin, həm də müttəfiq dövlətlərin nümayəndələrinin diqqətini törətdikləri təcavüzdən yayındırmağa çalışırdılar.

1920-ci il yanvarın 20-də Qarabağ general-qubernatorunun müavininin Cəbrayıldan Hərbi Nazirliyə göndərdiyi məktubda da bildirilirdi ki, Dondarlı ətrafında vəziyyət son günlərdə sakitdir. Cəbrayıldan olan partizanlar buradakı erməni qüvvələri üzərinə hücum etmiş və onlardan qənimət kimi bir top da ələ keçirmişdilər. Güman edilirdi ki, ermənilərin başı hazırda öz qüvvələrini bərpa

etməyə qarışmışdır. General-qubernatorun müavinin yazdıqlarından aydın olur ki, yanvar ayının sonunda general-leytenant M.Sulkeviç də Cəbrayıla gəlmiş və o, Xanlıq, Müsəlmanlar və Qoçaz ətrafında olan silahlı dəstələrin vəziyyəti ilə tanış olmuşdu. Müdafiə mövqelərinin gücləndirilməsi, nəzərdə tutulan məntəqələr arasında teleqraf əlaqələrinin yaradılması planlaşdırılırdı. Abdallar-Şuşa və Abdallar-Dondarlı arasında belə əlaqələr yaradılmışdı.

Bölgədə vəziyyətin sabitləşdirilməsi üçün bura əlavə qüvvələrin və vasitələrin səfərbər edilməsi qərara alındı. Bunun üçün konkret yollar müəyyənləşdirildi (300).

Bununla əlaqədar general Ə.Şıxlinskinin əmrinə əsasən bölgəyə əlavə qüvvə və texniki vasitələr göndərildi (301).

Zəngəzurda törədilən təcavüzkarlıqların qarşısını almaq üçün həmin bölgəyə azsaylı hərbi qüvvələr də göndərildi (302). Doğrudur, bu qüvvələrlə Zəngəzurun təhlükəsizliyini təmin etmək mümkün deyildi. Bununla belə nəzərdə tutulurdu ki, həmin qüvvələr erməni silahlılarının təcavüzkarlığını müəyyən qədər məhdudlaşdıra bilər.

Erməni millətçiləri öz təcavüzkar planlarından heç də əl çəkməmişdilər. Silah gücünə Zəngəzurun daha çox erməniləşməsinin ardınca bu dairələr Qarabağı da Azərbaycandan qoparmaq istiqamətində çox ciddi hazırlıqlar aparırdılar.

Mövcud məlumatlara görə Azərbaycan üzərinə hücuma hazırlaşan Ermənistan hərbi qüvvələri könüllülərlə birlikdə 12 min nəfər idi. Eyni zamanda, təcavüzkar planların həyata keçirilməsi üçün ermənilər arasında kütləvi səfərbərliyə də başlanmışdı.

1920-ci il fevral ayının ilk ongünlüyündə Cavanşir qəzasında erməni fəallaşmasının qarşısının alınması üçün Şəki süvari alayının Tərtər yaxınlığındakı ermənilər yaşayan ərazidə olan Yüzbaşovun malikanəsində yerləşdirilməsi qərara alındı. Bu qərar Qarabağ general-qubernatorunun məsləhəti ilə qəbul edildi. Şəki süvari alayının Tərtərə gətirilməsi ilə, eyni zamanda, aşağıdakı məqsədlər də izlənilirdi:

– Həsənriz erməni kəndinin və bütünlükdə Cavanşir erməniləri-

rinin nəzarət altına alınması;

– Zod aşırımı vasitəsi ilə Ermənistandan gələn silahlı dəstələrin Qarabağın içərilərinə doğru irəliləməsinin və burada toplanan erməni silahlıları ilə birləşməsinin qarşısının alınması;

– bölgədə yaşayan ermənilərin Azərbaycan hökumətinin həyata keçirdiyi qərarlarla bağlı əhval-ruhiyyəsinin yoxlanılması, ermənilərə etibar edilməsinin mümkünlüyünün öyrənilməsi.

Lakin Tərtər ətrafında olan erməni kəndləri fevral ayının 11-də iclasa toplaşaraq Şəki süvari alayının Yüzbaşovun malikanəsində yerləşdirilməsinə razı olmadıqlarını bildirdilər. Onlar buna qarşı hətta müqavimət göstərməyə belə hazır olduqlarını bəyan etdilər (303).

Şəki süvari alayının Tərtərdə yerləşdirilməsi də erməni millətçi-təcavüzkar dairələrinin fəallıqlarını xeyli məhdudlaşdırdı. Bundan sonra, hətta Ermənistan hökuməti Azərbaycan hökumətinə nota verərək Qarabağa əlavə Azərbaycan hərbi qüvvələrinin gətirilməsinə etirazını bildirdi. Doğrudur, Azərbaycan hökuməti tərəfindən Ermənistana xatırladıldı ki, bölgədə hərbi-siyasi vəziyyətin mürəkkəbləşməsinin səbəbi erməni hərbi qüvvələrinin təcavüzkarlıqlarının genişlənməsidir. Amma Ermənistan hökuməti nəinki bununla razılaşmadı və belə bir qənaətə gəldi ki, Azərbaycan ərazilərinin parçalanması və Qarabağın Azərbaycandan qoparılması üçün bölgəyə daha böyük qüvvələr cəlb etmək lazımdır. Ona görə fevral ayının sonu və mart ayının əvvəllərində bölgədə nisbi sakitlik olsa da, Ermənistan Azərbaycan üzərinə daha geniş təcavüzkarlıq üçün hazırlıqlarını sürətləndirməyə başladı. Bu hazırlıqlar Azərbaycan hökuməti, Hərbi Nazirlik tərəfindən diqqətlə izlənilirdi və məlum idi ki, Ermənistan Azərbaycan üzərinə geniş miqyaslı hücuma hazırlaşır.

Bölgədəki erməniləri təşkilatlandırmaq üçün İrəvandan Ağdərəyə erməni emissarları gəlmişdilər. Onlar özləri ilə böyük həcmdə maliyyə vəsaiti gətirmişdilər və burada Ermənistan hərbçiləri üçün buğda almağı planlaşdırırdılar. Eyni zamanda, nəzərdə tutulmuşdu ki, bölgədəki 17–30 yaş arasında olan ermənilər səfərbərliyə alınsın. Qarabağ general-qubernatorunun S.Mehmandarova göndərdiyi

teleqramda bildirilirdi ki, Cavanşir ermənilləri onun yanına öz nümayəndələrini göndəriblər. Onun fikrincə, ermənilər bu hərəkətləri ilə Azərbaycan məqamlarının diqqətini ermənilərin fəaliyyətindən yayındırmaq və daha qətiyyətli əməllər üçün vaxt qazanmaq istəyirdilər. Çünki verilən məlumatlara görə Ermənistan hərbi qüvvələri Zod aşırımı vasitəsi ilə bölgəyə gəlməyi planlaşdırırdı. Bu planın icrasının nişanəsi kimi Ermənistandan bir polkovnik ətrafındakı silahlılarla artıq bölgəyə gəlmişdi. X.Sultanovun fikrincə, bölgədəki milli hərbi qüvvələr topa malik olmadığı üçün kifayət qədər güclü deyildilər. Ona görə də təklif edirdi ki, bölgədəki milli hərbi qüvvələr piyadalarla və səhra topları ilə gücləndirilsin və eyni zamanda, əvvəlcə Marquşevan, sonra da Həsənriz kəndləri tutulsun. Bütünlükdə, Qarabağ general-qubernatoruna görə, ermənilər arasında ümumi bir hazırlıq işlərinin aparıldığı müşahidə edilməkdə idi. Bunun üçün o, Zəngəzur istiqamətində olan hərbi qüvvələrə toxunmadan Cavanşir və Cəbrayıl istiqamətindəki milli hərbi qüvvələrin möhkəmləndirilməsini məqsədəuyğun bilirdi. X.Sultanov Zəngəzur ətrafındakı erməni qüvvələrinin sayının dəqiqləşdirilməsinə də çalışırdı. Bu məqsədlə o, Zəngəzura erməni əhalisindən olan agentlər göndərməyi planlaşdırırdı (304).

Baş Ərkani-hərbin kəşfiyyat bölməsinin əldə etdiyi kəşfiyyat məlumatlarına görə isə 1920-ci il fevralın əvvəllərində Zəngəzurda erməni piyada alaylarının formalaşdırılmasına başlanmışdı. Bunun üçün 1-ci, 4-cü, 5-ci və 6-cı piyada alaylarının hər birindən bir bölük Zəngəzura göndərilmişdi. Bundan başqa, Zəngəzura 3 dağ batareyası, 1 haubitsa, 2 səhra topu, 60 ədəd “Lyuis” pulemyotu və 12 ədəd “Maksim” pulemyotu göndərilmişdi. Zəngəzurda erməni hərbi qüvvələrinə Dro rəhbərlik edirdi. Onun müavini isə general Qazarov idi. Eyni zamanda, burada könüllü drujinalar da yaradılırdı. “Xumbapet” adlanan və keçmiş rus ordusunda xidmət keçmişlərdən təşkil edilən bu drujinaların təşkilatçısı və rəhbəri Artaş adlı birisi idi. Dəli Qazar adlı birisi isə Dilicanda at və könüllülər toplayıb yeni dəstə yaratmaqla məşğul idi (305).

Bütünlükdə alınan məlumatlara görə Ermənistanın hərbi qüv-

vələri könüllülərlə birlikdə 12 min nəfər idi. Eyni zamanda, təcavüzkar planların həyata keçirilməsi üçün ermənilər arasında kütləvi səfərbərliyə də başlanmışdı (306).

Azərbaycan hökumətinin respublikanın ərazi bütövlüyünü qorumaq üçün həyata keçirdiyi tədbirlər Ermənistan hökumətini heç də razı salmadı. Zəngəzur sərhədlərində və Qarabağda müdafiə tədbirlərinin həyata keçirilməsinə etiraz əlaməti olaraq Ermənistan Xarici İşlər Nazirliyi 1920-ci il fevralın 20-də Azərbaycan Xarici İşlər Nazirliyinə etiraz notası göndərdi. Ermənistan hökuməti Zəngəzurda törətdiyi bütün faciələrə göz yumaraq Azərbaycan hökumətini Qarabağ ermənilərinin Milli Şurası ilə əldə edilmiş və Zəngəzurda atəşin dayandırılması haqqında 1919-cu il noyabrın 23-də Tiflisdə imzalanmış razılaşmanı pozmaqda günahlandırır, bölgəyə əlavə qoşun hissələri gətirilməsinin dayandırılmasını tələb edirdi (307).

Fevralın 26-da Azərbaycan Xarici İşlər naziri F.Xoyskinin imzası ilə Ermənistana cavab notası göndərildi. Notada deyilirdi ki, Azərbaycan təcavüzkar məqsədlər izləmir. Qeyd olunurdu ki, Ermənistanın notasında xatırlanan razılaşmaları da məhz Ermənistan tərəfi pozmuşdur. Əldə edilən razılaşmalara baxmayaraq, erməni qoşun bölmələri Zəngəzurdan Şuşaya doğru hərəkət edir və yolu üstündə olan bütün Azərbaycan kəndlərini viranə qoyur. Sonra bildirilirdi ki, bu qoşun bölmələrinin hərəkətinin qarşısını almaq, on minlərlə azərbaycanlının vəhşicəsinə qırılmasına son qoymaq və 1919-cu il noyabrın 23-nə qədər olan vəziyyəti bərpa etmək üçün Azərbaycan hökuməti bölgəyə gəlmiş erməni qüvvələrinin təcavüzkarlığının cilovlanması məqsədilə kiçik dəstə göndərmişdir. Məhz bu dəstənin göndərilməsi erməni qoşun hissələrinin irəliləməsini təxirə salmışdır (308).

## *5. Qarabağda erməni təcavüzünün başlanması*

1919-cu ilin sonu və 1920-ci ilin əvvəllərində Qarabağda və onun ətrafında vəziyyətin mürəkkəbləşməsinin bir erməni qanunauyğunluğu var idi və həmin qanunauyğunluq da Azərbaycan ərazilərinin işğalı niyyətləri və ermənilər üçün yeni vətən axtarışı planları ilə şərtlənirdi. Daşnak ideyaları ilə silahlanan erməni millətçiləri Qarabağın və Zəngəzurun işğalı və zor gücünə Azərbaycandan qoparılması və bu bölgələrin bütünlükdə erməniləşdirilməsi ideyasından əl çəkməmişdilər. İngilis missiyasının qətiyyətli mövqeyi və Qarabağ ərazisində separatçı-təhrikçiliklə məşğul olan ifrat gəlmə erməni millətçiləri bölgədən qovulduqdan sonra Qarabağ erməniləri 1919-cu ilin avqustunda Azərbaycan hökuməti ilə yuxarıda deyildiyi kimi müvəqqəti razılaşma imzaladı. Qarabağ erməniləri yaxşı anlayırdılar ki, Qarabağın iqtisadi həyatı yalnız Azərbaycanla bağlıdır. Bunu erməni rəsmiləri də etiraf edirdilər (309). Lakin Ermənistan hökuməti tərəfindən idarə olunan erməni millətçiləri və separatçı dəstələri təcavüzkar planlarından əl çəkmirdilər. Ona görə də şübhə yox idi ki, erməni millətçiləri Qarabağda yeni antiazərbaycan qiyamının alovlandırılması üçün münasib anı əldən buraxmayacaqdılar.

Qarabağda yeni erməni qiyamının alovlanması üçün isə Ermənistan hökumətinə ilk növbədə Zəngəzurda möhkəmlənmək və bu qəzanı erməni millətçilərinin özlərinin söylədiyi kimi Qarabağa qarşı təcavüzdə dayaq nöqtəsinə çevirmək lazım idi. Bu niyyətlərinə çatmaq üçün Ermənistan hökuməti Tiflisdə imzalanan 23 noyabr 1919-cu il tarixli razılaşmanı elə ilk gündən ayaqları altına atdılar. Bölgədəki Azərbaycan qoşun hissələrinin 23 noyabr razılaşmasına əsasən geri çağırılmasından istifadə edən Ermənistan qoşun hissələri azərbaycanlı kəndləri üzərinə kütləvi hücuma keçdilər. Azərbaycanın hökumət rəsmilərinin dəfələrlə verdiyi etiraz notalarına Ermənistan hökuməti heç bir diqqət ayırmadı və qısa zaman ərzində Zəngəzurun 40-dan artıq azərbaycanlı kəndi məhv edildi. Qarabağ daxilinə çoxlu sayda silahlı erməni dəstələri göndərildi. Bunu mart ayının əvvəllərində əldə edilmiş kəşfiyyat mə-

lumatları da sübut edirdi. Qarabağ general-qubernatoru X.Sultanovun erməni agentlərindən topladığı məlumatlarda bildirilirdi ki, ermənilər artıq Dığda 3 minədək silahlı erməni toplamışlar. Onlara peşəkar zabitlər rəhbərlik edirdilər. Dəstənin sərəncamında 2 ədəd top və pulemyot var idi. Bir ədəd top da Xanazaxda idi. 7–10 gündən sonra Mamzak istiqamətindən erməni silahlı dəstələrinin hücumu başlamalı idi. Hücumun başlanmasında məqsəd Qarabağdakı silahlı dəstələrlə birləşmək və buradakı Azərbaycan hökuməti orqanlarını devirmək idi. Hücumun başlanması ilə bütün Qarabağ erməniləri də ayağa qalxmalı və Azərbaycan hökuməti əleyhinə qiyama qoşulmalı idilər. Zəngəzurda ermənilər hücuma başlayan kimi Gəncə qəzasının ermənilərindən təşkil edilmiş silahlı dəstələr Əsgəran üzərinə hərəkət edib oranı işğal etməli idilər. Mart ayının əvvəlində oradan Qarabağ ərazisinə 1000 nəfərlik dəstə göndərilmişdi. Ancaq Gəncə qəzasında 5 min nəfərlik dəstənin təşkili planlaşdırılırdı (310).

Bolşevik qoşunlarının Azərbaycanın şimal sərhədlərinə doğru irəliləməsi də erməni millətçi dairələrinin fəallaşmasına səbəb olurdu. Müxtəlif adlar, siyasi cərəyanlar altında gizlənsə də, millətçi-daşnak xislətindən əl çəkməyən ermənilər Azərbaycanın işğalı üçün hər cürə planların həyata keçirilməsində iştirak edirdilər. Mikoyan kimilərinin işarəsi ilə Qarabağda başlanan erməni qiyamı (311) Azərbaycanın qoşun hissələrinin böyük bir hissəsinin bura cəlb edilməsi və şimal sərhədlərinin zəiflədilməsi ilə nəticələndi.

1920-ci il iyunun 9-da Qarabağ erməniləri adından Tiflis erməniləri S.Pirumov və Armais Erinkyans V.İ.Leninə göndərdikləri məktubda da onun nəzərinə çatdırırdılar ki, ermənilər müsavat ordusunun əsas qüvvələrinin Qarabağa cəlb edilməsi və bununla da XI Ordu tərəfindən Azərbaycanın işğalına şərait yaratmışdılar. Məktubdan aydın olur ki, sol sosialist və kommunist qrupları da erməni daşnak qoşunlarına qoşulmuş, müsavat qoşunlarına qarşı göstərilən müqavimətin vaxtını uzatmağa çalışmış və gördükləri işlər barədə vaxtaşırı sovet qoşunlarının Şimali Qafqazda yerləşən qərargahına məlumat vermişdilər. Yəni onlar öz fəaliyyətlərini

Qırmızı Ordunun Azərbaycan üzərinə hücumu ilə uzlaşdırmağa çalışmışdılar. Məktub müəllifləri onu da bildirirdilər ki, Qarabağda alovlanan erməni üsyanı yatırılsa da, ermənilər Cümhuriyyət qüvvələrinin bütünlüklə ölkənin qərbinə göndərilməsinə və bununla da Azərbaycan üzərinə hücum edən Qırmızı Ordunun yolunun təmizlənməsinə nail olmuşdular (312).

Kənar qüvvələrin də yardımlarından ilhamlanan erməni millətçiləri üçün Qarabağda qiyamın başlanmasına bir bəhanə lazım idi ki, tezliklə bunu da onlar geniş təbliğatın mövzusuna çevirdilər. Təbliğat hay-küyçülüyündə kifayət qədər təcrübə və arxa sahibi olan erməni millətçiləri və Ermənistanın hakimiyyət dairələri Qarabağdakı vəziyyəti dəyişməyə çalışan erməni dəstələrinə qarşı müvafiq tədbirlər həyat keçirən Azərbaycan hökumətini Qarabağ erməniləri ilə imzalanan müvəqqəti razılaşmanın şərtlərini pozmaqda ittihamlandırmağa başladılar.

Halbuki erməni millətçiləri də, Ermənistan hökumətinin nümayəndələri də yaxşı bilirdilər ki, Azərbaycan hökuməti öz təşəbbüsü ilə imzaladığı müvəqqəti razılaşmanın pozulmasında heç də maraqlı deyildi. Çünki həmin razılaşma bütünlüklə Azərbaycan hökumətinin və Qarabağda yaşayan əhalinin maraqlarına cavab verirdi və ona riayət olunması Qarabağda həm Azərbaycan hökumətinin möhkəmlənməsinə, həm də bölgə əhalisinin qarşılıqlı dinc şəraitdə yaşamasına zəmin yaradacaqdı. Müvəqqəti razılaşmanın mövcudluğundan narazı olan qüvvə var idisə, o da Ermənistan hökuməti və erməni millətçi-separatçıları idi. Azərbaycan hökumətinin təşəbbüsü ilə qəbul olunan müvəqqəti razılaşmanın imzalanmasından sonra Qarabağ general-qubernatoru xüsusi bəyanat verərək bu razılaşmanı alqışladığını və onun həyata keçirilməsi üçün bütün gücünü sərf edəcəyini bildirdisə, erməni millətçiləri elə ilk günlərdən qətiyyətlə bu razılaşmanın əleyhinə çıxdılar (313).

Müvəqqəti razılaşmanın tələblərinə erməni millətçilərinin riayət edəcəyinə Azərbaycan rəsmiləri şübhə ilə yanaşırdılar. Məsələn, Azərbaycan Ordusunun Qərargahından X.Sultanova göndərilən məktubda deyilirdi ki, Qarabağ məsələsi uğurlu şəkildə həll olunsa

da, aydın görünür ki, Ermənistan hökuməti bu faktla barışmamışdır. Qərargahın məktubunda daha sonra qeyd olunurdu ki, Naxçıvanda düçar olduğu ağır məğlubiyyətdən sonra ermənilər hələlik zəif olsalar da, Azərbaycan vəziyyətin pisləşməsinə hazır olmalıdır (314).

Azərbaycan rəsmilərinin bu nigarançılığı heç də əbəs deyildi. Çünki müvəqqəti razılaşmanın imzalanmasından dərhal sonra Ermənistan hökumətinin sədri həmin sənəd haqqında belə deyirdi: "Ermənistan hökuməti bu razılaşmanı tanımır və özünün Qarabağa olan hüquqlarından imtina etmir" (315).

1920-ci il aprel ayının 3-də Ermənistan Parlamentində çıxış edən Ermənistan hökumətinin sədri həm də bəyan edirdi ki, biz Azərbaycanla barışığa razıyıq. Bir şərtlə ki, Qarabağ və Zəngəzur Ermənistanın tərkib hissəsini təşkil etsin və ya tələb edirdi ki, Qarabağa müttəfiq dövlətlərin komissiyası göndərilsin və bu komissiya bildirsin ki, Qarabağ öz arzusuna uyğun olaraq Ermənistana birləşmişdir (316).

Zəngəzurun Erməni Milli Şurası isə erməni əhalisinə müraciətində Qarabağla bağlı aşağıdakıları bildirirdi: "Qarabağsız Zəngəzur azad ola bilməz. ...İgid xumbapetlərin və hərbi komandirlərin ətrafında sıx birləşərək tam hazır və təşkil olunmuş vəziyyətdə onun ilk çağırışından sonra sıx sıralarda cəbhəyə atılın. ... Bu bizim əsrlik qan düşmənimizə qarşı son və həlledici döyüşümüz olacaq. Anamız Ermənistan qarşısında borcumuzu belə yerinə yetirək və Zəngəzur–Qarabağı müdafiə edək. Onlarsız azad Ermənistan yoxdur" (317). Bu müraciət 1920-ci il mart ayının 6-da qəbul olunmuşdu və həmin müraciət bütünlüklə Qarabağa qarşı ifrat təcavüzkar çağırışlar üzərində qurulmuşdu.

Qarabağa qarşı işğalçı-separatçı mövqeyindən əl çəkməyən erməni millətçi qüvvələrinin Azərbaycan hökumətini müvəqqəti razılaşmanı pozmaqda ittiham etməsi heç də təəccüblü deyildi. Bölgədəki hadisələri diqqətlə izləyən müttəfiq dövlətlərin gözündə haqq qazanmaq və bütün erməni millətçilərini Azərbaycan torpaqlarının işğalına səfərbər etmək istəyən Ermənistan hökuməti 1920-ci il mart ayında açıq təcavüzkar tədbirlər həyata keçirməyə

başladı. Mart ayının 6-da erməni millətçiləri Qarabağ ermənilərinin VIII qurultayı adlanan toplantı keçirdilər və həmin toplantıda dolayısı yolla da olsa VII qurultayda qəbul edilən müvəqqəti razılaşmaya etimadsızlıq bildirildi. Ermənistan hökumətinin Qarabağa açıq müdaxilələri genişləndi, buradakı millətçi hisslərin qızışdırılması üçün erməni emissarlarının sayı artırıldı və Azərbaycan hökuməti bir daha Ermənistan hökumətinin Qarabağda fəaliyyət aparan emissarlarının bölgədən çıxarılmasını tələb etdi. Həmin emissarların köməyi ilə silahlandırılmış Qarabağ ermənilərinin tərk-silah edilib dinc həyata qaytarılmasını isə Ermənistan rəsmiləri müvəqqəti razılaşmanın pozulması kimi qələmə verirdilər (318).

Bölgənin müdafiəsinin təşkili məsələləri ilə yaxından tanış olmaq, zəruri tədbirlərin həyata keçirilməsini planlaşdırmaq məqsədilə 1920-ci il mart ayının əvvəllərində Hərbi nazirin müavini Əliağa Şıxlinski də Qarabağa səfər etdi. Əldə olunan məlumatlar şübhə yeri qoymadı ki, Ermənistanın Azərbaycan üzərinə gözlənilən hərbi təcavüzü daha geniş olacaqdır. Bu təcavüzün qarşısının alınması üçün elə mart ayının ortalarından əlavə tədbirlərin həyata keçirilməsinə başlandı.

1920-ci il mart ayının 10-da 5-ci Bakı piyada alayının, haubitsa batareyasının və kapitan Nəbibəyovun komandir olduğu batareyanın tam tərkibdə Qarabağa göndərilməsi barədə göstəriş verildi. Mart ayının 11-də 2-ci Zaqatala piyada alayının Nuxada yerləşən bir taboru Qazaxa yollanmaq haqqında tapşırıq aldı. Bununla bağlı general Səlimovun Zaqatala alayının komandiri polkovnik Dibirova göndəridiyi teleqramında da Ermənistanın Azərbaycana qarşı müharibəyə hazırlaşdığı və alayın taborunun Qazaxa göndərilməsində də məqsədin Gəncə ətrafında müdafiə mövqelərinin möhkəmləndirilməsindən ibarət olduğu bildirilirdi. Ermənistanın Azərbaycan üzərinə müharibə hazırlığı o qədər ciddiləşmişdi ki, hətta Hərbi nazir S.Mehmandarov da Gəncəyə yollanmışdı və Zaqatala alayının taborunun Gəncəyə gəlməsinə və yerləşməsinə də o, özü nəzarət etməli idi.

1920-ci il mart ayının ortalarında Hərbi Nazirliyə daxil olan

məlumatlarda bildirilirdi ki, Qarabağda ermənilər bütün cəbhə boyu güclü hazırlıq işlərini davam etdirirlər. 60 nəfərlik qruplarla ermənilər Mamzak–Xocaqan və Zəngilan istiqamətində kəşfiyyat işləri aparırlar. Cəbrayıl ətrafında da onların xeyli fəallaşması müşahidə olunmuşdu. İran ərazisində erməni silahlıları təlim keçirdilər. Cəbrayılda olan qoşun bölmələrinin rəhbərliyi ehtiyat edirdi ki, erməni silahlı qüvvələri qəfil hücuma başlasaydılar, onların qarşısını almaq çox çətin olardı (319).

Mart ayının 15-də Dövlət Müdafiə Komitəsi Qarabağda yaranmış vəziyyəti bir daha müzakirə etdi və bölgədəki vəziyyətin son dərəcə mürəkkəbləşdiyi qənaətinə gəlindi. Burada qərara alındı ki, erməni hərbi qüvvələrinin hərəkətinin və Qarabağ ermənilәri ilə birləşməsinin qarşısının alınması, habelə Qarabağda kütləvi silahlı qiyama yol verilməməsi üçün strateji məntəqələr nəzarət altına götürülsün. Bu vəzifə, habelə Qarabağın bütövlüyünün qorunması və müdafiəsi Hərbi Nazirliyə həvalə olundu. Dövlət Müdafiə Komitəsi, eyni zamanda, qərara aldı ki, ordunun təminat və təchizatı, kəşfiyyatın təşkili üçün təcili addımlar atılsın. Bununla bərabər, Daxili İşlər Nazirliyindən tələb edildi ki, ordunun ehtiyaclarının ödənməsi üçün əhali arasında silah toplanılması da aparılsın (320).

Gözlənilən müharibənin başlanması ərəfəsində Qarabağ və onun ətrafında yerləşən hissə və bölmələr əsasən 1-ci piyada diviziyasının qüvvələri idi. 1920-ci il mart ayının 14-nə olan vəziyyətə görə bu diviziyanın hissə və bölmələri aşağıdakı məntəqələrdə yerləşdirilmişdi:

Nuxa – 2-ci Zaqatala alayının 4 bölüyü, pulemyot bölüyü (4 ədəd pulemyot);

Tərtər – 2-ci batareya (2 ədəd top);

Gəncə – 3-cü Gəncə alayının 7 bölüyü, 2-ci batareya (2 ədəd top), 3-cü batareya (4 ədəd top);

Qazax – 3-cü Gəncə alayından 24 nəfərlik qrup;

Ağdam – Qarovul komandası;

Əsgəran – 1-ci Cavanşir alayının 1 bölüyü, 2 ədəd pulemyot;

Xocalı – 1-ci Cavanşir alayının 1 bölüyü;

Şuşa – 1-ci Cavanşir alayının 4 bölüyü, pulemyot bölüyü;

Xankəndi – 1-ci Cavanşir alayının 3 bölüyü, pulemyot bölüyü, 4-cü batareya (1 ədəd top);

Qoçaz – 1-ci Cavanşir alayının 2 bölüyü, 2 ədəd pulemyot, 5-ci batareya (2 ədəd top);

Müsəlmanlar kəndi – 1-ci Cavanşir alayının 1 bölüyü, 2 ədəd pulemyot, 5-ci batareyanın 2 ədəd topu;

Cəbrayıl – 3-cü Gəncə alayının 4 bölüyü, 3-cü Gəncə alayının pulemyot bölüyü, 1-ci batareyanın 4 ədəd topu.

Bunlardan başqa, 3-cü Gəncə alayının bir bölüyü və pulemyot bölüyü də Qarabağda general Teymur bəy Novruzovun sərəncamında idi. 2-ci Zaqatalanın bir taboru isə pulemyot bölüyü ilə birlikdə Qazaxa göndərilmişdi.

Beləliklə, Azərbaycanın hökumət dairələri və eləcə də Hərbi Nazirliyin rəhbərliyi ən yaxın zamanlarda Ermənistanın Azərbaycana qarşı müharibəyə başlayacağını istisna etmirdilər. Amma mövcud faktlar onu deməyə əsas verir ki, Ermənistanın başlayacağı müharibənin miqyası və dəqiq tarixi Azərbaycan tərəfinə məlum deyildi. Ona görə də bölgədə həm müvafiq müdafiə tədbirləri həyata keçirilməmişdi, həm də bu müharibənin Novruz bayramının qeyd edildiyi günlərdə başlaması gözlənilməz olmuşdu.

Erməni silahlı dəstələrinin hazırladıqları irimiqyaslı təcavüz tezliklə öz əməli ifadəsini tapdı. Martın 19-da erməni silahlıları hücum edərək 2 nəfər azərbaycanlı əsgəri qətlə yetirdilər (321). Martın 20-də yerli hökumət orqanlarında işləyən 2 erməni məmuru vasitəsi ilə 25 nəfər erməni silahlısı gizli şəkildə Şuşaya gətirildi. Həmin tarixdə onların sayı Şuşada 200 nəfərə çatdırıldı (322).

Elə həmin günlərdə Zəngəzur qəza rəisinin X.Sultanova göndərdiyi teleqramında bildirilirdi ki, ermənilər bütün cəbhəboyu güclü kəşfiyyat aparırlar və əldə edilmiş düzgün məlumatlara görə ermənilər bütün cəbhəboyu hücuma hazırlaşırlar. Onların məqsədi Qarabağa çıxmaqdır. Zəngəzurdakı partizan dəstəsinin rəhbəri xahiş edirdi ki, erməni silahlı dəstələrinə müqavimət göstərilməsi üçün bölgəyə sursat göndərilsin (323).

Kütləvi silahlı təcavüzə erməni millətçi dairələri çoxdan hazır olsalar da, onun başlanması Novruz bayramı günlərinə planlaşdırıldı. Bu tarixin seçilməsi təsadüfi deyildi. Çünki həmin gün bütün Azərbaycan xalqı kimi Azərbaycan əsgərləri də Novruz bayramın gəlişini qeyd edəcəkdilər. Qoşun bölmələrinin milli bayramının qarşılanması ilə məşğul olması erməni silahlılarının qəfil hücumu üçün əlverişli şərait yaradırdı. Erməni millətçi dairələri bu irimiqyaslı hücumun başlanmasına geniş hazırlıq işləri aparmışdılar. Hücumun bir neçə məntəqədə aparılması üçün öz qüvvələrini vaxtında qruplaşdırmış və onları lazımi silah və sursatla təmin etmişdilər. Hücum ərəfəsində Azərbaycan Ordusuna aid hərbi hissələr və müdafiə postları arasında olan bütün teleqraf və telefon xətləri kəsildi (324).

Ermənistan hökuməti belə bir plan hazırlamışdı ki, Şuşa–Ağdam istiqamətində və Tərtər ətrafında hərbi təcavüzə başlayaraq strateji məntəqələrə nəzarəti ələ keçirsin və bunun ardınca Zəngəzurla Qarabağ arasındakı azərbaycanlı kəndləri məhv edilsin, sonra da Zəngəzur və Qarabağ kəndlilərinin Azərbaycan hakimiyyətinə qarşı "azadlıq" mübarizəsinə qalxmaları barəsində səs-küy qaldırılsın. Yəni erməni millətçiləri Qarabağda hərbi təcavüzün başlanmasına yalnız toplarla deyil, həm də təbliğat maşınının fəaliyyətə gətirilməsi ilə hazırlaşırdılar. Əslində, Qarabağ qiyamı ilə bağlı erməni təbliğat maşını erməni toplarından daha tez hərəkətə gətirildi. Qarşısına təcavüzkar məqsədlər qoyan erməni millətçilərinin Qarabağda erməni təcavüzü ilə bağlı təbliğat fəaliyyətinin hansı mahiyyət və məzmun daşıdığını təsəvvür etmək elə də çətin deyil. Bu hadisələrə münasibətdə erməni təbliğatını izləməklə erməni təbliğat saxtakarlığının, tarixi hadisələrə erməni baxışının necə formalaşdırıldığının və ictimaiyyətə sırındığının şahidi olmaq mümkündür.

Ermənistan hökumətinin rəhbərliyi Qarabağda başladıqları hərbi təcavüzün düşündükləri ssenari üzrə getmədiyini görəndə müttəfiq dövlətlərin nümayəndələri qarşısında mart ayının 22-dən 23-nə keçən gecə ermənilərin deyil, məhz azərbaycanlıların

“əzabkeş” ermənilər üzərinə kütləvi hücuma keçməsi haqqında qara-qışqırıq salmağa başladılar. Məsələn, Ermənistan hökumətinin sədri Xatisov 1920-ci il mart ayının 28-də Böyük Britaniyanın, Amerikanın ali komissarlarına, İtaliya və Fransa hərbi missiyalarına göndərdiyi məktubda mart ayının 20-dən başlayaraq Azərbaycan hərbi qüvvələrinin Qarabağ və Zəngəzur erməniləri üzərinə hücuma keçdiyini iddia edirdi. Ermənistan hökumətinin sədri 1920-ci il mart ayının 30-da Böyük Britaniya ali komissarına göndərdiyi digər məktubda və elə həmin gün onun Azərbaycanın Xarici İşlər nazirinə ünvanladığı bəyanatda da oxşar fikirləri səsləndirdi. 3 aprel 1920-ci il tarixli başqa bir məktubunda o, mart ayının 23-də nizami Azərbaycan qoşunlarının Qarabağ erməniləri üzərinə hücuma keçdiyini iddia edirdi (325).

Lakin elə erməni mənbələrinin özləri Qarabağda təcavüzün başlanmasını Ermənistan hökuməti sədrinin təbliğat xarakterli bəyanatlarından fərqli şəkildə təsvir edirlər. Məsələn, Ermənistanın Müdafiə Nazirliyinin 27 aprel 1920-ci il tarixinə aid olan məlumatında deyilirdi ki, erməni əhalisi Azərbaycan hakimiyyət orqanlarına silahını təhvil vermək istəmədi və martın 22-də qiyam qaldıraraq Əsgəranı tutdu. Şuşa və Xankəndindəki qarnizonlar isə mühasirəyə alındı. Məlumatda daha sonra deyilirdi ki, martın 24-də tatarlar Şuşada bu qiyama qırğınla cavab verdilər (326). Görünür, ermənilər gözləyirmişlər ki, onların qiyam qaldırmaq haqqı var, amma azərbaycanlılarn bu qanunsuz qiyama cavab vermək hüququ yoxdur. Yoxsa azərbaycanlı əhalinin və Azərbaycan hakimiyyət orqanlarının erməni cinayətlərinə cavab vermək cəhdini belə təəccüblə qarşılamazdılar.

Ermənistan hökuməti sədrinin özü də 1920-ci il martın 25-də Ermənistanın Gürcüstandakı diplomatik nümayəndəsinə göndərdiyi teleqramda Qarabağ erməni qüvvələrinin hərbi təcavüzə əl atdıqlarını təsdiq edirdi (327). Mart ayının 25-də Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi M.Arutyunyan Azərbaycanın Xarici İşlər nazirinin ermənilərin qiyam qaldırması ittihamını qəbul etməli olmuş, lakin bu qiyamın qaldırılmasına Qarabağ gene-

ral-qubernatorunun fəaliyyətinin səbəb olduğunu əsaslandırmağa çalışmışdı (328).

1920-ci il mart ayının 22-dən 23-nə keçən gecə ermənilərin hərbi təcavüzə başlamalarının qiyam kimi xarakterizə edilməsi erməni millətçilərinin heç də ürəyincə deyildi. Antiazərbaycan və antitürk təbliğatının alovlandırılması üçün ermənilər baş verən hadisələrin mahiyyətini dəyişməkdən çəkinmirdilər. Azərbaycan hakimiyyətinə qarşı qiyam qaldırmış erməni millətçi-separatçılarının susdurulması üçün Azərbaycan dövləti tərəfindən həyata keçirilən tədbirlər məzlum ermənilərin əzilməsi, qırılması, məhv edilməsi kimi dünya ictimaiyyətinə təqdim edilirdi. Məsələn, Ermənistan hökumətinin sədri bu hökumətin təhriki və himayəsi ilə Qarabağda başlanan erməni qiyamına toxunmadan Böyük Britaniyanın ali komissarına göndərdiyi teleqramda bildirirdi ki, Azərbaycan qoşunları, silahlanmış müsəlman dəstələri bütün cəbhəboyu Zəngəzur və Qarabağ istiqamətində hücum edərək kəndləri dağıdır, dinc erməni əhalisini qırıb-çatırlar. Şuşada bütün əhali məhv edilib (329). Elə erməni tarixi ədəbiyyatında Şuşa hadisələri ilə bağlı belə qarayaxmalara çox rast gəlmək mümkündür. Onu da qeyd etmək lazımdır ki, həmin tarixi hadisənin mahiyyətini dəyişməklə elə bu gün də Azərbaycan xalqına qarşı insafsız qarayaxmalar davam etdirilir. Məsələn, özünü tarix elmləri doktoru kimi təqdim edən bir erməni müəllifi yazır ki, 1920-ci il martın 23-də Şuşanın əsil qurucuları və sahibləri olan ermənilər genosid qurbanı oldular... Şuşa erməniləri Sultanovun girovuna çevrildilər... Sultanovun əmri ilə erməni evlərinin yandırılması üçün əvvəldən azərbaycanlılara neft və kibrit paylandı... Azərbaycanın Qarabağa hücumu 23-nə keçən gecə başladı (330). Və ya özünü hüquq elmləri doktoru kimi təqdim edən başqa bir erməni təbliğatçısı yazırdı ki, Azərbaycan Ermənistanın sülhə çağırışlarını qulaq ardına vuraraq Qarabağ ermənilərinin kütləvi qırılması ilə müşayiət olunan açıq təcavüzə keçdi (331). Şuşada baş verən hadisələrlə bağlı hazırda çap olunan kitablarda və elektron informasiya vasitələrində erməni müəlliflərinin dilindən antiazərbaycan xarakterli ən müxtəlif qondarmalarla rastlaşmaq

mümkündür. Halbuki yuxarıda deyildiyi kimi, həqiqət heç də belə deyildi. Bunu həmin hadisələr zamanı qırıldığı iddia edilən ermənilərin sayı haqqında ortaya qoyulan rəqəmlərin günü-gündən artması da sübut edir. Bu rəqəmlərin həqiqətə nə qədər yaxın olduğunu təsəvvür etmək üçün həmin vaxt Şuşada nə qədər ermənininin yaşaması haqqında rəqəmə diqqət yetirmək maraqlı olardı. 1917-ci ilə aid olan "Kavkazskiy kalendar"da qeyd olunur ki, 1916-cı ildə Şuşada 23396 erməni yaşayırdı (332). 3–4 il ərzində Şuşada yaşayan ermənilərin say artımında kəskin dəyişiklik baş verməsi sözsüz ki, mümkün deyildi. Bunu elə "Kavkazskiy kalendar"ın əvvəlki nəşrlərində Şuşada müxtəlif illərdə yaşayan ermənilərin statistikası haqqında olan rəqəmlərin müqayisəsi də göstərə bilər. Heç şübhəsiz ki, Novruz bayramında azərbaycanlı əhalinin və Azərbaycan hakimiyyət orqanlarının başı bayram qayğılarına qarışdığı bir zamanda dinc əhaliyə qarşı qiyam qaldırıb Şuşanı azərbaycanlılardan birdəfəlik təmizləməyə çalışan erməni milətçiləri onlara qarşı müqavimət göstəriləcəyini və Şuşanın erməni məhəlləsində toplaşan və dinc erməni əhalisinin özünün də rahatlığını pozan silahlı erməni terror dəstələrinin neytrallaşdırılacağına cəhd göstəriləcəyini istisna etməməli idilər. Ermənilərin Novruz axşamı planlaşdırdıqları təxribatın ağır nəticələrə gətirib çıxaracağını bir çox ermənilər özləri də yaxşı hiss edirdilər. Onların arasında Erməni Milli Şurasının üzvləri, general-qubernator yanındakı şuranın erməni üzvləri və bir çox erməni ailələri bu vəziyyəti hiss edərək əvvəldən Şuşanı tərk etmişdilər (333). Bununla belə, Şuşanın erməni məhəlləsinin dinc erməni əhalisinin erməni millətçi-separatçıları tərəfindən başlanan silahlı təcavüzün qurbanı olması faktını da inkar etmək olmaz. Öz soydaşlarını qətlə yetirərək təcavüz üçün bəhanə yaratmaq təcrübəsi erməni millətçilərinə tarixən xas olan bir keyfiyyət idi. Azərbaycanın hakimiyyət orqanları da ilk növbədə məhz bu təcavüzü başlayanlara qarşı ciddi mövqe tutdu. Atılan qətiyyətli addımlar nəticəsində erməni təcavüzkarlarının çoxu öz haqlı cəzalarına çatdılar da. Lakin onların sayı barədə erməni müəlliflərinin qənaəti fantastik çərçivələrə belə sığmır.

Amerikalı erməni tarixçisi Riçard Ovanesyan öz kitabında 1920-ci ilin mart hadisələri zamanı Şuşada 500 ermənininin öldürüldüyünü yazıb (334). 1920-ci ilin mart-aprelində Qarabağda fəaliyyət göstərən erməni silahlı qüvvələrinin qərargah rəisi 1920-ci il aprelin 20-də Ermənistanın Müdafiə nazirinə göndərdiyi məruzədə Şuşada 8 min ermənininin öldürüldüyünü bəyan edir (335). Bu rəqəm özü də əslində heç reallığı əks etdirə bilməz. "Məzlum" ermənilərin itkiləri haqqında rəqəmlərin şişirdilməsi də erməni təbliğatının sınanmış ənənələrindən biridir. Bununla belə, hətta bu şişirdilmiş rəqəm özü də sonradan erməni təbliğatını qane etmədi və azərbaycanlıların ermənilərə qarşı "qəddarlığının" ictimai fikrə təsir səviyyəsinin qaldırılması üçün Şuşa qurbanlarının sayının da şişirdilməsinə yol açıldı. Nəticədə, bu mövzuya müraciət edən hər erməni müəllifi-təbliğatçısı heç bir dəlilə əsaslanmadan yeni rəqəmlər uydurmağa başladı – 10 min, 20 min, 25 min, 40 min, 35–45 min (336). Lakin bu rəqəmlərin şişirdilməsinin mənasız olduğunu etiraf edən erməni müəllifləri də tapılmaqdadır. Məsələn, Qarabağ hadisələri ilə bağlı kifayət qədər böyük bir kitab çap etdirmiş Arsen Məlik-Şahnəzəryan adlı birisi qeyd edir ki, göstərilən rəqəmlər doğru deyil. Ən azı ona görə ki, həmin vaxt Şuşada bu qədər erməni yaşamırdı. Sonra isə o, ehtimal kimi yazır ki, 1920-ci ilin 22–23 mart hadisələri zamanı Şuşada öldürülən ermənilərin sayı 6–10 min arasında ola bilərdi (337). Bu erməni müəllifi də heç bir dəlil tapa bilmədiyi üçün öz ehtimalı ilə tarixi hadisələr haqqında hökm verməyə çalışır. Bütün bunlar isə bir daha onu göstərir ki, erməni millətçi təbliğatında ortaya atılan iddialar və rəqəmlər həqiqətdən daha çox erməni millətçi niyyətlərinin və fantaziyalarının ifadəsi idi.

Yuxarıda adı çəkilən Riçard Ovanesyan Qarabağda erməni qiyamının başlanması səbəbi haqqında da nisbətən daha ədalətli məlumat vermişdir. O yazırdı ki, 1920-ci il martın 24-nə keçən gecə azərbaycanlılar Novruz bayramını qeyd etdikləri bir vaxtda ermənilər Şuşada, Xankəndində və Əsgəranda yerləşən Azərbaycan qarnizonuna hücum etdilər. Onlar güman edirdilər ki, qəfildən ya-

xalanmış olan azərbaycanlılar ciddi müqavimət göstərə bilməyəcəklər (338).

Erməni şahidlərin yazdığına görə təcavüz belə planlaşdırılmışdı. Ermənistan hökumətinin xüsusi nümayəndəsi olan Arsen adlı birisinin rəhbərliyi ilə Şuşa ermənilərindən Məlik-Şahnəzərov adlı birisinin evində toplantı çağırıldı. Müşavirədə Məlik-Şahnəzərovdan başqa Dəli Qazar adı ilə tanınan mayor Sergey və digərləri iştirak edirdilər. Bu müşavirədə müzakirə olunan əsas məsələ erməni hərbi təcavüzünün haradan başlanması məsələsi idi. Ermənistan hökumətinin nümayəndəsi təkid etdi ki, erməni qiyamı Xankəndində, Əsgəranda, habelə Gəncə istiqamətində təşkil edilsin. Samson Məlik-Şahnəzərov və Dəli Qazar tələb etdilər ki, erməni təcavüzü Şuşadan başlansın, Şuşa ələ keçiriləndən sonra Xankəndi və sonra da Əsgəran bütünlüklə nəzarət altına alınsın. Ermənistan hökumətinin nümayəndəsi bu təklifi qəbul etmədi və bildirdi ki, Xankəndi ələ keçiriləndən sonra Şuşanın ələ keçirilməsi elə də çətin olmayacaq, Əsgəranın tutulması isə Şuşaya hər hansı bir kömək gəlməsinin qarşısını alacaqdır. Digər müşavirə iştirakçıları yenidən təkid etsə də, Ermənistan hökumətinin nümayəndəsi erməni silahlı qüvvələrinin hücumunun ilkin olaraq Xankəndi və Əsgəran üzərinə istiqamətləndirilməsi üzərində dayandı (339).

Şuşada cərəyan edən hadisələrin azərbaycanlı şahidlərinin ifadələrindən də güman etmək olar ki, erməni millətçiləri martın 23-nə keçən gecə əsas zərbənin istiqamətini Xankəndinə və Əsgərana istiqamətləndirdilər. Amma, eyni zamanda, erməni millətçiləri Şuşada da təcavüzə hazırlıq işləri aparırdılar. Nəticədə şəhərdə olan erməni silahlıları özlərinə atəş mövqeləri yaratdılar və şəhərin erməni məhəlləsindəki kazarmalarda yerləşən Azərbaycan qoşun bölmələrini mühasirəyə aldılar. Şəhərin erməni məhəlləsində antiazərbaycan əhval-ruhiyyəsi xeyli genişləndi. Məhz bunun nəticəsi idi ki, Qarabağ general-qubernatoru Novruz bayramının açıq və təntənəli şəkildə keçirilməsinə razı olmadı. Mart ayının 22-də onun təklifi əsasında şəhərin tanınmış adamları bayramlaşmaq üçün Şuşa qəza qazısı Oruczadənin evində toplaşdılar. X.Sultanov istəyirdi ki,

erməni təhlükəsi ilə rastlaşmamaq üçün azərbaycanlılar bir-birinin evlərini gəzməsinlər və toplu bir mərasimdə bir-birlərini təbrik etsinlər. Elə həmin gün şəhərin erməni xəlifə-arxiyeri və digər nüfuzlu ermənilər də azərbaycanlı əhalinin nümayəndələri ilə görüşdülər və azərbaycanlıları Novruz bayramı münasibətilə təbrik etdilər. Erməni xəlifəsi azərbaycanlılara belə müraciət etdi ki, biz qardaşıq, bizim aramıza nifaq salan şeytandır, onu lənətə gəlsin və ümid edirəm ki, xalqlarımız bu düşmənçiliyi unudaraq yenidən qardaş kimi yaşayacaqlar (340).

Erməni xəlifəsi şəhər məscidində də çıxış edərək azərbaycanlı əhalini sakitləşdirməyə çalışdı. Gecə isə azərbaycanlı əhali güclü atəş səslərinə ayılmalı oldu.

Ermənistanın millətçi dairələri Azərbaycanın ərazi bütövlüyünün pozulması, böyük ərazilərin işğal edilməsi üçün ciddi bir hücum planı hazırlamışdılar. Bu hücumun əsas istiqaməti kimi Qarabağ istiqaməti götürülmüşdü. Bu bölgə üzərinə də hücum üç istiqamətdə həyata keçirilməli idi. 1. Şuşa–Xankəndi–Əsgəran–Ağdam; 2. Zəngəzur–Cəbrayıl; 3. Ağdərə–Tərtər–Hacıkənd–Gəncə.

Nəzərdə tutulmuşdu ki, əsas zərbə Şuşa–Xankəndi–Əsgəran istiqamətində endirilsin və Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən qüvvələrinə zərbə vurmaqla Qarabağ bütünlüklə nəzarət altına götürülsün. Zəngəzur–Cəbrayıl və Ağdərə–Tərtər cinahlarından vurulan zərbə isə ermənilər üçün Qarabağın mərkəzində aparılan döyüşlərin uğurlarını genişləndirməyə xidmət etməli idi. Qarabağda aparılan döyüşləri uğurla başa çatdırmaqla erməni hərbi qüvvələri Gəncəyə doğru irəliləməli və bu şəhəri işğal etməli idilər. Bu planın həyata keçməsinə nail olmaq üçün isə Ermənistan hərbi qüvvələri Qazax–Ağstafa istiqamətindən hücuma keçərək Bakı–Tiflis dəmir yolu xəttinə doğru irəliləməli və bununla Gəncə üzərinə hücum edən qüvvələrin uğuruna əlverişli zəmin yaratmalı idilər. Müharibənin başlaması ərəfəsində Hərbi nazir Səməd bəy Mehmandarovun Gəncəyə gəlməsi və Azərbaycan Ordusu hissə və bölmələrinin döyüş fəaliyyətinə buradan ümumi rəhbərlik etməsi, heç şübhəsiz ki, belə bir erməni planın mövcudluğundan irəli gə-

lirdi. Burada qərar tutmaqla S.Mehmandarov həm Qarabağ cəbhəsində, həm də Qazax–Ağstafa cəbhəsində cərəyan edən prosesləri nəzarət altına aldı və qüvvələri düzgün bölüşdürməklə hər iki cəbhədə erməni hərbi qüvvələrinin hücumlarının qarşısını ala bildi.

Mövcud olan məlumatlara görə erməni hərbi təcavüzü Xankəndində və Əsgəranda Şuşaya nisbətən daha tez başladı. Xankəndindəki Azərbaycan qarnizonu üzərinə hücum edən erməni silahlı qüvvələrinə Aleksan adlı bir erməni rəhbərlik edirdi. Gecənin qaranlığından və hücumun gözlənilməzliyindən istifadə edərək erməni silahlı qüvvələri Xankəndi qarnizonunu çətin vəziyyətə saldılar. Erməni Aleksan əsir götürülmüş bir neçə azərbaycanlının hər birini qılıncla doğradı. Bu vəhşiliklərini həyata keçirərkən o, özü də azərbaycanlı hərbçilərin gülləsinin qurbanı oldu. Onun ölümü erməni silahlılarının Azərbaycan qarnizonu üzərinə hücumunu heç də dayandırmadı. Erməni şahidlərinin qeydlərinə görə Xankəndi bir neçə dəfə əldən-ələ keçdi və sonra erməni silahlılarının nəzarəti altında qaldı (341).

Azərbaycan mənbələri Xankəndinin erməni silahlılarının əlinə keçməsini birmənalı şəkildə təsdiqləmirlər. Əsgərana gəldikdə isə bu qala gecə ikən erməni silahlıları tərəfindən ələ keçirildi və qalanı qoruyan 50 nəfərlik Azərbaycan qoşun bölməsi ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi. Dəli Qazarın rəhbərliyi altında olan erməni silahlı dəstələri Əsgəran qalasını ələ keçirdikdən sonra öz “uğurlarını” silahlarından üç dəfə havaya atəş açmaqla qeyd etdilər (342).

Xankəndinə hücumun başlaması Şuşada da Azərbaycan məhəlləsinin və Azərbaycan qarnizonunun üzərinə hücuma başlamaq üçün bir işarə oldu. Şuşikənd istiqamətindən Şuşanın top atəşinə tutulması başlandı. X.Sultanov mərkəzə göndərdiyi teleqramda bildirirdi ki, bu hücumdan qəzəblənən azərbaycanlı əhalini nəzarət altında saxlamaq xeyli çətinləşdi (343).

Doğrudan da, Şuşanın azərbaycanlı əhalisi ermənilərin qəfil başlanan qiyamını çox böyük qəzəblə qarşıladılar. Xüsusilə erməni xəlifəsinin azərbaycanlı əhalini sakitləşdirməyə çalışması, habelə

Şuşadakı Azərbaycan bölmələrinin mühasirəyə alınması və şəhərin ətrafdan top atəşlərinə tutulması onların qisas hisslərini yenidən oyatdı. İlk növbədə erməni məhəlləsində olan milli qoşun bölməsinin mühasirədən çıxarılmasına cəhd göstərildi ki, bu da erməni məhəlləsinə sədəməsiz ötüşmədi. Şahidlərin yazdığına görə ermənilər Xankəndi və Əsgəran kimi Şuşanın da tezliklə ələ keçiriləcəyini güman edirlərmiş və bunun üçün erməni evlərində xüsusi süfrələr də açılıbmış (344).

Qarabağda başlanan erməni qiyamının tezliklə başa çatdırılması üçün Zəngəzurda toplanmış erməni qoşun hissələri də qəzanın bütün azərbaycanlı kəndləri üzərinə hücum çəkdilər ki, Qarabağa aparan yollar təmizlənsin. Ermənilər bu istiqamətdə bütün güclərini ortaya qoydular ki, tezliklə Qarabağdakı erməni qiyamına qoşula bilsinlər (345).

Ermənilərin Qarabağda və Zəngəzurda böyük qüvvələri cəmləşmişdi. Ancaq qarşıya qoyulan məqsədə çatmaq üçün onlar bu bölgəyə yeni-yeni qüvvələrin gətirilməsini planlaşdırırdılar. Martın ortalarında Dilicandan Zəngəzura 7 min erməni silahlısı gətirilmişdi (346). İrəvan quberniyasının Yenibəyazid qəzasından Qarabağa doğru çoxsaylı erməni silahlı dəstələri yola düşmüşdü (347).

Çaykənddə 2500–3000-ə qədər erməni silahlısı toplanmışdı. Bu silahlıların çoxu vaxtilə rus ordusunda xidmət etmiş keçmiş şəxslər idi. Onların xeyli əl qumbarası və çoxlu patronları var idi. İrəvandan gəlmiş olan millətçilər burada geniş təbliğat işi aparır, əhalini Azərbaycan hökuməti əleyhinə qızışdırırdılar. Burada toplanan silahlı dəstələri təchiz etmək üçün patron, bomba hazırlayan emalatxana açılmışdı. Çaykənddə yaradılan silahlı dəstələr Əsgəran ətrafına yola salınırdılar (348).

Martın 24-də səhər saat 6-da erməni silahlı qüvvələri Tərtər üzərinə böyük hücuma keçdilər. 3-cü Şəki alayının komandiri podpolkovnik Tonqiyevin verdiyi məlumata görə ermənilər Tərtəri tutmağa səy göstərirdilər. Ancaq mövcud olan qüvvələrin səfərbər edilməsi bu erməni hücumunun qarşısını aldı.

1920-ci il mart ayının 24-də Azərbaycan hökuməti Qarabağda

kütləvi erməni təcavüzünün başlaması haqqında bəyanat verdi. Həmin bəyanatda deyilirdi:

"Martın 22-dən 23-nə keçən gecə Şuşa, Cavanşir, Zəngəzur və qismən də Gəncə qəzalarının qiyamçılarından təşkil edilmiş erməni dəstələri Şuşa şəhərində, Xankəndində, Tərtərdə və Zəngəzur qəzası hüdudlarında yerləşən kiçik qarnizonlar üzərinə hücum etmişlər. Yerli əhalinin köməyi ilə erməni hücumları hər yerdə dəf edilmişdir. Həmin gecə ermənilər Əsgəran qalasında yerləşən kiçik qarovul dəstəsinin də üzərinə hücuma keçərək həm bu qalanı, həm də 11 verstlik fasilədə olan yüksəklikləri tutmuş və bununla da bir tərəfdən Şuşa ilə Xankəndi istiqamətindəki, digər tərəfdən də Ağdam istiqamətindəki əlaqələri kəsmişlər.

Erməni qiyamçı dəstələri yaxşı təşkilatlanmışlar: onlara hərbi işdə təcrübəsi olan adamlar rəhbərlik edirlər. Onlar 3 xətli tüfənglərlə, pulemyotlarla, minalarla, toplarla silahlanmışlar. Toplarla Şuşikənddən Şuşanı atəşə tuturlar. Şübhəsiz ki, ermənilər çoxdan və planlı şəkildə qiyama və öz planlarının həyata keçirilməsinə hazırlaşırdılar, bunun üçün də Novruz bayramını seçdilər ki, həmin gün ermənilərin belə xəyanətkar addım atacaqları daha az gözlənilən idi. Onların nümayəndələri bayram ərəfəsində loyal olacaqlarını, müsəlman yurddaşları ilə dinc yanaşı yaşamaq üçün tam hazır olduqlarını bəyan edirdilər.

Hökumət tərəfindən asayişin bərpası üçün tədbirlər görülmüşdür" (349).

### *6. Qarabağda erməni təcavüzünün yatırılması*

Qeyd edildiyi kimi, erməni hərbi qüvvələri bir neçə istiqamətdən Azərbaycan əraziləri üzərinə hücuma keçdilər ki, bu istiqamətlərdən biri Qazax–Ağstafa istiqaməti idi.

#### a) Qazax–Ağstafa cəbhəsi

Qazax–Ağstafa istiqamətində döyüşlərin başlanması Ermənistan Respublikasının Azərbaycana qarşı siyasətinin təcavüzkar ma-

hiyyətini nümayiş etdirən daha bir tarixi hadisədir. Bununla erməni millətçi dairələri Azərbaycanın çox böyük ərazilərinə göz dikdiklərini və niyyətlərinin həyata keçirilməsi üçün əllərində toplanmış çoxsaylı silahların bütün imkanlarından dinc əhaliyə qarşı istifadə etməyə hazır olduqlarını ortaya qoydular.

Qazax–Ağstafa istiqamətində yeni bir cəbhənin açılması ermənilər tərəfindən kifayət qədər düşünülmüş bir hərbi-siyasi təxribat idi. Çünki bu istiqamətdə əldə edilə biləcək uğurla Azərbaycanın ərazi bütövlüyünü çox ciddi təhlükə altına qoymaq mümkün idi. Bu istiqamətdə qarşıya qoyulmuş məqsədə nail olmaqla Azərbaycanı strateji əhəmiyyət kəsb edən Bakı–Tiflis dəmir yolu xəttindən də məhrum etmək olardı.

Erməni təcavüzünün başlaması ilə bölgənin general-qubernatoru Qazaxda hərbi vəziyyət elan etdi. Bu vəziyyətin elan edilməsində məqsəd bölgənin bütün qüvvələrinin erməni hücumlarının qarşısının alınmasına səfərbər edilməsi və bölgədə asayişin qorunması idi (350).

Erməni təcavüzünün başladığı vaxt Gəncə möhkəmləndirilmiş rayonunun (İstehkamat hissəsinin) rəisi general Makeyev idi. O, öz vəzifə səlahiyyətləri daxilində Gəncə ətrafının müdafiəsinə, o cümlədən də Qazax–Ağstafa istiqamətinin müdafiəsinə məsuliyyət daşıyırdı. Lakin onun bu vəzifədə fəaliyyəti S.Mehmandarovu tam şəkildə qane etmirdi. Erməni təcavüzünün başlandığı günlərdə general Makeyevin Gəncədə olmaması isə bölgənin müdafiəsinə rəhbərlikdə bir nizamsızlıq yaradırdı. Qərargahı Gəncədə yerləşən 1-ci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinskinin xəstə olması isə vəziyyəti bir qədər də ağırlaşdırırdı. Ona görə də mart ayının sonlarında S.Mehmandarov Gəncədən Hərbi Nazirliyə yolladığı teleqramında general Makeyevin tapılıb Gəncəyə göndərilməsini tələb etdi (351).

Qazax–Ağstafa cəbhəsində müdafiənin təşkili məsələləri ilə yaxından tanış olmaq üçün Səməd bəy Mehmandarov 1920-ci il mart ayının 28-də Ağstafaya yollandı, orada bölgənin rəhbərliyi ilə görüşdü, mövcud vəziyyət haqqında lazımi məlumat aldı. Bu bölgə-

nin müdafiəsinin təşkili başlıca olaraq 8-ci Ağdaş piyada alayının üzərinə düşməli idi. Lakin Ağdaş alayı tam şəkildə komplektləşdirilməmişdi və bu alayın bir taboru da Qarabağ cəbhəsində idi. Ona görə hələ erməni təcavüzünün başlaması ərəfəsində S.Mehmandarov 2-ci Zaqatala piyada alayının Nuxada yerləşən taborunun Qazaxa göndərilməsinə göstəriş verdi. Qazaxa gəlmiş Nuxa taboru müharibə dövrünün ştatlarına uyğun ikitaborlu tərkibə çevrilərək Ağdaş piyada alayının tabeliyinə verildi. Tovuzda yerləşən Lənkəran əlahiddə piyada taborunun iki bölüyü də müharibə dövrünün ştatlarına uyğun olaraq tabora çevrildi və onlar da Ağdaş alayının tərkibinə qatıldı. Bu hissə və bölmələrin müharibə dövrünün ştatlarına keçməsi onların həm şəxsi heyətinin, həm də təchizatının sayını artırırdı. Əlavə şəxsi heyətin və təchizatın təmin edilməsinə lazımi kömək göstərilməsi üçün Hərbi Nazirlik tərəfindən hökumət qarşısında məsələ qaldırıldı. Çünki bölgədəki hissə və bölmələrin istər canlı qüvvə, istərsə də silah və sursatla tam təchiz edilməsi erməni təcavüzünün qarşısını daha etibarlı şəkildə almağa imkanı verərdi (352).

Bölgənin müdafiəsinin gücləndirilməsi üçün Cümhuriyyət ordusunun zirehli qatarlarından biri də Ağstafaya gətirilmişdi. Amma S.Mehmandarov bununla da kifayətlənmədi və ikinci zirehli qatarın da Tovuza göndərilməsi barədə göstəriş verdi (353).

Əldə edilmiş kəşfiyyat məlumatları göstərirdi ki, ermənilərin Qazax–Ağstafa istiqamətindəki hərbi qüvvələri çox deyildir. Hətta bölgənin erməni əhalisi aclıqla qarşılaşdığı üçün erməni hərbi qüvvələrinin bu bölgədəki fəaliyyətinə rəğbətlə yanaşmırdılar. Ona görə də nəzərdə tutulmuş müdafiə tədbirlərinin həyata keçiriləcəyi halda bölgənin müdafiəsini təşkil etmək mümkün idi (354).

1920-ci il aprel ayının 5-də bölgədə toplaşmış olan erməni hərbi qüvvələrinin Azərbaycan mövqeləri üzərinə ciddi hücumu həyata keçirildi. Səhər saat 5-də bu dəstələr Tatlı kəndinə hücum etdilər və kəndə soxulmağa müvəffəq oldular. Amma Azərbaycanın müdafiə qüvvələrinin ciddi müqavimətindən sonra ermənilər kəndi tərk etmək məcburiyyətində qaldılar. Tatlı kəndi yenidən Azərbaycan tə-

rəfinin nəzarəti altına keçdi. Amma erməni hərbi qüvvələri çox da geri çəkilmədilər və Uzuntala–Lələkənd ətrafında səngər qurmağa başladılar. Hücumun gücləndirilməsi üçün həmin gün ermənilər bu bölgəyə toplar da gətirdilər. Bölgədə hərbi vəziyyət mürəkkəbləşdiyi üçün Gəncə möhkəmləndirilmiş rayonunun rəisi general Makeyev aprelin 6-da Qazaxa yollandı (355).

Hərbi vəziyyətin sabitləşdirilməsi üçün aprelin 6-da Qazax istiqamətində Ermənistan nümayəndələri ilə danışıqlar aparıldı və atəşin kəsilməsi haqqında qarşılıqlı razılığa gəlindi. Baxmayaraq ki, Ermənistan tərəfi atəşi dayandırmaq haqqında razılığını bildirdi, amma elə həmin gün yenidən Qazaxın yaşayış məntəqələrini atəşə tutdular. Əldə edilmiş razılaşmanın gözlənilməsi barədə erməni qoşunlarının rəhbərliyinə iki dəfə əlavə teleqram göndərilsə də, bölgədə vəziyyət mürəkkəb olaraq qalmaqda idi (356).

Elə həmin günlərdə Tərtər–Gəncə istiqamətində də erməni hərbi qüvvələri vəziyyəti xeyli mürəkkəbləşdirdilər və bir sıra yeni mövqelər ələ keçirdilər. Aprel ayının 7-də Gəncə bölgəsində müdafiənin gücləndirilməsi üçün S.Mehmandarovun əmri ilə 1-ci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinski Gəncə möhkəmləndirilmiş rayonunun rəisi təyin edildi və ondan tələb olundu ki, dərhal bu vəzifəni general Makeyevdən təhvil alsın və müdafiənin təşkil ediləcəyi mövqeləri şəxsən nəzərdən keçirsin (357).

Aprel ayının 7-də Qazax istiqamətində ermənilər yenidən güclü hücuma keçdilər. Bu dəfə də onların hücum obyekti Tatlı və Aradullu kəndləri oldu. Bölgənin yerli hakimiyyət nümayəndələri Ermənistanın Dilican bölgəsinin komissarına teleqram göndərərək neytral zonada görüş təklif etdilər. Bu teleqrama cavab alınmadı və ermənilər də atəşi dayandırmadılar (358).

Müəyyənləşdirilmişdi ki, Qazax–Ağstafa bölgəsinə toplanmış bütün erməni qüvvələrinə general Baqdasarov, Qazaxın kəndləri üzərinə hücum edən erməni alayına isə polkovnik Mnatsakanov rəhbərlik edirlər. Azərbaycanın hərbi qüvvələrinin müdafiə mövqeyində dayanmasından istifadə edərək erməni tərəfi hərbi qüvvələri əsas zərbəni müəyyən bir kənd istiqamətinə yönəldir, həmin

kəndi ələ keçirib yandırır, sonra da başqa bir kəndi hədəf götürürdülər. Bu yolla onlar aprelin 7-də Aradulla kəndini ələ keçirib yandırdılar (359).

Aprelin 8-də isə onlar qüvvələrini Köhnəqışlaq və Tatlı kəndlərinə tərəf istiqamətləndirdilər və həmin kəndləri də ələ keçirib yandırdılar. Bundan başqa, erməni hərbi qüvvələri Qaraqaya dağını ələ keçirib Əskipara və Kəmərli istiqamətində hücumu davam etdirməyə çalışırdılar. Amma onların bu cəhdlərinin qarşısı alındı. Qazaxın general-qubernatoru Xan Xoyski bildirirdi ki, ermənilərin bu təcavüzünün qarşısında müdafiədə dayanmaq düzgün deyildir və ona görə uyğun qərar qəbul edilməsi haqqında o, Hərbi Nazirliyin rəhbərliyinin də qarşısında vəsatət qaldırdı (360).

Buna baxmayaraq, Hərbi Nazirliyin rəhbərliyi Qazax–Ağstafa bölgəsində hücum xarakterli döyüşlərin aparılmasını, Azərbaycanın hərbi qüvvələrinin sərhəd xəttini aşaraq Ermənistanın daxilinə hərəkət etməsini məqsədəuyğun bilmirdi. Mövcud qüvvələr nisbətində və hərbi şəraitdə bu, düzgün sayılmırdı. Hərbi Nazirliyin rəhbərliyi tərəfindən təkid edilirdi ki, Ermənistan tərəfi ilə danışıqlar davam etdirilsin və bu yolla erməni hərbi qüvvələrinin fəallığının qarşısının alınmasına cəhd göstərilsin. Ona görə erməni tərəfi ilə danışıqlar davam etdirildi və bölgəyə toplaşmış erməni hərbi qüvvələrinin rəhbəri bir daha vəd etdi ki, onlar atəşkəsə riayət edəcəklər. Bununla belə, aprelin 9-da da atəşkəsə tam şəkildə riayət edilməsinə nail olunmadı. Amma Azərbaycanın hərbi qüvvələrinin daha əlverişli mövqelərdə qərar tutması ermənilərə hərbi təşəbbüsü ələ almağa imkan vermirdi (361).

Azərbaycanın müdafiə mövqelərinin daha da möhkəmləndirilməsi üçün Gəncə möhkəmləndirilmiş rayonunun qərargahı bölgəyə 6 ədəd bombaatanın göndərilməsini məqsədəuyğun sayırdı. Nəzərdə tutulmuşdu ki, bu bombaatanlardan ikisi Tovuzdakı hərbi qüvvələrə, 2-si birinci zirehli qatara, 2-si də ikinci zirehli qatara verilsin (362).

Aprel ayının 9-da atəşin dayandırılması haqqında tərəflər arasında yenidən danışıqlar aparıldı. Azərbaycan tərəfdən bu danışıqlara

Qazaxın general-qubernatoru Xan Xoyski rəhbərlik edirdi. Bu danışıqlar zamanı razılaşdırıldı ki, tərəflər arasında döyüşlər dayandırılsın və aprel ayının 10-da saat 12-yə kimi hərbi qüvvələr öz əvvəlki mövqelərinə çəkilsinlər. Hərbi qüvvələr geri çəkiləndən sonra sərhəd xəttinin mühafizəsi sərhəd mühafizə dəstələrinə tapşırılsın. Bu razılaşmadan sonra baş verə biləcək anlaşılmazlıqlar danışıqlar yolu ilə aradan qaldırılmalı idi (363).

Bu razılaşmanın nəticəsi kimi aprelin 10-dan Azərbaycan hərbi qüvvələri sərhəd xəttindən geri çəkilməyə başladı və atəşkəs əlaməti olaraq sərhəd xətti boyunca ağ bayraqlar qaldırıldı.

Amma bu atəşkəs də uzun müddət davam etmədi. Aprel ayının 11-də erməni hərbi qüvvələri əldə edilmiş razılaşmanı pozaraq güclü hücuma keçdilər və Yuxarı Əskipara, Aşağı Əskipara, Fərəhli, Xeyrimli, Bağanıs–Ayrım, Məzəmli kəndlərini yandırdılar. Bu bölgədə vəziyyət yenidən o qədər ağırlaşdı ki, Azərbaycanın Xarici İşlər naziri F.Xoyski Ermənistanın Xarici İşlər nazirinə nota göndərməli oldu (364).

Aprel ayının 14-də erməni hərbi qüvvələri öz hücumlarını yenidən davam etdirdilər. Atəşkəsin əldə edilməsi üçün aparılan danışıqlardan sonra ermənilər artıq 4-cü gün idi ki, hücumlarını dayanmadan davam etdirirdilər. Onlar Kəmərli kəndinin bir hissəsini yandırmağa müvəffəq olsalar da, Azərbaycanın müdafiə qüvvələrinin və yerli könüllülərin müqaviməti nəticəsində geri çəkilmək məcburiyyətində qaldılar (365). Erməni hərbi qüvvələri bölgənin bəzi kəndlərini yandırsalar da, xüsusi mövqe üstünlüyünə nail ola bilmədilər və Azərbaycanın müdafiə qüvvələrinin müqaviməti qarşısında qarşılarına qoyduqları məqsədə çata bilməyəcəklərini anladıqları üçün nəhayət ki, atəşkəs məsələsinə ciddi yanaşmalı oldular. Aprel ayının 19-da tərəflər arasında yenidən atəşkəs haqqında razılaşma əldə edildi. Bu razılaşmaya əsasən elə həmin gün hərbi qüvvələr öz əvvəlki mövqelərinə çəkilməli, ayın 21-dən etibarən isə yandırılmış kəndlərin əhalisi öz yurdlarına qayıtmalı idilər (366).

Qarabağ cəbhəsində ciddi uğursuzluqlara uğraması Ermənistan

rəhbərliyini məcbur etdi ki, Qazax bölgəsində razılaşdırılmış bu atəşkəsə riayət etsin. Bununla da bölgədə hərbi-siyasi vəziyyət sabitləşməyə başladı.

### b) Cəbrayıl cəbhəsi

Qeyd edildiyi kimi, Qarabağda erməni hərbi qüvvələri üç istiqamətdə Azərbaycanın müdafiə qüvvələri üzərinə hücuma keçdilər. Bu istiqamətlər ümumilikdə vahid planın tərkib hissəsi idi və həmin istiqamətlərdə erməni hərbi qüvvələrinin uğur qazanması Qarabağ üzərində bütün nəzarəti erməni millətçilərinin əlinə keçirə bilərdi. Ona görə bu istiqamətlərin hər biri tərəflər üçün xüsusi əhəmiyyət kəsb edirdi.

Cəbrayıl cəbhəsi bu istiqamətlərdən biri idi. Nəzərdə tutulmuşdu ki, erməni hərbi qüvvələri Zəngəzurdan hücuma başlayaraq bu bölgədəki yerli erməni silahlı dəstələri ilə birləşsin və sonra da Xankəndi–Şuşa istiqamətində hərəkətlərini davam etdirərək ermənilərin əsas qüvvələri ilə birləşsinlər.

Erməni təcavüzünün başladığı vaxt Cəbrayılda 3-cü Gəncə alayının 4 piyada bölüyündən, 3-cü Gəncə alayının pulemyot bölüyündən, 4 ədəd topdan, iki süvari bölüyündən ibarət dəstə var idi. Cəbrayıl dəstəsinə ümumi rəhbərlik polkovnik Xosrov Mirzə Qacara həvalə olunmuşdu. Bundan başqa, yerli könüllü dəstələr də bölgənin müdafiəsinə cəlb edilmişdi. Zəngəzur–Cəbrayıl istiqaməti üzrə Qoçazda 2 piyada bölüyü, 2 ədəd pulemyot və 2 ədəd top, Müsəlmanlar kəndində 1 piyada bölüyü, 2 ədəd pulemyot və 2 ədəd top var idi. Həmin kəndlərdə olan bu kiçik dəstələr də erməni hərbi qüvvələrinin Zəngəzurdan hücumuna müəyyən maneçilik yarada bilərdi (367).

İlkin məlumatlara görə Zəngəzur istiqamətində Azərbaycanın könüllü qüvvələri döyüşlərə uğurla başlamışdılar. Onlar Zəngəzur qəzasında erməni silahlılarının toplaşdıqları bir neçə kəndi ələ keçirə bilmişdilər. Bildirilir ki, mart ayının 23-də 400 nəfərlik erməni silahlı dəstəsi bölgədə hərbi təşəbbüsü ələ almaq üçün Geranzurdan

hücuma atıldılar və Malxələf kəndini tutaraq yandırdılar. Amma onların bu uğuru çox da uzun sürmədi. Yerli partizan dəstələri erməni silahlı dəstələrinin bu hücumunun nəinki qarşısını aldılar, onlardan 20 nəfəri öldürməklə və iki nəfəri də əsir götürməklə Malxələf kəndini geri aldılar (368).

Cəbrayıl ətrafında isə vəziyyət erməni hücumlarının elə ilk günlərindən kifayət qədər mürəkkəb xarakter aldı. Burada erməni hərbi qüvvələri bütün cəbhəboyu hücuma keçərək Azərbaycann müdafiə qüvvələrini sıxışdırmağa müvəffəq olmuşdular. Ermənilərin istifadəsində olan bir ədəd top onların zərbə qüvvəsini daha da artırırdı. Nəticədə, ermənilər bir neçə kəndi yandıra bilmişdilər (369).

Bölgədə gedən döyüşlərdə iştirak etmiş Zare Məlik-Şahnəzəryan adlı birisi xatirələrində belə yazırdı: "Ararat Respublikasının (Ermənistanın) qoşunları general Dro (Drastamat Kanayan) və onun köməkçiləri Njde və Qij-Manukun rəhbərliyi altında Xtsapert erməni kəndi yaxınlığında türk müqavimət xəttini yaranda Zəngəzur cəbhəsi ilə Qarabağın birləşməsi baş verdi. ...erməni hissələri düşmənin müqavimətini yardı... və Qarabağa daxil olaraq sürətlə Hadruta doğru irəliləməyə başladı. Qarabağın qoşun hissələri sevinclə erməni respublikasından olan qardaşlarını qarşıladılar. Erməni qoşunları irəliləyəndən sonra bizim hissə Njde və Qij-Manukun taboruna daxil edildi" (370).

Cəbrayıl dəstəsinin və bölgənin partizanlarının səyləri ilə erməni hərbi qüvvələrinin ilk hücumunun qarşısını almaq mümkün olsa da, polkovnik Xosrov Mirzə Qacar vəziyyətin ağır olaraq qaldığını bildirirdi. Onun məlumatına görə Cəbrayıl istiqamətinə toplaşmış erməni hərbi qüvvələri şimala doğru hərəkət etməklə Qarabağın mərkəzindəki əsas erməni qüvvələri ilə birləşməyə çalışırdılar. Vəziyyətin sabitləşdirilməsi üçün polkovnik Xosrov Mirzə Qacar ona kömək göstərilməsini xahiş edirdi. O, partizan dəstələrinin ciddi döyüşmədiklərini və lazımsız yerə çoxlu sayda patronlardan istifadə etdiklərini bildirirdi (371).

Hərbi nazir S.Mehmandarov Cəbrayıl dəstəsindən alınan həyə-

canlı teleqramı təşvişlə qarşıladı. Onun fikrincə, Cəbrayılın yaxşı müdafiə edilməsi üçün polkovnik Xosrov Mirzə Qacarın ixtiyarında kifayət qədər qüvvə var idi. O cümlədən Cəbrayıl ətrafına beş bölük göndərilmişdi ki, onlardan dördü piyada, biri isə pulemyot bölüyü idi. Bu bölüklərin ixtiyarına toplar da verilmişdi. İki süvari bölüyü də dəstənin qüvvəsini müəyyən dərəcədə artıra bilərdi. Bundan başqa, yerli partizan dəstələrinin rəhbərinin məlumatına görə toplanmış könüllülərdən beş tabor təşkil edilmişdi. Belə bir qüvvə ilə Cəbrayıl istiqamətində erməni dəstələrinin fəallaşmasını S.Mehmandarov Xosrov Mirzə Qacarın rəhbərliyi altında olan dəstənin qətiyyətsiz fəaliyyəti ilə bağlayırdı. Ona görə də Hərbi nazir Xosrov Mirzə Qacarın dəstəsinin fəaliyyətinə qarşı tələbkarlığın artırılmasını lazım bilirdi. Hərbi nazirin müavini Əliağa Şıxlinski dərhal bu iradları Xosrov Mirzə Qacara çatdırdı və daha qətiyyətli fəaliyyət göstərməsini ondan tələb etdi: «Nəyin bahasına olursa olsun, təcili şəkildə Şəhzadə Qacarla əlaqə yaradılması üçün tədbirlər görün. Anlaya bilmirəm o, Cəbrayıl üçün necə qorxa bilər. Bir halda ki, onun 5 bölüyü, iki batareyası və iki süvari bölüyü var. Bundan başqa, Xəlil bəyin inadkarlığına görə orada 5 tabor da formalaşdırılmışdır. Görünür, dəstə heç bir işlə məşğul deyil və yalnız nə etmək barədə başqalarına göstəriş verir. Tədbir tökün ki, dəstələr boş yerə patronları məsrəf etməsinlər. Yoxsa biz çox pis vəziyyətdə qalacağıq».

Mart ayının 25-də Cəbrayıl istiqamətində erməni hərbi qüvvələrinin hücumu yenə davam etdi. Azərbaycanın müdafiə qüvvələri onlara cavab versə də, ermənilər say üstünlüyündən və malik olduqları silahlardan istifadə edərək vəziyyəti xeyli mürəkkəbləşdirə bildilər. Mövcud faktlardan aydın olur ki, Cəbrayıldakı dəstə ilə davamlı rabitə əlaqəsi mövcud deyildi və ona görə də bu dəstənin fəaliyyətinin Qarabağ cəbhəsindəki bütün qüvvələrin döyüş fəaliyyəti ilə əlaqələndirilməsi çətinlik yaradırdı.

Dəstə rəhbərliyinin lazımi təşəbbüs göstərməməsi, döyüşlərin təşkilində çeviklik nümayiş etdirməməsi də bütünlükdə bölgədə vəziyyətin tezliklə sabitləşməsinə mane olurdu.

Cəbrayıl dəstəsinin fəaliyyətini təhlil etdikdən sonra Hərbi na-

zirin müavini Əliağa Şıxlinski də belə bir qənaətə gəlmişdi ki, bu dəstənin rəhbəri Xosrov Mirzə Qacar doğrudan da çox ləng hərəkət edir. Ona görə general Ə.Şıxlinski Qarabağdakı hərbi qüvvələrin ümumi komandanı general H.Səlimova təklif etdi ki, Xorov Mirzə Qacarın yerinə general Teymur bəy Novruzovun təyin edilməsi məsələsini nəzərdən keçirsin (372).

Sonrakı günlər ərzində Cəbrayıl bölgəsində elə bir dəyişiklik baş vermədi. Doğrudur, bu dəstə ermənilərin Cəbrayıl ətrafını nəzarət altına almasına imkan vermədi. Amma Şuşa istiqamətində döyüşlər gedərkən Cəbrayıl dəstəsi öz istiqamətindən erməni hərbi qüvvələrinə zərbə endirməklə əsas hərbi qüvvələrə səmərəli bir dəstək də verə bilmədi.

1920-ci il aprel ayının ortalarına olan məlumata görə Cəbrayıl dəstəsi bir qədər də gücləndirilmişdi. Amma Xosrov Mirzə Qacar bu dəstənin rəhbəri olaraq qalmaqda idi. General H.Səlimov vəziyyətin münasib olacağı təqdirdə bütün qüvvələrin iştirakı ilə Zəngəzura hücum etməyi planlaşdırırdı. Ona görə də belə bir hücum ərəfəsində Cəbrayıl dəstəsinin rəhbərinin dəyişdirilməsini lazım bilmirdi və bununla bağlı öz mövqeyini Hərbi Nazirliyin rəhbərliyinə də çatdırdı (373).

Amma Azərbaycanın şimal sərhədləri istiqamətində hərbi şəraitin dəyişməsi ilə əlaqədar Zəngəzura planlaşdırılan əməliyyatı həyata keçirmək mümkün olmadı.

### c) Tərtər–Ağdərə cəbhəsi

Erməni hərbi qüvvələrinin hücuma keçdikləri istiqamətlərdən biri də Ağdərə–Tərtər istiqaməti idi. Qeyd edildiyi kimi, erməni rəhbərliyi bu istiqamətdə də döyüşlərin aparılmasına xüsusi diqqət yetirirdi. Çünki bu istiqamətdə uğur əldə etməklə ermənilər həm Qarabağda vuruşan Azərbaycan hərbi qüvvələrinin vəziyyətini çətinləşdirə bilərdilər, həm də bu istiqamətdə hücumun genişləndirilməsi ilə Gəncəni işğal altına almaq olardı ki, bu zaman bütünlükdə Azərbaycanın daxili vəziyyəti xeyli mürəkkəbləşmiş olardı.

Tərtər ətrafında 3-cü Gəncə piyada alayının bir taboru və Şəki süvari alayı müdafiədə dayanmışdılar. Piyada taboruna podpolkovnik Qasımbəyov, Şəki süvari alayına isə podpolkovnik Tonqiyev rəhbərlik edirdilər. Tərtər ətrafında ümumi komandanlıq yaradılmamışdı və podpolkovnik Tonqiyevlə podpolkovnik Qasımbəyovun fəaliyyəti Hərbi nazir S.Mehmandarov, ya da general Səlimov tərəfindən əlaqələndirilirdi.

Podpolkovnik Qasımbəyovun taboru bölgəyə ermənilərin hücumu başlayandan sonra gətirildi. Həmin dəstənin tərkibində 18 zabit, 633 əsgər, 1 həkim və 97 baş at var idi. Podpolkovnik Qasımbəyovun taboru 2 ədəd topla müşayiət olunurdu. Mart ayının 24-də o, Tərtər ətrafına yollanmaq haqqında göstəriş aldı və dərhal da bu göstəriş yerinə yetirildi (374).

Martın 24-də səhər saat 6-da erməni silahlı qüvvələri Tərtər üzərinə hücuma keçdilər. 3-cü Şəki alayının komandiri podpolkovnik Tonqiyevin verdiyi məlumata görə ermənilər Tərtəri tutmağa səy göstərirdilər. Ancaq mövcud olan qüvvələrin səfərbər edilməsi bu erməni hücumunun qarşısını aldı.

24–26 mart tarixlərində Tərtər ətrafında xüsusi bir gərginlik yarandı. Ayın 24-də erməni qüvvələri bir neçə dəfə Tərtər üzərinə hücuma keçdilər. Bu hücumların hamısı dəf edildi. Bir əsgər şəhid oldu, 5 nəfər isə yaralandı. Tərtər ətrafında bura cəmləşmiş olan Azərbaycan partizanları da igidliklə vuruşdular. Quduzlaşan erməni qüvvələrinin geri atılmasında onların da böyük rolu var idi (375).

Azərbaycanlı partizanların sayı sonradan daha da artdı. Martın 25-də Tərtərə növbəti hücumlar gözlənilirdi. Bu dəfə Gəncə ətrafında yaradılmış olan erməni silahlı dəstələrinin də cəbhə arxasından Tərtərə zərbə endirəcəyi haqqında xəbər alınmışdı.

Martın 25-də səhər saat 6-da erməni qüvvələri Tərtər üzərinə yeni hücuma başladılar. Onların məqsədi Tərtəri ələ keçirib burada möhkəmlənmək idi. İlk hücum uğursuzluğa düçar olsa da, ikinci cəhddə ermənilər bir qədər irəliləyə bildilər. Onlar qoşun bölmələrini və müdafiədə dayanan partizanları sıxışdıraraq Tərtər ətrafındakı iki kəndi işğal etdilər. Lakin həmin kəndlərdə möhkəm-

lənmək erməni silahlılarına nəsib olmadı. Azərbaycanın qoşun bölmələri və partizanlar yenidən qruplaşdırıldı və onların həyata keçirdikləri əks-hücum ermənilərı geri qaçmağa məcbur etdi. Axşamüstü Azərbaycanın qoşun hissələri və partizanlar hücumu davam etdirdilər. Əvvəlcə, Marağalı kəndi ermənilərdən azad edildi, sonra isə Marquşevan kəndində Yüzbaşovun malikanəsi ələ keçirildi. Qoşun hissələri Marquşevan yaxınlığında olan Çaylı kəndini də atəşə tutdu (376).

Martın 26-da Tərtər ətrafında Azərbaycanın qoşun bölmələrinin və partizanların uğurlu hücumları davam etdirildi. Gündüz saat 12-də Çaylı və Bruc erməni kəndləri də ələ keçirildi. Erməni qüvvələri Çaylının qərbində olan dağlara səpələndilər. 3-cü Şəki süvari alayının komandiri podpolkovnik Tonqiyev birinci bölükdən kornet Yadigarovun və praporşik Seyidzadənin rəhbərliyi altında olan topçuların qorxmaz və səmərəli fəaliyyətinin gün ərzində əldə edilən uğurlarda xüsusi rolu olduğunu bildirirdi. Topçular dəqiq atəşləri ilə düşmənin bütün mövqelərini vurub dağıtdılar. Kornet Yadigarovun süvarilərinin qəfil və sürətli hücumu isə ermənilərin canına bir vəlvələ saldı, onların qorxu və təlaş içində qaçıb dağılmasına səbəb oldu (377).

Martın 26-da 3-cü Gəncə piyada alayından podpolkovnik Qasımbəyovun komandirliyi altında göndərilmiş olan dəstə də bölgəyə gəlib çıxdı. Həmin dəstə Tərtərlə Goranboy arasında mövqe tutdu və bu istiqamətdən müstəqil şəkildə erməni silahlı dəstələrinin mövqeləri üzərinə hücum çəkməli idi. Podpolkovnik Tonqiyev bildirirdi ki, gələcək döyüşlərdə öz planlarını podpolkovnik Qasımbəyovla nizamlayacaqdır. O, Hərbi Nazirliyə göndərdiyi raportunda qeyd edirdi ki, erməni qüvvələrinin tezliklə məhv edilməsi üçün əlavə nizami bölmələrin göndərilməsi zəruridir. Çünki bir tərəfdən Şəki süvari alayının şəxsi heyətinin miqdarı az idi, o biri tərəfdən isə 3 günlük gərgin döyüşlərdən sonra partizanların çoxu yorulduqlarından evlərinə dağılmışdılar. Bu da ümumi qüvvələrin zəifləməsinə zəmin yaratdı (378).

Martın 27-də podpolkovnik Qasımbəyovun dəstəsi ilk döyüşə qoşuldu və onu uğurla başa çatdırdı. Güclü döyüşdən sonra Yenikənd və Qaraçinar kəndləri ermənilərdən azad edildi. Əsgərlərdən 5 nəfər şəhid oldu, 15 nəfər isə yaralandı (379).

Martın 28-də podpolkovnik Qasımbəyovun dəstəsi yerləşdiyi istiqamətdə düşmənə yeni bir zərbə vurdu. Azərbaycan döyüşçülərinin güclü hücumunun qarşısını ala bilməyən erməni silahlıları saat 2-də Xarxaput kəndini də tərk etmək məcburiyyətində qaldılar. Böyük qüvvələr çəkib gətirmiş olan ermənilər müqavimət göstərməyə çalışsalar da, podpolkovnik Qasımbəyovun zərbələrinin qarşısını almağa qadir deyildi. Tezliklə döyüş erməni Borisi kəndi ətrafına keçirildi. Gün ərzində gedən döyüşlərdə 4 əsgər şəhid oldu, 10 nəfər isə yaralandı (380).

Bir neçə günlük nisbi sakitlikdən sonra mart ayının son günlərində Tərtər istiqamətində döyüşlər yenidən qızışdı. Burada yerli əhalidən təşkil edilmiş könüllü dəstələr xüsusilə fəallaşdılar və onların səyləri ilə Qaraçinar, Yenikənd, Yuxarı və Aşağı Ağcakənd kəndləri ermənilərdən təmizləndi. Mart ayının 31-də partizanlar qətiyyətli hücumla Erkəc kəndini də təmizləyərək Gülüstan və Qarabağ istiqamətində hərəkətlərini davam etdirdilər. Yerli əhali öz silahları və patronları ilə partizan dəstələrinə qoşulur, böyük ruh yüksəkliyi ilə döyüşür və dinc erməni əhalisinə xətər yetirmirdilər. Gəncənin müsəlman gimnaziyasının şagirdləri öz təşəbbüsləri ilə sanitar dəstəsi yaratmışdılar və cəbhə bölgəsinə yollanmağa hazırlaşırdılar. Yerli əhali də onları qoruyan partizanları ərzaq və digər zəruri əşyalarla təmin etməyə çalışırdı. Mart ayının son günləri Azərbaycanın müdafiə və könüllü qüvvələrinin qətiyyətli fəaliyyətindən sonra Erkəc və Çaylı kəndlərinin ermənilərinin nümayəndələri yerli hakimiyyət orqanlarının nümayəndələri ilə görüşərək Azərbaycan hakimiyyətinə itaət etdiklərini bildirdilər (381). Əldə edilimiş bu uğur imkan verdi ki, aprel ayının ilk günlərində Azərbaycanın müdafiə qüvvələri öz mövqelərini kifayət qədər möhkəmləndirsinlər.

Döyüşdə qazandığı uğurlara görə artıq polkovnik rütbəsinə layiq

görülmüş olan Qasımbəyovun dəstəsi aprelin 3-də Talış kəndi üzərinə hücuma keçdi. Bu kənd ətrafında da düşmənin çox güclü atəş mövqeləri var idi. Göstərilən bütün səylər lazımi nəticə vermədi. Polkovnik Qasımbəyovun dəstəsi itkilər verərək geri çəkilməli oldu (382).

Belə olanda polkovnik Qasımbəyov qərara aldı ki, Talış kəndi üzərinə Şəki süvari alayı ilə birlikdə hücuma keçsin və o, bu qərarını Hərbi Nazirliyin rəhbərliyi ilə də razılaşdırdı. Piyadalar Talış kəndi ətrafında döyüşdə olduğu zaman Şəki süvari alayı Levonarx kəndində toplaşmış erməni silahlıları üzərinə hücum etdi və həmin kəndi ələ keçirdi.

Aprel ayının 5-də isə birləşmiş dəstənin Talış kəndi üzərinə hücumu həyata keçirildi. Göstərilən qətiyyət nəticəsində tezliklə bu kəndi də erməni silahlılarından təmizləmək mümkün oldu. Bundan sonra, polkovnik Qasımbəyovun dəstəsi irəliyə doğru hərəkətini davam etdirərək daha əhəmiyyətli və əlverişli olan döyüş mövqelərinə çıxdılar (383).

Aprel ayının 5-də Çaykənd və Azad kəndləri ətrafına cəmləşdirilmiş 3 min nəfərlik partizan dəstəsinin gücü ilə Çaykəndin də azad edilməsi planlaşdırılırdı. Bundan xəbər tutan ermənilər Çaykənd ətrafına 1000 nəfərlik qüvvə topladılar və ilkin olaraq hücuma başladılar. Azərbaycan partizanları sayca üstünlük təşkil etsələr də, ciddi bir hərbi nizama malik deyildilər. Ona görə də ermənilərin cavab zərbəsinə davam gətirə bilmədilər. Erməni silahlı dəstəsi əldə etdiyi uğuru daha da genişləndirərək Hacıkəndin cənubundakı yoxuşu ələ keçirdi. Bununla ermənilər Gəncə üzərinə hücum etmək üçün münasib mövqelər əldə etdilər. Nəticədə, Gəncənin təhlükəsizliyi üçün ciddi xətər yarandı. Gəncənin özündə isə bu şəhərin müdafiəsi üçün yetərli sayda qüvvə yox idi. Qarnizonda cəmi bir piyada bölüyü və 2 ədəd də top saxlanılmışdı. Bu qüvvə ilə isə Gəncəni müdafiə etmək mümkün deyildi. Ona görə polkovnik Qasımbəyova göstəriş verildi ki, sərəncamında olan taborla qısa yolla özünü Gəncəyə yetirsin. Bundan başqa, Hacıkənd istiqamətinə topların da göndərilməsi məqsədəuyğun bilindi (384).

Polkovnik Qasımbəyovun komandir olduğu taborun Gəncəyə

gətirilməsi, eyni zamanda, Qarabağın mərkəzində erməni hərbi qüvvələrinə qarşı mübarizədə ciddi uğurların əldə edilməsi Gəncənin təhlükəsizliyini təmin etdi. Bununla Tərtər istiqamətində də sabitlik yaradılmış oldu.

**ç) Ağdam–Əsgəran–Şuşa cəbhəsi**

Azərbaycanın ərazi bütövlüyünün parçalanması və Qarabağın Azərbaycandan qoparılması üçün 1920-ci ilin Novruz bayramı günlərində başlanan erməni təcavüzünün əsas hadisələri Şuşa–Ağdam arasındakı ərazidə cərəyan edirdi. Zərbənin əsas ağırlığını bu istiqamətə yönəltməklə erməni millətçiləri Ağdama aparan yolu kəsmək, Əsgəran və Xankəndini nəzarət altına alandan sonra Şuşanı ələ keçirmək, bu şəhərdəki azərbaycanlı əhaliyə qarşı qırğınlar törətmək və bu bölgəni Azərbaycandan qoparmaq istəyirdilər. Cəbrayıl və Tərtər istiqamətindən başlanan döyüşlər də nəticədə Şuşa–Ağdam arasında fəaliyyət göstərən erməni hərbi qüvvələrinin uğurunu təmin etməli və Qarabağın Azərbaycandan qoparılmasını təmin etməli idi.

Mart ayının 22-dən 23-nə keçən gecə Xankəndinə hücumun başlaması Şuşada da Azərbaycan məhəlləsinin və Azərbaycan qarnizonunun üzərinə hücuma başlamaq üçün bir işarə oldu. Şuşikənd istiqamətindən də Şuşanın top atəşinə tutulması başlandı və bayram günlərində ermənilərin təcavüzünü gözləməyən əhali kifayət qədər mürəkkəb duruma düşdü. Xüsusilə erməni xəlifəsinin Novruz bayramı ərəfəsində azərbaycanlı əhalini arxayınlaşdırmağa çalışması, bundan sonra isə vədlərinə əməl etməyən ermənilərin Şuşadakı Azərbaycan bölmələrini mühasirəyə alması azərbaycanlı əhalini də təcili tədbirlər görmək məcburiyyəti qarşısında qoydu. İlk növbədə erməni məhəlləsində olan milli qoşun bölməsinin mühasirədən çıxarılmasına cəhd göstərildi ki, bu da tərəflər arasında silahlı qarşıdurmaya yol açdı.

Qarabağ general-qubernatoru ermənilərin hücumu xəbərini eşidən kimi yerli partizanları döyüşə səfərbər etdi. Ağdamla Əsgə-

ran arasında olan bir sıra mövqelər Azərbaycan partizanları tərəfindən tutuldu. Şuşada, Xankəndində və Tərtərdə Azərbaycan qoşun bölmələrinin qışlalarını, silah və sursat anbarını tutmaq üçün erməni silahlı dəstələrinin göstərdiyi ilk cəhd uğursuzluğa düçar olsa da, aydın idi ki, mövcud qüvvələrlə güclənməkdə olan erməni qüvvələrinin növbəti hücumlarının qarşısını almaq heç də asan olmayacaqdır. Ona görə də həm Qarabağ general-qubernatorunun, həm də Daxili İşlər Nazirliyinin bölgəyə gəlmiş olan rəhbərliyi respublika hökumətindən Qarabağa əlavə qüvvələr göndərilməsini xahiş etdi (385). Respublikanın Daxili İşlər naziri bölgəyə əlavə artilleriyanın gətirilməsini xüsusilə vacib sayırdı. Onun fikrincə, bu iş operativ şəkildə görülməli və ermənilər Əsgəranda lazımınca möhkəmlənməyə imkan tapmamış əks-hücumlar başlanmalı idi. Daxili İşlər nazirinin göndərdiyi teleqramdan aydın olurdu ki, hadisələrin başlanğıcında Ağdamda Salah bəyin rəhbərliyi altında olan partizan dəstəsi Əsgəran yolunun açılmasına çalışsa da, bir nəticəyə nail ola bilməmişdi. Çünki Əsgərandakı erməni qüvvələri ilə müqayisədə onların gücü xeyli zəif idi (386).

Erməni təcavüzünün qarşısının alınması istiqamətində yerli partizanların fəaliyyətinin səmərəliliyini artırmaq üçün Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov və Qarabağdakı hərbi qüvvələrin rəhbəri general-mayor Teymur bəy Novruzov hələ martın 23-də Azərbaycanın hökumət rəhbərliyi və Hərbi Nazirliyin rəhbərliyi qarşısında patron göndərilməsi haqqında vəsatət qaldırdılar. Yerli partizan dəstəsinin rəhbəri 50 min türk, 200 min rus, 50 min lebel, 15 min ingilis, 200 min berdan patronlarının göndərilməsi haqqında məsələ qaldırmışdı. Hərbi nazir S.Mehmandarov Qarabağ partizanları tərəfindən sifariş edilən bu patronların göndərilməsi barəsindən dərhal göstəriş verdi. Həmin sayda patronlar Ləkidəki silah anbarından alınaraq ayın 26-da dəmir yolu ilə Yevlaxa, oradan da Ağdama çatdırılmalı idi (387).

Bölgədə hadisələrin sonrakı gedişi göstərdi ki, partizanlar lazımsız yerə çox böyük sayda patron məsrəf edirlər. Bununla belə, Hərbi nazir Qarabağın müdafiəsi üçün tələb olunan silahın, sursatın,

canlı qüvvənin təmin edilməsini xüsusi diqqət altında saxlayıdı və bununla bağlı verilən göstərişlərin vaxtında yerinə yetirilməsini bütün səviyyəli komandirlər qarşısında ciddi vəzifə kimi qoyurdu (388).

Mart ayının 23-də genişmiqyaslı erməni təcavüzünün başladığı gün 1-ci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinski də Ağdamda idi. Baş vermiş hadisə barəsində o da dərhal Azərbaycan hökumətinin rəhbərliyinə və Hərbi Nazirliyin rəhbərliyinə məlumat göndərdi. Əsgəran ətrafında yaranmış vəziyyət haqqında verdiyi məlumatının sonunda C.Şıxlinski bildirirdi ki, ya başımızı verəcəyik, ya da Əsgəranı qoruyacağıq (389).

Qarabağdakı qoşun hissələrinin möhkəmləndirilməsi üçün hələ erməni təcavüzünün başlanması ərəfəsində şimal sərhədlərində olan qüvvələrin bir hissəsinin ora göndərilməsi qərara alınmışdı. Martın 19-da Hərbi nazir 1-ci Tatar süvari alayını tam tərkibdə, habelə Quba piyada alayının bir taborunun Qarabağa yola salınması barədə göstəriş verdi. Ancaq erməni hücumları başlananda bu qüvvələr hələ Qarabağa gəlib çatmamışdılar.

Qarabağda vəziyyətin sabitləşdirilməsi üçün təkcə qoşun hissələri deyil, yerli əhali və mülki vətəndaşlar da əllərindən gələni edirdilər. Bölgədə olmuş Daxili İşlər naziri bildirirdi ki, əsgərlərin çox mübariz əhval-ruhiyyəsi vardır. Onların yeməkləri çox yaxşı idi. Yerli əhali də əsgərlərin iaşə təminatına köməklik göstərirdi. Hərbi qulluqçulara tibb xidməti də lazımi səviyyədə idi. Bu sahədə həm hökumət orqanları, həm də əhali konkret işlər görürdü. Cəbhəyə yardım məqsədilə Azərbaycanın bütün məntəqələrindən axışıb gələn könüllülər sanitar dəstələrində birləşirdilər. Əsgər və zabitlərə xidmət göstərilməsi üçün müəllimlər, ictimai təşkilatların əməkdaşları da sanitar dəstələri yaratmışdılar.

Kütləvi şəkildə partizan dəstələrinin yaradılması və onların Qarabağın müdafiəsinə səfərbər olunması da əslində, əhalinin erməni təcavüzünə qarşı qətiyyətinin və yekdilliyinin göstəricisi idi. Müdafiə qüvvələrinin təşkilatlanması və onların bölgəyə çatdırılması müəyyən vaxt tələb etdiyindən partizan dəstələrinin çevik toplanmasına və fəaliyyətinə müəyyən ümidlər bağlanılırdı. Doğrudur, bu

dəstələrin fəaliyyətində bir təcrübəsizlik və nizamsızlıq var idi. Amma bununla belə, erməni təcavüzünə qarşı mübarizənin təşkilində könüllü partizan dəstələrinin fəaliyyətini qiymətləndirməmək olmaz.

Erməni təcavüzünün başlanması xəbəri alınan kimi Hərbi Nazirliyin rəhbərliyi tərəfindən dərhal lazımi tədbirlərin həyata keçirilməsinə başlandı. Mart ayının 25-də Hərbi Nazirliyin rəhbərliyi Qarabağdakı hərbi qüvvələrin ümumi komandanı vəzifəsinə general-mayor Həbib bəy Səlimovu təyin etdi. Nazir müavini Ə.Şıxlinski Qarabağdakı hərbi qüvvələrin əvvəlki rəhbəri general-mayor Teymur bəy Novruzova göndərdiyi teleqramda bildirirdi ki, onunla əlaqə yaradacağı gün H.Səlimov Qarabağdakı hərbi qüvvələrə rəhbərliyi öz üzərinə götürəcək. Ə.Şıxlinski əlavə edirdi ki, H.Səlimova Qarabağda qanunçuluğun bərqərar edilməsi vəzifəsi həvalə olunmuşdur. Mart ayının 26-da Həbib bəy Səlimov artıq Ağdamda idi və həmin gündən də o, bölgədəki hərbi qüvvələrə rəhbərliyi öz üzərinə götürdü. Martın 26-da general Səlimov Ağdama çatan kimi Əsgəran yolunun kəşfiyyatını apardı (390). Əldə olunan məlumatlar göstərirdi ki, Əsgəran ətrafındakı bütün yüksəkliklər erməni silahlılarının əlində idi. Ancaq bu məntəqədə düşmənin topa malik olması aşkarlanmadı. Ona görə də general-mayor Səlimov Hərbi nazirdən xahiş etdi ki, orduda olan 3 ədəd zirehli avtomobildən biri Ağdama göndərilsin. Düşmənin top təhlükəsi olmadığı bir vaxtda zirehli avtomobil çox böyük səmərə verə bilərdi (391).

Bundan əlavə, Qarabağdakı hərbi qüvvələrin gücləndirilməsi üçün bura əlavə hərbi qüvvələr göndərildi. 8-ci Ağdaş piyada alayı da Qarabağa yollanmaq barədə göstəriş aldı və martın 26-da bu alay artıq Yevlaxa çatdı. Zaqatala piyada alayının 700 nəfərlik Nuxa taboru da Qarabağa yollanmaq əmri aldı. Ancaq bu taborun geyimi çox zəif idi. Alay komandiri polkovnik Dibirov Hərbi Nazirliyə bu barədə xəbər verərək mümkün köməyin göndərilməsini xahiş etdi. Martın 27-də 1-ci Tatar süvari alayının komandiri podpolkovnik Sofiyev şəxsi heyətlə Yevlaxdan Qarabağa doğru yola düşməzdən əvvəl Gəncəyə gəlib Hərbi nazir S.Mehman-

darovla görüşdü və icra edəcəyi tapşırıqları bir daha dəqiqləşdirdi.

Alınan kəşfiyyat məlumatlarına görə erməni təcavüzünün başlanmasının elə ilk günlərində Şuşa və Xankəndinin şimalında, xüsusən də Ballıca məntəqəsi ətrafında erməni qüvvələri yığılırdı. Gorusa podpolkovnik Qazarovun komandirliyi altında bir piyada alayı gətirilmişdi. Zəngəzurda fəaliyyət göstərən Dronun dəstəsində 7 minədək silahlı toplanmışdı. Əsgəran ətrafında isə Dəli Qazarın dəstəsi döyüşürdü. Həmin dəstədə yerli ermənilərlə birlikdə 4 minədək silahlı var idi. Tezliklə Dronun rəhbərliyi altında olan Ermənistan qoşun hissələri də Qarabağa doğru hücuma başladılar.

General H.Səlimov döyüş bölgəsinin kəşfiyyatını apardıqdan, erməni hərbi qüvvələrinin imkanları haqqında məlumatlar topladıqdan və Azərbaycanın hərbi qüvvələrinin gücləndirilməsindən sonra mart ayının 29-da Əsgəran istiqamətində hücumun başlanması qərarına gəldi. Bu hücumda qarşıya qoyulan məqsəd Əsgərana aparan yolun, Əsgəranın özünün erməni hərbi qüvvələrindən təmizlənməsi və hərbi təcavüzə başlamış erməni qüvvələrinə zərbə vurulması idi.

Məlum idi ki, bu istiqamətdə düşmənin möhkəmləndirilmiş atəş mövqeləri var idi və onların alınması böyük səy və ardıcıllıq tələb edirdi. Daşbaşı kəndindən Naxçıvanik kəndinə kimi olan ərazi xüsusilə möhkəmləndirilmişdi. Ermənilər bura bir ədəd top da çəkib gətirmişdilər. Həmin gün güclü yağışın yağması qoşun hissələrinin hərəkətini xeyli çətinləşdirdi (392).

Əsgəranın möhkəmləndirilmiş mövqelərinin tutulması üçün hücum şose yolu boyu Xanabadadək davam etdirilməli idi. Döyüşə partizan dəstələri də cəlb edilmişdi. Onlar 3360 yüksəkliyi istiqamətində hərəkət etməli idilər. Xramort kəndi istiqamətində Parlament mühafizə dəstəsi, Daşbaşı kəndi istiqamətində isə 5-ci Bakı piyada alayının bölmələri irəliləməli idi. Bu alayın döyüşə qoşulmuş şəxsi heyətinin sayı 1050 nəfər idi. General-mayor H.Səlimov bir piyada bölüyünü ehtiyatda saxlamışdı. Bunlardan başqa, Naxçıvanik kəndi ətrafında partizanların bir dəstəsi nümayişkaranə hücuma qoşulub düşmənin diqqətini özünə cəlb etməli idi. Bakı

alayı bölmələrinin sağ cinahının mühafizəsi üçün ora süvari partizan dəstəsi və 1-ci Tatar süvari alayının bölüyünün yarısı göndərildi. Süvarilərə Həşimbəyov rəhbərlik edirdi. Piyadaların və süvarilərin, o cümlədən də partizanların hücumu podpolkovnik Nəbibəyovun rəhbərliyi altında olan top batareyasının atəşləri ilə himayə olunmalı idi. Partizanlar istisna olmaqla H.Səlimovun rəhbərliyi altında bu hücumda 1200 nəfərlik dəstə iştirak etməli idi. Toplanmış kəşfiyyat məlumatlarına uyğun olaraq ermənilərin bütün atəş mövqelərinin zərərsizləşdirilməsi üçün belə bir döyüş planı hazırlanmışdı (393). Erməni qüvvələrinin isə 3 min nəfər olduğu və bu qüvvələrin arasında nizami qüvvələrin olması da ehtimal edilirdi. Döyüş səhər saat 7-də başladı. Sürətlə aparılan hücum nəticəsində saat 11-də artıq Xramort kəndini erməni silahlılarından təmizləmək mümkün oldu. Bu kəndə birinci olaraq Parlament mühafizə dəstəsinin süvarisi podpraporşik Mövsüm İbrahimov üç süvari ilə daxil olaraq düşmənin atəş mövqeyinin yerləşdiyi evlərə od vurdu. Saat 13-də Parlamentin mühafizə dəstəsi 3360 yüksəkliyinə yaxınlaşdı. Partizanlar Xanabadın ətrafını ələ keçirə bildilər. Bakı piyada alayının bölmələri isə hakim təpəliklərdə Daşbaşı yüksəkliyinə xeyli yaxınlaşdılar. Lakin podpolkovnik Nəbibəyovun səhlənkarlığa yol verməsi bu istiqamətdə uğurları genişləndirməyə imkan vermədi. Ermənilərin geri çəkilməsini gördükdə podpolkovnik Nəbibəyov da döyüşçüləri ilə onların təqib edilməsinə qoşuldu və bununla hissə və bölmələr top atəşlərinin himayəsindən məhrum oldular. Ermənilər də bundan dərhal istifadə etdilər. Əvvəlcə, hissə və bölmələrin hücumu düşmən dəstələrinin biri tərəfindən dayandırıldı və sonra da ermənilər malik olduqları əl qumbaralarından istifadə etməklə hərbi təşəbbüsü ələ ala bildilər. Nəticədə hissə və bölmələrin hücumu dayandırıldı və bu qüvvələr geri çəkilmək məcburiyyətində qaldılar. Saat 17-də topların fəaliyyətinin bərpasına nail olunsa da, artıq gec idi. Bakı alayının bölmələri Daşbaşı yüksəkliyi ətrafında əldə etdiyi mövqelərdən geri çəkilməli olmuşdu (394).

Həşimbəyovun rəhbərliyi altında olan süvarilər də onlara verilən tapşırıqları yerinə yetirə bildilər. Onların igidliyi və sürətli hücumu

nəticəsində Məşədəli məntəqəsi və Fərrux kəndi ələ keçirildi. Güclü hücumdan sonra qüvvələrini toplayıb irəliyə atılan düşmən dəstələri bəzi istiqamətlərdə Azərbaycanın qoşun bölmələrinin hərəkətinin qarşısını aldı, bəzi yerlərdə isə əvvəlki mövqelərin bərpa olunmasına cəhd göstərdilər. Sol cinahda vuruşan erməni dəstələri Əsgərandan əlavə kömək və 2 ədəd pulemyot aldıqdan sonra əks-hücuma keçdi və Xanabaddan Azərbaycan qüvvələrini geri atdı. Buradan geri çəkilən qüvvələrin qarşısını Parlament mühafizə dəstəsinin bir süvari bölüyü ilə general-mayor H.Səlimov özü almaq məcburiyyətində qaldı. General-mayor Səlimovun bildirdiyinə görə bəzi istiqamətlərdə qoşun bölmələri ermənilərin əks-hücumu ilə geri çəkilsələr də, döyüşçülərin əhval-ruhiyyəsi mübariz və döyüşkən idi. Topçuların fəaliyyətindən general-mayor Səlimov xüsusilə razılıq edirdi. Onların dəqiq atəşləri gün ərzində əldə edilən uğurun əsas təminatçılarından biri idi. Amma general H.Səlimov onu da qeyd edirdi ki, topçular gərək yalnız onlara tapşırılmış vəzifənin icrası ilə məşğul olsunlar. Döyüşlərin gedişində Parlamentin mühafizə dəstəsindən 7 əsgər şəhid oldu, 15 əsgər isə yaralandı. 5-ci Bakı piyada alayından praporşik Nəcəfəliyev və daha 16 əsgər şəhid oldu, podporuçik Dauşvili, praporşiklər Əsgərov və Ərəbov isə yaralandılar. Düşmən tərəfdə itki daha çox idi. Təkcə Xramort kəndində ermənilər 60 meyit qoyub getmişdilər (395).

Bu döyüşün nəticələrini təhlil edərkən H.Səlimov göstərirdi ki, Əsgəranın hər iki tərəfindəki hakim yüksəkliklərdə ermənilərin möhkəmləndirilmiş atəş mövqeləri var idi. Belə bir şəraitdə cəbhənin mərkəzindən Əsgəranı almaq heç də asan olmayacaqdı. O qeyd edirdi ki, döyüşü uğurla başa çatdırmaq üçün çevik taktika işlədilməli, düşmən qüvvələri əhatə edilməli və ya cinah döyüşlərinə üstünlük verilməlidir. 5-ci Bakı piyada alayının bölmələri düşmənin sol cinahının əhatə edilməsinə istiqamətləndirilsə də, partizanlar belə döyüşlər üçün hazır deyildilər. Azlıq təşkil edən Bakı alayının bölmələrinin irəliyə hərəkəti topçuların böyük səyi ilə mümkün oldu. Piyadalar sayca az olduğu üçün onların irəliyə atdığı hər addım top atəşləri ilə himayə olunurdu ki, bu da çoxlu mər-

mi israfına səbəb olurdu. Səlimov dağlıq şəraitdə dağ toplarına üstünlük verirdi və bu toplardan da bölgəyə göndərilməsini məqsədəuyğun bilirdi. Onun bildirdiyinə görə Əsgəran ətrafında Dilicandan gəlmiş və çox yaxşı hazırlıq keçmiş Dəli Qazarın dəstəsi vuruşurdu. Bu dəstənin məhv edilməsi üçün qüvvələr nisbətində ciddi dəyişiklik yaradılmasını tələb edirdi (396).

Hərbi nazir S.Mehmandarova göndərdiyi teleqramında da H.Səlimov Əsgəranın alınmamasını partizanların zəif döyüşü ilə əlaqələndirirdi. Onun bildirdiyinə görə partizanlar ardıcıl deyildilər və daha çox lazımsız yerə patron məsrəf edirdilər. H.Səlimov hücumların gücləndirilməsi üçün nazirdən əlavə silahlı bölmələrin göndərilməsini xahiş etdi. Konkret olaraq təklif etdi ki, 4-cü Quba alayının və ya da 2-ci Zaqatala alayının bir taboru və 2 ədəd dağ topu Qarabağa göndərilsin. Nazir bununla bağlı martın 30-da Gəncədən Ə.Şıxlinskiyə göstəriş verdi ki, 4-cü Quba piyada alayının Bakıya gələn iki taboru dərhal Ağdama göndərilsin. H.Səlimovun xahişinə uyğun olaraq S.Mehmandarov bir dağ batareyasının da Ağdama yola salınmasını lazım bildi. S.Mehmandarov, eyni zamanda, 2-ci Zaqatala alayının da bir taborunun Ağdama göndərilməsi barəsində göstəriş verdi (397).

Elə həmin gün Səməd bəy Mehmandarov H.Səlimova da teleqram göndərdi: «Dünən axşam simli xətlə Sizinlə birbaşa danışığı çox pis ötürürdülər. Heç nə başa düşmək mümkün deyildi. Sizin dediklərinizdən mən yalnız onu anladım ki, indiki mövcud qüvvələrlə böyük itkilərdən sonra, düşmənin qüvvə üstünlüyünə malik olduğu, Bakı alayının etibarsızlığı, partizan dəstəsinin tam yararsızlığı şəraitində əlavə qüvvələr olmadan Əsgəranı almaq mümkün deyildir. Dünən söylədiklərimə əlavə olaraq bildirirəm ki, Şuşa və Xankəndində vəziyyət böhran şəklindədir və əgər Əsgəranın alınması üçün azacıq ümid varsa, onda onu, nəyin bahasına olursa olsun, almaq lazımdır. Əgər heç bir ümid yeri yoxdursa və Siz dəstəni itirməyə qorxursunuzsa, onda əlavə qüvvələri gözləyin. Əlavə qüvvələr barədə təcili sərəncam verəcəyəm və bu barədə Sizi xəbərdar edəcəyəm».

Mart ayının 30-da S.Mehmandarov Gəncədən Ə.Şıxlinskiyə

ikinci bir teleqram göndərdi. Nazir həmin teleqramda bildirirdi ki, respublikada mürəkkəb vəziyyət yarandığı bir vaxtda verilən bütün göstərişlər vaxtında yerinə yetirilməlidir. O, Ə.Şıxlinskidən Nazirliyin əməkdaşlarına da belə məsuliyyət hisslərinin aşılanmasını tələb edirdi. S.Mehmandarovun narahat edən o idi ki, xeyli əvvəl göstəriş verilməsinə baxmayaraq, Quba alayının taborları hələ də Qarabağa gəlib çatmamışdı. Həmin taborlardan ehtiyat qüvvə yaradılması və Tərtər dəstəsinin gücləndirilməsi nəzərdə tutulurdu. Hərbi nazir təkidlə vurğulayırdı ki, bu taborların göndərilməsi sürətləndirilməli və zərurət yaranardısa, şəxsi heyət isti paltarla təmin edilməli idi (398).

Mövcud olan sənədlərdən aydın olur ki, Quba alayının taborları Qarabağa martın 31-də çatdı. Ancaq bu taborların təşkili, şəxsi heyətinin sayı və hazırlıq səviyyəsi barədə verilən məlumatlar Hərbi nazirin daha bir narahatlığına səbəb oldu. 2 tabor əvəzinə Qarabağa cəmi 375 nəfər gəlib çıxmışdı. Göndərilənlərdən 300 nəfəri isə səhhətinin zəifliyi üzündən Bakıda saxlanıldı. Verilən döyüş tapşırığının icrasına belə məsuliyyətsiz münasibəti S.Mehmandarov dözülməz bir hal kimi qiymətləndirirdi. Ə.Şıxlinskiyə göndərdiyi teleqramında S.Mehmandarov bildirirdi ki, Quba alayının saxlanılması üçün milyonlarla vəsait xərclənmişdi. Ancaq döyüş tapşırığını yerinə yetirmək lazım gələndə aydın oldu ki, bu alay ancaq kağız üzərində mövcuddur. Nazirin aldığı məlumata görə Quba alayının komandiri polkovnik Ququşev həmin vaxt Bakıda məzuniyyətdə idi. O, Ə.Şıxlinskidən tələb edirdi ki, əgər bu məlumat doğrudursa, dərhal onu tapdırsın, alayın vəziyyəti barədə ondan izahat alınsın və yenidən Qusara, vəzifəsinin icrasına göndərilsin. Polkovnik Ququşev Qusarın mühafizəsi üçün bir bölük saxlamalı və alayın digər bütün şəxsi heyətini toplayıb Qarabağa, döyüş bölgəsinə yola düşməli idi: «Hələ bura gəlməzdən qabaq əmr vermişdim ki, polkovnik Dibirova alaydan min nəfərlik bir taborun Nuxaya yola salınması barədə teleqram göndərilsin. Bununla bağlı Səlimova da teleqramla məlumat vermişdim. Ancaq indiyə kimi taborun hərəkəti barədə bir məlumat yoxdur. Əgər tabor ora gəlibsə, onu Ağdama göndərin, bu tabor orada lazımi tapşırıq alacaqdır.

Vəziyyət ciddidir və belə bir zamanda hər bir göstəriş vaxtında yerinə yetirilməlidir. Bunu Nazirliyin bütün işçilərinə anladın. Quba alayını Yevlaxa yola salın ki, oradan Ağdama hərəkət etsin və Səlimovun ehtiyatını təşkil etsin. Onun vasitəsi ilə Tərtər dəstəsini də gücləndirmək olar. Əgər qubalılara ehtiyac olmasa, general Səlimov bu barədə mənə xəbər versin. Quba taboru yarımkürklərlə təmin edilməlidir. Əgər yarımkürklər azdırsa, Gəncədən 200 ədəd göndərmək olar» (399).

Aprel ayının 1-də H.Səlimova göndərdiyi teleqramında isə S.Mehmandarov Yevlaxdan yeni bir eşelonun Qarabağa yola salındığını bildirirdi. Bu eşelona Zaqatala alayının bir taboru, Quba alayının bir bölüyü, təlim komandası, Tatar süvari alayının pulemyot bölüyü daxil idi. Həmin gün Tatar süvari alayının digər qüvvələrinin və Şirvan alayının bir bölüyünün Yevlaxa çatacağı gözlənilirdi. Ağdama isə onlar aprelin 2-də çatmalı idi. Bütünlükdə Ağdama çatacaq qüvvələrin ümumi sayı 1605 nəfər idi. S.Mehmandarov tövsiyə edirdi ki, piyadalar yenidən qruplaşdırılaraq 2 taborda, süvarilər isə bir taborda cəmləşdirilsinlər. Eyni zamanda, o da tövsiyə edilirdi ki, hərbi qulluqçuların qeyri-nizami adı ilə çıxdaş edilməsinə ehtiyatla yanaşılsın və mövcud tüfənglər yeni gələn qüvvələrin ehtiyacının ödənməsinə istiqamətləndirilsin. Sursat sarıdan olan tələbatın aradan qaldırılması üçün S.Mehmandarov tərəfindən Ləkidəki anbarlara qatar göndərildi. Həmin sursat Yevlaxdan yük maşınları ilə Ağdama çatdırılmalı idi. Ləkidən 200 ədəd əl qumbarası da gətirilməli idi. Bu qumbaraların necə işlədilməsini hərbi qulluqçuların çoxu bilmirdi. Ona görə S.Mehmandarov qumbaralardan istifadənin də hərbi qulluqçulara öyrədilməsini lazım bilirdi: «Yevlaxdan yenicə qayıtmışam. Dünən qubalıların birinci eşelonu yola düşdü. Bu gün isə Zaqatala taborundan, Quba alayının bir bölüyündən, süvari diviziyasının təlim komandasından və Tatar alayının pulemyot komandasından ibarət ikinci eşelon hərəkətə başladı. Tatar alayının digər bölükləri və Şirvan alayının bölüyü elə bu gün Yevlaxa çatacaqdır. Bütün bu hissələr Yevlaxa aprelin 2-də gələcəklər. Onların sayı – piyada 1035, süvari – 570. Qeyri-nizamilər və dağ-süvari taqımı bura daxil deyil. Dağ-süvari

taqımı olmadan cəmi 1605 nəfər. Əgər bunlardan 155 mehtər və piyadalardakı qeyri-nizamilər çıxılsa, onda 1450 döyüşçü qalar.

Sizi məcbur etmirəm, ancaq məsləhət bilirəm ki, piyadalardan 2 tabor, süvarilərdən bir tabor saxlayasınız. Çalışın ki, qeyri-nizamilərin sayını minimuma çatdırasınız. Qalanları isə sıraya alın. Yaralılardan qalmış tüfənglərlə onları silahlandırın. Sursat üçün mənim tərəfimdən Yevlaxdan Ləkiyə parovoz göndərilmişdir. Sursat elə bu gün Yevlaxa, Yevlaxdan da yük maşınlarında Ağdama çatdırılacaqdır. Əmr olunmuşdur ki, 200 ədəd əl qumbarası da gətirilsin. Ancaq təəssüf ki, adamlar onun quruluşu və istifadəsinə bələd deyillər. Onların istifadə edilməsi Sizdən asılıdır. Ancaq məsləhət bilirəm ki, əvvəlcədən adamları onların iş mexanizmi ilə tanış edəsiniz və ehtiyat tədbirlərini görəsiniz» (400).

S.Mehmandarovun göstərişi ilə Bakıdan H.Səlimovun sərəncamına bir ədəd zirehli avtomobil də göndərildi. Lakin bu avtomobil Bərdə yaxınlığında xarab oldu. H.Səlimov xahiş etdi ki, "Zorab" adlandırılan digər zirehli avtomobil də Qarabağa göndərilsin (401).

Mövcud olan çətinliklərə baxmayaraq, Qarabağda olan nizami və qeyri-nizami qüvvələrin köməyi ilə gərginliyin artmasını dayandırmaq mümkün oldu. Erməni silahlı dəstələri bir çox istiqamətdə güclü mövqelərə malik olsalar da, onların yeni ərazilərin və məntəqələrin işğalını davam etdirmək cəhdlərinin qarşısı alındı. Martın sonuncu günlərində Tərtər istiqamətində vəziyyət nəzarət altında idi. Şuşa ətrafında və Cəbrayıl istiqamətində nisbi sakitlik yarandı (402). Alınan kəşfiyyat məlumatlarına görə yaxın vaxtlarda Dronun rəhbərliyi altında olan erməni qüvvələrinin Şuşa üzərinə hücumu gözlənilirdi. Həmin hücumun zərbə qüvvəsini zəiflətmək üçün general-mayor H.Səlimov Cavad qəzası süvarilərinin iştirakı ilə Cəbrayıl istiqamətindən erməni qüvvələrinə təzyiqin gücləndirilməsini məqsədəuyğun bilirdi. Onun fikrincə, Şahsevən atlılarının Zəngilan qəzasından həyata keçiriləcək hücumu da ermənilərin qüvvəsinin parçalanmasına səbəb ola bilərdi (403).

Bütün bunlarla bərabər, general-mayor H.Səlimovun əsas diqqəti Əsgəran istiqamətində düşmənə güclü zərbə vurulmasına, Əsgəranın azad edilməsinə yönəldi. Bu məntəqənin azad edilməsi

Xankəndi və Şuşaya gedən yolların açılması demək idi. Həm də Əsgəranda düşmənin daha güclü atəş mövqeləri var idi. Həmin mövqelərin məhv edilməsi Qarabağda gərginliyin xeyli səngiməsinə səbəb ola bilərdi.

Səlimovun Hərbi Nazirliyə göndərdiyi raportlarından aydın olur ki, Əsgəran istiqamətindən növbəti hücumun həyata keçirilməsi üçün lazımi hazırlıq işləri görülürdü. Aprelin 2-də Zaqatala piyada alayının, Şirvan alayının və Tərtər süvari alayının hissə və bölmələri Ağdama gəlib çıxdı. Bu da Ağdam dəstəsini müəyyən qədər möhkəmləndirdi. Əlavə nizami qüvvələrlə möhkəmləndirilən Ağdam dəstəsi aprel ayının 3-də yenidən Əsgəran istiqamətində hücuma başladı. Erməni silahlı qüvvələri bütün imkanlarını səfərbərliyə alıb əvvəlki hücumda olduğu kimi Ağdam dəstəsinin qarşısını almağa çalışsa da, gərgin şəraitdə keçən döyüş Azərbaycanın qoşun hissələrinin böyük uğuru ilə nəticələndi. Xeyli tələfat verən düşmən əvvəlcə Əsgəranı, sonra da Xocalını tərk etməli oldu. Bölgədə strateji əhəmiyyətə malik olan bu iki məntəqə Ağdam dəstəsi tərəfindən azad edildi. Döyüşlərin gedişində erməni dəstələrinin rəhbəri Dəli Qazar da öldürüldü (404).

Ağdam dəstəsi gün ərzində təkcə Əsgəran və Xocalını azad etməklə kifayətlənmədi. Uğurlu hücumu davam etdirən dəstə bir neçə kəndi də azad edərək günortadan sonra, saat 4-də Azərbaycanın qoşun bölmələri Ağdam–Əsgəran yolunun kənarında yerləşən Kətik, Aranzəmin və Naxçıvanik kimi möhkəmləndirilmiş məntəqələri də erməni qüvvələrindən azad etdilər və Malıbəyli kəndinə yaxınlaşdılar (405).

Əsgəran ətrafında uğursuzluğa düçar olan düşmən qüvvələri geri çəkilərək Malıbəyli–Daşkənd yüksəklikləri və Şuşikənd arasında toplaşmışdılar. Ətraf kəndlərdə olan erməni silahlı dəstələri də bura axışaraq böyük bir zərbə qüvvəsi yaratdılar. Bu dəstənin sərəncamında 3 ədəd dağ topu və 2 ədəd pulemyot var idi. Dəstədə birləşən silahlıların sayı 2 min nəfərdən yuxarı idi. Onlar vaxtaşırı Şuşa–Xankəndi şose yolunu gülləyə tutur və bu yolu nəzarət altında saxlamağa çalışırdılar. Şuşa və Xankəndi, eləcə də Şu-

şa–Xocalı–Əsgəran–Ağdam arasında əlaqələrin normal hala salınması bu yol üzərində mövcud olan təhlükənin aradan qaldırılmasını tələb edirdi. Bu məqsədlə də aprel ayının 5-də Ağdam dəstəsi Şuşikənd istiqamətindəki erməni mövqeləri üzərinə hücuma keçdi. Səhər saat 10-da başlayan hücum üç istiqamətdən həyata keçirilirdi. Cəbhənin mərkəzində 4-cü Quba piyada alayının taboru döyüşürdü. Sağ cinahda Malıbəyli kəndini ötüb keçərək Şuşikəndin şərqindəki yüksəkliklərə doğru Tatar süvari alayının bölmələri irəliləyirdi. Sol cinahdan isə Şuşikənd qəbiristanlığı istiqamətindən kəsə yolla Bakı piyada alayının bir taboru hücum edirdi. General-mayor H.Səlimovun verdiyi məlumata görə qoşun bölmələri döyüşlərdə bərkiyib möhkəmlənmiş bölmələrə xas olan sonsuz bir igidliklə vuruşurdular. Cəbhənin mərkəzində qərar tutmasına baxmayaraq, Quba alayının bölmələri qısa zaman ərzində Daşkənd yüksəkliklərini ələ keçirdilər. Nəbibəyovun komandirliyi altında olan batareyanın topçuları isə düşmənə dinclik vermədilər, dəqiq atəşləri ilə onun bütün mövqelərini məhv etdilər. Saat 12-də cinahlarda vuruşan bölmələr düşməni mühasirəyə almağa başladılar. Ehtiyatda saxlanılan bölmələrlə hücumun gücləndirilməsi ermənilərin müqavimətini qırdı və onlar sürətlə Keşişkənd istiqamətinə qaçıb dağıldılar. Saat 20-də döyüşü uğurla başa vuran hissə və bölmələr Şuşaya gəlib çıxdılar (406).

Üç gün davam edən ağır döyüşlərdə yorulmuş olan bölmələrə istirahət verildi. Şuşikənd və Daşkənd ətrafına mühafizə postları qoyuldu. Aprelin 8-də erməni silahlı dəstələri Şuşikənd və Daşkənd üzərinə hücuma başladılar. Onlar güman edirdilər ki, azsaylı mühafizə postlarının müqavimətini qıraraq yenidən Şuşikənd və Daşkəndi ələ keçirə bilərlər. Düşmənin hücumu barədə xəbər alınan kimi Bakı piyada alayının bölmələri mühafizə postlarının köməyinə göndərildi. Xeyli çəkən döyüşdən sonra erməni qüvvələri növbəti ağır zərbəni alıb Keşişkəndə doğru qaçdılar. Şuşikənd ətrafındakı və Keşişkənd yaxınlığındakı bütün hakim yüksəkliklər Azərbaycan qoşun bölmələrinin əlinə keçdi. Əlavə olaraq Daşaltı kəndi də ermənilərdən azad edildi. Erməni hücumlarının təkrarlana

biləcəyindən ehtiyat edildiyi üçün bölmələrin elə döyüş bölgələrində gecələməsi qərara alındı. Bu döyüşün gedişi ilə bağlı general-mayor Səlimovun verdiyi məlumatda daha sonra bildirilirdi ki, Cəbrayıl istiqamətində də düşmənin Poryaşen mövqeləri ələ keçirilmişdir. Qoçaz istiqamətində saktilik idi. Polkovnik Qasımbəyovun dəstəsi isə Gəncəyə çağırılmışdı (407).

Aprelin 9-dan 12-dək Şuşa yaxınlığındakı Keşişkənd ətrafında gərgin döyüşlər baş verdi. Bu döyüşlər Qarabağdakı erməni qüvvələrinin ən ciddi və ən möhkəmləndirilmiş bazasını məhv etdi. Ənənəvi olaraq bura ermənilər üçün xüsusi əhəmiyyət kəsb edən bir məntəqə idi. Çünki təbii şərait Keşişkənd ətrafında uzun müddət uğurlu müdafiə döyüşləri aparmağa imkan verirdi. Bütün əlverişli nöqtələr ermənilərin əlində idi. Əsgəran istiqamətindən geri çəkilən qüvvələr burada cəmləşmişdilər. Döyüşün uğurla başa çatmasını təmin etmək üçün Cəbrayıl və Zəngəzurdan da bura xeyli erməni qüvvəsi gətirilmişdi. Erməni silahlılarının ümumi sayı 3 minə qədər idi. Onların tərkibində 2 ədəd topu və 8 ədəd pulemyotu olan 2 nizami tabor da var idi. Belə bir qüvvə ilə döyüşə girən ermənilər uğur qazanacaqlarına, Şuşa–Xankəndi yolunu yenidən nəzarət altına almaqla Azərbaycanın qoşun bölmələrini Şuşaya sıxışdıracaqlarına şübhə etmirdilər. 1918-ci ildə bu ərazidə Qafqaz İslam Ordusu bölmələrinin güclü müqavimətlə rastlaşması ermənilərdə Keşişkənd mövqelərinin məğlubedilməzliyi təsəvvürü yaratmışdı (408).

Aprelin 9-da başlanan hücumun ilk günü Azərbaycanın qoşun bölmələri tərəfindən Şuşikənd ətrafındakı hakim yüksəkliklərin əksəriyyəti ələ keçirildi. Burada yalnız bir yüksəklik tutulmamışdı. Həmin yüksəkliklərdən də Keşişkəndə aparan yol keçirdi. Bu yüksəklik tutulmadan Keşişkəndə doğru irəliləmək mümkün deyildi. Ona görə də ayın 10-da əsas diqqət məhz bu yüksəkliyin tutulmasına yönəldildi. Yüksəkliyin tutulması Quba piyada alayının taboruna tapşırıldı. Aprelin 10-da həyata keçirilən hücumla Quba alayının döyüşçüləri qısa müddət ərzində Keşişkənd yolu keçən yüksəkliyi ələ keçirdilər. Lakin onlar yüksəklikdə dayanmayıb geri çəkilən düşmənin təqibinə başladılar. Nəticədə bu qüvvələr erməni

qüvvələrinin güclü atəşləri altına düşdülər. Bu da Quba alayının xeyli itki verməsinə gətirib çıxardı. Döyüş bölgəsinə gələn general Səlimov vəziyyətin düzəldilməsi üçün dərhal qubalıların geri çəkilməsi barədə əmr verdi və bölmələr ayın 10-da səhər dayandıqları mövqelərə qayıtdılar.

Aprelin 10-da Quba alayının ciddi itki verərək geri çəkilməsi digər qoşun bölmələrinin şəxsi heyətinin mənəvi əhval-ruhiyyəsinə mənfi təsir göstərdi. Ermənilər isə əksinə ayın 10-dakı döyüşün nəticələrindən ruhlanaraq ayın 11-də hücuma qoşuldular. Onlar Daşaltı yüksəklikləri tərəfindən Azərbaycanın qoşun bölmələrinin sağ cinahına hücum etdilər. Səlimovun əmri ilə ümumi ehtiyat qüvvələrdən iki bölüyün irəli hərəkəti ermənilərin hücumunun qarşısını aldı və onları geri çəkilməyə məcbur etdi. Bir neçə tüfəng qənimət kimi ələ keçirildi. Elə həmin gün 1-ci Cavanşir piyada alayının təlim komandası səhərçağı Quba alayı döyüşçülərinin tərk etdiyi yüksəkliyə hücum etdi. Böyük sürətlə həyata keçirilən bu hücumla təlim komandasının döyüşçüləri ermənilərə ciddi itki yetirib yüksəkliyi ələ keçirdi. Eyni zamanda, ermənilərdən 10 min mauzer patronu və çoxlu pulemyot təchizatı da qənimət götürüldü. Az sonra Cavanşir piyada alayının kəşfiyyatçıları bu alayın taborunun cinahını əhatə etmək istəyən erməni dəstəsinə güclü zərbə endirdi və onu geri çəkilməyə məcbur etdi. Canlarını qaçmaqla xilas etməyə çalışan ermənilər döyüş meydanında çoxlu ingilis patronu qoymuşdular. Döyüş meydanının üç nöqtəsində ermənilərin güclü zərbə alması Azərbaycan döyüşçülərinin əhval-ruhiyyəsini xeyli qaldırdı. Səlimov qeyd edirdi ki, qoşun bölmələrində döyüşkən əhval-ruhiyyənin yaranmasını, habelə Əsgərandan Şirvan piyada alayının 2 bölüyünün gətirilməsini nəzərə alaraq hücumun davam etdirilməsini qərara aldı. Onun yazdıqlarına görə, nəyin bahasına olursa-olsun, Keşişkəndi tutmaq qərarı bütün döyüşçülər tərəfindən müdafiə olundu.

Keşişkənd üzərinə hücum aşağıdakı şəkildə təşkil olundu. 1-ci Tatar süvari alayı ilə süvari təlim bölüyü Krasnı kəndindən keçərək Keşişkəndi ötüb onun yuxarısındakı 5326 yüksəkliyi tutmalı idi.

Polkovnik Əfəndiyevə göstəriş verildi ki, 8-ci Ağdaş piyada alayının bir bölüyü və Ağdam partizanları ilə Əsgəran istiqamətindən Kətik və Dəhraza, oradan da Mirikəndə doğru hücum etsin. Bu istiqamətdən döyüşün başlanmasında məqsəd adları çəkilən kəndlərin əhalisinin diqqətini yayındırmaq və onların Keşişkəndə kömək göndərmələrinin qarşısını almaq idi. Döyüş meydanının şərq hissəsindən isə Cavanşir piyada alayının bir taboru və Bakı piyada alayının üç bölüyü hücuma qoşulmalı idi. Cəbhənin qalan sahələrində qoşun bölmələri fəal müdafiədə dayanmalı idilər.

General-mayor Səlimovun qeydlərinə görə Keşişkənd ətrafında baş verən döyüş həm gərgin, həm də qanlı bir döyüş oldu. Ermənilər bütün qüvvələrini və imkanlarını ortaya qoydular. Onlar, nəyin bahasına olursa olsun, Keşişkəndi qorumağa çalışırdılar. Amma erməni qüvvələri əlverişli mövqelərdə qərar tutsalar da, onların atəşləri Azərbaycan döyüşçülərinin əzmini və iradəsini qıra bilmədi. Ağdam dəstəsinin qərargah rəisi polkovnik Zeynalovun ön xətdə döyüşçüləri ruhlandırması, onları irəliyə səsləməsi qoşun bölmələrinin mübariz ruhunu daha da artırdı və saat 10-da Keşişkənd artıq təcavüzkar qüvvələrdən tamamilə təmizləndi. Quba alayının kəşfiyyatçıları və 1-ci Cavanşir piyada alayının 9-cu bölüyü ilk olaraq Keşişkəndə daxil oldular. Dəstə komandiri bu böyük uğurun qazanılmasında Cavanşir alayının komandiri polkovnik Levestamın və 7-ci Şirvan piyada alayının komandiri podpolkovnik Rəfibəyovun xidmətlərini xüsusi olaraq qiymətləndirirdi. Səlimovun yazdığına görə polkovnik Levestam onun bölmələrinə tapşırılan sahədə əlində revolver hamıdan qabaqda gedirdi və öz döyüşçülərini də bu çətin döyüşə aparırdı. General-mayor Səlimov, eyni zamanda, topçuların fəaliyyətindən də razılıq edirdi. Onların dəqiq və sərrast atəşləri piyadaların irəliləməsinə yaxşı zəmin yaratdı.

Ermənilər böyük itki verərək Keşişkənddən qaçıb dağıldılar. Aprelin 13-də general-mayor Səlimov qoşun bölmələrini Şuşaya çəkərək onlara istirahət verdi (409).

Martın 22-dən başlayaraq davam edən döyüşlər qoşun bölmələrini yormaqla bərabər onlara müəyyən maddi və canlı itkilər də

verdi. Döyüşlərin davam etdirilməsi bu itkilərin bərpa olunmasını tələb edirdi. Keşişkənd ətrafında erməni qüvvələri güclü zərbə alsalar da, tamamilə məhv edilməmişdilər. Onlar xırda qruplarda birləşərək Azərbaycan mövqeləri üzərinə öz hücumlarını davam etdirirdilər. Belə hücumların qarşısının qətiyyətlə alınması üçün qoşun bölmələrinin hərtərəfli təmin və təchiz edilməsi günün zəruri məsələsinə çevrilmişdi.

General-mayor Həbib bəy Səlimov təminat məsələlərinin lazımi şəkildə həll olunmamasından şikayət edirdi. Döyüşçülər üçün şal çatışmırdı, dağlarda ayaqqabılar tezliklə sıradan çıxdığından onların əvəz edilməsinə ehtiyac yaranırdı (410).

Canlı qüvvələrin bərpası da mühüm məsələlərdən biri idi. Hərbi Nazirliyə göndərdiyi teleqramlarında H.Səlimov əlavə zabitlərin, heç olmasa 2 və ya 3 həftəlik hazırlıq keçmiş əsgər qüvvəsinin göndərilməsini xahiş edirdi (411).

Keşişkənd döyüşündən sonra bölgədə olan hissələrin şəxsi heyətinin sayı aşağıdakı şəkildə idi:

Bakı piyada alayı – 300 nəfər;

Cavanşir piyada alayı – 400 nəfər;

Quba piyada alayı – 400 nəfər;

Ağdaş piyada alayı – 400 nəfər;

Şirvan piyada alayının bir bölüyü – 160 nəfər;

Cəbrayıl istiqamətində olan Gəncə piyada alayı – 400 nəfər, Şəki süvari alayı – 200 nəfər.

Bu qüvvələr aşağıdakı kimi qruplaşdırılmışdı:

Tərtər istiqamətində – Şəki süvari alayı və 2 ədəd top;

Qoçaz istiqamətində – Cavanşir piyada alayı, 4 ədəd dağ topu və Sultan bəyin rəhbərliyi altında olan 1000 nəfərlik partizan dəstəsi;

Şuşada – ehtiyat qüvvə kimi Bakı piyada alayı, Şirvan piyada alayının bir bölüyü, 4 ədəd yüngül top və 4 ədəd haubitsa;

Xankəndində – Quba piyada alayının bir taboru və və 2 ədəd topa malik olan Qarabağ süvari alayı;

Əsgəranda – Ağdaş piyada alayının bir taboru və dağ-süvari taqımı;

Cəbrayıl istiqmətində – Gəncə piyada alayının bir taboru, Tatar süvari alayı, 2 ədəd yüngül top, 4 ədəd dağ topu və Xəlil bəyin partizanları.

Bu qüvvələri yenidən qruplaşdırdıqdan sonra general-mayor Səlimov Zəngəzur istiqamətində hücumu davam etdirməyi planlaşdırırdı. Yalnız nizami qüvvələrin gücü ilə aparılması nəzərdə tutulan bu hücumun aprelin 20-si ərəfəsində başlanacağı güman edilirdi (412).

Ancaq Hərbi Nazirliyin rəhbərliyi Qarabağa nəinki canlı qüvvə göndərmək imkanına malik deyildi, əksinə Qırmızı Ordunun şimal sərhədlərinə yaxınlaşması ilə buranın möhkəmləndirilməsi üçün Qarabağdan qüvvə göndərilməsinin mümkünlüyü öyrənilirdi. Aprelin 16-da Hərbi nazirə göndərdiyi teleqramında general-mayor Səlimov bildirirdi ki, Şuşa və Xankəndi ətrafında xırda dəstələrdə birləşmiş olan erməni silahlıları sakitləşmək bilmirlər. Belə vəziyyətdə Qarabağdakı qüvvələrin zəiflədilməsi arzuolunmaz nəticələrə gətirib çıxara bilərdi. General Səlimov teleqramında daha sonra yazırdı: "Siyasi vəziyyət, şübhəsiz ki, Sizin üçün daha aydındır. Ancaq cəsarət edərək öz fikrimi bildirirəm ki, biz iki cəbhədə mübarizə apara bilmərik və belə mübarizənin nəticələri bizim üçün çox pis ola bilər. Qəti hücuma keçmək üçün əlavə köməyin göndərilməsini xahiş etmək istərdim. Cəbrayıl dəstəsini möhkəmləndirmək üçün mənim indi heç nəyim yoxdur" (413).

Bolşevik qoşunları Azərbaycanın şimal sərhədlərinə yaxınlaşdıqca erməni silahlı dəstələrinin fəallığı da artırdı. Geniş cəbhədə Azərbaycanın qoşun bölmələrinin təzyiqinə davam gətirməyən erməni silahlıları ailələrini Zəngəzura köçürüb kiçik dəstələrlə Azərbaycan kəndləri üzərinə hücum edirdilər. Onların partizan taktikasının qarşısını almaq qoşun bölmələri üçün heç də həmişə mümkün olmadığı üçün yerli əhali arasında da bir qorxu və təlaş var idi. Aprelin 19-da Bakıya göndərdiyi teleqramında general-mayor Səlimov ermənilərin bu taktikasının qarşısının alınması üçün də canlı qüvvənin, silah və sursatın ayrılmasını xahiş edirdi (414).

Xüsusilə daha çox narahatlıq və təşviş doğuran Cəbrayıl istiqa-

mətində müdafiə qüvvələrinin möhkəmləndirilməsi üçün ən azı sayı min nəfərə çatan 2 piyada taborunun göndərilməsi tələb olunurdu (415). Canlı qüvvəyə olan ehtiyacın aradan qaldırılması üçün H.Səlimov aprelin 2-ci yarısında Şuşa qəzasında səfərbərliyin keçirilməsi barədə əmr verdi. Bu əmrə əsasən 30 yaşınadək olan yerli əhali xidmətə şamil olunurdu (416).

Bundan başqa, general-mayor H.Səlimovun bölgədə olan türk generalı Nuru paşa ilə şəxsi görüşündə aydın oldu ki, Bakıda, Ağdamda, Gəncədə vaxtilə Denikin ordusunda xidmət etmiş 400-dək azərbaycanlı və müsəlman yaşayır. H.Səlimov Hərbi Nazirliyin rəhbərliyindən xahiş edirdi ki, erməni təcavüzünə qarşı vuruşmağa hazır olan bu şəxslərin toplanılıb Ağdama göndərilməsinə köməklik göstərilsin (417).

Azərbaycan müdafiə qüvvələrinin Qarabağda sayca azalmasından erməni silahlı dəstələri hər vasitə ilə istifadə etməyə çalışırdılar. Keşişkənd döyüşündən sonra Azərbaycanın bolşeviklər tərəfindən işğalına qədər olan müddətdə Ağdam dəstəsinin fəaliyyəti də əsasən müxtəlif məntəqələrdə fəallaşan erməni silahlı dəstələrinin susdurulması ilə bağlı idi. Aprelin 18-dən 19-na keçən gecə erməni silahlı dəstələri Qaybalı kəndinə daxil olaraq onun bir hissəsini yandırdılar. Bu hadisənin baş verməsində kəndi qoruyan Nuxa partizanlarının da günahı var idi. Onlar intizamsızlıq göstərərək aprelin 18-də heç kimlə razılaşdırmadan kəndəki müdafiə mövqelərini tərk edib getmişdilər. Bundan ermənilər dərhal istifadə etdilər və gecə ikən kəndə soxuldular. Ayın 19-da general-mayor Səlimov Ağdama gələrək hərbi səhra məhkəməsi təşkil etdi və özbaşına döyüş mövqelərini tərk edən partizanları bu məhkəməyə verdi. Hadisə ilə bağlı Hərbi Nazirliyə göndərdiyi məlumatından aydın olur ki, ermənilər Gülablıya soxulanda Ağdamda 2 minədək könüllü silahlı var idi. Onların heç biri gülablıların köməyinə yetmək barədə əməli addım atmadı. General-mayor Səlimovun yazdığına görə bu silahlılar nəinki Gülablıya kömək göndərmədi, əksinə özləri də 2–3 yüz erməninin hücumu xəbərindən təlaş və vahimə içində çaşıb qaldılar. Kəndin müdafiəsinin möhkəmləndirilməsi üçün qoşun bölmələri Gizir yüksəkliyini ələ keçirib erməni silahlı-

larını Abdala doğru qovmağa başladılar (418).

Aprelin 24-də səhər tezdən 60 nəfərlik erməni silahlı dəstəsi Şuşikəndin şimal-qərbindəki yüksəkliklərdə yerləşən çöl qarovul postlarına hücum etdi. Tezliklə bu hücum dəf edildi. Elə həmin gün erməni silahlıları Kətik kəndi yaxınlığındakı yüksəkliklərdə olan mövqelərə də hücum etdilər. Burada da onlar Azərbaycan döyüşçülərinin iradəsini qıra bilmədilər (419).

Aprelin 27-də Hərbi Nazirliyə göndərdiyi teleqramında H.Səlimov bildirirdi ki, onun dəstəsində qalan qüvvə yalnız Şuşa–Ağdam yolunu qorumağa çatır. Həmin gün Bakıya göndərdiyi digər bir teleqramında isə general-mayor H.Səlimov çətin vəziyyətdə olduğunu xatırladıb soruşdu ki, ixtiyarında olan qüvvə ilə Zəngəzura doğru hərəkət etsin, ya yox? 1919-cu il noyabrın 23-dək Zəngəzurda mövcud olan vəziyyətin bərpası üçün orada əməliyyat keçirilməsinin və ya yalnız sərhədlərin qorunmasının məqsədəuyğunluğu barədə H.Səlimov ona dəqiq göstəriş verilməsini xahiş edirdi (420).

Ancaq 1920-ci il aprelin 27-də Bakı şəhərində baş verən hadisələr Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğuna son qoydu və aprelin 28-də Hərbi Nazirliyin rəhbərliyi də qoşun hissələrinə komandanlığı hakimiyyətə gəlmiş bolşevik orqanlarına təhvil verdi.

### *7. Şimaldan gözlənilən təhlükəyə qarşı mübarizə*

Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu vaxt ərzində onun müstəqilliyi üçün ən böyük qorxu şimaldan gözlənilən təhlükə idi. Özü də bu təhlükə həm yenicə hakimiyyətə gəlmiş olan bolşevik qüvvələrinin şəxsində, həm də devrilmiş hakimiyyətin tərəfdarları olan rus hərbçilərinin, Rusiyanın cənub bölgələrini nəzarət altında saxlamağa çalışan Könüllü ordunu təşkil etmiş general Denikinin şəxsində reallaşmaqda idi. Siyasi mahiyyəti etibarilə bunlardan iki qüvvə tamamilə bir-birinə zidd mövqelərdə dayansalar da, müstəqilliyini elan etmiş respublikalarla Rusiya arasındakı əlaqələrin gələcək xarakterinə münasibətdə oxşar mövqelərdə dayanırdılar. Hər iki qüvvə müstəqilliyini elan etmiş respublikaları, o cümlədən Azərbaycanı Rusiyanın tərkib hissəsi kimi görürdü və Azərbaycanın yenidən Rusiyanın tərkibinə qatıl-

ması üçün bir an da olsa fəaliyyətlərini dayandırmırdı. Bolşevik hökumətinin xəttini Azərbaycanda bolşevik qurumları həyata keçirirdilər. Bakı Zaqafqaziyada bolşevizmin mərkəzi sayıldığından burada onun güclü və formalaşmış dayaqları qalmaqda idi. Denikinçi qüvvələri isə M.F.Podşibyakinin sədrliyi ilə 1918-ci ilin sentyabrında Bakıda yaradılmış olan Rus Milli Komitəsi öz ətrafında birləşdirməyə başlamışdı. Rus Milli Komitəsinin ətrafında toplaşan köhnə rejimin qalıqları Denikinin qərargahı ilə, ağqvardiyaçı zabitlərlə sıx əlaqə saxlayır, onlardan aldıqları, habelə özləri hazırladıqları siyasi ədəbiyyatı və nəşrləri rus əhalisi arasında təbliğ edir və yayırdılar (421).

1918-ci ilin noyabrında ingilis qoşun bölmələri ilə bərabər L.Biçeraxov da bir qrup hərbçi ilə Bakıya qayıtdı. Rus şovinist hərbçilərinin tipik nümayəndəsi olan və Denikinlə sıx əlaqə saxlayan L.Biçeraxov Bakıya daxil olan kimi bəyanat verdi. Bu bəyanatdan da görünürdü ki, L.Biçeraxov Azərbaycanı Rusiyanın tərkib hissəsi, onun sakinlərini isə Rusiya vətəndaşları sayırdı. O, bütün əhalini, siyasi qüvvələri bütün narazılıqları kənara qoyaraq Rusiya naminə fəaliyyət göstərməyə çağırırdı (422).

Biçeraxov və onun ətrafındakılar Bakıda özlərini çox kobud aparır, heç nə ilə hesablaşmır, asayişi pozur, əhalinin narahatlığına səbəb olurdular (423). Xüsusilə ilk vaxtlar ingilislər tərəfindən müdafiə olunmaları biçeraxovçuları daha da quduzlaşdırırdı. Onların özlərini apara bilməməsi, qanuni hökumət orqanlarına qarşı fəaliyyəti Azərbaycan hökumətini də narahat edirdi. Buna görə də Azərbaycan hökuməti ingilis qoşunlarının Bakıdakı nümayəndələri qarşısında Biçeraxova qarşı təcili tədbirlər görülməsi məsələsini qaldırdı. Belə olanda ingilislər məsələnin sakitliklə həll olunması xatirinə danışıqlar aparılması adı altında Biçeraxovu Londona dəvət edib onun Bakıda qalmış tör-töküntülərinin Azərbaycandan çıxarılmasını tələb etdilər (424).

Biçeraxov Azərbaycandan çıxarılandan sonra general Prjevalski adlı birisi Bakıda Denikin qoşunlarının xeyrinə öz fəaliyyətini genişləndirməyə başladı. O həm Biçeraxovun dəstəsindən qalanları öz ətrafında birləşdirdi, həm də Bakıdakı rus əhalisi arasından Denikin ordusuna əsgər toplanılmasına cəhd göstərdi. Azərbaycan

hökuməti Könüllü ordunun heç nədən və heç kimdən çəkinməyərək Bakıda açıq şəkildə vahid və bölünməz Rusiyanı dəstəkləyəcək bir ordunun təşkili ilə bağlı işlər aparması, bu qoşun bölmələrinin, xalqın gözü qarşısında nümayişlər və parad keçirməsi (425) ilə razı deyildi. Belə hallara son qoyulması üçün Nazirlər Şurasının sədri F.Xoyski 1919-cu il fevralın 15-də general Tomsona məktub göndərdi. Həmin məktubda Bakıda həm Könüllü ordu üçün, həm də Ermənistan ordusu üçün könüllülərin toplanılması faktları açıqlanır və bununla bağlı general Tomsona Azərbaycan hökumətinin münasibəti çatdırılırdı. Məktubda deyilirdi: "Son vaxtlar Bakıda yol verilməsi mümkün olmayan hadisələr baş verir. Könüllü ordunun nümayəndələri – general Prjevalski və Erdeli Bakıda və onun rayonlarında adamlar toplayır, silah paylayır, hərbi təlim keçir, bir sözlə qoşun hissələrinin gücləndirilmiş hazırlığını aparırlar" (426).

Məktubda daha sonra belə qoşun hissələrinin İçərişəhərdə, tamamilə azərbaycanlılar yaşayan məhəllədə özbaşına bina tutmaları bildirilir və belə hərəkətlərə son qoyulmasının zəruriliyi ingilis generalına çatdırılırdı. General Tomson yazdığı cavab məktubunda Bakıda Denikin ordusu üçün qoşun toplanılmadığını, yalnız keçmiş zabitlər arasından könüllülərin qeydiyyata alındığını və onların heç bir hazırlıq keçmədən dərhal Bakıdan çıxarıldığını bildirirdi (427).

Əslində isə Bakıda təkcə könüllü zabitlər toplanılmır, bütöv qoşun dəstələri formalaşdırılırdı (428). Görünür, ingilis generalı Azərbaycan hökuməti başçısının onun qarşısında qaldırdığı məsələnin tamamilə düzgün olduğuna əminlik hasil etmiş və general Prjevalskidən bütün qüvvələri ilə bərabər Azərbaycandan çıxmağı tələb etmişdi. Bununla bağlı 1919-cu il fevralın 28-də general Prjevalski belə bir əmr imzaladı: "İngilis komandanlığının verdiyi əmrə görə Cənubi Rusiya Silahlı Qüvvələrinin bütün rus qoşun hissələri sabah, martın 1-də saat 16-dək Bakını, həmin gün saat 24-dən isə Bakı hərbi qubernatorluğunun ərazisini tərk etsinlər" (429).

1919-cu il martın 1-də Könüllü ordunun qoşun hissələri Azərbaycandan çıxarıldı və elə həmin gün də Xəzər Rus hərbi donan-

ması tərk-silah edildi və ingilis komandanlığına tabe etdirildi (430).

General Denikin Könüllü ordu dəstələrinin Azərbaycandan çıxarılması ilə heç də razı deyildi. O, Bakıya Zaqafqaziyanın Könüllü ordunun nəzarəti altına gətirilməsi üçün bir baza kimi baxırdı. Zaqafqaziya isə Denikin üçün bolşevik Rusiyasına qarşı mübarizə aparmaqda real baza rolunu oynayırdı və ona görə də Azərbaycanda və Zaqafqaziya respublikalarında nüfuzunun zəifləməsi Könüllü ordu komandanlığı üçün əlverişli deyildi. General Denikin tezliklə Qafqazdakı müttəfiq qüvvələrin komandanlığı ilə əlaqə yaradıb bu məsələni həll etməyə çalışdı. O, bildirirdi ki, müstəqil respublikalarda, o cümlədən Bakıda yaradılan qoşun dəstələri bir dəfə də olsun yerli hökumətlərin fəaliyyətinə müdaxilə etməmişdilər. Onlar yaradılan kimi dərhal Könüllü ordunun sərəncamına göndərilirdilər. Denikin müttəfiq dövlətlərin qoşunları olan respublikalarda müttəfiq qoşunların nəzarəti altında Könüllü ordu nümayəndələrinin fəaliyyətinə icazə verilməsini məqsədəuyğun bilirdi və belə bir xahişlə müttəfiq qoşunları komandanlığına müraciət etmişdi (431).

Könüllü qoşun dəstələri Bakıdan çıxarılsa da, denikinçilərin Bakıda və Azərbaycanda fəaliyyətinə son qoyulmamışdı və bu elə bir asan məsələ deyildi. Bakıda çoxlu sayda keçmiş çar zabiti yaşayırdı. Onlar çar geyimlərini çıxarmadan şəhərdə gəzir, əyinlərindəki geyimlə bölünməz Rusiya tərəfdarları olduqlarını anlatmaqla bərabər, gizlində də Denikinin xeyrinə fəaliyyətlərini dayandırmırdılar. Belə şəxslərin simasında Denikin Azərbaycanda güclü casus bazasına malik idi. Denikin tərəfdarları Bakıda gizli silah bazaları da yaradırdılar. Belə bazaların biri Balaxanı və Krasnavodsk küçələrinin tinindəki evin zirzəmisində tapılmışdı. Burada çoxlu sayda tüfəng, qumbara, patron və s. aşkara çıxarılmışdı (432).

Məlumdur ki, Azərbaycan Ordusunun sıralarında da xeyli sayda keçmiş çar ordusu zabiti xidmət edirdi. Bu zabitlərin çoxu zabit şərəfinə sədaqətlə yanaşsa da, onların arasında Denikinlə əlaqə saxlayanları, Azərbaycan Ordusu daxilində casusluq edənləri də var idi. Belə casus şəbəkəsinin biri 1919-cu ilin aprelində ifşa edilmişdi. Hərbi nazir 1919-cu ilin aprel ayında yazdığı ra-

portların birində bildirirdi ki, Bakıda Könüllü ordunun gizli kəşfiyyat təşkilatı ifşa edilmişdir. Azərbaycan Ordusunun Ərkani-hərbində olmuş Könüllü ordunun kəşfiyyat bölməsinin rəisi kapitan Çernışovdan tapılmış sənədlərə görə Hərbi nazir hökumət orqanlarında da xeyli casusun olduğunu güman edirdi. Onun fikrincə, vaxtilə Biçeraxovun, sonra da general Prjevalskinin yaratmağa çalışdığı dəstələrdən də şübhəsiz ki, Bakıda qalanı və Könüllü ordunun xeyrinə məlumat toplayanları var idi (433).

Azərbaycan Ordusunun daxilində Könüllü ordunun xeyrinə casusluq edən kapitan Çernışov və arvadı, Gəncədə tutulmuş olan Smıslova adlı başqa bir casusun vasitəsi ilə ifşa edilmişdi. Axtarış zamanı kapitan Çernışovdan Azərbaycanın ümumi ictimai-siyasi və iqtisadi vəziyyəti, Azərbaycan Ordusunun formalaşmasının gedişi haqqında xeyli məlumat tapılmışdı. Əldə edilən sənədlər arasında "Vahid və bölünməz Rusiya"ya tərəfdar olmayan xalqlar arasında hansı məlumatların toplanılmasına üstünlük verilməsi barədə Denikin kəşfiyyat orqanlarının təlimatı da var idi. Bu təlimata görə kapitan Çernışov və onunla birgə işləyən denikinçi casuslar Azərbaycanda aşağıdakı məlumatları toplamalı idilər:

1. silahlı qüvvələr, onun tərkibi, dislokasiyası, silah və texnikası, geyimi, intizamı, komplektləşdirilməsi, təchizatı, döyüş və maddi ehtiyatları;

2. hərbi xarakterli tədbirlər;

3. ictimai fikir, xalqın hökumətə münasibəti, "Vahid Rusiya" ideyasına rəğbət bəsləyən elementlər, onların dövlətə qarşı müxalifətdə birləşdirilməsi imkanları;

4. hökumətin fəaliyyəti, öz nüfuzunu qorumaq üçün onun həyata keçirdiyi tədbirlər. Hökuməti gözdən salmağın mümkün vasitələri;

5. "Vahid Rusiya" vətəndaşlarının mənəvi və maddi maraqlarının qorunması sahəsində hökumətin və xalq kütlələrinin digər xalqlara münasibəti;

6. "Vahid Rusiya" ideyasının təbliğinin vasitələri və üsulları (434).

Qəribədir ki, aparılan təhqiqat prosesində kapitan Çernışov günahlarını boynuna almamışdı. O bildirmişdi ki, mən öz vətənim-

də, Rusiya imperiyası ərazisində Rusiyanın xeyirləri üçün məlumat toplamaqla məşğul olmuşam. Onun fikrincə, Azərbaycanın Rusiyadan ayrılmasını heç bir dövlət tanımayacaqdır. Ona görə də ölkə daxilində aparılan hərbi kəşfiyyat hərbi casusluq kimi qiymətləndirilə bilməz. Kapitan Çernışov həbs edilsə də, sonradan o, ingilislərin təzyiqi ilə həbsdən azad olundu və Azərbaycanın hüdudlarından çıxarıldı. Ordu daxilində casus şəbəkəsinin mövcudluğundan narahatlıq keçirən Hərbi Nazirliyin rəhbərliyi dərhal qoşun hissələrində və digər hərbi strukturlarda mümkün təmizləmə işləri apardılar. Etibarlılığı şübhə doğuran bir sıra keçmiş çar zabitləri və məmurları 1-ci Cavanşir piyada alayından, 2-ci Bakı piyada alayından, 1-ci Tatar süvari alayından, 3-cü Şəki süvari alayından, İstehkam məktəbindən, Ordu Livası Rəyasətindən, Praporşiklər məktəbindən, zirehli qatardan və digər strukturlardan azad edildilər. Lakin sonradan ələ keçirilmiş olan sənədlərdən aydın olurdu ki, Azərbaycan Ordusunun bütün mövcudluğu dövründə onun sıralarında Denikinin xeyrinə casusluq edən şəxslər olmuşdular. Bu casuslar vasitəsi ilə Azərbaycan Ordusunun vəziyyəti, onun təchizatı, qoşun hissələrinin yerləşdirilməsi və yerdəyişməsi, zabit heyətinin siyahısı, yaşadığı ünvan, imzalanan əmrlər barədə müfəssəl məlumatlar toplanılıb Denikinin qərargahına ötürülürmüş (435).

Bir məlumata görə Hərbi Nazirliyin strukturlarında casusluq işləri aparan 15 nəfər tutulub həbs edilmişdi (436).

S.Mehmandarov əmin idi ki, Könüllü ordunun Bakı şəhərində geniş casus şəbəkəsi vardır və həbs edilmiş şəxslər həmin şəbəkənin üzə çıxarılmasına kömək edə bilər. Ona görə də o, hələ Hərbi Nazirlik Gəncədə olanda Daxili İşlər naziri X.Xasməmmədova teleqram göndərərək (29 mart 1919) Bakıdakı casus şəbəkəsinin üzə çıxarılmasına diqqət verilməsini xahiş etdi. Həmin teleqramda S.Mehmandarov bildirirdi:

«Azərbaycan silahlı qüvvələri barəsində məlumatlar toplaması şübhə doğurmayan Könüllü ordunun və Ermənistanın xeyrinə casusluqda ittiham olunan Smıslova Gəncədə həbs olunmuşdur. Gəncə qanizonunun bir neçə zabitinin də onunla əlbir fəaliyyət göstərməsi aşkar edilmişdir. Bakıda isə onunla əlbir olan aşağıda-

kılar vardır: Nelli Fyodorovna Çernışova–Armyanski küçəsi 8-də yaşayır. Erməni qoşunlarında xidmət etmiş, hazırda isə Bakıda yaşayan Baş Ərkani-hərb zabitinin arvadıdır. Stanislav Rudolfoviç Zuber–Rılskilərin Merkuri kontorundadır. ...Smıslova Gəncəyə Bakıdan Tiflis dəmir yolu jandarm idarəsinin keçmiş rəisi knyaz Şetininin məktubu ilə qoşunların daşınması idarəsinin rəisi polkovnik Mixaylovskinin yanına gəlmiş və ondan kömək istəmişdi. Güman edirəm ki, casus təşkilatının bütün kökləri Bakıya gedir və onun rəhbəri Şetinindir. Təcrübəli jandarm kimi onun dərhal yoxlanılması və həbs edilməsi vacibdir».

Səməd bəy Mehmandarovun Azərbaycanın müstəqilliyi əleyhinə casusluq edənlərə qarşı necə kəskin mübarizə aparması barədə Azərbaycan hökumətinin Əks-Kəşfiyyat İdarəsinin rəisi olmuş Nağı Şeyxzamanlının xatirələrində də maraqlı qeydlər vardır. Nağı bəy yazırdı: «Mən bu vəzifəyə keçdiyim vaxt istiqlalımızın şimal sərhədinə general Denikin təhdid edirdi. Bakıda yaşayan azlıqlardan ermənilər və ruslar «ağların» Bakını işğal etmələrini səbirsizliklə gözləyirdilər. Bir gün dostlarımdan biri iranlı bir baqqalın dükanında oturubmuş. O, içəri girən bir rusun dükanın arxa tərəfinə keçdiyini və əlindəki paketi ora qoyduğunu görmüş, rus getdikdən sonra işçimiz baqqaldan rusun kim olduğunu soruşur. Baqqal müştərisinin sabiq rus olduğunu, tez-tez dükana gəldiyini, axşamlar vodka içdiklərini, məktublar yazdığını anladır və deyir: «Onun dükanın arxasında bir çantası vardır. İçi vərəq ilə dolu idi. Mən rusca bilmədiyimdən oxumadım, özündən soruşdum, komisyonçuluq etdiyini söylədi. Çantanı arxa tərəfə qoyub, istəsən bir bax». Məmur vərəqlərə baxaraq şübhəsinin doğru çıxdığını, bu adamın «ağların» agenti olduğunu anlayır. İdarədən bir nəfər kömək üçün istəyir. Biri dükanda, digəri küçədə rusun gəldiyini gözləyirlər. Rus qayıdan zaman üç saat əvvəl dükanda gördüyü adamın orada olmasından şübhələnir. Baqqala: «Bu axşam məni gözləmə, gəlməyəcəyəm» deyir və dükandan çıxır. Arxa tərəfdən çıxan məmur rusu saxladır və yoldaşına deyir: «Bu rusu idarəyə apar». Məmur çaşıb qalan rusa dükandan bütün əşyalarını özü ilə götürməsini söyləyir. Rus bir şeyi olmadığını iddia edən zaman baqqaldan bu barədə soruşurlar. O da çantanı verir. Çantadakı və-

rəqlər yoxlanılır. Rus generalı Denikin üçün çalışan kapitan Starkovdur. Yarım ay ərzində çox mühüm və qiymətli sənədlər əldə edə bilmişdi. Sənədlərdən bəziləri Azərbaycan Ordu Qərargahından alınmışdı. Sənədlərlə Hərbi Nazirliyə getdik. Mərhum general Həmid bəy Qaytabaşıya əlimdə olan sənədləri göstərdim. Onların seyflərindəki sənədlərin surəti olduğunu söylədi. Starkov sənədlərlə birlikdə yazdığı raportunda onların Azərbaycan Qərargahından Hərbi nazir Mehmandarovun nəvəsinin tərbiyəçisinin *(çox güman ki, onun oğlunun tərbiyəçisi nəzərdə tutulur. Çünki o vaxt S.Mehmandarovun yeganə övladının 11 yaşı var idi – M.S.)* vasitəsi ilə əldə edildiyini yazırdı. Raportu olduğu kimi Nazirlər Şurasına təqdim etdim. Təhqiqat davam etməkdə idi. Təhqiqatımda bu qənaətə gəldim ki, tərbiyəçi məsələsi uydurmadır, sənədlər başqa yolla əldə edilmişdir. Bu arada bunu da deyim ki, «ağların» hücum niyyətləri olduğu anlaşıldıqdan sonra Baş nazirin yanında dörd nazirdən ibarət bir müdafiə komitəsi yaranmışdı. Mənim əlaqəm Baş nazir Nəsib bəy Yusifbəylidən, Hərbi nazir Səməd bəy Mehmandarlıdan, Yollar naziri Xudadat bəy Məlikaslanovdan, Xarici İşlər naziri Məmməd bəy Cəfərovdan ibarət bir komitə ilə idi. Verdiyim raport komitədə oxunarkən general Mehmandarlının avtomobilinin idarəmizin qapısının qarşısında dayandığını gördüm. Növbətçi general Mehmandarlının gəldiyini bildirdi. Mən onu qarşıladım. Çox əsəbi idi. «Nağı bəy, siz bu alçağın raportuna inandınızmı» – deyə məndən soruşdu. «Paşam, sənədi verəni gizlətmək üçün tərbiyəçi məsələsini ortaya atır. İcazənizlə iki günə bu məsələni aydınladacağam. Ancaq qərargah zabitlərindən şübhələndiklərimi nəzarət altına götürmək üçün indidən sizin razılığınızı istəyirəm» – cavab verdim. General Mehmandarlı dedi: «Bu, milli və istiqlalımızla bağlı olan bir işdir. Kimi istəsəniz nəzarət altına alın, məndən icazə istəməyin. Ancaq mən bu alçağı görmək istəyirəm». Rusun gətirilməsini əmr etdim. General əyləşmir, otaqda gəzirdi. Starkov içəri girdi və generalı görəcək diz çökdü. General bu mənzərə qarşısında: «Alçaq, qorxaq, sənin cəzan ölümdür. Sənin kimi şərəfsiz və qorxaq bir kapitanı rus ordusunda ilk dəfə görürəm» – dedi və mənimlə xudahafizləşib getdi. Kapitan hələ də diz çökmüş vəziy-

yətdə durmuşdu» (437).

Denikinin və onun ətrafındakılarının belə fəaliyyəti Azərbaycan hökumətini narahat etməyə bilməzdi. Bu fəaliyyət mahiyyət etibarilə Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu əleyhinə yönəldilmişdi. 1919-cu ilin aprel ayında Azərbaycan hökuməti Könüllü ordunun komandanlığından Azərbaycana olan münasibətinə bir aydınlıq gətirilməsini xahiş etdi. Denikin tərəfindən Bakıdakı ingilis qoşunları komandanlığı yanında müvəkkil edilmiş nümayəndə Azərbaycan hökumətinə çatdırdı ki, Cənubi Rusiya ordusu Azərbaycanı Rusiyanın hissəsi sayır. Ancaq Rusiyada ali hakimiyyət bərpa edilənədək Azərbaycan müstəqil qala bilər (438).

Heç şübhəsiz ki, Rusiyada ali hakimiyyətin bərpa edilməsi deyəndə Denikin və onun ətrafındakılar silahlı yolla bolşevizmin devrilməsini və müstəqilliyini elan etmiş respublikaların işğal olunub yenidən Rusiyaya qatılmasını nəzərdə tuturdular. Həmin məqsədlə 1919-cu ilin aprelində Denikin artıq Dağıstan ərazisində müstəqilliyini 1918-ci ilin mayında elan etmiş Dağlıq Respublikası (439) ilə müharibə aparırdı. Bu respublikanı işğal etməklə Denikin qoşunları birbaşa Azərbaycan sərhədlərinə çıxırdılar. Şimaldan gözlənilən təcavüzün respublika sərhədlərinə yaxınlaşması Azərbaycan hökumətini narahat etməyə bilməzdi. F.Xoyski general Tomsona göndərdiyi etiraz məktubunda bildirirdi ki, Şimali Qafqazın dağlı xalqlarının iradəsinin və suverinlik hüquqlarının pozulması Azərbaycan hökumətinin dərin etirazına səbəb olmuşdur və Azərbaycan hökuməti imkanı daxilində mütləq dağlılara öz köməyini əsirgəməyəcəkdir (440).

Denikin qoşunlarının Dağıstana soxulması Azərbaycan Parlamentində də müzakirə olundu və dağlılara kömək göstərilməsi üçün Parlament tərəfindən xüsusi komissiya təşkil olundu. 1919-cu il aprelin 30-da bu komissiya əhali arasında öz bəyanatını yaydı. Bəyanatda bildirilirdi ki, Şimali Qafqazda azadlıqsevər dağlı xalqları qeyri-bərabər döyüşlərdə Denikinə qarşı mübarizə aparırlar. Onların öz müstəqilliyi uğrunda amansız mübarizəsi azərbaycanlılara anlatmalıdır ki, Denikin Azərbaycanın istiqlaliyyəti ilə də barışmayacaqdır. Günü-gündən yaxınlaşmaqda olan bu təhlükənin aradan qaldırılması üçün Parlament komissiyası

könüllü dəstələrin yaradılmasına başladığını bildirir və Azərbaycanın müstəqilliyinə biganə qalmayanları bu dəstələrə yazılmağa çağırırdı (441).

May ayının axırlarında Könüllü ordunun dəstələri Dərbəndə qədər gəlib çıxdılar və bu şəhəri də işğal etdilər (442). Dərbəndin tutulması Denikinin Azərbaycana doğru irəlilədiyinə şübhə yeri qoymurdu. Bu isə istər dövlət orqanlarının, istərsə də ictimaiyyətin dərin narahatlığına səbəb oldu. Mayın 26-da Azərbaycanın sərhədlərinə doğru irəliləyən təcavüzün qarşısının alınması məsələsi Parlamentdə də müzakirə edildi. Nazirlər Şurasının sədri N.Yusifbəyli təcavüzün qarşısının alınması üçün hökumət səviyyəsində görülən işlər barədə Parlament üzvlərinə məlumat verməklə bərabər bildirirdi ki, hələlik heç kim Azərbaycan sərhədini pozmayıb və kim bunu istəsə yalnız bizim meyitlərimiz üzərindən edə bilər (443).

N.Yusifbəyli qətiyyətsizlik və fəaliyyətsizlik göstərdiklərinə görə ingilis qoşunları komandanlığına etirazını çatdırdığını və Azərbaycanın sərhədlərinin müdafiəsi üçün lazım gələrsə, ümumi səfərbərlik elan olunacağını bildirirdi. Qəbul olunmuş qərarda Parlament üzvlərinin hökumətin fəaliyyətini bəyəndiyi və sərhədlərin qorunması üçün daha qətiyyətli qərarların qəbul edilməsində Parlament tərəfindən müdafiə ediləcəyi ifadə olunurdu (444).

Denikin təcavüzünün qarşısının alınması və şimal sərhədinin möhkəmləndirilməsi üçün Hərbi Nazirlik tərəfindən də müvafiq addımlar atılırdı. Yuxarıda qeyd edildiyi kimi, Xaçmaz dəstəsinin yaradılması da bununla bağlı idi. Hərbi Nazirliyin rəhbərliyi bu dəstənin müdafiə qabiliyyətinin artırılmasına xüsusi diqqət yetirirdi. Eyni zamanda, yerli əhali də Denikin təcavüzünün Azərbaycan sərhədlərinə yaxınlaşmasından narahatlıq keçirir və bu təhlükənin qarşısının alınması üçün könüllü dəstələr belə yaradırdılar. Xaçmaz dəstəsi tam şəkildə formalaşmağa macal tapmamış yerli əhalinin nümayəndələri silahlanaraq Samur çayı boyunca müdafiə mövqelərini tutmuşdular. Hərbi nazir yerli əhalinin nizamlanmamış şəkildə sərhəd xətti boyu mövqe tutmasından müəyyən narahatlıq keçirirdi. Onun fikrincə, bu adamların sərhəddə gözlənilməz hadisələr törətməsi, Könüllü ordu qüvvələri ilə qarşıdurmaya

getməsi həmin ordunun Azərbaycanın içərilərinə doğru hərəkətinə zəmin yarada bilər. S.Mehmandarov N.Yusifbəylinin adına göndərdiyi teleqramda Quba qəzasından olan partizanların təşkilinin nizamlanmasını, onların sərhəd xəttindən geri aparılmasını və Xudat stansiyasında yerləşdirilməsini, habelə qəza partizanlarının Bakı piyada alayının komandirinə tabe etdirilməsini məqsədəuyğun bilirdi. Nəzərdə tutulurdu ki, Bakı alayının komandiri partizanlardan şəraitə müvafiq şəkildə istifadə edə bilərdi. Bununla S.Mehmandarov şimal sərhədlərində yerləşən bütün hərbi qüvvələri bir komandanlıq altında toplamaq istəyirdi. Buna nail olunması hərbi qüvvələrdən nizamlı şəkildə istifadə edilməsinə də imkan verərdi. S.Mehmandarov bunları Bakı piyada alayının komandirinə çatdırmaqla özünün də bu yaxınlarda Xaçmaz və Qusara gələcəyini və müdafiənin təşkili ilə yerində tanış olacağını bildirirdi (445).

Ancaq təhlükənin sovuşmaması iyunun 5-də Parlamentdə yenidən bu məsələyə qayıdılmasına səbəb oldu. Nazirlər Şurasının sədri N.Yusifbəylinin çıxışı göstərirdi ki, Denikin təhlükəsi gün-gündən daha real xarakter almaqdadır. Hökumətin sədri bildirirdi ki, əgər əvvəllər Denikin və onun ətrafındakılar sözdə də olsa Azərbaycanın müstəqilliyini tanıyırdılarsa, yenicə alınmış teleqramda bu çar generalları və zabitləri Azərbaycanın müstəqilliyini tanımadıqlarını və onun Rusiyadan ayrılmış hesab etmədiklərini bəyan edirdilər (446).

N.Yusifbəylinin fikrincə, bu istiqamətdə diplomatik fəaliyyətin genişləndirilməsi ilə bərabər, sərhədlərin qorunması üçün əməli işlər də görülməlidir. Denikinin nümayəndəsi ilə yazışmalarında da hökumətin sədri Azərbaycan xalqının öz istiqlaliyyətini qorumaq üçün hər şeyi qurban verməyə hazır olduğunu bildirmişdi. N.Yusifbəyli Parlamentdəki çıxışında ingilis komandanlığının verdiyi vədlərin üzərində dayanmadığını bildirərək əlavə edirdi ki, "qonşuya ümid olan şamsız qalar". Ən etibarlı ümid yeri – bizim öz qüvvəmizdir. Biz istənilən düşmənin həyasız iddialarına cavab verməyə hazır olmalıyıq (447).

Parlament müzakirə etdiyi məsələ ilə əlaqədar müvafiq qərar qəbul etdi. Həmin qərarda deyilirdi: “Denikin təhlükəsi barədə

hökumət başçısının məruzəsini dinlədikdən sonra Azərbaycan Parlamenti elan edir ki, Denikinin bizim dövlətçiliyimizə qarşı yönəldilmiş niyyətləri kiçik xalqları əsarət altına almaq, azadlıqsevər demokratiyanı məhv etmək istəyən keçmiş çar generallarının imperialist cəhdlərinin nəticəsidir. Qərara alındı ki, dövlət müdafiəsi məqsədilə indiki hökumətin tərkibindən xüsusi orqan yaradılsın" (448).

Ölkənin müdafiəsinin təşkilinə məsul olan bu orqana xüsusi səlahiyyətlər verilməsi də qərarda öz əksini tapmışdı. Həmin orqan ölkədə hərbi və mühasirə vəziyyəti elan edə bilər, xüsusi könüllü dəstələr yarada bilər, digər qanunu dəyişdirə və ya onun fəaliyyətini müvəqqəti dayandıra bilərdi. Parlament bütün vətəndaşları hökumət ətrafında birləşməyə, yaxınlaşmaqda olan təcavüzə qarşı öz güclərini birləşdirməyə çağırırdı (449).

Məlumdur ki, Parlamentin bu qərarına əsasən 1919-cu il iyunun 9-da Nazirlər Şurasının qərarı ilə Dövlət Müdafiə Komitəsi yaradıldı. İyunun 11-də Dövlət Müdafiə Komitəsi tərəfindən Azərbaycan ərazisində hərbi vəziyyət elan olundu (450).

Denikin təhlükəsinin Azərbaycanı təhdid etməsi əhalinin də dərin narahatlığına və təşvişinə səbəb olmuşdu. İyun ayında Bakını və bütünlükdə Azərbaycanı mitinq və etirazlar dalğası bürüdü. Azərbaycanın sərhədlərinə doğru yaxınlaşan təcavüzdən qəzəblənən xalq kütləları denikinçilərdən işğalçılıq əməllərinə son qoyulmasını tələb edirdilər.

İyunun 7-də Quba qəzası nümayəndələrinin Xaçmazda mitinqi keçirildi. Mitinq iştirakçıları Azərbaycan Parlamentindən və hökumətindən xahiş edirdi ki, yerli əhalinin Denikin təcavüzünə qarşı etiraz və qəzəbini müttəfiq dövlətlər komandanlığına çatdırsın. Xüsusilə əhali Denikinin Azərbaycanla Dağıstan arasındakı sərhəd xəttinin Qızılburundan qəbul etməsinə narazılıqlarını bildirirdilər. Mitinq iştirakçıları bildirirdilər ki, Quba qəzası bütünlüklə Azərbaycan tərkibinə daxildir və həmin qəzanın qara çar generallarından qorunması üçün bütün əhali, o cümlədən arvad və uşaqlar da son damla qanlarına qədər mübarizə aparmağa hazırdırlar. Mitinq iştirakçılarının hökumətə ünvanladığı teleqramında daha sonra deyilirdi: «Biz tamamilə əminik ki, bizim hökumət döyüş

meydanında sonuncu üzvünü itirənə kimi onlara etibar etdiyimiz qadın və qızlarımızı qara generalların əlinə verməyəcəklər, Nikolay maraqlarını qoruyarkən Port-Artur divarları yanında fərqlənmiş bizim igid Hərbi nazirimiz Mehmandarov bizim Vətənimizin müdafiəsi, qadın və qızlarımızın, yəni onun ana və bacılarının namusunun qorunması üçün həyatını əsirgəməyəcəkdir. Bu barədə o, bizim qəzada olarkən gözləri yaşlı halda da vəd etmişdi» (451).

İyunun 10-da Balaxanı məktəbində təşkil olunmuş mitinqdə bildirilirdi ki, Azərbaycan fəhlələri və kəndliləri son damla qanına kimi respublikanın istiqlaliyyətini qorumağa hazırdırlar (452).

Elə həmin günlərdə Müsəlman Əməkçi Ziyalılar İttifaqının fövqəladə iclası da ziyalıların hökumətin həyata keçirdiyi tədbirləri müdafiə etməsinin, Azərbaycanın müstəqilliyinin qorunması üçün çiyinlərinə düşən bütün vəzifələri yerinə yetirməyə hazır olmalarının əyani nümayişinə çevrildi. Əməkçi ziyalılar hökumət qarşısında ümumi səfərbərliyin elan edilməsinin zəruriliyini qaldırırdılar (453).

İyunun 13-də Bakıda şəhər sakinlərinin Denikin təcavüzünə qarşı izdihamlı mitinqi keçirildi. M.Ə.Rəsulzadənin apardığı bu mitinq belə bir qətnamə qəbul etdi: 1) hökumət təcavüzkar Denikinə qarşı amansız və sarsılmaz mübarizəni davam etdirməlidir; 2) Denikini müdafiə edən müttəfiq komandanlığına Denikinin fəaliyyəti ilə bağlı etirazları çatdırmaq və tələb etmək ki, müttəfiqlər general Denikinə təcili təsir göstərsinlər; müttəfiqlərin azsaylı xalqlara qarşı münasibəti birdəfəlik aydınlaşdırılmalıdır; 3) daxili denikinçilərə qarşı ən kəskin qərarlar qəbul edilsin. Bizə düşmən olan nəşrlər susdurulsun; 4) düşmənə bir dənə də olsa patron buraxılmasın; 5) bizi hədələyən təhlükə bütün Zaqafqaziya üçün ümumi təhlükədir. Milliyyətindən asılı olmayaraq Zaqafqaziyanın bütün demokratiyası ümumi təhlükə qarşısında birləşməli və bir nəfər kimi Denikin təhlükəsinə qarşı çıxış etməlidir; 6) bütün vətəndaşlar səfərbərliyə alınmalıdır (454).

Azərbaycan hökumətinin və xalqının qətiyyətli tələblərindən sonra ingilis komandanlığının nümayəndələri də Denikinin Azərbaycana doğru irəliləməsinə öz münasibətini bildirdi. Qafqazdakı ingilis qoşunlarının komandanı vəzifəsində general

Tomsonu əvəz edən general Kori, Londonun Denikinlə Zaqafqaziya arasında demarkasiya xəttini müəyyənləşdirdiyini bildirdi. Denikin qoşunlarının bu demarkasiya xəttindən cənuba keçməyə haqqı yox idi. Həmin demarkasiya xətti Bzib çayının şimalı ilə Süxuminin sərhədlərinə, oradan da Kutaisi, Tiflis, Dağıstan vilayətlərinin şərqinə doğru uzanırdı. Dağıstanda bu xətt Petrovskdan, Dağıstan dəmir yolundan 5 mil cənuba, oradan da 5 mil cənub-şərqə doğru uzanan xətt boyunca keçməli idi. Dəniz sahilində demarkasiya xətti Petrovskdan 5 mil cənubda yerləşirdi. Denikin qoşunları da bu xətdən o yana keçə bilməzdilər (455).

Əslində isə Denikin qoşunları ingilislərin müəyyənləşdirmiş olduğu demarkasiya xəttini keçib Azərbaycan sərhədlərinə yaxınlaşmışdılar və mövcud olan yazışmalardan da aydın olur ki, onlar geri çəkilmək niyyətində deyildi. Çünki bu qoşunlar Azərbaycanın hüdudlarına soxulmaq planlarının reallaşdırılmasına çalışırdılar.

Bununla bağlı olaraq iyunun 22-də Azərbaycan hökuməti general Denikinə nota ilə müraciət etdi. Həmin notada bildirilirdi ki, Britaniya hökuməti tərəfindən Denikinlə Zaqafqaziya arasında demarkasiya xətti müəyyənləşdirilsə də, onun komandanlığı altında olan Könüllü ordu hissələri bu xəttin cənubunda dayanmaqda davam edirlər. Azərbaycan hökuməti Könüllü ordu komandanlığını müəyyən edilmiş demarkasiya xəttinə riayət olunmasına çağırırdı (456).

Azərbaycan hökuməti dövlət sərhədlərini kəsdirmiş olan təcavüzün qarşısının alınması üçün istər general Denikinlə, istərsə də ingilis qoşunları komandanlığı ilə əlaqələri kəsməməklə bərabər, səmərəli və əməli tədbirlərə də əl atırdı. Məlumdur ki, şimal sərhədlərinin möhkəmləndirilməsi üçün Hərbi nazirin əmri ilə Xaçmaz dəstəsi yaradılmışdı. Yaxınlaşmaqda olan ümumi təhlükənin qarşısının alınması üçün yuxarıda deyildiyi kimi, Azərbaycanla–Gürcüstan arasında hərbi əməkdaşlıq da gücləndirildi və bu əməkdaşlığı nizamlayan hüquqi baza kimi iki respublika arasında 1919-cu il iyunun 16-da hərbi saziş imzalandı.

Gürcüstanla bağlanan sazişin reallaşdırılması, respublikanın şimal sərhədlərinin qorunması istiqamətində Hərbi Nazirliyin rəhbərliyi də konkret və məqsədyönlü tədbirlər hazırlayıb həyata

keçirirdi. Hərbi nazir S.Mehmandarovun və Baş Ərkani-hərbin rəisi M.Sulkeviçin 1919-cu il iyunun 26-da Dövlət Müdafiə Komitəsinin sədrinin adına göndərdiyi teleqramda mövcud olan vəziyyətin sabitləşdirilməsi üçün nələrin edildiyini və hansı tədbirlərin planlaşdırıldığını aydın görmək olar. Hərbi Nazirliyin rəhbərliyi Azərbaycanın başı üzərini kəsdirmiş olan təhlükənin aradan qaldırılması üçün təxirəsalmaz tədbirlərin həyata keçirilməsinin zəruriliyini vurğulayırdı. Raportda qeyd olunurdu ki, ingilis komandanlığı tərəfindən demarkasiya xəttinin müəyyənləşdirilməsi heç də Könüllü ordunun Azərbaycana hücum təhlükəsinin aradan qaldırılması demək deyildir. Heç bir təbii maneələrlə bağlanılmayan bu şərti xətt istənilən vaxt Antantanın gizli razılığı ilə pozula bilərdi. Rus mətbuat orqanlarının verdiyi xəbərdən də məlum olurdu ki, Dərbəndin tutulması ingilislərin razılığı əsasında baş vermişdi və bu hərəkət Könüllü ordunun Qızılburun–Zaqataladan keçən ilkin demarkasiya xəttinə doğru irəliləməsinin birinci mərhələsi idi (457).

Hərbi Nazirliyin rəhbərliyinin fikrincə, Qarabağda və Lənkəranda iğtişaşların güclənməsi də Könüllü ordunun Dağıstan ərazisindən Azərbaycana doğru irəliləməsi ilə birbaşa bağlı idi. Yaxınlaşan təhlükənin aradan qaldırılması üçün Dağıstanın yenicə müəyyənləşdirilmiş demarkasiya xəttindən cənubdakı hissəsinin nəzarət altına alınması təklif olunurdu. Belə bir müdafiə zolağının yaradılması hətta Bakının hüdudlarının da qorunmasını asanlaşdıra bilərdi. Ancaq S.Mehmandarov və M.Sulkeviç bu işin çox ehtiyatla və tədbirlə həyata keçirilməsini lazım bilirdilər. Çünki əsaslandırılmamış addım Dağıstandakı daxili qüvvələrin narazılıqlarının güclənməsi, Könüllü ordu ilə Azərbaycan arasındakı münasibətlərin mürəkkəbləşməsi ilə nəticələnərdi. Buna yol verilməməsi üçün Hərbi Nazirliyin rəhbərliyi Könüllü ordu ilə danışıqlar aparılmasını, demarkasiya xəttindən cənubda olan əraziyə qoşun çıxarılması üçün qarşılıqlı razılığın əldə edilməsini də istisna etmirdi (458).

Raportda Dağıstana qoşun bölmələri yeridilməsindən əvvəl orada vəziyyətin hərtərəfli öyrənilməsinin, mövcud anarxiyanın aradan qaldırılması üçün lazımi tədbirlərin görülməsinin, orada

mülki idarəçiliyin qaydaya salınmasının, müsəlmanlar arasında qan tökülməsi təhlükəsinin aradan qaldırılmasının zəruriliyi vurğulanırdı. Raportda daha sonra deyilirdi: "Gürcüstanla hərbi saziş bağlandıqdan sonra döyüş hazırlığımızı gücləndirmək üçün aşağıdakı tədbirlər görülmüşdür:

1. Hərbi konvensiyanın şərtlərinə əsasən buraxılan əmlakın qəbul edilməsi üçün general Tlexasın sədrliyi ilə Tiflisə yola düşəcək komissiya yaradılmışdır;

2. Bakının və onun ətrafının qurudan və dənizdən qorunması üçün mövqelərin kəşfiyyatı, onların möhkəmləndirilməsi layihələrinin hazırlanması məqsədilə Xaçmaz–Bakı–Ələt rayonuna Baş Ərkani-hərbin zabitləri, hərbi mühəndislər və topçular çöl səfərinə göndərilmişlər. Bu məqsədlə gürcülər bizə özlərinin Baş qərargah zabitini, hərbi mühəndisini və 4 istehkam zabitini vermişlər;

3. Tiflis şəhərinə aviasiya kursuna 6 zabit, radioteleqraf kursuna 4 zabit və 10 əsgər ezam edilir. Kurslar iyunun 1-də başlanır;

4. Taborların, batareyaların təsərrüfat vəzifələrini, bölük komandiri və piyada hissələrində kiçik zabit vəzifələrini tutmaq istəyən gürcü zabitləri dəvət olunmuşlar... (459).

Daha sonra Hərbi Nazirliyin hissələrinin formalaşdırılması prosesi, yaxın gələcəkdə hansı hissələrin yaradılmasının planlaşdırıldığı, Gürcüstandan alınan hərbi silahların və texnikanın necə bölüşdürüləcəyi, hansı hissələrin möhkəmləndiriləcəyi barədə məlumat verilirdi. Raportda yazılanlardan aydın olur ki, şimal sərhədlərində və Bakı ətrafında istehkamçı kadrlara ehtiyac çox artdığı üçün İstehkam məktəbinin istehkam bölüyünə çevriləcəyi nəzərdə tutulur. Dəmiryolçu kadrların hazırlanması üçün Hərbi dəmir yolu məktəbinin təşkilinə də elə bu vaxtlar başlanmışdı. Dağıstana qoşun bölmələri yeridiləcəyi təqdirdə onların aşağıdakı şəkildə yerləşdiriləcəyi planlaşdırılırdı: Teymur xan Şurada iki piyada taboru, bir topçu batareyası və bir süvari alayı (4 bölük), Dərbəndə isə bir piyada taboru və bir topçu batareyası. Bunlardan artıq Dağıstana qüvvə göndərmək imkanı yox idi. Hərbi Nazirliyin rəhbərliyinin fikrincə, Qarabağda vəziyyətin mürəkkəbləşməsi üzündən oradan və Ermənistan sərhədlərindən qoşun çəkib gətirilməsi məqsədəuyğun deyildi. Eyni zamanda, Lənkəranda qanun-

çuluğun bərpası üçün xüsusi dəstənin formalaşdırılması da artıq günün tələbinə çevrilməkdə idi. Ona görə də hələlik Dağıstana yalnız yuxarıda göstərilən miqdarda qoşun göndərilə bilərdi (460).

Dövlət Müdafiə Komitəsinin sədrinə verilən məlumatdan aydın olurdu ki, Hərbi Nazirlik yaxın vaxtlarda səfərbərlik cədvəlinin, səfərbərlik planının və dəmir yolu üzrə səfərbərlik qrafikinin hazırlanmasına da başlamalı idi (461).

Denikinin müəyyənləşdirilmiş demarkasiya xəttindən geri çəkilməməsi isə şimal sərhədlərinin və Bakı ətrafının möhkəmləndirilməsi üçün əməli işlərin gücləndirilməsini tələb edirdi. Könüllü ordunun bölmələri demarkasiya xəttindən cənubda səngərlər qazır və müdafiə qurğuları hazırlayırdılar. Bu da onların öz təcavüzkar niyyətlərindən əl çəkmədiyini nümayiş etdirirdi.

Çox mürəkkəb bir tarixi dövrü yaşamasına baxmayaraq, dövlət müstəqilliyinin, ərazi bütövlüyünün qorunması üçün Azərbaycan hökuməti də ardıcıl və qətiyyətli iradə nümayiş etdirir və bütün qüvvələrini səfərbərliyə alırdı. Azərbaycan hökumətinin nümayəndəsi, Xarici İşlər nazirinin müavini A.Ziyadxan güclənən təhlükə qarşısında respublikanın sarsılmaz mövqeyini belə açıqlayırdı: "...Könüllü orduya münasibətimiz belədir: Birdəfəlik və qəti olaraq qərara alınmışdır ki, könüllü ordu hissələrini Azərbaycan Respublikası ərazisinə buraxmamalı, Dağıstanda olan Könüllü ordu hissələrinin aradan çıxarılması üstündə israr etməli və Azərbaycan Ordusu demarkasiya xəttinə qədər Dağıstanı tutmalıdır" (462).

Azərbaycanın şimal sərhədlərinin və Bakının ətrafının möhkəmləndirilməsinin təşkilində Baş Ərkani-hərbin rəisi general-leytenant Sulkeviçin xüsusi rolu var idi. Həmin dövrün sənədləşməsinin öyrənilməsi göstərir ki, həyata keçirilən əsaslı müdafiə tədbirlərinin çoxu M.Sulkeviçin adı ilə bağlıdır. O ya vəzifə səlahiyyətləri çərçivəsində bu və ya digər işlərin icrasını təşkil edir, ya da lazımi işlərin icrası üçün Hərbi nazirin qarşısında vəsatət qaldırır, irəli sürülən təklifin mahiyyətini yazılı olaraq əhatəli şəkildə açıqlayırdı. M.Sulkeviç dövlət əhəmiyyətli müdafiə tədbirlərinin həyata keçirilməsini daim nəzarət altında saxlayır, məsul şəxslərdən lazımi hesabatlar tələb edirdi.

1919-cu il iyulun 8-də Hərbi nazirə ünvanladığı raportunda

M.Sulkeviç şimal sərhədləri ilə bərabər Bakı şəhərinin dənizdən qorunmasına da xüsusi diqqət yetirilməsini vacib sayırdı. Çünki bölgədə baş verən proseslər Bakıya qarşı çox güclü təhlükənin mövcud olduğundan xəbər verirdi ki, bu da müvafiq müdafiə tədbirlərinin həyata keçirilməsini tələb edirdi. M.Sulkeviçin fikrincə, Həştərxandan Könüllü ordunun dəniz qüvvələri, Xəzərin o tayından isə bolşeviklərin qüvvələri istənilən vaxt Bakıya desant ata bilərdilər. Özlərini Azərbaycanın müdafiəçiləri kimi göstərməyə çalışan ingilis komandanlığının Xəzər donanmasının gəmilərinin bir hissəsini Könüllü orduya verərək Bakını dənizdən müdafiəsiz qoyması isə Azərbaycanın paytaxtı üzərində real təhlükənin mövcudluğundan xəbər verirdi. Çünki dəniz tərəfdən Bakı tamamilə müdafiəsiz qalmışdı. Dənizdən gələcək düşmən qüvvələrinə müqavimət göstərmək üçün sahilboyu heç bir müdafiə tədbiri görülməmişdi. Doğrudur, Bakı körfəzində bir neçə yerdə ingilis topları qurulmuşdu. Ancaq Sulkeviçin fikrincə, həmin toplar yaxşı halda dənizdən hücuma keçən bolşevik qüvvələrinə müqavimət göstərə bilərdi. İngilis qüvvələrinin Azərbaycanı tərk etməsindən sonra isə Könüllü ordunun əl-qolu açılmış və bu ordu istənilən vaxt Azərbaycan sərhədlərinə təcavüz edə bilərdi (463).

M.Sulkeviç öz raportunda qeyd edirdi ki, dənizdən Bakının etibarlı müdafiəsinə nail olmaq üçün bir sıra konkret tədbirləri həyata keçirmək lazımdır. Bunlar aşağıdakı tədbirlər olmalı idi: 1) dənizin müşahidəsi; 2) dənizdən şəhərin həndəvərinin artilleriya müdafiəsinin təşkil edilməsi; 3) dəniz polisinin və liman növbəsinin yaradılması; 4) bütün hərbi dəniz məsələlərinin Hərbi Nazirliyin əlində cəmləşdirilməsi (464).

İngilislərin getməsi ilə dənizdəki ticarət limanları Yollar Nazirliyinin sərəncamına keçmişdi. Ona görə də Sulkeviç hesab edirdi ki, yuxarıda sadalanan vəzifələrin həlli əsasən bu Nazirliyin üstünə düşür. Əlbəttə ki, bu vəzifələrin icrası zamanı Hərbi Nazirliyin strateji xarakterli tələbləri də nəzərə alınmalı idi. Bu vəzifələrin yerinə yetirilməyəcəyi təqdirdə Sulkeviçə görə şimal sərhədi, bu cəbhənin sağ cinahı və cəbhənin arxası dənizdən təhlükəyə məruz qala bilərdi. Sulkeviç onu da əlavə edirdi ki, dənizdən çıxarıla biləcək desantların qarşısının alınması üçün müəyyən

müdafiə tədbirləri görülmüşdür. Lakin dəniz akvatoriyasının özünün mühafizəsi üçün səmərəli tədbirlər həyata keçirilməmişdi.

Dənizin müşahidəsinin təşkili üçün M.Sulkeviçə görə həm sahil kəşfiyyatı olmalı, həm də üzən vasitələr əldə edilməli idi. Bu üzən vasitələrlə dənizin özündə də kəşfiyyat aparılmaqla dozor xidməti təşkil edilməli idi. Təklif olunurdu ki, bunun üçün Yollar Nazirliyinin təklif etdiyi 2 ədəd paroxod alınsın, onun heyəti azərbaycanlılardan komplektləşdirilsin və sonra da lazım olan sahələrdə istifadə edilsin. Paroxodlara toplar və pulemyotlar quraşdırmaqla onların döyüş imkanlarını artırmaq olardı. Gəmilərdən əlavə, M.Sulkeviç bir neçə barkasın və mühərrikli qayığın tapılmasını da məqsədəuyğun sayırdı. Bu məsələnin həllində ingilislər tərəfindən müəyyən kömək göstəriləcəyi də güman edilirdi. Ehtimal olunurdu ki, ingilislərin getməsindən sonra «Qars», «Ərdahan», «Göytəpə» və digər gəmilər bütün silahları ilə bərabər Azərbaycan tərəfinə təhvil veriləcəkdir. Belə olduğu təqdirdə Bakının dənizdən qorunması üçün az-çox imkan əldə edilmiş olardı. Həmin gəmilərin vasitəsi ilə dənizdən müdafiəni xeyli gücləndirmək mümkün idi. M.Sulkeviç onu da əlavə edirdi ki, ingilislərin köməyini gözləmədən dərhal mövcud olan iki paroxodun, barkas və mühərrikli qayıqların təchizatına başlamaq lazımdır. Həmin üzən vasitələrin köməyi ilə Mixaylovkadan başlayaraq Bayandovana və Astaraya qədər olan dəniz sahilinin mühafizəsi planlaşdırılırdı. Sulkeviç hətta bununla da kifayətlənmir və dənizin şimal-şərq akvatoriyasında kəşfiyyat işlərinin təşkilini vacib sayırdı. Bu işi Yollar Nazirliyi yerinə yetirməli idi (465).

M.Sulkeviç şəhərin həndəvərinin artilleriya ilə müdafiə edilməsini də vacib sayırdı və bununla Bakının ətrafında peyda olmuş düşmən gəmilərindən müdafiə olunmaq olardı. M.Sulkeviçin fikrincə, bunun üçün elə də böyük xərclər lazım deyildi. Bakının dəniz kənarında yerləşməsinin xüsusiyyətləri onu etibarlı çarpaz top atəşləri ilə müdafiə etməyə imkan verirdi. Bayıl və Zığ burunlarında, habelə Nargin adasında yerləşdirilmiş toplar şəhərin müdafiəsini xeyli gücləndirə bilərdi. İriçaplı topların olmadığı üçün bu məqsədlə hələlik üçdüymə topların istifadəsi də mümkün idi. Adları çəkilən mövqelərin hər birinə iki topun yerləşdirilməsi

məqsədəuyğun sayılırdı. Bu mövqelərə Gürcüstandan alınmış toplar da yerləşdirilə bilərdi. Sulkeviçə görə Gürcüstandan iriçaplı topların da alınması mümkün idi. Çünki belə toplardan vaxtilə Gürcüstanın Qara dəniz sahillərinin mühafizəsi üçün istifadə edilirdi. Belə topların bir hissəsinin Gürcüstandan alınacağı təqdirdə nəinki Bakının, hətta dəniz kənarında yerləşən Mixaylovka, Qızılburun, Puta və Ələt məntəqələrinin də müdafiəsini təşkil etmək mümkün olardı. Bu məntəqələrin müdafiəsi isə sahil boyunca uzanan dəmir yolu xəttinin də mühafizəsini təmin etmiş olardı (466).

Dəniz polisinin yaradılmasına gəlincə, M.Sulkeviçin bildirdiyinə görə belə qüvvələr artıq mövcud idi. Ancaq yaranmış zərurətlə əlaqədar olaraq onların vəzifələrini bir qədər genişləndirmək lazım idi. Dəniz polisi yaxın məsafədə dozor xidmətini təşkil edə, sahil obyektləri ilə adalar arasında əlaqə yarada bilərdi (467).

Bütün müdafiə məsələlərinin düzgün nizamlanması və istiqamətləndirilməsi üçün isə M.Sulkeviç bu işlərin bir mərkəzdə, Hərbi Nazirlikdə cəmləşməsini vacib sayırdı. Özü də o, bunun dərhal həyata keçirilməsi üçün zəruri olan smeta xərclərini də hesablayıb raportunda nazirin diqqətinə çatdırırdı (468).

1919-cu ilin avqust ayında şimal sərhədlərində vəziyyət yenidən həyəcanlı xarakter aldı. Könüllü ordunun qoşunları cənuba doğru hərəkətlərini canlandırmaq üçün fəallaşmağa başladılar. İngilis qoşunları komandanlığının Könüllü ordunu Dağıstan ərazilərindən çıxarmaq vədləri yerinə yetirilməmiş qaldı. Əslində, ingilislər buna heç bir təkid də göstərmədilər. Əksinə, hər vasitə ilə onlar Könüllü ordunu möhkəmləndirməyə çalışırdılar. Bolşevizmlə mübarizə adı altında ingilislər Denikin ordusuna silah, sursat, hərbi texnika, maliyyə vəsaiti baxımından güclü kömək edirdilər. Denikin isə bolşevik qüvvələrinə qarşı mübarizə aparsa da, Azərbaycanın işğalını da bir an da olsa yaddan çıxarmırdı və bunun üçün münasib vaxt gözləyirdi.

Avqust ayının elə ilk günlərində ingilis qoşunları komandanlığı Könüllü ordu ilə Azərbaycan arasında yeni demarkasiya xətti elan etdi. Bu demarkasiya xətti Samur çayından keçməli idi (469). Yeni demarkasiya xətti Denikin qoşunlarının Azərbaycan sərhədinin təmas xəttinə kimi irəliləmək imkanı verirdi. Bu isə təhlükənin

Azərbaycan ərazisinə daha da yaxınlaşması demək idi.

Avqustun 4-də Nazirlər Şurasının sədri N.Yusifbəyli Azərbaycanın Denikin təhlükəsindən daha etibarlı şəkildə qorunması məqsədilə hərbi gəmilərin bir hissəsinin respublikaya verilməsi üçün ingilis komandanlığına müraciət etdi. Xəzər hərbi donanmasının gəmilərinin yarısı Denikinin sərəncamına verilmiş, bir hissəsi də ingilis komandanlığının sərəncamında idi. Nazirlər Şurasının sədri Azərbaycana da Denikinə verilmiş sayda hərbi gəmilərin verilməsini xahiş edir və bu gəmilərin dənizdən sahil obyektlərinin qorunması üçün zəruri olduğunu açıqlayırdı (470).

Yuxarıda deyildiyi kimi, hərbi gəmilərin bir neçəsinin, heç olmasa "Qars", "Ərdahan", "Göytəpə" gəmilərinin Azərbaycana veriləcəyi təqdirdə dənizdən Bakının müdafiəsini təşkil etməyin mümkün olduğunu M.Sulkeviç də vurğulayırdı (471). Ancaq ingilis qüvvələri komandanlığı Azərbaycan tərəfinin bu xahişlərinə müsbət cavab vermədi və ingilis qoşunlarının Azərbaycanı tərk etməsi təsdiqlənəndə Britaniya hökuməti Xəzər donanmasını bütünlüklə Könüllü orduya verməyi qərara aldı. Bəhanə də bu oldu ki, Xəzər hərbi donanması bolşeviklərlə mübarizə üçün yaradılmışdır (472).

1919-cu il avqustun 15-də Bakını tərk edən ingilis qoşunları Xəzər hərbi donanmasının bütün gəmilərini Könüllü orduya təhvil verdi. Bununla da Azərbaycanı öz təhlükəsi ilə təhdid edən Denikin ordusu hərbi cəhətdən daha da möhkəmləndirildi. İngilis qoşun bölmələri Azərbaycanı tərk edəndən sonra isə respublika onun ətrafında kəskinləşən təhlükə ilə üzbəüz qaldı. Müdafiə baxımından Azərbaycanın vəziyyətinin mürəkkəbləşməsi M.Sulkeviçin avqust ayında Hərbi nazirə yazdığı raportunda da öz əksini tapmışdı (473). 2-ci piyada diviziyasının komandirinə göndərdiyi məktubunda isə M.Sulkeviç bildirirdi ki, Bakı şəhərinin şimal tərəfdən qorunması həmin diviziyanın hissələrinə tapşırılacaqdır. Təhlükə yarandığı vaxt diviziya komandanlığının sərəncamına 5 minlik partizan dəstəsinin veriləcəyi də nəzərdə tutulmuşdu. Bütün bu qüvvələrlə Bakının həndəvərinin müdafiəsinin necə təşkil ediləcəyi barədə M.Sulkeviç diviziya komandirindən öz təkliflərini verməsini xahiş edirdi (474).

Avqust ayının əvvəllərində Xaçmaz dəstəsinə yeni rəis təyin edilmiş polkovnik Şirin bəy Kəsəmənli bölgəyə gəldi və dəstəni qəbul etdi. İlkin tanışlıqdan sonra sərhədin möhkəmləndirilməsi istiqamətində aparılan işlər onu qane etmədi və bunu Baş Ərkani-hərbin adına göndədiyi raportunda da bildirdi. Hər şeydən əvvəl mövcud sanitar və səhiyyə vəziyyəti dəstənin yeni rəisini razı salmadı. Onun yazdığına görə dəstənin şəxsi heyəti arasında xəstələnənlər çox idi. Hətta o da bildirilirdi ki, xəstələrin sayı sağlamların sayından çoxdur. Bu vəziyyətin aradan qaldırılması üçün isə qəti tədbirlər həyata keçirilmirdi. Lazaretdə lazım olan qədər dəva-dərman yox idi. İstehkam qurğularının möhkəmləndirilməsi üçün aparılan işlər də zəif idi. Tikinti işlərinə cəlb edilən işçilərin sayı 30 nəfərdən artıq olmurdu. Ləcətdən Seyidli kəndinə qədər tikiləcək mövqelər isə hələ layihə üzərində qalmaqda idi. Cəbhənin möhkəmləndirilməsinə İran təbəələri cəlb edilmişdilər. Onların da fəaliyyəti qənaətbəxş hesab olunmurdu. Sanitar vəziyyətinin düzəldilməsi üçün dərhal 50 nəfərlik lazaretin təşkilinə başlandı. Nəzərdə tutulurdu ki, ağır xəstələr Bakıya göndərilsinlər. Dəstə rəisi tərəfindən tikinti işlərinin sürətləndirilməsi barədə də müəyyən addımlar atıldı. Bu məqsədlə Quba qəzasından yeni işçi qüvvəsi cəlb edildi. İstehkam işlərində işləyənlərin sayı 270 nəfərə çatdırıldı. Qısa müddət ərzində Ləcətdən Seyidliyə qədər olan mövqelərin tikintisi başa çatdırıldı (475).

Avqust aynın əvvəllərində şimal sərhədinin müdafiəsi aşağıdakı qüvvələrlə həyata keçirilirdi: Firqətkənddən başlayaraq Zuxula kimi Samur çayının axını boyunca sol cinahda Tatar süvari alayının 85 süvarisi və 4 zabiti, Zuxul kəndində 15 süvarisi və 1 zabiti dayanmışdı. Samur çayının üzərindən keçən körpüyə 6 süvaridən ibarət post qoyulmuşdu. Yuxarı Xəzri kəndində 10 süvari və bir zabit, Zeyxur kəndində 5 süvari, Xəzri mövqelərinin sol cinahında qərar tutan Qalayi-Suvar dağında 5 süvari və 1 uryadnik, Şirvanovka kəndində 15 süvari və 1 zabit, Samur dəmir yolu körpüsündə 6 süvari, Firqətkənddə 7 süvari və 1 uryadnik və Yalama stansiyasında 15 süvari qoyulmuşdu. Onlar da 1-ci Tatar süvari alayına mənsub idilər (476).

Gəncə və Quba piyada alaylarının taborları isə aşağıdakı kimi

bölüşdürülmüşdü: Gəncə piyada alayının 2 bölüyü Murehli kəndində, bir bölük Yalama stansiyasında, həmin bölüyün bir taqımı Samur çayı üzərindəki körpüdə dayanmışdı. Taborun Ləcətdə dayanan taqımı Seyidli kəndinə göndərilmişdi. Quba alayının taborunun iki bölüyü Güllər kəndində, bir bölüyü isə Aşağı Xəzri kəndinə dayanmışdı. Həyəcanlı vəziyyət yarandığı halda sonuncu bölükdən piyada taqımı ilə pulemyot taqımı Şirvan kəndində mövqe tutmalı idi, Güllər kəndində dayanan iki bölük isə Aşağı Xəzri kəndi ilə Qalayi-Suvar dağı arasındakı mövqeləri tutmalı idi (477).

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanın şimal sərhədlərinin və Bakı həndəvərinin müdafiəsinin təşkilində gürcü hərbi mütəxəssisləri də iştirak edirdilər. Bir müddətdən sonra gürcü zabiti ştabs-kapitan Sereteli Azərbaycanın şimal sərhədlərinin möhkəmləndirilməsi, 2-ci piyada diviziyasının komandiri general Usubov isə Bakı həndəvərinin möhkəmləndirilməsi üçün öz fikir və mülahizələrini yazılı şəkildə Hərbi Nazirliyə təqdim etdilər.

Ştabs-kapitan Seretelinin verdiyi məlumatdan aydın olurdu ki, Azərbaycanın şimal sərhədlərinin üç xətt boyunca möhkəmləndirilməsi planlaşdırılırdı: 1) Xəzri mövqeləri (ön xətt); 2) Sarvan xətti (aralıq xətt); 3) Hilhil xətti (arxa xətt). Bunlardan başqa, Samur körpüsü ətrafında və Mixaylovsk limanında möhkəmləndirmə işlərinin aparılması nəzərdə tutulurdu (478).

Xəzri mövqeləri Ləcət–Seyidli arasında yaradılmalı idi. Burada müdafiə xətti iki yerə şaxələnirdi: Mururx–Şirvan və Xəzri–Qalayi–Suvar. Seyidlidən Ləcətə doğru 4 verst məsafədə artıq möhkəmləndirilmiş səngərlər tikilmişdi. Səngərlər arasında əlaqələr yaradılmış və atəş nöqtələri düzəldilmişdi. Ləcətə 6 verst qalan ərazidə isə hələlik səngərlər tikilməmişdi. Ləcət yolayrıcında dəmiryol xəttinin sağ və solunda 3 verstlik ərazidə də tikanlı məftillərlə möhkəmləndirilmiş olan səngərlər düzəldilmişdi. Xəzri, Şirvan və Qalayi–Suvar istiqamətində isə yalnız 1 nəfərlik səngərlər, sığınacaqlar qazılmışdı. Bu tikililərin arasında hərəkət üçün əlaqələr yox idi. Bu sahədə eni 8 arşın olan məftil şəbəkəsinin düzəldilməsi nəzərdə tutulurdu. Ön xəttin lazımınca möhkəmləndirilməsi üçün Şirvandan Zeyxur kəndinə kimi səngərlərin qazılması məqsədəuyğun bilinirdi. Xəzri mövqelərində səngərlərin

Seyidlidən Zeyxura kimi ümumi uzunluğu 42 verst olardı. Öz məlumatını avqustun 27-də təqdim edən Sereteli bildirirdi ki, əgər gündə işə 1200 adam çıxarılarsa, ön xətdə nəzərdə tutulan işləri iki həftə ərzində qurtarmaq mümkündür. Ancaq təəssüflə əlavə edirdi ki, hazırda işə yaxşı halda 250 nəfər çıxarılır (479).

Sarvan xəttində müdafiə mövqeləri Şirvan–Şahnəzərli və Molla–Kamil–Aşağı Kuşi məhəllələri arasından keçirdi. Onun ümumi uzunluğu 10 verstə çatırdı. Bu sahədə yalnız dəmir yolu xəttinin sağ və sol tərəflərində 3 verst uzunluğunda torpaq işləri görülmüşdü. Tikanlı məftil bu sahədə yox idi və onun tikilməsi heç nəzərdə də tutulmurdu. İşçi qüvvəsi çatmadığından Sarvan xəttində müdafiə işlərinin aparılması dayandırılmışdı.

Hilhil müdafiə xətti Hilhil yolayrıcı yaxınlığında dənizdən dağlara qədər uzanırdı. Xəttin ümumi uzunluğu 8 verst idi. Torpaq işləri qurtarmışdı. Tikanlı məftillərin isə dirəkləri basdırılmış, özü isə hələ çəkilməmişdi.

Samur körpüsünün və Mixaylovsk limanının möhkəmləndirilməsi üçün qazılacaq səngərlərin yeri müəyyənləşdirilmiş, ancaq lazım olan işlər hələ görülməmişdi.

Ştabs-kapitan Sereteli müdafiə xətlərinin keçdiyi ərazidə torpağın yumşaq olduğu üçün heç olmasa pulemyot mövqelərinin betondan düzəldilməsini məqsədəuyğun bilirdi. Bundan əlavə, o, Şirvanlıdan–Qubaya, Qubadan–Kozlyakovka–Şahnəzərli və Hilhil yolayrıcı arasında olan torpaq yolu bərpa etməyi də təklif edirdi. Məlumatının sonunda Sereteli işlərin sürətləndirilməsi üçün Hərbi Nazirliyin qarşısında istehkam mütəxəssislərinin və işçi qüvvəsinin artırılması barədə vəsatət qaldırırdı (480).

General Usubovun verdiyi təklif və mülahizələrə görə Könüllü ordu Dağıstandan üç yolla Bakıya hücum edə bilərdi: Dərbənd–Quba şose yolu ilə, Petrovsk–Bakı dəmir yolu xətti ilə və dəniz sahili ilə Dərbənddən Bakıya gələn yolla. Onun fikrincə, birinci və üçüncü yol az ehtimal olunan variant idi. Çünki birinci variantda Dərbənddən gələn şose yolu Qubada qurtarırdı. Sonra isə yol elə də rahat deyildi. Bu isə düşmənin hərəkətini çətinləşdirəcəyindən həmin variantın seçiləcəyi inandırıcı deyildi. Eyni zamanda, düşmən Qubada güclü partizan müqaviməti ilə rastla-

şacağını da, sözsüz ki, nəzərə alacaqdı. Üçüncü variant da az işləkliyi üzündən real deyildi. Bu yolla texnikanın hərəkəti çox çətin idi. Çoxsaylı qüvvələr üçün də bu ağır yolla hərəkət əlverişli deyildi. Düşmənin ehtimal edilən hərəkətinin Petrovsk–Bakı dəmir yolu ilə daha real olduğundan general-mayor Usubov əsas diqqəti də bu yolun ətrafının möhkəmləndirilməsinə yönəltməyi düzgün sayırdı. Dəmir yolu, həm də Bakıya ən kəsə yol idi (481).

General-mayor Usubov ilkin müdafiə mövqelərinin Samur çayı boyunca yerləşdirilməsini lazım bilirdi. Ancaq onun yazdığına görə burada topları yerləşdirmək çətin idi. Çünki bir tərəfdən düşmən xeyli yaxında idi, digər tərəfdən də Samur çayının ətrafı bataqlıq idi. Bu da topların işlədilməsi üçün çətinlik yaradırdı. General-mayor Samur çayı üzərindən keçən körpünün partladılmasına da vaxtında hazırlıq görməyi təklif edirdi. Sonra o, ştabs-kapitan Seretelinin göstərdiyi müdafiə xətlərinin adını çəkir və onların möhkəmləndirilməsi üzərində dayanırdı. Dəniz sahilinin müdafiəsinin möhkəmləndirilməsinə gəlincə isə general-mayor Usubov çevik ehtiyat qruplarının yaradılmasını və onların dəmir yolu ilə lazım olan vaxtda lazım olan yerə çıxarılmasına hazırlanmasını lazım bilirdi (482).

Şimal sərhədinin qorunması üçün 2-ci diviziyanın komandanlığının sərəncamında 4-cü Quba piyada alayı, 5-ci Bakı piyada alayı, Gəncə piyada alayının yığma taboru, zirehli qatar, 2 top batareyası var idi. 5–6 min nəfərlik partizan dəstəsinin də şimal sərhədinin müdafiəsinə cəlb ediləcəyi planlaşdırılmışdı. Azərbaycan ərazisinə təhlükə reallaşdığı təqdirdə bu qüvvələr aşağıdakı kimi bölüşdürülməli idi: 1) Zaqatala quberniyasının partizanları Dağıstan ərazisinə yeriyərək Axtı məntəqəsini və Samur çayı hövzəsini tutmalı və Könüllü ordunun arxasında ona qarşı təhlükə yaratmalı idi; 2) Nuxa qəzasının partizanları da Dağıstan ərazisinə keçməli, düşmənə arxadan zərbə vurmaqla bərabər, hərəkət istiqamətində maneçiliklər yaratmalı idi; 3) Quba partizanlarından isə əraziləri yaxşı tanıdıqları üçün həm nizami süvari bölmələr yetişənə kimi kəşfiyyatın aparılmasında, cinahların qorunmasında, Firqətkənddən Giləziyə kimi olan ərazidən dənizin müşahidə altında saxlanılmasında, həm də Qızılburun limanının tutulma-

sında istifadə edilməsi nəzərdə tutulurdu (483).

Diviziyanın nizami hissələri isə aşağıdakı mövqeləri tutmalı idilər: 1) 4-cü Quba piyada alayı və 3-cü Gəncə piyada alayının yığma taboru Ləcət–Xəzri ön mövqelərini tutmalı və qorumalı idilər; 2) 5-ci Bakı piyada alayı isə Xaçmaz–Xudat stansiyalarına gətirilərək diviziyanın ehtiyat qüvvəsini təşkil etməli idi; 3) 1-ci Tatar süvari alayının bölmələri Könüllü ordu bölmələri ilə toqquşma baş verənədək kəşfiyyatla məşğul olmalı, döyüşlər başladıqdan sonra isə düşmənin arxasında və cinahlarında vuruşmalı idi; 4) 5-ci Bakı piyada alayının bir bölüyü, partizan dəstəsi, topçu və pulemyot taqımları ilə birlikdə çevik ehtiyat qüvvəsi kimi Xaçmaz və Qızılburunda saxlanılmalı idi; 5) zirehli qatar Yalama stansiyasına doğru hərəkət edərək Samur körpüsündən keçmək istəyən Könüllü ordu dəstələrinin hərəkətini ləngitməli idi (484).

Bakı ətrafında görülmüş müdafiə işlərinin vəziyyətini yoxlamaq üçün 1919-cu ilin avqust ayında M. Sulkeviçin xahişi ilə gürcü generalları Kutalaşvili və Takayşvili Azərbaycana gəlmişdilər (485). General Takayşvili Bakı həndəvərində müdafiə-istehkam işlərinin aparılması ilə tanış olduqdan sonra Hərbi Nazirliyin rəhbərliyinə yazdığı məlumatında aşağıdakı məsələlərin həll edilməsini lazım bilirdi. Onun fikrincə, istehkam işlərinə cəlb edilmiş hər bir qrupun müfəssəl iş planı hazırlanmalı idi; nəzərdə tutulan tikintilər işçi qüvvəsi arasında bölünməli idi; mürəkkəb tikintilərin işçi layihələri hazırlanmalı idi; tikinti üçün zəruri olan alətlər və materiallar hazırlanmalı və gətirilməli idi; işçilər üçün binalar hazırlanmalı idi, işçilər üçün yemək və su gətirilməli və lazımi sayda işçi toplanılmalı idi. General Takayşvili tezliklə Bakı ətrafında aparılan istehkam işlərinin rəisinin təyin edilməsini və planlaşdırılan işlərin icrası üçün 1–2 milyon rubl vəsait ayrılmasını da lazım bilirdi. Takayşvili Bakı ətrafında aparılan istehkam işlərinin rəhbəri kimi podpolkovnik Vəkilovun təyin edilməsini təklif edirdi. Onun fikrincə, Bakı ətrafında çalışan istehkam qüvvələri də Vəkilova tabe edilməli idi (486).

Hərbi nazir Takayşvilinin bu təklifi ilə razılaşdı və podpolkovnik Vəkilov Bakı ətrafında aparılan tikinti işlərinin rəhbəri təyin edildi və eyni zamanda, işçi qüvvəsinin sayının artırılması üçün

Dövlət Müdafiə Komitəsinin sədri qarşısında vəsatət qaldırdı. Bu işçi qüvvəsi əmək haqqı ödənilməklə Bakı ətrafındakı kəndlərdən cəlb edilə bilərdi (487).

Hərbi nazir S.Mehmandarov Dövlət Müdafiə Komitəsinin sədrinin adına yazdığı raportda bildirirdi ki, səfərbərliyin elan edilməsi ilə ordu təcavüzə məruz qalan sərhəd xəttində yerləşdiriləcəkdir. Təcavüz ehtimalı olan sərhəd xətti isə Ermənistan və Rusiya ilə olan sərhəd xətti idi. Hərbi qüvvələrin bu sərhəd xətlərinə göndəriləcəyi halda Bakını müdafiəsiz qoymaq olmazdı. Hərbi nazirin yazdığına görə respublikanın sərhədlərinin düşmən təcavüzünə məruz qaldığı təqdirdə Bakı şəhərinin lazımi şəkildə müdafiə olunması üçün artıq şəhər ətrafındakı köhnə səngərlərin bərpasına, məftil maneələrin yaradılmasına, Bakı buxtasına gəmilərin girməsinə mane olacaq batareyanın yerləşdirilməsinə, 1915–16-cı illərə aid olan telefon şəbəkəsinin yenidən qurulmasına başlanmışdır. Bu işlərin ardıcıl şəkildə davam etdirilməsi və sona çatdırılması üçün Hərbi nazir Bakı istehkamat hissəsinin təşkili barədə vəsatət qaldırırdı (488). Məlumdur ki, bu vəsatət Dövlət Müdafiə Komitəsi tərəfindən də müdafiə olundu. Nəzərdə tutulurdu ki, Bakı istehkamat hissəsi hələ sülh vaxtı paytaxtın istər qurudan, istərsə də dənizdən müdafiəsi barədə mülahizələrini hazırlamalı, ilkin işləri yerinə yetirməli və müəyyən hazırlığa malik olmalı idi. Hərbi nazir onu da yazırdı ki, Bakının müdafiəsini təşkil etmək kifayət qədər mürəkkəb bir işdir. Bu mürəkkəblik şəhərin dağınıqlığı və bununla bağlı müdafiə xəttinin uzunluğu (40 verst), Bakı əhalisinin müxtəlifliyi və sabit olmaması, həyati zəruri olan suyun və digər ərzaq əşyalarının isə kənardan gətirilməsi ilə əlaqədar idi. Ona görə də Bakı istehkamat hissəsinin üzərinə də xeyli məsuliyyətli vəzifələr düşürdü (489).

Müdafiə tikililərinin aparılması ilə bərabər strateji məntəqələr arasında rabitənin təşkili, düşmənin hücum edəcəyi təqdirdə qoşun hissələrinin sabit şəkildə idarə edilməsinin mümkünlüyü Hərbi Nazirliyin rəhbərliyinin diqqət mərkəzində idi. Yalamadan–Bakıya və Ələtə qədər olan teleqraf xətti Bakı ilə şimal məntəqələri arasında əlaqənin yaradılmasına imkan verirdi. Ancaq düşmən bölmələrinin hücumu ilə bu əlaqə qırıldığı təqdirdə şimaldakı qo-

şun bölmələri ilə rabitəni təmin etmək qeyri-mümkün olacaqdı. Buna görə də Hərbi Nazirliyin rəhbərliyi ehtiyat üçün digər teleqraf xətlərinin çəkilməsini də məqsədəuyğun bilirdi. Belə xətt Quba–Şamaxı və Şamaxı–Bakı teleqraf xətti olmalı idi. Döyüş bölgəsindən xeyli uzaqda olan bu teleqraf xətti sabit rabitə əlaqəsinin qurulmasına imkan verə bilərdi. Nazirliyin rəhbərliyi Şamaxıda aralıq bazalarının yaradılmasını və bunun üçün Kürdəmir–Şamaxı yolunun möhkəmləndirilməsini də məqsədəuyğun sayırdı. Sentyabr ayının 18-də Dövlət Müdafiə Komitəsinin iclasında bu təkliflər müzakirə edildi və müdafiə olundu (490).

Şəhərdaxili telefon şəbəkəsi də yenidən quruldu. Krasnovodsk küçəsi ilə Birja küçələrinin kəsişməsində yerləşən mərkəzi telefon stansiyası Bakı istehkamat hissəsinin rəisinə tabe edildi. Bu telefon stansiyası həm Bakının həndəvəri ilə, həm də şəhərdən uzaq olan məntəqələrlə əlaqə yaratmağa imkan verirdi. Mərkəzi telefon stansiyasından Bakı istehkamat hissəsinin rəisinin mənzilinə, Şıx və Zığ burunlarına, Nargin adasına və şəhərlərarası stansiyaya xətlər çəkilmişdi. Şəhərlərarası stansiyadan Nazirlər Şurasının sədri, Rabitə naziri, Parlament, Salyan kazarmaları, Abşeron, Tiflis, Gəncə, Xaçmaz, Yalama, Şuşa, bütün dəmir yolu stansiyaları, Bakı şəhər polis rəisi ilə əlaqə yaradılmışdı. Şəhərlərarası stansiyadan əlavə olaraq Hərbi nazir, Baş Ərkani-hərbin rəisi, Bakı şəhər başçısı, rabitə dairəsi rəisi ilə rabitə yaradılması planlaşdırılırdı. Bu şəhərlərarası telefon danışıqlarına gizli qulaq asılması mümkün deyildi ki, bu da onun etibarlılığını artırırdı (491).

Gürcü generalı Takayşvilinin rəhbərliyi altında Bakının və onun ətrafının konkret müdafiəsi planı da hazırlandı. Həmin planda müdafiə mövqelərinin yeri və mövqelərin qorunması üçün zəruri olan qüvvə və vəsait müfəssəl şəkildə açıqlanmışdı. General Takayşvilinin fikrincə, əgər Azərbaycan hökuməti dənizdə hərbi gəmilərə malik olsaydı, onda yalnız Şıx burnunun və Kürdlər burnunun möhkəmləndirilməsi dənizdən ola biləcək təhlükənin qarşısını almağa imkan verərdi. Dəniz qüvvələrinin olmaması üzündən şəhərin ətrafının daha yaxşı möhkəmləndirilməsi lazım gəlirdi.

Bakının həndəvərinin müdafiəsi iki tərkib hissədən ibarət idi:

1) Abşeron yarımadasının müdafiəsi; 2) Bakı şəhərinin müdafiəsi. Birinci müdafiə xətti Badamdardan Masazır gölünə kimi uzanırdı. Bu xətt üzrə 7 dayaq qrupu yerləşdirilməli və onların müdafiə mövqeləri hazırlanmalı idi. Həmin qruplar bunlar idi: 1) Badamdar qrupu; 2) Atəşgah qrupu; 3) Aralıq qrupu; 4) Şabandağ qrupu; 5) Xırdalan qruppu; 6) Göl qrupu; 7) Novxanı qrupu. 1-ci, 3-cü və 6-cı dayaq qruplarının hər birində 2 bölük piyada, 4 ədəd pulemyot və 2 ədəd top olmalı idi. Digər dayaq qruplarında isə 4 bölük piyada, 8 ədəd pulemyot və 2 ədəd top olmalı idi. Beləliklə, birinci müdafiə xəttində 5,5 tabor piyada, 44 ədəd pulemyot və 12 ədəd top var idi. Əlavə olaraq ehtiyatda 2,5 tabor piyada, 20 ədəd pulemyot və 4 ədəd top saxlanılmalı idi. Cəmi birinci müdafiə xətti üçün 8 tabor piyada qüvvəsi, 64 ədəd pulemyot, 16 ədəd top nəzərdə tutulmuşdu. Bunlardan əlavə, dəniz sahilinin qorunması üçün də 6 ədəd top ayrılmalı idi (492).

İkinci müdafiə xətti Biləcəri–Böyükşor–Razin dağı və Əhmədli yüksəkliyindən keçirdi. Bu xətt üzrə 6 dayaq qrupu yerləşdirilməli idi. Onlar aşağıdakı qaydada düzülmüşdü. 8) Biləcəri qrupu; 9) Dərnəgül qruppu; 10) Keşlə qruu; 11) Güvüldağ qrupu; 12) Əhmədli qrupu; 13) Zığ qrupu. Bu qrupların hər biri üçün 2 piyada bölüyü, 8 ədəd pulemyot və 2 ədəd top nəzərdə tutulmuşdu. Dayaq qruplarının hər biri üçün səngərlər qazılmalı, səngərlər arasında əlaqələr yaradılmalı, atəş mövqeləri düzəldilməli və onların ətrafında tikanlı məftillərdən maneələr qurulmalı idi (493).

Noyabr ayının əvvəllərində general Takayşvili özü şəxsən tərtib etdiyi müdafiə planının icrası gedişini yoxladı. Bütünlükdə müdafiə-istehkam işlərinin aparılması səviyyəsi onu qane etmədi. Onun Hərbi nazir S.Mehmandarovun adına yazdığı raportdan aydın olurdu ki, Şıx və Sultan burunlarında, habelə Nargin adasında əlavə yaradılmış 14-cü dayaq qrupunda istehkam işlərinin vəziyyəti ilə tanış olmuşdu. Şıx burnunda və Nargin adasında işlər yaxşı gedirdi. Sultan (Zığ) burnunda isə görülən işlər lazımi tələblərə cavab vermirdi. Burada topların yerləşdirilməsi üçün səngərlər dənizdən 10–12 sajen aralı, çox da hündür olmayan və tamamilə açıq bir sahədə qazılırdı. İlkin planda nəzərdə tutulan dayaq məntəqəsi isə tamamilə başqa sahədə idi və həmin sahə seçi-

lərkən ərazinin müdafiə xüsusiyyətlərinə ciddi fikir verilmişdi. Adları çəkilən dayaq qruplarında, habelə 1-ci, 4-cü və 5-ci dayaq qruplarında yalnız torpaq işləri görülmüşdü. Sığınacaqların, atəş mövqelərinin, barıt ehtiyatlarının saxlanılması üçün yerlərin tikilməsinə, dayaq qrupları ətrafında süni maneələrin yaradılmasına hələ başlanmamışdı. General Takayşvilinin fikrincə, işlərin mövcud sürətinin saxlanılacağı təqdirdə ilin sonunadək onların icra ediləcəyi heç inandırıcı da deyildi (494).

Bakının ətrafının müdafiəsi ilə bağlı M.Sulkeviçin irəli sürdüyü təkliflər içərisində şəhərin artilleriya müdafiəsinə xüsusi yer verilirdi. Yuxarıda qeyd edildiyi kimi, müdafiə batareyalarının Şıx, Sultan (Zığ) burunlarında və Nargin adasında yerləşdirilməsi planlaşdırılırdı. Bu mövqelər içərisində isə Nargin adasındakı mövqe daha böyük əhəmiyyətə malik idi. Aparılan müşahidələr göstərirdi ki, düşmən bu adanı ələ keçirib onun mərkəzindəki yüksəkliyin üzərində toplar yerləşdirsəydi, şəhərin dənizdən qorunması qeyri-mümkün olardı. Çünki Bakı körfəzində hərbi gəmilər yox idi. Nargin adasındakı top mövqelərini yalnız şəhərin kənarında qurulmuş toplarla susdurmaq olardı. Nargin adasının coğrafi şəraiti isə elə idi ki, burada topları etibarlı şəkildə yerləşdirmək və şəhərdən atılan atəşlərdən qorunmaq olardı.

Nargin adasında topların yerləşdirilməsi ilə bağlı hazırlanan mülahizələrdə dairəvi mövqelərin düzəldilməsi təklif olunurdu. Belə mövqelər toplara bütün istiqamətlərdə üfüqi atəş aparmağa imkan verərdi. 2,5 verst uzunluğu olan Nargin adasına göndəriləcək batareyanın iki taqıma bölünməsi və müxtəlif nöqtələrdə yerləşdirilməsi planlaşdırılırdı. Bu taqımların hər biri şəhərin bir tərəfini nəzarət altında saxlaya bilərdi. Şəhər ətrafında yerləşdirilən batareyaların hər biri üçün müşahidə məntəqələri yaradılmalı idi. Müşahidə məntəqələrindən həm top atəşləri istiqamətləndirilməli, həm də ətraf ərazi nəzarət altında saxlanılmalı idi. Bütün batareyalar və qərargah arasında telefon və ya digər nöqtələrin yaradılması da nəzərdən qaçırılmamışdı.

Bakının müdafiəsinin təşkilində əhəmiyyətli rol oynaya biləcəyi nəzərə alındığı üçün Nargin adasında da istehkam-tikinti işlərinə başlanmışdı. Yuxarıda deyilənlərdən göründüyü kimi, bura-

da toplardan əlavə şəxsi heyətin də yerləşdirilməsi nəzərdə tutulmuşdu. Bunun üçün orada şəxsi heyətin qalması üçün bina tikilməli, telefon xətləri çəkilməli, silahın, sursatın və ərzağın daşınması təşkil edilməli idi. Bakı ətrafında aparılan istehkam-tikinti işlərinin rəhbəri olan podpolkovnik Vəkilov təklif edirdi ki, Nargin qalaya və ya forta çevrilsin. Bununla bağlı o, general-mayor Tlexasa yazdığı raportunda onu da təklif edirdi ki, dərhal adanın komendantı təyin edilsin və adanın döyüş hazırlığı vəziyyətinə gətirilməsi də ona tapşırılsın. Vəkilov apardığı təhlil və müşahidələr əsasında belə bir qənaətə gəlirdi ki, Bakının dənizdən etibarlı müdafiəsinin əsasını məhz Nargin adasının möhkəmləndirilməsi, onun alınmaz bir qalaya çevrilməsi təşkil edir. Onun fikrincə, ilk vaxtlar burada xidmətin təşkili əsgər və zabitlər üçün çətin olsa da, sonradan hər şey öz yerini tapacaqdır. Öz raportunu o, aşağıdakı sözlərlə bitirirdi: «Tez, ya gec, Nargin adası istənilən halda qalaya çevrilməli, Bakı əhalisinin sakit yaşayışını və dövlət dəyərlərini yaxşı qorumalıdır. Ona görə də pul, silah və insan məsrəfinə baxmayaraq, Nargindəki işləri maksimuma çatdıraraq qalanı elə indi möhkəmləndirmək lazımdır» (495).

Bakı istehkamat hissəsinin rəisi general-mayor Tlexasın əmrinə əsasən şəhərin müdafiəsinin gücləndirilməsi üçün gəmilərin hərəkəti də nəzarət altına götürülmüşdü. Onun tərəfindən imzalanmış məcburi qərarda bildirilirdi ki, Yollar Nazirliyinin su nəqliyyatı üzrə xüsusi müvəkkilinin yazılı razılığı olmadan heç bir gəmi Bakı buxtasından çıxa bilməz. Hərəkət üçün razılıq sənədi olan gəmilər isə axşam saat 6-dan sonra buxtadan kənara və buxtaya hərəkət edə bilməzdilər. Gəmilərin buxtaya girişi və çıxışı isə Nargin adası ilə Şıx burnu arasındakı sahədən həyata keçirilə bilərdi. Bakının ətrafına gedib-gələn yerli gəmilər Nargin adası ilə Zığ burnu arasındakı sahədən istifadə edə bilərdilər. Yerli gəmilər də müəyyənləşdirilmiş saatlarda hərəkət edə bilərdilər. Şəhərə yaxınlaşan gəmilərin komandirlərindən tələb olunurdu ki, vaxtından əvvəl sərnişinlərin pasportlarını toplasınlar və yoxlanılması üçün hökumət agentlərinə təqdim etsinlər. Şəhər ətrafında olan bütün gəmilərin rəhbərləri

patrul gəmilərinin tələbinə əsasən sənədlərini təqdim etməli və əmrə tabe olmalı idilər (496).

Hərbi Nazirliyin rəhbərliyi tərəfindən ümumi səfərbərlik elan edildiyi təqdirdə dəmir yolu xətlərinin qorunması haqqında təlimat da hazırlanmışdı. Təlimata əsasən Azərbaycanın dəmir yolu xətləri beş sahəyə bölünmüşdü: Poylu–Qovlar, Qovlar–Yevlax, Yevlax–Hacıqabul, Hacıqabul–Biləcəri–Bakı, Biləcəri–Samurçay sahələri. Səfərbərlik elan edilən kimi bütün dəmir yolu xətti habelə Şollar su kəməri mövcud olan dəmir yolu mühafizə bölmələri tərəfindən qorunmalı idi. Bu bölmələrə kömək göndərilməsi də nəzərdə tutulurdu. Həmin kömək dəmir yolu xətti boyu yaşayış məntəqələrindən toplanılacaq yaşı 40–43 arasında olan etibarlı vətəndaşlardan təşkil olunmalı idi. Onların nə qədər və nə vaxt çağırılması ümumi göstərişdən sonra qəza rəisləri tərəfindən dəmir yolu rəisləri ilə razılaşdırılmaqla həyata keçirilməli idi (497).

Bakı istehkamat hissəsinin istehkam-mühəndis işlərinin rəisi təyin edilmiş podpolkovnik Vəkilov şimaldan müdafiənin etibarlılığını artırmaq üçün Quba–Qusar–Şollar su kəməri sahəsində əlavə tədbirlərin görülməsini təklif edirdi. Onun qənaəti belə idi ki, Xəzri müdafiə mövqeləri ilə Çərxi mövqelərinin arasında böyük məsafə var idi və bu ərazi müdafiəsiz qalmışdı. O, həmin sahədə aralıq dayaq qruplarının olmasını məqsədəuyğun sayırdı. Bu dayaq qrupları Quba–Qusar, Xudat–Xaçmaz ətrafında yerləşdirilməli idi. Konkret olaraq dayaq qrupunun Vladimirovka–Nikolayevka xətti üzrə yerləşdirilməsi təklif olunurdu. Bu dayaq qrupu yaxınlaşan düşmənin sıralarını pozub onun hərəkətini xeyli ləngidə bilərdi. Podpolkovnik Vəkilovun təklif etdiyi dayaq qrupunun ərazisi də coğrafi baxımdan əlverişli idi. Ərazinin bu xüsusiyyətləri dayaq qrupunun möhkəmləndirilməsinə zəmin yaradırdı (498).

Puta və Ələt stansiyaları arasında dəmir yolu xəttinin dənizə xeyli yaxın olması üzündən onun müdafiəsinin gücləndirilməsi də zəruri sayılırdı. Düşmənin hərbi gəmisi dənizdən bu yolla hərəkəti tamamilə dayandıra və yolları da xarab edə bilərdi. Ona görə təklif edilirdi ki, bu ərazidə də dənizin müşahidəsi təşkil edilsin. Bunun üçün Ələt limanı yaxınlığında yüksəkliklərdə bir batareyanın yerləşdirilməsi, limanın kənarlarında isə bir piyada bölüyünün

yerləşdirilməsi üçün səngərlərin qazılması, 4 ədəd pulemyot üçün atəş mövqelərinin hazırlanması həmin sahədə dənizdən müdafiəni xeyli möhkəmləndirmiş olardı. Dəmir yolu xəttinin mühafizəsi üçün zirehli qatardan istifadə edilməsi də nəzərdə tutulurdu (499).

İngilis qoşunları Azərbaycanı tərk edəndən sonra Könüllü ordunun hissə və bölmələrinin sərhəd xətti yaxınlığındakı fəallığı xeyli artmışdı. Şimal bölgəsində yerləşən hissələrin komandanlığı ilə Baş Ərkani-hərbin rəisi M.Sulkeviçin yazışmalarından aydın olur ki, Könüllü ordunun hərbçiləri sərhəd xətti yaxınlığında təxribatlar törədir, Könüllü ordunun zirehli qatarı vaxtaşırı burada manevrlər edirdi. M.Sulkeviç də göstəriş verdi ki, Azərbaycan Ordusuna məxsus olan zirehli qatar vaxtaşırı sərhəd xəttinə çıxarılsın, Azərbaycanın qoşun hissələri Könüllü ordunun hər cürə təxribatına qarşı hazır olduğunu nümayiş etdirsin (500).

Ancaq avqust ayında Dağıstanda yerli qüvvələrin Könüllü orduya qarşı xeyli fəallaşması, habelə Armavirdə bu orduya arxadan ciddi təhlükə yaranması denikinçilərin Azərbaycana soxulmasını təxirə saldı (501).

Denikinçilər şimaldan Azərbaycana təzyiq göstərdikləri kimi, şərqdən – Xəzər dənizindən də təzyiq göstərməyə çalışır, dəniz hövzəsini tamamilə öz nəzarətləri altında saxlamağa cəhd edirdilər. Onlar Azərbaycanın dənizdən müdafiəsinin gücləndirilməsi üçün müvafiq tədbirlər görülməsini ciddi narahatlıqla yaşayırdılar. Məlumdur ki, 1919-cu il sentyabrın 1-də Bakıda hərbi liman yaradılmış, oktyabrın 1-də isə "Astrabad" hərbi gəmisinin komplektləşdirilməsinə başlanmışdı (502).

Yuxarıda qeyd edildiyi kimi, bir sıra digər üzən vasitələrin müdafiə məqsədilə hərbi baxımdan təchiz edilməsi planlaşdırılırdı. Bakıdakı saysız casusların vasitəsi ilə bunlardan xəbər tutan Könüllü ordu komandanlığı Azərbaycan hökumətinə nota göndərərək bildirirdi ki, 1828-ci ildə Rusiya və İran arasında imzalanmış müqavilənin 8-ci maddəsinə əsasən Xəzər dənizində hərbi gəmiləri yalnız Rusiya dövləti, ticarət gəmilərini isə Rusiya və İran saxlaya bilər. Denikinçilərin fikrinə görə, Azərbaycan Xəzər dənizində nə ticarət, nə də hərbi gəmilər saxlaya bilər və onlar Azərbaycandan tələb edirdilər ki, Xəzər dənizinə gəmi çıxarmaq

niyyətinə son qoysunlar (503).

1919-cu il oktyabrın 21-də Dövlət Müdafiə Komitəsi öz iclasında Könüllü ordu komandanlığının irəli sürdüyü tələbləri müzakirə etdi və Xarici İşlər Nazirliyinə tapşırdı ki, Cənubi Rusiya Silahlı Qüvvələrinin baş komandanı Denikinə aşağıdakıları çatdırsın: 1) Rusiya ilə İran arasında imzalanmış Türkmənçay müqaviləsi yalnız Rusiya və İrana aid ola bilər. Bu müqavilə Xəzər ətrafında yaradılmış yeni dövlətlərə şamil edilə bilməz; 2) Azərbaycan Xəzər dənizinin sahilində yerləşdiyi üçün onun limanı və ticarət gəmiləri var və bu gəmilər Azərbaycanın bayrağı altında üzəcəklər. Dövlət Müdafiə Komitəsi Denikinin tələblərini müstəqil Azərbaycan Respublikasının suveren hüquqlarına müdaxilə kimi qiymətləndirirdi (504).

Oktyabrın 26-da Azərbaycanın Xarici İşlər Nazirliyi müttəfiq dövlətlərin Qafqazdakı ali komissarı polkovnik Haskelə, Britaniya hökumətinin Zaqafqaziyadakı ali komissarı Uordropa məktub göndərdi və Denikinin qanunsuz hədələri onların diqqətinə çatdırıldı. Məktubda açıqlanırdı ki, Britaniya hökuməti Azərbaycanın qanuni tələblərinə qulaq asmadı, bolşevizmlə mübarizə adı altında bütün hərbi gəmiləri Denikinə təslim etdi. Denikinə verilən hərbi gəmilərin müstəqil Azərbaycana qarşı istifadə edilməyəcəyi vəd olunsa da, indi Könüllü ordunun respublikaya qarşı hədələri reallaşmaqdadır. Azərbaycanın Xarici İşlər Nazirliyi məktubda Denikinə lazımi təsir göstərilməsini xahiş edirdi.

1919-cu ilin noyabr ayında şimalda bir sıra hərbi uğurlar qazandıqdan sonra Könüllü ordunun mövqeləri yenə möhkəmləndirildi və Azərbaycan üzərinə hücum təhlükəsi artdı. Könüllü ordunun fəallaşması ilə bir zamanda onunla sıx əlaqədə olan Ermənistanın silahlı qüvvələrinin də təcavüzkarlığı genişlənirdi. Zəngəzur ekspedisiyasının hərəkətə başlaması ilə Denikin qüvvələri Dağıstan ərazisində bir sıra yayındırıcı manevrlər etməyə də cəhd göstərdi.

Ermənistanın və Könüllü ordunun Azərbaycana qarşı cəbhə açacaqları vaxt respublika ordusu hissə və bölmələrinin necə və harada yerləşəcəyi barədə Baş Ərkani-hərb tərəfdən xüsusi plan hazırlandı. Bu plana görə Ermənistan və Könüllü ordunun aşağıdakı əməliyyat istiqamətlərindən hücum edəcəyi güman edilirdi: 1) Ya-

lama–Xaçmaz–Bakı; 2) Dilican–Qazax–Ağstafa; 3) Dilican–Gədəbəy–Gəncə; 4) Gorus–Şuşa–Yevlax.

Rusiyada vətəndaş müharibəsinin təcrübəsi göstərirdi ki, istər Könüllü ordu, istərsə də bolşevik qüvvələri əsasən dəmir yolu xətti boyunca əməliyyatlar aparırlar. Bu, onlara nəqliyyat və təxliyə məsələlərini həll etməyə imkan verirdi. Ona görə Könüllü ordunun Azərbaycana doğru irəliləcəyi təqdirdə hücumun dəmir yolu xətti boyunca aparılacağı şübhə doğurmurdu. Təcavüzkarlara müqavimət göstərəcək qoşun hissələrinin də əsasən dəmir yolu xətti boyunca yerləşdirilməsi nəzərdə tutulurdu. Quba rayonu ərazisində bir piyada diviziyası, bir süvari diviziyası və partizanlar yerləşdirilməli idi. Piyada diviziyasının bir alayının ehtiyat qüvvə kimi Xaçmazda saxlanılması nəzərdə tutulurdu. Bu alay zərurət yaranardısa, Samur çayı mövqelərinin gücləndirilməsinə göndərilməli idi. Dənizdən desant atılacağı təqdirdə də bu alay döyüşə qoşulmalı idi. Güman edilirdi ki, Könüllü ordu ilə mübarizə etmək üçün Gürcüstan da öz diviziyasını göndərəcəkdir. Həmin diviziya da Quba rayonu ərazisində yerləşməli idi (505).

Baş Ərkani-hərbin Qarabağda kütləvi erməni hücumlarının başlanmasından əvvəl hazırladığı planda Ermənistan sərhədində, Qarabağda və Gəncədə az sayda qüvvə saxlanılması planlaşdırılırdı. Ermənistanla sərhədin müdafiəsi qərərgahı Gəncədə yerləşəcək arxa cəbhə qoşunları komandanına tapşırılmalı idi. Səfərbərlik elan edilən kimi Azərbaycan Parlamenti və hökuməti də Gəncəyə köçməli idi.

Azərbaycanla Dağıstanın sərhədindən keçən Samur çayı təbii maneə kimi hərbi baxımdan elə də böyük əhəmiyyət kəsb etmirdi. İlin çox vaxtı çayda su az olurdu və onu asanlıqla keçmək mümkün idi. Bu isə Azərbaycan ərazilərinin müdafiəsini xeyli çətinləşdirirdi. Ərazini yaxşı öyrəndikdən sonra Baş Ərkani-hərbin rəisi M.Sulkeviçin fikrincə, müdafiə xəttinin bir qədər irəlidə, Dağıstan ərazisində yaradılması daha səmərəli olardı. O bildirdi ki, şərait imkan verərsə, qoşun hissələrini irəliyə göndərib onları Dərbənd ətrafında yerləşdirmək lazımdır. Buranın coğrafi şəraiti çox az qüvvə ilə çoxsaylı qoşunun qarşısını saxlamağa imkan verirdi. Dərbənd yaxınlığında dənizlə dağlar arasındakı ərazi cəmi

2–3 verst idi. M.Sulkeviçin fikrincə, burada bir alay və möhkəmləndirilmiş ehtiyat qüvvə Könüllü ordunun Azərbaycana doğru hərəkət imkanlarını xeyli məhdudlaşdıra bilərdi (506).

Könüllü ordunun təcavüzü ehtimalının artması ilə əlaqədar Hərbi nazir S.Mehmandarov 1919-cu il noyabrın 17-də Xaçmaz dəstəsinin rəisi polkovnik Ş.Kəsəmənlidən tələb etdi ki, dəstə ilk işarədən sonra döyüş mövqelərinə çıxmağa hazır olsun. O bildirirdi ki, Könüllü ordu tərəfindən hər hansı bir təhlükə yaranan kimi Xaçmaz dəstəsi bir və ya iki alayla möhkəmləndiriləcəkdir. Dəstəyə 2–3 batareyanın verilməsi də planlaşdırılırdı. Hərbi nazir onu da əlavə edirdi ki, Könüllü ordunun say tərkibi, hərəkət istiqamətləri, gələcək planları barədə məlumatların əldə edilməsi üçün maliyyə vəsaitini əsirgəməsin. Bunun üçün agentlər göndərilməsi də məqsədəuyğun bilinirdi. Polkovnik Kəsəmənlinin nəzərinə çatdırılırdı ki, Xaçmazda Könüllü ordunun çoxlu sayda agentləri vardır və onların aşkarlanması üçün də müvafiq işlər görülsün. Nazirin tapşırığına əsasən Kəsəmənli, eyni zamanda, Quba qəzasının rəisi ilə birlikdə partizan dəstələrinin təşkilinə hazırlıq işlərinə də başlamalı idi (507).

Polkovnik Kəsəmənli Hərbi nazirin göstərişini alan kimi dərhal Quba qəzası əhalisindən partizan dəstələrinin təşkili üçün hazırlıq işlərinə başladı. Qəzadakı vəziyyətlə tanışlıq göstərirdi ki, 19–50 yaş arasında olan qəza əhalisi arasından 10 min nəfərlik partizan dəstəsi toplamaq olardı. Onlardan 4–5 min nəfəri atlı ola bilərdi. Bununla əlaqədar qəzada əhalinin, onların malik olduqları atların, odlu və soyuq silahların, sursatın qeydiyyyatının aparılmasına başlandı. Qəzada 5 sahə var idi. Ona görə Kəsəmənli təklif edirdi ki, partizan dəstələri də sahələr üzrə təşkil edilsin. Əhali də partizan dəstələrinin təşkilini və Azərbaycanın ərazi bütövlüyünün qorunmasını maraqla qarşılayırdı. Yalnız sərhəddə yerləşən bəzi kəndlərdə partizan dəstələrinin təşkilinə qarşı çıxırdılar. Bu da həmin kəndlərdə təbliğat aparılması ilə bağlı idi. Könüllü ordu barədə məlumatların toplanılması barədə də Kəsəmənli tərəfindən müəyyən işlər görülürdü. Onun göstərişinə əsasən Petrovska agent göndərilmişdi. Eyni zamanda, Axtıda, Qasımkənddə, Dərbənd və Petrovskda daimi agent nöqtələrinin təşkili

üzərində iş aparılırdı (508).

Şimal sərhədində baş verə biləcək təcavüzün qarşısının alınmasına hazırlıq işləri 1919-cu il noyabrın 20-də Dövlət Müdafiə Komitəsində də müzakirə olundu və orada bu məsələ ilə əlaqədar Hərbi nazirin məruzəsi dinlənildi. Müzakirələrdən sonra Daxili İşlər nazirinə tapşırıldı ki, Könüllü ordunun hücum edəcəyi təqdirdə Yalamadan Xaçmaza qədər olan dəmir yolu xəttinin sökülməsi üçün Quba qəzasından işçi qüvvəsi ayrılması haqqında qəza rəisinə göstəriş versin (509).

1919-cu il noyabr ayının sonlarında Xaçmaz dəstəsi Quba dəstəsi adlandırıldı və polkovnik Kəsəmənli bu dəstənin rəisi kimi saxlanılsa da, o, həmin vəzifədəki xidmətini uzun müddət davam etdirə bilmədi. Səhhətinin korlanması ilə əlaqədar olaraq o, bu vəzifədən azad edildi və dekabr ayının 6-dan etibarən həmin vəzifəni general-mayor Teymur bəy Novruzov icra etməyə başladı. T.Novruzov dərhal tabeliyində olan qüvvələrin vəziyyətini, bütünlükdə müdafiənin təşkilini yoxlamağa və təkmilləşdirməyə başladı. Xüsusilə dəstənin hissələri arasında olan rabitənin vəziyyəti onu qane etmədi. Hissələrlə çevik əlaqələrin saxlanılması, vəziyyət barəsində vaxtında məlumat alınması və lazımi göstərişlərin hissələrə vaxtında çatdırılması üçün hissələr arasındakı rabitənin yeni sxeminin hazırlanmasına başlandı. Dekabrın 7-də isə general-mayor Novruzov Quba dəstəsinə daxil olan qüvvələrin mövqe yerləşməsi barədə əmr imzaladı. Əmrdə göstərilirdi ki, alınan məlumatlara görə düşmən Bilici stansiyası istiqamətindən hücum edə, Svyatoy adası istiqamətindən isə Azərbaycan ərazisinə desant ata bilər. Həmin hücumun başlanması üçün kazak dəstələri artıq Bilicinin şimalında xarab olmuş dəmir yolu stansiyasının təmirinə başlamışdılar. T.Novruzovun dəstənin hissələri qarşısına qoyduğu vəzifə bundan ibarət idi ki, düşmən hücum edəcəyi təqdirdə hissələr Quba rayonundakı mövqeləri qətiyyətlə müdafiə etsin və əsas qüvvələrin cəmləşməsinə zəmin yaratsın. Bu vəzifənin icrasına səfərbər edilən qüvvələr aşağıdakı mövqelərdə dayanmalı idilər:

4-cü Quba piyada alayı. Alayın 3 taboru və 10 pulemyotu müdafiəyə cəlb edilmişdi. Bir tabor bir pulemyot bölüyü ilə birlikdə

Ləcət, Xəzri-Muruq və Seydalı kəndlərində, bir tabor bir pulemyot bölüyü ilə Saleh-Obada, bir tabor isə bir pulemyot bölüyü, kəşfiyyatçılar komandası, təlim komandası və alayın qərargahı ilə birlikdə Maqsudkənddə yerləşməli idi. Saleh-Obada yerləşən taborun bir bölüyü Xaçmaz və Nizovaya limanına göndərilməli idi. Alaya Seydəlidən Saleh-Obaya qədər olan ərazini qorumaq tapşırılırdı. Alay Samur çayı boyunca qoyulmuş süvari kəşfiyyatçılarla da daimi əlaqə saxlamalı idi. Düşmənin hücumuna hazır olmaq üçün iki taborun döyüş mövqeləri əvvəlcədən müəyyənləşdirilməli, bir tabor isə ehtiyatda saxlanılmalı idi.

Süvarilər. Onun tərkibi 4 bölük və 8 pulemyota malik olan 1-ci Tatar süvari alayından, 4 bölük və 4 pulemyota malik olan 3-ci Şəki süvari alayından, dağ-süvari batareyasından və 4 dağ topundan ibarət idi. Süvarilərin bir divizionu 4 pulemyotla birgə Firqətkənd, Yalama stansiyası, Şirvan qəsəbəsi, Qalayi-Suvar dağı, Zeyxur, Yuxarı Xəzri və Zuxul istiqamətində, 6 süvari bölüyü isə 8 pulemyot və 4 topla Qusarda dayanmalı idi. Süvari divizionuna Firqətkənddən başlayaraq Zuxula qədər Samur çayının sağ sahilini qorumaq tapşırılmışdı.

Artilleriya. 1-ci topçu briqadasının 4 yüngül topa malik olan 1-ci batareyası Ləcətdə, 1-ci topçu briqadasının 4 yüngül topa malik olan 2-ci batareyası Muruqda, 2-ci topçu briqadasının 4 dağ topuna malik olan 4-cü dağ batareyası isə Saleh-Obada dayanmalı idilər. Topçulara tapşırıldı ki, toplar üçün mövqelər seçilsin, həmin mövqelər təchiz edilsin, onların arasında əlaqə qursunlar. Topçular 4-cü Quba alayı komandirinin sərəncamına verilmişdi. 2-ci zirehli qatar Xudat stansiyasında dayanmalı idi. Düşmənin hücum edəcəyi təqdirdə zirehli qatar irəli hərəkət etməli, Bakı ilə dəmir yolu əlaqəsinin kəsilməsinə və Şollar su kəmərinin xarab edilməsinə yol verməməli idi. Dəstənin tərkibində olan istehkam komandası mövqelərin təchiz edilməsini davam etdirməli və bunun üçün yerli işçi qüvvəsini də cəlb etməli idi. Sərhəd mühafizə qüvvələri isə davamlı olaraq dənizin müşahidəsini aparmalı idi (510).

Lakin elə 1919-cu ilin dekabrında Könüllü ordunun fəallığı zəifləmək üzrə idi. Ona görə də T.Novruzov belə qərara gəldi ki, daimi döyüş mövqelərində olan qüvvələrin sayını azaltsın. Yəni

onun əmrinə əsasən Samur çayının sağ sahili boyunca kəşfiyyat aparan iki süvari bölüyündən biri bu vəzifədən azad edilsin. Onun fikrincə, yaranmış vəziyyətdə artıq bir bölük də bu vəzifənin öhdəsindən gələ bilərdi. Vəziyyətin sakitləşməsi bütün hissə və bölmələrdə döyüş hazırlığına diqqətin gücləndirilməsinə imkan verdi. Xüsusilə taktiki hazırlığa diqqət gücləndirildi. Eyni zamanda, T.Novruzov Baş Ərkani-hərb rəisinə yazdığı raportunda Qusarda iki süvari alayının yerləşməsinin orada xeyli sıxlıq yaratdığını bildirir və 3-cü Şəki süvari alayının Qubaya köçürülməsinə icazə istəyirdi (511).

T.Novruzovun bu təklifi qəbul edildi. Tezliklə Şəki süvari alayı Qubaya göndərildi. 1919-cu il dekabrın 31-də isə Quba dəstəsi bütünlükdə ləğv edildi (512) və onun tərkibinə daxil olan hissələr əvvəlki dislokasiya yerinə qaytarıldı.

Bununla əlaqədar Quba dəstəsinin rəisi general-mayor T.Novruzova xüsusi bir təlimat verildi. Həmin təlimata görə bölgədə qarşı tərəfinin kəşfiyyatının aparılması davam etdirilməli idi. Səy göstərilməli idi ki, qarşı tərəfin vəziyyəti və planları haqqında ətraflı məlumat toplanılsın. Birbaşa təhlükənin azaldığı üçün hissə və bölmələr ilk xətdən geri çağırılmalı və sərhəd xəttinin mühafizəsi 1-ci Tatar süvari alayının bir bölüyü ilə sərhəd mühafizəsi dəstəsinə tapşırılmalı idi. 1-ci Tatar süvari alayının digər bölmələri isə bu alayın Qusardakı mənzil-qərargahına göndərilməli idi. Eyni zamanda, 3-cü Şəki alayı Gəncədəki, 4-cü Quba piyada alayı Qusardakı mənzil-qərargahlarına aparılmalı idi. Quba piyada alayının bir bölüyü bir pulemyotla Xaçmazda saxlanılmalı idi. Quba dəstəsinin ləğv edilməsindən sonra T.Novruzov süvari diviziyasının qərargahı ilə birlikdə bir müddət Qusarda qalmalı və Qusar qarnizonunun rəisi vəzifəsini də öz üzərinə götürməli idi. General Novruzov, eyni zamanda, sərhəd bölgəsinin müşahidəsini aparmalı və hərbi təcavüz baş verə biləcəyi halda o, yenidən bölgədə olan bütün hərbi qüvvələrə rəhbərliyi həyata keçirməli və onları sərhədin müdafiəsinə səfərbər etməli idi. Sərhəd bölgəsində qurulmuş müdafiə sistemi və dənizin Qızılburuna qədər olan sahilinin müşahidəsi də general Novruzovun nəzarəti altında olmalı idi (513).

Könüllü ordunun şimal sərhədləri yaxınlığında son fəallaşması zamanı ölkənin şimalında olduğu kimi Bakının ətrafında da müdafiə işlərinin gücləndirilməsi davam edirdi. Əslində, şimal sərhədlərinin qorunması ilə Bakı ətrafının möhkəmləndirilməsi bir kompleks şəklində nəzərdə tutulurdu. Bununla bağlı Hərbi nazir noyabr ayının ortalarında Bakı istehkamat hissəsinin o vaxtkı rəisi general-mayor H.Səlimovdan tələb etdi ki, Bakı ətrafının müdafiə vəziyyətinə gətirilməsi üçün bütün tədbirləri həyata keçirsin. Qızılburun və Xəzri mövqelərinin möhkəmləndirilməsinə xüsusi fikir verilməli idi. Eyni zamanda, Hərbi Nazirliyin rəhbərliyi Xəzər dənizinin müşahidəsinin təşkil edilməsini vacib sayırdı. Xəzər dənizinin şimal sahili Quba dəstəsi tərəfindən müşahidə edilirdi. Lakin tələb olunurdu ki, şimaldan İran sərhədinə qədər Xəzər dənizinin Azərbaycan hissəsinin sahili müşahidə edilsin (514).

Xəzərin müşahidəsinin icrası istiqamətində tezliklə Abşeron yarmadasının sahilinin müşahidəsi təşkil edildi. Bu müşahidənin təşkili 2-ci topçu briqadasının 3-cü yüngül batareyasının komandiri kapitan B.Nəbibəyova tapşırılmışdı. Müşahidə və sahilin qorunması, əsasən, Şüvəlan–Türkan xətti üzrə aparılmalı idi. Kapitan Nəbibəyov onun tabeliyində olan dəstə üzvləri ilə müşahidələr aparandan sonra belə qərara gəlmişdi ki, düşmən desantının qarşısının alınması üçün müşahidə-müdafiə qüvvələrinin mərkəzinin Qalada seçilməsi daha məqsədəuyğundur. Onun qənaəti belə idi ki, yarmadanın şimalında düşmənin desant atması ehtimalı çox azdır. Dənizin bu hissəsinin dayazlığı düşmən gəmilərinin sahilə yan almasını mümkünsüz edirdi. Qalada yerləşməklə isə düşmənin desant çıxarmaq imkanı olan sahil hissəsini atəş və müşahidə altına almaq mümkün idi. İşlərin daha yaxşı qurulması üçün kapitan Nəbibəyov 4 pulemyotla birlikdə bir piyada bölüyünü Zirəyə, bir taqımı Dübəndiyə, bir taqımı Şüvəlana yerləşdirmişdi. Qalan qüvvələr isə Qalada cəmləşdirilmişdi (515).

Hərbi Nazirliyin rəhbərliyi təhlükənin reallaşacağı və səfərbərliyin elan ediləcəyi təqdirdə Bakı istehkamat hissəsinin tərkibini gücləndirməyi planlaşdırırdı. Nəzərdə tulmuşdu ki, belə vəziyyətdə bir piyada alayı Bakının müdafiəsinə cəlb edilsin. Vəziyyətin fövqəladə şəkildə çətinləşəcəyi təqdirdə isə Bakı qar-

nizonundan bir alay da bu iş üçün vəzifələndirilə bilərdi. O da bildirilirdi ki, qarnizonun bütün hissələri yaxın vaxtlarda ştat sayına çatdırılacaq. Onun üçün məsləhət bilinirdi ki, Bakının müdafiə rayonu sektorlara bölünsün, hər sektora məsul olan şəxslər müəyyənləşdirilsin və onlara vəzifələri aydınlaşdırılsın (516).

Bakının müdafiəsinin istehkam-müdafiə işlərinin tamamlanmasına da diqqət artırıldı. Bu məsələ 1920-ci ilin əvvəllərində, yanvar ayının 12-də və fevral ayının 25-də iki dəfə Dövlət Müdafiə Komitəsində müzakirə edildi və hər iki müzakirədən sonra istehkam işlərinin tamamlanması üçün Hərbi Nazirliyin sərəncamına böyük həcmdə maliyyə vəsaitinin ayrılması qərara alındı (517).

Bakı şəhəri üzərinə təcavüz reallaşdıqda və həyəcan siqnalı alındıqda şəhərdəki qüvvələrin yerləşdirilməsi başa çatdırılmış və onların qarşısında dayanan vəzifələr müəyyənləşdirilmişdi. Bakı istehkamat hissəsinin əmrinə əsasən həyəcan siqnalı verilən kimi "Rüstəm" zirehli avtomobili hərbi məktəbin həyətində, "Zorab" zirehli avtomobili isə Bakı istehkamat hissəsi qərargahının həyətində döyüş mövqeyi tutmalı idi. "Astrabad" və "Pirallahı" hərbi gəmiləri hərəkətə hazır vəziyyətə gətirilməli və lazım olardısa, verilən tapşırıqların icrasına yollanmalı idilər. Şıx və Zığ burunları arasında əlaqələrin yaradılması üçün ticarət limanının rəisi tərəfindən 2 ədəd barkas ayrılmalı idi. Şəhərdə və onun ətrafında yerləşən topçu hissə və bölmələri güclü mühafizə altına alınmalı idi. 2-ci topçu briqadasının 1-ci yüngül batareyasının mühafizəsi 6-cı Göyçay piyada alayına, dağ-süvari batareyasının mühafizəsi isə 2-ci piyada diviziyası pulemyot məktəbinin bir taqımına tapşırılmışdı. Həyəcan siqnalının verilməsi ilə hər bir alay və batareya Bakı istehkamat hissəsinin qərargahına bir çapar göndərməli idi. Bundan başqa, qarovula göndərilən əsgərlərin patronlarının sayının 120-yə çatdırılması və 7 günlük ərzaq ehtiyatının tədarük edilməsi lazım bilinirdi (518).

Həyəcan siqnalı alınan kimi Bakı qarnizonunun hissələri aşağıdakı mövqeləri tutmalı idilər:

1. 6-cı Göyçay piyada alayı həyəcan siqnalını eşidən kimi tam döyüş hazırlığı vəziyyəti almalı və 2-ci diviziya komandirinin *(o həm də Bakı istehkamat hissəsinin rəisi idi – M.S.)* əmrini göz-

ləməli idi;

2. Hərbi məktəb 2 ədəd pulemyot və "Rüstəm" zirehli avtomobili ilə tam döyüş hazırlığı vəziyyətində məktəbin binasında gözləməli idi;

3. İstehkam məktəbinin yarım bölüyü hökumət binasının mühafizəsini, yarım bölüyü isə şəhər bağında dayanaraq Hərbi Nazirliyin mühafizəsini təmin etməl idi;

4. "Perley" zirehli avtomobili hökumət binası qarşısında dayanmalı idi. Bu rayonun mühafizə rəisi İstehkam məktəbinin rəisi polkovnik Bekov təyin edilmişdi;

5. Parlamentin mühafizə dəstəsi həm Parlament binasının və ətrafının mühafizəsini təmin etməli, həm də qarnizon haupvaxtının mühafizəsini gücləndirməli idi. Bu sahənin rəisi polkovnik Əliyev təyin edilmişdi;

6. 2-ci topçu briqadasının birinci yüngül batareyası Bayılda müəyyənləşdirilmiş mövqelərdə yerləşməli idi. Bayıl rayonunun mühafizə rəisi polkovnik Sultanov təyin edilmişdi;

7. Dağ-süvari batareyası təyin edilmiş məntəqəyə çıxmalı idi. Həmin məntəqənin rəisi podpolkovnik Dunin–Mansenkeviç təyin edilmişdi;

8. Mövqe batareyası tam döyüş hazırlığı vəziyyətində olmalı və mövqenin sektorlarını nəzarət altında saxlamalı idi;

9. "Astrabad" və "Pirallahı" gəmiləri 20-ci körpüyə yan alıb döyüşə hazır olmalı idi. Hərbi gəmilərə ümumi rəhbərlik “Astrabad”ın kapitanı baş leytenant Kitabçızadəyə tapşırılmışdı;

10. 1 №-li zirehli qatar Bakı və Keşlə stansiyaları arasında daimi hərəkətdə olmalı idi;

11. Anbarların mühafizəsinə əlavə qüvvələr ayrılmalı idi (519).

1920-ci ilin əvvəllərində Qırmızı Ordunun üstün hərbi əməliyyatları Könüllü ordunun vəziyyətini yenidən xeyli ağırlaşdırırdı. Həmin ilin mart ayında denikinçilər ağır zərbə alıb məhv olmaq təhlükəsi ilə qarşılaşdılar. Meydana gələn yeni hərbi şərait Denikinin Azərbaycana qarşı təcavüzünü xeyli zəiflətsə də, başqa bir təhlükə – bolşevizm təhlükəsi Azərbaycana yaxınlaşmaqda idi. Qafqaz bolşevik diyar komitəsinin hələ 1919-cu ilin dekabrında yaydığı müraciətdə deyilirdi ki, Denikinin məhvi Zaqafqaziya

milli hökumətlərinin sonu, fəhlə və kəndli hakimiyyətlərinin təntənəsinin zəmini idi (520).

Mart ayında Azərbaycan hökuməti məğlub olub geri çəkilən Könüllü ordu bölmələrinin Gəncədən keçərək Gürcüstana, oradan da Rusiyaya getməsinə icazə verdi. Yuxarıda qeyd edildiyi kimi, denikinçi piyada bölmələri geri çəkilərkən müəyyən sayda silahı Azərbaycan Ordusuna təhvil verdilər. Azərbaycan hökuməti ümid edirdi ki, Könüllü ordunun rəhbərliyi Xəzər hərbi donanmasının gəmilərini də Azərbaycana təhvil verəcəkdir. Bu, Azərbaycanın hərbi potensialını, onun yaxınlaşmaqda olan bolşevizmə qarşı müqavimət gücünü xeyli artıra bilərdi. Lakin denikinçilər hərbi gəmiləri Azərbaycana təhvil vermədilər və bütün gəmilər İranın Ənzəli şəhərinə apardılar (521).

Respublikanın müdafiə qüdrətini imtahana çəkən ən ciddi sınaq Ermənistan qoşunlarının və silahlı dəstələrinin Qarabağda başladığı irimiqyaslı hücum idi. Ordunun əsas qüvvələrinin burada toplanılması və aprel çevrilişinə qarşı onların ağır döyüşlərdən ayrılmaması şimal sərhədlərinin olduqca zəifləməsinə gətirib çıxardı. Bolşevik qüvvələri isə şimal sərhədlərində elə bir qruplaşma yaratmışdılar ki, onun Azərbaycana hücumunun qarşısının alınması heç bir reallığa uyğun deyildi.

Bununla belə, şimal sərhəd xəttinin möhkəmləndirilməsi üçün mümkün olan tədbirlərin həyata keçirilməsinə cəhd göstərilirdi. Burada topçu bölmələri də yerləşdirilmişdi. Lakin topların tam işləkliyinə nail olmaq üçün bir sıra komplektləşdirici hissələrə ehtiyac var idi. Aprel ayının 15-də bununla bağlı Hərbi Nazirliyə məlumat göndərildi. Elə həmin gün də Quba piyada alayıın komandiri vəzifəsini icra edən polkovnik Tumanov həmin alayın 2 bölüyü ilə Xaçmaza yola düşməsi barədə mərkəzə məlumat göndərdi. Aprelin 17-də göndərdiyi başqa bir raportunda polkovnik Tumanov Xaçmaza çatdığını, onun tabeliyində olan piyadalardan başqa 3-cü zirehli qatarın da Xaçmaza gəldiyini bildirirdi. Onun raportuna əsasən Yalamada 70 nəfərdən ibarət dəmir yolu mühafizə dəstəsi dayanırdı. 5-ci dağ batareyasının da yaxın zamanlarda Xaçmaza gələcəyi gözlənilirdi. Polkovnik Tumanov, eyni zamanda, şəxsən sərhəd xəttinə getmiş və aydınlaşdırmışdı ki, bolşevik

qüvvələri hələ ki, Azərbaycanın sərhəd xəttini keçməyiblər. Burada müdafiəni az-çox gücləndirmək üçün polkovnik Tumanov 2-ci yüngül batareyanın toplarını Ləcət yaxınlığında yerləşdirdi. Bu toplar həm Samur çayı üzərindən keçən körpünü, həm də dəmir yolu xəttini hədəfə götürməli idilər (522).

1920-ci il aprel ayının 25-nə aid olan bir məlumata görə 4-cü Quba alayının polkovniki knyaz Tumanovun rəhbərliyi altında 4 piyada bölüyü, dağ batareyası və bir zirehli qatardan ibarət qüvvə var idi. Piyada bölüklərindən biri Yalamada, biri Şirvanda, 2 bölük və bir batareya isə Xudatda dayanırdı. Zirehli qatarla dəstənin qərargahı da Xaçmazda yerləşdirilmişdi. Konkret tarixi şəraitdə şimal sərhədinin qorunmasına bu dəstə məsuliyyət daşıyırdı. Qarabağdan 1-ci Tatar süvari alayının da şimala göndərilməsi mümkün sayıldı. Amma bolşevik qüvvələrinin Azərbaycana etdiyi təcavüzünə qarşı polkovnik Tumanovun dəstəsi tək müqavimət göstərməli oldu (523).

Bundan əlavə, polkovnik Tumanovun dəstəsi bir sıra çətinliklərlə də üzləşmişdi. Bu da kiçik dəstənin bütünlüklə xidmətə səfərbər olmasına müəyyən çətinliklər yaradırdı. Məsələn, dəstənin təchizatçısı yox idi. Ona görə bölmələrin şəxsi heyəti təchizat məsələləri ilə məşğul olmaq məcuriyyətində qalırdı. Bu məsələnin həlli üçün Hərbi Nazirlik qarşısında dəstəyə bir nəfər təchizatçının verilməsi barəsində məsələ qaldırılmışdı.

Dəstənin döyüş təchizatının təmin edilməsi məsələsində də müəyyən çətinlik mövcud idi. Bu çətinliyin həll edilməsi üçün Hərbi nazir S.Mehmandarovun əmri ilə Xaçmazda müvəqqəti sursat anbarı təsis edildi. Bu anbar bir piyada taboru, bir süvari alayı, bir dağ batareyası və bir zirehli qatar üçün nəzərdə tutulmuşdu. Azərbaycan Ordusunun mənzil müfəttişi (general-kvartirmeyster) ordunun təchizat rəisinə göndərdiyi məktubda bildirirdi ki, Xaçmazda sursat anbarının təsis edilməsi Hərbi nazirin xüsusi nəzarəti altındadır və onun icrası dərhal öz həllini tapmalıdır (524).

1920-ci il aprel ayının 26-da, yəni bolşevik qoşunlarının Azərbaycana təcavüzünün başlanmasından cəmi bir gün əvvəl ordunun mənzil müfəttişi S.Mehmandarovun göstərişi əsasında Ləki topçu anbarının rəisindən tələb etdi ki, polkovnik Tumanovun dəstəsinin

təchiz edilməsi üçün təcili şəkildə iki vaqonla Xaçmaza aşağıdakı sursat göndərilsin:

– 3 xətli tüfənglər üçün patron – 1500000 ədəd;
– 3 xətli tüfənglər üçün patron – 80000 ədəd;
– 3 düyməli dağ mərmiləri (1909-cu il) – 250 ədəd;
– 3 düyməli şrapnelli mərmi (1904-cü il) – 200 ədəd;
– Lebel tüfəngləri üçün patron – 50 000 ədəd;
– Lyuis pulemyotu üçün patron – 60 000 ədəd.

Bunlardan başqa, dəstənin ehtiyacının ödənməsi üçün 7 ədəd telefon aparatı və 30 verst kabel lazım idi. Dəstənin tibbi xidmətinin yaxşılaşdırılması üçün də məsələ qaldırılmışdı (525).

Alınan kəşfiyyat məlumatları isə ondan xəbər verirdi ki, Petrovsk ilə Samur çayı arasında boşevik qüvvələri günü-gündən artmaqdadır və onlar istənilən vaxt sərhədə hücum edə bilərlər (526).

Azərbaycanın daxilində silahlı bolşevik dəstələrinin yaradılması və onların respublika hökumətinə qarşı silahlı üsyana hazırlaşması da Qırmızı Ordu hissələrinin sürətli hücumuna kömək etdi.

Mövcud olan məlumatlara görə aprelin 27-də hökumətin iclasında bolşevik qüvvələrin sərhədi keçmək xəbəri müzakirə edilərkən respublikanın müdafiə imkanları barədə sorğuya Hərbi nazir S.Mehmandarov bildirmişdi ki, Ermənistan silahlı qüvvələrinə müqavimət göstərmək imkanımız olsa da, bolşevik qüvvələrinin hücumunun qarşısını saxlamaq mümkün deyildir (527).

S.Mehmandarov bu fikrini şimal sərhədlərində XI Qırmızı Ordunun say tərkibi ilə müqayisədə Azərbaycan qoşunlarının həddən artıq az olması ilə bağlı söyləmişdi. Hərbi Nazirliyin rəhbərliyi Dağıstan ərazisində toplaşan bolşevik qüvvələrinin potensialı barədə məlumat əldə etmişdi və heç şübhəsiz ki, təcrübəli hərbçilər kimi S.Mehmandarov da, onun ətrafındakılar da hərbi qarşıdurmanın heç də Azərbaycanın xeyrinə olmayacağını yaxşı görürdülər.

Bolşevik qüvvələrinin Azərbaycana hücumunun qarşısının alınması üçün Qarabağdan qoşun hissələrinin şimal sərhədinə atılması ilə bağlı hökumət daxilində bəzi fikirlər də mövcud olmuşdur. Ancaq 1920-ci il aprelin 16-da F.Xoyski bildirirdi ki, Qarabağdan qoşunları heç bir vəchlə çıxarmaq olmaz, çünki bu, erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarına qarşı təca-

vüzkarlığının yenidən alovlanmasına gətirib çıxara bilərdi (528).

1920-ci il aprelin 27-də bolşevik qüvvələrinin Azərbaycan sərhədlərini pozması xəbəri alınan kimi Hərbi nazir S.Mehmandarov 1-ci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinskiyə teleqram göndərib şimal sərhədinin müdafiəsinə hərbi qüvvə ayırması barədə əmr verdi: "Bolşeviklər Yalama stansiyasına hücum etdilər. Onlar dayanmadan irəliləyirdilər. Xudatı ələ keçiriblər. Çıxılmaz vəziyyətdəyik. Günü bu gün Qızılburuna Qazaxdan bir tabor və Gəncədən bir tabor göndərməyinizi əmr edirəm. Hər bir taborda ən azı 500 süngü və pulemyot olmalıdır. Yük qatarını artıq göndərmişik. Həmin hissələrin gəlməsi vaxtını teleqrafla bildirin. Biz taborları sabaha gözləyirik" (529).

S.Mehmandarov bu əmri ilə də şimalın müdafiəsi üçün köməyi Qarabağdan deyil, Gəncə və Qazaxdan göndərməyi əmr edirdi. Vəziyyətin reallıqla qiymətləndirilməsi göstərir ki, Qarabağda olan qüvvələrin şimala gətirilməsi ilə də çox böyük zərbə qüvvəsinə malik olan XI Ordunun qarşısını almaq asan olmazdı. Yuxarıda erməni qüvvələri ilə gərgin döyüşlərdən sonra Qarabağdakı qoşun hissələrinin say tərkibi göstərilmişdi. Erməni millətçi qüvvələrinə qarşı aparılan gərgin mübarizə Azərbaycan Ordusuna xeyli canlı və maddi itkilər yetirmişdi. Respublikanın ərazi bütövlüyünün qorunması üçün hətta şimal sərhədlərinin müdafiəsində dayanan hissələr də Qarabağa aparılmışdı. Bütünlükdə, 1920-ci ilin aprelində Azərbaycanda mövcud olan hərbi şərait sürətlə cənuba doğru irəliləyən sovet qüvvələrinin işğalçılıq niyyətlərindən qorunmaq üçün respublikanın xeyrinə deyildi. Bolşeviklər də bundan dərhal istifadə etdilər. İşğalçı qüvvələrin əsas zərbə qüvvəsini təşkil edən zirehli qatarların Bakıya girməsi, şəhərin giriş-çıxış nöqtələrinin tutulması Azərbaycanın müstəqilliyinə son qoydu. Aprelin 28-də respublika hökuməti, Hərbi Nazirliyin rəhbərliyi istefa verdi. Hakimiyyət bolşeviklərin əlinə keçdi.

Bununla da Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun mövcudluğuna son qoyuldu.

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Гусейнов А.А., Синицин В.М. Сражающаяся Мугань. Баку, 1979, с.18
2. Əlizadə N. Lənkəran qəzası zəhmətkeşlərinin Sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən. Bakı, 1963, s.52
3. Yenə orada, s.53
4. Yenə orada
5. «Азербайджан», 21.11.1918
6. Привольный А.А. Над Муганью зарево Октября. Баку, 1967, с.72
7. Əlizadə N. … s. 58–59
8. Yenə orada, s.59
9. Yenə orada, s.59–60
10. Привольный А.А. … с.83
11. Əlizadə N. … s.64
12. Гусейнов А.А., Синицин В.М. … с.38
13. Əlizadə N. … s.66
14. Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957, с.226
15. Əlizadə N. … s.67
16. История Азербайджана. Баку, 1963, с.191
17. Yenə orada, s.192
18. Yenə orada
19. Əlizadə N. … s.73
20. Талахадзе И.И. Советская власть на Мугани. См: Алый стяг над Закавказьем. Баку, 1980, с.82–90
21. Əlizadə N. … s.71; История Азербайджана… с.192
22. Əlizadə N. … s.72
23. Гусейов А.А., Синицин В.М. … с.69
24. История Азербайджана … с.192
25. Əlizadə N. … s.75
26. Талахадзе И.И. … с.87
27. «Азербайджан», 19.07.1919

28. Талахадзе И.И. … с.87
29. «Азербайджан», 20.07.1919
30. Əlizadə N. … s.76
31. «Азербайджан», 19.07.1919
32. Yenə orada
33. Yenə orada, 24.07.1919
34. Yenə orada, 30.07.1919
35. Yenə orada
36. Yenə orada
37. Yenə orada
38. Əlizadə N. … s.75
39. «Азербайджан», 13.08.1919
40. Yenə orada
41. Yenə orada, 16.08.1919
42. Yenə orada, 16.08.1919
43. Yenə orada, 22.08.1919
44. «Азербайджан», 16.08.1919
45. Yenə orada, 22.08.1919
46. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (MDA), fond 2898, siyahı 1, iş 5, vərəq 6
47. Yenə orada
48. Yenə orada, v.5
49. Yenə orada, v.7
50. Yenə orada, v.2
51. MDA, f.2894, siy.1, iş 2, v.11
52. Yenə orada
53. MDA, f.2898, siy.1, iş 12, v.1
54. MDA, f.2898, siy.1, iş 2, v.9
55. MDA, f.2898, siy.1, iş 12, v.3
56. MDA, f.2898, siy.2, iş 47, v.7
57. MDA, f.2898, siy.2, iş 47, v.7
58. «Азербайджан», 17.08.1919
59. MDA, f.2898, siy.2, iş 47, v.2
60. Yenə orada, v.2
61. Yenə orada
62. Yenə orada, v.5

63. «Азербайджан», 23.08.1919
64. Yenə orada, 24.08.1919
65. MDA, f.2898, siy.2, iş 47, v.11
66. MDA, f.2898, siy.1, iş 12, v.10
67. MDA, f.2898, siy.2, iş 22, v.258
68. MDA, f.2898, siy.1, iş 12, v.110
69. Yenə orada
70. Yenə orada, v.12
71. Yenə orada, v.13
72. MDA, f.2898, siy.2, iş 47, v.6
73. MDA, f.2898, siy.2, iş 12, v.15
74. Yenə orada, v.16
75. Yenə orada, v.14
76. Yenə orada, v.9,10
77. MDA, f.2898, siy.2, iş 47, v.7, 8
78. Yenə orada, v.9
79. MDA, f.2898, siy.2, iş 12, v.17
80. Yenə orada, v.22
81. Yenə orada, v.24
82. MDA, f.2898, siy.2, iş 47, v.11
83. Yenə orada, v.11
84. Yenə orada
85. Yenə orada, v.13
86. Yenə orada, v.14
87. MDA, f.2898, siy.2, iş 12, v.32
88. MDA, f.2898, siy.2, iş 22, v.299
89. Yenə orada
90. MDA, f.2898, siy.2, iş 47, v.67
91. MDA, f.2898, siy.2, iş 22, v.371
92. Yenə orada, v.379
93. «Азербайджан», 17.09.1919
94. MDA, f.2894, siy.1, iş 5, v.143
95. MDA, f.970, siy.1, iş 171, v.1
96. Yenə orada
97. Yenə orada
98. Золян Сурен. Нагорный Карабах: проблема и конфликт.

http://armenianhouse.org/zolyan/nf-ru/karabakh/2.html
99. Нагорный Карабах в международном праве и мировой политике. Т. II, комментарий к документам. Автор Ю.Барсегов. Москва, 2009, с.73
100. Озанян Андроник Торосович.
http:www.armenians.netencyclopediaviewarticle102 ...
101. Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX-начале XX века. Баку, 1994, с.130
102. Доклад члена Азербайджанской Чрезвычайной Следственной Комиссии Михайлова по обследованию им мусульманских селений Джеванширского, Шушинского, Джебраильского и Зангезурского уездов Ганджинской губернии, пострадавших от погромов и других насилственных действий со стороны армян. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, fond 970, siyahı 10, iş 161, v.1-9;
http: karabakh-doc.azerall.inforuarxdocad004.htm
103. Доклад члена Азербайджанской Чрезвычайной Следственной Комиссии Михайлова по обследованию им мусульманских селений Джеванширского, Шушинского, Джебраильского и Зангезурского уездов Ганджинской губернии...; Məmmədova H. Azərbaycan xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət, erməni terrorizminin güclənməsi (1918–1920). Bakı, 2006, s. 36–40
104. Доклад Ганджинского губернатора 1919 г. Господину министру внутренных дел. MDA, f.894, siy.10, iş 104, v.1–3.
http:karabakh-doc.azerall.inforuartdocad004.htm
105. Нагорный Карабах в международном праве и мировой политике. Т. II, ... Автор Ю.Барсегов. Москва, 2009, с. 73
106. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Bakı, 2009, s. 196–197
107. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917–1921). Bakı, 1994, s.106

108. MDA, f.970, siy.1, iş 163, v.25
109. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti.... s.198
110. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti.... s.197
111. Азербайджанская Демократическая Республика (1918–1920). Парламент. Баку, 1998, с.61–62
112. Yenə orada, s.62–63
113. Yenə orada, s.64
114. Yenə orada
115. Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008, с. 249
116. Нагорный Карабах в международном праве и мировой политике. Т. II, комментарий к документам. Автор Ю.Барсегов. Москва, 2009, с. 65
117. Yenə orada, s.76
118. Азербайджанская Демократическая Республика (1918–1920). Внешняя политика. Баку, 1998, с. 152–156
119. Məmmədova H. Yuxarı Qarabağda müvəqqəti general-qubernatorluğun yaradılması və erməni separatizminin ləğv edilməsi, s. 411. Bax: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.411–441
120. Yenə orada, s.412–413
121. Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008, с. 250
122. Золян Сурен. Нагорный Карабах: проблема и конфликт. http: armenianhouse.org/zolyan/nf-ru/karabakh/2.html
123. Yenə orada
124. Məmmədova H. Azərbaycan xalq Cümhuriyyəti dövründə yuxarı Qarabağda siyasi vəziyyət və erməni terrorizminin güclənməsi (1918-1920). Bakı, 2006, s.68–69
125. MDA, f.970, siy.1, iş 152, v.3

126. Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008, с. 248–251
127. Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XXI вв.). Баку, 2002, с.108–110
128. Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008, с.82
129.Yenə orada, cild II, s.249
130. Yenə orada, cild I, s.252
131. Siyasi Sənədlər arxivi (SSA), f.277, siy.2, iş 43, v.2
132. Yenə orada, f.276, siy.9, iş 4, v.13
133. SSA, f.276, siy.9, iş 4, v.13; Məmmədova H. Azərbaycan xalq Cümhuriyyəti dövründə... s.69
134. Məmmədova H. Azərbaycan xalq Cümhuriyyəti dövründə ... s.70–72
135. Yenə orada, s.75–76
136. Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008, с.262
137. SSA, f.276, siy.9, iş 4, v.15
138. Арцахцы.
http:forum:vardanak.orglofiversionindex.phpt11160.html
139. SSA, f.276, siy.9, iş 4, v.15
140. Yenə orada
141. Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008, с.265
142. Yenə orada, s.254
143. Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX-начале XX века. Баку, 1994, с.150
144. SSA, f.276, siy.9, iş 15, v.11–13
145. SSA, f.276, siy.9, iş 18, v.17; Нагорный Карабах в международном праве и мировой политике. Т. I, документы и комментарий. Москва, 2008, с. 269

146. Нагорный Карабах в международном праве и мировой политике. Т. I, Документы и комментарий. Москва, 2008, с.267
147. SSA, f.276, siy.9, iş 18, v.26; Нагорный Карабах в международном праве и мировой политике. Т. I, документы и комментарий. Москва, 2008, с. 268
148. Нагорный Карабах в международном праве и мировой политике. Т. I, Документы и комментарий. Москва, 2008, с.271
149. Yenə orada
150. SSA, f.276, siy.2, iş 43, v.11
151. Yenə orada
152. SSA, f.276, siy.9, iş 40, v.7
153. Yenə orada, v.8
154. Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008, с.296
155. SSA, f.276, siy.9, iş 25, v.2
156. SSA, f.276, siy.9, iş 25, v.3; Нагорный Карабах в международном праве и мировой политике. Т. I, документы и комментарий. Москва, 2008, с.295
157. Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008, с.296
158. Yenə orada, s.319
159. SSA, f.276, siy.9, iş 4, v.36; Нагорный Карабах в международном праве и мировой политике. Т. I, Документы и комментарий. Москва, 2008, с.290
160. SSA, f.276, siy.9, iş 4, v.34; Нагорный Карабах в международном праве и мировой политике. Т. I, Документы и комментарий. Москва, 2008, с.279
161. SSA, f.276, siy.9, iş 4, v.34; Нагорный Карабах в международном праве и мировой политике. Т. I, Документы и комментарий. Москва, 2008, с.279
162. Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008, с.280
163. Yenə orada, s.284
164. "Азербайджан", 22.11.1919

165. SSA, f.276, siy.9, iş 4, v.30
166. "Азербайджан", 22.11.1919
167. MDA, f.894, siy.7, iş 8, v.79
168. Yenə orada, v.74
169. Yenə orada, v.75
170. Musayev İ.M. … s.125
171. MDA, f.2894, siy.1, iş 26, v.18
172. Нагорный Карабах в международном праве и мировой политике. Т. I, Документы и комментарий. Москва, 2008, с.293, 294, 297, 298, 303
173. SSA, f.276, siy.9, iş 1, v.11
174. Нагорный Карабах в международном праве и мировой политике. Т. I, Документы и комментарий. Москва, 2008, с.308–309
175. Yenə orada, s.303
176. Yenə orada, s.308–309
177. Нагорный Карабах в международном праве и мировой политике. Т. I, Документы и комментарий. Москва, 2008, с. 302–303; SSA, f.276, siy.9, iş 1, v.14
178. Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008, с.300, 318
179. Yenə orada, s.316
180. Yenə orada, s.319–320
181. Азербайджанская Демократическая Республика (1918–1920). Парламент. Баку, 1998, с.495
182. "Азербайджан", 16.07.1919
183. MDA, f.970, siy.1, iş 163, v.10
184. Yenə orada, v.13
185. Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008, с.331
186. MDA, f.970, siy.1, iş 163, v.14
187. "Азербайджан", 16.07.1919
188. MDA, f.970, siy.1, iş 163, v.15

189. Yenə orada
190. "Азербайджан", 16.08.1919
191. MDA, f.970, siy.1, iş 163, v.18
192. Yenə orada, v.10
193. Yenə orada, v.11
194. "Азербайджан", 16.07.1919
195. Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008, с.300, 347; Азербайджанская Демократическая Республика (1918–1920). Парламент. Баку, 1998, с.498–499
196. SSA, f.277, siy. 2, iş 41, v.30
197. MDA, f.970, siy.1, iş 163, v.18
198. MDA, f.970, siy.1, iş 171, v.2
199. Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX-начале XX века. Баку, 1994, с.150–151
200. "Азербайджан", 16.07.1919
201. MDA, f.970, siy.1, iş 171, v.9
202. Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008, с.349
203.Yenə orada, s.354–355
204. Yenə orada, s.355–356
205. Yenə orada, s.350–351
206. Yenə orada, s.363–364
207. MDA, f.2898, siy.1, iş 6, v.6
208. Нагорный Карабах в международном праве и мировой политике. Т. I, Документы и комментарий. Москва, 2008, с.366–367
209. Yenə orada, s.359
210. Yenə orada, s.360–361
211. "Азербайджан", 30.09.1919
212. SSA, f.1, siy.1, iş 69a, v.17
213. MDA, f.970, siy. 1, iş 213, v.1
214. SSA, f.277, siy.2, iş 40, v.55

215. “Азербайджан”, 30.09.1919
216. SSA, f.277, siy.2, iş 40, v.79
217. MDA, f.970, siy.1, iş 213, v.7
218. SSA, f.277, siy.2, iş 40, v.79
219. Yenə orada, v. 57
220. Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX-начале XX века. Баку, 1994, с.161-162
221. SSA, f.277, siy.2, iş 40, v.79
222. Yenə orada, v.53
223. MDA, f.2898, siy.1, iş 6, v.30
224. “Азербайджан”, 26.10.1919
225. SSA, f.1, siy.1, iş 69a, v.18–19
226. Yenə orada, v.20
227. “Азербайджан”, 06.11.1919
228. MDA, f.2898, siy.1, iş 6, v.31
229. MDA, f.2898, siy.1, iş 6, v.31
230. Yenə orada
231. MDA, f.2898, siy.1, iş 6, v.17
232. Yenə orada
233. Yenə orada, v.18
234. Yenə orada, v.19
235. Yenə orada, v.18–19
236. Yenə orada, v.20
237. Yenə orada, v.21
238. SSA, f.1, siy.1, iş 69a, v.29
239. Yenə orada, v.30
240. SSA, f.1, siy.1, iş 69a, v.30–31; MDA, f.2898, siy.1, iş 6, v.23
241. SSA, f.1, siy.1, iş 69a, v.31
242. Yenə orada
243. SSA, f.1, siy.1, iş 69a, v.32; MDA, f.2898, siy.1, iş 6, v.23
244. MDA, f.2898, siy.1, iş 6, v.25–26
245. MDA, f.2898, siy.1, iş 69a, v.32

246. MDA, f.2898, siy.1, iş 6, v.27
247. Yenə orada, v.108
248. Yenə orada
249. Yenə orada
250. Yenə orada, v.109
251. Yenə orada
252. Yenə orada
253. Yenə orada, v.110
254. Yenə orada, v.111
255. Yenə orada, v.110
256. Yenə orada, v.111
257. Yenə orada
258. Yenə orada
259. Yenə orada, v.110
260. Yenə orada, v.28-29
261. Yenə orada, v.31
262. Yenə orada, v. 33
263. Yenə orada
264. MDA. f.2898, siy.2, iş 12a, v.47
265. Yenə orada, v.166
266. SSA, f.277, siy.2, iş 40, v.79
267. Yenə orada, v.166
268. MDA, f.970, siy.1, iş 187, v.9
269. MDA, f.2898, siy.1, iş 8, v.19
270. SSA, f.277, siy.2, iş 40, v.90
271. MDA, f.970, siy.1, iş 190, v.9
272. MDA, f.970, siy.1, iş 200, v.3–5
273. Азербайджанская Демократическая Республика (1918–1920). Внешняя политика. Баку, 1998, с.451–452
274.Yenə orada, s.453
275. Yenə orada
276. Yenə orada
277. Musayev İ.M. ... s.220
278. Yenə orada

279. MDA, f.970, siy.1, iş 171, v.21, 25
280. Yenə orada, v.26
281. MDA, f.970, siy.1, iş 113, v.1
282. Азербайджанская Демократическая Республика (1918–1920). Внешняя политика. Баку, 1998, с.514–515
283. MDA, f.970, siy.1, iş 113, v.1
284. Yenə orada, v.4
285. MDA, f.2898, siy.1, iş 6, v.43
286. MDA, f.970, siy.1, iş 113, v.50
287. Yenə orada, v.14
288. MDA, f.894, siy.2, iş 41, v.91
289. MDA, f.970, siy.1, iş 113, v.28
290. Yenə orada, v.46
291. Yenə orada, v.17
292. Yenə orada, v.19
293. Yenə orada, v.24
294. MDA, f.2898, siy.1, iş 6, v.46
295. Yenə orada, v.4
296. Yenə orada, v.55
297. Yenə orada, v.47
298. MDA, f.970, siy.1, iş 113, v.32
299. MDA, f.2898, siy.1, iş 6, v.48
300. MDA, f.970, siy.1, iş 113, v.32
301. Yenə orada
302. Yenə orada, v.59
303. MDA, f.2898, siy.1, iş 6, v.66
304. Yenə orada
305. SSA, f.277, siy.2, iş 68, v.18
306. Yenə orada
307. MDA, f.2970, siy.1, iş 113, v.53
308. Yenə orada, v.59
309. Азербайджанская Демократическая Республика (1918–1920). Внешняя политика. Баку, 1998, с.394
310. MDA, f.2970, siy.1, iş 113, v.68

311. Наджафов Б. ... с.228
312. SSA, Kopiya fondu, iş 409, v.1–15
313. Нагорный Карабах в международном праве и мировой политике. Т. I, Документы и комментарий. Москва, 2008, с.335, 356, 363, 372
314. Имранлы К. Создание армянского государства на Кавказе. Москва, 2006, с.127
315. Yenə orada
316. Нагорный Карабах в международном праве и мировой политике. Т. I, Документы и комментарий. Москва, 2008, с.403
317.Yenə orada, s.389–390
318. Yenə orada, s.410
319. MDA, f.970, siy.1, iş 113, v.93
320. MDA, f.2901, siy.1, iş 4, v.57
321. MDA, f.970, siy.1, iş 113, v.81
322. «Азербайджан», 18.01.1920
323. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.261
324. MDA, f.970, siy.1, iş 113, v.98
325. Нагорный Карабах в международном праве и мировой политике. Т. I, Документы и комментарий. Москва, 2008, с.395, 396, 397, 402
326. Yenə orada, s.418
327. Yenə orada, s.393
328. Yenə orada, s.394
329. Yenə orada, s.396
330. Абрамян Г. Шуша, 23 марта 1920 года. www.qolosarmenii.amru19962world2416
331. Нагорный Карабах в международном праве и мировой политике. Т. II, Документы и комментарий. Москва, 2008, с. 115
332. Кавказский календарь на 1917 год. Тифлис, 1916, с.190–196; Арсен Мелик-Шахназарян. Нагорный Карабах. Факты против лжи.

www.sumqait.info/caucasus-conflicts/nagorno-karabakh-facts/nagorno-karabakh-facts-2.htm;
Обсуждение: Шуша. Предложение обобщить данные о предлегаемых источниках.
http:ru.wikipedia.orgwiki%Do%9E%D%B1....
333. Абрамян Г. Шуша, 23 марта 1920 года.
www.qolosarmenii.amru19962world2416
334. Richard Hovannisian. The Republic of Armenia, Vol. III. From London to Sevres, February-August 1920,p.152. Bax: Обсуждение: Шуша. Предложение обобщить данные о предлегаемых источниках. http/ru.wikipedia.org/wiki…
335. Нагорный Карабах в международном праве и мировой политике. Т. I, ... . с.411
336. В распоряжении Музей Геноцида армян оказались свидетельства армянских погромов в Шуше.
www.analitika.at.uanews...2010-03-25-23696; Vahram Atanasian: 20000 armenians died in Shushi massagres of 1920.
www.nkusa.orgnewslettermontly_newsletter2002march_aprilpage4.html;
Абрамян Грант. Шуша, 23 марта 1920.
www.analitika.at.uanews...2010-03-24-23683; Золян Сурен. Нагорный Карабах: проблема и конфликт. www.armenianhouse.org /zolyan /nf-ru /karabakh/preface.html
Нагорном Карабахе осудили погромы 1910 года в Шуше. http:pda.regnum.runews611517.html
337. Арсен Мелик-Шахназарян. Нагорный Карабах. Факты противлжи.
www.sumqait.info/caucasus-conflicts/nagorno-karabakh-facts/nagorno-karabakh-facts-2.htm
338. Обсуждение: Шуша. Предложение обобщить данные о предлегаемых источниках.
339. Заре Мелик-Шахназаров. Записки Карабахского солдата. http:sumgait.info/caucasus-conflicts/karabakh-soldier-notes/karabakh-soldier-notes-9.htm

340. Рассказ Мешади Абушбека Новрузова, очевидца четырех армяно-азербайджанских столкновений в городе Шуша. Diplomatiya aləmi, 2005, №11, aprel-iyun, s.110
341. Заре Мелик-Шахназаров. Записки Карабахского солдата. http:sumgait.info/caucasus-conflicts/karabakh-soldier-notes/karabakh-soldier-notes-9.htm
342. Yenə orada
343. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.265
344. Рассказ Мешади Абушбека Новрузова, очевидца четырех армяно-азербайджанских столкновений в городе Шуша. Diplomatiya aləmi, 2005, №11, aprel-iyun, s.110
345. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с. 269
346. MDA, f.970, siy.1, iş 113, v.65
347. Yenə orada, v.98
348. SSA, f.277, siy.2, iş 86, v.1–2
349. MDA, f.2901, siy.1, iş 7, v.10
350. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.267
351. Yenə orada, s.278
352. MDA, f.2901, siy.1, iş 3, v.71; Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.286
353. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.285
354. Yenə orada, s. 279
355. Yenə orada, s.299
356. MDA, f.2901, siy.1, iş 2, v.68
357. MDA, f.2901, siy.1, iş 4, v.73
358. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.300
359. Yenə orada, s.301
360. Yenə orada, s.306
361. Yenə orada, s.306

362. Yenə orada
363. Yenə orada, s.307
364. Yenə orada, s.308
365. MDA, f.2894, siy.2, iş 5, v.55
366. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.319
367. MDA, f.2901, siy.1, iş 10, v.54
368. MDA, f.2901, siy.1, iş 4, v.28
369. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.273
370. Заре Мелик-Шахназаров. Записки Карабахского солдата. http:sumgait.info/caucasus-conflicts/karabakh-soldier-notes/karabakh-soldier-notes-10.htm
371. MDA, f.2894, siy.2, iş 5, v.5
372. MDA, f.2901, siy.1, iş 8, v.48
373. MDA, f.2901, siy.1, iş 8, v.58
374. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.271
375. Yenə orada
376. MDA, f.2894, siy.2, iş 5, v.4
377. Yenə orada, v.6
378. Yenə orada
379. Yenə orada, v.8
380. Yenə orada
381. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.290
382. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.297
383. Yenə orada, s.298
384. Yenə orada, s.299
385. SSA, f.277, siy.2, iş 76, v.21
386. Yenə orada, v.3
387. MDA, f.2896, siy.1, iş 4, v.50, 53
390. MDA, f.2901, siy.1, ş 4, v.5,84

391. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.275
392. MDA, f.2894, siy.2, iş 5, v.10
393. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.282
394. Yenə orada, s.282, 285
395. Yenə orada, s.283
396. MDA, f.2894, siy.2, iş 5, v.18
397. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.286
398. MDA, f.2894, siy.2, iş 5, v.17
399. Yenə orada, v.8
400. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.290
401. Yenə orada, s. 297
402. Yenə orada, s.298
403. MDA, f.2901, siy.1, iş 4, v.72
404. MDA, f.2896, siy.1, iş 4, v.62
405. Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998, с.263
406. Yenə orada, s.282
407. MDA, f.2894, siy.2, iş 5, v.44
408. MDA, f.2894, siy.2, iş 5, v.51
409. Yenə orada
410. Yenə orada. v.52–53
411. Yenə orada, v.58
412. Yenə orada. v.59
413. Yenə orada, v.60
414. Yenə orada, v.62
415. Yenə orada, v.63
416. Yenə orada, v.66
417. Yenə orada, v.69
418. Yenə orada, v.65
419. Yenə orada, v.72

420. Yenə orada, v.75, 80
421. Гулиев Дж. Борьба Коммунистической Партии за осществление Ленинской национальной политики в Азербайджане. Баку, 1970, с.152
422. SSA, f.276, siy.7, iş 283, v.1
423. MDA, f.970, siy.1, iş 163, v.30
424. Yenə orada
425. «Азербайджан», 22.01.1919
426. Yenə orada
427. Yenə orada
428. Революция и гражданская война в описаниях белогвардейцев. М., 1981, с.101
429. Yenə orada, s.102
430. MDA, f.970, siy.1, iş 163, v.30
431. SSA, f.276, siy.3, iş 199, v.3
432. Каземзаде Ф. Борьба за Закавказье (1917–1921). См: «Литературный Азербайджан», № 3–4, 1993. с.123
433. Гусейнов И. Борьба трудящихся азербайджана против Деникишины в 1919–1920 гг. Bax: Azərbaycan tarixinə dair məqalələr məcmuəsi. 2-ci buraxılış. Bakı, 1949, s.249
434. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928, с.26–27
435. Yenə orada, s.28
436. MDA, f.2898, siy.1, iş 3, v.1
437. Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, 1997
438. Революция и гражданская война в описаниях белогвардейцев. М., 1981, с.102
439. Каземзаде Ф. … с.121
440. Yenə orada
441. Yenə orada
442. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918–1920. Bakı, 1993, s.216
443. MDA, f.970, siy.1, iş 166, v.4

444. Yenə orada, v.6, 8
445. MDA, f.2901, siy.1, iş 6, v.19
446. Hərbi Bilik, № 3, 1997, s.72
447. MDA, f.970, siy.1, iş 166, v.19–22.
448. MDA, f.970, siy.1, iş 166, v.22
449.Yenə orada
450. Həsənov C. … s.217
451. MDA, f.970, siy.1, iş 48, v.46–48
452. "Азербайджан", 13.06.1919
453. Yenə orada
454. Yenə orada, 15.06.1919
455. Yenə orada
456. Гусейнов И. … с.248
457. MDA, f.2898, siy.2, iş 23, v.1
458. Yenə orada
459. Yenə orada
460. Yenə orada, v.2
461. Yenə orada
462. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990, s.20
463. MDA, f.2898, siy.1, iş 13, v.3
464. Yenə orada
465. Yenə orada
466. Yenə orada
467. Yenə orada, v.4
468. Yenə orada
469. SSA, f.277, siy.2, iş 92, v.377
470. Yenə orada, v.378
471. MDA, f.2898, siy.1, iş 13, v.18
472. SSA, f.277, siy.2, iş 92, v.379
473. MDA, f.2898, siy.1, iş 13, v.18
474. Yenə orada, v.10
475. MDA, f.2898, siy.1, iş 11, v.89–93
476. Yenə orada, v.94

477. Yenə orada, v.94–95
478. MDA, f.2898, siy.1, iş 6, v.8
479. Yenə orada
480. Yenə orada, v.8–9
481. Yenə orada, v.114
482. Yenə orada, v.70
483. Yenə orada
484. Yenə orada, v.71
485. Yenə orada, v.2
486. Yenə orada, v.20
487. MDA, f.2898, siy.1, iş 13, v.16
488. MDA, f.2898, siy.1, iş 6, v.26
489. MDA, f.2898, siy.1, iş 13, v.27
490. MDA, f.2898, siy.1, iş 13, v.31, 39
491. Yenə orada, v.65
492. Yenə orada, v.61–62
493. Yenə orada
494. Yenə orada, v.54
495. Yenə orada, v.46
496. MDA, f.378, siy.1, iş 1106, v.1
497. MDA, f.2898, siy.1, iş 6, v.99
498. Yenə orada, v.112
499. Yenə orada, v.113
500.MDA, f.2898, siy.2, iş 25, v.11
501. Караев А. Из недавного прошлого. Баку, 1926, с.56
502. MDA, f.2894, siy.1, iş 19, v.8
503. MDA, f.970, siy.1, iş 196, v.3
504. Yenə orada, v.4
505. MDA, f.2898, siy.1, iş 8 v.19
506. Yenə orada, v.20
507. MDA, f.2901, siy.1, iş 6, v.50
508. MDA, f.2898, siy.1, iş 11, v.149
509. Yenə orada, v.157
510. Yenə orada, v.215

511. Yenə orada, v.211
512. Yenə orada. v.229,
513. MDA, f.2901, siy. 1, iş 2, v.53
514. MDA, f.2898, siy.1, iş 13, v.50, 56
515. Yenə orada, v.57
516. Yenə orada
517. MDA, f.2898, siy.1, iş 17, v.4, 25
518. MDA, f.2898, siy.1, iş 6, v.69
519. Yenə orada
520. История Азербайджана… с.211
521. İsmayılov Rəşid bəy. Azərbaycan tarixi. Bakı, 1993, v.116
522. MDA, f.2894, siy.2, iş 5, v.58, 60, 67
523. MDA, f.2896, siy.1, iş 7, v.284
524. MDA, f.2896, siy.1, iş 7, v.284
525. MDA, f.2896, siy.1, iş 7, v.284
526. MDA, f.970, siy.1, iş 1122, v.11
527. Nəzirli Ş. Tam artilleriya generalı Səməd bəy Mehmandarov. Bakı, 1997, s.38
528. Наджафов Б. … с.277
529. Nəzirli Ş. … .s.111–112

## NƏTİCƏ

Cümhuriyyət ordusu müstəqilliyini əldə etmiş hər bir ölkə kimi Azərbaycan Xalq Cümhuriyyətinin də mühüm dövlət atributlarından biri idi və onun təşkili müstəqil dövlət quruculuğunun tərkib hissəsi kimi həyata keçirilirdi. Xüsusilə 1918-ci ilin sonlarından, türk hərbi qüvvələri Azərbaycanı tərk edəndən sonra bu prosesə daha ciddi diqqət yetirilirdi. Çünki yaranmış konkret tarixi şəraitdə Azərbaycanın ərazi bütövlüyünün və dövlət müstəqilliyinin qorunması bütünlüklə Azərbaycan Xalq Cümhuriyyəti ordusunun üzərinə düşməli idi. Buna görə də qarşıya qoyulan vəzifənin həyata keçirilməsi üçün istər Azərbaycan hökuməti tərəfindən, istərsə də yenidən bərpa edilmiş Hərbi Nazirliyin rəhbərliyi tərəfindən tarixi işlər görüldü. Araşdırmalardan əldə edilən qənaətlər də bunu sübut edir.

Hər şeydən əvvəl tədqiqatlar belə bir nəticəyə gəlməyə əsas verir ki, 1918-ci ilin sonunda Azərbaycan mürəkkəb tarixi şəraitdə qərar tutmuşdu. Siyasi və iqtisadi problemlər ölkənin vəziyyətini daha da çətinləşdirirdi. Xarici dövlətlərin müdaxiləsi isə müstəqilliyin özünü sual qarşısında qoymuşdu. Dövlətin siyasi rəhbərliyi və eləcə də hökumətin strukturuna daxil olan Hərbi Nazirliyin rəhbərliyi tarixi şəraiti tam aydınlığı ilə qiymətləndirir, başa düşür və fəaliyyətlərini də dövrün tələblərinə uyğun olaraq Azərbaycan xalqının milli maraqları istiqamətində qurmağa çalışırdılar. Hökumətlə Hərbi Nazirliyin rəhbərliyi arasında prinsipial anlaşmanın olması, onların qarşılıqlı fəaliyyətində məhz milli mənafelərə istinad edilməsi bütün çətinliklərə baxmayaraq, ordu quruculuğu sahəsində müsbət strateji mühit yaradırdı. Həmin mühitdən işgüzarlıqla istifadə edilməsi isə ordunun formalaşmasını sürətləndirir, onun praktiki fəaliyyəti üçün zəruri zəmin yaradırdı.

Cümhuriyyət ordusu quruculuğunun ikinci mərhələsində hərbi strukturların yenidən qurulması və möhkəmləndirilməsi sahəsində aparılan işlərin öyrənilməsi göstərir ki, müstəqil və güclü ordunun qurulması bu prosesin tamamilə Cümhuriyyət hökumətinin nəzarəti altına alınmasından sonra mümkün oldu. Bu ordunun qurulması Azərbaycan hökumətinin fəaliyyətinin tərkib his-

səsinə çevrildi və bu prosesin icrasına rəhbərlik edəcək Hərbi Nazirlik yenidən bərpa edildi. Azərbaycan hökuməti isə qeyd edildiyi kimi, ordu quruculuğu prosesində sadəcə seyrçi və ya nəzarətçi mövqeyində dayanmırdı. Əksinə, lazımi döyüş keyfiyyətlərinə malik olacaq ordunun Azərbaycan dövlətçiliyinin qorunmasındakı rolunu reallıqla qiymətləndirə bildiyi üçün hökumət bu prosesin fəal iştirakçısı idi. İlk vaxtlar hökumətin sədri F.Xoyskinin Hərbi nazir vəzifəsini öz üzərinə götürməsi də ordu quruculuğuna hökumətin ciddi diqqət yetirməsindən irəli gəlirdi.

Ordu quruculuğunun strategiyası da Cümhuriyyət hökuməti tərəfindən müəyyənləşdirilmişdi. Həmin strategiyaya uyğun olaraq Cümhuriyyət ordusu hər hansı bir təcavüzkar məqsəd üçün deyil, yalnız ölkənin ərazi bütövlüyünü, dövlət müstəqilliyini qorumaq üçün yaradılırdı. Ordunun siyasətə qarışması qanundankənar hesab edilirdi və bu prinsip elə indi də özünü doğrultmaqdadır. Ordu quruculuğunun hüquqi bazasının yaradılması, Hərbi Nazirliklə digər hökumət orqanları arasında işgüzar əlaqələrin bərqərar edilməsi də bu prosesin uğurla davam etdirilməsinin zəmininə çevrilirdi. Dövlət Müdafiə Komitəsinin yaradılması və hökumət sədrinin ona rəhbərlik etməsi isə müdafiə işləri sahəsində ölkə miqyasında həyata keçirilən işlərin nizamlanması baxımından əhəmiyyətli bir qərar idi.

Yeni ordu quruculuğuna rəhbərlik edəcək çevik və əsaslandırılmış sistemin zəruriliyi Cümhuriyyət hökuməti tərəfindən qəbul edilirdi. Bu sistemin bəndlərinin biri digərini təkrarlamırdı və ya biri digərinə maneçilik yaratmırdı. Əksinə, onların biri digərini tamamlaması və hökumətin rəhbəredici mövqeyi ordu quruculuğunun ardıcıllığını əsaslandırırdı.

Cümhuriyyət ordusu tarixinin öyrənilməsi bir daha göstərdi ki, zəruri maddi-texniki bazanın yaradılması ordu quruculuğunun uğurunun mühüm şərtidir. Maddi-texniki bazanın yaradılması sadəcə məişət ehtiyaclarının ödənməsi kimi dəyərləndirilməməlidir. Qoşun hissələrinin döyüş hazırlığının əldə edilməsi, ordunun döyüş taktikasının inkişaf etdirilməsi mövcud olan maddi-texniki baza ilə birbaşa bağlı idi. Bir cəhəti qeyd etmək lazımdır ki, Cümhuriyyət ordusunun sayının artırılması da ordunun maddi-texniki

bazasına uyğun olaraq aparılırdı. Yəni böyük və güclü orduya ehtiyac olmasına baxmayaraq, kəmiyyət məsələsinə ifrat yanaşılmırdı. Orduya o sayda çağırışçı cəlb olunurdu ki, onların maddi-texniki baza ilə təmin edilməsi və bununla da onların ahəngdar döyüş hazırlığının aparılması mümkün olsun. Ona görə də ordunun maddi-texniki bazasının yaradılmasının hökumətin rəhbərliyi altında aparılması da qoşun hissələrinin formalaşdırılması baxımından düzgün istiqamət idi. Ölkə iqtisadiyyatının çox böyük göstəricilərə malik olmadığı bir vaxtda ordunun bütün ehtiyaclarının tam şəkildə ödənilməsi imkanı olmasa da, dövlət büdcəsinin prioritet sahələrinin düzgün müəyyənləşdirilməsi, mövcud imkanlardan daha səmərəli istifadə edilməsi ordu quruculuğunun ahəngdar inkişafına zəmin yaratdı. Məsələn, 1919-cu ildə qoşun hissələrinin təşkilinin yüksələn xətlə davam etməsi yalnız zəruri maddi ehtiyatların mövcudluğu ilə şərtlənə bilərdi. Təchizat məsələləri ilə bağlı ölkə daxilindəki sənaye müəssisələrindən istifadə edilməklə bərabər xarici ölkələrlə də əlaqələr yaradıldı.

Mövzunun öyrənilməsi bir daha sübut edir ki, ordu quruculuğunun gedişi ümumdövlət quruculuğunun gedişindən birbaşa asılıdır. Ordunu cəmiyyətdən, ordu quruculuğunu isə ümumdövlət quruculuğundan ayırmaq arzuedilməyən nəticələrə gətirib çıxara bilər. Dövlət quruculuğunda mövcud olan çətinliklər və ya yol verilən nöqsanlar da ordu quruculuğuna təsirsiz ötüşə bilməz. Bu baxımdan problemin öyrənilməsi onu da göstərdi ki, hökumətin fəaliyyətində ortaya çıxan çətinliklər, xüsusən də 1920-ci ilin ilk aylarında baş verən siyasi böhranlar dövlət quruculuğunun bütün sahələrində olduğu kimi ordu quruculuğuna da mənfi təsir göstərdi. Yəni ordu quruculuğunun sabit xətt üzrə aparılması hökumətin sabit fəaliyyət göstərə bilməsi ilə birbaşa bağlıdır. Bunların içərisində bolşevizmə qarşı kəskin mübarizənin təşkil edilməməsinin, hökumət orqanlarında siyasi yekdilliyin olmamasının qoşun hissələrinin mənəvi-ideoloji ovqatına mənfi təsir götərməsini qeyd etmək olar.

Cümhuriyyət ordusunun tarixi təcrübəsi, eyni zamanda, bu prosesdə şəxsiyyətlərin böyük rolunu da təsdiqləyir. Elə mövzunun araşdırılması da göstərdi ki, ordu quruculuğunun uğurlu aparılması

bu prosesdə vahid idarəçiliyin yaradılmasını, çoxsaylı insanların iradəsinin düzgün istiqamətləndirilməsini, sərt intizamı, geniş təcrübəni və təşəbbüskarlığı tələb edir. Belə keyfiyyətlərə malik olan zabitlər olmadan ordu quruculuğunu ardıcıl bir xətt üzərinə istiqamətləndirmək də çox çətin olardı. Bunu Cümhuriyyət ordusunda xidmət edən təcrübəli zabitlərin dəyərli fəaliyyəti də sübut edirdi. Hər şeydən əvvəl Hərbi Nazirliyin rəhbərliyinə təcrübəli generallar olan S.Mehmandarov və Ə.Şıxlinskinin gətirilməsi, bu insanların savadı, təşkilatçılıq qabiliyyəti, tapşırılan vəzifəyə sadiqliyi, ordu quruculuğundakı inkişaf meyillərini duya bilmələri, hökumətin ordu quruculuğu sahəsində tutmuş olduğu siyasəti düzgün izləmələri, intizamlılığa və şüurlu təşəbbüskarlığa yer vermələri Cümhuriyyət ordusunun ardıcıl inkişafını şərtləndirirdi. Adları çəkilən generalların, habelə Cümhuriyyət ordusunun digər generallarının şəxsində nəzəriyyə ilə təcrübə, tələbkarlıqla qayğıkeşlik, təşkilatçılıqla təşəbbüskarlıq üzvi şəkildə birləşdirildi. Başlıcası isə bütün bu keyfiyyətlər ümummilli maraqlarla vəhdət təşkil etdi ki, bu da ordu quruculuğu üçün mühüm əhəmiyyətə malik idi.

Cümhuriyyət ordusu quruculuğu tarixinin öyrənilməsi belə bir qənaəti də təsdiqləyir ki, bu prosesin uğurla aparılmasının əsas səbəblərindən biri onun milli dəyərlər üzərində qurulmasıdır. Orduda Azərbaycan dilinin, milli geyim layihələrinin, milli rəmzlərin tətbiq edilməsi, milli məişətin əsas götürülməsi xalqla ordu arasında bir vəhdət yaradırdı. Bunun nəticəsi idi ki, Cümhuriyyət ordusu quruculuğu xalqın böyük əksəriyyəti tərəfindən rəğbətlə qarşılanırdı. Bu baxımdan çağırışa münasibətdə əhali arasında getdikcə daha güclü dönüş yarandı, orduda xidmətə münasibət müsbətə doğru dəyişdi. Bir sıra orqanların qanunsuz hərəkətləri, imkanlı adamların rüşvət verərək övladlarını xidmətdən azad etmələri, qoşun hssələrindən fərarilik faktları mövcud olsa da, bu istiqamətdə müsbət meyillər üstünlük təşkil etdi. Bu müsbət meyillərin üstünlük təşkil etməsinin bir səbəbi də ondan irəli gəlirdi ki, mənfi hallara qarşı Hərbi Nazirliklə, digər orqanlar, xüsusilə Daxili İşlər Nazirliyi arasında fəaliyyət birliyi yaradıldı. Yəni ordu quruculuğunun milli dəyərlər üzərində

aparılması öz sürəti və təsir dairəsi baxımından digər meyilləri üstələdi. Bu cəhət bütün çətinliyinə baxmayaraq, orduya qarşı ümumxalq rəğbətinin yaranmasına yol açdı.

Cümhuriyyət ordusu quruculuğu tarixinin öyrənilməsi onu da təsdiqlədi ki, milli kadrlar olmadan etibarlı milli ordu qurmaq mümkün deyil. Bunun üçün də milli kadrlar hazırlayan məktəblər şəbəkəsinin yaradılması Cümhuriyyət ordusu quruculuğunun əsas istiqamətlərindən birini təşkil etdi. Bu məsələ həm Hərbi Nazirliyin, həm də hökumətin fəaliyyətində strateji sahələrdən birini təşkil edirdi. Mövcud çətinliklərə baxmayaraq, hərbi təhsil müəssisələrinin açılması barədə irəli sürülən təkliflər həm hökumət, həm də Parlament tərəfindən işgüzarlıqla qarşılanır və onların fəaliyyətinin təşkili üçün zəruri qərarlar qəbul edilirdi. Nəticədə, 1920-ci ilin aprel çevrilişinə qədər hazırlanmış milli kadrlar kəmiyyət etibarilə mövcud olan qoşun hissələrinin canlandırılması və formalaşdırılması üçün qənaətbəxş idi. Baxmayaraq ki, ilk vaxtlar orduda qeyri-azərbaycanlı zabitlərirn sayı çox idi. Hərbi Nazirliyin rəhbərliyi bu nisbəti dəyişdirmək üçün məqsədyönlü siyasət yeridərək azərbaycanlı zabitlərin üstün nisbətinə nail ola bildi.

Zabit kadrlarının sayının artması isə təlim-tərbiyənin, qoşun hissələrinin döyüş hazırlığının məzmununa və keyfiyyətinə müsbət təsir göstərməsi üçün mühüm şərtdir. Bu istiqamətdə səmərəliliyə nail olunması üçün Cümhuriyyət ordusunda təlim-tərbiyənin mərhələli şəkildə qurulması, əsgərlərin savad səviyyəsinin nəzərə alınması müsbət təcrübə kimi qiymətləndirilməlidir. Yəni diqqət yalnız kəmiyyət göstəricilərinə yönəldilməmişdi. Cümhuriyyət ordusunun döyüş fəaliyyəti də göstərdi ki, keyfiyyət məsələlərinə diqqət yetirmədən ümumdövlət vəzifələrini yerinə yetirməyə qadir olan silahlı qüvvələri yaratmaq mümkün deyil. Cümhuriyyət ordusunda bu sahədə həm tarixi təcrübə, həm də son illərin irəli sürdüyü tələblər yaradıcı şəkildə əlaqələndirilirdi.

Bütün bunların nəticəsi idi ki, qoşun hissələri ölkənin ərazi bütövlüyünün qorunmasında səmərəli fəaliyyət göstərməyə nail oldular. Hər şeydən əvvəl ölkənin ərazi bütövlüyünün qorunması üçün müdafiə işinin düzgün sistemi yaradıldı. Hərbi şəraitin

düzgün dəyərləndirilməsi ilə lazım olan istiqamətdə qüvvə üstünlüyünün yaradılması, dövlətin imkanlarının müdafiə işinin təşkilinə səfərbər edilməsi diqqət mərkəzində saxlanılırdı. Ərazi bütövlüyünün qorunması bütün xalqın haqq işinə çevrilmişdi, qoşun hissələrində mübariz əhval-ruhiyyə formalaşdırılması və onların idarə edilməsi məqsədyönlü şəkildə istiqamətləndirilirdi. Məhz bu amillərin nəzərə alınması Cümhuriyyət ordusunun döyüş qüdrətini xeyli artırdı. Lənkəran bölgəsində, Qarabağda aparılan döyüşlər, Denikin təhlükəsinə qarşı şimal sərhədi boyunca və Bakı ətrafında aparılan müdafiə işləri də Cümhuriyyət ordusunun kifayət qədər döyüş qüdrətinə malik olduğunu sübut etdi. Bunun nəticəsi idi ki, 1920-ci ilin mart-aprel aylarında Qarabağ bölgəsindəki irimiqyaslı təcavüz Cümhuriyyət ordusunun gücü, onun zabitlərinin və rəhbərlərinin təşkilatçılığı ilə yatırıldı.

1920-ci ilin aprelində bolşevik təcavüzünün qarşısının alınmaması isə Cümhuriyyət ordusu quruculuğunun tarixi əhəmiyyətini şübhə altında qoymamalıdır. Burada bir neçə məqama diqqət yetirmək lazımdır. Əvvəla, bolşevik təcavüzü kifayət qədər düşünülmüş geniş bir işğalçılıq planının tərkib hissəsi idi və bu təcavüzün Qarabağdakı erməni təcavüzü ilə birbaşa əlaqəsi var idi. Cümhuriyyət ordusu hissələri məqsədyönlü şəkildə Qarabağda ağır döyüşlərə cəlb edildi və burada verilən itkilərin bərpasına macal tapılmamış bolşevik qüvvələri Azərbaycanın içərilərinə doğru təcavüzə başladılar. Digər tərəfdən, hərbin ali qanunu olan qüvvələr nisbəti qanunu nəzərə alınarsa, Cümhuriyyət ordusu Qarabağ döyüşlərinə cəlb edilməsəydi belə sayca ondan dəfələrlə çox olan bolşevik təcavüzünün qarşısının alınması heç də asan olmayacaqdı. Bolşevik ordusu zərbə qüvvəsi üçün əsas şərt olan texniki imkanları baxımından da Cümhuriyyət ordusundan xeyli üstün idi. Cümhuriyyət ordusu quruculuğunda görülən işlərin miqyası, dəyəri, əhəmiyyəti onunla ölçülməlidir ki, təxminən il yarım ərzində çox mürəkkəb tarixi şəraitdə, çox zəif iqtisadi və hərbi baza üzərində kifayət qədər döyüş keyfiyyətlərinə malik olan bir ordu qurulmuşdu və bu ordunun təşkili Azərbaycan Xalq Cümhuriyyətinin mühüm nailiyyətlərindən biri idi. Cümhuriyyət ordusunun yaradılması üçün ən məhdud imkanlardan

maksimum istifadə edilməsi qabiliyyəti, ordunun rəhbərliyinin yüksək təşkilatçılıq bacarığı, əsgər və zabitlərin gücünün bütünlüklə səfərbər edilməsi, şəxsi heyətə göstərilən qayğı və prinsipiallıq, döyüş hazırlığı ilə mənəvi-psixoloji amillərin əlaqələndirilməsi səviyyəsi, zabit heyətinin mənəvi saflığına və işgüzarlığına verilən qiymət metodoloji baxımdan bu gün də öz dəyərini itirməmişdir və bütün dövrlər ərzində Azəbaycanda ordu quruculuğu üçün gərəkli ola bilər.

Ümumən, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun təşkili Azərbaycanın hərb tarixində və bütünlükdə Azərbaycan xalqının tarixində əhəmiyyətli bir hadisə idi. Çünki hər şeydən əvvəl bu ordunun yaradılması ilə Azərbaycanda nizami ordu quruculuğunun əsası qoyuldu və Azərbaycanda silahlı qüvvələr quruculuğu tarixində xarakter etibarilə tamamilə yeni bir səhifə açıldı. Nəzərə alınsa ki, Azərbaycanda müstəqil ordu quruculuğu təcrübəsinə XIX əsrin əvvəllərində son qoyulmuşdu, onda XX əsrin əvvəllərində yenidən reallığa çevrilən Azərbaycan Ordusu quruculuğu hərb işinin yeni mərhələsinin xüsusiyyətlərini, inkişaf etmiş dünya dövlətlərinin hərbi təcrübəsini özündə əks etdirirdi. Bu proses yeni və mütərəqqi dəyərlər üzərində aparılırdı və həmin dəyərlər şərqdə ilk demokratik dövlət quruluşu olan Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu dövründə əldə edilmiş əsas nailiyyətlərdən biri idi.

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

## I. Sənədlər toplusu

1. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990

2. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917–1918 гг. Баку, 1957

3. Борьба за победу Советской власти в Азербайджане. 1918–1920. Баку, 1967

4. Военные моряки в борьбе за власть Советов в Азербайджане и Прикаспии. Баку, 1971

5. Директивы командования фронтов Красной Армии (1918–1920). Москва, 1974

6. Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, 1919

7. Интернациональная помощь XI армии в борьбе за победу советской власти в Азербайджане. Баку, 1989

## II. Arxiv materialları

Siyasi Sənədlər Arxivi (fond, siyahı, iş)

F.5, siy. 1, iş 21
F.5, siy. 1, iş 28
F.5, siy. 1, iş 31
F.5, siy. 1, iş 33
F.5, siy. 1a, iş 4
F.276, siy. 1, iş 75 d
F.276, siy. 2, iş 20
F.276, siy. 2, iş 21
F.276, siy. 2, iş 22
F.276, siy. 2, iş 28
F.276, siy. 2, iş 128
F.276, siy. 2, iş 152
F.276, siy. 3, iş 39

F.276, siy. 3, iş 40
F.276, siy. 3, iş 177
F.276, siy. 3, iş 199
F.276, siy. 3, iş 272
F.276, siy. 7, iş 212
F.276, siy. 7, iş 253
F.276, siy. 7, iş 254
F.276, siy. 7, iş 255
F.276, siy. 7, iş 256
F.276, siy. 7, iş 257
F. 276, siy. 7, iş 258
F.276, siy. 7, iş 283
F.276, siy. 7, iş 284
F.276, siy. 9, iş 1
F.276, siy. 9, iş 4
F.276, siy. 9, iş 28
F.276, siy. 9, iş 65
F.277, siy. 2, iş 13
F.277, siy. 2, iş 14
F.277, siy.2, iş 25
F.277, siy. 2, iş 40
F.277, siy. 2, iş 41
F.277, siy. 2, iş 43
F.277, siy. 2, iş 76
F.277, siy. 2, iş 79
F.277, siy. 2, iş 86
F.277, siy. 2, ş 86
F.277, siy. 2, iş 92
F.303, siy. 1, iş 1
F.303, siy. 1, iş 3
F.303, siy. 1a, iş 2,
F.303, siy. 1a, iş 14
F.303, siy. 1a, iş 18
F.303, siy. 1a, iş 19

Mərkəzi Dövlət Arxivi

F.894, siy. 7, iş 5
F.894, siy. 7, iş 25
F.894, siy. 7, iş 26
F.894, siy. 10, iş 124
F.970, siy. 1, iş 1
F.970, siy. 1, iş 42
F.970, siy. 1, iş 86
F.970, siy. 1, iş 96
F.970, siy. 1, iş 113
F.970, siy. 1, iş 152
F.970, siy. 1, iş 163
F.970, siy. 1, iş 166
F.970, siy. 1, iş 171
F.970, siy. 1, iş 187
F.970, siy. 1, iş 190
F.970, siy. 1, iş 196
F.970, siy. 1, iş 200
F.970, siy. 1, iş 213
F.970, siy. 1, iş 226
F.2894, siy. 1, iş 1
F.2894, siy. 1, iş 2
F.2894, siy. 1, iş 3
F.2894, siy. 1, iş 4
F.2894, siy. 1, iş 5
F.2894, siy. 1, iş 6
F.2894, siy. 1, iş 7
F.2894, siy. 1, iş 8
F.2894, siy. 1, iş 9
F.2894, siy. 1, iş 10
F.2894, siy. 1, iş 12
F.2894, siy. 1, iş 13
F.2894, siy. 1, iş 15

F.2894, siy. 1, iş 17
F.2894, siy. 1, iş 19
F.2894, siy. 1, iş 21
F.2894, siy. 1, iş 23
F.2894, siy. 1, iş 26
F.2894, siy. 1, iş 27
F.2894, siy. 1, iş 32
F.2894, siy. 1, iş 35
F.2894, siy. 1, iş 39
F.2894, siy. 1, iş 40
F.2894, siy. 1, iş 44
F.2894, siy. 1, iş 45
F.2894, siy. 2, iş 1
F.2894, siy. 2, iş 2
F.2894, siy. 2, iş 3
F.2894, siy. 2, iş 4
F.2894, siy. 2, iş 5
F.2894, siy. 2, iş 17
F.2894, siy. 3, iş 2
F.2894, siy. 4, iş 1
F.2894, siy. 4, iş 5
F.2894, siy. 4, iş 6
F.2894, siy. 4, iş 7
F.2898, siy. 1, iş 1
F.2898, siy. 1, iş 2
F.2898, siy. 1, iş 3
F.2898, siy. 1, iş 4
F.2898, siy. 1, iş 5
F.2898, siy. 1, iş 6
F.2898, siy. 1, iş 8
F.2898, siy. 1, iş 12
F.2898, siy. 1, iş 13
F.2898, siy. 1, iş 15
F.2898, siy. 1, iş 16

F.2898, siy. 1, iş 17
F.2898, siy. 1, iş 19
F.2898, siy. 1, iş 19a
F.2898, siy. 1, iş 19b
F.2898, siy. 1, iş 20
F.2898, siy. 1, iş 21
F.2898, siy. 1, iş 22
F.2898, siy. 1, iş 23
F.2898, siy. 1, iş 24
F.2898, siy. 1, iş 25
F.2898, siy. 1, iş 28
F.2898, siy. 1, iş 29
F.2898, siy. 1, iş 30
F.2898, siy. 1, iş 33
F.2898, siy. 2, iş 1
F.2898, siy. 2, iş 3
F.2898, siy. 2, iş 5
F.2898, siy. 2, iş 8
F.2898, siy. 2, iş 10
F.2898, siy. 2, iş 11
F.2898, siy. 2, iş 12
F.2898, siy. 2, iş 12a
F.2898, siy. 2, iş 14
F.2898, siy. 2, iş 16
F.2898, siy. 2, iş 17
F.2898, siy. 2, iş 18
F.2898, siy. 2, iş 20
F.2898, siy. 2, iş 21
F.2898, siy. 2, iş 22
F.2898, siy. 2, iş 23
F.2898, siy. 2, iş 24
F.2898, siy. 2, iş 25
F.2898, siy. 2, iş 33
F.2898, siy. 2, iş 34

F.2898, siy. 2, iş 37
F.2898, siy. 2, iş 38
F.2898, siy. 2, iş 40
F.2898, siy. 2, iş 42
F.2898, siy. 2, iş 44
F.2898, siy. 2, iş 46
F.2898, siy. 2, iş 47
F.2898, siy. 2, iş 49
F.2898, siy. 2, iş 50
F.2898, siy. 2, iş 51
F.2899, siy. 1, iş 3
F.2899, siy. 1, iş 6
F.2918, siy. 1, iş 1
F.2918, siy. 1, iş 2
F.2918, siy. 1, iş 3

## III. Ədəbiyyat

### Azərbaycan dilində


Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920). Parlament, I c., Bakı, 1998

Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920). Parlament, II c., Bakı, 1998

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I, II cildlər. Bakı, 2004

Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992

Əhmədova F. "Qarabağ qiyamı" Azərbaycan Cümhuriyyətini devirmək planının tərkib hissəsi kimi// Qarabağ dünən, bu gün və sabah: IX Ümumrespublika elmi-konfransının materialları. – Bakı, 2010, s. 80–87

Əhmədova F. Qarabağda siyasi vəziyyət və general-qubernatorluğun yaradılması // Qarabağ dünən, bu gün və sabah: VIII Ümumrespublika elmi-konfransının materialları. – Bakı, 2009, s. 64–74

Əlizadə N. Lənkəran qəzası zəhmətkeşlərinin Sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsindən. Bakı, 1963

İsmayılov Rəşid bəy. Azərbaycan tarixi. Bakı, 1993

Hacıbəyli Ü. Fitnələr qarşısında Bakı, 1995

Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918–1920. Bakı, 1993

Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Bakı, 2009

Katibli M.M. Çingiz İldrım. Bakı, 1964

Qasımlı M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. III hissə. B., 2004

Məmmədova H. Azərbaycan xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət və erməni terrorizminin güclənməsi (1918–1920). Bakı, 2006

Məmmədova H. Yuxarı Qarabağda müvəqqəti general-qubernatorluğun yaradılması və erməni separatizminin ləğv edilməsi, s.411. //Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.411–441

Miralay İsrafil bəy. Azərbaycan ordusu haqqında. Bax: Hərbi bilik, 1996, № 4, s.27–34

Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917–1921). Bakı, 1966

Mustafa Budak . Nuru paşanın Kafkas İslam Ordusu hakkında raporu. // Kafkas araşdırmaları, c.4. İstanbul, 1998, s. 104

Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990

Nəzirli Ş. Tam artilleriya generalı Səməd bəy Mehmandarov. Bakı, 1997

Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990

Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı, 1991

Şeyxzamanlı N. İstiqlal mücadiləsi xatirələri. Bakı, 1997

Süleymanov M. Mehmandarov. B., 2000

Süleymanov M. Azərbaycanda ilk milli hərbiyyə məktəbi. 1918, Bakı, 2000

## Rus dilində

Аббасов А.Т. Генерал Мехмандаров. Баку, 1977

Адрес-календарь Азербайджанской Республики. Баку, 1920

Азербайджанская Демократическая Республика (1918–1920). Армия. Баку, 1998

Азербайджанская Демократическая Республика (1918–1920). Парламент. Баку, 1998

Азербайджанская Демократическая Республика (1918–1920). Законодательные акты. Баку, 1988

Азербайджанская Демократическая Республика (1918–1920). Внешняя политика. Баку, 1998

Азербайджанская Республика. Баку, 1998

Гражданская война в СССР. Т.2, М., 1986

Гуковский А. Английская интервенция в Закавказье в 1918–1921 годах. См: «Знамя», № 6–7, 1940, с. 239

Гулиев Дж. Борьба Коммунистической Партии за осуществление Ленинской национальной политики в Азербайджане. Баку, 1970

Гусейнов А.А., Синицин В.М. Сражающаяся Мугань. Баку, 1979

Гусейнов И. Борьба трудящихся азербайджана против Деникишины в 1919–1920 гг. // Azərbaycan tarixinə dair məqalələr məcmuəsi. 2-ci buraxılış. Bakı, 1949 s. 249

Дарабади П. Военные вопросы в курсе истории Азербайджана. Баку, 1993

Дарабади П.Г. О вооруженных силах Азербайджанской Демократической Республики (1918–1920). // Azərbaycan EA xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1991, № 1, s.27–34

Доклад члена Азербайджанской Чрезвычайной Следственной Комиссии Михайлова по обследованию им мусульманских селений Джеванширского, Шушинского, Джебраильского и

Зангезурского уездов Ганджинской губернии, пострадавших от погромов и других насилственных действий со стороны армян. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, fond 970, siyahı 10,iş161, v.1–9; http: karabakh-doc.azerall.inforuarxdocad004.htm

Кавказский календарь на 1917 год. Тифлис, 1916

Каземзаде Ф. Борьба за Закавказье (1917–1921). // «Литературный Азербайджан», № 3–4, 1993. с.123

Караев А. Из недавного прошлого. Баку, 1926

Имранлы К. Создание армянского государства на Кавказе. Москва, 2006

История Азербайджана. Баку, 1963

Нагорный Карабах в международном праве и мировой политике. Т. I , Документы и комментарий. Москва, 2008

Нагорный Карабах в международном праве и мировой политике. Т. II, комментарий к документам. Автор Ю.Барсего в. Москва, 2009

Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX-начале XX века. Баку,1994

Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XXI вв.). Баку, 2002

Привольный А.А. Над Муганью зарево Октября. Баку, 1979

Рассказ Мешади Абушбека Новрузова, очевидца четырех армяно-азербайджанских столкновений в городе Шуша // Diplomatiya aləmi, 2005, № 11, aprel-iyun, s. 110

Революция и гражданская война в описаниях белогвардейцев. М., 1981

Стеклов А. Армия Мусаватского Азербайджана. Б., 1928

Талахадзе И.И. Советская власть на Мугани. // Алый стяг над Закавказьем. Баку, 1980

Токаржевский. Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957

## İnternet materialları


Абрамян Г. Шуша, 23 марта 1920 года.
www.qolosarmenii.amru19962world2416

Арсен Мелик-Шахназарян. Нагорный Карабах. Факты против лжи.
www.sumqait.info/caucasus-conflicts/nagorno-karabakh-facts/nagorno-karabakh-facts-2.htm

Арцахцы.

В распоряжении Музей Геноцида армян оказались свидетельства армянских погромов в Шуше.
www.analitika.at.uanews...2010-03-25-23696

Vahram Atanasian: 20000 armenians died in Shushi massagres of 1920.
www.nkusa.orgnewslettermontly_newsletter2002march_aprilpage4.html

Доклад Ганджинского губернатора 1919 г. Господину министру внутренних дел // MDA, f.894, siy.10, iş 104, v.1–3.
http:karabakh-doc.azerall.inforuartdocad004.htm

Заре Мелик-Шахназаров. Записки Карабахского солдата. http:sumgait.info/caucasus-conflicts/karabakh-soldier-notes/karabakh-soldier-notes-9.htm

Арцахцы.
http:forum:vardanak.orglofiversionindex.phpt11160.html

Золян Сурен. Нагорный Карабах: проблема и конфликт.
http://armenianhouse.org/zolyan/nf-ru/karabakh/2.html

Обсуждение: Шуша. Предложение обобщить данные о предлегаемых источниках.
http:ru.wikipedia.orgwiki%Do%9E%D%B1....

Озанян Андроник Торосович.
http:www.armenians.netencyclopediaviewarticle102

## MÜNDƏRİCAT

**GİRİŞ ............................................................................... 5**

**I FƏSİL**

**ORDU QURUCULUĞUNUN YENİ MƏRHƏLƏSİ ............. 9**

1. Azərbaycan hökumətinin ordu quruculuğu siyasəti ............. 9
2. Ordunun təşkili, quruluşu və idarəetmə orqanları ............... 31

İstifadə olunmuş mənbə və ədəbiyyat ....................................... 102

**II FƏSİL**

**CÜMHURİYYƏT ORDUSUNUN MADDİ-TEXNİKİ TƏMİNATI ........................................................................ 108**

1. Qoşunların mənzil və maliyyə təminatı .............................. 108
2. Qoşunlarda tibb xidmətinin təşkili ...................................... 129
3. Qoşunların ərzaq və əşya təminatı ...................................... 137
4. Qoşunların hərbi-texniki təchizatı ....................................... 164

İstifadə olunmuş mənbə və ədəbiyyat ....................................... 182

**III FƏSİL**

**KADR HAZIRLIĞI ......................................................... 189**

1. Ordunun zabit heyəti ........................................................... 189
2. Zabit kadrlarının hazırlığı .................................................... 223
   a) Hərbiyyə məktəbi ............................................................. 255
   b) Azərbaycan Xalq Cümhuriyyəti ordusunun digər hərbi məktəbləri ........................................................ 267

İstifadə olunmuş mənbə və ədəbiyyat ....................................... 275

**IV FƏSİL**

**ÇAĞIRIŞ VƏ SƏFƏRBƏRLİK İŞİNİN TƏŞKİLİ ............. 280**

1. Çağırış və səfərbərlik işinin hüquqi bazasının yaradılması ................................................................................ 280
2. Fərariliyə qarşı mübarizənin aparılması .............................. 295
3. Çağırış və səfərbərlik işinin təşkili ..................................... 317

İstifadə olunmuş mənbə və ədəbiyyat ....................................... 350

**V FƏSİL**
**QOŞUNLARIN TƏLİM VƏ TƏRBİYƏSİ..............................354**
1. Döyüş hazırlığı.................................................................. 354
2. Şəxsi heyətin mənəvi tərbiyəsi məsələləri ........................... 387
3. Qarnizon və qarovul xidməti............................................... 424
İstifadə olunmuş mənbə və ədəbiyyat...................................... 445

**VI FƏSİL**
**AZƏRBAYCAN ORDUSUNUN DÖYÜŞ FƏALİYYƏTİ...452**
1. Lənkəran əməliyyatı .......................................................... 452
2. Qarabağda təcavüzkar millətçi erməni separatizminin aradan qaldırılması istiqamətində Azərbaycan hökumətinin fəaliyyəti.............................................................. 484
3. Dığ əməliyyatı.................................................................... 542
4. Qarabağ ətrafında təcavüzkarlığın dayandırılması haqqında əldə edilmiş qarşılıqlı razılaşmaların ermənilər tərəfindən pozulması.................................................................. 570
5. Qarabağda erməni təcavüzünün başlanması .......................... 591
6. Qarabağda erməni təcavüzünün yatırılması ......................... 607
    a) Qazax–Ağstafa cəbhəsi.................................................. 607
    b) Cəbrayıl cəbhəsi ........................................................... 613
    c) Tərtər–Ağdərə cəbhəsi................................................... 616
    ç) Ağdam–Əsgəran–Şuşa cəbhəsi....................................... 621
7. Şimaldan gözlənilən təhlükəyə qarşı mübarizə .................. 640
İstifadə olunmuş mənbə və ədəbiyyat...................................... 687

**NƏTİCƏ**.............................................................................. 708
İstifadə olunmuş mənbə və ədəbiyyat...................................... 715

# Qeyd

Üz qabığının tərtibatçısı: Məmmədbağır Hüseynov

**Nəşriyyat direktoru:** İsmayıl Nərimanoğlu

Kitab hazır depozitivlərdən istifadə edilərək
“Maarif” nəşriyyatında çap edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin “Maarif”
Dövlət Tədris Pedaqoji Ədəbiyyatı nəşriyyatı

Çapa imzalanmışdır: 12.11.2018
Kitabın formatı: 60x84 1/16.
Həcm: 46 ç.v.

Ünvan: Mətbuat prospekti, 529-cu məh.